NAXÇIVAN

TARİXİ

05.3.342
N 17

NAXÇIVAN TARİXİ

XVIII ƏSRİN 40-CI İLLƏRİNDƏN XX ƏSRİN 30-CU İLLƏRİNİN SONUNADƏK

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublikası
KİTABXANASI

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri

NAXÇIVAN TARİXİ

Üç cilddə

NAXÇIVAN TARİXİ

İkinci cild

Baş məsləhətçi: **Vasif Talıbov**
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

Redaksiya heyəti: **İ.M.Hacıyev, İ.Ə.Həbibbəyli, F.Y.Səfərli, Q.İ.Qədirzadə, V.B.Baxşəliyev**

Naxçıvan tarixi. Üç cilddə, II cild.- Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2014, 528 səh.

Naxçıvan qədim tarixə və dövlətçilik ənənələrinə malik olan bir diyardır. Üçcildlik "Naxçıvan tarixi"nin II cildi XVIII əsrin ortalarından başlayaraq XX əsrin 30-cu illərinin sonunadək olan iki əsrlik bir dövrü əhatə edir.

Kitabda yeni mənbələr, arxiv sənədləri, tədqiqat əsərləri, dövri mətbuat materialları əsasında Naxçıvan xanlığının əmələ gəlməsi, onun xarici dövlətlər və qonşu xanlıqlarla münasibəti, çar Rusiyasının Naxçıvan xanlığını ilhaq etməsi, Naxçıvanın sosial-iqtisadi, ictimai-siyasi həyatı və mədəniyyət tarixi işıqlandırılmışdır.

Kitabda həmçinin Naxçıvanın çar Rusiyası tərəfindən ilhaqından sonra bölgədə yaranmış sosial-siyasi vəziyyət, kapitalist münasibətlərinin meydana gəlməsi, XX əsrin əvvəllərində ermənilərin törətdiyi soyqırımlar, Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvanla əlaqələri, ərazinin qorunub saxlanılmasında Araz-Türk Cümhuriyyətinin rolu, əhalinin inadlı mübarizəsi nəticəsində Naxçıvanın muxtariyyət statusu əldə etməsi, Naxçıvan MSSR-in təşkili, XX əsrin 20-30-cu illərinin ictimai-siyasi hadisələri tədqiqata cəlb olunmuşdur.

ISBN 978-9952-8237-3-8

4700000000
053-2014

© "Əcəmi" 2014.

"Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

S Ə R Ə N C A M I

Azərbaycanın Naxçıvan Muxtar Respublikası böyük bir tarixi keçmişə malikdir. Aparılmış elmi tədqiqatlar sübut edir ki, Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazi bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuşdur. Bu ərazi antik, orta əsrlər və müasir dövr mədəniyyət nümunələri və tarixi abidələrlə - ilk insanların yaşadığı mağaralar, qədim yaşayış yerləri, qədim şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir.

Muxtar respublika ərazisindəki 2000-ə yaxın tarix və mədəniyyət abidəsi, o cümlədən Paleolit dövrünə aid Ovçular təpəsi və Qazma mağarası kimi ilkin insan məskənləri, eradan əvvəl V-III minilliyin yadigarları olan Əshabi-Kəhf ziyarətgahı və Gəmiqaya daşüstü rəsmləri bu torpağın qədim sakinləri olan Azərbaycan türklərinin həyat tərzini, adət-ənənələrini və dini-ideoloji təsəvvürlərini dövrümüzə qədər gətirib çıxarmışdır.

Muxtar respublikanın yerləşdiyi ərazinin əlverişli coğrafi mövqeyi və təbii sərvətlərlə bolluğu ən qədim dövrdən insanların burada məskunlaşmasına və daş dövrünün özünəməxsus mədəniyyətini yaratmasına səbəb olmuş, sonrakı dövrlərdə bu ərazi Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilmişdir. Zaman keçdikcə Naxçıvanla Yaxın Şərqin qədim şəhərləri arasında iqtisadi-mədəni əlaqələr təşəkkül tapmış, əkinçiliyin, maldarlığın, ilkin duz emalının, ticarətin və sənətkarlığın inkişafı sosial-iqtisadi və mədəni yüksəlişə də təkan vermiş, nəticədə müasir Naxçıvan şəhəri ərazisində 5 min il bundan əvvəl ilkin şəhər mədəniyyəti formalaşmışdır.

Lakin Azərbaycanın böyük bir yol keçmiş Naxçıvan diyarının tarixi lazımi səviyyədə öyrənilməmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyi dövründə və bu gün də ulu öndərin yolunun layiqincə davam etdirilməsi nəticəsində xalqımızın tarixinin, dilinin, ədəbiyyatının, arxeologiya və etnoqrafiyasının, folklorunun və milli dəyərlər sisteminin elmi dəlillər və aşkar edilmiş yeni faktlar əsasında araşdırılmasına başlanılmış, Azərbaycan, o cümlədən Naxçıvan tarixinə dair bir sıra elmi nəşrlər meydana çıxmışdır. Son dövrlərdə aparılan araşdırmalar nəticəsində Naxçıvanın mədəniyyəti, tarixi və abidələri, arxeologiya və etnoqrafiyası, təbii sərvətləri müxtəlif tədqiqatların predmetinə çevrilmiş, yeni elmi istiqamətlər müəyyənləşdirilmiş və bir sıra nəticələr əldə olunmuşdur.

Naxçıvan tarixinin müxtəlif dövrlərinə və problemlərinə dair xeyli sayda elmi-tədqiqat materiallarının nəşr olunması və keçirilmiş arxeoloji ekspedisiyalar nəticəsində yeni və zəngin materialların əldə edilməsi "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması üçün əsas yaratmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. 2012-2015-ci illərdə "Naxçıvan tarixi" çoxcildliyi hazırlansın və nəşr edilsin.

2. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi və Naxçıvan Dövlət Universiteti bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **VASİF TALIBOV**

Naxçıvan şəhəri, 06 avqust 2012-ci il

GİRİŞ

"Naxçıvan tarixi"nin II cildi xronoloji baxımdan XVIII əsrin ortalarından başlayaraq XX əsrin 30-cu illərinin sonunadək olan iki əsrə yaxın bir dövrü əhatə edir. Burada Naxçıvan xanlığı, Naxçıvanın Rusiya tərəfindən işğalı, Naxçıvanın XIX əsrdə, XX əsrin əvvəllərində və XX əsrin 20-30-cu illərindəki vəziyyəti ayrı-ayrı fəsillərdə verilmişdir. Hər bir fəsildəki dövrləşmə xarakter əlamətləri ilə diqqəti cəlb edir.

XVIII əsrin ortalarında Azərbaycanda bir-birilə rəqabət aparan çoxsaylı müstəqil xanlıqlar və onlara tabe olan sultanlıq, məliklik və camaatlıq mövcud idi.

XVIII əsrin ortalarından İranda feodal ara müharibələri genişlənir, Azərbaycanda isə, əsasən, hər bir şəhər ətrafında müstəqil və yarımmüstəqil feodal dövlətləri-xanlıqlar meydana gəlir.

Azərbaycan ərazisində ilk xanlıqlar hələ XVIII əsrin birinci yarısında yaranıb, lakin o dövrdə xanlıqlar müstəqil deyildi. Azərbaycanda ilk müstəqil xanlıqların yaranması XVIII əsrin 40-cı illərinə aiddir. Xanlıqların yaranmasının əsas səbəbi ölkədə təsərrüfatın natural xarakter daşıması, iqtisadi əlaqələrin zəif olması, feodalların mərkəzdənqaçma meyillərinə üstünlük vermələri idi. Müstəqil xanlıqların əmələ gəlməsi həm də bir sıra ictimai-iqtisadi və siyasi amillərlə də bağlı olmuşdur. Səfəvi dövlətinin inzibati bölgüsü və onun iqtisadi siyasəti də bu amillər sırasında mühüm yer tutur.

Birinci fəsil – Naxçıvan xanlığının tarixinə həsr edilmişdir.

Səfəvi imperiyası dövründə onun inzibati-ərazi vahidlərindən biri olan Çuxursəd bəylərbəyliyinin ərazisində yaranan Naxçıvan xanlığı XVIII əsrin ortalarında meydana gəlmiş Azərbaycan xanlıqlarından biri idi. 1747-ci ildə Kəngərli tayfa başçısı Heydərqulu xan Ağa Həsəni hakimiyyətdən salıb, özünü Naxçıvanın müstəqil xanı elan edib.

Naxçıvan xanlığı Zəngəzur sıra dağlarından Araz vadisinə qədər olan ərazidə yerləşirdi.

Naxçıvan xanlığının tarixini şərti olaraq iki dövrə, beş mərhələyə bölürlər: 1. 1747-1797-ci illər; 2. 1797-1828-ci illər. Birinci dövrdə xanlığın ərazisi 9,4 min kv.km, ikincidə isə 4,6 min kv.km olmuşdu. 1797-ci ilə qədər Naxçıvan xanlığı müstəqil dövlət qurumu idi, sonra isə Naxçıvan xanlığı müstəqilliyini itirir və İrandan asılı vəziyyətə düşür. Naxçıvan xanlığı formal olaraq 1840-cı ilədək fəaliyyət göstərib.

Azərbaycan ərazisində olan əksər xanlıqların tarixi haqqında XVIII və XIX əsrlərdə müəyyən əsərlər yazılmış, tədqiqatlar aparılmışdır. Təəssüf ki, bu sözləri Naxçıvan xanlığı haqqında demək olmaz. Naxçıvan xanlığının tarixi uzun müddət xüsusi tədqiqat obyekti olmamışdır. Lakin bir sıra arxiv sənədlərində Naxçıvan xanlığının siyasi vəziyyətinə, sosial-iqtisadi durumuna, xanlıqların qarşılıqlı müna-

sibətlərinə aid faktlar mövcuddur. Xüsusilə rus zabitlərinin mərkəzə göndərdikləri məlumatlarda, Qafqazdakı rus ordusu qərargahının sənədlərində, Naxçıvanın hakim feodallarından Kalbalı xanın, Cəfərqulu xanın, Şeyxəli bəyin yazışmalarında, Kartli-Kaxeti çarı II İraklinin Naxçıvan xanlığının siyasi vəziyyətinə, habelə özünün Naxçıvan xanlığına münasibətlərinə dair rus hakimlərinə göndərdiyi məktublarda faydalı məlumatlar vardır.

Rus qafqazşünasları, hərbçiləri, diplomatları və tədqiqatçılarının əsərlərində, xatirələrində, yazdıqları məlumatlarda çar Rusiyasının Qafqaz siyasəti, Naxçıvan xanlığının mövqeyi, İran-Rusiya müharibələrində Naxçıvan xanlığının fəaliyyəti və b. məsələlər araşdırılmışdır. Diplomatik fəaliyyət göstərən rus yazıçısı A.S.Qriboyedovun yazışmalarında, qafqazşünas A.Berjenin araşdırmalarında, rus ordusunun polkovniki S.D.Burnaşevin, sərkərdələrdən Potyomkinin, Qudoviçin, Sisianovun, Kotlyarevskinin, Nebolskinin raportlarında, general A.P.Yermolovun Naxçıvanda Kalbalı xanla görüşlərində iştirak etmiş V.Boroznanın, A.Sokovun verdikləri məlumatlarda Naxçıvan xanlığı haqqında maraqlı məlumatlar vardır ki, kitabın hazırlanmasında bunlardan istifadə edilmişdir.

Tədqiqatçılardan İ.Petruşevski, N.Boqdanova, İ.Şopen, P.Butkov, N.Dubrovin və b. əsərlərində Naxçıvan xanlığı ilə bağlı fakt və hadisələrə də yer verilmişdir.

XIX əsrdə A.A.Bakıxanovun və Mirzə Adıgözəl bəyin Şirvan və Qarabağa həsr etdikləri əsərlərdə Naxçıvan xanlığına aid qiymətli faktlar vardır. "XVII-XIX əsrlərdə Naxçıvan əlyazma sənədləri" əsərində də Naxçıvan xanlığına aid orijinal və yerli materiallar öz əksini tapmışdır.

XIX əsrin I yarısında Rusiya və onun beynəlxalq münasibətlərinə, Rusiya və Azərbaycan əlaqələrinə əsərlər həsr etmiş L.Semyonov və H.İbrahimbəyli də Rusiya-İran müharibələrinin nəticəsi olaraq Azərbaycanın işğal edilməsinə və Naxçıvan xanlığının tarixinə geniş yer vermişlər.

XX əsrin 70-90-cı illərində H.Dəlili, M.İsmayıl və M.Bağırova, F.Əliyev, N.Mustafayeva, M.Süleymanov və b. Azərbaycanın müxtəlif xanlıqları haqqında tədqiqatlar aparmış və kitablar nəşr etdirmişlər. 1986-cı ildə Mirabdulla Əliyev "Naxçıvan xanlığı və onun Rusiyaya birləşdirilməsi" mövzusunda tarix üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə etdi. On il ondan sonra F.Əliyev və M.Əliyevin "Naxçıvan xanlığı (1747-1828)" kitabı çap edildi. Bu əsər 2007-ci ildə təkrar nəşrə hazırlanmışdır.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyimizi möhkəmləndirmək üçün dövlətçilik tarixinin öyrənilməsinə böyük zərurət yaranmışdır. Azərbaycan dövlətçiliyi tarixində xanlıqlar dövrü özünəməxsus yer tutur. Buna görə də təsadüfi deyil ki, müstəqillik illərində artıq Bakı, Quba, İrəvan, Gəncə, Lənkəran, Şəki, Qarabağ, Dərbənd və b. xanlıqların, sultanlıqların, camaatlığın tarixinə aid Y.Mahmudov, T.Mustafazadə, C.Mustafayev, F.Ağamalı, Z.Hacıyeva, İ.Məmmədova, F.Abasov, M.İsgəndərova, E.Babayev, Ə.Çingizoğlu, B.Məmmədli,

M.Qacar, O.Nəzərəliyev, A.Məmmədova, E.Lətifova və başqalarının əsərləri nəşr edildi. Bu istiqamətdə ümumiləşdirici əsərlər də yazıldı.

Naxçıvan tarixi çoxcildliyinin ikinci cildində bu əsərlərdən, eləcə də Naxçıvan xanlığının tarixinə aid M.Quliyev, İ.Kazımbəyli, N.Quliyevin əsərlərindən istifadə edilmişdir.

İ k i n c i f ə s i l – "Naxçıvanın Rusiya tərəfindən işğalı" adlanır.

Bu fəsildə XIX əsrin əvvəllərindən Şimali Azərbaycanın, eləcə də Naxçıvan xanlığının çar Rusiyası tərəfindən işğalı, onun sosial-iqtisadi, ictimai-siyasi həyatı və mədəniyyət tarixi işıqlandırılır.

Fəsildə Rusiya-İran müharibələri, Gülüstan və Türkmənçay müqavilələri, Naxçıvan və İrəvan xanlıqlarının işğal edilməsi mənbələrə əsaslanaraq təhlil edilir. Rusiya Kartli-Kaxeti münasibətləri, bunun Naxçıvanın işğalındakı rolu da izah edilir. Ermənilərin Naxçıvan ərazisinə köçürülməsi və bunun doğurduğu nəticələr ilk mənbələrə əsasən təhlilə cəlb edilmişdir. V.Qriqoryevin, İ.Şopenin məlumatları qarşılaşdırılır, müqayisələr aparılır və aydın olur ki, 1828-1829-cu illərdə Şimali Azərbaycana köçürülən erməni ailələrinin 37 faizi Naxçıvanda yerləşdirilmişdi. Naxçıvan xanlığı Rusiya tərəfindən tutulduqdan sonra inzibati idarə sistemində dəyişikliklər baş vermişdir. Xüsusilə, 1828-ci ildə "erməni vilayəti"nin yaradılmasında yol verilmiş səhv və subyektiv mülahizə bir qədər sonra mənfi nəticəsini göstərdiyindən ləğv edilmişdir. Zaqafqaziya diyarının ərazisinin müəyyənləşdirilməsi, Gürcü-İmeret quberniyasının və Xəzər vilayətinin yaradılması, sonrakı dövrlərdə quberniya və qəza təsisatlarının formalaşdırılması fəslin əhəmiyyətli məsələlərindəndir.

Bu dövrün mühüm məsələlərinin öyrənilməsi üçün XIX-XX əsrlərdə Rusiya və Azərbaycan tarixşünaslığının əldə etdiyi nailiyyətlərdən, ilk mənbələrdən istifadə olunmuşdur. Rusiyanın, Gürcüstanın, Azərbaycanın müxtəlif məsələləri üzrə toplanmış materiallar, həmçinin çap olunmuş mənbələr, ilk növbədə on iki cilddən ibarət "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" tədqiqatın əsas mənbələri sırasındadır.

Rus tarixçilərindən İ.Q.Butkov, V.A.Potto, N.F.Dubrovinin əsərlərində Azərbaycanın XIX əsr siyasi, sosial-iqtisadi tarixinin, eləcə də Naxçıvan diyarının tarixinin bir çox məsələlərinə toxunulmuşdur.

XIX əsrin ikinci yarısından sonra yaşamış onlarla azərbaycanlı tədqiqatçılar (R.Əfəndiyev, M.Şahtaxtinski, M.Mahmudbəyov, H.Minasazov, T.Bayrambəyov, H.Bağırov, N.Qiyasbəyov və b.) o dövrün mətbuatında XIX əsr Azərbaycan tarixinin bir çox məsələlərinə toxunmuş, onlardan bəhs etmişlər.

Azərbaycanda yeni nəsil tarixçi alimlərdən Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, İ.M.Həsənov, M.M.Əfəndiyev, R.Ə.Mehdiyev, İ.A.Talıbzadə, T.T.Vəliyev, Ə.A.Umayev və b. XIX əsr tarixi məsələlərinin tədqiqi ilə məşğul olmuş, Azərbaycanın çar Rusiyası tərəfindən istilası məsələlərinə onlarla məqalə və əsərlər həsr etmişlər. Bu əsərlərin bir çoxunda Naxçıvanın XIX əsr tarixinə də diqqət yetirmişlər.

XIX əsr Azərbaycan tarixinin bir sıra məsələləri hakim ideologiyanın təsiri altında yazılmışdır. Ona görə də rus və Azərbaycan tarixşünaslığında çar Rusiyasının Azərbaycanı istila etməsi düzgün qiymətləndirilməmiş, bu, "birləşmə" kimi göstərilmişdir. Lakin sonradan tarixşünaslığımızda bu məsələ obyektiv olaraq Azərbaycanın, eləcə də Naxçıvanın çar Rusiyası tərəfindən istila edilməsi kimi əsaslandırıldı.

Müstəqillik illərində Azərbaycan tarixinin, eləcə də Naxçıvan tarixinin XIX əsr məsələlərinə aid onlarla əsərlər və elmi məqalələr yazıldı. Bu sırada Z.Ə.Şahverdiyevin "Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində", "Азербайджанская деревня в последней трети XIX в. (по материалом Нахичеванского и Шаруро-Даралагезского уездов)", T.Mustafazadənin "Naxçıvan diyarı XVIII-XIX yüzilliyin əvvəllərində", K.Şükürovun "Naxçıvan bölgəsinin əhalisi XVIII-XX əsrlərdə", H.N.Həsənovun "Naxçıvanın çar Rusiyası tərəfindən işğalı", İ.Kazımovun "Ermənilərin Naxçıvan bölgəsinə köçürülməsi və əhalinin say dinamikasında baş vermiş dəyişikliklər", M. Quliyevin "İrəvan və Naxçıvan xanlıqlarının Rusiya tərəfindən işğalında erməni xəyanətkarlığının rolu", Y.Rəhimovun "Naxçıvan XIX əsr rus mənbələrində" əsərlərini və b. kitab, monoqrafiya və məqalələrini qeyd edə bilərik.

Ümumiyyətlə, tədqiqatçılar XIX əsr Naxçıvan tarixinin digər problemlərinə də əsərlər həsr etmişlər.

Yeddi cildlik Azərbaycan tarixinin IV cildində Azərbaycan tarixinin əsas sahələri əhatə olunmuşdur. Bu cild 2007-ci ildə təkrar nəşrə hazırlanmışdır. Cilddə XIX əsrin başlanğıcında çar Rusiyasının Şimali Azərbaycanı, eləcə də Naxçıvanı istila etməsi, istilanın gedişi, çar Rusiyasının Şimali Azərbaycanı müstəmləkəyə çevirməsi siyasəti, xalqın ona qarşı mübarizəsi, ölkənin sosial-iqtisadi, siyasi və mədəniyyət tarixi, sənayenin, kənd təsərrüfatının inkişaf xüsusiyyətləri, sosial dəyişikliklər, ictimai-siyasi hadisələr və b. məsələlər işıqlandırılmışdır.

Üçüncü fəsil – "Naxçıvan XIX əsrdə" – adlanır.

Bu fəsildə XIX əsrdə ilhaqdan sonra Naxçıvan tarixinin əsas sahələri əhatə olunmuşdur. XIX əsrin əvvəllərində çar Rusiyası Şimali Azərbaycanı istila etdi, yurdumuzun şimal torpaqları Rusiya imperiyasının tərkibində qaldı. Birinci Rusiya-İran müharibəsinin nəticəsi olaraq imzalanmış Gülüstan müqaviləsinə görə Naxçıvan və İrəvan xanlıqlarından başqa qalan xanlıqlar Rusiyanın tabeliyinə keçdi. Çar Rusiyası tuta bilmədiyi İrəvan və Naxçıvan xanlıqlarını ilhaq etmək istəyirdi. Nəticədə 1826-1828-ci illərdə İkinci Rusiya-İran müharibəsi baş verdi. Türkmənçay sülh müqaviləsinə görə Naxçıvan və İrəvan xanlıqlarının da rus qoşunları tərəfindən tutulduğu təsdiq edildi.

Fəsildə çar Rusiyasının Şimali Azərbaycanı ucqar müstəmləkəyə çevirməsi siyasəti, Naxçıvan bölgəsinin sosial-siyasi vəziyyəti, Naxçıvanın təsərrüfat həyatı, ilhaqdan sonra formalaşan aqrar münasibətlər və islahatlar, Naxçıvanda

kapitalist münasibətlərinin meydana gəlməsi və inkişafı, çarizmin siyasətinə qarşı olan mübarizə, kəndli çıxışları və mədəniyyət sahəsindəki dəyişikliklər tədqiq edilmişdir.

Naxçıvan ərazisinə köçürülən erməni ailələrinin bölgənin sosial-siyasi həyatına müdaxilə etmələri mənfi və acı nəticələrə səbəb olurdu. Gəlmə ermənilər rus hakim dairələri hər vəchlə müdafiə edir, azərbaycanlıların hüquqları isə kobud şəkildə pozulurdu.

1828-ci ildə Naxçıvan və İrəvan xanlıqları ərazisində "Erməni vilayəti" yaradılmış, 1840-cı ildə isə ləğv edilmişdi. 1841-ci ildə İrəvan və Naxçıvan əyalətlərinə qəza statusu verilmiş, 1849-cu ildə İrəvan quberniyası yaradılmışdı.

Gəlinən mühüm nəticə ondan ibarətdir ki, Naxçıvan bölgəsində baş verən dəyişikliklər çarizmin müstəmləkə siyasəti ilə bilavasitə bağlı olmuşdur.

Fəsildə Naxçıvanın təsərrüfat həyatına böyük yer ayrılmışdır. Naxçıvanda taxılçılığın, maldarlığın inkişafı təhlil edilmiş, bağçılığın, üzümçülüyün, ipəkçiliyin, pambıqçılığın, tütünçülüyün vəziyyəti göstərilmişdir. 1861-ci ildə Rusiyada, 1870-ci ildə isə Naxçıvan bölgəsində həyata keçirilən kəndli islahatı və onun nəticələrinin, aqrar münasibətlərə təsiri kimi məsələlərə də yer verilmişdir.

Fəsildə kapitalist münasibətlərinin meydana gəlməsi və inkişafına da ayrıca yarım fəsil ayrılmışdır. Müəyyən edilmişdir ki, kapitalist münasibətlərinin inkişafı sənətkarlıq kimi məşğuliyyət sahələrinin yaranmasına və sənayenin genişlənməsinə səbəb olmuşdur.

Tədqiqatçılardan Ə.Sumbatzadənin, M.İsmayılovun, İ.Həsənovun, T.Vəliyevin, Ə.Umayevin, H.Həsənovun və b. əsərlərində Azərbaycanda sənayenin inkişafı, proletariatın yaranmasının Naxçıvan üçün də xarakterik olduğu göstərilmişdir. Akademik Ə.Sumbatzadəyə görə Naxçıvan Azərbaycanın əsas dulusçuluq istehsalı mərkəzlərindən idi. T.Vəliyev Naxçıvanda ipək emalı sənayesindən, Ə.Umayev ticarət əkinçiliyinin genişlənməsindən, sənaye üzümçülüyünün inkişafından, ipəkəyirmə dəzgahlarının qurulmasından, sənətkarlıq sahələrinin, dağ-mədən sənayesinin inkişafından bəhs etmişlər. Fəsildə bu kimi faktlardan gen-bol istifadə olunmuşdur.

Kapitalist münasibətlərinin inkişafı fəhlə sinfinin daha artıq istismarına səbəb olurdu. Naxçıvan əhalisi müstəmləkə zülmü altında fəaliyyət göstərirdi. Hələ XIX əsrin 30-50-ci illərində çarizmin müstəmləkəçilik siyasətinə qarşı açıq çıxışlar baş verirdi. Müxtəlif kəndli çıxışları qaçak hərəkatlarına çevrilirdi, onlar isə kəndlilərin hüquqlarının qorunması uğrunda kəndliləri müdafiə edirdi. Vətən tarixşünaslığında bunlarla əlaqədar M.İsmayılov, İ.Həsənov, Z.Şahverdiyev, Ə.Əliyev, C.Hüseynov, V.Umudlu, R.Qurbanov və başqalarının tədqiqatları olmuş, monoqrafiyaları nəşr olunmuşdur.

Fəsildə XIX əsr Naxçıvan mədəniyyətinə də geniş yer verilmiş, təhsil, elm, ədəbiyyat, teatr, epiqrafik abidələr, memarlıq, incəsənət sahələri də tədqiq edilmişdir.

Dördüncü fəsil – "Naxçıvan XX əsrin əvvəllərində" adlanır.

Fəslin ilk yarımfəsli XX əsrin əvvəllərində Naxçıvanın sosial-siyasi vəziyyətinə həsr olunmuşdur. XX əsrin əvvəllərində Naxçıvanda zəhmətkeş kütlələrin vəziyyəti həddindən artıq ağır idi. Onlar bir tərəfdən yerli xanların, bəylərin, digər tərəfdən isə çarizmin və onun məmurlarının zülmünə məruz qalırdılar. Kəndlərin 50 faizdən çoxu mülkədarların mülkiyyətində idi. Torpağın cəmi 8 faizə yaxını kəndlilərin istifadəsində idi.

Yarımfəsildə Naxçıvan, Ordubad və Şərur kəndlilərinin feodal-asılı münasibətlərinə, hakim sinfin istismarına, torpaq əldə etmək üçün mübarizəyə qoşulmalarına geniş yer verilmişdir. Kəndli çıxışları, üsyanlar, onların partizan xarakterli olması da tədqiq edilmişdir.

Çar Rusiyası tərəfindən ermənilər İran və Türkiyə ərazisindən köçürülərək Azərbaycan ərazilərində, eləcə də Naxçıvan ərazisində yerləşdirilmişdi. İnqilabi hərəkatı yayındırmaq üçün çar məmurları milli qırğın siyasətinə əl atırdılar. Bunun nəticəsi olaraq 1905-1907-ci illərdə erməni-azərbaycanlı qırğınları törədildi. Azərbaycanlılara qarşı ermənilərin düşmən mövqe tutmaları həm də onların öz maraqlarına uyğun gəlirdi. Azərbaycanlıların yaşadıqları ərazilərin çoxu ermənilərin uydurduqları "Böyük Ermənistan" ərazisinə aid edilirdi. Erməni cəlladları Naxçıvan ərazisindən də azərbaycanlıları qovub çıxarmaqda, onlara qarşı soyqırım siyasəti həyata keçirməkdə maraqlı idi. Bu yarımfəsildə ilkin mənbələrə, xüsusilə M.M.Nəvvab və M.S.Ordubadinin əsərlərinə istinad olunaraq ermənilərin Naxçıvanda törətdikləri soyqırımlardan bəhs edilir.

Birinci Dünya müharibəsi illərində Naxçıvanın sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti tədqiq edilir.

Araz-Türk Cümhuriyyətinin yaranması, fəaliyyəti, Naxçıvan ərazisinin erməni daşnaklarının əlinə keçməsinə qarşı gördüyü tədbirlər, apardığı mübarizə, süqutu və tarixdə yeri izah edilir.

Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvan bölgəsi ilə əlaqəsinə də diqqət yetirilir. Azərbaycan Xalq Cümhuriyyəti düşdüyü çətin vəziyyətə baxmayaraq ölkənin ərazi bütövlüyü uğrunda inadla mübarizə aparmış və imkanı daxilində Naxçıvana da hərbi, diplomatik, maddi və mənəvi kömək göstərmişdir.

Bu fəsildə diqqət yetirilən mühüm məsələlərdən biri də xarici dövlətlərin Naxçıvanla bağlı siyasətləridir. ABŞ, İngiltərə, Fransa, Türkiyə və Almaniyanın Cənubi Qafqazla bağlı siyasi yanaşmaları və burada Naxçıvanın yeri obyektiv təhlil və faktların köməyi ilə izah edilir.

XX əsrin ilk 20 ilində Naxçıvanda etnodemoqrafik proseslər də araşdırılır. Əldə olunan nəticə ondan ibarətdir ki, 1897-1924-cü illərdə Naxçıvan bölgəsində baş verən hadisələr burada azərbaycanlı əhalinin azalmasına səbəb olmuşdur.

XX əsrin əvvəllərində Naxçıvanda demokratik hərəkat canlanmış, kəndli çıxışları və milli azadlıq hərəkatı artmışdı. Çarizm bu kimi hallara yol verməmək

üçün müxtəlif vasitələrlə onun qarşısını alırdı. Naxçıvan bölgəsində fəaliyyət göstərən "Hümmət" və "Mücahid" təşkilatlarının fəaliyyətinə də yer verilmişdir. Bu təşkilatlarda təmsil olunan M.Mirheydərzadə, M.Bektaşi, M.S.Ordubadi, M.N.Şeyxov, M.Ə.Əzimov və b. inqilabi fəaliyyətlərindən də bəhs edilir.

Ermənilərin 1918-1920-ci illərdə Naxçıvanda törətdikləri soyqırımlar tədqiq edilir. Naxçıvan əhalisinin ərazinin qorunması uğrunda apardığı inadlı mübarizəsi verilir və Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin soyqırım siyasətinin qarşısının alınmasındakı fəaliyyətləri də önə çəkilir.

Şərur-Dərələyəz, Naxçıvan və Ordubad qəzalarında erməni daşnakları tərəfindən törədilmiş qanlı cinayətlərin aradan qaldırılması, bir daha belə hadisələrin baş verməməsi üçün onun qarşısının alınmasında "Qırmızı Tabor"un fəaliyyəti araşdırılır.

Fəslin sonunda Naxçıvanın bu dövrdəki mədəniyyəti nəzərdən keçirilir.

Ümumiyyətlə, bu fəsildə Naxçıvan tarixinin XX əsrin son dərəcə mühüm hadisələrlə zəngin olan ilk iki onilliyi tədqiq edilmişdir. XX əsr boyu bu əsrin iki onilliyi haqqında tədqiqat işləri aparılmışdır. Üçcildlik "Azərbaycan tarixi" nəşr edildikdən sonrakı illərdə Azərbaycan tarixinin bütün dövrləri, o cümlədən XX əsrin öyrənilməsi sahəsində bir sıra işlər görüldü, tədqiqatlar nəşr olundu. Ə.S.Sumbatzadənin, Ə.N.Quliyevin, M.Ə.İsmayılovun, A.Ş.Milmanın, İ.V.Striqunovun, İ.A.Talıbzadənin, D.İ.İsmayılzadənin əsərlərində XIX əsrin sonu-XX əsrin əvvəllərində Şimali Azərbaycanın, o cümlədən Naxçıvanın tarixindən bəhs edilir. Bu əsərlər dövrün sosial-iqtisadi və siyasi vəziyyətinə, Azərbaycanın sənayesi və kənd təsərrüfatına, kapitalizmin inkişafına, sosial-iqtisadi strukturuna və siyasi quruluşuna, rus kəndlilərinin Azərbaycana köçürülməsinə və b. məsələlərinə həsr edilmişdir.

"Azərbaycan tarixi" kitablarının nəşri, orada XX əsrin ilk onilliklərinə yer verilməsi xüsusi ilə qeyd edilməlidir. Yeddi cildlik "Azərbaycan tarixi"nin V cildi 1900-1920-ci illərə həsr edilmişdir. 2008-ci ildə təkrar nəşr edilən bu kitabda Azərbaycanın sosial-iqtisadi vəziyyəti, ictimai-siyasi həyatı, Birinci Dünya müharibəsi illərində Azərbaycanın xalq təsərrüfatı, fəhlə hərəkatı və kəndli çıxışları, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti kimi mühüm məsələlər tədqiqat obyektinə çevrilmişdir.

XX əsrin 70-90-cı illərində tarixçilərimiz tərəfindən Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəniyyət tarixi, rus kəndlilərinin Azərbaycana köçürülməsi, maarif məsələləri, Azərbaycan burjuaziyası, şəhərlərin tarixi və b. məsələlər daha çox tədqiq edilmişdir.

"Sovet Naxçıvanı" və "Naxçıvan Muxtar Respublikası" kimi ümumiləşdirici əsərlərdə Naxçıvanın müxtəlif dövr tarixi kimi, XX əsrin 20-ci illərinə qədər olan tarixi də araşdırılmışdır.

Azərbaycanın Xalq Cümhuriyyəti, Araz-Türk Cümhuriyyətinin tarixi haqqında da tədqiqat əsərləri, sənəd və materiallar işıq üzü gördü. Azərbaycan

Parlamenti, Azərbaycan ordusu, bu dövlətin qanunvericilik aktları və qərarları, xarici siyasəti, "Fətəli Xan Xoyski. Həyatı və fəaliyyəti" kitabı və sənədlər toplusu Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə aid ən son sənəd və materiallardan ibarətdir. Bu sahədə "Azərbaycan Cümhuriyyəti (sənədlər və materiallar) 1918-1920-ci illər" kitabını da qeyd etmək olar.

AXC tarixinə aid A.Balayev, C.Həsənli, N.Nəsibzadə, N.Maksvell, P.Darabadi, R.Xudiyev və b. tədqiqatçıların əsərləri xüsusi ilə diqqəti cəlb edir. C.Həsənli və N.Nəsibzadənin Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti ilə bağlı əsərləri müasir Azərbaycan tarixşünaslığında ciddi əsər kimi qəbul edilir. Hər iki əsərdə Azərbaycan Xalq Cümhuriyyətinin bölgələrlə, o cümlədən Naxçıvanla əlaqələrinə yer verilmişdir. İ.Hacıyev "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan" adlı əsər hazırlamışdır. İ.Musayevin "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921)", İbrahim Ethəm Atnurun "Osmanlı idarəçiliyindən Sovet idarəçiliyinə qədər Naxçıvan (1918-1921)", A.Hacıyevin "Qars və Araz-Türk Respublikalarının tarixindən", S.Sadıqovun "Naxçıvan Muxtar Respublikasının tarixindən" monoqrafiyaları müasir Azərbaycan tarixşünaslığında diqqəti cəlb edən əsərlər içərisində xüsusi yer tutur.

Naxçıvanın XX əsrin 20-ci illər tarixi tədqiqatçılardan İ.Hacıyev, F.Cəfərov, K.İsmayılov, E.Zamanov və b. kitab və məqalələrində də işlənilmişdir.

Beşinci fəsil – "Naxçıvan XX əsrin 20-30-cu illərində" adlanır.

İlk yarımfəsildə Naxçıvanda sovet hakimiyyətinin qurulmasından bəhs edilir. Bu məsələ tarixşünaslıqda heç də yeni deyildir. Bununla belə, məsələnin mahiyyəti açıqlanmış, 1918-1920-ci illərdə bölgədə baş vermiş ictimai-siyasi hadisələr fonunda Naxçıvanda sovet hakimiyyətinin qurulması və onun doğurduğu nəticələr tədqiq edilmişdir.

Məlumdur ki, ölkəmizin tarixinin ən mürəkkəb və ziddiyyətli dövrü sovet hakimiyyətinin yaranmasından sonra baş vermişdir. Azərbaycanda, eləcə də Naxçıvanda dövlət idarəçiliyinin yeni sistemi yaranmış, ölkənin ictimai-siyasi həyatında və mədəni-mənəvi aləmində əsaslı dəyişikliklər baş vermişdi.

Beşinci fəsildə 20-30-cu illər Naxçıvan tarixinin əsas problemlərinin kompleks halında elmi araşdırılmasına diqqət yetirilmişdir. Azərbaycan tarixşünaslığında bu dövrün tədqiqinə hələ XX əsrin 50-60-cı illərində başlanılıb. Üçcildlik "Azərbaycan tarixi"nin iki hissədən ibarət olan üçüncü cildində bu dövrün tədqiqinə də geniş yer verilib. Lakin hakim ideologiyanın tələblərinə uyğun yazılmış bu dövrün materiallarında səhvlərə, mübahisəli məsələlərə, düzgün olmayan konseptual yanaşmalara baxmayaraq, ilk ümumiləşdirici kitab kimi, bu gün də öz əhəmiyyətini tam itirməmişdir.

Yeni araşdırmaların aparılması, ictimai-siyasi həyatda baş verən dəyişikliklər, fakt və hadisələrin obyektiv dəyərləndirilməsi 80-ci illərdə "Azərbaycan tarixi" çoxcildliyinin hazırlanmasını tələb edirdi. Ona görə də "Azərbaycan tarixi"nin

yenidən yazılmasına başlanıldı, 1998-2003-cü illərdə yeddicildlik işıq üzü gördü. "Azərbaycan tarixi"nin VI cildi aprel 1920-iyun 1941-ci ilə aid idi. 2007-2008-ci illərdə yeddicildlik Azərbaycan tarixi təkrar nəşrə hazırlandı. Vətən tarixinin 20-30-cu illəri akademik Cəmil Quliyevin məsul redaktorluğu və müəllifliyi ilə tarixçilərdən A.Məmmədov, Y.A.Tokorjevski, T.Ə.Novruzov, Ə.C.Rəhimov, T.H.Musayeva, Z.M.İsayev və b. tərəfindən yazılmışdır.

Azərbaycan tarixşünaslığında qeyd olunan dövrlə bağlı müəyyən tədqiqatlar aparılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin, Araz-Türk Cümhuriyyətinin tarixinə və fəaliyyətinə, Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu əldə etməsinə və Naxçıvan MSSR-in təşkilinə, Naxçıvanda Sovet hakimiyyətinin qurulmasına, birtərəfli sənayeləşmə və kollektivləşdirmə tədbirlərinə, sovet hakimiyyətinə qarşı baş verən üsyanlara, Naxçıvan MSSR-in Konstitusiyalarına, siyasi repressiyalara, mədəni quruculuq tədbirlərinə, bu illərdə fəaliyyət göstərmiş görkəmli dövlət xadimlərinin fəaliyyətlərinə və b. məsələlərə aid Z.Bünyadov, C.Quliyev, Q.Mədətov, T.Köçərli, İ.Hacıyev, X.Köçərli, A.Məmmədov, T.Musayeva, K.Rəhimov, A.Paşayev, T.Qaffarov, F.İbişov, H.Həsənov, C.Həsənli, N.Nəsibzadə, N.Yaqublu, C.Qasımov, E.Məmmədov, C.Cəfərov, İ.Musayev, Ə.Əliyev, S.Sadıqov, F.Əhmədova, F.İbrahimzadə, E.Cəfərli, N.Hüseynbəyli və başqalarının tədqiqatları həmin dövrün obyektiv və ətraflı yazılmasına kömək etmişdir.

Naxçıvan 1917-1921-ci illərdə mürəkkəb və çətin dövr yaşamışdır. Erməni daşnakları Naxçıvana sahib olmaq arzusuna düşmüş, qanlı döyüşlər getmiş, azərbaycanlılara qarşı 1905-1907 və 1918-1920-ci illərdə ermənilər tərəfindən soyqırımlar törədilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin düşdüyü çətin vəziyyət onun Naxçıvana lazımi səviyyədə kömək göstərməsinə imkan verməmişdir. Azərbaycandan ayrı düşən Naxçıvan əhalisi erməni daşnaklarına, hətta böyük dövlətlərin diplomatik gedişlərinə qarşı çıxmış, Naxçıvanı qoruyub saxlamış, muxtariyyət statusu əldə etmişlər. Fəsildə bütün bunlar barədə ətraflı məlumatlar verilmiş, ümumiləşdirmələr aparılmışdır.

Fəsildə Moskva və Qars müqavilələrinin əhəmiyyəti, Türkiyənin yardımı və obyektiv mövqe tutması da araşdırılmışdır.

Azərbaycanda həyata keçirilən birtərəfli sənayeləşmə və kollektivləşdirmə siyasəti Naxçıvandan da yan keçməmişdir. Kommunist rejiminin yeritdiyi anti-azərbaycan, antimilli siyasət, siyasi repressiyalara geniş yer vermələri xalqın müxtəlif təbəqələrini mübarizəyə və üsyanlara sövq etmişdir.

Fəsildə Naxçıvan MSSR-in 1924-cü ildə qəbul edilmiş Əsasnaməsi, 1926 və 1937-ci il Konstitusiyaları əhatəli tədqiq edilir.

Fəslin sonunda mədəni quruculuq məsələləri nəzərdən keçirilir.

Beləliklə, Naxçıvan tarixinin ikinci cildi XVIII əsrin 40-cı illərindən XX əsrin 30-cu illərinin sonuna qədərki məsələləri tədqiqat obyektinə çevirir.

FƏSİL VƏ PARAQRAFLAR AŞAĞIDAKI MÜƏLLİFLƏR TƏRƏFİNDƏN YAZILMIŞDIR

Giriş – *İsmayıl Hacıyev*

I F Ə S İ L. NAXÇIVAN XANLIĞI

Naxçıvan xanlığının yaranması – *Musa Quliyev*
Xanlığın siyasi tarixi və idarə sistemi – *Musa Quliyev*
Naxçıvan xanlığı I Kalbalı xanın dövründə – *Musa Quliyev*
Naxçıvan xanlığının qonşu ölkələrlə və xanlıqlarla münasibətləri – *Musa Quliyev*
Naxçıvan xanlığının əhalisi – *Musa Quliyev*
Sosial-iqtisadi həyat, şəhərlər, sənətkarlıq və ticarət – *Musa Quliyev*
Maarif və təhsil – *Musa Quliyev*
Epiqrafik abidələr – *Fəxrəddin Səfərli*
Memarlıq və incəsənət– *Musa Quliyev*

II F Ə S İ L. NAXÇIVANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALI

– *Zəhmət Şahverdiyev*

III F Ə S İ L. NAXÇIVAN XIX ƏSRDƏ

İlhaqdan sonra Naxçıvan bölgəsində sosial-siyasi vəziyyət – *Zəhmət Şahverdiyev*
Naxçıvanın təsərrüfat həyatı– *Zəhmət Şahverdiyev*
Aqrar münasibətlər və islahatlar– *Zəhmət Şahverdiyev*
Naxçıvanda sənətkarlıq və sənaye. Kapitalist münasibətlərinin
meydana gəlməsi və inkişafı– *Zəhmət Şahverdiyev*
Çarizmin siyasətinə qarşı mübarizə, kəndli çıxışları– *Zəhmət Şahverdiyev*
Təhsil – *Vaqif Məmmədov*
Elm – *İsa Həbibbəyli*
Ədəbiyyat– *İsa Həbibbəyli*
Teatr– *Fəxrəddin Səfərli*
Epiqrafik abidələr– *Fəxrəddin Səfərli*
Memarlıq– *Fəxrəddin Səfərli*
İncəsənət– *Fəxrəddin Səfərli*

IV F Ə S İ L. NAXÇIVAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

XX əsrin əvvəllərində Naxçıvanda sosial-siyasi vəziyyət – *Fəxrəddin Cəfərov*
Ermənilərin Naxçıvan əhalisinə qarşı soyqırımlarının
başlanması (1905-1907-ci illər) – *Elman Cəfərli*
Naxçıvan Birinci Dünya müharibəsi illərində – *Emin Şıxəliyev*

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Resp... lik
KİTABXANASI

Araz-Türk Cümhuriyyəti – *İsmayıl Hacıyev*
Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvan bölgəsi ilə əlaqəsi– *İsmayıl Hacıyev*
Xarici dövlətlərin Naxçıvanla bağlı siyasətləri – *Elçin Zamanov*
Naxçıvanda etnodemoqrafik proseslər (1900-1920) –*İbrahim Kazımbəyli*
XX əsrin əvvəllərində Naxçıvanda demokratik hərəkat və çarizmin buna qarşı mübarizəsi– *Fəxrəddin Cəfərov*
Ermənilərin Naxçıvanda törətdiyi soyqırımlar (1918-1920-ci illər) – *Elman Cəfərli*
"Qırmızı Tabor"un fəaliyyəti – *Fəxrəddin Cəfərov*
Maarif –*Vaqif Məmmədov*
Elm –*İsa Həbibbəyli*
Ədəbiyyat –*İsa Həbibbəyli*
Teatr –*Fəxrəddin Səfərli*
Epiqrafik abidələr –*Fəxrəddin Səfərli*
Memarlıq –*Fəxrəddin Səfərli*
İncəsənət –*Fəxrəddin Səfərli*

V F Ə S İ L. NAXÇIVAN XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ

Naxçıvanda sovet hakimiyyətinin qurulması –*Nadir Hüseynbəyli*
Sovet hakimiyyətinin ilk illərində sosial-siyasi vəziyyət – *Nadir Hüseynbəyli*
Naxçıvanın muxtariyyət statusu – *İsmayıl Hacıyev*
Naxçıvan MSSR-in yaradılması – *İsmayıl Hacıyev*
Naxçıvanda sənayenin vəziyyəti – *Nadir Hüseynbəyli*
Naxçıvanda kollektivləşdirmə tədbirləri –*Nadir Hüseynbəyli*
Naxçıvanda sovet hakimiyyətinə qarşı baş verən üsyanlar–*Nadir Hüseynbəyli*
Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (1926) –*Elman Cəfərli*
Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (1937) –*Elman Cəfərli*
Naxçıvanda repressiyalar–*Nadir Hüseynbəyli*
Naxçıvanda xalq təhsili və maarif işi –*Vaqif Məmmədov*
Mədəni maarif müəssisələrinin inkişafı–*Vaqif Məmmədov*
Elm –*İsa Həbibbəyli*
Mətbuat–*İsa Həbibbəyli*
Ədəbiyyat–*İsa Həbibbəyli*
Teatr –*Fəxrəddin Səfərli*
Təsviri sənət –*Fəxrəddin Səfərli*
Musiqi –*Fəxrəddin Səfərli*

I FƏSİL

NAXÇIVAN XANLIĞI

1. Naxçıvan xanlığının yaranması

XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Səfəvi dövləti daha da zəiflədi. Ölkədəki vəziyyət, təsərrüfatın bütün sahələrinin tənəzzülü dövlət gəlirinin azalmasına və onun xəzinəsinin iflasa uğramasına səbəb oldu.

İqtisadi həyatın ağır vəziyyətdə olmasına baxmayaraq dövlətin bürokratik aparatının və hərbi imtiyazlı şəxslərin tələbatları azalmırdı [97, s. 83]. Artıq istehsalın inkişaf səviyyəsi toplanılan vergilərin həcminə uyğun gəlmirdi. Buna görə də kəndlilər özlərinə zəruri olan ərzaq məhsulunu vergi kimi ödəməyə məcbur edilirdilər. Bu isə onların yoxsullaşmalarına səbəb olurdu.

Səfəvi dövləti tərəfindən vergilərin artırılması öz təsirini ucqarlarda daha qabarıq göstərirdi. Şah xəzinəsi yoxsullaşdıqca, xalq üzərindəki təzyiq və soyğunçuluq siyasəti də artırdı. Saray tərəfindən müəyyən edilən müxtəlif vergilərdən əlavə, dövlət məmurları və vergi toplayanlar uzun müddət məvacib almadıqları üçün bu yolla özlərini idarə etməyə çalışırdılar [11, s. 12]. Ucqarlarda hökm sürən sərt soyğunçuluq siyasəti İran dövlətinə qarşı üsyanların baş verməsinə səbəb olurdu [81, s. 27].

Bu siyasətə etiraz olaraq XVIII əsrin 30-40-cı illərində xalq kütlələrinin çıxışları daha da gücləndi. Lakin bu çıxışlar pərakəndə və kortəbii xarakter daşıdığından uğur qazana bilmədi.

Azərbaycanın müxtəlif vilayətlərində baş verən üsyanlarda geniş zəhmətkeş kütlələri əsas hərəkətverici qüvvə idi. Eyni zamanda burada tacirlər, sənətkarlar və bir sıra feodallar da iştirak edirdilər. Üsyanlarda müxtəlif təbəqələri birləşdirən əsas cəhət Nadir şaha qarşı ümumi nifrət və kin idi.

Nadir şahın ordusunda qulluq edən əfqan sərkərdələri və onlara tabe olan 4000 sıravi əsgər azərbaycanlı döyüşçülərə dərin kin bəsləyirdilər. Nadir şah hakimiyyətinin son illərində əfqanlara hamıdan çox inanır və qoşun zabitlərinin cəzalandırılmasını onlara tapşırırdı.

Belə bir zamanda Qərbi Avropa dövlətləri, həmçinin inkişaf etməkdə olan Rusiya yeni-yeni müstəmləkələr əldə etmək uğrunda var qüvvələri ilə fəaliyyət göstərirdi. Zaman keçdikcə dünyanı bölüşdürmək uğrunda mübarizə daha da şiddətlənirdi. Hədsiz təbii sərvətə və böyük strateji, coğrafi mövqeyə malik Azərbaycan rəqabət edən dövlətlər arasında başlıca obyektlərdən birinə çevrilirdi [11, s. 15-17].

XVII əsrin sonu – XVIII əsrin əvvəllərində beynəlxalq vəziyyət xanlıqlar adı altında yerli feodal dövlətlərin yaranması üçün əlverişli şərait yaratmışdı. Belə ki, beynəlxalq aləmdə qüvvələr nisbətinin dəyişməsi, regionda yeni bir mərkəzləşmiş

dövlətin yaranması burada marağı olan İran və Rusiyanın mənafeyinə uyğun gəlmirdi.

XVIII əsrin ortalarında Azərbaycanın hər yerində yayılan antiiran çıxışlarının geniş dalğası, eləcə də feodalların böyük əksəriyyətinin şah hakimiyyətinə qarşı müxalifətə keçməsi Nadir şahın təcrid olunmasına gətirib çıxartdı.

Nadir şah 1747-ci il iyun ayının 20-də sui-qəsd nəticəsində öldürüldü. Nadir şahın ölümü ilə onun dövləti parçalandı [18, s. 27; 55, s. 151]. Hər tərəfdən şah taxtına can atanlar baş qaldırdı. Yaranmış vəziyyət vaxtilə yalnız silah gücünə Nadir şaha tabe etdirilən ucqarlardakı feodalların mərkəzdənqaçma cəhdlərini gücləndirdi. Vergi ödəyən zümrənin və kəndlilərin üsyanı, xalq-azadlıq hərəkatı qəti olaraq İran dövlətinin dayaqlarını laxlatdı və digər səbəblərlə birlikdə onun dağılmasına gətirib çıxartmaqla, çox da böyük olmayan feodal dövlətlərin (xanlıqların) formalaşmasına tarixi şərait yaratdı [50, s. 10-11].

Azərbaycan ərazisində XVIII əsrin 40-cı illərində ilk müstəqil xanlıqlar yarandı. Əgər onlardan bəzisi Nadir şah dövlətinin süqutundan sonra meydana gəlmişdisə, digərləri hələ Nadir şahın hökmranlığı dövründə İran əleyhinə mübarizə nəticəsində formalaşmağa başlamışdı. Bəzi xanlıqlar isə öz başlanğıcını hələ Səfəvilər dövlətinin tərkibində yarımmüstəqil inzibati varlıq kimi mövcud olduğu dövrdən götürürdü.

Yerli feodal dövlətlərin-müstəqil xanlıqların əmələ gəlməsi bir sıra ictimai-iqtisadi və siyasi amillərlə də əlaqədardır. Bu amillərdən ən əsası Səfəvi dövlətinin inzibati bölgüsü və onun iqtisadi siyasəti idi [11, s. 8]. Səfəvi dövlətinin inzibati quruluşunda hakimlər tərəfindən idarə olunan "ölkələr" mühüm yer tuturdu. Ən mühüm inzibati idarə sistemi də mərkəzdənqaçma meyillərinin daşıyıcısı idi. Belə bir vəziyyət vahid dövlətin mövcud olduğu şəraitdə də xanlıqların təşəkkülü prosesinə rəvac verirdi.

Azərbaycan ərazisində xırda feodal dövlətlərinin yaranmasının əsas səbəbi ölkədə iqtisadi birliyin olmaması, ölkənin ayrı-ayrı vilayətləri arasında iqtisadi əlaqələrin zəif olması, təsərrüfatın hələ əmtəə səviyyəsinə yüksələ bilməyib, natural xarakter daşıması və feodalların mərkəzdənqaçma meyilləri, hər birinin müstəqil hakimliyə can atması ilə əlaqədardır. Səfəvi hökmdarlığı dövründə tayfa başçılarına, əmirlərə, yüzbaşılara və başqalarına göstərilən xidmət müqabilində müəyyən torpaq sahələri verilirdi. Nüfuzlu əmirlər ölkəni istədikləri kimi idarə edirdilər. Belə torpaq sahibliyi xanlıqların yaranmasına səbəb olan əsas amillərdən idi. Bu dövrdə bəylərbəylərin, sultanların, əmirlərin və başqa nüfuzlu feodalların hakimiyyəti dövlət daxilində dövləti xatırladırdı [50, s. 74]. Ümumiyyətlə, Səfəvilər dövründə mərkəzdənqaçma meyillərinin güclü olması dövlətin parçalanmasına gətirib çıxardı. Ölkədəki feodal pərakəndəliyi, natural təsərrüfatın üstünlüyü, iqtisadi əlaqələrin zəifliyi, feodalların mütləq hakim olmaq iddiaları Azərbaycanda mərkəzləşmiş dövlət yaratmağa imkan vermədi. Azərbaycan müstəqil və yarımmüstəqil xanlıqlara, sultanlıqlara və məliklərə parçalandı və beləliklə 20 xanlıq yarandı:

1. Şəki xanlığı; 2. Qarabağ xanlığı; 3. Quba xanlığı; 4. Lənkəran xanlığı; 5. Bakı xanlığı; 6. Gəncə xanlığı; 7. Dərbənd xanlığı; 8. Şamaxı xanlığı; 9. Naxçıvan xanlığı; 10. İrəvan xanlığı; 11. Qaradağ xanlığı; 12. Təbriz xanlığı; 13. Marağa xanlığı; 14. Ərdəbil xanlığı; 15. Urmiya xanlığı; 16. Xoy xanlığı; 17. Maku xanlığı; 18. Sərab xanlığı. Adları çəkilən xanlıqlardan başqa, Kür ilə Araz çaylarının qovuşuğunda Cavad xanlığı və Kür çayının mənsəbində daha bir kiçik xanlıq – Salyan xanlığı mövcud idi [4, s. 442-455; 15, s. 5; 50, s. 12; 92, s. 13].

Keçmiş Səfəvi imperiyasının inzibati-ərazi vahidlərindən biri olan Çuxursəd bəylərbəyliyinin ərazisinin müəyyən hissəsində yaranan Naxçıvan xanlığı XVIII əsrin ortalarında Nadir şah imperiyasının süqutundan sonra meydana gəlmiş Azərbaycan dövlətlərindən – xanlıqlarından idi. 1747-ci ildə Kəngərli tayfa başçısı Heydərqulu xan Nadir şah tərəfindən Naxçıvan ölkəsinə müvəqqəti hakim təyin edilən Ağa Həsəni hakimiyyətdən salıb özünü Naxçıvanın müstəqil xanı elan etdi [13, s. 20; 21, s. 214-215].

Naxçıvan xanlığının yaradıcısı Heydərqulu xan Mürtəzaqulu xan Kəngərlinin oğludur. Mürtəzaqulu xan isə Məhəmmədrza xanın oğludur [99, s. 298]. Sonralar Mürtəzaqulu xanın adına İrəvanı idarə edənlərin siyahısında rast gəlinir. Qeyd edək ki, Mürtəzaqulu xanın atası Məmmədrza xan Astrabad bəylərbəyliyindən əvvəl həm də iki il İrəvanı idarə etmişdi [74, s. 1-54].

Nadir şahın ölümündən sonra onun keçmiş sərkərdəsi Azad xan bir müddət İrana hakimlik etmişdir. O, bu illərdə özünün mühafizə dəstəsinə döyüşçüləri Kəngərli tayfasından seçirdi [94, s. 45-52]. 1750-ci ilin əvvəllərində Azad xan Əfqanlı siyasi səhnədən getdi.

Azərbaycan 1762-ci ilədək digər şah sərkərdəsinin – İran hakimi Kərim xan Zəndin (1763-1779) təsir dairəsinə düşsə də, Naxçıvan xanlığı müstəqil olaraq qaldı [86, s. 16].

Zəngəzur dağlarından xeyli şimalda olan Kəngərli çayından başlamış Araz çayı vadisinə qədər ərazidə yerləşən Naxçıvan xanlığı iqtisadi və hərbi imkanlarına görə digər xanlıqlardan o qədər də fərqlənmirdi [109, s. 8]. 1747-1797-ci illərdə Naxçıvan xanlığı müstəqil olduğundan daxili və xarici siyasətini özü müəyyənləşdirirdi.

Naxçıvan xanlığı yarandığı ilk gündən onun yaradıcısı Heydərqulu xan xanlığın müstəqilliyini qorumaq üçün özünə hərbi müttəfiqlər axtarmışdır. Naxçıvan xanlığı hələ Heydərqulu xanın hakimiyyəti dövründə Qarabağ xanı Pənahəli xanla hərbi siyasi ittifaqa girmişdi [81, s. 123].

Azərbaycan xanlıqlarının əksəriyyəti və Şirvan ölkəsinin hakimi Şəki xanı Hacı Çələbinin onların ərazilərinə hücumundan ehtiyat edirdilər. Çünki o vaxtlar Quba xanlığı, Şəki xanlığı, Qarabağ xanlığı və Xoy xanlığı hərbi cəhətdən güclü xanlıqlar hesab edilirdi. Naxçıvan xanlığı Qarabağ, İrəvan, Xoy, Maku, Qaradağ və Gəncə xanlığı ilə hələ Heydərqulu xan Kəngərlinin vaxtında yaxın dostluq münasibətləri yaratmışdı.

Qarabağ xanı Pənahəli xan 1751-ci ildə Pənahabad qalasının tikilməsində Naxçıvandan da memarlar dəvət etmişdi. Bu haqda Qarabağ xanlığının tədqiqatçıları yazırlar: "Qalanı Naxçıvandan, Təbrizdən və Ərdəbildən dəvət edilmiş ən yaxşı ustalar tikdilər. Qalanın iki qapısı vardı: İrəvan və Gəncə" [49, s. 52].

Qarabağ xanı ilə hərbi müttəfiq olan Heydərqulu xan Pənahəli xanın hərbi-siyasi aksiyalarında iştirak edirdi. Pənahəli xan öz siyasi rəqibi Şəki xanı Hacı Çələbi xana qarşı yürüşə getmək istədiyi üçün Heydərqulu xan hörmət əlaməti olaraq



II Kalbalı xan

1770-1780 Qubalı Fətəli xanın Qarabağa yürüşləri

1784 Qubalı Fətəli xanın Ərdəbilə yürüşü

1780-1797 Ağa Məhəmməd şah Qacarın yürüşləri

1796 V.A.Zubovun komandanlığı altında rus qoşunlarının yürüşü

1747-ci ildə Nadir şahın ölümündən sonra onun imperiyası dağılmış və Azərbaycanda 20-dək xırda irsi feodal monarxiyalar-xanlıqlar, həmçinin qonşu hakimlərdən asılı olan bir neçə sultanlıq meydana gəlmişdir.

XVIII əsrin 80-ci illərindən başlayaraq, ölkənin cənub hissəsində yerləşən xanlıqlar Azərbaycan sərkərdəsi Ağa Məhəmməd şah Qacarın yaratdığı yeni dövlətdən asılı hala salınmışdır.

1803-1828-ci illərdə isə Azərbaycanın şimal xanlıqları Rusiya tərəfindən zəbt edilmişdir.

Azərbaycan xanlıqları (XVIII əsrin II yarısı)

Naxçıvanın Kəngərli süvarilərini Qarabağa gətirdi.1752-ci ildə həyata keçirilən həmin yürüşdə gəncəli Şahverdi xan, qaradağlı Kazım xan, irəvanlı Hüseynəli xan, xoylu Əhməd xan da iştirak edirdilər [13, s. 48-49].

Pənah xan, Kazım xan, Heydərqulu xan və Şahverdi xan o zamanlar Cənubi Qafqazda hərbi cəhətdən güclü olan Kartli-Kaxetiya çarı II İrakliyə kömək üçün müraciət etdilər və onlar Gəncənin yaxınlığındakı Qızılqayada görüşməyi qərara aldılar. 1752-ci il martın 21-də xanlar II İrakli ilə görüşdü. Ancaq II İrakli onlara tələ qurduğundan xanların danışıqları alınmadı. II İrakli hiylə işlədərək onları həbs etdirdi [31, s. 42]. Bu əhvalatdan xəbər tutan Hacı Çələbi xan II İraklinin dəstəsinə hücum edərək Azərbaycan xanlarını əsirlikdən qurtardı [25, s. 42-43].

Pənahəli xanın bu yürüşü müvəffəqiyyətsizliklə nəticələndiyindən Heydərqulu xan Naxçıvana qayıdaraq xanlığı möhkəmləndirmək üçün bir sıra tədbirlər gördü. Xanlıq ərazisində - Naxçıvan və Ordubad şəhərlərində rabitə vasitələrini qaydaya saldı. O, köhnə körpülərin təmir olunması və çaylar üzərində yeni körpülərin salınması haqqında əmr verdi [13, s.48-49]. Heydərqulu xan Nadir şahın onlardan aldığı hakimiyyəti qaytarmaqla Naxçıvan xanlığının müstəqilliyini də qoruyub saxladı.

Naxçıvan xanlığı Heydərqulu xan Kəngərlinin hakimiyyəti dövründə sürətli inkişaf yolu keçmiş, ancaq onun vəfatından sonra yağıların tapdağına çevrilmişdi.

2. Xanlığın siyasi tarixi və idarə sistemi

Heydərqulu xanın vəfatından sonra (1763/64) onun oğlu Hacı Məhəmməd xan hakimiyyətə gəldi. Lakin o, İran hakimi Kərim xan Zəndin (1773-1779) qarşısında zəiflik göstərib ona tabe oldu. Sonralar Kərim xan Zənd onu Şiraza dəvət etdi və kiçik günah üstündə əsir aldı. Naxçıvanın xanlıq taxtında Hacı Məhəmməd xanı qardaşı Rəhim xan əvəz etdi. Hər iki qardaşın xanlıq fəaliyyəti 1764-cü ildən – 1769-cu ilədək olan dövrü (1768-ci il istisna olmaqla) əhatə edir [13, s.49].

1768-ci ildə Heydərqulu xanın oğlu Şükrulla xan Naxçıvan xanlığını idarə etdi. Kərim xan Zəndin köməyi ilə 1769-cu ildə Heydərqulu xanın qardaşı Əliqulu xan Naxçıvan xanlığında taxta çıxsa da, onu 1770-ci ildə qardaşı oğlu Şükrulla xan əvəz etdi.

1772-ci ildə Heydərqulu xanın qardaşı Əliqulu xan yenidən hakimiyyətə gəldi. 1773-cü ildə isə onun qardaşı Vəliqulu xan hakimiyyəti devirib Naxçıvanın xanı oldu. Vəliqulu xan 1773-1776 və 1778-ci illərdə Naxçıvan xanlığını idarə etdi. Şükrulla xan 1780-ci ilə qədər fasilələrlə (1770, 1771, 1777, 1779-cu illər) Naxçıvan xanlığını idarə etmişdir. Şükrulla xan Heydərqulu xan oğlu Kəngərli Kərim xan Zəndin 1768-ci il tarixli fərmanı ilə "Müstəqil xan", yəni hakim tituluna layiq görülməklə yanaşı, bütün Kəngərli cəngavərlərinə (süvarilərinə)

sərkərdə təyin olunduğu müddətdən etibarən tümən hakimi kimi şöhrət tapmışdır [41, s. 8]. Bütün sənədlərdə Şükrulla xan xanlığın ən ali məqamlısı, "uca iqballı", "xeyirxah hakim" kimi qeyd olunub. Şükrulla xan Kəngərli dövlət işlərində ən çox fayda verən və xanlığın əhalisinin ən çox hörmətini qazanan hakim olmuşdur [41, s. 159].

Şükrulla xan Naxçıvan xanlığının tədbirli hakimi olmaqla yanaşı, mahir bir hərbçi idi. O, atası Heydərqulu xanın Naxçıvançay üzərində saldığı körpünü yenidən təmir etdirmiş, dünyanın ən möcüzəli ziyarət yerlərindən biri olan Əshabi-Kəhfə böyük qayğı göstərmişdir.

1783–cü ildə müharibədə həlak olmuş Şükrulla xanın mülkləri və torpaqları Naxçıvan şəhərində, Azadciranda və Qarabağlar kəndində idi. Onun nəsil davamçıları sonralar Zülfüqarxanov familiyasını daşımışlar.



Kalbalı xan Naxçıvanski
Rəssam Ə.Məmmədov

XVIII yüzilliyin sonlarında Naxçıvan xanlığına maraq hakimiyyət uğrunda mübarizəni gücləndirmişdi. İrəvan xanı Hüseynəli xan, Qarabağ xanı İbrahimxəlil xan və Kartli-Kaxetiya çarı II İrakli istəyirdilər ki, onların dedikləri ilə hərəkət edən şəxs Naxçıvana xanlıq etsin. Onlar belə bir şəxsi Abbasqulu xanın simasında görürdülər. Onların köməkliyi ilə Rəhim xanın oğlu Abbasqulu xan 1780-ci ildə xanlıq taxtında oturdu. O, 1781-1783-cü illərdə müstəqil Naxçıvan xanlığının xanı, 1797-1801, 1804, 1808-ci illərdə (fasilələrlə) hakimi olmuşdur [86, s. 328]. 1804 və 1808-ci illərdə ilin bir neçə ayını Abbasqulu xan və qalan aylarda isə I Kalbalı xan hakimiyyətdə olmuşdur [86, s. 31-46].

Abbasqulu xan həm İran, həm də Rusiya ilə gizli danışıqlar apararaq Naxçıvanda hakimiyyəti ələ keçirmək istəmişdir. Abbasqulu xan hakimiyyətdə olmağa çox can atdığından, bəzən bir neçə xarici dövlətlərlə əlaqə saxlamış və onların yüksək rütbəli hərbiçiləri ilə məktublaşmışdır. Məktublarında hakimiyyətə gəlişinin əvəzində "onlara sadiq qul" olacağını önə çəkən Abbasqulu xan iradəsizlik göstərmiş və bu baxımdan bir çox tədqiqatçıların tənqid hədəfinə çevrilmişdir [13, s. 74]. Elə bu siyasətin nəticəsində Abbasqulu xan 1810-cu ildə İranda edam edilmişdir [63, s. 16].

1783-cü ildə Cəfərqulu xan (I Kalbalı xanın böyük qardaşı –***red.***) hakimiyyətə sahib oldu və 1784-cü ilin sonunadək Naxçıvana xanlıq etdi. 1785-ci ildə Naxçıvan feodallarından biri olan Şükürəli xan hakimiyyəti öz əlinə keçirdi [13, s. 57]. Şükürəli xan Zülfüqar xan Kəngərlinin oğludur [38].

Şükürəli xan hakimiyyətdə uzun müddət qala bilmədi. İki ildən sonra o, Cəfərqulu xan tərəfindən devrildi.

1787-ci ildə I Kalbalı xan qardaşı Cəfərqulu xanın köməyi ilə hakimiyyətə gəldi. Naxçıvan xanlığını 1797-ci ilədək müstəqil idarə etdi. Sonralar I Kalbalı

xan 1801-1804, 1804-1807-ci illərdə Naxçıvanın xanı, 1808-1810, 1816-1820-ci illərdə (fasilələrlə) Naxçıvanın hakimi olmuşdur.

Naxçıvan xanlarının hakimiyyət şəcərəsinə görə, Kərim xan Kəngərli müəyyən fasilələrlə 1808, 1813-1816 (Qeyd edək ki, Kərim xan 1816-cı ilin bir neçə ayı da əlavə edilməklə Naxçıvan xanlığının hakimi oldu), 1823-1828-ci illərdə Naxçıvan xanlığının hakimi olmuşdur [97, s. 109-119]. Xarici ölkələrin tədqiqatçıları Kərim xanın Abbasqulu xanın oğlu olduğunu yazırlar [44, s. 174]. Digər bir arxiv sənədi də bunu təsdiqləyir: Kərim xanın oğlu İmamqulu xan Heydərqulu xanın oğlu Rəhim xanın qızı Tellibəyimlə ailə qurmuşdur. Tellibəyim Abbasqulu xanın oğlu və Şükrulla xanın qızının övladlarıdır [54, s. 717,998].



Abbasqulu xan Kəngərli

1811-ci ildə I Kalbalı xanın oğlu Nəzərəli xan hakimiyyətə gəldi və 1813-cü ilədək xanlığı idarə etdi. 1813-cü ildə Kərim xan Kəngərli yenidən hakimiyyətə yiyələndi [13, s. 48-70].

1820-ci ildə I Kalbalı xan öz yerinə atasının adını daşıdığından "Böyük Xan" dediyi oğlu I Ehsan xanı hakim təyin etdi. I Kalbalı xan 1823-cü ildə Təbrizdə vəfat etmiş [86, s. 327], I Ehsan xan 1821-ci ilədək Naxçıvanın hakimi olmuşdur. 1821-ci ildə onu böyük qardaşı Nəzərəli xan əvəz etmişdir [13, s. 94]. 1822-ci ildə Hüseyn Mirzə Naxçıvanın hakimi təyin olunmuşdur [13, s. 48-70]. 1826-cı ildə Abbas Mirzə Kərim xanı Məhəmməd Bağır xanla əvəz edir. Amma bu şəxs xanlığı idarə edə bilmədiyi üçün Abbas Mirzə Kərim xanı yenidən hakimiyyətə qaytarır. Kərim xan da Abbas Mirzənin yaxın adamlarından idi. O, həm də onun ordusunun polkovniki olub, bacarıqlı hərbçi kimi ad qazanıb. Kərim xan 1828-ci ildə Naxçıvan xanlığına sahib olmaq üçün Rusiya qoşunları ilə döyüşüb [54, s. 943]. Xok kəndində gedən döyüşlərdə komandirliyi Kərim xan etmişdir. Kürəkəni I Ehsan xanla Ordubadda, Vənənddə qanlı döyüşləri olub. Hərbçi V.A.Pottonun kitabında I Ehsan xanla Kərim xanın Ordubaddakı döyüşləri ətraflı təsvir edilib. Kərim xan Ehsan xanı 10 gün ac-susuz mühasirədə saxlasa da, ona qalib gələ bilmir. Həmin sənəddə deyilir ki, Kərim xanın 1000 nəfər sərbazı I Ehsan xanın yanında olan çox az sayda yaxınları ilə döyüşsələr də məğlub olublar [102, s. 422-431]. Kərim xan 1828-ci ildən sonra Marağada yaşayıb.

Naxçıvan xanlığı müstəqil olduğu illərdə (1747-1797-ci illər) daxili və xarici siyasəti ilə qonşu xanlıqların rəğbətini qazanmış, Heydərqulu xanın, sonralar isə I Kalbalı xanın hakimiyyəti dövründə siyasi diplomatiyası ilə həmişə fərqlənmişdir.

Naxçıvan xanlığının ərazisi, qoşunu, pul vahidi, özünəməxsus xarici, daxili siyasəti, müstəqil dövlətə məxsus atributları olmuşdur.

Naxçıvan diyarı XVI əsrdən XVIII əsrin 30-cu illərinədək kiçik istisnalarla Azərbaycan Səfəvilər dövlətinin tərkibində olmuşdur. Amma buna baxmayaraq

Naxçıvan ayrılıqda inzibati-ərazi vahidi kimi əvvəlcə Təbriz bəylərbəyliyinin, XVII əsrin sonunda isə Çuxursəd bəylərbəyliyinin bir hissəsini təşkil etmişdir. Naxçıvan bu dövrdə iki dəfə Osmanlı imperiyası tərəfindən işğal olunmuşdur. Ona görə də inzibati-ərazi bölgüsündə də müəyyən dəyişikliklər olmuşdu. 1736-1747-ci illərdə, yəni Nadir şahın hakimiyyəti dövründə Naxçıvan yeni yaradılan Azərbaycan vilayətinin tərkibinə daxil edilmişdir.

1747-1797-ci illərdə Naxçıvan xanlığının ərazisi 9428,71 kv.km, 1797-1828-ci illərdə isə 4642,83 kv.km. olmuşdur.

1747-ci il iyun ayının sonlarında yaranan Naxçıvan xanlığı 1797-ci ilədək Naxçıvan, Ordubad, Mehri və Qafan dairələrindən ibarət idi.

1797-ci ildə Naxçıvan xanlığı müstəqilliyini itirir və faktiki olaraq İrandan asılı vəziyyətə düşür. 1797-ci ildən sonra Naxçıvan xanlığına daxil olan Mehri və Qafan mahalları Fətəli xanın köməkliyi ilə İbrahimxəlil xan tərəfindən işğal edilərək Qarabağ xanlığına birləşdirilmişdir [8, s. 26].

Naxçıvan xanlığı İran tərəfindən işğal edildikdən sonra xanlığın müstəqil idarəetmə sistemində tamamilə başqa bir vəziyyət yarandı. Naxçıvan xanlığı və İrəvan xanlığı Cənubi Azərbaycan xanlıqlarının sıralarına daxil edildilər. İran hökmdarı Fətəli şahın oğlu şahzadə Abbas Mirzə Cənubi Azərbaycanı idarə etməyə başladı. Başqa xanlıqlarda olduğu kimi, Naxçıvan xanlığında da ilkin ödənci kim daha böyük məbləğdə ödəyirdisə, xanlıq da ona verilirdi [64, s. 51].

XVIII əsrin sonlarında, XIX əsrin əvvəllərində Naxçıvan xanlığının ərazi-inzibati bölgüsündə dəyişiklik aparılmışdır. Həmin dəyişiklik haqqında bir mənbədə deyilir: "İran hakimiyyəti illərində (1797-1828) buranın idarə olunmasını asanlaşdırmaq məqsədilə Cənubi Azərbaycana hakim təyin edilmiş Abbas Mirzə Naxçıvan xanlığını Naxçıvan və Ordubad dairələrinə bölmüşdü. Həmin dairələr isə öz növbəsində mahallara bölünürdü. Naxçıvan dairəsinə Əlincə, Xok və Dərələyəz mahalları daxil edilmişdi. Ordubad dairəsi isə bu mahallardan ibarət idi: Ordubad, Əylis, Dəstə, Çənnəb və Biləv" [13, s. 23].

Sonralar Naxçıvan xanlığının inzibati-ərazi bölgüsündə dəyişiklik olmuşdur. Xanlıq Naxçıvan, Dərələyəz və Azadçiran (Ordubad) dairələrinə bölünmüşdür. Naxçıvan dairəsi Əlincəçay, Naxçıvan, Məvazixatın, Xok və Dərələyəz mahallarından, Ordubad dairəsi isə Ordubad, Əylis, Dəstə, Biləv və Çənnəb mahallarından ibarət olmuşdur [37, s. 210; 114, s. 446-448].

Rusiya, İran və Osmanlı imperiyası, o cümlədən Qərbi Avropa dövlətləri Qafqaz uğrunda mübarizə apardıqları illərdə mahir sərkərdə I Kalbalı xan Naxçıvan xanlığının müstəqilliyini qorumaq üçün ən çətin diplomatik danışıqlar aparırdı. Onun bir müqəddəs vəzifəsi var idi: Naxçıvan xanlığının müstəqilliyini qorumaq.

Naxçıvan xanlığının tarixini beş mərhələyə bölmək olar:

I mərhələ Naxçıvan xanlığının banisi Heydərqulu xanın hakimiyyəti və fəaliyyəti (1747-1763/64-cü illər)dövrünü əhatə edir;

II mərhələ–1764-1787-ci illər. Hakimiyyət uğrunda çəkişmələr dövrü;

III mərhələ–I Kalbalı xanın 1787-1797-ci illərdə hakimiyyəti və fəaliyyəti dövrü.

IV mərhələ–1797-1828-ci illərə aiddir. Bu dövrdə Naxçıvan xanlığının tənəzzülü başlayır. Hakimiyyət əldən-ələ keçir;

V mərhələ–Naxçıvan xanlığının süqutu dövrü. Bu mərhələdə Naxçıvan və İrəvan xanlıqlarının ərazisində qondarma "erməni vilayəti"nin yaradılması ilə əlaqədar olaraq Naxçıvan xanlığının dövlətçilik prinsiplərinə böyük zərbə vurulur. Həmçinin ərazisi Rusiya tərəfindən işğal olunur.

Naxçıvan xanlığını Azərbaycanın digər xanlıqlarından fərqləndirən bir cəhət var: Naxçıvan xanlığı formal olaraq 1840-cı ilədək fəaliyyət göstərib [97, s. 8]. Kəngərli tayfasına və süvarilərinə Don kazaklarına verilən imtiyazlar şamil olunub.

1828-ci ildən 1840-cı ilədək I Kalbalı xanın oğlu I Ehsan xan Naxçıvanın naibi olur. Getdikcə bütün səlahiyyətləri əlindən alınan I Ehsan xan etiraz əlaməti olaraq öz ərizəsi ilə naiblikdən əl çəkir və Naxçıvan Kəngərli süvarilərinin atamanı təyin edilir [96, s. 189, 278].

1823-cü ildə I Kalbalı xanın, 1846-cı ildə oğlu I Ehsan xanın müəmmalı ölümü Rusiya tərəfindən açıq şəkildə himayə edilən ermənilərin Naxçıvanın ərazisini zəbt etmələrinə və qədim tarixini saxtalaşdırmalarına şərait yaradır.

Naxçıvan xanlığının müstəqilliyinin və ərazi bütövlüyünün itirilməsinə aşağıdakılar səbəb olmuşdur:

1. Ağa Məhəmməd şah Qacarın Naxçıvana və onu idarə edən I Kalbalı xana qarşı qisasçılıq siyasəti;

2. Rusiya-İran müharibələri və Türkmənçay müqaviləsi.

Naxçıvan xanlığı müstəqil olduğu illərdə özünün daxili və xarici siyasətində sərbəst fəaliyyət göstərirdi. Müstəqil dövlət qurumu olan xanlığın ali hakimi xan özü idi. Naxçıvan xanlığını yarandığı gündən Kəngərli xanları idarə edirdi. Kəngərlilər sərbəst, müstəqil yaşamağı və öz dövlət qurumlarını-Naxçıvan xanlığını müdafiə etməyi yaxşı bacarırdılar.

Səfəvi imperiyası zamanında da Naxçıvanda yerli Kəngərli tayfasından Rzaəddin xan (1647), Şərif xan (1678), Məmmədrza xan (1691) hakimlik etmişlər [38, s. 29].

Xanlıqda xan tam müstəqil şəxs idi [60, s. 49]. Xandan sonra isə sultanlar və bəylər yüksək mövqe sahibi idilər [57, s. 135].

Naxçıvan xanlığının da dövlət aparatı digər Azərbaycan xanlıqları kimi Səfəvi dövlət aparatının sadələşmiş sxemi əsasında qurulmuşdur [3, s.30]. Amma xanlıqlar müstəqil olduqlarından geniş ərazilərə malik deyildilər. Ona görə də xanlıqda idarəetmə sistemi üçün lazım olmayan bəzi orqanlar ləğv edilmiş, yaxud da yenisi ilə əvəz edilmişdir [96, s. 89-90]. Naxçıvan xanlığında bəzi hallarda

ərazi-inzibati bölgüsündə dəyişiklik aparılsa da, xan məmurlarının idarəçilikdə olan imtiyazları əvvəlki dövrdə olduğu kimi qalırdı. Naxçıvan xanlığı müstəqil olduğu illər ərzində xanlığın daxili işlərinə və xarici siyasətinə xan özü başçılıq etsə də, 1797-ci ildən sonra İrandan asılı vəziyyətə düşmüşdü. Abbas Mirzənin xanları təyinetmə prosesi mənbələrdə aşağıdakı kimi təsvir edilir: "Abbas Mirzə hər dəfə xanı təyin edərkən ona qızıl suyuna çəkilmiş və platinlə bəzədilmiş yəhər bağışlayırdı. Bundan başqa xan şahın iradəsini yerinə yetirdisə, o zaman əlavə olaraq şah hər bayramda ona təzə xələt və qiymətli kəmər bağışlayırdı" [67, s. 52]. Əgər əvvəllər Naxçıvan xanı "hakimi-mütləq" hesab edilirdisə, indi İran şahından asılı idi. O, yerli orqanlara özünün yaxın adamlarını təyin etsə də, hökmən şahın tapşırıqlarını nəzərə almalıydı. Xanlıq taxtında əyləşən xanlar öz xəzinələrini əhalidən toplanan vergilərə əsasən doldururdular. Naxçıvan xanları vergilərdən topladıqları gəlirdən əlavə, eyni zamanda vəzifəli şəxslərə çox nadir hallarda xəzinədən maaş verirdilər.

Naxçıvan xanlığını idarə etmək üçün əksər hallarda Kəngərli tayfalarından olan iki nəfər feodal təyin olunurdu. Onlardan biri xanlığın iqtisadiyyatını təyin edən əsas sima idi, digəri isə xanlığın qanunlarına rəhbərlik edir, tayfanın və ordunun rəisi hesab olunurdu [13, s. 22].

Naxçıvan xanlığının qoşun rəisi olan Lütfəli Sultanın atası Məhəmmədkərim Sultan 1760-1780-ci illərdə Naxçıvan xanlığının vəkili olmuş və xanlığı idarə edən Kəngərli tayfasının ağsaqqalı kimi fəaliyyət göstərmişdir [97, s. 52-53]. Məhəmmədkərim Sultanın atası Əliməmməd bəy də 1749-1759-cu illərdə Naxçıvan xanlığında Kəngərli tayfasının vəkili olmuşdur [97, s. 44]. Əliməmməd bəydən 5 arxa nəsil babaları da Kəngərli tayfasının vəkili olmuşlar [115].

Astrabad ölkəsinin bəylərbəyi Mürtəzaqulu xan Kəngərlinin böyük oğlu Səfiqulu xan (o da Naxçıvanın hakimi olub) Lütfəli Sultanın qaynatası idi. Səfiqulu xanın qızlığı Mələknisa xanım isə Lütfəli Sultanın həyat yoldaşı olub [34, s. 144]. Belə bir qohumluq dərəcəsi Lütfəli Sultanın Naxçıvan xanlığında tutduğu yüksək mövqenin çox əhatəli olduğunu göstərir.

Naxçıvan xanlığının bölündüyü hər bir mahalı mirbölüklər idarə edirdilər. Onların əsas vəzifələri xanın əmrlərini yerinə yetirmək, vergilərin yığılması və s. kimi məsələlərlə bağlı olurdu. Mirbölüklər "kənd təsərrüfatı işlərinə rəhbərlik etdikləri üçün aldıqları maaşdan başqa hər il 20 tüməndən 50 tümənə qədər pul və 5 xalvardan 10 xalvara qədər taxıl, habelə toy mərasimləri dövründə isə müxtəlif hədiyyələr alırdılar" [67, s. 53].

Azərbaycan xanlıqlarının çoxunda mirbölüklər mirzəbəyilər, yaxud mirzələr adlanırdı [13, s. 23]. Kəndxudaları kənd icması seçirdi, xan isə təsdiqləyirdi. Onlar hər il 10 tümən maaş alırdılar. Kəndxudalardan yazılı iltizam alırdılar ki, baş vermiş hadisə və yeniliklər haqqında ardıcıl olaraq xan divanına məlumat versinlər. Bu məlumatlar, əsasən, kəndə gələn yeni işçi qüvvələrinin və gənclik yaşına

çatmış yeniyetmələrin siyahıya alınmasından ibarət idi.

İşində səhlənkarlığa görə, kəndxuda gümüş pulla yüz manatdan iki yüz manata qədər cərimə verirdi. Bəzi hallarda cəzaya da məruz qalırdı [67, s. 54]. Xan xəzinəsinə vergi yığılması işinə sərkarlar başçılıq edirdilər. Onlara mahal naibləri (mirbölüklər, mirzəbəyilər) və kəndxudalar köməklik göstərirdilər. Vergini vaxtında yığmayan sərkarları xan yenisi ilə əvəz edirdi [49, s. 65]. Naxçıvan xanlığında, əsasən üç şəhər- Naxçıvan, Ordubad və Əylis şəhərləri vardı [13, s. 35]. Nadir şahın ölümündən sonra İranda və Cənubi Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparan Azad xan 1752-ci ildə Naxçıvan xanlığının mühüm ticarət və sənətkarlıq mərkəzlərindən olan Əylis şəhərini yerlə yeksan etmiş, onun bir də dirçəlməsi üçün heç bir ümid yeri qoymamışdı. Sonralar Əylis şəhərinin yerində onun sənətkarlıq ənənələrini qismən davam etdirən böyük kəndlər – Aşağı Əylis və Yuxarı Əylis əmələ gəlmişdi [32, s. 20].

Bu şəhərlərdə qalalar olduğundan şəhəri idarə edənlər qalabəyilər və kələntərlər adlanırdı. Səfəvilər dövründən başlayaraq şəhərlərdə məhəllə başçılarına və sənətkarların ağsaqqallarına başçılıq edən adamlara kələntər deyilirdi [29, s. 39]. Kələntər isə şah tərəfindən təyin edilirdi [23, s. 18].

Naxçıvan xanlığı müstəqil olduğu illərdə də Naxçıvan şəhərinin kələntəri olub. Hicri 1191-ci ilin 29 zilhəcceyi-həram ayında (miladi tarixlə 1777-ci ilin dekabrı) yazılmış bir sənəddə Mirzə Məhəmməd Kələntərin və hicri 1205-ci (miladi 1790, avqust) ilin şəbanül-müəzzəm ayında yazılan sənəddə isə kələntər Mirzə Rəhimin adı çəkilir [41, s. 99].

Qalabəyilər qala divarları içərisində yerləşən xan sarayının və şəhər qapılarının açarları üçün məsuliyyət daşıyırdılar. Hətta hərbi məqsədlər üçün tikilən qalaların da qalabəyisi vardı. Naxçıvan xanlığında belə hərbi qalalardan biri 1810-cu ildə tikilmiş Abbasabad qalası idi [75, s.131]. Rus ordusunun mayoru Matuşeviçin yazdığına görə 1803-cü ildə Naxçıvan qalası 6 qülləsi ilə dururmuş və burada müdafiə üçün 4 top qoyulubmuş.

Xanlıqda polis idarəsi 2 nəfərə etibar edilirdi: darğaya və əsasbaşına. Darğa gündüzlər qayda-qanun yaradır, bazarda qiymətlərə nəzarət edir və baş verən dava-dalaşları yatırırdı. Xan xəzinəsindən darğalara maaş verilmədiyindən onlar hər ay nəzarət etdikləri dükanların hər birindən 15 qəpik gümüş pul alırdılar. Ozləri üçün ərzağı bazardan pulsuz götürürdülər. Əsasbaşılar isə gecə vaxtı əmin-amanlığa cavabdeh olduqları üçün xüsusi dəstələr saxlayırdılar. Onlar da maaş əvəzinə dükanların hər birindən 15 qəpik gümüş pul alırdılar. Əsasbaşılar gözətçiləri də həmin pulla təmin edirdilər. Onlar nəinki gecə vaxtı əhalinin təhlükəsizliyini, hətta onların bazarlardakı mallarını da qoruyurdular [70, s. 257]. Onbaşılar və yüzbaşılar da darğaya tabe idilər.

Xanın mülkü və polis işçiləri ilə bağlı işlərini eşikağası həyata keçirirdi. O, xanın ən yaxın köməkçisi idi. Xan divanına gələnləri əvvəlcə eşikağası qəbul edir

və məsləhət bildikdə xanın qəbuluna aparırdı.

Xanlıqda daxili idarəetmədə vəzifəli şəxslərdən biri də mirablar idi. Onlar xanlıq ərazisində olan kəndlərdə və 2 şəhərdə suyun bölüşdürülməsinə nəzarət edirdilər. Mirablar maaş əvəzinə sudan istifadə edənlərdən 15 batman taxıl və ya yarım batman pambıq alırdılar. Naxçıvan çayından çəkilən arxın suyundan istifadə edən ətraf kəndlərin əhalisi miraba "hədiyyə" kimi heyvan, taxıl və yaxud başqa məhsullar verirdilər [67, s. 55].

Xanlıqda xandan sonra ikinci adam vəzir sayılırdı. O, əsasən xanlığın daxili və xarici siyasəti ilə bağlı işləri yerinə yetirirdi. Başqa xanlıqlarda olduğu kimi Naxçıvan xanlığında da məhkəmənin üç forması fəaliyyət göstərirdi: divan- dövlət əhəmiyyətli və vacib cinayət tərkibli işlərə baxırdı. Bu işi əsasən xan özü həll edirdi. Çətin anlarda birinci olaraq axundun fikrini soruşurdu.

Şəriət məhkəməsi varislik, nigah, əmlak və digər məsələləri həll edirdi. Naxçıvanda üç axund fəaliyyət göstərirdi. Şeyxülislam, Qazı və Pişnamaz. Bunlar xana tabe deyildilər, özlərinin ruhani hakimiyyəti var idi [67, s. 58].

Üçüncü məhkəmə forması sənətkarların şikayətlərini həll edir və əsnaf adlanırdı [49, s. 66].

Tarixi mənbələrin məlumatına görə əvvəllər Naxçıvan xanlığında daimi qoşunlar yox idi, ancaq lazım olanda tüfəngçiləri bir yerə yığırdılar. Bunlar da mühafizə polisi rolunu oynayırdılar. Süvari dəstələr isə ancaq kəngərlilərdən ibarət idi. Baş rəisdən başqa, qalanları xanın qohumlarından seçilən 2 sultan, 4 naib, tələb edilən sayda yüzbaşılar hərbi süvari dəstəsini təşkil edirdi. Hər bir süvariyə ayda 40 manat gümüş pul və 2,5 batman çörək verirdilər. Atlar üçün ancaq qış zamanı hər aya 50 batman yem verirdilər. Bütün kəngərlilər şəxsi vergilərdən azad idilər. 300 nəfər süvarinin içərisindən seçilmiş 30 nəfər həmişə xanın yanında olurdu. Onlar hamısı xüsusi rəisin-Qullarağasının idarəçiliyinə tabe idilər. Yaxşı xidmətləri üçün xan onlara yaşadığı kəndlərdə əkin sahələri verirdi [67, s. 60-61].

Qullarağası hələ Səfəvilərin hakimiyyəti zamanında yaradılmış bir hərbi vəzifə idi. Şəxsən xan sarayına məxsus bu qoşun hissələri Qafqazın Gürcüstan və s. məntəqələrindən tutulub qul kimi İrana aparılmış gənclərdən və eləcə də İranda doğulmuş qeyri-müsəlman millətlərdən təşkil olunurdu [42, s. 195].

Bu qoşun növünə kəngərlilərdən hərbi rəis təyin edirdilər. Sonralar xanlıq dövründə belə qoşun növü yox idi. Amma həmin vəzifəni daşıyanların varisləri, əsasən 1800-cü ildən etibarən Qullarağasıyevlər familiyasını daşıyırdılar. Tarixi mənbənin faktları maraqlı olsa da, xanlıq dövrünün, ümumiyyətlə, XIX yüzilliyə kimi Naxçıvan hərb sənəti haqqında bəsit təsəvvür yaradır. Çünki çox qədim zamanlardan bəri Naxçıvanın olduqca maraqlı hərb tarixi vardır. Kəngərli süvari dəstələri birdən-birə yaradıla bilməzdi və onlar belə məharətlə, müxtəlif döyüş fəndləri ilə döyüşə bilməzdilər. Naxçıvan süvarilərinin keçdiyi orijinal bir hərb tarixi olan inkişaf yolu var. Arxiv sənədlərinə görə, Naxçıvan uzun müddət Səfəvi

dövlətinin xidmətinə "Naxçıvan süvariləri" adı altında Kəngərli tayfalarından yığma atlı dəstələr göndərirdi. Kəngərli süvariləri heç zaman piyada əsgər dəstələri kimi "sərbaz" adlandırılmamışdır [67, s. 10, 54].

Digər xanlıqlarda daimi silahlı dəstələr muzdlu döyüşçülərdən ibarət olsalar da, Naxçıvan xanlığında bu iş tamam fərqli şəkildə idi. Yəni atlı dəstələr ancaq kəngərlilərdən təşkil olunurdu. Qeyri-nizami qoşun sayılsa da, çox hazırlıqlı idilər. Naxçıvan xanlığının Kəngərli süvariləri haqqında deyilir: "Onlar haqqında fikir demək üçün gərək o qoşunları döyüş vaxtı müşahidə edəsən. Bunlar elə bil ki, qəzəblənmiş Allahın odu və ildırımıdırlar. Döyüş vaxtı göydən düşmənlərin lap mərkəzinə düşürlər, ölüm və dəhşət səpələyirlər. Elə o vaxtdan mənim gözlərim önündə baş verən müsəlman qoşunların möcüzəli igidliklərini sevinclə xatırlayıram" [77, s. 92].



Kəngərli süvarilərinin döyüş bayrağı



Kəngərli süvari dəstəsinin fəxri bayrağı

Naxçıvan xanlığına aid sənədlərdə maafların da adlarına rast gəlinir. Vergi və mükəlləfiyyətlərdən azad olunmuş maaflar da təhlükəli günlərdə, çərik döyüşçülər kimi xanın tələb etdiyi yerlərdə hazır olmalı idilər [11, s. 77]. Amma Naxçıvan xanlığında sərhədlərin ən sədaqətli və etibarlı keşikçiləri Kəngərli süvariləri sayılırdı. Buna əsas səbəb isə Naxçıvan xanlığının əhalisinin əksəriyyətinin Kəngərli tayfasından ibarət olması idi. Naxçıvan xanlığında I Kalbalı xanın hakimiyyəti dövründə qoşunların sayının 12 min döyüşçüdən ibarət olması haqqında məlumat vardır [52, s. 625-627].

Naxçıvan xanlığında artıq XVIII yüzilliyin axırlarında süvarilər odlu silahlardan istifadə edirmişlər. XVIII əsrdə Qafqazda olan xanlıqların hamısında süvari qoşunların odlu silahlarla silahlanmağı haqqında bir mənbədə deyilir: "Süvarilərin atları çox qəşəng və iti sürətlidir, həmçinin hamısının odlu silahı və qılıncı var, bir az qismində isə ox- kamana rast gəlmək olur" [64, s. 232]. Xanlıqda silah istehsalı ilə bağlı başlıca olaraq Naxçıvan və Ordubad şəhərlərində məşğul olurdular. Adları çəkilən şəhərlərin hər birində üç adam tüfəng, üç adam isə tüfəng qundağı hazırlayırdı. İstər xanlıq dövründə, istərsə də Naxçıvan xanlığının Rusiya tərəfindən işğalından sonra Kəngərli süvariləri əvvəlki döyüş hünərlərini qoruyub saxlamışlar.

Qafqaz müsəlman süvarilərinin döyüşlərini görən məşhur rus yazıçısı L.N.Tolstoy yazırdı: "Həqiqətən bu sərt diyarda iki əksqütblü şeylər-müharibə və azadlıq, qorxulu, həm də şairanə şəkildə birləşirlər" [82, s. 10].

Bu faktlar Kəngərli süvarilərinin öz igidlikləri ilə qədim zamanlardan şöhrət tapdığından xəbər verir. Qafqazın ən qədim sakinləri olan azərbaycanlıların

əla at sürməyi, döyüş bacarıqları, sədaqətləri və digər yüksək əxlaqi keyfiyyətləri zaman-zaman hökmdarların nəzərindən yayınmamışdır.

Naxçıvan xanlığı Rusiya imperiyası tərəfindən işğal ediləndən sonra da Naxçıvan süvarilərinin cəsurluğu həmin dövlətin hökmdarlarının – çar hərbi dairələrinin diqqət mərkəzində olmuşdur. 1828-ci ildən sonra çar Rusiyası Azərbaycanda nizamlı süvari qoşunları – atlı dəstələri yaratmaq işinə ciddi cəhdlə girişməyə başladı. Çünki bu alayların döyüş hünərlərinə çar süvarilərinin özləri belə həsəd aparırdılar. Dağlıq yerlərdə Kəngərli süvariləri qorxmadan, özü də çox çevik döyüşlər nümayiş etdirirdilər.



Əşrəf ağa Kəngərli qırmızı kaporlu Kəngərli süvarilərinə məxsus atın üstündə

Naxçıvan xanlığında atlı dəstənin-Kəngərli süvarilərinin vahid forma və xüsusi geyimləri olmuşdur. Hətta atların başlarına geyindirdikləri qırmızı rəngli kaporlar- parçalar onları digər döyüşçülərdən fərqləndirirdi. Kaporlar əla növ ipəklərdən- qanovuzdan, yaxud atlazdan hazırlanırdı. Hamısının da döyüş qılıncları yanlarında olurdu. Hətta tüfənglər və digər silahlar istehsal olunandan sonra da süvarinin qılıncı yanında olurdu.

Kəngərli süvarilərinin xüsusi geyimləri olmuşdur [90, s. 139-144]. Belə qeyri-nizami döyüşçü dəstələrinə çəriklər də deyilirdi [11, s. 76].


Sənədlərdə Kəngərli süvarilərinin hərbi geyimləri tünd yaşıl rəngli zərif mahud çuxa formasında təsvir olunur. Bu çuxanın astarı, qolları da daxil olmaqla qırmızı qanovuzdandır. Şalvarları yarımipəkdir. Köynəkləri qırmızı şilədən, döş hissəsi isə qanovuzdandır. Alt paltarları göy rəngli çitdən hazırlanmışdır, geydikləri uzunboğaz çəkmələr çox yüngüldür. Bu çəkmələrə "Qarabağ çəkmələri" deyirlər. Çiyinlərinə saldıqları yapıncı qara rənglidir. Dağıstanın qara mahudundan tikilmiş başlıqları da var. Papaqları da bayramsayağıdır.

Döyüş atları Qarabağ kəhərləridir. Sənədlərdə atların rəngi, nişanələri, boylarının hündürlüyü, hətta bəzəkləri haqqında ətraflı məlumatlar yazılıb. Orada deyilir ki, atların yüyənləri və sinəsindəki bəzəklər təmiz gümüşdəndir. Hətta at sahiblərinin, yəni süvarilərin çiyinlərindəki aşırmadakı patrondaş (patron qabı da deyilir) gümüşlə bəzədilib. Aşırmanın üzü də təmiz gümüşdən hazırlanır. Süvarilərin çiyinlərinə asdıqları tüfənglər yüngül və gödək lülәlidir, qundağında gümüşlə bəzəklər işlənmişdir [90, s. 139-144].

Kəngərli süvarilərin özünəməxsus döyüş taktikaları var idi. Həmin süvari dəstəsindən düşmən üzərinə qəflətən hücum etmək, düşməni mühasirəyə almaq, döyüş zamanı düşmən arxasına keçib gözlənilmədən zərbə endirmək üçün istifadə olunurdu.

Naxçıvan xanlığının 1827-ci ilədək dövlətçilik rəmzləri - bayraqları və

döyüş bayraqları olmuşdur. Bu döyüş bayraqlarından biri 1827-ci ildə Abbasabad qalasında döyüşən Naxçıvan batalyonuna məxsus olmuşdur. Həmin bayraq sonralar Tiflisdəki "Qafqaz" hərbi muzeyinin 77 №-li bölməsində saxlanılmışdır. Həmin döyüş bayrağının təsviri aşağıdakı kimidir: "Qırmızı mahud parçadan ibarət olan bayraq bir ucludur. Uzununa tərəfləri saçaqlıdır və hər iki tərəfdən mahud parça üzərində rəngli parçalarla Şir və Günəş təsviri tikilmişdir. Əl şəkli vardır və dəstəyi ağacdandır" [111, s. 45]. Qeyd edək ki, "Şir və Günəş" qədim türk simvoludur. Bu, Azərbaycan Atabəyləri dövlətinin istifadə etdiyi simvoldur [79, s. 20].



Naxçıvan xanlığının gerbi



Naxçıvan xanlığının bayrağı

Bu dövrdə Naxçıvan xanlarının hakimiyyət rəmzi kimi bunçukları da olmuşdur. Bunçuk (türk dilində tuğ və ya qotaz) ilk dəfə Osmanlı ordularında istifadə edilmişdir. Bunçuk at və ya Tibet öküzünün quyruğu olub, 2-2,5 metr uzunluğunda bəzədilmiş ağacın ucuna keçirilir, qızılı rəngli mis və ya sümük sonluqla qurtarırdı. Bunçuk Polşa və Ukraynaya da Türkiyədən keçmişdir. Getman və ya atamanın hakimiyyət rəmzi, sonralar isə Rusiyada Don kazaklarının hakimiyyət göstəricisi olmuşdur. Yürüşdən əvvəl bunçuk hərbi sərkərdələrin başının üstündə qaldırılır, düşərgədə onun çadırının qarşısına qoyulurdu. 1706-cı ildə I Pyotr sədaqətli xidmət etdiklərinə görə Don kazaklarına bunçuk vermişdir. Bunçukun təsviri 1803-cü ildə Çerkask şəhərinin gerbində də verilmişdir [6, s. 104-107].

Naxçıvan xanlığında dövriyyədə, əsasən "tümən", "yarım tümən", "sahibqıran", "pənahabad", "şahı", "yarım şahı", "para", "mahmudiyyə", "səksənlik" və "yüzlük" kimi Azərbaycan və İran pul vahidləri işlədilirdi [13, s. 47]. Naxçıvan xanlığında pul vahidi də zərblənmişdir.



Gümüş sikkə. Naxçıvan xanlığı dövrü (XVIII əsr).

Naxçıvan xanlığı özünün bütün rəsmi atributları ilə müstəqil dövlət olmuşdur. Bu müstəqilliyi təsdiqləyən əsas amillərdən biri Naxçıvan xanlarının hamısının Kəngərli tayfasından olmaları və xanlıqda hakimiyyətə tam sahiblik etmələridir. Onların müstəqil daxili və xarici siyasəti, xanlığın ərazisi, bayrağı və paytaxtı, inzibati-ərazi bölgüsü, pulu və qoşunu müstəqil dövlətə xas olan əsas atributlardır.

3. Naxçıvan xanlığı I Kalbalı xanın dövründə

1783-1784 və 1787-ci illərdə Naxçıvana xanlıq etmiş Cəfərqulu xanın ulu babası Murad xan Kəngərli vaxtı ilə Naxçıvanın hakimi olmuşdu. Naxçıvan xanlığının işğalçılara qismət ola biləcəyindən ehtiyat edən Cəfərqulu xan hakimiyyəti qardaşı I Kalbalı xana təhvil verdi. I Kalbalı xan Ehsan xan oğlu təxminən XVIII əsrin 30-40-cı illərində anadan olmuşdur [89]. Onun atasının adı 1761-ci ilə aid arxiv sənədində "Alicah Ehsan xan" kimi qeyd olunmuşdur [41, s. 49].

I Kalbalı xan Naxçıvan xanlığını müstəqil idarə etdiyi illərdə (1787-1797) onun inkişafına ciddi fikir vermişdir. O, mahir bir süvari qoşun sərkərdəsi olmaqla bərabər, olduqca bacarıqlı diplomat idi. Həm Rusiyanın, həm də İranın işğalçılıq siyasətinə qarşı diplomatik addımlar atıb.

Müəyyən səbəblərdən hakimiyyətin tez-tez dəyişildiyi Naxçıvan xanlığı 1787-ci ildən 1797-ci ilədək intibah dövrünü yaşayıb. Bu müddət ərzində xanlığa ağıllı və cəsur sərkərdə olan I Kalbalı xan başçılıq edirdi. O, Qafqazın ən güclü hökmdarlarından olan gürcü çarı İraklinin çox ehtiram bəslədiyi bir sərkərdə idi [67, s. 49].

I Kalbalı xan Kəngərli tayfasının Bilici qolundan olduğu üçün, inandığı şəxslərin köməyi ilə tez bir zamanda Naxçıvan xanlığındakı iqtisadi tənəzzülü inkişafa çevirə bildi. O, Kəngərli süvarilərinin nizam-intizamına ciddi fikir verirdi. I Kalbalı xanın rəhbərliyi altında xanlığın sərhədlərini ayıq-sayıq qoruyan Kəngərli süvariləri naxçıvanlıların dərin rəğbətini qazandı. I Kalbalı xan yenidən xanlığın ordusunu əvvəlki şöhrətinə qaytardı.

Xanlıqda əkinçilik və meyvə bağlarının salınması əhalidə böyük ruh yüksəkliyi yaratdı. Naxçıvan şəhəri yaxınlığındakı Duzdağda və Sürməli (indiki İqdır – ***red.)*** yaxınlığında xanlığa məxsus olan Kulpda (İndiki Tuzluca – ***red.***) duz mədənləri fəaliyyətə başladı [86, s. 20].

Naxçıvan xanlığında şəhərlərdə və böyük kəndlərdə məktəblər açıldı. Bir sözlə, I Kalbalı xanın hakimiyyəti illərində müstəqil Naxçıvan xanlığı varlı və firavan bir ölkəyə çevrildi. I Kalbalı xan 1787-ci ildən 1823-cü ilədək, yəni ömrünün sonunadək Naxçıvan xanlığının qorunub saxlanılması üçün çox işlər görmüşdür. Bunun üçün o, diplomatik manevrlər etmiş və lazım gələndə kəngərlilərin süvari qoşunlarına başçılıq edərək döyüşmüşdür.

Ağa Məhəmməd xan Qacar Şimali Azərbaycana 1795-ci ildə etdiyi yürüşdə Azərbaycanın məşhur sərkərdələrini də öz qoşunlarının tərkibində Tiflisə apardı. Onlardan biri də I Kalbalı xan idi. Gürcü tarixçisi Teymuraz Baqrationi "David Baqrationinin tarixi" kitabında yazır: "İranlılar Gürcüstanın qədim paytaxtı Msxetaya yaxınlaşdıqda Ağa Məhəmməd xanın qoşununun bir hissəsinin sərkərdəsi, Naxçıvan xanı Kalbalı xan Kəngərli şəhərin dağıdılmasına icazə

vermədi; burada ibadətgahlar və padşahların məqbərələri var idi" [17, s. 22-28].

1796-cı ildə I Kalbalı xan Abbasqulu xanın Naxçıvan xanlığına hakimlik iddiasını aradan qaldırmaq üçün onu Ağa Məhəmməd şah Qacara əmanət göndərir [13, s. 63-64]. Ağa Məhəmməd xan bilirdi ki, Kalbalı xanın göndərdiyi Abbasqulu xan onun doğma qardaşı oğlu deyil [13, s. 63].

Naxçıvan xanlığı I Kalbalı xanın dövründə diplomatik münasibətlərini daha da fəallaşdırmışdır.

Bəzi arxiv sənədlərində I Kalbalı xanın oğlanlarının hamısının soyadları rəsmi olaraq Kəngərli-Naxçıvanski-Muradov kimi yazılmışdır. I Kalbalı xanın oğlanlarının adları Nəzərəli xan, Ehsan xan, Şeyxəli bəy, Fərəc ağa, Mehdiqulu xan və İskəndər xandır [91, v. 23]. Sonralar I Kalbalı xanın varisləri əsasən Kalbalıxanov və Naxçıvanski, Naxçıvani soyadlarını daşımışlar.

I Kalbalı xan Naxçıvanın müstəqilliyini qorumaq üçün özünə güclü hərbi müttəfiqlər axtarırdı. Onun çox güvəndiyi Qarabağ xanlığı idi [48, s. 23]. Bu isə İran şahı Ağa Məhəmməd şah Qacarı çox qəzəbləndirirdi. Sonralar Ağa Məhəmməd şah Qacar Naxçıvana yolladığı süvari dəstəsinə konkret əmr vermişdi: xanlığı darmadağın edib, əhalini İranın ucqarlarına köçürsün. Ağa Məhəmmədin bu dəfəki qoşunlarına müqavimət göstərə bilməyəcəyinə əmin olan Naxçıvan xanı Kalbalı xan yurdunu, özünü və əhalini gözlənilən bəladan qurtarmaq üçün şəxsən qiymətli hədiyyələrlə Ərdəbilə gedib şahdan imdad istədi. Ağa Məhəmməd şah ondan hədiyyələri alsa da, V.Zubov ilə məktublaşdığına və Rusiya dövlətinin himayəsinə keçmək istədiyinə görə onun gözlərini çıxartdırıb bir məhbus kimi Tehrana göndərdi" [51, s. 380-381, 642].

I Kalbalı xanın Ağa Məhəmməd şah Qacar tərəfindən cəzalandırılması 1797-ci ilin yanvar ayında Ərdəbil ətrafında olub. Ərdəbil yaxınlığındakı Seyidlər kəndində I Kalbalı xanın gözlərini çıxarıblar. Burada Ağa Məhəmməd şahın iqamətgahı yerləşirdi. Ağa Məhəmməd şahın Qarabağa ikinci yürüşü də I Kalbalı xanın gözləri çıxarılandan 3 ay sonra başlanıb. Qarabağa ikinci yürüş təxminən mayın əvvəllərində olub. Ağa Məhəmməd şah 1797-ci il mayın 7-də qətlə yetirilib [49, s. 128].

Bu haqda o vaxtlar Qafqazda hərbi səfərlərdə iştirak edən və şəxsən I Kalbalı xanı tanıyan P.Q.Butkov və N.F.Dubrovin məlumat vermişlər [63, s. 427-428; 69, s. 20].

Ağa Məhəmməd şah Qacar öldürüldükdən sonra hakimiyyətə Fətəli şah gəldi. Bu zaman o, I Kalbalı xanı həbsdən azad etsə də, ona Naxçıvanda yox, İrəvanda yaşamağa icazə verdi. Həmin illərdə İrəvan xanlığına onun qaynı Məhəmməd xan İrəvanski hakimlik edirdi. Əhməd xan Xoyski (1763-1786-cı illərdə xanlıq edib) İrəvan üzərində öz nüfuzunu saxlamaq üçün 1783-84-cü illərdə qızını Məhəmməd xan İrəvanskiyə ərə verib [31, s. 49].

I Kalbalı xan 1800-1803-cü illərdə İrəvan xanlığının qoşunlarına başçılıq

etmiş, Məhəmməd xanın müşaviri və xanlığın hərbi rəisi olmuşdur [51, s. 117-119]. İrəvan xanlığının müstəqilliyi uğrunda dəfələrlə İran və Rusiya qoşunlarına qarşı vuruşmuşdur. O, İrəvan xanlığı ilə Kartli-Kaxeti çarlığı arasında olan mübahisəli ərazi məsələsinin-Pəmbək və Şörəyelin İrəvan xanlığına qaytarılması üçün hərbi toqquşmalarda da olmuşdur. 1808-ci ilin yazında onu həbs edib yenidən Tehrana aparmışlar [51, s. 713]. Sonralar yenə də həbsdən azad edilmiş və 1810-cu ildə Rusiya qoşunlarına qarşı vuruşmuşdur [54, s. 738-739; 101, s. 41-43].

Rus qafqazşünasları görkəmli sərkərdə və bacarıqlı dövlət başçısı olan Kalbalı xan haqqında öz əsərlərində dönə-dönə bəhs etmiş, müəyyən qədər maraqlı, bəzən də ziddiyyətli məlumatlar vermişlər [108, s. 17]. Ziddiyyətli məlumatlara baxmayaraq, oradakı faktlar I Kalbalı xanın xarakterini müəyyən qədər açmış olur: "Bu xan özünün igidliyi, əzəməti, məğrurluğu, sərtliyi və amansızlığı ilə məşhurdur" [51, s. 119]. Naxçıvan xanlığının qonşusu olan Axalçıxlı Məhəmməd paşa isə əksinə, I Kalbalı xanı nüfuzdan salan, şəxsiyyətinə ləkə vuran sözlər işlədir: "Kalbalı xan öz azğınlığına görə heç bir imperator qoşununu tanımır, olduqca qəddar davranır" [51, s. 906].

Əslində I Kalbalı xanın əleyhinə olanları bu cəhət – I Kalbalı xanın Naxçıvanın azadlığı və müstəqilliyi uğrunda apardığı amansız döyüşlər və onun döyüşçü süvarilərinin yürüşləri qorxudurdu. Kalbalı xandan çox qorxanlardan biri knyaz Sisianov idi. O, Rusiyanın hakim dairələrinə, həmçinin əli çatan xanlıqlara xəbər verirdi ki, Kalbalı xandan özlərini qorusunlar. Bütün Qafqaz canişinləri Kalbalı xanın nüfuzunun xalq arasında çox yüksək olduğunu bilirdilər. Tez-tez ona kömək üçün müraciət edirdilər [13, s. 68-70].

1813-cü ildə bağlanmış Gülüstan müqaviləsindən sonra Naxçıvan xanlığı ən çətin dövrünü yaşayırdı. 1804-1813-cü illərdəki müharibə başa çatsa da, Rusiyanın Naxçıvan xanlığını işğal etmək planı gündəlikdə dururdu. Müharibənin bitməsinə baxmayaraq, bölgədə gərginlik qalmaqda idi. Həm də Rusiya imperiyası özünün nizami qoşunlarını, eləcə də kazaklardan təşkil olunmuş döyüşçü dəstələrini Qafqaz xəttində yerləşdirməkdə davam edirdi [72, s. 813]. Rusiya Cənubi Qafqazı işğal etmək üçün hərtərəfli hazırlıq aparırdı. Ona görə də 1816-cı ildə Rusiya çarı I Aleksandr (1777-1825) A.P.Yermolovu Qafqazdakı rus qoşunlarının baş komandanı və İrana gedəcək səfirliyin başçısı təyin etdi. A.P.Yermolov Rusiya çarı Aleksandrın xüsusi təlimatı əsasında öz missiyasını tarixi səfərə hazırlamışdı [54, s. 122-127].

1816-cı ilin iyulunda Rusiya çarı Qafqazdakı rus qoşunlarının baş komandanı A.P.Yermolova yazırdı: "Çox yaxşı olardı ki, İran şahı İrəvan və Naxçıvanı bizim tərəfimizdən tutulan Arazdan cənuba doğru olan ərazilərə dəyişsin. Ancaq İran tərəfini bu ərazilərin Rusiyaya güzəştə getməsində göstərdiyi inadkarlığı nəzərə alaraq onların bu işə razılıq verəcəklərinə ümid etmək olmaz" [19, s. 326].

A.P.Yermolovun 200 nəfərdən çox adamı əhatə edən missiyası Peterburqdan Tiflisə yola düşdü. Missiya həm də şaha rus çarından hədiyyələr aparırdı. Həmin heyət 1817-ci il aprelin 30-da İrəvanda qarşılandı. May ayının 11-də Naxçıvana gəlib çatdı. Hüquqi cəhətdən Kalbalı xanın Naxçıvan torpağında Aleksey Petroviç Yermolovla görüşü və danışıqları Naxçıvan xanlığının siyasi cəhətdən müstəqilliyini göstərir [13, s. 90].

A.P. Yermolov başçılıq etdiyi missiyanın daha rahat, təhlükəsiz yolla, Xəzər dənizi sahili ilə Tehrana getmələrini təmin edə bilərdi. Necə ki, 1716-cı ildə səfir A.P.Volınski də bu yolla İrana getmişdi. Amma Yermolov İrəvan və Naxçıvan xanlıqlarından keçib getməyə üstünlük vermişdi. Burada da əsas məsələ hər iki xanlığın Rusiyanın siyasi marağında olması idi. Bu istiqamətdə məqsədin əsası kəşfiyyat materialları toplamaqdan ibarət olmuşdu [46, s. 49]. Yermolovun missiyasında iştirak edən rəsmi şəxslərin bəziləri, həmin heyətdə katib olan B.P.Borozna, səfirliyin və senatın həqiqi müşaviri A.F.Sokolov Naxçıvanın hakimi I Kalbalı xanla Rusiyanın fövqəladə səfiri Yermolovun görüşü haqqında maraqlı məlumatlar olan kitablar yazmışlar [61; 73; 109].

Həmin səfərdə iştirak edən baş qərargahın ştabs-kapitanı Nikolay Nikolayeviç Muravyov (1794-1866) I Nikolay dövrünün hərbi xadimlərindəndir. 1812-ci il Vətən müharibəsinin, II Rusiya-İran (1826-1828) və 1828-1829-cu illərdəki Rusiya-Türkiyə müharibələrinin iştirakçısıdır. 1816-cı ildə Yermolovun İrana gedən missiyasının üzvlərindən biri olub, II Rusiya-İran müharibəsində polkovnik hərbi rütbəsini daşıyıb. 1837-ci ildə istefaya çıxıb. Ancaq 1848-ci ildə yenidən hərbi xidmətə çağırılıb və 1854-cü ildə Qafqaz canişini təyin edilib. 1856-cı ildə öz xahişi ilə istefaya göndərilib. O həm də Karski titulunun sahibi olub. Onun Naxçıvanla bağlı maraqlı fikirləri vardır [86, s. 377]. Amma o da Naxçıvanın tarixinə azacıq da olsa, digər rus tarixçiləri kimi ermənilərin mövqeyindən yanaşır. Buna əsas səbəb onun Tiflis ermənilərindən olan Axverdovların kürəkəni olmasıdır. N.N.Muravyovun bu səfərlə bağlı xatirələri ölümündən sonra 1886-cı ilin aprelində nəşr edilmişdir. O yazır: "1817-ci il mayın 11-də biz Naxçıvan şəhərinə daxil olduq. Əvvəlcə səfiri Naxçıvan xanının uşaqları, sonra isə Kalbalı xan qarşıladı. Kalbalı xan Naxçıvan xanlığının hakimi idi. Onun gözlərini çıxartmışdılar. Qocanın nurlu siması adamda hörmət hissi oyadırdı, şikəstliyi ona əzab verirdi. Süvari dəstəsi kor qocanı müşayiət edirdi. Xan özü isə şəhərə çatanadək bizimlə deyib-gülürdü. Naxçıvanda bizi çox yaxşı qarşıladılar. Qoca xan çox zəngin olmasa da, bizi necə varsa elə də qonaq etdi. Mayın 12-də o, bizim hamımızı (bütün heyəti) Xan sarayına dəvət etdi. Məndən başqa hamı getdi. Mən istəyirdim ki, qeydlərimi yazıb qurtarım..." [84, s. 482-483].

Digər bir mənbədə isə A.P.Yermolovun missiyasının qarşılanması daha dəqiq təsvir edilib: "Rus nümayəndə heyətini Xok kəndində I Kalbalı xanın

qaynı Maqsud xan onun tapşırığı ilə qarşıladı. Maqsud xan Naxçıvana xanlıq etmiş Vəliqulu xanın oğludur. Müəllif yazır ki, onları yolda Kalbalı xanın iki qardaşı və nəvəsi süvari dəstə ilə qarşıladılar. Onlar rus nümayəndə heyətini silahlardan yaylım atəşi ilə salamladılar. Naxçıvanın yaxınlığında isə A.P.Yermolovu Kalbalı xan özü qarşıladı" [109, s. 1].

Həmin illərdə yazılan bu qeydlər Naxçıvan xanlığının müstəqilliyini və I Kalbalı xanın hakimliklə bərabər, diplomatik fəaliyyətini də önə çəkir. Qafqazda külli-ixtiyar sahibi olan A.P. Yermolovu I Kalbalı xan tam layiqli şəkildə, özü də rəsmi, diplomatik olaraq qarşılayır ki, Naxçıvan xanlığına onların ziyanı dəyməsin. Çünki I Kalbalı xan çox məlumatlı hakim idi. II İraklinin oğlu Aleksandrın köməkliyi nəticəsində A.P. Yermolovun Qafqazda nələr törətdiyindən xəbəri vardı.

Mayın 12-də I Kalbalı xan sarayında Rusiya nümayəndə heyətinin hamısını qəbul etdi. Həmin diplomatik görüşün keçirildiyi saray və böyük salon indiyədək qalmaqdadır.

A.P. Yermolov jurnalında özünü səmimi qələmə versə də, Qafqazda belə bir iz qoymamışdır. Abbas Mirzə onu "Çingiz xan" adlandırırdı. Naxçıvan xanlığına və onun hakiminə göstərdiyi səmimiyyət tam diplomatik gediş idi. Çünki Naxçıvan xanlığı Rusiyanın marağında idi. İstəyirdilər ki, gələcəkdə onu da Rusiyaya ilhaq edə bilsinlər. Heç də təsadüfi deyil ki, rus müəllifləri yazdıqları əsərlərdə I Kalbalı xanın və onun kəngərlilərinin antişah nifrətini daha qabarıq təsvir edirdilər [13, s. 92].

Nümayəndə heyətinin tərkibində I Kalbalı xanın hörmət bəslədiyi, Tiflisdən şəxsən tanıdığı Kabarda knyazı Kiçik Canxotovun oğlu Canbulat da vardı [84, s. 475-476]. Bu görüşdən 8 il sonra, 1825-ci ildə Yermolovun əmri ilə bu cəsur, mərd, Naxçıvana və Kəngərli süvarilərinə çox məftun olan cavan knyazı – Canbulatı əzabla, atasının gözləri qarşısında öldürmüşdülər. Atası dindar müsəlman olsa da, Rusiya təbəəliyini qəbul etmiş varlı knyaz idi. Oğlu Canbulat isə İran səfirliyindən qayıdandan sonra Zakuban çərkəzlərin tərəfinə keçir. Buna görə onu Nalçik qalasında ruslar öldürürlər [66, s. 522-524].

A.P.Yermolovun jurnalında yazılan məlumatdan aydın olur ki, onun I Kalbalı xanla danışıqları çox ciddi keçib. Yermolov qarşısında bir siyasi xadimin oturduğunu görür və rəğbətini gizlətmir. A.P.Yermolov yazır ki, I Kalbalı xan söhbət zamanı deyirdi: "...vaxtilə Araz çayının vadisinin gözəlliyi və zənginliyinə heyrətlə baxırdım, gözəl bağları və meşəlikləri olan vadini çoxsaylı əhali canlandırırdı. İndi mənə deyirlər ki, vadi boş səhralığa çevrilib, keçmiş zənginliyindən əsər belə qalmayıb. Yaxşı ki, tale mənim gözlərimi bağladı, vadinin belə bədbəxt gününü və tarmar olmasını görmürəm. Bu vadini üç əsr mənim nəslim idarə etmişdir. Ara müharibələri və şahın ordusu bu bədbəxt torpağı boşluğa çevirdi, işğalçıların hər bir addımı xalqın bədbəxtliyinə səbəb oldu" [13, s. 91].

Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı Yermolovun iki gün Naxçıvanda qalması və I Kalbalı xanla yüksək səviyyədə keçirilən diplomatik görüşü Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyinin yüksək olmasından xəbər verir. General Yermolov İrandan geri dönüb, Peterburqa qayıdarkən yenə də I Kalbalı xanla görüşməyi özünə borc bilir [13, s. 92; 22, s. 112].

I Kalbalı xan xanlığı dövründə bir neçə dəfə hərbi yürüş edib. Birinci dəfə Xoy xanlığına hərbi yürüş etməkdə məqsədi özgə xanlığın ərazisini tutmaq olmayıb. Keçmiş xanların vaxtında Naxçıvandan apardıqları qiymətli əşyaları geri qaytarmaq məqsədi güdüb. İkinci yürüşü İrəvana olub. Fikirlərində sabit olmayan qohumlarını cəzalandırıb. Xoy xanı onun bacanağı, İrəvan xanı isə qaynı idi. Onun üçüncü yürüşü də ikiüzlü adamların paşalıq etdiyi bölgəyə-Qarsa ünvanlanıb. Lakin ruslar bu yürüşü dayandırıblar [51, s. 623-624, 630].

Strateji baxımdan böyük əhəmiyyət kəsb edən İrəvan xanlığını zəbt etmək üçün tədbirlər hazırlayan Rusiya öz fəaliyyətini genişləndirərək həmin xanlığın tərkibində olan Pəmbəki işğal etməklə özünün Cənubi Qafqazda həyata keçirdiyi siyasəti bir növ düşmənləri qarşısında nümayiş etdirdi. Torpaqlarının bir hissəsi (Pəmbək) işğal olunmuş İrəvan xanlarının əksəriyyəti, xüsusilə Rusiyanın təzyiqini hiss edən irəvanlı Məhəmməd xan və naxçıvanlı Kalbalı xan heç cür razılaşa bilmirdilər ki, müsəlmanlar xristianların himayəsi altına düşsünlər [14, s. 109]. Bunun qarşısını almaq üçün hər iki feodal əks tədbirlərə əl atdı. İlk növbədə onlar Kartli-Kaxetiya çarlığından qaçmış və çar olmaq arzusu ilə yaşayan II İraklinin övladlarından biri olan şahzadə Aleksandrla əlaqə yaratmağa çalışdılar. Onlar Aleksandrın əli ilə rusları Pəmbəkdən qovmaq istəyirdilər. Eyni zamanda, irəvanlı Məhəmməd xan öz agentlərini Pəmbəkə göndərib yerli feodalları Rusiyanın əleyhinə üsyan etməyə çağırırdı. İrəvandan Tiflisə gəlmiş Üçmüəzzin arxiyepiskopu Qriqori buradakı rus ordusunun komandanlığına bildirmişdir ki, İrəvan xanı ruslara yalnız zahirən meyil göstərir, daxildən onlara nifrət bəsləyir. Qriqori sonra demişdir ki, "...İrəvan xanı naxçıvanlı xana bel bağlayaraq istəyir ki, Pəmbək mahalını Rusiyanın tabeliyindən çıxartsın..." [51, s. 617-618].

I Kalbalı xan Naxçıvan xanı olduğu vaxt, hicri 1221-ci il şəvval ayında (miladi 1806) Naxçıvan xanlığının hərbi rəisi Lütfəli Sultana ünvanladığı əmri onun mahir sərkərdə olduğunu təsdiqləyən sənədlərdən biridir. I Kalbalı xan həmin əmrdə Kəngərli tayfasının sultanlarını, sadə işçilərini və döyüşçülərini nəzərdə tutaraq yazır ki, silah gərək anbarda saxlanmasın, əldə tutulsun. O, Lütfəli Sultana göstəriş verir ki, adbaad qeydetmə keçirilsin və döyüşçülər nizamla dəstə şəklində yola düşsünlər. Əmrin haşiyəsində isə süvari dəstəsinə oğlu Nəzərəli xanın komandirliyini məsləhət görür. Həmin əmrə I Kalbalı xanın möhürü vurulub: "Allahdan başqa Allah yoxdur. Sədaqətdə çox möhkəm Kalbalı xan" [97, s. 32-34].



Ehsan xan Naxçıvanski
Rəssam Ə.Məmmədov

Doğrudan da, I Kalbalı xan dostluq etdiyi şəxslərə heç vaxt xəyanət etməyib. I Kalbalı xan Qars paşası Neman paşa ilə çox səmimi və etibarlı dostluq, hərbi müttəfiqlik əlaqəsi də saxlamışdır [52, s. 624- 630]. Qeyd edək ki, bəzi mənbələrdə göstərildiyi kimi I Ehsan xan Naxçıvan xanlığının axırıncı xanı olmamışdır. Rusiyanın Naxçıvana hücumu vaxtı I Ehsan xan Abbasabad qalasında Kəngərli süvarilərinin komandiri vəzifəsini daşımışdır. Cavan olsa da, cəsurluğuna və iradəsinə görə söz sahibi idi. 1828-ci ildən sonra Rusiya tabeliyində olan Naxçıvana I Ehsan xan naib təyin edilmişdir [20, s. 105].

4. **Naxçıvan xanlığının qonşu ölkələrlə və xanlıqlarla münasibətləri**

Naxçıvanla Gürcüstanın XVIII əsrin ikinci yarısında tarixi şəraitdən asılı olaraq siyasi və iqtisadi, həmçinin hərbi əlaqələri onun müttəfiqi Qarabağ xanlığının vasitəçiliyi ilə olmuşdur [58, s. 160-161; 65, s. 135]. Bu əlaqələrin bünövrəsi çar II Teymurazın vaxtında qoyulsa da, əsasən II İraklinın hakimiyyəti illərində daha da genişlənmişdir [83, s. 175]. Naxçıvan xanlığının əsasını qoyan Heydərqulu xan Kəngərli II İraklinın atası Teymurazla çox yaxşı dostluq münasibətləri yaratmışdı [58, s. 160-161]. 1762-ci ildə atası II Teymuraz Peterburqda vəfat edəndən sonra bu dostluğu onun oğlu II İrakli zəiflətmiş və qonşu xanlığın ərazisini zəbt etmək üçün gizli diplomatik yollar axtarmışdır [17, s. 25; 83, s. 174]. Çar II İrakli (1720-1798) Gürcüstanın görkəmli dövlət xadimi və sərkərdəsi kimi 1744-cü ildən Kaxetiyaya, 1762-ci ildən isə həm də Kartliyə, bir sözlə, bütün Şərqi Gürcüstana çarlıq etmişdir.

XVIII əsrin 50-ci illərindən başlayaraq II İrakli Şərqi Gürcüstanın Rusiya ilə münasibətini bərpa etməyə çalışmışdır. Rusiyanın köməyilə o, eyni zamanda, Şərqi Gürcüstanı İranın hakimiyyətindən qurtarmaq və Zaqafqaziyada hakim mövqe tutmaq məqsədini də güdürdü. Rusiya ilə Gürcüstan arasında bağlanan Georgiyevski müqaviləsindən (1783) sonra Qafqaz regionunda Kartli-Kaxetiya çarlığının nüfuzu xeyli yüksəldi. Bu siyasi hadisələr Qafqazda marağı olan üç böyük dövlətin- Rusiyanın, Türkiyənin və İranın münasibətlərini daha da gərginləşdirdi. Belə bir şəraitdə Naxçıvan xanlığının güclü hərbi müttəfiqə ehtiyacı yarandı. Naxçıvan xanlarının heç də hamısının Gürcüstanla diplomatik əlaqəsində kor-koranə itaətsizlik olmamışdır. Abbasqulu xan Kəngərli hakimiyyətə gəlmək üçün çar II İrakliyə hədsiz inanıb güvənsə də, I Kalbalı xan Kəngərli yalnız naxçıvanlılara arxalanmaqla Kartli-Kaxetiya çarlığı ilə dostluq münasibətləri ya-

ratmışdır [13, s. 60]. Heydərqulu xanın vəfatından sonra hakimiyyətə gəlmiş xanlar da Kartli-Kaxetiya çarlığının müttəfiqliyinə bel bağlamışlar. Onlardan Abbasqulu xan Kəngərli xanlıq taxtında əyləşmək üçün Gürcüstanla dostluq münasibətlərini möhkəmlətmişdir. Xoy xanlığı, Qarabağ xanlığı və Kartli-Kaxetiya çarlığı üzdə Naxçıvan xanlığına özünü dost kimi göstərsələr də, gizlində Naxçıvanı zəbt etmək üçün bütün vasitələrdən istifadə edirdilər.

Çar II İrakli Azərbaycan xanlıqlarının hər bir işinə bilavasitə, yaxud dolayı yolla müdaxilə edirdi. Bu isə xanlıqlar arasında ziddiyyətlərin dərinləşməsinə səbəb olurdu. Belə hal Rusiyaya və onun vassalı olan Kartli-Kaxetiya çarlığına sərfəli idi. Əlimurad və Əhməd xanın qoşunlarının qarşısını ala bilməyən Abbasqulu xan yenidən Naxçıvanı tərk etməyə və Tiflisə qaçaraq II İraklidən kömək istəməyə məcbur oldu. Onu da qeyd etmək lazımdır ki, hakimiyyətə keçdiyi gündən Cəfərqulu xan Naxçıvan camaatını çox incidirdi. Bu səbəbdən naxçıvanlılar 1783-cü ildə II İrakliyə kollektiv məktub göndərmişdilər: "Cəfərqulu xanın Naxçıvan əhalisi ilə necə qəddar rəftar etdiyi xəbərini sizin hüzurunuza çatdırmaqla bildiririk ki, onun zülmkarlığı xalq içərisində elə geniş yayılıb ki, əhali pərən-pərən düşüb, başqa yerlərə getməyə məcbur olmuşlar" [13, s. 51].

Bu məktubu göndərənlər Abbasqulu xanı dəstəkləyənlər idi. Gürcüstanda sığınacaq tapan Abbasqulu xan isə II İrakliyə yazdığı məktubunda öz təşəkkürünü aşağıdakı sözlərlə bitirir: "...Sizin xeyirxahlığınız nəticəsində vəziyyətim yaxşıdır və sizə sədaqətliyəm. Allahın köməyi və sizin sayənizdə yaxşıyıq və sizə dua edirik". Abbasqulu xan məktubunda Gürcüstana gəldikdən sonra Naxçıvandakı vəziyyəti təsvir edir. O yazır ki, "Naxçıvandan getdikdən 3 gün sonra məni sevən rəislərdən Ağası bəy, Məmmədəli Sultan, Əliqulam Sultan, İlxas Sultan və onun oğlu Hüseynəli bəy və başqaları Cəfərqulu xanın pis rəftarına və onları incitdiyinə görə mənim yanıma gəlmişlər" [13, s. 52].

Xoylu Əhməd xan Cəfərqulu xanın taxta çıxmasına kömək etsə də, Naxçıvana əlavə qoşun göndərmədi. Çünki II İraklidən ehtiyat edirdi. Buna əsas səbəb isə Rusiyanın iki batalyonunun Tiflisdə olması idi. Bu münasibətlə Abbasqulu xan II İrakliyə yazırdı: "Əhməd xan bilir ki, siz məni hər vasitə ilə müdafiə edəcəksiniz. Ona görə də Cəfərqulu xana rədd cavabı verdi. O, siz həzrətlərə qarşı çıxmağa cəsarət edə bilməz" [13, s. 53].

II İrakli isə Əhməd xana məktub yazaraq bildirirdi ki, o, Abbasqulu xanla Cəfərqulu xan arasındakı münasibətlərə toxunmasın və Naxçıvanda baş verən hadisələrlə işi olmasın. Əks təqdirdə o, digər xanlar arasında öz nüfuzunu itirə bilər. İkiüzlü siyasət aparan II İrakli Rusiyanın hakim dairələrinə yazırdı: "... Belə hesab edirəm ki, Azərbaycana sahib olmaq Rusiya üçün əlverişlidir. Sonra isə həmin torpaqların bir hissəsini mənə güzəştə edərsiniz". O, bir hissə dedikdə Gəncəni, İrəvanı, Naxçıvanı və Şəkini nəzərdə tuturdu. Bunu o yazdığı digər bir məktubda açıqlayırdı: "... Gürcüstanı ləzgilərin təhlükəsindən qurtarsın, Gəncədə, İrəvanda

onun hakimiyyətini təsdiq etsin və Naxçıvanı da ona tabe etdirsin" [83, s. 175].

Abbasqulu xan Kəngərli yenidən Naxçıvan xanlığına hakimiyyətə qayıtmaq arzusunda idi. O da çar II İrakli kimi Rusiyanın qəyyumluğunu qəbul etmək istəyirdi ki, Rusiya dövləti ona kömək etsin. Buna görə də Abbasqulu xan Rusiyanın Kartli-Kaxetiya çarlığındakı qoşunlarının başçısı S.D.Burnaşevə yazmışdı: "Çar İrakli ilə yaxınlıq edərək, imperator həzrətlərinin hakimiyyəti altında olmağı arzulayır və başqa xanları da belə addım atmağa çağırıram" [103].

S.D.Burnaşev Rusiya ordusunun polkovniki və knyaz Potyomkinin, 1783-cü ildə Kartli-Kaxetiya çarı II İraklinin və İmereti çarı I Solomonun yanında komissioneri idi. Abbasqulu xanın Rusiyanın qəyyumluğunu qəbul etmək arzusunu II İrakli general-poruçik Q.A. Potyomkinə xəbər verdi: "Dəhşətli çaşqın vəziyyətində olan naxçıvanlı Abbasqulu xan bizdən xahiş edir ki, biz ona öz mülkiyyətinə qayıtmağa kömək edək və o, imperatriçəyə tabe olacağını bildirir" [13, s. 54].

II İrakli Q.A.Potyomkinə izahatında yazırdı: "Bu yaxınlarda Abbasqulu xan xahişlə Naxçıvan ağsaqqallarını yanımıza göndərmişdi. Həmin sənədin tərcüməsini biz cənab Burnaşevə verdik ki, o, sizin hüzurunuza təqdim etsin" [103, v. 80]. Naxçıvandakı vəziyyətlə tanış olan Q.A.Potyomkin öz cavabında Burnaşevə bildirdi ki, o, mahiyyət etibarilə Abbasqulu xanın Naxçıvanda hakimiyyətə gəlməsinə etiraz etmir, "...mənim adımdan Kartli-Kaxeti həzrətlərinə elan edin ki, mən bu hadisələrdə ona mane olmaq istəmirəm" [20, s. 54; 103, v. 365]. Belə məktubdan ruhlanan çar II İrakli öz müttəfiqi Qarabağ xanı İbrahim xanla birlikdə Naxçıvan xanlığı üzərinə yürüşə hazırlaşmağa başladı. Bu yürüşə II İrakli böyük ordu toplamışdı. Təkcə Şəmsəddin, Xəzani, Peydar, Pəmbək, Dəmirçi Həsəndən toplanmış yerli azərbaycanlı döyüşçülərin sayı 4000-ə çatırdı. Qarabağ xanı İbrahimxəlil xan isə bu yürüşdə iştirak etmək üçün 2000 atlı ayırmışdı. Türkiyə sultanından qorxan II İrakli yürüşü həyata keçirə bilmədi [13, s. 55].

Bu arada Abbasqulu xan İrəvandan Naxçıvana gəlsə də, hakimiyyəti onun yaxın qohumu Şükürəli xan (Zülfüqar xanın oğlu – ***red.***) öz əlinə keçirdi. Cəfərqulu xan yenidən Naxçıvan xanlığında hakimiyyəti ələ keçirdiyi zaman Abbasqulu xan Naxçıvan taxtını özünə qaytarmaq məqsədi ilə dəfələrlə gah qarabağlı İbrahimxəlil xana, II İrakliyə, gah da Rusiyanın Qafqazdakı hərbi dairələrinə müraciət edirdi.

Azərbaycan xanlıqları ilə münasibətləri pozmamaq xatirinə II İrakli hətta Naxçıvan xanlığının Cəfərqulu xanla Abbasqulu xan arasında Xoy xanı Əhməd xanın vasitəçiliyilə iki yerə bölünməsini təklif etdi. Ancaq xanların başları öz işlərinə qarışdığından heç kim II İraklinin təklifini yerinə yetirmədi. Qafqazda çox ehtiyatlı diplomatiya aparan Rusiya Georgiyevsk müqaviləsindən sonra "müsəlman xanlarına" "hədiyyələr" və onunla yanaşı "xəbərdarlıq" məktubları da göndərməyi unutmurdu. Həmin məktublarda xanlara məsləhət görülürdü ki, Gürcüstanla münasibətlərini nizama salsınlar [13, s. 58].

I Kalbalı xan hakimiyyətə gəldikdən sonra Naxçıvan xanlığı ilə Gürcüstan,

xüsusilə Kartli-Kaxetiya çarlığı arasında diplomatik münasibətlər daha da möhkəmləndi. I Kalbalı xan II İrakli ilə dostluq münasibətləri qurdu və ondan tələb etdi ki, Naxçıvan xanlığına birmənalı şəkildə hörmətlə və sədaqətlə yanaşsın. Bir mənbəyə görə: "Kalbalı xan gürcü çarı II İrakli vasitəsilə Rusiya ilə əlaqə saxlamışdır" [7, s. 8].

Mühüm hərbi strateji və geosiyasi mövqeyə malik olan Naxçıvan xanlığı qonşu dövlətlər olan Rusiya, İran və Osmanlı imperiyası ilə həmişə normal münasibətlər saxlamağa çalışmışdır. Amma hər üç dövlət Azərbaycan xanlıqlarının, onlardan biri olan Naxçıvan xanlığının müstəqilliyi ilə barışmadıqlarından həmin dövlətlərlə çox dərin diplomatik münasibətlər yaranmamışdır.

Naxçıvan xanlığı hələ Cəfərqulu xanın hakimiyyəti illərində Osmanlı Türkiyəsi ilə sıx diplomatik münasibətlər qurmuşdu.

Osmanlı hökuməti Azərbaycan xanlıqları ilə əlaqəsini çar Rusiyası ilə imzaladığı müqavilələrə əsasən qurur və çar Rusiyasının Azərbaycan xanlıqlarına qarşı cızdığı planı silah gücü ilə alt-üst edə bilmədiyindən diplomatik kanallarla hadisələrə müdaxilə etməyə çalışırdı.

Çıldır valisi Süleyman paşa xəbər tutdu ki, II İrakli çar Rusiyasının köməyi ilə Gəncə, İrəvan və Naxçıvan xanlıqlarını tutmaq fikrindədir. O zaman Süleyman paşa Osmanlı imperiyasının sultanına bu haqda məlumat göndərdi. Osmanlı sultanının 1775-ci il tarixli fərman və hədiyyələrini onlara çatdırdı. Bu çağırışa Qarabağ xanı İbrahimxəlil xan, Naxçıvan xanı Cəfərqulu xan cavab yazıb razılıqlarını bildirmişdilər [24, s. 44]. Sonralar Naxçıvan xanlığının xanı olmuş I Kalbalı xan Qars, Çıldır və Axalsıx paşaları ilə dostluq münasibətləri saxlamışdır [51, s. 624-630].

Osmanlı imperiyası ilə İran arasında bağlanan "Dövlət-Aliyyə arasında sülh" müqaviləsinə əsasən İran sərhədlərinə yönəlmiş hər hansı əsgər müdaxiləsi qeyri-mümkün olduğundan, Türkiyə Azərbaycan xanlıqlarını müdafiə edə bilməzdi [34, s. 77].

İran hökmdarı Ağa Məhəmməd xan Qacar isə Türkiyə ilə yaratdığı neytral münasibətdən istifadə edərək Azərbaycan xanlıqlarını və Cənubi Qafqazı işğal etmək üçün hərbi yürüşə hazırlıq görürdü. Ağa Məhəmməd xanın Naxçıvan xanlığına qarşı heç bir dinc diplomatik münasibəti olmamışdır. Belə bir halda o, hökmən Naxçıvan xanlığını işğal edəcəkdi. Yalnız bəhanə lazım idi. Belə bir fürsət isə I Kalbalı xanın Rusiya dövləti ilə danışıqlara getməsi oldu. I Kalbalı xanın öz xanlığının müstəqilliyi naminə başqa müttəfiqlər axtarmağa tam mənəvi haqqı çatırdı və bu, heç vaxt "xəyanət" adlandırıla bilməzdi. Əgər İran hökuməti Naxçıvan xanlığının müstəqilliyini qəbul edib, Kəngərli xanlarına hörmətlə yanaşsaydı, Naxçıvan xanı I Kalbalı xan digər müttəfiqlər axtarmazdı. Belə bir hörmətə Naxçıvan xanlığı layiq idi. Çünki İranın tarixən əldə etdiyi hərbi zəfərlərdə Naxçıvan Kəngərli süvarilərinin rolu danılmazdır.



Naxçıvan şəhəri. Xan sarayı, XVIII əsr



1747-ci ildə Nadir şahın ölümündən sonra onun imperiyası dağılmış və Azərbaycanda 20-dək xırda irsi feodal monarxiyalar-xanlıqlar, həmçinin qonşu hakimlərdən asılı olan bir neçə sultanlıq meydana gəlmişdir.

Hüseyn xan Naxçıvanski



Naxçıvan xanlığında xalçaçılıq, toxuculuq, metal üzərində naxışsalma və dulusçuluq ilə məşğul olan böyük emalatxanalar var idi. Saxsı istehsalı sənəti xüsusi yer tuturdu.

Naxçıvan məmulatlarının nümunələri qərbi avropalıları heyrətə gətirirdi. Naxçıvanın özünün zərbxanası var idi.

Naxçıvan xanlığının sahəsi 9428,7 kv.km olmuşdur.

1828-ci ildə Naxçıvan xanlığı Rusiya tərəfindən ilhaq edildi.

Naxçıvan xanlığı (1747-1828-ci illər)

Artıq Qafqazda bir-birlərinə rəqib olan İran və Rusiya birbaşa üz-üzə dayanmışdılar. Belə bir halda Naxçıvan xanlığı da öz təhlükəsizliyi üçün hazırlıq görürdü. Türkiyə ilə İranın bu yürüşdə eyni cəbhədə olduqlarını bilən I Kalbalı xanın Rusiya dövlətinin Şamaxı xanlığındakı hərbçiləri ilə danışıq aparması təbii

idi. Rusiya ilə ilk diplomatik danışıq Pirsaat çayının ətrafında olmuşdur.

Azərbaycan xanlıqları böyük təşviş içində idilər. Çünki Türkiyə ilə çıxış qapıları olan Naxçıvan və İrəvan xanlıqlarının İran tərəfindən işğal edilməsi Türkiyəyə olan yolların bağlanması demək idi. Ona görə də Rusiya ilə danışıqlar aparmağı qərarlaşdırırdılar. Belə hal, əlbəttə, Rusiyanın xeyrinə idi. Digər tərəfdən Qubalı Fətəli xanın oğlu Şeyxəli xan Rusiyadan imtina etsə də, Türkiyədən istədiyi köməyi ala bilmədi. Bütün bunlar Rusiyanın Cənubi Qafqazı işğal etmək planlarını reallaşdırırdı. Azərbaycan xanları baş qərargahın onlara müraciətinə müsbət münasibət bəslədilər. Onlar Rusiya dövlətinin təbəəliyini qəbul etməyə və birlikdə İran təcavüzünə qarşı mübarizə aparmağa hazır olduqlarını bildirdilər [5, s. 78].

Naxçıvan xanlığının qonşu xanlıqlarla və Qafqazda marağı olan böyük dövlətlərlə möhkəm, sabit və qarşılıqlı münasibətlər qurmaq məsələsində ilk addımı I Kalbalı xan atmışdır. Başqalarından fərqli olaraq o, bu vasitə ilə hakimiyyətə gəlmək məqsədi güdməmiş, sadəcə intibah dövrü yaşayan Naxçıvan xanlığının müstəqilliyini qorumaq istəmişdir. Həmin illərdə Qafqaz regionunda böyük hərbi qüvvəsi olan Rusiya dövləti ilə bu yöndə manevrlər etmiş və bununla nəinki Naxçıvan xanlığının, hətta bütün Qafqazın təhlükəsizliyinə çalışmışdır. Onun arzusu Rusiya dövləti ilə elə münasibətlər qurmaq idi ki, bununla regionda təhlükəsizlik və sabitlik təmin olunsun. I Kalbalı xanın 1823-cü ildə faciəli vəfatından sonra bu missiyanı onun oğlu, general-mayor, II dərəcəli Müqəddəs Anna ordeninin kavaleri I Ehsan xan davam etdirmişdir.

Naxçıvan xanlığının tarixi ilə bağlı əksər sənədlərin toplandığı "Qafqaz Aktları"nda xəbər verilir ki, Fətəli şah oğlu Abbas Mirzəyə əmr verdi ki, Naxçıvan xanlığını işğal etsin. I Kalbalı xan Naxçıvanda müdafiəni yaxşı təşkil etdiyindən şahzadə Abbas Mirzə Naxçıvanı tuta bilmədi. O, diplomatik hiylə işlətmək qərarına gəldi. Bu hiylədə Abbas Mirzə İrəvan xanı Hüseynqulu Qacardan istifadə etməyi qərarlaşdırdı.

"Qafqaz Aktları"nın III cildinin 1025-ci sənədində verilən məlumata görə "...Şahzadənin Naxçıvanı təslim etmək haqqında Kalbalı xana verdiyi tələb uğur qazanmadı. Hüseynqulu xanın hiyləsi nəticəsində Kalbalı xan İrəvanda tutuldu. Deyilənlərə görə şahzadənin yanına aparacaqlar" [51, s. 599].

Şahzadə Abbas Mirzə Hüseynqulu xana məsləhət gördü ki, naxçıvanlıların hələ ki, onun xəyanətindən xəbərləri yoxdu, qalaya daxil ola bilər. Hüseynqulu xan 300 atlı və 200 piyada ilə Naxçıvana gəldi. Onun qalaya daxil olmasına icazə verildi. Naxçıvan qalası Hüseynqulu xanın xəyanətinin qurbanı oldu [13, s. 78].

1807-ci ildə İrəvanda Hüseynqulu xanın xəyanəti nəticəsində ailəsi ilə birlikdə həbs edilən I Kalbalı xan dekabr ayınadək ev dustağı edildi və sonra Təbrizə Abbas Mirzənin hüzuruna göndərilir [53, s. 594]. Abbas Mirzə onun bütün hakimlik hüquqlarını əlindən alaraq Naxçıvana qaytarır. 1808-ci ilin

martında Abbas Mirzə Vəli Məhəmməd xan Bəluclunun komandirliyi altında 200 nəfər döyüşçünü Naxçıvan qalasında yerləşdirir [86, s. 42].

Naxçıvan xanlığının sahibi Kəngərli xanları olsa da, bütün səlahiyyətlər Vəli Məhəmməd xan Bəlucluya verilmişdi. Onun qoşun dəstəsi Naxçıvanda yerini möhkəmlədən kimi, I Kalbalı xanı yenidən həbs edib ailəsi ilə birlikdə İrana, Fətəli şahın yanına göndərdilər [53, s. 464-465]. Onun oğlanlarından yalnız Şeyxəli bəy Qarabağa qaça bilmiş və orada Rusiyanın təbəəliyini qəbul etmişdi. Naxçıvana isə I Kalbalı xanın əmisi oğlu Abbasqulu xan hakim təyin edilmişdi [53, s. 267-268].

1809-cu ilin aprelində Fətəli şah və oğlu Abbas Mirzə I Kalbalı xanı həbsdən azad etsələr də, Naxçıvana getməyə icazə vermədilər. Bu vaxt Naxçıvanın hakimi Abbasqulu xanın oğlu Kərim xan idi [86, s. 46].

1810-cu ildə Abbas Mirzə Tiflisdə yeni hərbi komandan olan general Tormosovla apardığı danışıqları kəsdi. Qraf A.P.Tormosov (1752-1818) Qafqazda qraf I.V.Qudoviçin yerinə göndərilmişdi. Qudoviç uğursuz fəaliyyətinə görə 6 mart 1809-cu ildə Tiflisdən geriyə, Sankt-Peterburqa çağrılmışdı.

Abbas Mirzə naxçıvanlı Kərim xana əmr etdi ki, qoşunu ilə birlikdə Qarabağa tərəf hərəkət etsin. O, Kərim xana kömək üçün əlavə olaraq 1000 nəfər də döyüşçü göndərdi. Artıq iyun ayının əvvəllərində Kərim xanın başçılıq etdiyi qoşun Qarabağda hərbi əməliyyatlarda iştirak edirdi [54, s. 943]. Abbas Mirzənin əsas məqsədi Mehrini ruslara verməmək idi. Arazın sol sahilində olan bu kənd Naxçıvan və Qaradağ xanlığından Qarabağa getmək üçün çox mühüm dayaq nöqtəsi idi. Kərim xan öz qoşunu ilə Mehriyə gedən yolu kəsmişdi ki, rus qoşunları oraya daxil ola bilməsin. Vəziyyəti belə görən general Nebolsin polkovnik Kotlyarevskiyə əmr verdi ki, Mehrini tutsun. General Pyotr Fyodoroviç Nebolsin Sisianovun yetişdirməsi idi. Onun Naxçıvana yürüşü də olmuşdur. 1808-ci il oktyabr ayının 28-də general-mayor Nebolsinin komandanlığı altında rus ordusu Qarabağdan Naxçıvan qalasına doğru hərəkətə başladı. Naxçıvanlı Şeyxəli bəy öz atlıları ilə birlikdə general mayor Nebolsinin dəstəsinə bələdçilik edirdi. Naxçıvan uğrunda ilk döyüş Qarababada oldu. Burada İran şahzadəsi Abbas Mirzənin 3000 piyadası, 10000 süvarisi, 12 adi topu və 60 ədəd qədim topu var idi [87, v. 29]. Döyüşlərdə general-mayor Nebolsinin komandanlığı ilə polkovniklər Lisaneviç və Kotlyarevski, eləcə də naxçıvanlı Şeyxəli bəy çox fərqləndilər. Abbas Mirzənin qoşunu geri çəkildi. Naxçıvanlı Şeyxəli bəy öz dəstəsi ilə gəldiyinə görə, Naxçıvan əhalisi rus ordusuna müqavimət göstərmədi [20, s. 81; 69, s. 215].

Pyotr Semyonoviç Kotlyarevski (1782-1851) infanteriya, yəni piyada qoşun generalı olmaqla əfsanəvi ad qazanan hərbçi idi. Onun hələ 14 yaşı olanda ilk dəfə müharibədə vuruşmuşdu. 17 yaşında isə ən yaxşı zabit kimi ad qazanmışdı. Onun Aslandüz döyüşlərində və Lənkəran qalasının alınmasında müstəsna

xidmətləri olub. Kotlyarevski 17-ci eger polkunun batalyonu ilə Kərim xanın üzərinə hücuma keçdi və onu Ordubada çəkilməyə məcbur etdi. Kotlyarevski gecə ikən hücum edib Mehrini tutdu. Mehridə olan sərbazlara başçılıq edən Pirqulu xan Qarabağa qaçdı, Kərim xan isə Naxçıvana sığındı [54, s. 557-558].

Vəziyyətin belə uğursuz olduğunu görən Abbas Mirzə I Kalbalı xanı göndərdi ki, Mehridəki Rusiya qoşunlarını mühasirəyə alsın. I Kalbalı xanın əsas məqsədi Kotlyarevskiyə köməyə göndərilən qoşunların Mehriyə buraxılmaması idi. Bu döyüşdə I Kalbalı xan özünün Kəngərli süvariləri ilə böyük hünər göstərdi. Köməyə gələn qoşunu Mehriyə buraxmadı. Onların bu hünərini görən Abbas Mir - zə Kərim xanı dustaq edərək Tehrana apardı. Naxçıvanın hakimliyi isə I Kalbalı xanın oğlu Nəzərəli xana verildi [54, s. 558-559, 716-717, 720-721, 738-739].

I Kalbalı xan həmişəki kimi verdiyi sözə əməl etdi. O istəyirdi ki, naxçı-vanlıları İranın cənubuna köçürməsinlər. Abbas Mirzə isə yenə də onlara rəqibi kimi baxırdı. Buna görə də 1813-cü ildə çox inandığı Kərim xanı Naxçıvana hakim təyin etdi [97, s.41-44]. Ancaq bu hakimlik formal hal idi. Çünki Naxçıvan xanlığında hər şeyi Abbas Mirzə özü idarə edir və xanlığın bütün gəlirini öz xəzinəsinə aparırdı. Belə bir vəziyyət I Kalbalı xanın və onun oğlanlarının ciddi narazılığına səbəb olurdu. Onların tərəfində olan kəngərlilər Naxçıvan xanlığının xilas olması üçün I Kalbalı xanın əmrini gözləyirdilər. Belə bir əmri onlara 1828-ci ildə I Ehsan xan verdi.

XVIII əsrin 60-80-ci illərində cənubda Xoy, şimal-şərqdə Quba və şimal-qərbdə Qarabağ xanlıqları ən güclü və qüdrətli xanlıqlar idi [11, s. 128].

Qubalı Fətəli xanın 1782-ci ildə Rusiya çariçası II Yekaterinaya yazdığı məktubda Naxçıvan xanlığı haqqında da məlumat vardır. Naxçıvan xanlığının Quba xanlığı ilə də münasibətləri olmuşdur. Naxçıvan xanlığına müttəfiq olan xanlıqların bəzilərini Quba xanı Fətəli xan özündən asılı vəziyətə salmışdı [33, s. 151-153]. Fətəli xanın şiə təriqətindən olması mövcud münasibətləri təsdiqləyən şərtlərdəndir: "Hər iki müttəfiq-Qarabağ xanı İbrahimxan və Kartli-Kaxetiya çarı II İrakli, Mustafaqulu xana, Gəncə xanı Məhəmmədhəsən xana və onların hakimiyyəti altında olanlara qarşı qəddarcasına hərəkət edir, onların tabeliyindəki ərazini iki yerə bölüb vergi toplayırlar. Müttəfiqlərin bu hərəkəti gələcəkdə Naxçıvan, Təbriz və bütün Azərbaycanı tutmaq təhlükəsi törədə bilər" [104].

Abbasqulu xan Kəngərli (sonralar Naxçıvanski) hakimiyyətdə olduğu illərdə qonşu xanlıqlardan İrəvan, Qarabağ, Xoy xanlıqları və Kartli-Kaxetiya çarlığı, yəni Gürcüstanla çox yaxın münasibətlər yaratmışdır. XVIII əsrin 80-ci illərində o, İrəvan xanı Hüseynəli xanın, Qarabağ xanı İbrahimxəlil xanın, Kartli-Kaxetiya çarı II İraklinin köməkliyi ilə Naxçıvan xanlığına hakim olmuşdu [13, s. 49]. İrəvan xanı Hüseynəli xan ölümündən əvvəl II İraklının göstərişi ilə Naxçıvan Kəngərlilərinin ağsaqqalı II Kərim Sultana və xanlığın əyanlarına, şəhərin ağsaq-

qallarına məktub yazaraq bildirirdi ki, Abbasqulu xanın Naxçıvana xan təyin olunması məsləhət görülür [89, s. 53].

Bu sənəddən aydın olur ki, nəyə görə Hüseynəli xan öz qoşunlarını Naxçıvandan geri çəkib. Abbasqulu xan Hüseynəli xanın köməyi ilə yenidən hakimiyyətə gəlsə də, xoylu Əhməd xan ona işləməyə imkan vermir. İradəcə zəif olsa da, Abbasqulu xan qonşu xanlıqlarla yaxşı diplomatik münasibətlər qurmağa çalışırdı. Hüseynəli xan vəfat etdiyindən o, Naxçıvanı tərk edərək Tiflisə, II İraklinin yanına gedir. Naxçıvan xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında diplomatik münasibətlər, bəzi ziddiyyətlərə baxmayaraq möhkəm olub. Əslində Rusiya dövləti istəyirdi ki, Azərbaycan xanlıqlarının hamısı Gürcüstanla sıx əlaqə saxlasınlar. Çünki Qafqazın cənub hissəsini tutmaq və Hind okeanına gedib çıxmaq üçün Gürcüstan onlar üçün əvəzsiz dayaq mərkəzi idi. II İrakli ilə yaxın dost olan Abbasqulu xan ətrafında toplaşan naxçıvanlılarla Tiflisdə qalmalı olur ki, gürcü çarının köməyi ilə yenidən Naxçıvan xanlığında hakimiyyətini bərpa edə bilsin [13, s. 52].

1783-cü ildə İsfahanlı Əlimurad xan Naxçıvan xanlığını devirmişdi. Buna görə də Abbasqulu xan Qarabağ xanlığına pənah gətirmiş və orada sığınacaq tapmışdı. Həmin vaxt Xoylu Əhməd xan öz müttəfiqi İbrahimxəlil xana söz vermişdi ki, Abbasqulu xanın hakimiyyətini bərpa edə bilər, amma bu şərtlə ki, Təbrizin alınmasında İbrahimxəlil xan yaxından hərbi köməklik göstərsin. Naxçıvan xanlığında gözü olan Qarabağ xanı istəyirdi ki, Naxçıvan xanlığı Qarabağ xanlığından asılı olsun [63, s. 177]. Lakin hadisələr İbrahimxəlil xanın istədiyi kimi olmadı. Təbrizi şəhərin varlı təbəqəsinin köməkliyi ilə ələ keçirən Əhməd xan əldə etdiyi qənimətdən müttəfiqi İbrahim xana heç nə vermədi. Bundan başqa naxçıvanlı Abbasqulu xanı öz himayəsi altına aldıqdan sonra onun adına fərman verdi. Həmin fərmana görə, Abbasqulu xan Əhməd xan tərəfindən Naxçıvan xanı (hakimi) təyin edildi. Fərmanda Əhməd xan Abbasqulu xanı özünün oğulluğu kimi qeyd edir və naxçıvanlıların kiçikdən böyüyə qədər ona tabe olmasını tələb edirdi [11, s. 129].

Azərbaycan xanlıqlarını idarə edən xanlar öz şəxsi mənafeləri naminə tez-tez xarici siyasətlərini tənəzzülə doğru aparırdılar. Naxçıvan xanlığının ən yaxın müttəfiqlərindən olan Xoy xanlığını idarə edən Əhməd xanın hərbi sahədə qazandığı uğurlar ona Azərbaycanın hər yerində hörmət və böyük nüfuz qazandırmışdı [62, s. 2].

Qarabağ xanı İbrahimxəlil xanın və Xoy xanı Əhməd xanın Naxçıvan xanlığını işğal etmələri polkovnik Burnaşevi də çox narahat edirdi. Polkovnik S.D.Burnaşev Rusiyanın Kartli-Kaxetiya dövlətindəki nümayəndəsi idi. O, Gürcüstanda 1783-1787-ci illərdə hərbi-diplomatik fəaliyyətdə olmuşdur. Burnaşevin ulu babaları Krım xanları olan Gireylər nəslindən idi. Onun atası Menqli Girey rus çarı İvan Qroznının hakimiyyəti illərində Rusiya təbəəliyini qəbul etmişdi.

S.D.Burnaşev Qafqazda hərbi xidmətdə olarkən tarixi-etnoqrafik oçerklər yazmışdır. Burnaşev (1743-1824) 82 yaşında Kurskda vəfat etmiş və orada dəfn edilmişdir [112, s. 233].

S.D.Burnaşev Qafqazın hərbi rəislərindən biri olan P.S.Potyomkinə yazdığı raportda xəbər verirdi ki, iyun ayının 12-də Naxçıvan xanlığından II İraklinin sarayına gəlmiş nümayəndə İbrahimxəlil xana qarşı kömək etməyi xahiş etmişdir. Burnaşev raportu 1786-cı il uyul ayının 20-də imzalamışdı. Ona görə də polkovnik Burnaşev Xoy və Urmiya xanlarına yazdığı məktubda onlardan tələb edirdi ki, Naxçıvan xanlığını müdafiə etsinlər [13, s. 59].

Mirzə Yusif Qarabağlı yazır ki, Qarabağ xanı İbrahimxəlil xan birinci dəfə Naxçıvan xanlığına 1787-ci il may ayının əvvəllərində hücum edir, Naxçıvanı ələ keçirir və müttəfiqi II Iraklinin köməyi ilə Abbasqulu xanı hakimiyyətə gətirir [28, s. 25]. Kalbalı xan hakimiyyətə gələn kimi Abbasqulu xan yenə də Naxçıvanı tərk edib Zəngəzurda və Qarabağda atası ilə birlikdə sığınacaq tapır və keçmiş müttəfiqlərinin köməyinə ümid bağlayır [49, s. 635]. Hətta bəzi mənbələrdə onun və süvarilərinin Ağ Karvansarada (indiki Fərhad evi –***red.***) yaşamaları haqqında məlumatlar vardır [53, s. 340]. O, dağlarda sığınacaq tapmaqla istəyirdi ki, Naxçıvan xanlığında hakimiyyətini bərpa etsin.

Xoy xanlığının hakimi Əhməd xan Cəfərqulu xan Kəngərliyə də hakimiyyətə gəlməsində köməklik edirdi. Bu baxımdan rus hərbi tarixçisi P.Q.Butkovun yazdıqları maraqlıdır: "... Naxçıvan xanı Cəfərqulu xanı öz himayəsinə götürüb. ...onun işlərinə qarışmağa ixtiyarı yoxdur. Çünki sahib olmaq üçün İsfahanın hakimi tərəfindən fərman Cəfərqulu xana verilmişdir" [63, s. 176-177].

Xoylu Əhməd xan öz qardaşı uşaqlarının qəsdi nəticəsində 1786-cı ilin fevralında həlak oldu. Onun yerinə qardaşı Şahbaz xanın oğlu Cəfərqulu xan keçdi. Cəsarət və şücaətdə məşhur olan Cəfərqulu xan qısa bir müddətdə böyük qoşun toplayaraq qisas almaq və xanlığı xilas etmək üçün müharibəyə başladı [11, s. 133]. Ona Marağalı Əhməd xan, Urmiyalı Məhəmmədqulu xan (Əhməd xanın kürəkəni) yardım edirdilər [63, s. 195].

Gürcü çarı II İrakli Cəfərqulu xanın rəğbətini qazanmaq və Xoy xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında münasibətləri yaxınlaşdırmaq məqsədilə Cəfərqulu xanın qulluğuna 800 nəfər bacarıqlı döyüşçü də göndərdi. Əhməd xanın asılı saxladığı xanlıqlar, onun ölümündən sonra yenidən öz müstəqilliklərini bərpa etdilər.

Həmin illərdə xanlıqların qazandığı müstəqilliyi ancaq döyüşməklə qorumaq olardı. Bir neçə güclü xanlıqlar birləşərək, digərlərini işğal etmək məqsədini güdürdülər. Digər xanlıqlar öz aralarında hərbi, iqtisadi əlaqələri gücləndirməklə belə işğallara son qoymaq arzusu ilə müttəfiqlik yaradırdılar.

Naxçıvan xanlığının ilk müttəfiqlərindən biri, Qaradağ xanlığı idi. Səfəvilərin hakimiyyəti zamanında qaradağlılar da Kəngərlilərlə birlikdə hərbi

fəaliyyətdə olmuşlar. Nadir şah Əfşar hakimiyyət başına gəldikdən sonra ona tabe olmayan Kazım xan Qaradağlının gözləri çıxarılmışdır. Ancaq 1747-ci ildə o, Qaradağ xanlığının əsasını qoymuş və 1747-1752-ci illərdə xanlığı idarə etmişdir [11, s. 21].

Naxçıvan xanlığının sıx diplomatik münasibətlər saxladığı müttəfiqlərindən biri Maku xanlığı idi. Maku xanlığının (1747-1778) əsasını qoyan Əhməd Sultan Bayat tayfasındandır. Hələ Şah Abbas Maku qalasını Mahmudi kürd tayfalarından qorumaq üçün Bayat türk tayfalarını qalaya köçürmüşdü. Sonralar Şah Sultan Hüseyin 1705-1706-cı illərdə (hicri 1117-ci ildə) İrəvan ətrafında yaşayan bayatların üç yüzə yaxın ailəsini buraya köçürdü. Bayatlar Maku xanlığının iqtisadi və siyasi həyatına hakim olduqlarından müstəqil siyasət aparırdılar [11, s. 24-25]. Bu səbəbdən də Naxçıvan xanlığı ilə möhkəm münasibətləri yaranmışdı. Sonralar I Kalbalı xan öz qızı Cahan Banunu Makulu Əli xana ərə vermişdi. Belə qohumluq bu iki xanlığı daha sıx tellərlə bir-birinə bağlayırdı. Hətta dostluq və qohumluq münasibətləri xanlıqdan sonrakı dövrlərdə də qırılmamış və 1920-ci ilədək davam etmişdir.

I Kalbalı xanın hakimiyyəti illərində Naxçıvan xanlığının ən yaxın hərbi müttəfiqi İrəvan xanlığı olmuşdur. 1807-ci ildən sonra bu müttəfiqlik əvvəlki gücdə olmayıb. Naxçıvan xanlığı bu illərdə İrəvan xanlarının apardığı siyasəti dəstəkləmirdi. Bunun bir çox səbəbləri var. Onlardan biri İrəvan qalasının I.Paskeviçə təslim edilməsidir. Digər fakt Hüseynqulu xanın ən yaxın adamlarından biri İrəvan məliyi Abrahamın oğlu məlik Ağamalıyan Saakın olmasıdır. İrəvan xanı ermənilərdən ibarət piyada qoşun dəstəsi yaratmışdı və məlik Ağamalıyanı komandir təyin etmişdi. Həmin qoşun dəstələri 1826-1828-ci illərdə Rusiya-İran müharibəsində rus ordusuna çox böyük xidmətlər göstərmişlər. I Kalbalı xan və oğlu I Ehsan xan belə erməni qoşun birləşmələrinin əleyhinə idilər.

Əsasən Dəvəli (Ziyadoğlu) Qacarların idarə etdiyi İrəvan xanlığı da Naxçıvan xanlığının siyasi taleyini yaşamışdır. O da Naxçıvan xanlığı kimi 1747-1797-ci illərdə müstəqil dövlət olmuş, 1797-1828-ci illərdə burada Fətəli şahın hakimiyyəti hökm sürmüşdür. Tarixən qədim Azərbaycan torpaqlarını əhatə edən İrəvan xanlığı mürəkkəb və uzun tarixi yol keçmişdir. Hər bir xanlığın tarixində olduğu kimi, İrəvan xanlığının keçdiyi inkişaf yolunda da onun xarici siyasəti əsas yer tutur. XVIII əsrdə İrəvan xanlarının qonşu dövlətlərlə yazışmaları (məktublar külliyyatı) vardır [93]. Diplomatik məktubları fars və ərəb dillərindən rus şərqşünası K.N.Smirnov rus dilinə tərcümə etmişdir.

Şərqşünas K.N.Smirnov İrəvan xanlarının diplomatik məktublarını olduqca səmimi bir dillə oxuculara təqdim edir. O, bu məktublarla tanış olandan sonra Rusiya hərbçilərinin Azərbaycan xanlıqları, o cümlədən İrəvan xanlığı haqqında olan bəsit fikirlərini kəskin tənqid etmiş və göstərmişdir ki, bu diplomatik yazışmalara ancaq qibtə etmək olar. Məhəmməd xanın hakimiyyəti dövründə

İrəvan xanlığının diplomatiyasının çox orijinal olduğunu önə çəkən müəllif gənc xanın apardığı siyasətin arxasında kimin dayandığını mülahizə edərək belə bir maraqlı sual verir: "Bəzən deyirlər ki, onun anası əsas diplomatik yazışmaların sahibidir. Belə ağıllı bir siyasəti istiqamətləndirən İrəvan Taleyranı kimdir?" Sonra alim davam edərək deyir: "Gənc xan belə yüksək səviyyədə hərəkət edə bilməzdi, ola bilər, bəlkə bu onun Şadlı tayfasından olan anasıdır?"

Bu dövrdə İrəvan xanlığında aparılan xarici siyasətin arxasında K.N.Smirnovu heyrətləndirən İrəvan Taleyranı naxçıvanlı I Kalbalı xan dayanırdı.

Bu məktublarda İrəvan xanlığının münşisi (katibi) Mirzə Məhəmməd Müslüm (ədəbi ləqəbi Əl-Qüdsi) haqqında da ətraflı məlumat vardır. İrəvan xanlığının məktublar külliyyatını nəfis, orijinal və diplomatik dillə nəşrə hazırlayan da Qüdsidir.

K.N.Smirnov Qüdsi və onun yazı üslubu haqqında danışmaqla bərabər, həm də qeyd edir ki, Qüdsinin özü belə yazı formasına təxminən 40 səhifə ithaf etmişdir. Onun üslubu haqqında Smirnov yazır: "Qüdsinin üslub nümunələri göstərir ki, ruslar Cənubi Qafqazın əyalətlərini tutmazdan əvvəl yuxarı təbəqənin mədəniyyət səviyyəsi işğalçıların fikirləşdiyi qədər köhnə, bəsit olmayıb. Xanlar utanırdılar ki, təhsilli insanlarda elmi yarımçıqlıq hiss olunsun [93, s. 20]. Bu isə K.N.Smirnov kimi çox bilikli və nüfuzlu hərbi şərqşünasın "Məktublar külliyyatı"na verdiyi qiymətdir.

Külliyyatda Türkiyə hökuməti ilə 13 məktub, o cümlədən Həsənəli xanın (Sarı Aslanın) 3 məktubu aşkar edilib. Külliyyatda İrəvan xanının münşisinin naxçıvanlı naşir Molla Məhəmmədə yazılan məktubları da vardır [93, s. 53].

Cəfərqulu xanın zəifliyi ucbatından 1787-ci il mayın əvvəllərində İbrahimxəlil xan Naxçıvan qalasını tutdu və öz adamı olan Abbasqulu xanı hakimiyyətə gətirdi [13, s. 60]. Bu prosesləri diqqətlə izləyən I Kalbalı xan Naxçıvanı xilas etmək üçün və bütün kənar qüvvələri məharətlə xanlığın ərazisindən çıxara bildi. I Kalbalı xan o qədər cəsarət göstərdi ki, II İrakli ilə İbrahimxəlil xanın Naxçıvanı mənimsəmək niyyətlərini tez bir zamanda puç elədi. Artıq bu vaxtlar Əhməd xan vəfat etmişdi [11, s. 133]. Xoy xanlığına Hüseynqulu xan (Cəfərqulu xanın böyük qardaşı – ***red.***), sonralar cəsarətdə I Kalbalı xandan geri qalmayan Cəfərqulu xan Xoyski başçılıq edirdi. Gizlində Naxçıvanı tutmaq uğrunda Xoy, İrəvan, Qarabağ və Kartli-Kaxetiya çarlığı arasında mübarizə gedirdi. Doğrudur, Cəfərqulu xan Xoyskinin hakimiyyəti illərində I Kalbalı xan bunu əsl dostluğa çevirə bildi. Ancaq ilk əvvəllər bu məsələ olduqca mürəkkəb idi. I Kalbalı xan hakimiyyətə gələn kimi onların hər biri ilə gizli danışıqlar apardı və vaxt qazanmaq üçün bunlarla müvəqqəti müqavilələr bağladı [86, s. 19-20].

Qafqazın ən böyük tacirləri, sonralar İbrahimxəlil xanın başağrısına çevrilən Qarabağ məlikləri I Kalbalı xanın cəsarəti və hünəri önündə, əmrə müntəzir idilər. Dağıstan xanlarında, camaatlığında və sultanlıqlarda, hətta gürcü çarlığında

onunla hesablaşmalı olurdular. Artıq Naxçıvan xanlığı yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Lakin 1792-ci ilin yanvarında Qarabağ xanı öz vədinə xilaf çıxaraq yenidən Naxçıvana hərbi yürüşə başladı [13, s.63]. Həmin ilin sərt qışında İbrahimxəlil xan öz qaynı Avar xanlığının hakimi Ömər xanla 11 min nəfərlik qoşun toplayaraq Xan dikindəki Naxçıvan qalasını mühasirəyə aldı. Naxçıvan xanlığını Kəngərli süvariləri 6 gün igidliklə müdafiə etdilər və bu vaxt I Kalbalı xan da onlarla birlikdə döyüşürdü. Onun göstərişi ilə döyüşçülər yeraltı lağımlarla qaladan kənara çıxıb əlbəyaxa döyüşlərə başladılar [86, s.20]. Həmişə Qafqazda özlərindən başqa məharətli döyüşçü tanımayan dağlı qoşunları Kəngərli süvarilərinin döyüşlərini görəndə çaxnaşmaya düşdülər. Bu vaxt Naxçıvanın müdafiəsində döyüşənlər arasında Cəfərqulu xan Xoyski öz qoşunu ilə, həmçinin Məhəmməd xan öz döyüşçüləri ilə əsl igidlik göstərirdilər [86, s. 19]. Çoxlu sayda itki verən işğalçı qoşunlar qaçmağa üz qoydular. Tarixi mənbələr yazır ki, düşmən tərəf 1000 nəfər döyüşçü itirmişdi. Naxçıvan camaatı qalanın müdafiəsində şəhid olmuş Naxçıvan, İrəvan və Xoy xanlıqlarının döyüşçülərini dərin ehtiramla torpağa tapşırdılar [13, s. 63; 86, s.21]. Buna baxmayaraq Naxçıvana hərbi yürüş İbrahimxəlil xanın I Kalbalı xanla dostluğunun bünövrəsini qoydu [28, s. 82].

Sonralar Cəfərqulu xan və I Kalbalı xan daha yaxın müttəfiq kimi fəaliyyət göstərdilər. Hətta hər ikisi 1795-ci ildə Ağaməhəmməd şah Qacarın Tiflis üzərində qanlı yürüşündə məcburən iştirak etmişdilər. Cəfərqulu xan sonralar Rusiyalı general-leytenant Knorrinqə yazırdı "...mən canı-dildən Ağa Məhəmməd şaha xidmət etmişəm, onun çox yerləri işğal etməsində köməyimə görə günahkaram..." [51, s. 676-677].

Həmin ildə Cəfərqulu xan səfərdə olarkən, Abbas Mirzə Xoy qalasına hücum edərək onun qardaşını, arvadını və oğlunu girov götürdü [31, s. 69]. Bundan sonra Cəfərqulu xan öz qoşunu ilə Maku qalasına çəkildi. Yaxın qohumu Bəyazid paşasının köməyi ilə qalanı müdafiə etdi, o, Abbas Mirzəyə təslim olmadı [51, s. 107, 111]. Təhlükəsizlik məqsədi ilə sonralar qaynı Məhəmməd xan İrəvanskinin dəvəti ilə Koroğlu qalasında qalmalı oldu. O, bu vaxtlar Rusiya sərdarı Sisianovla danışıq aparırdı. I Kalbalı xan isə onu dilə tutmağa çalışırdı ki, Rusiya təbəəliyinə getməsin. Xoy xanlığı və ona məxsus olan xəzinənin əlindən çıxdığını görən Cəfərqulu xan öz fikrində qəti idi [53, s. 340]. Qafqaz aktlarında deyilir ki, elə 1804-cü ildə Cəfərqulu xan Rusiyaya sədaqət andı içir [52, s. 858].

1802-ci ildə Rusiya çarı I Aleksandr knyaz Pavel Dmitriyeviç Sisianovu (Sisiaşvilini – ***red.***) Qafqazın sərdarı təyin etdi. Qafqazın, o cümlədən Azərbaycan xanlıqlarının işğal olunmasında ad çıxaran P.Sisianov gürcü knyazlarının nəslindən idi və 19 sentyabr 1754-cü ildə Moskvada doğulmuşdu. Mükəmməl hərbi təhsil alan P.Sisianov 1786-cı ildə polk komandiri təyin olunmuş, 1787-1791-ci illərdəki Rusiya-Türkiyə müharibəsində iştirak etmişdi. 1794-cü ildə Polşa üsyanının amansızlıqla yatırılmasında iştirak edən P.Sisianov Rusiya qoşunlarının Qafqaza

yürüşü zamanı V.A.Zubovun köməkçisi işləmişdi. 1796-1797-ci illərdə Bakı qalasının komendantı (qalabəyisi) olan knyaz I Pavelin hakimiyyəti zamanında istefaya çıxmışdır. Ancaq adı amansızların siyahısında ön yerdə olan Sisianov yenidən 1802-ci ildə Qafqaza baş rəis, yəni sərdar təyin edilmiş, həm də Hacı Tərxanın (Həştarxanın – ***red.***) general-qubernatoru (hakimi) olmuşdur. O, Qafqazda olduğu müddətdə işğalçılıq planlarını sürətləndirmiş və bu yöndə ən amansız üsullardan, vasitələrdən istifadə etmişdi. 1802-ci ildə Rusiya dövləti adından Dağıstan feodallarını məcburi sazişə razı salmış, 1803-cü ildə Car-Balakəni, 1804-cü ildə Gəncə xanlığını işğal etmişdi. Uğurlu işğalçılıq siyasəti iddiaları və güclülər qarşısında yaltaqlığı ilə ad qazanan Sisianov İrəvanı, sonra isə Naxçıvanı işğal etmək istəyirdi [2, s. 460].

I Kalbalı xan yenə də Naxçıvanın müdafiəsi üçün diplomatik manevrləri sürətləndirmişdi. Qafqaz Aktlarının II cildində onun baş sərdar P.Sisianova yazdığı məktubun tərcüməsi verilib: "Əgər ruslar Gürcüstanda qərar tutarlarsa, onda mən sizin hökmdarınıza xidmət edərəm. Ayın 28-də İrana şahın yanına yola düşəcəyəm ki, patriarx Danili Naxçıvana gətirim".

I Kalbalı xan bu məktubu 6 fevral 1803-cü ildə yazıb [52, s. 633]. Osmanlı imperiyasında yaşayan ermənilər istəyirdilər ki, Üçmüəzzindəki (Eçməidzin-***red.***) kilsədə David yox, Danil patriarx olsun. Buna görə də Rusiya tərəfi İrəvan xanı Məhəmməd xandan və Naxçıvan xanı I Kalbalı xandan tələb edirdi ki, Danilin Tehrandan qayıtmasını təmin etsinlər, onda işğaldan kənarda qalarlar.

Əlbəttə, Rusiya tərəfi də diplomatik hiylə işlədirdi. Çünki İrəvan və Naxçıvan xanlıqlarını zəbt edib Rusiya imperiyasına qatmaq onların ən vacib planlarından biri idi. Bölgədə vəziyyət gərginləşmişdi. Artıq 1804-cü ildə Rusiya və İran qoşunları döyüşməyə başladılar. Elə bu vaxt Fətəli şah I Kalbalı xana məktubla bildirirdi ki, ruslarla döyüşsün. Kəngərli arxivinə məxsus əlyazma sənədlərindəki məlumata görə I Kalbalı xan cavab verir ki, naxçıvanlılar rus qoşunları ilə döyüşməyəcəklər [97, s. 22-27].

1804-cü ilin mart ayında Fətəli şahın əmri ilə Pirqulu xanın qoşunları Naxçıvana hücum edir və Naxçıvan qalasını tutur [86, s. 31]. Bu zaman artıq I Kalbalı xan döyüşçüləri ilə İrəvan qalasına çəkilmişdi. Mayor Montrezor 3 aprel 1804-cü ildə Qarakilsədən knyaz Sisianova göndərdiyi raportunda yazırdı ki, I Kalbalı xan Qacarlarla axıradək döyüşməyi qərara alıb [49, s. 806]. Fətəli şahın oğlu Abbas Mirzə 60 min qoşun toplayaraq II İraklinin oğlu şahzadə Aleksandrla birgə İrəvan qalasına tələsirdi [86, s. 31]. Öz müstəqillikləri uğrunda döyüşmək üçün İrəvan qalasına sığınan I Kalbalı xana və irəvanlı Məhəmməd xana Fətəli şah hədələyici məktublar göndərərək yazırdı ki, İrəvan qalasını onlara təslim etməsələr, girovluqda olan oğullarını öldürəcək [52, s. 611-612].

1804-cü il mayın 5-də knyaz Sisianov I Kalbalı xana məktub göndərmiş, tələblərini bildirmiş və həvəslə istifadə etdiyi "hədələmə" üsulunu da unutmamışdı:

"çox razıyam ki, siz alicənablıq göstərərək Rusiyanın tərəfini saxlayırsınız. Nə vaxt iş uğurla nəticələnsə, Allaha and içirəm ki, siz–mənim dostum, Naxçıvan xanlığının taxtında oturacaqsınız". Knyaz Sisianov hər iki xanlıqdan tələb edirdi: 1) Peterburqa xeyirli olan Danili Üçmüəzzinə patriarx təyin etmək; 2) İrəvana rus qoşunlarını buraxmaq; 3) Rusiya çarına sədaqət andı içmək; 4) hər il 80 min rubl bac-xərac vermək.

Knyaz Rusiya hökuməti adından I Kalbalı xana bildirirdi: 1) Bütün bunların əvəzində siz əvvəlki hüquqlarınızı saxlayacaqsınız, ancaq edam etməkdən başqa; 2) Sizə xanlıq titulu veriləcək; 3) İranda olan və əmanat saxlanılan yaxınlarınızı sizə qaytaracağıq. Məktubun sonundakı hədə isə knyaz P.Sisianovun işğalçı niyyətlərini ortaya gətirirdi: "Allaha and olsun ki, əgər mənim yürüşüm dəyişilsə, onda gərək günəş qərbdən-şərqə hərəkət etsin, Xəzər dənizində gərək bir damla su qalmasın. Fərq ondadır ki, ya oraya xilas edən kimi gələcəyəm, ya da əgər imperatorun iradəsinin əleyhinə getsəniz sizi Gəncəli Cavad xan kimi cəzalandıracağam" [52, s. 634].

Knyaz P.Sisianovun hədələyəci məktubu I Kalbalı xanı çox qəzəbləndirdi, çünki Gəncə xanlığı hələ 1752-ci ildən Naxçıvan xanlığının yaxın müttəfiqlərindən biri idi. Ona görə də I Kalbalı xan əmr verdi ki, İrəvan qalası müdafiə üçün var gücü ilə döyüşəcək. P.Sisianov xanların cavablarını gözləyə bilmədi. General-mayor Leontyevə əmr verdi ki, iki piyada batalyonu və 5 topla Pəmbəkə doğru yürüş etsinlər [86, s. 32]. Artıq iyunun 1-də hücum yürüşü reallaşdı. İyunun 19-da P.Sisianovun qoşunları Üçmüəzzinin yaxınlığında dayanmışdı [52, s. 615].

Mirzə Adıgözəl bəy "Qarabağnamə"də yazır: "Bu zaman Naxçıvan hakimi Kalbalı xan da İrəvanda idi. Doğrudur, Məhəmməd xan İrəvanın müstəqil hakimi idi, lakin o, məmləkəti idarə etmək, yaxın və uzağın mühüm işlərini nizama salmaqda Kalbalı xanın rəyinə tabe idi... " [26, s. 67].

1804-cü il iyun ayının axırında Rusiya qoşunları knyaz P.Sisianovun rəhbərliyi altında İrəvan qalasına yaxınlaşdı. Knyazın irəvanlı Məhəmməd xana ünvanlanan 318 nömrəli məktubu 26 iyun 1804-cü ildə yazılmışdır [52]. I Kalbalı xan qaynı Məhəmməd xanla qərara aldılar ki, Qacarlarla və Sisianovun qoşunları ilə son nəfəsədək döyüşəcəklər. Knyaz P.Sisianov çar II İraklinin ocağını, yurdu-nu-yuvasını dağıtmışdı. II İraklinin gəlini Məryəm erməni mənşəli general Lazarevi xəncərlə öldürmüşdü. Çünki Lazarev İraklinin varislərini zorla Rusiyaya deportasiya edirdi. Sisianov istəyirdi ki, hakimiyyətdə marağı olan varislərdən biri belə qalmasın. Məryəm Kartli-Kaxetiyanın axırıncı çarı, II İraklinin oğlu XII Georginin həyat yoldaşı idi. P.Sisianovun qohumu olsa da, onu Voronejə aparıb, Beloqorsk monastrına saldılar [86, s. 33]. Çar II İraklinin dul arvadı Darecanı isə Moskvaya apardılar. Darecanı dəfələrlə azərbaycanlılar ölümün caynağından qurtarmışdılar. Onun oğlanlarından yalnız Teymuraz qaçıb dağlarda gizlənmişdi. O biri oğlu Aleksandr isə müsəlmanlığı qəbul etmiş və Fətəli

şahın yanında qalmışdı. Ona sığınacaq verib uzun müddət Naxçıvanda gizlədən I Kalbalı xan olmuşdu [63, s. 545].

Bütün bunlara görə I Kalbalı xan Sisianova və Naxçıvanı dağıdan Fətəli şaha möhkəm dərs vermək qərarına gəldi. Bu döyüş həm də böyük risk idi, çünki naxçıvanlıların və irəvanlıların taleyi indi onların necə döyüşmələrindən çox asılı idi.

I Kalbalı xan və Məhəmməd xan birlikdə hərəkət etməyə qərar verirlər. Əslində Məhəmməd xanın buna böyük mənəvi ehtiyacı vardı. Çünki gənc Məhəmməd xan təcrübəli, cəsur, iradəli sərkərdə I Kalbalı xansız heç nə edə bilməzdi. İrəvan qalasının Rusiya və İran qoşunları tərəfindən birinci mühasirəsi zamanı qalanın qəhrəmancasına müdafiəsində bütün işlərə rəhbərliyi I Kalbalı xan edirdi. Döyüş əmrlərini də o verirdi.

Abbas Mirzənin yanındakı komandirlərdən ikisi naxçıvanlı idi: I Kalbalı xanın əmisi oğlu Abbasqulu xan və böyük oğlu Nəzərəli xan. Abbasqulu xan Naxçıvana hakim təyin edilmişdi [86, s. 33]. İndi də I Kalbalı xanla döyüşməyə gəlmişdi. Abbas Mirzənin yanında Kəngərli polku da var idi. Tarixin qəribə bir səhifəsi yaranırdı. İrəvan qalasını müdafiə edən I Kalbalı xan və Məhəmməd xan öz doğmaları ilə döyüşməliydi. I Kalbalı xan isə müstəqilliyi və azadlığı övladlarından da çox sevirdi. 1804-cü il iyulun 2-dən sentyabrın 3-dək gedən döyüşlərdə itkilər verən və İrəvan qalasını tuta bilməyən Sisianov geri döndü. O, Abbasqulu xanla və Kalbalı xanla yazışırdı. Onu İrəvana və Naxçıvana dəvət edən Kalbalı xan bir rəsmi məktubunda yazmışdı: "Mən heç vaxt sənə vəd etməmişdim ki, qalanı təslim edəm, yazmışdım ki, həqiqi dostluq olarsa, həmişə xidmət etməyə hazıram" [86, s. 35]. Sonrakı danışıqlarda xoylu Cəfərqulu xan (I Kalbalı xanın bacanağı – ***red.***) vasitəçilik edirdi. Sisianov Cəfərqulu xana yazmışdı ki, mən I Kalbalı xana inana bilmərəm. Gərək oğlanlarını yanıma amanat göndərsin [52, s. 860]. I Kalbalı xan Sisianovla diplomatik danışıqlara son qoydu. Məğlub olan Sisianov təkrarən İrəvan və Naxçıvana ikinci yürüş etmədi. O, 1806-cı il fevralın 8-də Bakıda qətlə yetirildi. I Kalbalı xan isə Naxçıvanın və İrəvanın işğaldan kənarda qalması naminə yenidən diplomatik münasibətlər qurmaq üçün yollar axtarırdı.

I Kalbalı xan Cəfərqulu xanın vasitəsilə rus generalları ilə diplomatik danışıqları təzələyə bilmişdi.

1806-cı il dekabrın 10-da imperator I Aleksandr Cəfərqulu xana general-leytenant hərbi rütbəsi verməklə bərabər, həm də Şəki (Nuxa – ***red.***) xanı təyin edir [52, s. 271]. Cəfərqulu xana almaz qələm və gerblə birlikdə bayraq da təqdim edir. Bütün bu hadisələr 12 yanvar 1807-ci ildə Tiflisdə olub. Cəsur sərkərdə az bir müddət içərisində birinci dərəcəli Müqəddəs Anna ordeni və qiymətli daş-qaşlarla bəzədilmiş qılıncla mükafatlandırılır. Ona həm də Şəkinski familiyasını daşımağa icazə verirlər [53, s. 273-274; 55 s. 273-274]. Cəfərqulu

xan 22 avqust 1814-cü ildə qızdırma xəstəliyindən vəfat edir [55, s. 553].

Məşhur general Cəfərqulu xan Xoyski ömrünün sonuna kimi Naxçıvan xanlığına sədaqətli olub. Bu sədaqətlilik sonralar onun varisləri tərəfindən də qorunub saxlanılmışdır. Qafqaz tarixində Kəngərlilərin (Naxçıvanskilərin), onların dost-doğmaca xalası uşaqları olan Xan Xoyskilərin (burada söhbət kiçik Kalbalı xan Xoyskinin oğlu İsgəndər xandan və oğlu Fətəli xan Xoyskidən gedir) yaratdıqları bir zəfərli tarix var [78, s. 49-54].

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın diplomatiya tarixində I Kalbalı xanın və onun oğlu I Ehsan xanın xüsusi yerləri vardır. I Kalbalı xanın apardığı diplomatiya Qafqazda marağı olan 3 böyük dövlətin-Rusiyanın, Osmanlı Türkiyəsinin və İranın maraqlarını nəzərə almağa məcbur idi və hamının gözü önündə Naxçıvan ümumqafqaz diplomatiyasının mərkəzlərindən biri kimi tarixdə öz sözünü deyirdi.

I Kalbalı xan 1796-cı ildən 1820-ci ilədək, yəni, 25 il (hakimiyyətdə olduğu və olmadığı vaxtlarda – ***red.***) Rusiya ilə gizli, bəzən aşkar diplomatik münasibətlərdə, daha doğrusu, manevrlərdə olmuşdur [5, s. 96]. Onun məktublarının rusca olan variantı rus şərqşünası A.Berje tərəfindən Qafqaz Aktlarının I cildində, əsasən "Naxçıvan" bölməsində nəşr edilib. Rusiya ordusunun general-mayoru Lazarevin, polkovnik Karyaginin I Kalbalı xana yazdığı məktublar 1801-1802-ci il İrəvanla və Naxçıvanla bağlı siyasi hadisələri dərindən izləməyə imkan verir [52, s. 625-627]. General-mayor Lazarevin məktublarından məlum olur ki, I Kalbalı xanın elçi sifəti ilə göndərdiyi məmurun adı Hacı bəydir [51, s. 624].

I Kalbalı xan Rusiya qoşunlarının həm quruda, həm də suda Ali Baş Komandanı, general-mayor Qraf Valerian Zubovla 1795-ci ildən danışıqlar aparırdı [5, s. 96; 83, s. 23]. Onun əsas məqsədi Naxçıvan xanlığının müstəqilliyini qorumaq idi. I Kalbalı xanın rus generalı Nesvyatevə yazdığı məktubu da vardır [88]. O ardıcıl olaraq Rusiya ilə diplomatik manevrlər etmişdir. Valerian Zubov tabeliyində olan bütün komandirlərə tapşırmışdı ki, yerli əhali ilə çox mülayim rəftar etsinlər [5, s. 103-105].

I Kalbalı xanın 26 may 1802-ci ildə polkovnik Karyaginə yazdığı məktubda onun diplomatiyasının şəxsi məqsədlər güdmədiyini bildirir: "...Məmməd paşa bizim düşmənlərimizlə dostluq edir, bizlə isə düşmən kimi davranır. Onun birinci günahı ondadır ki, İran dövlətinin Xoy xanlığını dağıdan kürdlərə və onların başçısı Əli ağaya sığınacaq verib. Bəylərbəyi İran hökumətinin məktubunu ona versə də, o, Əli ağanı bizə verməkdən imtina etdi. Himayə edilən Əli ağa karvan yollarını kəsdi və bizim karvanları taladı. Bizim tacirlərin mallarını alıb Qarsda saxladılar və özlərini də döydülər. 1) Onun haqqı yoxdur ki, Türkiyə sultanlarının adından bizimlə düşmən kimi danışsın; 2) biz ona hörmət edib paşa kimi tanımışıq; 3) o isə bizim dövlətin düşməninə havadarlıq edir. Biz Allahdan arzu edirik ki, həmin adamı cəzalandırsınlar. Bu həm Türkiyə sultanına, həm də İran dövlətinə

çox xeyirlidir" [51, s. 624-630].

Daha sonra I Kalbalı xan Rusiya ilə münasibətlərinə aydınlıq gətirərək yazır: "Sizin alicənablılığınıza yaraşarmı ki, satqınların yalan sözlərinə inanasınız. Birinci, Allaha, inamıma və qibləyə and içirəm, ikinci başda bizim bəylərbəyi olmaqla, bizim sizinlə dostluqdan və qonşuluqdan savayı heç bir işimiz yoxdur. Sizin torpağınızda da həmçinin; Sizə yaraşmır ki, bizim torpaqlara qoşunla gəlmisiniz. Xahiş edirəm ki, geriyə öz torpağınıza qayıdasınız. Əks halda biz düşmənimizlə özümüz haqq-hesab çəkməli olacağıq. Əgər siz qayıdıb öz torpağınıza getməsəniz onda aşkar görünür ki, siz bizimlə düşmənçilik edirsiniz. Və günlərin birində qəflətən biz sizin yanınıza gələcəyik. Allah necə istəsə, elə də yaxşıdır. Axırda bizi günahlandırmayın..." [51, s. 624-630].

Kalbalı xan diplomatik məktublarında heç kimi təhqir etməmiş və Rusiya hərbçiləri qarşısında ədalətli tələblər qoymuşdur.

Qars paşası Məmməd paşanın çox təkidli məktublarından sonra general Knorrinqin göstərişi ilə polkovnik Karyagin təkrarən I Kalbalı xanla yazışır [51, s. 625-627]. I Kalbalı xan təkrar cavab məktubunda yenə də çox qəti və diplomatik gedişlər edir. Hətta onun tələbləri də qətidir: "...Siz mənimlə Qars paşasını barışdırmaq istəyirsiniz, mən razıyam. Amma barışmazdan əvvəl onlar mənə aşağıdakıları qaytarmalıdırlar: 1) Mənim hakimiyyətim altında olan qarapapaq xalqını; 2) Üçmüəzzindən götürdükləri əşyaları; 3) mənim pərən-pərən salınmış təbəələrimi; 4) tacirlərdən qarət etdikləri mallarımı; 5) və nəhayət onlar 10 kəndin meşəsini dağıdıblar və yandırıblar. Qoy gəlib öz əlləri ilə həmin kəndlərin evlərini tiksinlər, meşələri bərpa etsinlər, mənim onlarla heç bir işim yoxdur..." [51, s. 624-627].

I Kalbalı xanın apardığı diplomatiyada əsas yer tutan ümdə məsələlərdən biri sülh və əmin-amanlıqdır, kimsənin torpağına göz dikməməkdir. I Kalbalı xana görə ağıllı diplomatiya məntiqsiz döyüşdən qat-qat yaxşıdır.

1796-cı ilin sonu, 1797-ci ilin əvvəli Naxçıvan və İrəvan xanlıqlarının tarixində çox qarmaqarışıq və ziddiyyətli dövr idi. Bunun əsas səbəblərindən biri Ağa Məhəmməd şah Qacarın bu xanlıqlara qarşı tutduğu mövqedən irəli gəlirdi. Naxçıvan xanı I Kalbalı xan "cəzalandırılıb" Tehrana həbsə aparıldıqdan sonra onun qaynı Məhəmməd xanı (əsil adı Məhəmmədhüseyn xan – ***red.***) İrəvan xanlığından hakimiyyətdən uzaqlaşdırıb, yerinə Əliqulu xanı təyin etdilər. O, Ağa Məhəmməd şahın qardaşı idi. Şahın faciəli ölümündən sonra Əliqulu xan təcili geri çağırılır və Məhəmməd xanı yenidən İrəvan xanlığına hakim göndərirlər [14, s. 105]. Məhəmməd xanın fəallığı ilə I Kalbalı xan da Naxçıvana hakim təyin edilir [86, s. 35]. Ancaq sonralar Fətəli şah (Babaxan – ***red.***) fikrini dəyişir. Məhəmməd xanı Pirqulu xanla, 1805-ci ildə isə onu Əhməd xan Marağalı ilə əvəz edirlər. 1806-cı ildə Hüseynqulu xanın İrəvan xanı olması haqqında şah fərmanı verilir. Bu fərman ilə Hüseynqulu xan Qacar həm də "Sərdar" titulunun

sahibi olur. Yəni, İrəvan xanlığındakı şah qoşunlarının başçısı vəzifəsini daşıyır.

Hüseynqulu xan İrəvan şəhərini gözəlləşdirmək üçün xeyli işlər görüb. O, məşhur xan sarayını (rəssam Mirzə Qədim İrəvanı həmin sarayı bir rəsm əsərində əla təsvir edib), iki məscid, bir kilsə, mərmər hamamlar, bazar və inzibati binalar tikdirir. İrəvan qalasından qonşu xanlıqlara gedən yollar Təbriz və Şirvan qapılarından başlanırdı. Qalanın əhatəsində beş meydan yerləşirdi. Meydanları məhəllələr dövrəyə almışdı. Məşhur Göy məscidi onun qohumu Hüseynəli xan tikdirib. O, İrəvan qalasını almaq istəyən Rusiya imperiyasının qoşunları ilə dəfələrlə vuruşmuşdur. Doğrudur, bu döyüşlər bəzən uğursuz olsa da, hər halda onun İrəvan qalasını müdafiə etmək üçün çox fədəkarlıq göstərməsindən xəbər verir [79, s. 33].

1826-1828-ci il müharibəsində general Paskeviçin qoşunları İrəvan qalasına hücum edir və 1827-ci ilin 2 oktyabrında qalanı alır. Hüseynqulu xan düşmən əlinə keçməkdən xilas olsa da, qardaşı Həsən xan (Sarı Aslan – ***red.***) ruslara əsir düşür və Tiflisə aparılır.

Sərdar Həsən xanın Ehsan xan və Şeyxəli bəy qardaşlarına yazdığı məktub onlara çatmır, rus xəfiyyələrinin əlinə keçir [91]. Hüseynqulu xan və Həsən xan İrəvanski qardaşları Fətəli şah ilə çoxşaxəli qohumluq dərəcəsində olduqlarından 1826-1828-ci il hadisələrində də onun tərəfini saxlayırdılar. Onlar I Ehsan xanı məcbur edirdilər ki, bütün Kəngərlilər İrana köçüb getsinlər. Sonradan birləşib Naxçıvanı və İrəvanı ruslardan geri alarlar. I Ehsan xan isə Hüseynqulu xanın Naxçıvana xəyanətindən və Fətəli şahın Naxçıvan xanlığına qərəzli münasibətlərindən yaxşı xəbərdar olduğundan onların təkliflərini rədd edir və Naxçıvanı xilas etmək üçün məcbur olub Rusiya təbəəliyini qəbul edir.

I Kalbalı xan və oğlu Ehsan xan tarixdə siyasi xadim kimi iz qoydu. I Ehsan xan atası I Kalbalı xanın apardığı bir missiyanı-Naxçıvan xanlığını tapdaqlar altında qalmaqdan qorumağı şəraitə görə çox uğurla yerinə yetirə bildi. Az bir müddət içində, çarizmin apardığı müstəmləkəçilik siyasətinə baxmayaraq Naxçıvan Qafqazın əsas mərkəzlərindən birinə çevrildi.

5. Naxçıvan xanlığının əhalisi

Arxeoloji, tarixi və etnoqrafik materiallara əsasən demək olar ki, Naxçıvan türklərin məskunlaşdığı ərazilərdən biridir. Bunu tarixi mənbələr də təsdiqləyir. Naxçıvan tarixinə dair xüsusi tədqiqatın müəllifi olan V.Piriyev yazmışdır: "Naxçıvan əhalisinin etnik tərkibi əsasən türklərdən ibarət idi. Diyarın tarixən türklərlə bağlılığı onun əhalisinin də etnik baxımdan türk mənşəli olmasına zəmin yaratmışdır" [43, s. 49].

Xanlıqlar dövrünə qədər olduğu kimi, bilavasitə xanlıq dövründə də Naxçıvan əhalisinin əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi. Xanlıq dövrünün sonunda aparılan kameral təsvir zamanı Naxçıvanda Kəngərli türk tayfası üstün

yer tutmuşdur. Onların Naxçıvanın çox qədim zamanlardan sakinləri olması haqda Azərbaycan tarixşünaslığında xeyli ədəbiyyat vardır [7, 8, 10, 12, 19, 20, 21, 28, 29, 37, 38, 108 və s.]. Kəngərlilərin bir hissəsi (kəngərlər) hələ IV-V əsrlərdə Naxçıvan ərazisində yaşamışlar [23, s. 59]. Tarixi mənbələrdə Kəngərlilərin 18 və 31 nəsil bölgüsü olduğu haqda məlumat vardır [67; 114]. Naxçıvan xanlığında Kəngərli tayfasının məşhur qolları yaşayırdı: Yurdçu, Cəmşidli, Xalxallı, Qaraxanbəyli, Ağabəyli, Cığataylı, Qaraçalı, Bilici, Qaradolaqlar, Kəclər, Sarvanlar, Şahbanlılar, Əlixanlı, Ərəfsəlilər, Salahılar, Qızıllı, Pirhəsənli, Qızılqışlaq, Kəlfir və Qarabağlar [67, s. 32].

XIX əsrin 30-cu illərində Naxçıvanda 1.533 ailə, yaxud 6.473 nəfər kəngərli yaşayırdı. Onlardan 3.423 nəfəri kişi, 3.050 nəfəri qadın idi. Kəngərlilərdən 411 ailə, yaxud 1.694 nəfər (879 kişi, 815 qadın) şəhərdə; 1.022 ailə, yaxud 4.779 nəfər (2.544 kişi, 2.235 qadın) əyalətdə yaşayırdı [114, s. 538].

Naxçıvan xanlığının əhalisinin azalmasına əsas səbəb müharibələr, daxili çəkişmələr, ağır vergi siyasəti nəticəsində təsərrüfatın tənəzzülü, təbii fəlakətlər və s. idi. Naxçıvan xanlığında əhali miqrasiyası (latınca miqratio (köçürülmə) –***red.***) bütün problemləri ilə özünü göstərmişdir.

Dünya tarixində, eləcə də Azərbaycan tarixində müxtəlif tarixi dövrlərdə əhali miqrasiyası baş vermiş, onlar xeyli dəyişikliklərə səbəb olmuşdu. Azərbaycanın xanlıqlar dövrü də əhali miqrasiyasının özünəməxsus xüsusiyyətləri ilə diqqəti cəlb edir. Naxçıvan xanlığında da əhali miqrasiyası daxili miqrasiya, xanlıqlararası, xanlıqdan və ya xanlığa köçürülmələr şəklində mövcud olmuşdur.

Qarabağ xanlığının yaranmasından sonra kəngərlilərin bir hissəsi buraya köçürülmüşdü. Buna görə də miqrasiyalar nəticəsində onların sayı azalmışdı.

Kəngərlilərdən başqa Naxçıvan xanlığının əhalisinin qalan hissəsini digər türk tayfalarından olan əhali təşkil edirdi [23, s. 61].

Naxçıvanda xanlıq dövrünə qədər olduğu kimi, xanlıq dövründə də əhalinin əksəriyyəti kəngərli oğuz türk tayfasından ibarət olmuşdur.

Naxçıvan xanlığında əhalinin daxili hərəkətindəki dəyişiklikləri qeydə alan sistem olmadığından daxili miqrasiyanı öyrənmək mümkün deyildir [24, s. 67]. Bəzi dolayı faktlar bu məsələyə müəyyən aydınlıq gətirməyə imkan verir. "Naxçıvan əyalətinin statistik təsvirində" göstərilir ki, kənddən şəhərə işləməyə gələnlər haqqında hökmən kəndxudalar və məliklər xana məlumat verməli idilər [67, s. 103].

Rusiya dövlətinə arxalanan gürcü çarı II İrakli Naxçıvan xanlığını öz nüfuz dairəsinə salmaq istədiyi üçün hakimiyyət uğrunda mübarizə aparan xanlar arasında ziddiyyətlər yaratdı. Hakimiyyət uğrunda gedən mübarizədə naxçıvanlıların əksəriyyəti uzaq vilayətlərə getməyə məcbur oldular [13, s. 51; 24, s. 67].

I Kalbalı xanın hakimiyyətə gəlişi Naxçıvan xanlığında bir canlanma yaratdı. Naxçıvanlılar başqa yerlərə köçməyi dayandırdılar.

Cənubi Azərbaycan xanlıqlarının bəzilərini özünə tabe edən Ağa Məhəmməd

şah Qacar 1791-ci ildən başlayaraq öz qoşunlarını yürüş üçün hazırlamağa başladı. Onun Cənubi Qafqaza yürüşləri Azərbaycanın iqtisadiyyatına ağır zərbə vurdu. İqtisadiyyatın dağılması isə naxçıvanlıları kasıblaşdırırdı. 1797-ci ildə qəddarlıq və amansızlıqla Naxçıvan xanlığına etdiyi yürüşü zamanı Ağa Məhəmməd şah camaatı qırırdı. Bütün bunlar əhalinin say dinamikasına mənfi təsir göstərdi [13, s. 64-65].

1804-cü ildə Rusiya ilə İran arasında başlanan müharibə də Naxçıvan xanlığının əhalisinin həyatına ağır təsir göstərdi.

1804-1813-cü illər Rusiya-İran müharibəsinin gedişində İran tərəfdən hərbi əməliyyatlarda komandanlıq edən Fətəli şahın oğlu Abbas Mirzə də Naxçıvan xanlığının ərazisindən plasdarm kimi istifadə edirdi. 1811-ci ilin sentyabrında Abbas Mirzə 50 mindən artıq döyüşçü ilə Naxçıvan tərəfdən Qarabağa getmişdi [13, s. 26].

Naxçıvan xanlığı 1813-cü il oktyabrın 12-də bağlanmış Gülüstan müqaviləsinə əsasən formal olaraq İrandan asılı olduğu illərdə xanlığın əhalisinə və iqtisadiyyatına da ciddi təsir göstərmişdi. Xanlığın iqtisadiyyatının zəifləməsi ucbatından əhali digər xanlıqlara köçüb gedirdi.

XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Naxçıvan xanlığında əhalinin sayını və etnik mənsubiyyətini müəyyən etmək üçün başlıca mənbə Naxçıvan xanlığının işğalından sonra qraf İ.F.Paskeviçin göstərişi ilə İvan Şopen tərəfindən (1829-1832-ci illərdə) tərtib edilən kameral siyahıya alınmadır [114]. Bu mənbə Naxçıvan xanlığının işğalından sonra tərtib olunsa da, bəzi nöqsanlarına baxmayaraq, xanlıq əhalisinin sayı haqqında ətraflı məlumat verən yeganə mənbədir. Onun məlumatlarından aydın olur ki, Naxçıvan xanlığının yarandığı dövrlə müqayisədə, ərazisində dəyişiklik baş verdiyindən, 1829-cu ildə Naxçıvan xanlığında 41.482 nəfər əhali qeydə alınmışdı [114, s. 41].

Xanlığın yaranması ərəfəsində əhalisi cəmi 45.140 nəfər idisə, xanlığın ləğvindən sonra əhali 2.643 nəfər azalaraq 42 min nəfər olmuşdu [23, s. 41].

Türkmənçay müqaviləsindən sonra ermənilər kütləvi surətdə süni şəkildə yaradılmış "erməni vilayəti"nə köçürülmüşlər. Hələ Naxçıvan xanlığı formal olaraq asılı olduğu 1813-1828-ci illərdə xanlıqdan əhalinin köçürülməsi davam etdirilmişdi. Tarixi mənbələrdə Naxçıvandan zorla İran ərazilərinə köçürülmüş əhalinin geri qaytarılması üçün I Kalbalı xanın oğlu Şeyxəli bəyin böyük səy göstərməsi haqqında məlumatlar vardır: "O, 400 atlı və Naxçıvan polkunun döyüşçüləri ilə Araz çayını keçərək Naxçıvandan və Ordubaddan Arazın o tayına zorla köçürülmüş əhalini geri qaytarmışdı" [13, s. 103].

Ermənilərin Azərbaycana və onun ayrılmaz hissəsi olan Naxçıvana köçürülməsi siyasəti erməni-rus münasibətlərinin müəyyən strateji planlarının əsas tərkib hissəsi idi.

Naxçıvan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra, ermənilərin buraya köçürülməsi Naxçıvanın etnik tərkibində dəyişiklik yaratmışdı. Bu dəyişiklik

Rusiya imperiyası tərəfindən süni olaraq yaradılmışdı.

XIX əsrin əvvəllərində təkcə Naxçıvan şəhərində əhalinin 84,4%-i, Ordubad şəhərinin əhalisinin hamısı Azərbaycan türkləri idi [108, s. 142].

Naxçıvan xanlığında əhalinin dini tərkibi müsəlmanlardan ibarət olmuşdur.

İ.Şopenin kameral təsvirlərindəki məlumatlar Naxçıvan xanlığının Rusiya tərəfindən işğalından sonrakı vəziyyəti əks etdirsə də, onlar təxminən yüz illik bir dövr ərzində Naxçıvan bölgəsinin əhalisinin dəyişməsi haqqında ümumi təsəvvür yaradır. Qeyd edək ki, bu dövrün böyük bir hissəsi xanlıq dövrünə düşür.

Həmin təsvirlərə əsasən xanlıqdakı mahalların əhalisinin sayı haqqında da danışmaq mümkündür.

Naxçıvan mahalında 59 kənd qeydə alınmışdı. Əhalinin sayı 4.194 nəfər olmuşdur. Naxçıvan xanlığının ləğvi ərəfəsində Naxçıvan mahalında 1.129 ailə yaşayırdı.

Kameral təsvirlərdən məlum olur ki, mahal əhalisinin əsasını təşkil edən azərbaycanlıların 2.205 nəfəri (52,6%) kişilər, 1989 nəfəri isə (47,4%) qadınlardan ibarət idi.

1831-ci il kameral təsvirlərinə görə **Əlincəçay mahalında** 28 kənd qeydə alınmışdı. Mahalın əhalisi 1848 nəfərdən ibarət idi.

Məvaziyi-Xatın mahalı. İ.Şopen qeyd edir ki, yerləşməsinə görə İtqıran, Digin, Buzqov, Kürədiz, Oğbin və Sultanbəy kəndləri Dərələyəz mahalına məxsusdur. Şeyxəli bəy Kəngərliyə -onun tabeliyində olan kəngərli süvarilərini ərzaqla təmin etdiyi üçün – bu kəndlər hökumət tərəfindən bağışlanmışdı və Məvaziyi-Xatın mahalına şamil edilmişdi.

Məvaziyi-Xatın mahalının 9 kəndi var idi. Bu mahalın hamısı azərbaycanlılardan ibarət olmuşdur. Kameral təsvirlərdən məlum olur ki, mahalın əhalisinin sayı 1497 nəfər olmuşdur.

Xok mahalında da 9 kənd yerləşirdi. Mahalın əhalisi 1.375 nəfər azərbaycanlıdan ibarət idi.

Dərələyəz mahalında 78 kənd qeydə alınmışdı. Onun əhalisi 4.583 nəfərdən ibarət idi.

Ordubad mahalı 9 kənddən ibarət olmuşdur. Naxçıvan xanlığının ləğvi ərəfəsində bu mahalda 182 ailə qeydə alınmışdı.

Əylis mahalında Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı ərəfəsində 77 azərbaycanlı yaşayırdı.

Dəstə mahalında Naxçıvan xanlığının işğalı ərəfəsində 317 azərbaycanlı ailəsi qeydə alınmışdı.

Biləv mahalında 9 kənd var idi. Əhalisi 289 azərbaycanlıdan ibarət idi.

Çənnəb mahalında 5 kənd var idi. Mahalda 79 azərbaycanlı ailəsinin yaşaması haqda İ.Şopenin kameral təsvirlərində məlumat vardır [114, s. 635-638].

Naxçıvan xanlığı əhalisi, əsasən, kənd əhalisindən ibarət olduğuna görə onun

başlıca məşğuliyyəti kənd təsərrüfatı idi. Naxçıvan xanlığı kəndlərində mövcud olan münasibətlər Azərbaycanın digər xanlıqlarından elə də çox fərqlənmirdi. Kənddəki münasibətlərin əsasını torpaq üzərindəki mülkiyyət formaları müəyyən edirdi.

Azərbaycan xanlıqlarında, o cümlədən Naxçıvan xanlığında kəndlilər hüquqi cəhətdən təhkimli vəziyyətində olmadığına görə, formal da olsa onların hərəkət azadlığı var idi [23, s. 67]. Yəni bir yerdən başqa bir yerə köçə bilərdilər.

Naxçıvan xanlığının kənd əhalisi 1813-1827-ci illərdə 18.750, 1828-ci ildə 21.841, 1829-1832-ci illərdə isə 32.568 nəfər olmuşdur. Xanlığın şəhər əhalisi isə 1813-1827-ci illərdə 14.900, 1828-ci ildə 7.622, 1829-1832-ci illərdə isə 8.914 nəfər idi [23, s. 44].

Qafqazda marağı olan böyük dövlətlərin təcavüzü Naxçıvan xanlığının siyasi varlığına son qoymaqla, onun əhalisinin inkişafına da ciddi maneçilik törətdi.

6. Sosial-iqtisadi həyat, şəhərlər, sənətkarlıq və ticarət

Azərbaycanın ictimai-iqtisadi münasibətlərinin tərkib hissələrindən biri də Naxçıvan xanlığının sosial-iqtisadi həyatı idi. Başqa Azərbaycan xanlıqlarında olduğu kimi, Naxçıvan xanlığında da torpaq əsas mülkiyyət forması idi. Xanlıqda iqtisadiyyatın əsasını heyvandarlıq və əkinçilik təşkil edirdi. Əsas istehsal vasitəsi olan torpaq sahələri mülkiyyət formasına görə beş qrupa bölünürdü: dövlət (xəzinə) və ya saray (xalisə) torpaqları, mülk, tiyul, vəqf, icma torpaqları.

Dövlət torpaqları. XVIII əsrin ikinci yarısında Azərbaycanın digər xanlıqlarında olduğu kimi, Naxçıvan xanlığında da dövlət torpaqları tədricən əvvəlki əhəmiyyətini itirərək xanların şəxsi mülkiyyətinə çevrilmişdi. Artıq xanlıqda iri feodal torpaq sahibliyi meydana gəlmişdi. İlk mənbələrdə dövlət torpaqları iki adda yazılır: divan və xalisə. Xan ailəsinə məxsus torpaq xalisə, dövlət torpaqları isə divan adlanırdı [14, s. 112]. Səfəvilər dövründə mövcud olan divan və xalisə torpaqları arasındakı fərq XVIII əsrin ikinci yarısında tədricən aradan qalxdı və hər iki növ torpaq birləşərək xan torpağı adlanmağa başladı. Bu torpaqlardan toplanılan bütün məhsul xanın sərəncamına keçirdi. Xanın çox geniş səlahiyyətləri vardı və divan torpaqlarından gələn gəlir bütünlüklə onun sərəncamında idi [100, s. 102].

Mülk torpaqları. Ayrı-ayrı feodallara-mülkədarlara məxsus torpaq sahələri belə adlanırdı. Mülk şəxsi mülkiyyət olmaq etibarilə satıla da bilərdi, irsi olaraq nəsildən-nəsilə keçə də bilərdi [13, s. 26]. O qədər geniş yayılmamış mülki torpaq xalisə idi. Bu cür mülklər xəzinəyə vergi ödənilməsindən azad idilər. Mülklər əsasən hələ xanlıqlar yaranmazdan əvvəl bağışlanmış torpaqlardan ibarət idi [33, s. 53].

Tiyul torpaqları. XVIII əsrin II yarısında şərti torpaq mülkiyyəti forması olan tiyul geniş yayılmışdı. Xan tərəfindən müəyyən şəxslərə vəzifəyə və hərbi xidmətə görə divan torpaqlarından bəxşiş olaraq ömürlük tiyul verilirdi. Tiyul sahibi xidmətini başa vurduqda və yaxud vəfat etdikdə bağışlanmış mülk yenidən

xəzinəyə qaytarılırdı [100, s. 124]. Naxçıvan xanlığında həm şəhərdə, həm də kənddə tiyul hüququ mövcud idi. Tiyul torpağın sahibi "tiyuldar" adlanırdı. O, verilmiş torpaqlardan və sahələrdən öz şəxsi mülkiyyəti kimi istifadə edirdi. Tiyul torpaqları almaq, satmaq, bağışlamaq və irsən vermək qanunla qadağan edilirdi.

Vəqf torpaqları. Xanlıqlar dövründə torpaq mülkiyyəti formalarından biri də vəqf torpaqları idi. Bunlar məscidlərin, pirlərin və bu kimi dini ocaqların ixtiyarında olan torpaqlar idi [13, s. 26]. Vəqf- öz əmlakını allah yolunda ruhani idarələrinə və ya ruhanilərin özünə həsr etmək barəsində müqavilə deməkdir. Vəqfnaməyə əsasən torpaq sahibi öz mülkündən istifadə hüququndan hər hansı dini müəssisənin və ya şəxsin xeyrinə imtina edirdi. Həmin idarə və ya şəxsiyyət onlara verilmiş əmlakın gəlirindən müəyyən məqsədlər üçün istifadə edirdi. Vəqf əmlakını satmaq, bağışlamaq, girov qoymaq və irsən vəsiyyət etmək olmazdı. Vəqf mülkiyyəti xəzinəyə vergi ödənilməsindən azad idi [31, s. 56].

Camaat (icma) torpaqları. Bu torpaq sahələri, əsasən, kənd icmasına məxsus idi [13, s. 26]. Bu torpaqlardan şəriət qaydaları və adətlər əsasında istifadə olunurdu.

Vergi və mükəlləfiyyətlər. Xanlıqlar dövründə Azərbaycanın digər xanlıqlarında olduğu kimi, Naxçıvan xanlığında da mövcud vergilərin sayı və miqdarı müxtəlif idi. Bu vergilər, əsasən məhsulla, qismən isə pulla alınırdı. Bir qayda olaraq vergiləri kəndlilər ödəyirdi (bütün feodallar vergi verməkdən azad idi – ***red.***). Kəndli kateqoriyaları əsas etibarilə rəiyyət, rəncbər və elatlardan ibarət idi [14, s. 30-31].

Xanlıqda iki müxtəlif təsərrüfat forması mövcud idi: oturaq əkinçilik və aran-yaylaq maldarlıq təsərrüfatı. Bu da kəndlilərdən alınan vergilərin sayca çox olmasına səbəb olurdu. Vergi və mükəlləfiyyətlər kəndlilər kimi şəhər əhalisinə də şamil edilirdi və aşağıdakı formada yığılırdı:

Şəxsi vergilər (can vergisi). **a) Baş pulu:** Əsasən 15 yaşına çatmış şəxsdən ildə bir dəfə gümüş pulla 1 manat 20 qəpik dəyərində alınırdı. Vergidən heç kəs yayınmasın deyə şəhər və kəndlərdə yeni peyda olmuş şəxs haqqında kəndxudalar divana mütləq məlumat verməli idilər. Əks təqdirdə kəndxudaları ciddi cəza gözləyirdi, **b) Ev pulu (tüstü pulu):** bu vergi toplanılarkən evlilərlə subaylar arasında heç bir fərq qoyulmurdu. Yalnız qadınlardan və uşaqlardan ev pulu alınmırdı. Hər kişidən ildə gümüş pulla 1 manat 20 qəpik, hər evdən isə gümüş pulla 20 manat alınırdı [13, s. 30].

Torpaqla əlaqədar vergilər. Bu vergi buğda ilə alınırdı və Naxçıvan xanlığında "bəhrə" adlanırdı. "Bəhrə" taxılçılıqla məşğul olan bütün rəiyyətlər üçün məcburi vergi idi. Xanlıq ərazisində bəhrə o qədər geniş vüsət tapmışdı ki, natura ilə alınan bütün vergilər xalq arasında "bəhrə" adlandırılırdı. Bu vergi, adətən, aşağıdakı şəkildə toplanırdı: məhsul yığılıb qurtardıqdan sonra sahibkarın və ya onun inanılmış adamlarının iştirakı ilə taxıl bölüşdürülürdü. Bölgü məhsul yığıldıqdan sonra üç gündən gec olmayaraq sahibkara çatdırılmalı idi. Əgər

sahibkar həmin yerdən uzaqda yaşayırdısa, o zaman bəhrə çöl işləri qurtardıqdan sonra ödənilirdi. Natura halında yalnız taxıldan bəhrə alınırdı. Hər il məhsul yığımından sonra xan öz nökərlərini kəndlərə göndərirdi ki, yığılmış məhsulun miqdarını müəyyənləşdirsinlər. Heç kimin ixtiyarı yox idi ki, xanın icazəsi olmadan yığılmış məhsula sahib çıxsın. Taxılın qiyməti müəyyənləşdirilidikdən sonra məhsul aşağıdakı qaydada bölüşdürülürdü: xəzinə torpaqlarından toplanmış məhsulun hər 10 hissəsindən 3,5 hissəsi xanın, qalanı isə torpağı becərənlərin payına düşürdü. Mülkədar torpaqlarından toplamış məhsulun 1,5 hissəsi mülkədarın, 2 hissəsi xəzinənin, qalan hissəsi torpağı becərənin payına düşürdü.

Bu vergilər Naxçıvan xanlığında yaşayan bütün maldarlara aid edilirdi. Yalnız Kəngərli tayfasından olan elatlar bu ödənclərdən azad idilər. Bu da səbəbsiz deyildi. Müharibə baş verdikdə onlar kəngərli tayfasının süvari dəstələrini təşkil edirdilər. Bu tayfa əsasən üç vergidən azad edilmişdi: tüstü pulu, baş pulu və maldarlığa aid vergilər [13, s. 32].

Pul ilə ödənilən vergilər. Xanlıqda rəiyyətlər bəzi vergiləri pulla ödəyirdilər. Bunlar aşağıdakılardan ibarət idi:

1. Mancanaq pulu - bu vergi dəzgahlarda ipək toxuyan hər bir sənatkardan alınırdı.

2. Toxucu pulu - bütün il boyu toxuculuqla məşğul olan sənətkar xəzinəyə 4 manat 80 qəpik, yalnız qış aylarında bu sənətlə məşğul olan şəxs isə dövlətə 2 manat 40 qəpik verməli idi. Toxuculuqla qış aylarında əkin sahələrində işləməyən kəndlilər də məşğul olurdular.

3. Bağ pulu - həmin vergini şəhərdə və şəhər həndəvərində bağı olan şəhərlilər verirdilər.

4. Bayramlıq pulu - xüsusilə Novruz və Qurban bayramları zamanı həm şəhər, həm də kənd əhalisindən alınırdı.

5. Toy xərci - Həmin vergini həm xan evində, həm də rəiyyətin evində toy olarkən xəzinəyə verirdilər.

6. Dəyirman pulu -şəhər və kənd əhalisi dəyirmanlardan istifadə etdiyi üçün 2 tümən və ya 8 manat pul verməli idi.

7. Hamam, karvansara və dükan pulu - hamamdan, karvansaralardan və dükan binalarından istifadə etmək üçün də müəyyən vergi ödəyirdilər.

8. Tacirlər və sənətkarlar üçün vergi pulu - tacirlər və sənətkarlar xəzinəyə ildə 400 tümən vergi verməli olurdular.

9. Tacirlər üçün gözətçi pulu - şəhərə satmaq üçün mal gətirən tacir bütün vergilərlə yanaşı gözətçi pulu verməli idi.

10. Kənd təsərrüfatı məhsulları satan şəxs üçün vergi pulu - pambıq, çəltik, darı və digər kənd təsərrufatı məhsulu satan şəxs də xəzinəyə nağd pul verirdi.

11. Bir xalvar saman üçün tutulan vergi - bir xalvar saman üçün gümüş

pulla 1 manat vergi alınırdı.

12. Üzüm və meyvə bağları üçün vergi - üzüm və meyvə bağlarından gümüş pulla 16 manat vergi toplanırdı.

13. Dövlət torpaqlarından otlaq kimi istifadə edən şəxsdən tutulan vergi - dövlət topraqlarından otlaq kimi istifadə edən şəxs xəzinəyə ildə 6 manat gümüş pul verməli idi [13, s. 31-32, 33].

Bölgədə taxılçılıqla bütün kəndlər, çəltikçiliklə isə iyirmidən artıq kənd məşğul olurdu. 1826-1828-ci illər İkinci Rusiya-İran müharibəsi Naxçıvan ərazisinə, onun təsərrüfatına böyük ziyan vurmuşdu. Buna baxmayaraq, XIX əsrin 20-ci illərinin ortalarında Naxçıvan xanlığında ildə 600 min puda qədər buğda, 300 min puda qədər arpa istehsal olunmuşdu. Təkcə Naxçıvan şəhərində ildə 65 min puda qədər buğda, 15 min puda qədər isə arpa becərilirdi. Xanlığın elə kəndləri var idi ki, xanlıqda becərilən taxıl məhsulunun xeyli hissəsini verirdi. Məsələn, Təzəkənddə ildə 37,500 pud taxıl istehsal olunurdu.

Təsərrüfatın əsas hissəsini təşkil edən əkinçilik süni suvarmasız mümkün deyildi, mövcud su mənbələri bütün ərazini suvarmaq üçün kifayət etmirdi. Ona görə də əkin üçün yararlı olan sahələrin bir hissəsi istifadəsiz qalırdı. Naxçıvan xanlığında əsas təsərrüfat sahəsinin biri də ipəkçilik idi. Bu səbəbdən də Ordubad mahalı baramaçılıqda fərqlənirdi. Mahalda 100 mindən çox tut ağacı var idi.

Azərbaycan xanlıqları arasında pambıqçılıqda mühüm yeri Naxçıvan xanlığı tuturdu. Naxçıvan mahalının Yarımca, Nehrəm, Şıxmahmud və digər 20 kəndində, Əlincə mahalının Culfa ətrafında, Əbrəqunusda və digər iki kəndində pambıqçılıqla məşğul olurdular. Ordubad mahalında da əhalinin bir hissəsinin məşğuliyyəti pambıqçılıq idi.

Naxçıvan xanlığında bağçılıq da xeyli inkişaf etmişdi. Xanlıq öz meyvələri ilə məşhur idi. Xanlığın arıçılıqla və heyvandarlıqla məşğul olan dağ kəndləri istisna olunmaqla bütün kəndlərində bağçılıqla məşğul olurdular. Burada bağçılıq kənd təsərrüfatının aparıcı sahəsi idi. Xanlıqda şaftalı, alça, qoz və s. yetişdirilir və əldə olunan məhsulun çoxu satışa gedir, qurudulmuş halda ixrac edilirdi. Xanlığın Ordubad mahalı bağçılıqda daha çox fərqlənirdi. Ordubad meyvəsi, xüsusilə, onun qozu bütün Azərbaycanda və İranda məşhur idi. Mənbələrdə göstərilir ki, buradan "külli miqdarda meyvə İranın Qaradağ vilayətinə satış, yaxud taxılla dəyişmək üçün ixrac olunur. Külli miqdarda qurudulmuş meyvə Tiflisə də göndərilirdi". Ordubad bağlarının sahəsi 300 desyatindən çox idi. Naxçıvan xanlığında üzümçülük də geniş yayılmışdı. Qaynaqlarda göstərilirdi ki, "Zaqafqaziyada Naxçıvan qədər üzümçülüklə məşğul olan yer az tapılır. Burada 60 növ üzüm yetişdirilir. Onların hər biri rəngi, böyüklüyü, forması və keyfiyyəti ilə fərqlənir. Ağ, qara, qırmızı, tündqırmızı, yaşıl, göy, açıq-sarı və başqa üzümlər vardır". Naxçıvan xanlığında XVIII əsrin son illərində hər il 3610 xalvar üzüm və 2495 pud meyvə yetişdirilirdi. Burada kəndlilər bostançılıqla da məşğul olurdular. Ordubadda təkcə 1828-ci ildə yarım milyon pud

tərəvəz və bostan məhsulları götürülmüşdü [1, s. 46, 52, 59, 61-62, 63].

Şəhərlər. 1752-ci ildən sonra Naxçıvan xanlığında əsasən iki şəhər – Naxçıvan və Ordubad şəhərləri siyasi və iqtisadi baxımdan əhəmiyyət kəsb edirdi. Naxçıvan şəhəri xanlığın mərkəzi idi. Naxçıvan qədimdə çox böyük şöhrətə malik idi. Onun qala divarları arasında 30 minə qədər ev var idi [71, s. 350]. Naxçıvan şəhəri xanlıqlar dövründə feodal-ara müharibələri və xarici hücumlar nəticəsində ciddi dağıntılara məruz qalmışdı [13, s. 35]. Bunu təsdiqləyən mənbələr çoxdur. Onlardan birində deyilir: "Təbii ki, Naxçıvan çox qədim şəhərdir. Hər 200-300 ildən bir şəhər özülünə qədər dağıdılırdı. Ancaq hər dəfə yenidən bərpa edilirdi" [13, s. 37].

İlkin şəhər mədəniyyətinin yarandığı və təxminən 5000 il bundan əvvəl şəhər tipli yaşayış məskəninə çevrilən Naxçıvan şəhəri xanlıq dövründə inzibati cəhətdən dörd məhəlləyə bölünmüşdü: 1. Əlixan; 2. Şahab; 3. Qurdlar; 4. Sarvanlar [13, s. 37].

Sonralar şəhərdə məhəllələrin sayı artaraq 13-ə çatmışdır. Şəhər əhalisinin sayının mütəmadi olaraq azalması fonunda məhəllələrin sayının artması məhəllələrin daha kiçik hissələrə parçalanması və başqa yerlərdən köçüb gələnlərin hesabına baş vermişdir. Xanlıqlar dövründə Naxçıvan şəhərində 751 evdə cəmi 4360 nəfər əhali yaşayırdı [32, s. 50].

Xanlığın ikinci şəhəri Ordubad idi. Bu şəhər iki dağ arasında yerləşirdi. Həmin dağların arasından Ordubad çayı axırdı. Ordubad şəhəri inzibati cəhətdən beş məhəlləyə bölünmüşdü. 1. Anbaras; 2. Kürdətal; 3. Mingəs; 4. Sərşəhər; 5. Üç tərəngi [114, s. 38]. Tarixi mənbələrdə Ordubadın abad bir şəhər olduğu qeyd edilir: "Ordubad şəhəri çeşidli görkəmə malikdir. İrəvan və Naxçıvandan daha ürək açandır. Burada xarabalıqlar demək olar ki, yoxdur, bütün Asiya şəhərlərində olduğu kimi küçələr əyri-üyrü olsalar da, içərilərində yaşıl bağlar görünən gil hasarlar və tikililər hesabına fasiləsiz uzanırlar". Şəhərdə və onun ətrafında olan bağların sayı 578-ə çatırdı [67, s. 122]. Xanlıqlar dövründə Ordubadda 615-635 ev var idi. Həmin dövrdə tərtib edilmiş mənbələrdən birinin məlumatına görə bu dövrdə Ordubadda 3444 nəfər əhali yaşayırdı [32, s. 52].

Ordubadda sənətkar emalatxanalarının böyük əksəriyyəti şəhərin mərkəzində yerləşirdi. Sənətkarların təxminən yarısını toxucular (177 nəfər) və toxuculuqla bağlı olan digər sənətkarlar, o cümlədən boyaqçılar (19 nəfər), həllaclar (29 nəfər) və b. təşkil edirdilər. İpək sarıyanların əksəriyyəti evlərdə işlədiklərindən şəhərdə onlara məxsus cəmisi iki emalatxana var idi. Ordubadçay üzərində tikilmiş 12 dabbaqxana və 14 dəyirman fəaliyyət göstərirdi. Ordubadda dabbaqxanalar şəhərin mərkəzində tikilmişdi [32, s. 53].

Sənətkarlıq. Xanlıqda sənətkarlıq Naxçıvan və Ordubad şəhərlərində daha çox inkişaf etmişdi. Bu şəhərlərdə, həmçinin kəndlərin bir çoxunda xalçaçılıqla məşğul olurdular. Xalçaçılıq həmin vaxt xanlıq ərazisinə daxil olan Dərələyəz mahalının şərq hissəsində də xeyli inkişaf etmişdi. Bölgədə xalça həm şəxsi istifadə,

həm də satış üçün hazırlanırdı. Xalçaçılıqla əlaqədar olaraq xanlıqda boyaqçılıq sənəti də xeyli inkişaf etmişdi. Boyaqxanalarda müxtəlif təbii boyaq bitkilərindən istifadə edərək müxtəlif rənglərdə yun sapları boyayırdılar. Naxçıvan xanlığında 5 boyaqxana emalatxanası var idi. Digər xanlıqlarda olduğu kimi, Naxçıvan xanlığında da boyaqçılıqla bağlı olan boyaqçılıq maddəsi icarəyə verilirdi. 1823-cü ildə boyaqçılıq maddəsi ancaq Naxçıvan mahalında 1480 manata icarəyə verilmişdi. Xanlıqda heç kim icarədara müəyyən olunmuş vergini ödəmədən hər hansı məhsulu boyamaq hüququna malik deyildi. Müəyyən edilmiş qaydalara görə nəinki şəhərlərdəki müstəqil boyaqxanalarda, hətta boyamanın ev şəraitində aparıldığı kənd yerlərində uzunluğu 10 arşın olan pambıq parçanı boyamaq üçün icarədara 32 qəpik, ipək və yun ipləri boyamaq üçün isə 20 qəpik məbləğində pul ödəmək tələb edilirdi [32, s. 103]. Xanlıqda bez toxumaqla məşğul olurdular. Təkcə şəhərin özündə 40 bez toxucusu var idi. Hər bir ailənin özünün toxucu dəzgahlarında özlərinin ehtiyacları üçün pambıq ipdən bez toxuyurdular. Pambığı qadınlar evlərində əyirirdilər [114, s. 851]. Naxçıvan xanlığında mindən çox toxucu qadın var idi [56, s. 156]. Burada pambığı təmizləməklə də məşğul olurdular.

Xanlıqda silah ustaları, dərzilər, ayaqqabı ustaları, misgərlər, dəmirçilər və s. də fəaliyyət göstərirdi. Dəmirçilər kənd təsərrüfatı alətləri-oraq, dəryaz, bıçaq, nal, mıx və s. düzəldirdilər. Naxçıvan xanlığında kənd dəmirçiliyi geniş yayılsa da, dəmirçiliyin başlıca mərkəzi şəhərlər idi. Yazılı mənbələrin verdiyi məlumata görə Naxçıvanda 40 dəmirçi fəaliyyət göstərirdi [32, s. 119]. Xanlıqda dulusçuluq və sabunçuluq da xeyli inkişaf etmişdi. Dulusçuluq xanlıqlar dövründə sənətkarlığın aparıcı sahəsinə çevrilmişdi. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövründə Naxçıvan və Ordubad şəhərlərinin hər birində 12 nəfər dulusçu çalışırdı. Xanlığın Təzəkənd adlı yaşayış məntəqəsində Naxçıvanın hakimi Ehsan xana məxsus saxsı səhəng istehsal edən emalatxana fəaliyyət göstərirdi [32, s. 168]. Naxçıvan xanlığının ayrı-ayrı kəndlərində 33 nəfər saxsı qab istehsalı ilə məşğul olurdu [114, s. 843-844].

Zərgərlik metal emalının qədim tarixə malik olan sahələrindən biridir. Azərbaycan xalqının məişətində mühüm yer tutan zərgərlik məmulatlarının yayılma arealı da kifayət qədər geniş olmuşdur. Bunu arxeoloji qazıntılar nəticəsində müxtəlif yaşayış məntəqələrindən əldə edilmiş sırğalar, üzüklər, toqqalar, qolbağlar və s. sübut edir [32, s. 122]. Azərbaycanın digər şəhərlərində olduğu kimi, Naxçıvan şəhərində də zərgərliklə məşğul olanların böyük dəstəsi çalışırdı. Ordubadda 5 nəfər gümüşbəndliklə məşğul olurdu. Sənətkarlar qızıl və gümüşdən olan zərgərlik məmulatlarının hazırlanması prosesində kürə, məngənə, çəkic, kəlbətin, həddə, simkeş, zərrəbin kimi onlarla əmək alətlərindən istifadə edirdilər [32, s. 124].

Naxçıvan xanlığında şüşə istehsalının mərkəzi Dəstə mahalının Vənənd kəndi idi. Vənəndli ustalar şüşə istehsalı üçün lazım olan kvarslı qumu Əlincəçay mahalının Əbrəqunus kəndi yaxınlığındakı çay yatağından əldə edirdilər [32, s. 171]. Vənənd kəndindəki şüşə emalatxanası 1826-1828-ci illərin Rusiya-İran müharibəsi dövrünə

qədər fəaliyyət göstərmişdir. II Rusiya-İran müharibəsi zamanı hərbi əməliyyatlardan əziyyət çəkən şüşə ustaları İrana qaçmağa məcbur olmuşdular. Buna görə də emalatxananın fəaliyyətinə son qoyulmuşdu [67, s. 218]. Vənəndli ustalar həm pəncərə şüşələri, həm də şəbəkələrlə qoyulan rəngli şüşələr istehsal etməyi bacarırdılar. Burada istehsal edilən şüşələr qonşu xanlıqlara da göndərilirdi [13, s. 43].

Naxçıvan xanlığında sabunçuluqla məşğul olan icarədar xəzinəyə hər il 60 tümən verməli idi. O, xanlıqda sabunun bişirilməsi və satılması üzərində nəzarət edir və haqqını alırdı. Naxçıvan xanlığında icarədarın icazəsi olmadan heç kəs sabunu nə bişirə, nə də sata bilərdi. Başqa xanlıqda sabun istehsal edənlər Naxçıvanda öz mallarını yalnız icarədara sata bilərdilər. O isə həmin sabunu istədiyi qiymətə verirdi [13, s. 46].

Ordubad mahalında 8 dabbaqxana, 2 keçə emalatxanası var idi. Naxçıvan xanlığında 223 sənətkar dükanı fəaliyyət göstərirdi. Xanlığın ərazisində 194 su dəyirmanı işləyirdi [114, s. 1207-1210].

Sənayedə sənətkarlıq üstünlük təşkil edirdi. Şəhərlərdə və bəzi kəndlərdə külli miqdarda pambıq, ipək və yun parça istehsal edən, dəri emalı ilə məşğul olan, eləcə də zərgərlik məmulatı, mis və gil qablar hazırlayan emalatxanalar mövcud idi. Bu malların satışı həm xanlıq daxilində, həm də xanlıqlar arasında aparılırdı. Duzdağda və ətrafında duz çıxarırdılar. Burada daş duz mədənlərini xanlar iltizama verirdilər [1, s. 93].

Naxçıvan xanlığında xanlıqlar dövründə yalnız bir duz mədənindən istifadə olunurdu. Duz dağının cənub-qərbində yerləşən bu mədəndən duzun çıxarılması ilə əvvəlcə yalnız Cəhri kəndinin əhalisi məşğul olurdu. XIX əsrin əvvəllərindən isə I Kalbalı xan mədəndə aparılan işləri Şıxmahmud kəndinin əhalisinə tapşırmışdı. Onlar buna düşmənlə apardıqları döyüşlərdə göstərdikləri qəhrəmanlığa görə layiq görülmüşdülər. I Kalbalı xanın əmri ilə duz çıxaranların duzun satışından əldə edilən gəlirdən payı azaldılaraq ¼-ə endirildi. O, həm də duz çıxaranları istehsal prosesində lazımi qədər barıtla təmin etməyi öz öhdəsinə götürürdü [32, s. 180-181].

Naxçıvan xanlığında istehsalın digər sahələri kimi duz mədənləri də xanlar tərəfindən icarəyə verilirdi. Bir mənbədə deyilir: "İcarə haqqı ildə 30, 40, 50, 100 və 300 tümənə çatırdı və icarədar Naxçıvan xanını və digər xanları duzla pulsuz təmin edirdi. Naxçıvan xanlığında istehsal edilən duz ən çox xanlıq ərazisində, Qarabağ, Gəncə və İrəvan xanlıqlarında satılırdı. Lakin Qarabağ xanlığı 1805-ci ildə Rusiya tərəfindən işğal ediləndən sonra dövrün siyasi hadisələri duz istehsalına və satışına da mənfi təsir göstərdi. Naxçıvan duzuna tələbat xeyli azaldığından duz satışından əldə olunan gəlir də aşağı düşmüşdü" [114, s. 837-838].

Ticarət. Xanlıqda, xüsusən Naxçıvan şəhərinin ticarətində pambıq mühüm yer tuturdu. Onu Bəyazidə, Qarsa, Tiflisə, Qarabağa ixrac edirdilər. Xanlığın mərkəzi şəhərində, Naxçıvan bazarında 17 dükan vardı. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalından sonra Naxçıvanda 35 topdansatış, 19 müxtəlif xırda

mallar satan, 2 yemək, 6 çörək, 53 baqqal, 2 silah, 2 gümüş, 13 dəmirçixana, 7 papaqçı, 11 ayaqqabı, 1 qalayçı, 4 dəllək, 1 əllaf, 1 həllac var idi.

Rahdar vergisi yığılması barədə məlumatlardan aydın olur ki, xanlığa müxtəlif rənglər, qənd, dəmir əşyalar, xurma, tütün, sabun, Avropa ölkələrindən mahud, müxtəlif pambıq parçalar, ipək mallar, çay, qənd, rom, mis, polad şeylər, İran və Gürcüstandan ipək mallar, indiqo, müxtəlif dərmanlar, taxta məmulatı gətirilirdi. Avropa mallarını Naxçıvana Tiflis tacirləri İrandan karvanlarla gətirirdilər.

Naxçıvandan isə digər yerlərə barama, ipək, pambıq, yağ, bal, pambıq saplar, mal piyi, saxsı qablar, üzüm, nar, noxud, düyü, meyvə qurusu və bez göndərilirdi.

Ordubad şəhəri ticarətdə mühüm rol oynayırdı. Ordubad tacirlərindən 10 nəfər xarici ticarətlə məşğul olurdu. Şəhərdə 35 topdansatış dükanı fəaliyyət göstərirdi. Ordubad əhalisi qonşu Qarabağ və Şirvan əyalətlərindən barama, Rusiyadan Həştərxan vasitəsilə Ənzəli və Astrabad limanlarına gətirilmiş dəmiri alırdı. Buradan Moskvaya, Nijni-Novqorod yarmarkasına və Təbrizə ipək ixrac olunurdu [1, s. 108-109].

7. Mədəniyyət

Maarif və təhsil. Naxçıvan xanlığının ərazisində, xüsusən də xanlığın mərkəzi Naxçıvan şəhərində mədəniyyət daim inkişaf etmişdir. Naxçıvan xanlığında orijinal maddi-mədəniyyət, memarlıq və incəsənət abidələri – məscidlər, türbələr, epiqrafik abidələr, qoç heykəlləri, təsviri və dekorativ tətbiqi sənət nümunələri olmuşdur. Təhsil sistemi haqqında dolğun məlumat xanlığın Rusiya tərəfindən işğalından sonra İrəvanda və Naxçıvanda kameral siyahıyaalma keçirən rus tarixçi-statistiki İ.Şopenin əsərlərində verilmişdir. Naxçıvan xanlığında təhsil sistemi Azərbaycanın digər xanlıqlarındakı təhsil sisteminin analoqu olmuşdur.

Naxçıvan xanlığının ərazisində təhsillə əsasən din xadimləri məşğul olurdu. Hər bir məscidin nəzdində böyük və yaxud kiçik mədrəsə fəaliyyət göstərirdi. Aşağı siniflərdə müəllimlər müdərris, yuxarı siniflərdə isə vaiz adlandırılırdı. Mədrəsələrdə geniş dərs otaqları ilə yanaşı, tələbələrin yaşadıqları kiçik otaqlar-hücrələr olurdu. Bəzi məscidlərdə adlı-sanlı müctəhidlər dərs deyirdilər ki, onları dinləmək üçün hər yerdən dinləyicilər gəlirdi.

Müsəlman alimləri bütün elmləri üç əsas sahəyə bölürdülər: Əl-ərəbiət, əl-şəriə, əl-hakimə. Birinci sahəyə əsasən ərəb dilinin qaydaları, tarix və "Quran"ın qiraəti daxil idi. Naxçıvanda gənclərin əksəriyyəti Şərqin böyük şairləri Nizaminin, Füzulinin, Rudəkinin, Firdovsinin, Caminin, Hafizin, Sədinin və digərlərinin şeirlərini əzbər bilirdilər. İstər məktəblərdə, istərsə də mədrəsələrdə hüsnxətə xüsusi diqqət verilirdi [114, s. 901-911].

Naxçıvan xanlığında məktəb və mədrəsələrdən başqa tədris növü də mövcud idi. Xanın, əyanların və tacir uşaqlarının təhsili ilə onların evində ayrıca müəllimlər

məşğul olurdu. Məktəblərdə tədris olunan fənlərə, xüsusən də "Qurana" və şəriətə aid kitablara hər bir müsəlmanın evində rast gəlinirdi [114, s. 912].

Naxçıvan şəhəri xanlıqlar dövründə Azərbaycanın inkişaf etmiş elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur.

Epiqrafik abidələr. XVIII yüzilliyin II yarısında, xüsusilə görkəmli dövlət xadimi və diplomat I Kalbalı xanın hakimiyyəti dövründə Naxçıvan xanlığı özünün inkişaf dövrünü yaşayırdı. Bu, özünü epiqrafik abidələrin hazırlanmasında da göstərirdi. Naxçıvan bölgəsində həmin dövrə aid müəyyən qədər kitabələr qalmışdır.

Belə kitabələrdən bir neçəsi inzibati-ərazi bölgüsü cəhətdən muxtar respublikanın Culfa rayonu ərazisində yerləşən "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksində qalmışdır. Burada qalan əsas kitabə ziyarətgah – mağaranın axırında yerləşən məscidin mehrabında qoyulmuşdur. Bu kitabə Naxçıvan xanlarından Şükrulla xan Kəngərlinin Əshabi-Kəhflə əlaqədar xeyirxah əməlindən xəbər verir.

Ölçüsü 145x35 sm olan mərmər lövhənin səthi – çərçivələrlə bölünmüş, onların içərisində və lövhənin səthinin kənarlarında lentvari haşiyə şəklində kitabə həkk edilmişdir. Mərkəzdə, 15 ədəd çərçivə içərisində nəfis şəkildə həkk edilmiş kitabənin mətni Qurani-Kərimin "əl-Kəhf" surəsindən götürülmüş 9, 10, 11, 12, 17 və 18-ci ayələrdən ibarətdir.

Mərmər lövhənin kənarlarında ensiz haşiyə şəklində həkk edilmiş kitabənin isə məzmunundan aydın olur ki, qar, yağış təsirindən burada yazılmış xətlər məhv olmuşdu. Ona görə də bu əzəmətli məkanın taleyi barəsində Naxçıvan ölkəsinin hakimi Şükrulla xan Kəngərli – adı çəkilən ölkənin keçmiş hakimi, xeyirxah əməllər banisi, bağışlanmış Heydərqulu xanın xələfi – qərar verərək buyurdular ki, həmin lövhənin üzünü təzədən, səhvsiz ayrı bir daş lövhəyə yazdırsınlar və yadigar olaraq keçmiş lövhənin yerinə nəsb etsinlər. Bu əmrə əsasən mərhum, mömin Molla Mustafanın oğlu Məhəmməd Xətib Naxçıvani işə başlayıb, 1190-cı ilin səfər əl-müzəffər ayında lövhəni yazıb qurtarmışdır.

Səfər, 1190 h.i. = 22.03 – 20.04.1776-cı il.

Kitabədən aydın olur ki, hazırda mövcud olan mərmər kitabənin yerində Qurani-Kərimin qeyd olunan ayələri həkk olunmuş kitabə var imiş. Ancaq zaman keçdikcə təbii qüvvələrin təsirindən həmin kitabə məhv olmuş, ona görə də onun mətni olduğu kimi, indi mehrabda olan lövhəyə həkk edilmiş və köhnə kitabənin yerinə qoyulmuşdur. Həmin vaxt bu xeyirxah göstərişi verən adamın – Şükrulla xanın adı da orada, kitabənin kənar haşiyələrində qeyd edilmişdir.

Kitabədə adı qeyd edilən Heydərqulu xan Naxçıvan ərazisində qədim zamanlardan məskun olan Kəngərli tayfasının başçılarındandır. Kitabəni yenidən yazdırıb mehraba qoyduran Şükrulla xan isə onun oğludur. XVI əsrdən etibarən Naxçıvan torpaqları tiyul hüququ ilə (müəyyən xidmət müqabilində tayfa başçılarına, sərkərdələrə və s. müvəqqəti verilən torpaq sahələri – ***red.***) kəngərlilərə verildiyindən, eyni zamanda ərazinin idarə edilməsi tayfa başçılarına tapşırıldığından və onlar

ərazinin iri feodalları olmaqla bərabər, həm də hakimləri hesab olunduğundan kitabədə hər iki şəxsiyyət Naxçıvan ölkəsinin hakimi kimi qeyd edilmişdir.

Əshabi-Kəhfdə Şükrulla xan Kəngərlinin adı ilə bağlı bir məqam da vardır. Bu müqəddəs yerə ziyarətə gələrkən Şükrulla xanın ailəsi həmişə bu yerdə düşərgə saldığı üçün həmin yer "Şükrulla xan taxtı" adlanır [42, s. 97].

Mehrabdan yan tərəfdə üzərində kitabə olan iki ədəd yaşıl rəngli lövhə vardır. Onlar gəc və sementlə qayaya nəsb edilmişdir. Aşınmaya məruz qalmış bu kitabələrin mətni "əl-Kəhf" surəsindən götürülmüş ayələrdən ibarətdir. Fikrimizcə, bu kitabələr vaxtilə məsciddə qoyulan kitabənin parçalarıdır. XVIII əsrin son rübündə kitabənin üzü yenidən yazıldıqdan sonra bu parçalar kənara atılmamış, orada saxlanmışdır. Sonralar isə itib-batmasın deyə onları sementlə qayaya bərkitmişlər.

Naxçıvan xanlığı dövründən bizədək gəlib çatan və əsasən məzar kitabələrindən ibarət olan bu kitabələrin verdiyi məlumatlar əsasında, xanlıqlar dövründə Naxçıvanda yaşamış bir sıra görkəmli şəxsiyyətlərin adları, titulları, qəbirlərinin yeri, vəfat tarixləri və s. müəyyən edilmişdir. Belə şəxsiyyətlərdən biri görkəmli astronom, ensiklopedik biliyə malik alim, ictimai-siyasi xadim Nəsirəddin Tusinin nəslindən olan İzz Şərəf xanım və onun atası Mirzə İnayətdir. Keçən yüzilliyin 60-cı illərində Ordubad şəhər Came məscidinin ətrafında aşkar edilərək Naxçıvan Dövlət Tarix Muzeyinə gətirilən, hazırda "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində nümayiş etdirilən, mərmərdən hazırlanmış başdaşı tipli qəbirüstü xatirə abidəsinin üzərində ərəb dilində süls xətti ilə həkk edilmiş kitabənin mətnindən məlum olmuşdur ki, bu abidə Mirzə İnayət ən-Nəsiri ət-Tusinin qızı İzz Şərəf xanımın xatirəsinə hazırlanmışdır.



Nəsirəddin Tusi nəslinə mənsub İzz Şərəf xanımın məzar kitabəsi. XVIII əsr Ordubad şəhəri, 1756-cı il

Əvvəli Quran ayəsi ilə başlanan kitabənin mətninin tərcüməsi belədir: "Mərhum, bağışlanmış Mirzə İnayət ən-Nəsiri ət-Tusinin qızı, mərhumə, günahları bağışlanmış İzz Şərəf xanımın vəfat tarixi: rəcəbəl-mürəccəb ayının əvvəli, çərşənbə günündə. 1169" (7 aprel 1756-cı il) [43, s. 93; 106, s. 65-66].

Orta əsrlər zamanı zəmanəsinin görkəmli şəxsiyyətlərinin müqəddəs yerlərin, o cümlədən Came məscidlərinin ətrafında torpağa tapşırılması adəti geniş yayılmışdı. Mirzə İnayətin və qızı, mərhumə İzz Şərəf xanımın Ordubad şəhər Came məscidinin ətrafında dəfn olunması onların Ordubadın kübar ailələrindən birinin üzvü və zəmanəsinin sayılıb-seçilən şəxsiyyətlərindən olduğunu göstərir. Həmçinin bu kitabə Nəsirəddin Tusi nəslinin Ordubad şəhərində və şəhər ətrafı kəndlərdə qədim zamanlardan yaşadıqlarını və əslən Ordubaddan olduqlarını bir daha təsdiqləyir. Kitabə bu cəhətdən Ordubad şəhər

Came məscidinin şərqdən giriş qapısının baş tərəfində qoyulan və mətni Səfəvi hökmdarı I Şah Abbasın Ordubad şəhər əhalisini xəzinəyə veriləcək bir sıra vergilərdən azad etməsi haqqında 1604-cü il tarixli fərmanından ibarət olan kitabədən sonra, ikinci epiqrafik sənəd kimi tarixi baxımdan çox əhəmiyyətlidir [43, s. 128-129; 96, s. 80-83].

Xanlıqlar dövründən indiyədək gəlib çatan kitabələrin verdiyi məlumatlar təsdiq edir ki, həmin dövrdə Naxçıvan bölgəsində bir sıra sənətkarlar yaşayıb yaratmışlar. Kitabələrin əks etdirdiyi məlumatlardan aydın olur ki, adı elmi dövriyyəyə daxil edilən belə naxçıvanlı sənətkarlardan biri də Kərbəlayi Şahverdi Dabbaqdır. 20 fevral 1767-ci ildə vəfat etmiş Dabbaq Kərbəlayi Şahverdinin adını bizə Ordubad şəhərinin şərq tərəfində yerləşən "Malik İbrahim" qəbristanlığında qeydə alınaraq tədqiq edilən, mərmər başdaşı üzərində ərəb dilində həkk edilən kitabə çatdırmışdır. Məşhur bir sənətkarın – Dabbağın adını özündə əks etdirən bu kitabə dabbaqlıq (dəri aşılama) sənətinin Ordubad şəhərində qədim və orta əsrlər zamanından inkişaf etdiyini təsdiq edir [43, s. 95].

"Malik İbrahim" qəbristanlığında indiyədək qalan bir xatirə kitabəsi isə Ustad Mehdinin 3 aprel 1774-cü ildə vəfat etmiş oğlu Məşədi Əsgərxanın adını bizə təqdim edir [43, s. 99; 96, s. 99]. Göründüyü kimi, mərhumun atası kitabədə "Ustad" titulu ilə təqdim olunmuşdur. Bu titulla orta əsrlər zamanı görkəmli alimlərə, şairlərə, öz peşəsinin incəliklərinə bələd olan, bu sahədə kamilləşən məşhur sənətkarlara və s. müraciət edilirdi. Adına əlavə olunan bu titul göstərir ki, Ustad Mehdi zəmanəsinin sayılıb seçilən, görkəmli şəxsiyyətlərindən olmuşdur.



Müctəhid Mirzə Həşimin məzar kitabəsi. Ordubad şəhəri, XVIII əsr


Həmin qəbiristanlıqda tədqiq olunan başqa bir məzar kitabəsi Mirzə Həşim adlı görkəmli bir alimin adını özündə əks etdirir. Mərmərdən hazırlanmış başdaşı üzərində ərəb dilində, nəstəliq xətti ilə altı sətirdə həkk edilən kitabənin mətninin tərcüməsi belədir: "Bu işıqlı qəbir və ruhani yataq Mirzə Möminin oğlu, rəbbani alim, dövrün və zəmanənin müctəhidi Mirzə Həşimindir. 12 zilqədə, 1202-ci il. Onu (kitabəni) yazdı və həkk etdi: Məhəmmədsaleh əl-Hüseyni əl-Qəzvini/ 14.08.1788-ci il" [43, s. 102; 96, s. 101].

Kitabədə mərhum Mirzə Həşimin "rəbbani alim, dövrün və zəmanənin müctəhidi" titul və epitetləri ilə təqdim olunması göstərir ki, XVIII əsrdə Naxçıvan bölgəsində yaşamış və ali dini rütbə olan "müctəhid" dərəcəsinə qədər yüksəlmiş görkəmli alim olmuşdur. "Müctəhid" titulu şiə din xadimləri içərisində ali ruhani təbəqəsinə mənsub olan adamlara verilirdi. Onlar hər hansı dini və hüquqi məsələdə müstəqil fikir yürütmək hüququ olan və bununla əlaqədar qərar çıxaran, fitva verən, Quran

ayələri və hədislərdən hökm çıxaran islam alimləri hesab olunurdular. Mirzə Həşimin "Müctəhid" titulu daşıması onun çox nüfuzlu din xadimi olduğunu göstərir [43, s. 133].

Kitabədən o da aydın olur ki, Müctəhid Mirzə Həşimin xatirəsinə hazırlanmış başdaşı üzərindəki kitabəni Məhəmmədsaleh əl-Hüseyni əl-Qəzvini adlı sənətkar həkk etmişdir. Bu məlumatlar göstərir ki, XVIII yüzillikdə Naxçıvanda əslən Qəzvindən olan daş üzərində işləmə, bədii daşyonma sənəti ilə məşğul olan ustalar da fəaliyyət göstərmişlər. Həmçinin kitabə XVIII yüzillikdə Ordubad şəhəri ilə Qəzvin şəhəri arasında mədəni əlaqələrin olmasını təsdiqləyir.

Ordubad şəhərində tədqiq olunan başqa bir kitabə isə məşhur Seyyid sülaləsi Hüseynilər sülaləsindən olan Seyyid Hüseyn əl-Hüseyninin xatirəsinə hazırlanmışdır. Kitabənin mətninin tərcüməsi belədir: "[O] əbədidir! Mərhum, günahları bağışlanmış seyidlərin və nəciblərin pənahı Seyyid Hüseyn əl-Hüseyninin vəfatı. 1186-cı il 04.04.1772-24.03.1773-cü il" [43, s. 98; 106, s. 71].



Seyid Hüseyn əl-Hüseyninin məzar kitabəsi. Ordubad şəhəri, XVIII əsr

İ.P.Petruşevski Hüseyni Seyyid sülaləsindən bəhs edərkən yazır ki, onlar Təbriz şəhəri ətrafında idarə etdikləri kəndləri və şəhərin özündə vəqfləri olan iri feodallar idi [98, s. 219]. Ehtimal etmək olar ki, kitabədə Hüseyni soyadı ilə təqdim olunan mərhum Seyyid Hüseyn də həmin sülaləyə mənsub olmuşdur. Kitabənin mətnində mərhumun adına əlavə olunan "Seyyidlərin və nəciblərin pənahı" epitetləri onun zəmanəsinin görkəmli və nüfuzlu şəxsiyyətlərindən biri olduğunu göstərir.

Kitabələrin təqdim etdiyi məlumatlar təsdiq edir ki, XVIII yüzillikdə Naxçıvanda başqa ölkələrdən gəlmiş adamlar da yaşamışdır. "Malik İbrahim" qəbiristanlığında qeydə alınmış bir kitabədə belə bir məlumat vardır: "Bu qəbir Əliəsgər Bərbərinin oğlu, mərhum Əliəkbərindir. Cəmadi əl-əvvəl ayının 9-u, 1189-da".

Göründüyü kimi kitabədə hicri-qəməri təqvimi ilə 9 cəmadi əl-əvvəl 1189-cu ildə (miladi, 8 iyul 1775-ci ildə) vəfat etmiş Əliəkbərin atası Əliəsgər "Bərbəri" nisbəsi ilə təqdim olunmuşdur [40, s. 99]. Bu nisbə göstərir ki, o, əslən Şimali Afrikanın ən qədim sakinlərindən olan "Bərbər" tayfalarına mənsubdur. Kitabə Ordubad şəhərinin bir sıra yerlərlə, o cümlədən Şimali Afrika ölkələri ilə əlaqələrinin olduğunu göstərir [43, s. 131].

Ordubad rayonunun Yuxarı Əylis kəndində də xanlıqlar dövrünə aid çoxlu məzar kitabələri mövcuddur. Kənd qəbiristanlığında indiyədək qalan başdaşı tipli qəbirüstü abidələrin üzərində həkk edilən kitabələrdən aydın olur ki, bu abidələrin



Hökumə xanımın məzar kitabəsi. Ordubad rayonu, Yuxarı Əylis kəndi. XVIII əsr

çoxu qadınların xatirəsinə hazırlanmışdır. Qəbiristanlıqda tədqiq olunan 9 kitabədən altısının qadınlara (Şərəfnisə, Hökumə xanım, Nurşərəf, Həvva xanım və s.) aid olması diqqəti çəkən məsələdir.

Müsəlman epiqrafikası üzrə tanınmış tədqiqat - çılardan tacik alimi A.Mux tarovun [85, s. 69] və dağıstanlı alim Ə.Şıxsəidovun [113, s. 328] fikrincə, orta əsrlərdə bir sıra qadınların xatirəsinə möhtəşəm yazılı qəbirüstü xatirə abidələrinin hazırlanması onların əcdadlarının və ya özlərinin sosial vəziyyəti, kübar mənşəyi ilə əlaqədar olmuş, həmin qadınlar, əsasən vəzifəli və imkanlı şəxslərin ailə üzvləri olmuşlar. Bu baxımdan orta əsr ticarət mərkəzlərindən olan Əylis şəhərində qadınlara məxsus məzar kitabələrinin çoxluğu təbii görünür. Ona görə də ehtimal etmək olar ki, xatirəsinə məzar kitabələri hazırlanmış bu mərhumələr Əylisin kübar ailələrinə mənsub qadınlar olmuşlar [45, s. 14].

Xanlıqlar dövründən zəmanəmizədək gəlib çatan məzar kitabələrinin bir qismində kiçik həcmli mənzum parçalara – beyt və misralara rast gəlinir. Dünyanın faniliyi, ölümdən şikayət və s. kimi fikirlərin ifadə olunduğu şeir parçaları naxçıvanlı xəttat və həkkakların, bədii daşyonma sənəti ustalarının kitabələri yazarkən heç də həmişə, eyni formadan istifadə etmədiklərini, şablonçuluqdan qaçdıqlarını, həkk etdikləri kitabələrin daha məzmunlu və təsirli olması üçün müxtəlif üsullara müraciət etdiklərini təsdiq edir.



Ağanəsir babanın məzar kitabəsi. Ordubad şəhəri, XVIII əsr

Ordubad şəhərindəki "Malik İbrahim" qəbiristanlığında tədqiq olunan Sadıq adlı adamın hicri 1200 / 4.11.1785 – 23.10.1786-cı ildə vəfat etmiş oğlu Ağanəsirbabaya məxsus məzar kitabəsində belə bir mənzum parça həkk olunmuşdur:

Ey həmnəfəs, keçəndə mənim məzarımın üstündən,
Uzaq ol məndən və ruzigarımdan!
Yüz min gül içində açmış bir gül idim,
Birdən əcəl yeli ayırdı növbaharımdan! [43, s. 100].

Yaxud da, vaxtilə Ordubad şəhərinin cənub tərəfində yerləşən "Pir Eyvaz" qəbristanlığında tədqiq edilən, hazırda Ordubad rayon Tarix-Diyarşünaslıq Muzeyində mühafizə olunan Ağababanın oğlu Məşədi Rəcəbəliyə məxsus olan, hicri 1212 / 26.6.1797 – 14.6.1798-ci il tarixli məzar kitabəsində belə bir şeir parçası qeyd olunmuşdur:

O tazə tingin həyatı sona yetdi,
Bu fani dünyadan nakam getdi!
Əfsus ki, cavanlıq gülşəni,
Xəzan (payız) dövründə söndü! [43, s. 103].



Məşədi Rəcəbəlinin məzar kitabəsi. Ordubad şəhəri, XVIII əsr

Qəbirüstü xatirə abidələri üzərində həkk edilən epitafiyalarda–məzar kitabələrində Yaxın Şərq poeziyasından götürülmüş nümunələrə də rast gəlinir. Məsələn, Ordubad şəhərində Səfi bəy Əylislinin hicri 1183-cü ilin məhərrəm ayında (7.5.-5.6.1769-cu il) vəfat etmiş oğlu Məhəmmədrəhimin xatirəsinə hazırlanmış başdaşı üzərində "Ölüm kasasını hər kəs içəcəkdir!" misrası həkk edilmişdir [43, s. 97].

Şərq aləmində geniş yayılmış bu mənzum parça VIII-IX yüzilliklərdə yaşamış saray şairi Əbül-Ətahiyyəyə məxsusdur. Harun ər-Rəşidin müasiri olmuş Əbül-Ətahiyyənin bu misrası Bağdaddan Reyə, Səlcuqlar zamanında isə Kiçik Asiyaya keçmiş, oradan isə şimal-şərqə və şimal-qərbə yayılmışdır [96, s. 56]. Ona görə də bəzi kitabələrdə "Qəbir elə bir qapıdır ki, bütün insanlar ona daxil olacaqdır!" – misrası ilə tamamlanan bu mənzum parçaya bir sıra müsəlman ölkələrinin epiqrafik abidələrində, o cümlədən Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi Naxçıvan bölgəsində də rast gəlinir.

Haqqında bəhs olunan bu kitabələr, həmçinin digər xalqlara mənsub şairlərin yaradıcılığından götürülmüş beytlər və misralar orta əsr naxçıvanlı sənətkarların Azərbaycan, eyni zamanda, Yaxın Şərq poeziyasından xəbərdar olduqlarını, Azərbaycanla qonşu ölkələr arasında ədəbi-mədəni əlaqələrin olduğunu təsdiq edən ən gözəl maddi dəlillərdəndir.

Göründüyü kimi, ərazidə XVIII yüzilliyin II yarısına aid gəlib çatan kitabələr Naxçıvanın xanlıqlar dövrü tarix və mədəniyyətinin bir sıra problemlərinin öyrənilməsinə kömək edir.

Memarlıq və incəsənət. Xanlıqlar dövrünün əsas cəhətlərindən biri iqamətgahların və onun müvafiq istehkamı kimi saray komplekslərinin yaradılması olmuşdur.

Naxçıvan xanlığında mülki memarlıq nümunələrindən ən orijinalı Xan Sarayıdır. Naxçıvan şəhərində XVIII əsrə aid şərq memarlığı üslubunda olan bu sarayı həmin yüzilliyin sonlarında I Kalbalı xan Ehsan xan oğlu Kəngərli tikdirmişdir. Naxçıvan xanı I Kalbalı xan Kəngərliyə və onun varislərinə məxsus olan bu Saray Azərbaycanın orta əsrlər memarlığının nadir incilərindən biridir. Xüsusi qaydada inşa edilən və xalq tətbiqi sənətinin bir çox növlərinin birləşdiyi Xan Sarayı orijinal memarlıq üslubu ilə seçilir. Saray təxminən 1780-ci ildə inşa edilmişdir.

Naxçıvan şəhəri Şərq və Yaxın Şərq ölkələrinə gedən yolların üzərində yerləşdiyindən səyyahların və diplomatik heyətlərin diqqətini cəlb etmiş, onlar yazdıqları əsərlərdə bu saray haqqında məlumat vermişlər. Məsələn, isveçrəli

səyyah Dyubua de Monpere öz dövrünün məşhur geoloqu, təbiətşünası və arxeoloqu olmuşdur. O, 1834-cü ildə Naxçıvanda olmuş və tədqiqatlar aparmışdır. 1839-1844-cü ildən başlayaraq Parisdə "Qafqaz ətrafında səyahət" adlı 6 cildlik əsərini yazaraq nəşr etdirmişdir. O, bu əsərində Xan Sarayı haqqında da məlumat vermişdir.

Rus ordusunun mayoru Matuşeviç Artikdən Təbrizədək olan yolların təsvirini verərkən yazır ki, Xan Sarayı Naxçıvan qalasının iç qalasında yerləşir. İç qalanın ətrafında qüllələrin də olduğunu qeyd edən hərbçi Xan Sarayını dövrələyən hasarın o qədər də möhkəm olmadığını diqqətə çatdırır. Mayor Matuşeviç qalanın dik sıldırımın üzərində tikildiyini müdafiə baxımından əlverişli olduğunu da yazır. Onun hərbi mühəndisə məxsus qeydləri 10 sentyabr 1806-cı ilə aiddir.

Naxçıvanın Xan Sarayındakı böyük salonda 1817-ci ilin mayında I Kalbalı xan tərəfindən rəsmi qəbul edilən Rusiya missiyasında olan rus hərbçiləri N.N.Muravyov və A.F.Neqrin də xanın sarayı haqqında yazmışlar [84, s. 482-483].

XX əsrin əvvəllərində Naxçıvana gələn italyan tarixçisi, diplomatı və səyyahı Villari Luici 1905-ci ilin yayın sonları və payızın əvvəllərində Naxçıvanda olarkən erməni-müsəlman toqquşmaları nəticəsində şəhərin dağıntılarını görmüş və bu vəziyyət 29 yaşlı gəncdə kədərli təəssürat yaratmışdı. Sonralar o, "Rusiya böyük çevrilişdən sonra. Qafqazda od və qılınc" adlı kitabda yol qeydlərini nəşr etdirmişdir. Tarixçi səyyah bu əsərdə Naxçıvandakı Xan Sarayı haqqında da yazmışdır: "Mən əvvəlcə Rəhim xanla görüşdüm... Onun evi, sözsüz ki, Naxçıvanda ən gözəldir. Əgər bu saray ən sivilizasiyalı şəhərdə olsaydı, yenə də belə möhtəşəm olacaqdı. Saray şəhərin kənarındakı qayanın yanında yerləşir. Buradan geniş Araz vadisinə enişyol başlanır. Həyətdəki bağ çox sıx deyil. Yəqin ki, iqlim imkan vermir ki, hər növ gül kolları əkilsin. Ancaq evin içərisi tamamilə bərbəzək içindədir. Qonaq otağı bahalı Avropa mebelləri ilə doludur, bəzilərini çıxmaqla, mebellərə söz ola bilməz. Bütün divarlara İran, Türkiyə və Qafqaz xalçaları asılıb. Tavan isə kiçik güzgülərlə bəzədilib. Belə analoji mozaikaları mən İrəvan sərdarının sarayında görmüşəm. Bəzək üçün materialların hamısı uzaqdan dəmir yolu ilə gətirilib. Hamısı da qiymətinin nə qədər olmasına baxmayaraq alınıb. Bunlar hamısı ona görədir ki, gələn insanlarda Naxçıvanskilər ailəsinin necə varlı və ləyaqətli olduğu təəssüratını yarada bilsinlər" [86, s. 213-214].

1830-cu ildən sonra I Ehsan xan atasının tikdirdiyi sarayı təmir etdirib. Xan Sarayının ümumi sahəsi 382 m^2, divarlarının qalınlığı 60 sm-dən 1,1 m arasında dəyişir. Bina 20X20 sm ölçüdə bişmiş kərpiclə tikilmişdir. Pəncərələrdə şəbəkə üslubundan və bütün otaqlarda Naxçıvan yaşayış evlərinə xas olan müxtəlif ölçülü taxçalardan istifadə olunmuşdur [36, s. 179]. Naxçıvan Xan Sarayı düzbucaqlı formasında tikilmişdir. Sarayın daxili və bədii tərtibatı, xarici quruluşu və məşhur güzgülü salon, həmçinin üçüncü mərtəbədə yerləşən iki yay köşkü vardır. Bu köşklər fasad tərəfdəki girişdəki köşklərə paralel olaraq tikilmişdir.

Naxçıvan Xan Sarayı Təbriz və İrəvan memarlıq məktəbinin nümunələri

olan xan saraylarına kompozisiya baxımından oxşasa da, tamamilə eyniyyət təşkil etmir. İrəvan Xan sarayında olan ornamental pannolar, portret təsvirləri və sair Naxçıvan Xan Sarayında olmamışdır. Xan Sarayının birinci mərtəbəsində xidmətçilərin yaşadığı otaqlar və divanxana yerləşirdi. İkinci mərtəbənin birinci girişindən sağda və solda yerləşən otaqlar xan ailəsi üçün, ikinci girişdən sağdakı güzgülü salon isə rəsmi qəbullar üçün istifadə olunurdu. Daxili pilləkənlərlə çıxılan üçüncü mərtəbədəki köşklü otaqlar "qonaq otağı" adlanırdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun ""Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında" 2010-cu il 23 oktyabr tarixli Sərəncamına əsasən Naxçıvan xanlarının sarayında muzey yaradılmışdır [35]. Muzeyin birinci mərtəbəsində iş otaqları, elmi fond və digər yardımçı sahələr, ikinci və üçüncü mərtəbələrində isə 10 salondan ibarət ekspozisiya – sərgi zalları vardır. Muzeydə qeydə alınan 300-ə yaxın eksponatın 210-u nümayiş etdirilir.



"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi

Naxçıvan və Ordubad şəhərlərində şəxsi yaşayış evlərinin xüsusi memarlıq üsulu ilə tikilməsinə xüsusi diqqət verilirdi. Ordubadın yaşayış evləri Naxçıvanın digər rayonlarının yaşayış evlərindən əhəmiyyətli dərəcədə fərqlənir. Həmin yaşayış evləri səkkizüzlü bölüşdürücü dəhlizə malikdir. Bu dəhliz yarımdairəvi, yaxud səkkizüzlü taxtavanla örtülmüşdür. Dəhlizin vasitəsi ilə həyətə, bağa, ikinci mərtəbənin və birinci mərtəbənin otaqlarına getmək mümkündür. Ordubadda 3 bölüşdürücü dəhlizlərə malik olan evlərə də rast gəlmək mümkündür. Həmin

evlərdən bir neçəsi Sərşəhər məhəlləsində qalmaqdadır [105, s. 68-69].

XVIII əsrdə Azərbaycanda divar naxışlarının ən gözəl və tipik nümunələri Şəki Xan sarayında və Şəkixanovların evində, Lahıc, Şuşa, Ordubad və digər şəhərlərdəki yaşayış evlərinin, ictimai tikililərin interyerində qorunub saxlanılmışdır. Portret xarakterli naxış Ordubad rayonu Vənənd kəndindəki bir yaşayış binasında da qorunub saxlanmışdır. Boyu bərabəri təsvir olunmuş gənc oğlan və qız fiqurları obraz şərhinə, kompozisiya- rəng həllinə, çəkiliş üslubuna, eləcə də geyim və digər fərqli cəhətlərinə görə, Şəkixanovlar evinin portret təsvirlərinə çox uyğun gəldiyindən, bunların da XVIII əsrin sonunda naməlum rəssam tərəfindən icra edildiyi təxmin olunur [4, s. 475-476].

XVIII əsrdən bu günədək külli miqdarda dekorativ-tətbiqi incəsənət nümunələri, o cümlədən daş və ağac üzərində bədii oyma, döymə, metal məmulatı, xalçalar, saxsı qablar, parçalar və naxışlı tikmələr qorunub saxlanılmışdır [4, s. 478].

Xalq yaradıcılığının geniş yayılmış növlərindən biri də bədii tikmədir. Təkəlduz və güləbətin kimi ənənəvi üslubla yanaşı, XVIII əsrdə məişət əşyalarına, paltara bəzək vurulduqda müxtəlif metallardan-gümüş, tunc və s. hazırlanmış dairə, borucuq, romblardan geniş istifadə olunurdu. Bu tikmələrdə əsas üstünlük rəngbərəng yastı, parıltılı, ortası deşik metal dairələrə-pilələrə verilirdi. Onlardan daha çox Gəncə, Şuşa, Şəki, Qazax və Naxçıvanda istifadə olunurdu. Taxta üçün pərdələrdən və padnos örtüyündən tutmuş at çulunadək ən müxtəlif əşyalar pilələrlə bəzədilirdi.

Naxçıvanda güləbətinlə işlənmiş qadınlar üçün arxalıq XVIII əsr tikməsinin ən gözəl nümunələrindən biridir. O nəinki müxtəlif iş üsulu, eləcə də rəngin və naxış motivlərinin zənginliyi ilə seçilir.

Azərbaycanda dəmir, mis, qızıl və digər metalların mövcud olması nəticəsində metalişləmə sənəti geniş vüsət almışdır. Yazılı mənbələrin məlumatına görə, XVIII əsrdə bədii metalişləmə sənətinin mərkəzi Təbriz, Şamaxı, Şəki, Gəncə, Naxçıvan olmuşdur. Metaldan hazırlanan əşyalar arasında mis döymə qablar daha geniş yayılmışdı. Azərbaycan şəhərlərində forma və dekoruna görə gözəl ev əşyaları-sərpuş, aftafa, cam, şamdan, manqal və s. hazırlayan xüsusi misgər məhəllələri olduğunu qeyd edirlər.

Müxtəlif növlü metal əşyaların hazırlanmasında bədii emalın məlum olan bütün üsullarından-nəqqaşlıq, oyma, şəbəkə, cizgiçəkmə, minalama, inkrustasiyadan istifadə edilirdi. Bu zaman ornamentlə bəzəmənin bütün növləri tətbiq olunurdu [4, s. 479-480].

II FƏSİL

NAXÇIVANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALI

1. XVIII əsrin sonu–XIX əsrin əvvəllərində Naxçıvanda ictimai-siyasi vəziyyət

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Naxçıvan bölgəsində ictimai-siyasi vəziyyət mürəkkəb idi. Bir tərəfdən, daxili çəkişmələr, hakimiyyət uğrunda mübarizələr, digər tərəfdən də xarici qüvvələrin məkrli siyasəti və bölgəni işğal etmək yönündəki fəaliyyətləri Naxçıvanda vəziyyəti xeyli çətinləşdirmişdi.

1747-ci ildə Nadir şah hökmranlığı devrildikdən sonra Azərbaycanın başqa əyalətlərində olduğu kimi, Naxçıvanda da yerli feodallar İran üsul-idarəsini tanımaqdan imtina etməyə başlamışdılar. Kəngərli tayfa başçısı Heydərqulu xan yerli feodallara arxalanaraq şahın Naxçıvandakı hakimini vəzifədən kənarlaşdırıb, özünü buranın ilk xanı elan etmişdi. Beləliklə, Naxçıvan tarixinin yeni bir dönəmi-xanlıqlar dövrü başlamışdı [ətraflı bax: 22; 43].

XVIII əsrin sonlarından Azərbaycan, o cümlədən Naxçıvan üçün rus təhlükəsi də getdikcə güclənməkdə idi. Bu bölgənin strateji mövqeyi və iqtisadi potensialı çarizmi cəlb edirdi. Vahid dövlətin olmadığı parçalanmış Azərbaycanda feodal pərakəndəliyi hökm sürür, ayrı-ayrı xanlıqlar arasında çəkişmələr davam edirdi. Bütün bunlar isə regionu işğal etmək niyyətində olan çar Rusiyası üçün əlverişli idi.

Tarixi mənbələr sübut edir ki, Azərbaycan-Rusiya əlaqələrinin kökləri V-VI əsrlərdən başlasa da, rəsmi əlaqələr XV əsrdən mövcuddur [51, s.3-4]. Naxçıvan bölgəsinin Rusiya-Azərbaycan münasibətlərində diqqət mərkəzinə keçməsini təxminən XVIII əsrin 80-ci illərinə aid etmək olar. Çarizmin bölgəni ələ keçirmək yönündəki fəaliyyəti bir neçə on il boyunca davam etmiş, Naxçıvan xanlığının işğalı, Türkmənçay müqaviləsi nəticəsində Rusiyaya ilhaq olunması ilə başa çatmışdı. Həmin mərhələni də (XVIII əsrin 80-ci illəri-1828-ci il) bir neçə dövrə ayırmaq olar:

1) XVIII əsrin 80-ci illəri-1804-cü il; 2) 1804-1813-cü illər I Rusiya-İran müharibəsi; 3) 1813-1826-cı illər; 4) 1826-1828-ci illər II Rusiya-İran müharibəsi.

Ümumiyyətlə, həmin dövrdə Rusiya Qafqazı işğal etmək üçün geniş planlar hazırlayırdı. Hələ 1783-cü ilin may ayından başlayaraq ruslar Şimali Qafqazdan Gürcüstana daxil olmaq üçün quru şose yolunun təmirinə başladılar ki, sonralar bu yol tarixə Hərbi-Gürcüstan yolu kimi daxil olmuşdur. 1784-cü ilin yazında isə bu yolun başlanğıcında "Vladiqafqaz" adlı yolun əsası qoyuldu ki, həmin ad da "Qafqazı işğal et" və ya "Qafqazı zəbt elə" kimi mənaları verir.

1783-cü ildə Rusiya ilə Gürcüstan arasında Georgiyevsk müqaviləsinin bağlanması çarizmin Cənubi Qafqazda mövqeyini genişləndirdi. Rusiya bu fürsətdən istifadə edərək Azərbaycan xanlıqlarına da təsir göstərməyə başladı. Təsadüfi deyil ki, Georgiyevsk müqaviləsinin bağlanması haqqında bəzi xanlıqlara knyaz Q.A.Potyomkinin 1783-cü il 20 avqust tarixli "universal"ları (fərmanları) vasitəsilə

rəsmən məlumat verilmişdi [52, s.75].

Rusların Qafqaza dair planlarından xəbər tutan Azərbaycan xanlıqları böyük təşviş və həyəcan keçirirdilər. Çünki bu xanlıqlar yaxşı başa düşürdülər ki, Rusiya təkcə Şimali Qafqazla, Gürcüstanla kifayətlənməyəcək, gələcəkdə bütün Cənubi Qafqaza da sahib olmağa can atacaqdır. Tarixi sənədlərdən məlum olur ki, Rusiyanın ali hakimiyyətini qəbul edən Kartli-Kaxeti çarı II İrakli hər vasitə ilə rusların Zaqafqaziyada nüfuzunu artırmaq üçün Azərbaycan xanlıqları, o cümlədən Naxçıvan xanlığı ilə də yaxın münasibətlər yaratmaq istəyir və bu məqsədlə öz nümayəndələrini bu ərazilərə göndərirdi.

Belə bir şəraitdə Rusiya Naxçıvana münasibətdə xeyli fəallaşdı. Naxçıvan xanlığı tarixinin tədqiqatçıları F.Əliyev və M.Əliyevin Rusiyanın Mərkəzi Dövlət Hərbi Tarix Arxivindən (MDHTA) aşkar etdikləri sənədlər Rusiyanın Naxçıvana münasibətinin birinci dövrünün (XVIII əsrin 80-ci illəri-1804-cü il) ümumi mənzərəsini təsvir etməyə imkan verir. Burada ən maraqlı məsələlərdən biri ondan ibarətdir ki, Kartli-Kaxeti çarı II İrakli Rusiya, Rusiya isə Kartli-Kaxetiya çarlığı vasitəsilə Naxçıvanda möhkəmlənməyə çalışırdı. II İraklinin çox ehtiyatlı hərəkətlərinə baxmayaraq, Rusiyanın işgüzar dairələrində belə bir xəbər yayılmışdı ki, guya Kartli-Kaxeti çarı rus komandanlığının razılığı olmadan öz qoşunlarını Naxçıvana çıxarıb. II İraklinin Q.A.Potyomkinə izahatından da onun ehtiyatlı olduğu aydın duyulur: Müəlliflər yazırlar ki, Q.A.Potyomkinin məktubundan sonra II İrakli daha cəsarətlə yürüşə hazırlaşmağa başladı [22, s.54-55].

Azərbaycan üçün təhlükə XIX əsrin əvvəllərində daha da gücləndi. Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında rus çarının manifesti 1801-ci il fevralın 16-da Tiflisdə xalqa oxundu. Acınacaqlı hal o idi ki, həmin manifestdə əhalisinin mütləq əksəriyyəti azərbaycanlılardan ibarət olan Qazax, Pəmbək, Borçalı və Şəm-səddil sultanlıqlarının da Gürcüstanın tərkibində Rusiyaya qatılması elan edilmişdi.

Bununla da Azərbaycan torpaqlarının çar Rusiyası tərəfindən işğalının başlanğıcı qoyuldu. Bu, azərbaycanlıların kəskin narazılığına səbəb oldu, müxtəlif yerlərdə etirazçılar baş qaldırdı, o cümlədən Gəncə xanlığı rus işğalına qarşı bir neçə dəfə hərbi müqavimət göstərdi. İrəvan və Naxçıvan xanlıqları da çarizmin bu müstəmləkəçilik addımına qarşı çıxaraq rusları Pəmbəkə buraxmamaq üçün birgə mübarizə aparmaq barədə razılığa gəldilər [60, III cild,s.403].

Həmin ilin 30 iyununda rus hərbi bölükləri general-mayor Lazarevin komandanlığı altında Pəmbəkə daxil oldular. Lazarev həmçinin pəmbəklilləri müdafiə edib onlara sığınacaq verən İrəvan xanına təhdid dolu məktub göndərdi. Rusların başqa bir dəstəsi isə Şörəyelə hücum etdi. Naxçıvan xanı Kalbalı xan rusların bu hərəkətindən möhkəm qəzəbləndi. Onun rus hərbçisi Koryaginə yazdığı məktubda nümayiş etdirdiyi mövqe də bunu təsdiqləyir. Kalbalı xan Koryagindən qətiyyətlə soruşurdu: "Sizin kiçik dəstə ilə Şörəyelə gəlməyinizi eşidib, bilmək istəyirik ki, bu

hərəkət hansı məqsədlə edilmişdir...Əgər gəlişiniz dostcasınadırsa, bizə bildirin... Əgər başqa niyyətiniz varsa, cavab verin, ölçü götürək" [50, I cild, sənəd 804].

Lakin rus komandan Kalbalı xanın haqlı suallarına cavab vermək əvəzinə, ona göndərdiyi məktubda xanı Pəmbək əhalisinə hədə-qorxu gəlməkdə günahlandırırdı. Kalbalı xan isə 26 may 1802-ci il tarixli məktubunda bu iddiaların əsassız olduğunu, Naxçıvan xanlığının daima pəmbəklilərdən razı qaldığını bildirmiş, diqqəti yenidən rusların işğalçılıq siyasətinə yönəldərək növbəti dəfə sual etmişdi: "Sizin qoşunla gəlib bizim torpaqlarda durmağınız yaxşı deyil. Xahiş edirəm ki, geriyə, öz torpağınıza gedin. Əgər getməsəniz, deməli, bizimlə düşmən olmaq istəyirsiniz və biz sabah gələrik" [50, I cild, sənəd 625]. Bütün bunlara baxmayaraq ruslar öz işğalçılıq siyasətlərini davam etdirməkdə idilər.

Tarixi tədqiqatlarda qeyd olunduğu kimi, o zaman Rusiyanın Cənubi Qafqazdakı siyasi rəqibləri çox zəif olub işğala maneçilik törətmək gücündə deyildilər. Gürcüstanın Rusiyaya birləşdirilməsinə İranın seyrçi mövqedə qalması artıq onun siyasi nüfuz dairəsinin xeyli zəiflədiyini göstərirdi. İranın ağır daxili vəziyyətini də buna əlavə etsək, aydın olar ki, XIX əsrin əvvəllərində İran Cənubi Qafqazda Rusiyaya mane ola biləcək siyasi və hərbi qüvvəyə malik deyildi [24, s. 238].

Bütün bunların fonunda XIX əsrin ilk onilliklərinin hadisələri Azərbaycan, o cümlədən Naxçıvan üçün acınacaqlı sonluqla nəticələndi. 1804-1813-cü və 1826-1828-ci illərdə baş vermiş Rusiya-İran müharibələri Şimali Azərbaycan xanlıqlarının, o cümlədən Naxçıvan bölgəsinin də rus işğalına düşməsi ilə nəticələndi. 1828-ci ildə Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsi Naxçıvanın Rusiya tərəfindən işğalını rəsmiləşdirdi.

Hər yerdə rus müstəmləkə idarəçiliyinin tətbiq olunmasına başlanıldı. Müəyyən vəzifələrə təyin olunmuş yerli məmurlar da əslində elə bir müstəqil səlahiyyət sahibi deyildi. Məsələn, Naxçıvan və Ordubadda dairə başçıları təyin olunmuş Ehsan xan və Şeyxəli bəy kimi keçmiş xan nəslinin nümayəndələri çar məmurlarının ciddi nəzarəti altında idi. Yəni idarəçilik bütünlükdə rusların ixtiyarına keçmişdi.

Çarizm bölgəni işğal etdikdən sonra qısa müddət ərzində ən münbit torpaqlara İran və Türkiyədən on minlərlə erməni köçürməklə özünün mənfur siyasətini bir daha nümayiş etdirdi. Beləliklə, Azərbaycana, o cümlədən Naxçıvana qarşı gələcək əsassız iddiaların bünövrəsi qoyuldu.

Bütövlükdə XVIII əsrin sonları, XIX yüzilliyin əvvəllərində Naxçıvan bölgəsi son dərəcə mürəkkəb ictimai-siyasi hadisələr burulğanında olmaqla özünün keşməkeşli dövrünü yaşayırdı.

2. I Rusiya-İran müharibəsi və Naxçıvan. Gülüstan müqaviləsi

Rusiyanın 1801-ci ildə Şərqi Gürcüstanın birləşdirilməsi haqqında manifesti ilə mövqeləri xeyli gücləndi. Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı aktların birinci cildindəki sənədlər [50, I cild, sənəd 848-867] 1801-ci ilin martından-1802-ci

ilin dekabrına qədərki müddətdə Rusiya ilə Naxçıvan xanlığı arasındakı vəziyyəti aydınlaşdırmağa imkan verir. Sənədlərdən aydın olur ki, o zaman İrəvanda yaşayan Kalbalı xan həmin xanlığın siyasətinin müəyyən edilməsində mühüm rol oynayırdı.

Əvvəlki səhifələrdə qeyd olunduğu kimi, Kalbalı xanın İrəvandan qayıdaraq Naxçıvan xanlığında yenidən hakimiyyətə başlaması xanlığın vəziyyətinə müsbət təsir göstərdi. Kalbalı xanla eyni vaxtda Qafqazdakı rus qoşunlarının yeni baş komandanı P.D.Sisianov da vəzifəsinin icrasına başladı. Sisianovun fəaliyyətindən bəhs edərkən iki istiqamət – açıq təcavüz (Car-Balakən, Gəncə) və təzyiq vasitəsilə müqavilələr bağlanması (Qarabağ, Şəki, Şirvan) qeyd edilir, lakin Naxçıvana münasibətdə fərqli münasibət özünü göstərir. Sisianov 1804-cü ildə Rusiya-İran müharibəsinin başlanmasınadək Kalbalı xanın vasitəçiliyi ilə Danil-David məsələsini həll etməyə, yəni Üçmüəzzin Danilin təyin edilməsinə nail olmağa çalışırdı .

Lakin qeyd olunduğu kimi, Fətəli şah hiylə ilə Kalbalı xanı həbsə aldırmışdı. Onun oğlu Şeyxəli bəy isə rus ordusunda qulluğa girmişdi. Naxçıvanda idarəçilik Abbasqulu xanın əlinə keçmişdi.

1804-1813-cü illər Rusiya-İran müharibəsinin başlanması ilə Rusiya Naxçıvan xanlığına qarşı işğalçılıq planlarını həyata keçirməyə başladı. Müharibənin gedişində Naxçıvanın vəziyyəti tarixi ədəbiyyatda kifayət qədər əks olunmuşdur [19; 22;41;43;44; 59;60; 65 və s.].

1801-ci ildə ruslar Şərqi Gürcüstanı, Qazax və Şəmsəddil sultanlıqlarını işğal etmişdilər. Bunun ardınca sonrakı illərdə rus qoşunları Car-Balakəni, Gəncəni, Qarabağ, Şəki, Şirvan, Bakı, Quba xanlıqlarını da ələ keçirmişdilər. Lakin onların işğalçılıq planları bununla məhdudlaşmırdı.

Gəncə xanlığı alındıqdan sonra Sisianova xəbər verilmişdi ki, Abbas Mirzənin komandanlığı altında 40 minlik İran qoşunu Araz çayı kənarı ilə Naxçıvan və İrəvan xanlıqları ərazisindən Tiflisə tərəf hərəkət edir. Bununla bərabər, İrəvanda Məhəmməd xan, Naxçıvanda isə Kalbalı xan öz ərazilərini müstəqil elan etmək istəsələr də, rus komandanlıqlarından hərbi yardım ala bilmədikləri üçün təklikdə İran qoşunlarına qarşı müqavimət göstərməkdə aciz idilər. Həmin vaxt rusların İrəvanı ələ keçirmək üçün genişmiqyaslı hərbi yürüşləri yerli əhalinin-azərbaycanlıların güclü müqaviməti nəticəsində dəf edildi. Bölgəyə yiyələnmək və işğal kampaniyasını yekunlaşdırmaq üçün rus hökuməti 1808-ci ilin əvvəllərində İrəvana yeni yürüş hazırlığına start verdi. Bunun üçün əvvəlcə yerlərdəki vəziyyəti öyrənmək, ruslar haqqında müsbət rəy yaratmaq, həmçinin İrəvan qalasının zəif yerini müəyyənləşdirmək üçün İrəvana, eləcə də Qarsa və Ərzuruma yerli sakinlərdən kəşfiyyatçılar göndərildi [24, s.238].

İrəvan və Naxçıvan xanlıqlarına doğru hərəkət edən rus qoşunlarına general-mayor Tuçkov və Tiflis polkunun komandiri Montib başçılıq edirdi. Sisianovun əmri ilə rus qoşunları öz hərəkətini davam etdirib, 15 iyunda Üçmüəzzin monastrlığına çatmış və general-mayor Portniyaginin komandası altında döyüş əməliyyatlarına başlamışdılar. Döyüşlər ən ağır şəraitdə aparılırdı. İstidən, susuzluqdan əsgərlər çox əziyyət çəkirdilər.



1813-cü il Gülüstan müqaviləsinə əsasən Rusiya-İran sərhədi

1802-1810 Rus ordusunun yürüşləri

1806 Qacarlar ordusunun yürüşləri

1801-1813-cü illər Azərbaycanın tarixində ən ağır dövrlərdən biridir. 1801-ci ildə Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarının zəbt olunması ilə Azərbaycanın çar Rusiyası tərəfindən işğalına başlandı. Çox keçmədən Car-Balakən, Gəncə, Qarabağ, Şəki, Şirvan Rusiya imperiyasının təcavüzünə tab gətirməyib təslim oldu. Azərbaycanın 20-dən çox kiçik dövlətlərə parçalanması, güclü vahid dövlətin olmaması, eləcə də Rusiyanın müstəmləkəçilik siyasəti tarixin bu istiqamətdə inkişafını bir növ şərtləndirirdi. Rusiyanın hücumları davam etdirib Araz çayını keçməsi və cənuba doğru yürüşü şah hökumətini rüsvayçı Gülüstan müqaviləsini imzalamağa məcbur etdi. İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Araz çayından şimalda yerləşən bütün Azərbaycan torpaqları, habelə Lənkəran xanlığı Rusiyaya qatıldı. Azərbaycan Rusiya və İran arasında iki yerə bölündü. Xalqımız ən faciəli tarixini yaşamağa başladı. Həmin dövrdə tarix xalq qəhrəmanı Cavad xanın igidliyinin, İrəvan qalasının qəhrəmancasına müdafiəsinin, Sisiyanov və Qulyakov kimi çar cəlladlarının cəzalarına çatdırılmalarının və xalqımızın işğala qarşı hər yerdə ciddi müqavimət göstərməsinin şahidi oldu.

Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalının başlanması (1801-1813-cü illər)

İyun ayının 15-dən 17-nə kimi Üçmüəzzin altında ciddi döyüşlər baş verdi. Sisianov Üçmüəzzini almağın çətinliyini görüb Zəngi çayı boyu İrəvana tərəf hərəkət etməyi qərara aldı. Vəziyyətin ciddiliyini anlayan İrəvan xanı İran baş komandanlığından kömək istədi. Şahın verdiyi əmrə görə, Naxçıvan və

İrəvan qalaları ciddi müdafiə edilməli, rus qoşunlarının hərəkəti dayandırılmalı idi. İrəvan qalasının rus mühasirəsində olduğunu və rusların hərəkətini görən naxçıvanlı Kalbalı xan və vedili Şadlinskilər təbəəliyə qəbul olunmaları üçün rus ali komandanlığına müraciət etdilər. General Sisianov xanlar ilə apardığı danışıqlar əsasında hücumu davam etdirib, İrəvan qalası divarları yaxınlığına gəldi. İrəvanlı Məhəmməd xan və naxçıvanlı Kalbalı xan ağır vəziyyətdə idilər. Onu da deyək ki, ruslar İran şahının könlünü almaq üçün ona qiymətli hədiyyələr də göndərdilər.

Regionda vəziyyət getdikcə mürəkkəbləşirdi. Cənubi Qafqazın ələ keçirilməsi uğrunda gərgin mübarizə başlamışdı. Bu zəngin və münbit torpaqlı bölgəni işğal etmək üçün Osmanlı-Rusiya, Rusiya-İran, İran-Osmanlı ziddiyyətləri çox ciddi xarakter almışdı. Osmanlı imperiyası Rusiya ilə İran arasında gedən müharibədən yararlanaraq Axalsix, Axalkələk bölgələrini və Gümrü şəhərini, həmçinin İrəvan və Naxçıvan xanlıqlarını işğal etməyə çalışırdı. Rus və türk qoşunları arasında ilk dəfə Axalsix və Gümrü tərəflərində şiddətli döyüş baş verdi. Rus qoşunları Arpa çayı sərhədlərində türklərin ciddi müqavimətinə rast gəldilər. Nəticədə onlar məğlubiyyətə uğrayaraq geri çəkilməyə məcbur olub, Naxçıvana tərəf hərəkət etdilər. Rus ali baş komandanı, Qafqaz canişini Qudoviç 1808-ci ilin payızında İrəvan və Naxçıvan tərəflərə xeyli miqdarda qoşun göndərdi. Sentyabrın 25-də hərbi yürüşə başlayan Qudoviçin tabeliyində 240 zabit və 7506 əsgər var idi [24, s.238] .

Rus hərbçilərindən general-mayor Nebolsinə məxsusi olaraq Naxçıvanı tutmaq əmri verilmişdi. 1808-ci il oktyabr ayının əvvəllərində Nebolsin 78 zabit və 3062 əsgərdən ibarət 9 batalyonla Qarabağdan Naxçıvana doğru hücuma keçdi. Onların 4 topu var idi.

Rus silahlı qüvvələri İrəvan qalasını mühasirəyə alıb Şərur və Naxçıvan ərazilərini İran qoşunlarından təmizləməyə çalışırdılar. İrəvan yaxınlığında əhali ruslara qarşı böyük müqavimət göstərirdi. İrəvan qalası ətrafında rusların Barleb polku daha artıq tələfat vermişdi. General Qudoviç özü ağır əsəb xəstəliyinə tutulmuş, bir gözünü də itirmişdi. Bununla bərabər, ingilis və fransız casusları tərəfindən əhali arasında ruslara qarşı təxribatlar da aparılırdı.

Naxçıvanın müdafiəsini təşkil etmək mümkün olmadı, çünki əhali arasında böyük nüfuza malik olan Kalbalı xan 1808-ci ilin yazında xanlıqdan məhrum edilərək ailəsi ilə birlikdə İrana aparılmışdı. Onun oğlu Şeyxəli bəy isə öz adamları ilə Qarabağa qaçaraq ruslara qoşulmuş və Naxçıvan yürüşündə onlara bələdçilik edirdi. Naxçıvan yaxınlığındakı Qarababa adlı yerdə baş vermiş döyüşdə ruslar Abbas Mirzənin komandanlıq etdiyi İran ordusunu məğlubiyyətə uğratdılar. Nəticədə 1808-ci il noyabr ayının 1-də Naxçıvan ruslar tərəfindən tutuldu. Qudoviç Naxçıvan vilayətinin bütünlükdə Rusiya himayəsinə keçdiyini elan etdi. O, həmçinin rusların hücumları ilə əlaqədar Naxçıvanı tərk etmiş sakinlərə müraciət edərək onları öz yaşayış yerlərinə dönməyə çağırdı [24, s.239]

. Təbii ki, bu müraciət də rusların siyasi oyunbazlığından başqa bir şey deyildi, özlərini xoşməramlı tanıtmaq üçün səslənən bir çağırış idi. Sonrakı hadisələr də göstərdi ki, ruslar burada yerli əhalinin mənafelərinə zidd olan çoxsaylı tədbirlər həyata keçirməklə özlərinin əsl işğalçılıq simalarını açıq şəkildə ortaya qoydular.

İranda həbsdə olan Kalbalı xanın oğlu Şeyxəli bəyin ruslara qoşulması Fətəli şahı qəzəbləndirdi. O, Şeyxəli bəyə xəbər göndərdi ki, İrana gəlməsə, atasını öldürəcəkdir. Çarəsiz qalan Şeyxəli bəy İrana getdi və dərhal da həbsə alındı [22, s.88] .


Naxçıvanın ruslar tərəfindən işğalı İrəvanın müdafiəsi işini çətinləşdirdi. Bu, azmış kimi, ruslar İrəvan qalasının su xəttini də kəsdilər. Lakin İrəvan qalası təxminən 40 günə yaxın bir müddət ərzində rus qoşunlarının hücum və təzyiqlərinə sinə gərdi, təslim olmadı.

1808-ci il noyabrın 17-də rusların İrəvan qalasına növbəti irimiqyaslı hücumu da nəticəsiz qaldı. Ciddi tələfat verib ağır vəziyyətə düşən ruslar geri çəkilməyə məcbur oldular. Rusların bu məğlubiyyəti onların Naxçıvandakı hərbi kontingentinin də durumunu çətinləşdirdi. Bölgədə möhkəmlənə bilməyəcəklərini görən rus işğalçı dəstələrinin rəhbəri Nebolsin Naxçıvanı tərk etdi. Bundan xəbər tutan Abbasqulu xan Naxçıvana gəldi və tabeçiliyindəki 3000 atlı döyüşçü ilə rusları təqib etməyə başladı. Bu təqib Naxçıvan əhalisinin işğalçılara qarşı müqavimətinin ifadəsi olmaqla yanaşı, həm də rusların vəziyyətini çətinləşdirən faktor kimi özünəməxsus dəyərə malik idi.

Rus hərbi qüvvələri Naxçıvanı tərk etdikdən sonra Abbas Mirzə yenidən fəallıq göstərməyə, gələcək döyüşlərə hazırlaşmağa başladı. Naxçıvanın xüsusi əhəmiyyətini nəzərə alan İran taxt-tacının vəliəhdi burada möhkəmlənməyə ciddi fikir verirdi. O, Abbasqulu xanla müqayisədə Naxçıvanda daha böyük nüfuza malik olan Kalbalı xanın imkanlarından öz xeyrinə istifadə etmək niyyəti ilə onun həbsdən azad olunması üçün Fətəli şaha müraciət etdi. 1812-ci ildə azadlığa çıxan Kalbalı xan yenidən Naxçıvanda hakimiyyətə gəldi.

Bölgənin belə bir çətin və mürəkkəb durumunda İran şahı Rusiyaya sülh danışıqları aparmaq təklifi ilə müraciət etdi. 1810-cu ilin aprel ayında şahın təklifi ilə Əsgəranda İran ilə Rusiya arasında sülh danışıqları başlandı. Danışıqların gedişində ruslar Naxçıvanı və İrəvanı, iranlılar isə Talış bölgəsini öz tabeçiliklərinə keçirməyə çalışırdılar. Müzakirələrdən sonra razılıq əldə olunmadı. Tərəflər Əsgəranı tərk etdilər və bu məsələlərin həllini hərəsi ayrı-ayrılıqda öz daxilində sonrakı döyüşlərdə həll etməyə saxladılar.

Rus qoşunlarının Cənubi Qafqaza növbəti hücumu Rusiya ilə Napoleon arasında gedən qızğın 1812-ci il Vətən müharibəsi günlərinə təsadüf edirdi. Napoleon İran-Rusiya və Rusiya-Osmanlı müharibələrindən istifadə edərək Cənubi Qafqaza İran qoşunlarının köməyinə xeyli miqdarda hərbi mütəxəssislər, casuslar və müdaxiləçilər göndərirdi. Fransa mühəndisləri İran və Osmanlı



Abbasabad qalasının planı 1. Xəndək. 2. Qala divarı. 3. Darvaza. 4. Körpü. 5. Bulaq

sərhədlərində Rusiya əleyhinə qalaların tikilişinə, müxtəlif istehkamların qurulmasına və hərbi-strateji planların tərtibinə rəhbərlik edirdilər. Naxçıvan vilayətində Abbasabad qalası (hazırda Araz su anbarının altında qalmışdır – ***red.***) Fransa mühəndislərinin layihəsi və bilavasitə rəhbərliyi ilə yenidən qurulmuş, yeni texnika əsasında silahlandırılıb möhkəmləndirilmişdi. Qalanı görmüş rus səyyahı və tarixçisi N.Nefedovun qeydlərində bu barədə müvafiq məlumatlar vardır [32, s.110]. O illərdə yaşamış O. Evetski də 1833-cü ildə çap etdirdiyi əsərində Naxçıvan yaxınlığındakı Abbasabad qalasının beşbucaqlı formada olub fransız və ingilis zabitləri tərəfindən möhkəmləndirildiyini xüsusi vurğulamışdır [85, s. 200].

Rus ordusunun İran qoşunları ilə vuruşması davam edirdi. Ruslar Aslandüz və Lənkəran tərəflərində hərbi əməliyyatları daha da gücləndirdilər. General P.Kotlyarevskinin komandanlığı altında rus qoşun hissələri 1812-ci il oktyabrın 19-20-də Aslandüz təpəsində Abbas Mirzənin böyük ordusunu məğlub etdilər. Uzun müddətli vuruşmalardan sonra rus qoşunları 1813-cü il yanvar ayının 1-də Lənkəran qalasını da ələ keçirdilər [17, s.604]. Sadiq xan başda olmaqla bütün qala müdafiəçiləri təslim oldu. Lənkəran qalasının rusların əlinə keçməsi onlara çox baha başa gəldi. Belə ki, general Kotlyarevski həmin vuruşmada şəxsən iştirak edib ağır yaralandığından bütün həyatı boyu xəstəliyə düçar olmuşdu. İran tərəfi də döyüşlərdə çox böyük itkilərə məruz qaldı.

Nəticədə İran şahı böyük tələfatdan sonra Rusiya hökuməti ilə sülh danışıqları aparmağa məcbur oldu. Danışıqlar Qarabağ xanlığının Zeyvə çayı yaxınlığında olan Gülüstan adlı kənddə rus ordugahında aparılırdı. Gülüstanda Rusiya tərəfini Rtişşevin nümayəndə heyəti təmsil edirdi. İran tərəfdən Mirzə Əbülhəsən xanın 354 nəfərlik nümayəndə heyəti iştirak edirdi [47, s.12]. Gərgin danışıqlardan sonra 1813-cü il oktyabrın 12-də Rusiya ilə İran arasında Gülüstan sülh müqaviləsi imzalandı. Gülüstan müqaviləsi preambula hissəsindən, 11 maddədən və "Separat akt"dan ibarət idi [47, s.12-18; 85]. Həmin müqaviləyə görə, İran hökuməti Şərqi Gürcüstana, Dağıstana, eləcə də Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Şimali Azərbaycan xanlıqlarına iddialarından əl çəkir, onların Rusiya tabeçiliyinə keçməsini qəbul edirdi.

Beləliklə, Rusiya Gülüstan müqaviləsi ilə Arazın şimalında bir sıra Azərbaycan xanlıqlarının ərazilərini işğal etsə də, Naxçıvan və İrəvan xanlıqlarını ələ keçirə bilmədi.

3. II Rusiya-İran müharibəsi və Naxçıvan. Naxçıvanın Rusiya qoşunları tərəfindən işğalı. Türkmənçay müqaviləsi.

1813-cü il Gülüstan müqaviləsindən sonrakı beynəlxalq münasibətlər, Rusiya və İranın xarici siyasəti, 1826-1828-ci illər Rusiya-İran müharibəsinin səbəbləri, gedişi və nəticələri haqqında xeyli tarixi ədəbiyyat vardır [18; 19;22; 24; 47; 50 (I-VII cildlər); 62; 65; 66; 67;77; 78; 80; 87 və s.]. Həmin materiallar II Rusiya-İran müharibəsinin səbəbləri, gedişi və nəticələrini geniş şəkildə əks etdirməyə imkan verir. Lakin bu ədəbiyyatlarda Rusiyanın Naxçıvana münasibəti və 1826-1828-ci illər II Rusiya-İran müharibəsinin səbəbləri içərisində bu amilin rolu xüsusi araşdırılmamışdır.

Gülüstan müqaviləsi imzalandıqdan sonra ingilis və İran diplomatiyası "Separat akt"ın verdiyi səlahiyyətlərdən istifadə edərək sərhədlərin dəyişdirilməsinə nail olmağa çalışırdı. Xatırladaq ki, "Separat akt"da Gülüstan müqaviləsinə yenidən baxılması haqqında İranın Rusiya imperatoruna xahişlə müraciət etmək hüququ təsdiq olunurdu" [47, s.15]. 1813-cü ilin noyabrında şahın göstərişi ilə Mirzə Əbülhəsən xanın başçılığı ilə İran nümayəndə heyəti Peterburqa yola düşdü. Burada İran və ingilis diplomatları fəaliyyətlərini birləşdirdilər. Lakin Rusiyadan ərazi güzəşti əldə etmək yönündə göstərilən uzunmüddətli səylər nəticə vermədi. Çar I Aleksandr isə İranla münasibətlərdə yaranmış bu kimi məsələlərin həlli, ümumən İranla bağlı siyasətin daha sistemli və ardıcıl həyata keçirilməsi üçün həmin ölkəyə xüsusi səfirlik göndərməyi qərara aldı [47, s.20-22]. Rusiyanın Naxçıvana münasibəti məhz bu kontekstdə ortaya çıxdı. İranla 1804-1813-cü illərin müharibəsində Naxçıvan və İrəvan xanlıqlarını ələ keçirə bilməyən Rusiya iddiasından əl çəkməmişdi. Rusiyanın Qafqaz, o cümlədən Azərbaycanla bağlı siyasətində Naxçıvan xüsusi əhəmiyyət daşıyırdı. Araz sahilindəki bu bölgəni tutmağı ruslar strateji baxımdan zəruri sayırdılar [ətraflı bax: 39, s. 125-130].

Öz növbəsində İran da həmin bölgələrə iddiasını davam etdirməkdə idi. 1815-ci ilin axırında İran nümayəndəsi Mirzə Əbülhəsən xan qeyd etmişdi ki, Gəncədən başqa heç bir xanlığın Rusiya tabeliyinə qatılması qanuni deyildir. Rusiyanın xarici işlər naziri Neselvod isə dərhal cavab vermişdi ki, bu fikir İngiltərənin mövqeyidir.

Çar I Aleksandr 1816-cı ildə A.P.Yermolovu Qafqazdakı rus qoşunlarının baş komandanı təyin etdi. O, eyni zamanda, İrana göndərilən səfirliyin başçısı təyin olundu. Bu məqsədlə I Aleksandrın Yermolova xüsusi təlimatı verilmişdi. İran Rusiyaya qarşı ərazi iddiaları irəli sürəcəyi təqdirdə Rusiya da öz istəyini gizlətmirdi. Təlimatda deyilirdi ki, Qarabağ və Şimali Talışın İrəvan və Naxçıvan xanlıqlarına dəyişdirilməsi pis olmazdı [22, s.89]. Buradan aydın olur ki, Cənubi Qafqazda Rusiyanın strateji fəaliyyət planında İrəvanla birgə, Naxçıvan xanlığının

ələ keçirilməsi də vacib yer tutmuşdur. Bu müddəanı təsdiqləyən digər bir fakt da diqqəti çəkir. Yermolovun missiyası Tehrana gedərkən artıq Rusiyaya ilhaq edilmiş torpaqlardan deyil, bilavasitə İrəvan və Naxçıvandan keçən yola üstünlük vermişdi.

Burada da əsas məqsədlərdən biri kəşfiyyat materialları toplamaqdan ibarət olmuşdu [22, s.49]. Bəzi şərtlərlə Yermolovun missiyasını A.Volınskinin missiyası ilə müqayisə etmək mümkündür. Missiyanın fəaliyyəti qısa şəkildə A.Yermolovun qeydlərində [64, s.260-270, 292-296] və bir sıra xüsusi ədəbiyyatda geniş şəkildə əks olunmuşdur [53; 58; 63 və s.].

Qaynaqlarda yazılır ki, Yermolovun 200 nəfərdən çox adamı əhatə edən heyəti 1817-ci il aprelin 30-da İrəvanda, sonra Naxçıvanda oldu. Yermolovun missiyası mayın 11-də Naxçıvana yetişdi. Mayın 12-də onun Naxçıvan xanı Kalbalı xanla görüşü oldu [47, s.23]. Rus mənbələrinin bu görüş haqqında məlumatlarında Kalbalı xanın Yermolova dediyi aşağıdakı sözlər də öz ifadəsini tapmışdır: "Ağa Məhəmməd xan mənim gözlərimi çıxartmışdır. Mənim güclü əllərim qisas almağa hazırdır. Yermolovun missiyasının Naxçıvanda olması haqqında məlumat verən tədqiqatçılar yazırlar: "A.P.Yermolovun İrana səfəri haqqında tarixi ədəbiyyatda lazımi məlumatlar vardır. Lakin onun Naxçıvanda olması və Kalbalı xanla görüşü bu günə qədər Azərbaycan tarix ədəbiyyatında bir sözlə belə xatırlanmır. Hüquqi cəhətdən İranın təbəəliyində olsa da, Kalbalı xanın Naxçıvan torpağında A.P.Yermolovla görüşü və danışıqları Naxçıvan xanlığının siyasi cəhətdən müstəqilliyini göstərir" [22, s.90].

A.P.Yermolovla Kalbalı xanın görüşünün Rusiyanın Naxçıvana münasibəti baxımından təhlilinə də ehtiyac vardır. Diqqəti cəlb edən əsas məqamlardan biri rus rəsmi sənədlərinin Kalbalı xanın antişah mövqeyini xüsusi nəzərə çarpdırmasıdır. Bu da mahiyyət etibarı ilə Rusiyanın Naxçıvana iddiasına haqq qazandırmağa xidmət edirdi.

1820-ci ildə Kalbalı xanın ölümü, qısa bir dövr ərzində bir neçə xanın Naxçıvan xanlığında hakimiyyətdə olması vəziyyəti gərginləşdirdi, xanlığın mövqeyini zəiflətdi. Rusiya-İran ziddiyyətləri isə davam edirdi. Napoleon üzərində qələbədən sonra Cənubi Qafqaza diqqəti daha da artıran çar hökuməti Naxçıvan və İrəvan xanlıqlarını ələ keçirmək üçün planlar hazırlamaqda və onları həyata keçirməkdə idi. Bu məqsədlə də rus qoşunları təcili surətdə İran sərhədlərinə toplaşır və gələcək hərbi əməliyyatlar üçün tədbirlər görülürdü. Naxçıvan, İrəvan, eləcə də Maku, Təbriz, Xoy və digər Cənubi Azərbaycan vilayətləri İran şahlığından hədsiz dərəcədə narazı idilər. İran hökuməti həmin xanlıqları itaət altında saxlamaq üçün hər cür tədbirlər görürdüsə də, bunlar nəticəsiz qalırdı.

1826-cı ilin iyul ayında İran ilə Rusiya arasında növbəti müharibə başladı. Knyaz Eristovun başçılıq etdiyi rus hərbi dəstələrinə Araz çayı üzərindəki körpünü tutmaq tapşırılmışdı.

İmperator I Nikolay 1826-cı il avqust ayında İran qoşunlarına qarşı döyüşlər

üçün general Paskeviçi də Qafqazda məsul vəzifəyə təyin etdi. 1826-cı ilin axırlarında rus qoşunlarının baş hərbi qərargahı növbəti əməliyyatlar üçün iki layihə hazırlamışdı. Paskeviçin üstünlük verdiyi layihədə nəzərdə tutulurdu ki, ruslar qəfildən və gözlənilmədən zərbə endirməklə İrəvan və Naxçıvan xanlıqlarını digər bölgələrdən təcrid etməlidirlər. Bu isə həmin xanlıqların müdafiəsini zəiflədəcək, işğalını asanlaşdıracaqdı. Bununla yanaşı, əsas zərbənin Təbrizə endirilməsi nəzərdə tutulurdu. Yermolovun bəyəndiyi layihədə isə ilk növbədə İrəvan xanlığının tutulması, sonra Arazın cənubundakı ərazilərin ələ keçirilməsi, bütün bu proseslərdə ermənilərdən geniş istifadə olunması, hətta onların silahlandırılması təklif edilirdi [24, s.241].

Yermolovla Paskeviçin münasibətləri kəskinləşdiyi vaxtda rus imperatorunun əmri ilə baş qərargah rəisi baron Dibiç də 1827-ci ilin fevral ayında Tiflisə gəldi. O, 26 martda hərbi əməliyyatların başlandığını bəyan etdi. General Dibiçin İrəvan və Naxçıvan istiqamətlərində möhkəmlənib Təbrizə hücum barədəki planı imperator tərəfindən təsdiqləndi. 1827-ci il martın 28-də Yermolov hərbi əməliyyata rəhbərlikdən uzaqlaşdırıldı, onun yerinə general Paskeviç təyin edildi. Paskeviç eyni zamanda, Qafqaz korpusuna komandan və Qafqazın idarəçiliyi işlərinə rəhbər təyin olundu.

Dibiç 1827-ci il martın 28-də hərbi əməliyyat planını təqdim edərkən təkid etmişdir ki, Üçmüəzzinə bir komanda göndərib, oradan "İrəvana kömək üçün hərbi məntəqə düzəltməklə" başlıca qüvvəni Cəlaloğluna (indiki Stepanovan – ***red.***) istiqamətləndirmək, İrəvan və Naxçıvandan keçirib Təbrizə doğru yönəltmək, ikinci qüvvəni isə Xudafərin körpüsü və Aslandüz istiqamətində hücuma çıxarmaq lazımdır[33;34]. Ərzaq və başqa çətinliklər səbəbindən hər iki əməliyyatı eyni vaxtda yerinə yetirmək mümkün deyildi. Ona görə də böyük hərbi baza hesabına Naxçıvanı ələ keçirdikdən sonra Naxçıvanla Şuşa arasında dayaq məntəqəsi düzəldib, Təbrizə hücum edilməsi qərarlaşdırıldı. Naxçıvan və İrəvan tərəflərdəki qüvvələri birləşdirib Təbriz əməliyyatını başa çatdırmaq üçün hərbi strateji nöqteyi-nəzərdən bu planın tətbiqi çox mühüm idi. Dibiçin fikrinə görə, İrəvan və Naxçıvan vilayətlərinə hərəkət edən qoşunların yürüşünü zəiflətmək və ya onu təxirə salmaqla rus qoşunlarının Təbriz üzərinə planlaşdırılan zərbəsini ləngitmək olardı [33; 34].

Paskeviç İrəvan və Naxçıvan arasında mövqelərini möhkəmlətdi, Abbas Mirzənin əsas qüvvəsini darmadağın edib, Təbrizə hücum planını həyata keçirməyə başladı [33;34]. Ağır təhlükənin yaxınlaşdığını görən Şahzadə Abbas Mirzə 40 minlik qoşunla Təbrizdən çıxaraq Qarabağ və Naxçıvan tərəflərdə rus qoşunlarının hərəkətini dayandırıb, bu yerlərin əhalisini yenidən itaət altında saxlamaq, Yelizavetpol (Gəncə – ***red.***) və Şamxor (Şəmkir – ***red.***) məğlubiyyətlərinin intiqamını almaq məqsədi ilə Qarabağa doğru yönəldi. Şahzadə Abbas Mirzə Naxçıvan düzənliyinə xüsusi əhəmiyyət verirdi. Paskeviç də bu cür mövqedə idi.

Çünki Naxçıvan Təbriz üçün möhkəm bir dayaq məntəqəsi sayılırdı. Abbas Mirzə sərəncamında olan qoşunun 2000 nəfərini Xudafərində, 2000 nəfərini isə Aslandüzdə qoydu, özü isə Naxçıvan istiqamətində İrəvana doğru hərəkətə başladı [33; 34].

Rus qoşunları 1827-ci il aprelin 20-də Xudafərin körpüsünü tutdu. Bundan sonra əsas qüvvələr aprelin 23-də İrəvana doğru irəlilədi, aprelin 24-də şəhəri mühasirəyə aldı. İrəvanın mühasirəsi xeyli vaxt davam etdi. Paskeviç 1827-ci il iyunun 10-da general-leytenant Krasovskinin komandanlığı altında İrəvanın mühasirədə saxlanması üçün 3200 piyada, 1200 nəfərdən ibarət süvari və 16 top ayırdı, özü isə Şərur düzənliyindən keçib Naxçıvana tərəf hərəkətə başladı. Rus qoşunları ağır şəraitdə və 40-43 dərəcə istidə hərəkət edirdi. İyunun 19-da hərəkətə başlayan rus qoşunları əvvəlcə Dəvəli kəndinə girdilər [33; 34]. Sərdar əhalini əvvəlcədən İrəvana köçürdüyündən kənd boş idi. Naxçıvan xanı Kərim xan isə, çox ehtimal ki, müqavimət göstərməyin imkansız olduğunu görüb xanlığı tərk etmişdi.

Paskeviçin qoşunları iyunun 21-də Vedi çayına, 23-də isə Şərur düzənliyinə gəlib Arpaçayın (Şərur mahalında) kənarında dayanmışdı. Bu zaman Həsən xan (Sərdarın qardaşı) İrəvan qalasını müdafiə etməklə, Çors mahalında duran Abbas Mirzənin qoşunlarını gözləyirdi [33; 34]. Paskeviçin qoşunları iyunun 25-də Naxçıvan şəhərinin yaxınlığında dayandı. İran qoşunlarının Naxçıvan şəhərindən təxminən 8 verstlikdə olan Abbasabad qalasında olduğu bir vaxtda, iyunun 26-da Naxçıvan şəhərini rus qoşunları işğal etdi. Şəhərdə bütünlüklə Kəngərli qəbiləsindən olan atlı və piyada dəstələri rusların tərəfdarı kimi çıxış edirdi. Ruslar Sust, Çalxanqala, Xıncov, Şıxmahmud, Əliabad, Qaraxanbəyli və digər yaşayış məntəqələrini də ələ keçirdilər [33; 34].

İran qoşunları Naxçıvanı tərk edən zaman şəhərin bir sıra görkəmli binalarını yandırıb dağıtmışdılar. Onlar Araz çayı kənarında Abbasabad qalasını möhkəmləndirib, Çors vilayətinə gedən yolları müdafiə etməyə çalışırdılar.

Paskeviç Naxçıvanda dayanıb, general-leytenant Pankratevin qüvvələrini gözləyirdi. Pankratevin ixtiyarında kifayət qədər qoşun, ərzaq, nəqliyyat və başqa vasitələr var idi. Paskeviç Pankratevi qarşılamaq üçün Şahbuz yolu ilə kəşfiyyatçılar göndərdi. O, eyni zamanda, iyunun 29-da Abbasabad qalası ətrafına da kəşfiyyatçılar göndərib məlumat toplamağa başladı [33; 34]. Bu vaxtdan qalanı mühasirədə saxlamaq əməliyyatı qərarlaşdırıldı. Benkendorfun süvariləri qala yaxınlığındakı Qızılburun monastrını tutub buradan aramsız irəliləyirdi. Abbasabad qalasının sol tərəfindən Benkendorfun süvariləri, sağ tərəfində isə korpus qərargahının rəisi Muravyevin piyadaları hərəkət edirdilər.

Orta əsrlərdən qalıb, dəfələrlə bərpa edilən Abbasabad qalası XIX əsrin əvvəllərində ingilis və fransız mühəndislərinin layihə və nəzarəti altında Avropa nümunəsində yeniləşdirilmişdi. Qalanın 3 böyük dəmir darvazasından biri Naxçıvan şəhərinə, ikincisi Nehrəm kəndinə, üçüncüsü isə Araz çayına tərəf açılırdı. Bundan başqa, qalanın tam qarşısında Arazdan Çors mahalına körpü salınmışdı.

Qalanın Araz çayı kənarında tikilməsinə baxmayaraq, divarın altında Araza tərəf su yolu açılmışdı. Onun 3 yerində böyük toplar yerləşdiriləcək bürclər tikilmiş və ağır toplarla silahlandırılmışdı. Qalanın dəmirdən olan qapıları arxadan qum və torpaqla möhkəmləndirilmişdi. Araz dəryaçasının tikintisindən əvvəl qala divarları dibində və başqa yerlərdə aparılan qazıntı zamanı silah parçalarına, top güllələrinə, zinət əşyalarına və insan sümüklərinə təsadüf edilirdi. Bu onu göstərir ki, qala uzun bir dövr ərzində mövcud olmuş, müharibələr nəticəsində dərin bir məzarıstanlığa çevrilmişdir.

Rus qoşunlarının hücumu zamanı qalanın mühafizəçiləri 4000 əsgərdən ibarət olmaqla, 22 topa sahib idilər. Onlar şahzadənin yeznəsi Məhəmməd Əmin xanın rəisliyi ilə naxçıvanlı Kalbalı xanın oğlu Ehsan xanın və təbrizli Rza xanın taburlarından təşkil edilmişdi [33; 34] .

İyunun 29-da süvarilərin yardımı ilə 50 nəfərdən ibarət rus kəşfiyyatçısı qala divarlarına yaxınlaşdı. Paskeviç bütün qüvvəsi ilə Abbasabadın mühasirəsinə başladı, qalanın ətrafındakı xəndəklərə su buraxılmasına imkan verməmək məqsədi ilə kəşfiyyat dəstələrini gücləndirdi, digər müxtəlif tədbirlər gördü. İyul ayının 1-də rus əsgərləri qalanı hər tərəfdən mühasirəyə almağa başladılar. Ruslar tərəfindən qalaya istiqamətlənmiş 22 top qoyulmuşdu. Burada 5000-dən artıq əsgər hərəkət edirdi. Benkendorfun süvarilərinə rəqibin arxasına, Arazın sağ tərəfinə keçmək əmri verildi. Paskeviç qala komendantına qan tökülmədən təslim olmağı təklif etdi. Qala komandanlığı bu təklifi rədd etdikdə Paskeviç polkovnik Eristovu bir qədər əsgərlə Naxçıvan şəhərində qoydu, özü isə bir neçə tabor əsgəri bel və qazma ilə silahlandırıb şəxsən qalaya tərəf yollandı. İyul ayının 2-3-də qala ətrafında dərin səngərlər qazaraq orada toplar qoydular.

İyulun 4-də kazak atamanı Klovoyski məlumat almışdı ki, Abbas Mirzə 26 min əsgər və 40 top ilə Çors mahalından Abbasabada tərəf hərəkət edir. Onun arxasında şahın başçılığı altındakı qoşunlar Xoy mahalında dayanırdı. Bundan başqa, Həsən xan Maku mahalından xeyli miqdarda qoşun ilə Abbas Mirzənin köməyinə gəlirdi. Abbas Mirzənin planı Arazın sağ tərəfindən hücum etməklə rus qoşunlarını arxadan sıxışdırıb qaladan uzaqlaşdırmaq idi. Şahzadənin ağır qüvvə ilə gəldiyini bilən Paskeviç Klovoyski və Benkendorfa əmr etdi ki, İran qoşunlarının qalaya tərəf hərəkətini dayandırsınlar. Klovoyskinin kazak dəstələrini müdafiə etmək məqsədilə Benkendorfun bütün süvari və topçu hissəsi, polkovnik Paskeviçin Nijqorod diviziyası hücuma keçib Arazın sol və sağ tərəfində İran qoşunları ilə qarşılaşdılar. Vuruşmada Allahyar xan, İbrahim xan, Həsən xan və Abbas Mirzənin komandasında olan qoşunlar məğlub olub Cavanbulaq deyilən yerə tərəf çəkildilər. Paskeviç Abbasabadı mühasirədə qoyub, Cavanbulaqda vuruşmağa başladı. Cavanbulaq tərəfdə Abbas Mirzənin 16 min süvarisi və xeyli miqdarda piyadası dururdu. Beləliklə, Qaraziyəddin mahalı tamamilə hərbi düşərgəyə çevrilmişdi. Cavanbulaq vuruşması çox ciddi hərbi xarakter daşıyırdı. Bu vuruşmada rus baş

komandanlığının qarşısında iki mühüm məsələ - Cavanbulaqda şahzadə Abbas Mirzənin qoşunlarını darmadağın edib Abbasabad qalasını təslim etmək və İran qüvvələrini dağıdıb Təbrizə yol açmaq dayanırdı [33; 34].

İran qoşun başçılarının hərbi təcrübəsizlikləri nəticəsində Cavanbulaq vuruşmasında onlar çox böyük itki verdi, nəticədə ruslar qalib gəldilər. Paskeviç iyulun 6-da rusların Abbasabad qalası altındakı düşərgəsinə qayıtdı və qala mühafizəçilərinin təslim olmasını tələb etdi. Rus komandanlığının təkidlə verdiyi tələbə və Cavanbulaqdakı məğlubiyyətinə baxmayaraq, Abbasabad qalasının rəisi, şahzadənin yeznəsi Məhəmməd Əmin xan Sərdar təslim olmaqdan imtina edib 3 gün vaxt istədi. (Abbas Mirzədən kömək almaq məqsədi ilə – ***red***.). Paskeviç qala komandanlığından rədd cavabı aldıqda oraya top atəşi açılmasını əmr etdi. Güclü top atəşi altında rus əsgərləri hücum edib qala divarları yanındakı səngərlərə girdilər. Vuruşma iyulun 7-nə kimi davam etdi. Qala komandanlığı rusların inadla hücuma keçib qala divarlarından aşacaqlarını görərək təslim olmağa məcbur qaldı və 2700 nəfər silahı yerə qoydu, 23 top, 1000 pud barıt, 1000 ədəd top gülləsi, 500 çervonluq taxıl və bütün mühafizə avadanlığı rus komandanlığının əlinə keçdi [33; 34]. General-mayor baron Saken qalanın komendantı və Naxçıvan vilayətinin rəisi təyin edildi [24, s.242]. Ehsan xanın Naxçıvan taburu və Rza xan başda olmaqla Təbriz hissələri də rus təbəəliyini qəbul edib, xidmətə götürülmələrini xahiş etdilər.


Abbas Mirzə Rusiya tərəfindən hələ varis kimi tanınmamışdı. İngiltərə isə Abbas Mirzəni varis kimi tanıyır və İran hökumətinə əməli surətdə yardım edirdi. Ordu yaratmaq və zabitlər hazırlamaq işinə vəsait ayırırdılar. İngiltərənin əsas məqsədi İranı yenidən Rusiyanın əleyhinə qaldırmaq idi. Abbasabad qalası alındıqdan sonra rus qoşunlarının vəziyyəti pisləşmişdi. İqlim şəraitinin ağırlığından, istidən, içməli suyun azlığından əsgərlər arasında xəstəliklərin sayı get-gedə artırdı. Təkcə Naxçıvanın Abbasabad qalası ətrafında dayanan qoşundan 1700 nəfəri xəstə idi.

Paskeviç vəziyyətə nəzarəti ələ alıb, qalanı təmir etdirməyə başladı.

Naxçıvan vilayətindən qaçan azərbaycanlılar öz vətənlərinə qayıdırdılar. Vilayətin Xok kəndinə 600, Naxçıvana 2000 ailə qayıtmışdı [33; 34]. Vilayətin idarəçiliyi rəislərə tapşırılmışdı. İyulun 14-də qərargah rəisi Muravyevin yerinə Peterburqdan general-leytenant qraf Suxteley göndərildi. O, dərhal Abbasabad qalasının tutulması planı ilə tanış oldu və sonra Sərdarabad və İrəvan qalalarına hücum planlarını nəzərdən keçirdi. Bu zaman İrəvan qalasına hücum üçün qüvvələr toplanırdı.

Beləliklə, ruslar Abbasabad qalasını tutduqdan sonra da ingilislərin müdaxiləsi nəticəsində sülh danışıqları baş tutmadı. Vəziyyət çox ciddi idi. Belə ki, rus qoşun - larının Naxçıvan-Şərur arasında mühasirəyə düşmək təhlükəsi var idi. Ordubad rəisliyinə təyin edilmiş Ehsan xanı isə iranlılar xain adlandırıb öldürmək istəyirdilər. Paskeviç knyaz Baqrationu və Eristovu Ordubada Ehsan xanın yanına yardıma

göndərdi və ailəsinin təhlükəsiz surətdə Naxçıvana köçürülməsini tapşırdı. Paskeviç Naxçıvan vilayətindəki qoşunların komandanlığını Eristova, korpus qərargah rəisliyini isə polkovnik Muravyova həvalə etdi, özü isə Naxçıvan korpusu ilə Çors mahalına və Təbrizə hücum etməyi qərara aldı. Bununla da ingilislərin tələbi ilə iranlıların rus qoşunlarını Naxçıvanla Şərur arasında mühasirəyə salmaq planı alt-üst edildi.



Abbasabad qalasının təhvil verilməsi. 1827, 7 iyul

1827-ci il sentyabrın 16-da Paskeviç Naxçıvan mahalında əməliyyata başçılıq edən Eristovdan məlumat almışdı ki, Abbas Mirzə Şərur mahalından Naxçıvanın 30 verstliyində olan Xok kəndinə gəlib, oradan Naxçıvana hücum etmək fikrindədir. Paskeviçin göstərişi ilə Eristov böyük bir qüvvə ilə Naxçıvan-Şərur yolunda hərəkət edərək İran qoşunlarını yarı yolda dağıtmışdı [33; 34].

Beləliklə, rus qoşunları 1827-ci il iyunun 26-da Naxçıvanı tutdular. İyulun 7-də Abbasabad qalası təslim oldu. Oktyabrın 1-də İrəvan qalası ələ keçirildi [33; 34].

İrəvan qalası alındıqdan sonra müharibəni davam etdirmək iranlılar üçün ümidsiz idi. İran qoşunları çox böyük itkiyə uğramışdı. Buna görə də şah sülh danışıqları aparılmasını təklif edirdi. Lakin Abbas Mirzə ingilis agentlərinin təhriki ilə müharibəni davam etdirməyə çalışırdı. İranlıların hücum hazırlığını bilən Paskeviç dərhal hərbi səfərə hazırlaşdı və böyük bir qüvvə ilə Naxçıvandan keçib, Təbrizə tərəf hərəkət etməyi qərarlaşdırdı. Paskeviç Cənubi Azərbaycana hücum edilməsini knyaz Eristova tapşırdı. Eristov Naxçıvan və Culfa sərhədlərinə



Türkmənçay müqaviləsinə əsasən Rusiya-İran sərhədi

1826 — Qacar ordusunun və ayrı-ayrı xanların yürüşləri

1827 — Rus ordusunun yürüşləri

Rus ordularına qarşı xalq çıxışları

Azərbaycanın tarixində çox qısa olan bu dövr öz qaynarlığı, hadisələrin sürətli inkişafı ilə yadda qalır. 1826-cı ildə Gəncədə, eləcə də Azərbaycanın digər bölgələrində baş verən üsyanlar, işğalçıların ölkədən qovulması, xalqın zülmlə barışmamasının bariz nümunəsidir. Lakin ölkənin bütün qüvvələrinin birləşməsinin mümkün olmaması, düşmənin gücünün düzgün qiymətləndirilməməsi, 1826-cı ilin payızında rusların əks hücumları ölkənin yenidən işğala məruz qalmasına səbəb oldu. 1827-ci ildə Naxçıvan və İrəvan xanlıqlarının işğalı, Tehrana doğru yürüşün başlanması 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsinin bağlanılmasına gətirib çıxardı. Qacarlar dövləti Cənubi Qafqazı ələ keçirmək ümidini itirdi. Rusiya isə Araz çayı sərhəd olmaqla yeni ərazilərin işğalını rəsmiləşdirdi. Xalqımızın uzun müddət üçün iki yerə bölünməsi və müxtəlif rejimlərin əsarətinə düşməsinin əsası qoyuldu. Türkmənçay müqaviləsinin XV maddəsinə əsasən ermənilərin kütləvi surətdə Şimali Azərbaycana köçürülməsinə başlandı.

Naxçıvan xanlığı (1747-1828-ci illər)

4000 piyada, 2000 süvari və 22 top yığıb sərhəddi keçmək əmrini gözləyirdi. Knyaz Eristov Paskeviçin əmri ilə 1827-ci il oktyabrın 4-də Culfa sərhəddini keçib, Təbrizə tərəf irəlilədi. Paskeviçin özü isə oktyabrın 6-da Naxçıvana gəlib, Eristovun hərəkət planı ilə yaxından tanış oldu [33; 34]. Paskeviçin əmrinə görə,

Eristovun Təbriz səfərini asanlaşdırmaq üçün Qarabağda Ağ oğlan adlanan sərhəddən general-leytenant Vodobrodski başda olmaqla 3000 nəfərlik rus qoşunu dərhal hərəkətə gəlib, Cənubi Azərbaycandan İran qoşunlarının təmizlənməsinə kömək etməli idi.


Rus qoşunlarının hücumunu görən İngiltərə hökuməti Rusiyaya olan düşmənçilik münasibətini daha da dərinləşdirirdi. Paskeviç oktyabr ayının 13-də Naxçıvanda olan zaman İngiltərə konsulluğunun katibi Kambel Təbriz qubernatoru Fətəli xan ilə Naxçıvanda olan general Paskeviçin yanına gəldi. O zaman rus qoşunları Təbrizə daxil olmuşdu. İran dövlət nümayəndəsi Fətəli xan Naxçıvanda köməksiz olduğuna görə acizanə surətdə rus qoşunlarının hərəkətinin dayandırılmasını Paskeviçdən xahiş etdi. Paskeviç isə belə bir təklifin ingilislər tərəfindən olduğunu bilərək, heç bir xahişi qəbul etməyib, rus qoşunlarının hücum sürətini artırdı.

Paskeviç İngiltərə nümayəndəsini qərargahdan qovandan sonra rus qoşunlarının ali komandanlığı Mərəndə gələrək 3 gün orada qaldı. Oktyabrın 19-da isə Paskeviç Təbriz şəhərinə getdi və rus qoşunlarının irəliyə doğru hərəkət etməsi əmrini verdi [33; 34]. Paskeviç Təbrizə daxil olan kimi yerli əyanlar və Xoy xanları rus təbəəliyinə qəbul olunmaq üçün yazılı surətdə ona müraciət etdilər.

Paskeviç imperator I Nikolaya çatdırmışdı ki, rus qoşunlarının Cənubi Azərbaycana olan yürüşü şahdan daha artıq ingilisləri narahat edir. Danışıq gedən vaxtlarda Paskeviçin çar I Nikolaydan aldığı göstərişdə deyilirdi ki, rus qoşunlarının mümkün qədər Əstərabad, yaxud Ənzəliyə tərəf yönəlməsi daha vacibdir. Rus qoşunlarının təhlükəsini anlayan İngiltərə konsulu dərhal işə qarışıb, İran hökumətinə sülh danışıqları aparılmasını təklif etdi. İngiltərə nümayəndəsi Makdonald əvvəllər Rusiya-İran müharibəsini uzatmağa səy edirdisə, 1827-ci ilin axırlarında rus qoşunlarının sürətli hərəkətini gördükdə tezliklə sülh danışıqlarına başlamağı vacib saydı. Rusiya-Osmanlı müharibəsinin yaxınlaşdığını hiss edən Rusiya da öz növbəsində İran ilə sülh bağlanılmasına tələsirdi. Tehrana göndərilən rus nümayəndəsi Volxovski danışığa başlayıb, müharibə xərci olaraq 30 milyon manat pulun şah tərəfindən ödənilməsini tələb etdi. Məlum oldu ki, şahın xəzinəsindən həmin pulun ödənilməsi imkan xaricindədir. Ona görə Paskeviç məbləğin 20 milyona endirilməsinə razılıq verdi.

İran-Rusiya danışıqları 1828-ci il yanvar ayında yenidən başladı. Danışıqlar Təbriz yaxınlığındakı Türkmənçay adlı yerdə aparılırdı. İngilis nümayəndəsi Makdonaldın təsiri altında olan Fətəli şah sülh danışıqlarının Türkmənçayda deyil, başqa yerdə aparılmasını lazım bilirdi. Çünki ingilislərin mülahizəsinə görə, Paskeviç asanlıqla Tehrana tərəf yürüşünü davam etdirə bilərdi. Əslində Türkmənçaya xeyli miqdarda qoşun toplamasına baxmayaraq, Paskeviçin Tehrana yürüşü real deyildi. Çünki Rusiya İrandan daha qüvvətli hesab olunan Osmanlı dövləti ilə müharibə ərəfəsində idi. İngiltərə diplomatiyasının ciddi-cəhdinə baxmayaraq Türkmənçay qəsəbəsində Rusiya-İran dövlətləri arasında yekun


sülh danışıqları başlandı. Türkmənçay sülh danışıqlarında Rusiya imperiyası tərəfindən əlahiddə Qafqaz ordu komandanı İ.Paskeviç, A.Obrezkov, xarici işlər nazirliyindən A.Qriboyedov, şah hökuməti tərəfindən şahzadə Abbas Mirzə, Mənucər xan və Mirzə Əbülhəsən xan iştirak edirdilər. İran Rusiya ilə sülh danışıqlarında Naxçıvan və İrəvanın geri qaytarılmasını tələb etsə də, tezliklə bu iddiadan əl çəkdi.



Paskeviç və Abbas Mirzənin Dehqarqanda görüşü.
Maşkovun şəklindən litoqrafiya

1828-ci il fevralın 10-da Rusiya ilə İran arasında Tükmənçay müqaviləsi imzalandı. Tükmənçay müqaviləsi preambula və 16 maddədən ibarətdir. Gülüstan müqaviləsinin ayrı-ayrı maddələrinin məzmunu Tükmənçay müqaviləsində əks olunmuş, onun IX və X maddələrində nəzərdə tutulmuş məsələlərə aid xüsusi ticarət aktı imzalanmışdır.

Müqavilənin preambulasında sülhün zərurətindən və onu imzalayanların (İ.Paskeviç, A.Obrezkov və Abbas Mirzə) səlahiyyətindən bəhs olunurdu. Türkmənçay müqaviləsi Naxçıvan xanlığının Rusiyaya ilhaq edilməsini təsdiq etdi. Müqavilənin III maddəsində deyilirdi: "İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə İrəvan xanlığını və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəştə gedir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırkı müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanlığın idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə vəd edir" [47, s.135].



Türkmənçay müqaviləsinin imzalanması. 10 fevral 1828-ci il.
Maşkovun şəklindən litoqrafiya

Araz çayı iki dövlət arasında sərhəd kimi qəbul edilir, Iranın Rusiyaya iyirmi milyon gümüş rubl təzminat ödəyəcəyi bildirilirdi. Xəzər dənizində yalnız Rusiyanın hərbi donanma saxlamaq hüququ təsdiq edilir, iki ölkə arasında əhalinin hərəkəti və başqa məsələlərə toxunurdu. On beşinci maddə ermənilərin İrandan Cənubi Qafqaza köçürülməsi (müqavilədə konkret deyilməsə də, ümumi razılıq belə olmuşdur –***red.***) ilə bağlı idi.

Beləliklə, Rusiyanın Naxçıvan bölgəsinə münasibətdəki siyasəti təxminən yarım əsrlik bir dövrdə müxtəlif mərhələlərdən keçərək onun işğalı ilə başa çatdı. Bununla da bütün Şimali Azərbaycan torpaqları kimi, Naxçıvan bölgəsinin tarixində də yeni, ağır Rusiya müstəmləkəçiliyi dövrü başlandı.

4. Ermənilərin Naxçıvan ərazisinə köçürülməsi və bunun nəticələri

Çar Rusiyasının ermənilər Şimali Azərbaycan torpaqlarına köçürməsi rus qafqazşünaslığında diqqət mərkəzində olmuşdur [54; 82; 84 və s.]. Təəssüf ki, Azərbaycan tarixşünaslığında bu problem olduqca gec, əsasən, 1980-ci illərdən geniş tədqiq olunmağa başlanmışdır [45, s. 20] . Son vaxtlarda bu problemin bir sıra məsələləri – çarizmin ermənilər Şimali Azərbaycana köçürməsinin səbəbləri, istiqamətləri, köçürülənlərin statistik göstəriciləri, yaratdığı demoqrafik dəyişik -

liklər, ermənilərin azərbaycanlılara qarşı soyqırımları və i.a. tədqiqat obyekti olmuşdur [25; 30; 31; 47;55;76 və s.].

Ermənilərin Şimali Azərbaycana köçürülməsi istiqamətləri içərisində Naxçıvan bölgəsi də xüsusi yer tutmuşdur. Bu problemin də bəzi məsələləri ayrı-ayrı tədqiqatlarda nəzərdən keçirilmiş [23; 26; 27; 29 və s.], son vaxtlarda bu problemin tədqiqinə diqqət daha da artmışdır [38; 40 və s.].

Çar Rusiyası tərəfindən ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi rus-erməni münasibətlərinin tərkib hissəsi idi. Onun mahiyyətini Şimali Azərbaycan torpaqlarının işğalı təşkil edirdi. Bu məqsədin ideoloji təminatı üçün tarixi həqiqət təhrif edilir, Şimali Azərbaycan ərazisinin bir hissəsi erməni torpağı kimi qələmə verilirdi [27, s. 72]. Ermənilər himayə edib Azərbaycan torpaqlarına köçürən çar Rusiyasının məqsədi burada onlar üçün xristian dindaş dövləti yaratmaq, həmin dövlətin vasitəsi ilə təsir dairəsini, müstəmləkçilik idarə sistemini daha da möhkəmləndirmək, eləcə də gələcək hərbi yürüşlərə, işğalçılıq planlarına dayaq yaratmaq idi.

Çar Rusiyası tərəfindən ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi I Pyotrun dövründə (1682-1725) başlamışdı. I Pyotr 1724-cü il 10 noyabr tarixli Əlahəzrət fərmanı ilə ermənilər rəsmən işğal olunmuş Xəzərsahili torpaqlarda məskunlaşmağa çağırır, onlara bir sıra imtiyazlar verirdi [28, s.113]. Rusiyanın Xəzərsahili torpaqlardan çıxması ilə (1732-ci il Rəşt və 1735-ci il Gəncə müqavilələri) bu plan baş tutmadı. Lakin çarizm ermənilərin Rusiyanın digər torpaqlarında yerləşdirilməsi siyasətini davam etdirirdi. Burada diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, 1768-1774-cü illər rus-türk müharibəsindən sonra Krımdan köçürülən ermənilər üçün yaradılmış yaşayış məskəni Yeni Naxçıvan adlandırıldı [30, s.221]. Bu da təsadüfi olmayıb, çarizmin ermənilərlə birgə tarixi Azərbaycan torpağı olan Naxçıvanı işğal planından xəbər verirdi.

1801-ci ildə Şərqi Gürcüstanla birlikdə, Azərbaycan torpaqlarının Rusiyaya ilhaqı başlandı. Rusiya Qacarlarla apardığı 1804-1813-cü və 1826-1828-ci illər müharibələrində qələbələri ilə Şimali Azərbaycanın işğalını başa çatdırdı. Çarizmin ermənilər Şimali Azərbaycan torpaqlarında məskunlaşdırması siyasəti bu işğal prosesində yenidən araya gəldi. Ermənilərin ruslar tərəfindən işğal edilmiş ərazilərə – Borçalı, Qazax, Gəncə, Qarabağ və başqa bölgələrə köçürülməsi siyasəti həyata keçirilirdi. Naxçıvan və İrəvan xanlıqlarının işğalından sonra bu plan daha da genişləndirildi.

İran və Osmanlı dövlətlərindən ermənilərin sistemli şəkildə Şimali Azərbaycana köçürülməsi planı hazırlandı. Bu məsələ Türkmənçay müqaviləsinin (1828-ci il) XV maddəsində təsbit olundu [79, s.1794]. Ədirnə müqaviləsindən (1829-cu il) sonra Osmanlı dövlətindən də ermənilərin köçürülməsi başlandı. Köçürməni həyata keçirmək üçün müəyyən tədbirlər (köçürmə komitəsinin yaradılması və s.) görüldü [55; 56].

Çar hökumətinin ermənilәri Şimali Azərbaycana köçürmə siyasətində Naxçıvan bölgəsinə də xüsusi yer ayırılmışdı. Çarizm Naxçıvan bölgəsinin ermənilәşdirilməsinə xüsusi önəm verirdi. Hələ sovet dönəmində bu siyasətin daxili mahiyyətinə tarixşünaslıqda münasibət bildirilmişdir [27, s.90-91].



Ermənilərin İrandan Şimali Azərbaycan torpaqlarına köçürülməsi. 1828-ci il. (Rus rəssamı V.İ.Maşkovun çəkdiyi şəkil).

Rus çarizminin mənfur siyasətinin nəticəsi idi ki, az bir zaman ərzində (1828-1831-ci illərdə) Naxçıvan bölgəsinə xeyli miqdarda erməni köçürülmüşdü. Bu, həm çap olunmuş, həm də arxivdə saxlanılan təkzibedilməz sənəd və materiallarla təsdiq edilir. Onların içərisində dövlət məmuru və qafqazşünas İ.Şopenin kitabı [70] mühüm yer tutur. Şopen ermənilərin Naxçıvan və İrəvan torpaqlarına köçürülməsinə haqq qazandırmaq üçün tarixi həqiqətləri təhrif edir, bu torpaqların qədimdən ermənilərə məxsus olmasını "əsaslandırır", "yerli" ermənilәri fərqləndirməyə çalışır və s. Kitabın bu konsepsiyası heç bir elmi dəyərə və real əsasa malik deyildir. Ermənilərin Naxçıvan bölgəsinə köçürülməsinə dair faktlar isə həmin prosesin miqyasını müəyyən etmək baxımından maraq doğurur.

İ.Şopenə görə Naxçıvan əyaləti və Ordubad dairəsinin əhalisi içərisində ermənilərin payı

Ərazi	Bütün əhali		O cümlədən köçürülən ermənilər			
			İrandan		Türkiyədən	
	ailələr	nəfər	ailələr	nəfər	ailələr	nəfər
Naxçıvan əyaləti						
Naxçıvan ş.	1330	5470	265	1110	-	-
Mahallar:						
1.Əlincəçay	731	3582	208	1051	-	-
2.Naxçıvan	2070	9477	941	4507	-	-
3.Məvaziyi-Xatın	498	2643	216	1146	-	-
4.Xok	335	1599	-	-	-	-
5.Dərələyəz	1574	7736	507	2838	8	27
Cəmi	6538	30507	2137	10652	8	27
Ordubad dairəsi						
Ordubad ş.	803	3444	36	182	-	-
Mahallar:						
1.Ordubad	196	843	14	76	-	-
2.Əylis	320	1886	29	183	-	-
3.Dəstə	379	1879	-	-	-	-
4.Biləv	499	2.317	171	899	-	-
5.Çənnəb	128	606	-	-	-	-
Cəmi	2325	10975	250	1340	-	-

Mənbə: [84, s.635-638]

İ. Şopenin məlumatlarından aydın olur ki, köçürməyədək Naxçıvan vilayəti və Ordubad dairəsində olan ermənilərin sayı 930 ailə, yaxud 6518 nəfər (4048 kişi, 2470 qadın) olmuşdur [84, s.635-636]. Burada kişilər və qadınlar arasında olan nisbət də Şopenin "yerli" kimi ayırdığı ermənilərin də əslində gəlmə olduğunu sübut edir. Rusiya tərəfindən ermənilərin Naxçıvana köçürülməsi ilə onların sayı da artır. Naxçıvan vilayəti və Ordubad dairəsinə İrandan 2387 ailə, yaxud 11992 nəfər (6339 kişi, 5653 qadın), Türkiyədən 8 ailə, yaxud 27 nəfər (17 kişi, 10 qadın) köçürülür [84, s.637-638]. Beləliklə, aydın olur ki, köçürmədən sonra Naxçıvan bölgəsində ermənilərin sayı 3325 ailəyə [930+(2387+8)] çatdırılır. Nəticədə Naxçıvan bölgəsindəki erməni ailələri bütün ailələrin (8863) 37,5%-ni təşkil etmişdi.

1831-ci il kameral təsvirinin materialları da [2, 10, 11] işğaldan keçən qısa bir dövr ərzində ermənilərin Naxçıvan bölgəsinə kütləvi şəkildə köçürülməsi və onun miqyası haqqında Şopenin məlumatlarını təsdiq edir.

Nəzərdən keçirilən xronoloji çərçivədə ermənilərin Naxçıvana köçürülməsi vəziyyətinin aydınlaşdırılmasında bölgənin xüsusi statistik təsvirini hazırlamış V.Qriqoryevin araşdırması mühüm əhəmiyyət kəsb edir. İ. Şopenin məlumatlarından da göründüyü kimi, Naxçıvana köçürülən ermənilərin coğrafi mənbələri içərisində İran üstün olmuşdur. V. Qriqoryevin İrandan Naxçıvana köçürülən ermənilər haqqında cədvəli bu problemi daha dərindən öyrənməyə imkan verir. Azərbaycan tarixşünaslığında bu məlumatlara əvvəllər də toxunulmasına baxmayaraq [27, s.76-79; 41] onun öyrənilən problemin bir sıra məsələlərinə aydınlıq gətirdiyini nəzərə alaraq, burada verilməsini məqsədəuyğun hesab edirik.

V.Qriqoryevin ermənilərin İrandan Naxçıvana köçürülməsinə dair faktları İ.Şopendən müəyyən qədər fərqlənir. İ.Şopen İrandan Naxçıvana köçürülənlərin ümumi sayının 2387 ailə (Naxçıvan əyaləti üzrə 2137, Ordubad dairəsi üzrə 250 ailə) olduğunu göstərirsə, Qriqoryevdə bu rəqəmlər müvafiq olaraq 2551 (+164), 2285 (+148) və 266 (+16) təşkil edirdi. Qriqoryevin təqdim etdiyi cədvəl ermənilərin haradan haraya köçürülməsini də aydınlaşdırır. Cədvəldən aydın olur ki, Naxçıvan əyalətinə köçürülən 2285 ailədən 416-sı (18,2 %) Naxçıvan şəhərində məskunlaşmışdı. Qalan ailələr Naxçıvan əyalətinin 43, Ordubad dairəsinin 5 kəndində yerləşmişdi. V. Qriqoryevin təqdim etdiyi cədvəlin mühüm cəhətlərindən biri də bundan ibarətdir ki, o, Naxçıvana köçürülən ermənilərin yaş və cins kimi vacib demoqrafik göstəriciləri haqqında təsəvvür yaradır. Köçürülən ermənilərin (13160 nəfər) 6954 nəfərini (52,8 %) kişilər təşkil edirdi.

İrandan Naxçıvan əyalətinə köçürülən ermənilərə dair cədvəl

İlkin məskunlaşdırıldıqları yer	**Ailələrin sayı**	**Onlardan**			**Sayı**			**Hansı dairə və şəhərlərdən köçürülmüşlər**
		Tacir	**Sənətkar**	**Əkinçi**	**Kişi cinsi**		**Qadın cinsi**	
					Böyüklər	**Kiçikyaşlılar**		
Naxçıvan dairəsinə								
Naxçıvan	166	63	63	40	281	118	313	Xoy şəhəri
şəhəri:	53	31	15	7	111	52	113	Təbriz şəhəri
	69	25	23	21	120	43	129	Marağa dairəsi
	66	20	30	16	126	60	149	Salmas
	31	9	12	10	50	26	75	" "
	26	10	10	6	34	15	55	Dehqarqan
	5	-	5	-	10	4	16	Urmiya şəhəri
Cəmi:	416	158	158	100	732	318	850	

İlkin məskunlaşdırıldıqları yer	Ailələrin sayı	Onlardan			Sayı			Hansı dairə və şəhərlərdən köçürülmüşlər
		Tacir	Sənətkar	Əkinçi	Kişi cinsi		Qadın cinsi	
					Böyüklər	Kiçikyaşlılar		
Kəndlər:								
Küznüt	72	-	12	60	133	51	135	Salmas
Qızılca	23	-	-	23	51	18	63	" "
Əbrəqunus	36	-	24	12	60	37	20	" "
Kırna	44	-	13	31	83	32	105	" "
Bənəniyar	49	4	12	33	103	52	157	" "
Göydərə	23	-	-	23	43	26	59	" "
Qazançı	22	-	-	22	44	25	57	" "
Ağyari	36	-	-	36	56	40	95	" "
Azadlıq	22	-	-	22	40	32	57	" "
Mardrus	42	-	-	42	76	49	115	" "
Keşkənd	37	-	-	37	60	40	102	" "
Keytul	33	-	-	33	56	37	79	" "
Meltikənd	35	-	4	31	66	30	88	" "
Yelpin	20	-	-	20	33	19	51	" "
Aruleşin	17	-	-	17	18	18	31	" "
Xəlilli	24	-	-	24	31	27	61	" "
Didivar	31	-	-	31	41	35	68	" "
Kültəpə	70	-	24	46	86	100	176	" "
Bədəxşan	26	6	-	14	41	18	38	" "
Nehrəm	208	15	30	163	398	221	545	" "
Təzəkənd	44	-	3	41	86	38	101	" "
Tumbul	53	-	13	40	65	60	100	" "
Qaraxanbəyli	81	7	20	54	145	74	196	" "
Kürədiz	37	-	-	37	63	40	85	" "
Arınç	31	-	3	28	51	30	70	" "
Sultanbəyli	34	-	-	34	60	27	75	" "
Məmədrzadizə	20	-	4	16	45	13	37	" "
Xalxal	35	-	-	35	50	32	83	" "
Ərəzin	60	-	8	52	113	50	153	Xoy
Saltaq	33	-	5	28	56	30	83	" "
Alagöz	42	-	2	40	74	43	98	" "
Uzunoba	40	-	-	40	63	46	127	" "
Qarababa	24	-	3	21	34	25	59	" "
Külüs	13	-	-	13	20	12	30	" "

İlkin məskunlaşdırıldıqları yer	Ailələrin sayı	Onlardan			Sayı			Hansı dairə və şəhərlərdən köçürülmüşlər
		Tacir	Sənətkar	Əkinçi	Kişi cinsi		Qadın cinsi	
					Böyüklər	Kiçikyaşlılar		
Kəndlər:								
Külüs	13	-	-	13	20	12	30	“ ”
Nurs	30	-	5	25	50	24	74	“ ”
Şıxmahmud	63	-	7	56	117	69	160	Salmas və Xoy
Nəzərabad	49	-	3	46	73	50	117	“ ”
Cəhri	151	-	40	11	309	160	465	“ ”
Badamlı	23	-	4	19	33	13	58	“ ”
Şahbuz	20	-	2	18	31	23	44	“ ”
Yarımca	78	-	27	54	99	80	154	“ ”
Məzrə	22	-	3	19	32	14	42	Urmiya və Salmas
Kərimbəy-Dizə	22	-	4	18	50	24	48	Urmiya
Cəmi:	1869	32	275	1562	3238	1884	4629	
Naxçıvan dairəsi üzrə yekun	2285	190	433	1662	39709	2202	5479	
Ordubad dairəsinə Kəndlər:								
Əylis	37	11	13	13	53	40	86	Təbriz şəhəri
Qayadamış	29	7	10	12	41	30	82	“ ”
Azadər və Dizə	182	-	22	160	354	200	501	Marağa
Əlağa	18	-	-	18	41	23	58	Təbriz
Cəmi:	266	18	45	203	489	295	727	
Naxçıvan əyaləti üzrə yekun	2551	208	478	1865	4459	2495	6206	

Mənbə: [57, s.123-127].

Mənbədə kişilərə dair məlumat iki yerə bölünmüş, burada böyüklər və kiçik yaşlılar ayrılmışdır. Bu rəqəmlər əslində ciddi informasiya mənbəyidir. Köçürülən ermənilərin 4459 nəfəri (64,12 %) böyüklər, 2495 nəfəri (35,88 %) kiçik yaşlılar idi. Bu fakt köçürülən ermənilər içərisində demoqrafik artım po-

tensialını göstərir. Köçürülən ermənilərin 6206 nəfərini (42,2 %) qadınlar təşkil edirdi. Köçürülən ermənilərin sosial strukturunda əkinçilər (1865 nəfər, yaxud 73,1 %), sənətkarlar (478 nəfər, yaxud 18,7 %) və tacirlər (208 nəfər, yaxud 8,1 %) əsas yer tuturdu.

Çar Rusiyasının Türkmənçay müqaviləsinin bağlanmasından sonrakı ilk dövrdə ermənіləri Şimali Azərbaycan torpaqlarına köçürmə siyasətinin təhlili göstərir ki, Naxçıvan bölgəsinin ermənіləşdirilməsi cəhdi önəmli rola malik olmuşdur. Əgər 1828-1829-cu illərdə Şimali Azərbaycana köçürülən erməni ailələrinin (6976) 2557-si (36,65 %) Naxçıvanda yerləşdirilmişdisə, Qarabağ və İrəvan üzrə bu rəqəmlər müvafiq olaraq 3000 (43 %) və 1395 (20 %) idi [41, s. 108-109].

Onu da deyək ki, bədnam, riyakar və hiyləgər ermənilər Rusiyaya yaltaqlanır, onun vasitəsilə özlərinin mənfur iddialarını reallaşdırmağa çalışırdılar. Mənbələrdə qeyd olunduğu kimi, İrandakı ermənilər ruslara xoş gəlmək üçün belə bir cümləni də o zaman tez-tez işlədirdilər: "Rus otunu yemək İran çörəyini yeməkdən daha yaxşıdır" [47, s.93].

Ermənilərin Naxçıvan bölgəsinə gəlmə olduğunu toponomik materiallar da təkzibedilməz şəkildə təsdiqləyir [20; 21]. Bu problemin tədqiqatçılarından olan S.Babayev yazmışdır: "... Naxçıvanın toponimləri ilə əlaqədar apardığımız tədqiqatlar da sübut edir ki, bu diyar qədim oğuz-türk-Azərbaycan torpağıdır. Bunu tarixin danılmaz şahidləri olan toponimlər də təsdiq edir. Naxçıvan ərazisində fiziki-coğrafi obyektlər içərisində erməni mənşəli toponimlər demək olar ki, yoxdur" [20, s.11].

Çarizm bütövlükdə Şimali Azərbaycana, o cümlədən Naxçıvan bölgəsinə köçürülən ermənilərə böyük imtiyazlar verirdi. Onlar müəyyən müddətə vergilərdən azad olunur, ən yaxşı torpaqlarda yerləşdirilir, inzibati idarəetmə aparatında təmsil olunurdular və s. Bütün bunlar ermənilərin etnodemoqrafik mövqelərinin möhkəmlənməsinə də şərait yaradırdı. Buna görə də Azərbaycan torpaqlarına gəlmə olan ermənilər tədricən əsassız ərazi iddialarını həyata keçirməyə başlamış, buna nail olmaq üçün Azərbaycanın digər yerlərində olduğu kimi, Naxçıvanda da soyqırımları törətmişdilər [46; 49; 70; 81 və b.]. Bütün bunların öyrənilməsi, həm elmi tədqiqatlarda, həm də təlim-tərbiyə prosesində nəzərə alınması çox vacibdir [37].

5. İnzibati idarə sistemində dəyişikliklər

Naxçıvan xanlığı Rusiya tərəfindən zəbt edildiyi dövrdə, İ.Şopenin yazdığı kimi, Naxçıvan, Dərələyəz və Azadciran olmaqla üç hissəyə bölünmüşdü. Naxçıvan Əlincəçay, Naxçıvan, Məvaziyi-Xatın, Xok və Dərələyəz mahallarına ayrılırdı. Azadciran adı ilə də tanınan Ordubad dairəsi isə Ordubad, Əylis,

Dəstə, Biləv və Çənnəb mahallarından ibarət idi. Naxçıvan xanlığı Qacarlar dövləti tərkibində Azərbaycan (Cənubi Azərbaycan) əyalətinə daxil olub, vəliəhd Abbas Mirzəyə tabe idi [84, s.446-448].

Naxçıvan xanlığı Rusiya tərəfindən, əsasən, dinc yolla ələ keçirilmişdi. Lakin çar hökuməti bu yolla ələ keçirilən Qarabağ, Şəki və Şirvan xanlıqlarından fərqli olaraq, Naxçıvan xanlığı ilə müqavilə imzalamadı. Buna görə, Naxçıvan xanlığına müəyyən imtiyazlar verildi. Naxçıvan və Ordubadın ələ keçirilməsində Kalbalı xanın oğlanları Ehsan xan və Şeyxəli bəyin xidməti nəzərə alınaraq onlar həmin torpaqlara naib təyin edildi.

Rusiya işğalı ərəfəsində digər Azərbaycan xanlığı – İrəvan xanlığı 15 mahala bölünmüşdü: 1. Qırxbulaq; 2. Zəngibasar; 3. Gərnibasar; 4. Vedibasar; 5. Şərur mahalı; 6. Sürməli; 7. Dərəkənd-Parçenis; 8. Səədli; 9. Talın; 10. Seyidli-Axsaxlı; 11. Sərdarabad; 12. Qərbibasar; 13. Abaran; 14. Dərəçiçək; 15. Göyçə. İrəvan xanlığı sərdar Hüseyn xanın idarəsi altında idi [84, s. 441- 446].

İrəvan süqut etdikdən sonra İrəvan xanlığı ləğv edildi. Paskeviç 1827-ci il oktyabrın 26-da keçmiş Naxçıvan və İrəvan xanlıqlarının idarəsi üçün Müvəqqəti idarə yaratdı. Belə bir yanaşma Şimali Azərbaycanın digər xanlıqlarından fərqlənirdi. Belə ki, ilk dəfə Şimali Azərbaycanın iki xanlığı eyni müvəqqəti idarədə birləşdirilirdi. Müvəqqəti idarə ordu komandanı general-leytenant A.İ.Krasovskidən, erməni katalikosu Nerses Aştaraketsidən və İrəvan qalasının komendantı polkovnik Borodindən ibarət idi.

Rus hərb tarixçisi V.Potto beş cildlik "Qafqaz müharibəsi" kitabının üçüncü cildində Krasovskinin həyat və fəaliyyəti üzərində xüsusi dayanmışdır. O, Paskeviçin Krasovskiyə sərt münasibətini qabartmağa çalışmış, bununla bərabər, həmin hərbçinin rolunu xeyli şişirtmişdir. Potto Paskeviçlə N.Aştaraketsi arasında da ziddiyyət olduğunu qeyd etməklə bərabər, Krasovski kimi onun da fəaliyyətini şişirtməyə çalışmışdır [75, s.354-364; 593-604]. Lakin bu şəxslərin fəaliyyətindən narazı qalan Paskeviç qısa bir müddət sonra onların hər ikisinin Müvəqqəti idarədən uzaqlaşdırılmasına nail olmuşdur.

Bu dövrdə Naxçıvan və Ordubad naiblərinə rus məmurlarından pristavlar təyin edilmişdi. Bütün idarəetmə məsələləri onların qarşılıqlı razılığı əsasında həll edilməli, mübahisəli məsələlər vilayət idarəsinə keçirilməli idi [50, VII cild, sənəd 432; 68, s.72]. Lakin naiblər və pristavlar arasında qarşılıqlı razılıq həmişə baş tutmur, ona görə də Ehsan xan və Şeyxəli bəyin narazılığına səbəb olurdu [50, VII cild, sənəd 624; 61, s.72] .

1827-ci ildə əyalətdə şəhər məhkəməsi yaradılmışdı. Onun tərkibinə Ehsan xan, onun ruslardan olan köməkçisi, xəzinədar və iki kənd starşinası daxil idi. Məhkəmə həm mülki, həm də az əhəmiyyətli cinayət işlərinin həllində istisnasız olaraq Rusiya qanunlarından çıxış edirdi [68, s.92].

Naxçıvan və İrəvan xanlıqlarının işğalı və Rusiyaya ilhaq edilməsi

ermənilərin Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq arzusuna [ətraflı bax: 35] yeni təkan verdi. Əslən erməni olan X.Y.Lazarev 1817-ci ilin axırlarında bu barədə çar I Nikolaya layihə təklif etmişdi. General-adyutant Benkendorf bu layihəni çara vermişdi [22, s. 121] .

Çar I Nikolayın 1828-ci il martın 21-də verdiyi fərman ilə İrəvan və Naxçıvan xanlıqları əsasında "erməni vilayəti" yaradıldı. Çar fərmanında göstərilirdi ki, İranla bağlanmış müqaviləyə əsasən, Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra "Erməni vilayəti" adlandırmağa hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında ali senat lazımi fərmanları öz vaxtında alacaqdır [72, s.272-273].

I Nikolayın fərmanından sonra Müvəqqəti idarə vilayət idarəsi ilə əvəz olunmağa başladı. 1828-ci ilin aprelində Krasovski İrəvanı tərk etdi. Vilayət rəisi A.G. Çavçavadze (1786-1846) oldu. 1828-ci ilin sentyabrında A.S.Qriboyedov İrəvanda olarkən vilayətin vəziyyəti ilə tanış olmuş, qayınatası Çavçavadzedən müəyyən məlumatlar almışdı [61, s. 111-112.]. Qondarma "Erməni vilayəti"nin idarəçiliyi 1830-cu ildən əslən erməni olan D.O.Behbudova (1793-1867) həvalə edlilmişdi. Behbudov fəaliyyətinin ilk dövründən burada ermənilərin mövqelərini gücləndirməyə başlamışdı [23, s.41]. Çar hökuməti "Erməni vilayəti" yaradıldıqdan beş il sonra, 1833-cü il iyunun 23-də "Erməni vilayəti"nin idarəsinin quruluşu haqqında Əsasnamə qəbul etdi. İrəvan əyalətinin inzibati-ərazi bölgüsündə dəyişiklik edildi. Əyalət dörd dairəyə – İrəvan, Şərur, Sürməli və Sərdarabada bölündü. Dairələr də mahallardan ibarət idi. İrəvan dairəsi Göyçə, Dərəçiçək və Qırxbulaq; Şərur isə Şərur, Vedibasar, Gərnibasar və Zəngibasar; Sürməli dairəsi Sürməli, Dərəkənd - Parçenis; Sərdarabad dairəsi Səədli, Talın, Seyidli – Axsaxlı, Abaran, Karpi və Sərdarabad mahallarından ibarət idi. Naxçıvan əyaləti və Ordubad dairəsi əvvəlki inzibati-ərazi bölgüsündə qalırdı [84, s.448]. 1833-cü il Əsasnaməsi Naxçıvan əyaləti və Ordubad dairəsində polis idarə sistemini olduğu kimi saxladı. Polismeyster təyin olunan Ehsan xan və Şeyxəli bəy bilavasitə "Erməni vilayəti" rəisinə tabe idi [68, s.72] .

Çar hökuməti bir müddət sonra, 1840-cı ildə "Erməni vilayəti"ni ləğv etmiş, beləliklə, əslində həmin ideyanın kökündən yanlışlığı təsdiq olunmuşdu [42, s.43-51; 83, s.199-200 və s.] .

Əsasnamə ilə məhkəmə sistemində dəyişiklik edildi. Naxçıvan əyalət məh - kəməsi yaradıldı. Bu məhkəmə tamamilə rus məmurlarından ibarət olub məhdud mühakimə hüququna malik idi. Xəzinənin xüsusi şəxslərə, xüsusi şəxslərin xəzinəyə və ya bir-birinə olan mülki işləri hər iki tərəfin mübahisəni Rusiya qa- nunları ilə həll etməyə razı olduğu halda nəzərdən keçirilirdi. Xəzinə mülkiyyətinin yadlaşdırılması halında bütün işlər təsdiq üçün vilayət rəisi və Qafqazın baş idarəçisinə verilməli idi [68, s.92].


Çarizmin bütün Şimali Azərbaycanda, o cümlədən İrəvan və Naxçıvan

əyalətlərində yaratdığı inzibati-idarə sistemi əhali arasında ciddi narazılıq yaradırdı. Çar hökuməti vəziyyəti stabilləşdirmək məqsədilə inzibati-idarə sahəsində islahatlar hazırlamağa başladı [68, s.101-102; 71, s.116-117]. I Nikolay 1840-cı il aprelin 10-da "Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar" adlı sənədi imzaladı [73, s.13368]. Bu sənəd beş layihədən ibarət idi: 1) Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar; 2) bütün idarənin ştatları; 3) Tiflisdə şəhər ictimai idarəsi haqqında Əsasnamə; 4) Zemstvo mükəlləfiyyətləri komitələri haqqında Əsasnamə; 5) Qafqazda xidmət edən məmurların üstünlükləri haqqında Əsasnamə.

Təsisatların birinci paraqrafında Zaqafqaziya diyarının ərazisi müəyyənləşdirildi. İkinci paraqrafda Zaqafqaziya diyarının idarəsi üçün Gürcü-İmeret adlı bir quberniya və Xəzər adlı bir vilayət yaradıldığı bildirilirdi. Quberniya və vilayət qəzalara, qəzalar sahələrə bölünürdü (§ 3). Gürcü-İmeret quberniyası on bir qəzaya – Tiflis, Qori, Telav, Balakən, Kutais, Yelizavetpol, Aleksandropol, İrəvan, Naxçıvan, Axalsıx və Quriyaya bölünürdü (§ 4). Xəzər vilayəti isə yeddi qəzaya – Şirvan, Qarabağ, Şəki, Talış, Bakı və hərbi dairəyə daxil olan Dərbənd və Quba qəzalarına ayrılırdı (§ 5). Bu paraqrafda verilmiş qeydə görə, Duşet, Siqnax və Ordubad zaştat şəhərləri (qəzaya daxil olub, lakin qəza mərkəzi olmayan şəhər – ***red.***) kimi qalırdı. Zaqafqaziya diyarını təşkil edən quberniya və vilayətin bütün on səkkiz qəzası yetmiş iki sahəyə bölünürdü (§ 6).

Təsisatların yeddinci paraqrafından aydın olur ki, keçmiş İrəvan əyaləti bütünlüklə İrəvan qəzasına daxil edilirdi (mərkəzi İrəvan ş.). Naxçıvan və Ordubad əyalətləri isə Naxçıvan qəzasını (mərkəzi Naxçıvan ş.) əmələ gətirirdi. Naxçıvan qəzası üç sahəyə – Naxçıvan, Ordubad və Dərələyəzə ayrılırdı.

1840-cı il 10 aprel qanunu idarə sistemini də müəyyənləşdirirdi. Yuxarı idarə hüququ Baş rəisə aid idi. Ondan sonra ikinci şəxs Tiflis hərbi qubernatoru hesab edilirdi. Baş rəisin sədrliyilə Baş İdarə Şurası (BİŞ) yaradılırdı.



Naxçıvan qəzasının gerbi

Naxçıvan bölgəsinin ərazisi Gürcü-İmeret quberniyasının tərkibinə daxil edildiyinə görə quberniya idarə sisteminə də nəzər salmaq lazımdır. Quberniyanın idarəsi üçün Quberniya idarəsi təşkil edilməli idi. Bu idarə aşağıdakı tərkibdən ibarət olmalı idi: 1) mülki qubernator; 2) quberniya idarəsi; 3) xəzinə palatası; 4) dövlət mülkiyyət palatası; 5) cinayət və mülki məhkəmə palatası; 6) ictimai hamilik prikazı; 7) zadəgan deputat məclisi; 8) prokuror hissəsi.

Qəza idarəsi təsisatların IV fəslində əks olunmuşdu. Qəza idarəsi Gürcü-İmeret quberniyası və Xəzər vilayətində eyni qayda ilə yaradılırdı (§ 84).

İRƏVAN QUBERNİYASI (XIX əsrin II yarısı- XX əsrin əvvəlləri)



1872-ci ildən etibarən 7 qəzadan (Yeni Bəyazid, Naxçıvan, Aleksandropol, İrəvan, Üçmüəzzin, Sürməli və Şərur-Dərələyəz) ibarət olmuş İrəvan quberniyası Qacarlar dövləti və Osmanlı imperiyasından rusların köçürdükləri ermənilərin ən sıx məskunlaşdırıldıqları Azərbaycan torpaqları olmuşdur. 1897-ci ildə türk-müsəlmanları quberniya əhalisinin 58%-ni, ermənilər 37%-ni, digər xalqlar isə (ruslar, yunanlar, yəhudilər və başqaları) 5%-ni təşkil edirdilər.

Quberniya inkişaf etmiş kənd təsərrüfatına, 3469 sənaye müəssisəsinə, çoxsaylı sənətkarlıq emalatxanalarına, 2800 ticarət müəssisəsinə malik idi. İrəvan quberniyası həm qonşu quberniyalar, həm də Cənubi Azərbaycanla intensiv ticarət aparırdı. XIX əsrin əvvəllərində Azərbaycan elm və mədəniyyətin mühüm mərkəzlərindən olub, dünya mədəniyyətinə C.Məmmədquluzadə, B.Kəngərli və başqaları kimi dühalar vermiş İrəvan quberniyasında kişi və qadın gimnaziyaları, müəllimlər institutu (İrəvan şəhərində),18 şəhər məktəbi, 81 kənd məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 7000 nəfər təhsil alırdı.

Azərbaycan türkləri

Türkiyə və İrandan köçürülmüş ermənilər

Digər xalqlar (ruslar, yunanlar, yəhudilər və başqaları)

Bu idarə: 1) qəza rəisi və onun köməkçisi; 2) sahə iclasçıları; 3) şəhər polisi; 4) qəza xəzinədarlığı; 5) qəza məhkəmələri; 6) qəza prokurorlarından ibarət idi (§ 85). Hər bir qəza idarəsində qəza hakimi və ştatla müəyyən olunmuş sayda digər çinlər olmalı idi (§ 86). Qəzaya daxil olan sahələr sahə iclasçıları tərəfindən idarə edilirdi (§ 71).

1840-cı il 10 aprel qanunu 1841-ci il yanvarın 1-dən qüvvəyə mindi. Bununla əlaqədar olaraq yeni idarə sistemi formalaşdırıldı, yerli məmurlar vəzifələrindən uzaqlaşdırıldı. Bu dəyişikliklər Naxçıvanda da həyata keçirildi. Ehsan xan və Şeyxəli bəy də vəzifəsindən kənarlaşdırıldı. Ehsan xan süvari dəstəsinin komandiri təyin olundu [ətraflı bax: 36].

Lakin 1840-cı il 10 aprel islahatı özünü doğrultmadı. Zaqafqaziyanı yeni çıxışlar bürüdü. Çar I Nikolayın göstərişi ilə Qafqazda canişinlik yaradıldı. İlk canişin M.S.Vorontsov (1844-1854) Qafqazı sakitləşdirmək məqsədilə bəzi tədbirlərə əl atdı. Onun yaxından iştirakı ilə çar I Nikolay 1846-cı il 14 dekabr fərmanı ilə Zaqafqaziyanın inzibati-idarə sistemində dəyişikliklər etdi. Zaqafqaziya Tiflis, Kutais, Şamaxı və Dərbənd olmaqla dörd quberniyaya bölündü [86, s.81]. İrəvan və Naxçıvan qəzalarının tərkibinə daxil olan Naxçıvan bölgəsi Tiflis quberniyasına verildi. Lakin bu qəzalar Tiflis quberniyası tərkibində uzun müddət qalmadı. 1849-cu il iyunun 9-da İrəvan quberniyası yaradıldı.

Yeni quberniya və quberniya orqanları 1850-ci il yanvarın 1-dən fəaliyyətə başladı [68, s.133]. Bütün keçmiş "Erməni vilayəti", o cümlədən Aleksandropol (keçmiş Gümrü – ***red.***) qəzası (Axalkalaki sahəsi olmadan) və Mehri sahəsinin bir hissəsi yeni yaradılmış İrəvan quberniyasına daxil oldu. Quberniya beş qəzaya: İrəvan, Aleksandropol, Novo Bayazid, Naxçıvan və Ordubada bölündü.

Göründüyü kimi, İrəvan quberniyası tərkibində Ordubad xüsusi qəza kimi ayrılmışdı. Bəzi qəzalar sahələrə bölünmüşdü. İrəvan quberniyasında Zəngibasar, Sürməli, Şərur və Sərdarabad sahələri var idi. Naxçıvan qəzası isə Naxçıvan və Dərələyəz sahələrinə ayrılmışdı. Ordubad qəzasında sahələr yox idi.

Şərur sahəsinin inzibati mərkəzi Baş Noraşen kəndi (indiki Cəlilkənd – ***red.***), Naxçıvan üçün Naxçıvan şəhəri müəyyənləşdirilmişdi. Digər sahə inzibati mərkəzləri iri kəndlərdə (Qəmərli, Qazıqışlaq, Zeyvə və b.) idi [1, s.3].

İrəvan quberniyası təşkil olunduqdan sonra da onun xarici hüdudları və tərkibi müəyyən dəyişikliklərlə müşahidə edilmişdi. 1862-ci ildə yeni təyin olunmuş canişin Mixail Nikolayeviçin təqdimatı ilə çar II Aleksandr 1867-ci il dekabrın 9-da Qafqaz və Zaqafqaziya diyarının idarəsinin dəyişdirilməsi haqqında fərman verdi [74, s.45, 260]. Bu fərman üzrə Ordubad qəzası on yeddi ilədək mövcud olduqdan sonra ləğv edilərək, Naxçıvan qəzası ilə birləşdirildi. Onun yerinə Üçmüəzzin qəzası təşkil edildi. Mehri sahəsi isə yeni yaradılmış Yelizavetpol quberniyasına birləşdirildi. İrəvan quberniyası yenə də beş qəzadan (İrəvan, Aleksandropol, Yeni Bəyazid, Naxçıvan, Üçmüəzzin) ibarət oldu. Fərman İrəvan qu-

berniyasının qəzaları arasında sərhədlərin dəyişdirilməsi işini canişinə həvalə etdi. Canişin bu hüquqa əsaslanaraq 1870-ci ilin əvvəllərində qəzaların hüdudlarında dəyişiklik etməyi qərara aldı. Sürməli və Üçmüəzzin qəzalarının bir hissəsi İrəvan qəzasına birləşdirildi. Şərur sahəsinın isə İrəvan qəzasından ayrılması və Naxçıvan qəzasına birləşdirilməsi həyata keçirildi [1, s. 3-4] .

Lakin İrəvan quberniyasının qəzalarında, xüsusən Naxçıvan qəzasında ərazinin dəyişdirilməsi bununla başa çatmadı. Dövlət Şurasının təsdiq edilmiş rəyinə əsasən 1874-cü ildə Şərur-Dərələyəz və Sürməli qəzaları yaradıldı [1, s.4]. Şərur-Dərələyəz qəzası Naxçıvanın iki sahəsi – Şərur və Dərələyəz əsasında təşkil edilmişdi. Bununla da Rusiya imperiyası tərkibində Naxçıvanın tarixi ərazisinin inzibati-ərazi bölgüsü üzrə çoxsaylı dəyişiklər, əsasən, başa çatdı.

III FƏSİL

NAXÇIVAN XIX ƏSRDƏ

1. İlhaqdan sonra Naxçıvan bölgəsində sosial-siyasi vəziyyət

Rusiyanın Azərbaycanı, o cümlədən Naxçıvanı işğal etməsi bütün sahələrə ciddi təsir göstərmiş, o cümlədən sosial-siyasi sahəyə də nüfuz etmişdi. İrandan və Türkiyədən köçürülən erməni ailələri bölgənin sosial-siyasi həyatına kənar müdaxilə faktoru kimi acı nəticələrə səbəb olmuşdu. Gəlmə ermənilər rus hakim dairələri hər vəchlə müdafiə edir, yerli azərbaycanlıların isə hüquqlarını kobud şəkildə tapdalayırdı. Bölgəyə Rusiyanın müxtəlif vilayətlərindən köçürülən rus ailələrini də bu baxımdan xatırlatmaq gərəkdir. Bütün bunların, ümumən çar hökumətinin işğalçılıq siyasəti, müstəmləkə idarə üsulu nəticəsində Naxçıvan bölgəsinin sosial-siyasi həyatında əsaslı dəyişikliklər baş vermişdi. Bölgənin demoqrafik mənzərəsinə nəzər salmaq bu baxımdan bir sıra sosial-siyasi mətləbləri aydınlaşdırar.

Rusiya işğalı ərəfəsində və müstəmləkə idarəçiliyinin ilk illərində Naxçıvan bölgəsində əhalinin sayını müəyyən etmək üçün əsas qaynaq İ.Şopenin 1852-ci ildə çap olunmuş əsəridir. Bu əsərdə verilən rəqəmlər Rusiya işğalı ərəfəsində Naxçıvan bölgəsi əhalisinin sayını göstərməklə bərabər, sonrakı dövrdə vəziyyəti izləmək üçün də mənbə rolunu oynayır. İ.Şopen Rusiya işğalının ilk illərində İrəvan və Naxçıvan əyalətlərinin, Ordubad dairəsinin inzibati bölgüsü və əhalisini aşağıdakı cədvəllər vasitəsi ilə təsvir etmişdir. Onu da qeyd edək ki, göstərilən inzibati vahidlərin əhalisindən başqa, vilayətdə köçmə əhali də var idi (1.411 ailə və ya 7.813 nəfər). Onlar da nəzərə alınmaqla, vilayətdə həmin vaxt 31.201 ailə və ya 164.450 nəfərin yaşadığı aydın olur [203, s. 642].

İrəvan əyalətinin inzibati-ərazi bölgüsü və əhalisi

№	Şəhər və mahallar	Əhali			
		Ailələr	kişi	qadın	Cəmi
1	İrəvan şəhəri, mahallar	2.751	5.897	5.566	11.463
2	Qırxbulaq	597	1632	1421	3053
3	Zəngibasar	1484	4535	3841	8376
4	Gərnibasar	1998	5143	4537	9680
5	Vedibasar	776	2392	2141	4533
6	Şərur	1641	4350	3917	8267
7	Sürməli	2204	7141	6384	13525
8	Dərəkənd-Parçenis	590	1745	1527	3272
9	Səədli	160	517	487	1004
10	Talın	350	1038	942	1980
11	Seyidli-Axsaxlı	317	969	813	1782
12	Sərdarabad	815	2798	2630	5418

13	Gərnibasar	1850	5860	5095	10955
14	Abaran	1457	4706	4227	8933
15	Dərəçiçək	1437	4577	4073	8650
16	Göyçə	2499	7673	6581	14254
17	**Yekun**	20927	60973	54182	115155

Mənbə: [203, s. 638]

Naxçıvan əyalətinin inzibati-ərazi bölgüsü və əhalisi

№	Şəhər və mahallar	Əhali			
		Ailələr	kişi	qadın	Cəmi
1	Naxçıvan şəhəri, mahallar	1330	2871	2599	5470
2	Əlincəçay	731	1885	1697	3582
3	Naxçıvan	2070	4991	4486	9477
4	Məvaziyi-Xatın	498	1431	1212	2643
5	Xok	335	842	757	1599
6	Dərələyəz	1574	4075	3661	7736
7	**Yekun**	6538	16095	14412	30507

Mənbə: [203, s. 638]

Ordubad dairəsinin inzibati-ərazi bölgüsü və əhalisi

№	Şəhər və mahallar	Əhali			
		Ailələr	kişi	qadın	Cəmi
1	Ordubad şəhəri, mahallar	803	1771	1673	3444
2	Ordubad	196	421	422	843
3	Əylis	320	970	916	1886
4	Dəstə	379	991	888	1879
5	Biləv	499	1194	1123	2317
6	Çənnəb	128	306	300	606
7	**Yekun**	2325	5653	5322	10975

Mənbə: [203, s. 638]

Qaynaqlardan aydın olur ki, İrəvan əyalətinin Şərur mahalı bütünlüklə, Vedibasar mahalının Sədərək kəndi, Naxçıvan əyalətinin Əlincəçay, Naxçıvan və Xok mahalları, Ordubad dairəsi isə bütünlüklə müasir Naxçıvan Muxtar Respublikasının hüdudları daxilinə düşür. Qeyd olunan ərazilərə dair məlumatları əsas götür-

məklə Naxçıvan bölgəsi əhalisinin sayını aşağıdakı qaydada müəyyənləşdirmək olar:

Naxçıvan bölgəsinin əhalisi (müasir sərhədlər üzrə)

Ərazi	Əhali			
	Ailələr	kişi	qadın	Cəmi
Naxçıvan əyalətindən				
Naxçıvan şəhəri	1330	2871	2599	5470
Əlincəçay mahalı	731	1885	1697	3582
Naxçıvan mahalı	2070	4891	4486	9477
Xok mahalı	335	842	757	1599
Ordubad dairəsindən				
Ordubad şəhəri	803	1771	1673	3444
Ordubad mahalı	196	421	422	843
Əylis mahalı	320	970	916	1886
Dəstə mahalı	379	991	888	1879
Biləv mahalı	499	1194	1123	2317
Çənnəb mahalı	128	306	300	606
İrəvan əyalətindən				
Şərur mahalı	1641	4350	3917	8267
Vedibasar mahalından				
Sədərək kəndi	135	469	409	878
Yekun	8567	21061	19187	40248

Cədvəldən aydın olur ki, Naxçıvan bölgəsində (müasir sərhədlər üzrə) 1829-cu ildə 8.567 ailə və ya 40248 nəfər əhali yaşamışdır.

Şopenin məlumatı ilə birgə quberniya katibi Zolotnitskinin 1831-ci ildə apardığı kameral təsvirin materialları da Naxçıvan bölgəsinin əhalisi haqqında rəqəmləri dəqiqləşdirməyə imkan verir [5, 6, 7, 8, 9, 10, 11, 12, 13]. "Erməni vilayəti"nin idarəsi haqqında 1833-cü il əsasnaməsinə görə, Naxçıvan əyaləti altı mahala (Xok, Naxçıvan, Əlincəçay, Yaycı, Dərələyəz, Məvaziyi-xatın) ayrılmışdı. Ordubad dairəsinin əvvəlki inzibati-ərazi bölgüsü qalmışdı. 1840-cı ildə "Erməni vilayəti" ləğv olunduqdan sonra İrəvan və Naxçıvan əyalətlərinə qəza statusu verilmişdi. 1842-ci ildə yeni kameral təsvir keçirilmişdi. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, həmin kameral təsvirin Naxçıvan bölgəsinə dair materialları tam şəkildə bizə gəlib çatmamışdır. ARDTA-dan yalnız Naxçıvan şəhəri, Naxçıvan qəzasının Ordubad sahəsi, Ordubad şəhəri, İrəvan qəzasının Şərur sahəsinə dair materiallar aşkar edilmişdir [14, 15, 16, 17].

1849-cu ildə İrəvan quberniyası yaradıldıqda Naxçıvan bölgəsinin ərazisi İrəvan qəzasının Şərur sahəsini, Naxçıvan qəzasının Naxçıvan sahəsini və Ordubad

qəzasını əhatə edirdi. Bu vəziyyət 1867-ci ilin dekabr ayınadək davam etmişdi. Bu dövrdə Naxçıvan bölgəsinin əhalisinin 1850-ci ilə aid ümumi sayı müəyyənləşdirilmişdir [18]. Həmin məlumata görə, 1850-ci ildə Naxçıvan bölgəsində 56.000 ailə yaşayırdı. Həmin vaxt Ordubad qəzası ləğv olunaraq Naxçıvan qəzasına birləşdirilmişdi. Naxçıvan qəzası bütövlükdə üç sahəni: Naxçıvan, Dərələyəz və Ordubad sahələrini əhatə edirdi.

S.P.Zelinskinin Qafqaz haqqında məlumatlar toplusunun VII cildində (Tiflis, 1880) nəşr etdirdiyi məqalədə bu vəziyyət əks olunmuşdur [136, s. 209-258]. Müəllif məqalədə hər üç mahalın əhalisinin 1829 və 1873-cü illər üzrə müqayisəli cədvəlini də vermişdir. Əhalinin say dinamikasına dair məlumatları əks etdirən həmin cədvəl aşağıdakı kimidir.

Naxçıvan, Ordubad və Dərələyəz mahalları əhalisinin 1829* və 1873-cü illər üzrə say dinamikasının müqayisəsi

Şəhər və mahallar	1829				1873			
	Ailələr	Əhali			Ailələr	Əhali		
		kişi	qadın	cəmi		kişi	qadın	cəmi
Naxçıvan şəhəri	1330	2871	2599	5470	1483	3723	3154	6877
Ordubad şəhəri	803	1771	1673	3444	840	2065	1414	3489
Naxçıvan mahalı	3343	8730	7796	16526	5719	21798	16750	38548**
Ordubad mahalı	1522	3882	3653	7535	2413	10170	7287	17457
Dərələyəz mahalı	1735	4452	4016	8468	3869	15945	13572	29517
Yekun	8833	21706	19737	41443	14359	53701	42187	95874

Mənbə: [136, s. 248]

**1829-cu ilə aid məlumat İ. Şopenin əsərindən götürülmüşdür.*

*** 35 malakan ailəsi də (124 kişi və 120 qadın) Naxçıvan mahalının ümumi əhalisinə daxil edilmişdir.*

Cədvəldən aydın olduğu kimi, göstərilən şəhər və mahallarda 1829-cu ildə 8.833 ailə, 1873-cü ildə isə 14.359 ailə (+5.526) yaşamış, yaxud onların sayı 162,5 % artmışdı. Ümumi əhali isə 41.443 nəfərdən 95.874 nəfərə (+54.431) çatmış, yəni 231,3 % artmışdı. İrəvan qəzası tərkibində olan Şəruru şərti olaraq Dərələyəz ilə əvəz etsək, bu göstərici Naxçıvan bölgəsi əhalisinin sayına uyğun gəlir.

1870-ci illərin əvvəllərində Şərur İrəvan qəzasının tərkibindən çıxarılaraq Naxçıvan qəzasına birləşdirildi. Lakin 1874-cü ildə Şərur-Dərələyəz qəzasının ya-

radılması nəticəsində hər iki sahə Şərur və Dərələyəz Naxçıvan qəzasından ayrıldı. Naxçıvan qəzasının bu vəziyyəti Qafqaz haqqında məlumatlar toplusunun V cildində (Tiflis, 1879) əks olunmuşdur [135]. Aparılan hesablamaya görə, belə bir vəziyyətdə Naxçıvan qəzasında 8.419 həyət qeydə alınmışdı. Təbii ki, bu rəqəm Şərur sahəsi nəzərə alınmadığına görə Naxçıvan bölgəsi üzrə real vəziyyəti tam əhatə etmir. Bu çatışmazlığı aradan qaldırmaq üçün 1886-cı ilə aid ailə siyahısına müraciət edək.

1886-cı il ailə siyahısına əsasən Naxçıvan bölgəsinin əhalisi

Ərazi	Əhali			
	ailələr	kişi	qadın	Cəmi
Naxçıvan qəzası	9918	41353	31529	72882
Şərur-Dərələyəz qəzasından Şərur sahəsi	4. 907	17. 380	14. 380	31. 760
İrəvan qəzasından Sədərək kənd cəmiyyəti	526	2134	1603	3737
Yekun	15351	60867	47512	108.379

Mənbə: [188]

Cədvəldən göründüyü kimi, 1886-cı ildə Naxçıvan bölgəsinin ümumi əhalisi 15.351 ailədən, yaxud 108.379 nəfərdən ibarət idi.

1897-ci ildə Rusiya imperiyasında əhalinin birinci ümumi siyahıya alınması keçirilmişdi. Həmin siyahıyaalma materialları da əhalinin öyrənilməsi üzrə ən mühüm qaynaqlardan birini təşkil edir. Lakin buradakı yekun materialda Şərur-Dərələyəzə dair məlumatın ümumi şəkildə göstərilməsi nisbətən dəqiq hesablama aparmağa imkan vermir. Ona görə də burada şərti olaraq Şərur-Dərələyəzə dair məlumat iki yerə bölünüb Naxçıvan qəzasına dair məlumatla toplanıldı. Bu halda 139.040 rəqəmi alınar [174, s. 1]. Aydındır ki, Şərur Dərələyəzə nisbətən daha çox əhaliyə malik idi. Digər tərəfdən, burada Sədərək də nəzərə alınmamışdır. 1897-ci ildə Naxçıvan bölgəsində 150.000 nəfərdən çox əhali olduğunu qeyd etmək mümkündür. Beləliklə, göstərilən ümumiləşdirilmiş rəqəmlər əsasında Naxçıvan bölgəsi əhalisinin say dinamikasını aşağıdakı kimi müəyyən etmək olar.

XIX əsrdə Naxçıvan bölgəsinin əhalisi

İllər	Əhali	
	Cəmi	Artım
1829	40.248	
1850	56.000	+15752
1886	108.379	+52379

Faktlardan göründüyü kimi, Naxçıvan bölgəsində əhalinin sayı 1829-cu ildəki 40.248 nəfərdən artaraq 1886-cı ildə 108.379 nəfərə çatmışdır, yəni 60 ilə yaxın dövr ərzində əhalinin sayı 68.131 nəfər çoxalmışdı. Burada artımın əsas səbəbləri sırasında çarizmin köçürmə siyasəti ilə yanaşı, əhalinin təbii hərəkətinin yüksək olmasını, xanlıq dövründə ara müharibələrinə son qoyulmasını, sosial-iqtisadi həyatdakı nisbi inkişafı qeyd etmək mümkündür.

Naxçıvan bölgəsi əhalisinin say dinamikası onun yerləşməsindəki vəziyyətə də təsir göstərmişdi. Bölgə əhalisi şəhər və kəndlərdə yerləşmişdi. Naxçıvan bölgəsi üçün iki şəhər – Naxçıvan və Ordubad xarakterik idi.

İ.Şopenin məlumatına görə, Rusiya işğalından sonra Naxçıvan şəhərində 1.330 ailə, yaxud 5.470 nəfər yaşayırdı. Onlardan 2.871-i kişi, 2.599-u qadın idi. Eyni dövrdə Ordubad şəhərində 803 ailə, yaxud 3.444 nəfər qeydə alınmışdı. Onlardan 1.771-i kişi, 1.673-ü isə qadın idi. Hər iki şəhərin əhalisini birlikdə nəzərdən keçirsək, Naxçıvan bölgəsində 2.133 ailə, yaxud 8.914 nəfər şəhər sakini var idi [203]. 1850-ci il məlumatına görə, Naxçıvanda 4.410, Ordubadda isə 3.973 nəfər yaşayırdı. Birlikdə Naxçıvan bölgəsinin şəhər əhalisi 8.383 nəfər təşkil edirdi [17].

1873-cü il kameral təsvirinin nəticələrinə görə, Naxçıvan şəhərində 6.877, Ordubadda isə 3.489 nəfərin olduğu bildirilir. Həmin ildə Naxçıvan bölgəsinin şəhər əhalisi 10.366 nəfər idi [136]. 1886-cı il ailə siyahısına görə, Naxçıvan şəhərinin əhalisi 6.939, Ordubad şəhərinin əhalisi 4.199 nəfər, birlikdə isə 11.138 nəfər olmuşdu [188]. Rusiyada ilk dəfə keçirilən 1897-ci il əhali siyahıya almasının məlumatına görə, Naxçıvan şəhərinin əhalisi 8.790, Ordubad şəhər əhalisi isə 4.611 nəfər, cəmi 13.401 nəfər olmuşdu [174, s. 8].

Naxçıvan bölgəsinin Naxçıvan və Ordubad şəhərlərinin əhalisi (1829-1897-ci illər)

İllər	Naxçıvan		Ordubad şəhəri		Cəmi
	Əhalinin sayı	Ümumi şəhər əhalisinin payı, %	Əhalinin sayı	Ümumi şəhər əhalisinin payı, %	
1829	5.470	61.36	3.444	38,64	8.914
1850	4.410	52.61	3.973	47,39	8.383
1873	6.877	66.34	3.489	33,66	10.366
1886	6.939	62.30	4.199	37,70	11.138
1897	8.790	65.60	4.611	34,40	13.401

Nəzərdən keçirilən cədvəl əhalinin artım vəziyyətini, şəhərlərin əhalisinin sayını müəyyənləşdirməyə imkan verir. Naxçıvan şəhərinə aid sütundan göründüyü

kimi, 1829-1850-ci illər arasındakı azalma istisna olmaqla, şəhər əhalisinin sayı digər dövrlərdə artmışdır. Naxçıvan şəhərinin nisbətən azaldığı 1829-1850-ci illər arasında Ordubadda şəhər əhalisi nisbi rəqəmlə bölgənin şəhər əhalisi içərisində ən yüksək göstəriciyə (47,39 %) çatmışdır. Qalan hallarda isə Naxçıvanda şəhər əhalisinin sayı Ordubada nisbətən yüksək olmuşdur.


Mənbələrdən aydın olur ki, Naxçıvan bölgəsinin şəhər əhalisinin ümumi əhali içərisində payı getdikcə azalmışdır. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərlərinə dair xüsusi tədqiqatın müəllifinin hesablamalarına görə, 1873-cü ildə ümumi əhali içərisində şəhər əhalisinin payı 11,15; 1886-cı ildə 14,06; 1897- ci ildə 14,58 faiz olmuşdur [162, s. 67]. Müqayisədən aydın olur ki, Naxçıvan bölgəsi üzrə şəhər əhalisinin payı ümumazərbaycan səviyyəsindən aşağı idi.

Naxçıvan bölgəsi üzrə əhalinin qalan hissəsi kənd yerlərində məskunlaşmışdı. İ.Şopenin məlumatına əsasən, Naxçıvan bölgəsinin (müasir sərhədlərdə) ərazisində təxminən 200-dək kənd olmuşdur [203, s. 556-564, 599-630]. 1886-cı il ailə siyahısına [188] görə isə Naxçıvan bölgəsində 240-dək kənd olmuşdur.

Əhalinin ən əsas sosial göstəricilərindən biri onun tərkibi ilə bağlıdır. 1829-cu il məlumatına görə, Naxçıvan bölgəsində 21.061 nəfər kişi, 19.187 qadın var idi. Qadınların sayı kişilərin sayından 1874 nəfər az idi, yaxud hər 1000 qadına 1.097,6 kişi düşürdü. 1886-cı ildə isə kişilərin sayı 60.867, qadınların sayı 47.512 olmuşdu, yəni kişilərin sayı qadınların sayından 13.355 nəfər çox olmuş, yaxud hər min qadına 1.281,1 nəfər kişi düşmüşdü.

Bütövlükdə Naxçıvan bölgəsinin daxil olduğu İrəvan quberniyasında kişilərin sayı qadınların sayından üstün idi. Naxçıvan qəzasında qəza üzrə hər yüz kişiyə 90,51, şəhərlərdə isə 83,11 qadın düşürdü. Şərur-Dərələyəz qəzasında bu göstəricilər 86,67 və 71,17 idi. 1897-ci il əhalini siyahıya alanlar müxtəlif yaş qruplarında kişi və qadınların nisbətini də müəyyən etmişlər. 10 yaşından kiçik, 10-19, 20-29, 30-39, 40-49, 50-59, 60 və daha yuxarı yaşlar üzrə hər bir qrupda kişilərin üstün olduğu aşkar olunmuşdur [174, s. 8].

Naxçıvan torpaqları tarixi Azərbaycan ərazisi olmaqla, onun yerli əhalisini azərbaycanlılar təşkil edirdi. Bu dövrdə azərbaycanlılar Naxçıvan əyalətində 3.863 ailə (17.138 nəfər) , Ordubad dairəsində isə 1.675 ailə (7.247 nəfər) təşkil etmişdi. Lakin köçürmə hesabına çar hökuməti əhalinin etnik tərkibində xeyli dəyişiklik yaratmışdı. Köçürülən ermənilərin sayı Naxçıvan əyalətində 2.145 ailə (10.589 nəfər), Ordubad dairəsində isə 250 ailə (1,340 nəfər) olmuşdu. Beləliklə, Rusiya işğalından sonra 3325 erməni ailəsinin gətirilməsi hesabına Naxçıvanda 8,863 ailə qeydə alınmışdı [203, s. 632-642]. Çarizmin rus kəndlilərini köçürmə siyasəti bütün Azərbaycanda olduğu kimi, Naxçıvan bölgəsini də əhatə etmişdi. Naxçıvan qəzasında Karmalinovka (Biçənək – ***red***.) adlı rus kəndi salınmışdı. Bu kənddə XIX əsrin 30-80-ci illərində 164 rus yaşamışdı [137, s. 294].



Naxçıvan şəhəri. Dəmiryol vağzalı, 1905-ci il

Naxçıvan XIX əsrin II yarısı – XX əsrin əvvəllərində

Aparılan təhlillər XIX əsrdə rus işğalından sonra Naxçıvan bölgəsində əhalinin sosial strukturunda və demoqrafik tərkibində baş vermiş dəyişikliklərin müstəmləkə siyasəti ilə bilavasitə əlaqəli olduğunu təsdiqləyir.

2. Naxçıvanın təsərrüfat həyatı

XIX əsrdə Azərbaycanda aqrar münasibətlərin tarixinin, o cümlədən kənd təsərrüfatının ayrı-ayrı sahələrinin vəziyyətinin tədqiqi Azərbaycan tarixşünaslığının qarşısında duran mühüm vəzifələrdən biridir. Bu problemin tədqiqi həm də Şimali Azərbaycan torpaqlarının Rusiyaya birləşdirilməsindən sonra kəndli islahatının keçirilməsi ilə əlaqədar kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafının araşdırılmasında da böyük elmi əhəmiyyət kəsb edir. İstər XIX əsr mənbələrində, istərsə də müxtəlif alimlərin tədqiqatlarında bu mövzu ilə əlaqədar bir sıra məsələlər öz elmi təhlilini tapmışdır. Azərbaycanın bir hissəsi olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarında kənd təsərrüfatının vəziyyəti, onun ayrı-ayrı sahələri barədə bir sıra təhlillər aparılsa da, bu məsələ yalnız son onilliklərdə sistemli şəkildə araşdırılmışdır [109; 110; 112; 200; 201; 202].

Naxçıvan və Şərur-Dərələyəz qəzalarının ərazisi özünün iqlimi, topoqrafiyası və torpaq şəraiti baxımından müxtəlif olduğundan burada kənd təsərrüfatının bütün sahələrinin inkişaf etdirilməsinə imkan vardı. Tarixin qədim dövrlərindən etibarən ulu babalarımız olan oğuzlar bu yerlərdə məskunlaşmış, öz təsərrüfatlarını qurmuşlar. Əsasən aran rayonları sayılan Şərur və Naxçıvan mahallarının sakinləri hələ ən qədim dövrlərdən mal-qaraları ilə yay aylarında Dərələyəzin Top meşə, Sandıqlı, Muradtəpə, İstisu, Qırx bulaq,Yanıq təpə, Dəmirli təpə, Əyricə dağı, Hacı Məhəmməd Ağa yeri, Göydağ, Ala göllər, Canı, Qara qaya kimi qədim türk yurdu olan ərazilərinə köç edir, payız aylarının axırlarında isə yenidən qışlamaq üçün arana enirdilər. Dərələyəz kimi dağ rayonlarının maldarlıqla məşğul olan əhalisi isə mal-qarasını qışdan sağ-salamat çıxarmaq üçün Şərur və Naxçıvan kimi aran rayonlarına gəlirdi. Beləliklə, dağlı-aranlı olan qədim Oğuz yurdları daim biri-biri ilə əlaqə yaradırdı. Lakin XIX əsrin ilk onilliklərindən başlayaraq rus hökumətinin himayəsi ilə bu yerlərə ermənilər köçürüldü və yerli əhali sıxışdırıldı.

Çar Rusiyası Naxçıvan xanlığını işğal etdikdən sonra bölgənin təsərrüfat həyatına diqqət yetirməyə başladı. Qeyd edək ki, çarizmin iqtisadi siyasəti, hər şeydən əvvəl, onun siyasi mahiyyətindən irəli gəlirdi. Bu siyasətin əsas məqsədi isə regionda öz ağalığını möhkəmlətmək məqsədinə xidmət edirdi. Hələ 1827-ci ildən başlayaraq çar hökuməti ələ keçirdiyi ərazilərin təbii xammal mənbələrini öyrənib, bu yerləri özünün daxili bazarına çevirmək üçün başda qraf Konqrinin olmaqla müxtəlif ixtisaslı mütəxəssislərdən ibarət komissiyanı ayrı-ayrı ərazilərə, o cümlədən Naxçıvan bölgəsinə də göndərmişdi.

Hökumətin yaratdığı komissiyanın yeddi illik tədqiqatından sonra hazırladığı "Обозрение Российских владений Кавказа в статистическом, этнографическом, топографическом и финансовом отношениях" (1836-cı il) adlı dörd cildlik rəsmi sənəddə vurğulanırdı ki, Zaqafqaziya xalqlarına nə universitetlər, nə də institutlar lazım deyil. Komissiyanın əsas vəzifəsi bölgələrin təbii xammal

mənbələrini, ticarət əkinçiliyi üçün yararlı və məhsuldar torpaqları, ümumiyyətlə, gəlir gətirə biləcək sahələri öyrənib hökumət üçün təkliflər hazırlamaqdır. Bununla da çarizm ucqarlarda ticarət əkinçiliyini inkişaf etdirib həmin sahənin məhsullarını Mərkəzi Rusiyanın sənaye müəssisələrinə daşımaq niyyətini güdürdü. Yuxarıda adı çəkilən sənəddə açıq şəkildə deyilirdi ki, "bu yerlər bizim koloniyamızdır" [172]. Yəni çarizm işğal etdiyi ərazilərə qazanc, səmərə baxımından və istismarçı mövqedən yanaşırdı. Yeri gəlmişkən, uzun illər boyu bu məsələyə birtərəfli yanaşılmış, guya Azərbaycanın könüllü şəkildə Rusiyaya birləşməsi kimi yanlış bir düşüncə tarixi tədqiqatlarda önə çəkilmiş, işğala müxtəlif bəzək vurulmuşdur. Çarizmin müstəmləkəçiliyə, ayrı-seçkiliyə yönələn siyasəti yada salınmamış, bu "birləşmənin" guya xalqımıza böyük tərəqqi gətirməsi kimi iddialar söylənilmişdir. Halbuki bunun işğal olduğunu digər müəlliflər də vurğulamışlar. F.Engels K.Marksa yazdığı 23 may 1851-ci il tarixli məktubunda Rusiyanın Şərq məsələsində slavyanpərəst namərdliyinə, murdarlığına və natəmizliyinə ayrıca diqqət yetirmişdi. V.İ.Lenin isə XIX əsrin sonlarında yazırdı ki, Qafqaz Rusiyaya birləşdirildikdən sonra qızğın surətdə müstəmləkələşdirilirdi.

Naxçıvanın XIX əsrdəki təsərrüfat həyatını araşdırarkən də çarizmin müstəmləkəçilik siyasətinin ən müxtəlif təzahürləri görünür. XIX əsrdə Naxçıvanın kənd təsərrüfatında taxılçılıq, maldarlıq, heyvandarlıq, bağçılıq, üzümçülük, ipəkçilik, pambıqçılıq, tütünçülük əsas yer tuturdu.

Tədqiqatçıların yazdığına görə, "Naxçıvan xanlığında kənd təsərrüfatının əsas sahəsi taxılçılıq idi. Demək olar ki, əhalinin əksəriyyəti taxılçılıqla məşğul olurdu. Hətta bəzən maldarlar da öz şəxsi istifadələri üçün taxıl əkirdilər" [28, s. 34]. Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əhalisi müxtəlif iqlim şəraitinə malik olan ərazilərdə yaşadıqlarından kənd təsərrüfatının yerli şəraitə uyğun sahələri ilə məşğul olurdular. Taxılçılıq və bağçılıq aran rayonların əhalisinin əsas məşğuliyyəti olsa da, dağ rayonlarında yaşayan əhali də maldarlıqla yanaşı, müəyyən qədər taxılçılıqla məşğul olurdu. Çünki taxılçılıq məhsulları istər aran, istərsə də dağ rayonlarında yaşayan insanların zəruri qida məhsulu sayılırdı.

Taxıl məhsulları içərisində buğda xüsusi rola malik idi. Buğda yazda və payızda əkilirdi. Yazda-mart ayının sonunda əkilən buğdanı iyunun sonu – avqustun əvvəllərində, payızda – sentyabr ayında əkilən buğdanı isə Novruz bayramından yüz gün sonra, iyunun ortalarında yığırdılar. Naxçıvan əyalətinin statistik təsvirinə dair qaynaqda Rusiya işğalı ərəfəsində burada on min xalvar (1 xalvar = 20 pud = 327,6 kq – ***red.***) buğda toplanıldığı bildirilir. Ordubadda da buğda əkini geniş yayılmışdı [130, s. 86-191].

Buğda ilə yanaşı, arpa və çəltik də əkilirdi. İşğal ərəfəsində təxminən 300 min pud arpa yığılmışdı [203, s. 1211-1215]. Çəltik may ayında əkilir, oktyabr və noyabr aylarında məhsul verirdi. Çəltik suyu çox olan yerlərdə əkilirdi. 1828-ci ildə bölgədə 500 xalvar, yaxud on min pud çəltik toplanmışdı [187, s. 191].

Əldə olan materiallar əsasında Naxçıvan bölgəsində istehsal olunmuş taxıl məhsullarının Azərbaycan üzrə ümumi məhsulda payını müəyyənləşdirmək olar [130; 172; 203 və s.]. Faktlardan aydın olur ki, Rusiya işğalının başa çatması dövründə Azərbaycanın şimalında yerləşən səkkiz xanlıqda 12.632.600 pud taxıl məhsulları (buğda, arpa, çəltik, darı) istehsal olunmuşdu. Onların içərisində buğda istehsalı 65,77 %, arpa istehsalı 22,48 %, çəltik istehsalı 9,96 %, darı istehsalı 1,78 % təşkil edirdi. Naxçıvan xanlığı buğda istehsalında 5-ci (7,22 %), arpa istehsalına görə 4-cü yerdə (10,56 %) dururdu.

XIX əsrin ortalarında Şimali Azərbaycanda, o cümlədən Naxçıvanda taxıl məhsulları istehsalında nisbi irəliləyiş baş verir. Naxçıvan bölgəsində taxıl və digər kənd təsərrüfatı məhsullarının istehsalı dinamikasını izləmək üçün onun inzibati bölgüsündə baş verən dəyişikliyi də nəzərə almaq lazımdır. Naxçıvan bölgəsinin torpaqları yeni inzibati bölgüyə görə, Naxçıvan qəzası və Şərur-Dərələyəz qəzasının Şərur sahəsini əhatə edirdi. Lakin qaynaqlarda bütün hesablamaların qəzalar üzrə aparılması bu baxımdan müəyyən çətinlik törədir. Araşdırmalar göstərir ki, Şərur-Dərələyəz qəzasının Dərələyəz bölgəsi dağlıq ərazi olduğundan burada, əsasən, maldarlıq inkişaf etmişdi. Taxılçılıq, demək olar ki, bütünlükdə Şərurda yerləşirdi. Ona görə də bütövlükdə Naxçıvanda taxıl istehsalı vəziyyətini müəyyənləşdirmək üçün Naxçıvan qəzasına və Şərur-Dərələyəzə aid göstəriciləri üst-üstə gəlmək lazımdır. Belə bir hesablama nəticəsində 1870-1875-ci illərdə orta hesabla Naxçıvan bölgəsində 3.072.000 pud, 1880-1885-ci illərdə 2.216.335 pud, 1886-1890-cı illərdə 3.109.397 pud, 1891-1895-ci illərdə 3.430.030 pud, 1896-1900-cü illərdə 3.526.670 pud taxıl məhsulları (buğda, arpa və düyü) istehsal edildiyini müəyyənləşdirmək olar [200, s. 20]. Bu rəqəmlərdən görünür ki, 1870-1900-cü illər arasında ən yüksək istehsala 1896-1900-cü illərdə nail olunmuşdur. Əvvəlki dövrlərdə olduğu kimi, taxılçılıq məhsulları içərisində buğda, arpa və çəltik əsas yer tuturdu. Bununla bərabər, pərinc, darı, vələmir, noxud, kartof da əkilirdi. Buğda becərilməsi ilə bütün bölgədə məşğul olurdular. Arpa istehsalı isə, əsasən, Naxçıvan qəzasında idi. Düyünü Şərurda becərirdilər.

Naxçıvanda taxılçılığın inkişafında bir sıra problemlər də özünü göstərirdi. Onların içərisində süni suvarma vasitələrinin kifayət etməməsi, əmək alətlərinin köhnəliyi, təbii fəlakətlər, kəndli torpaqlarının azlığı və b. şərtlər əsas yer tuturdu [200, s. 22].

Naxçıvan bölgəsinin kənd təsərrüfatında əkinçilikdən sonrakı yeri maldarlıq və heyvandarlıq tuturdu. Bu sahələr istər xanlıq dövrünün axırlarında, istərsə də Rusiya işğalından sonrakı mərhələdə iqtisadiyyatda vacib rol oynayırdı. Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzasının Dərələyəz əyaləti yay aylarında özünün sərin, təmiz havası, bərəkətli və geniş ərazisi, təbii su mənbələri baxımından maldarlıq və heyvandarlığın inkişafı üçün çox əlverişli idi. Şərur əyaləti isə payız və qış aylarında sərt və soyuq iqlim şəraiti olan Dərələyəzin maldarlıq təsərrüfatını

öz ərazisində qışlağa qəbul edirdi. Onu da qeyd edək ki, Dərələyəz yaylaqlarına yalnız Şərur və Naxçıvan ərazilərindən deyil, Yelizavetpol quberniyasından da mal-qara sürüləri gətirilirdi [169, s. 21-64].

XIX əsrdə maldarlıq və heyvandarlıqla məşğul olma səviyyəsinə görə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əhalisini üç qrupa ayırmaq mümkündür. Birinci qrup kəndlilər başlıca olaraq Naxçıvan qəzası və Şərur əyalətində yaşayırdılar. Onlar yalnız əkin sahələrini becərmək və öz tələbatlarını ödəmək məqsədi ilə az sayda mal-qara saxlayırdılar. Çünki buranın bütün aran ərazilərində yazın axırlarında, eləcə də yay fəslində havaların həddən artıq isti keçməsi nəticəsində otlaqlar tez quruyub məhv olduğundan maldarlığın inkişafı üçün münasib iqlim şəraiti yox idi. Belə aran zonalarında yaşayan kəndlilərin adətən bir neçə baş qoyunu və ya bir inəyi olurdu. Mövcud mal-qaranın əksəriyyəti isə iri, varlı kəndlilərin təsərrüfatında cəmlənmişdi.

İkinci qrupu isə birinci qrupa nisbətən əkinçiliklə bərabər, daha çox maldarlıq və heyvandarlıqla məşğul olan əhali təşkil edirdi. Bu cür kəndlilər əsasən dağ ətəyi bölgələrdə, birinci qrupa nisbətən əkinçilik üçün o qədər də əlverişli şəraiti olmayan ərazilərdə (Ordubad, Culfa, Sirab, Nehrəm, Cəhri, Şahbuz və s.) yaşayırdılar.

Üçüncü qrupa daxil olan əməkçilər isə, əsasən dağ rayonlarında yaşadıqlarından onların əsas məşğuliyyətləri maldarlıq və heyvandarlıq idi. Bu qrup əhali başlıca olaraq Dərələyəz mahalında məskən salmışdı. Naxçıvan qəzası və Şərur əyalətinin dağ kəndlərində yaşayıb, köçürmə həyat tərzi keçirənlər də buraya daxil idi. Naxçıvan qəzasının Sust, Təzəkənd, Şahbuz kəndlərində demək olar ki, əhalinin hamısı maldarlıq və heyvandarlıqla məşğul olurdu. Beləliklə, əhalinin sadalanan hər üç qrupunun yaşadıqları ərazilərin ozünəməxsus spesifik xüsusiyyətlərini nəzərə alıb ümumi fikir söyləmək mümkündür ki, maldarlıq və heyvandarlıqla məşğul olan əhalinin əksəriyyəti ikinci və üçüncü qrupa aid olanlar idi. Həmin kateqoriyadan olan kəndlilərin həyatında əsas yeri bu sahə tutduğu üçün onlar nəinki öz ehtiyaclarını təmin edir, hətta əlavə məhsullarının satışı ilə də məşğul olurdular. Sahibkarlar canlı mal-qara, ət, süd, pendir, yağ, şor, dəri, gön, yumurta kimi məhsulları bazara çıxarıb ticarətlə məşğul olurdular. Əlbəttə ki, burada əsas yeri minlərlə qoyuna, yüzlərlə mal-qaraya sahib olan mülkədar, bəy və varlı kəndlilər tuturdular. Onlar bu qədər mal-qaraya baxmaq üçün yüzlərlə muzdur saxlayırdılar [179, s. 18]. Bir və ya iki baş mal-qarası olan yoxsul kəndlilər isə yaylaqlardan sərbəst istifadə etməkdə çətinlik çəkirdilər. Belə ki, əgər XIX əsrin birinci yarısına qədər bu yerlər ümumi icmanın ixtiyarında idisə, həmin əsrin 80-ci illərindən yaylaqlardan istifadə etmək hüquqları haqqında tətbiq olunan qayda nəticəsində burada da əsas hökmranlıq iri sahibkarların əlinə keçmişdi. Odur ki, ayrı-ayrı kəndli təsərrüfatları həmin yaylaqlardan istifadə etmək üçün hər desyatin yaylaq torpağına 8-13 qəpik pul verməli idilər [169, s. 22]. Buna imkanı çatmayanlar bəy,

mülkədar və digər iri mülkiyyət sahiblərinin sürülərini və mal-qarasını saxlayır, onların ailə üzvləri isə varlıların heyvandarlıq məhsullarının emalına cəlb olunur, bunun müqabilində yaylaqlardan istifadə hüququ qazanırdılar. Bir sıra hallarda isə yoxsul kəndlilər yaylaqları ağır şərtlərlə və baha qiymətə icarəyə götürmək məcburiyyətində qalırdılar. Bu şərtlərə gücü çatmayıb yay aylarında da aranda qalmağa məcbur olan kəndlilərin mal-heyvanı tez-tez tələf olurdu.

Sonrakı inzibati-ərazi bölgülərində Dərələyəz Naxçıvan bölgəsinin hüdud-larından kənarda qaldığından biz Naxçıvan, Ordubad və Şərurda heyvandarlıq və maldarlığın inkişaf vəziyyətini nəzərdən keçirəcəyik. Həmin qəzalarda qoyun-keçi və qaramal (inək, camış, kəl və öküzlər) saxlayırdılar. Bunlardan əlavə, ulaq, at, qatır, dəvə və donuz da saxlanılırdı. Donuzçuluqla yerli əhali deyil, qeyri-müsəlman olan gəlmələr məşğul olurdular [169, s. 78]. Qoyun və keçilərin saxlanılmasında başlıca məqsəd bu heyvanların yağ və ətindən istifadəyə yönəlmişdi. Yerlərdə sənaye sahələri zəif inkişaf etdiyinə görə yun, dəri, süd məhsulları ikinci dərəcəli rol oynayırdı. Bundan başqa, qoyunçuluqla məşğul olan kəndlilər palaz, gəbə, xurcun, sicim, mərfəş, çatı kimi ev, məişət əşyaları toxuyub bazarda satırdılar. Təsadüfi deyil ki, Naxçıvan qəza rəisi qubernatora hesabatında yazırdı: "...bu qəzanın bütün kəndlərində gəbə toxuma sənəti geniş yayılmaqla özünə böyük şöhrət qazanmışdır. Düzdür, burada işlədilən dəzgahlar Moskvadakı toxuculuq dəzgahları ilə rəqabətə girə bilməsə də, məhsullar xarici bazarda da diqqətəlayiq yer tutur. Gəbə toxuma işi xüsusən yaxınlıqdakı Tumbul, Qaracuq, Qaraxanbəyli kimi kəndlərdə geniş yayılıb" [88, s. 21-23].

Tək-tək kəndli təsərrüfatlarında, məsələn, Karmanilovka (Biçənək – ***red.***) kəndində, eləcə də şəhərdəki rus ailə təsərrüfatlarında hələ XIX əsrin 40-cı illərində Rusiyadan gətirilib burada artırılan cins merinos qoyunların zərif yunu əldə edilirdi. Lakin məhsuldarlıq az olduğundan bu yundan yalnız ailə təsərrüfatlarında istifadə edilirdi.

Ümumiyyətlə, Naxçıvan regionunda qoyunçuluğun maldarlığa nisbətən üstün mövqe tutmasının səbəbi geyim üçün yundan hazırlanan toxunma paltar, corab və sairəyə tələbatın çoxluğu, qoyunun fiziki cəhətdən dözümlülüyü və sax-lanılması üçün az yem tələb olunması ilə əlaqədardır. Qoyunun dəyəri də kəndli üçün əlverişli idi. Yoxsul kəndlilərin qaramala nisbətən qoyun və keçi əldə etməyə az-çox imkanı çatırdı. O zaman qoyunu 2-3 manat 50 qəpiyə, erkəyi 6-8 manata, keçini 3-4 manat 50 qəpiyə almaq mümkün idi. Bölgənin aran ərazilərində kifayət qədər otlaqların olmaması, dağ rayonlarında isə qışın uzun müddət davam etməsi ilə əlaqədar maldarlıq lazımınca inkişaf edə bilmirdi. Heyvanlar arıq və az südlü olduğu üçün əhalinin tələbatını da tam ödəmirdi. Otun keyfiyyəti nəticəsində südün yağlılıq dərəcəsi Mərkəzi Rusiya cinsindən olan inəklərlə müqayisədə yüksək olsa da, yerli inəklər il ərzində çox az, cəmi 45-75 vedrə həcmində süd verə bilirdilər [179, s. 118]. Öküz və kəllər gücsüz olduqlarından nisbətən saz

yollarda araba qoşqusunda 2 baş, yararsız yollarda isə 3-4 baş öküz və ya kəldən istifadə olunurdu. İnəklər 12-29 manata, kəllər isə 25-45 manata satıldığından əksər kəndlilərin bunları almağa imkanları çatmır, nəticədə çox vaxt onlar əkinçilikdə və qoşqu vasitələrindən istifadə olunmasında iri mülkədarlar və bəylərdən asılı vəziyyətə düşürdülər.

Təsərrüfatda atçılığın da xüsusi yeri var idi. Bu bölgəyə köçürülmüş rus-malokan kəndlilərindən fərqli olaraq yerli əhali atdan təkcə qoşqu vasitəsi kimi deyil, həm də minikdə və yük daşınmasında daha çox istifadə edirdi [179, s. 118]. Naxçıvan regionunda daha çox köhlən adı ilə tanınan at cinsi daha məşhur idi. Bu at cinsi baha olduğundan ondan yalnız varlı şəxslər istifadə edə bilirdilər. Naxçıvan və Şərur-Dərələyəz qəzalarında qatır və ulaq kimi iş heyvanları da geniş yayılmışdı. Qeyd edək ki, Rusiya işğalı ərəfəsində bütövlükdə Naxçıvan dairəsində 96.733 baş mal-qara var idi. Onlardan 89.725 başı (92,7 %) iri və xırda buynuzlu heyvan, 7048 başı (7,3 %) isə nəqliyyat heyvanı idi [179, s. 118].

Naxçıvanın tarixi coğrafiyasına dair tədqiqatda deyilir ki, bəhs olunan dövrdə maldarlıq sahəsində Ordubad bölgəsindəki şərait Naxçıvan bölgəsindəki kimi olsa da, heyvanların miqdarı baxımından Naxçıvan bölgəsi xeyli irəlidə idi. Dəvələrin sayını çıxmaq şərti ilə heyvanların və mal-qaranın ümumi sayı (buynuzlu heyvanların 69 %-i, nəqliyyat heyvanlarının 74,4 %-i, öküz və camışların ümumi sayının 89,3 %-i, qoyun, qoç və keçilərin 60 %-i, atların 88,7 %-i, ulaqların 61,5 %-i) üzrə çoxluq Naxçıvan bölgəsinin payına düşürdü

Maldarlıq və heyvandarlıq əhalini həm ağartı məhsulları (süd, qatıq, pendir və s.), həm də sənətkarlıq üçün zəruri olan xammal (yun, dəri və s.) ilə təmin edirdi. Əldə olan faktik materiallar XIX əsrin 20-30-cu illərində Naxçıvan dairəsində bu sahənin inkişafının Şimali Azərbaycan üzrə müqayisəli vəziyyətini təxmini də olsa müəyyənləşdirməyə imkan verir. Naxçıvan əyalətinin o zamankı statistik təsvirinə dair məlumatlara görə, Naxçıvan dairəsində 10.000-ə qədər iri buynuzlu heyvan, 15.000 qoyun-keçi, 1500 at var idi [179, s. 118]. Həmin dövrdə Qubada 110.000, Qarabağda 100.000, Yelizavetpol dairəsində 87.000, Şirvanda 77.600, Şəkidə 50.000, Bakıda 20.000, Lənkəranda 12.000 iribuynuzlu heyvan olmuşdur. Naxçıvan dairəsi ilə birgə bu göstərici 466.000 təşkil edirdi. Deməli, Naxçıvan dairəsindəki iribuynuzlu heyvanlar Şimali Azərbaycandakı göstəricinin 2,14 %-ni təşkil edirdi. Əslində Naxçıvan əyaləti üzrə bu göstərici daha yüksək idi. XIX əsrin 40-50-ci illərinə aid olan məlumata görə, Naxçıvan bölgəsinin bir hissəsini əhatə edən Naxçıvan qəzasında 20-25 min baş iribuynuzlu heyvan, 3-4 min baş at var idi. Qoyun və keçilərin sayı haqqında isə məlumat əldə edilməmişdir [79; 85; 86; 88; 134; 148; 179; 186].O illərin təsərrüfat həyatı barədə "Qafqaz təqvimi"nin müxtəlif illərə aid buraxılışları və bəzi digər qaynaqlar da müəyyən material verir [139; 140; 141; 142; 146; 173].

XIX əsrin ikinci yarısında Naxçıvan bölgəsinin heyvandarlıq və maldarlıq

təsərrüfatında müəyyən inkişaf özünü göstərmiş, iri və xırdabuynuzlu mal-qaranın sayı artmışdı [191]. Bu vəziyyət XIX əsrin 70-90-cı illərində də davam etmişdi. Ümumilikdə bütün bölgədə olan mal-heyvanın kəmiyyətini tam şəkildə müəyyənləşdirmək mümkün olmasa da, bəzi hesablamalar aparmaq mümkündür. Bunun üçün heyvanların ümumi sayının Naxçıvan qəzası üzrə tamını, Şərur-Dərələyəz qəzasında isə təxminən dörddə bir hissəsini (burada maldarlıq əsasən, Dərələyəz sahəsində idi) əsas götürərək ümumi vəziyyəti təsvir etmək olar. Qaynaqlardan aydın olur ki, 1870-ci ildə Naxçıvan qəzasında 123.079 qoyun və keçi, 23.505 öküz və kəl, 26.713 inək və camış, 2987 uzunqulaq və qatır, 6.659 at, 4.317 dəvə var idi. Qeyd etdiyimiz hesablama metodikası ilə Şərur-Dərələyəz qəzasının Şərur sahəsində bu göstəricilərin müvafiq olaraq təxminən 36,4 min, 7,1 min, 12,6 min olduğunu deyə bilərik. XIX əsrin sonlarına doğru bölgədə müvafiq göstəricilərin bəziləri aşağı düşmüş, digərləri isə müəyyən qədər artmışdı [151; 152].

Aşağıdakı cədvəldə tədqiq olunan qəzalarda heyvandarlığın və maldarlığın ayrı-ayrı sahələrinin vəziyyətini əks etdirən məlumat verilmişdir. Bu sahə üzrə o zaman daimi və vaxtaşırı dəqiq hesablamalar, yoxlamalar keçirilmədiyindən bütün illər üzrə məlumat əldə etmək mümkün olmamışdır və əldə edilən ayrı-ayrı mənbələrdə bir sıra uyğunsuzluqlar mövcuddur.

Naxçıvan və Şərur-Dərələyəz qəzalarında xırdabuynuzlu və iribuynuzlu mal-qara haqqında məlumat

İllər	Qəzalar	Qoyun və keçilər	Öküz və kəllər	İnək və camışlar	Uzunqulaq və qatırlar	Atlar	Dəvələr	Donuzlar
1870	**Naxçıvan**	123079	230505	26713	2987	6659	4317	360
1888		36720	3241	8148	1628	1027	198	-
1891		71000	4042	8000	7300	12000	115	-
1892		64200	2993	8157	4880	1050	65	-
1893		17312	3057	20574	7145	9062	270	70
1896		103298	17552	11641	6817	4083	176	53
1897		101311	17631	11760	6347	4027	187	47
1899		122518	17713	12206	6562	4114	190	38
1900		129110	11632	13755	5932	4196	233	122
1870	**Şərur-Dərələyəz**	145582	28237	50258	5331	7027	694	-
1888		104544	14871	18744	4137	1204	439	-
1891		133052	23276	10616	2471	6192	631	-
1892		145435	27624	50472	5204	6915	640	-
1896		174331	46517	57417	2380	6061	637	-
1897		163228	46111	36716	2274	6127	621	-
1898		175700	46700	57650	2480	6080	640	-
1899		79400	13980	32600	3899	6140	983	-
1900		186026	37790	38852	3407	7620	671	-

Mənbə: [179, s. 286-288]

Onların yoxlanılması, tutuşdurulması əsasında mümkün qədər düzgün nəticələr əldə etməyə cəhd göstərilmişdir. Cədvəldən göründüyü kimi, 1870-1900-cü illərdə Naxçıvan qəzasının mal-qara təsərrüfatında əsas yeri xırdabuynuzlu

heyvanlar tuturdu. Onların illik sayı orta hesabla 72904 baş olmaqla ümumi heyvanların 68 faizini təşkil edirdi. Qəzada ümumi mal-qaranın sayı orta hesabla ildə 107434 başa çatırdı və 1897-ci ildəki əhali sayı nəzərə alınmaqla hər yüz nəfərə 106 baş mal-qara düşürdü.

Şərur-Dərələyəz qəzasında da xırdabuynuzlu heyvanlar üstünlük təşkil edirdi. Qəzada 145255 baş xırdabuynuzlu, 66452 baş iribuynuzlu heyvan, 3509 uzunqulaq və qatır, 5930 at, 664 dəvə qeydə alınmışdı. 1897-ci ildəki əhali sayını nəzərə almaqla əhalinin hər yüz nəfərinə isə 292 baş heyvan düşürdü.

Bölgənin təsərrüfat həyatında qoşqu heyvanları da əhəmiyyətli sayılırdı. Lakin yoxsul kəndlilər qoşqu heyvanlarının azlığından əziyyət çəkirdilər. Torpağın bərk və yumşaqlığından asılı olaraq əkiləcək yerləri şumlamaq üçün 10 öküz və ya 3-4 baş kəl tələb olunmasına baxmayaraq, kəndlilər bunlardan, demək olar ki, məhrum idilər. Belə ki, 1892-ci ildə Naxçıvan qəzasında hər 100 təsərrüfatdan yalnız 17-sinin belə imkanı var idi. Nəticədə əksər kəndlilər ehtiyaclarını ödəmək üçün kəsbkarlığa getməyə, öz əməyini başqasına satmağa məcbur qalırdılar. Belə vəziyyət Şərur-Dərələyəz qəzasında da müşahidə olunurdu.

Mal-qaranın kəndli təsərrüfatında əsas iqtisadi göstəricilərdən biri olmasına baxmayaraq, onun hər adam başına düşən sayına görə kəndlilərin acınacaqlı vəziyyətini etiraf etməyə məcbur olan bir çar iqtisadçısı yazırdı ki, Nehrəm kəndi əkinçilk nöqteyi- nəzərincə geridə qalmış, maldarlıq isə əhalinin sayına görə yox dərəcəsindədir. Bu kənddə 2000 nəfərdən artıq adam yaşamasına baxmayaraq, atların sayı 40, ulaqların sayı 80, camışların sayı 400, öküzlərin sayı 500, inəklərin sayı 129, dəvələrin sayı 22, keçi və qoyunların sayı isə ancaq 1500 başa çatır [191, s. 195].

1897-ci ildə Naxçıvan qəzasında 11760, Şərur-Dərələyəz qəzasında isə 56176 [148, s. 72-73] baş inək və camışlardan birinci qəzanın hər yüz nəfərinə 12 baş, ikincisində isə 48 baş düşürdü.

Azərbaycanın başqa qəzalarına nisbətən Naxçıvan və Şərur-Dərələyəz qəzalarında atların sayı az idi, burada əsasən yerli at cinsləri bəslənirdi. Düzdür, Şərur-Dərələyəz qəzasının Söylən (Ermənistanın indiki Vayk, keçmiş Əzizbəyov rayonu – ***red.***) kəndindəki at təsərrüfatında 126 baş at, o cümlədən 2 ayğır və 62 madyan [169, s. 12] bəslənilib, at cinslərinin yaxşılaşdırılmasına təşəbbüs göstərilsə də, bu, geniş yayılmamışdı. Hər iki qəzada ümumi atların sayı orta hesabla 10984 başa çatırdı.

Tədqiq olunan qəzalarda qoşqu atının qiyməti 20-40 və ya 60-100, minik atının qiyməti isə 300 [148, s. 14] manat olduğundan yoxsul kəndlilər bunu almaq imkanından məhrum idilər. 1883-1884-cü illərdə Naxçıvan qəzasında cəmi 1814, Şərur-Dərələyəz qəzasında isə 3218 at qeydə alınmışdı. Naxçıvan qəzasında ümumi atların 1424-ü kənd icmasının, 202-si iri torpaq sahibkarlarının, 188-i isə şəhər sakinlərinin payına düşürdü. Ümumilikdə bu qəzanın hər 100 nəfərinə 25 at

düşürdü. Şərur-Dərələyəz qəzasında isə atların 249-u bəy və mülkədarların, 2978-i isə icmanın idi. Deməli, burada əhalinin hər 1000 nəfərinə 53 at düşürdü [143, s. 278].

Beləliklə, əgər 1884-1885-ci təsərrüfat ilində Naxçıvan qəzasında olan 12266, Şərur-Dərələyəz qəzasındakı 8435 təsərrüfatdan [150, s. 43] ata sahib olan bəy, mülkədar, şəhər və kəndli həyəti var idisə, Naxçıvan qəzasında 10452, Şərur-Dərələyəz qəzasında isə 5217 kəndli həyəti atsız qalmışdı.

1900-cü ildə Naxçıvan qəzasında 4396 at var idi. Tədqiq olunan dövrün əvvəllərində isə, yəni 1870-ci ildə qəza atların sayı 6659 olmuşdu. Deməli, atçılıqda da gerilәmə baş verdiyindən onların sayı 2463 baş azalmışdı. Şərur-Dərələyəz qəzasında isə XIX əsrin 80-ci illərinin axırlarına nisbətən 1900-cü ildə atların sayı 593 baş azalmışdı.

Azərbaycanın başqa qəzalarına nisbətən Naxçıvan və Şərur-Dərələyəz qəzalarında dəvə daha çox işlədilirdi. Naxçıvan və Şərurun dəmir yollarından uzaq düşməsi, at, qatır, ulaq və iribuynuzlu heyvanlarla ağır yüklərin daşınması üçün əlverişli yolların olmaması bunun üçün daha yararlı olan dəvəçiliyin genişlənməsinə şərait yaratmışdı. Bu yerlərin İran, Türkiyə ilə ticarət əlaqələrində dəvədən istifadə olunurdu.

Ümumiyyətlə, Naxçıvanda mal-qaranın əksəriyyəti kənd varlılarının əlində cəmlənmişdi. Araşdırmalardan məlum olur ki, 1888-ci ildə hər təsərrüfata Naxçıvan qəzasında 16,2, Şərur-Dərələyəz qəzasında 27, 32 baş [143, s. 285], əhalinin hər yüz nəfərinə isə uyğun olaraq 224 və 310 baş mal-qara düşürdü. Naxçıvan qəzasında kənd varlılarına iribuynuzluların 22,39 faizini, xırdabuynuzluların 72,18 faizi, at, uzunqulaq və qatırların 5,22 faizi, dəvələrin isə 0,21 faizi [184, s. 298-299] məxsus idi. Şərur-Dərələyəz qəzasında isə varlılar iribuynuzluların 23,35 faizini, xırdabuynuzluların 72,63 faizini, at, uzunqulaq və qatırların 3,71 faizini, dəvələrin isə 0,31 faizini [90, s.300] öz əlində cəmləşdirirdi. Təhlillər göstərir ki, XIX əsrdə Naxçıvan qəzasında heyvandarlıq məhsulları ailəyə sərf olunacaq zəruri tələbatdan kənara çıxıb kapitalist əmtəəsinə çevrilirdi. Artıq heyvandarlıq məhsullarının satışa çıxarılması isə, şübhəsiz ki, iri maldar təsərrüfatları hesabına idi. Əhalinin əksəriyyətini təşkil edən yoxsul kəndlilər və ortababların bir hissəsi qoşqu heyvanları almaq imkanları olmadıqlarından və ya azsaylı heyvanlar vasitəsilə torpağı lazımi səviyyədə əkib becərə bilmədiklərindən onlar kiçik pay torpaqlarını imkanlı sahibkarlara icarəyə verirdilər. Varlı kəndli təsərrüfatlarında isə torpaq sahələrini xeyli genişləndirdiklərinə görə onu becərmək üçün ailə üzvlərindən əlavə işçi qüvvəsi tələb olunurdu. Bu cür işçi qüvvəsi məhz qoşqu vəsaiti çatışmadığından ailəsini dolandırmaq xatirinə torpağını öz həmkəndlisinə icarəyə verən və əməyini həmin təsərrüfat sahibinə satmaq məcburiyyətində qalan aşağı qrup kəndlilərdən ibarət olurdu. Beləcə, kənd təsərrüfatında kapitalist münasibətləri zəif də olsa inkişaf etməkdə idi.

Naxçıvanın kənd təsərrüfatında bağçılıq, üzümçülük və şərabçılıq da mühüm

yer tuturdu. Naxçıvan və Şərur-Dərələyəz qəzalarında bağçılığın inkişafını şərtləndirən başlıca amillər bu yerlərin əlverişli iqlim şəraitinə malik olması, hələ ən qədim dövrdən yerli əhalinin qazandığı müvafiq təcrübə, bağçılığın genişləndirilməsi və məhsuldarlığının artırılmasının şərabçılıq, araqçəkmə, ipəkçilik, ayrı-ayrı meyvələrin konservləşdirilməsi kimi əlavə gəlir gətirən sahələrə təsiri ilə əlaqədardır. Bundan başqa, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının Rusiya tərəfindən işğalından sonra, xüsusən XIX əsrin 70-ci illərindən başlayaraq Mərkəzi Rusiya quberniyalarının bu yerlərin keyfiyyətli və çoxsaylı meyvə növlərinə olan tələbatı da həmin ərazilərdə bağçılıq təsərrüfatının inkişafına təkan vermişdir. Bütün bunlarla yanaşı, əlbəttə ki, toplanılmış və təzə qurudulmuş meyvələrin qəza daxilində, eləcə də ondan kənar ərazilərdə aparılıb satılması, yaxud taxılçılıq və mal-qara məhsullarına dəyişdirilməsi də həmin sahənin inkişafına təsirsiz qalmamışdır. Bəhs olunan ərazilərin bu dövrdə dəmir və su yollarından, eləcə də mərkəzi şəhərlərdən uzaqda yerləşməsi meyvələrin tər şəkildə aparılıb satılmasına maneçilik törədirdisə, 1865-ci ildən "Çar yolu" adlandırılan İrəvan-Culfa şose yolunun inşasına başlanılıb onun istifadəyə verilməsi sonralar az da olsa, Naxçıvan qəzasından Cənubi Qafqazın mərkəzi şəhərlərinə, buradan isə Rusiyanın ayrı-ayrı rayonlarına meyvə daşınması işini yaxşılaşdırmışdı.

Bağçılıq təsərrüfatı əsasən iki sahəni əhatə edirdi. Bunlardan biri meyvə, digəri isə üzüm bağları idi. Naxçıvan və Şərur-Dərələyəz qəzalarında bağçılıq təsərrüfatını onun inkişaf və əhatə etdiyi sahəsinə görə üç rayona: Ordubad, Naxçıvan və Şərur əyalətlərinə [179, s. 185] bölmək olar. Nəinki Azərbaycanda, hətta bütün Cənubi Qafqazda [167, s. 14] və Rusiyanın mərkəzi şəhərlərində müxtəlif növlü, dadlı və ətirli meyvələri ilə özünə böyük şöhrət qazanmış Naxçıvan qəzasının Ordubad əyaləti bu sahədə müstəsna rol oynayırdı. Naxçıvan qəzasının təsərrüfatları ilə tanış olan məmurlardan biri buranın sağlam iqlim şəraiti və geniş meyvə bağları ilə örtüldüyündən bəhs edərək yazırdı ki, "Ordubad əyalətini dünyanın cənnəti adlandıran Naxçıvan əhalisi, həqiqətən də, yanılmamışdır. Buranı gəzərkən hər addımda sağlam sifət, xəstəliklərin tək-tək hallarda baş verməsini görürsən, insanlar təmiz dağ havası udub, dünyanın ən keyfiyyətli meyvələrini mənimsəməklə özlərini xoşbəxt sayırlar" [130, s. 19-191]. Ordubadın bağçılıq məhsulları təkcə daxili bazarlarda deyil, eləcə də Rusiyanın mərkəzi ticarət rayonlarında [148, s. 480-481] da özünəməxsus tələbat formalaşmışdı.

Ordubad əyalətində bağçılıq əsasən beş kiçik çay sahələrini əhatə edən torpaqlarda- Gilançay, Üstüpüçay, Dırnısçay, Əylisçay və Ordubadçay ərazilərində yerləşən kəndlərdə inkişaf etmişdi. Bu rayonlarda 12 dövlət kəndi [186, s. 14] bağçılıq təsərrüfatında xüsusilə fərqlənirdi ki, buraya da Kələki, Biləv, Gənzə, Parağa, Aşağı Əndəmic, Nüsnüs, Dırnıs, Behrud, Dehsər kəndləri və Ordubad şəhəri daxil idi. Ordubad əyalətindən sonra bağçılıq təsərrüfatının geniş yayıldığı yerlər Naxçıvan şəhəri, Arınc, Aşağı Remeşin, Cəhri, Şurut, Qazançı və başqa

kəndlər sayılırdı. Ümumiyyətlə, Naxçıvan rayonunun 47 dövlət kəndindən 31-də əsas yeri bağçılıq təsərrüfatı tuturdu. Bu sahə ilə məşğul olan kəndlərin meyvə ağacları isə əsasən Naxçıvançay və Əlincəçay suları ilə becərilirdi. Naxçıvan rayonuna daxil olan bağçılıq təsərrüfatında başlıca yeri Naxçıvan şəhəri tuturdu. Şəhər əhalisinin yarıdan çoxu bu sahə ilə məşğul idi. Burada ən böyük bağ üç sahibkarın - Hacı Mirzəlinin, İsmayıl xanın və Şahbaz xanın əlində cəmlənmişdi. Hər bir sahibkarın həmin təsərrüfatdan götürdükləri gəlirin miqdarı isə ayrı-ayrılıqda hər il orta hesabla 1700 manata [190, s. 59] çatırdı. 1870-ci il məlumatına görə, Naxçıvan qəzasında meyvə bağlarının sayı üzümlüklərlə birlikdə 6607 ədəd olub, 2180 desyatin torpaq sahəsini əhatə edirdi. Bundan başqa, burada bostançılıq da geniş yayılmışdı ki, bu sahəyə də dağ və aran rayonlarında olan 1296 desyatin torpaq sahəsi ayrılmışdı [179, s. 181]. Regionun bağçılıq təsərrüfatında Şərur-Dərələyəz qəzasının Şərur əyaləti də müəyyən yer tuturdu. Bu yerlərin bağçılığında isə suvarma işləri əsasən Arpaçay, ondan çəkilmiş arxlar və Araz çayı vasitəsilə aparılırdı.

Bütün quberniyanın bağçılığında Ordubad əyaləti yeganə ərazi idi ki, burada müxtəlif meyvə ağacları üçün xüsusi sahələr ayrılırdı [177, s. 58]. Daha doğrusu, buradakı meyvə ağacları Naxçıvan rayonunda olduğu kimi, üzüm kolları və müxtəlif meşə ağacları ilə eyni sahədə deyil, ayrıca sahədə becərilirdi.

Bəhs olunan ərazilərdə, o cümlədən Ordubad əyalətində meyvəçiliyin inkişafı üçün əlverişli iqlim şəraitinin olmasına baxmayaraq, bu sahədə məhsuldarlığın artırılmasına əngəl olan bir sıra ictimai-iqtisadi səbəblər davam etməkdə idi. Belə ki, bağçılıqda məşhurlaşmış ərazilərdə süni suvarmanın inkişaf etməməsi, vaxtaşırı güclü yağıntı nəticəsində dağ sellərinin təsərrüfatı yararsız hala salması təhlükəsinə qarşı əvvəlcədən tədbirlərin görülməməsi, daşqınlardan ziyan çəkmiş əhaliyə maddi yardımın edilməməsi, bağçılıq və bostançılığın inkişaf etdirilməsi üçün elmi biliklərin yayılmaması kimi səbəblər özünü göstərirdi. Bunlardan başqa, kəndli torpaqlarının azlıq təşkil etməsi, istehsalçıların ağır vergi və mükəlləfiyyətlərlə yüklənməsi, müxtəlif bitki xəstəliklərinə qarşı lazımi mübarizənin aparılmaması [177, s. 77-78], həddən artıq ağır icarə şərtləri, texnika və aqrotexnikanın tətbiq olunmaması kimi amillər də bağçılıq təsərrüfatının genişlənməsinə imkan vermirdi.

İri sahibkarların bağlarında bütün işləri kəndli ailələri görürdü, bəzən varlı sahibkarlar daimi bağbanlar saxlayırdılar. Bəzi bağ sahibləri isə bağlarını icarəyə verirdilər. Məsələn, Ordubad əyalətinin iri bağ sahibkarları bağbanın görəcəyi işin müqabilində bu sahədən əldə edilmiş məhsulun 1/3 və ya 2/3 hissəsini [177, s. 66] icarəyə yönəldirdilər. Sahibkarlar icarəyə verdiyi bağlardan 50-300 manat təmiz gəlir də əldə edirdilər [190].

Ordubad əyalətində meyvələrin toplanılıb tələb olunan səviyyəyə gətirilməsi müxtəlif yollarla həyata keçirilirdi. Meyvələr bəzən təzə-tər halında, bəzən qurudulmuş şəkildə bazara çıxarılır, bəzən də araq, sirkə, şərab və qoz yağı hazırlanmasında

istifadə olunur, artıq hissəsi isə müxtəlif tələbatların ödənilməsi üçün istifadə edilirdi. Məsələn, 1866-cı ildə Ordubad şəhərindən 1000 pud şaftalı, 1000 pud alma, 2000 pud ərik, 600 pud qoz, 500 pud armud və heyva, 30 pud alça və gilas, 250 pud almaxara, 80 pud albalı və 10 pud madaniya (naringi) [192, s. 229] toplanıb satışa çıxarılmışdı. Təkcə Biləv kəndindən 1894-cü ildə 1500 pud tut [153, s. 158], 1900-cü ildə isə 3000 pud [149, s. 79] müxtəlif meyvələr, Ordubad şəhərindən 15000 pud qurudulmuş tut, həmin dairənin Kələki, Biləv, Gənzə, Parağa və Aşağı Əndəmic kəndlərindən isə 15000 pud [148, s. 72] ərik qax halında Cənubi Qafqazın iri şəhərlərinə və mərkəzi Rusiyaya aparılmışdı.

Meyvə bağları sırasında alma ağacları xüsusilə geniş yayılmışdı.1899-cu ildə bu əyalətin Nüsnüs kəndindən 1000 pud, Kələkidən 1000 pud, Biləvdən 1500 pud, Gənzədən 1000 pud, Yuxarı Əndəmicdən 500 pud, Dırnısdan 1000 pud, Dehsərdən 500 pud [149, s. 79] alma toplanmışdı. Yığılmış meyvələrin bir hissəsi ailə təsərrüfatına sərf edilir, artıq qalan hissəsi isə yaş və ya qurudulmuş halda taxılçılıq və maldarlıqla məşğul olan rayonlara, eləcə də mərkəzi şəhərlərə aparılıb satılırdı.

Hasil edilmiş meyvələrin yaş və qurudulmuş formada ayrı-ayrı rayonlara daşınması Naxçıvan və Şərur-Dərələyəz qəzalarında da geniş yayılmışdı. Əsrin 80-ci illərinin axırında Naxçıvan qəzasından 42000 pud meyvə toplanmışdı ki, bunun da 29000 pudu yaş şəkildə, 13000 pudu isə qurudulmuş şəkildə satışa göndərilmişdi. Beləliklə, həmin il Naxçıvan qəzasının meyvə ağaclarından 55000 manat gəlir əldə edilmişdi. Şərur-Dərələyəz qəzasının meyvə bağlarından isə 1340 pud armud, 2695 pud alma, 9120 pud ərik, 180 pud şaftalı və hülü, 323 pud gilas, 4207 pud iydə, 1265 pud alça, 241 pud heyva, 1595 pud tut və nəhayət, 20 pud nar toplanmışdı ki, bunlardan da əldə edilən gəlir 6000 manat təşkil edirdi [168, s. 16-17]. Ərik, alça, şaftalı, albalı, alma və tutun qurudulması daha geniş şəkildə yayılmışdı. Qurudulmuş meyvələrin bir hissəsi müxtəlif çeşidli xörəklərdə, digər hissəsi isə spirtli içkilərin hazırlanmasında istifadə edilirdi.

Bağçılıq təsərrüfatında tut ağacları da çox gəlir verirdi. Bundan araq, bəhməz, doşab hazırlanaraq onun bir hissəsi şəxsi təsərrüfatda istifadə olunur, qalan hissəsi isə satışa aparılırdı. Tutdan hazırlanmış araq böyük mənfəət verirdi. Əraziyə köçürülmüş xristian əhali bölgədə tutçuluğun genişləndirilməsinə çalışırdı. Məsələn, bir desyatin torpağı əhatə edən 200 tut ağacından araq əldə etmək məqsədilə buraya qoyulan xərc 56 manat 12 qəpik təşkil edirdisə, bunun müqabilində 149 manat 6 qəpik təmiz gəlir əldə olunurdu. Hər desyatin ərazidəki tut ağaclarından əldə edilmiş məhsulu yaş halda satdıqda 60 manat, qurudulmuş halda 67 manat 57 qəpik, onun patkaya çevrilməsi ilə 149 manat 8 qəpik gəlir əldə edilirdi [186, s. 127]. Lakin XIX əsrin 80-ci illərindən etibarən mərkəzi Rusiya sənaye müəssisələrinin xam ipəyə olan tələbatı ilə əlaqədar 1889-cu il 12 iyun tarixli qanunu ilə [153, s. 92] tut plantasiyaları əsasən baramaçılığa yönəldildiyindən tutdan araq çəkilməsi işi, demək olar ki, dayandırılmışdı.

Tədqiq edilən qəzaların, xüsusən Ordubad və Naxçıvan bölgələrinin bağçılıq təsərrüfatında müxtəlif ərik növlərinin də xüsusi yeri var idi. Ordubad əriyi yüksək xüsusiyyətlərinə görə Cənubi Qafqazın ərik növləri içərisində ən üstün pillədə duran meyvə növü [173, s. 18-20] sayılırdı. Hər il orta hesabla Ordubaddan Tiflisə, oradan isə Ağstafa dəmir yolu vasitəsi ilə Rusiyanın mərkəzi şəhərlərinə 150 min pud quru ərik daşınırdı. Sırf ərik ağacları ilə əhatə olunmuş torpaq sahələri iri sahibkarların əlində cəmləşdiyindən onlar böyük var-dövlət yiyəsi sayılırdılar. A.X.Pollovun hesablamalarına görə, bu cür ərik ağacları əkilmiş hər desyatin torpaq sahəsində 200 orta yaşlı ağacın olmasını və bunların hərəsindən 3 puda qədər meyvə toplandığını nəzərə alsaq, onda bu həcmdə olan bağ sahəsindən 600 pud [177, s. 77] məhsul götürürdülər. Ərik qurusunun hər pudu həmin ərazidə 50 qəpiyə satılırdı. Hər desyatin ərik bağından sahibkarlar 280 manat təmiz gəlir götürürə bilirdilər. Başqa bir sənəddə göstərilir ki, burada hər desyatin ərik bağından 150 manat [186, s. 128] gəlir əldə etmək mümkündür.

Tarixi sənədlərdə bölgədə yetişdirilən 40 ərik növünün adı çəkilir. Bunların əksəriyyəti Ordubad əyalətinin Xanağa, Dəstə, Vənənd, Ağrı, Dizə, Düylün kəndlərində, xüsusən Vənəndçay sahillərində, eləcə də Naxçıvan ətrafının bağçılıq təsərrüfatlarında yetişdirilirdi. Təkcə Vənəndçay sahillərində özünün dadı və ətirliliyi ilə fərqlənən müxtəlif növ ərik bağları 15 desyatin bağı əhatə edirdi [177, s. 67-76]. Ordubad əyaləti ilə Naxçıvan rayonunda yazın əvvəli və yay aylarının müxtəlif vaxtlarında yetişən, öz dadı və ətri ilə seçilən "Abutalıbı", "Haxverdi", "Şalaş", "Göycənabad", "Ağcanabad", "Badam-ərik", "Kər-kəri", "Növrəstə", "Toxum-şeme", "Ağayi", "Bal-yarım", "Həbalı", "Hədci", "Kababı", "Xosrov şahı", "Ağıərik", "Gilərik" kimi ərik növləri geniş yayılmışdı [177, s. 73-85]. O dövrün mənbələrində göstərildiyi kimi, Karteliya və İrəvan quberniyasında keçirilən meyvəçilik sərgilərində Naxçıvan və Ordubaddan gətirilib nümayiş etdirilən meyvələrin misli görünməmişdi [153, s. 93]. Bu cür sərgilərdə tədqiq olunan qəzaların ən yaxşı meyvə becərənləri mükafatlandırıldığından onlarda həmin sahənin daha da inkişaf etdirilməsinə maraq güclənir, yeni növ məhsullar hazırlanmasına diqqət artırdı. Qoz və başqa meyvələrdən düzəldilmiş "alana", şirin və keyfiyyətli alçalardan hazırlanmış "lavaşa" məhz Ordubad meyvəçiləri tərəfindən bazara çıxarılırdı. Meyvəçiliklə bərabər, bostan məhsullarının da artımı nəzərə çarpırdı. 1889-cu il məlumatına görə, Naxçıvan qəzasından 2260 pud, Şərur-Dərələyəz qazasından isə 23010 pud tərəvəz toplanmışdı [168, s. 88].

Bağçılıq təsərrüfatının daha böyük və əlverişli sahəsi olan üzümçülük iqlim şəraiti ilə əlaqədar olaraq (üzüm kollarının şaxta nəticəsində tələf ola biləcəyi ərazilər müstəsna olmaqla) süni suvarma üçün yararlı düzənliklərdə və ya dağ ətəyi münbit torpaqlarda becərilirdi. Üzümçülük Şərur əyalətində, xüsusən onun Həmzəli-Dizə torpaqlarında, Naxçıvan qəzasının Araz çayı boyu torpaqlarından başlayıb Qarababa kəndinə qədər olan ərazilərdə, Arınc və Cəhriçay sahillərində

yerləşən dağətəyi Oğbin, Şada, Vayxır, Sələsüz kəndlərinə qədər olan süni suvarma torpaqlarının, Əlincəçay sahillərinin Əbrəqunus, Qazançı, Şurut, Paradaş ərazilərində daha geniş yayılmışdı [186, s. 13-14].

Bu rayonların üzümlükləri çay sularından çəkilmiş arxlar, Qanlı göldən gələn su kanalları, ayrı-ayrı sahibkarların su anbarları, o cümlədən vaxtilə Naxçıvan qəza rəisi işləmiş Şahin Gireyin adı ilə adlandırılan "Nəçənnik gölü" [190, s. 60] su anbarı, şəhərdəki Kalba Musa kəhrizləri vasitəsilə yay aylarında 4-5 dəfə suvarılırdı. Üzümlüklərin hamısı (təkcə Ordubad əyalətindən başqa) tumlara yatırdılmış şəkildə becərilirdi. Naxçıvan və Şərur-Dərələyəz qəzalarının iqlim şəraiti ilə əlaqədar olaraq payızın axırı və qış aylarında, eləcə də yazın əvvəllərində sərt soyuqların düşməsi nəticəsində üzüm kolları məhv olmasın deyə, onlar torpağa basdırılırdı. Azərbaycanın başqa qəzalarından fərqli olaraq üzüm kollarının bu cür saxlanması onun təbii fəlakətlərdən qorunmasının qarşısını alsa da, digər tərəfdən də artıq xərclərə səbəb olurdu. Bundan başqa, yaz fəslinin əvvəllərində üzüm kollarının üstünü örtən torpağı müəyyən qədər açdıqda ona zərər toxunurdu ki, bu da məhsuldarlığın aşağı düşməsinə səbəb olurdu.

Naxçıvan qəzası bütün Cənubi Qafqazda ən keyfiyyətli bağ meyvələri ilə şöhrətləndiyi kimi, üzümçülüyün ayrı-ayrı növləri və onlardan hazırlanan ən yaxşı şərabları ilə də tanınmışdı. Düzdür, yerli müsəlman əhalisinin əksəriyyəti şərab istehsal etməsələr də, üzümdən ailədə geniş istifadə olunurdu. Onun artıq hissəsini isə şərab və araq çəkmək işi ilə məşğul olan xristian sahibkarlara satırdılar.

XIX əsrin 80-90-cı illərində ayrı-ayrı mənbələrdə tədqiq olunan qəzalarda 27-28 üzüm növünün becərilməsi göstərilir ki, bunlardan "Aldərə", "Bəndi", "Camışməməsi", "Xatınbarmağı", "Gülabı", "Qaraca", "Qaraşanı", "Qızıl üzüm", "Kişmişi", "Ordubadi", "Şafeyi", "Xəlili", "Hüseyini", "Təbrizi", "Şaxtaxtı" kimi üzüm növləri daha geniş yayılmışdı [186, s. 63-74]. Kişmişi və Qaraşanı, eləcə də Qızıl üzüm başlıca olaraq qurudulub kişmiş halında müxtəlif xörəklərin hazırlanmasında istifadə olunurdu, "Mələyi", "Şirin", "Qarasırma" növlərindən isə şərab düzəldilirdi. Naxçıvan şəhərinin yaxınlığında yerləşən Əliabad kəndində hazırlanan şərab Cənubi Qafqazda ən keyfiyyətli şərab növü sayılan Kaxetiya çaxırına bərabər idi [179, s. 182]. Çaxır əsas iki rəngdə-qırmızı və ağ rənglərdə hazırlanırdı, birinciyə daha çox yer verilirdi. Məhsuldarlığın yüksək olduğu illərdə çaxırın pudu 50-60 qəpik, aşağı olduğu illərdə isə 1 manat 20 qəpiyə satılırdı. Üç pud üzümdən 1 vedrə şərab hazırlanırdı. Quberniyanın kənd təsərrüfatı üzrə mütəxəssisi, aqronom Spasskinin verdiyi məlumata görə, əlverişli iqlim şəraitində Naxçıvan qəzasındakı üzümlüklərin hər desyatinindən 168 pud, İ.Zeydilistin tədqiqatına görə isə 400 pud, o cumlədən Naxçıvan şəhərindən 1000 pud [180, s. 272] məhsul əldə olunurdu.

Hər iki tədqiqatçinin məlumatını ümumiləşdirib belə nəticəyə gəlmək olar ki, 1875-ci ildəki 2138 desyatin üzüm bağlarından 607192 pud toplanmış məhsulun 12537 pudundan ailə təsərrüfatlarına xammal formasında istifadə olunduğunu

çıxdıqdan sonra, satış üçün artıq qalan 594836 pud üzümdən 198278 vedrə şərab hasil etmək mümkün idi. Şərab emalı Naxçıvan və Ordubad şəhərlərində, Çənnəb, Tivi, Arınc, Əbrəqunus, Əliabad kəndlərdə geniş yayılmışdı.

1888-ci ildə Naxçıvan qəzasının qərb hissəsində 3500 pud şərab [186, s. 98] hazırlanmışdı. 1868-ci ildən üzümlüklərdə "çor", "göbələk" kimi yoluxucu xəstəliklərin baş verməsi nəticəsində məhsuldarlıq aşağı düşmüşdüsə də, bir müddət sonra yenidən dirçəliş baş vermişdi. Naxçıvan şəhəri və onun 16 kəndində 535 üzüm bağı qeydə alınmışdı ki, bunlar da 281 desyatindən artıq torpaq sahəsini əhatə edirdi [179, s. 27]. Cəhri, Xalxal, Nəzərabad,Yuxarı Uzunoba, Xəlilli, Şıxmahmud, Alagöz Məzrə, Dizə, Kültəpə, Yarımca, Hacıvar, Qaraxanbəyli, Tumbul,Yamxana və b. kəndlər üzüm istehsalı sahələri kimi tanınmışdı. Ən yaxşı üzüm növü "Şafeyi" sayılırdı ki, bu da 8 ay müddətində saxlandıqda belə öz əvvəlki təravətini və keyfiyyətini itirmirdi.

Naxçıvan qəzasında üzümçülüyün ayrı-ayrı illərdəki inkişaf vəziyyətinə nəzər yetirdikdə görünür ki, bu sahədə ən yüksək artım 1880-ci ildə (697504 pud) olmuşdur. Həmin ildə hər desyatin üzüm sahəsindən (2456 des.) 284 pud məhsul əldə edilmişdir. Ümumiyyətlə, tədqiq olunan illərdə bu qəzada orta hesabla hər il 1540 desyatin torpaq sahəsində üzüm becərilirdi ki, ondan da 231756 pud məhsul toplanılırdı. Hər desyatin üzüm sahəsinin məhsuldarlığı isə 150 puda çatırdı. Bu rəqəmlərdən göründüyü kimi, XIX əsrin birinci yarısı ilə müqayisədə, xüsusən kəndli islahatından sonra ticarət əkinçiliyinə artan tələbatla əlaqədar başqa kənd təsərrüfatı sahələri kimi, üzümçülükdə də irəliləyiş baş vermişdi. Belə ki, əgər XIX əsrin 30-cu illərində Naxçıvan qəzasında cəmi 45 desyatın [172, s. 342] üzüm sahəsi qeydə alınmışdırsa, 1880-ci illərdə bu rəqəm 34 dəfə artmışdı.

Şərur-Dərələyəz qəzasına dair bütün illər üzrə məlumat əldə etmək mümkün olmasa da, XIX əsrin 80-ci illərindən başlayaraq ardıcıl surətdə üzüm sahələrinin artması və bunun müqabilində məhsuldarlığın yüksəldilməsi qeydə alınır. Belə ki, 1885-1890-cı illərə nisbətən 1891-1895-ci illərdə burada üzüm sahələri 57 desyatin, məhsul 21431 pud, 1895-1900-cü illərdə üzüm sahələri 76 desyatin, məhsul isə 78747 pud çoxalmışdı. Daha doğrusu, 1885-1890-cı illərlə müqayisədə üzüm sahələri tədqiq edilən dövrün sonunda orta hesabla 1,2 dəfə, məhsul isə 3,6 dəfə artmışdı. Qubernatorun hesabatında götərilirdi ki, "Naxçıvan qəzasında toplanmış üzüm quberniyada birinci yeri tutur. Bu qəzanın üzümçülüyündə isə Naxçıvan şəhəri, Şəkərabad, Tumbul, Qaraçuq, Qaraxanbəyli, Qazançı, Şıxmahmud, Uzunoba, Kültəpə, Hacıvar və Nəzərabad kəndləri xüsusi ilə fərqlənir" [171, s. 117].

Tədqiq olunan qəzalarda üzümçülüklə məşğul olan əhalinin əsas hissəsini becərilməsi üçün heç bir şəraiti olmayan bağ sahibləri təşkil edirdi. Bu cür kəndlilərin əlində 0,2-dən 0,5 desyatinə qədər bağ sahəsi var idi. Məsələn, 1870-ci ildə Naxçıvan şəhəri və onun üzümçülüklə məşğul olan 16 kəndində 535 [180, s. 271] üzüm bağı qeydə alınmışdı. Ümumi üzüm bağ sahələrinin 4250 desyatini 22 iri

sahibkara məxsus idi [180, s. 403]. Bunların hər birinə orta hesabla 194 desyatin torpaq sahəsi düşdüyü halda, yüzlərlə yoxsul kəndli ailəsinin hər birinə isə 0,5 desyatindən də az üzüm sahəsi düşürdü. Təkcə Xəlilli kəndində bağ sahiblərinin ixtiyarında 153,6 desyatin torpaq var idi ki, bunun da 109,5 desyatini 20 bağ sahibinə məxsus idi. Yaxud Kalbalı xan Ehsan xan oğlu hər il orta hesabla 16000 pud üzüm əldə edirdi.

Naxçıvan və Şərur-Dərələyəz qəzalarında üzümçülükdə məhsuldarlığın aşağı səviyyəsinin səbəblərindən biri də kənd təsərrüfatı məktəblərinin olmaması idi. Azərbaycanın ayrı-ayrı quberniyalarında bu sahədə bəzi işlər görülsə də, Naxçıvan qəzasında bu məsələ həll olunmamışdı [190, s. 31]. Kənd təsərrüfatının ayrı-ayrı sahələrində elmi təklif və məsləhətlərdən istifadə edilməməsi, eləcə də texnika və aqrotexnikanın tətbiq olunmaması nəticəsində məhsuldarlıq aşağı idi.

Geriliyə səbəb olan bu amillərə baxmayaraq, keçirilən kəndli islahatından sonra ticarət əkinçiliyinin genişləndirilməsi mərkəzi şəhərlərin, habelə Rusiya bazarlarının bu yerlərin meyvəsinə və onlardan hazırlanan məhsullara tələbatını artırmış, həmin sahələrin inkişafına təsir göstərmişdi. Qafqaz filokseri komitəsinin hesabatında göstərilirdi ki, 1874-1898-ci illərdə Naxçıvan qəzasının 450-466 desyatın üzüm sahələrinə 885 yeni, daha məhsuldar, cavan üzüm növü salınmışdı. Bunlar başlıca olaraq Naxçıvan şəhərində, Təzəkənddə, Güznütdə, Yuxarı Əylisdə, Zeynəddində, Yarımcada basdırılmışdı. Bu kimi tədbirlərin həyata keçirilməsi nəticəsində məhsuldarlıq artdığı kimi, üzümün keyfiyyəti və şəkərlilik dərəcəsi də xeyli yüksəlmişdi. Məsələn, Naxçıvan qəzasında olan "Pişik gözü" üzüm növünün 19 faiz, "Qara üzüm"ün 21 faiz, "Şafeyi"nin 20,5 faiz, "Gülabı"nın 21 faiz, "Qara sərma"nın 23 faiz, "Təşbey"in 24 faiz şəkərliliyi qeydə alınmışdır [180, s. 38-40].

Onu da qeyd edək ki, ticarət əkinçilyinin bütün sahələrində, o cümlədən üzümçülükdə texniki emalın yaranması və inkişaf etməsi kapitalizmin meydana gəlməsi üçün real zəmin hazırlayırdı.

Üzüm hasilatında olduğu kimi, onun emalı sahəsində də Naxçıvan qəzası Şərur-Dərələyəz qəzasına nisbətən xeyli irəlidə gedirdi. 1887-1900-cü illərdə Naxçıvan qəzasında kustar ev şəraitində hər il orta hesabla 50 şərab emal edən sənaye ocağı fəaliyyət göstərirdi. Bu zavod və fabriklərdə üzüm və müxtəlif meyvələrdən şərab hazırlanırdı. XIX əsrin 80-ci illərinə aid məlumata görə, Naxçıvan qəzasının 21 kəndində araqçəkmə qeydə alınmışdı və bu məqsədlə də 107 nəfərə dövlət tərəfindən xüsusi icazə verilmişdi.

XIX əsrin 80-90-cı illərində Naxçıvan qəzasında meyvələrin texniki emalı ilə bağlı olan bütün sənaye ocaqlarında üzümün ümumi emal dəyəri 680004 manat təşkil edirdi. Şərur-Dərələyəz qəzasında isə bu cür xırda sənaye müəssisələrinin sayı 6-dan bir qədər artıq olmaqla, onların emal dəyəri ancaq 105661 manata yaxınlaşırdı [179, s. 182]. Naxçıvan qəzasında olan bu cür ibtidai şərab və meyvə zavodlarının bir hissəsi Naxçıvan şəhərində yerləşdirilmişdi ki, bu da şəhər təsər -

rüfatında üzümçülüyün inkişafı ilə bağlıdır.

Ümumiyyətlə, şərab hazırlanması işində üzüm emalı daha geniş yayılmışdı. Üzüm böyük çənlərə doldurulur və orada əzilirdi. Üzümün şirəsi ayrılarkən çənin alt hissəsində kiçik deşiklər olduğu üçün şirə oradan başqa bir çənə axırdı. Bir müddət saxlandıqdan sonra şirənin qıcqırmaya keçid dövründə onun bir hissəsi "macar" adı ilə yalnız ev təsərrüfatında işlətmək məqsədi ilə götürülür, qalanı isə iri ləyənlərə tökülürdü. Həmin şirə turşumuş halda qıcqırdıqdan sonra şərab halına düşərək satışa göndərilir, yaxud şəxsi tələbata sərf edilirdi. Naxçıvan və Şərur-Dərələyəz qəzalarında şərab istehsalına dair tərtib olunan cədvəl onun müxtəlif dövrlərdəki inkişaf səviyyəsini göstərir.

İllər	**Naxçıvan qəzası**	**Şərur-Dərələyəz qəzası**
	Şərab istehsalı (Vedrə hesabı ilə)	**Şərab istehsalı (Vedrə hesabı ilə)**
1870-1874	51337	-
1878-1880	12106	-
1885-1890	21584	6460
1891-1895	14764	14503
1896-1900	41650	9907

Cədvəldə göstərilən dövrlər üzrə Naxçıvan qəzasında hər il orta hesabla 28288 vedrə şərab istehsal edilirdi. Hər iki qəzada isə göstərilən dövrdə orta hesabla il ərzində 38578 vedrə şərab istehsal olunmuşdu.

İpəkçilik də Naxçıvanın kənd təsərrüfatında vacib sahələrdən biri idi. Bölgədə ipəkçiliyin əsas mərkəzi Ordubad sayılırdı. Xanlıq dövrünün sonlarında Naxçıvan bölgəsində 100 min tut ağacı var idi. Onlardan 10 mini Ordubad şəhərində yerləşirdi. Burada 200 pud ipək istehsal olunmuşdu.

Ümumiyyətlə, bölgənin əhalisi bu yerlərin Rusiya tərəfindən ilhaq edilməsindən hələ çox əvvəl, "xüsusilə XI-XII əsrlərdə" [52, s. 100] ipəkçilik sahəsində öz səriştəsi və təcrübəsi ilə tanınmışdı. XIX əsrdə isə ipəkçilikdə Ordubad şəhəri və ona yaxın kəndlər, həmçinin Naxçıvan şəhəri, Təzəkənd, Yamxana, Tumbul, Cəhri, Şıxmahmud, Kültəpə, Yarımca və Şərur-Dərələyəz qəzasının Şərur əyaləti [190, s. 36-37] başlıca rol oynayırdı. İpəkçiliklə daha çox məşğul olan bu rayonlar arasında isə Ordubad əyaləti İrəvan quberniyasında birinci yerdə dururdu. XIX əsrin 70-90-cı illərində bu əyalətin 46 kəndində ipəkçiliklə məşğul olurdular ki, bunların da arasında Ordubad şəhəri, Aşağı və Yuxarı Əylis, Aza, Cənnəb, Vənənd, Əndəmic, Dırnıs, Gənzə, Dəstə, Biləv, Əsər [138, s. 178-182] kəndləri daha çox fərqlənirdilər. Göstərilən 46 kəndin 41-də isə bilavasitə barama istehsalı ilə məşğul olurdular [138, s. 178-182]. XIX əsrin 80-ci illərində bu əyalətin 62 məntəqəsində 22 min [138, s. 167] əhalinin əmək qabliyyətinə malik olan hissəsinin əksəriyyəti ipəkçilik sahəsində çalışırdı. İpəkçiliyin inkişaf

etdirilməsində əsasən üç təsərrüfat sahəsi-tut plantasiyaları, barama istehsalı və ipəkəyirmə bir-birilə vəhdət təşkil edirdi. Barama hasilatı üçün tut bağlarının sahəsi ilbəil artırılırdı. Belə ki, əgər 1850-ci ildə plantasiyaların sahəsi 183,3 desyatin [90, s. 32] idisə, 1875-ci ildə o, 333,3 desyatinə [138, s. 213], 1884-cü ildə isə 3840 desyatinə [143, s. 255] çatdırılmışdı. Deməli, 34 il müddətində tut plantasiyalarının sahəsi 3656,7 desyatin artırılmışdı. Bu cür təmiz tut plantasiyalarının sahəsi əsasən Ordubad şəhərində və ona yaxın kəndlərdə salınmışdı. Barama qurdlarının hələ kiçik vaxtlarında, yəni onların birinci və ikinci yuxu keçirmə mərhələsində qurdların yalnız xırda və zərif yarpaqlarla qidalandırılması tələb olunurdu. Hər cavan tut ağacından 5-6 girvəngə, 7-8 illik ağacdan isə 10-15 girvəngə yarpaq yığmaq mümkün idi. Hər bir misqal barama qurdunun böyüdülməsi üçün ona 7 pud tut yarpağı lazım gəlirdi. Adətən qurdların birinci və ikinci yuxu keçirmə mərhələsində çəkisi 1 pud olan yarpaqlı tut ağacının budaqları 60 qəpiyə satıldığı halda, qurdların 5-ci yuxu mərhələsindən sonra onun qiyməti 1 manat 30 qəpiyə qədər yüksəlirdi [195, s. 170]. Bəzən isə tut plantasiyası sahibkarları barama becərənlərin məhsulunun yarısını almaq şərti ilə öz sahələrini onların ixtiyarına verirdilər.

Tut plantasiya sahələrinin genişləndirilməsi hesabına ipəkçilik təsərrüfatının inkişaf etdirilməsinə səy göstərilsə də, kənd təsərrüfatının ayrı-ayrı sahələrində olduğu kimi, bu sahədə də inkişafa mane olan əngəllər var idi. Belə ki, barama qurdları əsasən qamışdan və ya döşəməsi torpaqdan olan evlərdə bəsləndiyindən yeri nəmişlik olduğu üçün qurdlar istənilən səviyyədə böyümür, həmçinin tez-tez baş verən yaz yağışları, eləcə də istiliyin lazımi vəziyyətdə saxlanıla bilməməsi nəticəsində tələf olurdular. İpəkçiliyin inkişafına mane olan səbəblərdən biri də tut ağaclarının yenicə yarpaqlamağa başladığı vaxtlarda havaların qəflətən soyuması, xüsusən Ordubad əyalətində kəskin dolu və qarın yağması idi [183, s. 26]. 1861-ci ildə Ordubad qəzasının Kotam, Əylis, Danaqırd, Əsər kəndlərində güclü yağışlar nəticəsində əmələ gəlmiş daşqınlar bu yerlərin kənd təsərrüfatının ayrı-ayrı sahələrinə ağır zərbə vurmuşdu [122, s. 1394]. İpəkçiliyin inkişafına çəyirtkə kimi təhlükəli ziyanvericilər də maneçilik törədirdi. Bu kimi həşəratları kütləvi surətdə məhv etmək üçün dərman və digər ləvazimatların çatışmamasının nəticəsi idi ki, 1891-ci ilin mart-aprel aylarında çəyirtkələr tut bağlarını məhv etmişdi. Çəyirtkənin kənd təsərrüfatı bitkilərinə vurduğu böyük ziyandan bəhs edən Naxçıvan qəza rəisi qubernatora məlumatında bildirirdi ki, "Təzəkənd, Yamxana kimi tut plantasiyalarının olduğu yerlərdə 500, Ordubadda isə 4500 desyatin sahəni çəyirtkə tamamilə örtmüşdür. Buna qarşı mübarizə üçün əhali səfərbərliyə alınaraq 4760 pud çəyirtkə məhv edilmişdi" [67, s. 79]. Başqa bir rəsmi sənəddə bu münasibətlə qeyd edilirdi ki, "1891-ci il aprelin 10-12-si arasında çəyirtkə yenidən gücləndiyi üçün barama tamamilə məhv olmaq üzrədir. Əhalinin köməkliyi ilə gün ərzində 378 pud çəyirtkə məhv edilmişsə də, bu iş hələ başa çatdırılmamışdır" [67, s. 147-159].

İpəkçiliyin inkişafına əngəl olan səbəblərdən biri də barama qurdlarının alınması və bəslənməsi üçün maliyyə vəsaitinin azlığı idi. Başqa bir səbəb isə ipəkçilik sahəsində elmi biliklərin azlığı və yerlərdə qabaqcıl təcrübə stansiyalarının yaradılmaması idi. Tiflisdə "Qafqaz ipəkçilik stansiyası" yaradılıb fəaliyyət göstərirdi [40, s. 101]. Lakin bu təcrübə Naxçıvan, Şərur-Dərələyəz qəzalarına hələ gəlib çıxmamışdı. 1884-cü ildə Ordubad əyalətində nümunəvi təcrübə stansiyası yaradılması haqqında məsələ qaldırılsa da, bu, bir nəticə verməmişdi [168, s. 25].

Zaman keçdikcə iri toxucu sənaye ocaqlarının formalaşması pambıqçılığın inkişafını tələb etdiyi üçün tut plantasiyaları pambıq əkin sahələrinə çevrilməkdə idi. Beləliklə, mərkəzi Rusiyanın sənaye müəssisələrinin tələbatı ilə əlaqədar olaraq təsərrüfat sahələri bir-birini əvəz edirdi ki, bu da birinin tənəzzülünə, digərinin isə tərəqqisinə imkan yaradırdı. Bütün bunlara baxmayaraq, bölgədə xüsusən XIX əsrin 50-ci illərində ipəkçilik təsərrüfatları nisbətən dirçəlmişdi. O zaman Qərbi Avropada ipəkçilikdə baş vermiş durğunluq nəticəsində həmin ölkələrdən Rusiyaya gətirilən xam ipək məhsulları azalmış və qiymətlər xeyli yüksəlmişdi. Bunu nəzərə alaraq dövlət baramaçılıqla məşğul olan rayonların, o cümlədən Naxçıvan və Şərur-Dərələyəz qəzalarının ipəkçilik təsərrüfatını dirçəltmək üçün həmin sahəyə diqqət yetirməyə məcbur olmuşdu. Bu da öz növbəsində təbii olaraq barama və xam ipək istehsalını artırmışdı. Hələ ipəkçiliyin kifayət qədər inkişaf etdirilmədiyi dövrdə, yəni 1850-ci ildə Naxçıvan qəzasında 50 pud [87, s. 31] barama istehsal edilmiş və ondan 750 manat gəlir əldə olunmuşdu. Ordubad dairəsinin Aşağı Əylis, Dəstə, Biləv, Çənnəb və Ordubad ərazilərində 70 pud 20 girvəngə [179, s. 186] xam ipək hazırlanmışdı. 1862-ci ilin məlumatına görə isə bu ərazilərdən 20000 puda qədər barama hasil edilmişdi. Bunun bir hissəsi yerli sənaye dəzgahlarında emal olunur, qalan hissəsi isə satışa çıxarılırdı. Məsələn, 1865-ci ildə Ordubad ipəyinin bazara çıxarılması üçün həmin əyalət sakinlərinin 12 nəfərinə vəkalətnamə verilmişdi. Lakin ipəkçilikdəki bu inkişaf Azərbaycanın başqa qəzalarında olduğu kimi, Naxçıvan qəzasında da uzun müddət davam etmədi. Belə ki, 1862-ci ildən başlayaraq xarici firma agentləri tərəfindən gətirilmiş [196, s. 409] xəstə barama qurdları yerli barama toxumlarını yoluxdurduğundan qəzanın ipəkçilik təsərrüfatı bir müddət tənəzzülə uğramışdı. Beş il müddətində (1862-1867) bölgədə barama istehsalı 7 dəfə azalmışdı [179, s. 186].

Nəhayət, bütün Cənubi Qafqazda olduğu kimi, Naxçıvan qəzasında da ipəkçiliyi bürümüş xəstəlik aradan qaldırıldıqdan sonra XIX əsrin 70-ci illərindən burada ipəkçilik təsərrüfatı nisbətən dirçəlmiş, barama hasilatı artmışdı. Belə ki, 1870-ci ildə əsasən Rəşt və Xorasandan gətirilən barama qurdları hesabına Naxçıvan qəzası, Ordubad və Şərur əyalətlərində 7075 pud [179, s. 186] barama toplanılmışdı ki, bu da 1866-cı ilə nisbətən 4919 pud çox idi. Cənubi Qafqaz, o cümlədən Naxçıvan və Şərur-Dərələyəz qəzalarında xəstəliyə tutulan ipəkçilik

təsərrüfatlarını xilas edib, müxtəlif yollarla inkişaf etdirmək üçün dövlət tərəfindən bir sıra tədbirlər görülmüşdü. Bu məqsədlə 1889-cu ildə Tiflisdə yaradılmış "Qafqaz ipəkçilik stansiyası"nın Azərbaycanda bir sıra şöbələri açılmışdı. Buradan yerlərə mütəxəssislər göndərilir, əhali arasında ipəkçiliyin inkişaf etdirilməsinin üsulları haqqında mühazirələr oxunur, daha məhsuldar barama qurdları nümayiş etdirilirdi. 1899-cu il dekabrın 21-də bu cür müşavirə Naxçıvan şəhərində də keçirilmişdi [40, s. 101]. İpəkçiliyin inkişaf etdirilməsində dövlət tərəfindən həyata keçirilən sərgilərin də əhəmiyyəti olmuşdur. 1885-ci ildə Tiflisdə general-adyutant A.M.Dondukov-Korsakovun iştirakı ilə keçirilən ipəkçilik sərgisində on yaxşı ipək məhsulları nümayiş etdirilmiş, ən layiqlilər, o cümlədən Ordubad ipəkçiləri də mükafatlandırılmışdı [143, s. 67-74]. XIX əsrin 90-cı illərində ipəkçiliyi inkişaf etdirmək üçün tutdan araq çəkilməsini məhdudlaşdırmağa yönəldilmiş aksiz sisteminin həyata keçirilməsi tədbiri də barama qurdlarının bəslənilməsi işini xeyli yaxşılaşdırmışdı [143, s. 36].

İpəkçiliyin inkişaf etdirilməsində bu sahə ilə məşğul olan təsərrüfatların barama qurdları ilə təmin edilməsi barədə görülmüş tədbirlərin xüsusi əhəmiyyəti olmuşdur. Xəstəliklə əlaqədar olaraq böhrana uğramış ipəkçiliyi dirçəltmək üçün dövlətin köməyi ilə Yaponiyadan gətirilmiş barama toxumu bir müddət ipəkçiliyə müsbət təsir göstərdi. Sonralar yerli əhalinin, xüsusən Ordubad dairəsinin Aşağı Əylis kəndinin iri ipək sahibkarlarının Fransadan aldıqları sarı cins adlı barama növü [195, s. 172] toxumunun da gətirilməsinə köməklik göstərmiş yerli hakimiyyət orqanlarının gördüyü tədbirlər ipəkçiliyin inkişafına təkan vermişdi. 1884-cü ilin martında isə Qafqaz kənd təsərrüfatı cəmiyyətinin təşəbbüsü ilə Ordubad əyalətinin Aşağı Əylis ipəkçilərinin təkidi ilə hökumət xəzinə vəsaiti hesabına Fransanın məhşur Leris ipəkçilik firmasından barama toxumu alaraq onu yarı qiymətə [195, s. 172] Ordubad əyalətinin ipəkçi təsərrüfatlarına satmışdı. Fransız və italyan mütəxəssislərinin yetişdirdiyi barama növü toxumunun bir hissəsi isə sınaq məqsədi ilə pulsuz paylanmışdı. Bunlardan başqa, bir italyan barama növünün-Suzani barama qurdunun, fransız Berte-Marion, Felks və Dediye kimi ipək qurdu növlərinin də Ordubada gətirilməsi təşkil edilmişdi [195, s. 182].

Xarici ipək mütəxəsissləri və sahibkarları Ordubada öz ölkələrindən barama toxumu göndərməklə kifayətlənməyib, burada yeni ipək qurdu növlərini yetişdirmək məqsədi ilə öz vəsaitləri hesabına sınaq təcrübə stansiyaları yaratdılar. Məsələn, 1895-ci ildə Fransa alimi E.Jozefides Ordubad şəhərində bu cür sınaq mərkəzi təşkil etmiş və məhşur fransız akademiki Paster metodu ilə Bağdad ipək qurdundan yeni daha məhsuldar toxum alaraq [154, s. 1699] müsbət nəticə qazanmışdı. Həmin alimin əldə etdiyi toxumlar tut yarpağı ilə yedizdirilib böyüdülmüş, nəticədə ondan 100 pud barama istehsal olunmuşdu. Bundan başqa, Ordubada yeni barama növlərindən "Bağdad payası", "İtalyan" (sarı rəngdə), "Yapon" (yaşıl rəngdə) və "Kərbəla baraması" (sarı rəngdə) [154, s. 1699] kimi barama növləri gətirilmişdi.

İpəkçiliyin inkişaf etdirilməsi üçün həyata keçirilən tədbirlərdən biri də 1889-cu ildə İrəvan Müəllimlər Seminariyasında baramaçılıq şöbəsinin yaradılmasıdır [168, s. 25]. Həmin şöbədə təhsil alan şagirdlər ipəkçiliyin sirləri ilə tanış olur, onun təbliği üçün yerlərdə iş aparırdılar.

Bu tədbirlərin həyata keçirilməsinin nəticəsi idi ki, XIX əsrin ikinci yarısında Naxçıvan qəzasında, Ordubad və Şərur əyalətlərində baramaçılıq xeyli inkişaf etdirilmişdi. Bunu aşağıdakı cədvəldən daha aydın görmək mümkündür. (Naxçıvan qəzası və Şərur əyaləti ümumi barama istehsalının xüsusi çəkisində cüzi yer tutduqlarından bu rayonlarda əldə edilmiş məhsul Ordubad əyalətinin ümumi məhsuluna əlavə edilmişdir).

İllər	**Barama istehsalı (pud hesabı ilə)**
1870	931
1875	8067
1883	6000
1884	36000
1885	34063
1887	18000
1888	20625
1889	14000
1891	9950
1892	10150
1893	12750
1894	17500
1895	13250
1897	2550
1898	19000
1899	13600
1900	5400

Cədvəldən göründüyü kimi, 1870-1875 və 1883-cü illərdə barama istehsalı 1866-cı ilə nisbətən orta hesabla 2845 pud artsa da, XIX əsrin 80-ci illərinə qədər ən çox barama istehsal olunmuş il sayılan1862-ci il səviyyəsinə (20000 pud) gəlib çata bilməmişdi. Daha doğrusu, həmin illə müqayisədə 17155 pud az məhsul toplanmışdı. Bunun başlıca səbəbi 1862-ci ildən barama qurdlarının xəstəliyə tutulması nəticəsində 1868-ci ildən başlayaraq xaricdən gətirilmiş yeni barama qurdlarının hələlik kifayət qədər məhsul verməməsi və onların da yoluxucu xəstəliklərə məruz qalmaları ilə əlaqədardır. Lakin 1884-cü ildə barama istehsalı nəinki 1862-ci il səviyyəsinə çatmış, hətta onu ötüb keçmişdi.

Bölgədə hər il orta hesabla 14226 pud barama istehsal edilmişdi. Baramanın hər pudunun 16 manat 65 qəpiyə satıldığını nəzərə alsaq, bu sahədə hər il 236863 manat gəlir əldə edilirdi [195, s. 183]. Doxsanıncı illərdə istehsal bir qədər aşağı düşmüşdür. Belə ki, əgər 1885-ci ildə Naxçıvan qəzası və Şərur əyalətində 34063 pud barama istehsal olunmuşdursa, 1891-ci ildə bu rəqəm 14113 pud azalmışdır. Sonrakı illərdə yenidən yüksəliş baş versə də, əvvəlki səviyyəyə çata bilməmişdir. Məsələn, 1884-1889-cu illərdə hər il orta hesabla 24537 pud barama istehsal olunduğu halda, 1891-1895-ci illərdə azalaraq 12720 puda enmişdir ki, bu da həmin dövrdə orta illik barama istehsalından 1506 pud az idi.

Ən çox barama istehsalı Ordubad əyalətində olmuşdur. 1862-ci ildə Ordubad və onun ətraf kəndlərində 2000 pud [179, s. 186], 1866-cı ildə 2157, 1884-cü ildə 6436 pud [143, s. 254], 1889-cu ildə 12 min pud [195, s. 254], 1891-ci ildə 8050 pud [168, s. 24], 1898-ci ildə isə 9000 pud [170, s. 18] barama istehsal edilmişdir.

Ümumiyyətlə, 10 il müddətində, yəni 1884-1894-cü illərdə Naxçıvan, Şərur-Dərələyəz qəzalarında cəmi 73038 pud barama istehsal olunmuşdu ki, bunun 66,6%-i Ordubad əyalətinin payına düşürdü. Göstərilən müddətdə həmin əyalətdə barama istehsalının orta illik xüsusi çəkisi 11526 pud olmuşdu ki, bu da hər il 191907 manat gəlir əldə etməyə inkan verirdi.

Barama istehsalı başlıca olaraq müxtəlif iri sahibkarların (Məşədi Nəsir, Kazım bəy Əsgərxanov, Kərbəlayi Bağır və s.) əlində cəmləşdiyi üçün onlar kənd burjuaziyası kimi formalaşaraq nəinki mərkəzi Rusiyanın iri toxuculuq sənaye müəssisələri ilə, habelə İtaliya, Fransa [131, s. 26-29], Avstriya-Macarıstan kimi Avropa dövlətləri, eləcə də Yaponiya, Rəşt, Xorasan [195, s. 178-182] kimi ipəkçilik sahəsində şöhrət tapmış iri dövlət və şəhərlərlə geniş ticarət əlaqələri yaratmışdılar. 1866-cı ildə həmin yerlərə 200 pud [130, s. 238] barama aparılmışdı ki, bunun da çox hissəsi Naxçıvan qəzasının payına düşürdü. XIX əsrin 80-ci illərində təkcə Ordubad əyalətindən Moskva fabriklərinə 100 pud barama göndəril - mişdi [155, s. 1072].

Ordubad dairəsinə nisbətən Naxçıvan qəzası və Şərur əyaləti ipəkçilikdə geridə qalırdı. 1850-ci ildə Naxçıvan qəzasında cəmi 50 pud [87, s. 31] barama istehsal edilmişdisə, 1884-cü ildə isə bu göstərici 6000 pud [143, s. 254] çoxal - mışdı. Lakin sonralar bu qəzada barama qurdunun çatışmaması və ya onun əksər hallarda baha qiymətə satılması barama hasilatını aşağı salırdı. 1891-ci ildə Naxçıvan (Ordubad müstəsna olmaqla) və Şərur-Dərələyəz qəzalarının bir neçə kəndlərindən cəmi 1500 pud barama istehsal olunmuşdu [144, s. 45].

Sonrakı illərdə, yəni 1892-1895-ci illərdə isə 4500 pud barama toplanmışdı [190, s. 1716]. Adı çəkilən qəzalar barama satışından əldə edilən gəlirə görə Azərbaycanın başqa qəzaları ilə müqayisədə geridə qalırdı. Məsələn, 1899-cu

ildə Zaqatala dairəsində satışa gedən baramadan 380 min manat [40, s. 107] gəlir əldə olunmuşdusa, həmin ildə Naxçıvan və Şərur-Dərələyəz qəzalarında bu rəqəm 226440 manat idi.

Bununla belə, XIX əsrin ikinci yarısında bölgənin əsas iqtisadi göstəricilərindən biri olan barama istehsalı toxuculuq sənayesinin tələbatı nəticəsində əvvəlki dövrlərə nisbətən xeyli irəli getmiş, ev təsərrüfatı dairəsindən çıxaraq ipək emalı işinin genişlənməsinə böyük təkan vermişdir.

Qeyd olunan qəzalar barama istehsalında Azərbaycanın ən qədim əraziləri hesab olunduğundan bu yerlərdə ipək emalı ilk vaxtlar ibtidai üsulla texniki emaldan keçirilir, əl cəhrəsi, yerli eşmə dəzgahı və karasdan istifadə olunurdu. Lakin istehsalın təkmilləşdirilməsi hesabına XIX əsrin ikinci yarısında kustar xarakterdə olan emalatxanalarla yanaşı, ipəkəyirən fabriklər də meydana çıxmışdı. Ordubad əyaləti XIX əsrin 50-ci illərində ipəkçilik sahəsində daha çox tanındığı üçün təkcə barama istehsalı ilə deyil, ipək emalı ilə də geniş məşğul olmuşdur. Tarixi ədəbiyyatlarda bu barədə deyilir: "Hal-hazırda ordubadlılar ipəkçilikdə hələ çox əvvəllərdən qazandıqları təcrübəyə arxalanaraq Kərbəla əyalətindən, xüsusən Azərbaycanın Şəki və Şirvan kimi rayonlarından aldıqları baramadan daha keyfiyyətli ipək hazırlayıb onu müxtəlif rənglərə boyayaraq İranda və eləcə də Moskva və Nijni-Novqorod kimi iri şəhərlərdə satırlar" [203, s. 553]. Göründüyü kimi, Naxçıvan bölgəsində ipəkçilik çoxşaxəli inkişaf xüsusiyyətlərinə malik olmuşdur.

Naxçıvanın kənd təsərrüfatında texniki bitkilərin – pambıq və tütün istehsalının da müəyyən yeri var idi. Hələ xanlıq dövründən bölgənin kənd təsərrüfatı məhsulları içərisində pambıq xüsusi yer tuturdu. Pambıq feodallara daha çox gəlir verirdi. Pambıq Dərələyəzdən başqa demək olar ki, bütün mahallarda, əsasən Naxçıvan mahalının: Yarımca, Şıxmahmud, Xəlilli, Kültəpə, Uzunoba, Həsənağa, Didivar, Nəzərabad, Çalxanqala, Sust, Bulqan, Qaraxanbəyli, Qoşadizə, Tunbul, Yamxana, Təzəkənd, Qızılburun, Nehrəm kəndlərində; Xok mahalının bütün kəndlərində; Əlincə mahalının isə Ərəzin, Əbrəqunus, Culfa və Şurud kəndlərində əkilirdi [28, s. 34]. Naxçıvan və Ordubad bölgəsində 250 xalvar pambıq becərilirdi. Rusiya işğalı dövründə 300 xalvara yaxın, yaxud 6 min pud pambıq yığılmışdı [130, s. 86-191]. Tədqiqatçılardan biri bu rəqəmi şübhə altına alaraq öz hesablamasını aparmışdır. Qaynağın məlumatına əsasən, Naxçıvan bölgəsinin Axura və Danzik kəndlərinin hər birində 4 xalvar, Xamavarda 6, Qaraçux, Yamxana, Didivar, Nəzərabad, Şahtaxtı kəndlərinin hər birində 10, Xok, Govurarx (Qıvraq – ***red.***) və Camaldın kəndlərinin hər birində 20, Ordubad şəhərində 25, Yaycıda 30, Təzəkənd və Cəhri kəndlərinin hər birində 50, Nehrəm və Güznüt kəndlərinin hər birində 100 xalvar (cəmi 559 xalvar) pambıq istehsal edildiyi müəyyənləşdirilmişdir. Müəllif göstərir ki, "bu rəqəmin özü də tam deyildir. Bir çox kəndlər üzrə rəqəm gətirilmir. Bu kəndlər üzrə yalnız belə bir

qeyd vardır ki, "burada taxıldan başqa pambıq da əkilir, məhsulun qədəri isə göstərilmir" [130, s. 97]. Pambıq ən gəlirli sahələrdən hesab edilirdi. Pambığın bir batmanının qiyməti Naxçıvan bazarında 4 man. 50 qəp., Ordubad bazarında isə 5 man. 50 qəp. idi [30, s. 101-102].

Çar hökuməti Rusiya toxuculuq sənayesinin pambığa olan ehtiyacını ödəmək üçün Şimali Azərbaycanda, o cümlədən Naxçıvanda pambıqçılığın inkişafına çalışırdı. XIX əsrin 40-cı illərində Cənubi Qafqazda pambıqçılığın inkişafı üçün 400 min desyatin torpaq sahəsi ayrılmışdı. Mütəxəssislərin fikrincə, həmin torpağın cəmisi 70 min desyatininin əkilməsi Rusiya toxuculuq sənayesini pambıqla təmin etmək üçün kifayət idi [30, s. 102-103]. Lakin pambıqçılığın inkişafında əsaslı dönüş XIX əsrin 60-cı illərindən başladı. ABŞ-da 1861-1865-ci illər vətəndaş müharibəsi Rusiya pambıq-parça sənayesi sahibkarlarının diqqətini Şimali Azərbaycan pambıqçılığına yönəltdi. Bunun üçün xaricdən yüksək keyfiyyətli çiyid gətirilir, pambıqçılar arasında yeni texnologiyaya dair elmi söhbətlər aparılır, təkmilləşdirilmiş əmək alətlərinin tətbiqinə diqqət artırılırdı. Pambıqçıların Rusiyanın mərkəzi şəhərlərində keçirilən sərgilərdə iştirakı da müsbət hadisə idi. Pambıq istehsalının artımında əkin sahələrinin genişləndirilməsi xüsusi yer tuturdu.

Naxçıvan bölgəsində əsas pambıq istehsalı mərkəzi Naxçıvan qəzası və Şərur sahəsi idi Ona görə də Naxçıvan bölgəsi üzrə pambıq istehsalına dair ümumi göstəriciləri müəyyən etmək üçün Naxçıvan qəzası və Şərur-Dərələyəz qəzalarına dair məlumatlar toplanmışdır. XIX əsrin 80-ci illərindən bölgədə pambıq istehsalı xeyli irəlilədi. 1889-cu il məlumatına görə, İrəvan quberniyasında istehsal olunan 550 min pud pambığın 156.240 pudu (28,4 %) Şərurun, 42 min pudu (7,6 %) Naxçıvan qəzasının payına düşürdü [175, s. 19].

Aparılan hesablamalar nəticəsində müəyyənləşdirilmişdir ki, XIX əsrin 80-90-cı illərində Naxçıvan bölgəsində pambıq əkini sahələri artmaqda davam etmişdi. Naxçıvan bölgəsində pambıq əkini sahəsinin orta illik həcmi 5405 desyatin idi. Müqayisə üçün qeyd edək ki, bu göstərici Yelizavetpol quberniyasından 2705 desyatin çox idi. Pambıqçılıqda baş verən yeniliklər pambıq istehsalının artmasına da təsir göstərirdi. Naxçıvan bölgəsində 1880-1885-ci illərdə 33.049 pud pambıq istehsal edilmişdi. Bu göstərici müvafiq olaraq 1886-1890-cı illərdə 121.602, 1891-1895-ci illərdə 157.511, 1896-1900-cü illərdə 81.295 olmuşdu. Rəqəmlərin təhlilindən aydın olur ki, 1886-1890-cı illərdə əvvəlki beş illiyə - 1880-1885-ci illərə nisbətən 88.553 pud çox pambıq istehsal edilmişdi. Pambıq istehsalı 1891-1895-ci illərdə yüksək həddə – 157.511 puda çatmış, sonra isə xeyli azalmışdı. Pambıq istehsalının belə aşağı düşməsi ziyanvericilərin yayılması, "çor" və "şirə" kimi xəstəliklərin artması ilə bağlı idi. Ümumi məhsulda Şərurun payı daha yüksək idi. 1880-1885-ci illərdə bu 81,34 %, 1886-1890-cı illərdə 75,7 %, 1891-1895-ci illərdə 73,2 %, 1896-1900-cü illərdə 72,5 % olmuşdu [200, s. 70].

Naxçıvan bölgəsində digər bir texniki bitki olan tütün də əkilirdi. Lakin pambıqçılığa nisbətən tütünçülük geniş yayılmamışdı. Bu, təbii-iqlim şəraiti, tütünçülüyün daha böyük zəhmət tələb etməsi və nisbətən az gəlir verməsi ilə əlaqədar idi. Ona görə də tütün istehsalı az olub, əsasən, istehlaka yönəlmişdi.

Ümumiyyətlə, XIX əsrdə rus işğalından sonrakı mərhələdə bölgədə müəyyən səviyyədə inkişaf edən kənd təsərrüfatı Birinci Dünya müharibəsi illərində xeyli zərər gördü [97, s .6].

3. Aqrar münasibətlər və islahatlar

Aqrar münasibətlər və islahatlar torpaq sahibliyi və torpaqdan istifadə ilə əlaqədar məsələləri əhatə edir. Bəhs olunan dövrdə Naxçıvanda torpaq mülkiyyətinin əsas formaları xəzinə, sahibkar və ruhani idarələrinə məxsus olan vəqf torpaqları idi. Bununla yanaşı, tiyul – şərti torpaq mülkiyyəti də qalırdı. Naxçıvan bölgəsində torpaq mülkiyyəti formalarının nisbəti fərqli idi. XIX əsrin 80-ci illərində Naxçıvan qəzasında dövlət kəndliləri bütün kəndlilərin 36,2 %-ni, sahibkar kəndliləri 63,8 %-ni təşkil edirdi. Şərur-Dərələyəz qəzasında bu göstəricilər müvafiq olaraq 78,5 % və 21,5 % idi [183, s. 103-106]. Rəqəmlərdən göründüyü kimi, Naxçıvan qəzasında sahibkar, bölgənin digər qismini əhatə edən Şərurda isə dövlət kəndliləri üstün idi. Tiyul şərti torpaq mülkiyyətinin ləğvilə əlaqədar olaraq, həmin torpaqlar xəzinəyə verilmiş, bunun nəticəsində bölgədə dövlət torpaqlarının miqdarı artmışdı. XIX əsrin sonlarına aid məlumata görə, Naxçıvan bölgəsində torpaq mülkiyyətinin formaları arasında belə bir nisbət formalaşmışdı: Naxçıvan qəzasında əkin üçün yararlı olan 35.988 desyatin torpaqdan 22.719 desyatini (63,63 %) dövlət torpaqları, 10.044 desyatini (27,81 %) ali silkin torpaqları, 3.085 desyatini (8,57 %) vergi verən silkin torpaqları, qalanları isə şəhər torpaqları (139 desyatin) və dini idarələrə məxsus torpaqlar (1 desyatin) idi. Şərur-Dərələyəz qəzasında isə 59.107 desyatin əkinə yararlı torpaqdan 33.613 desyatini (56,87 %) dövlət torpaqları idi. Ali silkə məxsus torpaqlar 4.463 desyatin (7,55 %), mülkədar torpaqları 1924 desyatin (3,25 %), müxtəlif silklərə məxsus olan torpaqlar 5.455 desyatin (9,23 %) idi. Qalan torpaqlar vergi verən silkə (482 desyatin) və dini idarələrə (1desyatin) məxsus idi [145, s. 80].

Dövlət kəndlilərinin istifadə etdikləri pay torpaqlarının strukturu haqqında XIX əsrin 80-ci illərində aparılmış tədqiqatın nəticələri məlumat verir. Naxçıvan qəzasında dövlət kəndlilərinin 58.898 desyatin pay torpaqlarının 234,7 desyatini həyətyanı torpaqlar, 527,9 desyatini bağlar, 13,684 desyatini əkin yeri, 502 desyatini biçənəklər, 41.949,1 desyatini otlaq və yararsız torpaqlar idi. Şərur-Dərələyəz qəzasının dövlət kəndlilərinin 99.936 desyatin pay torpağının 115,7 desyatini həyətyanı torpaqlar, 604,4 desyatini bağlar, 32.092,5 desyatini əkin yerləri, 793 desyatini meşə, 2.527,8 desyatini biçənək, 62.802,6 desyatini otlaq və yararsız

torpaqlar təşkil edirdi [183, s. 305-390].

Naxçıvan qəzası üzrə tədqiqata cəlb edilmiş 47 dövlət kəndində hər bir kəndli həyətinə düşən əkin və biçənək 7,77 desyatin idi. Adambaşına isə (qadınlar da nəzərə alınmaqla) 0,92 desyatin pay torpağı düşürdü [160, s. 539]. Təbii ki, bu orta rəqəm kənddəki real vəziyyəti tam aydınlaşdırmır, çünki pay torpaqları kəndlilər arasında qeyri-bərabər bölünmüşdü. Aztorpaqlı kəndlilərlə birlikdə xeyli torpaq sahəsinə malik olan dövlət kəndliləri də var idi, yəni kənddə müəyyən təbəqələşmə prosesi baş vermişdi. Bu hal kənd icmalarında torpaqların icma üzvləri arasında dörd ildən bir həyata keçirilən bölgüsünə də təsir göstərmişdi. Varlı kəndlilər hər vasitə ilə belə bölgünün həyata keçirilməsinə mane olurdu.

Dövlət kəndində varlı təbəqənin ayrılmasının digər səbəbləri də var idi. Bunlardan biri də pay torpaqlarının çəpərlənməsi ilə bağlı idi. Bu torpaqlarda bağ salınır və ya digər təsərrüfat işləri həyata keçirilirdi. Çəpərlənmiş torpaqlar icmalıqla istifadə olunan torpaqlar sırasından çıxarılır və mənimsənilirdi. Həyətyanı torpaq sahələrinin genişləndirilməsi də son nəticədə istifadədə olan torpağın ümumi miqdarının artmasına təsir göstərirdi, çünki bu vasitədən daha çox varlı kəndlilər istifadə edirdilər. Varlı kəndlilərin torpaqlarının artmasının bir yolu da öz həmkəndlilərinin torpaqlarını zəbt etməsi idi. Onlar mülkədar torpaqlarını satın almaqla da təsərrüfatlarını genişləndirirdilər.

Kəndin bir qütbündə varlı təbəqə əmələ gəldiyi kimi, digər bir qütbündə torpaqsız və ya yoxsul kəndlilər formalaşırdı. Bunun əsas səbəbləri içərisində dövlət kəndlilərinin bir qisminin varlanması üçün tətbiq etdikləri üsulların həmkəndliləri üçün əks-təsir göstərməsi (icma torpaqlarının bölüşdürülməsinə göstərilən əngəllər, onların torpaqlarının zəbt edilməsi və i.a.) idi. Bununla birgə mülkədarlar da dövlət kəndlilərinin pay torpaqlarını müxtəlif vasitələrlə (zəbt etmə, satın alma və s.) ələ keçirirdilər. 1887-ci il məlumatına görə, Naxçıvanda 229 torpaqsız kəndli həyəti var idi. Onların əksəriyyəti torpaqlarını satmağa məcbur olmuşdu [184, s. 129-130].

Dövlət kəndində mövcud torpaq münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi də mühüm problemlərdən idi. Lakin çarizm Rusiyanın mərkəzi quberniyalarından fərqli olaraq Cənubi Qafqazda, o cümlədən Naxçıvan bölgəsində bu məsələyə gec reaksiya verdi. Belə ki, 1866-cı il noyabrın 26-da verilmiş qanunla Rusiyanın 36 quberniyasındakı dövlət kəndlilərinə pay torpağı təhkim edilməsi qərara alınmış, 1886-cı il 12 iyul qanunu ilə dövlət kəndlilərinə həmin pay torpaqlarını satın almaq hüququ verilmişdi. Cənubi Qafqazda isə 1 may qanunu ilə Zaqafqaziya quberniyalarında yaşayan dövlət kəndlilərinin torpaq quruluşunun əsas şərtləri haqqında Əsasnamə təsdiq edildi [124, s. 266-269]. Həmin qanuna görə, dövlət kəndlilərinin torpaqları onların daimi istifadəsinə verildi.

Naxçıvan bölgəsində torpağın bir hissəsi sahibkarların əlində idi. Bu torpaqların bir hissəsi şəxsi istifadə üçün ayrılmış, digər hissəsi isə pay torpağı

kimi kəndlilərə verilmişdi. Sahibkar kəndində hüquqi məsələlərin həllində 1846-cı il 6 dekabr reskripti mühüm əhəmiyyət kəsb edir [126, s. 181-212]. 12 maddədən ibarət olan reskriptin birinci maddəsi ilə Rusiya hökumətinin bəzi şəxslərə bəxşiş etdiyi torpaqlarla bərabər müsəlman əyalətlərinin Rusiyaya birləşdirilməsi dövründə onların nəsillərinin sahib olduqları və ixtiyarında olan bütün torpaqlar irsi mülkiyyət kimi təsdiq olunurdu [158, s. 105]. Həmin reskript əsasında 1847-ci il 20 aprel və 28 dekabr, həmçinin 1851-ci il 8 iyun Əsasnamələri qəbul edilmişdi.

Birinci əsasnamə Şamaxı və Dərbənd quberniyalarının bəylərinə, ikinci Borçalı, Qazax və Şəmşəddil distansiyalarının ağalarına, üçüncü əsasnamə isə İrəvan quberniyası və Tiflis quberniyasının Axalsıx qəzasına həsr edilmişdi. Lakin sonuncu əsasnamə Krım müharibəsinin (1853-1856-cı illər) başlanması ilə əlaqədar olaraq həyata keçirilmədi .

Sahibkar kəndində torpaq münasibətlərinin tənzimlənməsi sahəsində işlər Rusiyada 1861-ci il 19 fevral kəndli islahatından sonra genişləndi. Ali silkin dairəsini müəyyən etmək üçün bəy komissiyaları yaradıldı. 1866-cı il mayın 23-də İrəvan bəy komissiyası fəaliyyətə başladı. Komissiyanın qərarına görə, 282 nəslin ali silkə məxsusluğu təsdiq edildi, 304 nəslin belə mənsubiyyəti qəbul olunmadı. Naxçıvan və Ordubad qəzalarında isə 128 nəslin irsi, 12 nəslin isə şəxsi bəy dərəcəsi tanındı, ümumilikdə 116 nəslin hüququndan imtina olundu. Bu və digər hazırlıq tədbirlərindən sonra 1870-ci il mayın 14-də Əsasnamə təsdiq edildi [123].

Naxçıvan bölgəsində 1870-ci il 14 may islahatının gedişi və nəticələrinin müəyyən edilməsi sahibkar kəndində yeni münasibətlər formalaşdırdı. Digər quberniyalarda olduğu kimi, İrəvan quberniyasında da noyabrın 8-də kəndli idarələri açıldı. Quberniya kəndli işləri üzrə altı barışıq şöbəsinə bölündü. Naxçıvan bölgəsi I, II və III şöbələrə daxil oldu. Bu şöbələr ali silkə mənsub olan sahibkarların mülkləri üzrə torpaq nizamnamələri tərtib etməli idi. Naxçıvanda üç şöbə üzrə 126 belə mülk var idi. Torpaq nizamnamələrinin tərtibi 1871-1878-ci illərdə həyata keçirildi. Naxçıvan qəzasında 3804 həyəti əhatə edən 104 kənd, Şərur-Dərələyəz üzrə isə 816 həyəti əhatə edən 34 kənd üzrə torpaq nizamnaməsi tərtib edildi [200, s. 110-111].

Naxçıvanda 30 şərikli mülk (ali silkə mənsub olan və olmayanların birgə mülkü) və ali silkə mənsub olmayan mülkədarların 20 mülkü var idi. Birinci halda torpaq nizamnaməsi şərikli mülkün ali silkə mənsub nümayəndəsinin torpağı üzrə aparılırdı. İkinci halda isə problem 1877-ci il 15 sentyabr Əsasnaməsilə həll edildi, yəni 1870-ci il Əsasnaməsinin müddəaları onlara da şamil olundu. Ali silkə mənsub olmayan mülkədarların mülkləri üzrə torpaq nizamnamələrinin tərtibi 1887-ci ilə kimi davam etdi. Şərikli mülklərə gəldikdə isə Qafqazın baş rəisi yanındakı Şuranın 1883-cü il 9 noyabr tarixli qərarı ilə bu mülklərin ali silkə məxsus hissələri üçün tərtib olunmuş torpaq nizamnamələrinə ali silkə mənsub olmayan hissə haqqında əlavə protokollar daxil edildi. Bu proses 1890-cı illərin

əvvəllərinə kimi davam etdi. Əlavə protokolların tərtibi zamanı aydın oldu ki, ali silkə mənsub olmayanların bir çoxu mülklərini satın almışlar. Barışıq şöbələri belə mülklərə əlavə protokolları Dövlət Şurasının xüsusi göstərişindən sonra tərtib edirdi. Bu göstərişlə 1879-cu il fevralın 22-nə qədər mülkləri satın almış şəxslər mülkədar təbəqəsinə daxil olundu [200, s. 111-112].

1870-ci il kəndli islahatının həyata keçirilməsinin digər bir məsələsi kəndlilər tərəfindən pay torpaqlarının vıkup (ödənc) yolu ilə alması idi. Naxçıvan kəndlilərinə vıkup əməliyyatı üçün 918.275 manat pul tələb edilirdi [167, s. 26]. Lakin kəndlilərdə bu qədər vəsait yox idi. Ona görə də vıkup əməliyyatında elə bir irəliləyiş baş vermədi.

Naxçıvan bölgəsində tiyul torpaqları və burada yaşayan kəndlilərin tiyuldarlara münasibətinin hüquqi vəziyyəti də aydınlaşdırılmalı idi. Bu məsələ Naxçıvan və İrəvan xanlığının işğalı və onların əsasında "Erməni vilayəti" yaradılmasından sonra açıq şəkildə ortaya çıxdı. "Çar hökuməti" digər əyalətlərdə rəhbər tutduğu "idarəçilik" tezisi əvəzinə, burada "icarəçi" terminini işə salmışdı. Baş komandan qraf Paskeviçin 25 dekabr 1828-ci il tarixli 3788-№ li sərəncamı ilə yeni tiyulların meydana gəlməməsi üçün qərara almışdı ki: a) tiyullar bundan sonra varislərə ötürülməsin; b) qanunsuz hərəkətlərə görə və xaricə qaçanlardan, habelə xəyanət edənlərdən tiyullar təcili alınsın; c) müxtəlif şəxslərin ömürlük istifadəsində saxlanılan tiyulların əhalisindən yeni qaydada xəzinə sakinlərindən yığılan vergilərdən artıq heç nə alınmasın. Bu sərəncam 1829-cu il fevralın 12-də mərkəzi hökumət tərəfindən bəyənilmiş və Ali təsdiqdən də keçmişdi [1, s. 101]. 1836-cı il iyulun 5-də tiyul mükəlləfiyyətinin ölçüsü haqqında qaydalar müəyyənləşdirilmişdi: bu mükəlləfiyyət qabaqkı ölçüdə – məhsulun 1/5 həcmində müəyyən edilmiş, tiyuldarın qabaqkı hökumət dövründə istifadə etdiyi mükəlləfiyyətlərin əvəzinə onun xeyrinə hər həyət üzrə 2 manat 50 qəpik pul qoyulmuşdu [1, s. 102].

Tiyul torpaqları ilə bağlı məsələ yenidən 1851-ci ilin iyununda verilmiş əsasnamədə əksini tapmışdı. Burada tiyuldarlar irsi və ömürlük olmaqla iki yerə ayrılırdı. Lakin bu əsasnamə icra olunmadı. 1875-ci il mayın 14-də "İrəvan quberniyasında tiyul vergilərinin toplanması qaydasının dəyişdirilməsi haqqında" yeni əsasnamə verildi. Tiyul yalnız ömürlük hesab edilir və kəndlilərin tiyuldarlara ödədikləri vergilərin əvəzinə onlara ömürlük təqaüd təyin edilirdi. Bundan sonra tiyuldar kəndliləri tiyul vergisindən azad edilirdi. Onlar vergiləri dövlətə verməli idilər. Əsasnamə avqustun 25-də İrəvan quberniyasında olan tiyuldarlar və tiyulların siyahısı ilə İrəvan quberniyasına göndərildi. Bu siyahıya görə Naxçıvan qəzasının Xok, Təzəkənd, Ərəzin, Camaldın və Kırna kəndləri, Şərur-Dərələyəz qəzasında isə Aralıq, Xan kəndləri tiyuldarlara məxsus idi [200, s. 116]. XIX əsrin sonları – XX əsrin əvvəllərində tiyuldarlar öldüyündən həmin kəndlər xəzinənin ixtiyarına keçdi.

Naxçıvan bölgəsində torpaqdan istifadədən bəhs edərkən icarə münasibətlərinə də nəzər salmaq lazımdır. Kənddə torpaq icarəsi bir sıra səbəblərlə bağlı idi. Onların içərisində aztorpaqlılıq, kəndli təsərrüfatının zəruri vasitələrlə (əmək aləti, toxum, iş heyvanları və s.) təmin olunmaması, sosial təbəqələşmə və b. ayrıla bilər [38, s. 5]. Bu halların Naxçıvan bölgəsində də mövcudluğu torpaq icarəsinin yaranmasını zəruri etmişdi. Torpaq ayrı-ayrı həyətlər tərəfindən, qrup halında, bəzən isə icmalıqla icarəyə götürülürdü. Həm xüsusi sahibkarlar, həm də xəzinə torpağı icarəyə verirdi. Birinci halda icarə şifahi razılığa əsaslandığı halda, ikincidə dövlət hakimiyyət orqanları tərəfindən rəsmiləşdirilirdi. Şərur-Dərələyəz qəzasında 9326 desyatin sahibkar torpağından (1894-cü il) 5.282 desyatini (56,64 %) icarəyə verilmişdi [182, s. 31]. İcma daxili icarə zamanı torpaq kəndlilər tərəfindən öz həmkəndlilərinə və ya digər kəndin sakinlərinə icarəyə verilirdi. İcarə müddəti müxtəlif idi. Bir və ya daha çox müddətə (iki-üç il) icarə var idi. İcarə haqqı pul və ya natura ilə ödənilirdi. XIX əsrin sonlarında Naxçıvan bölgəsində payızlıq taxıl əkini sahələrinin hər desyatini 22 manat 4 qəpik, suvarılmayan sahələrin hər desyatini 90 manat, eyni halda yazlıq əkin sahələrinin hər desyatini 23 manat 7 qəpik idi [120, s. 8]. Biçənək yerlərinin qiyməti 10 manat 64 qəpik, otlaqlarınkı 20 manat 52 qəpik idi [185, s. 56-57]. Natura ilə icarədarlıqda yarıdarlıq üstün idi. Bununla birgə məhsulun 4/30, 5/30, yaxud da 19/30-na icarə də mövcud idi [117, s. 3].

İcarə münasibətləri hesabına kənddə mövcud olan torpaq çatışmazlığı aradan qaldırılır və istehsal səviyyəsi artırdı. Azərbaycanda, o cümlədən Naxçıvan bölgəsində süni suvarmanın böyük əhəmiyyət kəsb etməsini nəzərə alsaq, su sahibliyi və sudan istifadənin aqrar münasibətlər sistemində mühüm yer tutduğunu görərik. Azərbaycanın Rusiya tərəfindən işğalından 1914-cü ilə qədərki dövrdə su sahibliyi və sudan istifadənin tarixini tədqiq edən İ.Talıbzadə məsələlərin öyrənilməsini iki əsas mərhələyə bölür. Birinci mərhələ Azərbaycanın Rusiya tərəfindən ilhaq edilməsindən "Zaqafqaziyada suvarma və sudan istifadə haqqında" 1890-cı il 3 dekabr qanununa qədərki dövrü əhatə edir. Bu dövrdə suvarma üzrə inzibati bölgü, suvarma idarə sistemi adət qaydaları ilə nizama salınırdı. Suvarma vasitələri isə yenə də ibtidai texniki səviyyədə qalırdı. Suvarılan torpaqların sahəsində artım nəzərə çarpmırdı. 1890-cı il 3 dekabr qanununun kapitalizmin inkişafı dövründə verilməsi həmin tarixi ictimai-iqtisadi mərhələnin tələblərini özündə cəmləşdirməyə bilməzdi. Buna görə də qanunun həyata keçirilməsi ilə əlaqədar olaraq suvarma üzrə yeni inzibati bölgünün və idarə sistemlərinin yaradılması, sudan istifadə qaydalarının rəsmiləşdirilməsi, suvarmanın ictimai-iqtisadi səviyyəsinə nəinki təsir edirdi, onun inkişafına daha da təkan verirdi və s. [185, s. 145]. Bu fikri Naxçıvan bölgəsinə də şamil etmək olar.

Su adətən mənbəyinə görə iki kateqoriyaya bölünürdü. Birinci, təbii sular (göllər, çaylar, bataqlıqlar, yağış suları); ikinci, əmək və xüsusi vəsait qoyulmaqla

çıxarılan sular (kəhrizlər, quyular, arxlar və b. suvarma tikililəri).

Sudan istifadənin təşkili üçün su administrasiyası təşəkkül tapmışdı. Bura baş inzibati mirab və cuvarlar daxil idi. Mirab bu sistemdə geniş hüquqlara malik idi. Onlar bu hüquqlarından sui-istifadə etməklə, xeyli gəlir əldə edir, öz təsərrüfatlarını yaratmağa nail olurdular [117, s. 100]. Cuvarlar sudan istifadəyə nəzarət etməli idilər. İcma daxilində su işlərinə xüsusi seçilmiş vəkillər və ya dağbaşılar baxırdı. Suyun təsərrüfatlar üzrə bölgüsü zamanı torpaq sahəsinin miqdarı, əkilən bitkinin növü nəzərə alınırdı. Kəndli həyətinə torpağının sahəsinə uyğun olaraq verilən suyun ölçü vahidi "bel" (saniyədə 30 litr) adlanırdı. Naxçıvanda suvarmanın həlledici rol oynadığı yerlərdə 1,5 bel miqdarında olan "zorba bel" və ya 4-6 bel miqdarında olan "dəyirman" kimi su vahidləri tətbiq olunurdu. Su administrasiyası bölgü zamanı yoxsul kəndlilərin mənafeyini tapdalayırdı. Bu hal onların narazılığına səbəb olur və haqlı şikayətlər yaradırdı [117, s. 100].

1890-cı il qanununun qəbul edilməsindən sonra Naxçıvan bölgəsində də suvarma sahəsində müəyyən işlər görülməsi zərurəti ortaya çıxdı. Suvarma suyu üzərində hüququn müəyyən edilməsi üçün dairə su idarələri açılmağa başladı. 1897-ci il iyulun 15-dən VIII su sahəsinin Gərnibasar, Zəngibasar, Naxçıvan və Əlincə su dairələrində də belə idarələrin açılması elan olunmuşdu. Bütün Zaqafqaziya üzrə mövcud 94 su dairəsində açılmış 11 su idarəsi ancaq Azərbaycan ərazisini əhatə edirdi. Bu da, şübhəsiz ki, burada suvarma təsərrüfatının böyük əhəmiyyət kəsb etməsi və suvarma suyuna tələbatın həddən artıq olması ilə əlaqədar idi [77]. Suvarma suyu üzərində hüquqi məsələlərin müəyyənləşdirilməsi ilə birgə mövcud vəziyyətin öyrənilib, yeni tədbirlər görülməsi də irəli sürülürdü. İrəvan qubernatorunun Qafqaz Baş mülki rəisinə 1899-cu il iyulun 26-da yazdığı məktub belə bir məzmunda idi [77]. Lakin faktların araşdırılması göstərir ki, sonrakı dövrlərdə Naxçıvan bölgəsinin süni suvarma həyatında elə bir radikal dəyişiklik baş vermədi.

Yuxarıda deyilənlər XIX əsrdə rus işğalından sonra Naxçıvan bölgəsində kənd təsərrüfatının əsas inkişaf xüsusiyyətləri, eləcə də aqrar münasibətlərin və islahatların başlıca yönləri barədə müəyyən təsəvvür yaradır.

4. Naxçıvanda sənətkarlıq və sənaye. Kapitalist münasibətlərinin meydana gəlməsi və inkişafı

XIX əsrdə bütün Azərbaycanda olduğu kimi, Naxçıvan bölgəsində də əhalinin əsas məşğuliyyət sahələrindən biri sənətkarlıq idi. Lakin əvvəlki mərhələdə, yəni xanlıq dövründə sənətkarlığın iqtisadiyyatda yerinə dair elmi mənbələrdə fərqli fikirlər mövcuddur. Belə ki, Naxçıvan xanlığına dair tədqiqatın müəllifləri yazırdı: "... kənd təsərrüfatı ilə müqayisədə sənətkarlıq və ticarət xanlığın

təsərrüfat həyatında cüzi yer tuturdu. Təsadüfi deyildir ki, Naxçıvan xanlığında əhalinin məşğuliyyəti çox zaman bilavasitə əkinçiliklə bağlı idi. Belə vəziyyət əksər hallarda natural təsərrüfatın çiçəklənməsi üçün şərait yaradırdı" [28, s.78]. XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsində Naxçıvan diyarının tarixi coğrafiyasına dair tədqiqatın müəllifi S.Budaqova da sənətkarlığın tarixi coğrafiyasından bəhs edərkən yuxarıda qeyd edilən fikrə şərik çıxır: "Öyrəndiymiz dövrdə Naxçıvan diyarının əsas şəhərləri olan istər Naxçıvan, istərsə də Ordubadda sənətkarlıq o qədər də yüksək səviyyədə olmamışdır" [21, s.49]. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlığa dair monoqrafiyanın müəllifi C.Mustafayev isə belə bir fikir söyləyir: "Mövcud materialların təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, Naxçıvanın iqtisadi həyatında sənətkarlıq istehsalı həlledici rola malik idi" [56, s. 51]. Göründüyü kimi, eyni problemə dair bir-birinə zidd olan mülahizələr bildirilir. Fikrimizcə, hər iki halda ifrata varılmışdır. Naxçıvan xanlığında kənd təsərrüfatı ilə sənətkarlığın inkişafı vəhdət təşkil edirdi.

İstər xanlıq dövründə, istərsə də Rusiya tərkibində Naxçıvan bölgəsində əsas sənətkarlıq mərkəzləri Naxçıvan və Ordubad şəhərləri idi. Bu şəhərlərdə Rusiya işğalı ərəfəsi və işğaldan sonrakı ilk dövrdə sənətkarlığın vəziyyəti İ.Şopenin məlum əsərində və 1831-ci ilə dair kameral təsvir materiallarında əks olunmuşdur. İ.Şopenin məlumatına görə, Naxçıvanda ticarət və sənətkarlıqla məşğul olanlar 715 nəfər idi. Onlardan 400 nəfərdən çoxu bilavasitə sənətkarlıqla məşğul olurdu [203, s. 343-344]. 1831-ci il kameral təsvirində Naxçıvan şəhərində olan sənətkarların sənət sahələri üzrə siyahısı da verilmişdir. Buradan aydın olur ki, Naxçıvanda 50-dək sənət sahəsi var idi. Onların içərisində toxucular (126 nəfər), başmaqçılar (56 nəfər), xarratlar (38 nəfər), papaqçılar (35 nəfər) və b. üstünlük təşkil edirdi [5].

Sənətkarlar evlərdə işləməklə bərabər, emalatxanalarda da birləşirdi. Sənətkarlıq emalatxanaları əsasən karvansara və bazarlarda yerləşirdi. Naxçıvan şəhərindəki 279 sənətkar emalatxanasından 31-i karvansaralarda, 248-i isə bazarda yerləşmişdi. Emalatxanalardan üçü boyaqçılara, ikisi dabbaqlara, qırxı isə pambıq parça toxuyanlara və xalçaçılara aid idi [56, s. 51]. Naxçıvan şəhərində sənətkarlıq emalatxanalarının məhəllələr üzrə yerləşməsi vəziyyətinə diqqəti cəlb edən C.Mustafayev maraqlı nəticəyə gəlmişdir: "Sənətkarların ayrı-ayrı məhəllələr üzrə bölgüsü də müəyyən maraq doğurur. Bu bölgüdən aydın olur ki, sənətkarların böyük əksəriyyəti Naxçıvanın köklü sakinləri olub, əsasən onun qədim məhəllələrində məskunlaşmışdılar. Məsələn, Naxçıvan sənətkarlarının 97 nəfəri Əlixan məhəlləsində, 91 nəfəri Şahab məhəlləsində, 56 nəfəri isə Sarbanlar məhəlləsində yaşayırdılar" [56, s. 51-52]. Dabbaqxanalar istehsal xüsusiyyətlərinə görə çayı çirkləndirirdi. Bu faktı qeyd edən İ.Şopen şəhər bağlarına axan suyun keyfiyyətinin aşağı olduğunu və içməyə yararsız hala düşdüyünü bildirir [203, s. 857].

Tədqiqatçılar haqlı olaraq yazırlar ki, "sənətkarlığı təkcə şəhərə aid etmək

düzgün olmazdı. Çünki kənd yerlərində əhalinin tələbatını kənd sənətkarları, xüsusilə dəmirçilər, dulusçular və s. təmin edirdilər. Kənd yerlərində sənətkarlığın və kustar sənayenin inkişafında aztorpaqlı kəndlilərin rolu daha böyük idi. Çünki son dərəcə az olan məhsulu yığdıqdan sonra bekar qalan kəndlilər istər-istəməz sənətkarlıq və kustarçılıqla məşğul olurdular" [28, s. 42].

Qeyd edək ki, Naxçıvan xanlığında əsas sənətkarlıq sahələrindən biri toxuculuq idi. Naxçıvanda pambıq, yun və barama istehsalı burada müvafiq parça toxuculuğuna şərait yaradırdı. Faktlardan aydın olur ki, pambıq-parça toxuculuğu sonrakı mərhələdə daha geniş yayılmışdır. İ.Şopenin yazdığına görə, burada sənətkarların əksəriyyətini toxucular təşkil edirdilər. Hər bir ailənin öz dəzgahı vardı ki, bu dəzgahlarda da qadınlar iplərdən bez toxuyur və pambıq parça hazırlayırdılar [203, s. 851]. Naxçıvan xanlığında da toxucular emalatxanalardan çox evlərdə çalışırdılar. Toxuculuq onunla sıx bağlı olan boyaqçılığın da inkişafına şərait yaradırdı. Rusiya işğalı ərəfəsində Naxçıvan şəhərində dörd boyaqxana (3-ü Naxçıvan, 1-i Ordubadda) var idi [130, s. 19].

Naxçıvanda əhalinin maldarlıqla məşğul olması burada gön-dəri emalının təşəkkülünə, dabbaqçılıq sənətinin və onunla bağlı digər sənət sahələrinin (ayaqqabı istehsalı və b.) inkişafına səbəb olmuşdu. Ordubadda dabbaqçılıq emalatxanaları fəaliyyət göstərirdi.

Naxçıvanda sənətkarlıq sahələrinin strukturundan bəhs edərkən duz istehsalını da xüsusi qeyd etmək lazımdır. Naxçıvan Abşeron ilə birlikdə Azərbaycanın duz istehsalı mərkəzlərindən biri idi. Bir sıra müəlliflər, o cümlədən İ.Şopen Naxçıvanda keçmiş zamanlardan duz çıxarılmasını qeyd edir. İ.Şopen yazırdı ki, dağda təsadüf edilən çoxlu yarğanlar burada hələ qədim zamanlardan duz çıxarıldığını sübut edir [203, s. 835]. Bu dövrdə duz çıxarılması kəndlilərin məcburi əməyinə əsaslanırdı [193, s. 232]. XIX əsr boyunca duzçuluq inkişaf etmişdi.

Naxçıvan bölgəsində əhali qeyd edilən sənətkarlıq sahələri ilə birgə metal emalı və metalişləmə, inşaat materialları istehsalı və tikinti sənətləri, ağac məmulatı istehsalı, dulusçuluq və b. sənət sahələri ilə də məşğul olurdu. Naxçıvanda şüşə istehsalına dair fakt da maraq doğurur. S.Budaqova yazır ki, Naxçıvan şəhərində şüşəsazlıq inkişaf etmiş sənət sahələrindən biri idi. Burada hasil olunan adi şüşələrlə yanaşı, şəbəkələrin hazırlanmasında istifadə olunan al-əlvan şüşələr də hazırlanırdı. Son zamanlara kimi elə təsəvvür yaranmışdı ki, Azərbaycanda al-əlvan şəbəkə şüşələri yalnız Şəkidə mövcud idi. Lakin yuxarıda gətirilən fakt və digər mənbələr göstərir ki, bu sahə Naxçıvanda da formalaşmışdı, bölgənin şüşə istehsal edən sənətkarları öz məhsullarını xaricə göndərmək iqtidarında idilər. Bu isə həmin sənətkarların yüksək iş qabiliyyətinə malik olmalarına işarədir [21, s. 51].

Naxçıvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra da sənətkarlıq iqtisadiyyatda özünəməxsus rolunu saxlamaqda idi. Şimali Azərbaycanın, o cümlədən Naxçıvan və İrəvan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalını

qəti şəkildə təsbit edən 1828-ci il Türkmənçay müqaviləsindən Rusiya müstəmləkəçiliyinin sonunadək olan dövrdə sənətkarlığın vəziyyətinin öyrənilməsinə müxtəlif aspektdən yanaşmaq mümkündür. Burada sənətkarlığı kompleks şəkildə tədqiq edib, sonra sənaye istehsalına keçmək olar. Lakin akademik Ə.Sumbatzadənin "Azərbaycanın XIX əsr sənayesinə dair" monoqrafiyasında tətbiq edilən üsul bəzi qeydlərlə səmərəli sayıla bilər. Burada qeyd edilən dövrdə Azərbaycan sənayesi aşağıdakı kimi nəzərdən keçirilir: 1) paltar, ayaqqabı və ev əşyaları istehsalı (buraya ipək parça müəssisələri, gön-dəri istehsalı, papaq və ayaqqabı hazırlanması aid edilir); 2) təsərrüfat – məişət və tikinti materialları istehsalı; 3) dağ-mədən və dağ-zavod sənayesi; 4) yeyinti sənayesi; 5) yüngül sənaye. Göründüyü kimi, birinci qrupda verilən istehsal sahələri yüngül sənayedə də birləşdirilə bilər və s. Buna baxmayaraq qeyd olunan bölgünün saxlanması Naxçıvan bölgəsindəki müvafiq vəziyyətin dərindən öyrənilməsinə və digər yerlərlə müqayisələr aparılmasına imkan verir.

Paltar, ayaqqabı və ev əşyaları istehsalı ilə bağlı olan sənətkarlıq sahələri Naxçıvanda da geniş yayılmışdı. Akademik Ə.Sumbatzadə yazır ki, bizim əlimizdə olan məlumatlara görə, XIX əsrdə Azərbaycanda şəhər əhalisinin artımı, bir qayda olaraq, şəhər sənətkarlarının sayının artması ilə müşahidə olunmuşdur [193, s. 49]. Belə ki, Şimali Azərbaycanın şəhər əhalisi XIX əsrin 30-cu illəri ilə müqayisədə 90-cı illərin sonunda 354.498 nəfərə çatmış, yəni 255.138 nəfər artmışdır. Bu dövrdə Naxçıvan şəhərinin əhalisi 3.645, Ordubad şəhərinin əhalisi isə 639 nəfər çoxalmışdı. Naxçıvan və Ordubad şəhərlərinin əhalisinin say dinamikası ilə burada sənətkarların sayı arasında əlaqə özünü göstərmişdir. Şimali Azərbaycanın Bakı, Yelizavetpol, Şuşa kimi şəhərləri ilə müqayisədə Naxçıvan və Ordubad şəhərlərində sənətkarlıq istehsalının eyni səviyyədə qalması qeydə alınır. Ə.Sumbatzadə bu şəhərlərdə sənətkarlığın statik səviyyədə qalmasını şəhər əhalisinin sayındakı vəziyyətlə əlaqələndirir. Sonrakı dövrdə yalnız Naxçıvanda şəhər əhalisinin sayında dəyişiklik baş verir, 1902-ci ildə burada əhali 8845 nəfərə çatır, Ordubadda isə əvvəlki kimi 4929 nəfər var idi [193, s. 57]. Naxçıvan və Ordubad şəhərlərində fəaliyyət göstərən sənətkarlıq sahələrinin dairəsi və hər bir sahə üzrə sənətkarların sayına gəlincə deməliyik ki, toxucular, başmaqçılar, dəmirçilər və dülgərlər daha çox idi.


Naxçıvan və Ordubad şəhərlərində olduğu kimi, kənd yerlərində də paltar və ev əşyaları istehsalı ilə məşğul olan sənətkarlıq sahələri üstün yer tuturdu. 1845-ci ilə aid olan bir məlumatda Naxçıvan qəzasında istehsal olunan yun və ipək məmulatları və onların satışından bəhs edilir. Buradan aydın olur ki, Naxçıvan qəzasında 1050 xalça istehsal olunmuş, onlardan 400-ü 2000 manata satılmışdı. Həmin dövrdə Naxçıvan bölgəsində müvafiq olaraq istehsal olunan 3000 çuldan 1500-ü 1500 manata, 2500 keçədən 1500-ü 700 manata, 5000 çuvaldan 2000-i 1.000 manata, 10.000 yun corabdan 5.000-i 250 manata və s. satılmışdı [193, s. 44].



Şəddə. Naxçıvan qrupu. Yun. Xovsuz. XIX əsrin ortaları.




Şəddə. Naxçıvan qrupu. Yun. Xovsuz. XIX əsr.



At çulu. Naxçıvan qrupu. Yun. Xovsuz. 1850




Xalça. Naxçıvan qrupu. Yun. Xovlu. 1870



Xurcun üzü. Naxçıvan qrupu. Yun. Xovsuz. 1880



Şəddə. Naxçıvan qrupu. Yun. Xovsuz. 1880



Zili. Naxçıvan qrupu. Yun. Xovsuz. 1880

XIX əsrin 80-ci illərində Naxçıvan qəzasında dövlət kəndlilərinin iqtisadi məişətinə dair aparılan tədqiqat zamanı kənddə ev əşyaları və ayaqqabı istehsalına aid sənətkarlıq sahələrinin yayıldığı aşkar edilmişdi.

Naxçıvan qəzasının qərb hissəsinə dair tədqiqatda burada istisnasız olaraq ev üçün palaz və yerli kobud mahud toxunduğu bildirilirdi. Həmin materiallarda Ordubad sahəsinin Unus kəndi sakinlərinin satış üçün yundan palaz və çuval istehsal etdikləri qeyd olunur [164, s. 603-604]. Naxçıvan, Ordubad və Dərələyəzə aid tədqiqatda kənd yerlərində 910 bez toxucusu olduğu müəyyənləşdirilmişdi [136, s. 21].

Təsərrüfat-məişət və tikinti materialları istehsalı da Naxçıvanın iqtisadi həyatının mühüm tərkib hissəsi idi. Bölgədə sabun bişirilməsi, piyəritmə-şam istehsalı, boyaqçılıq, dulusçuluq, ağac emalı, metalişləmə kimi sənət sahələri xanlıq dövründəki kimi varlığını davam etdirir, yeni şəraitə uyğun olaraq bəzi inkişaf meyilləri özünü göstərirdi. Bunların içərisində elə istehsal sahələri var idi ki, yalnız Naxçıvanda qalırdı. XIX əsrin 70-ci illərində Bakıda bir tərəfdən parafin şamları istehsalının başlanması, digər tərəfdən neftdən kerosin alınması işıqlandırmada ənənəvi vasitələrin rolunu azaltmışdı. Buna baxmayaraq, şam istehsalı yalnız Bakıdan uzaq olan Naxçıvan qəzası və Ordubad şəhərində qalırdı. 1871-ci ildə Naxçıvan qəzasında 6, Ordubad şəhərində 4 belə müəssisə var idi. Burada müvafiq olaraq 12 və 8 fəhlə çalışırdı. İstehsal gücü 900 və 676 manat idi. 1876 və 1878-ci illərdə Naxçıvan qəzası və Ordubad şəhərlərində həmin müəssisələrin sayı 5 və 3 olduğu halda, fəhlələrin sayı azalmış, istehsal gücü isə artmışdı. 1878-ci ildə Naxçıvan qəzasındakı müəssisələrdə istehsal gücü 1.500, Ordubad müəssisələrində 900 manat idi [136, s. 124]. Sonrakı illərdə də Naxçıvan bölgəsində şam istehsalı müəssisələri azalır və tədricən belə informasiya da aradan çıxır [125, s. 81].

Naxçıvan bölgəsində boyaqçılıq, xüsusilə dulusçuluq əsas istehsal sahələri olaraq qalırdı. Akademik Ə.Sumbatzadənin fikrincə, Naxçıvan Azərbaycanın əsas dulusçuluq istehsalı mərkəzlərindən biri idi [193, s. 151].

Tikinti materialları ilə məşğul olan sahələrdən kərpic istehsalı, tikinti daşları hazırlanması Naxçıvanda da mühüm əhəmiyyət kəsb edirdi. Lakin burada əhəng hazırlanması Azərbaycanın digər yerlərinə nisbətən geniş yayılmışdı. XIX əsrin sonlarında Naxçıvan qəzasında 4, Ordubadda 2 əhəng istehsalı müəssisəsi var idi. Onların istehsal gücü müvafiq olaraq 1500 və 800 manat təşkil edirdi [193, s. 204-206]. Naxçıvanda dağ-mədən sənayesinin iki sahəsi – daş duz istehsalı və dəyirman daşları çıxarılması və emalı yayılmışdı. Burada daş duz istehsalı əsas yer tuturdu.

1828-ci il Türkmənçay müqaviləsindən sonra Naxçıvan xanlığının Rusiyaya ilhaqı ilə əlaqədar olaraq xanlığın duz mədənləri xəzinənin ixtiyarına keçdi. Naxçıvanda duz istehsalında xəzinə idarəsi ilə birgə iltizam sistemi də tətbiq edilirdi.

1828-1851-ci illəri əhatə edən dövrdə duz istehsalı üç dəfə xəzinənin, üç dəfə isə iltizamçıların ixtiyarında olmuşdu. Bu müddət ərzində xəzinənin gəliri 141.557 manat, iltizamçıların gəliri 1830-cu ildə 1376 manat, 1834-cü ildə 1777 manat, 1835-ci ildə 1599 manat idi. Naxçıvanda duz istehsalından əldə olunan gəlirin artması istehsal olunan duzun miqdarının artmasının nəticəsi idi. 1840-cı illərin sonlarında Naxçıvan duz mədənlərində orta illik hasilat 126.406 pud təşkil edirdi [193, s. 236].

Naxçıvan duz mədənlərində Şıxmahmud kəndlilərinin məcburi əməyindən istifadə edilməsi 1868-ci ilə kimi davam etmişdi. Adətən Naxçıvanda duz istehsalından bəhs edən müəlliflər duz çıxarılmasına dair cədvəl tərtib edərkən illəri ardıcıllıqla verir. Biz isə Naxçıvanda duz istehsalına dair göstəriciləri iki yerə bölməyə üstünlük veririk. 1868-ci ilədək, yəni kəndlilərin məcburi əməyindən istifadəyə qədər və sonrakı illər. Faktik materiallardan aydın olur ki, 1843-cü ildə 97.655 pud, 1844-cü ildə 108.171 pud, 1845-ci ildə 139.339 pud, 1849-cu ildə 139.439 pud, 1852-ci ildə 203.331 pud, 1853-cü ildə 262.331 pud, 1854-cü ildə 349.293 pud, 1855-ci ildə 428.261 pud, 1856-cı ildə 159.455 pud, 1857-ci ildə 154.671 pud, 1858-ci ildə 248.261 pud, 1860-cı ildə 203.800 pud, 1861-ci ildə 233.000 pud, 1863-cü ildə 168.648 pud, 1865-ci ildə 120.600 pud, 1866-cı ildə 161.456 pud, 1867-ci ildə 313.000 pud duz istehsal edilmişdi [193, s. 237-238].

Rəqəmlərdən göründüyü kimi, Naxçıvanda duz istehsalı 1854-1855-ci illərdə ən yüksək həddə çatmışdı. Bunun əsas səbəbi çar hökuməti tərəfindən 1852-ci il avqustun 26-da bütün Cənubi Qafqaz və Qara dəniz limanları üzrə xaricdən duz gətirilməsinin qadağan edilməsi haqqında əsasnamənin nəşri və Krım müharibəsi dövründə (1853-1856) faktik olaraq onun həyata keçirilməsi olmuşdu [193, s. 236-237]. Lakin 1860-cı illərin əvvəllərindən duz istehsalı azalmağa başlamış, yalnız 1867-ci ildə yüksək həddə (313.000 pud) çatmışdı. Bu hal 1862-ci il may ayının 14- də dövlətin duz gəlirlərinə aksiz sistemini tətbiq etməsi ilə izah edilir [193, s. 237]. Doğrudan da, Naxçıvanda duz istehsalına belə bir təsir var idi. Lakin 1867-ci ildə duz istehsalının yüksək həddə çatması həmin vaxt bu təsirin dəf edildiyini göstərir. 1868-ci ildən, yəni məcburi əməyin ləğvindən sonra isə Naxçıvanda duz istehsalı getdikcə azalmağa başlayır, yalnız XIX əsrin 80-ci illərin ortalarından artım baş verir. Fikrimizcə, burada 1868-ci ildə məcburi əməyin ləğvinin təsirini istisna etmək olmaz. Görünür, 1868-ci ildə Naxçıvan duz mədənlərində məcburi əmək ləğv edildikdən sonra istehsalın yeni şəraitdə tənzimlənməsi müəyyən çətinliklərlə müşayiət olunmuşdu.

Lakin bununla birlikdə XIX əsrdə Naxçıvan bölgəsində duz istehsalı, əsasən artan xətlə inkişaf etmişdi. Tədqiqatlarda qeyd edildiyi kimi, "Zaqafqaziyada ən böyük duz ehtiyatının Naxçıvan Muxtar Respublikası ərazisində olduğu çoxdan məlumdur və burada duz istehsalının çoxəsrlik tarixi vardır. Türkmənçay müqaviləsindən sonra yaranmış yeni əlverişli şəraitdə Naxçıvan duz ehtiyatlarının

əvvəlkinə nisbətən daha geniş miqyasda istifadəsinə başlanmışdır. 1837-ci ildə Sust kəndi yaxınlığında ikinci duz mədəni işə salınmışdı. Əgər 1820-ci illərin əvvəllərində Naxçıvanda duz hasilatı 50-60 min puddan çox olmurdusa, XIX əsrin 40-cı illərində duz hasilatı 3 dəfəyə qədər, 80-ci illərdə isə 10 dəfədən çox artmışdır" [57, s. 15].

Naxçıvan duz mədənlərində iltizam sistemi XIX əsrin sonlarınadək mövcud olmuşdur. Mənbələrdə XIX əsrin sonlarında azərbaycanlı sahibkarların duz hasilatındakı mövqelərinin xeyli azaldığı haqqında məlumatlar vardır. Bu dövrdə rusların köməyi ilə Naxçıvan duz mədənləri Azərbaycan sahibkarlarının əlindən alınaraq erməni, yəhudi və b. əcnəbi sahibkarlara verilirdi" [96, s. 72].

Duz istehsalı ilə birgə Naxçıvanda dağ-mədən sənayesinin spesifik bir sahəsi – dəyirman daşı hasilatı və emalı da təşəkkül tapmışdı. Dəyirman daşı mədənləri Daşkəsən dağında (Culfa yaxınlığında) yerləşirdi. Dəyirman daşı hasilatı xəzinə tərəfindən icarəyə verilirdi. 1886-1900-cü illərə dair rəsmi məlumata görə, Naxçıvan qəzasında bu işlə məşğul olan 2 müəssisə fəaliyyət göstərirdi. 1886-1892-ci illərdə burada 4, 1899-cu ildə 40-a qədər adam çalışırdı. İllik məhsuldarlıq 1866-1887-ci illərdə 600 manat, 1900-cü ildə isə 12.000 manat təşkil etmişdi. Belə ki, müvafiq dövrdə fəhlələrin sayı 10 dəfə, istehsal məbləği 20 dəfə çoxalmışdı [193, s. 241-242].

Naxçıvan bölgəsində yeyinti sənayesi unüyütmə, düyütəmizləmə, yağ çalınması, qismən şərabçılıqla təmsil olunurdu. XIX əsrin birinci yarısına aid məlumatlar içərisində unüyütmə müəssisələrinin – dəyirmanların sayından daha çox dəyirmançıların sayından bəhs edilir. 1848-1849-cu illərdə Azərbaycanın beş şəhərində - Bakı, Şamaxı, Lənkəran, Nuxa və Naxçıvanda birlikdə 72-73 dəyirmançı olduğu qeydə alınmışdı. 1864-1865-ci illərdə, bilavasitə Naxçıvan və Ordubad şəhərlərində 20-21 dəyirmançı var idi [193, s. 292]. Akademik Ə.Sumbatzadə XIX əsrin ikinci yarısında dəyirmançılardan bəhs edərkən yazır ki, bir qayda olaraq xırda, xüsusən su dəyirmanları və çəltiyi təmizləmək üçün dinglər çar statistika orqanları tərəfindən qeydə alınmırdı. Lakin elə illər olurdu ki, onları unüyütmə müəssisəsi kimi "fabrik və zavodlar"ın sırasına daxil edirdilər.

Bunun nəticəsində bəzi qəzalara aid məlumatlarda elə illər olurdu ki, dəyirmanlar göstərilmirdi, elə il də olurdu ki, onların sayının yüzlərlə olması qeyd edilirdi. Bu cəhətdən Naxçıvan bölgəsi də istisna deyil. Belə ki, 1890-cı ilədək burada yalnız əsil dəyirmanlar qeydə alınmışdı. XIX əsrin 70-ci illərinin ikinci yarısında Naxçıvanda 30-dək fəhləsi və ildə 15 min manat istehsal göstəricisi olan 2-3 dəyirman qeydə alınmışdı. 1880-ci illərdə isə 15 fəhləsi və illik istehsal gücü 1000 manat olan bir dəyirmandan bəhs edilir. Ordubad şəhərində 1889-cu ildə 9 fəhləsi və 1620 manat istehsal gücü olan 6 unüyütmə müəssisəsindən söz açılır. 1870 və 80-ci illərdə Naxçıvan qəzası kəndlərindəki dəyirmanlar qeydiyyatdan kənarda qalır. 1890-cı illərə aid məlumatlarda isə yüzlərlə unüyütmə müəssisələrindən

bəhs olunur. XIX əsrin 90-cı illərində Naxçıvanda orta hesabla hər müəssisəyə 2 fəhlə olmaqla 12 dəyirman, Ordubadda isə 5-6 dəyirman fəaliyyət göstərirdi. Naxçıvanın kəndlərində isə orta hesabla ildə 283 dəyirman olduğu qeyd edilirdi [193, s. 293-297].

Naxçıvan qəzasında 1870-ci illərdə orta hesabla 13, 1880-ci illərdə isə 10, 1890-cı illərdə 25 yağ zavodu fəaliyyət göstərmiş, bu müəssisələr xırda əmtəə istehsalı xarakteri daşımışdı [193, s. 312-313]. Qeyd etdiyimiz kimi, Naxçıvanda üzümçülüyün inkişafı ilə əlaqədar olaraq burada şərab istehsalı da təşəkkül tapmışdı.

1891-ci ildə Naxçıvan qəzasında 580 desyatin torpaqda üzüm əkilmiş, 25.000 pud üzüm yığılmış, 18.000 vedrə şərab çəkilmişdi [193, s. 339]. Lakin bütün bunlara baxmayaraq Naxçıvan qəzasının Azərbaycan üzrə şərab istehsalında payı cüzi idi.

Naxçıvan bölgəsində sənaye istehsalının digər bir mühüm sahəsi yüngül sənaye idi. Bölgədə yüngül sənaye daha çox ipək sənayesi və pambıq təmizləmə ilə təmsil olunmuşdu. Rusiya işğalı dövründə Şimali Azərbaycanda, o cümlədən Naxçıvan bölgəsində ipək emalı sənayesinə dair müəyyən tədqiqatlar vardır [193, s. 386-454]. Bu tədqiqatlar bəzi arxiv materialları ilə birlikdə Naxçıvan bölgəsinin ipək emalı sənayesini daha dərindən öyrənməyə imkan verir. Naxçıvanda ipək emalı sənayesi, əsasən, Ordubadda mərkəzləşmişdi. Ordubadda ilk ipəksarıma fabrikləri spesifik şəraitdə açılmışdı. Belə ki, XIX əsrin 60-cı illərində ipək qurdu xəstəliyi ilə əlaqədar Azərbaycanın əsas ipəkçilik mərkəzlərindən olan Nuxa və Şuşada ipəksarıma fabrikləri fəaliyyətini dayandırmış, Ordubadda isə iki belə fabrik açılmışdı. Onlardan biri Aşağı Əylis kəndində, digəri isə Ordubadın özündə işə başlamışdı. Əylis fabrikində XIX əsrin 60-cı illərinin sonlarında Cənubi Qafqazda ilk dəfə olaraq 10 mexaniki ipəkəyirmə dəzgahı qurulmuşdu. 70-ci illərdə isə Ordubadda daha bir baramaaçan fabrik fəaliyyətə başlamışdı [193, s. 435-436].

XIX əsrin 80-ci illərində Ordubadda orta hesabla 131 fəhləsi və 18.787 manat istehsal gücü olan 5 müəssisə, Naxçıvan qəzasında isə 183 fəhləsi, 38.872 manat istehsal gücü olan 9 müəssisə var idi. XIX əsrin 90-cı illərində bu rəqəmlər müvafiq olaraq Ordubadda 155, 26.567 və 6, Naxçıvan qəzasında isə 219, 74.842 və 19 olmuşdu [193, s. 437]. T.Vəliyev bütövlükdə Şimali Azərbaycan, o cümlədən Naxçıvan ipək emalı sənayesindən bəhs edərkən yazmışdır: "1900-cu ildə Azərbaycanın ipək emalı sənayesində 2,228 baramaaçılan tiyanı olan və buxar mühərriki tətbiq edən 60 fabrik olmuşdu. Bunlardan 46-sı Nuxa – Zaqatalada, 14-ü isə Şuşa və Naxçıvan qəzalarında idi. Sonrakı dövrlərdə, istehsalda maşın tətbiqində böyük dəyişiklik gözə çarpırdı" [118, s. 97].

Beləliklə, XIX əsrdə Rusiyanın müstəmləkəçilik siyasətinə baxmayaraq, Naxçıvan bölgəsində sənətkarlıq və sənayenin inkişaf etdiyini, ipək emalı sahəsində

isə fabrik-zavod mərhələsinin təşəkkülünü deyə bilərik. Bu, iqtisadiyyatda kapitalist münasibətlərinin göstəricisi idi.

Deyilənləri ümumiləşdirərək bu nəticəyə gəlmək mümkündür ki, kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafının göstəricilərindən biri əmtəə təsərrüfatının yaranması ilə əlaqədar idi. Tədqiqatçı Ə.Umayev də "XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan kənd təsərrüfatında kapitalizmin inkişaf proseslərinə dair" monoqrafiyasında problemə bu mövzu ilə başlayır [198, s. 24-39]. Faktların təhlili göstərir ki, XIX əsrin sonlarında Naxçıvan bölgəsində də ticarət əkinçiliyi genişlənir, kənd təsərrüfatının əmtəə – kapitalist xarakteri artırdı [57; 109; 111; 200]. Qeyd etdiyimiz kimi, Naxçıvan bölgəsində XIX əsrin 70-ci illərində taxılçılıqda əmtəə-pul münasibətləri daha da genişlənmişdi [200, s. 30]. Maldarlıq məhsulları, xüsusilə yun getdikcə daha çox miqdarda satışa çıxarılırdı. Hər il Naxçıvandan göndərilən heyvandarlıq məhsullarının qiyməti 75 min manat təşkil edirdi [181, s. 230]. XIX əsrin sonlarında satışa çıxarılan heyvandarlıq məhsullarının miqdarı çoxalmışdı. Bu faktı görkəmli tədqiqatçı V.D.Moçalov da təsdiq edir [161, s. 202]. Əmtəə-pul münasibətlərinin inkişaf etdiyi sahələrdən biri də üzümçülük idi. Tədqiqatçi V.D.Moçalov Naxçıvanda sənaye üzümçülüyü adlı xüsusi başlıq ayırmış, Naxçıvan və Ordubad şəhərlərində və bəzi kəndlərdə, məsələn, Əylisdə üzümçülüyün bu və ya digər ölçüdə sənaye əhəmiyyəti kəsb etdiyini vurğulamışdır [161, s. 297]. Naxçıvan bölgəsinin ipəkçilik və pambıqçılıq təsərrüfatlarında da əmtəə-pul münasibətləri inkişaf etmişdi.

Naxçıvan bölgəsinin kənd təsərrüfatında ticarət əkinçiliyinin inkişafı təsərrüfatların pula ehtiyacını artırırdı. Bu da ticarət və sələm kapitalının kəndə yol açmasına səbəb olurdu. Bunu iki səbəblə izah etmək olardı: əvvəla, kapitalist kredit sisteminin kifayət qədər təşəkkül tapmaması; ikinci, 1870-ci il kəndli islahatı zamanı Şimali Azərbaycan kəndlilərinə pay torpaqlarını "vıkup" etmək üçün dövlət tərəfindən borc verilməməsi. Şimali Azərbaycanın digər yerlərində olduğu kimi, Naxçıvan bölgəsində kənd təsərrüfatının nəzərdən keçirilən sahələrində ticarət və sələm kapitalı yer tutmuşdu. Kəndlilər müəyyən təsərrüfat işləri və ya digər ehtiyaclar üçün sələmçidən pul alır, becərdikləri məhsulları girov qoyurdular. Sələmçilər faktik olaraq məhsulları 30-40 faiz ucuz alırdılar [159, s. 28].

Bununla bərabər, Naxçıvan bölgəsi kənd təsərrüfatına kapitalist krediti də daxil olurdu. Lakin tacir – sələmçilər müxtəlif yollarla kredit birliklərinin idarə heyətinə daxil olur, ondan öz məqsədləri üçün istifadə edirdilər. Məsələn, Kərbəlayi Abbas Bayramov Naxçıvan qəzası Cəhri kredit birliynin sədrliyinə nail olmuş, payızda kəndlilərdən pambığın pudunu 10 manatdan almışdı, halbuki onun qiyməti 10-16 manat idi. İş o yerə çatmışdı ki, kəndlilər Cəhri kredit birliyini "Kərbəlayi Abbas Bayramov bankı" adlandırırdılar [198, s. 402-403].

Naxçıvan kəndində kapitalist təsərrüfatının formaları da meydana gəlirdi. Varlı -qolçamaq, iri kapitalist əkinçilik təsərrüfatları ilə yanaşı, mövcud mülkədar

təsərrüfatları da burjua təkamülü yoluna qədəm qoyurdu. Bunun əsas göstəriciləri muzdlu əmək tətbiqi və yeni icarə münasibətlərinin inkişafı idi. XIX əsrin 80-ci illərində Naxçıvan və Şərur-Dərələyəzin dövlət kəndində aparılan tədqiqatın müəllifləri torpaqsız və aztorpaqlı kəndlilərin iş qüvvəsini satmaqla dolandıqlarını qeyd edirdilər [185, s. 129-130].

Naxçıvan bölgəsindəki torpaq icarəsində köhnə münasibətlərlə yanaşı, yeni kapitalist icarə sistemi də yaranırdı. İslahatdan sonrakı dövrdə Azərbaycanda torpaq icarə münasibətləri haqqında tədqiqatın müəllifi L.Həsənova yazır ki, 1886-cı ildə xüsusi şəxslərin hərracla icarəyə götürdüyü əkin sahəsinin miqdarı kəndlilər tərəfindən icarəyə götürülmüş torpaq sahəsinin yarısına bərabər idi. Ayrı-ayrı qəzalarda isə xüsusi şəxslər tərəfindən icarəyə götürülmüş torpağın miqdarı daha çox idi. Məsələn, Naxçıvan qəzası üzrə xüsusi şəxslərin icarəyə götürdükləri əkin sahəsinin miqdarı kəndlilər tərəfindən icarə edilmiş əkin yerlərinin miqdarından 2,6 dəfə çox idi... Tamamilə aydındır ki, kənd təsərrüfatı ilə məşğul olmayan xüsusi şəxslər icarəyə götürdükləri torpaq sahələrini aztorpaqlı kəndlilərə subicarəyə vermək və bununla da külli miqdarda qazanc əldə etmək məqsədini güdürdülər [38, s. 26-27]. Dövlət xəzinəsi 1870-ci ildə Şərur-Dərələyəz qəzasında olan "Gir" adlı 1950 desyatin torpağı Şahin Gireyə ildə 292 manat 50 qəpiyə icarəyə vermişdi. Onun 1.659 desyatini əkin üçün yararlı, 291 desyatini isə otlaq idi. Şahin Girey də öz növbəsində əkin üçün yararlı olan torpaqları subicarəyə vermişdi. Torpağı icarəyə götürmüş kəndlilər icarəçiyə məxsus su arxlarını təmizləmək üçün bir həftə əvəz olmadan işləməli idi. Şahin Girey icarə vaxtı bitəndən sonra, icarə haqqını 975 manata qaldırmaq, yəni hər desyatin torpaq üçün 50 qəpik vermək şərti ilə icarə müddətini 30 il uzatmaq haqqında məsələ qaldırdı və ildə 5000 manat ödəmək şərti ilə yenə 24 illiyə icarəyə götürdü. Şahin Girey bu sahənin 400 desyatinində buğda və pambıq əkdirirdi [187, s. 226].

Başqa bir məqama diqqət yetirilməlidir. XIX əsrin sonlarında Azərbaycanın dövlət kəndinin burjua təkamülü haqqında tədqiqatın müəllifi İ.Rəfizadə aqrar inkişafın bir neçə əsas tipinin müəyyən edildiyini göstərir. Onun fikrincə, birinci qrupa Yelizavetpol quberniyasının iqtisadi cəhətdən inkişaf etmiş taxılçılıq qəzaları – Yelizavetpol, Cavanşir, Şuşa və İrəvan quberniyasının Şərur-Dərələyəz qəzaları daxildir. Bütün qeyd olunan qəzalar əkinçiliyin ekstensiv xarakterində taxılçılığın əhəmiyyətli dərəcədə əmtəəliyi, sosial planda isə kəndlilərin xeyli dərəcədə təbə - qələşməsi ilə xarakterizə olunur. Digər qrup əkinçiliyin nisbi intensivləşməsi şəraitində iqtisadi cəhətcə inkişaf etmiş qəzaları əhatə edir. Bu qrupa Quba və Naxçıvan, Şamaxı və Göyçay, Nuxa və Ərəş aiddir [176, s. 83-84].

Naxçıvanın kənd təsərrüfatında olduğu kimi, sənayesində də kapitalist münasibətləri təşəkkül tapmışdı [112, s. 177-182]. Sənayedə kapitalizmin inkişafı kapitalist müəssisələrinin (sadə kooperasiya, manufaktura və fabrik-zavod)

yaranması və proletariatın formalaşması ilə xarakterizə olunur. Naxçıvan bölgəsinin dağ-mədən (əsasən, duz istehsalı), yeyinti və yüngül sənayesində kapitalist müəssisələrinin həm ilkin, həm də yuxarı formalarına təsadüf edilir. Bu sənaye sahələri içərisində ipəkçilik xüsusilə ayrılır. T.Vəliyev imperializm dövründə sənaye problemlərindən bəhs edərkən ipək emalı sənayesi barədə yazmışdır: "Azərbaycanda ipək emalı sənayesinin mühüm cəhətlərindən biri də bu sahədə mövcud olan sənaye formaları arasındakı əlaqənin olmasıdır. İpək emalı sənayesi Azərbaycanda yeganə sahədir ki, burada sənaye kapitalizmi inkişafının 3 ilk mərhələsi ardıcıl olaraq bir-birini əvəz etmişdir. İpək emalı sənayesində fabrik mərhələsi ölkənin ictimai-iqtisadi inkişafı ilə bərabər, sənayenin aşağı formalarından əmələ gəlmişdi. Müəssisələrin çox hissəsi fabrik mərhələsinə məhz sadə əmtəə istehsalı mərhələsindən gəlib çıxmışdı" [118, s. 98].

Bu fikir Naxçıvan bölgəsinin ipək emalı sənayesinə də aiddir. Naxçıvan bölgəsində sənayenin inkişafı ilə əlaqədar olaraq proletariat da təşəkkül tapmağa başlayırdı. Naxçıvanda inkişaf etməkdə olan sənayenin strukturu proletariatın formalaşması mənbələrinə də təsir göstərirdi. Burada mövcud olan sənaye sahələri (ipək emalı, pambıqtəmizləmə, duz istehsalı və s.) elə istehsal sahələri idi ki, onlar müəyyən əmək vərdişi və bacarığı tələb edirdi [110, s.24-31]. Ona görə də Azərbaycanın digər bölgələrindən fərqli olaraq Naxçıvanda proletariatın təşəkkülünün əsas mənbəyi yerli sənətkarlar idi. T.Vəliyev haqlı olaraq yazırdı: "Azərbaycanın yüngül sənayesində, xüsusilə ipək emalında fəhlələrin təşəkkül şəraiti digər sənaye sahələrinə nisbətən fərqlənirdi. Burada ixtisasdan baş çıxaran fəhlələr tələb olunurdu. Bu cəhət isə bütün emal sahələri, o cümlədən toxuculuq sənayesi üçün səciyyəvi idi. Ölkəmizdə ipəkçiliyin intişar tapdığı qəzalarda baramanın kustar yolla emalı ilk əvvəl məhz kəndli ailəsində həyata keçirilirdi. Əldə olunan ipək sapından məişətdə işlənən mallar toxunurdu. Deməli, kəndli fabrikə gələnə qədər ipəyin kustar üsulla emalı prosesi ilə tanışlıqla yanaşı, ipəksarıma və ipəkburmanın da sirlərinə bələd olurdu... İpək emalı müəssisələrində işə girənlər bir növ ixtisaslı idilər. Sənayenin digər sahəsində – pambıq təmizləmədə də demək olar ki, zavodların inşa edildiyi kəndin sakinləri fəhlələrin təşəkkülündə mühüm rol oynayırdılar. Bunu eynilə biyan kökü emalı və yeyinti sənayesi sahələrinə, xüsusən şərab, spirt və s. istehsalına aid etmək mümkündür" [118, s. 210-211].

Naxçıvan dağ-mədən sənayesinin xarakterini (duz istehsalı və dəyirman daşı emalı) nəzərə alsaq, burada da fəhlələrin təşəkkülü mənbəyinin yerli sakinlərin olduğunu söyləmək mümkündür. Beləliklə, aydın olur ki, Naxçıvanda mövcud olan sənaye sahələrində çalışan fəhlələr, əsasən yerli kəndli – sənətkarlar sırasından çıxırdı. Burada öz iş qüvvəsini reallaşdıra bilməyənlər isə Naxçıvan bölgəsinin hüdudlarından kənarda iş axtarmalı olurdu. Bunun nəticəsi idi ki, "Azərbaycan daxilində sənaye və digər sahələrdə işləməyə gedənlərin sayına görə Naxçıvan

qəzası başqa qəzalardan xüsusilə fərqlənirdi. Həmin qəzadan kəsbkarlığa gedənlərin sayı çox idi. Bunların dörddə üç hissəsindən çoxu bilavasitə Azərbaycanda özünə iş tapır, qalanı isə qonşu İrəvan quberniyası və Zaqafqaziyanın başqa yerlərində məskunlaşırdı. Onu da nəzərə çatdırmaq istərdik ki, kəsbkarlığa gedənlər qəza əhalisinin 30 %-dən çoxunu təşkil edirdilər. Sonrakı illərdə bu prosesdə elə bir ciddi dəyişiklik gözə çarpmırdı. 1914-cü ildə qəzanın 120 kəndindən kəsbkarlığa gedilmişdi" [118, s. 213].

Naxçıvan bölgəsində ayrı-ayrı sənaye sahələrində çalışan fəhlələrin sayı haqqında da müəyyən məlumatlar vardır. XIX əsrin ikinci yarısında Azərbaycan qəzalarında proletariatın say dinamikasını araşdıran Z.Qafarovanın hesablamalarına görə, 1890-cı illərin əvvəllərində Naxçıvan və Şərur-Dərələyəz qəzalarının maldarlıq məhsullarının emalında 50, bitki məhsullarının emalında 992, faydalı qazıntı məhsullarının emalında 635 nəfər, cəmi 1.677 nəfər çalışırdı. Onlar Bakı və Yelizavetpol quberniyaları üzrə həmin sahələrdə çalışanların (11.261 nəfər) 14,9%-ni təşkil edirdi. 1890-cı illərin ortalarında bu rəqəmlər müvafiq olaraq 42, 1.954, 165, 2.161 və 16,4% , 1897-ci ildə 50, 1.758, 118, 1926 və 14, 2 %; 1899-cu ildə isə 45, 1650, 151, 1.850 və 10,8 % olmuşdu [156, s. 44]. Rəqəmlərdən aydın olduğu kimi 1890-cı illərdə emal sənayesinin bu sahəsində çalışanların 10,8-16,4 faizi müxtəlif illərdə Naxçıvan bölgəsinin payına düşmüşdü.

Naxçıvan bölgəsində sənaye sahəsində çalışan fəhlələrin əsas hissəsini kişilər təşkil edirdi. Bununla birgə yüngül sənaye sahələrinin, xüsusilə ipək emalının inkişafı istehsal prosesində qadın və uşaq əməyinin tətbiqini də şərtləndirirdi.

Beləliklə, yuxarıda göstərilən faktlardan aydın olur ki, yeni kapitalist münasibətləri Naxçıvan bölgəsinin iqtisadi həyatına tədricən daxil olmağa və möhkəmlənməyə başlamışdı.

5. Çarizmin siyasətinə qarşı mübarizə. Kəndli çıxışları

XIX əsrdə çar Rusiyasının Naxçıvanı işğalından sonra bölgə əhalisi ağır müstəmləkə zülmü altında idi. Hələ XIX əsrin 30-cu illərində çarizmin müstəmləkəçilik siyasətinə və yerli feodalların zülmünə qarşı çevrilmiş kəndli çıxışları çarizmi narahat etmişdi. Odur ki, hakim dairələr yerlərdəki idarə sisteminin vəziyyətini öyrənmək və onu təkmilləşdirmək üçün öz nümayəndələrini müxtəlif yaşayış məntəqələrinə göndərir, ətraflı məlumat toplayırdılar.

Naxçıvan əyalətinə göndərilmiş çar məmuru Nefediyev 1837-ci il noyabrın 22-də yazdığı məlumatında göstərirdi ki, bu əyalətin ərazisinə daxil olan və xanın (Ehsan xan nəzərdə tutulur – ***red.***) mülkü hesab edilən Naxçıvanla ilk sərhəd kəndi Qıvraqdan başlayaraq bütün yerləri özbaşınalıq bürümüş və ağır vergi nəticəsində əhali tamamilə taqətdən düşmüşdü. Onu da deyək ki, həmin məktubda

çar məmurunun Ehsan xana birtərəfli münasibəti, hər vəchlə onu gözdən salmağa çalışması da duyulur. Hətta qonaq və hökumət məmuru kimi ona göstərilən hörməti, qayğıkeşliyi də Nefediyev bu aspektdə yozurdu: "Xan adamlarının mənə qarşı bu kimi qayğıkeşliyinin səbəbini" onların məni xalqdan ayırmaq məqsədi ilə yeritdikləri siyasət kimi qiymətləndirirəm [157, s. 334].

Nefediyev çar çinovliklərinin köməyilə ayrı-ayrı kəndləri gəzdikdən sonra yazmışdır ki, polkovnik Ehsan xanın bu əyalətdəki hakimiyyəti demək olar ki, qeyri-məhdud xarakter daşıyır. Hətta Ordubada Ehsan xanın qardaşı Şeyxəli bəyin yanına göndərilmiş məmur Kirilov onun göstərişi əsasında vəzifədən kənarlaşdırılıb Naxçıvana gətirilmiş və Ehsan xanın əlaltısına çevrilmişdir. Nefediyev Ehsan xanın Qafqaz ali baş komandanlığında böyük nüfuz sahibi olmasından da söz açmışdır [157, s. 335].

Faktlar göstərir ki, hakim dairələrin özbaşınalığı, vergi və mükəlləfiyyətlərin ağırlığı Naxçıvan qəzasında, xüsusən Ordubad əyalətində xalq kütlələrinin açıq çıxışlarına səbəb olmuşdu. 1837-ci ilin may ayında Ordubad əyalətində kəndlilərin geniş iğtişaşları baş vermiş və toqquşma nəticəsində onlarla adam ölmüşdü. Minlərlə kəndlinin iştirak etdiyi bu çıxışda kəndlilər hakim dairələrin özbaşınalığına qarşı dərhal tədbirlər görülməsini tələb etmişdir. Kəndli iğtişaşları bir müddət davam etmiş, yalnız göndərilmiş hərbi qüvvələrin köməyi ilə yatırılmışdır.

Həmin müddətdə Naxçıvan qəzasında geniş yararlı əkin torpaq sahələrini zəbt etmiş və onları tiyul (yeni, şərti torpaq mülkiyyəti –***red.***) hüququ ilə idarə edən İsay Sultan bəy və onun oğlu Zeynalabdin bəyin özbaşınalığından şikayət edən kəndlilər bildirirdilər ki, onlardan heç bir sənəddə əks olunmayan müxtəlif əlavə vergilər toplanması nəticəsində tamamilə müflisləşmişlər. Yerlərdə vəziyyəti öyrənən çar çinovniki bu münasibətlə Yamxana kənd sakinləri ilə apardığı söhbətdən bəhs edərək yazırdı ki, "kütləvi kəndli narazılıqlarından ehtiyat edən Naxçıvan əyalət hakimləri kəndliləri qorxudub hədələyərək bildirirdilər ki, əgər hər hansı bir adam müəyyən bir ehtiyac və tələbat üçün hökmdara (həmin dövrdə çar I Nikolay Cənubi Qafqaza səfər etmişdir) müraciət edərsə, bu, xanın əleyhinə qarşı çevrilmiş təşəbbüs kimi qiymətləndiriləcəkdir" [157, s. 337]. Qafqaz ali baş komandanlığına kəndlilərin yazdığı ərizəyə cavab olaraq Naxçıvan əyalət pristavı Kirilov isə saxtakarlıqla bildirirdi ki, kəndlilərdən torpaq mükəlləfiyyətlərindən başqa heç bir pul vergisi toplanılmamışdır [157, s. 337].

İri torpaq sahibkarları, çar məmurları kəndlilərin məhsuldar torpaqlarını mənimsəyir, dövlətin idarə işlərində rüşvətxorluq edir, bu yerlərdə kənd təsərrüfatının inkişafı üçün zəruri olan bütün süni suvarma obyektlərini öz əllərinə keçirirdilər. Məsələn, Çeşməbasar, Güznüt və Nehrəm kəndlərinin əhalisinın kollektiv şəkildə yazdıqları ərizələrdə belə hallardan şikayətlər özünə yer tapmışdır [157, s. 393-394]. Qaraxanbəyli kənd sakinləri isə şikayətlənirdilər ki, üç ildir, biz kəndlilər

hər il 150 manat pulu əsassız olaraq ödəməyə məcbur olmuşuq" [157, s. 345].

Məhz buna görə XIX əsrin I yarısında yerli feodal hakim dairələrinin və çar məmurlarının zülmünə qarşı çevrilmiş kəndli etirazları Azərbaycanın əksər ərazisində, o cümlədən Naxçıvan əyalətində də geniş yayılmışdı.

XIX əsrin II yarısında isə əmtəə-pul dövriyyəsində tələbat daha da artmış və buna görə kəndlilərin torpaqlarının bəy, mülkədarlar tərəfindən zəbt edilməsi geniş vüsət almışdı. Naxçıvan əyalətinin Çalxanqala kənd əhalisi qəzanı yoxlayan çar məmuruna verdikləri ərizələrində yazırdılar ki, mülkədar Kiçik xan onların torpaqlarını və bu yerlərin suvarılması üçün lazım olan iki su mənbəyini qanunsuz şəkildə mənimsəməklə kifayətlənməyib, hətta kəndli həyətlərinin su arxını da zəbt etmişdir. Məhz buna görədir ki, bu kəndin beş ailəsi Dərələyəz dairəsinə köçməyə məcbur olmuşdur.

XIX əsrin 60-cı illərinin axırlarında Naxçıvan hakimi Kalbalı xan İrəvan quberniyası üzrə Dövlət Əmlakları idarəsinə yazdığı məlumatında bildirirdi ki, onun və qardaşı İsmayıl xanın ixtiyarında olan tiyul kəndlilərdən təkcə onun əmlakına daxil olan gəlirin miqdarı hər il orta hesabla 12.870 manat olmuşdur [83, s. 28]. Həmin rəsmi sənəddən göründüyü kimi, onun qardaşı İsmayıl xanın da gəliri təxminən o qədər idi. İki qardaş orta hesabla ildə 25.090 manat gəlir götürmüşdülər.

Vergilərini ödəyə bilmədiklərinə görə kəndlilər sahibkarlardan daha çox asılı vəziyətə düşürdü. Rus çarının qəbul etdiyi 1870-ci il Əsasnaməsinin 91-ci maddəsinə əsasən "məhsul formasında ödənilən mükəlləfiyyətini yerinə yetirə bilməyən kəndli onu sonralar pulla ödəməyə məcbur idi" [157, s. 416] ki, bu da yoxsul kəndliləri ikiqat istismara düçar etmişdi. Məsələn, 1856-cı ildə Naxçıvan və Ordubad qəzalarında yaşayan kəndlilərin xəzinəyə borclu olduqları vergi qalıqlarının miqdarı 43,641 manat 76 qəpik idisə, 1873-cü ildə bu rəqəm 93,606 manat 32 qəpiyə çatmışdı [121, s. 841]. Dilənçi kökünə düşmüş yoxsul kəndlilər vergi və mükəlləfiyyətlərini ödəməkdən boyun qaçırır və ya sahibkarların təqibi üzündən doğma yurdlarını tərk edir, öz ailələrini dolandırmaq, eləcə də mülkədar və xəzinə borclarını ödəmək üçün başqa əyalətlərdə ağır şərtlərlə iş axtarmağa məcbur olurdular. Məsələn, Naxçıvan qəzasının Süst kəndində yaşayan 53 ailə 3362 manat 15 qəpik vergi qalığını ödəyə bilmədiyi üçün 1875-ci ildə İrana qaçmışdı. Bu münasibətlə qubernatorun hesabatında açıq etiraf edilirdi ki, bu qədər vergi qalığını həmin kənddə yaşayan ailələr ödəmək imkanına malik olmadığı üçün vəsaiti toplamaq mümkün olmamışdır [167, s. 19].

Şərur əyalətinin Quşçu-Dəmirçi kənd sakinləri 1895-ci aprelin 1-də kollektiv şəkildə qubernatora yazdıqları ərizələrində göstərirdilər ki, onlara ayrılmış kiçik torpaq sahələrinin mülkədar tərəfindən zəbt olunmasına baxmayaraq, yenə birinci yarım il üçün 1971 manat (hər təsərrüfat üçün 9 manat 34 qəpik) pul tələb edilir [73, s. 3-4]. Həmin qəzanın Çərçiboğan, Zeyvə, Düdəngə kəndlilərinin isə Qafqaz

ölkə ali baş komandanlığına 1895-ci ilin aprelin 28-də yazdıqları ərizələrində göstərilirdi ki, "ailəmiz üçün bir tikə çörək tapa bilmədiyimiz halda, biz kəndlilərin 346 təsərrüfatından I yarım il üçün 1942 manat vergi qalığı tələb edirlər. Sizdən acizanə xahiş edirik ki, ailəmiz acından tələf olmasın deyə, həmin vergi qalığının gələn ilə keçirilməsi barədə göstəriş verəsiniz" [74, s. 45]. Həmin qəzanın Ərəbyengicə, Maxta, Aralıq, Kosacan və digər kəndlərin sakinləri də yerli və mərkəzi təşkilatlara müraciətlər etsələr də, onların səyləri nəticəsiz qalmışdı [72, s. 1-6]. Şərur-Dərələyəz qəza rəisi və mühəndis hidroloqu qubernatora 1896-cı il 22 iyul tarixli məlumatlarında Siyaqut kənd əhalisinin ağır vəziyyətindən bəhs edirdi [76, s. 30-37]. Ordubad əyalətinin Biləv kənd sakinləri 1900-cü il iyunun 4-də qubernatora yazdıqları ərizələrində də qanunsuz vergilərdən narazılıqlarını bildirirdilər [80, s. 5].

Naxçıvan qəzasının Qoşadizə kənd sakini Əli Məhərrəm oğlu isə İrəvan qubernatoruna məktubunda torpağının zəbt olunduğundan şikayətlənirdi [75, s. 1]. Bundan başqa, qəza və quberniya idarələrindən heç bir imdad görməyən yoxsul kəndlilər kiçik torpaq sahələrinin zəbt edilməsi, vergiləri ödəmək imkanlarının olmamaları və yerli idarə orqanlarının özbaşınalığı barədə tez-tez Qafqaz ali baş komandanlığına və maliyyə nazirliyinə də şikayətlənirdilər.

Məsələn, Şərur-Dərələyəz qəzasının Təzəkənd sakini Kərbalayi Talıb Əli oğlu 1900-cü il mayın 18-də yazdığı şikayət ərizəsində torpağının tutulmasından narazılıq edirdi [81, s. 3]. Torpaqlarının mülkədar tərəfindən qanunsuz mənimsənilməsi ilə əlaqədar olaraq torpaq vergisinin azaldılmasını xahiş edən Ordubad qəzasının Vənənd kənd sakinləri 120 nəfər təsərrüfat başçısının [82, s. 1-2] imza etdikləri şikayət ərizələrində isə əhalinin dilənçi kökündə yaşamalarından şikayətlənirdilər.

Acınacaqlı vəziyyətə düşmüş kəndlilər vaxtaşırı baş verən təbii fəlakətlərdən təsərrüfatlarına dəymiş böyük ziyana görə hec bir yardım almır, əksinə, yenə də onlardan pul və ya məhsul tələb edilirdi. Məsələn, 1892-ci iyulun 10-da güclü leysan nəticəsində baş vermiş daşqınla əlaqədar Şərur-Dərələyəz qəzasının Şəhriyar kənd sakinlərindən 82 nəfər qubernatora yazdıqları ərizələrində göstərirdilər ki, "Daşqınla əlaqədar olaraq ailəmiz üçün bir tikə çörək tapa bilmədiyimiz halda qəza rəisi bizdən 988 manat vergi tələb edir" [71, s. 3-6].

Torpaq uğrunda kəndlilərin mübarizəsi təkcə fərdi və kollektiv formada yazılı şikayət ərizələri ilə bitmirdi. Kəndli torpaq sahələrinin azlığı və ya kəndlilərin tamamilə torpaqsız qalmaları ucbatından, eləcə də kənd icmalarının sərhədləri islahatdan uzun müddət keçməsinə baxmayaraq, hələ də qəti şəkildə müəyyənləşdirilmədiyindən mübahisəli torpaqlar uğrunda mübarizə gedirdi. Belə bir şəraitdən istifadə edən varlı kəndlilər isə müxtəlif torpaq sahələrini zəbt etməklə ayrı-ayrı kənd icmaları arasında toqquşmalara səbəb olurdular ki, bu da əksər hallarda ölümlə nəticələnirdi. Kənd icmaları torpaq sahələrinin mübahisəli

məsələlərindən bəhs edən Naxçıvan barışdırıcı münsiflər heyətinin ikinci şöbəsi 1880-ci il 28 yanvar tarixli raportunda qubernatora yazırdı: "Torpaq məsələlərinin həllində ən başlıca çatışmazlıqlardan biri 1870-ci il 14 may əsasnaməsinin 7-ci bölməsinin 109-cu maddəsində nəzərdə tutulan qaydaya baxmayaraq, buranın bir çox yerlərində hələ də torpaq formalarının müəyyənləşdirilməməsidir. Bunun nəticəsidir ki, ayrı-ayrı kəndli icma sahələrini müəyyənləşdirmək mümkün olmadığı kimi, onların daxilində hər bir kəndli və sahibkar sahələrini də təyin etmək mümkün olmur.

Məhz buna görə də kəndlilərin öz aralarında və eləcə də onlarla torpaq sahibləri arasında vaxtaşırı anlaşılmazlıqlar və böyük mübahisələr baş verir" [65, s. 25-32]. Ayrı-ayrı kənd icmaları arasında torpaq sərhədlərinin mübahisəli olması ilə əlaqədar kəndli toqquşmalarından bəhs edən Naxçıvan qəza rəisi bildirirdi ki, 1892-ci ildən Xəlilli kənd icmasının istifadəsində olan bütün torpaq sahələri mübahisəli olduğuna görə qonşuluqda yerləşən Aşağı Uzunoba kəndliləri tərəfindən tutulmuşdur [70, s. 3].

Bütün bunlara baxmayaraq, heç bir tədbir görməyən dövlət idarə orqanları öz vəzifələrini şikayət ərizələrinə "bağlı saxlansın", "arxivə göndərilsin", "həll ediləcəyinə baxarıq" kimi dərkənarlarla bitirmişlər. Beləliklə, hakim dairələrdən kömək əvəzinə zülm görən kəndlilər əzab-əziyyət çəkir, aclıqdan qırılırdılar. Digər faktlara diqqət yetirək. Cəhri kəndindən 1880-ci ildə göndərilmiş teleqramda qeyd edilirdi ki, burada az adam tapılar ki, onun bütün təsərrüfat ili üçün 400 girvəngə taxılı olsun. Kənddəki 332 ailəyə 10 gün müddətində köməklik göstərilməzsə, onların hamısı məhv olacaqdır. Kalbalı xan Naxçıvanski 1880-ci il aprelin 11-də qubernatora vurduğu teleqramda aclıqdan korluq çəkən 500 nəfər kəndlisinin həlak olmaması üçün 400 pud taxıl göndərilməsini xahiş etmiş və bunun müqabilində dərhal pulun ödəniləcəyini bildirmişdir. Əhalini kütləvi surətdə bürümüş aclıq və yoluxucu xəstəliklə əlaqədar olaraq 1880-ci ildə Ordubad əyalətinin Biləv, Bist, Dırnıs, Vənənd, Yuxarı Əylis və s. kəndləri daha çox insan tələfatı vermiş, hakim dairələr isə onlara kömək göstərməmişlər. Bu kimi faktlar barədə müvafiq mənbələrdə çoxsaylı məlumatlar vardır [70, s. 20, 26, 42-54, 61-62].

Belə bir vəziyyətdə kəndlilər çar hakimiyyət orqanlarına ərizə verməklə kifayətlənməyərək, fəal mübarizə formalarına da əl atırdılar. Məsələn, 1885-ci ildə Naxçıvan qəzasında Qoşadizə və Kəngərli kəndliləri mülkədara vergi verməkdən imtina etmişdilər [62, s. 227]. Həmin qəzanın Əbrəqunus və Bənəniyar kəndliləri 1888-ci ildə mülkədar Sultanovlardan özlərinin vaxtı ilə tutulmuş 250 desyatin torpaqlarını geri almışdılar. Keçili kəndliləri mülkədarlarla, xüsusən Rəhim xanla torpaq üstündə əlbəyaxa olmuş, ona silah qaldırmışdılar [62, s. 37-38]. Başqa bir rəsmi sənəddə göstərilir ki, 1894-cü ildə "Ordubad qəzasının Üstüpü kənd sakini Məhəmməd Əbülfəz oğlu iri mülk sahibkarı Murad xanın "Tərxan" adlanan əkin sahəsinin 19 pudunu, Vənənd kənd sakini isə Kərbəlayi İsa xan



1813-cü il Gülüstan müqaviləsinə əsasən Rusiya-İran sərhədi

1802-1810 Rus ordusunun yürüşləri

1806 Qacarlar ordusunun yürüşləri

1801-1813-cü illər Azərbaycanın tarixində ən ağır dövrlərdən biridir. 1801-ci ildə Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarının zəbt olunması ilə Azərbaycanın çar Rusiyası tərəfindən işğalına başlandı. Çox keçmədən Car-Balakən, Gəncə, Qarabağ, Şəki, Şirvan Rusiya imperiyasının təcavüzünə tab gətirməyib təslim oldu. Azərbaycanın 20-dən çox kiçik dövlətlərə parçalanması, güclü vahid dövlətin olmaması, eləcə də Rusiyanın müstəmləkəçilik siyasəti tarixin bu istiqamətdə inkişafını bir növ şərtləndirirdi. Rusiyanın hücumları davam etdirib Araz çayını keçməsi və cənuba doğru yürüşü şah hökumətini rüsvayçı Gülüstan müqaviləsini imzalamağa məcbur etdi. İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Araz çayından şimalda yerləşən bütün Azərbaycan torpaqları, habelə Lənkəran xanlığı Rusiyaya qatıldı. Azərbaycan Rusiya və İran arasında iki yerə bölündü. Xalqımız ən faciəli tarixini yaşamağa başladı. Həmin dövrdə tarix xalq qəhrəmanı Cavad xanın igidliyinin, İrəvan qalasının qəhrəmancasına müdafiəsinin, Sisiyanov və Qulyakov kimi çar cəlladlarının cəzalarına çatdırılmalarının və xalqımızın işğala qarşı hər yerdə ciddi müqavimət göstərməsinin şahidi oldu.

Naxçıvan xanlığı (1747-1828-ci illər)

Məmmədovun 0,5 desyatin torpağını zəbt edib əkmişdir" [63, s. 7].

Baş vermiş kəndli çıxışlarına bəzi hallarda qadınların da qoşulması, hətta onların bəzilərinin kəndli iğtişaşlarına rəhbərlik etməsi kəndli narazılıqlarının

daha kütləvi xarakter daşıdığını göstərir. 1885-ci ildə Naxçıvan qəzasının Məmmədrza Dizə sakini Mədinə Məhəmməd qızı kəndliləri öz ətrafına toplayaraq, bir sıra kənd varlılarının zəbt etdikləri kəndli pay torpaqlarını geri almışdı [19, s. 7].

Kəndli çıxışları genişlənərək 1885-ci ilin yayında Naxçıvan qəzasının bütün ətraf kəndlərini bürümüşdü. Bundan qorxuya düşən hökumət nümayəndələri qəzaya əlavə hərbi qüvvələr cəlb edib kəndlilərə qanlı divan tutmuşdular. Hərəkatın ən fəal üzvləri isə həbsxanalara salınmış, müxtəlif işgəncələr verilməsi nəticəsində onlar həbsdə həlak olmuşdular [64, s. 38].

Torpağa daha çox ehtiyacı olan kəndlilərin mübarizə formalarından biri də bəy, mülkədar və çar çinovniklərinin həyatına qəsdlər törətmək idi. O dövrün sənədlərində bu barədə bir sıra bilgilər vardır [64, s. 8-14]. Rəsmi sənədlər göstərir ki, hələ XIX əsrin 60-cı illərindən başlayaraq yerli hakimlərə və çar məmurlarına qarşı silahlı mübarizə aparan kəndlilər tək-tək deyil, dəstə halında çıxış etmişlər. Beləliklə, kəndli silahlı dəstələri ilbəil çoxalır, etirazlar daha kəskin xarakter alırdı. Naxçıvan qəza rəisinin qubernatora yazdığı 1875-ci il tarixli məlumatında bildirilirdi ki, kəndli silahlı dəstəsinin məşhur rəhbəri Əli Cəfər İbrahim oğlu 14 nəfər adamı ilə birlikdə Naxçıvan qəzasının Araz çayı sahillərində yerləşən ərazidə yerli polis dəstələri ilə atışmada kəskin müqavimət göstərmiş, nəticədə çox çətinlikdə olsa da, onun dəstəsindən bir nəfər öldürülmüş, 10 nəfər tutulub həbsə salınmış, özü isə Araz çayında boğulmuşdur [66, s. 1-5].

XIX əsrdə ədalətsiz hakim dairələrin təqibləri nəticəsində öz doğma yurdlarını tərk edərək müxtəlif ərazilərdə həmfikirlərini ətrafında toplayıb kəndlilərin ümumi mənafeyi uğrunda iri torpaq sahibkarlarına və çar polis hissələrinə qarşı silahlı mübarizə aparan, tarixdə "qaçaqlar" adı ilə məşhurlaşan dəstələrin fəaliyyəti kəndli çıxışlarının fəal təzahürü idi. Tədqiqatlarda da XIX əsr boyunca və XX əsrin əvvəllərində baş vermiş qaçaq hərəkatı xalq kütlələrinin, xüsusən kəndlilərin hakim təbəqələrə qarşı etirazı kimi dəyərləndirilmişdir [41; 107; 108].

Tarixçilərin bir çoxu da qaçaq hərəkatının meydana çıxmasını hakim dairələrin zülmü ilə əlaqəli sayırdılar: "...Bunun başlıca səbəbi (silahlı kəndli dəstələrinin – ***red***.) kəndlilərin iqtisadi yaşayış tərzinin ağırlığı idi. Nə qədər ki, dövlət və xüsusi sahibkar kəndlilərinin vəziyyəti bu cür davam edir, onların torpaq, su, meşə uğrunda apardıqları mübarizə də bir o qədər davam edəcəkdir" [199, s. 27]. Başqa bir tarixçi isə yazırdı ki, "Qafqaz polis idarəsinin üzvləri yerli quldur dəstələri ilə sözün əsl mənasında yaxşı təşkil olunmuş müharibə aparsa da, vaxtaşırı toqquşmalar nəticəsində özünün ən yaxşı nümayəndələrini də itirirdi" [194, s. 72]. Tədqiq olunan qəzalar da daxil olmaqla XIX əsrin 80-ci illərində torpaqların zəbt olunması ilə əlaqədar quberniyada "cinayətkarlığın" ilbəil artmasından bəhs edən bir mənbədə göstərilir ki, "1881-ci ildə 985 ən böyük cinayətkarlıq baş vermışdir ki, bu da keçən ildəkindən 214 cinayət çox

deməkdir. 1882-ci ildə bu cür hadisələrin sayı 1114-ə, 1883-cü ildə isə o daha da artaraq 1247-ə çatmışdır" [194, s. 70].

Arxiv sənədlərində və tarixi ədəbiyyatlarda qaçaq hərəkatının ən geniş yayıldığı ərazilərdən biri Naxçıvan və Şərur-Dərələyəz qəzası sayılır. Bu da təbii idi. Çünki Naxçıvanın coğrafi mövqeyi, əlverişli dağ və qayalıqları qaçaqların Cənubi Azərbaycan ərazisinə keçib təhlükədən xilas olmasına imkan yaradırdı. Bundan başqa, Naxçıvan qəzasının kəndliləri ifrat dərəcədə istismar olunub, çar çinovniklərinin təzyiqinə məruz qaldıqlarından yaşadıqları ərazilərdə baş vermiş qaçaq hərəkatı ilə daha çox yaxınlaşır və onları hər vasitə ilə müdafiə edir, qaçaqların polis dəstələri tərəfindən tutulmalarına maneçilik törədirdilər [37, s. 89].

Qaçaq hərəkatı tarixinə öz qəhrəmanlığını qızıl hərflə yazan xalq qəhrəmanı Qaçaq Nəbi silahlı dəstəsi ilə Naxçıvan qəzasının Nəsirvaz, Tivi, Bist, Güznüt, Təzəkənd, Biləv, Urmus kimi kəndlərində olmuş, kəndlilərə zülm edən varlıların əmlakını alaraq yoxsullara paylamışdır. Zalım mülkədar və bəylərin öldürülməsi ilə əlaqədar olaraq, 1890-cı ildə Qaçaq Nəbi həbs olunur. İrəvan dairə məhkəməsinin hökmü ilə Şuşa qalasına aparılarkən o, yolda qaçır və yenidən dağlara çəkilərək öz tərəfdarlarının sayını artırır, kəndlilərin hüquqlarını müdafiə etmək istiqamətində bir çox tədbirlər həyata keçirir. Onun dəstəsinin uzun müddət bəylərə, çar məmurlarına, digər varlılara qarşı apardığı mübarizə və döyüşlər partizan hərəkatını xatırladır [132, sənəd 1473].

Qaçaq Nəbi hərəkatı nəinki Qafqazda, hətta imperiyanın mərkəzində də böyük əks-səda yaya səbəb olmuşdu. Qaçaq Nəbi hərəkatını yatırmaq məqsədi ilə xüsusu cəza dəstələri yaradılaraq onlara təlim verilir, Naxçıvan qəzasına əlavə hərbi hissələr göndərilir, qəzetlər vasitəsilə Qaçaq Nəbinin silahlı dəstəsinə kömək edənlər hədələnir, ölümlə qorxudulurdu. Şəxsən Qaçaq Nəbini ələ keçirmək və ya onu öldürmək üçün bu işdə şəristəsi olan agentlər ələ alınıb onlara vəzifə və böyük məbləğdə pul veriləcəyi vəd edilirdi [128].

İrəvan qubernatoru Qaçaq Nəbi hərəkatının asanlıqla yatırılacağını mümkün hesab etmədiyindən Nəbinin özünü aradan götürmək üçün xüsusi planlar hazırlayır, münasib adamlar ələ keçirmək barədə Naxçıvan qəza rəisinə göstəriş verirdi. Bu iş üçün külli miqdarda pul vəd edilir, ilk növbədə Nəbi dəstəsinin hər hansı bir üzvünün əli ilə onu həyata keçirmək lazım bilinir, Nəbinin ardınca adamlar salınır. Qubernatorun niyyətini arxivlərdə saxlanılan sənədlər də, qubernatora Nəbi barədə verilən məlumatlar da təsdiq edir [132, sənəd 1481].

Qaçaq Nəbi öldürüldükdən (1896, 12 mart) sonra onun dəstəsində baş verən qarışıqlıqdan istifadə edən çar məmurları qaçaqları və dağınıq düşmüş kəndli silahlı dəstələrini təqib edirlər. Düzdür, bundan sonra Nəbinin ən yaxın adamları, xüsusən onun həyat yoldaşı Həcər çar məmurlarından və onlara satılmış nökərlərdən Nəbinin qisasını alsalar da, əfsanəvi xalq qəhrəmanının ölümü həmin hərəkatı bir daha bərpa etməyə imkan verməmişdir. Hakim

dairələrin göstərişi ilə çar məmurları Nəbinin dəstəsi ilə əlaqədə olmuş kəndlilərə divan tuturlar. Lakin qaçaq hərəkatı az da olsa yenə çar məmurlarına qarşı mübarizəni davam etdirir, onlara zərbələr vururlar. Məsələn, 1897-ci ilin yayında Ordubad əyalətinin "Dəvəboynu" adlanan dağında qaçaq Məhəmməd Hüseynin dəstəsi ilə polis dəstələri arasında gərgin atışma olmuş, çar məmurları qələbə qazana bilməyib geri çəkilmişdilər [79, s. 3-4].

Azərbaycanda, o cümlədən Naxçıvan qəzasında baş vermiş belə kəndli hərəkatları məğlubiyyətə uğrasa da, gələcək azadlıq hərəkatı tarixinə böyük təcrübə və müvafiq təkan vermişdir.

6. Mədəniyyət

Təhsil. XIX əsr Azərbaycanın pedaqoji fikir, xalq maarifi və məktəb təhsili, həmçinin elmi-ictimai fikir tarixinə xüsusi dövr kimi daxil olmuş, əsrin ilk onilliklərindən başlayaraq qeyd olunan sahələrdə mühüm addımlar atılmışdır. Xüsusilə Şimali Azərbaycanın Rusiya tərkibinə qatılması ilə Azərbaycanda xalq maarifinin inkişafı yeni mərhələyə daxil olmuşdur. Həmin dövrdə dövlət məktəblərinin açılması istiqamətində atılan addımlar mühüm ictimai-siyasi və mədəni hadisə kimi diqqəti cəlb edirdi. Əsrlər boyu fəaliyyət göstərmiş köhnə üsullu dini məktəblərin və mədrəsələrin yeni tipli tədris müəssisələri ilə əvəz olunması həm də ana dili təliminin meydana gəlməsi ideyasının əsasını qoyurdu. Azərbaycanda yeni düşüncə tərzinə malik olan ziyalılar nəslinin yetişəcəyinə zəmin hazırlanırdı. XIX əsrin əvvəllərində Azərbaycanda yeni məzmunlu mədrəsələrlə yanaşı, yeni tipli məktəblərin də əsası qoyulmuşdu.

Hələ XIX əsrin əvvəllərindən etibarən Cənubi Qafqazın digər regionları kimi Azərbaycanda da rus dilində təhsil verən məktəblər açmaq zərurəti meydana gəldi. 1827-ci ildə Tiflisin hərbi qubernatoru Sipyagin Cənubi Qafqazın bir sıra şəhərləri ilə yanaşı Nuxa (Şəki), Qazax, Şamaxı, Şuşa, Bakı və Qubada qəza məktəbləri açmaq fikrini irəli sürmüşdü ki, az sonra bu siyahıya Naxçıvan və Ordubad da əlavə olundu.

Azərbaycanda xalq maarifi tarixinin ilk rəsmi sənədlərindən sayılan Cənubi Qafqaz məktəblərinin birinci Nizamnaməsində Naxçıvan və Ordubad şəhərlərində də yeni tipli qəza məktəblərinin açılması göstərilsə də, bu mühüm işin görülməsinə mane olan səbəblər mövcud idi. Qeyd olunan Nizamnamə təsdiq ediləndən sonra Cənubi Qafqazın baş hakimi Baron Rozen mərkəzi hökumətə raportlarının birində "Ordubad şəhərinin əhalisi az olduğundan hal-hazırda orada məktəb açmaq heç bir mənfəət verməz"- deyə narahatlığını bildirirdi [2, s. 10]. Həmin dövrdə Naxçıvanda açılması nəzərdə tutulan yeni tipli məktəblərdə tədris planına daxil edilən şəriət, qiraət, hüsnxət, hesab, rus dili və ana dilindən dərs deyə biləcək ixtisaslı müəllim kadrlarının olmaması da ciddi maneə kimi qarşıda

dururdu. Həmin dövrdə mövcud vəziyyəti təhlil edən Cənubi Qafqaz məktəbləri direktoru yazırdı: "Naxçıvan əhalisi çox olan şəhərdir və əlbəttə, burada məktəbə ehtiyac vardır. Lakin yerli sakinlərdən müəllimlik vəzifəsinə qabiliyyətli olan adamın olmaması burada məktəb açılmasını ləngitdi" [27, s. 11].

XIX əsrin ilk onilliklərində Naxçıvanda müəllim kadrlarına ciddi ehtiyac olsa da, yerli əhali yeni tipli məktəblər açılması ideyasına əksər hallarda müsbət münasibət bəsləyir, hətta rus dilinə meylin güclənməsi də yeni məktəblərə münasibətin ifadəsi kimi diqqəti cəlb edirdi. Xüsusilə vəzifəli və maddi imkanlı şəxslərin rus dilində məktəblər açılması üçün səyləri nəzərə çarpırdı. 1833-cü ildə Qriqoryev Sankt-Peterburqda çap etdirdiyi "Naxçıvan əyalətinin statistik təsviri" kitabında yazırdı: "Yerli əhalidə rus dilini öyrənməyə böyük həvəs vardır. Bir çox vəzifəli şəxslər artıq rus dilini öyrənməyə başlamışlar və böyük müvəffəqiyyətlər əldə etmişlər. Ümumiyyətlə, bütün əhali onların uşaqlarına həm rus dili, həm də ictimai həyatda zəruri olan ibtidai bilik öyrətmək üçün şəhərdə rus məktəbi təsis etməyi ürəkdən arzu edir, hətta yerli başçılardan xahiş edirlər. Naxçıvan əyalətini idarə edən Ehsan xanın dediyinə görə, belə məktəbə şəhərdən və yaxın kəndlərdən 200-ə qədər şagird yığılar" [53, s. 7].

Cənubi Qafqaz məktəblərinin 1829-cu ildə təsdiq olunmuş ilk Nizamnaməsində Naxçıvanda qəza məktəblərinin açılması nəzərdə tutulsa da, qeyd olunan səbəblər üzündən həmin məktəblər açılmadığı üçün 12 may 1835-ci ildə qəbul olunmuş ikinci Nizamnamədə də mövcud qəza məktəblərinin təkmilləşdirilməsi, Şamaxıda, Naxçıvanda, Qubada və Qazax distansiyasında nəzərdə tutulan qəza məktəblərini açmaq məsələsi yenidən təsdiq edilmişdi [27, s. 12].

Cənubi Qafqaz məktəblərinin ikinci Nizamnaməsinə uyğun olaraq Naxçıvanda



General İsmayıl xan Naxçıvanskinin evi

ilk qəza məktəbi 1837-ci il martın 15-də açıldı [27, s. 12]. Naxçıvanın hakimi general-mayor Ehsan xanın oğlanları İsmayıl və Kalbalı xanın xüsusi evində açılmış məktəbə ilk dəfə 20-ə qədər uşaq cəlb edilmişdi [61].

Naxçıvanlılar ilk dünyəvi dövlət məktəbinin açılmasına xüsusi diqqət, qayğı göstərir və Naxçıvanın gələcək inkişafında bu məktəbin roluna mühüm əhəmiyyət verirdilər. O dövrün sayılan adamlarından olan İsmayıl və Kalbalı xanın yeni açılan dünyəvi məktəbə böyük rəğbət bəsləyib, bu məktəbi ildə gümüş pulla 200 manat ianə hesabına [27, s. 13] öz himayələrinə götürmələri də bu fikri təsdiq edir.

XIX əsrin 40-cı illərində qəza məktəblərinin fəaliyyətinin məzmununda dəyişikliklər etmək, məktəblərin işini təkmilləşdirmək, bir növ Rusiyanın siyasətinə tam uyğunlaşdırmaq, ölkənin idarəçiliyi üçün yararlı çinovniklər hazırlamaq məqsədi ilə təkliflər irəli sürüldü.

XIX əsrin ortalarında Azərbaycanda yeni tipli məktəblər meydana gəldi ki, bunlar da ilk dəfə Qafqaz məktəblərinin 1853-cü il Nizamnaməsi ilə təsis edildi. Bu Nizamnaməyə görə Qafqaz tədris dairəsi aşağıdakı 4 direksiyaya bölündü:

1.Tiflis direksiyası
2.Kutaisi direksiyası
3.Stavropol direksiyası
4.Qara dəniz sahili direksiyası [27, s. 15].

Ümumiyyətlə, XIX əsrin ilk rübündən başlayaraq Azərbaycanda, o cümlədən Naxçıvanda yeni tipli qəza məktəblərinin açılması istiqamətində ardıcıl iş aparılmasına və bu məktəblərin açılmasına baxmayaraq çarizmin Azərbaycanda apardığı maarifçilik siyasətinin mahiyyətini heç də geniş xalq kütləsinin ehtiyacları deyil, yuxarı təbəqələrin mənafeyi tələb edirdi. Yəni çarizm Azərbaycanda məktəb təsis etməklə xalqın yuxarı təbəqəsini, imtiyazlı sinifləri öz tərəfinə çəkməyə, onları qulluğa cəlb etməyə, bu yol ilə milli adət-ənənələrdən yayındırmağa cəhd edirdi. Cənubi Qafqaz ölkəsi Baş İdarə şurasının üzvü, Cənubi Qafqaz tədris hissəsi rəisi Semyonovun bir yazısında Rusiya çarizminin Qafqazda, xüsusilə Azərbaycanda maarif islahatının mahiyyəti tam dolğunluğu ilə əks olunurdu: "Şübhə yoxdur ki, yuxarıda göstərilən tədbir müsəlman bəylərinin uşaqlarını məktəbə göndərməyə vadar edəcək, müsəlman uşaqları rus, gürcü və digər xristian uşaqları ilə birlikdə 3-4 il bir yerdə olmaqla rus dilini öyrənəcək və beləliklə də öz dini fanatizmini itirəcək və necə deyərlər ruslaşacaq: hökumətin bu ölkəyə münasibətində başlıca mənafe də bundan ibarətdir" [84].

XIX əsrin 30-40-cı illərində Azərbaycanda, o cümlədən Naxçıvanda fəaliyyətə başlayan qəza məktəblərinin tədris prosesinin mahiyyəti Rusiyada 1861-ci il 19 fevral tarixli "Təhkimçilik hüququnun ləğv olunması haqqında" islahatla müəyyən qədər dəyişdi. Məlum olduğu kimi, 60-cı illərin əvvəllərindən etibarən Cənubi Qafqazda, o cümlədən Azərbaycan məktəblərində müəllim kadr-

larının çatışmaması, maddi –texniki bazanın olmaması tərbiyə və tədris işinin keyfiyyətini xeyli aşağı salmış, nəticədə bir sıra məktəblər öz fəaliyyətini dayandırmaq məcburiyyətində qalmışdı. Buna görə də 1861-ci il fevral islahatının ardınca hökumət "ictimai-pedaqoji hərəkatın güclü təsiri nəticəsində məktəb təhsilinin qeyri-mükəmməl sisteminin bütün sahələrində islahat keçirməyə məcbur oldu" [27, s. 59]. Nəticədə 1864-cü il iyulun 14-də "İbtidai xalq məktəbləri haqqında əsasnamə", həmin il noyabrın 19-da isə "Gimnaziya və progimnaziyaların nizamnaməsi" təsdiq edildi.

60-cı illərin maarif islahatları Zaqafqaziyanı, eləcə də Azərbaycanı və Naxçıvanı da əhatə etməklə bir sıra təhsil ocaqlarını bitirmiş müəllimlərin və ziyalıların pedaqoji fəaliyyətə başlamalarına zəmin yaratmışdı. Tarixi qanunauyğunluq kimi "60-cı illərin maarif islahatının dalğası asanlıqla Naxçıvana da gəlib çatmışdı. Qısa vaxtda Naxçıvan və Ordubad məktəblərində müxtəlif təhsil ocaqlarını bitirmiş qabaqcıl müəllimlər pedaqoji fəaliyyətə qədəm qoymuşdular. Şagirdlərin sayı artmış, məktəb kitabxanaları yaradılmış, rəsm, gimnastika, kənd təsərrüfatı və sənət dərslərinin, hətta latın dili məşğələlərinin keçirilməsinə başlanılmışdı" [33, s. 32].

Naxçıvan qəza məktəbi bütün Cənubi Qafqaz təhsil dairəsinin diqqət mərkəzində idi. XIX əsrin ortalarından etibarən Tiflis Aleksandrovsk Müəllimlər İnstitutunun, Kutaisi və İrəvan gimnaziyalarının məzunlarının işləmək üçün Naxçıvana göndərilməsi bir tərəfdən Qafqaz Tiflis Dairəsinin (QTD) Naxçıvanda maarifin inkişafına diqqəti kimi dəyərləndirilirdisə, digər tərəfdən bu addım birbaşa Naxçıvanda maarifin dünyəvi elmlər istiqamətində inkişafına təkan verirdi. Qeyd olunan tədris müəssisələrinin məzunlarından İ.Kuzanov, K.Çərkəzov, G.Balçevski, İ.Boqolyubov, C.Bodridze və başqaları uzun müddət Naxçıvan qəza məktəbində rus dili, tarix, həndəsə, hesab, hüsnxət, şəriət, rəsmxət fənlərini tədris etmişdilər [4]. İxtisaslı müəllimlərin Naxçıvan qəza məktəbində gərgin fəaliyyətlərinin nəticəsi idi ki, bu məktəbin bir çox fərqlənən və əlaçı məzunları təhsillərini davam etdirmək üçün müxtəlif seminariya və gimnaziyalara göndərilirdi.

Naxçıvan qəza məktəbinin müdiri A.Sergeyevə gimnaziyada oxumaq üçün ərizə verən İsmayıl bəy Bektaşinin müraciətini nəzərə alan Naxçıvan qəzası qubernatorunun tərcüməçi katibi Mirzə Nəsir bəy 1863-cü ildə İrəvan quberniya xalq məktəbləri direktoruna göndərdiyi məktubda yazırdı: "Naxçıvan qəza məktəbində əla qiymətlərlə oxumuş İsmayıl bəy Bektaşinin Tiflis klassik gimnaziyasında dövlət xərci hesabına oxuması üçün lazımi kömək etmənizi xahiş edirəm" [61].

1868-ci ildən mövcud qəza məktəbləri ilə yanaşı Naxçıvan qəza məktəbi də üç əsas sinifli məktəbə çevrildi. 7-14 yaşlı uşaqların qəbul edildiyi həmin məktəbin tədris planına şəriət, ana dilindən oxu və yazı, rus dili, hesab, rəsmxət, nəğmə, gimnastika, coğrafiya, tarix və təbiətşünaslıq fənləri daxil idi.

1874-cü il may ayının 24-də təsdiq olunmuş Rusiya XMN-nin "İbtidai xalq məktəbləri haqqında" nizamnaməsinə əsasən şəhər və kəndlərdə ibtidai təhsil müəssisələrinin nisbətən genişlənməsinə şərait yarandı. Bununla əlaqədar digər bir çox məktəblər kimi Qafqaz Tiflis Dairəsinin 10 mart 1879-cu il tarixli xüsusi sərəncamı [116, s. 56] ilə üçsinifli tədris müəssisəsi statusu almış Naxçıvan qəza məktəbi də 1879-cu ildə şəhər məktəbinə çevrildi [27, s. 74].

Naxçıvan şəhər məktəbində maarifçi-ictimai mühitin inkişaf etdirilib genişlənməsində, mütərəqqi demokratik ideyaların yayılmasında, tədrisin elmi əsaslar üzərində qurulmasında 21 iyun 1879-cu ildə tanınmış alim-pedaqoq Konstantin Andreyeviç Nikitinin (1832-1894) bu məktəbə müəllim-inspektor təyin olunmasının mühüm rolu oldu. Eyni zamanda K.A.Nikitinin məktəbə rəhbərlik etdiyi dövrdə (21 iyun 1879-18 iyun 1883-cü illər) və ondan bir qədər sonralar da Fyodor Domaşevski, Georgi Uturqauri, Mirzə Sadıq Qulubəyov, Əliməmməd Xəlilov, S.P.Zelinski, Mirzə Kazım Qulubəyov və digər tanınmış pedaqoqlar [33, s. 58-66] Naxçıvan şəhər məktəbində pedaqoji fəaliyyətlə məşğul oldular. Buna görə də həmin məktəbin bir çox tanınmış məzunlarının Naxçıvan şəhər məktəbində oxuduqları dövr onların "həyat həqiqətlərini dərketmə mərhələsi" [116, s. 43], "işıqlı aləmə ilk addım dövrü" [54, s. 69] kimi səciyyələndirilmişdir. Bir sıra elmi ədəbiyyatlarda K.A.Nikitinin Naxçıvan şəhər məktəbinə rəhbərlik etdiyi dövr "Naxçıvan şəhər məktəbinin dirçəlmə və yüksəliş mərhələsi" kimi qiymətləndirilmiş və bu təhsil ocağının "az sonra tanınmış pedaqoq M.T.Sidqinin Naxçıvan şəhərində təsis etdiyi "Tərbiyə məktəbi"nin (1894) bünövrəsi" [33, s. 57] olduğu qeyd edilmişdir.

Naxçıvan şəhər məktəbində müxtəlif fənlərin tədrisi prosesində tarix və coğrafiyaya aid verilən biliklər, Rusiya, Avropa və Qərb ölkələrinə dair məlumatlar, Şərq tarixi və mədəniyyəti, yerli diyarşünaslıq məsələlərinin öyrənilməsi, əxlaq məsələlərinə diqqət verilməsi bu tədris ocağının bir tərəfdən dünyəvi meyllərindən xəbər verirdisə, digər tərəfdən Azərbaycanın milli tarix və mədəniyyətinə dair elmi biliklərin aşılanmasının əsasını qoyurdu. Eyni zamanda elmi-pedaqoji ədəbiyyatlarda göstərildiyi kimi, "Naxçıvan şəhər məktəbindəki öz dövrünə görə zəngin kitabxana, diyarşünaslıq muzeyi, meteoroloji stansiya, nəbatat və mineroloji kabinetləri də dünyəvi mühitin bərqərar olmasını şərtləndirmiş, milli düşüncənin aşılanmasına müsbət təsir göstərmişdir" [33, s. 60].

1879-cu ildə Naxçıvan şəhər ibtidai məktəbinin birinci sinfinə daxil olan Azərbaycanın böyük yazıçısı Cəlil Məmmədquluzadə həmin məktəbdə oxuduğu illərin özünün dünyagörüşündə mühüm rol oynadığını dəfələrlə xatırlayaraq o illərdə "İkinci Aleksandrın mücahidlər tərəfindən Peterburqda güllələnməyi", "Rus və osmanlı davası" kimi ciddi tarixi-coğrafi məlumatları öyrəndiyini [33, s. 58; 55], İ.A.Krılovun mühüm əxlaqi-tərbiyəvi əhəmiyyətə malik olan "Yolçu və it" təmsilini əzbərlədiyini [55] qeyd etmişdir.

Naxçıvanda ilk qəza məktəbindən başlayan maarifçilik ideyaları XIX əsrin səksəninci ilərindən yeni-yeni məktəblərin, təhsil ocaqlarının yaranmasına, təşəkkül tapmasına səbəb olurdu. Həmin dövrdə Şərur-Dərələyəz və Ordubad qəzalarında yeni kənd məktəbləri yarandı. 1882-ci ildə Qulubəy-Dizə və Yengicə, 1885-ci ildə Yamxana, 1896-cı ildə Vənənd, Bənəniyar, Mahmudoba, Milax, Biləv, Yaycı və Sədərək kəndlərində yeni məktəblər açıldı.


Azərbaycanda, o cümlədən Naxçıvanda xalq maarifinin inkişafında əsası 12 sentyabr 1876-cı ildə qoyulan [26, s. 18] Zaqafqaziya Müəllimlər Seminariyasının çox böyük rolu oldu.

Zaqafqaziya Müəllimlər Seminariyası məzunlarının (xüsusilə Azərbaycan şöbəsi məzunlarının) İrəvan quberniyasının müxtəlif qəzalarında, o cümlədən Naxçıvanda da müəllim kimi pedaqoji fəaliyyətə başlamaları Naxçıvanda xalq təhsilinin və ictimai fikrin inkişafına yeni ab-hava gətirdi, maarif tarixinin yeni səhifələri yazılmağa başladı. Azərbaycanın digər yerlərində olduğu kimi Naxçıvanda da dünyəvi təhsilə meyil gücləndi. 80-ci illərdən başlayaraq XIX əsrin sonlarına doğru dövlət hesabına, həmçinin zemstvo və kənd ictimaiyyətinin köməyi ilə açılan məktəblərin sayı artmağa başladı.

XIX əsrin sonuna doğru da xalq maarifi sahəsində çarizmin mürtəce siyasət yeritməsinə baxmayaraq Azərbaycanda məktəblərin sayı artır, elmə, maarifə meyil güclənirdi. 1869-cu ildə Bakı quberniyasında 785 şagirdi olan cəmi 12 məktəb olduğu halda, əsrin sonunda, yəni 1899-cu ildə məktəblərin sayı 138-ə, şagirdlərin sayı isə 11.316 nəfərə çatmışdı [27, s. 106]. Naxçıvan qəzasında xalq məktəbləri əsasən XIX əsrin 80-ci illərindən sonra meydana gəlməyə başladı ki, həmin məktəblərdən Yengicə, Böyük Vedi, Nehrəm, Cəhri, Şahtaxtı, Sədərək, Vənənd, Biləv, Yaycı və s. kənd məktəblərini göstərmək olar.


Naxçıvanda bu məktəblərin açılması yerli əhali tərəfindən "böyük izdihama çevrilir" [27, s. 108], bayram əhval-ruhiyyəsi ilə qeyd olunurdu.

Bu məktəblərdən ən məşhuru dövrünün məşhur müəllimi və pedaqoqu kimi tanınan, İrəvan qubernatorunun 1892-ci ilə aid hesabatında "çox yaxşı maarifçi" [24, s. 20] kimi qiymətləndirilən, İranın "Şah Sultan Hüseyn" mədrəsəsində təhsil alıb ərəb və fars dillərini mükəmməl öyrənən [29, s. 5] Məhəmməd Tağı Sidqinin 1892-ci ildə Ordubad şəhərində açdığı "Əxtər" ("Ulduz") məktəbi idi. "Naxçıvan mühitində çox mühüm hadisə" [27, s. 285] kimi qiymətləndirilən bu məktəb təlimin məzmunu və mahiyyətinə görə ruhani məktəblərindən tamamilə fərqlənir, burada yeni təlim və tərbiyə üsulları tətbiq edilirdi. O dövrün rəsmi sənədlərinin birində qeyd



"Əxtər" məktəbi

olunurdu ki, "ucqar qəzalardan biri olan Ordubadda "Əxtər"" adında yeni bir müsəlman məktəbi açılmışdır. Məktəbi Mirzə Tağı adlı bir şəxs təsis etmişdir. Yerli əhali məktəbə o qədər rəğbət bəsləyir ki, onlar öz uşaqlarını dini məktəblərdən çəkindirib "Əxtər"ə qoyurlar" [24, s. 9].



"Tərbiyə" məktəbi

Ordubadda M.T.Sidqinin açdığı "Əxtər" məktəbinin şöhrəti çox qısa vaxtda geniş yayıldığından şəhər əhalisi M.T.Sidqini Naxçıvana dəvət edərək Naxçıvanda belə bir məktəb açmasını xahiş edirlər. 1894-cü ildə Naxçıvanda M.T.Sidqi "Əxtər"in məzmununa uyğun "Məktəbi-tərbiyə"ni açır. Yeni açılan "Tərbiyə məktəbi"nə çox yüksək qiymət verən və həmin tədris ocağının gənc müəllim və ədiblər üçün də məktəb hesab olunduğunu qeyd edən C.Məmmədquluzadə yazırdı: "Həmin təzə türk məktəbi savabı ondan ki, nə qədər türk balalarının təzə üsulla savad və bilik əxz etmələrinə səbəb olur, həmin məktəb biz yeniyetmə müəllim və ədiblər üçün də bir darülfünün hesab olunur" [49, s. 472].

"Əxtər" kimi M.T.Sidqinin "Tərbiyə məktəbi" də tədrisin keyfiyyətinə, yüksək dərs rejiminə, tədris olunan fənlərin məzmununun əhatəliliyinə görə diqqəti cəlb etməklə, bu məktəbin yaradıcısının əməyi yüksək qiymətləndirilirdi. İrəvan quberniyası xalq məktəbləri inspektoru 1898-ci ildə Gəncə və İrəvan quberniyası xalq məktəbləri direktoruna yazdığı 362 №-li raportunda M.T.Sidqinin fəaliyyətinin mükafatlandırılmasını təklif edirdi: "Onu da nəzərinizə çatdırmağı borc bilirəm ki, Naxçıvan şəhəri müsəlman əhalisinin ümumi hörmətini qazanan Məşədi Tağı Səfərovun müsəlman əhalisi içərisində rus təhsilinin çiçəklənməsinə göstərdiyi qayğı, səylə işləməsi tədris idarəsinin mükafatına layiqdir" [27, s. 287].

Eyni zamanda M.T.Sidqinin "Tərbiyə məktəbi"ndəki fəaliyyəti bir sıra maarifçi ziyalıları da məktəbdarlıq işinə həvəsləndirdiyindən onlar öz yazışmalarında "Naxçıvanda Sidqinin "hərəkəti-arifanəsi" bizi də burada fövqəladə səy və qeyrətlərə sövq edirdi" [115] fikrini etiraf edirdilər. Bu etiraflar isə öz növbəsində dövrün maarifçi ziyalılarının əməli fəaliyyəti ilə nəticələnir, Azərbaycanın müxtəlif bölgələrində yeni tipli məktəblərin açılması zəminində iş gedirdi.

Naxçıvanda xalq təhsili ənənələrinin təşəkkülündə və genişlənməsində çox böyük rolu olan "Məktəbi-tərbiyə"nin təşkili və fəaliyyəti o dövr mətbuatında əhatəli şəkildə təsvir olunur və şöhrəti getdikcə artırdı. Belə yazılardan "Qafqaz" qəzetində çap olunan "Qafqaz xəbərləri" başlıqlı məqalə daha maraqlı idi:

"Bu yeni tipli məktəbdir. Burada mədəni xalqların ibtidai məktəblərinə xas olan bütün adi fənlər keçirilir və bu məktəbin köhnə müsəlman məktəbləri ilə heç bir ümumi oxşarlığı yoxdur. Müsəlman pedaqoqu Məşədi Tağı Ordubadski

tərəfindən əsası qoyulmuş bu məktəb, onun rəhbərliyi altında olub, yerli müsəlman ictimaiyyətinin xərci ilə idarə olunur" [43].

Digər bir mətbuat nümunəsində də əsrin sonuna qədər bu məktəbin "Naxçıvanda yeganə rolu" [197] qeyd olunmuşdur.

Naxçıvanda xalq təhsili ənənələrinin yaranmasında qızların məktəbə cəlb olunması da mühüm tarixi hadisə kimi diqqəti cəlb edirdi. Naxçıvanın xalq təhsili tarixinin bir növ yeni mərhələsi hesab olunan həmin proses "Qafqaz müsəlmanlarının tarixində yeni dövrün başlanğıcı" [166] kimi qiymətləndirilirdi.

Ümumiyyətlə, XIX əsr qədim Naxçıvan diyarının maarif tarixində xüsusi mərhələ olmuş və həmin yüzillik ərzində Naxçıvan maarifi yenitipli məktəblərin açılması, inkişafı ilə yadda qalmışdır.

Elm. XIX əsrdə Naxçıvanda elm yeni istiqamətdə inkişaf etməyə başlamışdır. Belə ki, Azərbaycanın çar Rusiyası tərəfindən işğalından sonra orta əsrlərdə formalaşmış salnamə və təzkirəçilik ənənəsi əsasən başa çatmışdı. Bundan başqa, maarifçilik hərəkatının başlanması və tədricən genişlənməsi də elmi fikrin yenidən qurulmasını şərtləndirmişdi. Ona görə də Abbasqulu ağa Bakıxanovun elmi fəaliyyətini nəzərə almasaq, XIX əsrin birinci yarısında ümumən Azərbaycanda, o cümlədən də Naxçıvanda elm sahəsində keçid dövrü yaşanmışdır. Ərəb-fars dili üstündə köklənmiş yerli ziyalıların meydanı daralmış, başlanğıc dövrdə rus dilində yazıb-oxumaq bacaranların az olması ilə əlaqədar olaraq milli elmi fikir müəyyən bir hazırlıq mərhələsi keçməli olmuşdur. Siyasi sistemin dəyişməsilə yaranan və elmi-ədəbi mühitə də təsir göstərən çaşqınlıq vəziyyəti Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin müəllimi" pyesində bütün reallıqları ilə aşağıdakı kimi təsvir olunmuşdur: "Ay usqal, axı bir insafnan danış, axı qarpızın içinin arşınla ölçməyin bizə nə mənfəəti? Biz əkinçi rəncbərik. Biz elə həmişə qarpız da əkərik, onu satanda, ya alanda saynan alıb satarıq, yainki tərəziyə qoyarıq. Arşından da çiti, bezi ölçərik. Sən yəqin bizim vilayətə nabələtsən, bilmirsən. Amma yaxşı olardı sən bizim kəndə təşrif gətirəndə Şahtaxtından qarpız toxumu gətirə idin. Çünki oraların qarpızı cinslikdə adnandı. Yoxsa bizim toxumlar nacinsdir. Əgər belə işləmiş olsa idin, bizlərə böyük bir yaxşılıq eləmiş olardın. Yoxsa, doğrusu, sənin bu qarpız ölçüsündən ağlım bir şey kəsmədi" [50, s. 500].

Nəhayət, XIX əsrin yetmiş-səksəninci illərindən etibarən Avropada və Rusiyada, Qafqazda təhsil alıb qayıtmış ziyalıların ölkə ictimai-maarifçi mühitində özünəməxsus yer tutmasından sonra elmi fikrin inkişafında müəyyən canlanma yaranmışdı. Belə ziyalıların sıralarında Naxçıvan diyarının yetirmələri də var idi. Avropada təhsil almış Məhəmməd ağa Şahtaxtılı, Moskva Universitetini bitirmiş Fərəculla Şeyxov, Nəsrulla Şeyxov, Cəlil Səfiyev, Qori Müəllimlər Seminariyasının məzunları Cəlil Məmmədquluzadə, Mirzə Əliməmməd Xəlilov, Mirzə Ələkbər Süleymanov, Əbülqasım Sultanov, Novorossiysk İmperator Uni-

versitetinin məzunu Paşa ağa Sultanov, Xarkov Universitetindən məzun olmuş Ələkbər Məmmədxanov və başqalarının fəaliyyəti Naxçıvanda yeni maarifçi elmi dünyagörüşün formalaşmasında mühüm rol oynamışdır. Xüsusən, Məhəmməd ağa Şahtaxtlının (1846-1931) nümunəsində XIX əsrin səksəninci illərindən etibarən ümumən Azərbaycanda, o cümlədən Naxçıvanda elmi fikir yenidən dirçəlməyə başlamışdır. Şahtaxtı kəndində anadan olmuş Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtılı Naxçıvan şəhərində mədrəsə təhsili almış və ibtidai məktəbi bitirmiş, Tiflis klassik gimnaziyasının məzunu olmuşdur. Almaniyanın Leypsiq Universitetinin tarix, fəlsəfə və hüquq fakültəsində, sonra isə Fransanın məşhur Sorbon Universitetindəki Ali Təcrübi Məktəbdə qazandığı dərin bilik və geniş dünyagörüş Məhəmməd ağa Şahtaxtılının çoxcəhətli fəaliyyətində elmi istiqamətin güclənməsinə şərait yaratmışdır. XIX əsrdə Ümumdünya Coğrafiya Cəmiyyətinin Paris konfransının iştirakçısı, Beynəlxalq Fonetika Cəmiyyətinin və Asiya Cəmiyyətinin üzvü kimi böyük yol keçmiş Məhəmməd ağa Şahtaxtılının Fransa, Rusiya və Qafqaz mətbuatındakı məqalələrində elmi baxış qabarıq şəkildə ifadə olunmuşdur. Dərin analitik təhlil, zəngin məlumat bazası, geniş ümumiləşdirmə imkanları onun dövri mətbuatda çap edilmiş məqalələrində ciddi bir elmiliyin olduğunu göstərir. Tiflisdə rus dilində çıxan "Qafqaz" qəzetində 1882-ci ildə çap olunmuş "Müsəlmanlarda məktəb həyatı" adlı məqalələr silsiləsi Şərq təhsil sistemi, dil və əlifba islahatları, tarix, ədəbiyyat və maarif haqqında ciddi elmi baxışlardan ibarətdir. Eyni zamanda, Məhəmməd ağa Şahtaxtılının "Konstantinopoldan məktublar" silsilə məqalələrində də ictimai-siyasi hadisələrin mükəmməl elmi şərhi öz əksini tapmışdır. Bütövlükdə Məhəmməd ağa Şahtaxtılının publisistikası elmi-siyasi xarakterə malik olub, dövr-zaman, hadisələr, proseslər və şəxsiyyətlər haqqında obyektiv və sistemli şərhləri, ümumiləşdirilmiş nəticələri ilə səciyyələnir. Daha doğrusu, Məhəmməd ağa Şahtaxtılının məqalələrində elmi yanaşma publisistikadan üstündür. Əslində bu məqalələr bir qədər mətbu dildə yazılmış elmi əsərlərdir. "Müsəlmanlarda məktəb həyatı" məqalələr silsiləsi bütövlükdə həmin mövzuya dair monoqrafiya təəssüratı yaradır. Yaxud böyük maarifçi ziyalının 1891-ci ildə Bakıda "Kaspi" qəzetində çap olunmuş "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı" məqaləsindəki zamanın irəli sürdüyü suala verilmiş ümumiləşmiş elmi cavab bütöv bir monoqrafiyada şərh edilə bilən dərin və əsaslandırılmış qənaətlərdən ibarətdir: "Zaqafqaziya müsəlmanlarını azərbaycanlılar, onun dilini isə Azərbaycan dili adlandırmaq çox yerinə düşərdi. Böyük bir hissəsi İrandan Rusiyanın payına düşmüş Azərbaycan mahalı – indiki Zaqafqaziyadır, əhalisi də türk xalqıdır. Onları həm Şərq yazıçıları, eləcə də Avropa coğrafiyaçıları və etnoqrafları başqa adla yox, ancaq Azərbaycan türkləri adlandırırlar. Gündəlik həyatımızda xalqın adını və onun dilinin adını iki sözlə ifadə etmək rahat deyil. Məsələn, azərbaycanlı türk dili... Ona görə də Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya

türk dilini isə tatar dili əvəzinə Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı".

Məhəmməd ağa Şahtaxtılı hələ XIX əsrdə azərbaycançılıq məfkurəsinin ilkin elmi əsaslarını yaradanlardan biri olmuşdur. Bu, həmin dövr Azərbaycanın maarifçiliyinin mühüm elmi nailiyyəti hesab olunmağa layiqdir. Eyni zamanda, Məhəmməd ağa Şahtaxtılının 1879-cu ildə Tiflisdə "Tomson" mətbəəsində çap etdirdiyi "Təkmilləşdirilmiş Azərbaycan əlifbası" layihəsi də elmi sistemə malik olan əhəmiyyətli hadisə idi. Məhəmməd ağa Şahtaxtılı XIX əsrin əvvəllərində də əlifba islahatları sahəsindəki fəaliyyətini davam etdirmiş, 1902-1903-cü illərdə bir neçə variantda layihələr meydana qoymuş, "Azərbaycan, rus və fransız dillərində 5 kitab çap etdirmiş" [34, s. 149], latın əlifbasına keçid hərəkatının görkəmli simalarından biri kimi tarixdə mühüm izlər qoymuşdur.

XIX əsrdə Naxçıvanda elmi fikrin inkişafında böyük maarifçi, görkəmli şair Məhəmməd Tağı Sidqinin (1854-1903) mühüm rolu olmuşdur. Ordubad şəhərində dünyaya gəlmiş, ömrünün çox hissəsini burada keçirmiş, "Əxtər" adlı məktəbi ilə Azərbaycan dilində dünyəvi təhsilin inkişafına böyük xidmət göstərmiş Məhəmməd Tağı Sidqi daha çox maarifçi şair və pedaqoq kimi şöhrət qazanmışdır. O, Ordubad şəhərində fəaliyyət göstərmiş "Əncümənü-şüəra" ədəbi məclisinin əsas təşkilatçılarından biri olmuşdur. Məhəmməd Tağı Sidqinin Naxçıvan şəhərində yaratdığı məşhur "Tərbiyə" məktəbi xalq arasında "darülürfan" kimi qiymətləndirilmişdir. Onun elmi fəaliyyəti də məktəblə, maarifçiliklə bağlı olmuşdur. Cəlil Məmmədquluzadənin yazdığı kimi, "Tərbiyə" məktəbində yeni nəsil "elmi-ilahi, türki, rus, fars və ərəb dilləri, coğrafiya, mühəndislik, tarix və başqa elm və tərbiyə öyrənmişdir" [52, s. 108]. Məhəmməd Tağı Sidqi bədii əsərlərində də elmi təbliğ etmiş, "elm əsridi, elm fərzi-candır, bielm olanın işi yamandır" - çağırışlarını diqqət mərkəzinə çəkmişdir.

Məhəmməd Tağı Sidqinin elmi əsərləri məktəbin, yeni nəslin ehtiyacından yaranmışdır. Dərsliklərin, digər tədris vəsaitlərinin olmadığı bir dövrdə Məhəmməd Tağı Sidqinin "Tərbiyə" məktəbinin şagirdləri üçün yazdığı əsərlər özünəməxsus elmi əsaslara malik olan qiymətli pedaqoji-metodiki örnəklər idi. Onun "Nümuneyi-əxlaq" əsəri dövrünün mükəmməl "Pedaqogika" dərsliyi kimi qiymətləndirilməyə layiqdir. Dərslikdəki "Məktəb nədir" sualına verilmiş dərin və mənalı cavab sadəcə məktəbdarlıqla məşğul olan bir müəllimin deyil, məktəbşünaslığı bütün mahiyyəti ilə sistemli şəkildə qavramış kamil bir pedaqoqun elmi düşüncələrinin ifadəsindən ibarətdir: "Məktəb bizim elm və maarifimizin vasitəsi, dünya və axirətimizin səadətinin səbəbidir. Elm və ədəb bir xəzinəyə bənzər ki, onun açarı məktəbdir. Bizləri nadanlıq zülmətindən qurtarıb, nuri-mərifətə yetirən məktəbdir. Çünki insanın qədr və qiyməti elmilə bilinir... məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır. Məktəb bir cismə bənzər ki, onun ruhu müəllimdir" [104, s. 65-66].

Bu ideyalar orta əsrlərdən gələn Azərbaycan nəsihətnamələrinin yekunu, yeni dövr milli maarifçi fikrin elmi bəyannaməsi kimi səslənirdi.

Məhəmməd Tağı Sidqinin "Töhfeyi-benat, yainki qızlara hədiyyə" dərsliyindəki "elm tələbində olmaq hər bir müsəlman kişisi və müsəlman qadını üçün fəzilətdir" – fikri əslində yeni tarixi zamanın çağırışı idi. Eyni zamanda, "Nəsihətnamə" adlı əsərindəki mülahizələrində də Məhəmməd Tağı Sidqi elm öyrənməyin üstünlüklərini və zərurətini ön mövqeyə çəkmişdir. "Nəsihətnamə" əsəri əxlaq dərslərindən ibarət olan klassik nəsihətçiliyindən fərqli olaraq geniş mənada təhsil haqqında elmdir. Bu əsəri "Elmnamə" də adlandırmaq olar. Səksən maddədən ibarət olan "Nəsihətnamə"nin demək olar ki, əksər müddəalarında ağıl, elm öyrənmək, idrak, təhsil almaq məsələləri öz əksini tapmışdır. Məhəmməd Tağı Sidqi o qənaətdə idi ki, "dünyada elmin ləzzətini bilmək insan üçün bir böyük səadətdir. Amma səadət də bir xəzinədir ki, səy və qeyrət onun kilididir" [104, s. 116].

Bütün bunlara görə Məhəmməd Tağı Sidqinin nəsihətnamələri məktəbşünaslığın və elmşünaslığın ilkin möhkəm təməllərini təşkil edir.

Geniş elmi dünyagörüşə malik olan Məhəmməd Tağı Sidqinin elmi əsərləri sırasında ədəbiyyatşünaslıq, fəlsəfə, coğrafiya da mühüm yer tutur. Sidqişünaslıqda "Heykəli-insanə bir nəzər" pedaqoji əsər, yaxud da bədii nümunə kimi təqdim olunmuşdur. Halbuki "Heykəli-insanə bir nəzər" əsəri Məhəmməd Tağı Sidqinin ictimai-fəlsəfi əsəridir. Əsərdə insanlığın keçdiyi inkişaf yolunun fonunda cəmiyyətdə gedən proseslərin və müxtəlif hadisələrin, məsələn: teleqrafın meydana gəlməsi, yazının yaranması, məktəblərin, məscidlərin və mətbəələrin qurulması, Eyfel qülləsinin ucaldılması, dəmir yollarının çəkilməsi, hava gəmilərinin ixtira olunması, elektrik enerjisinin əldə olunması və sair kimi yeniləşmələrin əsasında bəşəriyyətin həyatında baş vermiş böyük dəyişikliklərin mahiyyəti və əhəmiyyəti aydınlaşdırılmışdır. "Heykəli-insanə bir nəzər" əsərində Məhəmməd Tağı Sidqi filosof kimi çıxış edir və cəmiyyətdə gedən çoxcəhətli proseslərin mahiyyətinə işıq sala, aydınlıq gətirə bilir.

M.T.Sidqinin elmi əsərləri sırasında onun görkəmli rus şairi A.S.Puşkin haqqındakı əsəri xüsusi yer tutur. Məlum olduğu kimi, Məhəmməd Tağı Sidqi 26 may 1899-cu ildə Naxçıvan şəhər məktəbinin müəllimləri, şagirdləri və şəhər ictimaiyyətinin nümayəndələri qarşısında A.S.Puşkinin anadan olmasının 100 illiyi münasibəti ilə məruzə ilə çıxış etmişdir. Məruzənin mətni 1914-cü ildə Bakıda "Kaspi" mətbəəsində ayrıca kitab halında nəşr edilmişdir.

XIX əsrin sonlarında Naxçıvan şəhər məktəbində təkcə rus poeziyasının deyil, dünya ədəbiyyatının görkəmli nümayəndəsi olan A.S.Puşkinin təntənəli yubiley mərasiminin keçirilməsi böyük mədəni hadisə idi. Məhəmməd Tağı Sidqinin yubiley gecəsində etdiyi məruzədə Puşkinin həyatı və yaradıcılığının əsas istiqamətləri əhatə olunmuş, böyük sənətkarın keşməkeşli ömür yolunun və

sənətinin ümumiləşmiş geniş mənzərəsi canlandırılmışdır. Məruzədə Puşkinin yaradıcılığına onun sələflərinin və müasirlərinin xidmətləri ilə müqayisəli şəkildə qiymət verilmişdir. Bu yolla məruzəçi rus ədəbiyyatının görkəmli nümayəndələrindən N.Karamzin, İ.Krılov, A.Qriboyedov, M.Lermontov və başqalarının yaradıcılığını da təhlilə cəlb etmiş, ictimaiyyətə çatdırmışdır. Eyni zamanda, fars ədəbiyyatından Firdovsi və Hafiz, ingilis ədəbiyyatından Şekspir, fransız ədəbiyyatından Volterlə də müqayisələr aparılaraq A.S.Puşkinin dünya ədəbiyyatındakı yeri və mövqeyi müəyyən edilmişdir. Məhəmməd Tağı Sidqinin fikrincə, A.S.Puşkin "rus şairlərinin hamısından sahibi imtiyaz və cümləsindən sərəfraz və sükənpərdar hesab olunur... Puşkin rus dilini gözəl surətdə diriltdi... Rus ədəbiyyatına təzə ruh verdi və rus qovmünün təhzibi-əxlaqına və tövsiri-əfkarına çox xidmət göstərdi. Zülmətdən Günəş tülu edən kimi inqilabi-ziyad cəhl və fəsad ilə dolu olan əsərlərində... elm və mərifətdən, ədabi-insaniyyətdən dəm vurub, sözünü dərəcəyi-sübuta yetirdi. Puşkin bu qədər şöhrəti, bu dərəcə səadəti sadə və aşkar yazmaq sayəsində qazandı... Puşkinin şeirlərinin bir beyti də şiveyi-şairanədən və ləhceyi-ədibanədən xali deyildir" [104, s. 130].

Bu fikirlər nəinki XIX əsrdə, hətta XXI əsr üçün də obyektiv elmi qənaətlər kimi səslənir. Buna görə də Məhəmməd Tağı Sidqinin böyük rus şairi A.S.Puşkinə həsr olunmuş məruzəsi və kitabı bu görkəmli sənətkar haqqında mötəbər elmi mənbədir. Həmin məruzə ilə və kitabla Azərbaycanda puşkinşünaslığın əsası qoyulmuşdur.

Məktəblərin ehtiyacından doğan "Müxtəsər coğrafiya risaləsi" Azərbaycanda ilk coğrafiya dərsliyidir. "Tərbiyə" məktəbində coğrafiya fənnini tədris etmək üçün hazırlanmış bu dərslik Məhəmməd Tağı Sidqinin coğrafi biliklərinin geniş və əsaslı olduğunu göstərir. Böyük pedaqoq dərsliyini hazırlayarkən coğrafiyaya dair Türkiyədə çap olunmuş mənbələrdən istifadə etmişdir. Belə ki, "Məhəmməd Tağı Sidqinin şəxsi kitabxanasının təsviri"ndə Süleyman Şövkətin "Müxtəsər coğrafiya" kitabının və müəllifi göstərilməyən "Məcmueyi-coğrafiya" toplusunun adları qeyd olunmuşdur [104, s. 277]. Məlum olduğu kimi, Abbasqulu ağa Bakıxanovun coğrafiyaya dair "Əsrarül-məlaküt" kitabı da 1848-ci ildə İstanbulda nəşr edilmişdi. Rus dilinə də az-çox bələd olması Məhəmməd Tağı Sidqinin coğrafiya haqqındakı biliklərinin Rusiya mənbələrindən alınmış məlumatlarla da zənginləşdiyini düşünməyə əsas verir. Bütün bunlara görədir ki, "Müxtəsər coğrafiya risaləsi", adında ifadə olunduğu kimi, sadəcə məlumat kitabçası olmayıb, mühüm elmi əhəmiyyətə malik dərslikdir. Məsələn, müəllifin "elmi-coğrafiya nədir" sualına verdiyi cavab bu elm sahəsinin mükəmməl nəzəri tərifi sayıla bilər: "Elmi-coğrafiya üstündə yeriyib-gəzdiyimiz yerin heyətindən və onun üzərindəki dəryaların və dağların və insanların və heyvanat və nəbatatın əhvalından bəhs edir" [104, s. 140].

Axtarışlar göstərir ki, XIX əsrin səksəninci illərində Naxçıvanda coğrafiya

sahəsinə ciddi maraq olmuşdur. Bu, ilk növbədə yeni tipli dünyəvi məktəblərdə keçirilən coğrafiya fənninin tədrisi və həmin fənnə dair tədris vəsaitinin olmaması ilə əlaqədar idi. İkincisi, coğrafiyaya maraq Avropada və Rusiyada təhsil alıb geri qayıdan ziyalıların diyarşünaslıq fəaliyyəti ilə məşğul olmalarından irəli gəlirdi. Qori Müəllimlər Seminariyasının məzunu Əliməmməd Xəlilovun 1881-1882-ci illərdə Naxçıvan şəhər məktəbində müəllim işləyərkən həmin məktəbin nəzarətçisi Konstantin Nikitinlə birlikdə hazırladıqları "Naxçıvan şəhərinin metroloji müşahidə gündəliyi"ndə ilin bütün günlərinin iqlim göstəriciləri və təbiət hadisələri qeydə alınmış, iyun ayı Biçənək kəndi ilə müqayisəli şəkildə təqdim olunmuşdur [31, s. 4-7].

Bundan başqa, Cəlil Məmmədquluzadə Nehrəm məktəbində pedaqoji fəaliyyətlə məşğul olarkən Bulqan hərbi hissəsinin həkimi N.A.Fyodorovla birlikdə yerli təbiət hadisələrini öyrənmiş və bu sahədə ona yardım etdiyinə görə həmin həkimə təşəkkür elan olunması barədə xalq maarif idarəsi qarşısında məsələ qaldırmışdır [35, s. 122].

Eyni zamanda, Nehrəm kənd məktəbinin müəllimi vəzifəsində çalışmış Kərim bəy İsmayılovun "Qafqaz ölkəsi və tayfalarını öyrənmək üçün materiallar" məcmuəsində çap olunmuş "Nehrəm kəndi" adlı məqaləsində də coğrafiyaya dair məlumatlar geniş yer almışdır. Bütövlükdə Naxçıvanda coğrafiyaya böyük maraq göstərilməsi həm də fanatizm və cəhalətə qarşı mübarizə aparan maarifçi qüvvələrin dünyəvi baxışlarının da ifadəsi idi.

Maarifçi elmi mühitin inkişafında Eynəli bəy Sultanovun da özünəməxsus xidmətləri var idi. Belə ki, onun XIX əsrin axırlarında "Novoye obozreniye" qəzetində çap edilmiş məqalələri tədqiqat xarakteri daşıyırdı. Eynəli bəy Sultanovun "Azərbaycanlılar nə oxuyurlar", "Qleb Uspenski Qafqazda", "Azərbaycan atalar sözləri", "Şahtaxtinski və Şərq fonetik əlifbası" və sair məqalələrində araşdırmalar, müşahidələr əsasında formalaşan, müəyyən dünyabaxışı ifadə edən fikirlər üstünlük təşkil edir. Onun elmi düşüncələri içərisində folklorşünaslıq baxışları xüsusilə əhəmiyyətlidir.


Bundan başqa, XIX əsrdə Naxçıvanda elmi mühitin inkişafında burada müxtəlif vaxtlarda yaşayıb işləmiş, yaxud regionda uzunmüddətli səfərdə olmuş digər xalqların nümayəndələrinin rolu da qeyd edilməlidir. Konkret olaraq Rusiya maarifçi ziyalılarının XIX əsrdə Naxçıvan diyarı haqqındakı araşdırmaları mühüm əhəmiyyətə malikdir. Bu cəhətdən Rusiya Mərkəzi hökumətinin sifarişi ilə yazılıb 1937-ci ildə Sankt-Peterburqda nəşr edilmiş V.Q.Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" kitabı xüsusilə diqqəti cəlb edir. Əsərdə 1828-1829-cu illərdə Naxçıvanın əhalisi, məşğuliyyəti, demoqrafik tərkibi, vergi sistemi, kənd təsərrüfatı, təbiəti, ticarət əlaqələri və sair haqqında geniş, əhatəli və sistemli məlumatlar öz əksini tapmışdır.

Naxçıvan şəhər ikisinifli məktəbində 1881-1884-cü illərdə nəzarətçi



Naxçıvan. Nuhun qəbri. XIX əsr

vəzifəsində işləmiş Konstantin Andreyeviç Nikitin (1812-1894) Tiflisdə çıxan "Qafqaz ölkəsini və tayfalarını öyrənmə materialları" məcmuəsində (SMOMPK-da – ***red.***) çap etdirdiyi "Naxçıvan mahalı və Naxçıvan qəzası" adlı geniş həcmli əsərində Naxçıvanın ərazisi, əhalisi, məşğuliyyəti, regionda əkinçilik, demoqrafik vəziyyət, duz istehsalı, ipəkçiliyin inkişafı ətrafında geniş elmi təsəvvürlər yaratmağa müvəffəq olmuşdur. Eyni zamanda, bu əsərdə Dünya tufanı hadisəsinin, Nuh peyğəmbərin əfsanəvi gəmisinin Gəmiqayada yerə enməsi ilə peyğəmbərin özünün və ailə üzvlərinin Naxçıvanda yaşaması, onun məzarının Naxçıvanda olması haqqında geniş tarixi məlumatlar, toplama materialları öz əksini tapmışdır. K.A.Nikitin xüsusi olaraq qeyd edir ki, "Nuhun qəbri şəhərin cənub tərəfində, köhnə Qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi səkkizinci yüzillikdə bərpa edilmişdir. Əvvəlcə burada məbəd olmuş, sonra uçub dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkanlarla



Naxçıvan. Nuhun qəbri.1890-cı il fotosu.

aşağı düşmək tələb olunan interyeri dairəvi, ortadan daş dirəklərlə möhkəmləndirilmiş mağaraya bənzəyir. Rəvayətə görə həmin dirəyin altında ulu Nuh peyğəmbərin cənazəsi uyuyur" [165, s. 111].

K.A.Nikitin əldə etdiyi yerli materiallar əsasında Naxçıvan şəhərində duzçıxarma sənayesinin qədim tarixini nəzərə çarpdırmış, regionda məktəb hərəkatının və iqtisadi-ticarət əlaqələrinin də vəziyyətini geniş təsvir etmişdir. Bundan başqa, K.A.Nikitin Naxçıvan şəhərinin xəritəsini də tərtib etmişdir.

Bütövlükdə V.Q.Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" kitabı və K.A.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan mahalı" əsəri Naxçıvan diyarı haqqında qiymətli elmi mənbələrdir. Rus dilində yazılıb çap olunması həm də Naxçıvan diyarının geniş dairədə tanıdılmasına da xidmət etmişdir.

Qeyd olunanlar XIX əsrin ikinci yarısından etibarən Naxçıvanda elmi fikrin maarifçilik istiqamətində inkişaf etdiyini göstərir. Bu isə o deməkdir ki, elmi ideyalar və baxışlar xalqın maariflənməsinə, ictimai-mədəni tərəqqiyə uğurla xidmət etmişdir. Bu dövrün elmi ideyaları sonrakı mərhələdə elmin daha geniş və sistemli şəkildə inkişafı üçün zəmin hazırlamışdır.

Ədəbiyyat. XIX əsrdə ümumən Azərbaycanda, o cümlədən də Naxçıvanda ədəbiyyat yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. XVIII əsrdən başlanan erkən realizm XIX əsrin birinci yarısında maarifçi realizm səviyyəsinə çatmışdır. Yeniləşmə prosesləri orta əsrlər klassik ədəbi ənənələrinin, təzkirəçiliyin, nəzirəçiliyin arxa plana keçirilməsi və maarifçi-realist ədəbiyyatın meydanının genişləndirilməsi uğrunda mübarizənin daha da qüvvətlənməsinə yol açmışdır. Fikrimizcə, hətta bu prosesdə Mirzə Fətəli Axundzadə kimi böyük mütəfəkkirin Məhəmməd Füzulini şair deyil, "nəzmi – ustad" [3, s. 205] adlandırması da təsadüfi olmayıb, yeni realist ədəbiyyat uğrunda mübarizədə ədəbiyyatı klassik ədəbi ənənənin gözqamaşdırıcı təsirlərindən və nəzirəçilikdən xilas edib, gerçəkçi mövqeyi əks etdirən bədii düşüncəni ön cəbhəyə çıxarmağa xidmət etmişdir. Beləliklə, realist ədəbiyyat ədəbi prosesin aparıcı istiqamətinə çevrilmişdir. Lakin klassik ədəbi ənənə ikinci planda olsa da, xeyli dərəcədə zəifləsə də, yaşamışdır. Ona görə də bütün XIX əsr boyu ədəbiyyatda "ikihakimiyyətlilik" müşahidə olunur. Lakin bu "ikihakimiyyətlilikdə" yeni ədəbiyyat tərəfi ağır gəlmiş, realizm ön mövqeyə çıxmışdır.

Naxçıvan ədəbi mühitində də ölkə üzrə müşahidə olunan vahid prosesin yaşandığı nəzərə çarpır. XIX əsrin müxtəlif mərhələlərində Naxçıvanda yaşayıb-yaratmış sənətkarların bir qismi klassik poeziya ənənələrini davam etdirmişlər. Lakin istər-istəməz yeni tarixi zamanın təsiri ilə onların klassik üslubda yazdıqları əsərlərdə poetik forma qorunub saxlanılsa da müəyyən yeni ruh, həyat nəfəsi, maarifçi meyillər də müşahidə olunur. Naxçıvandakı məşhur Dümbülü tayfasından olan şairə Heyran xanımın yaradıcılığında orta əsrlərdə olduğu kimi qəzəl janrı üstünlük təşkil edirdi. Heyran xanımın qəzəllərində kədər motivləri açıq-aydın



Şairə Heyran xanım Kəngərli. XIX əsr

görünməkdədir. Bu, bir tərəfdən Naxçıvandan İrana getmiş şairənin ailə taleyi, ayrılıq düşüncələri, digər tərəfdən isə zəmanəyə açıq gözlə baxmagı bacarması ilə əlaqədar idi. Buna görədir ki, Heyran xanımın şeirlərində klassik ədəbiyyatdakı bəlağətdən, "şəbi-hicran" notlarından fərqli olaraq həyat nəfəsi, ictimai kədər notları duyulmaqdadır.

Məsələn:

Olubdu qəm yatağı şad gördüyün könlüm,
Dağıldı qüssədən abat gördüyün könlüm.

Diyari-qəmdə girifdarı dəstgir oldu,
Kəməndi-firqətə, azad gördüyün könlüm.

Fəraq dərdinə axtardı, tapmadı çarə,
Cəmiyyi hikmətə ustad gördüyün könlüm.

...Çəkib sərarələr, etdi vücudini, Heyran,
Misali-kureyi həddad gördüyün könlüm [32, s. 7-8].

XX əsrin birinci yarısında Naxçıvanda "Qönçeyi-ülfət" ədəbi məclisi fəaliyyət göstərmişdir. Bu ədəbi məclis yerli hakim Ehsan xan Naxçıvanskinin qızı Qönçəbəyimin şərəfinə təşkil olunmuşdur. "Qönçeyi-ülfət" ədəbi məclisində Naxçıvanda yaşayıb-yaradan sənətkarlarla yanaşı, o zaman burada rəsmi vəzifədə çalışmış gürcü şairi Nikolos Barataşvili də iştirak etmişdir. Az da olsa dövrümüzə qədər gəlib çatan şeirləri Qönçəbəyimin istedadlı şairə olduğunu göstərir. Romantik taleli Qönçəbəyimin şeirlərində dövrün gərdişindən şikayət, xalqın ülvi keyfiyyətlərinə ehtiram sədaları ucalır" [32, s. 7]. Məsələn:

Hicran sənətkarı, qəm xiridarı,
Qəddar olan biikrarə, de gəlsin.
Yenə təzələsin didar didarı,
Ciyər oldu həzər parə, de gəlsin.

Ərzi-halın yazdırmısan ərsədə,
Qara bağrım yar zədədir, yar, zədə.
Bir müddət də qaldıq İmamirzədə,
Eylədi dərdimə çarə, de gəlsin [31, s. 7].

Ordubadda 1831-ci ildə yerli hakim Şeyxəli bəy Kəngərli tərəfindən yaradılmış "Əncümənü-Şüəra" Azərbaycanın ayrı-ayrı yerlərindəki ədəbi məclislərin arasında xüsusilə fərqlənmişdir. Digər ədəbi məclislərdə olduğu kimi, "Əncümənü-Şüəra"da da məclis üzvlərinin şeirləri oxunub müzakirə olunmuş, şeir müsabiqələri keçirilmişdir. Bununla yanaşı, dövrünün böyük maarifçi şairi Məhəmməd Tağı Sidqinin iştirakı sayəsində bu ədəbi məclisin yığıncaqlarında ara-sıra qəzetlər də oxunmuş, müəyyən ədəbi məsələlər, səfər təəssüratları barədə söhbətlər də aparılmışdır. Beləliklə, "Əncümənü-Şüəra" Naxçıvanda o dövr üçün sanki Yazıçılar Birliyinin funksiyasını yerinə yetirmiş, regionun ədəbi-mədəni mərkəzinə çevrilmişdir.

"Əncümənü-Şüəra" ədəbi məclisinə XIX əsrin 60-70-ci illərində Hacıağa Fəqir Ordubadi (1836-1886) rəhbərlik etmişdir. Məmməd Səid Ordubadinin atası olan bu şair bir divanlıq şeirlər yazmışdır. Fəqir Ordubadinin şeirlərində klassik poetik ənənə yaşadılsa da, dövrandan və tərcümeyi-halından şikayətnamə notları, realist meyillər də vardır. Klassik üslubda yazılmasına baxmayaraq, Fəqirin bir çox şeirləri şikayətnamə təsiri bağışlayır. Bu qəbildən olan şeirlərdə ağır şəxsi taleyindən başqa, dövrandan şikayət motivləri də vardır. Buna görədir ki, Fəqir şeirlərini "dünya əhlini məzəmmət" adlandırırdı:

Əvvəl şikayətim ol çərxi-bivəfadəndir,
İkincisi, iki üzlü yarü-aşinadəndir.
Cahanda görmədim kimsədən sədaqət mən,
Binası dəhri-dəninün yəqin cəfadəndir.
... Verüllər münömə, həm qeyri-müstəhəqqə təam,
Fəqirlər qalır ac, yəni bu səxadəndir?!
Libasi-taxiri hər kəs geyib, sayallar kişi,
Neçün ki, köhnə geyən firqeyi-qədadəndir [95, s. 158].

Fəqir Ordubadi çox kasıb və mərdanə bir həyat yaşamışdır. Məmməd Səid Ordubadinin "Həyatım və mühitim" memuarında atasının həyatının son illərinin böyük çətinlikləri tale romanı kimi öz əksini tapmışdır: "Son zamanlar Fəqirin gözləri kor oldu. Daha məktəbdə dərs verə bilmirdi... Hətta ölməmişdən qabaq şairin üst paltarını da satmışdılar. Günün birisində atam məni yanına çağırdı. Bir yazılmış kağız verdi və tapşırdı: "Bu kağızı aparıb, Mənsur ağa adlı bir cavan vardır onu tapıb verərsən, cavabını alıb gələrsən". Mən bazarı çox dolaşdım, nəhayət, ... məktubu ona verdim... Oxuyub qurtardıqdan sonra mənə heç bir söz demədi. Kağızı palçığın üstünə atıb bastaladı və keçib getdi. Mən kağızı palçığa batmış bir halda yerdən qaldırdım... Bu halda atamın səmimi rəfiqi və əncümən üzvlərindən Məşədi Həsən Dəbbağ gəldi. Kağızı məndən aldı və Hacı Rəsul ağanın dükanında ucadan oxudu. Onların hər ikisi ağladılar. Dəbbağ

Həsən bir dəsmalın ucuna kağız pul düyünlədi və məni evimizə qədər yola saldı" [93, s. 25-26].

Dövrünün bir çox tanınmış nümayəndələri, o cümlədən Cəlil Məmmədquluzadə Fəqir Ordubadinin yaradıcılığına, xüsusən onun "Kürdün gül satması" mənzum satirasına yüksək qiymət vermişdir [48, 1907, nömrə 48].



Hüseyn Cavid

Ordubad "Əncümənü-Şüəra"sından Qüdsi Vənəndi, Məhəmmədqulu Salik Ordubadi, Mirzə Hüseyn Bikəs, Zeynəlabdin Nəqqaş, Məşədi Həsən Dəbbağ və başqaları geniş dairədə söz-sənət adamı kimi tanınmışlar. Onlardan Fəqir Ordubadinin, Qütsi Vənəndinün və Məhəmməd-qulu Salik Ordubadinin divanları qalmışdır. "Əncümənü-Şüəra"ya Fəqir Ordubadidən sonra rəhbərlik etmiş Məhəmməd Tağı Sidqi maarifçi şair və pedaqoq kimi qəbul olunmuşdur. Sidqinin Ordubadda "Əxtər" adlı dünyəvi məktəb yaratması XIX əsrin həmin dövrü üçün mühüm maarifçi hadisə idi. Naxçıvan şəhərində açdığı "Tərbiyə" məktəbi ali təhsil ocağı səviyyəsində diqqəti cəlb etmişdir. Hüseyn Cavid, Əli Səbri Qasımov, Əziz Şərif, Rza Təhmasib, Əliqulu Qəmküsar və başqaları kimi tanınmış simalar "Tərbiyə" məktəbində ustad Məhəmməd Tağı Sidqidən dərs almışlar.

Məhəmməd Tağı Sidqinin klassik üslubda yazdığı şeirlərdə bədii formanın tələblərinə əməl olunmaqla yanaşı, yeni fikirlərin, maarifçi düşüncənin ifadə edilməsinə ciddi meyil göstərilmişdir. Onun ictimai məzmunlu "Şikayətnamə" şeiri qəzəl formasında qələmə alınmışdır. Böyük pedaqoqun yaradıcılığında maarifçi şeirlər çoxluq təşkil edir. Məhəmməd Tağı Sidqi XIX əsrin axırları Azərbaycan maarifçi ədəbiyyatının görkəmli yaradıcılarından biridir. Sidqinin maarifçi öyüdnamələri Azərbaycanın yeni nəslinə poetik xitabdır. XIX əsrin ortalarından etibarən ədəbiyyatda bədii vasitə kimi qabarıq şəkildə görünən "Oğluma nəsihət" motivi formatında yazılmış ədəbi nümunələrin sırasında Məhəmməd Tağı Sidqinin eyni ruhlu şeirləri özünəməxsus yer tutur. Şairin "Elmin şərafəti", "Məhəmmədəliyə nəsihət", "Məktəbdə", "Dərsə diqqət", "Yüz il yatandan sonra" və sair şeirlərində maarifçi ideyalar nəticə etibarilə xalqın ictimai-mədəni tərəqqisinə, "əsrin işini" tapmağa nail olması məqsədinə istiqamətləndirilmişdir.

Çox tərəqqi tapıb cümlə millət,
Biz də təhsil edək istirahət.
Ciddü – cəhd eyləsin əhli-qeyrət,
Bəlkə gəlsin ələ elmi-sənət.

Keçməmiş, keçməmiş vaxtı fürsət,
Eyləyək, eyləyək dərsə diqqət! [104, s. 24].

Məhəmməd Tağı Sidqinin "Kəblə Nəsir" mənzum hekayəti Azərbaycan ədəbiyyatında "dərs-hekayət" formasında yazılmış orijinal uşaq ədəbiyyatı nümunəsidir. İki hissədən ibarət olan mənzum hekayətin əvvəlində məlum olur ki, usta Əmir kişinin oğlu Kəblə Nəsir səfər zamanı öz avamlığının ucbatından ulağını və keçisini oğruların güdazına vermiş, aldadılaraq guya itirilmiş daş-qaşı çıxartmaq üçün quyuya düşməyə sövq edilmiş, nəticədə paltarını da itirməli olmuşdur. Əsərin ikinci hissəsində baş vermiş əhvalatın müəllimin iştirakı ilə sinifdə aparılan müzakirəsindən bəhs edilir. Məhəmməd Tağı Sidqi Kəblə Nəsir əhvalatını şərh edərkən dövrün ruhuna uyğun olaraq avamlığı, cəhaləti, fanatizmi tənqid etmiş, cəhlə pamal olmamağa, elm təhsil etməyə, dünyada gözəl ad nişan qoymağa çağırmışdır:



Məhəmməd Tağı Sidqi

Ta ki, millətdə olsun istiqbal,
Etməsin cəhl bizləri pamal.
Olmasın ömrümüz cahanda tələf,
Elm təhsilinə edək məsrəf.
... Keçəcəkdir tamam yaxşı-yaman,
Bir gözəl ad qalır cahanda nişan [104, s. 32].

Böyük maarifçi Məhəmməd Tağı Sidqi Azərbaycan uşaq nəsrinin ilk nümunələri sayıla bilən kiçik hekayələr də yazmışdır. Həmin kiçik hekayələr ədibin maarifçi fikirlərini canlı, əyani şəkildə əks etdirən yığcam süjetlər əsasında qurulmuşdur. Hekayələrdə yeni nəsil üçün faydalı olan əxlaqi-didaktik və maarifçi mətləblər öz əksini tapmışdır. Tədqiqatlar göstərir ki, Məhəmməd Tağı Sidqi uşaq hekayələrini özünün hazırladığı "Əxlaq nümunələri" və "Qızlara hədiyyə" dərsliklərinə oxu materialları kimi daxil etmişdir [34, s. 135-136]. Bu, miniatür uşaq hekayələrini "Tərbiyə" məktəbinin şagirdlərinə oxudub öyrədən Məhəmməd Tağı Sidqinin qayəsi, amalı aşağıdakı kimi idi: "Ey mənim xoşbəxt şagirdlərim! Gərəkdir ki, gözəl xasiyyətlərə rəğbət göstərib və pis sifətlərə nifrət edəsiniz. Çünki elminə əməl etməyən alim əlində bir işıqlı çıraq gəzdirən kora bənzər" [104, s. 79].

Məhəmmədqulu Salik Ordubadinin "Gülşəni-vəhdət" divanında Azərbaycan

dilində şeirlərlə yanaşı, cığatayca yazılmış qəzəllər də vardır. Bundan başqa, Salik Ordubadi XIX əsr Azərbaycan ədəbi məclislərində az rast gəlinən bayatı janrında şeirlər yazmışdır [94, s. 203-210].

"Əncüməni-Şüəra" ədəbi məclisinin Şamaxıda fəaliyyət göstərən "Beytül-Səfa", Qarabağdakı "Məclisi-üns" şairlər məclisləri ilə qurduğu əlaqələr ədəbiyyatın inkişafında özünəməxsus rol oynamışdır. Xüsusən, Seyid Əzim Şirvani, Baba bəy Zakir, Xurşudbanu Natəvan, Əndəlib Qaracadağı, Məhəmməd Aciz, Mir Möhsün Nəvvabla yaranan əlaqələr, məktublaşmalar ortaq fikirləri, dərdləri bəyan etmək, ümumi ictimai rəyi normallaşdırmaq və sənəti, ədəbiyyatı irəli aparmaq baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

XIX əsr Naxçıvan ədəbi mühitində görkəmli yazıçı və ictimai xadim Cəlil Məmmədquluzadənin (1869-1932) də ilk dövr yaradıcılığı xüsusi yer tutur. Naxçıvan şəhərində ibtidai təhsil, Qori Müəllimlər Seminariyasında pedaqoji ixtisas almış Cəlil Məmmədquluzadənin Baş Noraşen (indiki Cəlilkənd –***red***.) və Nehrəm məktəblərində işlədiyi dövrdə (1889-1896) qələmə aldığı əsərlərlə ümumən Azərbaycanda realist ədəbi istiqamətin inkişafında yeni mərhələ başlanmışdır. "Əncümənü-Şüəra"çıların yaradıcılığında ictimai motivlər, realist meyillər, satirik məqamlar olsa da, onlar əsasən klassik ədəbiyyatın yeni tarixi şəraitdəki davamçıları idilər. Cəmiyyət həyatında baş vermiş maarifçilik hərəkatı tədricən realizmə meyli qüvvətləndirməkdə idi. Mirzə Fətəli Axundzadənin yazdığı kimi, artıq "Gülüstan" və "Zinətül məcalüs" dövrü keçmişdi. Bu cür əsərlər millətin işinə yaramır... Millət üçün faydalı və oxucuların zövqü üçün rəğbətli olan əsərlər lazım idi" [3, s. 240]. Xüsusən, XIX əsrin "İki əsrin keçidi" xarakteri daşıyan 80-90-cı illərində maarifçilik hərəkatının qüvvətlənməsi ilə ədəbiyyatda realizm didaktikadan, nəsihətdən, "avamlıqdan gileyli qalmaqdan" tənqidə, ittihama, ifşaya doğru inkişaf etmişdir. Cəlil Məmmədquluzadənin XIX əsrin sonlarında yazdığı əsərlərlə – "Çay dəsgahı" alleqorik dramı (1889), "Kişmiş oyunu" pyesi (1892), "Danabaş kəndinin əhvalatları" (1894) və "Danabaş kəndinin məktəbi" (1896) povestləri ilə nəinki Naxçıvanda, ümumən Azərbaycan ədəbiyyatında realizm yeni mərhələyə – tənqidi realizm mərhələsinə qaldırılmışdır. Bu, Azərbaycan ədəbiyyatında Mirzə Fətəli Axundzadədən, maarifçi realizmdən sonra realizmin inkişafında yeni mərhələ idi.

Cəlil Məmmədquluzadənin "Çay dəsgahı" alleqorik dramı Azərbaycan ədəbiyyatında bu janrda yazılmış ilk dram əsəridir. İlk mənzum dram əsəri və birinci uşaq pyesi kimi də "Çay dəsgahı" özünəməxsus əhəmiyyətə malikdir. Cəlil Məmmədquluzadə bu əsəri ilə "haqq nədir, nədir batil" kimi ciddi suallara cavab axtaran yazıçı olduğunu ictimai-ədəbi mühitin diqqətinə çatdırmışdır. "Çay dəsgahı" alleqorik dramının 1889-cu ildə Baş Noraşen məktəbində müəllimlər və şagirdlər tərəfindən tamaşaya qoyulması dövrün mühüm maarifçi və mədəni hadisələrindən biri sayılmağa layiqdir [35, s. 160]. "Kişmiş oyunu"

birpərdəli pyesi ilə Cəlil Məmmədquluzadənin dramaturgiya sahəsindəki istedadı bir qədər də irəliyə getmişdir. "Kişmiş oyunu" pyesində baş verən əhvalatlar sonralar yazılmış məşhur "Ölülər" əsərindəki kütləvi səhnələri xatırladır. Bu əsərdə dramatik konflikt dərinləşdirilmiş, açıq ifadə olunmuş, xarakterlər dolğun şəkildə təqdim edilmişdir. Əsərdəki "Kişmiş oyunu" əhvalatı ictimai həyatdakı haqsızlığa yazıçının tənqidi münasibətini mənalandırmaq üçün düşünülmüş motivdir. Birpərdəli pyesdəki Vəlisoltan, Nurəli, Şirəli, Səfər, Həsənəli, Mustafa və sair kimi obrazlar dramatik konfliktin və ideyanın açılmasına uğurla xidmət edirlər.



Cəlil Məmmədquluzadə

Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığının Naxçıvan dövründə yazdığı "Danabaş kəndinin əhvalatları" povesti bütövlükdə Azərbaycan ədəbiyyatında mühüm ədəbi hadisədir. Əsərdə təsvir edilən Danabaş kəndi XIX əsrin axırlarında feodal-patriarxal münasibətlərinin hökm sürdüyü tipik Azərbaycan kəndlərinin ümumiləşdirilmiş obrazıdır. Mövcud ictimai münasibətləri ifadə etmək baxımından "Danabaş kəndi" ifadəsi cavan yazıçının böyük kəşfi sayıla bilər. Povestin "Bir yüngülvari müqəddimə"si ideyası və təqdim etdiyi obrazları etibarilə yeni tənqidi-realist ədəbiyyatın kiçik manifesti kimi səslənir. Buradakı lağlağı Sadıq və qəzetçi Xəlil kiçik adamların Azərbaycan ədəbiyyatına obraz səviyyəsində yeni ayaq açmış nümayəndələridir. Povestin əsas hissəsindəki Məhəmmədhəsən əmi Azərbaycan ədəbiyyatında kiçik adamın mükəmməl bədii obrazıdır. "Danabaş kəndinin əhvalatları" əsərdə göstərildiyi kimi, lağlağı Sadığın və qəzetçi Xəlilin yana-yana danışdığı hadisələrdir. Kiçik adamların ümumiləşdirilmiş obrazı olan Məhəmmədhəsən əmi geniş mənada ədəbiyyatda xalq anlayışının mahiyyətini təqdir edir. Povestdə əsas yer tutan Xudayar bəy obrazı da Azərbaycanda kəndli-mülkədar münasibətlərini açmağa xidmət edən surət kimi yenidir. Əsərdəki hüquqları tapdansa da, mənəviyyatının alçaldılmasına müqavimət göstərən Zeynəb obrazı Azərbaycan qadınının dərin iztirablarını və çıxış yollarını bütün reallığı ilə əks etdirən surət olaraq ədəbiyyatdakı qadın obrazlar silsiləsinə Cəlil Məmmədquluzadənin vurduğu yeni möhürdür. Bütövlükdə "Danabaş kəndinin əhvalatları" ümumən Azərbaycan kəndinin və azərbaycanlı kəndçinin əhvalatlarıdır. Əsər hələ əlyazması şəklində XIX əsrin doxsanıncı illərində yayılmış, ədibin müasirləri içərisində "danışığa düşmüşdür". "Danabaş kəndinin əhvalatları" povesti XIX əsr Azərbaycan kəndinin bədii ədəbiyyatdakı bələdçisi və güzgüsüdür. "Danabaş kəndinin məktəbi" povesti maariflələnməyə ehtiyacı olan Azərbaycan kəndi haqqında Cəlil Məmmədquluzadənin baxışlarının davamıdır. Bu əsərdə Cəlil Məmmədquluzadə kənd həyatına bir qədər fərqli bucaqdan baxsa da, mahiyyət etibarı ilə eyni mənzərənin başqa

məqamlarını əks etdirmişdir. Bütövlükdə Cəlil Məmmədquluzadənin həmin əsərləri XIX əsr Azərbaycan cəmiyyətini realistcəsinə əks etdirən mükəmməl bədii nümunələr kimi mühüm ədəbi-tarixi əhəmiyyətə malikdir.

Naxçıvan ədəbi mühitində Cəlil Məmmədquluzadənin əməl dostlarından, əsas maarifçi məsləkdaşlarından biri olan Eynəli bəy Sultanovun (1865-1935) böyük xidmətləri olmuşdur. Bu tanınmış ziyalı Naxçıvanda ədəbi-mədəni prosesin əsas təşkilatçılarından biri idi. Naxçıvanda yaratdığı "Müsəlman İncəsənəti və Dram cəmiyyəti", "Ziyalı Məclisi" təşkilatları Azərbaycan miqyasında maarifçilik hərəkatının yeni vəzifələrini həyata keçirən mərkəzlərdən biri kimi böyük əhəmiyyət kəsb edir. Azərbaycan realizminin əsas qollarından birini təşkil edən Naxçıvan teatrının yaradılmasında, qadın azadlığı ideyasının genişləndirilməsində, ictimai-mədəni tərəqqinin qiymətləndirilməsində Eynəli bəy Sultanovun böyük xidmətləri olmuşdur. Cəlil Məmmədquluzadənin "özündən artıq huşyar dost" olaraq qiymətləndirdiyi Eynəli bəy Sultanov bütün sahələrdə - həm ictimai həyatda, həm də ədəbi prosesdə Cəlil Məmmədquluzadənin səsinə səs vermişdir. Onun XIX əsrin səksəninci illərində rus dilində yazdığı "Tatar qızı" pyesi Azərbaycan qadınlarının yeni mərhələdəki həyatını əks etdirən bədii əsər kimi maraqla qarşılanmışdır. "Tatar qızı" pyesinin həmin dövrdə Naxçıvanda yerli həvəskarlar tərəfindən səhnəyə çıxarılması əsərin aktuallığını bir daha təsdiq edir. Əsərdəki Sənəm obrazının dilindən deyilmiş aşağıdakı sözlər Eynəli bəy Sultanovun və onun müasirlərinin arzusu idi: "Qoy bütün kişilər bilsinlər ki, biz Azərbaycan qadınları heç də onların təsəvvür etdikləri kimi iradəsiz, qorxaq və zavallı deyilik. Biz ancaq onlardan ötrü xəlq olunmamışıq. Biz də özümüzə görə bir adamıq" [35, s. 200].

Eynəli bəy Sultanovun "Kiçik sərgüzəşt", "Novruz ağa", "Çalma" hekayələri dövrün reallıqlarını dolğun şəkildə əks etdirir. Onun "Novoye obozreniye" qəzetində çap edilmiş məqalələrində ədəbiyyat məsələləri də öz əksini tapmışdır. Azərbaycan folklorunun toplanılması işində də Eynəli bəy Sultanovun mühüm xidmətləri vardır.

XIX əsrin səksən-doxsanıncı illərində Naxçıvanda Mirzə Cəlil Şürbi, "Fani" təxəllüsü ilə yazan Məhəmmədhüseyn Hacı Nəcəf oğlu və başqaları kimi qələm sahibləri də yaşayıb yaratmışlar. Mirzə Cəlil Şürbi Cəlil Məmmədquluzadənin "Ölülər" əsərindəki Kefli İsgəndər obrazının əsas prototiplərindən biri idi. Azərbaycan romantizminin əsas yaradıcılarından olan Hüseyn Cavid (1882-1941) də "Gülçin" təxəllüsüylə yazdığı ilk qələm təcrübələri ilə bu dövrdə tanınmağa başlamışdır. "Gülçin"in – Hüseyn Cavidin "Tərbiyə" məktəbinin şagirdi ikən yazdığı şeirlər onun romantik düşüncəsinin ilkin qığılcımları idi:

Verdim o gün ki zülfi-pərişanə könlümü,
Saldı nigar o zülfdə zindanə könlümü.

Yalvardım içimdən ona, bəlkə xilas edə,
Zənciri-zülfə bağladı divanə könlümü.

Vəslə yetirməyib, gecə-gündüz fəraqidə,
Təbdil edibdi laləsifət qanə könlümü.

Gülçini-binəva idim, oldum müridi-şeyx,
Yandırmısan mən atəşi, hicranə könlümü [39, s. 135].

"Tərbiyə" məktəbinin şagirdi ikən yazdığı ilk şeirləri haqqında müəllimi Məhəmməd Tağı Sidqinin dediyi aşağıdakı fikirlər gənc istedadın böyük gələcəyinin uzaqgörən etirafıdır: "Mən atan Molla Abdullanın yerinə olsaydım və Gülçin kimi bir şair oğlum olsaydı, rözəxanlığı buraxıb xanəndəlik edərdim və həmişə Racinin yox, oglumun şeirlərini oxuyardım" [23, s. 23].

Göründüyü kimi, XIX əsrdə Naxçıvanda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri yetişib formalaşmış, dəyərli ədəbi nümunələr meydana çıxmışdır. Azərbaycanda romantik ədəbiyyatın yeni əsrə uyğun olaraq ictimai məzmunu ifadə etməyə doğru inkişafı hadisəsi "Əncüməni-Şüəra"çıların timsalında Naxçıvan ədəbi mühitinin bu mərhələsində açıq-aydın müşahidə olunmuşdur. Maarifçi-realist ədəbiyyat Məhəmməd Tağı Sidqinin yaradıcılığı ilə zənginləşmişdir. Cəlil Məmmədquluzadənin yaradıcılığının birinci dövründə yazdığı əsərlər Azərbaycan tənqidi-realist ədəbiyyatının möhkəm bünövrəsini təşkil edir. Eynəli bəy Sultanov, Mirzə Cəlil Sürbi və başqaları ədəbiyyatda tənqidi realizm ugrunda gedən proseslərin genişlənməsinə kömək etmişdir. Hüseyn Cavid kimi nəhəng sənətkarların ilk addımları məhz bu tarixi mərhələdə atılmışdır. Beləliklə, XIX əsrdə Azərbaycan ədəbiyyatının inkişafında Naxçıvan ədəbi mühiti mühüm rol oynamışdır. XIX əsr Naxçıvan ədəbi mühitində gedən proseslər sonrakı əsrin böyük ədəbiyyatının yaranmasına da zəmin hazırlamağa xidmət etmişdir.

Teatr. XIX yüzilliyin I yarısından başlayarq Azərbaycanda, o cümlədən Naxçıvanda dünyəvi məktəblərin meydana gəlməsi yeni tipli ziyalıların yetişməsinə, əvvəlki ziyalıların isə mənəvi cəhətdən zənginləşməsinə gətirib çıxardı. XIX əsrin II yarısında Naxçıvanda təsviri və dekorativ tətbiqi sənət, memarlıq müəyyən dərəcədə inkişaf edir, artıq Azərbaycanda fəaliyyətə başlamış teatrın Naxçıvanda da yaranması üçün zəmin yaranırdı. 10 (23) mart 1873-cü ildə Bakıda M.F.Axundovun "Lənkəran xanının vəziri" pyesinin tamaşası ilə Azərbaycan teatrının yaranması haqqında xəbərlər Naxçıvana çatan kimi yerli həvəskarlar teatr işinin inkişafı və yayılması istiqamətində fəaliyyətə başladılar.

Bununla yanaşı, Naxçıvanda teatrın yaranmasında Avropa mədəniyyətinin, incəsənətinin, teatrının da böyük təsiri olmuşdur. Bu məsələdə Naxçıvanın

görkəmli şəxsiyyətlərindən E.Sultanovun əməyi xüsusi qeyd olunmalıdır. E.Sultanov 1882-ci ildə öz şəxsi evində "Ziyalılar cəmiyyəti" adlı cəmiyyət yaradır, şəhərin mütərəqqi, açıq fikirli adamlarından Paşa Ağa Sultanov, Mirzə Cəlil Mirzəyev (Şürbi), Mirzə Ələkbər Xəlilov, Əsəd ağa Kəngərli, Qurbanəli Şərifov, Baxşəli ağa Şahtaxtılı, Nəsrulla Şeyxov və başqalarını həmin cəmiyyətə cəlb edir. E.Sultanovun rəhbərlik etdiyi cəmiyyətdə dövrün ictimai-siyasi, qadın azadlığı məsələləri müzakirə edilir, yeni məktəblər, kitabxanalar açmaq qərara alınır, elmi, ədəbi mübahisələr aparılır, həmçinin milli dünyəvi teatrın yaradılması haqqında məsələ qaldırılırdı [46, s. 38]. Zəmanəsinin bir sıra görkəmli şəxsiyyətlərinin, mütərəqqi, açıq fikirli ziyalılarının təşəbbüsü ilə 1883-cü ildə Naxçıvanda ilk dəfə olaraq "Naxçıvan Müsəlman İncəsənəti və Dram Cəmiyyəti" yaradılır. Cəmiyyətin yaradıcısı E.Sultanov az sonra orijinal, milli dram əsəri əldə etmək üçün Tiflisə yola düşür. Məqsəd cəmiyyət üzvlərinin iştirakı ilə Naxçıvanda Azərbaycan dilində bir teatr tamaşası hazırlayıb göstərmək idi. E.Sultanov Tiflisdəki tanışlarının köməyi ilə M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəlişah" komediyasının surətini əldə edərək Naxçıvana qayıdır [44, s. 64]. Bundan sonra "Müsəlman İncəsənəti və Dram Cəmiyyəti"nin üzvləri böyük həvəslə Eynəlibəyin rəhbərliyi altında bu tamaşanın məşqlərinə başlayırlar və tamaşanın Azərbaycanda teatrın yaradılmasının 10 illik yubiley günündə göstərilməsi qərara alınır. Cəmiyyətin işinə Naxçıvanın yeni fikirli adamları kömək etsələr də, dövrün hökumət məmurlarının bəzi qüvvələrinin mənfi münasibət bəsləməsinə baxmayaraq, cəmiyyətin üzvləri böyük səylər hesabına 1883-cü ilin mart ayında M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəlişah" komediyasının tamaşasının baş tutmasına nail olurlar. Beləliklə, "Müsəlman İncəsənəti və Dram Cəmiyyəti"nin üzvləri 11 (24) mart 1883-cü ildə Naxçıvan şəhər sakini Hacı Nəcəf Zeynalovun evinin böyük salonunda toplaşaraq tədbir keçirirlər. Tədbirdə Azərbaycan teatrının yaranması və inkişafı ilə əlaqədar çıxışlar edilir. Sonda cəmiyyət üzvlərinin hazırladıqları "Müsyö Jordan və Dərviş Məstəlişah" komediyası ilk dəfə olaraq göstərilir. 1883-cü il martın 11 (24)-də bu tamaşanın göstərilməsi ilə Naxçıvan teatrının əsası qoyulur [44, s. 64-65].

Bu tamaşadan sonra, 11 aprel 1883-cü ildə İrəvan şəhərinə, Xalq məktəbləri inspektoru Tselovalnikova vurulan teleqramda həmin tamaşanın may ayında acların xeyrinə göstərilməsinə icazə verilməsi haqqında qubernator qarşısında vəsatət qaldırılması rica olunur. Bu teleqram həmin tamaşanın ikinci dəfə, yəni cəmiyyətin üzvü olmayan digər tamaşaçılara – geniş xalq kütləsinə göstərilməsi üçün icazə xarakteri daşıyırdı. Teleqrama müsbət cavab alındıqdan sonra tamaşa yenə də Hacı Nəcəf Zeynalovun evində böyük uğurla nümayiş etdirilərək rəğbətlə qarşılanır [44, s. 65]. May ayında baş tutan bu tamaşaya 200-dən artıq adam gəlmişdi [92, s. 14].

Xalq kütlələri tərəfindən böyük rəğbətlə qarşılanan bu tamaşa Naxçıvanın mürtəce qüvvələrini həyəcana gətirmiş, onun türkcə göstərilməsi rus məmurlarını narazı salmış, XIX yüzilliyin əvvəllərində Naxçıvana köçürülmüş erməniləri çox narahat etmişdi. Hətta şəhər rəisi guya xalqın şikayətlərini nəzərə alaraq teatr göstərilməsinə qadağa qoyur. Buna baxmayaraq 1884-cü ilin fevralında E.Sultanovun "Tatarka" ("Azərbaycan qızı") əsəri rus dilində tamaşaya qoyulur. E.Sultanov həmin vaxt Naxçıvanda teatr hərəkatına rəhbərlik etməklə bərabər, bir çox tamaşalara rejissorluq edir, özü də aktyor kimi müxtəlif rollarda oynayır.

Dövrün qaynaqları təsdiq edir ki, həmin vaxt "Tatarka" ilə bir vaxtda N.Solovyovun "İşin başlanğıcında" və fransız T.Barrer və L.Tivunun "Evdə qalmaqal" əsərləri də tamaşaya qoyulmuşdur [46, s. 45]. Naxçıvan teatrında əsərlərin rus dilində tamaşaya qoyulması özünü çarizmin milli müstəmləkə siyasətinin təzahürü kimi büruzə verirdi: guya Azərbaycan dilində yaxşı əsərlər olmamasını bəhanə gətirərək hər vasitə ilə milli tamaşaların oynanılmasına mane olurdular. E.Sultanov da "Tatarka" əsərini məhz bu səbəbdən rus dilində yazmışdı.

1887-ci ildə Naxçıvan teatrında – Hacı Nəcəf Zeynalovun evində M.F.Axundovun "Molla İbrahim Xəlil kimyagər" komediyası tamaşaya qoyulur. Əldə olunan vəsait şəhər məktəbinin yoxsul şagirdlərinin hesabına keçirilir.

Mürtəce qüvvələrin müqavimətinə baxmayaraq XIX yüzilliyin 90-cı illərində adıçəkilən cəmiyyətin fəaliyyəti güclənir, C.Məmmədquluzadənin, M.T.Sidqinin səyləri ilə M.F.Axundovun "Hacı Qara", "Molla İbrahim Xəlil kimyagər", "Dərviş Məstəlişah" komediyaları təkrar tamaşaya qoyulur [46, s. 52]. Bu əsərlərdə Cəlil Məmmədquluzadə Müsyo Jordan, qardaşı Ələkbər Məmmədquluzadə Dərviş rollarında oynayır, rejissorluğu isə Məmmədəli Sidqi edirdi. Ümumiyyətlə, Cəlil Məmmədquluzadənin Naxçıvan teatrının həyatında çox böyük rolu olmuşdur. O, XIX əsrin 80-90-cı illərində Naxçıvan teatrında baş verən bütün proseslərdə yaxından iştirak etmiş və əksər məqamlarda həmin proseslərin rəhbəri olmuşdur [36, s. 103].

1890-cı ildə C.Məmmədquluzadənin "Çay dəstgahı" əsəri ilk dəfə tamaşaya qoyulur. 1894-1898-ci illərdə M.F.Axundovun "Molla İbrahim Xəlil kimyagər", "Sərgüzəşti-vəziri-xani Lənkəran" və "Müsyo Jordan" əsərləri teatrda oynanılmışdır. Bu tamaşalarda baş rolları, yəni Müsyo Jordan, Vəzir və Molla İbrahim-Xəlil rollarını Mirzə Cəlil Məmmədquluzadə, qadın rollarını Mirzə Cəlil Mirzəyev (Şürbi), Sərvərxan, Məmmədəli xan, Ağa Tahirov və Mirzə Kazım oynayırdılar [46, s. 53].

Əsrin sonunda, 1899-cu ildə Naxçıvan teatrında M.F.Axundovun "Hacı Qara" və "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyaları yenidən tamaşaya qoyulur. M.Sidqinin Q.Şərifova 10 aprel 1899-cu ildə yazdığı məktubda bu

haqda məlumat verilir. Məktubdan aydın olur ki, bu tamaşaların hər birindən Naxçıvan şəhərində fəaliyyət göstərən "Tərbiyə" məktəbinin xeyrinə 80 manat pul toplanmışdır.

Bu cür faktları təsdiq edən arxiv sənədlərində naxçıvanlı həvəskar aktyorların böyük qrupunun adları, eyni zamanda həmin adamlar tərəfindən 1898-1901-ci illərdə göstərilən tamaşalardan toplanmış gəlirin bir hissəsinin Naxçıvan qəzasının məktəblərində təhsil alan şagirdlərin təhsil haqqına verilməsi də qeyd olunmuşdur.

Azərbaycanda olduğu kimi, Naxçıvanda da teatrın köhnə dünyaya, həyatın müxtəlif eybəcərliklərinə qarşı mübarizəsi getdikcə daha çox ictimai əhəmiyyət kəsb edir, adamlara həyatın eybəcərliklərini açıb göstərir, onlarda geriliyə, fanatizmə, mövhumata qarşı nifrət hissi tərbiyə edir, sosial tərəqqi, mədəniyyət və maarif uğrunda mübarizəyə çağırırdı [4, s. 400].

Epiqrafik abidələr. Əvvəlki yüzilliklərlə müqayisədə yüksək səviyyədə olmasa da, Naxçıvan ərazisində XIX yüzillikdə də epiqrafik abidələr yaradılmış, onların bir qismi indiyədək gəlib çatmışdır. Bu abidələr dövrün siyasi, sosial-iqtisadi həyatı və sair məsələlər haqqında dəyərli məlumatlar təqdim edirlər.

Ordubad rayon Tarix-Diyarşünaslıq Muzeyində mühafizə olunan mərmər lövhə üzərində həkk edilmiş kitabənin mətnindən aydın olur ki, vaxtilə şəhərin cənub tərəfində, indiki Mədəniyyət sarayının yerində yerləşən iki mərtəbəli Kürdətal məscidinin qarşısındakı nəhəng çinar ağacı hicri 1230-cu ildə (14.12.1814-02.12.1815-ci il) əkilibmiş. Çox təəssüflər olsun ki, keçən yüzilliyin 80-ci illərində yanından kanal qazılarkən gövdəsinin diametri 2 metrdən artıq olan ağacın kökləri kəsilmiş və qurumuşdur [178, s. 22-23]. Azərbaycan epiqrafik abidələri içərisində belə məzmunlu kitabələrə çox da rast gəlinmir.



Təkeşiyi məscidinin kitabəsi. Ordubad şəhəri, XIX əsr

Ordubad şəhərinin mərkəzində yerləşən Təkeşiyi (Yəhya bəy) məscidinin şərqdən giriş qapısının baş tərəfində qoyulmuş mərmər lövhə üzərində fars dilində nəstəliq xətti ilə mənzum formada həkk olunmuş kitabənin mətninin son hissəsindən aydın olur ki, bu məscid hicri 1241-ci ildə (16.08.1825-04.08.1826-cı il) bərpa olunmuşdur. Kitabədən aydın olur ki, məscid bu vaxtadək daha iki dəfə təmir və bərpa etdirilmişdir. Həmçinin kitabədə məlumat verilir ki, kitabəni Məhəmmədəli əl-Hüseyni əl-Qərəvi əl-Həccar (daşyonan) həkk etmişdir [163, s. 105-106].

Ordubad şəhərindəki "Malik İbrahim" qəbristanlığının şimal tərəfində, dağın cənub ətəyində yerləşən qazma tipli kiçik həcmli (6x2, 5x2 m) binanın

cənubdan giriş qapısının baş tərəfində qoyulmuş mərmər lövhə üzərində həkk edilmiş kitabədə qeyd olunur ki, "bu mübarək, şərəfli məkan mərhum, cənnətməkan Hacı Ağacan Ordubadinin oğlu, yaranmışların ən kiçiyi Hacı Zeynalabidinin səyi və təşəbbüsü ilə cəmadi əl-axir ayının 2-si 1264-cü il (06.05.1848) tarixində tamam oldu" [178, s. 24-25].



İnşaat kitabəsi.
Ordubad şəhəri,
1848-ci il

Kitabədə "mübarək, şərəfli məkan" kimi qiymətləndirilən, bəzi tədqiqatçılar tərəfindən "Qara pir" adlandırılan bu bina yerli əhalinin məlumatına görə meyitlərin yuyulması və müəyyən səbəblərdən dəfnin yubanmasına görə saxlanması üçün istifadə olunmuşdur. Binanın içərisində indiyədək qalan tabut qalıqları da bu fikri təsdiqləyir.

Ordubad rayonunun Köhnə Kotam kəndinin məscidində aşkar olunmuş və əvvəli dini xarakterli kəlamlardan ibarət olan kitabənin mətnindən aydın olur ki, "Hacı Şeyxəli xan Kəngərlinin oğlu, alicah (uca mənsəbli – ***red.***) İbrahim xan 1260-cı ildə (1844-cü ildə) özünün Kotam kəndində torpaq (sahibliyi) mənsəbini Tükəzban xanım üçün ehsan buyurmuşdur". Kitabədə adı qeyd olunan Hacı Şeyxəli xanın həyatı Ordubad şəhəri ilə sıx bağlı olmuş, Rusiya tərəfindən ilhaq edildikdən sonra o, Ordubadın naibi vəzifəsində çalışmışdır.

Şahbuz rayonunun Kükü kəndindən 6-7 km şimal-şərqdə, Keçəldağın ətəyində yerləşən "Qanlıgöl"ün cənub tərəfindəki qaramtıl rəngli qaya parçası üzərində ərəb və kiril əlifbası ilə həkk olunmuş kitabənin məzmunundan aydın olur ki, gölü yaratmaq üçün bənd Kalbalı xan Kəngərlinin himayəsi ilə qəza rəisi Şan Girey (Şahin Girey) tərəfindən 1865-ci ildə inşa etdirilmişdir.


Naxçıvan Rusiya tərəfindən tutulduqdan sonra Şahin Girey (1815-1883) bir müddət buranın qəza rəisi işləmiş, həmin vaxt quraq iqlimə malik Naxçıvan ərazisində suvarma işlərini yaxşılaşdırmaq üçün bir sıra tədbirlər həyata keçirmişdir. 1863 və 1864-cü illərdə Naxçıvan şəhəri ilə Şıxmahmud kəndi arasında sahəsi 12 desyatin olan və el arasında "Şan Girey gölü" və yaxud "Naçalnik gölü" adlanan göl tikdirmiş, susuz torpaqları suvarmaq üçün üç kanal [101, s. 118] çəkdirmiş, nəhayət 1865-ci ildə "Qanlıgöl" su anbarını yaratmışdır.

"Qanlıgöl"ü tikdirən Kalbalı xan Kəngərli isə Naxçıvanın qədim sakinlərindən olan Kəngərli tayfasının rəhbərlərindən, bölgənin görkəmli şəxsiyyətlərindən biri olmuşdur. Sonralar rus ordusunun general-mayoru rütbəsinə layiq görülən Kalbalı xan Kəngərli Naxçıvanda bir sıra xeyriyyəçilik işləri ilə məşğul olmuşdur [103, s. 177-178].

Ordubad şəhərinin Anbaras məhəlləsində yerləşən Yuxarı Anbaras məscidinin tavanında, taxta üzərində qara rənglə yazılmış kitabədən bəlli olur ki, Ağa Mirzə Cəfər məscidini Ağababanın oğlu mərhum, mərifətli Cəfərqulu 1284-cü il tarixdə (05.05.1867-23.04.1868-ci il) təmir etdirmişdir [178, s. 25-26].

Kitabədən göründüyü kimi şəhər əhalisi arasında "Yuxarı Anbaras məscidi", yaxud da "Hacı Mir Cəfər ağa məscidi" kimi tanınan məscid Ağa Mirzə Cəfər tərəfindən inşa etdirildiyi üçün onun adı ilə adlanırmış.

Ordubad rayonunun Vənənd kənd Came məscidinin daxildən cənub divarında, mehrabın sağ tərəfində, gəc üzərində qara rənglə yazılmış kitabənin mətnindən aydın olur ki, məscid hicri 1307-ci ilin mübarək ramazan ayında (miladi ilə 1890-cı il) təmir olunarkən kitabəni Mirzə Süleyman Mərəndi yazmışdır. Təmir vaxtı məscidin mehrabının bəzədilməsi və digər rəng işləri Mirzə Süleyman Mərəndi tərəfindən yerinə yetirilmişdir.



Cəfəriyyə məscidinin kitabəsi. Naxçıvan şəhəri, XIX əsr.


Naxçıvan şəhərində, el arasında "Şəhər məscidi" kimi tanınan məscidin giriş qapısının baş tərəfində vaxtilə qoyulan, əvvəli dini mətndən ibarət olan mərmər lövhə üzərində həkk edilmiş kitabədə deyilir ki, bu Cəfəriyyə məscidi min üç yüz on birinci ildə (miladi təqvimi ilə 1894-cü ildə) naxçıvanlı mərhum Hacı Novruzun oğlu xeyrül-Hacı Məhəmmədcəfər ağanın səyi ilə bina edilmişdir. Həmçinin kitabədə Hacı Məhəmmədcəfər ağanın məscidin məsrəflərini ödəməkdən və mücavirlərdən ötrü çay yuxarısında vəqf olaraq iki dükan ayırdığı da qeyd olunmuşdur [102, s. 269-270; 178, s. 29-31]. "Çay yuxarısında" deyərkən vaxtilə şimal şərqdən axaraq, cənub qərbdə Araza tökülən və Naxçıvan şəhərinin ortasından keçən Bazar çayı nəzərdə tutulur.

Məscidin inşa tarixi və onu tikdirən şəxs haqqında dəyərli məlumatlar verən kitabədə adı başqa mənbələrdən məlum olmayan görkəmli sənətkarların da adı qeyd olunmuşdur. Bunlar məscidin memarı Məhəmmədtağı (o, həmçinin kitabənin mətnini mərmər lövhə üzərində yazmışdır) və kitabəni həkk edən Məhəmməd Salehdir. Onların hər ikisi Təbriz memarlıq məktəbinə mənsub sənətkarlardır [102, s. 269-270].

Naxçıvan bölgəsində XIX yüzilliyə aid, elmi cəhətdən diqqəti cəlb edən bir sıra qəbirüstü xatirə abidələri də gəlib çatmışdır. Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanan və hicri 1230-cu ilin məhərrəm ayında (14.12.1814 – 12.01.1815) vəfat etmiş Nurcahanın xatirəsinə hazırlanmış mərmər başdaşı gözəl sənət nümunəsi kimi diqqəti cəlb edir. Əsasən nəstəliq

xətti ilə yazılmış kitabə nəbati ornamentlərlə bəzədilmiş, kənar haşiyələrdə həkk edilən kitabə isə süls xətti ilə həkk edilmişdir.

Naxçıvan Dövlət Tarix Muzeyində mühafizə edilən mərmər başdaşı üzərində nəstəliq xətti ilə ərəb dilində həkk edilmiş kitabədən aydın olur ki, nəfis şəkildə hazırlanmış bu qəbirüstü abidə Cəfərqulu bəy Kəngərlinin hicri 1260-cı il, şəban ayının 7-də (22.08.1844) vəfat etmiş oğlu Vəliqulu bəyin xatirəsinə hazırlanmışdır. Kitabə Kəngərli tayfasının nümayəndələrindən XVIII əsrin II yarısı – XIX əsrin I yarısında yaşamış iki nəfərin – Cəfərqulu bəyin və oğlu Vəliqulu bəyin adlarını bizə təqdim edir [178, s. 80-81].



Vəliqulu bəy Kəngərlinin məzar kitabəsi. XIX əsr

Memarlıq. XIX yüzillikdə memarlıqda keçmiş dövr ənənələri getdikcə zəifləyir, yaşayış məntəqələrinin və ayrı-ayrı binaların planlaşdırılmasında və tikintisində yeni meyllər meydana gəlməyə başlayır. Rusiya tərəfindən ilhaq edildikdən sonra Azərbaycanın hər yerində olduğu kimi Naxçıvanda da Rusiya şəhərsalma ənənələri müəyyən qədər yayıldığı və tətbiq olunduğu üçün milli monumental memarlığın tənəzzülü özünü aydın şəkildə göstərirdi. Rus hərbi mühəndisləri tərəfindən bir sıra iri şəhərlərin, o cümlədən Naxçıvanın tərtib edilmiş planı şəhərin gələcəkdə hazırlanacaq baş planlarının başlanğıcı oldu. Həmin dövrdə yerli memarlıq ünsürlərini qismən saxlamaqla Rusiya memarlıq ənənələrinə əsaslanan bəzi binalar inşa edilsə də, milli memarlıq abidələri də inşa edilirdi.

Bu dövrdə şəhərlərdə bir sıra ictimai binalar inşa edilsə də, yenə də dini tikililərə diqqət güclü idi. Həmin vaxt Naxçıvan və Ordubad şəhərlərində bir neçə məscid inşa edilmişdi. Bu cəhətdən Hacı Məhəmməd Cəfər ağa tərəfindən hicri 1311-ci ildə (1894) inşa etdirilən Naxçıvan şəhər Came məscidini qeyd etmək lazımdır. Təxminən 1000 m^2 sahəni əhatə edən məscid bir minarəlidir.Tədqiqatçılar Cəfəriyyə məscidini Cümə məscidlərinin Naxçıvandakı ikinci örnəyi kimi dəyərləndirirlər [119, s. 196]. Naxçıvanda XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəllərinə aid çoxlu məhəllə məscidləri mövcuddur. Ordubad şəhərindəki Sərşəhər, Yuxarı Anbaras, Təkeşiyi (Yəhya bəy) və Dilbər məscidləri bu dövrün ən dəyərli dini tikinti nümunələri kimi diqqəti cəlb edirlər.

XIX əsr memarlıq abidələri içərisində yaşayış evləri xüsusi yer tutur. Əhalinin ayrı-ayrı sosial siniflərdən təşkil olunması yaşayış binalarının müxtəlif səciyyədə təzahüründə böyük rol oynamışdır. Ordubadda sadə bir otaqlı evlərdən başlayaraq 7-8, bəzi hallarda daha çox otaqlardan ibarət mütəşəkkil

və xeyli inkişaf etmiş şəhər evlərinə qədər müxtəlif memarlıq-planlaşdırma xüsusiyyətlərinə malik olan yaşayış binaları vardır [47, s. 242; 98, s. 70].

Azərbaycanın hər yerində olduğu kimi Naxçıvan bölgəsində də mənzil tikintisində yeniliklər tətbiq olunur, yeni tipli mənzillər inşa edilirdi. Şəhərlərdə inşa edilən binalar tədricən qapalılığını itirir, daxili planlaşdırılması dəyişir, əsas fasad küçəyə doğru yönəldilirdi. Fasadlarda böyük pəncərələr, geniş küçə eyvanları və ifadəli bəzək ünsürləri geniş tətbiq olunurdu [4, s. 409]. Bu vəziyyət özünü daha çox həmin dövrdə tikilən yaşayış evlərinin ən gözəl örnəkləri qalmaqda olan Ordubad şəhərində qabarıq şəkildə göstərirdi. Ordubad şəhərində və bölgənin iri yaşayış məskənlərində yaşayış evləri planlaşdırmanın orijinallığı və kompozisiyalı strukturu ilə fərqlənirdi. Onların səkkiz guşəli vestibülləri, fasadlarda isə ifadəli portalları var idi. Yaşayış evlərinin yuxarı qatlarında "balaxana" adlanan qonaq otaqları düzəldilirdi. Yay zamanı yaşayış evlərinin sərin və sakinlər üçün rahat olmasına xüsusi diqqət yetirilirdi [4, s. 409].

İki mərtəbəli Ordubad yaşayış evlərinin planlaşması diqqəti cəlb edir. Evin giriş mərkəzi bir qayda olaraq səkkizbucaqlı dəhliz – vestübüldən ibarətdir ki, oradan yaşayış otaqlarına və həyətə, ümumiyyətlə evin əsas tərkib hissəsinə xüsusi qapılar açılır. Giriş olduğundan dəhlizin daxili girişlərinin sayı bəzən beşə çatırdı. Bu girişlərdən biri dəhlizi həyətlə əlaqələndirərək təsərrüfat otaqlarının küçə ilə əlaqəsini təmin edirdi. Yaşayış otaqlarına isə həm bilavasitə dəhliz, həm də həyətdən keçmək olurdu [100, s. 239].

Ordubad evlərinin həyəti təsərrüfat funksiyaları daşımaqla bərabər, əlverişli mikroiqlimə malik yay yerləşgəsi kimi də istifadə olunurdu. Həyətin qapalılığı və ağaclar kölgəlik yaradırdı. İlin isti aylarında mikroiqlimi yaxşılaşdırmaq üçün axar sudan bacarıqla istifadə olunurdu. Sərinlik üçün sudan istifadə etməyin ən təkmilləşdirilmiş forması yeraltı soyuqxanaların yaradılması idi. Soyuqxana günbəzlə örtülü altıbucaqlı otaqdan ibarətdir, onun döşəməsindən su arxı keçir. Günün ən isti vaxtında belə otaq əlverişli şəraitdə ailənin istirahətini təmin edir [99, s. 18].

Ordubad yaşayış evlərinin digər səciyyəvi xüsusiyyətləri həyətyanı sahənin memarlıq-planlaşdırma təşkilindən ibarətdir. Həyətyanı sahələrin ölçüsü, ümumiyyətlə, 400-800 kvadratmetr arasında dəyişir. İsti iqlimə uyğun olaraq, həyətyanı sahələrin planlaşdırılmasında mikroiqlim şəraitinin yaxşılaşdırılmasına əhəmiyyətli dərəcədə diqqət yetirilir. Mikroiqlim şəraitinin yaxşılaşdırılmasında hovuz, talvar və s. tətbiq olunması ilə yanaşı, yerli əhali arasında "çeşmə" adlanan xüsusi yeraltı yerləşgələrin qurulması nəzəri cəlb edir. Təqribən 3-4 metr dərinlikdə olan bu çeşmələrin havası yayda çox sərin olduğundan onlardan eyni zamanda soyuducu kimi istifadə olunur, yerləşgələrin divarlarında ərzağın yığılması üçün taxçalar düzəldilirdi [98, s. 72-74].

XIX yüzillikdə inşa edilmiş və memarlıq baxımından diqqəti cəlb edən

abidələr Naxçıvan şəhərində də indiyədək qalmaqdadır. Belə abidələrdən biri XIX yüzilliyin II yarısında Cəfərqulu xan tərəfindən inşa etdirilmiş binadır. Ümumi sahəsi 320 m² olan bina çiy kərpicdən tikilib bişmiş kərpiclə üzlənmişdir. Cəfərqulu xanın oğlu Cəmşid Naxçıvanski 1920-ci ilədək burada yaşadığından, cənubdan iki, şimaldan birmərtəbəli görünən bina 22 oktyabr 1982-ci ildən görkəmli sərkərdə, general Cəmşid Naxçıvanskinin ev muzeyi kimi fəaliyyət göstərir [60, s. 59].

XIX əsrdə Naxçıvan şəhərində inşa edilən möhtəşəm binalardan biri də hazırda Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsi Bəhruz Kəngərlinin ev muzeyinin yerləşdiyi binadır. 1897-ci ildə Naxçıvan qızlar məktəbi üçün şərq və qərb memarlıq elementlərinin sintezindən inşa edilən binanın ümumi sahəsi 560 m²-dir. Bina çiy kərpicdən inşa edilmiş, fasadı bişmiş kərpiclə üzlənmişdir. Birinci mərtəbədə 7, ikinci mərtəbədə 5 otaq yerləşir [60, s. 40-41].



Azərbaycan diviziyasının komandiri Cəmşid Naxçıvanski

Bəhs olunan dövrdə Naxçıvan ərazisində hərbi istehkam tipli qalalar da inşa olunmuşdur. Belə qalalardan biri Naxçıvan şəhərindən 6 km cənub-şərq tərəfdə, Araz çayının sahilində, orta əsr Astabad şəhərinin yerində 1809-1810-cu illərdə Fransa hərbi mühəndislərinin layihəsi əsasında tikilmiş Abbasabad qalasıdır. Hərbi zərurətdən yaranmış bir obyekt olan, planda beşbucaq şəklində inşa edilən qalanın divarlarının hündürlüyü 4,3 metr, qalınlığı 0,6 metr olmuşdur. Müdafiəni gücləndirmək məqsədi ilə hər tərəfdən 10 metr enində su ilə doldurulmuş arxla əhatə olunmuş qalanın bürcləri var idi.

Birinci Rusiya-İran müharibəsinin gedişi zamanı İranın bir sıra uğursuzluqlara məruz qalması səbəbindən Naxçıvan xanlığının ərazisində özünün mövqelərini möhkəmləndirmək məqsədi ilə bəzi tədbirlər həyata keçirən İran vəliəhdi, şahzadə Abbas Mirzə öz adını daşıyan bu qalanı İran ordusuna dayaq nöqtəsi yaratmaq məqsədi ilə tikdirmişdi. Birinci Rusiya-İran müharibəsinin gedişi zamanı inşa edilən qala 1813-cü il Gülüstan müqaviləsindən sonra ingilislər tərəfindən yenidən qurularaq bərpa edilmişdir.

İkinci Rusiya-İran müharibəsi zamanı qalada və ətrafında döyüşlər olmuşdur. Həmin vaxt qala Abbas Mirzənin kürəkəni, İran ordusunun zabiti Məhəmməd Emin xanın komandanlığı ilə müdafiə olunurdu. Ancaq bu müharibənin nəticəsi olaraq Naxçıvan xanlığı Rusiyaya ilhaq edildikdən sonra tikildiyi vaxtlar Azərbaycanın cənubuna gedən yolun təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən qala tədricən öz hərbi-strateji əhəmiyyətini

itirmiş və baxımsızlıq səbəbindən yararsız vəziyyətə düşmüşdür. Keçən yüzillikdə, 1967-1971-ci illərdə Araz çayı üzərində Su Elektrik Stansiyası tikilərkən qalanın xarabalıqları suyun altında qalmışdır [60, s. 7-8].

İncəsənət. XIX əsrdə Naxçıvanda incəsənətin bir sıra sahələri, o cümlədən aşıq sənəti müəyyən inkişaf yolu keçmişdir. Orta əsrlər zamanı Azərbaycan aşıq sənəti içərisində özünəməxsus ənənələri olan Naxçıvan aşıq mühiti XIX yüzillikdə də özünün yetirdiyi bir sıra aşıqlarla məşhur idi. Bu aşıqlar içərisində yerli aşıqlarla bərabər, digər yerlərdən gəlmiş, ancaq Naxçıvan aşıq mühitində yetişmiş, kamilləşmiş tanınmış sənətkarlar da var idi. Ədəbi təsir dairəsi təkcə Naxçıvan bölgəsi ilə məhdudlaşmayan, Arazın cənub sahillərində, Cənubi Azərbaycan torpaqlarında, indiki Ermənistanın yerləşdiyi Qərbi Azərbaycan torpaqlarında əhali tərəfindən çox sevilən, bu səbəbdən də el məclislərinin aparılmasına dəvət olunan Naxçıvan aşıqları həmin yerlərdə böyük nüfuza malik idilər. Bu aşıqların yaradıcılığının məhsulu olan qoşma, gəraylı, müxəmməs, təcnis, bayatı və s. lirik nümunələr Azərbaycan aşıq mühitinin ən gözəl nümunələri kimi diqqəti cəlb edirlər.

XIX yüzillikdə yaşayıb-yaratmış aşıqlardan biri əslən Sisyan bölgəsinin Ulu kəndindən olan, ancaq həyatının əsas hissəsi Şahbuz rayonunda keçən Ululu Kərim olmuşdur. Dövrünün kamil ustad aşıqlarından dərs alan və özü də kamil, ustad aşıq səviyyəsinə yüksələn Ululu Kərimin xalq arasında dillərdə dolaşan bir çox qoşma, gəraylı, təcnis və ustadnamələri vardır. Şeirlərində doğma vətən torpağının təbiəti, xüsusilə Şahbuz dağlarının sərin yaylaqları, təbiətə yaraşıq verən əlik və maralları, el qızlarının gözəlliyi və s. tərənnüm olunur. Ululu Kərimin bir sıra müəmmalı bağlamaları aşıqların və yerli qocaların dilində dolaşmaqdadır. Bağlamaların müəmması ya aşığın özü tərəfindən açılmamış, ya da onların açılma bəndləri hafizələrdən silinmişdir [91, s. 24]. Ululu Kərimin əxlaqi və tərbiyəvi mahiyyət daşıyan ustadnamə və nəsihətnamələri də vardır. Çox qismi qoşma formasında yazılan bu ruhlu şeirlərində aşığın didaktik və tərbiyəvi fikirləri əsas yer tutur [91, s. 25]. Naxçıvan əhalisi arasında və ətraf yerlərdə öz sənəti ilə böyük nüfuz qazanan Ululu Kərim çoxlu yaradıcılıq nümunələrinin, o cümlədən ustadnamələrin müəllifi kimi tanınmışdır. Ancaq çox təəssüflər ki, sənətinin kamil ustadı olan bu el aşığının yaradıcılıq nümunələrindən çox az bir qismi bizədək gəlib çatmışdır. Qəbri Qızıl Qışlaq (indiki Güney Qışlaq) qəbristanlığındadır.

XIX yüzillikdə yaşayıb-yaratmış Naxçıvan aşıqları içərisində Aşıq Məmmədcəfərin özünəməxsus yeri vardır. Yaradıcılıq nümunələrinin az bir qismi, xüsusilə "Məmmədcəfər və Səhnə xanım" adlı dastan – rəvayətin deyişmə hissəsi, bir neçə qoşma və təcnisləri, satirik tənqidi, həcvsayağı şeirləri günümüzə gəlib çatmışdır. Aşıq Məmmədcəfər yerli və ətraf ərazilərin əhalisi tərəfindən sevilən aşıqlardan olmuşdur. Əsərlərində real həyati eşqin

təsvir və tərənnümü əsas yer tutan, yaradıcılığında ictimai mövzulara daha çox meyl edən, ancaq şəxsi mənfəətini düşünən ruhanilərin, hakim təbəqələrin bəd əməllərini tənqid edən Aşıq Məmmədcəfərin tənqid hədəfləri real həyati şəxslər olmuşdur [59, s. 345]. İctimai-tənqidi mövzulara meylinin güclü olması onu yaradıcılıq prinsipi etibarilə XIX yüzilliyin realist Azərbaycan aşıq şeirləri ilə birləşdirir.

Bəhs olunan dövrdə fəaliyyət göstərən Naxçıvan aşıqlarından biri də Aşıq Abbas Dəhri olmuşdur. Ordubad rayonunun Dəstə kəndində doğularaq (1818-1932) boya-başa çatan Aşıq Abbas Dəhri ədəbi yaradıcılıqla məşğul olsa da, gözəl oxuması, aşıq havalarını yüksək səviyyədə ifa etməsi, yaxşı rəqs etməsi ilə fərqlənmiş, bu səbəbdən də xalq arasında daha çox ifaçı aşıq kimi tanınmışdır. O, "Əncüməni-Şüəra" ədəbi məclisinin fəal üzvlərindən olmuşdur. Şeirlərinin təhlili göstərir ki, o sələflərindən öyrənməklə bərabər müasirlərindən də, xüsusilə Şahbuz aşıqlarının yaradıcılığından da bəhrələnmiş və aşıq poeziyasının gözəl nümunələrini yaratmışdır. Onun Aşıq Abbas Tufarqanlının, Aşıq Hüseynin, Ululu Kərimin şeirlərinə, xüsusilə ustadnamələrinə yazılmış bənzətmələri, həmçinin orijinal üslubda yazılmış qoşmaları, bayatıları və s. xalqın yaddaşında yaşamaqdadır.

XIX yüzillikdə Naxçıvan aşıq mühitinin qüdrətli sənətkarları sırasında əslən Dərələyəzin Sallı kəndindən olan, ancaq həyatının bir hissəsini Naxçıvanda keçirən Aşıq Cəlilin xüsusi yeri olmuşdur. Şərur-Dərələyəz bölgəsində ustad aşıq kimi şöhrət qazanan, qoşma, gəraylı və s. formalarda şeirlər yazan Aşıq Cəlil həm də musiqi yaradıcılığı ilə məşğul olmuş, bu gün də aşıqlar tərəfindən məhəbbətlə ifa olunan bir sıra aşıq havaları, o cümlədən "Baş Cəlili", "Orta Cəlili", "Ayaq Cəlili", "Baş-xanım", "Naxçıvani" havalarını yaratmışdır [22, s. 175-177; 58, s. 109]. On iki saz havası yaradan Aşıq Cəlil 1923-cü ildə təxminən 75 yaşında Naxçıvanda vəfat etmişdir.

Haqqında bəhs olunanlardan əlavə XIX yüzillikdə Naxçıvan aşıq mühitində Aşıq Həsənalı, Aşıq Nəcəfalı, Aşıq İsmi, Aşıq Molla İsmayıl və digər aşıqlar da özlərinə məxsus yer tuturdular.

Bu dövrdə Naxçıvanda aşıq yaradıcılığı ilə yanaşı, musiqi sənəti də inkişaf edirdi. Həmin vaxt Bakı, Şamaxı, Quba, Gəncə və digər Azərbaycan şəhərləri ilə bərabər Naxçıvan da özünün istedadlı musiqiçiləri ilə ad qazanmışdı [4, s. 402].

Muğamın incəliklərinə bələd olan Molla İsmayıl, Əliş Xoşkeşinli və Kərbəlayi Baxşəlinin Naxçıvanda musiqi sənətinin inkişafında xüsusi xidmətləri olmuşdur. Kərbəlayi Baxşəli Əli oğlu Əliyev gənc yaşlarından xanəndəlik etmiş, gözəl mahnı, muğam ifaçısı kimi Qafqazda da tanınmışdır. O dövrdə Naxçıvan musiqi mədəniyyəti, əsasən Şərq üçlükləri ilə bağlı olmuşdur. Şərq üçlükləri Naxçıvanın musiqi məclislərində, sonralar isə konsert salonlarında

inkişaf edir. Onlar xalq mahnı və rəqslərinin, muğamlarının təbliğatçıları rolunu oynayır [45, s. 116].

XIX yüzillikdə incəsənətin təsviri sənət növü tədricən inkişaf edirdi. Bu dövrlərdə divar rəsmləri çox geniş yayılmışdı. Azərbaycanın orta əsr miniatür sənət ənənələrindən yararlanan rəssamlar divar rəsmlərində ov səhnələrindən, nəbati və həndəsi ornamentlərdən istifadə edir, bir sıra binaların daxili divarlarını bu kimi naxışlarla bəzəyirdilər. Bəhs olunan dövrdə divar rəsmlərinin dəbə düşməsi təsviri incəsənətin bu növünün xeyli inkişaf etməsinə səbəb olur.

Divar rəsmləri çəkilərkən divarın səthi bir neçə kiçik və müxtəlif formalı hissələrə bölünür ki, bunlarda da tağ, haşiyə, göl, taxça və sair formalarda, nəbatat və yaxud heyvanat aləmindən götürülmüş motivlərdən ibarət rəsmlər yerləşdirilirdi. Nəbati motivlərdən ən çox işlədiləni müxtəlif ot kolları, sərv və çinar ağacları, lalə, qərənfil, qızılgül, zanbaq, nar gülü və başqalarının təsviridir. Heyvanat aləmindən götürülmüş motivlər isə ən çox bülbül, tovuz quşu, tutuquşu, ceyran, maral və sairədir. Bəzi hallarda, ov və müharibə səhnələrini təsvir edən lövhələrə, yaxud Nizami Gəncəvinin əsərlərinə çəkilmiş səhnələrə də rast gəlmək olurdu [25, s. 119-120].

Divar rəsmlərində bu cür rəsmlərlə yanaşı portretlərə də rast gəlinir. Portret janrında işlənmiş belə təsvirlər Ordubadda Mir Əbdürrəhim bəy Qüdsinin evində zəmanəmizədək gəlib çatmışdır. Burada pəncərələrin yan divarında üz-üzə dayanmış halda təsvir olunan kişi və qadın portretləri obrazın həlli, epiqrafik xüsusiyyətləri və bədii ifadə vasitələrinə görə XVIII-XIX əsrin əvvəlləri üçün səciyyəvi olan divar rəsmlərini xatırladır [25, s. 121].

Həm məzmun, həm də bədii forma cəhətdən ənənəvi xarakter daşıyan, rəsmlərdə ov və döyüş səhnələrinə geniş yer verilən bu sənət növü Naxçıvanda müəyyən dərəcədə inkişaf etmiş, bir sıra sənətkarlar yetişmişdi. Bu sıradan, əslən Ordubad şəhərindən olan Usta Zeynalabidin Nəqqaş Abdullazadənin adını, xüsusi ilə qeyd etmək lazımdır.

Kərbəlayi Zeynalabidin Nəqqaş Əbu Səid oğlu Abdullazadə 1839-cu ildə Ordubad şəhərində anadan olmuşdur. Zəmanəsinin görkəmli şəxsiyyətlərindən biri olan Kərbəlayi Zeynalabidin Abdullazadə məşhur pedaqoq M.T.Sidqi və M.S.Ordubadinin atası Hacıağa Fəqirlə dostluq etmişdir. Həmçinin, o, Ordubad şəhərində əsası 1838-ci ildə Ordubad şəhərinin naibi Şıxəli bəy Kəngərli tərəfindən qoyulan "Əncüməni-Şüəra" ədəbi məclisinin fəal üzvlərindən olmuş, hətta bu məclisin yığıncaqları Hacıağa Fəqirlə yanaşı, onun evində də keçirilmişdir. Məclis üzvləri içərisində özünün mütərəqqi görüşləri ilə seçilən Nəqqaş Zeynalabidin realizm nöqteyi nəzərindən çıxış etmiş, öz şeirlərində mütərəqqi ideyaları təbliğ etmişdir.

Nəqqaş Zeynalabidin xalq arasında yüksək qabiliyyətə malik rəssam və xəttat kimi də tanınmışdır. Öz sənətinin kamil və mahir ustası olduğu üçün

adına "Nəqqaş" titulu əlavə olunmuşdur. Öz sənəti ilə o, nəinki Ordubad və Naxçıvanda, hətta Cənubi Azərbaycanda və digər ölkələrdə də tanınmışdır. Məhz buna görə də o evlərin divarlarına rəsmlər və təsvirlər çəkmək üçün müxtəlif şəhərlərə dəvət olunmuşdur. Onun əl işləri Naxçıvan, Tiflis, Təbriz və s. şəhərlərdə böyük şöhrət qazanmış və bəziləri indiyədək qalmaqdadır. Onun Naxçıvan şəhərindəki Xan sarayına, Bakıda H.Z.Tağıyevin evinə, Ordubad şəhərində Məşədi Tağının evinə, Əylis və Vənənd kəndlərində bəzi evlərə çəkdiyi rəsmlər hələ də durur [9, s. 72]. Ordubad şəhərindəki Came məscidi



Came məscidində kitabə. Ordubad şəhəri, XX əsr

1902-ci ildə təmir olunarkən, daxili divarlarındakı gəc üzərində rəsmləri o yerinə yetirmişdir. Kamil sənətkar həmin vaxt, təmir işləri başa çatdığı zaman məscidin qadınlara məxsus salonunun giriş qapısının baş tərəfində öz adını da gözəl xətlə gəc üzərində qeyd etmişdir: "Kərbəlayi Zeyn əl-Abidin Nəqqaş Abdullazadə". Göründüyü kimi, kitabədə sənətkar öz adını "Nəqqaş" titulu ilə təqdim etmişdir. Kərbəlayi Zeynalabidin Nəqqaş Abdullazadə 1904-cü ildə Ordubad şəhərində vəfat etmişdir.

Bu dövrdə tətbiqi sənətin xalçaçılıq növü çox inkişaf etmişdi. Hazırlanma texnikasına görə xovlu və xovsuz (palaz, cecim, kilim, şəddə, vərni, zili, sumaq) xalça növlərindən ibarət olan Naxçıvan xalçaları əsasən iki tipə, altı çeşni növünə bölünür. Bunlar "İrigül", "Firuzəyi", "Xançeşni", "Xankarvan", "Dələli", "Quşlu"dur. Naxçıvan xalçalarının digər xarakterik xüsusiyyətlərindən biri ilmələrin uzunluğu, seyrək olması, iplərin qalınlığı, göllərin iri olması, həndəsi naxışların konkret olması idi [60, s. 354].

Azərbaycan xalçaları XIX yüzillikdə də əvvəllki dövrlərdə olduğu kimi

həm əməli (üstündə oturmaq, yatmaq, nahar etmək, namaz qılmaq və s.), həm də estetik mahiyyətlər kəsb etmişdir. Xalçanın estetik mahiyyəti onun bəzəkləri vasitəsi ilə qazanılırdı. Bura kompozisiya, ornament və rəng daxildir. Bir-biri ilə sıx əlaqədə olan bu üç amil Azərbaycan xalçalarının bədii xüsusiyyətini müəyyən edir [25, s. 123]. Naxçıvan Dövlət Xalça Muzeyində nümayiş etdirilən XIX əsrə aid xalçalar həmin dövrdə Naxçıvan xalçaçılıq sənətinin ən gözəl nümunələri kimi diqqəti cəlb edir. Xalça toxunuşunda Ordubadın ipək saplarından istifadə olunması onların gözəlliyini daha da artırırdı.

XIX yüzillikdə Naxçıvanda bədii tikmə məhsulları, basma üsulu ilə hazırlanan qadın baş örtükləri, metaldan, xüsusilə misdən hazırlanmış müxtəlif məmulatlar çox məşhur idi. Qeyd olunan bu məmulatlardan nümunələr Naxçıvan Dövlət Tarix Muzeyinin ən qiymətli eksponatları kimi qorunub saxlanır.

XIX yüzillikdə Naxçıvan bölgəsində sənətkarlığın bir sıra sahələri sıradan çıxır (məsələn, silahqayırma), yaxud da tələbat olmadığından nisbətən zəifləyirdisə (dulusçuluq məhsulları, misgərlik məmulatları, ipək parça və s.), bir sıra sənətkarlıq sahələri tam qüvvəsi ilə fəaliyyət göstərirdi. Sənətkarlar əhalinin ehtiyacını ödəmək üçün müxtəlif məhsullar düzəldirdilər. Ancaq onlar bununla kifayətlənmir, xarici bazarlara çıxarılmaq üçün də gözəl sənət nümunələri hazırlayırdılar.

Bəhs edilən dövrdə Naxçıvanda mövcud olan sənət sahələrindən biri də metalişləmə sənəti idi. Bu sənət növünün dəmirçilik, misgərlik və zərgərlik istiqamətində çalışan ustalarının əməyinin məhsulu olan əşyalar indi də çox evlərdə işlədilməkdə, bəzi nümunələri isə muzeylərdə nümayiş etdirilməkdədir. Şərur bölgəsində "Dəmirçi" adlı kəndin mövcudluğu Naxçıvanda metalişləmə sənətinin qədim zamanlardan inkişaf etdiyini göstərir.

XIX yüzillikdə Naxçıvanda daş üzərində işləmə, bədii daşyonma sənəti də çox geniş olmasa da, fəaliyyət göstərməkdə idi. Hətta bu sənət sahəsi üzrə tanınmış ustalar – xəttatlar və həkkaklar da yetişmişdi. Bu sıradan Ordubad şəhər Təkeşiyi məscidinin kitabəsini həkk edən Məhəmmədəli əl-Hüseyni əl-Qərəvi əl-Həccarı xüsusi qeyd etmək lazımdır [60, s. 298]. Bu dövrdə Ordubad şəhərində özünün əl işləri ilə şöhrət qazanmış Kərbəlayi Zeynalabidin Nəqqaş Abdullazadə kimi sənətkar yaşayıb fəaliyyət göstərirdi. Epiqrafik məlumatlar təsdiq edir ki, bu yüzillikdə Naxçıvan bölgəsində Təbriz-Qəzvin memarlıq məktəbinə mənsub ustalar da çalışmışlar. Məsələn, Naxçıvan şəhərində 1894-cü ildə inşa olunan Cəfəriyyə məscidinin memarı Məhəmmədtəqi, kitabəsini yazan Məhəmmədsaleh Təbriz memarlıq məktəbinə mənsub sənətkarlar olmuşlar [60, s. 299].

IV FƏSİL

NAXÇIVAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

1. XX əsrin əvvəllərində Naxçıvanda sosial-siyasi vəziyyət

XX əsrin əvvəllərində bütün Rusiya imperiyasında olduğu kimi, Naxçıvanda da zəhmətkeş kütlələrin vəziyyəti həddindən artıq ağır idi. Onlar bir tərəfdən yerli xanların, bəylərin, ruhanilərin, digər tərəfdən isə çarizmin və onun məmurlarının milli müstəmləkəçilik zülmünə məruz qalırdılar. Əldə olunan arxiv sənədlərində göstərilir ki, Naxçıvan və Şərur qəzalarında olan 240-dək kənddən 124-ü mülkədarların mülkiyyəti idi. Kəndlilər bu torpaqlardan icarədarlıq, bəhrəgirlik və başqa ağır şərtlərlə istifadə edirdilər. "Pay" torpaq almağın şərtləri olduqca ağır idi. Hətta Qafqaz canişini İ.Vorontsov-Daşkov etiraf edirdi ki, Şərur qəzasının Keşdaz kənd sakinləri 34 il ondan istifadə edə bilməmişlər. Torpaqların xəzinə və mülkədar mülkiyyəti olmasına daha xarakterik dəlillərdən biri də kəndin bir neçə mülkədarın mülkiyyəti olması idi. Belə ki, Naxçıvan qəzasında Şəkərəbad 8, Sələsuz 11, Baş Anzur 11, Çeşməbasar 16, Ordubad məntəqəsində Behrud 4, Tivi 8, Nəsirvaz 75 mülkədarın mülkü idi. Beləliklə, bütün torpaqlar bəylərin, xanların və xəzinənin əlində idi. Torpaqsız kəndlilər mülkədarın ağır şərtlərinə razı olmağa məcbur idilər [72, s. 103-104].

Torpaq üzərində olduğu kimi, su üzərində də mülkədar mülkiyyəti mövcud idi. Kəhriz sahibləri kəndlilərə həyətyanı sahələrini suvarmaq üçün su verib, əvəzində bəhrə vergisi (məhsulun müəyyən hissəsi) alırdılar. Məsələn, Arpaçayın sol kənarındakı bütün kəndlər sudan istifadə üçün mülkədarlar Şahin Gireyə və Yegizarova bəhrə verirdilər.

Bir tərəfdən ağır mülkədar istismarı, digər tərəfdən alınan yüksək vergilər kəndliləri yoxsullaşdırıb dilənçi halına salmışdı. Bu yoxsullaşmanın nəticəsi idi ki, kəndlilər xəzinə vergilərini ödəyə bilmirdilər. Onların üzərində vergilərin qalıqları ildən-ilə artırdı. Naxçıvanın qəza rəisi 1906-cı ildə qubernatora göndərdiyi məlumatında yazırdı: "Xan, bəy və mülkədarlarla nəinki ayrı-ayrı adamlar, hətta bütöv kəndlər düşmənçilik aparır, bu da təsadüfi deyil, hər yeri əhatə etmiş həmin düşmənçiliyin yarısından çoxu torpaq və vergi münaqişələri üstündə baş verirdi" [128, s. 8].

Əhali torpaqsızlıqdan, ağır istismardan, çarizmin milli müstəmləkə zülmündən cana gəlmişdi. Ağır yaşayışa dözməyən kəndlilər çar hökuməti orqanlarına ərizələr yazır, vəkillər seçib göndərirdilər. Lakin çar məmurları kəndlilərə kifayətləndirici cavablar vermirdilər. Kəndlilərin çar orqanlarına verdikləri ərizələr illərlə cavabsız qalırdı və bu baxımdan çar üsul-idarəsinə qarşı narazılıq get-gedə artırdı.

Naxçıvan, Ordubad və Şərur kəndləri təhkimçilik qalıqlarına, bəylərin, xanların insafsızcasına istismarına qarşı mübarizəyə qoşulur, torpaq əldə etmək üçün kəndlilər müxtəlif vasitələrə əl atırdılar. Çarın mərhəmətinə inanan sadəlövhlər

çara, canişinə, qubernatora ərizələr yazaraq onlara torpaq verilməsini xahiş edirdilər. Badamlı və Yuxarı Remeşin kəndlərinin "Bostan çuxuru" adlanan sahədən əkin yeri istəmələrinə qubernator qətiyyətlə belə bir cavab vermişdir: "Bostan çuxuru" sahəsindən yalnız oraya köçürüləcək rus kəndliləri üçün əkin sahəsi ayrılması nəzərdə tutulmuşdur" [87].



Rəhim xan Naxçıvanski

1905-ci ilin ikinci yarısından kəndli çıxışlarının xarakteri xeyli dəyişir, silahlı çıxışlara çevrilir. Naxçıvan qəzası Şahbuz məntəqəsinin Keçili kəndliləri silahlanaraq Külüs kəndində Rəhim xana məxsus olan yaylağı tuturlar. Rəhim xanın xahişi ilə gələn qəza polisi dəstəsi 40 nəfər silahlı kəndli dəstəsinin ciddi müqaviməti ilə üzləşdiyindən geri qayıdır [165, v. 34].

Şahbuz məntəqəsinin Badamlı və Yuxarı Remeşin sakinlərinin ərizə və şikayətlə torpaq sahəsi ala bilmədiklərini görən Keçili və Külüs kəndliləri 1905-ci ilin yazından Rəhim xan və Cəfərqulu xan qardaşlarına məxsus "Hüseyn yurdu" və "Güney yurdu" yaylaqlarını zəbt edib orada məskən salırlar. Mülkədarlar isə polis gücünə yurdları geri almağa səy göstərirlər. Kəndlilərin vəkilləri Qəhrəman İsmayıl oğlu və Fətəli Qulu oğlu polis rəisinə bildirirlər ki, "Onlar heç vəchlə yurdu tərk etməyəcəklər" [87]. Naxçıvan qəza rəisi İrəvan qubernatorluğuna belə bir məlumat verir: "Polis tərəfindən külüslülərə təklif edilir ki, mülk sahibkarları Naxçıvandakılar ilə razılığa gələnədək sahə tərk edilsin. Lakin kəndlilər bu təklifi rədd edir, otlaqdan çıxmırlar. Keçili, Külüs əhalisinin mütəşəkkil hərəkatından ruhlanan Tivi kəndliləri də bəylərin tutmaq istədikləri "And-top" sahəsindəki 150 desyatin icma torpağında yurd salırlar və silaha əl atırlar. Ordubad pristavı Tivi kəndlilərinin həyəcanlı çıxışları barədə İrəvan quberniya idarəsinə xəbər verib kömək istəyir. Quberniya idarəsi 19 may 1905-ci il tarixdə Ordubad yerli komanda rəisinə bildirir ki, qəza əhalisinin iğtişaşını yatırmaq üçün qubernatorun sərəncamı ilə bu gün ona tabe olan komandanı Tivi kənd pristavının köməyinə göndərir" [148, v. 95].

Tivi kəndinin əhalisi komanda gələnədək yaylaqları tərk etmir və qəza hökumətini də saymır. Bu kənd tarixən üsyankar kənd idi. Qaçaq Nəbinin, Şahhüseyn qardaşlarının düşərgəsi idi. Nəbiyə qoşulan Telli Qara qızı bu kənddən idi. Qaçaq Ağahüseynin arvadı bu kənddə yaşayırdı və s. Böyük xalq həyəcanları ilə əlaqədar olaraq 1905-ci ilin may ayında Kutaisi qubernatoru general Əlixanov-Avarski Naxçıvana gəlir. Qəzanın dağ yerlərindəki kəndli çıxışlarının getdikcə gücləndiyini görüb 5-ci qəza kazak komandasından yüzbaşı Mironovu Şahbuz dairəsindəki üsyanı yatırmağa göndərir və Şahbuz üsyanını yatırdıqdan sonra Tivi kəndlərinə divan tutmağı tapşırır. Bundan əlavə qubernatorun sərəncamı ilə Kənəkir

hərbi düşərgəsindən Naxçıvana tələb olunan hərbi qüvvələr göndərilir [87].

Naxçıvan qəzasının dağlıq yerlərindəki xalq həyəcanları ilə əlaqədar olaraq "Qafqaz" qəzeti 17 may 1905-ci il tarixli nömrəsində yazırdı: "Qara vəng" malikanəsinin qarət olunması ilə əlaqədar olaraq İrəvan qubernatorundan may ayının 14-də daha iki batalyon piyada, 300 nəfər kazak və artilleriya göndərilməsi tələb olunur. Doğrudan da, qubernatorun sərəncamı ilə Kənəkir hərbi düşərgəsindən Naxçıvana istənilən hərbi qüvvə göndərilir" [115]. Belə vəziyyət qəzanın hər yerində mövcud idi. Naxçıvan, Culfa və Ordubad şəhərlərində, həmçinin Şahtaxtı stansiyasında xeyli miqdarda nizami qoşun saxlanılırdı.

Keçili və Tivi kəndlərinin hökumətə qarşı mübarizəsi birinci rus inqilabından sonrakı illərdə də davam edir. 1906-cı ilin iyul ayında Qafqaz polis idarəsinə verilən məlumatda yazılırdı: "Tatarlar (azərbaycanlılar) üç verstədək məsafədə hündür təpələri tutmuşlar. Qoşunla atışma başlayır. Kazaklar tərəfindən 1000 patron atılmışdır" [150, v. 34-41]. Beləliklə, Keçili-Külüs kəndlərinin otlaq-yaylaq torpaqları uğrunda mübarizəsi hökumət hərbi qüvvəsi ilə silahlı toqquşmalarla nəticələndi.

1906-cı ilin sentyabr ayında Ordubad məntəqəsinin Üstüpü kəndində çoxlu torpaq və meyvə bağına malik Qafar bəy və Xosrov bəy kəndlilər tərəfindən öldürülmüş, həmin ilin oktyabr ayında böyük mülkə malik və Sust kəndindəki duz mədəninin sahibi, icarədar, sələmçi Zaxar Canpoladov Naxçıvan məntəqəsinin Kültəpə kəndində kəndlilər tərəfindən qətlə yetirilmişdi [165, v. 99-101].

Qaçqınlıq formasında olan kəndli çıxışları 1906-1907-ci illərdə xeyli genişlənmiş və partizan hərəkatı formasını almışdı. Əbrəqunus məntəqəsinin Haçaparax kəndindən olub mülkədar və hökumət əleyhinə hərəkətlərinə görə Sibirə sürgün edilmiş qaçaq Heydər Kərbəlayi İsmayıl oğlu, həmin məntəqənin Ərəfsə kəndindən olan Həsən Hüseyn oğlu 1905-ci ildə Kutaisi quberniyasında kəndli üsyanlarında iştirak etdiyinə görə həbs edilmiş, Naxçıvan həbsxanasına göndərilmiş və buradan qaçaraq yerli qaçaq dəstəsinə qoşulmuşdu.

İrəvan qubernatoru Qafqaz canişininə 27 iyun 1907-ci il tarixdə göndərdiyi məlumatında etiraf edir ki, qaçaq dəstələrinin kökünü kəsmək baxımından Naxçıvan qəzası ən çətin yerlərdəndir. Bu faktlar Naxçıvan bölgəsində azadlıq düşüncəsinin, gerçəklik duyğusunun tarixən üstünlük təşkil etdiyini göstərir.

Partizan mübarizəsi xarakteri daşıyan qaçaq dəstələri ilə mübarizənin çətinliyini görən çar hökumətinin yerli inzibati orqanları Naxçıvan və Şərur qəzalarında daha ciddi tədbirlər görür və ali orqanlardan hərbi qüvvə istəyirdilər. Bu barədə İrəvan qubernatoru 1907-ci il 27 sentyabrda Qafqaz canişini İ.Vorontsov-Daşkova göndərdiyi hesabatında yazmışdı ki, qaçaq dəstələrinin məhv edilməsi işində ən ağır bölgə Naxçıvan qəzasıdır. Qubernator yazmışdır ki, Naxçıvan qəzasındakı qaçaqlar əsasən azərbaycanlılardan ibarətdir [165, v. 99].

Qafqaz canişini İ.Vorontsov-Daşkov İrəvanın müvəqqəti general qubernatoru, qofmeystr İ.D.Şirinkina xüsusi göstəriş vermişdir ki, Şərur və Naxçıvan qəzalarında

sərhəd boyu mühafizə dəstələri möhkəmləndirilsin, kəndli iğtişaşlarının qarşısı alınsın, onların Cənubi Azərbaycana, Səttarxanın köməyinə getmələrinə yol verilməsin. Canişin özü 25 noyabr 1908-ci ildə Naxçıvan qəza rəisinə tapşırmışdır ki, Culfa körpüsündən etibarsız adamlar buraxılmasın, ziyarət adı ilə İrana gedən gənclərə pasport verilməsin. İcazə ilə Cənubi Azərbaycana gedən şəxslər üzərində ciddi nəzarət qoyulsun [165, v. 101].

Naxçıvan qəza rəisinin müavini, sonra Yeni Bəyazid qəza rəisi Korqanov Qafqaz canişini İ.Vorontsov-Daşkova göndərdiyi məktubda Naxçıvan qəzasındakı vəziyyətdən bəhs edərək yazırdı ki, Naxçıvan qəzasında nəinki ayrı-ayrı şəxslər, bütün kəndlər düşmənçilik edirlər, bu təsadüfi deyil, ümumi hadisədir. O, göstərirdi ki, mövcud düşmənçiliyin əsas hissəsi torpaq mübahisələrindən, hüquqsuzluqdan, qayda-qanunsuzluqdan, yerli idarə qaydasızlığından meydana çıxır.

Bu illər ərzində Naxçıvan dağlarında hökumət, onun polis və hərbi qüvvələri ilə vuruşan qaçaqlardan Keçili kənd sakini Kalba Teymur və Zəngəzurdan gəlmiş Kalba Murtuz xüsusi ilə qeyd edilməlidir. Üsyankar Keçili əhalisinin başında duran Kalba Teymur çar hökumət orqanlarının ədalətsiz hərəkətlərinə qarşı barışmaz mübarizəsini davam etdirərək 1908-ci ildə 12 nəfərlik kiçik, lakin cəsur dəstəsi ilə xanların obalarına basqın edir. Bu dəstə Şərurdan Həmzə Tarverdi oğlunun, Zəngəzurdan Murtuz və Mirzə Tağı oğlunun dəstələri ilə birləşib çar inzibati orqanlarını və xanları bərk lərzəyə salır. Kalba Teymur və ona qoşulan Zəngəzur qaçaqlarına qarşı yalnız Naxçıvan polisi deyil, Şərur-Dərələyəz, Zəngəzur qəzalarının polis dəstələri, kazak dəstələri, eləcə də İran-Qaradağ sərhəd mühafizəçiləri də mübarizə aparırdılar. Bütün bu təqiblərə baxmayaraq, qaçaqlar döyüşlərdən salamat çıxıb İrana keçirlər. İrəvan qubernatorunun 1908-ci il 22 dekabr tarixli məlumatında göstərilir ki, qaçaq Kalba Teymur Hacı Xudakərim oğlu və Külüslü Heydər Pirkətan oğlu İranda öldürülmüşlər [149, v. 9].

1907-1909-cu illərdə çar hökuməti orqanları və mülkədarlar üçün qorxulu rəqib Murtuz Kərbəlayi Nuru oğlunun başçılıq etdiyi kəndli qaçaq dəstəsi sayılırdı. Naxçıvan qəza polis idarəsinin məlumatından aydın olur ki, Murtuz Kərbəlayi Nuru oğlu Zəngəzur qəzasının Ərikli və Mirzə Tağı oğlu Marağa-Qışlaq kəndlərindən idilər. Onlar da kəndlilər üçün ağır olan həyatdan, çar polis xəfiyyə orqanlarının təqiblərindən yaxa qurtarmaq üçün dağlara çəkilmişdilər.

Naxçıvan qəza polis idarəsi İrəvan qubernatoruna xəbər verərək bildirmişdi ki, Murtuz 20 ildən artıqdır ki, axtarışdadır. Onun təqib olunmasında 200 nəfərlik kazak polis dəstəsi iştirak etmişdi. Naxçıvan pristavı Navitski 50 nəfər yerlinin və strajnikin köməyi ilə iki gün qaçaq Murtuzla vuruşsa da, bu, bir nəticə verməmişdi. Murtuzun dəstəsinin Zəngəzurdan Naxçıvan qəzasına keçməsi xəbəri alınan kimi Naxçıvan birinci nahiyyə polis pristavı Navitskiyə qəza polis rəisi tərəfindən əmr verilir ki, Kükü-Zərnətün dağlarında Murtuzun dəstəsinin qarşısını kəssin. Eyni zamanda, pristav Duşinskiyə əmr verilir ki, vuruşma yerinə 12 nəfər kazak polis

dəstəsi göndərilsin, Uryadnik Çermakovu da onlara qoşsun [149, v. 10-12].

Qarababa polis starşinası başda olmaqla 1-ci yerli kazak polis dəstəsi Payız və Qarabağlar tərəfə göndərilir. Pristav Navitski başda olmaqla ikinci dəstə Məmmədrza (indiki Babək rayonu) kəndinə istiqamət alır. Çünki Murtuz öz dəstəsi ilə Qaraçuğ kəndi yaxınlığında Arazdan keçib Təbrizə getmək istəyirdi. Murtuz gecəikən Məmmədrza kəndinə gələrək Fərrux bəy və Hacı Sübhanverdi Allahverdiyevlərin evində gecələyir. Bu xəbər yerli polis agenti vasitəsi ilə pristav Navitskiyə çatdırılır. Mühasirəyə düşən qaçaq dəstəsi ilə kazaklar arasında qızğın atışma başlayır. Murtuz bir neçə kazakı sıradan çıxarır. Vuruşma səhər saat 3-dək davam edir. Kazak polis dəstələri tez-tez dəyişilir və gücləndirilir. Qaçaqlar döyüş taktikasını dəyişir, gah bu, gah da başqa yerdən kazaklara həmlə edir, mühasirədən çıxmağa can atırlar. Lakin kazakların gücünün qat-qat artdığını və qaçaqların vuruşmada yorulub əldən düşdüyünü görən Murtuz silahı yerə qoyub təslim olmağı qərara alır. Qaçaqların təslim olması barədə Naxçıvan qəza polis rəisi İrəvan qubernatoruna, eyni zamanda, canişinliyə yazdığı raportunda göstərirdi ki, tutulmuş qaçaqlar Naxçıvan həbsxanasında saxlanılır və çox çəkmədən məhkəmə tərəfindən ən ağır cəzaya məhkum ediləcəklər [149, v. 7-9]. Bununla bir vaxtda Həmzənin başçılıq etdiyi Şərur qaçaqları da Dərələyəz nahiyəsinin Qayalı kəndində güclü kazak və yerli polis dəstələri tərəfindən mühasirəyə alınıb dağıdılır.

Keçili kəndliləri ilə torpaq sahibkarları arasında baş verən torpaq münaqişələri ilə bağlı Naxçıvan qəza rəisi İrəvan qubernatoruna göndərdiyi 18 may 1914-cü il tarixli ikinci raportunda yazırdı: "24 mart 1913-cü il tarixli 1461 №-li məktubla mənə İrəvan quberniya barışdırıcı münsiflərinin adına olan məxfi tapşırığın surəti göndərilmişdir. Bu tapşırıqda göstərilir ki, sahibkarlarla kəndlilər arasında baş verən torpaq münaqişələri zamanı barışdırıcı münsiflər həmin münaqişələri yoluna qoymaq və həll etmək üçün dərhal hadisə yerinə getməlidirlər. Polis məmurlarının iştirakına gəldikdə isə barışdırıcı münsiflərin adına olan həmin tapşırıqlarda deyilir ki, qəza rəislərinə tapşırılır ki, torpaq istifadəsi zəminində sahibkarlarla kəndlilər arasında hər hansı bir münaqişə baş verdikdə bu barədə dərhal Barışdırıcı Münsiflərə məlumat versinlər".

Züvələ və Keçili əhalisinin məskunlaşdığı 5 müxtəlif yerdə 40-a yaxın çadır, onlara məxsus 3000-ə yaxın iri və xırdabuynuzlu heyvanların otladığını gördükdə pristav keçililərə elan edib ki, özbaşınalığa yol vermək olmaz və təklif edib ki, "Vələver" torpağını tərk etsinlər.

Keçili kəndinin sakinləri adından çıxış edən Kərbalayi Xudakərim Əliməmməd oğlu, Hacı Abbas Hacı Məmməd oğlu, Hacı Kərim Əliməmməd oğlu, Kərbalayi Cabbar Kərbəlayi Məmməd oğlu, Qasıməli Eyvaz oğlu, Qafar Əsəd oğlu, Kərbəlayi ağa Kərbəlayi Qulam oğlu, Əhmədəli Səfərəli oğlu bildiriblər ki, onlar heç kimin torpağını işğal etməyib, ancaq alqı hüququ ilə onlara məxsus olan torpaqda yaylaqlayırlar və həmin torpaq alqı hüququna əsasən onlara məxsusdur.

Torpaq mübahisələri ilə bağlı Naxçıvan qəza rəisinin İrəvan qubernatoruna

yazdığı məktubda deyilir: "Mübahisə edən tərəflərin çox gərgin vəziyyətdə olduqlarını, buna görə də kiçik bir səbəbdən zorakılığa, hücumlara və qətllərə səbəb olacağını nəzərə alaraq qeyd etmək istəyirəm ki, 4-cü şöbənin Barışdırıcı Münsifinin, pristavların onu kəndliləri mülkədarlara qarşı qızışdırmaqda haqsız ittihamı barədə qeydinin heç bir əsası yoxdur və buna görə də əgər kəndlilər torpaqlarının sərhədlərini səhv göstərdiyinə görə öz hüquqlarını elan edərkən ona istinad edirlərsə, polislər bu barədə Barışdırıcı Münsifə xəbər veriblər, işin məğzinə isə toxunmayıblar. Bunları Sizə çatdıraraq bildirmək istəyirəm ki, keçililərin bir hissəsi 4-cü gün işğal etdikləri ərazini tərk ediblər, daha çox inadkarlıq edənlər isə bir neçə gündən sonra polislər tərəfindən qovulublar. Keçililərin yenidən torpağı zəbt edəcəyindən qorxaraq xahiş edirəm "And-top" torpaqlarının sərhədlərinin onlara izah edilməsi üçün 4-cü şöbənin Barışdırıcı Münsifi hadisə yerinə ezam olunsun. Həmçinin xahiş edirəm ki, hadisəni törədənlər, raportumda adları çəkilmiş Keçili kənd sakinləri inzibati qaydada cəzalandırılsınlar, çünki kəndlərin sakinləri də qonşularının cəzasız qaldığını görərək həmin şeyi təkrar edə bilərlər. "Vələver" torpağının sahibkarlarının iddialarına gəldikdə isə onlara dəymiş zərər barəsində akt tərtib edərək həmin sahələrin sahibkarlarına təqdim olunub.

Naxçıvan qəza rəisi, polkovnik: (imza)" [20, v. 64-69].

Naxçıvan qəza polis rəisi, polkovnik Platon Nikolayeviç Zençenko tivililərin Biləv kənd sakinlərinə məxsus olan "And-top" adlanan torpaqları tutması ilə əlaqədar toqquşmalar və polislərlə tivililər arasında baş vermiş vuruşmalar haqqında 18 iyun 1914-cü il tarixdə İrəvan qubernatorunun adına göndərdiyi raportunda qeyd edir: "İyun ayının 10-da Biləv kəndində yaşayan Fərəc ağa və Əli Murad ağa Kəngərlilər 4-cü polis sahəsinin pristavı Vəzirovun yanına gələrək bildiriblər ki, Tivi kənd sakinləri Biləv kəndlilərinə və bəylərinə məxsus olan "And-top" otlağını tutublar, oradan çobanları və mal-qaranı qovaraq öz mal-qaralarını ötürüblər. Piristav bu ərizəyə əsaslanaraq Aza keşik dəstəsinin polis pristavı Fedot Sayenkonu 3 keşikçi ilə birlikdə ədalətin bərqərar edilməsi, günahkarların üzə çıxarılması və protokol tərtib olunması üçün hadisə yerinə ezam edib. Ertəsi gün, yəni 13-ü iyun tarixində saat 9-da hadisə yerinə 7 nəfər polis keşikçisi ilə birlikdə pristav gəlib, həmin sahədə uryadniklər Sayenko, Tokarev, keşikçilər və bir neçə Biləv sakinləri ilə qarşılaşıb. Atlarla onların yanına qalxmaq mümkün olmadığından pristav bir neçə keşikçi ilə birlikdə tivililərin yanına gedib. O, gəlişinin məqsədini izah edərək və gələcəkdə onlara müqavimət göstərməməyi məsləhət görərək "And-top" otlağının Biləv bəyləri və kəndlilərinə məxsus olduğunu sübut etməyə çalışıb. Bununla bərabər pristav Biləv sakinlərinin əlində olan nizamnamə fərmanında həmin kəndin sərhədlərini tanıdıb. Təklif edib ki, qonşu kəndlərin sakinləri ilə birlikdə sərhədlərə baxılsın. Ancaq tivililər pristavın üstünə qışqıraraq bildiriblər ki, bütün bunlar onlara lazım deyil və onlar bu torpağı özlərininki hesab edirlər. Pristavı hədələyən adamlar saxlanılaraq müstəntiqin ixtiyarına verilib. Bununla yanaşı, tivililərdən Kərbəlayi

Şirəlibəy oğlu dava salmaq məqsədi ilə Əli Murad ağa Kəngərlinin üzərinə hücum çəkib, lakin vaxtında saxlanılıb. Pristav Sayenko onu həbs edərkən Kərbəlayi Şirəlibəy onu da vurmaq istəyib, ancaq zərbə keşikçiyə dəyib. Bundan sonra o, qaçaraq tivililərin arasında gizlənib. Tivililər keşikçilərin Kərbəlayi Şirəlibəyi tutmaq istədiklərini görəndə "nə durmusuz, atəş açın" qışqırıblar. Onların bu əmri dərhal yerinə yetirildi, dağın başından 3 tərəfdən dərhal atəş açıldı. Güllələr pristav, keşikçilər və onların yanında olan 10-12 nəfər biləvlinin başlarının üstündən keçdi. Güman etmək olar ki, tivililər öz adamlarını yaralamaqdan qorxurdular. Odur ki, tivililər geri çəkilən kimi tüfənglər pristava, Biləv kənd sakinlərinə, keşikçilərə yönəldi. Biləv kənd sakini Ağayar Ağayar oğlu ayağından yaralandı. Şahidlərin ifadələrinə görə, tivililərin atəşlərinin sayı 150-dən az olmayıb. Tivi kənd sakinlərindən atəş əmri verənlərin əksəriyyəti və silahı olan tivililərdən bəziləri saxlanılıblar. Digərlərinin şəxsiyyətləri müəyyən olunub və onlar 35-40 verst aralıdan yaylaqda gizləndiyindən onları yaxalamaq üçün tədbirlər görülüb. Ərazi dağlıq olduğundan atəş açanlara hücum etmək mümkün olmayıb. Buna görə də pristav mənasız insan itkisinin qarşısını almaq üçün yaralı biləvlini götürərək geri çəkilməyi əmr edib.

İmzaladı: Naxçıvan qəza rəisi, polkovnik Zençenko" [20, v. 69-70].

Bu qarşıdurmada çoxlu adam yaralanır və ölür. Əhalinin hücumuna davam gətirə bilməyən xanlar və pristav müavini Cabbar ağa Vəzirov başda olmaqla polis kazak dəstələri "And-top" yaylağı ərazisindən qovulur.

Naxçıvan qəza polis rəisinin İrəvan qubernatoruna yazdığı kimi, xan və polis kazak dəstəsinə qarşı vuruşmada təkcə kişilər deyil, qadınlar və uşaqlar da iştirak edirdilər. Qadınlardan Şərəbanı Tağı qızı (Qulamalı Şirin oğlunun arvadı), Xanımcan Budaqova, Ölkə Hüseynxan qızı və başqaları çox fəallıq göstərmiş və polis kazak dəstəsini daşa basmaqla onları geri oturtmuşdur.

Bu hadisədən 3 gün sonra, yəni 1914-cü il iyunun 16-da Tivi əhalisinə qarşı Ordubad polis pristavının müavini Cabbar ağa Vəzirov, Çənnəb, Aza və Vənənd yüzbaşıları və uryadnikləri başda olmaqla 300-dən artıq kazak polis dəstəsi və xanlardan ibarət silahlı qüvvə göndərilir. Bu güclü qüvvəyə müqavimət göstərə bilməyən əhali kəndi tərk edib dağlara, ətrafdakı Bist, Nəsirvaz və başqa kəndlərə üz tutur.

Ordubad polis pristavının müavini Cabbar ağa Vəzirov başda olmaqla hücumla kəndə girən polis kazak dəstələri kəndi talayır, mal-qaranı qırır, meyvə ağaclarını balta ilə doğrayıb yerə tökür və kənddə qalan 22 nəfər ağsaqqalı Pirim Qulaməli oğlu başda olmaqla həbs edirlər [86, s. 5]. Həbsə alınanlardan biri də kəndin yüzbaşısı Şahvələd Bağırov idi. O, hələ 1909-cu ildə kəndin iribuynuzlu mallarını kəndlilərin xeyrinə hökumətdən gizlətdiyinə görə məhkəməyə verilmişdi [157, v. 27].

Tivi kəndli çıxışlarının təşkilatçılarından Şirin Qulaməli oğlu başda olmaqla 22 nəfər məhbus Ordubad şəhər həbsxanasına salınır. Həbs olunanların istintaqı məhkəmə tərəfindən müstəntiq Mirzəliqulu Rəsulbəyova tapşırılır. Müstəntiq belə məsləhət görür ki, şahidlər həm çox sayda, həm də uzaq yerlərdən gətirilsin. Bu, o

deməkdir ki, müharibə şəraitində (1914-cü il) istintaq yubandıqca, iş uzandıqca məhbusların müqəssirliyi öz əhəmiyyətini itirə bilər.

Bu belə də oldu. İstintaq işi 1915-ci ilə kimi uzandı. Şahidləri bir yerə yığıb danışdırmaq mümkün olmurdu. Camaat tərəfindən İrəvandan 800 manata tutulan vəkil iş ilə tanış olduqda demişdir ki, bu ittiham işinə baxmaq üçün iki-üç il lazımdır. O vaxta qədər də dünya bir tərəflik olar. Ona görə də məhbuslar müəyyən şərtlərlə buraxılmalıdır. Polis idarəsi Şahvələd Bağırovadan başqa qalan məhbusları buraxdı. Bu işdən xəbər tutan məhbuslar buraxılmaqdan imtina edirlər. Bu zaman polis idarəsi xəyanətə əl ataraq Şahvələdi zəhərləyir. Ordubaddan həkim Hacı Mir Həsən ağa xəstənin müalicəsini öhdəsinə götürür. Ordubad ictimaiyyətinin təkidi ilə Şahvələd buraxılır, lakin 3 aydan sonra vəfat edir. 21 məhbusun istintaqı 1917-ci ilin yazına kimi uzanır. Bu dövrdə Rusiyada çar hökuməti devrilir. Bütün siyasi məhbuslar kimi onlar da cəzadan yaxa qurtarırlar.

Birinci Dünya müharibəsi dövründə vəziyyət daha da gərginləşdi. Naxçıvandan Qafqaz cəbhəsinə, mal-qara və ərzaq göndərilirdi. Bu zaman Tivi kəndləri əleyhinə qaldırılan siyasi ittihamlar da, demək olar ki, öz əhəmiyyətini itirmişdi. Naxçıvanın başqa kəndlərində olduğu kimi, Tivi kəndində yaşayan kəndlilərin də vəziyyəti ağır keçirdi. Kəndlilər öz uşaqlarını dolandırmaq məqsədi ilə ən ağır işlər görməyə məcbur idilər.

2. Ermənilərin Naxçıvan əhalisinə qarşı soyqırımlarının başlanması (1905-1907-ci illər)

XVIII-XIX əsrlərdə çar Rusiyası Türkiyə və İranla apardığı müharibələrin nəticəsi olaraq öz məqsədinə nail oldu: həm Qara dənizdə çarizmin nüfuzu bərqərar edildi, həm də Qafqaz rusların hakimiyyəti altına düşdü. Rusiya işğal etdiyi bölgələrdə hər hansı dövlətin, o cümlədən erməni dövlətinin yaranmasında maraqlı olmasa da, İrandan və Türkiyədən Qafqaza köçürdüyü ermənilərdən öz imperialist məqsədləri naminə yararlanmağa çalışırdı. Elə XX əsrin əvvəllərindən başlayaraq Cənubi Qafqazda çarizmin təhriki ilə milli ədavət mütəmadi qızışdırılmağa, bölgədə uzunmüddətli etnik qarşıdurma yaradılmağa başlandı ki, bu da ötən əsr boyu vaxtaşırı olaraq özünün faciəvi nəticələrini göstərdi.

XIX əsrin ikinci yarısında ermənilərin Şərqi Anadoluda və Cənubi Azərbaycanda törətdikləri qanlı cinayətlərdə Cənubi Qafqaza, o cümlədən Naxçıvana köçürülmüş ermənilər fəal iştirak etməkdə idilər. M.M.Nəvvab hələ XIX əsrin ortalarından ermənilərin müsəlmanlara qarşı həqarətlə davrandıqlarını, XX əsrin ilk illərindən azərbaycanlılara qarşı qanlı cinayətlər törətməyə başladıqlarını yazırdı [176, s. 10-15]. Ermənilər kilsələrin əmlakının müsadirə edilməsi haqqında 12 iyun 1903-cü il tarixli çar fərmanından sonra Cənubi Qafqazda daha da fəallaşmışdı. Çünki erməni kilsəsi dini-ruhani idarədən çox millətçi təsisat kimi çıxış edir və yarımleqal erməni hərbi-

siyasi təşkilatı kimi fəaliyyət göstərirdi. Kilsənin təhriki ilə ermənilərin ilk silahlı çıxışları 1903-cü il avqustun 29-da Qarsda və Gəncədə, avqustun 31-də Üçmüəzzində, oktyabrın 14-də Tiflisdə [222, s. 139-142], sentyabr ayında isə Bakıda baş vermişdi.

Bu dövrdə erməni terrorçu Daşnaksütyun partiyası bölgədə fəaliyyətini genişləndirməkdə idi. XX əsrin əvvəllərində bu partiyanın Rusiyada 2311, Türkiyədə 692, İranda 90 yerli təşkilatı fəaliyyət göstərirdi. Daşnakların Cənubi Qafqaz şəhərlərindəki komitələri xüsusi adlar altında təşkil olunmuşdu. Sonuncu komitə Naxçıvanda yaradılmışdı.

Daşnakların Qars, İrəvan, Naxçıvan və Şuşada yaradılan mərkəzi komitələri Qarsda və ya İrəvanda yerləşən ümumi orqana tabe idilər [227, s. 13-14]. Daşnaksütyun bölgədə silahlı dəstələrinin sıralarını genişləndirmiş, Rusiyada inqilabi çıxışlar başlayan zaman öz ordusunu səfərbər edərək onun sayını 100 min nəfərə çatdırmışdı [228, s. 19].

Ermənilər azərbaycanlılara qarşı milli qırğına 1905-ci il fevral ayının ilk ongünlüyündə Bakıdan başladılar. Bakıdakı iğtişaşlar tezliklə Naxçıvan, İrəvan və Zəngəzur qəzalarına yayıldı və getdikcə genişləndi.

Azərbaycanın mərkəzi şəhərində ermənilərin törətdiyi qanlı cinayətlər Naxçıvanda böyük əks-səda doğurmuş və əhalinin böyük narahatlığına səbəb olmuşdu. XIX əsrdə Naxçıvanda məskunlaşdırılmış ermənilərin həmin dövrdə yerli əhaliyə



Naxçıvanda ermənilərin törətdikləri soyqırımlar (1905-1907-ci illər)

qarşı soyuq münasibəti, təxribatçı və təhrikedici hərəkətləri narahatlığı daha da gücləndirirdi. Naxçıvanlılar arasında ermənilərin sürətlə silahlanması barədə məlumatlar yayılırdı. Çarizm tərəfindən bölgəyə köçürülmüş ermənilər özlərini Naxçıvanın əsl sahibi kimi aparır, hər fürsətdə azərbaycanlıları ələ salaraq törədiləcək faciələrə zəmin yaradırdılar.



Məmməd Səid Ordubadi

M.S.Ordubadi yazırdı ki, "o zamana qədər əsla qara-qorxu görməmiş Naxçıvan müsəlmanları gecələr ermənilərin qorxusundan eşiyə, gündüzlər isə uzaqda olan əmlaka da gedə bilməzdilər. Naxçıvanın ətrafı hər tərəfdən erməni kəndləri (bu kəndlərin hamısında ermənilər XIX əsrdə köçürülmələr zamanı məskunlaşdırılmışdı – ***red***.) ilə əhatə olunduğundan, 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər" [177, s. 18].

Ermənilərin silahlanmasından çarizmin yerli hakimiyyət orqanları da məlumatlı idi. Lakin yerlərdəki çar məmurlarının erməni özbaşınalıqlarına loyal münasibət bəsləməsi mərkəzi hakimiyyətin etnik münaqişələrin törədilməsində maraqlı olduğunu göstərirdi. Ermənilər qanunçuluğa dəvət etməyə cəhd edən bəzi məmurlar isə, hətta milliyyətcə erməni olduqda belə, şantaj olunur, hədələnir və qətlə yetirilirdilər. Azərbaycanlı qırğınlarını daha kütləvi şəkildə həyata keçirmək üçün Daşnaksütyunun Qafqazdakı məsul komitəsi rusca bildiriş də yaymışdı: "Erməni İnqilabi Cəmiyyətlər Birliyi (Daşnaksütyun – ***red***.) bütün polislərə, strajniklərə, bələdiyyə rəislərinə, jandarmlara əgər ermənilərin əllərindən silahlarını almağa, onlara zərər verməyə cəsarət edərlərsə, hər birinin tək-tək və mərhəmətsizcəsinə məhv ediləcəkləri barədə xəbərdarlıq edir. Belələri Daşnaksütyun komitəsinin qərarı ilə öldürülmüş olan Bakı qubernatoru Nakaşidze, Gəncə vitse-qubernatoru Andreyev, mütəsərrif Slavski, Şmerlinq, Bıkov, polis rəisi Saxarov, pristav Naşanski, Cavaxov, Şumakeviç, Ter-Saakovu xatırlasınlar" [216, s. 535].

Qırğınların törədilməsi ərəfəsində Naxçıvanda silahlı daşnak əsgərlərinin toplanması açıq-aşkar müşahidə edilirdi. Naxçıvanda qanlı cinayətlər İrəvandan gəlmiş daşnak təxribatçılarının təhriki ilə törədilmişdi. Onların gəlişi ilə Naxçıvandakı ermənilər tədarük etdikləri döyüş sursatlarını qanlı qırğınlar üçün hazırlıq vəziyyətinə gətirdilər [176, s. 21]. Naxçıvan kəndlərində yaşayan ermənilərin heç də hamısı daşnakların təhrikinə və təxribatlarına uymurdular. Belə ki, Badamlı kəndində yaşayan ermənilər dinc yaşamaq istəklərini ifadə edərək hətta müsəlmanlığı da qəbul etmişdilər [177, s. 22-23].

1905-ci il may ayının 5-də gündüz saat 3 radələrində üç nəfər Cəhri kəndinin

sakini olan azərbaycanlının ermənilərin sıx yaşadığı Şıxmahmud kəndi yaxınlığından keçərkən hücuma məruz qalaraq ağır yaralanmaları [177, s. 18] Naxçıvanda erməni cinayətlərinin başlanması üçün qığılcım rolunu oynadı. Bu hadisənin yerli əhalidə çaşqınlıq yaratdığı və narahatlığı artırdığı bir vaxtda azərbaycanlılarla ermənilərin qarışıq yaşadıqları Naxçıvan şəhəri yaxınlığındakı Tumbul kəndində mayın 7-də bir azərbaycanlı qətlə yetirildi. Kənddə azərbaycanlı əhalinin sayı ermənilərdən iki dəfə çox olsa da, daşnakların belə cinayətlərinə onların yaxşı silahlanmaları səbəb olurdu. İlk dövrlərdə ermənilərin bir neçə cinayətlə gərginliyi artırmalarında başlıca məqsəd azərbaycanlıları təxribata çəkmək, məsuliyyəti yerli əhalinin üzərinə qoyub qanlı cinayətləri genişləndirməkdən ibarət idi.

Lakin Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da əhali təxribata uymadı. 1905-ci il mayın 8-də İrəvanın vitse-qubernatoru Baranovskinin, İrəvan şəhər rəisi Ağamolovun və Peterburqdan qayıdan Naxçıvan şəhərinin hakimi Cəfərqulu xan Naxçıvanskinin şəhərə gəldiyini eşidən naxçıvanlılar xoşniyyətli davrandılar. Əhali həmin rəsmi şəxslərə öz sülhpərvər mövqelərini bildirdilər. Ermənilərin şəhər bazarındakı dükanlarını bağlayıb öz evlərinə çəkilmələrinin və ya kilsəyə toplaşmalarının xüsusi və məkrli bir planla bağlı olduğunu anlayan naxçıvanlılar qanlı qırğınlar genişləndirilməmiş ermənilərə bu yolla barışıq təklif etdilər. Cəhrililər isə şəhərdən kəndə gedən yolun erməni silahlılarının nəzarətinə keçməsindən narahat olub vitse-qubernatordan yola hökumət qüvvələrinin nəzarətinin təmin edilməsini xahiş etdilər. Lakin əhalinin bu təklif və tələbləri yerinə yetirilmədi.



Yuxarıda: sağdan 1-ci Cəfərqulu xan, 2-ci Rəhim xan.
Aşağıda: sağdan 1-ci III Kalbalı xan Naxçıvanski

Azərbaycanlı əhalinin barışıq təklifinə və tələblərinin təmin edilməsinə göstərilən məmur etinasızlığı, dinc azərbaycanlı əhalinin taleyin hökmünə buraxılması ermənilərin sonrakı cinayətləri üçün stimul oldu. Erməni cinayətlərinin növbəti qurbanı azərbaycanlılarla ermənilərin qarışıq yaşadığı Əliabad kəndində qətlə yetirilən Əli Hacı Bayramzadə oldu. Lakin naxçıvanlılar yenə də hadisələrə soyuqqanlı yanaşaraq təxribata getmədilər.

Belə olduqda daşnaklar daha da azğınlaşaraq növbəti hiyləyə əl atdılar. 1905-ci il mayın 11-də əhalinin qarışıq yaşadığı Kültəpə kəndində Xaçatur adlı varlı bir ermənini ailəsinin bütün üzvləri ilə birlikdə qətlə yetirərək bunun məsuliyyətini kəndin azərbaycanlı əhalisinin üzərinə atdılar. Lakin hadisə ilə bağlı başlanan təhqiqat dərhal əsl həqiqətin üzə çıxmasına şərait yaratdı. Belə ki, Xaçatur və ailəsi Daşnaksütyunun yerli komitəsinin qərarı ilə öldürülmüşdü [177, s. 19]. Bu, erməni terrorçularının XIX əsrin sonlarında Türkiyədəki fitnəkar fəaliyyətləri zamanı dəfələrlə sınaqdan keçirdikləri bir üsul idi. Daşnaklar varlı ermənilərə müraciət edərək "ümummilli amallar" naminə onlardan pul tələb edir, tələbləri yerinə yetirməyən erməni dərhal terror nəticəsində məhv edilirdi [199, s. 507-508]. Bundan sonra daşnak üçün öldürülmüş erməni qiymətli olurdu. Belə hadisələr təbliğat işinə faydalı olurdu [22, v. 9-10].

Naxçıvanda olan vitse-qubernator Baranovski Kültəpədə qətlin baş verdiyi gün gecə İrəvana geri qayıdarkən yolda qarşılaşdığı bir ermənidən özü şəxsən çoxlu silah-sursat və bomba müsadirə etmişdi [177, s. 19]. Lakin bundan sonra da silahlı ermənilərə qarşı hər hansı tədbir görülmədi. Əvəzində Kültəpə qətlindən bəhanə kimi istifadə edən daşnaklar mayın 11-də Naxçıvan şəhərini odlu silahlardan aramsız atəşə tutdular. Növbəti gün naxçıvanlılar yenidən Baranovskiyə erməni özbaşınalıqlarından şikayət etdikdə, o, "əgər onlar sizə atəş açırsa, siz də tutub onların tapançalarını alınız... Mən bilmərəm", – deyə cavab vermişdi. Həmin gün şəhər bazarında baş verən qarşıdurma zamanı isə Naxçıvanın qəza polis rəisi Angil əhalini qarşılıqlı qarət və talanlara təhrik edirdi. Bu, çarizmin bölgədə etnik münaqişələri qızışdırmaq siyasətinin ifadəsi idi. Nəticədə mayın 12-də Naxçıvan bazarında baş vermiş silahlı toqquşmada beş nəfər azərbaycanlı qətlə yetirilmişdi. Ermənilər Baranovski, Ağamolov, Cəfərqulu xana və pristav Mehdi xan Ordubadskiyə də atəş açmışdılar.

Çar məmurları daşnak cinayətlərinə son qoymaq əvəzinə bölgənin bir sıra kəndlərində, xüsusən Cəhridə mayın 13-də baş vermiş talanları və qətlləri bəhanə edərək azərbaycanlılara qarşı açıq təhqirlə müşayiət olunan yerli-yersiz yoxlamalara başladılar. Çarizmin fəal dəstəyinə baxmayaraq 1905-ci ilin may-noyabr aylarında baş verən toqquşmalar azərbaycanlıların ümumi üstünlüyü ilə nəticələndi.

Xüsusən may ayında baş verən qarşıdurmada ermənilərin məğlub vəziyyətə düşməsi onların əsas havadarı olan Qafqaz canişini İ.Vorontsov-Daşkovu narahat etmişdi. O, azərbaycanlı əhalinin artan qəzəbinin qarşısını almaq üçün Tiflisdən

general Əlixanov-Avarskini və Cənubi Qafqaz Şeyxülislamı Əbdüssalam Axundzadəni Naxçıvana göndərmişdi. Şeyxülislamla İrəvan qazısının bölgəyə gəlişi naxçıvanlıların ermənilərə qarşı çıxışlarının qarşısının alınmasında böyük rol oynadı. 1905-ci il noyabrın 26-dək qanlı hadisələr nisbətən səngisə də, ermənilərlə azərbaycanlılar arasında tez-tez qarşıdurma baş verirdi. Daşnakların təhrikedici hərəkətləri Naxçıvan bölgəsini daim təzyiq və gərginlik altında saxlayırdı. Nisbi sabitlikdən istifadə edən ermənilər öz mal-mülklərini kilsələrə daşıyır, hər fürsətdə asayişi pozur, azərbaycanlı əhalini təhqirə və zülmə məruz qoyur [177, s. 20-21], bölgənin bir çox kəndlərində azərbaycanlılara qarşı qətlləri davam etdirirdilər.

1905-ci ilin may-noyabr aylarındakı hadisələrin Naxçıvan əhalisinin üstünlüyü ilə başa çatması ermənilərin milli qırğın siyasətini İrəvan qəzası ərazisində davam etdirməyə sövq etdi. Mayın 25-də İrəvanda 4-ü qadın, 2-i uşaq olmaqla on bir nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirildi. Bundan sonra əllərində cəmi 20 ədəd köhnə tüfəng olan azərbaycanlı əhali o dövrün ən müasir silahlarına malik daşnak əsgərlərinə qarşı uğurla müdafiə olundular, hətta erməni əsgərləri daha çox tələfata məruz qaldı. Bunun əsas səbəbi isə daşnak silahlılarının bir çoxunun Bakı və Naxçıvanda baş verən hadisələr zamanı canını qaçmaqla qurtaran erməni əsgərlərindən ibarət olması və onların adətən sərxoş halda döyüşə atılmaları idi [177, s. 24-27].

Bundan sonra daşnaklar öz qanlı cinayətlərini İrəvan qəzasının mahal və kəndlərində davam etdirdilər. 1905-ci il mayın 31-də Qırxbulaq mahalının Tirjabat kəndinin erməniləri azərbaycanlıların yaşadığı 20 evdən ibarət Gözəçik kəndinə hücum etdilər. Gözəçiklilər qonşuluqdakı Məngis kəndinə sığınmağa məcbur oldular. Qaçmaqdan imtina edərək təkbaşına ermənilərə xeyli tələfat verən kənd ağsaqqalı Novruz Kazım oğlu isə ermənilərə əsir düşdü və Tirjabat kəndinin keşişi Ayrapet onun "min beş yüz müsəlman sərkərdəsinin başına bərabər" qiymətləndirdiyi başını kəsərək əvvəlcə Aleksandropola (Gümrüyə – ***red.***), sonra isə azərbaycanlılarda vahimə yaratmaq üçün Bakıya göndərdi [177, s. 29-31].

Bu hadisədən sonra azərbaycanlıların yaşadığı 12 kənd ermənilər tərəfindən zorla boşaldıldı. Həmin kəndlərin əhalisi hamılıqla cəmi 20 evdən ibarət olan Təzəkəndə sığındılar. İyunun 3-də 10 min nəfərlik silahlı erməni dəstələrinin hücumuna məruz qalan Güllücə, Tutya, Kamal və Damagirməz kəndlərinin də əhalisi Təzəkəndə pənah apardılar. Yalnız 1905-ci il iyunun 4-də hadisələrin artıq tam nəzarətdən çıxdığını görən çar qoşunlarının müdaxiləsindən sonra azərbaycanlılar öz kəndlərinə geri dönsələr də, ermənilər qırğınları davam etdirirdilər.

1905-ci il iyunun 3-də Abaran mahalının Şörəyel, Pəmbək, Gümrü yaşayış məntəqələrindən Üçmüəzzin qəzasının İlançalan kəndində toplaşan daşnak hərbi qüvvələri azərbaycanlılar yaşayan Uşu kəndinə hücum etdilər. 8 saatlıq gərgin döyüşdə uşulular ermənilər üzərində parlaq qələbə çaldılar. İki gün sonra təkrarlanan döyüşdə yenə də azərbaycanlılar daşnaklarla mübarizədə qalib gəldilər. Lakin

iyunun 8-də erməni silahlılarının üçüncü hücumu ermənilərin üstünlüyü, kəndin işğalı və yandırılması ilə nəticələndi. Bununla belə, döyüşdə ermənilər 180 silahlı əsgərini itirdi, azərbaycanlılardan isə cəmi 4 nəfər həlak oldu. Uşu sakinləri isə Sürməli kəndində məskunlaşdılar. İyun ayının 9-da daha 8 kənd – Təkyə, Pərsi, Nazrəvan, Kiçikkənd, Kötüklü, Qoşabulaq, İrgu və Əngirsək yaşayış məntəqələri ermənilər tərəfindən işğal olundu, bir gün sonra isə bu kəndlərin sırasına 9 azərbaycanlı kəndi də əlavə edildi.

Ermənilər bu işğallar nəticəsində bölgədə özlərinin nəzarəti altında geniş bir coğrafiya yaratmaq, sonra isə siyasi hakimiyyət qurmaq istəyirdilər. I Dünya müharibəsində Rusiyanın Şərqi Anadoluya nəzarəti ələ keçirməsi erməniləri daha da həvəsləndirmişdi. Daşnakların "İrəvandan Naxçıvana qədər yol üstə yerləşən Naxçıvan kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır olan əsgəri qüvvələrlə birləşdirmək, Naxçıvandan Zəngəzura kimi yol boyunca olan köyləri dağıdıb Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvəni birləşdirmək kimi alçaq xəyallar"ı vardı [177, s. 119]. Bu planın reallaşması daşnakları himayə edən çar Rusiyası üçün müsəlman azərbaycanlılarsız regionun yaranması, ermənilər üçün isə dövlət yaratma təşəbbüslərinin uğur qazanması demək olacaqdı. XIX əsrin sonlarında Türkiyədə müvəffəqiyyət qazana bilməyən ermənilər torpaq iddiaları ilə bağlı bütün fəaliyyətlərini Azərbaycan ərazilərinə keçirmişdilər.

Ermənilər öz silahlı dəstələrinin pərakəndə fəaliyyət göstərməsini 1905-ci ildəki ilk hücumlarında uğursuzluğun əsas səbəbi kimi gördüklərindən Azərbaycanın qərb bölgəsindəki daşnak qüvvələrinə komandanlığı Bakıdakı fevral cinayətlərində daşnaklara rəhbərlik edən Nikol-Tumana həvalə etdilər. Onun qərargahı İrəvanda yerləşirdi. 1905-ci ilin payız aylarında yenidən genişlənən və bu dəfə daha mütəşəkkil şəkildə həyata keçirilən qırğınlara Naxçıvanda Arslan, Qarabağda Vardan, Zəngəzurda Sivaslı Murad, Əsgəranda Hamazasp (Hambo), Sisyanda Keri, Gəncədə Sako və Abraham Gülxandanyan, Tiflisdə Durbah, Armen Qaro, kapitan Baqdasaryan və Tiqran Stepanyan adlı erməni komandirləri rəhbərlik edirdilər [216, s. 534-535].

I Rus inqilabının milli ərazilərə, xüsusən Qafqaza yayılmasının qarşısını almaq istəyən çarizm yenidən etnik münaqişələrin alovlanmasına rəvac verdi. Naxçıvanda 1905-ci ilin noyabr ayında başlayan qırğınların növbəti mərhələsinin bilavasitə səbəbkarları çar məmurları və rus kazakları oldular. Noyabrın 26-da kazaklar guya sülh və asayişi təmin etmək məqsədi ilə Çeşməbasar kəndində Hacı Nəsir Hacı Nağı oğlunun evində axtarış apararaq qarətlə məşğul oldular. Kazakların qanunsuz əməllərinə etirazını bildirən ev sahibinin oğlu kazaklar tərəfindən öldürüldükdə müqavimət göstərməyə cəhd edən Hacı Nəsir və onun ailə üzvlərinin hamısı qətlə yetirildilər.

Çeşməbasar cinayəti Naxçıvan şəhərində dərhal yayıldı və yenidən qanlı qırğınların başlaması üçün işarə oldu. Həmin gün əhali şəhər bazarındakı dükanlarını

tez bağladığından rus-erməni qruplaşması axşamüstü bazarı yandırdı. Yanğın xəbərinə toplaşan şəhərin azərbaycanlı əhalisi polis rəisi Angilin və polkovnik Krılovun əmri ilə atəşə tutuldu və Məşədi Həsən Məhəmmədqulubəy oğlu öldürüldü. Bazardakı 85 dükan, 75 anbarın yanıb kül olması nəticəsində noyabrın 27-30-da şəhərdə aclıq baş verdi. Əhali arasında yaranmış çaşqınlıqdan istifadə edən rus kazakları heç bir səbəb göstərmədən evlərə soxularaq talançılıqla məşğul olur, şəhərin küçələrində yerli-yersiz yoxlamalar aparır, tabe olmaq istəməyənləri dərhal güllələyirdilər.

1905-ci il noyabrın 30-da kazak-erməni silahlı dəstələri Cəhri kəndini yandırdılar. Kənd əhalisinin bir qismi ermənilər tərəfindən qətlə yetirildi və yanğın zamanı həlak oldu. Həmin gün Naxçıvanda olan İrəvan general-qubernatoru Paskeviç əhalinin şikayətlərinə baxılacağını vəd etsə də, elə onun burada olduğu müddətdə rus-erməni silahlıları Naxçıvan şəhərinin bir hissəsinə od vuraraq yandırdılar. Dekabrın 2-də Cəhri kəndində olan Paskeviç bir daha azərbaycanlı əhalinin şikayətləri ilə üzləşməmək üçün buradan gecəyarısı birbaşa İrəvana qayıtdı [177, s. 21-22].

1905-ci il hadisələri naxçıvanlılar üçün özünü bir sıra kəndlərin dağıdılmasında, minlərlə dinc azərbaycanlı əhalinin öldürülməsində göstərən faciəli sonluqla nəticələndi. Cəhri kəndinin yandırılmasından bir qədər əvvəl Naxçıvan və Zəngəzur qəzalarının sərhədində yerləşən Xanlıqlar və İtqıran kəndləri ermənilər tərəfindən dağıdılaraq yandırılmışdı. Qırğınlar XIX əsrdə və XX əsrin əvvəllərində Türkiyə və İrandan köçürülən ermənilərin daha çox məskunlaşdırıldıqları ərazilərdə törədilmişdi. Bu bölgələr azərbaycanlı qırğınlarının eyni vaxtda törədildiyi Naxçıvan, İrəvan, Qarabağ və Zəngəzur idi. Çünki 1904-cü ildə Daşnaksütyunun III qurultayında qondarma "Böyük Ermənistan" ərazisi yaradılması planına Naxçıvan, İrəvan, Zəngəzur və Şuşa qəzalarının, eləcə də İrəvan və Gəncə quberniyalarının, bir çox digər ərazilərinin azərbaycanlı əhalidən təmizlənməsi başlıca vəzifə kimi daxil edilmişdi.

Buna görə də ermənilərin azərbaycanlılara qarşı soyqırımı 1905-ci illə məhdudlaşmadı. Naxçıvan qəzasının Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Tivi, Tumbul və başqa kəndlərində ermənilərin qanlı cinayətləri 1906-cı ildə də davam etdi. Naxçıvan kəndlərinin bir çoxunun əhalisi qırıldı, sağ qalanlar isə digər kəndlərə və Cənubi Azərbaycan ərazisinə qaçaraq canlarını qurtarmağa çalışdılar.

Qafqaz canişini İ.Vorontsov-Daşkovun təşəbbüsü ilə 1906-cı il fevralın 20-də Tiflisdə "Yaşıl zal" sarayında daşnak liderləri ilə Azərbaycan ictimai fikrinin tanınmış nümayəndələri arasında keçirilmiş yığıncaqda [177, s. 105-118] guya məqsəd iki xalq arasında milli qırğına son qoymaq idi. Görüşdə Azərbaycan tərəfini Əhməd bəy Ağayev, İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Məhəmməd ağa Vəkilov, Qarabəy Qarabəyov, Ələkbər bəy Xasməmmədov, Ədil xan Ziyadxanov və dövrün digər tanınmış ziyalıları və ictimai xadimləri təmsil edirdilər. Erməniləri

isə Aleksandr Xatisov (Xatisyan; sonralar 1918-ci ildə Qərbi Azərbaycandakı işğalçı daşnak rejiminin baş naziri olmuşdu – red.), "Mşak" qəzetinin müdiri Kalantar, Muşeqsyan, Stepanov, Arakelyan, Taqianosov, Ter-Avanesov, arximandrit Muradyan və başqa daşnak rəhbərləri təmsil edirdilər. Azərbaycan nümayəndələri tərəfindən rus-erməni işbirliyinin və daşnakların işğal planlarının ifşa edildiyi bu yığıncaqda hökumət tərəfindən terrorun aradan qaldırılması və silahlı dəstələr saxlayan siyasi partiyaların ləğvi haqqında qətnamə qəbul edildi. Lakin hadisələrin sonrakı axarı bu yığıncağın Qafqaz canişini tərəfindən gözdən pərdə asmaq, Azərbaycan ictimai rəyini öyrənmək üçün təşkil edildiyini göstərdi. Belə ki, bundan sonra ermənilərin törətdiyi milli qırğın nəinki səngidi, əksinə, daha da genişləndi və artıq çar məmurları da hadisələrdə ermənilərin tərəfində açıq-aşkar iştirak etməyə başladılar [69, s. 179].

Daşnaklar çarizmin fəal dəstəyini görüb daha da azğınlaşdılar. 1906-cı ilin yay aylarında Gümrü, İrəvan, Abaran, Şuragil və digər ərazilərdən səfərbər edilmiş könüllü erməni silahlıları nizami alaylar şəklində təşkilatlanaraq Zəngəzurun və Ordubad mahalının ermənilər yaşayan kəndlərinə göndərildilər. Ordubadın yolboyu erməni hərbi təcavüzünə məruz qalan Dırnıs, Unus və Pəzməri kəndlərinin əhalisi müdafiə oluna bildilər. Daşnak hərbi dəstələri XIX əsrdə erməni köçürülmələrindən sonra salınmış Kələki, Danagirt (mənbədə Kəlağı, Dəmqurt – red.) və Aşağı Əylis [244, s. 623] kəndlərində cəmləşdilər. Şuşa və ətraf ərazilərdən yığılmış erməni birləşmələri isə iyulun 20-də Zəngəzurdakı mis mədəninin yanında düşərgə saldı. Şuşa dəstəsinə Aram Nehrəmov, Əylisdəki daşnak dəstələrinə isə Aşot adlı erməni komandirləri başçılıq edirdilər [177, s. 127]. İyulun 29-da Aramın dəstələri Zəngəzurun Qafan dərəsindəki Karxana kəndinin bütün əhalisini son nəfərinədək qətlə yetirdi. Təcavüzə məruz qalan Lov, Xələc, Saldaşlı, İncəvar və Daşnov kəndlərinin sağ qalan əhalisi isə kiçik Qatar kəndinə sığındılar. Avqustun 1-dən 9-dək ermənilərə müqavimət göstərən Qatar kəndinin müdafiəçilərinin mövqelərini rus kazakları daşnaklara xəbər verdilər. Kazakların təxribat əməlləri nəticəsində, eləcə də erməni sahibkarı Məlik Azaryansın mis mədənində işləyən iranlı fəhlələrin köməyi ilə avqustun 8-9-da Qatar kəndi də erməni hərbi birləşmələri tərəfindən ələ keçirildi [177, s. 121-123]. Kəndin sağ qalan əhalisi və digər kəndlərdən qaçıb gələnlər bu dəfə də Kəllədağ kəndinə pənah apardılar.

Avqustun 7-də ermənilərin Əylis dəstələri, ayın 8-də isə mis mədəni ətrafındakı qüvvələri Zəngəzurun Panuslu kəndinə gələrək burada birləşdilər. Ermənilərin Oxçu-Şəbadək dağlarının ətəyində yerləşən azərbaycanlı kəndlərinə avqustun 9-da başlayan və dörd gün davam edən hücumları Oxçu kəndinin müdafiəçilərinin qeyri-bərabər döyüşdə qələbəsi ilə nəticələndi. Oxçulular hətta düşməni təqib edərək onun sığındığı Gicəlan kəndini də azad etdi. Lakin Ləyc, Təşqin, Karlur, Vənd, Mehri, Əsədazur, Qarçevan, Əkərək, Bəhrvar, Ucanabus, Qurasən, Çəmən, Bux, Oxadüz, Raxdaxana, Noraşen, Xotanan, Üsərəng, Sahadhur, Çin, Mələk Çit və digər kəndlərdən öz

sıralarına əlavə silahlı qüvvələr cəlb edən ermənilər əks-hücuma keçərək Oxçu-Şəbadək kəndlərini işğal etdilər. Bölgənin imamı Molla Həsən Əfəndinin məsləhəti ilə əhalinin bir qismi Saqqarsu adlanan əraziyə sığındı. Kəndlərdə qalan dinc əhalinin hamısı ermənilər tərəfindən qətlə yetirildi. Ardınca düşmən Saqqarsuya hücum edib qaçqınların hamısını qırdı və elə həmin gün daha dörd azərbaycanlı kəndi daşnak qüvvələri tərəfindən dağıdıldı. Qafan dərəsindəki Pirdavud kəndi də dağıdılmış, kəndin əhalisi son nəfərinədək məhv edilmişdi. Kənddəki şiə imamı Rzanın qardaşı Sultan Davuda məxsus hücrə, onun daxilindəki müqəddəs əşyalar, onlarla Quran kitabı yandırılaraq məhv edilmişdi.

Ermənilərin soyqırımından canını qurtarıb Ordubada gələn qaçqınların verdikləri məlumata əsasən ordubadlılar Qafan dərəsində, Saqqarsuda və digər ərazilərdə ermənilərin qətlə yetirdikləri insanların meyitlərini gətirmək üçün dəstələr təşkil etdilər. Ordubad könüllüləri avqustun 16-da Saqqarsuda Molla Həsən Əfəndinin özü ilə bərabər kənddən çıxardığı 62 qadın və uşağın meyitlərini tapdılar. İki gün sonra isə yenicə ailə qurmuş iki gəncin, Molla Həsən Əfəndinin yandırılmış cəsədlərinə, 15 körpə uşağın palaza bükülmüş və bir-birinə qarışmış kəsilmiş başlarına və digər bədən üzvlərinə rast gəlindi.

Ermənilərin həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində bölgədə son dərəcə acınacaqlı vəziyyət yaranmış, Zəngəzurun Naxçıvanla qonşu kəndlərinin hamısı dağıdılmış, əhalisi əsasən qırılmış, tək-tük sağ qalanlar isə Naxçıvana, Ordubada və ətraf kəndlərə sığınmışdılar.

Ordubadlıların İrəvan və Gəncə general-qubernatorlarına göndərdikləri yüzlərlə şikayət teleqramından sonra göndərilən çar draqun rotası guya azərbaycanlı qaçqınları öz doğma kəndlərinə qaytarmaq istiqamətində fəaliyyətə başladı. Lakin elə onların gözü qarşısında heç bir səbəb olmadan iki azərbaycanlı qaçqının ermənilər tərəfindən qətlə yetirilməsi ilə bu "fəaliyyət" başa çatdı. 1906-cı ilin yalnız yay aylarında Zəngəzur qəzasının Xələc, Karxana, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Oxçu, Şəbadək, Atqız, Pirdavud, Zurul, Cuman, İyilli, Sənalı, Minənəvur, Tərcan, Qalaboynu, Əcəbli, Buğacıq, Panuslu, Girdəkan, Kəllədağ, Lov, Daşnov və başqa kəndləri [176, s. 136] dağıdılmış, əhalinin böyük hissəsi qətlə yetirilmişdi.

Ordubad əhalisi çarizmin ermənilərı müdafiə və himayə etdiyini başa düşərək Zəngəzur kəndlərini azad etmək üçün könüllülərdən ibarət silahlı dəstələrin təşkilinə başladılar. 1000 nəfəri qaçqınlardan, 800 nəfəri isə yerli əhalidən olmaqla 1800 nəfərlik hərbi dəstələr Saqqarsuya doğru hərəkət etdilər. 1906-cı il sentyabrın 16-da erməni silahlı qüvvələri ilə həlledici döyüşdə qalib gələn könüllülər Zəngəzurun bütün işğal olunmuş kəndlərindən ermənilərı qovub çıxardılar. Lakin ermənilər işğal etdikləri bütün Zəngəzur kəndlərini yandırıb viran qoymuşdular. Vəziyyətin azərbaycanlıların xeyrinə dəyişdiyini görən rus hakimiyyət dairələrinin göndərdiyi 500 nəfərlik kazak ordusu bölgəyə gələrək qaçqınların guya onlar

tərəfindən öz kəndlərində qaytarıldığı görüntüsünü yaratmağa başladılar. Bu zaman fürsətdən istifadə edən ermənilər yenidən hücuma keçdilər. Lakin Girdəkan-Panuslu döyüşü də Ordubad könüllülərinin qələbəsi ilə başa çatdı.

Ermənilərin 1905-1907-ci illərdə törətdikləri qanlı qırğınların miqyası, Naxçıvan, İrəvan, Şərur-Dərələyəz və Zəngəzur qəzalarına eyni zamanda təşkil edilən mütəşəkkil hücumlar azərbaycanlıların soyqırımının və torpaqlarımızın işğalının əvvəlcədən planlaşdırılmış olduğunu göstərirdi. Zəngəzurun işğalı Naxçıvanın da mühasirəyə alınaraq zəbt edilməsi və bununla da hər iki bölgənin ermənilərin nəzarəti altına alınması cəhdləri ilə bağlı idi. Bu zaman Gəncə quberniyasının ərazilərində – Gəncə şəhərində, Şuşa və Cəbrayıl qəzalarında ermənilərin azərbaycanlılara qarşı qırğınlar törətməsi zəngəzurluların Azərbaycanın şərq ərazilərinə yolunu bağladığından onlar daha çox Naxçıvana sığınırdılar.

1905-1907-ci illər qırğınları XX əsrdə ermənilərin azərbaycanlılara qarşı yürütdüyü soyqırım və deportasiya siyasətinin ilk mərhələsi oldu. Həmin illərdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 Azərbaycan kəndi dağıdılmış [3, s. 51], ümumilikdə 158 kənd dağıdılaraq talan edilmişdi. Tələfat 3 mindən 10 min nəfərədək idi [186, s. 55-56]. Naxçıvan, Şərur-Dərələyəz, Qazax qəzalarında, Gəncə və Bakı quberniyalarında dağıdılmış kəndlərin və öldürülmüş insanların sayı isə bundan xeyli çox idi.

1897-ci ildə Naxçıvan, Şərur-Dərələyəz və Zəngəzur qəzalarının da daxil olduğu İrəvan quberniyasında 313176 nəfər azərbaycanlı yaşadığı halda, 1907-ci ildə 302965 nəfər azərbaycanlı əhali qalmışdı. İrəvan quberniyasının 242 kəndində 65149 nəfəri Azərbaycan türkü, 5579 nəfəri kürd olmaqla cəmi 70728 nəfər müsəlman əhali öldürülmüşdü [214, s. 202].

Naxçıvan qəzasında ermənilərin milli qırğın cinayətlərinin nəticəsi olaraq 1897-ci ilə nisbətən 1907-ci ildə burada azərbaycanlı əhalinin sayı 31279 nəfər və ya 34,6 faiz, əhalinin təbii artımı da nəzərə alınmadıqda isə iki dəfədən çox azalmışdı. 1910-cu ildə isə Naxçıvan qəzasında əhalinin ümumi sayı 14159 nəfər artmışdı və bunun 11455 nəfərini azərbaycanlılar təşkil edirdi. Bu artım təbii amillərlə bağlı olmaqdan daha çox, bir tərəfdən 1905-1907-ci il hadisələrində öz planlarını tam reallaşdıra bilməyən ermənilərin vahid mərkəzdə birləşmək və güclü dövlət yaratmaq üçün Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində toplaşmaq təşəbbüsləri ilə bağlı idisə, digər tərəfdən Naxçıvana Zəngəzurdan azərbaycanlı qaçqınların gəlməsi hesabına baş vermişdi. Çünki Zəngəzur qəzasında 1905-1907-ci illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırımından sonra Azərbaycan kəndlərinin yalnız dağıntıları qalmışdı [69, s. 181].

Bütün səylərinə baxmayaraq, 1905-1907-ci illərdə ermənilər həyata keçirdikləri soyqırımı nəticəsində azərbaycanlıları tamamilə məhv etməyə nail ola bilmədilər.

3. Naxçıvan Birinci Dünya müharibəsi illərində

XX əsrin əvvəlləri mərkəzi Avrasiya meqaregionunun əsas bölgələrindən biri olan Qafqazın Birinci Dünya müharibəsinin gedişinə və Orta Şərqdəki hərbi-siyasi hadisələrə əhəmiyyətli dərəcədə təsir göstərən mühüm geostrateji mərkəzlərdən birinə çevrilməsi ilə əlamətdar olmuşdur. Bu baxımdan Birinci Dünya müharibəsinin gedişində birdən-birə qaynar hərbi əməliyyat zonasına daxil edilən Qafqaz eyni zamanda əks qütblərin maraqlarının toqquşduğu arenaya çevrilməklə beynəlxalq münasibətlərin də əsas hədəfi sayılmalıdır.

1914-cü ildə başlayan Birinci Dünya müharibəsində Qafqaz əks qütblərdə dayanan hərbi-siyasi qarşıdurmaların planlarında heç də son yeri tutmurdu. Rusiyanın "pravoslavlığın bayrağını Konstantinopolun (İstanbulun – ***red.***) üzərində dalğalandırmaq" cəhdlərinə cavab olaraq Osmanlı dövləti də bütün müsəlman xalqlarını, o cümlədən türk əhalisinin yaşadığı bölgələri öz hakimiyyəti altında birləşdirməyi arzu edirdi [77, s. 23].

Birinci Dünya müharibəsi ərəfəsində və dövründə Azərbaycan ziyalıları da öz növbəsində ruslara qarşı fəaliyyətlərini artırmış, Osmanlı dövlətinə yaxınlaşmışdılar. Bu da hər şeydən əvvəl çar Rusiyasının bölgə xalqları arasında yaratdığı qanlı nifaq, milli azadlıq hərəkatlarını məhv etmək üçün xalqları bir-birinin üzərinə salmaq niyyəti, eyni zamanda Osmanlı ilə dil və din yaxınlığı ilə əlaqədar idi [192, s. 65].

Rusiya Birinci Dünya müharibəsində öz müstəmləkələrini qoruyub saxlamaq və hətta imperiyanın hüdudlarını genişləndirmək məqsədini güdür, bu işdə ermənilərdən istifadə etməyə çalışırdı. Rus müstəmləkəçiliyinin əsas icraçılarından birinə çevrilən ermənilər isə tarixin bu dövrdəki qarmaqarışıqlıqlarından bilavasitə özləri üçün faydalanmaq istəyirdilər. Heç təsadüfi deyildir ki, 1914-cü ilin avqust ayının 5-də bütün ermənilərin katolikosu V Gevorq Qafqaz canişininə məktub göndərərək, ondan erməni məsələsini yaddan çıxarmamağı və bunun həlli üçün yaranan əlverişli tarixi andan faydalanmağı xahiş etmişdi. Katolikosun II Nikolaya çatdırdığı "ermənilərin rus himayəçiliyinə ümid bəsləmələri" ilə bağlı fikrinə çar "erməniləri ən parlaq gələcək gözləyir" cavabını göndərmişdi [140, s. 42-43]. İmperator 1914-cü il noyabrın 21-də Fransanın Rusiyadakı səfiri M.Paleoloqla görüşündə Anadoluda ermənilərlə məşğul olacağını, onları təkrar türk boyunduruğu altında qoymayacağını bildirmişdi [205, s.78]. Çar ermənilər üçün müstəqil dövlət yaradacağına da işarə etmişdi.

Məhz çarizmin öz müstəmləkələrini qoruyub saxlamaq, hətta imperiyanın hüdudlarını genişləndirmək məqsədini güdməsinin, bu yolda ermənilərdən istifadə etməsinin, dəfələrlə sınaqdan çıxardığı etibarlı vasitə olan "parçala və hökm sür" siyasətinin nəticəsi idi ki, Azərbaycanda minlərlə insan öldürülmüş və dəhşətli qırğınlar törədilmişdi. Bu baxımdan Azərbaycan siyasətçiləri və ziyalıları mövcud hadisələri dəyərləndirərək Birinci Dünya müharibəsi nəticəsində sərhədlərin

dəyişəcəyini düşünür və Osmanlının yıxılmasını özləri üçün bir təhdid olaraq görürdülər [192, s. 65].

Rusiya Birinci Dünya müharibəsinin əvvəllərində Azərbaycan xalqının milli azadlıq hərəkatının genişlənməsindən çəkinərək azərbaycanlılara münasibətdə onları Osmanlıdan uzaq tutmağa, ölkədə sünni-şiə ixtilaflarından bir alət kimi istifadə etməyə çalışırdı [77, s. 441]. Çünki Rusiya Azərbaycana xammal mənbəyi, mühüm iqtisadi baza və Türkiyəyə hücum üçün hərbi-strateji məntəqə kimi baxır, çarizmin mənafeyinə zidd olan hər hansı bir xoşagəlməz hadisənin baş verməməsi üçün bütün lazımi tədbirlər görülürdü [114, s. 441]. Ancaq bütün təzyiqlərə baxmayaraq, Azərbaycanda, eləcə də Naxçıvanda çar mütləqiyyətinin müstəmləkəçilik siyasətinə qarşı mübarizə güclənirdi.

Birinci Dünya müharibəsi başlandığı zaman Naxçıvan bölgəsi çarizmin Qafqazdakı əsas dayaqlarından biri idi. Buna görə də bölgədə rus əsgər və zabitlərinin çoxluğu və onların hərəkətləri xalqı narahat edirdi [197, s. 5]. Yerli ziyalılardan M.Mirheydərzadə, K.Camalbəyov, Ə.Yüzbaşov, Ə.Tağızadə və başqalarının fəaliyyəti nəticəsində Naxçıvanda və Culfada yaradılmış "Hümmət" təşkilatı əhalini çar mütləqiyyətinə qarşı mübarizəyə hazırlayırdı [145, s. 66]. Xüsusilə, 1913-1914-cü illərdə Naxçıvanda "Hümmət" təşkilatı öz fəaliyyətini xeyli dərəcədə genişləndirmişdi. Lakin müharibənin başlanması ilə əlaqədar olaraq təşkilat gizli iş metoduna keçir, üzvlərin xeyli hissəsi dağılır. Ağır və ciddi təqiblərə baxmayaraq təcrübəli inqilabçılar Mirbağır Mirheydərzadə, Mirzəli bəy Bəktaşov partiya işini mövcud vəziyyətə uyğunlaşdırır və "Hümmət" təşkilatının fəaliyyətini davam etdirməyə başlayırlar [74, s. 150]. 1915-1916-cı illərdə Naxçıvan "Hümmət" təşkilatının tərkibi xeyli dəyişir və buraya müxtəlif ideyalı şəxslər daxil edilir. M.Mirheydərzadə, M.Bəktaşov, N.Şeyxov başda olmaqla bir qrup şəxs təşkilatın inqilabi ənənəsini davam etdirərək mütləqiyyət quruluşuna, qanlı müharibə törədənlərə qarşı ciddi mübarizə aparır. Digər bir qrupa daxil olan Kərbəlayi Qafar ağa Səfərəlibəyov, Rauf bəy Səfərəlibəyov, Seyidəli, Əliməmməd Əliyev və başqaları silahlı mübarizə yolunu tuturlar [74, s. 150].

Sənədlərdən məlum olur ki, Naxçıvanda milli azadlıq mübarizəsində "Hümmət" təşkilatının böyük rolu olmuş, Mirbağır Mirheydərzadə və Mirzəli bəy Bəktaşov bütün məsələlərdə fəallıq göstərmişlər [74, s. 150].

Birinci Dünya müharibəsinin başlanması ilə Azərbaycanın əksər bölgələrində olduğu kimi, Naxçıvanda da panislamist və türkçü düşüncələr özünü büruzə verir, dərnəklər fəaliyyət göstərirdi. Sənədlərdə Naxçıvan şəhərində azərbaycanlıların birləşməsi barədə təbliğat aparmaq məqsədilə kiçik panislamist dərnəklərin yaranması haqda məlumatlar yer almaqdadır [158, v. 64].

Sənədlərdən aydın olur ki, dərnəyin əsas fəaliyyəti müsəlmanlarda özünüdərk hissini oyatmağa, Türkiyə ilə həmrəylik yaratmağa və bu dövlətə hər cür yardıma təhrik etməyə yönəldilmişdi [158, v. 64]. Bu baxımdan panislamist və türkçü düşüncələr, eyni zamanda fəaliyyət göstərən dərnəklərlə bağlı İrəvan Quberniyası

Jandarm İdarəsinin rəisi tərəfindən 24 sentyabr 1916-cı il tarixdə Qafqaz Polis Departamentinin rəisinə göndərilən arayış olduqca diqqət çəkicidir. Arayışda qeyd olunur ki, tərkibinə görə azsaylı olan dərnəyin əsası Mirzəli bəy Bəktaşovun çayxanasında formalaşıb və o dövrün hadisələri, xüsusilə də Rusiya-Türkiyə müharibəsi barədə söhbətlər aparılan klub formasında olub. Hərbi əməliyyatlar zamanı rusların uğurları ilə bağlı məlumatlar daxil olanda bu hadisə dərnək üzvlərinin kədərinə səbəb olurdu. Lakin onlar əhali arasında rusların uğurlarını kiçildərək ümid verməyə çalışırdılar ki, türklər dirçələcək və rusları qıracaqlar. Cəbhədən türklərin irəliləməsi ilə bağlı məlumatlar daxil olanda bu xəbər dərnəkdə sevinc və ruh yüksəkliyi yaradırdı və ümid verirdi ki, ərazidə türk qoşunları görünəcək [158, v. 67].

Göründüyü kimi, yerli əhalinin əhval-ruhiyyəsi daimi və birbaşa olaraq türk cəbhəsindəki vəziyyətlə bağlı idi. Sənədlərdən aydın olur ki, Türkiyəyə rəğbət bəsləyənlərin sayı hər keçən gün artırdı. İrəvan Quberniyası Jandarm idarəsinin 24 sentyabr 1916-cı il tarixli məlumatında əhali arasında türk əsgərlərinə ianə toplandığı da qeyd edilirdi [158, v. 72].

Əhali arasında türklərə rəğbətin artması rus siyasi və hərbi dairələrində ciddi narahatlığa səbəb olurdu. Çar hökumətinin yerlərdəki canişinləri türklərə rəğbət bəsləyənlərin cəzalandırılmasından çəkinmirdi [167, v. 201-202].

Digər məlumatlardan aydın olur ki, müxtəlif siyasi mövzuda söhbətlər aparan insanların həbs edilməsi üçün planlaşdırılan tədbirlər heç bir nəticə verməmişdir. Çünki iclas çay süfrəsi ətrafında aparılır, polis məmurları görünən kimi adi söhbətlərə keçilirdi. Bu və ya digər lazımı məlumatları əldə etmək imkanına sahib ola bilməyən polis idarəsi agent məlumatlarına əsaslanmalı olurdu [166, v. 4].

Jandarm idarəsi dərnək üzvlərinin fəaliyyətini panislamist hərəkət kimi xarakterizə edirdi. Qafqaz Polis Departamentinin rəisinə göndərilən arayışda göstərilir ki, hüzn günlərində panislamist təbliğatı üçün vəsaitlər yığılır, dərnəyin üzvləri hər gün Bəktaşovun çayxanasına toplaşır, dini söhbətlər adı altında xalq arasında təbliğatın ən yaxşı vasitələrini axtarırdılar. Panislamist dərnəyinin türklərə köməklik göstərilməsi barədə təbliğatı həmrəy olanları hərəkətə gətirirdi. Dərnəyin fəaliyyəti sadəcə panislamizmin təbliğatına deyil, həm də rus qoşunları barədə, onların miqdarı və əsas istiqamətləri haqda məlumatların əldə edilməsinə yönəldilmişdi [158, v. 71-73].

Həqiqətən də Osmanlı dövləti rəsmi olaraq Qafqazdakı hadisələrin inkişafını yaxından izləmək məqsədi ilə regionlarda kəşfiyyat işləri aparmış, bu məqsədlə Osmanlı Kəşfiyyat Təşkilatı (Təşkilati-Mahsusa) bölgədəki Türk və digər müsəlman xalqlarla əlaqəyə girərək məlumat əldə etməyə başlamışdı. Məqsəd bu fəaliyyətlər nəticəsində gələcəkdə bölgə xalqlarını Rusiyaya qarşı qiyamlara qaldırmaqdı [211, s. 664].

1915-ci ilin dekabrında dərnək tərəfindən məlumat alınmışdı ki, Naxçıvan

kəndlərində aparılan təbliğatlar nəticəsində əvvəllər onlara düşmən olan sünni türklər artıq hörmətli adamlara çevrilmişlər. Əhali türk qoşunlarının gəlişini arzu edirdi. Bundan başqa hətta bəzi kəndlər (əsasən Cəhri kəndi nəzərdə tutulur – ***red.***) lazım olduğu zaman türklərə çox sayda silahlı adamlar verməyi öhdələrinə götürmüşlər [158, v. 80]. Bu dövrdə Naxçıvanda panislamizm ideyasını qəbul edən kəndlərin sayı getdikcə artırdı. Hətta güclü təbliğat nəticəsində insanlar türklərin tezliklə rus qoşunlarını darmadağın edəcəklərinə inanırdılar.

Rusiyada çarizm devrildikdən sonra Naxçıvan diyarında ikihakimiyyətlilik yarandı. Xüsusi Zaqafqaziya Komitəsi 1917-ci ilin mart-aprel aylarından başlayaraq Naxçıvan və Şərur qəzalarında ictimai təşkilatların icraiyyə komitələrini və komissarlıqlar yaratdı [140, s. 51]. 1917-ci ilin mayında Xüsusi Zaqafqaziya Komitəsi Naxçıvanda yerli hakimiyyət orqanlarının təşkilinə başladı. Naxçıvan diyarında müvəqqəti hökumətin yerli hakimiyyət orqanları yaradıldı. Fevral inqilabından sonra Naxçıvanda Milli komitələr yarandı.

1918-ci ilin əvvəllərində Naxçıvan ciddi təhlükəyə məruz qaldı. Türklərə qarşı mübarizə aparmaq pərdəsi altında daşnak silahlı dəstələri Naxçıvanın bir çox kəndlərini yerlə yeksan etmiş, çoxlu dinc əhalini qırmışdılar [162, v. 103-105].

1918-ci ilin fevralında Zaqafqaziya Komissarlığını Zaqafqaziya Seyminin əvəz etməsi və Zaqafqaziyanı müstəqil dövlətlərə parçalamaq uğrunda fəaliyyətin güclənməsi Naxçıvan Milli Komitəsindəki ziddiyyətləri daha da dərinləşdirdi və nəticədə müsavatçılarla birgə fəaliyyət imkanları aradan qalxdı.

Naxçıvanın daşnak hücumlarından etibarlı müdafiəsi müəyyən hərbi qüvvəyə arxalanmaqla təmin oluna bilərdi. Naxçıvan Milli Komitəsi real köməyi yalnız türklərdən ala bilərdi ki, bu istiqamətdə danışıqlar aparıldı.

Birinci Dünya müharibəsi illərində çar Rusiyasının arxa cəbhəsi rolunu oynayan Naxçıvan 1917-ci ildə imperiyanın dağılması və rus ordusunun Qafqazı tərk etməsi ilə Qərb dövlətlərinin, xüsusilə də İngiltərənin siyasi hədəfinə çevrilmişdi. Bu da hər şeydən əvvəl türklərin Qafqaza və Xəzər ətrafına doğru irəliləməsi ehtimalı ilə əlaqədar idi. Şərqdəki ingilis maraqları baxımından ciddi təhlükə kəsb edən bu proseslər İngiltərəni müəyyən tədbirlər görmək məcburiyyəti qarşısında qoymuşdu.

İngiltərə hökuməti Türkiyə ilə Türk Dünyası arasındakı əlaqənin kəsilməsində yeganə maneənin ermənilər olduğunu anlamışdı. Bu səbəbdən Qafqazda türk ordularına qarşı mübarizə aparmaq üçün ermənilərdən istifadə etmək nəzərdə tutulurdu. Erməni ordusunun İngiltərə tərəfindən hərbi və maliyyə dəstəyi ilə təmin olunduğu dövrdə "erməni məsələsi"nə müsbət münasibət də özünü göstərirdi. Ermənilər türklərə qarşı müharibə qarşılığında Ermənistanın gələcəyi ilə bağlı öhdəliklər tələb etdilər. Bu tələblər qarşısında London İngilis-Erməni Komitəsinin sədri və İngiltərə parlamentinin üzvü Anurin Uilyams 4 dekabr 1917-ci ildə İngiltərənin məşhur diplomatlarından olan, eyni zamanda Millətlər Cəmiyyətinin qurucusu Lord Robert Sesilə göndərdiyi

məktubda ermənilərə yardım göstərilməsinin vacib olduğunu bildirirdi. Anurin Uilyams hətta ermənilərin silahlandırılmasını və Andranik kimi silahlı dəstə liderlərindən istifadə edilməsini zəruri hesab edirdi [248]. Nəticədə İngiltərənin Hərbi Şurası özünün 7 dekabr 1917-ci il tarixli iclasında ermənilərə maliyyə dəstəyi verilməsi haqda qərar qəbul etdi [245]. Bununla birlikdə erməni könüllü dəstələrinin də Qafqaza fərqli yollardan gəlməsinə icazə verildi [246]. İngiltərə tərəfindən ermənilərin dəstəklənməsi üçün ayrılan yardım 20 milyon sterlinq idi [217, s. 329].

Sadəcə pul deyil, müxtəlif silah və sursatlar da ermənilər üçün tədarük edildi. Bu yardımlar Versaldakı Antanta Ali Müharibə Şurasının ingilis hərbi mütəxəssislərinin 1917-ci ilin dekabr ayındakı memorandumunda açıq şəkildə göstərilməkdədir: *"Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvətlərindən gələcəkdə türklərin diz çökdürülməsi üçün faydalanmaq olar"* [247].

İngilislərin bu dəstəyi sayəsində hərəkət qabiliyyətlərini artıran və külli miqdarda silah və sursat təmin edən ermənilər digər bölgələrdə olduğu kimi, Naxçıvanda da cinayətlər törədirdilər. Belə bir ağır vəziyyətdə Naxçıvan Milli Komitəsi haqlı olaraq türklərlə əlaqəni daha da genişləndirməyi lazım bildi. Həmin vaxtda türklər Şərur-Dərələyəz və İrəvan-Culfa dəmir yolunu öz əllərinə keçirərək Naxçıvana doğru irəliləyirdilər. Kazım Qarabəkir Paşanın komandanlığı altında olan türk diviziyası Şərur qəzasına daxil olduqdan sonra hücumu müvəqqəti olaraq dayandırmış, nəticədə Andranikin Naxçıvanı ələ keçirməsi üçün əlverişli imkan yaranmışdı. Belə bir şəraitdə Naxçıvan Milli Komitəsi daşnakların sayca üstün qüvvələri ilə döyüşə girmədən geri çəkilməyi məqsədəuyğun sayırdı. Bununla belə xalq öz torpaqlarının müdafiəsi üçün ayağa qalxdı və xalq qoşun dəstələri yaradıldı. Yeni daşnak talanlarına yol verməmək məqsədilə türk qoşunları Naxçıvana, Ordubada və Culfaya daxil oldu. 1918-ci ilin ikinci yarısında müharibə cəbhələrində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü və sabit yerli hakimiyyətin yaradılmasına meyl göstərirdi. Lakin Türkiyə Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq ordusunu Naxçıvandan çıxarmağa məcbur oldu [14, s. 8-9].

1918-ci ilin noyabrında yerli əhali Naxçıvanda Araz-Türk Cümhuriyyətinin müvəqqəti müstəqilliyini elan etdi. Bu respublika bir tərəfdən erməni iddialarını dəf etməyə, digər tərəfdən isə respublikanın bütün əhalisinin həm din, həm də dil cəhətdən can atdığı Azərbaycanla birləşməyə cəhd edirdi.

Naxçıvan Birinci Dünya müharibəsi illərində birbaşa hərbi əməliyyatların aparıldığı region olmasa da, naxçıvanlı generalların müharibədə iştirakı və göstərdikləri qəhrəmanlıqlar xüsusilə qeyd edilməlidir. Rus ordusunda seçilən, ad-san qazanan, rus-yapon müharibəsinin iştirakçısı, eyni zamanda Qafqaz Yerli Süvari Diviziyasının ("Vəhşi Diviziya") qurucusu olan Hüseyn Xan Naxçıvanski Birinci Dünya müharibəsində Şərqi Prussiyaya yürüşdə iştirak etmiş, Qumbien döyüşündə qələbə



Süvari generalı
Hüseyn xan Naxçıvanski

qazanmış, Qorduen-Nardenberqdə almanların hücumuna imkan verməmiş, alman cəbhəsinin yarılmasında xüsusilə fərqlənmişdir. Qafqaz Yerli Süvari Diviziyasının ilk komandanı Böyük Knyaz Mixail Aleksandroviç onun yetirməsi olmuşdur. Hüseyn Xan Naxçıvanski Birinci Dünya müharibəsində Böyük Knyazın mənəvi tərbiyəçisi idi. Denikin, Kornilov, Kaledin kimi məşhur generallar onun əmri altın-



2-ci Dağıstan süvari alayının
komandiri təyin edilmiş
leyb qvardiya polkovniki
Hüseyn xan Naxçıvanski



Rotmistr Hüseyn xan Naxçıvanski Süvari alayının zabitləri arasında. 1897


da xidmət etmişlər. Finlandiya müstəqil dövlətinin yaradıcısı feldmarşal Karl Qustav Mannerheym 1915-ci ildə Hüseyn Xan Naxçıvanskinin başçılıq etdiyi orduda diviziya komandiri idi. Göstərdiyi xidmətlərə görə 23 yanvar 1916-cı ildə general-leytenant Hüseyn Xana tam süvari generalı hərbi rütbəsi verilmişdir. O, bu yüksək hərbi rütbəyə layiq görülən ikinci azərbaycanlı idi. Bundan 9 ay əvvəl Səməd bəy Mehmandarov artilleriya sahəsində belə yüksək rütbə almışdı. Hüseyn Xan Naxçıvanski



Hüseyn xan Naxçıvanskinin rəhbərliyi ilə Dağıstan polku hücumda.1905



Hüseyn xan Naxçıvanski yoldaşı və qızı ilə zabitlər arasında. 1909



Hüseyn xan Naxçıvanski. Süvari polkun zabitləri ilə. 1909



Çar II Nikolay Süvari Qvardiyasının təltif olunmuş zabitləri arasında. Baranoviç şəhəri, 25 oktyabr 1914-cü il. Hökmdarın sağında general Hüseyn xan Naxçıvanski

"Müqəddəs Georgi" ordeninin dörd dərəcəsi ilə, "Müqəddəs Vladimir", ikinci dərəcəli "Müqəddəs Aleksandr", "Müqəddəs Anna", İranın almazla bəzədilmiş 2-ci və 4-cü dərəcəli "Şiri-Xurşud", Avstriyanın "Dəmir Xaç" yüksək ordenləri, bantlı, üstü yazılı xüsusi qızıl silahlarla təltif olunmuşdur (67, s. 20-22; 91, s. 199-200; 230, s. 27).



Komandan, Böyük Knyaz Nikolay Nikolayeviçin başçılıq etdiyi Qafqaz cəbhəsinin Kavaler Duması, sağda general-adyutant Hüseyn xan Naxçıvanski. Yanvar 1916-cı il

Birinci Dünya müharibəsində iştirak edən "Vəhşi diviziya"nın azərbaycanlılardan ibarət nizami "Tatar alayı"nın tərkibində naxçıvanlı döyüşçülər də təmsil olunmuşlar. Qafqaz Yerli Süvari Diviziyasının cəsur əsgərlərindən olan Cəmşid Xan Naxçıvanski 1914-cü ildə rus ordusu hissələrində podporuçik kimi xidmətə başlamış, süvari zabiti kimi ilk günlərdən müharibəyə göndərilmişdir. İlk əvvəl Avstriya cəbhəsində, sonra isə Rumıniyada vuruşmuşdur. Birinci Dünya müharibəsindəki döyüşlərdə üç dəfə yaralanmış və göstərdiyi xidmətlərə görə 14 fevral 1916-cı ildə üzərində "İgidliyə görə" yazılmış 4-cü dərəcəli "Müqəddəs



Cəmşid Naxçıvanski hərbçilərlə

Anna" və 12 may 1916-cı ildə 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordenləri ilə (qılınclarla və bantla birlikdə), 26 yanvar 1917-ci ildə Georgi ordeni ilə mükafatlandırılmışdır. Sonrakı döyüşlərdə 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordeninin qılınclarla və bantla birlikdə (mart, 1917-ci il), 15 aprel 1917-ci ildə isə 3-cü dərəcəli "Müqəddəs Anna" ordeninin (qılınclarla və bantla birlikdə) kavaleri olan Cəmşid Xan Naxçıvanski 27 avqust 1917-ci ildə 4-cü dərəcəli "Georgi Xaçı" ilə təltif edilmişdir. Birinci Dünya müharibəsindən sonra Cəmşid Xan Naxçıvanski müsəlman süvarilərindən ibarət olan alayı ilə Azərbaycana qayıtmış, daşnaklara qarşı vuruşmuşdur (67, s. 30-31; 91, s. 197; 230, s. 28).

Birinci Dünya müharibəsində iştirak edən Qafqaz Yerli Süvari Diviziyasının tərkibindəki digər naxçıvanlı döyüşçülərdən olan Bəhman xanın oğlu Fətəli xan Birinci Dünya müharibəsi illərində Karpat dağlarındakı döyüşlərdə iştirak etmişdir (124).

Naxçıvan xanlarının digər varislərindən biri, II Kalbalı xan Naxçıvanskinin oğlu Rəhim xan da 18 fevral 1915-ci ildə çarın əmri ilə süvari ordunun əsgəri kimi qeydə alınmış, Karpat dağlarında döyüşən polkun tərkibində olmuşdur. Yaşına baxmayaraq göstərdiyi şücaətlərə görə Rəhim xan 1915-ci il avqustun 26-da müsəlmanlar üçün təsis edilən üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeninin bant və qılınclarla birlikdə kavaleri olmuşdur (124).

Qafqaz Yerli Süvari Diviziyasının digər naxçıvanlı döyüşçülərindən biri də Rəhim xanın oğlu İsgəndər xandır. Birinci dünya müharibəsində "Vəhşi Diviziya"nın tərkibindəki Çeçen süvari polkunda vuruşmuşdur. Döyüşlərdə göstərdiyi şücaətə görə 27 yaşlı gənc hərbçi müxtəlif mükafatlara layiq görülmüşdür (124).

Qafqaz Yerli Süvari Diviziyasının cəsur döyüşçülərindən biri olan general Feyzulla Mirzə Qacar da diviziyanın ilk Georgi ordeninin kavaleri olmuşdur (124).

Birinci Dünya müharibəsindən qayıdan "Tatar süvari alayı"nın əsgər və zabitlərindən ibarət 600 nəfərlik "Müsəlman korpusu" təşkil olundu. Bu korpusun əsasında isə "Əlahiddə Azərbaycan korpusu" yaradıldı ki, onlar da bolşevik-daşnak silahlı qüvvələrinə qarşı mərdliklə mübarizə apardılar.

4. Araz-Türk Cümhuriyyəti

Araz-Türk Cümhuriyyətinin tarixi Azərbaycan tarixşünaslığında "...ən çox maraq doğuran və səthi öyrənilən mühüm elmi problemlərdən biri"dir [142, s. 107]. Bu cümhuriyyətin yaranması, fəaliyyəti və süqutu Naxçıvan diyarının 1918-1919-cu illərdəki ictimai-siyasi vəziyyəti ilə əlaqədardır.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi ilk ildə çətin daxili və xarici amillərlə qarşılaşdığından Naxçıvana istənilən səviyyədə diqqət yetirə bilməmişdir. Bundan istifadə edən erməni qəsbkarları bölgəyə ardı-arası kəsilməyən basqınlar etmiş, əhalini qorxu və vahimə içərisində saxlamış, onları soyqırıma məruz qoymuş, Naxçıvanı azərbaycanlılardan təmizləməyə çalışaraq onu "Böyük

Ermənistan"a qatmaq istəmişlər. Ancaq yerli əhali mərdliklə mübarizə aparmış, erməni cəlladlarına layiqli cavab vermişlər. Bununla belə, erməni vəhşiliklərinin qarşısını almaq üçün "1918-ci ilin mayın sonunda Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əhalisi Kərim xan İrəvanlının başçılığı ilə Mehmed Vehib Paşanın yanına xüsusi nümayəndə heyəti göndərərək" [127, s. 49] Naxçıvan diyarına hərbi qüvvə ilə kömək etməyi xahiş etmişlər. Naxçıvana gələn türk qoşunları yerli könüllü dəstələrin köməyi ilə daşnak quldur dəstələrini qəzadan qovmuşlar.

Birinci Dünya müharibəsində məğlubiyyətə uğrayan Osmanlı dövləti Mudros müqaviləsinin (1918, 30 oktyabr) 11 və 15-ci maddələrinə görə Azərbaycanı və bütün Qafqazı tərk etməli, müharibədən əvvəlki sərhədlərə çəkilməli idi [195, s. 372]. Nuru Paşa Azərbaycandan qoşunları çıxardığı kimi, Kazım Qarabəkir Paşa da 1918-ci il noyabrın 1-də qərargahı ilə Naxçıvandan qatarla Qarsa yola düşdü. Mudros müqaviləsinin şərtlərini eşidən Paşa çox peşman olmuş, demişdi ki, "Qırx illik əsarətdən altı ay öncə qurtulan və erməni məzalimindən ağır yaralar alan... türk-müsəlman əhalisinin yaşadığı bu bölgələrdən biz 1914-cü ilin hüdudlarına çəkilincə yenidən erməni zülmünə məruz qalacaqdır. Buna çarələr düşünüb, tədbirlər görməliyik..." [127, s. 50].

Araz-Türk Cümhuriyyətinin yarandığı tarixi şəraiti səciyyələndirərkən Türkiyə qoşunlarının Naxçıvan bölgəsini tərk etmələri ilə əlaqədar olaraq onun ərazi və əhalisinin taleyi üçün doğan təhlükə xüsusi ilə qeyd edilməlidir. Çünki Türkiyə ordu hissələrinin bölgədən çıxdıqları, azərbaycanlı əhalinin özünü və torpağını qorumaq üçün qüvvətli dövlət qurumuna, nizami hərbi qüvvələrə malik olmadığı bir vəziyyətdə ermənilərin siyasəti və fəallaşması ağır nəticələr verə bilərdi. Yaranmış şəraitdə bölgənin müsəlman-türk əhalisinin başçıları məcburiyyət qarşısında qalaraq məhəlli səciyyəli siyasi-dövlət birliyi yaratmaq qərarına gəldilər [140, s. 68].

Araz-Türk Cümhuriyyətinin yaradılmasının canlı şahidi olan Lətif Hüseynzadə yazır: "Oktyabr ayının son günləri idi. Kazım Qarabəkir Paşanın son iqamətgahı olan Rəhim xanın evinin qarşısında çoxlu adamlar toplaşmışdı... Burada Naxçıvanın gələcək taleyi – dövlətçilik statusu haqqında məsələ müzakirə edilirdi. Bu iclasda Kazım Qarabəkir Paşa dedi: "Naxçıvanın gələcək müqəddəratını təmin etmək üçün burada bir hökumət qurulması vacib və zəruridir. Zatən siz naxçıvanlılar milli azadlıq mübarizəsində tarixə şanlı səhifələr yazmışsınız. Dövlətçilik hüququna və ləyaqətinə maliksiniz. Siz bu hüququ, haqqı döyüş meydanlarında düşmənə qələbə çalaraq qazanmışsınız. Şərqin qapısında, Naxçıvanda bir cümhuriyyət qurulmalıdır" [107, s. 46].

Araz-Türk Cümhuriyyətinin yaradılması təşəbbüsü ilə Naxçıvan, Şərur müsəlmanları çıxış etmiş və onların təklifi ilə ordubadlılar da bu siyasi tədbirə qoşulmuşlar. Ordubad Milli Komitəsinin sədri M.Seyidzadə Ordubad əhalisinin bu təşəbbüsü müdafiə etmələrini aşağıdakı amillərlə əlaqələndirir: "Tiflis və Gəncəyə yolların bağlanması; türklərin Ordubaddan getməsi ilə əlaqədar olaraq şəhərə yardım

– ərzaq gətirilməsinin dayandırılması və buna görə də 500 nəfərlik dəstənin buraxılması və yalnız bir rotanın saxlanılması; çatışmazlıqların təşkilatı zəifləməsi və kimə tabe olmağın, kimdən göstəriş almağın bilinməməsi; Naxçıvan qəzası və Şərurun müsəlmanlarının da bu cür vəziyyətə düçar olmaları və bizim bir müsəlman – Araz dövlətini yaratmaq qərarına gəlinməsi; Gəncə ilə əlaqələrin kəsilməsi və həm də Araz hökumətinin də AXC hökuməti ilə yaxınlaşmaq istəməsi [15, 1919, 14 yanvar].

Göründüyü kimi, Osmanlı qoşunları Azərbaycandan getdikdən sonra Naxçıvan bölgəsinin Ermənistan tərəfindən işğal olunmaq və ermənilərin burada öz hökumətini qura bilmək təhlükəsi diyarın yerli əhalisinin Araz Cümhuriyyətini yaratmaqla özünün müvəqqəti müstəqilliyini elan etməsi ilə nəticələnmişdi.

Araz-Türk Cümhuriyyətinin yaradılması Qəmərlidə nəzərdə tutulsa da, erməni nizami hissələrinin hücumu ilə əlaqədar bu, Naxçıvanda baş tutmuş və 1918-ci il noyabrın 3-də burada elan edilmişdir. Cümhuriyyətin mərkəzi Naxçıvan şəhəri idi.

Araz-Türk Cümhuriyyətinin hüdudları Naxçıvan, Şərur-Dərələyəz qəzalarını, Ordubad mahalını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. əraziləri əhatə edirdi [51, v. 9-9; 142, s. 112]. Sahəsi 8696 kv. km [172, s. 33], əhalisi bir milyon nəfərdən artıq olmuşdur.

Araz-Türk Cümhuriyyətinin fəaliyyətə başlaması ilə bir sıra dövlət və idarəçilik orqanları da yaradıldı. Araz-Türk Cümhuriyyəti hökumətinin tərkibi sədrdən və 6 üzvdən ibarət idi. Hökumətin başçısı naxçıvanlı Əmir bəy Əkbərzadə idi. Hökumətin tərkibinə isə İbrahim bəy Cahangiroğlu – Hərbi nazir; Qənbər Əli bəy (Qənbəralı bəy) Bənəniyarlı – Maliyyə naziri; Bağır bəy Rzazadə – İnzibati nazir; Məmməd Bəyzadə – Ədliyyə naziri; Həsənağa Şəfizadə – Xarici İşlər naziri; Mirzəhüseyn Mirzə Həsənzadə və Lütfi Xoca Ekid Əfəndi – şeyxülislam; general Əli Əşrəf bəy – fəxri üzv və aşirət rəisi daxil idi [197, s. 46-49; 202, s. 98-99].

Nazirlər Şurasının sədri Əmir bəy Əkbərzadə bölgə əhalisi arasında və siyasi dairələrdə çox bacarıqlı, vətənpərvər və millətsevər bir şəxsiyyət kimi dəyərləndirilirdi [144, s. 32]. Osmanlı dövlətinin Araz-Türk Cümhuriyyəti hökuməti yanındakı daimi hərbi müşaviri Xəlil bəy, Kalbalı xan, Cəfərqulu xan, Abbasqulu xan və başqaları da Cümhuriyyətin fəaliyyətinə yaxından yardım göstərənlərin sırasında idilər.

Araz-Türk Cümhuriyyətində bir sıra dövlət və idarəçilik orqanları təşkil edilmişdi. Araz-Türk Cümhuriyyətinin Parlamenti yaradıldı, lakin Parlament fəaliyyətini genişləndirə bilmədi [237, s. 55]. "Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin təsisi haqqında qanun"da Azərbaycan Parlamentinə Naxçıvan, Şərur və Ordubaddan üç nəfər millət vəkilinin seçilməsi nəzərdə tutulmuşdu [144, s. 32]. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışında Araz-Türk Cümhuriyyətinin rəsmi nümayəndəsi Paşa Əliyev də iştirak etmişdi [96, s. 50]. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin təşkili Araz-Türk Cümhuriyyətinin türk-müsəlman əhalisi tərəfindən razılıqla qarşılanmışdı. Ordubaddan səlahiyyətli müvəkkil A.Hacıyevin imzası ilə Azərbaycan Parlamentinə təbrik teleqramı göndərilmiş, onun "Qafqaz müsəlmanlarının arzularını

doğruldacağına, öz fəaliyyəti ilə bizim də müstəqil yaşamağa layiq, öz taleyimizi həll etmək və hüquqlarımızı müdafiə etmək iqtidarında olduğumuzu bütün dünyaya sübut edəcəyinə" əmin olduqlarını bildirmişlər [72, 1918, 10 dekabr]. Diqqətəlayiqdir ki, ordubadlılar bu Parlamenti "öz parlamentləri" adlandırır və məlumat verirdilər ki, "onun yaradıcı işinə hər cür yardım etməyə hazırdırlar" [15, 1918, 10 dekabr].

Araz-Türk Cümhuriyyəti hökumətinin əsas vəzifəsi bölgənin təhlükəsizliyini erməni basqınlarından qorumaq üçün silahlı dəstələr yaratmaq və onların fəaliyyətini təmin etmək idi. Hökumətin ilk iclaslarının birində aşağıdakı mühüm qərarlar qəbul edilmişdi: 1. Məcburi səfərbərlik; 2. Əsgərləri batalyonlara bölmək və kazarmalarda yerləşdirmək; 3. Hökumət anbarlarında olan buğdadan əsgərlərin qidalanması üçün 14 min pud verilməsini təmin etmək; 4. Təzə əsgərlərə hökumət tərəfindən geyim və lazımi əşyaların verilməsi; 5. Əsgərliyə getməyən əhalidən silahları yığaraq silahı olmayan əsgərlərə paylamaq; 6. 20-35 yaşları arasında olan kişilərin hamısını əsgərliyə çağırmaq [107, s. 106].

Cümhuriyyət ərazisində milis idarələri və onların sahə şöbələri yaradıldı. Könüllü xalq dəstələri – taborlar (batalyonlar) yaradılmasına da başlandı. Hərbi nazir İbrahim bəy Cahangiroğlunun köməyi ilə qısa müddətdə silahlı qüvvələr təşkil olundu, 500 nəfərlik süvari alayı yaradılmağa başlandı. Yaradılan könüllü xalq dəstələri təxminən 20 tabordan ibarət idi. Taborlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, qalanları isə Zəngəzur, Vedibasar və Qəmərlidə yerləşdirilmişdi. Hər taborda əsgərlərin sayı 250 ilə 500 arasında dəyişirdi [195, s. 375]. Nehrəm taboruna Kalba Muxtar, Cəhri taboruna Kalba Kərim, Dizə taboruna Qulu bəy, Məmməd Rza bəy, Şərur taboruna Hüseyn Əliyev, Yengicə qüvvələrinə Məşədi Ələsgər ağa, Kərkər qüvvələrinə Möhsün Camalov, Baş Noraşen, Düdəngə və Zeyvə kəndlərində yerləşən tabora Kərbəlayı Həbib bəy və Fətulla Hüseynov, Ordubad taboruna İbrahimxəlil Axundov, Şərur-Sədərək taboruna isə Həsən Şahverdi oğlu başçılıq edirdilər [96, s. 52; 197, s. 103-104]. Araz-Türk Cümhuriyyətinin hərbi hissələrinin yaradılmasında və onların fəaliyyətinin təşkilində Osmanlı dövlətinin 9-cu ordusunun komandanı Yaqub Şövqü paşa və 9-cu diviziya komandiri polkovnik Rüştü bəyin böyük əməyi olmuşdu. Araz-Türk hökumətinin başçısı Əmir bəy Əkbərzadə türk ordusundan 18 maddə üzrə silah-sursat, canlı qüvvə, hərbi ləvazimat, paltar, yük arabaları və maddi vəsaitlə kömək göstərilməsini xahiş etmişdi [195, s. 376-377].

Yaradılan bütün qüvvələr Naxçıvanın, Araz-Türk Cümhuriyyətinin başqa ərazilərinin qorunmasına və idarə olunmasına yönəldilmişdi. Könüllü müqavimət dəstələri erməni daşnaklarına layiqli cavab verirdi. Xüsusilə, Şərur-Dərələyəz mahalındakı Zeyvə kəndi yaxınlığında baş verən döyüşdə 6 min nəfərlik könüllü müqavimət dəstələri erməni hərbi qüvvələrini darmadağın etdi [93, s. 194].

Araz-Türk Cümhuriyyətinin yaradılmasında başlıca məqsəd bölgəni



Araz-Türk Respublikasının ərazisinə Sürməli qəzası, Üçmüəzzin qəzasının bir hissəsi, Sərdarabad, İrəvan qəzasının bir hissəsi — Uluxanlı (Zəngibasar), Qəmərli (Gərnibasar), Vedi (Vedibasar), Şərur-Dərələyəz qəzası, Naxçıvan qəzası, Ordubad qəzası, Mehri bölgəsi daxil olmuşdur. Mərkəzi Naxçıvan şəhəri idi. Sahəsi 8696 kv.km-ə çatırdı. Əhalisi bir milyon nəfərdən artıq olmuşdur.

Naxçıvan Araz-Türk Cümhuriyyəti (noyabr 1918-mart 1919-cu illər)

erməni işğalından qorumaq idi. Hökumətin rəhbərliyi bu istiqamətdə fəal iş aparırdı və osmanlıların yardımından istifadə edirdi. Türkiyə dövlətinin Araz-Türk Cümhuriyyəti hökuməti yanındakı daimi hərbi müşaviri Xəlil bəy və Osmanlı qoşunlarının Naxçıvanda saxlanılan 5 zabiti və 300 əsgəri bu istiqamətdə

müəyyən işlər görmüşdülər [237, s. 55]. Xəlil bəy Türkiyə ilə Araz-Türk Cümhuriyyəti arasında əlaqəni təmin edirdi. O istər Araz-Türk Cümhuriyyəti dövründə, istərsə də sonrakı illərdə (1919-1920-ci illərdə) bölgə əhalisinin ermənilərin hücum və zorakılıqlarından qorunmasında xüsusi xidmətlər göstərmişdir.

Araz-Türk Cümhuriyyətinin Parlamentinin üzvləri, yerli ziyalılar, İrəvan quberniyası əhalisinin nümayəndələri bölgəni qorumaq üçün bütün imkanlardan istifadə etməyə çalışır, müxtəlif təşkilatlarla danışıqlar aparır, erməni basqınlarının qarşısını almaq üçün onlara müraciət edirdilər. Parlament üzvlərindən T.Makinski, Ə.Makinski, R.İsmayılov, A.Şeyxülislamov, M.Məhərrəmov, P.Bayrambəyov, Y.Tahirov və A.Sultanovun Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə ünvanladıqları müraciətdə deyilirdi: "Erməni qoşun hissələri bütün Sürməli qəzası və İrəvan, Üçmüəzzin və Şərur qəzalarının müsəlmanlar yaşayan hissəsini tutmuşlar və Naxçıvana sarı hərəkət edirlər. Bu zaman dinc əhalinin bir hissəsi qılıncdan keçirilmiş, bir hissəsi isə öz kəndlərindən qovulmuş və dağlardan keçərək İrana qaçmaq məcburiyyətindədir, bu isə labüd ölüm deməkdir" [35, v. 21-22]. Həsən bəy Ağayev parlament üzvlərinin bu müraciətini Azərbaycan Parlamentinin 1919-cu il yanvarın 8-də çağırılan 7-ci iclasında oxudu. Bu faciəli faktları kədərlə qarşılayan Azərbaycan Parlamenti hökumətə təklif etdi ki, "sərəncamında olan bütün tədbirləri görsün ki, bütün bu bədbəxtliklərin qarşısı alınsın" [35, v. 23].

Araz-Türk Cümhuriyyəti Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün yollar aramışdı. Araz-Türk Cümhuriyyəti hökuməti Naxçıvanın Azərbaycanın ayrılmaz hissəsi olduğunu dəfələrlə elan edərək, Azərbaycan hökumətindən yardım istəmişdi. Bunlar Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən razılıqla qəbul olunmuş və kömək göstərmək üçün tədbirlər görülmüşdü. Lakin Araz-Türk Cümhuriyyəti əhalisinin gözlədiyi köməyi Azərbaycan Xalq Cümhuriyyəti ona göstərə bilmirdi [96, s. 50].

Azərbaycan Xalq Cümhuriyyəti Araz-Türk Cümhuriyyətinin əhalisinin vəziyyətini öyrənmək üçün İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırovu ora göndərdi. Araz-Türk Cümhuriyyətinə kömək üçün göndərilən 12 zabit də Gəncədə M.Mirbağırova qoşuldu [22, s. 8].

Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələrini Ordubadda və Naxçıvanda böyük ruh yüksəkliyi və təntənə ilə qarşıladılar. M.Mirbağırov Naxçıvan rəhbərlərinə məlumat verdi ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti onlara kömək göstərməyə hazırdır. Təsadüfi deyildir ki, Azərbaycan hökuməti buraya 1 milyon manat pul göndərmişdir. Pulu gətirən Paşa Bayramov və Yusif bəy Qazıyev müvəqqəti olaraq Tiflisdə ləngimişlər [96, s. 54]. Tiflis yolu ilə gətirilən

pul Naxçıvana çatmadığından Bakıya qaytarıldı. Yardım pullarının Naxçıvana gətirilə bilməməsi regiondakı mövcud sıxıntıların artmasına səbəb oldu.

M.Mirbağırov və onunla Naxçıvana gələn nümayəndələr 1919-cu il fevralın 23-də Araz-Türk Cümhuriyyətinin hökumət üzvləri ilə iclasda iştirak etdilər. Naxçıvanlılar Azərbaycanın tərkibində olmaq arzularını Bakıdan gələn nümayəndələrə bildirdilər. Naxçıvanın könüllü surətdə Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi haqqında akt imzalandı. Akt siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələlərə aid bəndlərdən ibarət idi. Akt hökumət üzvləri, Milli Şura üzvləri və əhalinin nümayəndələri tərəfindən imzalanmış, hökumət möhürü ilə təsdiq edilmişdi.

Bu dövrdə Naxçıvanda Cəfərqulu xanın tərəfdarları ilə Araz-Türk Cümhuriyyəti arasındakı münasibətlər lazımi səviyyədə deyildi. Bu isə təhlükəli vəziyyət yaradırdı. Bunu bilən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndələri "Cəfərqulu xanın tərəfdarları və əleyhdarları arasında qızışan ehtirasları söndürməyə nail oldular" [96, s. 55].

Araz-Türk Cümhuriyyətinə gələn M.Mirbağırov onun işi ilə tanış olmuş, əhali ilə söhbətlər etmişdi. Yekun olaraq o, diyar ilə bağlı maraqlı nəticələr əldə etmiş və onu yazılı şəkildə Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasına təqdim etmişdi:

1. Bu diyarı idarə etmək üçün müttəfiqlərin, İranın, Ermənistanın təsiri ilə mübarizə aparmaq qabiliyyətinə malik və xanlara, sahibkarlara rəğbəti olmayan, başqalarının təsiri altına düşməyən, müəyyən bir siyasəti inadla yeridə bilən, mərd, qətiyyətli adam olan və rüşvətə meyl etməyən azərbaycanlı general-qubernatorun təyin olunması zəruridir.

2. Yuxarıda göstərilən keyfiyyətlərə malik bir adamı hərbi nazirin nümayəndəsi təyin etmək zəruridir.

3. Mülki və məhkəmə idarələrini idarə etmək üçün baş məmurlar mütləq azərbaycanlılardan təyin edilməlidirlər.

4. Yerli hərbi işin təşkili üçün əvvəl göndərilənlərin az olduğunu nəzərə alaraq başçıları istedadlı polkovnik olmaqla daha bir dəstə zabit göndərmək lazımdır [96, s. 56].

M.Mirbağırovun təkliflərindən sonra Azərbaycan hökuməti Naxçıvanın problemləri ilə sistematik məşğul olmağa başladı. Lakin 1919-cu ilin yanvar ayında Naxçıvan ingilislər tərəfindən tutulduğundan və onların Əmir bəy hökumətinə müsbət münasibət bəsləməməsi işi çətinləşdirirdi. Bununla belə Azərbaycan Xalq Cümhuriyyəti Araz-Türk hökumətinə iqtisadi və hərbi yardım göstərmək istəyirdi. Özünün çox ağır iqtisadi və maliyyə vəziyyətinə baxmayaraq, Azərbaycan hökumətinin 1919-cu ilə aid büdcə layihəsində yalnız Bakı-Culfa dəmiryolunun tikintisinə vəsait ayırması da çox böyük əhəmiyyəti olan bir fakt idi [29, v. 3].

Araz-Türk Cümhuriyyəti Azərbaycan hökuməti ilə münasibətləri sıxlaşdırmaq üçün bir sıra tədbirlər görmüşdü. Belə tədbirlərdən biri Araz-Türk Cümhuriyyətinin hərbi rəisi Bəhram xan Naxçıvanskinin 1919-cu ilin martın əvvəlində Bakıya göndərilməsi idi. B.Naxçıvanski yolüstü Tiflisdə və Gəncədə danışıqlar aparmışdı [172, s.19]. Məhz Bəhram xan Naxçıvanskinin Bakıya səfərindən və Azərbaycan Xalq Cümhuriyyəti rəhbərləri ilə danışıqlarından sonra iki cümhuriyyət arasında əlaqələrin canlanması müşahidə edilir. Danışıq və razılaşmalardan sonra Azərbaycan hökumətinin Naxçıvana göndərdiyi on nəfərlik zabit heyəti Araz-Türk Cümhuriyyətinin hərbi hissələrində təlim keçmiş, kəşfiyyat işlərinin təşkilində və sərhəd xətlərinin möhkəmləndirilməsində iştirak etmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanla əlaqələrini yaxşılaşdırmaq üçün Ağdam-Karyagin-Naxçıvan poçt-teleqraf xəttinin qaydaya salınması və mühafizə edilməsinə diqqət artırdı. Nəticədə bu hissədəki poçt-teleqraf idarələrinə silahlı mühafizə dəstələri ayrıldı [96, s. 61].

Azərbaycan hökuməti Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Milistan bölgələrinə T.Makinski, R.İsmayılov və Qənizadədən ibarət nümayəndə heyəti göndərmək qərarına gəldi. Nümayəndə heyətinin məqsədi erməni qoşunlarının təcavüzündən ziyan çəkmiş əhalinin ehtiyacı üçün onlara yardım göstərmək, qaçqınların vəziyyətini müəyyən etmək idi.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana, Araz-Türk hökumətinə diqqəti artırmağa çalışırdı.

Araz-Türk Cümhuriyyəti ilə Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti arasındakı münasibətlər, qarşılıqlı əlaqələr də maraq doğurur. Son illərə qədər bu iki cümhuriyyət arasında fərq tapmaq çətinlik yaradırdı, bunlar bir-birinə qarışdırılırdı. Çox yaxşı haldır ki, həm Azərbaycan Respublikasında, həm də Türkiyə Cümhuriyyətində hər iki cümhuriyyətin tarixinə dair araşdırmalar aparılmış və bu indi də davam edir.

Qeyd etməliyik ki, XX əsrin əvvəllərində Cənubi-Qərbi Qafqaz ərazisində olan yerli türk əhalisinin şanlı "Hürriyyət və istiqlal" mücadiləsi, azadlıq uğrunda qeyri-adi qəhrəmanlıqla bağlı mübarizəsi başlayır. Xalq birləşir, təşkilatlanır, siyasi tədbirlər görür. Nəticədə, "Axıska hökuməti", "Araz-Türk Cümhuriyyəti", "Qars Müsəlman Şurası", "Milli Şura hökuməti" və "Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti" adlanan türk respublikaları qurulurdu [1, 96, 142, 195, 202, 225].

Cənubi-Qərbi Qafqazda ilk müstəqil türk respublikası "Axıska hökuməti" olmuşdur. Bu hökumət türk ordusu Axıska-Axılkələkdən çıxarılacağı ərəfədə qurulmuşdu (29 oktyabr 1918 - 30 noyabr 1918). Noyabrın 30-da (1918) isə

"Qars Müsəlman Şurası" adlı yerli hökumət yaradılır. Noyabrın 15-də keçirilən I Qars konfransında Qars, Axıska, Artvin və Batum vilayətləri birləşdirilərək "Milli Müsəlman (İslam) Şurası" qurulur [143]. Noyabrın 30-da keçirilən konfransda Araz-Türk Cümhuriyyəti ilə Milli Müsəlman (İslam) Şurası birləşərək Batumdan Ordubada qədər ərazidə "Qars Müsəlman Şurası" hökuməti yaradılır. Araz-Türk Cümhuriyyətinin hərbi naziri İbrahim bəy Cahangiroğlu şura rəisi seçilir [202, s. 69].

17-18 yanvar 1919-cu ildə III Qafqaz konfransı keçirilir. Həmin gecə qəbul edilən qərara əsasən sədr İbrahim bəy Cahangiroğlu olmaqla müvəqqəti Milli Cənubi-Qərbi Qafqaz hökuməti təşkil edilir. Axıska, Axılkələk, Ərdahan, Oltu, Kağızman, İqdır, Şavşat, Qəmərli, Naxçıvan, Ordubad, Qars, Batum bu hökumətin tərkibinə daxil idi. Yəni Milli Şuranın sərhədləri eyni ilə mühafizə edilirdi [197, s. 130].

Bu birləşməni əsas götürən bir sıra tədqiqatçılar Araz-Türk Cümhuriyyətinin mövcudluğunu 3 (18) noyabr 1918-30 noyabr 1918-ci il tarixləri ilə əlaqələndirir, 30 noyabr tarixini Araz-Türk Cümhuriyyətinin fəaliyyətinin son tarixi hesab edirlər. Lakin İ.Musayev, A.Hacıyev, İ.E.Atnurun da göstərdikləri kimi, bu birləşmə sırf formal səciyyə daşımış, sadəcə 1918-ci il dekabrın 1-də Qars Müsəlman Milli Şurası tərəfindən "Cənubi-Qərbi Qafqaz Cümhuriyyətinin (CQQC) yaranması haqqında" qərar-akt qəbul edilərkən onun ərazisi sayılan mahalların sırasında Naxçıvan və Şərur qəzalarının da adları çəkilmişdi". Araz-Türk Cümhuriyyəti Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti ilə paralel olaraq öz fəaliyyətini davam etdirmişdi. 1919-cu ilin yanvarında keçirilən böyük Qars konfransında (III konfrans) mərkəzi Qars olmaqla Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti elan edilir və hökumət rəisi yenə də İbrahim bəy Cahangiroğlu seçilir. Müstəqil daxili və xarici siyasət yeridən bu hökuməti 12 aprel 1919-cu ildə ingilislər süquta uğradır və İbrahim bəy Cahangiroğlu başda olmaqla 13 nəfər parlament üzvü Malta adasına sürgün edilir [225, s. 77].

Bəzi tədqiqatçılar Araz-Türk Cümhuriyyətinin fəaliyyətini 1919-cu ilin may-iyun ayına qədər davam etdiyini yazmışlar [96; 237]. Fikrimizcə, Araz-Türk Cümhuriyyətinin süqutu 1919-cu ilin mart ayına təsadüf edir. Bu barədə bir sıra faktlar vardır. 1919-cu ilin martın əvvəlində Araz-Türk hökuməti öz nümayəndələrini Bakıya göndərmişdi. O dövrün mətbu orqanlarında Araz-Türk Cümhuriyyətinin xüsusi missiyasının 1919-cu il martın 8-də Naxçıvandan Bakıya gəlməsi haqda məlumat verilir [226; 1919, 9 mart]. Araz-Türk hökuməti tərəfindən Azərbaycana – Bakıya göndərilmiş Paşa Bayramov Tiflisdə Bəhram xanla görüşmüşdür. Bəhram xan ona Araz-Türk hökumətinin yıxıldığını, yerində onun mənsub olduğu hökumətin qurulduğunu bildirmişdi. Həqiqətən də, ermənilər 1919-cu ilin yanvar-fevral aylarında Qəmərliyə hücum edərkən

keçmiş Araz-Türk Cümhuriyyəti öz-özünə dağıldı və Kalbalı xan Naxçıvan dəstəsi ilə Şərur əhalisinin köməyinə gedərək erməni silahlı dəstələrini darmadağın etdi. Bölgədə Cəfərqulu xanın, Kalbalı xanın və Kərim xan İrəvanlının daxil olduğu hökumət yarandı [30, v. 3]. Başqa bir arxiv materialı da bu faktı təsdiq edir: "Bütün bu hadisələrin nəticəsində Əmir bəy hökuməti süquta uğradı, Naxçıvanda Cəfərqulu xan, Kalbalı xan və Kərim xan başda olmaqla yeni hökumət təşkil edildi" [24, v. 9-10]. İrəvan quberniyası müsəlmanları həmyerlilər cəmiyyətinin nümayəndəsi M.Mirbağırov 1919-cu il 25 fevralda Naxçıvanda Kalbalı xanla görüşmüş və burada Araz-Türk Cümhuriyyətinin artıq dağıldığını söyləmişdi [58, v. 87]. Göstərilən fakt və nümunələr təsdiq edir ki, 1918-ci il 3 noyabrda yaradılan Araz-Türk Cümhuriyyəti 1919-cu ilin martında süquta uğramışdır.

Araz-Türk Cümhuriyyətinin qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq bölgənin taleyində mühüm rol oynamaqla, Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünü təmin etdi. O, Naxçıvan, Şərur, Ordubad və digər bölgələrin əhalisinin düşmənə qarşı mübarizə üçün birləşdirilməsində mühüm rol oynamaqla yanaşı, bölgənin ermənilər tərəfindən işğal edilməsinə imkan vermədi. Araz-Türk Cümhuriyyəti dövründə əldə edilmiş nailiyyətlər təkcə o dövr üçün yox, bütövlükdə bölgənin taleyi, bu günü və gələcəyi üçün də çox böyük əhəmiyyətə malikdir.

5. Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvan bölgəsi ilə əlaqəsi

Rusiyada çarizm devrildikdən sonra rus imperiyasının hər yerində olduğu kimi, Naxçıvan diyarında da ikihakimiyyətlilik yaranmışdı. Bir tərəfdən diyarda qəza komissiyaları və ictimai təşkilatların, kənd icraiyyə komitələrinin timsalında müvəqqəti hökumətin hakimiyyəti yaranmış, digər tərəfdən isə Naxçıvanda əlahiddə fəhlə və əsgər deputatları sovetləri, Culfa şəhəri və Şahtaxtı dəmir yolu stansiyasında əsgər sovetləri təşkil edilmişdi.

Mütləqiyyətin devrilməsi Cənubi Qafqazda siyasi prosesləri sürətləndirdi və sonrakı dövrdə hadisələrin inkişafına ciddi təkan verdi. Müvəqqəti hökumətin ilk addımlarından biri Cənubi Qafqazın idarə edilməsi ilə bağlı xüsusi qurum yaratmaqdan ibarət oldu. Bu məqsədlə martın 9-da (1917) Cənubi Qafqazı idarə etmək üçün Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı [106, s. 20]. Kadet V.Xarlanmovun rəhbərlik etdiyi komitənin tərkibinə gürcü menşeviki A.Çxenkeli, sosial-federalist K.Abaşidze, azərbaycanlı bitərəf M.Y.Cəfərov və erməni kadeti M.Papacanov daxil idilər. Xüsusi Zaqafqaziya Komitəsi yarandığı gündən bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycanda müvəqqəti hökumətin hakimiyyət orqanları olan ictimai təşkilatların icraiyyə komitələrini və komissarlıqlarını yaratdı.



Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının heyəti
(7 may 1919)

Müvəqqəti hökumət yerlərə Xüsusi Zaqafqaziya Komitəsinin nümayəndələrini təyin etməklə regionlarda öz təsirini saxlamağa və imperiyanı süqutdan qurtarmağa çalışırdı [140, s. 37]. Naxçıvan və Şərur qəzalarında Xüsusi Zaqafqaziya Komitəsinin vəkalətli komissarları 1917-ci il aprelin axırlarında təyin edildi. Xüsusi Zaqafqaziya Komitəsinin 26 aprel 1917-ci il tarixli qərarı ilə Bürhan bəy Maqsudov Naxçıvan qəzası üzrə müvəkkil təyin edildi [155, v. 15]. 1917-ci il sentyabrın 1-də onu Baxşəli ağa Şahtaxtinski əvəz etdi [155, v. 46]. 1917-ci ilin mayında Xüsusi Zaqafqaziya Komitəsinin müvəkkilləri Naxçıvanda yerli hakimiyyət orqanları – qəza və kənd ictimai təşkilatları icraiyyə komitələrinin təşkilinə başladılar. Sonrakı aylarda kənd ictimai təşkilatlarının icraiyyə və ərzaq komitələrinə seçkilər keçirildi. 1917-ci ilin yayında isə Naxçıvan diyarında müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının yaradılması başa çatdırıldı [128, s. 14-15].

Rusiyada Fevral inqilabının qələbəsi və mütləqiyyətin devrilməsi əsarət altına alınmış müstəmləkə xalqları arasında azadlıq əldə etmək ümidlərini artırdı və milli azadlıq hərəkatının genişlənməsinə səbəb oldu. Azərbaycan xalqı Fevral inqilabı xəbərini böyük sevinclə və ruh yüksəkliyi ilə qarşıladı. Fevral hadisələrindən sonra "Müsavat" partiyası açıq fəaliyyətə başladı. Gəncədə "Federalistlər" partiyası, İrəvanda "İrşad" milli partiyası təsis edildi.

Fevral inqilabından sonra Naxçıvan, Culfa və Ordubad şəhərlərində əhalinin milli tərkibinə uyğun olaraq "Qarışıq milli komitələr" yarandı. Milli komitələr milli hərəkatın qarşısında duran vəzifələri müəyyən edən tələblər ha-

zırlamaqla yanaşı, şəhər dumaları və digər təşkilatlarla birgə Naxçıvan diyarında yerli hakimiyyət orqanlarının möhkəmləndirilməsinə də kömək edirdilər. Eyni zamanda, milli komitələrin silahlı qüvvələrinin yaradılmasına başlandı. Milli komitələrdə təmsil olunan başlıca partiyalar – müsavatçılar və daşnaklar öz qüvvələrinin sayını artırmaq məqsədilə yerlərə təşkilatçılarını göndərdilər. Əlbəttə, ilk vaxtlar belə tədbirlər, daha çox demokratik vasitələrə riayət etməklə həyata keçirilmişdi. Naxçıvan diyarında azərbaycanlıların əhalinin böyük əksəriyyətini təşkil etməsi onların qarışıq milli komitələrdə də təmsil olunmasında özünü göstərirdi. Belə vəziyyət daşnakların xeyrinə olmadığından onlar müxtəlif fitnəkar tədbirlərə əl atır, milli düşmənçiliyi qızışdırırdılar. Bu isə, təbii olaraq müsavatçıların və daşnakların qarışıq milli komitələrdə birgə fəaliyyət göstərməsini getdikcə çətinləşdirirdi. Milli Komitələrin "milli hissələr" bayrağı altında öz silahlı qüvvələrini yaratması erməni fitnəkarlarının təhlükəli mövqe tutmasına şərait yaradırdı. Lakin Naxçıvan Milli Komitəsində müsavatçıların mövqeyinin güclənməsi, onların başçılığı ilə silahlı qüvvələrin yaradılması dinc əhalinin daşnakların fitnəkar hərəkətlərindən qorunmasında böyük rol oynadı. Hadisələrin sonrakı inkişafı bunu bir daha təsdiqlədi. Qeyd etmək lazımdır ki, Naxçıvanda fəaliyyət göstərən sovetlər daha çox rus ordu hissələrinə arxalanırdılar. Məsələn, 1917-ci il martın 9-da Naxçıvanda ştabs-kapitan Prokopoviçin təşəbbüsü ilə yaradılan qarnizon komitəsi fəaliyyətinin ilk günlərində qarnizon rəisi Qrippenberqi vəzifəsindən kənar etmiş, Tiflis qarnizonu Sovetinin İcraiyyə Komitəsi ilə əlaqə yaratmağa çalışmışdı. Martın ortalarında Şahtaxtı Soveti 6-cı Qafqaz fəhlə batalyonunun polkovniki Vişkonu həbs etmişdi.

İlk vaxtlar Sovetlərin fəaliyyətində yerli əhali, demək olar ki, iştirak etməmişdi. Bu hal təsadüfi deyildi. Çünki rus qoşun hissələri Naxçıvandan çəkildikdən sonra Sovetlərin fəaliyyəti xeyli zəifləmiş və onlar Naxçıvan Milli Komitələri tərəfindən dağıdılmışdı.

Oktyabr çevrilişindən sonra bolşeviklər Bakı Sovetində hakimiyyəti ələ almağa müvəffəq olsalar da, Azərbaycanın digər bölgələrində hakimiyyətə yiyələnmək yolunda maneələrlə üzləşdilər. Müvəqqəti hökumətin devrilməsi ilə Fevral inqilabından sonra Cənubi Qafqazı idarə etmək üçün yaradılan Xüsusi Zaqafqaziya Komitəsinin də fəaliyyəti sona çatdı. Xüsusi Zaqafqaziya Komitəsinin təşəbbüsü ilə regionu idarə etmək üçün noyabrın 15-də (28-də) Zaqafqaziya Komissarlığı yaradıldı. Gürcü menşeviki E.Gegeçkorinin rəhbərlik etdiyi hökumətdə azərbaycanlı M.Y.Cəfərov, X.Məlikaslanov, X.Xasməmmədov müxtəlif vəzifələr tutdular [66, s. 318].

Zaqafqaziya Komissarlığı Rusiya ilə əlaqələrini kəsməmişdi və özünü "Böyük Rus Dövləti"nin bir hissəsi hesab edirdi. Komissarlığın bəyannaməsinə görə, yeni iqtidar Ümumrusiya Müəssisələr Məclisinin çağırılmasına qədər

hakimiyyətdə olacaqdı.

1917-ci il noyabrın 26-da Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Müəssisələr Məclisinə seçkilər keçirildi. Gürcü menşevikləri 11, Müsavat 10, Daşnaksütyun 9, Müsəlman Sosialist Bloku 2, Bolşeviklər, Eserlər, Hümmət və İttihad isə hərəsi bir mandat qazandılar [114, s. 72-73].

1918-ci il yanvarın 18-də Petroqradda Müəssisələr Məclisi toplandı. Müəssisələrin bolşeviklərə qarşı olduğu anlaşıldığından onun fəaliyyəti dayandırıldı. Demokratik Rusiya uğrunda mübarizə aparan bütün siyasi qüvvələrin, o cümlədən Zaqafqaziya Komissarlığının ümidləri boşa çıxdı. Regionda heç bir nüfuzu və kifayət qədər güclü hakimiyyəti olmayan Zaqafqaziya Komissarlığı özünü buraxmaq məcburiyyətində qaldı.

1918-ci il fevralın 23-də Cənubi Qafqazdan Ümumrusiya Müəssisələr Məclisinə seçilmiş nümayəndələrin yığıncağında Zaqafqaziya Seyminin yaradılması və bölgədə yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi. E.Gegeçkori başda olmaqla Zaqafqaziya hökuməti təşkil edildi. Zaqafqaziya Seymində Müəssisələr Məclisinə seçilmiş nümayəndələrin sayı bərabər şəkildə üç dəfə artırıldı. Nəticədə menşeviklər 33, Müsavat və bitərəf demokratik qrup 30, daşnaklar 27, Müsəlman Sosialist Bloku 7, eserlər 5, hümmətçilər 4, ittihadçılar isə 3 yer əldə etdilər [186, s. 152].

Zaqafqaziya Seymi məcburiyyət qarşısında meydana gəlmişdi. Seymə daxil olan gürcülər, azərbaycanlılar və ermənilər öz milli maraqlarına uyğun fəaliyyət göstərirdi. Hər üç millətin milli maraqları çox zaman bir-biri ilə toqquşurdu. Zaqafqaziya Seyminin gerçəklikdən uzaq bir birlik olduğu göz qabağında idi.

Zaqafqaziya Seymi osmanlılarla qarşıdurmaya getdiyi vaxtda azərbaycanlılar bunu qəbul etmirdi. 1918-ci ilin əvvəllərində Naxçıvan ciddi təhlükəyə məruz qaldı. Türklərə qarşı mübarizə aparmaq pərdəsi altında daşnakların silahlı dəstələri Naxçıvanın bir çox kəndlərini yerlə yeksan etmiş, çoxlu dinc əhalini qırmışdılar. Təqribən bir il ərzində erməni cəlladları İrəvan quberniyasında 197 kəndi talan etmişdilər [17, v. 7].

Cənubi Qafqazda müstəqil dövlətlərin yaradılması uğrunda fəaliyyətin güclənməsi Naxçıvan Milli Komitəsindəki ziddiyyətləri daha da dərinləşdirdi və nəticədə müsavatçılarla birgə fəaliyyət imkanları aradan qalxdı. Naxçıvanın növbəti daşnak hücumlarından etibarlı müdafiəsi yalnız güclü hərbi qüvvəyə arxalanmaqla təmin oluna bilərdi. Naxçıvan əhalisinin təhlükəsizliyinə heç bir təminat vermək iqtidarında olmayan Zaqafqaziya Seymi Cəfərqulu xanın belə hərəkətlərindən narazı qalmış və bunu Naxçıvan xanlarının Zaqafqaziya Seymini və Rusiyanı tanımaq istəməməsi kimi qiymətləndirmişdi [181, s. 15].


Daşnakların mənfur niyyətlərinə yaxşı bələd olan türk komandanlığı hələ

1918-ci ilin fevralında Naxçıvanın təhlükəsizliyi naminə bir sıra tədbirlər görmüş və öz qoşunlarını şərq istiqamətində xeyli irəli çəkmişdi. Bu əməliyyatın vacibliyi həm də bundan irəli gəlirdi ki, o zaman Şimali İrandakı ingilis ordusu Türkiyə sərhədlərinə xeyli yaxınlaşaraq onun həyati mənafeyi üçün real təhlükə yaratmışdı. Türk komandanlığı Zaqafqaziya Komissarlığı nümayəndələri ilə danışıqlarda ingilislərə qarşı fəal döyüş əməliyyatları keçirmək məqsədilə, həmçinin, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının, eləcə də Culfa-Aleksandropol dəmir yolu xəttinin onların nəzarəti altına keçməsi zəruriliyini qeyd etdilər. Belə təqdirdə, Naxçıvan diyarının da daşnakların yeni basqınlarından qorunması üçün real təminat əldə olunardı. Zaqafqaziya Komissarlığı hələ 1917-ci il dekabrın 18-də 3-cü türk ordusunun komandanı Mehmed Vehib paşa ilə barışıq bağlasa da, türklərin yuxarıda qeyd etdiyimiz tələblərini qəbul etmədi. Bununla belə, türklərin Zaqafqaziya Komissarlığı ilə müstəqil surətdə danışıqlara başlamaq təklifi qəbul olunmuşdu. Bu təklif mahiyyət etibarı ilə Cənubi Qafqazı Rusiyadan ayırmaq yolunda ciddi addım sayıla bilərdi. Danışıqlar 1918-ci ilin martın 14-də Trabzon şəhərində başlandı. Həmin il aprelin 22-də Zaqafqaziya Seyminin "Zaqafqaziyanı müstəqil demokratik, federativ dövlət elan etməsi" [186, s. 92] ilə Cənubi Qafqazın Rusiyadan ayrılması rəsmi qaydada təsbit edildi. May ayında Türkiyə ilə danışıqlarda heç bir irəliləyişin olmaması və mayın 19-da danışıqların kəsilməsi 1918-ci il mayın 26-28-də Cənubi Qafqazda üç müstəqil respublikanın – Gürcüstan, Azərbaycan və Ermənistan (Ararat) respublikalarının yaranması ilə nəticələndi.

1918-ci ilin mayın 28-də müsəlman şərqində ilk dəfə yaradılmış yeni suveren dövlət – Azərbaycan Xalq Cümhuriyyəti çətin və mürəkkəb şəraitdə 23 ay fəaliyyət göstərdi. Bu Cümhuriyyət Rusiya ilə yanaşı, dünyanın böyük dövlətlərinin – ABŞ, İngiltərə və Fransanın siyasi, iqtisadi siyasətlərinin məngənəsində mübarizə aparmalı oldu, öz suverenliyini qoruyub saxlamaq üçün bütün vasitələrə əl atdı, bu yolda çox mürəkkəb problemlərlə üzləşdi. Bu dövlətlərin təzyiqi altında 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurası Azərbaycan – Ermənistan arasındakı sərhəd problemini müzakirə edərkən öz suverenliyini qoruyub saxlamaq naminə İrəvanın ermənilərə verilməsi qərarını çıxarmağa məcbur oldu və bu qərarı ürək ağrısı ilə "tarixi zərurət", "labüd bəla" hesab etdi [39, v. 51].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu ölkələr Azərbaycana qarşı bir sıra ərazi iddiaları irəli sürürdü. Bu zaman onun ərazisi 113.895, 97 km^2 idi. Onun 97.296,67 km^2-i mübahisəsiz, 16.598,30 km^2-i mübahisəli zonaları əhatə edirdi [66, s. 161]. Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparır, bütün imkanlardan istifadə edir, taleyüklü məsələlərin həllinə çalışırdı.

Azərbaycan tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti, Antanta ölkələri ilə əlaqələri, qonşu ölkələrlə münasibətləri,



Culfa şəhəri. Dəmiryol vağzalı,1900-cü il



Mübahisəli ərazilər

28.V.1918 Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması

28 may 1918-ci ildə Azərbaycan Milli Şurası Azərbaycanın müstəqilliyini elan etdi. Bununla bütün şərqdə və türk dünyasında ilk demokratik respublika yarandı. Azərbaycan Milli Şurası öz üzərinə icra və qanunvericilik səlahiyyətləri götürdü.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının birinci sədri Fətəli xan Xoyski təyin edildi. Azərbaycan hökuməti səlahiyyətli dövlət strukturu yaratdı. Azərbaycan-türk dili dövlət dili elan edildi, dövlət bayrağı təsdiq edildi və yeni yaradılan azərbaycan ordusuna çağırışın elan edilməsi haqqında qərar qəbul olundu.

18 noyabr 1918-ci ildə Azərbaycan Milli Şurası özünü Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti elan etdi. Ə.M.Topçubaşov Parlamentin sədri seçildi.

Cümhuriyyətin ərazisi müəyyən edilərkən qarşıya böyük çətinliklər çıxdı. Ən ağır ərazi problemi Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sərhədlərin müəyyənləşdirilməsi idi. Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan Respublikası Azərbaycanın Naxçıvan, Şərur - Dərələyəz qəzalarına və Dağlıq Qarabağa iddialar irəli sürdü. Eyni zamanda Azərbaycana məxsus olan Zəngəzur ərazisini də özünə birləşdirməyə çalışırdı. Gürcüstan Respublikası Zaqatala dairəsinə iddialar qaldırırdı. Azərbaycan hökuməti öz qanuni torpağı olan Borçalı qəzasının Gürcüstan Respublikasının tərkibinə daxil olmasını qəbul etməkdən imtina edirdi. Azərbaycan həmçinin Cənubi Dağıstan (Tabasaran) ərazisinə də haqlı iddia irəli sürürdü.

Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər)

daxili regionlarla əlaqələrin inkişaf etdirilməsi kimi məsələlər tədqiqata cəlb edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın əlaqələrindən tədqiqat əsərlərində bəhs edilsə də, problemin bütün tərəfləri öyrənilməmişdir. Hətta bu problemlə bağlı müxtəlif fikirlər mövcuddur. Azərbaycan sovet tarixşünaslığında

belə bir fikri əsaslandırmağa çalışmışlar ki, guya Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ayrı-ayrı bölgələrin ərazi toxunulmazlığını və onların əhalisinin təhlükəsizliyini nəinki təmin edə bilməmiş, hətta buna cəhdlər belə göstərməmişdir. Lakin arxiv sənədləri, obyektiv araşdırmalar bu mövqeyin həqiqətə uyğun olmadığını göstərir. Azərbaycan Xalq Cümhuriyyətinin "rəhbərliyi və yerli hakimiyyət orqanları imkanları daxilində bu problemlərə diqqət yetirmiş, torpaqlarımızın bütövlüyü və suverenlik məsələlərində daxili-xarici düşmən qüvvələrə qarşı barışmaz mövqe tutmuşlar" [140, s. 142]. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti və parlamenti öz fəaliyyətində, daxili və xarici siyasətində Naxçıvanla bağlı bir sıra məsələlərə diqqət yetirmiş, bölgənin ermənilər tərəfindən tutulmasına imkan verməmiş və ona siyasi, hərbi, maddi və mənəvi köməkliyini göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə əlaqədar Naxçıvan ətrafında yeni konkret tarixi şəraitdə sosial və ictimai-siyasi qüvvələrin yeni nisbəti yaranmışdı. Cümhuriyyətin fəaliyyət göstərdiyi dövrdə baş vermiş sosial və siyasi proseslər bir-biri ilə çox sıx əlaqəli inkişaf edirdi. Bu proseslər daxili və xarici amillərin mürəkkəb qarşılıqlı təsirini əks etdirən bir mənzərə yaratmışdı. Çar Rusiyası bir sıra Azərbaycan torpaqlarını, xüsusilə Naxçıvan diyarını Ermənistana vermək uğrunda açıq və gizli mübarizə aparırdı. Naxçıvana yiyələnmək uğrunda böyük kapitalist dövlətlərinin arasında da mübarizə gedirdi. Naxçıvan diyarına 1828-30-cu illərdə köçürülmüş və orada məskunlaşmış erməni əhalisi diyarda vəziyyətin daha da mürəkkəbləşməsinə çalışırdı. Naxçıvandakı ermənilərə, xarici silahlı qüvvələrə arxalanan Ermənistan Respublikası Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətlərini daha da genişləndirirdi. ABŞ, İngiltərə, Fransa, Rusiya... dövlətləri Ermənistan Respublikasına hərtərəfli yardım göstərirdilər. Naxçıvan ermənilərini diyarın təklənməsindən, daxildəki ziddiyyətlərdən, habelə hakimiyyətsizlikdən istifadə edərək Naxçıvanın ən yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə şayiələr yayır, bu yerlərin Ermənistanın bir hissəsi olduğunu iddia edirdilər. Erməni qüvvələri vəziyyətin mürəkkəbliyindən, qarışıqlıqdan istifadə edərək "Böyük Ermənistan" yaratmaq üçün ərazi iddiaları irəli sürürdü. Ermənistan Respublikasının Naxçıvana hücumları, hakimiyyət çəkişmələri bu diyarı daha da çıxılmaz vəziyyətə salmışdı. Əhalinin xeyli hissəsi qaçqına çevrilmişdi, aclıq hökm sürürdü. Naxçıvana köçürülmüş ermənilər burada qatma-qarışıqlıq yaradır və fitnəkarlıq törədirdilər. Digər tərəfdən isə Andranik Ozanyanın silahlı dəstələri Naxçıvana basqınlar edir, şəhər və kəndləri talan edir, dinc əhalini kütləvi surətdə qırırdı.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Naxçıvan diyarının əhalisi Azərbaycanla birləşməyə hazır olduğunu bildirsə də, mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin arzusunu həyata keçirməyə imkan vermirdi. Belə ağır vəziyyətdə Naxçıvan Milli Komitəsi haqlı olaraq türklərlə əlaqəni daha da genişləndirməyi lazım bilirdi. Həmin vaxtda türklər Naxçıvana doğru irəliləyirdilər.

Naxçıvan əhalisi daşnaklara layiqli cavab vermək üçün, torpaqlarının müdafiəsi üçün ayağa qalxdı, xalq qoşun dəstələri yaradıldı. Xalq qoşunu 1918-ci il iyunun axırlarında Nehrəm kəndi yaxınlığında Andranikin quldur dəstəsini məğlub etdi. Andranikin dəstəsi rüsvayçılıqla Qarabağ dağlarına qaçmağa məcbur oldu.

Birinci Dünya müharibəsində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü və sabit yerli hakimiyyətin yaradılmasına meyl göstərirdi. Türkiyə 1918-ci ilin noyabrın ilk günündə qoşunlarını Naxçıvandan çıxarmağa məcbur oldu. Yerli əhali 1918-ci ilin noyabrın 3-də Araz-Türk Cümhuriyyətinin müvəqqəti müstəqilliyini elan etdi. Bu cümhuriyyət bir tərəfdən erməni iddialarını dəf etməyə, digər tərəfdən isə diyarın bütün əhalisinin həm din, həm də dil cəhətdən can atdığı Azərbaycanla birləşməni hazırlamağa cəhd edirdi [96, s. 47]. Araz-Türk Cümhuriyyətinin silahlı qüvvələrinin köməyi ilə yerli əhalinin fəal müqaviməti nəticəsində Ermənistanın daşnak hökumətinin Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı. Naxçıvan əhalisi bölgənin Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inadla mübarizə aparırdı. Onlar 1919-cu il yanvarın 4-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə ünvanlanmış müraciətdə Naxçıvan, Şərur və Ordubad ərazilərində ermənilərin törətdikləri vəhşiliklər haqqında geniş məlumat verirdi. Müraciətdə deyilirdi: "1917-ci ilin dekabr ayından başlayaraq 1918-ci ilin iyun ayına qədər erməni hərbi hissələri tərəfindən İrəvan quberniyasında 200-ə qədər müsəlman kəndi yandırılmış, əhalinin böyük əksəriyyəti öldürülmüş, bir hissəsi isə dağlara qaçaraq aclıqdan və soyuqdan məhv olmuşdur. Müsəlmanların kütləvi şəkildə yaşadıqları İrəvan quberniyasının Sürməli, Üçmüəzzin, Şərur qəzaları erməni qoşunları tərəfindən tutulmağa başladığı vaxt dinc müsəlman əhalisinin bir hissəsi öldürülmüş, bir hissəsi də öz yaşayış yerlərini tərk edərək dağlara çəkilib İran sərhədlərinə keçməyə məcbur olmuşdular ki, burada onları hər dəqiqə ölüm gözləyirdi. Məcburi təmizlənmiş yerlərə, "Türkiyə Ermənistanı"ndan qaçmış erməniləri yerləşdirirlər" [28, v. 9].



Mir Hidayət bəy Seyidov yoldaşı Şövkət xanım Kazımbəyova ilə

1918-ci il dekabrın 22-də Ordubad şəhərinin və ətraf ərazilərdəki müsəlmanların Milli Komitəsinin sədri Mir Hidayət Seyidzadə Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinə xəbər verirdi ki, "bəzi kəndlərdə bütün Zəngəzur qəzasının Ermənistana birləşməsi barədə Ermənistan hökumətinin elanları asılmışdır. Onların məqsədi bundan ibarətdir. Əgər bunu etməyə gücləri çatmasa, Zəngəzur, Şərur, Naxçıvan və Ordubad qəzalarının bütün müsəlman əhalisini qılıncdan keçirsinlər, bu qəzaları müsəlmanlardan

təmizləsinlər ki, xalqların gələcək sülh konfransında özlərinin bu yerlərə sahiblik hüquqlarını sübut etsinlər və həmin əraziləri Ermənistan elan etsinlər, çünki bütün xalqlar müsəlmanların yaşamadığı qəzaları ermənilərinki hesab edəcəklər... Nə vaxta qədər bizim hökumət öz müsəlman qardaşlarının qırılaraq məhv edilməsinə yabançı kimi soyuqqanlılıqla tamaşa edəcəkdir... Əgər ermənilər bu əraziləri müsəlmanlardan təmizləsələr, sonra gec olacaq. Onda bizim torpaqlarda ermənilər məskunlaşacaq və burada bizim xalqımızın izi də qalmayacaq..." [15, 1919, 14 yanvar].

Naxçıvanda baş verən hadisələrə diqqət yetirən Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və hökuməti Naxçıvandakı vəziyyəti dəfələrlə müzakirə etmişdi [13, s. 246]. 1919-cu il yanvarın 7-də Azərbaycan hökuməti Ermənistan hökumətinə nota göndərdi. Notada Azərbaycan xalqına qarşı zorakılığa son qoyulması tələb olunurdu [15, 1919, 7 yanvar]. Yanvarın 8-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti vəziyyəti müzakirə etdi, qəbul olunmuş qətnamədə hökumətə ciddi tədbirlər görməyi tapşırdı [1, s. 153-154]. Yanvarın 25-də Parlament "İrəvan quberniyasındakı hadisələrə dair" məsələni yenidən müzakirə etdi. M.Ə.Rəsulzadə bəyanatla çıxış edərək bildirdi ki, Naxçıvan qəzasında ermənilər günahsız müsəlmanların qanını tökür. O, hökuməti bir daha kəskin tədbirlər görməyə çağırdı [1, s. 155].



Məmməd Əmin Rəsulzadə (Müsavat Partiyası MK sədri, parlamentdə Müsavat Fraksiyasının lideri)

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti erməni daşnaklarının Naxçıvanda törətdikləri vəhşiliklərə son qoymaq üçün Müttəfiqlərin Qafqazdakı Ali Komissarına müraciət etdi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və hökuməti ilə Naxçıvan bölgəsinin əlaqələrinin yaradılması və genişləndirilməsində, əhalinin problemlərinin həllində İrəvan quberniyasından olan ictimai xadimlərin, ziyalıların, onların yaratdıqları müxtəlif təşkilatların mühüm rolu olmuşdur. 1919-cu il yanvarın 2-də İrəvan quberniyası ictimai xadimlərinin müşavirəsi keçirilmiş, burada Araz-Türk Cümhuriyyətinin yaranması, bölgədəki vəziyyət haqqında məlumat verilmiş və çıxış yolları göstərilmişdir. Yanvarın 5-də Bakıda İrəvan quberniyasında yaşayan azərbaycanlı nümayəndələrin fövqəladə iclası keçirilmiş və quberniya müsəlmanlarının həmyerlilər cəmiyyəti yaradılmışdı [23, v. 2]. Bir gün sonra həmyerlilər cəmiyyətinin aşağıdakı tərkibdə idarə heyəti seçilmişdi: T.Makinski, H.Qasımov, R.İsmayılov, M.Ə.Sidqi, Ə.Makinski.

Həmyerlilər cəmiyyəti öz nümayəndəsi kimi Mirabbas Mirbağırovu (Mirbağırzadəni) İrəvan quberniyasına göndərdi. Burada əsas məqsəd yerlərdə

vəziyyətlə tanış olmaq və müəyyən tövsiyələr hazırlamaq idi. M.Mirbağırov və onunla olan heyət ingilis general-qubernatoru, yerli hökumətin rəhbərləri və xalqın nümayəndələri ilə görüşür, yerlərdə vəziyyətlə tanış olurdular. Mirabbas Mirbağırov 1919-cu ildə Naxçıvanın Azərbaycana birləşməsi haqqında akt hazırlamışdır. O, "Mirbağırzadə missiyası"nın başçısı kimi xatırlanır [189, 2005, 19 fevral].



Səməd bəy Cəmillinski. 1919. Naxçıvanın general-qubernatoru

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti İrəvan qaçqınlarına, Naxçıvana xeyli vəsait ayırdı, poçt-teleqraf işi qaydaya salındı, neft məhsulları ilə təmin edilməsinə diqqət artırıldı. Azərbaycan hökuməti M.Mirbağırovun və Naxçıvanın Müvəqqəti hökumətinin işlər müdiri B.Naxçıvanskinin təklifləri əsasında 1919-cu il fevralın 28-də Naxçıvan general-qubernatorluğunu yaratdı [25, v. 2]. Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski və Hacı Mehdi Bağırov onun köməkçiləri təyin olundular. General-qubernatorluğun nəzdində Şura yaradıldı. Yerli hakimiyyətin təşkili və qoşun hissələrinin saxlanılması üçün 500 min manat pul ayrıldı [140, s. 96]. Hökumətin 1919-cu il 28 fevral və 30 mart tarixli sərəncamları ilə bölgədə idarəçiliyin təşkili üçün daha 1 milyon manat ayrıldı [140, s. 96]. Martın 16-da B.Naxçıvanski öz ərizəsinə əsasən general-qubernator vəzifəsindən azad olundu. Onun yerinə Haşımbəyov təyin edildi [25, v. 2]. O, Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin sərəncamına çağırıldıqdan sonra isə Səməd bəy Cəmillinski Naxçıvan general-qubernatoru təyin olundu [13, s. 248]. Siyasi şəraitin mürəkkəbliyi, ilk növbədə isə Ermənistan daşnak hökumətinin fitnəkar hərəkətləri üzündən yüksək vəzifəli şəxslərin Naxçıvana gələrək vaxtında öz vəzifələrinin icrasına başlaya bilməmələri general-qubernatorluğun işində ciddi çətinliklər yaratmışdı. Bütün bunlara baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti general-qubernatorluğun fəaliyyətinin bir an da olsun dayanmasına yol verməmişdi. Naxçıvan general-qubernatorluğu bölgənin erməni təcavüzündən müdafiəsində, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə əlaqə yaradılmasında və möhkəmləndirilməsində mühüm rol oynamışdı.

1919-cu il martın 8-də Araz-Türk Cümhuriyyətinin B.Naxçıvanskinin rəhbərlik etdiyi xüsusi nümayəndə heyəti Bakıya gəldi. B.Naxçıvanskinin Bakı səfərindən və Azərbaycan Xalq Cümhuriyyəti rəhbərləri ilə danışıqlarından sonra iki cümhuriyyət arasında qarşılıqlı əlaqələrin fəallaşmasına zəmin yarandı. Nümayəndə heyətinin qaldırdığı məsələlər Azərbaycan Parlamentinin 1919-cu il 10 mart tarixli iclasında müzakirə olundu.

Birinci Dünya müharibəsinin nəticəsi olaraq Cənubi Qafqaz İngiltərənin təsir dairəsinə daxil edildi. İngilis qoşunları 1918-ci ilin noyabrında Bakıya, 1919-cu ilin yanvarında Naxçıvana gəldi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvan bölgəsinə dair suveren hüquqlarının bərqərar edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi ingilislər tərəfindən müdafiə olunmur və müxtəlif maneələrlə qarşılaşırdı [140, s. 129]. Böyük Britaniya komandanlığının Naxçıvana münasibətdə ikiüzlü, riyakar siyasəti həmişə müşahidə olunmuşdu. İngilislərin Naxçıvan bölgəsində olduqları müddətdə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi bu əraziyə dair öz suveren hüquqlarını müdafiə etmək, bölgənin təhlükəsizliyinin təminatına yardım göstərmək və azərbaycanlı əhalisinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almaq, ən başlıcası isə diyarı Azərbaycanın digər torpaqları ilə birləşdirmək zərurətini həyata keçirmək istəyirdi. Bir sıra hallarda ingilislər bunlara mane olurdu. İrəvan quberniyası müsəlman əhalisinə 1 mln. manat vəsait çatdırılması üçün F.Xoyski 1919-cu il aprelin 3-də məktubla Tomsona müraciət etdi. Həm də hökumət komissiyasının Naxçıvan, Şərur və s. qəzalara getməsinə şərait yaradılmasını da xahiş etdi. Lakin hər iki xahişə mənfi cavab verildi. İngilislər bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanının hakimiyyətinə verilməsi təklifini irəli sürürdü [237, s. 59].



Fətəli xan Xoyski (I,II,III hökumət kabinetlərində Baş nazir)

Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi Naxçıvanla bağlı hərbi səciyyəli işlər görə bilməsə də, bəzi diplomatik-siyasi yollardan istifadə edirdi. Bu sahədə Azərbaycan hökumətinin İrəvan və Tiflisdəki diplomatik nümayəndələri səmərəli və işgüzar fəaliyyət göstərir, Azərbaycan rəhbərliyini və Xarici İşlər Nazirliyini obyektiv məlumatlarla təmin edir, bir sıra hallarda təkliflərini də çatdırırdılar. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinskinin fikrincə əhalinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Şərur və Naxçıvanı ermənilərə vermək olmazdı. Naxçıvan bölgəsində ermənilərin özbaşınalıqlarının qarşısının alınmasında da M.Təkinskinin böyük əməyi olmuşdur [180, 2010, 18 iyul]. Bu-



Məhəmməd xan Təkinski

nunla əlaqədar F.Xoyski Azərbaycan hökumətinin məlum mövqeyini Tomsona bildirmişdi. Yəni Naxçıvan rayonunun idarəsi müvəqqəti olaraq Ermənistana verilərsə, onlar bu aktla heç vəchlə razılaşmayacaqlar.

Naxçıvan bölgəsinin müsəlmanları özlərini Azərbaycanın ayrılmaz hissəsi sayır və hökumətdən silah-sursat alacaqlarına ümid edirdilər. Bu dövrdə Şərur-Naxçıvan hissəsində süvari dəstə və top, pulemyotlarla birlikdə 6 minədək qoşun hissələri olmuşdur [140, s.143]. Bunlar öz döyüş keyfiyyətlərinə görə ermənilərinkindən heç də geri qalmırdı. Naxçıvanlılar Azərbaycan hökumətindən buraya zabit kadrları göndərməyi və 100 min manat pul buraxılmasını xahiş etmişlər [44, v. 30]. Azərbaycan hökuməti Naxçıvan, Şərur, Ordubad rayonları üçün Naxçıvan Milli Şurasına 400 min manat göndərmişdi və daha 300 min manat göndərilməsi nəzərdə tutulmuşdu [140, s. 149].

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədrləri olmuş F.Xoyski və N.Yusifbəyli imkanları daxilində Naxçıvanın Azərbaycanın ərazisi kimi qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi köməklik etmiş və qəhrəman naxçıvanlıların fəaliyyətlərini də yüksək qiymətləndirmişlər. F.Xoyski parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün öz həyatları və ailələri ilə risk edərək mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında qeyd etmişdi ki, Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi [226, 1919, 10 sentyabr]. 1919-cu il dekabrın 22-də N.Yusifbəyli parlamentdəki çıxışında yenidən bu məsələyə qayıdaraq demişdi: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var dövlətlərini riskə qoyaraq doğma torpağa – vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar..." [28, v. 4-5].

Göründüyü kimi, Naxçıvan əhalisi ciddi-cəhdlə Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqə yaratmağa çalışmış, onunla birləşmək üçün müxtəlif yol və vasitələr aramışdı. Bütün bunlar isə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən razılıqla qəbul olunmuş, müəyyən tədbirlər görülmüşdü.

Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanla əlaqələrin çətinliyini nəzərə alaraq Qarabağ general-qubernatorunun Naxçıvan bölgəsinin idarəsi üzrə köməkçisi fəaliyyət göstərirdi [27, v. 13]. Bir qədər sonra isə Qarabağ general-qubernatorluğu nəzdində Naxçıvan bölgəsinə dair xüsusi tapşırıqlar üzrə müvəkkillik vəzifəsi yaradıldı [140, s. 159].

1919-cu ilin ikinci yarısında Zaqafqaziya məsələləri üzrə Paris sülh konfransı adından çıxış edən ABŞ-ın rolu artdı. ABŞ nümayəndəsinin Azərbaycana

dair planlarında Naxçıvan mühüm yer tuturdu. Amerikalıların mövqeyinə görə Naxçıvan və Şərur-Dərələyəz qəzalarını əhatə edən rayonlar "bitərəf zona" elan edilməli və burada bütün idarəçilik işləri Amerika general-qubernatorluğuna tapşırılmalıdır [221, s. 300-301]. ABŞ-ın bu siyasəti Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və Naxçıvan Milli Komitəsi tərəfindən qəbul edilmədi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti, Naxçıvan Milli Komitəsi və Naxçıvan əhalisinin inadlı müqaviməti nəticəsində amerikalılar Naxçıvanda general-qubernatorluq yarada bilmədilər, onların məqsədləri baş tutmadı.

1920-ci ilin əvvəlində Azərbaycan Xalq Cümhuriyyətinin özündə siyasi böhranın dərinləşməsi Naxçıvana hərbi yardım göstərilməsini çətinləşdirdi. Erməni daşnaklarının üstün qüvvələri qarşısında tək və zəif qalmış Naxçıvan rəhbərliyi kömək üçün osmanlılara müraciət etməli oldu. Belə cəhd öz növbəsində Naxçıvanda Azərbaycanın mövqeyini xeyli zəiflətdi. Təsadüfi deyil ki, 1920-ci ilin fevralında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin nümayəndələri Naxçıvanı tərk etməyə məcbur oldu. Naxçıvanda hərbi-siyasi vəziyyət xeyli mürəkkəbləşdi, ancaq Naxçıvan əhalisinin misilsiz qəhrəmanlığı sayəsində Şərur, Ordubad, Naxçıvan torpaqları 1920-ci ilin ortalarına doğru tamamilə erməni daşnaklarından təmizləndi. Kalbalı xan və onun tərəfdarlarının səyləri nəticəsində Naxçıvan bölgəsi qorunub saxlanıldı.

Naxçıvandakı Amerika general-qubernatorluğu 1920-ci ilin martında faktiki olaraq ləğv edildi. O günlərdə Naxçıvan, Şərur, Ordubad və Vedibasar rayonu nümayəndələrinin iclası "qəti olaraq Azərbaycan Xalq Cümhuriyyətinə birləşmək" cəhdini ifadə edirdi, yəni diyarın Azərbaycan tərkibində olmasının formallığı regionun bütün əhalisi tərəfindən hiss edilirdi [96, s. 116].

Beləliklə, aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökuməti hərbi-siyasi vasitələrdən istifadə edərək ölkənin ərazi bütövlüyünü qorumağa çalışmış, Naxçıvanın ermənilər tərəfindən işğal edilməsinə yol verməmiş və bu istiqamətdə ingilislər və amerikalılarla diplomatik danışıqlar aparmış, eyni zamanda, Naxçıvana hərbi və maddi köməkliklər göstərmişdir. Lakin bütün bunlarla yanaşı, özlərinin çətin ictimai-siyasi və hərbi vəziyyətlə qarşılaşdıqlarından bir sıra hallarda məqsədlərinə tam nail ola bilməmişlər. Bölgə əhalisinin igidliyi və qəhrəmanlığı sayəsində Naxçıvan diyarı Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmışdır.

6. Xarici dövlətlərin Naxçıvanla bağlı siyasətləri

Birinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə yeni bir dövr başlandı. Dünyanın aparıcı dövlətləri olan ABŞ, İngiltərə, Fransa, Türkiyə və Almaniyanın Cənubi Qafqazla bağlı siyasi yanaşmalarında mühüm geosiyasi bölgə rolunu oynayan Naxçıvan, hadisələrin gündəmində əsas məsələlərdən

birinə çevrilmişdi. ABŞ və İngiltərənin təhlükəli, avantürist siyasi oyunlarına məruz qalan köməksiz Naxçıvanın çar Rusiyasının devrilməsindən Moskva və Qars müqavilələrinədək hərbi-siyasi istinadgahı və qarantı ancaq Türkiyə oldu. Qafqaza aid məsələlərin həllində müəyyən marağı olan Türkiyə müxtəlif dövlətlərin dəstəklədikləri ermənilərin Azərbaycan torpaqlarına təcavüz etməsinə biganə qala bilməzdi. Belə mövqe əsasən, aşağıdakı amillərlə şərtlənirdi:

a) bəzi dövlətlərin ermənіləri müdafiə adı altında və onların vasitəsilə Cənubi Qafqazda möhkəmlənmək məqsədləri, bununla bərabər Osmanlı imperiyası üçün bilavasitə müəyyən təhlükə yaratmaları;

b) ermənilərin Türkiyə və Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq niyyətləri;

c) Azərbaycanın türk-müsəlman əhalisinin məqsədyönlü soyqırımı siyasətinə məruz qalması, siyasi-hərbi köməyə kəskin ehtiyac duyması və s.

Qeyd etmək lazımdır ki, Türkiyənin Azərbaycana siyasi-hərbi dayaq olması, ilk növbədə isə Naxçıvan, Zəngəzur və Qarabağ bölgələrinə silahlı yardım göstərməsi işi Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra daha da fəallaşdı [140, s. 73 -76]. Beynəlxalq durumun belə ağır olmasına baxmayaraq Osmanlı Türkiyəsi Azərbaycanın, xüsusilə də Naxçıvanın tarixi taleyinə biganə qalmadı, obyektiv mövqe tutdu.

Ümumiyyətlə, Batum konfransında Azərbaycanın ərazi məsələləri müzakirə edilərkən Naxçıvanla bağlı bütün diplomatik danışıqlarda Türkiyə güzəştə getmirdi. İkitərəfli danışıqların gedişində Almaniya ilə Türkiyə arasında Qafqaz respublikalarını nüfuz dairəsinə salmaq uğrunda gərgin mübarizə başlandı. Bu mübarizənin gedişində gürcülər almanların, azərbaycanlılar isə türklərin tərəfdarı olduqlarını nümayiş etdirdilər. Ermənilər köməksiz vəziyyətdə olub tərəddüd edirdilər. Qısa tərəddüddən sonra İstanbulda olan erməni nümayəndələri güclü türkofil təbliğata başladı. Bununla onlar özlərinin Türkiyənin "pərəstişkarı" olduqlarını sübuta yetirməyə cəhd göstərirdilər. İstanbulda olan Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Ə.Rəsulzadə iyulun 19-da Xarici İşlər naziri M.H.Hacınskiyə göndərdiyi məktubda yazırdı ki, ermənilər türkofil təbliğatla öz yerlərini bir az bizim, bir az da türklərin hesabına genişləndirmək fikrindədirlər. Onların Ənvər paşaya təqdim etdikləri ərazi tələbləri də bunu sübut edir. Erməni layihəsinə görə Sürməli, Naxçıvan, Ordubad, Axalkələk, Üçmüəzzin, İrəvan (qəzası), Borçalı, Qazax, Qarabağ və Zəngəzur qəzaları Ermənistana verilməli idi. Erməni nümayəndələri bu tələblərini onunla əsaslandırırdılar ki, guya bu qəzaların əhalisinin 70 faizi ermənilərdir. Ermənilərin İstanbul konfransının müzakirəsinə təqdim etmək istədikləri belə şişirdilmiş ərazi iddiaları onların real vəziyyətinə uyğun deyildi. Məsələn, ermənilərin iddia etdikləri Qarayazı mahalında əhalinin 89 faizini müsəlmanlar, 11 faizini isə ruslar və digər millətlərin nü-

mayəndələri təşkil edirdi. Ermənilərin daha çox tələb etdikləri Zəngəzur qəzasına gəldikdə isə burada 123095 nəfər müsəlman, 99257 nəfər ermənin yaşadığı qeydə alınmışdı. Rusiya Federasiyası Xarici İşlər Komissarlığının sənədlərinə görə, ermənilərin iddia etdikləri Şərur-Dərələyəz qəzasında 90250 nəfər əhalinin 67,5 faizini müsəlmanlar təşkil edirdi. 131142 nəfər əhalisi olan Naxçıvanda bu rəqəm 62,5 faiz, 104791 nəfər əhalisi olan Sürməli qəzasında isə 70 faiz civarında idi. İstanbulda olan Azərbaycan nümayəndələri respublikanın hüdudları barədə hazırladıqları sənədi Türkiyə və Almaniya nümayəndələrinə təqdim etmişdilər. Sənəddə Azərbaycan Respublikasına daxil olan ərazilər və onun sərhədləri göstərilirdi. Bura Bakı quberniyası (Bakı şəhəri də daxil olmaqla Bakı qəzası, Cavad, Göyçay, Şamaxı, Quba, Lənkəran qəzaları), Gəncə quberniyası (Gəncə, Cavanşir, Şəki, Ərəş, Qarabağ, Cəbrayıl, Zəngəzur, Qazax qəzaları), İrəvan quberniyası (Naxçıvan, Şərur-Dərələyəz, Yeni Bəyazid qəzaları), Tiflis quberniyası (Borçalı, Sığnax qəzaları və Tiflis qəzasının bir hissəsi) və Zaqatala sancaqlığı daxil idi. Azərbaycan nümayəndələrinin təqdim etdikləri layihə və tərtib etdikləri xəritə əsasında Borçalı qəzası vasitəsi ilə Türkiyə və Azərbaycan arasında koridor açılması nəzərdə tutulurdu [106, s. 94-96]. Batum konfransının 11 may 1918-ci ildə keçirilən ilk və son iclasında Xəlil bəyin başçılıq etdiyi türk heyəti bir neçə yeni ərazi ilə birgə Naxçıvanı da tələb edirdi.

Zaqafqaziya hökumətinin sülh istəyi qarşılığında türk heyətinin bu tələblərinin hüquqi əsası var idi [9, s. 32-33]. Batum müqaviləsinin 4-cü maddəsi Türkiyənin Azərbaycana siyasi-hərbi yardımı baxımından çox böyük əhəmiyyət kəsb edir. Orada yazılırdı ki, əgər ölkədə asayişi və onun təhlükəsizliyini təmin etməyə ehtiyac olarsa, Osmanlı imperatorluğu hökuməti Azərbaycan hökumətinə silahlı qüvvə ilə yardım göstərməyi öz öhdəsinə götürür. 3-cü maddədə də Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrinin ərazi mənsubiyyətinin obyektiv olaraq həll olunması baxımından təmin edilmiş olurdu [140, s. 77-78].

Naxçıvan öz coğrafi əhəmiyyətinə görə daim Türkiyənin xarici siyasətində önəmli yer tutmuşdur. Dörd ölkənin qovuşuğunda yerləşən Naxçıvan diyarı çox böyük strateji və siyasi əhəmiyyət kəsb etmişdir. Türkiyə Azərbaycanda qısa müddət ərzində baş verən bir-birilə çox kəskin təzad təşkil edən ictimai quruluş və siyasi sistem dəyişikliklərinə baxmayaraq, onun ərazi bütövlüyünün təmin olunmasına hərbi-siyasi yardım göstərərək "Naxçıvan türk qapısıdır" (Atatürk) və Naxçıvanla Zəngəzurun Anadolu ilə Azərbaycanı birləşdirən strateji koridor rolunu oynaması mövqeyinə üstünlük verirdi.


Rusiya və İran isə həmin bölgələr də daxil olmaqla bütün Quzey Azərbaycanın yenidən ələ keçirilməsinə çalışır və buna özlərinin "tarixi torpaqlarının geri qaytarılması kimi" yanaşırdılar. Naxçıvan və Zəngəzurun strateji əhəmiyyətini nəzərə alan Qərb dövlətləri, ilk növbədə isə Böyük Britaniya

və ABŞ həmin bölgələrdə nüfuz sahibi olmağa çalışırdılar. Bunun üçün də nəyin bahasına olursa olsun, Naxçıvanı ermənilərin idarəsi altına vermək istəyirdilər. O dövrdə bütün millətlərin siyasi taleyini həll edən və Versal konfransında kiçik millətlərin, milli-azadlıq hərəkatlarının siyasi nəticəsi kimi yaranan yeni milli müstəqilliklərin gerçəkləşdirilməsi və ən başlıcası, Osmanlı Türkiyəsinin Cənubi Qafqaza yönəlik haqlarının bərabər surətdə qorunmasından danışan böyük dövlətlər təəssüf ki, daha çox ermənilərə siyasi və hərbi dəstək verirdilər. Ermənilər də bu böyük güclərin dəstəyinə arxalanaraq Naxçıvan və çevrəsini işğal etməyə çalışırdılar.

Bütövlükdə Güney Qafqazı, xüsusilə də Şimali Azərbaycanı özlərinin nüfuz dairəsinə keçirməyə, Rusiya və Türkiyəni buradan sıxışdırmağa çalışan Qərb dövlətləri, ilk növbədə isə İngiltərə və ABŞ bu dövrdə yaranmış yerli şəraitdən istifadə edərək, Naxçıvan və Zəngəzur bölgələrində təsirlərini artırmağa cəhdlər göstərirdilər. Bu cəhdlər ermənilərin həmin bölgələri ələ keçirmək niyyətləri ilə üst-üstə düşdüyündən onlar bir-birlərindən qarşılıqlı surətdə fayda-lanmağa çalışırdılar.

Birinci Dünya müharibəsi başa çatdıqdan sonra bölgələrdə möhkəmlənmək sahəsində ilk təşəbbüsü ingilislər ələ aldı və müxtəlif vasitələrlə ermənilərdən istifadə etməyə başladılar. Yeri gəlmişkən, bu dövrdə Ermənistanı dəstəkləyən Böyük Britaniya hökumətinin ermənilərə münasibəti bir mənalı olmamışdı. Bunu öz hökumətinin 1918-ci il dekabrın 9-da keçirilən iclasında "Ermənistan Fransaya verilməlidir, çünki başqa heç kəs bu qeyri-adi dərəcədə qeyri-cazibədar insanlarla nə isə etmək istəmir" söyləyən İngiltərənin Xarici İşlər naziri Kerzonun, həm də "dünya müharibəsi başlandıqdan sonra əlahəzrət hökumətinin başlıca məqsədi ermənilərin azad edilməsidir" deməsindən də görmək olar.

Böyük Britaniya hökuməti hərbi kabinəsinin L.Corcun iştirakı ilə keçirilən iclasında (12 dekabr 1918-ci il) Cənubi Qafqaz haqqında məsələnin müzakirəsi zamanı Baş nazirin regiona geniş miqdarda silahlı qüvvələr göndərilməsinin zəruriliyinə və onların burada saxlanmalarına şübhə ilə yanaşdığı aşkarlandı. Lakin buna baxmayaraq, 1919-cu ilin yanvarında Naxçıvan bölgəsinə çox az miqdarda ingilis hərbi qüvvələri gətirildi [140, s. 104]. Bu zaman ingilisləri düşündürən və onları Naxçıvana gəlməyə sövq edən erməni mühacirləri məsələsi idi. İngilislər istəyirdilər ki, Gorusa yığışmış minədək ermənini Naxçıvanda yerləşdirsinlər. Bölgə səlahiyyətlilərindən mənfi cavab alan və Zəngəzurdakı erməni mühacirlərə bir milyon manat pul yardımı gətirən ingilis nümayəndəsi Vilyam Hibbon Naxçıvana gələrək bölgədəki vəziyyətin ingilis ali koman-danlığının qərargahında aydınlaşdırılmasınadək ermənilərə və azərbaycanlılara tutduqları mövqelərdə dayanmaq haqqında əmr verdi [4, s. 148-149]. 1919-cu il yanvarın əvvəllərində iki nəfər ingilis zabiti Tiflisdən Naxçıvana gəldi.



Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən rus,ingilis, erməni-daşnak silahlı qüvvələrinin hücumuna məruz qaldı. Müdaxiləçilərin hər biri ayrı-ayrılıqda öz mənafeyi uğrunda mübarizə aparırdı.

Qızıl ordu və S.Şaumyanın başçılığı altında olan qoşunlar Azərbaycanın Rusiyaya birləşdirilməsi planının yerinə yetirilməsi məqsədilə Gəncəyə doğru hərəkət edirdilər. Gəncə bu zaman müstəqil Azərbaycan hökumətinin paytaxtı idi.

İngilis ordusu Azərbaycana keçməyə və Bakını zəbt etməyə cəhd edirdi. Şəhər əvvəlcə türk ordusu tərəfindən azad olunmuş, sonra ingilislər tərəfindən işğal edilmişdir.

Nəticədə işğalçı rus ordusunun döyüş əməliyyatları və təzyiqi nəticəsində Azərbaycanın milli hökuməti istefa verdi.

28 aprel 1920-ci ildə Azərbaycanın şimalında sovet hakimiyyəti elan olundu. Xalqa divan tutuldu.

Azərbaycanda sovet hakimiyyəti 1991-ci iləDək davam etdi. 18 oktyabr 1991-ci ildə Azərbaycanın müstəqilliyi yenidən bərpa olundu.

Naxçıvan Azərbaycana qarşı xarici-hərbi müdaxilə dövründə. Azərbaycan SSR-in yaradılması (1918-1920-ci illər)

Onlardan biri – Lauten yerlərdəki vəziyyətlə tanış olduqdan sonra tərəflər arasında barışıq yaratmaq üçün yanvarın 21-də müəyyən təkliflərlə çıxış etdi:

a) münaqişənin qəti həlli və sərhədlərin müəyyənləşdirilməsinədək bu

ərazilərin əhalisi ingilis komissiyası tərəfindən idarə olunacaqdır;

b) qoşunlar əvvəlki yerlərində – müsəlmanların silahlı qüvvələri Arazdəyən stansiyası və Sədərəkdə, erməni hərbi hissələri isə Arazboyu Yaycıda dayanacaqlar;

c) İrəvan-Culfa dəmiryolu təcili açılmalı, tərəflər arasında sərbəst hərəkət və ticarət təmin olunmalıdır;

ç) Arazdəyən-Culfa rayonlarındakı müsəlman gözətçilər arasında ingilis əsgərləri də durmalıdırlar və s. [140, s. 107].

Lautenin bölgədəki vəziyyət barədə Tiflisə-ingilis ali hərbi komandanlığının qərargahına ünvanladığı teleqramın müqabilində 1919-cu il fevralın 1-də Arazdəyən stansiyasına oradan rəsmi sənəd daxil oldu. Sənəddə deyilirdi ki, bütün Naxçıvan rayonu ingilis general-qubernatorluğu elan olunur, polkovnik Lauten başçı təyin edilir və ona əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən qonşu rayonları da öz general-qubernatorluğuna birləşdirmək hüququ verilir. Bu barədə də rəsmi olaraq polkovnik Kalbalı xan Naxçıvanskiyə, İ.Məmmədova və erməni hücumlarının iştirakçıları general Pirumova, polkovnik Qarakeşişova bildirildi. Lauten bir müddət sonra Naxçıvan bölgəsinin rəhbərlərinə və Ermənistan hökumətinin başçılarına bu məzmunda bir direktiv göndərdi: "Araz vadisinin rayonları qanunçuluq və qayda yaratmaq üçün müvəqqəti olaraq Britaniya hökumətinin idarəsinə götürülür. Britaniya qoşunlarının dəstələri Dəvəlidə, Naxçıvanda, Culfada və Şahtaxtıda duracaqlar. Göstərilən ərazinin bütün məsələləri Britaniya hökuməti tərəfindən həll ediləcəkdir və hamı onun qərarlarına sözsüz tabe olmalıdır" [140, s. 108].

Araz-Türk hökumətinə qarşı yaxşı münasibət bəsləməyən ingilislər bölgənin sonrakı taleyi haqqında daşnak hökuməti ilə danışıqlar aparır və eyni zamanda, Cəfərqulu xanla yaxınlaşırdılar. Mayor Hibbon öz gəlişinin səbəbini Əmir bəyə qaçqınlar məsələsini həll etmək kimi elan etdi, lakin həqiqətdə onun gəlişinin əsas məqsədi iqtisadi və siyasi vəziyyətlə tanış olmaq, türklərin Araz-Türk Cümhuriyyətinin hökumətinə təsir dərəcəsini aydınlaşdırmaq idi [96, s. 52]. Naxçıvan bölgəsində idarəçiliyi ələ alan ingilislər Araz-Türk Cümhuriyyətini və Naxçıvan Milli Komitəsini ləğv etdilər [145, s. 120].

Naxçıvanda ingilis valiliyinin qurulması ermənilərə fürsət qapılarını açdı və onlar ingilislərdən daha çox istifadə etməyə çalışırdılar. Bu dövrdən etibarən ermənilər Naxçıvana rəsmi işçilərini göndərməyi, Ermənistan Dövlət Bankının bir şöbəsini açmağı və yerli liderlərə 2 milyon manat verməyi nəzərdə tuturdu. Ancaq Naxçıvan hökuməti onlara belə bir fürsəti vermədi və ümumi bir sülh yaranmadan Ermənistan ilə əlaqələrə girmək istəmədi [194, s. 75]. Ümumiyyətlə, ingilislərin Naxçıvan diyarında möhkəmlənmək xəttinin həyata keçirilməsi müddəti (1919-cu ilin yanvar - iyul ayları) şərti olaraq kiçik mərhələlərlə müəyyən olunur və burada general-qubernatorluğun elan olunması birinci mərhələni təşkil edir. 1919-cu il fevralın 8-i ilə mayın 3-ü arasındakı vaxtda (bu ikinci mərhələdir) Naxçıvan bölgəsinin əhalisi ingilis zabitləri Lauten, sonra isə Simpsonun general-qubernatorluğu

şəraitində yaşadı. Naxçıvan Müsəlman Milli Şurasının rəsmi hesabatında da qeyd olunur ki, bu müddətdə diyarın əhalisi, demək olar ki, əslində özü-özünü idarə etdi, sakit və sərbəst şəkildə, Paris Sülh konfransının xeyirlə sona yetəcəyi ümidi ilə fəaliyyət göstərdi, İranla, İrəvanla, Tiflislə ticarət əlaqələri genişləndi, hətta erməni qaçqınlarının qayıtmalarına razılıq bildirildi [140, s. 109].

İngilislər hər vəchlə Naxçıvanı Ermənistanın hakimiyyəti altına salmaq istəyirdilər. Naxçıvan general-qubernatorluğu müəyyən səbəblərdən geniş və məqsəd-yönlü fəaliyyət göstərə bilmədiyindən ingilislər bu siyasi boşluqdan istifadə etməyə çalışırdılar. Naxçıvana gələn ingilis generalı E.Devi Naxçıvan və Şərur qəzalarının erməni hakimiyyətinə tabe olmalarının zəruri olduğunu bəyan etdi [194, s. 74]. Bu məqsədi həyata keçirmək üçün ingilislər öz hərbi hissələrini Noraşen, Şahtaxtı, Naxçıvan, Culfa dəmiryol stansiyasında və Şərur-Dərələyəz şose yolunda yerləşdirmişdilər. General E.Devinin irəli sürdüyü bu təklifin hərtərəfli təhlilindən sonra şəhərin nüfuzlu adamlarından Hacı Həsənli mitinqdə şəhər əhalisi adından çıxış edib demişdir ki, onlar daşnak hakimiyyətinə tabe olmayacaqlar [192, s. 78].

1919-cu il mayın 5-də F.Xoyski general Tomsonla görüşərək onun nəzər-diqqətini Naxçıvan bölgəsinin ermənilər tərəfindən tutula bilməsi məsələsinə və özünün vaxtilə ingilis komandanlığına göndərdiyi notalarda ifadə olunan etirazlara, müvafiq mülahizələrə yönəltdi. F.Xoyski Azərbaycan hökumətinin məlum mövqeyini bir daha təkrarlayaraq Naxçıvan əhalisinin əsasən azərbaycanlılardan ibarət olmasını, onların bu aktla əsla razılaşmayacaqlarını, belə halın isə asayişin müxtəlif formalarda pozulmasına gətirib çıxaracağını bir daha xatırlatdı. Sonra isə o, bölgəyə dair çıxarılan bu qərarın qeyri-obyektiv və ədalətsiz səciyyə daşıdığını söylədi, buna görə də ingilis komandanlığının onu yenidən nəzərdən keçirməli olduğunu bildirdi. Tomson gətirilən dəlillərlə razılaşdığını və bu məsələlər üzərində ciddi düşünəcəyini vəd etdi [141, s. 123].

İngilislərdən sonra Cənub Qafqaz üzərində mandata sahib olan Amerika nümayəndələri Naxçıvana gəldilər. V.Haskelin Ermənistana müttəfiqlərin Ali Komissarı təyin edilməsi Türkiyə ilə yanaşı, Azərbaycan Respublikasının da Amerikanın Qafqaz siyasətinə cəlb edilməsinə təsir göstərdi. Yaranmış vəziyyətdən istifadə edərək ermənilər indi də ABŞ vasitəsilə Azərbaycana olan ərazi iddialarını həll etmək istəyirdilər. Avqustun ortalarında daşnak parlamentində çıxış edən V.Haskel ermənilərin ərazi iddialarını müdafiə etdiyini bildirmişdi. Ermənilər bu dəfə Qarabağ və Zəngəzur məsələlərini deyil, Naxçıvan və Şərur-Dərələyəz məsələlərini həll etmək istəyirdilər. V.Haskel öz çıxışında qeyd edirdi ki, Azərbaycan hökumətinin başçıları bu qəzalarla bağlı ermənilərin iddialarını qəbul etməzsə, onda onlar bu məsələyə "şəxsi məsuliyyət daşıyacaqlar". Polkovnik V.Haskelin əməkdaşlarından biri kimi polkovnik Ceymis Pey Ali Komissarın Azərbaycan üzrə müvəkkili təyin edilmişdi. Eyni zamanda Tiflisdə olan Amerika konsulluğunun əməkdaşı Con Randolf da vitse-konsul kimi Bakıya göndərilmişdi.

Polkovnik V.Haskel bir müddət İrəvanda qaldıqdan sonra avqustun 28-də Bakıya gəldi. Baş nazir N.Yusifbəyli, Xarici İşlər naziri M.Y.Cəfərov və Nazirlər Kabinəsinin digər üzvləri ilə çoxsaylı görüşlər keçirdi. Ermənistanın maraqlarını özündə ehtiva edən ərazi məsələləri ilə bağlı V.Haskel öz planını sentyabrın 1-də elan etdi. Bu plana görə, Amerika Ali Komissarı Qarabağı və Zəngəzuru Azərbaycanın ayrılmaz hissəsi hesab edirdi. Bunun müqabilində V.Haskel təklif edirdi ki, İrəvan quberniyasının cənub hissəsində olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarında neytral zona yaradılmalıdır. Həmin neytral zona Batumda olan ingilis general-qubernatorluğuna bənzər olmalı idi. Naxçıvan və Şərur-Dərələyəz torpaqlarından ibarət olacağı nəzərdə tutulan general-qubernatorluğun Amerika nümayəndəsi tərəfindən idarə olunması planlaşdırılırdı. Əlbəttə, bu planda həm amerikalıların və həm də ermənilərin öz niyyətləri var idi. Amerikalılar hələ nə qədər ki, Qafqaza istədikləri qədər ordu çıxara bilmirdilər, strateji baxımdan əlverişli olan Naxçıvan və Şərur-Dərələyəz general-qubernatorluğunu yaradıb, orada möhkəmlənmək niyyətində idilər. Birinci Dünya müharibəsindən sonra Naxçıvan və Şərur-Dərələyəzin strateji mövqeyi təcridçilikdən geniş beynəlxalq əlaqələrə doğru ilk addımlarını atan Amerika üçün çox cəlbedici idi. Buradan gələcəkdə, nəinki Azərbaycana, Ermənistana, İran və Türkiyəyə, eləcə də bütün Yaxın və Orta Şərqə çox asanlıqla nüfuz etmək olardı. Ermənilərə gəldikdə isə, daşnak hökuməti hələ 1918-ci ilin noyabrında türk qoşunları Azərbaycandan çıxdıqdan sonra Naxçıvan və Şərur-Dərələyəz, Üçmüəzzin qəzalarını, Qars vilayətini müsəlman əhalisindən təmizləyib, qeyd edilən ərazilərdə Ermənistan hökumətinin hakimiyyətini bərqərar etmək istəyirdi. Lakin bu yerlərin müsəlman əhalisinin güclü müqaviməti bu planın həyata keçməsinə mane olmuşdu. Hətta ingilis komandanlığı müvəqqəti olaraq, Naxçıvanın idarəçiliyini Ermənistana versə də, qəzanın əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri olduğu üçün daşnak hökuməti bu qərarı həyata keçirə bilməmişdi. 1919-cu ilin mayında keçmiş Xarici İşlər naziri Xan Xoyski Tiflisdə general Tomsonla görüşdükdə, müttəfiqlərin baş komandanlığı tərəfindən Naxçıvanın idarəçiliyinin müvəqqəti olaraq Ermənistan hökumətinə verilməsinə öz kəskin etirazını bildirmiş və Naxçıvan, Ordubad, Şərur-Dərələyəzin qədim Azərbaycan torpaqları olduğunu bildirmişdi. İndi silah gücünə öz hakimiyyətini qura bilməyən Ermənistan hökuməti, Amerika layihəsi üzrə bu ərazilərdə neytral zona yaradılmasına çalışırdı. Şübhəsiz ki, Amerika nümayəndəsinin idarə edəcəyi Naxçıvan və Şərur-Dərələyəz general-qubernatorluğu gələcəkdə bu ərazilərin Ermənistana keçməsi üçün əlverişli şərait yaratmalı idi. Düzdür, Azərbaycan hökumət başçıları ilə söhbətində Vilyam Haskel inandırmağa çalışırdı ki, o, "ermənilərin vəkili deyildir", lakin onun Azərbaycan hökumətinə Naxçıvan və Şərur-Dərələyəzlə bağlı təqdim etdiyi layihə bu ərazilərin gələcəkdə Ermənistana verilməsini asanlaşdırmağa xidmət edirdi. Türklər Qafqazdan çıxdıqdan sonra Qars və Batum vilayətləri Tiflis qu-

berniyasının Axalsıx və Axalkələk qəzaları ilə birlikdə mərkəzi Qars olmaqla Cənubi Qərbi Qafqaz Respublikası yaratdılar. 1919-cu ilin yanvarında yaradılmış Parlamentə Çıldırlı Esad bəy, hökumətə isə Cahangiroğlu İbrahim bəy başçılıq edirdi. Qısa müddətdə ingilis valisi Temperley, Azərbaycan Respublikası və Türkiyə Cənub-Qərbi Qafqaz Respublikasını tanımışdı. Qonşu dövlətlərin təcavüzünə məruz qalan Cənub-Qərbi Qafqaz Respublikası özünü müdafiə etmək üçün 8 min nəfərlik ordu yaratmışdı. 40 min kvadrat kilometr ərazisi, 1.763.148 nəfər əhalisi olan müstəqil Türk Respublikası altı aya qədər ömür sürdü. Millətlərin öz hüququnu təyinetmə prinsipinə əməl edilməklə yaradılmış Cənub-Qərbi Qafqaz Respublikası 1919-cu ilin aprel ayında müttəfiqlərin baş komandanı general Tomsonun dekreti ilə buraxılmışdı.



Əlimərdan bəy Topçubaşov (AXC parlamentinin sədri)

V.Haskel layihəsinə keçməzdən əvvəl qeyd etmək lazımdır ki, Azərbaycanın Versal Sülh konfransında olan nümayəndələri də Ermənistan hökumətinin qədim Azərbaycan torpaqları olan Naxçıvan və Şərur-Dərələyəzi, Qafqazda olan Cənub-Qərbi Qafqaz Türk Respublikasını özünə birləşdirmək niyyətlərinə, daşnakların bu ərazilərdə törətdiyi zorakılıq aktlarına qarşı mübarizə aparırdılar. Bu barədə Ə.M.Topçubaşov avqustun 19-da Sülh konfransının sədrinə xüsusi etiraz notası təqdim etmişdi. Notada göstərilirdi ki, Azərbaycan nümayəndə heyəti respublikanın müstəqilliyini tanımaq barədə Sülh konfransı qarşısında çıxış edəcəyi günü səbirsizliklə gözlədiyi halda, bizim ölkəmizdə mühüm hadisələr baş verir, Sülh konfransının səlahiyyətinə aid olan məsələlərə müdaxilə edilir, Qafqaz Azərbaycanının ərazisi zor gücünə dəyişdirilir, əhalisi öz yurdundan didərgin salınır. Azərbaycan sülh nümayəndə heyəti öz ölkəsindən rəsmi məlumat almışdır ki, Qars vilayəti, İrəvan quberniyasının Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları və İrəvan qəzasının bir hissəsi Ermənistan Respublikasına birləşdirilmişdir. Etiraz notasında xatırladılırdı ki, bütün bu ərazilər saziş bağlanana qədər türk ordusunun əlində olmuşdur. Ə.M.Topçubaşovun notasında qeyd olunurdu ki, parlamentin və hökumətin başçısı 11 nazirlə birlikdə ingilislər tərəfindən həbs edilmiş və Malta adasına sürgün edilmişdilər. Halbuki ingilis komandanlığı Azərbaycan Xarici İşlər naziri Xan Xoyskiyə vəd vermişdi ki, Cənub-Qərbi Qafqaz Respublikasını Paris Sülh konfransında bu ərazinin taleyi həll edilənə qədər qoruyub saxlayacaqdır. İngilislərdən sonra, aprelin 30-da guya qaçqınları yerləşdirmək adı altında Qarsa ermənilər, az sonra isə gürcülər daxil oldu. Qarsın işğal edilməsinə qarşı və orada törədilən cinayətlərə görə, Azərbaycan Respublikası Gürcüstan və Ermənistan Respublikalarına, Qafqazdakı ingilis or-

dusunun komandanlığına öz kəskin etirazını bildirdi. Versal Sülh konfransının sədrinə təqdim edilmiş notada Azərbaycan nümayəndələri yazırdılar: "Qars vilayətinin belə acı taleyinə Azərbaycan Respublikası adicə seyrçi kimi biganə yanaşa bilməz və yanaşılmamalıdır". Notada xatırladılırdı ki, Qarsın əhalisinin 60 faizi müsəlman olmaqla yanaşı, azərbaycanlılarla bir kökdən olan xalqdır. Ermənilər isə vilayət əhalisinin cəmisi 23,4 faizini təşkil edirdi. Ermənilər qaçqınları qaytarmaq adı altında Qarsda milli tərkibi öz xeyirlərinə dəyişmək istəyirdilər.

Etiraz notasının ikinci hissəsi Naxçıvan və Şərur-Dərələyəz hadisələrindən bəhs edirdi. Burada göstərilirdi ki, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli və İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsi ilə Azərbaycan hökuməti barışmayacaqdır. Etiraz notasında müttəfiq ölkələrin rəhbərlərinə bildirilirdi ki, Versalda olan Azərbaycan nümayəndələri Azərbaycan hökumətinin Naxçıvan qəzası ilə bağlı müttəfiqlərin komandanlığına təqdim etdiyi etiraz notasını müdafiə edir. Paris Sülh konfransına məlumat verilirdi ki, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli və İrəvan qəzasının bir hissəsinin Ermənistanın idarəçiliyinə verilməsi açıq şəkildə Azərbaycan Respublikasının hüquqlarının pozulması deməkdir. Belə bir aktın qəbul edilməsinin regionda daimi münaqişə ocağının yaradılmasına gətirib çıxaracağı böyük dövlətlərin nümayəndələrinə xəbərdarlıq edilirdi. Notada qeyd edilirdi ki, göstərilən ərazilərdə əhalinin milli tərkibi haqqında rəqəmlərin nəzərdən keçirilməsi bu əraziləri Azərbaycan torpaqları hesab etmək üçün kifayətdir. Müttəfiqlərin Versalda olan nümayəndələrinə bildirilirdi ki, Naxçıvan qəzasında 62,5 faiz azərbaycanlı, 36,7 faiz erməni, Şərur-Dərələyəzdə 72,3 faiz azərbaycanlı, 27,1 faiz erməni, Sürməlidə 68 faiz azərbaycanlı, 30,4 faiz erməni, İrəvan qəzasında 60,2 faiz azərbaycanlı, 37,4 faiz erməni yaşayır. Sonuncu qəza ilə bağlı qeyd etmək lazımdır ki, gətirilən rəqəmlər bütün qəza üzrə əhalinin nisbətini əks etdirir. Lakin bu qəzanın mübahisə obyekti olan Vedibasar və Milistanda əhalinin 90 faizi azərbaycanlılar idi. Əslində əhalinin belə nisbəti Rusiya Qafqaza nüfuz etdikdən və qonşu dövlətlərdən ermənilər İrəvan və Naxçıvan vilayətlərinə köçürdükdən sonra yaranmışdı. Halbuki, Rusiya Qafqaza gələnə qədər İrəvan vilayətində 49 875 nəfər müsəlman, 20 073 nəfər erməni, Naxçıvan vilayətində isə 17 138 nəfər müsəlman, cəmisi 2690 nəfər erməni yaşayırdı. Bu qəzaların əhalisi 1918-ci ildə təşkil etdikləri müsəlman Milli Şurası vasitəsi ilə kəndbəkənd Azərbaycan Respublikasının idarəçiliyinə keçmək barədə qərar qəbul edib, Azərbaycan hökumətinə göndərmişdilər. Ermənistan hökuməti statistik məlumatları öz xeyrinə dəyişmək üçün etnik təmizləmə, deportasiya və yerli əhalinin məhv edilməsi üsullarına da tez-tez əl atırdı. Cənubi Qafqazda sovetləşmə prosesi başlananda qırmızı ordunun komandirləri olan Todorski və Sviridov sovetlərin Qafqaz canişini Q.K.Orconikidzeyə yazırdılar: "Araz çayı boyunca Uluxanlı stansiyasından Naxçıvana qədər əhalisi müsəlmanlardan ibarət olan, Arazın bol

taxıl anbarı sayılan Şərur rayonu indi meyitlərin çürüdüyü ölüm vadisini xatırladır. Şərurun bütün əhalisinin bir hissəsi 1919-1920-ci illərdə Ermənistan Respublikasının hökumət ordusu tərəfindən məhv edildi, qalanı isə Türkiyəyə qovuldu, əmlakları indi Njdenin malikanəsini mühafizə edən mauzeristlər tərəfindən talan edildi. Bəşəriyyət hələ belə vəhşilikləri görməyib".

Qeyd edilən ərazilərin əhalisinin, əsasən, müsəlmanlardan ibarət olduğu 1918-ci ilin dekabrında Qafqazda olan Fransa missiyasının hazırlayıb Parisə göndərdiyi geniş hesabatda da təsdiq edilir. Bölgədə baş verən qanlı hadisələri nəzərə alaraq, Paris sülh konfransına təqdim olunan etiraz notasının axırında Sülh konfransından xahiş edilirdi ki, Qafqazda olan müttəfiq komandanlığı vasitəsi ilə iki mühüm məsələ həll edilsin: 1. Qars vilayətinin hüdudlarından müttəfiq qoşunlarından başqa bütün hərbi qüvvələr çıxarılsın, bu ərazinin taleyi həll ediləna qədər, onun idarəçiliyi yerli əhalinin arzusuna uyğun təşkil edilsin. 2. Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının və İrəvan qəzasının bir hissəsinin idarəçiliyi Azərbaycan Respublikasının əlində saxlanılsın. Azərbaycan nümayəndələri etiraz notasını Sülh konfransına təqdim etməklə yanaşı, müttəfiqlərin Parisdə olan bütün nümayəndələrinə də verdilər. Bu etiraz notasından sonra Qarsda baş vermiş hadisələrlə maraqlanan və Qafqaza Ali Komissar göndərilən Oliver Uordrop vasitəsilə faktları dəqiqləşdirən lord Kerzon Qars hadisələrində Ermənistan hökumətini günahlandırmışdı. Bununla bağlı Parisdə olan erməni nümayəndə heyətinin başçısı A.Ağaronyan Ermənistan Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda məsləhət verirdi ki, təcili şəkildə Tiflisdə olan O.Uordropla görüşsünlər. Ermənilər lord Kerzonun belə mövqe tutmasına biganə qalmadılar. Daşnak A.Saqatelyan Ermənistan Xarici İşlər Nazirliyinin "İnformasiya bülleteni"ndə nəşr olunmuş "Antanta, bolşevizm və müsəlmançılıq" məqaləsində izah edirdi ki, guya, lord Kerzonun ermənilərə qarşı müsəlmanpərəst mövqe tutması vaxtilə onun Hindistanın vitse-kralı olması ilə bağlıdır. Hətta ermənilər Kerzonun Əfqanıstan siyasətini də onun "müsəlmanpərəstliyi" ilə əlaqələndirməyə çalışırdılar.

Müttəfiq komandanlığının qeyd edilən ərazilərlə bağlı ermənipərəst mövqeyinə baxmayaraq, bu qəzaların əhalisi Ermənistan hökumətinə tabe olmadı. Daşnak hökumətinin öz hakimiyyətini silah gücünə yaymaq cəhdləri xeyli müsəlman kəndlərinin boşaldılması ilə nəticələnsə də, bütövlükdə bu siyasət iflasa uğradı. Silah gücünə öz hakimiyyətini Naxçıvan, Şərur-Dərələyəz və Sürməlidə yaya bilməyən ermənilər 1919-cu ilin sentyabrından başlayaraq, buna Amerika diplomatiyası vasitəsi ilə nail olmaq istəyirdilər. Polkovnik Vilyam Haskel Sülh konfransı tərəfindən Ermənistana müvəkkil təyin edildiyindən, Ermənistan hökumətinin İrəvan quberniyasının yuxarıda adları çəkilən qəzalarını ələ keçirməsi üçün əlverişli şərait yaradırdı. İngilis komandanlığının Naxçıvan və Şəruru Ermənistan hökumətinin idarəçiliyinə vermək təcrübəsi özünü doğrultmadığı üçün bu dəfə yeni bir plan – Naxçıvan və Şərur-Dərələyəzdən ibarət

Amerika general-qubernatorluğu yaratmaq planı irəli sürülmüşdü. Sentyabr ayının 1-də Azərbaycan hökumətinə verilmiş 20 bənddən ibarət Haskel layihəsində, əslində Naxçıvan və Şərur-Dərələyəzin Azərbaycandan ayrılması öz əksini tapmışdı. Layihədə göstərilirdi: Amerikanların yaratdığı neytral zonaya Naxçıvan və Şərur-Dərələyəz daxil edilir, neytral zonanın idarəçiliyi polkovnik Haskelin təyin etdiyi Amerika general-qubernatorunun əlində olacaqdır; ermənilərin üstünlük təşkil etdiyi (bu amerikanlar tərəfindən müəyyən edilməli idi) yerləri çıxmaq şərti ilə yerli hakimiyyət azərbaycanlıların əlində qalırdı; Azərbaycan və erməni hökumətləri neytral zonada olan öz qoşunlarını geri çağırmalı idilər; hər hansı tərəfin qoşunu bura, yalnız, Amerika qubernatorunun icazəsi ilə daxil ola bilərdi; Azərbaycan və Ermənistan hökumətləri təcili olaraq, yerli əhali arasında təbliğat aparan öz nümayəndələrini və ona rəğbət bəsləyən ölkənin nümayəndələrini neytral zonadan çıxarmalıdır; hər iki tərəf 1919-cu ilin sentyabrın 1-nə qədər törədilmiş hadisələrə görə həbs edilənlərə amnistiya verməlidir; yerli çinovniklər Amerika qubernatoru tərəfindən təyin edilir və qubernator neytral zonanın hüdudlarında istənilən çinovniki dəyişdirmək hüququna malikdir; Azərbaycan hökuməti neytral zonada və İrəvan rayonunda azərbaycanlı, Ermənistan hökuməti isə neytral zonada və Zəngəzur rayonunda erməni əhalisini sakitləşdirmək üçün öz nüfuzundan istifadə etməlidir; Azərbaycan və Ermənistan hökumətləri öz ərazilərində yaşayan azərbaycanlı və erməni əhalisinin həyatının və əmlakının toxunulmazlığına təminat verməlidir; neytral zonanın hüdudlarında olan dəmir yolu xətti üzərində nəzarət hüququ Amerika general-qubernatoruna keçməlidir; Azərbaycan hökuməti "Yaxın Şərqə Amerika Yardım Komitəsi"nin Şuşa və Gorusda nəzərdə tutulan yardım tədbirlərinin həyata keçirilməsinə mane olmamalıdır; Azərbaycan hökuməti erməni qaçqınlarının öz yerlərinə qayıtmasına razılıq verməli və onlara yardım göstərməlidir; Böyük Vedinin azərbaycanlı əhalisi Amerika qubernatorunun müşayiəti ilə neytral zonanın hüdudlarından digər yerə köçürülməlidir və onlara şərait yaradılmalıdır ki, bütün əmlaklarını özləri ilə götürsünlər; hazırda inşa edilən Bakı-Culfa dəmiryolu Azərbaycan hökumətinin səlahiyyətində qalmalıdır; Amerika qubernatorunun idarəçiliyi dövründə neytral zonanı idarə etmək üçün lazım olan maddi vəsait yerli vergilər hesabına ödənilməlidir, bu məqsədlə Azərbaycan hökumətindən əlavə vəsait tələb edilməlidir və s. İlk baxışda layihənin məzmunundan aydın olur ki, belə bir layihə amerikanlar tərəfindən hazırlana bilməzdi. Bu müttəfiqlərin Ali Komissarı Vilyam Haskelin adı ilə elan edilmiş erməni layihəsi idi. Lakin bu layihə Azərbaycan hökuməti tərəfindən qəbul edilmədiyi üçün sentyabrın 27-də Vilyam Haskel bir qədər yumşaldılmış, əslində isə mahiyyət etibarı ilə birincidən o qədər də fərqlənməyən 12 bənddən ibarət ikinci layihəni Azərbaycan hökumətinə göndərdi. Azərbaycan Xarici İşlər naziri sentyabrın 29-da Haskelə yazırdı ki, onun hökuməti Naxçıvan və Şərur-Dərələyəz qəzalarında xüsusi general qubernatorluğunun yaradılmasının



Əli Səbri Qasımov

əleyhinə deyildir, lakin təklif edilən şərtlərin bir qisminə etiraz edir. Bu məsələ ilə bağlı Azərbaycan hökuməti general-qubernatorluq barədə özünün tərtib etdiyi layihəni sentyabr ayının axırlarında polkovnik Haskelə göndərdi. 12 bənddən ibarət layihədə göstərilirdi: Naxçıvan və Şərur-Dərələyəz qəzalarında müvəqqəti olaraq, xüsusi general-qubernatorluq yaradılır; general-qubernatoru Amerika vətəndaşları içərisindən polkovnik Haskel təyin edir; bu qəzalar ümumi, birbaşa, bərabər və gizli səsvermə yolu ilə seçilən yerli Şuralar tərəfindən idarə edilir; vilayətdə bütün hakimiyyət - inzibati, məhkəmə, dəmir və şose yolları, poçt-teleqraf, xalq maarifi və sair Şuranın müstəsna səlahiyyətinə daxil edilir və bu işi general-qubernator tənzim edir; Şura tərəfindən təyin edilən icra hakimiyyəti çoxluq təşkil edən millətin nümayəndəsindən olmalıdır; bütün general-qubernatorluqda mətbuat, vicdan, söz azadlığı, şəxsiyyətin və əmlakını toxunulmazlığı elan edilməlidir; general-qubernatorluğun büdcəsinə Azərbaycan parlamentində baxılmalı, çatışmayan məbləğ Azərbaycan xəzinəsindən əlavə edilməlidir; Azərbaycan pulu rəsmi pul vahidi kimi qəbul edilməlidir; seçkilər keçirilənə qədər general-qubernator Azərbaycandan iki məsləhətçi dəvət edib, onların köməyi ilə qayda-qanun yaratmalıdır; neytral zonadan Bakı-Culfa dəmir yolunun keçdiyi xüsusi zolaq ayrılıb, Azərbaycan hökumətinə verilməlidir; general-qubernatorluğun əhalisi tərksilah edilməməlidir; general-qubernatorluğun bütün ərazisində amnistiya keçirilməlidir. Lakin Azərbaycan hökuməti tərəfindən tərtib edilən layihə Haskel tərəfindən qəbul edilmədi. Sentyabr ayının ortalarında Haskel Naxçıvan, Şərur və Ordubad nümayəndələri Əli Səbri Qasımovu və Ələsgərovu qəbul edərək bildirdi ki, polkovnik Edmond Deli Naxçıvana qubernator təyin edilmişdir. Nümayəndələr adından Əli Səbri Qasımov Naxçıvan əhalisinin on bənddən ibarət olan tələblərini V.Haskelə təqdim etdi. Burada Naxçıvan əhalisinin bu rayona erməni qoşunu yeridilməsinə razı olmayacağı, bu qəzaların əhalisinin Ermənistan hökumətinə tabe olmayacağı və lazım gələrsə, azərbaycanlı əhalinin öz istiqlaliyyətini silahlı yolla qoruyacağı göstərilirdi [106, s. 297-304].

Amerikalıların Ermənistanda hərbi qüvvəsi olmadığı, erməni ordusu isə əslində, bu işin öhdəsindən gələ bilmədiyi üçün Haskel müsəlman qəzalarında ümumxalq həyəcanının qalxmasından ehtiyat edir və əhalini sakitləşdirmək üçün diplomatik vasitələrə əl atırdı. O, neytral zonanın müsəlman əhalisinə vəd edirdi ki, onların hüquqları Paris Sülh konfransında nəzərə alınacaqdır. Oktyabr ayının əvvəllərində Xarici İşlər naziri M.Y.Cəfərova teleqramında Haskel yazırdı ki, yaxın vaxtlarda o, Parisə gedəcək, əgər Azərbaycan hökuməti neytral zonaya

daxil olan ərazilərdə əhalinin sakitləşdirilməsinə yardım edərsə və neytral zona yaradılması haqqında Amerika planını müdafiə edərsə, Haskel vəd verirdi ki, Paris Sülh konfransı qarşısında Azərbaycanın tanınması məsələsini qaldıracaqdır. Hətta, bu məqsədlə Amerika missiyasının üzvləri podpolkovnik J.A.Ulio və mayor Parker K.Kollok Azərbaycan hökumətindən yazılı şəkildə xahiş edirdilər ki, Sülh konfransı üçün məruzə hazırlandığından Azərbaycana aid statistik məlumatlar xəritələrlə birlikdə iki nüsxədən ibarət memorandum formasında Amerika Ali Komissarlığına göndərilsin. Oktyabrın 4-də Azərbaycan Xarici İşlər naziri Haskelə göndərdiyi notada yazırdı ki, Azərbaycan hökuməti, onun təklifləri və mənafeyi nəzərə alınmaqla bu ərazinin, yalnız Azərbaycanın ayrılmaz hissəsi kimi Amerika general-qubernatorluğu tərəfindən idarə edilməsinə razılıq verə bilər. M.Y.Cəfərov polkovnik Haskelə göndərdiyi notada Azərbaycan xalqının prezident Vilson tərəfindən elan olunmuş xalqların hüquqlarına dair prinsipinə uyğun olan ədalətli tələblərinin onun tərəfindən Sülh konfransında müdafiə olunacağına ümidvar olduğunu bildirirdi. Məktubda İrəvan quberniyasında Azərbaycan xalqının öz iradəsinə uyğun olaraq bərqərar etdiyi hüquqlarının da Uilyam Haskel tərəfindən Sülh konfransı qarşısında müdafiə olunması arzu edilirdi. Amerika missiyası Denikin təhlükəsindən də neytral zona yaradılması məqsədi ilə istifadə etmək istəyirdi. Denikin təhlükəsi ilə bağlı Şimal sərhədlərində neytral zona yaradılması haqqında Xarici İşlər Nazirliyinin sorğusuna Haskel cavab verirdi ki, Naxçıvan və Şərur-Dərələyəzdə neytral zona yaradılmayınca mənim tərəfimdən Denikinlə və digər məsələlərlə bağlı heç bir addım atılmayacaqdır. Haskel layihəsi elan edildikdən sonra təkcə Naxçıvanı deyil, İrəvan quberniyasının bütün müsəlman qəzalarını xalq həyəcanı bürümüşdü. Azərbaycan Xarici İşlər Nazirliyinin Versaldakı Azərbaycan nümayəndələrinə göndərdiyi məlumatda göstərilirdi ki, İrəvan quberniyasında qalxan Böyük Vedi üsyanı xüsusilə kəskin xarakter alıb, erməni qüvvələrinin tamamilə darmadağın edilməsi ilə nəticələnib və Erməni ordusu İrəvan şəhərinin özünə qədər geri oturdulub. Məlumatda qeyd edilirdi ki, Şərur-Dərələyəzdə müsəlmanların hərəkatına erməni dəstələri və hərbi hissələri tərəfindən incidilən Kağızman əhalisi və Üçmüəzzin qəzasının sakinləri də qoşuldular. Hazırda İrəvan quberniyasının bütün müsəlman əhalisi güclü şəkildə həyəcanlanmışdır. İrəvan quberniyasının dinc müsəlman əhalisinə divan tutulması Azərbaycan xalqının və siyasi dairələrinin də narazılığına səbəb olmuşdur. Şübhəsiz ki, hökumət belə zorakılıq aktlarına və incidilən müsəlman əhalisinin yardım çağırışlarına biganə qala bilməzdi. Ona görə də Azərbaycan hökuməti avqust və sentyabr aylarında İrəvan quberniyası müsəlmanlarına qarşı ermənilərin törətdiyi zorakılıqlara qarşı Ermənistan hökumətinə qəti etiraz notası göndərmişdi.

Oktyabrın ortalarında polkovnik Haskel Parisə çağırıldıqdan sonra onun müavini polkovnik Ceyms Rey neytral zona məsələsini müzakirə etmək üçün Bakıya gəlmişdi. Hələ bundan iki həftə əvvəl İstanbuldakı Amerika səfirliyinin

nümayəndəsi mayor Doyl da Azərbaycan paytaxtına gəlmişdi. Danışıqlar zamanı Ceyms Rey Azərbaycan hökumətinə təklif edirdi ki, hökumət öz nümayəndəsini onunla birlikdə neytral zona məsələsini həll etmək üçün İrəvana və Naxçıvana ezam etsin. Bununla amerikanlar yerli əhaliyə göstərmək istəyirdilər ki, Azərbaycan hökuməti neytral zona yaradılmasına tərəfdardır. Lakin hökumət buna etiraz edərək bildirdi ki, o, əhalini çaşdıra bilməz və hökumət tərəfindən bəyənilməyən prinsiplərin bərqərar edilməsində iştirak edə bilməz. Bununla belə, polkovnik Reyə bildirildi ki, əgər əhali amerikanlar tərəfindən təklif olunan şərtlərə razı olarsa (İrəvan quberniyası müsəlman qəzalarının əhalisinin neytral zona yaradılmasına qarşı kütləvi həyəcanları Azərbaycan hökumətinə məlum idi – ***red.***), hökumət neytral zonanın yaradılmasına müqavimət göstərməyəcəkdir. Paris Sülh konfransına göndərilən hökumət məlumatında qeyd edilirdi ki, bu etiraz polkovnik Reyi təmin etmədi. Oktyabrın 24-də Ceyms S.Rey Naxçıvana gəldi neytral zona yaratmaq barədə Haskelin bəyanatını elan etdi. Bəyanatda deyilirdi: "Ermənilərlə azərbaycanlılar arasında silahlı toqquşmanın dincliyi pozduğunu, vətəndaşların həyatı və əmlakı üçün təhlükə yarandığını, Ermənistan və Azərbaycanın bu əraziyə iddiası olduğunu, Şərur və Naxçıvana Ermənistan və Azərbaycanın hüququnun hələlik Sülh konfransı tərəfindən həll edilmədiyini, Ermənistan və Azərbaycanın bu ərazini idarə etmək üçün qarşılıqlı razılığa gələ bilmədiyini, Ermənistan və Azərbaycanın bu ərazidə sülh yaratmaq arzularını nəzərə alaraq... mən Vilyam N.Haskel Sülh konfransının mənim üzərimə qoyduğu vəkalətə əsaslanaraq, Amerika Birləşmiş Ştatları, Fransa, Böyük Britaniya və İtaliya Ali Komissarı kimi... Şərur və Naxçıvan dairəsində, Amerika qubernatorunun rəhbərliyi altında müttəfiq idarəçilik zonasının yaradıldığını... Şimali Amerika Birləşmiş Ştatları ordusunun hərbi mühəndisi polkovnik Edmund L.Dellinin bu zonaya qubernator təyin edildiyini bildirirəm".

V.Haskeli əvəz edən Ceymis Rey bu bəyanata uyğun iki bənddən ibarət Şərur və Naxçıvanda Amerika qubernatorluğu yaradılması, polkovnik Edmund L.Dellinin qubernator təyin edilməsi haqqında sərəncam imzaladı. Lakin Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə Ceyms Rey bu qərarını dəyişməli oldu. Polkovnik Delli Naxçıvanda general-qubernator kimi deyil, Amerika Ali Komissarın nümayəndəsi kimi qaldı. Ceyms Reyin Naxçıvana səfəri ilə bağlı Naxçıvan Milli Şurasının üzvü S.Cəmillinski Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinskiyə oktyabrın 26-da yazırdı ki, o özü, Xəlil bəy, Kalbalı xan, D.Məmmədov və digərləri polkovnik Reylə iki günlük danışıqlar apardılar. "Ceyms Rey razılıq verdi ki, polkovnik Dellini general-qubernator kimi deyil, Sülh konfransının, yaxud Amerikanın nümayəndəsi kimi burada saxlasın. Bu nümayəndə bizim idarəçilik işlərimizə qəti surətdə müdaxilə etməyəcək və ermənilərlə bizim aramızda sülh yaratmaq, bizim qaçqınlara kömək etmək istiqamətində fəaliyyət göstərəcəkdir". S.Cəmillinski qeyd edirdi

ki, danışıqlar zamanı məlum oldu ki, artıq burada müttəfiqlərin xüsusi idarə zonasının yaradılması məsələsi təxirə salınır və bir çox cəhətlərinə görə bu diyarın Azərbaycana birləşməsinə amerikanların razılığı hiss edilir. Naxçıvanda olduğu müddətdə Ceyms Rey və digər Amerika nümayəndələri başa düşdülər ki, neytral zona üçün nəzərdə tutulan ərazini Azərbaycandan ayırmaq qeyri-mümkündür. Noyabr ayında Ermənistanda olan ABŞ zabitlərinin Dellinin sərəncamına gəlməsi Naxçıvan və Şərur əhalisinin bərk həyəcanına səbəb oldu. Yaranmış vəziyyətdən çıxış yolu kimi Delli zabitləri İrəvana qaytarmalı oldu. 1920-ci ilin yanvarında amerikanlar tamamilə Şərur və Naxçıvanın hüdudlarından çıxdılar [106, s. 305-307].

Bu hadisələrdən sonra Naxçıvanın siyasi-hüquqi statusunun həlli məsələsi Türkiyə-Sovet Rusiyası münasibətləri müstəvisinə keçdi. Bununla bağlı Türkiyə tarixşünaslığında da arxiv araşdırmalarına dayanan maraqlı məlumatlar var. Bu tarixi notlara əsasən Naxçıvanın türk himayəsi altına girməsi ilə əlaqədar idarəçilik işlərində bir sıra dəyişikliklər baş verdi. Naxçıvanın yerli idarəetmə sistemində vəzifəsi olanların əksəriyyəti azərbaycanlılar idi. Behbud ağa Şahtaxtinski hələlik bu işçilərin öz yerində qalmasına türk nümayəndəsinin nəzarət edəcəyini məqsədəuyğun saymışdı. Türk siyasətinə uyğun fəaliyyət göstərən Behbud ağa buradakı Türkiyənin fövqəladə komissarı general Veysəl Ünüvarın diqqətini Vəlibəyov məsələsinə yönəldərkən, onun ermənilər tərəfindən Naxçıvana fövqəladə komissar təyin edildiyini vurğulamış, gələrsə sərhəddən buraxılmamasını demişdir [4, s. 406].

B.Şahtaxtinskinın Moskva və Qars müqavilələrinin hazırlanması və imzalanması prosesində göstərdiyi tarixi xidmətlər onun adını diplomatiya tariximizə əbədi yazmış oldu. Bu müqavilələr Naxçıvanın hüquqi-siyasi statusunu müəyyənləşdirdi və bu region üzərində Türkiyənin tarixi himayəsini təmin etmiş oldu. Behbud ağa Moskva müqaviləsinin reallaşması istiqamətində çox gərgin fəaliyyət göstərirdi. O, hələ 1920-ci ilin yayında Moskvada olarkən Türkiyə Böyük Millət Məclisi hökumətinin nümayəndə heyəti və Xarici İşlər naziri Sami bəy başda olmaqla buraya gəlir. Səfərin əsas məqsədi Sovet Rusiyası ilə Türkiyə hökuməti arasında diplomatik münasibətlər qurmaq və dostluq müqaviləsi imzalamaq idi. Müvafiq sənədlərin imzalanması qarşılıqlı razılığa əsasən, Bakıda keçirilməli idi, lakin sonradan Çiçerinin təklifi ilə danışıqların Moskvada aparılması qərara alındı. Onun Türkiyə hökumətinə 9 dekabr 1920-ci il tarixli notasında bu danışıqlarda Azərbaycan və Ermənistan nümayəndələrinin də iştirakının vacibliyi qeyd edilmişdi. Rusiya diplomatiyası danışıqlara Azərbaycan və Ermənistanı qatmaqla, onları Türkiyəyə qarşı qoymaq və regionda öz planlarını həyata keçirmək məqsədi güdürdü [110, s. 108]. Lakin B.Şahtaxtinskinin Moskvadan M.Hüseynova göndərdiyi 26 fevral 1921-ci il tarixli məktubundan məlum olur ki, türklər bu respublikaların konfransda iştirakını istəmirdilər. Türklər bildirirdilər ki, onlarla

Azərbaycan arasında heç bir mübahisəli məsələ yoxdur və Azərbaycanla xüsusi müqavilə bağlanacaqdır. Ermənistan nümayəndəsinin iştirakına qarşı ona görə çıxırlar ki, onlar Aleksandrapol müqaviləsini qüvvədə hesab edir və ondan imtina etmək istəmirlər, Rusiya isə Azərbaycanla ayrıca müqavilə bağlanmasının əleyhinədir. Behbud ağa Azərbaycan bolşevik liderlərinə izah edirdi ki, bir sıra taleyüklü prinsipial problemlərə görə Türkiyə ilə münasibətləri soyuqlaşdırmaq olmaz. O, müdrik diplomat idi, bilirdi ki, bu addım ermənilərin xeyrinə, Azərbaycanın isə zərərinə olacaqdır.

Moskva danışıqlarında Türkiyə nümayəndə heyətinin ciddi səyləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü qismən də olsa qorunmuş, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi təşkil etməsi və onun hüquqlarının Azərbaycandan başqa heç bir dövlətə verilə bilməməsi razılaşdırılmış və sərhədlər müəyyən edilmişdi. Bununla da Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə bir aydınlıq gətirildi. Türkiyə nümayəndə heyəti Naxçıvanı Türkiyənin himayəsinə ala bilməsə də, regionun türklərin əlində qalması təmin edilmiş, Naxçıvan Azərbaycanın himayəsinə verilmişdi. Yeni Xarici İşlər naziri Yusif Kamal bəyin dönə-dönə vurğuladığı kimi, Naxçıvan müsəlmanları bir daha soyqırımına məruz qalacağı halda, türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdi.

Moskva müqaviləsini imzalamaqla Türkiyə Gümrü müqaviləsinin, o cümlədən də onun Naxçıvan bölgəsinə dair maddələrinin qüvvədən düşməsi ilə razılaşdı. Əslində bu Azərbaycanın suverenliyinin təmin edilməsi idi. Moskva müqaviləsi imzalandıqdan az sonra 1921-ci ilin aprelində Türkiyənin məhdud qoşun hissəsi Naxçıvan mahalını tərk etdi. Bu müqavilənin 1921-ci ilin martın 20-də RSFSR Mərkəzi İcraiyyə Komitəsi, həmin il iyulun 21-də isə Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqlənməsi ilə Naxçıvan məsələsi özünün ədalətli həllini tapdı. Bu, çox böyük əhəmiyyəti olan bir siyasi-diplomatik akt idi. Heç təsadüfi deyildir ki, Türkiyə diplomatları Ankaraya döndükdə Mustafa Kamal Paşaya müraciətlə "Naxçıvan üzərində əldən gələni yapdıq", dedikdə o, "Qapımız mövcudiyyətini mühafizə edir, bizim üçün mühüm olanı budur" söyləmişdi. Moskva müqaviləsindən iki həftə sonra 1921-ci il aprelin əvvəllərində Azərbaycan Sovet hökuməti Naxçıvanın taleyi ilə əlaqədar göstərdiyi misilsiz xidmətlərinə görə kiçik bir xatirə olaraq Şərq cəbhəsi komandanı Kazım Qarabəkir Paşaya və TBMM başqanı Mustafa Kamal Paşaya 800 əyar gümüşdən, 24 nəfərlik 279 vahiddən ibarət iki yemək dəsti hədiyyə göndərdi.

Moskva müqaviləsinin maddə və şərtlərini daha da konkretləşdirmək və müəyyən mənada tamamlamaq, bununla həm də onu reallaşdırmaq, yəni Türkiyə ilə Güney Qafqaz respublikaları arasındakı həll olunmamış məsələləri nizama salmaq məqsədilə yeni konfrans çağırmaq lazım gəldi. Bu konfransın çağırılması ilə (yeri və vaxtı) bağlı Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan-Gürcüstan arasında diplomatik yazışmalar getdi. Ümumiyyətlə, 20-ci illərin əvvəllərindəki

Azərbaycan-Türkiyə münasibətlərinin bəzi məqamlarına işıq salan bu diplomatik yazışmalarda bir sıra maraqlı notlar nəzər-diqqəti cəlb edir:

a) Rusiyanın Zaqafqaziya respublikalarını Türkiyəyə qarşı vahid cəbhədə birləşdirmək səyləri;

b) Rəsmi Moskvanın siyasətinin yedəyində gedən Azərbaycan rəhbərliyinin əksər hallarda Türkiyəyə arxa çevirməsi;

c) özünün regiondakı müəyyən maraqlarını təmin etməyə çalışan Türkiyənin Azərbaycanın ərazi bütövlüyü, xüsusilə də Naxçıvan və s. ərazilərlə bağlı hələ də rahatsızlıq keçirməsi.

1921-ci il sentyabr-oktyabr aylarında keçirilən Qars konfransının iclaslarının protokolları və stenoqramlarının təhlili göstərir ki, burada da danışıqlar çox gərgin və prinsipial şəraitdə keçmiş, tərəflər çoxlu mülahizə və təkliflərlə çıxış etmişdilər. Konfransda Türkiyə yenə də onunla Qafqaz respublikaları arasında ayrı-ayrılıqda müqavilələr imzalanmasına dair öz mövqeyini təkrarlasa da, danışıqlarda vasitəçi rolunda iştirak edən Rusiya və əks tərəflər buna razı olmamışdılar. Azərbaycanın nümayəndəsi B.Şahtaxtinski isə vahid müqavilənin bağlanmasının Güney Qafqaz respublikaları və Türkiyə üçün qarşılıqlı surətdə faydalı olduğunu, inqilabi zərurətin bunu tələb etdiyini söyləmişdi [140, s. 348-349].

Sentyabrın 21-də M.D.Hüseynov Türkiyənin Xarici İşlər naziri Y.Kamal bəyə, Ermənistan Xalq Xarici İşlər komissarı A.Mravyana teleqram vuraraq sentyabrın 26-da Qarsda Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında konfransı açmaq barədə onların istəklərinə müsbət cavab verdi və B.Şahtaxtinskinin fövqəladə səlahiyyətli nümayəndə təyin edildiyini bildirdi.

Müqavilənin hazırlanması, razılaşdırılması və imzalanması prosesində Naxçıvan ölkəsinin mənafeyini konfransda müdafiə etmək üçün Naxçıvan SSR-in XKS Tağı Səfiyevi Qarsa ezam etmişdi. Ertəsi gün Yusif Kamal Tiflisdə gürcü nümayəndələri ilə görüşəndən və Qars konfransı barədə verdikləri qərardan sonra 4 milyon qızıl rubl ilə yola çıxdı, 29 aprel tarixdə isə Sarıqamışa gəldi [208, s. 908].

May ayının sonlarına doğru Əli Fuad Paşa, Xarici İşlər Nazirliyinə və Kazım Qarabəkirə məlumat göndərərək Trotskinin Qafqazda, ruslar tərəfindən bölgədə hərbi qüvvələr cəmləşdirdiyini bildirirdi. Moskvadakı ümumi atmosferin əksinə Anadoluda əks bir hərbi hərəkatın mümkünlüyünü yazırdı [208, s. 927]. Eyni gün Fevzi Paşa da K.Qarabəkirə bir hesabat göndərir. Hesabatda Qırmızı Ordunun fəallaşmaqda olduğu, gürcülərin Artvin və Lazistana, ermənilərin də Qarsa göz dikdiklərini bildirirdi. Rza Nur isə Qarabəkirə göndərdiyi hesabatında Qırmızı Ordunun sərhədi keçib Türkiyəni sovetləşdirmək istədiyini, buna qarşı tədbirlərin görülməsini bildirmişdi [207, s. 919-921]. Əli Fuad paşa da 10 iyun tarixdə yazdığı hesabatda Qırmızı Ordunun ingilislərlə əməkdaşlığa gedərək malakanları üsyana qaldırdığını yazırdı [207, s. 924-925]. Bir gün sonra da Fevzi Paşa Xarici İşlər Nazirliyinə yazaraq Gürcüstan və ermənilərin sərhədlərimizə

hücuma hazırlaşdıqlarını və bunun Moskva səviyyəsində etiraz edilməsini tələb edirdi. Bütün bu xəbərlərdən sonra 10 iyunda Mustafa Kamal Paşa tərəfindən göndərilən teleqramda qeyd olunan məsələlərlə bağlı müvafiq tədbirlərin görülməsi tələb edilirdi. Halbuki, Qarabəkir Paşa eyni düşüncədə olmamaqla, birgə bunun Müttəfiq dövlətlərinin bir propaqandası olduğunu ifadə edirdi [207, s. 909-910]. Qarabəkir bu düşüncəsində haqsız da deyildi. Çünki Sovet rejiminin yeni qurulduğu, Gürcüstan və Ermənistanda Sovet tərəfindən alınan "Əlviyə-i Selasə"nin (Türkiyə tarixi ədəbiyyatlarında Qars, Ərdahan, Batum nəzərdə tutulur) Batum istisna olmaqla Türkiyəyə buraxılması qərarının ortaya çıxardığı kiçik gərginlik bir tərəfə qoyulduğundan, Sovet xarici siyasətinin mənafeləri baxımından belə bir hərəkata başlamasını göstərən hər hansı bir işarə yox idi.

Bu ərəfədə Fransanın Ankarayla yaxınlaşması Sovetlə münasibətlərdə bir soyuqluq dövrünün yaşanmasına səbəb oldu. 19 iyunda Sovet səfiri Ankaraya gələrək Xarici İşlər naziri Yusif Kamal ilə görüşdü. 1 iyulda isə Yusif Kamal Çiçerin və Azərbaycan Xarici İşlər komissarı M.D.Hüseynova nota göndərərək konfransda iştirak etməyə hazır olduğunu, lakin konfransın Ankarada keçirilməsini təklif etdi. 2 avqust tarixdə Türk-Sovet komissiyası quruldu.

M.D.Hüseynov 1 iyul notasına 21 iyulda cavab verərək konfransın təcili çağırılmasını, lakin əvvəlcədən qərarlaşdırıldığı kimi Qars şəhərində keçirilməsinin vacib olduğunu ifadə edirdi. Yusif Kamal Gürcüstan nümayəndəsinə müraciət etdi. O da konfransın Qarsda keçirilməsini təklif etdi. Çiçerin də konfransın Ankarada keçirilməsini istəmirdi. Buna səbəb Ankaranın müharibə zonasına yaxın olması ilə əlaqələndirirdi. Beləliklə, Qars konfransı yenidən gündəmə gəlirdi. 24 avqust tarixdə Ermənistan Xarici İşlər Nazirliyi bu məsələdə Ankara ilə əlaqələr yaratdı. İclasın tarixi isə sentyabr ayının son həftəsinə qərarlaşdırıldı. Nümayəndə olaraq K.Qarabəkir Paşa və Memduh Şövkət bəyin təyin edilməsi qəbul edildi [207, s. 956].

17 sentyabr tarixdə Qars konfransı haqqında Yusif Kamal Qarabəkir Paşaya uzun bir təlimat göndərdi. Buna görə üç Qafqaz ölkəsi ilə ayrı-ayrılıqda müqavilələr imzalanmalı, lakin bunlara Moskva müqaviləsinin şərtlərini daxil etmək üçün bu müqavilənin 15-ci maddəsinə istinadən rus heyətinin yardımı tələb olunurdu. Ancaq Ankara hökuməti bəzi dəyişiklikləri də düşünməkdə idi. Yusif Kamala görə sanksiya tələb olunmayacağına dair 7-ci maddə Azərbaycan müqaviləsinə daxil edilməməliydi. Çünki iki müsəlman qardaş dövlət arasında sanksiyalardan bəhs edilə bilməzdi. Gürcüstanla bağlanacaq andlaşmada isə daha çox Batum sərhədi və bölgəsinin muxtariyyəti üzərində dayanılacaq və Gürcüstanın Çorux vadisindəki mis mədənlərinin istismarı qarşılığında Axıska müsəlmanları üçün bəzi tələblər ediləcəkdi [207, s. 957-960].

Qars konfransında ən çox mübahisə doğuran məsələlər Batum və Naxçıvanın muxtariyyət statusunun əhatə dairəsi olmuşdur. Xüsusi müzakirələrdə isə

Kuvartsxana və Murqul mis mədənləri ilə, Qulp duz müəssisələrinin gürcü və ermənilərə verilməsi ruslar tərəfindən tələb olunmuş, ancaq türk tərəfi bunu rədd etmişdir. Nəticə olaraq 13 oktyabr 1921-ci ildə bütün nümayəndələr tərəfindən Qars müqaviləsinin mətni imzalanmışdır [207, s. 970-973].

Qars müqaviləsi Şərq cəbhəsində təhlükəsizliyin təmin edilməsində son və mühüm mərhələ olmuşdur. Müqavilə 1921-ci ildə imzalanan Moskva müqaviləsinin yenidən təsdiqi olsa da, sovetləşmiş Qafqaz ölkələri bu müqaviləni imzalamışdır.

Qısa aralıqlarla durğunlaşan, lakin bu durğunluğu qabartmayan hər iki tərəfin siyasət və mənfəətlərinə uyğun tez-tez görüşlər keçirilmiş və ya bir-birlərinə yardım məsələsində razılaşmalarda çətinlik yaşanmamışdır. Nəticə olaraq uzun illər Türkiyənin şərq sərhədlərində mübahisələrə və erməni qətliamlarına məruz qalmış, mütəmadi müharibə zonası olmuş Qars və onun ətrafının "Misak-ı Milli" (Milli and, Türkiyə milli azadlıq hərəkatının altı maddəlik manifesti) prinsipləri çərçivəsində (Batum istisna olaraq), Türkiyəyə qatılması təmin edilmişdir. Ancaq onu da ifadə etmək lazımdır ki, TBMM-nin peşəkarcasına idarə etdiyi xarici siyasət prinsipləri, üstün komandanlıq səviyyəsi və nizamlı hərbi qüvvəsi ilə bu məsələlər həll edilmiş və Qafqazda siyasi stabillik təmin olunmuşdur. Fəqət bu gün ermənilər və onların havadarları bu sabitliyi dağıtmaq arzusu və xəyalı ilə planlar qurmaqdadır. Halbuki ermənilər Qars müqaviləsini imzalamaqla onun şərtlərini, o cümlədən Naxçıvanın dövlət statusunu pozmayacaqlarına söz vermişdilər. Lakin Ermənistan sonradan bu müqavilənin şərtlərini pozaraq Naxçıvan Muxtar Respublikasına məxsus 9 kəndi qopara bilmişdir [135, s. 631]. Bununla kifayətlənməyən Ermənistan dövləti, XX yüzillikdə öz niyyətlərindən vaz keçməyərək, hər fürsətdə Naxçıvana qarşı iddialarını davam etdirməkdə, buna mane olan Moskva və Qars müqavilələrinin ləğvini istəməkdədir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1992-ci ilin mart ayında Türkiyə Cümhuriyyətində olarkən Moskva və Qars müqavilələrini siyasi gündəmə gətirməsi qonşu dövlətlərə Naxçıvanla bağlı öhdəliklərini bir daha xatırlatdı.

7. Naxçıvanda etnodemoqrafik proseslər (1900-1920)

Azərbaycanda əhali arasında olan doğum, ölüm və təbii artım kimi demoqrafik göstəricilər müxtəlif amillərin dəyişməsindən asılı olaraq ayrı-ayrı tarixi dövrlərdə, ictimai-siyasi, sosial-iqtisadi şəraitdə fərqli qiymətlərə malik olmuşdur. Əhalinin doğumu, ölümü və təbii artımı haqqında ilkin məlumatlar regionun Rusiya tərəfindən işğalından sonrakı dövrlərə aiddir.

1900-1920-ci illərdə əhali artımının Naxçıvan bölgəsi üzrə nisbi qiyməti 20-30% olmuşdur. Bunun əsas səbəbi ermənilərin bölgədə azərbaycanlılara kütləvi

şəkildə soyqırımı həyata keçirməsi ilə bağlı idi. Yalnız XX əsrin 20-ci illərində doğum səviyyəsi yenidən yüksəlmişdir.

Azərbaycanda əhalinin təbii artımı XIX əsrin ikinci yarısında, XX əsrin əvvəllərində çox aşağı, ölümün səviyyəsi yüksək olmuşdur. 1884-1915-ci illərdə əhalinin təbii artımı çox aşağı olmuş və hər 1000 nəfərə 8 nəfərə yaxın qiymət almışdır [81, s. 97].

XX əsrin əvvəllərində Naxçıvan bölgəsində də doğumun səviyyəsi azalmış və onun nisbi göstəricisi 19,7%-ə enmiş, 1920-ci ilə qədər təbii artım 8-10% nisbətində dəyişmişdir. 1918-1920-ci illərdə Naxçıvan bölgəsi ağır demoqrafik fəlakət dövrünü yaşamışdı. 1918-1920-ci illərin dəhşətli soyqırımları, terror və vətəndaş müharibəsi, inqilablar, köçürülmələr, miqrasiyalar təbii artımı kəskin azaltmış və əhalinin depopulyasiyası baş vermişdir. 1918-ci ildə əhalinin təbii artımının nisbi göstəricisi 1,6 nəfər, 1919-cu ildə 2,8 nəfər, 1920-ci ildə 17,8 nəfər, 1921-ci ildə 4,4 nəfərə bərabər olmuşdur [81, s. 98].

XX əsrin əvvəllərində Naxçıvanda demoqrafik durum xeyli mürəkkəb idi. 1905-ci il hadisələrindən istədikləri kimi yararlana bilməyən ermənilər Azərbaycan torpaqları hesabına dövlət yaratmaq xülyasına düşdü və tarixi Azərbaycan torpağı olan indiki Ermənistan ərazisində cəmləşməyə başladılar. Erməni köçkünlərinin növbəti köçü başladı.

Çar Rusiyasının Cənubi Qafqaz və xüsusən Azərbaycan ərazilərində etnik tərkibi dəyişdirib ermənilərin xeyrinə həll etmək siyasəti heç cür baş tutmurdu.

XX əsrin başlanğıcında daşnaklar Cənubi Qafqazda dağınıq, dövlətsiz və ərazisiz ermənilər arasında azərbaycanlılar əleyhinə düşmənçilik kompaniyasını daha da genişləndirirdilər. Daşnakların məqsədi azərbaycanlıları yaşadıqları doğma torpaqlardan zorla qovub çıxarmaq və həmin yerlərdə erməni əhalisini yerləşdirməkdən ibarət idi. Onlar öz çirkin planlarını həyata keçirmək üçün Rusiyanın köməyinə arxalanırdılar. Münaqişənin ilk anından hər iki tərəfə aydın oldu ki, çar hökuməti millətlərarası toqquşmaların nəinki qarşısını almaq istəmir, əksinə, ölkədə milli-azadlıq hərəkatını və inqilabi mübarizəni boğmaq üçün bu qarşıdurmadan istifadə edirdi.

Ermənistan bölgədəki mürəkkəb vəziyyətdən yararlanmaq üçün böyük planlar qururdu. Erməni daşnakları ümid edirdilər ki, Osmanlı imperiyasının Van gölü ətrafındakı torpaqlarında Aralıq dənizindən Qara dənizə qədər uzanan "böyük Ermənistan" dövləti yaradacaq və ən azı muxtariyyət ala biləcəklər. Rus çarizminin əsas planlarından biri də, nəyin bahasına olursa-olsun, Cənubi Qafqazda müsəlman-türk əhalinin xüsusi çəkisini azaltmaq, etnik nisbəti xristian əhalinin xeyrinə dəyişdirmək idi. Lakin bu cəhdlər baş tutmadı.

1905-ci ilin yanvar ayında Naxçıvan qəzasının ayrı-ayrı polis sahələri üzrə əhalinin etnik tərkibi statistik məlumatlarda qeyd olunmuşdur. Qıvraq dairəsində ümumi ailələrin sayı 838, əhalinin sayı 7420 nəfərdən ibarət idi. Bunlardan 765 ailə

(6800 nəfəri) azərbaycanlılar, 73 ailə (620 nəfər) kürd etnosu idi [231, s. 150-151]. Tumbul dairəsi üzrə əhalinin ümumi say tərkibi 10144 nəfər – 1210 ailədən ibarət idi. Bunlardan 428 ailə, 3619 nəfəri diyarın köklü sakinləri olan azərbaycanlılar, 6525 nəfəri çar Rusiyası tərəfindən Cənubi Azərbaycanın ayrı-ayrı şəhərlərindən köçürülən ermənilər idi [231, s. 151]. Birinci Polis sahəsi üzrə (mərkəzi Naxçıvan şəhəri idi) əhalinin ümumi sayı 24979 nəfərdən (3277 ailə) ibarət idi. Onlardan 13156 nəfəri kişi, 11823-ü qadın idi [231, s. 151].

XX əsrin əvvəllərində Naxçıvan bölgəsinin demoqrafik vəziyyətinin dəyişməsi, əhalinin say tərkibində artma və azalma tez-tez hiss olunurdu. Bu da hələ XIX əsrdən başlanan köçürmənin və miqrasiyaların davam etdiyini göstərirdi. Ayrı-ayrı illər üzrə əhalinin sayı təkcə təbii artıma görə yox, məqsədli köçürmələr nəticəsində də dəyişirdi.

1897-ci ildə çar Rusiyasında ilk ümumi əhali siyahıyaalınması həyata keçirilmişdir. Bu statistik məlumatlara əsasən, hələ XIX əsrin əvvəllərində çar Rusiyası tərəfindən işğal edilmiş qədim Azərbaycan torpaqları olan İrəvan quberniyasının Naxçıvan və Şərur-Dərələyəz qəzalarında 177,3 min nəfər, o cümlədən Naxçıvan qəzasında 76,5 min nəfər əhali yaşamışdır. Hər iki qəzada yaşamış əhalinin 115,7 min nəfərini və ya 65,3%-ni azərbaycanlılar (o cümlədən Naxçıvan qəzasında 64,1 min nəfər və ya 63,7%, Şərur-Dərələyəz qəzasında 51,6 min nəfər və ya 67,4%, Naxçıvan şəhərində 6,2 min nəfər və ya 70%, Ordubad şəhərində 4,1 min nəfər və ya 88,6%, Baş Noraşendə 0,6 min nəfər və ya 68,8%, 55,4 min nəfəri və ya 31,2%-i buraya köçürülən ermənilər, (o cümlədən, Naxçıvan qəzasında 34,7 min nəfər və ya 34,4%, Şərur-Dərələyəz qəzasında 20,7 min nəfər və ya 27,1%, Naxçıvan şəhərində 2,2 min nəfər və ya 25,7%), 4,4 min nəfəri və ya 24,8%-ni kürdlər, 1,1 min nəfəri və ya 0,64%-ni ruslar, 0,7 min nəfəri və ya 0,37%-ni isə digər xalqların nümayəndələri təşkil etmişdir [171, s. 18].

1897-1924-cü illərdə Naxçıvan bölgəsində əhalinin, xüsusilə azərbaycanlıların sayca azalmasına birinci növbədə 1905-1906-cı və 1914-1920-ci illərdə azərbaycanlılara qarşı törədilmiş qırğınlar, əhalinin kütləvi surətdə başqa yerlərə, ələlxüsus, İrana və Türkiyəyə köçməsi, misli görünməmiş aclıq nəticəsində əhalinin tələfata uğraması, Azərbaycanın tarixi ərazisi olan Zəngəzurun Ermənistana qatılması, Sovet hakimiyyətinin ilk illərində əhalinin bir qisminin işləmək, təhsil almaq üçün ölkənin digər şəhərlərinə getməsi, eləcə də əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin nisbətən aşağı düşməsi və sair amillərlə bağlı olmuşdur.

Əhalinin artım səviyyəsinə təsir edən əsas amillərdən biri Naxçıvan bölgəsinin ayrı-ayrı polis sahələri üzrə etnik tərkibinin aydınlaşdırılmasıdır. Bəhs olunan xronoloji dövr üzrə bu artıma təsir edən əsas faktor ermənilərin bu ərazilərə köçürülərək yerləşdirilməsi və etnik nisbətin onların xeyrinə dəyişdirilməsidir.

İkinci polis sahəsinə daxil olan Cəhri kəndi idi. Almalıda cəmi 670 ailə,

5786 nəfər adam yaşayırdı. Bu əraziyə gəlmə ermənilər yerli əhalini-azərbaycanlıları üstələyirdi. Naxçıvan qəzasının strateji baxımdan əlverişli ərazilərində yerləşdirilən ermənilər bəzən bir yerdən başqa yerə köçərkən əvvəlki siyahıda saxlanılmışdır. İkinci polis sahəsindən bir qrup erməni ailəsi köçərək üçüncü polis sahəsinə (mərkəzi Əbrəqunus) getmiş, ancaq onların adları əvvəlki yaşayış yerindən çıxarılmamışdır. Sənədlərdə bu yerdəyişmələrin səbəbi kimi Cəhri kəndində iqlim şəraiti və yaşayışın daha əlverişli olduğu göstərilir [154, v. 8]. Bu faktlardan bir daha aydın olur ki, bir yerdən başqa yerə köçənlər uzun müddət siyahıda saxlanılırdı (Naxçıvan Dövlət Arxivinin fondlarında bu cür yerləşmələrlə bağlı kifayət qədər məlumatlar vardır – ***red.***).

Cəhri dairəsində əhalinin ümumi sayı 7608 nəfər (1007 ailə), bunlardan 4535 nəfəri azərbaycanlılar (458 ailə), 3073 nəfəri (549 ailə) isə əraziyə köçürülən ermənilər idi [231, s. 150-151].

Qarababa dairəsi üzrə əhalinin ümumi sayı 12794 nəfər, (1633 ailə), azərbaycanlılar 7376 nəfər (948 ailə), ermənilər isə 5418 nəfər (685 ailə) idi [231, s. 151].

Çar Rusiyası Cənubi Qafqazda özünə köklü və uzunmüddətli hərbi-siyasi dayaq yaratmaq üçün erməni köçkünləri ilə yanaşı, rus əhalisini də burada məskunlaşdırırdı [223, s. 171]. Köçürülən ruslar Azərbaycan ərazisində bir neçə məntəqə salmışdı ki, bunlardan biri də Naxçıvan ərazisindəki Karmalinovka məntəqəsi idi. Bəhs etdiyimiz dövrdə burada rus əhalisinin ümumi miqdarı 280 nəfər, ailə sayı 28 idi. Naxçıvan qəzasının birinci polis sahəsində əhalinin ümumi sayı 26468 nəfər (3338 ailə), bunlardan kişilər 14335, qadınlar 12133 nəfər təşkil edirdi [223, s. 150].

Rus çarizminin Cənubi Qafqazda apardığı ağır müstəmləkə və köçürmə siyasətinə qarşı Rusiyanın mütərəqqi fikirli adamları da açıq şəkildə öz narazılıqlarını çara qədər çatdırırdılar. Hələ XIX əsrin birinci yarısında görkəmli dövlət xadimi K.Mordinov I Aleksandrın adına göndərdiyi məlumatda Rusiyanın Qafqaz əhalisini "silah gücünə tabe etmək deyil, onları tədriclə Rusiyaya bağlamaq üçün əlverişli olan başqa üsullar" haqqında fikir yürüdürdü [109, s. 87].

Naxçıvan bölgəsinin üçüncü polis sahəsi üzrə (mərkəzi Əbrəqunus kəndi idi) əhalinin ümumi sayı 8206 nəfər, ailə sayı 1346 idi. Bunlardan, 5072 nəfəri (710 ailə) azərbaycanlılar, 3134 nəfəri (636 ailə) əraziyə köçürülən ermənilərdən ibarət idi [231, s. 151].

Qazançı dairəsi üzrə əhalinin ümumi sayı 8655 nəfərdən, 1065 ailədən ibarət idi. Bunun 7357 nəfəri (919 ailə) azərbaycanlılar, 1298 nəfəri (146 ailə) Türkmənçay müqaviləsindən sonra əraziyə köçürülən ermənilərdən ibarət idi [231, s. 151].

Nehrəm dairəsi üzrə əhalinin ümumi sayı 7371 nəfər (420 ailə) idi. Bunlardan 3444 nəfəri köçkün ermənilərin payına düşürdü.

1896-cı ildə Qafqaza köçürülən ermənilərin sayı 900000 nəfərə çatmışdır.

1908-ci ildə bu rəqəm artıq 1300000 nəfərə yüksəlmişdi. Təxminən 100000 nəfərlik təbii artımı nəzərə alsaq, 13 il müddətinə buraya məqsədli şəkildə 300000 erməni köçürüldüyünü görmüş olarıq [154, v. 60].

Cənubi Qafqaz ərazisinə köçürülüb yerləşdirilmiş özgə xalqların say tərkibini Şeremetyev bu cür göstərmişdir: ermənilər 1000000 nəfər, polyaklar 17264, çexlər 2041, talışlar 4561, moldovanlar 2724, yunanlar 82043, yəhudilər 30890, estonlar 5241, aysorlar 5028 nəfərdən ibarət idi [111, s. 60-61]. Cənubi Qafqaz ərazisinə köçürülüb yerləşdirilmiş əhalinin ümumi sayı 1147972 nəfər idi [111, s. 61]. 1907-ci il yanvarın 1-ə aid məlumatda göstərilir ki, bu zaman Cənubi Qafqaz əhalisinin sayı 6316000 nəfərə çatırdı [111, s. 61].

Dördüncü polis sahəsində (mərkəzi Ordubad şəhəri idi) Yuxarı Əylis dairəsində ermənilər daha sıx məskunlaşdırılmışdı. Bu dairədə azərbaycanlılar 2745 nəfər, ermənilər 4778 nəfər idi. Yuxarı Aza dairəsində azərbaycanlı əhali 3731, ermənilər 2639 nəfər təşkil edirdi.

12 kəndi özündə birləşdirən Çənnəb dairəsi üzrə azərbaycanlı əhali 5160 nəfər idi. Bunların 2753 nəfərini kişilər, 2407 nəfərini qadınlar təşkil edirdi [232, s. 500].

Dördüncü polis sahəsində əhalinin ümumi sayı 29372 nəfər idi ki, bunun da 15620 nəfərini kişilər, 13752 nəfərini qadınlar təşkil edirdilər. Bu sahə cəmi 52 kəndi özündə birləşdirirdi [232, s. 520].

Naxçıvan qəzasında və onun ayrı-ayrı dairələrində 1905-1910-cu illər arasında əhalinin etnik tərkibində dəyişikliklər o qədər də nəzərə çarpmır.

Şərur-Dərələyəz qəzasının birinci polis sahəsinə 62 kənd daxil idi. Burada əhalinin ümumi sayı 36678 nəfərdən ibarət olmuşdur ki, bunlardan da 30582 nəfərini azərbaycanlılar təşkil edirdi. Bu sahənin 7 dairəsinin 3-də köçürülən ermənilər yaşayırdı, onların ümumi sayı 4983 nəfərə çatırdı [232, s. 519].

Şərur-Dərələyəz qəzası üzrə əhalinin ümumi sayı 1910-cu ildə 80174 nəfər olmuşdur. Bunun 55571-i azərbaycanlılar, 23241-i ermənilər, 805-i kürdlər, 557 nəfəri aysorlar idi. Qəzanın tərkibinə 163 kənd daxil idi [111, s. 61].

Naxçıvan bölgəsində əhalinin milli tərkibi ilə bağlı bəzən ziddiyyətli faktlara da rast gəlinir. 1915-ci il inzibati bölgüsü əsasında verilən statistik məlumatlarda Naxçıvan bölgəsində (Naxçıvan və Şərur-Dərələyəz qəzaları, İrəvan qəzasının üçüncü polis və dördüncü polis sahəsinin hissəsi) 238169 nəfər (60,5%) azərbaycanlı; 155578 nəfər (33,5%) erməni əhalisinin yaşadığı göstərilir. Sürməlidə müvafiq olaraq müsəlman-türklər 66370 nəfər (63,6%), ermənilər 38411 nəfər (36,4%) təşkil edirdi [154, v. 53].

Naxçıvan bölgəsində əhalinin artma və azalmasını əvvəlki dövrlə müqayisə etdikdə artımın aşağı olduğu nəzərə çarpır. 1912-ci ildə ayrı-ayrı quberniyalarda, qəzalarda və sahələrdə əhalinin doğum və ölüm göstəricilərinə nəzər saldıqda aydın olur ki, bəhs etdiyimiz dövrdə Naxçıvan qəzasında anadan olanların sayı 3250 nəfər idi, bunun 1805 nəfəri kişi cinsindən olanların, 1445 nəfəri qadın

cinsindən olanların payına düşürdü. Həmin ildə ölənlərin sayı 1914 nəfərə çatmışdır ki, bunun da 996-sı kişi, 918-i isə qadın idi [235, s. 164].

Şərur-Dərələyəz qəzasında anadan olanlar 2462 nəfər idi. Bunun 1325-i kişi, 1137-si qadın idi. Həmin ildə ölənlərin ümumi sayı 998 nəfər idi. Bunlardan 534-ü kişi, 464-ü qadın idi. Əhalinin ümumi artımı say etibarı ilə 1464-ə çatırdı [235, s. 164].

1912-ci ildə statistik təsvirin məlumatlarında göstərilir ki, Naxçıvan qəzasında əhalinin ümumi sayı 125846 nəfər idi. Naxçıvan şəhər əhalisi 10277, Ordubad şəhəri 5384, birinci polis sahəsində (mərkəzi Naxçıvan şəhəri) 26362, ikinci polis sahəsində (mərkəzi Cəhri kəndi) 27995, üçüncü polis sahəsində (mərkəzi Əbrəqunus kəndi) 25576, dördüncü polis sahəsində (mərkəzi Ordubad şəhəri) 30252 nəfər idi [233, s. 244].

1912-ci illə müqayisədə 1913-cü ildə Naxçıvan qəzasında əhalinin sayında azalma müşahidə olunur. Qəzada əhalinin ümumi sayı 125300 nəfər idi ki, bu da 546 nəfərin azaldığını göstərir [234, s. 174]. Naxçıvan şəhərində əhalinin say tərkibinə nəzər saldıqda burada azalmanın daha çox olduğunu müşahidə edirik. 1913-cü il üzrə Naxçıvan şəhər əhalisinin ümumi sayı 8202 göstərilir [234, s. 175]. Bu təqvim məlumatlarda bəzən yanlışlıqlar da nəzər-diqqəti cəlb edir. Çünki əhali tərkibində baş verən bu azalma 2075 nəfərə çatır. Bu da ümumi qəza üzrə azalmadan dəfələrlə çoxdur.

Ordubad şəhəri üzrə isə əhalinin say tərkibində azalma müşahidə olunmur. Şəhər əhalisinin ümumi sayı 5466 nəfər, cəmi artım 1582 nəfər olmuşdur [234, s. 174]. Yalnız ayrı-ayrı sahələr üzrə əhalinin sayında azalmalar müşahidə olunur.

1916-cı il yanvarın 1-nə olan materiallarda bəhs etdiyimiz bölgə və onun ətrafında olan qəzalarda əhalinin etnik tərkibi haqqında məlumatlar aşağıdakı mənzərəni yaradır. Naxçıvan qəzasında azərbaycanlılar 81708 nəfər (59,0%), ermənilər 54209 nəfər (40,0%), Şərur-Dərələyəz qəzasında azərbaycanlılar 60183 nəfər (66,7%), ermənilər 29165 nəfər (32,3%), Zəngəzur qəzasında azərbaycanlılar 119,5 min nəfər (53,3%), Sürməli qəzasında azərbaycanlılar 66370 nəfər (63,6%), ermənilər 32,6 min nəfər (31,2%), İrəvan qəzasında azərbaycanlılar 74,2 min nəfər (48%), bütünlüklə İrəvan quberniyası üzrə isə azərbaycanlılar 423123 nəfər (37,7%), ermənilər 669871 nəfər (59,79%) idi [140, s. 35].

Qafqaz təqviminin 1917-ci ilə aid materiallarına və Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin 1919-1920-ci illərdə hazırladığı statistik cədvəllərə istinad edərək Naxçıvan bölgəsi üzrə əhalinin etnik tərkibini aydınlaşdıra bilərik. Naxçıvan qəzasında 89276 nəfər (digər sənədlərdə 69233) azərbaycanlı, 50193 nəfər (başqa materiallarda 51365 və ya 54209 nəfər – 39,6%) erməni var idi [53, v. 31].

Başqa inzibati bölgələr üzrə müvafiq olaraq Naxçıvan bölgəsinin I polis

sahəsində (mərkəzi Naxçıvan) azərbaycanlılar 25820 nəfər, ermənilər 15766 nəfər, II polis sahəsində (mərkəzi Cəhri) azərbaycanlılar 16957 nəfər, ermənilər 9679 nəfər, III polis sahəsində (mərkəzi Əbrəqunus) azərbaycanlılar 19035 nəfər, ermənilər 10930 nəfər, IV polis sahəsində (mərkəzi Ordubad) azərbaycanlılar 21964, ermənilər 13818 nəfər idi [55, v. 7]. Şərur-Dərələyəz qəzasında azərbaycanlılar 82607 (və ya 60353) [54, v. 49], ermənilər 31999 (və ya 29165) nəfər idi [53, v. 31].

Azərbaycanın ayrı-ayrı bölgələrində əhalinin etnik tərkibi bəzən düzgün göstərilmir, ermənilər bir çox xarici dövlətlərin nümayəndələrinə istədikləri yanlış məlumatları verirdilər. Hətta araşdırılan dövrün statistik göstəricilərində də bir-birindən fərqli olan rəqəmlərə rast gəlirik. Bəhs etdiyimiz dövrdə Naxçıvan bölgəsi əhalisinin etnik tərkibində azərbaycanlılar 72,3%, ermənilər 27,1%, Sürməlidə azərbaycanlılar 68%, ermənilər 30,4%, ümumən İrəvan quberniyasında azərbaycanlılar 60,2%, ermənilər 37,4% təşkil etmişdir [51, v. 61]. Bu tarixi faktlardan məlum olur ki, köçürülmə nəticəsində əhalinin etnik tərkibinin ermənilərin xeyrinə dəyişdirilməsi baş tutmamış, Azərbaycanın müxtəlif bölgələri üzrə əhalinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil etmişdir.

Bir müqayisəli faktla diqqəti erməni əhalisinin XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinədək, təqribən, bir əsr ərzində köçürülməsinədək Azərbaycanın şimalında əhalinin xüsusi çəkisinə yönəltmək istəyirik. XIX əsrin əvvəlində Şimali Azərbaycan əhalisinin cəmi 10,4%-ni, ermənilərin ən sıx məskunlaşdığı İrəvan mahalında isə (1808-ci ilədək) 20%-ni ermənilər təşkil edirdi [82, s. 27]. Bu dövrdə Cənubi Qafqazın 8081668 nəfərlik əhalisinin 4617671-i Azərbaycanda yaşayırdı və onların da 3481889-u azərbaycanlı idi.

Qafqaz təqviminin 1917-ci ilə aid məlumatlarında Naxçıvan bölgəsində əhalinin artma və azalma nisbətini nəzərdən keçirdikdə aydın olur ki, həmin ildə anadan olanların ümumi sayı 2389, bunun 1347-si kişi, 1042-si qadın idi. Həmin ildə ölənlərin sayı 1915 nəfər idi, bunlardan 1064-ü kişi, 851 nəfəri qadın idi. Bölgə üzrə təbii artım 474 nəfər təşkil edirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvan bölgəsi əhalisinin sosial tərkibində baş vermiş bəzi kəmiyyət və keyfiyyət dəyişiklərinə baxmayaraq, onun müstəmləkə mahiyyəti özünü açıq-aydın göstərirdi. XIX əsrin sonu, XX əsrin ilk on illiyində bölgənin kənd əhalisinin sayında azalma olmadığı halda, 1910-cu ildə kənd əhalisinin sayı 136536 nəfər, 1925-ci ildə isə 85315 nəfər olmuşdur [184, s. 37]. Bu azalmaya səbəb 1918-1920-ci illərdə erməni daşnaklarının bölgədə törətdikləri qırğınlar olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinski bildirirdi ki, ermənilər Qarabağın heyfini çıxaraq Naxçıvanı tutmağın zəruriliyi barədə şiddətlə danışırdılar [170, s. 121].

Naxçıvanda erməni təcavüzünün geniş miqyas alması Cənub-Qərbi Qafqazın bütün sakinlərini ciddi narahat edirdi, xüsusilə də ona görə ki, daşnaklar eyni

zamanda Zəngəzur, Qars vilayətində və Gəncə qəzasında hücumları genişləndirirdilər. Buna görə də, fevralın sonunda bütün regionların nümayəndələri İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyəti ilə birgə iclas çağırdılar. İclasda əsas rolu Əli Səbri Qasımov və həmyerlilər cəmiyyətinin sədri A.Nəcəfov oynayırdı. İclasda Azərbaycan Respublikasına ünvanlanan müraciətdə yazılırdı ki, bütün əhali daşnaklar tərəfindən kütləvi sürətdə qırılmaq təhlükəsi altındadır. Bölgə bütövlükdə demoqrafik fəlakət qarşısında qalmışdır.

Amansız döyüşlərdən sonra erməni quldur dəstələri Şərura daxil oldu və yerli əhalini qəddarcasına qırdı. Daşnaklar tutduqları ərazilərdə yerli əhaliyə qarşı amansız terror həyata keçirir, əhalini zorla öz doğma yurd yerlərindən didərgin salırdılar. 1918-1920-ci illərdə azərbaycanlı əhalinin xüsusi çəkisi azalmış, ölüm faktları artmış, doğumun səviyyəsi nəzərə çarpacaq dərəcədə aşağı düşmüşdür. Demoqrafik situasiyanın müqayisəli təhlili göstərir ki, əhalinin azalması təkcə ölüm faktları ilə deyil, həm də zorakı köçürmə və miqrasiyalarla bağlı olmuşdur. Tarixi Azərbaycan əraziləri olan indiki Ermənistan adlanan ərazidən azərbaycanlı əhalinin çox hissəsi Naxçıvan bölgəsinə və Cənubi Azərbaycan ərazilərinə pənah aparırdı. Bölgədə pərakəndəlik halı hökm sürürdü.

"Daşnaklar 1918-ci ildə əllərindən alınmış Qars vilayətini, İrəvan quberniyasının bir hissəsini müttəfiqlərdən alaraq Ermənistana birləşdirdi. Onlar bununla kifayətlənməyib Gürcüstan ərazisinə daxil olan Axalkalaki və Borçalını, Azərbaycan tərkibində olan Qarabağ, Naxçıvan diyarını, Yelizavetpol quberniyasının cənub hissəsini tələb edirdilər. Bu əraziləri zorla birləşdirmək cəhdi (Zaqafqaziyanın ingilis işğalı dövründə) Gürcüstanda (dekabr, 1918-ci il) müharibəyə və Azərbaycanda uzunmüddətli və qanlı müharibəyə gətirib çatdırdı ki, bunun da nəticəsində mübahisəli rayonların əhalisi 10-30% azalmış, bir sıra kəndlər, sözün əsl mənasında, yerlə yeksan edilmişdi" [187, s. 147].

Tarixi məlumatlar ermənilərin onlara vəd edilən bölgədə müstəqil Ermənistan dövlətini qurmaq üçün bölgədəki müsəlmanları tamamilə məhv etmək məqsədini güddüklərini aşkar edir [113, s. 125].

XX əsrin əvvəllərində yaranmış vəziyyətdən istifadə edən ermənilər Naxçıvan ərazisində olan azərbaycanlılara divan tutur, onları bu ərazilərdən qovmağa və beləliklə də bu əraziyə sahib olmağa çalışırdılar. Naxçıvan bölgəsi əhalisinə qarşı həyata keçirilmiş soyqırımı siyasəti nəticəsində 1905-1920-ci illər ərzində Naxçıvan əhalisi kəskin şəkildə - 38% azalmışdır.

Əhali statikasının ən mühüm problemlərindən biri inzibati-ərazi dəyişikliklərinin qeydə alınmasıdır. Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra onun inzibati-ərazi bölgüsü müxtəlif dəyişikliklərə məruz qalmışdır. İnzibati-ərazi dəyişikliklərinin qeydə alınması diqqət mərkəzində olmuş və bəhs etdiyimiz Qafqaz təqvimində ardıcıl olaraq göstərilmişdir [188, s. 159]. Çarizmin Şimali Azərbaycanda yaratdığı inzibati-idarə sistemi əhali arasında

ciddi narazılıq yaradırdı. Buna görə də çar hökuməti vəziyyəti stabilləşdirmək məqsədilə inzibati-idarə sahəsində islahatlar keçirməyə çalışırdı. Qeyd edək ki, çar Rusiyasının Cənubi Qafqazın idarə edilməsi ilə bağlı həyata keçirdiyi islahatlar özünü doğrultmadı.

XX əsrin əvvəllərində yüz minlərlə Azərbaycan türkü ermənilər tərəfindən qətlə yetirilmiş, Qərbi Azərbaycanın 1,5 milyon sakini öz tarixi vətənlərindən qovulmuşlar. Türksüz Ermənistan siyasətinin həyata keçirilməsi nəticəsində təkcə dörd il ərzində - 1916-cı ildən 1920-ci ilə qədər İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 375 mindən 70 minə endirilmişdir [125, s. 32].

Qeyd etmək lazımdır ki, ermənilərin çar Rusiyası tərəfindən Azərbaycan ərazilərinə köçürülərək yerləşdirilməsi heç də onların düşündükləri kimi olmadı. Çünki yerli əhali (azərbaycanlılar) onlardan (köçkün ermənilər) say etibarı ilə üstünlük təşkil edirdi. Bu hal Naxçıvan bölgəsində də belə idi.

Tarixi sənədlərdən və arxiv materiallarından aydın olur ki, 1917-ci ilin dekabrından başlayaraq 1920-ci ilin iyuluna kimi ermənilər Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında 50-dən artıq türk-müsəlman kəndlərinə basqınlar etmiş, dağıtmış, yandırmış, 73727 nəfəri vəhşicəsinə soyqırımına məruz qoymuşlar [206].

Bəhs olunan dövrdə Naxçıvan bölgəsi əhalisinin sayı 150-160 min nəfər civarında göstərilir. Beləliklə, bölgənin müsəlman əhalisinin tam yarısı soyqırımına məruz qalmış, Naxçıvan bölgəsi ən ağır demoqrafik sarsıntı dövrünü yaşamışdır. Lakin Azərbaycanın digər ərazilərində olduğu kimi, Naxçıvan bölgəsində də mübariz, qəhrəman xalqımızın yeganə nicatı qardaş Türkiyə dövləti olmuşdur.

Türkiyə Naxçıvanın ermənilər tərəfindən işğalına qarşı ölüm-dirim mübarizəsi aparan döyüşkən əhaliyə daim diplomatik və hərbi yardım göstərmiş, ermənilər tərəfindən yerli əhaliyə qarşı soyqırımının qarşısını almış, ən başlıcası isə, bu qədim türk yurdunun ermənilərin əlinə keçməsinə imkan verməmişlər [100, s. 152].

XI sovet ordusu tərəfindən Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin zorla devrilməsindən və Azərbaycanda sovet hakimiyyətinin elan olunmasından istifadə edən daşnak liderləri Naxçıvanı Azərbaycandan qopartmaq üçün cəhdlər göstərsələr də, məqsədlərinə nail ola bilmədilər.

8. XX əsrin əvvəllərində Naxçıvanda demokratik hərəkat və çarizmin buna qarşı mübarizəsi

XX əsrin əvvəllərində Azərbaycanda, o cümlədən Naxçıvan qəzasında çar hakimiyyətinə qarşı kəndli çıxışları və milli azadlıq hərəkatı get-gedə güclənirdi. Xalqların ümumi hərəkatından qorxan və Rusiyanı artmaqda olan inqilabi hərəkatdan uzaqlaşdırmaq istəyənlər 1905-1907-ci illərdə bir sıra yerlərdə olduğu kimi, Cənubi Qafqazda da milli qırğınlar törətməyə başladı. Məhz bu səbəbdən

də ərazi iddiasında olan ermənilәri qızışdırıb azərbaycanlılara qarşı qaldırmağa nail oldular. Bununla da çar hökuməti, onun çinovnik və agentləri millətlərarası ədavəti məqsədli surətdə qızışdırdılar. Onlar hər vasitə ilə qırğınlara kömək edir, iki xalq arasında sülh bağlanmasına mane olmağa çalışırdılar. Naxçıvanda fəaliyyət göstərən demokratik qüvvələr xalq kütlələrini başa salırdı ki, milli qırğınlar çar hökuməti və onun istinad etdiyi qüvvələr tərəfindən təşkil edilmişdir. Buna görə də demokratik qüvvələr milli qırğınların ümumi sinfi mübarizəyə, çarizm və mülkədarlara qarşı çevrilməsini tələb edirdilər.

Bu dövrdə xalq çıxışlarının təsiri altında demokratik hərəkat genişlənməyə başlayır. Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Eynəli bəy Sultanov və başqa qabaqcıl ziyalılar öz əsər və məqalələri ilə əsl həqiqətləri xalqa çatdırırdılar. Naxçıvan demokratik qüvvələri Mirzəli bəy Bəktaşov (Bəktaşi), Mirbağır Mirheydərzadə, Nəsrullah Şeyxov, Heydər Məmmədov, Nəcəfqulu və Rzaqulu Nəcəfovlar, Məşədi Əhməd Əzimov və başqaları "Hümmət" təşkilatının Naxçıvan qrupunu təşkil edib, mütləqiyyətə, onun əlaltılarına qarşı daha geniş mübarizəyə qoşuldular. Mirzəli bəy Bəktaşi "Hümmət"in inqilabi komitəsini polis xəfiyyə təqiblərindən qorumaq üçün Puşkin küçəsində (indiki İnqilab) "Ülfət" (Dostluq) adı altında bir çayxana açır. Çayxana "Hümmət" və "Mücahid" təşkilatlarına mənsub olub, monarxiya əleyhinə təbliğat aparan inqilabçıların görüş yeri idi. Bu onu göstərir ki, Naxçıvanda azadlıq uğrunda mübarizə aparan təşkilat 1905-ci ildən başlayaraq çar mütləqiyyəti yıxılana kimi öz işini davam etdirmişdir. Bununla yanaşı, Naxçıvan dəmiryol fəhlələri arasında fəaliyyət göstərən inqilabi təşkilatın apardığı iş də diqqəti cəlb edir. Bu təşkilatın başında Məşədi Əhməd Əzimov və Anton Belidze dururdu [73, s. 128].

Naxçıvan şəhər polis xəfiyyə idarəsi Mirzəli bəy Bəktaşinin başçılıq etdiyi təşkilatın fəaliyyətini dayandıra bilmirdi. Çayxana pərdəsi altında müharibə əleyhinə aparılan iş yenidən polis xəfiyyə idarəsinin diqqətini cəlb edir və təqib daha da güclənir. Çayxanadakı siyasi işlər barədə İrəvan quberniya polis idarəsinin rəisi polkovnik Vasilyev tərəfindən Qafqaz canişinliyi dəftərxanasına göndərilən bir məlumatda yazılır ki, dərnəyin üzvləri öz işlərini aparır, bir-birlərini şərti işarələrlə tanıyırlar, çünki yazının tapılması üzündən onlar həmin vaxtın qanunu ilə ciddi cəzalandırıla bilərdilər [166, v.1-9.]

Polis xəfiyyə agentlərinin məlumatı əsasında 1907-ci ilin sonlarında M.Bək - taşinin "Ülfət" adlı çayxanasında axtarış aparan Naxçıvan qəza polis rəisi Sorokin Qars şəhərindən olan məşhur inqilabçı Abbas ağanı, onunla bərabər Kərbəlayi Məmməd ağanı, Heydər Məmmədovu, Nəcəfqulu Nəcəfovu həbsə alıb Naxçıvan ərazisindən sürgün edir, çayxana isə İrəvan qubernatorunun əmri ilə bağlanır. Bu hadisədən hiddətlənən "Ülfət"in digər üzvləri inqilabi işə mane olan xəfiyyə agentlərini aradan götürmək məqsədilə onların adına təhqiredici məktublar yazır, həyatlarına sui-qəsd hazırlayırdılar. Tiflis şəhərində yaşayan naxçıvanlı demokratlar

Naxçıvan qəzasının sabiq polis rəisi, sonralar Kutaisi hərbi qubernatoru Slavaçinskinin adından fəaliyyətləri ilə seçilən agentləri məhv etmək məqsədilə onlara hədiyyə adı altında "cəhənnəm maşını" (yeşikdə partlayıcı bomba) göndərirlər. Bu terrorçuluq olsa da, inqilabi tədbir idi. Bu "hədiyyə"dən şübhələnən polis agentləri Slavaçinskinin adından göndərilən töhfəni açmağa cürət etmirlər. Çünki Mərənd qubernatoru, mürtəce Hacı Sultan Şücai Nizami də belə bir töhfə ilə aradan götürülmüşdü. Buna görə də töhfənin açılmasına 1-ci dairənin pristavı Berdzinyevi, onun köməkçisi Ternoru, rayon mühafizə rəisinin adyutantı, yasavul Nefedyevi dəvət edirlər. Slavaçinskinin adından göndərilən bu töhfə nişana qoyulub atıldıqdan sonra partlayır, onun "cəhənnəm maşını" olduğu məlum olur. Baş vermiş hadisədən sonra demokratik hərəkatın başçılarına qarşı polis xəfiyyə təqibi daha da güclənir. Bütün bunlara baxmayaraq Mirzəli bəy Bəktaşi, Mirheydər Mirbağırzadə xəfiyyə polis təqiblərindən qorxmur, gizli fəaliyyətlərini davam etdirirlər Mütləqiyyət quruluşuna qarşı mübarizə aparan inqilabçılardan olan Mirbağır Mirheydər oğlu Mirheydərzadə "Hümmət" təşkilatının rəhbəri Nəriman Nərimanovla 1905-ci ildə tanış olur. Bu zaman N.Nərimanov İran təbəəsi olan azərbaycanlılar arasında inqilabi iş apararaq onlara günün aktual mövzularında mühazirələr oxuyurdu. Tiflisdə Nərimanovla tanış olan Mirheydərzadə tez-tez onunla söhbətlər edir və mühazirələrinə qulaq asırdı.

M.Mirheydərzadə 1905-ci ilin yaz aylarında "Hümmət" təşkilatına, eyni zamanda Nərimanov rəhbərlik etdiyi İran inqilabçı sosial-demokrat "Mücahid" partiyasına daxil olur. Siyasi fəaliyyət dairəsini genişləndirən Mirheydərzadə Tiflisdə inqilabçılar dəstəsi ilə yaxından tanış olur. Naxçıvan ilə bilavasitə əlaqə saxlayan M.Mirheydərzadə Nəcəfovlarla birlikdə burada və Culfada "Hümmət" və "Mücahid" təşkilatlarının yaradılmasında mühüm rol oynayırlar.

Naxçıvanda inqilabçı sosial-demokrat partiyası təşkilatlarından başqa terrorçuluq yolu ilə gedən təşkilatlar da var idi. Belə bir təşkilatın başında Əsədağa Kəngərli dururdu. Özünü inqilabçı adlandıran komitə sədri Əsədağanın əmri ilə Naxçıvan şəhər yüzbaşısı Mirzə Sadıq Xəlilov öldürülür. Komitənin mənfəətinə zorakılıq yolu ilə pul vəsaiti toplanır və bir sıra varlılar hədələnir və s.

Naxçıvanda "Hümmət" təşkilatı leqal ədəbiyyatın yayılmasında da mühüm rol oynamışdır. Bu işdə Naxçıvan Culfasında ticarətlə məşğul olan M.S.Ordubadi, M.N.Şeyxov, N.Nəcəfov, Naxçıvan dəmiryol stansiyasında çilingər işləyən Məşədi Əhməd Əzimov, Anton Balidze və başqaları əhəmiyyətli işlər görürdü. Bir polis məlumatında göstərilir ki, "Hümmət"in Culfada yaşayan xadimləri İrandan aldıqları hər cür leqal ədəbiyyatı öz həmfikirlərinə göndərir, əhali arasında yayırlar [168, v. 195].

Dəmiryol fəhlələri arasında inqilabi fikir və leqal marksist ədəbiyyat təbliğ edən Məşədi Əhməd Əzimov (Ordubad rayonunun Parağa kəndindən idi) Tiflis "Hümmət" şöbəsi ilə canlı əlaqə saxlayır, leqal ədəbiyyat alır və fəhlələr arasında

yayırdı.

M.Mirheydərzadə və Mirzəli bəy Bəktaşinin başçılıq etdikləri Naxçıvan "Hümmət" qrupu sosial-demokrat partiyasının Tiflis komitəsi ilə bilavasitə əlaqədə olmuşdur. Demokratik ruhlu ədəbiyyatın Naxçıvana gətirilməsi bir daha göstərir ki, Naxçıvan "Hümmət" qrupu nəinki çar Rusiyasında, eləcə də İranda mütləqiyyət üsulunu yıxmaq üçün mühüm işlər görürdülər.

1913-1914-cü illərdə Naxçıvanda "Hümmət" qrupu öz fəaliyyətini xeyli genişləndirərək əhali arasında çarizmə qarşı təbliğat işini nəzərə çarpacaq dərəcədə gücləndirir. Lakin çox çəkmədən Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq "Hümmət" qrupu gizli iş metoduna keçir, üzvlərin xeyli hissəsi dağılır. Hərbi rejimin ağır və ciddi təqiblərinə baxmayaraq təcrübəli inqilabçılar M.Mirheydərzadə, Mirzəli bəy Bəktaşi partiya işini mövcud vəziyyətə, şəraitə uyğunlaşdırır və "Hümmət" qrupunun fəaliyyətini davam etdirirlər.

1915-1916-cı illərdə Naxçıvan "Hümmət" qrupunun tərkibi xeyli dəyişir və müxtəlif ideyalı adamlardan ibarət olur. Bir qrup M.Mirheydərzadə, Mirzəli bəy Bəktaşi, N.Şeyxov başda olmaqla "Hümmət"in inqilabi ənənəsini davam etdirərək mütləqiyyət quruluşuna, qanlı müharibə törədənlərə qarşı ciddi mübarizə aparırdı. Digər bir qrup – Kərbəlayi Qafar Ağa Səfərəlibəyov, Rauf bəy Səfərəlibəyov, Seyidəli, Əliməmməd Əliyev və başqaları terrorçuluq yolunu tuturdu. Araşdırılan polis xəfiyyə məlumatı və sənədlərdən aydın olur ki, Naxçıvanda demokratik hərəkatda, milli azadlıq mübarizəsində "Hümmət" qrupunun böyük rolu olmuşdur.

Qafqaz canişinliyinin xəfiyyə idarəsinin İrəvan quberniya xəfiyyəsinə verdiyi çox ciddi və qəti tapşırığa görə Naxçıvanda hələ 1905-1907-ci ildən mövcud olan siyasi təşkilatların ("Hümmət" qrupu, "Mücahid" partiyası, sonralar milli azadlıq ideyalı demokratik təşkilat) və partiya xadimlərinin üzərində xəfiyyə və polis nəzarəti qoyulur. Bu işə nəzarət və onlara qarşı əməliyyat keçirilməsi İrəvan quberniya xəfiyyə idarəsinin rəisi polkovnik Vasilyevə tapşırılır.

Polkovnik Vasilyev topladığı məlumatlar əsasında 24 sentyabr 1916-cı il tarixdə Qafqaz Polis Departamentinin rəisinə göndərdiyi arayışında yazırdı: "Bu ilin yazından mənə həvalə olunan idarəyə Naxçıvan şəhərində məqsədi yerli tatar (Azərbaycan) əhalisi arasında müsəlmanların birləşməsi barədə təbliğat aparmaq olan kiçik panislamist dərnəyinin yaranması haqda məlumatlar daxil olub. Dərnəyin səyləri həmçinin ona yönəlmişdir ki, müsəlmanlarda özünüdərk hissi, Türkiyə ilə həmrəylik hissi oyatsın və sonuncuya hər cür yardım etməyə təhrik etsin. Həmin dərnəyin mövcudluğuna dair kəşfiyyatın ilk məlumatları ondan başlayır ki, indiki üzvlərdən biri, Naxçıvan şəhər sakini Kərbəlayi Qafar ağa Səfərəlibəyov 1915-ci ilin sentyabrında Rəştdə ruslar tərəfindən türk səfiri (konsulu) həbs olunan vaxt keçirdiyi hisslərdən danışırdı. Məsələ ondadır ki, bu konsul Qafqazdakı panislamist hərəkatına dair bütün məlumatları özündə saxlayırdı, vəziyyət barədə yazılı məruzələr ona daxil olurdu. Səfirin həbsindən bir neçə gün

əvvəl panislamizmə dair şəxsi məruzə üçün onun yanına Tiflisdən Zeynal Məmmədov yola düşüb və özü ilə bir neçə şəxsin, o cümlədən "Molla Nəsrəddin" jurnalının əməkdaşı Faiq Nemanzadənin, Tiflis şəhərində yaşayan, ləqəbi "Sultanov" olan Eynəli bəy Sultanovun, Naxçıvan şəhərində yaşayan Kərbəlayi Qafar ağa Səfərəlibəyovun işgüzar məktublarını aparıb. Bunları bilərək və məktublarının rus hökumətinin əlinə keçəcəyindən qorxaraq Kərbəlayi Qafar ağa dərhal Naxçıvan şəhərindən Bakı şəhərinə gedib və qızının da təhlükəsizliyi üçün Bakı məktəblərinin birinə yazdırmaq üçün aparıb. Tiflisdən gedərkən qeyd olunan şəxs həyəcanlanıb, yoldaşlarından türk səfiri həbs olunarkən hansı yazışmanın ələ keçdiyi barədə soruşub. Orada Kərbəlayi Qafar ağa Səfərəlibəyov danışırdı ki, Naxçıvandakı panislamist dərnəyi İranın Xoy şəhərindəki panislamist dərnəyi ilə əlaqəlidir, Kərbəlayi Əli Babayev vasitəsi ilə ora məktublar göndərilir...

Kərbəlayi Qafar ağa Səfərəlibəyovun dedikləri kiçik bir təşkilatın mövcud olduğuna dəlalət edir. Onu tədqiq etmək üçün isə ona kəşfiyyat qoşmaq lazım idi, bu isə çox çətin iş idi. Səfərəlibəyov çox ehtiyatlı davranırdı, sirrlərini heç kimə açmırdı, lakin uzun müddətdən sonra sistematik müşahidə nəticəsində bəzi faktlar əldə olunurdu, müqayisə olunurdu və Naxçıvan şəhərindəki panislamist dərnəyinin fəaliyyəti aydınlaşırdı.

Kəşfiyyatın məlumatlarına görə, dərnəyə aşağıdakı şəxslər daxildir:

Hacı Mir Bağır Mirheydərzadə – Naxçıvan sakini, köhnə sosial demokrat, 1905-1907-ci illərdə Tiflisdə nəzarətdə saxlanılıb, İran inqilabında iştirak edib, onun Qafqazda və İranda böyük partiya əlaqələri var. Peyğəmbər nəslindəndir.

Kərbəlayi Qafar ağa Səfərəlibəyov – İran təbəəsidir, Naxçıvan şəhərində yaşayır və əkinçiliklə məşğuldur, fanatik insandır, çox işgüzardır.

Qardaşı Rauf bəy Səfərəlibəyov – İran təbəəsidir və Culfada İran konsulunun agentidir, orada yaşayır, işi ilə əlaqədar İran fəhlələri ilə daim əlaqədə olur, onlar arasında antirus təbliğatı aparır.

Mirzəli bəy Bəktaşi – 1916-cı ilədək Naxçıvan şəhərində çayxana saxlayıb, mütəmadi olaraq oraya dərnəyin üzvləri toplanır, orada təbliğat-təşviqat planları tərtib olunurdu.

Hacı Hüseynəli Qurbanov – Naxçıvan şəhərindəki dəri zavodunun sahibi, işi ilə bağlı olaraq daim ətraf kəndlilərlə əlaqəsi olur, böyük hörmətə sahibdir, bacarıqlı təbliğatçıdır.

İsmayıl bəy İsmayılbəyov – cavandır, Naxçıvan şəhərində baqqal dükanı işlədir, məkrlidir, maddi mənfəəti olan tapşırıqları yerinə yetirir.

Əliməmməd Əliyev – ləqəbi "Papış", Naxçıvan yaxınlığındakı Bulqan kənd sakinidir, meşəbəyi vəzifəsini icra edib, savadsızdır, lakin fiziki cəhətdən sağlamdır. Dərnəyin göstərişi ilə silah daşıyıb, Xoka hərbi məlumatlar aparıb. Qafqaz Hərbi Dairəsinin baş rəisinin sərəncamı ilə ona qanunsuz silah alverinə qoşulduğuna görə hərbi əməliyyatlar zamanı Qafqazda yaşaması qadağan edilib.

Mirəli (Seyidəli) Abdullayev – Culfada yaşayır, Rauf bəylə birlikdə İrandan gəlmiş fəhlələr arasında təbliğat aparır...

Bununla belə, dərnəyin üzvləri müsəlmanlarda fanatik hissələri qızışdırmağa çalışaraq onlara danışırdılar ki, Türküstan müsəlmanları türklərə qarşı vuruşmaqdan imtina edərək rus hökumətinə müqavimət göstəriblər. Bu da rusların repressiyalar törətmələrinə səbəb olub, onlar çoxlu sayda müsəlmanı asıblar, qalanları isə tabe olmaqdan imtina edərək dağlara çəkiliblər. Oradan partizan müharibəsi aparırlar.

Bu yazışmanı yekunlaşdıraraq qeyd etmək istəyirik ki, dərnəyin üzvləri öz işlərini ancaq şifahi yolla aparıblar, bütün yazılar və məktublar qəti qadağandır, dərnək üzvləri bir-birinə daim xatırladırdılar ki, işlə əlaqədar heç bir yazı yazılmasın, çünki yazıların üzə çıxması hərbi dövrün qanunları ilə ciddi cəzaya səbəb ola bilər. Buna görə də əvvəlcədən demək olar ki, axtarışların keçirilməsi ilə hansısa dəlil üzə çıxarmaq mümkün olmayacaq.

Polkovnik (imza)" [158, v. 59-86].

Naxçıvan şəhərində keçiriləcək siyasi əməliyyat, nəhayət, İrəvan quberniya xəfiyyə idarəsinin başçılığı altında 1916-cı ilin oktyabrında baş tutur. Gizli təşkilat üzvlərinin həbs edilmələri barədə, M.Mirheydərzadə öz qısa tərcümeyi-halında belə yazır: "Gizli polis məlumatına əsasən 1916-cı ilin oktyabr ayında mənim evimdə axtarış aparılandan sonra mən İrəvan quberniya jandarması tərəfindən həbs edildim. Məndən başqa yoldaş Bəktaşi, Səfərəliyev və başqaları da həbs olundular. Bizi əvvəlcə Naxçıvan həbsxanasına salıb, sonra İrəvan quberniya həbsxanasına göndərdilər" [168, v. 201-202].

M.Mirheydərzadə tərcümeyi-halında yazdığı kimi, Naxçıvanda hökumət əleyhinə olan gizli təşkilatın sirri açılır və üzvlər arasında kütləvi həbslər aparılırdı. İrəvan quberniya xəfiyyə idarəsinin siyahısındakı 40 nəfərdən 9 nəfəri həbs etmək mümkün olmadığından 31 nəfər həbsə alınmışdır. Onlardan Naxçıvan şəhər sakini Mirzəlibəy Bəktaşov (Bəktaşi), Kərbəlayi Əli Babayev, M.Mirheydərzadə, Hacı Mehdi Bağırov, İsmayıl bəy Camalbəyov, Ələkbər Babayev, Hacı Hüseynəli Qurbanov, Mirzə Cabbar Bektaşev, Seyid Rza Seyidov, Naxçıvan qəzasının Qaraçuq kənd sakini K. Ələkbər, K.Baba oğlu, Cəhri kənd sakini Məşədi Abbas Zal oğlu, Naxçıvan qəzasının Culfa bölgəsindən Rauf bəy Səfərəlibəyov, Mirəli Abdullayev, Yaycı kənd sakini Cabbar Hüseyn oğlu, Molla Mahmud Çakər, Qasım Hacıəli oğlu, Naxçıvan qəzası Zeynəddin kənd sakini K.Qasım Hüseyn oğlu, Naxçıvan qəzası Parağa kənd sakini M.Hüseyn Əliyev, Nehrəm kənd sakini Mirzə Mahmud Əsgərov və başqaları həbsə alınıb İrəvan quberniya həbsxanasına göndərilirlər [85].

Onlar 1917-ci il fevral inqilabına kimi İrəvan quberniya həbsxanasında siyasi məhbus kimi saxlanılmış, sonra həbsdən azad olub Naxçıvana qayıdaraq öz işlərini davam etdirmişlər.

Göründüyü kimi, XX əsrin əvvəllərində çar mütləqiyyətinə qarşı yönəlmiş demokratik hərəkat Naxçıvanda da geniş yayılmışdı.

9. Ermənilərin Naxçıvanda törətdikləri soyqırımlar (1918–1920-ci illər)

1917-ci ildə Rusiyada müxtəlif siyasi rejimlərin bir-birini əvəz etməsinə baxmayaraq həm çarizm, həm Müvəqqəti hökumət, həm də bolşeviklər "erməni məsələsi"nə münasibətdə eyni mövqedən çıxış edirdilər. Buna görə də rus hakimiyyət dairələrinin antiazərbaycan siyasəti Naxçıvan bölgəsində 1917-ci ildən öz nəticəsini göstərməyə başladı. Azərbaycanlılara qarşı təqib və təzyiq siyasəti yürüdüldü, hətta 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğın törədən ermənilərə müqavimət göstərənləri incitməyə, azərbaycanlı əhalini siyasi cəhətdən hüquqsuz vəziyyətə salmağa başladılar.

1917-ci ilin mayında Cəhri kənd sakini Məşədi Abbas Zal oğlu Xüsusi Zaqafqaziya Komitəsinə (XZK) yazdığı şikayət məktubunda 1905-ci ildə bir ermənini öldürməyə cəhddə günahlandırılaraq 8 ay həbsdə yatdığını, Müvəqqəti hökumətin 17 mart 1917-ci il tarixli qərarı ilə özünün bütün hüquq və imtiyazlarının bərpa edildiyini, lakin buna baxmayaraq 1917-ci il mayın 24-də Cəhridə keçirilən seçkilərə buraxılmadığını yazırdı [153, v. 17]. Ermənilərin Naxçıvanda separatçılıq hərəkətləri ayrı-ayrı yaşayış məntəqələrinin idarəçiliyində özlərinə xüsusi imtiyazlar əldə etməyə yönəlmişdi və bu, azərbaycanlılara qarşı düşmənçilik mövqeyindən irəli gəlirdi. Qəza müvəkkili B.Şahtaxtinskinin 21 oktyabr 1917-ci il tarixli 115 №-li məktubuna əsaslanan XZK noyabrın 4-də İrəvan quberniyasının komissarına yazırdı ki, Yamxana, Qaraxanbəyli və Tumbul kəndlərində yaşayan ermənilər bu yaşayış məntəqələrinin xüsusi kənd cəmiyyətləri kimi ayrılmaları barədə icma qərarları çıxarmışlar [153, v. 84]. Lakin həmin kəndlərin heç birində ermənilər çoxluq təşkil etmirdilər.

Şərur-Dərələyəz qəzasının müvəkkili L.Əmirxanov 1917-ci il iyulun 27-də XZK-ya göndərdiyi məktubunda İran kürdlərinin onun rəhbərlik etdiyi qəza ilə Yeni Bəyazid qəzasının həmsərhəd kəndlərinə talançı hücumlarından və əhalinin hücuma məruz qalmasından şikayətlənir, guya yerli müsəlmanların da kürdlərə kömək etdiyini yazırdı. Naxçıvanın qəza müvəkkili Mxitaryans da 2 sentyabr 1917-ci il tarixli teleqramında yazırdı ki, "Bizdə də quldur dəstələri peyda olub, hər yerdə tez-tez qətllər olur, oğurlayırlar, əhali, xüsusilə erməni əhali əziyyət çəkir" [153, v. 146-147, 107]. Teleqram yeni təyin olunmuş azərbaycanlı müvəkkil B.Şahtaxtinskinin Naxçıvana gəlişindən bir neçə gün əvvəl (o, sentyabrın 8-də Naxçıvana gəlmişdi – ***red.***) göndərilmişdi. 1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində Naxçıvan qəzasında müxtəlif vəzifələrə təyin edilmiş ermənilər də Zaqafqaziya Komissarlığına göndərdikləri məlumatlarda [153, v. 1-7] "kürd-tatar" silahlı dəstələrinin ermənilər yaşayan ərazilərə qanlı və talançı yürüşləri barədə yazırdılar.

1917-ci il dekabrın 17-də Naxçıvan şəhər dəmiryolunda xidmət edən bir

rus kazakının silahının azərbaycanlılar kimi geyinmiş Qaraxanbəyli kəndinin erməni sakini tərəfindən oğurlanmasından istifadə edən ermənilər rus əsgərləri ilə azərbaycanlı əhali arasında düşmənçiliyin yaradılmasına nail oldular. Nəticədə rus-erməni silahlı dəstələri dekabrın 22-23-də Naxçıvan şəhərinin azərbaycanlılar yaşayan məhəllələrini atəşə tutdular. Bu hadisə dərhal kütləvi qırğınların başlanmasına səbəb olmasa da, bunun üçün artıq zəmin hazırlanırdı.

Artıq bölgədə etnik əsaslarla yerli idarəçilik orqanları kimi yaradılan müsəlman və erməni milli komitələri Naxçıvan şəhərində və ətraf kəndlərdə idarəçilik səlahiyyətlərini öz əllərinə almışdılar. Hər iki milli komitə özünün hərbi qüvvələrini də yaratmışdı. Milli məsələnin getdikcə kəskinləşdiyi mərhələdə türk-müsəlman əsgərlərinin komandiri və onun müavini "bəzi mühüm məsələləri həll etmək üçün" Tiflisə getdi, lakin bir daha geri qayıtmadılar.

Bu hadisə müsəlman hərbi təşkilatının dağılmasına, onun hərbi sursatının isə ermənilərin əlinə keçməsinə səbəb oldu. 1918-ci il yanvarın 17-də (yeni tarixlə yanvarın 30-da – ***red.***) ermənilər Çalxanqala kəndində 20-dən çox azərbaycanlını qətlə yetirdilər [92, s. 10].

Yaranmış vəziyyətdən istifadə edən ermənilər 1918-ci il yanvarın 14-də Saak Torosyanın İrəvan quberniya komissarı təyin edilməsinə nail oldular. S.Torosyan Zaqafqaziya Komissarlığının daxili işlər komissarı A.Çxenkeliyə, Maliyyə naziri Karçikyana vurduğu teleqramlarda quberniyadakı ağır vəziyyətdən, milli qarşıdurmanın güclənməsindən şikayətlənir, təcili kömək istəyirdi. O, baş verən silahlı toqquşmaların məsuliyyətini azərbaycanlıların üzərinə qoyur, ermənilərdən ibarət hərbi hissələrin köməyə göndərilməsini xahiş edirdi. Azərbaycanlı əhalinin vəziyyətini ağırlaşdıran daha bir hadisə Rusiya ilə Türkiyə arasında 1917-ci il dekabrın 5-də bağlanmış Ərzincan sazişinə əsasən I Dünya müharibəsini tərk etmiş rus ordusunun silahlarının ermənilərə verilməsi oldu. Bu, erməni hərbi birləşmələrinin Azərbaycanın bütün bölgələrinə, o cümlədən Naxçıvana irimiqyaslı hücumlarına rəvac verən həlledici amil oldu. Zaqafqaziya Komissarlığının silahlanma məsələsində ayrı-seçkilik siyasəti azərbaycanlı əha - linin komissarlıqdan narazılığına səbəb oldu. A.Səfikürdski azərbaycanlıların bölgədə çoxluq təşkil etdiyini nəzərdə tutaraq qeyd edirdi ki, "Transqafqazda kiçik qardaşlar olan ermənilər və gürcülər silahlandırıldıqları halda, böyük qardaş olan müsəlmanlara silah verilmədi" [105, s. 39]. Nəticədə 1918-ci ilin ilk aylarından baş verən qanlı hadisələrin iştirakçıları "bir tərəfdə qeyri-mütəşəkkil müsəlman kütləsi, digər tərəfdə mütəşəkkil erməni nizami hərbi hissələri" [153, v. 44] idi. Bu zamanadək Cənubi Azərbaycanın Urmiya, Səlmas və Xoy şəhərlərində qanlı cinayətlər törədən ermənilər Naxçıvanda da fəallaşdılar. İlk silahlı münaqişələrdə azərbaycanlı əhalinin ciddi müqaviməti ilə üzləşən ermənilər vaxt qazanmaq üçün sülh təklifi ilə çıxış etdilər. Lakin cəmi bir neçə gün sonra mövqelər dəyişildi: bu dəfə müsəlman milli komitəsinin sülh təklifinə qarşılıq

olaraq 1918-ci il martın 23-də [92, s.13-14] xaricdən xeyli silah-sursat almış ermənilər azərbaycanlılardakı topların, silahların onlara təhvil verilməsi şərtini irəli sürdülər. Azərbaycanlı əhali Naxçıvanın asanlıqla işğalına səbəb olacaq bu təxribata getmədi.

Lakin ermənilər artıq, Naxçıvan da daxil olmaqla, İrəvan quberniyasında 1918-ci ilin mart ayınadək 199 kəndi yandıraraq dağıtmış, 135 min azərbaycanlını öldürmüş və ya qaçqına çevirmişdi [134, s. 398].

1918-ci il aprelin 13-də ermənilər Əlincəçay vadisində yerləşən Bənəniyar, Qızılca, Saltaq, Göydərə, Xoşkeşin və digər kəndlərə hücum edərək bu yaşayış məntəqələrini dağıdıb əhalisini qırdılar. Sağ qalanlar digər kəndlərə sığındılar. Bunun ardınca Qaraxanbəyli kəndinin silahlı erməni dəstələri Nehrəmə basqın etdi [92, s. 21-22]. Aprelin 16-da ermənilərin öldürdüyü 6 nəfər nehrəmlinin meyiti Müsəlman Milli Komitəsinin sədri Mirzə Nəsrullah Əmirova təhvil verilmişdi. Onlardan birinin başı kəsilmiş, digərlərinin isə meyitləri yandırılaraq tanınmaz hala salınmışdı. Hər gün İrəvan qəzasının erməni kəndlərindən gələn kömək hesabına güclənən ermənilər Naxçıvan şəhərinin müxtəlif məhəllələrini ələ keçirdilər. Həmin məhəllələrin Araz çayı sahilindəki Qaraçuq kəndinə sığınan sakinləri burada da Qaraxanbəyli kəndindəki erməni dəstələrinin silahlı hücumlarına məruz qaldılar.

1918-ci il aprelin 21-də sülh təklifinə qarşı ermənilərin irəli sürdükləri 7 maddədən ibarət şərtlərdə əsas tələb azərbaycanlı əhalidə olan 12 topun ermənilərə təhvil verilməsi idi. Bu tələb yerinə yetirilmədi. Həmin günlərdə türk osmanlı ordularının Maku və İqdır istiqamətində rus-erməni qüvvələrinə qarşı müzəffər yürüşləri barədə xəbərlər Naxçıvanda sürətlə yayıldı. Hətta Türkiyənin I Qafqaz kolordusu komandanı Kazım Qarabəkirin imzası ilə Naxçıvan Müsəlman Milli Komitəsinə daxil olan məktubda türk ordusunun tezliklə Naxçıvana köməyə gələcəyi bildirilirdi [107, s. 25-26]. Bu xəbər aprelin 25-26-da Naxçıvandakı erməni qarnizonunun rəisi Yero Xarazyanın Rəhim xan, M.N.Əmirov və Abbasqulu Tahirovdan ibarət nümayəndə heyəti ilə danışıqlarda sülh təşəbbüsü ilə çıxış etməsində böyük rol oynadı. M.N.Əmirovun ermənilərin törətdikləri qətl cinayətlərinin qarşısının alınması barədəki tələbinə Y.Xarazyanın cavabı belə olmuşdu: "Sizin bu haqlı tələbiniz qarşısında mən söz deməyə xəcalət çəkirəm. Bilmirəm nə edim. Hərgah biləm ki, mənim qanımı tökməklə ermənilər sakit olacaqsa, mən bu saat özümü öldürərəm. Ancaq yəqin bilirəm ki, iş bununla bitməyəcək. Erməni millətini mən sakit edə bilməyəcəyəm. Buna mənim qüvvəm, gücüm çatmayacaq" [107, s. 19]. Onun cavabından aydın olurdu ki, qanlı hadisələr mütəşəkkil şəkildə kənardan idarə olunur.

Mayın 3-də ermənilərlə keçirilən növbəti görüşdə qərara alındı ki, hər bir şəhərə və rayona biri azərbaycanlı, digəri erməni olmaqla iki komissar təyin edilsin. Bu prinsip ictimai asayişi qoruyacaq polis qüvvələrinin rəhbərliyinə də şamil edildi. Azərbaycanlılardan Abbasqulu Tahirov, ermənilərdən isə Ruben



Azərbaycanlılara qarşı törədilən soyqırım (1918-1920-ci illər)

15 iyul 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qərarına əsasən erməni silahlı dəstələrinin dinc Azərbaycan əhalisinə qarşı törətdiyi soyqırımı və əmlakın talan olunması ilə əlaqədar vəhşilikləri araşdıran Fövqəladə Təhqiqat Komissiyası yaradılmışdır.

1918-1921-ci illərdə erməni daşnakları Naxçıvanda 100 minə yaxın azərbaycanlını qətlə yetirmişdir.

1918-1920-ci illər



Naxçıvanda ermənilərin törətdikləri soyqırımlar (1918-1920-ci illər)

Babaxanov Naxçıvan şəhərinin rəisliyinə təyin olundular. Lakin bu da vəziyyəti dəyişmədi.

Mayın 10-da osmanlı əsgərlərinin Şahtaxtı kəndinə daxil olması xəbərini

eşidən ermənilər İrəvandan 6 top, 2 mindən artıq güllə və başqa sursatlar gətirərək 1800 nəfərlik silahlı dəstələrlə Naxçıvanda hərbi nümayiş keçirdilər. Ardınca bölgənin kəndlərində ermənilər tərəfində qətl və talanlar başlandı. Ordubadın Vənənd və onunla qonşu olan bir neçə kəndi erməni birləşmələrinin hücumuna məruz qaldı. Mayın 16-da Y.Xarazyan Qaraxanbəyli kəndinə, oradan isə Culfaya gedərək öz dəstəsinin sıralarını genişləndirməyə başladı [92, s. 34-35]. O guya erməni əhalini intizama dəvət etmək adı altında Güznüt və Əbrəqunus kəndlərində də öz dəstəsinə əlavə qüvvələr cəlb etdi.

1918-ci il may ayının sonlarında Cənubi Qafqazda yeni tarixi şərait yarandı. Mayın 28-də Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Azərbaycan Xalq Cümhuriyyəti ilə eyni vaxtda Qərbi Azərbaycan torpaqlarında işğalçı daşnak rejimi quruldu. Cümhuriyyətin yaradılması dövlətçilik tariximizdə çox mühüm hadisə idi. Bu, torpaqlarımızın erməni təcavüzündən daha uğurla qorunacağına, ərazi bütövlüyümüzün təmin ediləcəyinə böyük ümidlər yaratmışdı. İki ilə yaxın mövcudluğu dövründə cümhuriyyət hökuməti süni şəkildə mübahisə obyektinə çevrilən ərazilər uğrunda gərgin diplomatik və silahlı mübarizə apardı.

1918-ci il iyunun 4-də Batumda Türkiyə ilə Azərbaycan arasında dostluq müqaviləsi imzalandı. Müqavilənin 4-cü maddəsi Türkiyənin Azərbaycana siyasi-hərbi yardım göstərməsini nəzərdə tuturdu. Türkiyə nümayəndə heyətinin başçısı, bu ölkənin ədliyyə naziri Xəlil bəy Məntəşə bolşevizmlə mübarizə zərurətini əsas gətirərək Batum-Bakı və Gümrü-Culfa dəmiryolunun Türkiyənin nəzarətinə verilməsini tələb edirdi. Eyni zamanda, Türkiyənin təklif etdiyi "Osmanlı imperiyası ilə Cənubi Qafqaz konfederativ respublikası arasında sülh və dostluq haqqında müqavilə"nin şərtlərinə görə, 1829-cu ildə Rusiya ilə bağlanmış Ədirnə sülhündən əvvəlki sərhədlər bərpa edilməli və Cənubi Qafqazdan Türkiyəyə 1 milyon 250 min əhalisi olan 38 min km^2 ərazi verilməli idi [65, s. 42].

1918-ci ildə Birinci Dünya müharibəsi cəbhələrində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü və sabit yerli hakimiyyətin qurulmasına maraq göstərirdi. Bu məqsədlə mayın 17-də Naxçıvana göndərilən Xəlil bəyin başçılığı ilə bir qrup osmanlı hərbçisi Şahtaxtı kəndində iqamətgah yaratmışdılar. Topçu Hüsnü Əfəndi Naxçıvanda azərbaycanlılardan ibarət hərbi dəstələr təşkil edilməsi, topçuların hazırlanması ilə məşğul olmağa başladı. Osmanlı əsgərlərinin gəlişindən sonra bir tərəfdən Şahtaxtı ətrafındakı kəndlərdən ermənilərin köçü müşahidə olunurdusa, digər tərəfdən Əlincəçay vadisi kəndlərində, xüsusən Əbrəqunusda yaşayan ermənilər Qazançı kəndinə toplaşırdılar. Bu zaman Naxçıvanda olan 8 ədəd rus dağ topundan dördü 34 mərmi ilə birlikdə Şahtaxtıya aparılmışdı. Bundan xəbər tutan ermənilər daha 50 mərmini Şahtaxtıya aparan azərbaycanlını əsir götürmüş, Y.Xarazyan Müsəlman Milli Komitəsinə sursat daşınması ilə bağlı öz etirazını bildirmişdi. M.N.Əmirov topçu Hüsnü Əfəndinin Naxçıvandan geri çağırılmasını təklif etdiyindən Xəlil bəy mayın 29-da hər iki tərəfdən könüllü

tərksilah olunmalarını tələb etmişdi.

Bu tələbə məhəl qoymayan Y.Xarazyanın silahlı dəstələri mayın 31-də Culfadan çıxaraq yolboyu kəndlərə basqın edə-edə Naxçıvana doğru irəliləməyə başladı. İyunun 2-də isə Aza kəndinin erməni silahlıları ilə Yaycı kəndinin müdafiəçiləri arasında qanlı döyüşlər getdi. İyunun 3-də Əbrəqunus və Qazançı kəndindən olan silahlı erməni dəstələri Bənəniyar, Ərəzin, Göydərə və Xanağa kəndlərinə hücum edərək biri qadın olmaqla 7 nəfəri əsir götürdülər. Çalxanqala ermənilər isə Lizburt kəndini talan edərək iki nəfəri öldürüb bir neçəsini də yaraladılar. Lakin Xanlıqlar kəndində yaşayan ermənilər iyunun 8-də Xəlil bəyə təslim olduqlarını bildirdilər.

Xəlil bəyin bölgədə sülh yaratmaq təşəbbüsləri Andranik Ozanyanın Naxçıvana hücumu ərəfəsinə təsadüf etdiyindən uğur qazanmırdı. Andranikin yürüşü barədə xəbərlər ermənilərı daha da azğınlaşdırmışdı. 1918-ci il iyunun əvvəllərində 8 min əsgər, 4 top, 6 pulemyot və s. ibarət qüvvə ilə İrəvandan çıxan [140, s. 57] Andranik Göyçə mahalına gəldi. O, iyunun 8-də Göyçə mahalının Yelenovka kəndindən hərəkətə başladı, Yeni Bəyazid qəzasından keçərək iyunun 19-da Naxçıvan şəhərinə daxil oldu. Onunla eyni gündə Cənubi Azərbaycandan keçib Culfadan qatarla gələn osmanlı topçu zabitləri Hüsnü bəy, Helmi bəy və Şükrü bəyin başçılıq etdikləri daha bir türk hərbi qüvvəsinin Naxçıvana daxil olması Andranikin qanlı qırğınlara bilavasitə Naxçıvan şəhərindən başlamaq planının qarşısını aldı.

Andranik Naxçıvan şəhərindən Culfaya doğru hərəkət etməyə və qarşısına çıxan bütün kəndlərin əhalisinə qarşı kütləvi qətl törətməyə başladı. Osmanlı qoşun hissələrinin bölgədə rahat hərəkət etməsinin qarşısını almaq üçün Andranikin ordusu yol boyu bütün körpü və tunelləri dağıtdı. Andranik iyunun 21-də iki saatlıq döyüşdən sonra Culfa şəhərini ələ keçirərək İrana gedən körpünü nəzarətə götürdü və körpünün mühafizəsini təmin edən 2 osmanlı zabiti və 20 əsgərini də əsir aldı [153, v. 183].

Culfanı işğal etdikdən sonra Andranik S.Şaumyana göndərdiyi 22 iyun 1918-ci il tarixli 577 №-li teleqramında yazırdı: "Culfa mənim əlimdədir, istədiyiniz vaxt onu sizin sərəncamınıza verə bilərəm". O, həmçinin mərkəzi Rusiya hökumətinin sərəncamına keçdiyini və Bakı kommunasına yardım göstərməyə hazır olduğunu bildirirdi. S.Şaumyan "Culfa, xalq rəhbəri Andranikə" sözləri ilə başlayan cavab teleqramında bildirirdi: "Sizin teleqramı aldım. Bütün mətni Moskvaya mərkəzi hökumətə xəbər verdim. Mən şəxsən sizi, həqiqi milli qəhrəmanı təbrik edirəm. Əgər cənab Kaçaznuni və başqaları sizin kimi olsaydılar, erməni xalqı indi belə çətinliklə yaşamazdı... Əgər türk bəyliyinə və xanlığına, gürcü hakimiyyətinə, erməni burjuaziyasına qalib gəlsək, o zaman bütün Cənubi Qafqazın birliyinə nail olarıq... Mənimlə əlaqə yaratmaq üçün yollar aramağı rica edirəm" [83]. Bir gün sonra Andranikin 3 min piyada, 700 süvaridən ibarət qoşunu Xoydan 30 km aralıda yerləşən Evoğlu kəndinə daxil oldular. Bu zaman onlar Osmanlı or-

dusunun daha 4 zabitini və 200 əsgərini əsir almış, türklərə məxsus 2 topu və 3 pulemyotu qənimət kimi ələ keçirmişdilər.

Urmiya gölünün şimal və şimal-qərb hövzəsində yerləşən Cənubi Azərbaycan kəndlərində kütləvi qırğın və qarətlər törədən Andranikin silahlı dəstələri iyunun 24-də bir neçə saatlığa Xoyu ələ keçirməyə müvəffəq olsa da, elə həmin gün Osmanlı ordusuna məğlub olaraq şəhərdən qovuldular. Burada ingilis orduları ilə birləşmək planı baş tutmayan Andranik Naxçıvana doğru qayıdaraq Araz çayını keçdikdən sonra çayın üzərindəki Culfa körpüsünü dağıtdı. Bundan sonra o, Xoy yaxınlığındakı məğlubiyyətinin qisasını naxçıvanlılardan almağa başladı. Araz çayı sahilindəki 4 min nəfər əhalisi olan Yaycı kəndı yerlə yeksan edildi, 2500 nəfər öldürüldü və Araz çayında boğduruldu [140, s. 61]. Andranik Yaycı kəndinin işğalı zamanı qənimət olaraq 3 top, 1 pulemyot və 4 milyon patron ələ keçirdi. Ermənilərin süngüsündən İrana qaçmağa cəhd edən dinc yaycılıların bir çoxu, xüsusilə qadınlar, qocalar və uşaqlar Araz çayını keçərkən boğuldular. Zəngəzurun Araz çayı sahilində yerləşən Nüvədi kəndinin əhalisi Araz çayından yüzlərlə yaycılının cəsədlərini çıxararaq kəndin yaxınlığında dəfn etmişdilər. Yaycı soyqırımının qurbanlarının sayı o qədər çox idi ki, böyük bir məzarlıq əmələ gəlmişdi. Hazırda erməni işğalı altında olan həmin məzarlıq Nüvədi kəndində elə o vaxtdan "Yaycı qəbiristanlığı" adlandırılırdı.

Yaycının işğalından və dağıdılmasından sonra Ordubad istiqamətində irəliləyən Andranikin ordusu qarşısına çıxan bütün kəndləri dağıdaraq ermənilərin sıx yaşadıqları Çənnəb kəndində məskən saldı. Onun Ordubada yürüşü 2 min dinc azərbaycanlının qətlə yetirilməsi və qaçıb qurtarmaq istəyən daha 300 nəfərin Araz çayını keçərkən boğularaq ölməsi ilə nəticələndi. Andranik buradan 4 min nəfərlik qoşunu ilə Naxçıvan şəhərinə doğru hərəkət etməyə başladı. Ordubad ətrafı, Əlincə çayı hövzəsi və Şahbuz kəndlərinin əhalisi tərksilah olundu, dinc əhalinin xeyli hissəsi soyqırımına məruz qaldı. Şahbuzun Qarababa və Badamlı kəndlərində yaşayan ermənilər Nurs, Şahbuz, Kolanı, Gecəzur, Hənzər, Daylaqlı, Mahmudoba və s. kəndlərində kütləvi qətllər və qarət törətdilər. Əlincə çayı hövzəsinin Əbrəqunus, Qazançı, Paradaş və Şurut kəndlərində yaşayan ermənilər də Baş Anzır, Ayaq Anzır, Xanağa, Bənəniyar, Camaldın, Ərəzin, Kırna və digər kəndlərin əhalisinə qarşı qanlı qırğınlar həyata keçirdilər. Bu kəndlərin sağ qalan əhalisinin bir qismi qaçaraq başqa kəndlərə, digər qismi isə dağlara sığındılar. Həmin ərazidə təkcə Xanağada 400 nəfərlik erməni silahlı dəstələri məskən salmışdı. Bu dövrdə azərbaycanlı əhali üçün vəziyyəti kəskinləşdirən daha bir amil Naxçıvanda və ətraf kəndlərdə vəba epidemiyasının yayılması idi. Xəstəlikdən hər gün bir neçə adamın dünyasını dəyişməsi adi hal almışdı [92, s. 58-67].

Andranik 1918-ci il iyulun 15-də Naxçıvan qəzası əhalisinin tərksilah olunması haqqında əmr vermiş və bölgədə hərbi hakimiyyət yaratdığını elan etmişdi. Onun imzaladığı əmrdə deyilirdi: "1. Bu gündən etibarən öz dəstəm ilə tamamən mərkəzi

Rusiya Respublikası hökumətinin tabeliyinə və sərəncamına keçirəm; 2. Brest-Litovsk müqaviləsinə görə Naxçıvan Rusiya Respublikasının ayrılmaz hissəsidir; 3. Qəzada hərbi vəziyyət elan edirəm; 4. Milliyyətindən asılı olmayaraq bütün qəza əhalisi dərhal tərksilah olunmalıdır; 5. Respublika hökumətini tanımayan, yaxud onun düşmənlərinə kömək edənlər Rusiyanın satqını və qanundankənar hesab edilərək ağır cəzaya məruz qalacaqlar; 6. Ayrı-ayrı şəxslərdə və ictimai təşkilatlarda olan bütün silah növləri, geyimlər və ümumiyyətlə, digər təchizatlar iki gün ərzində dərhal hərbi hökumətin sərəncamına verilməlidir" [218, s. 132].

Iyulun 17-də Andranikin qüvvələri Güznüt kəndindən keçməklə bölgənin ən böyük kəndi olan Nehrəmə hücum etdi. Nehrəmlilər ermənilərin bölgədə törətdikləri qırğınlardan məlumatlı idilər və buna görə də kəndin müdafiəsi üçün mümkün hazırlıq görülmüşdü. Kəndə hücumu zamanı mərdliklə müdafiə olunan nehrəmlilər düşmənə 25 nəfər tələfat verib, ermənilərin 60-dək silahını qənimət kimi ələ keçirərək Andranikin dəstələrini geri oturtdular [153, v.103-105]. Üç günlük döyüşdə ciddi itki verdiyini, daha ətrafdakı kəndlərdən silahlı ermənilərin yardıma gəlmədiyini, Nehrəmin işğalının da mümkün olmayacağını anlayan Andranik kəndin kənarında zəbt etdiyi bir-iki evi yandıraraq geri çəkilməyə məcbur oldu.

İyulun 18-də Qaraxanbəylidəki silahlı erməni dəstələri Naxçıvan şəhərinə hücum etdilər. Ermənilərin Andranikin adından növbəti dəfə verdikləri tərksilah tələbinə osmanlı çavuşu Mustafanın başçılıq etdiyi könüllü müdafiə dəstələri tərəfindən əks-hücumla cavab verildi. Bir gün sonra Culfadan keçməklə Cənubi Azərbaycandan Naxçıvana doğru irəliləyən Osmanlı orduları erməni qüvvələrini sıxışdırmağa başladı. İyulun 20-də Şıxmahmud və Əliabad kəndlərini ermənilərdən təmizləyən Xəlil bəy, Cavid bəy, Osman Nuri bəy, Həsən bəy və Akif bəyin başçılığı altındakı Osmanlı hərbi qüvvələri elə həmin gün Naxçıvan şəhərini də erməni dəstələrinin işğalından tam azad etdilər. Şəhər uğrunda döyüşlərdə 20-dən çox osmanlı əsgəri həlak oldu. Türk ordusunun öz qüvvəsini Naxçıvanın azad edilməsinə səfərbər etməsindən istifadə edən ermənilər Dərələyəz kəndlərinin dinc əhalisinə qarşı kütləvi qırğınlar törətdilər. Naxçıvandan və ətraf kəndlərdən qovulub çıxarılan erməni dəstələri Sirab, Qahab və Qaraqala kəndlərini talan edərək əhalinin xeyli hissəsini qırdılar.

Osmanlı ordusunun XI Qafqaz diviziyası iyulun 22-23-də Culfa şəhərini də Andranikin qüvvələrindən təmizlədi. Diviziyanın bir alayı Culfada, digər bir alayı da Şahtaxtıda saxlanılaraq qalan bütün qüvvələr Naxçıvan şəhərində cəmləşdi. İyulun 24-dən 31-dək Naxçıvan qəzasının azərbaycanlı gənclərindən ibarət min nəfərlik hərbi qüvvə təşkil olundu və bölgəyə yeni göndərilmiş Osmanlı ordularının XI alay komandanı Sürəyya bəyin sərəncamına verildi.

Andranik yenidən qüvvə toplamaq üçün iyulun sonlarında Əbrəqunusa sığındı. Lakin o, burada bölgə kəndlərində yaşayan ermənilərin vəd etdikləri 6 min

nəfərlik əlavə silahlı qüvvəni toplaya bilmədi. Sonralar Əbrəqunus ermənilər tərəfindən bu dəfə rəğbətlə qarşılanmadığını etiraf edən Andranik burada zəruri səfərbərlik həyata keçirə bilməməyindən də gileylənmişdi [241, s. 129-130]. Buna görə də o, yenidən Naxçıvan üzərinə hücuma keçmək fikrindən daşındı. İyulun son günlərində Əbrəqunusda, avqustun 3-də isə Naxçıvan dəmiryolu stansiyası yaxınlığındakı döyüşdə yenidən Osmanlı hərbi qüvvələrinə məğlub olan Andranik Ordubada doğru hərəkət etdi, Bist, Nəsirvaz kəndlərindən keçərək Oxçu vadisi ilə Qafana, avqust ayının axırlarında isə oradan Gorusa gələrək burada məskən saldı [153, v. 199] və qanlı cinayətlərini Zəngəzurda davam etdirməyə başladı.

Andranikin 1918-ci ilin iyun-iyul aylarını əhatə edən təxminən iki aylıq Naxçıvan yürüşü bölgə üçün ağır nəticələrə səbəb oldu. O, əvvəlki illərdə Şərqi Anadoluda dinc əhaliyə qarşı həyata keçirdiyi soyqırımı indi Naxçıvanda təkrarlamışdı. Təkcə Gilançay və Əlincə çayı hövzələrində yerləşən 80-dən çox kənd Andranikin silahlı dəstələri tərəfindən viran qoyulmuş, əhalisinin böyük qismi qırılaraq məhv edilmişdi. Onun dəstə başçılarından olan Njdenin qüvvələri Culfanın Ərəzin, Camaldın, Yaycı, Dizə, Ordubad mahalının Aşağı Aza, Sabir Dizə, Baş Dizə, Düylün, Vənənd, Dəstə, Kotam və s. kəndlərini dağıdıb əhaliyə divan tutmuşdu.

1918-ci il avqustun 7-də Naxçıvana gələn XI Ordu komandanı K.Qarabəkir paşanın tabeliyində olan hərbi qüvvələr Naxçıvan bölgəsi üzərində tam nəzarəti ələ aldıqdan sonra Cənubi Azərbaycana hərəkət etdi. Osmanlı ordusu qərargahının 1918-ci il avqustun 23-ə olan məlumatında bildirilirdi ki, Zəngəzurda və ətrafında 8 mindən çox canlı qüvvə toplayan Andranik hücuma hazırlaşır. Avqustun 28-də Naxçıvanın şimal-şərq bölgəsində Andranik səfərbərlik elan edərək 15 yaşdan 45 yaşadək ermənilərin hamısını silaha sarılmağa çağırmışdı. O, 5 min erməni ilə Gorusun 10 km cənub-qərbində ermənilərin 700 piyada, 400 atlı, 4 pulemyot, 2 dağ topu olan qüvvəsini də müsəlmanları qətlə yetirməyə təşviq edirdi [213, s. 34-36]. Andranik Zəngəzurdakı Qatar misəritmə zavodlarında fransız şirkətindən qalan partlayıcı maddələrdən istifadə etməklə hərbi sursat hazırlayan zavodu işə salmışdı [19, v. 92].

Andranikin dəstələri Ordubadın 15 verstliyində yerləşən Kilit, Lehvaz, Tey, Buğakir, Taqamir və s. kəndləri talan edərək dağıtmış, Əlidərə, Tuğut, Mərzit, Pyuvadi və Ərnəzir kəndlərini işğal edərək ələ keçirmişdi. Bu kəndlərin əhalisi Cənubi Azərbaycana qaçmağa cəhd edərkən xeyli qadın və uşaq Araz çayında boğuldu. Didərginlərin bir çoxu Araz sahillərində ac-susuz və sığınacaqsız dolaşırdılar. Əsir düşmüş bir qoca ermənin sözlərinə görə, Andranik bu kəndləri Zəngəzur ermənilərinin xahişi ilə dağıtmışdı [79, s. 76].

Andranikin törətdiyi soyqırımın və hərbi cinayətlərin qarşısının alınması barədə Azərbaycan hökumətinin 15 avqust 1918-ci il tarixli etiraz notasına cavabında daşnak hökuməti növbəti dəfə onun silahlı qüvvələrinin hökumətə tabe

olmadığını bəhanə edərək bildirmişdi ki, Andranik və onun dəstəsi erməni ordusunun tərkibindən silinmişdir. Buna görə də daşnak rejimi Andranikin və dəstəsinin cinayətkar əməlləri üçün cavabdehlik daşımadığını qeyd etmişdi [49, v. 149, 180, 193]. Lakin Andranik törətdiyi cinayətlərdə daşnak hökumətində yüksək vəzifələr tutmuş Njde, Dro və b. terrorçu dəstə komandirləri ilə birgə hərəkət etmişdi.

1918-ci il avqust ayının sonlarında İrəvan müsəlmanları yerli ermənilərin təzyiqi ilə öz yurdlarını tərk edərək Naxçıvana sığındılar. Sentyabrın 5-də yerli erməni silahlı dəstələri Culfanın Gal və Əbrəqunus, Ordubadın Bist, Şahbuzun Qarababa kəndlərindən azərbaycanlı əhalini qovub çıxardılar. Sentyabrın 13-də Andranikin və Yaponun dəstələri Dərələyəz mahalının Cul, Martiruk, Keşişkənd və Hakaza kəndlərinə hücum edib azərbaycanlı əhalini qırdılar. Qafqaz İslam Ordusunun 1918-ci il sentyabrın 15-də Bakını Mərkəzi Kaspi (Sentrokaspi) rejiminin işğalından azad etdiyi gün Naxçıvandakı Osmanlı qüvvələri də Badamlı kəndini ermənilərin işğalından azad etdi.

Naxçıvandan qovulub çıxarılan Andranik öz qanlı cinayətlərini Zəngəzur, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarında davam etdirdi. O, Zəngəzurda onlarla kəndi dağıdaraq viran qoydu, 500-dən çox azərbaycanlını qətlə yetirdi, Qortqız, Dəstəgir və Tat kəndlərində kütləvi qırğınlar törətdi [80, s. 7]. Gəncə qubernatorunun 14 dekabr 1918-ci il tarixli 70 №-li teleqramında bildirilirdi ki, "A.Mikoyanın təhriki ilə tayqulaq Andranikin və Hamazaspın daşnak dəstələri Maku və Xoy marşrutu ilə Zəngəzurdan keçərək Qarabağda dinc azərbaycanlı əhalini qətlə yetirirlər" [241, s. 103]. Andranikin və digər terrorçu erməni dəstə başçılarının azərbaycanlı əhaliyə qarşı törətdikləri soyqırımın qarşısını almaq üçün Bakını azad edən Qafqaz İslam Ordusunun böyük bir hissəsi Qarabağa göndərildi. Xəlil bəy də Ordubadda təşkil etdiyi topçu batareyasının bir bölüyünü Andranikə qarşı döyüşmək üçün Zəngəzura göndərdi. Şərqdən Qafqaz İslam Ordusu, qərbdən isə Naxçıvandakı Osmanlı hərbi qüvvələri tərəfindən sıxışdırılan Andranik 1918-ci il oktyabrın 6-da məğlub edilsə də, onu tam məhv etmək mümkün olmadı. Çünki Mudros müqaviləsi bağlandıqdan sonra ingilislərin təkidi ilə Osmanlı qoşunlarının ermənilərə qarşı hərbi əməliyyatları dayandırıldı [4, s. 70].

Andranikin Zəngəzurda törətdiyi soyqırımın nəticələri daha ağır oldu. 1918-ci ilin yaz-payız aylarında Zəngəzurun 115 kəndi erməni silahlı dəstələri tərəfindən dağıdılmış, 3257-i kişi, 2276-ı qadın və 2196-ı uşaq olmaqla 7729 nəfər azərbaycanlı xüsusi amansızlıqla öldürülmüşdü. 1060-ı kişi, 794-ü qadın və 485-i uşaq olmaqla 2239 nəfər yaralanaraq şikəst olmuş, 1 milyard rubla yaxın maddi ziyan dəymişdi [49, v. 7-9]. Ümumiyyətlə, Andranikin 1918-ci ilin iyun-iyul aylarında Naxçıvana təcavüzü zamanı yüzlərlə kənd dağıdıldı, əhalinin böyük bir hissəsi məhv edildi.

1918-ci il avqustun 5-də Türkiyənin I Qafqaz ordusunun gəlişi ilə vəziyyət nisbətən sabitləşdi. İki gün sonra XI ordu komandanı Kazım Qarabəkir paşanın

gəlişi ermənilərin Naxçıvana hücumlarının qarşısının alınması istiqamətində ciddi tədbirlərin görülməsi ilə nəticələndi. Sentyabr ayında bölgədə plebissit keçirildi və nəticədə Naxçıvan qəzasının Qars qəsəbəsinin tərkibində Batum vilayətinin bir hissəsinin Türkiyəyə birləşdirildiyi elan edildi. Bu, Naxçıvanın təhlükəsizliyinin təmin edilməsi zərurətindən doğan bir addım idi. K.Qarabəkir Naxçıvanın gələcək taleyinin müstəqil cümhuriyyət kimi daha yaxşı olacağı ideyasını irəli sürmüş və bu ideya Atatürk tərəfindən bəyənilmişdi [184, s. 76]. 1918-ci il sentyabrın 14-də qəbul edilən qərarla 23 qəzada birləşən 100 nahiyə Batum vilayəti adı altında Osmanlı dövlətinin tərkibinə daxil edilmişdi. Oktyabr ayında Osmanlı hökumətinin Naxçıvana qəza rəisi təyin etdiyi Xalis Turqut bəy burada cəmi bir ay, türk orduları Naxçıvanı tərk edənədək qaldı. Osmanlı ordusu Naxçıvan əhalisinin xahişlərini, eləcə də Batum müqaviləsinin 4-cü maddəsini əsas tutaraq Naxçıvanın və digər Azərbaycan torpaqlarının qorunmasında mühüm rol oynadı.

Naxçıvanı tərk etmə ərəfəsində bölgədəki Osmanlı hərbi rəhbərliyinin ermənilərə münasibətində bir istilik müşahidə olunurdu. Təbrizə gedərkən yolüstü İrəvanda olmuş Qafqazdakı Osmanlı ordularının komandanı Xəlil bəy işğalçı daşnak rejimini Naxçıvana, Zəngəzura və başqa Azərbaycan ərazilərinə olan iddialarından əl çəkməyə çağırmış, Osmanlı ordusunun Qəmərlidəki ərzaq anbarından ermənilərə 12 min pud buğda buraxılmasına icazə vermişdi [140, s. 88]. 1918-ci ilin noyabrında isə IX Diviziya komandanı Rüşdü bəy yerli hökumətə ermənilərin Naxçıvana və ətraf ərazilərə qayıtmaları və müsəlman əhalinin onlarla xoş davranmaları barədə teleqram göndərmişdi.

1918-ci il oktyabrın 31-də başçılıq etdiyi I Qafqaz ordusu ləğv edildiyindən Kazım Qarabəkir Paşa bir gün sonra Naxçıvanı tərk etdi. Ümumiyyətlə, 30 oktyabr 1918-ci ildə bağlanmış Mudros müqaviləsinə əsasən noyabr-dekabr aylarında Osmanlı ordusu bütün Azərbaycan ərazisini tərk etdi. Osmanlı əsgərlərinin Naxçıvanı tərk etməsi bölgə üçün yeni fəlakətlərin başlanması demək idi. Ordubad Milli komitəsinin sədri Mir Hidayət Seyidzadə İrəvan quberniyası müsəlmanları adından Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri F.Xoyskiyə 22 dekabr 1918-ci il tarixli məlumatında yazırdı: "Andranikdən sonra bizə türklər gəldilər və üç aya yaxın qəzada hamı sakit yaşadı. Türklər Qafqazdan getdikdən sonra bizim vəziyyətimiz əvvəlkindən daha da pis oldu...". Naxçıvan Milli komitəsinin sədri Cəfərqulu xan da Osmanlı ordusunun bölgəni tərk etməsinin qanlı səhifələrin təkrarlanması ilə nəticələndiyini bildirmişdi [62, v. 2].

Daşnaklar 1918-ci il oktyabrın 27-də səfərbərlik elan edərək Göyçə, Yeni Bəyazid, Ağbulaq və İrəvanda 18-35 yaşlı kişiləri hərbi qüvvələrə cəlb etdilər. Oktyabrın 30-da Arpa kəndi işğal edildi. Osmanlı ordusunun bölgəni tam tərk etməsini gözləmədən hərəkətə keçən ermənilər artıq Naxçıvana öz əraziləri kimi baxmağa başladılar. Daşnak rejiminin Daxili İşlər naziri Njde 27 noyabr 1918-ci il tarixli əmrlə poruçik Qaregin Ter-Arutyunyansı Naxçıvanın qəza komissarı

təyin etmişdi [153, v. 1-3].

Naxçıvanı tərk etdikdən sonra erməni işğalı təhlükəsini nəzərə alan Osmanlı hərbi rəhbərliyi bir tərəfdən tərxis olunan əsgərlərdən qalan silahların bölgə əhalisinə paylanmasını təmin etmiş, digər tərəfdən bölgənin etibarlı müdafiəsinin təşkili məqsədi ilə yerli hökumət təşkilatları qurmağa başlamışdı.

Türk orduları tərk etdikdən sonra bölgəni öz nüfuzu altına alan ingilislərə özlərinin əsas himayəçisi kimi baxan ermənilər yenidən fəal hərbi əməliyyatlara başladılar. Daşnak komandiri Yaponun 1200 nəfərlik dəstəsi 1918-ci il dekabrın 5-dən başlayaraq Naxçıvan bölgəsinin kəndlərinə dağıdıcı yürüşlər edirdi. Naxçıvandan 40 km şimalda yerləşən Almalı mahalında 2516 nəfər kişini qətlə yetirən ermənilər 40 uşağı və qadını da əsir götürmüşdülər [80, s. 61].

Dəhnə istiqamətində döyüşən azərbaycanlıların 4 min nəfərlik müdafiə dəstəsindən əlavə Naxçıvandan Arslan Həsən bəyin başçılığı ilə 500 nəfərlik hərbi qüvvə Şərurda qətl və qarət törədən ermənilərə qarşı göndərilmişdi [92, s. 90-91]. Bir sıra kəndlərin erməni işğalı altına düşməsi əhali arasında təlaşa səbəb olmuş, Naxçıvan şəhərinin boşalmasının qarşısını almaq üçün noyabrın 25-də şəhərdə hərbi vəziyyət elan olunmuşdu. Naxçıvan və Ordubad sakinləri adından Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirliyinə göndərilən 28 dekabr 1918-ci il tarixli teleqramda bildirilirdi ki, İrəvandan hərəkət edən 25 min nəfərlik erməni dəstələri Sədərəyi keçərək 8 kəndi mühasirəyə almış, əhalisini tərksilah etmişdir. Naxçıvan və Şərur əhalisi İrana qaçmağa hazırlaşır, 200 nəfərdən artıq adam Araz çayını keçərkən tələf olmuşdur. Zəngəzur erməniləri bizə hücum etmişlər, əgər İrəvan quberniyasına kömək göndərməsəniz, o, ermənilərin hücumundan məhv olacaqdır [26, v. 127].

Ermənilərin Naxçıvan bölgəsinə 1918-ci il dekabrın 14-də başlayan yürüşü də ağır nəticələrə səbəb oldu. Yürüş nəticəsində İqdır, Qəmərli, Dərələyəz və Uluxanlı bölgəsinin türk-azərbaycanlı əhalisi qaçqına çevrilmiş, Qəmərlidə 48, Vedibasarda 18, Dərələyəzdə 74, Şərurda 7 kənd yandırılaraq dağıdılmışdı. Dekabrın 24-də Araz-Türk Cümhuriyyəti hökumətinin müraciəti ilə sülhə nail olmaq üçün vasitəçilik etmək məqsədi ilə bölgəyə gələn İran nümayəndə heyəti Naxçıvan təmsilçiləri Hacı Mirbağır ağa, Heydərqulu bəy və Cəfərqulu xanla birlikdə İrəvana yola düşdü. Lakin Dəmirçi və Quşçu kəndlərini işğal edərək qüvvələrini bu kəndlərdə cəmləşdirən daşnak komandiri Doluxanov naxçıvanlı nümayəndələri həbs edərək Noraşen və Yengicə kəndlərinə hücum əmri verdi. Həmin gün Kalbalı xan və Məşədi Ələsgər ağanın başçılıq etdikləri könüllü müdafiə dəstələri Maxta və Dəmirçi kəndlərini ermənilərdən azad etdilər, bir gün sonra isə Qurd qapısında (Dəhnə boğazında) düşmənə ağır zərbə vurdular. Doluxanov hücumun istiqamətini Vedinin Qaralar, Qabqıran, Şirazlı, Reyhanlı, Əfşar kəndlərinə yönəltsə də, məğlub olub Dəvəlidəki mövqeyinə geri çəkildi.

1919-cu ilin yanvar ayınadək Dro, Selikov, Aram paşa, Dəli Qazar, general

Araşev və digər daşnak komandirlərinin başçılıq etdiyi hərbi qüvvələr İrəvan, Naxçıvan, Sürməli və Qazax qəzalarında 350-dən çox kəndi yandırmış, əhalinin çoxunu qətlə yetirmişdilər.

Nuru Paşanın noyabrın 3-də verdiyi, lakin Naxçıvana dekabrın 20-də çatan əmrinə əsasən Xəlil bəy kiçik leytenant Xəlil İbrahim əfəndini öz yerinə təyin edərək 1919-cu il yanvarın 5-də tabeliyində olanlarla Naxçıvanı tərk etdi. Yanvarın 14-də Zəngəzur ermənilərinə maddi yardım edən İngiltərə nümayəndəsi V.Hibbonun, dörd gün sonra isə kapitan F.Lautenin Naxçıvana gəlişində məqsəd guya həm qaçqınlar məsələsini həll etmək, həm də asayişi bərpa etmək idi [4, s. 134, 148-152]. Lakin ingilislərin gəlişindən sonra onların əsl məqsədləri aşkara çıxdı. İngilislər Naxçıvanı işğal etdikdə Araz-Türk Cümhuriyyətinə Türkiyə tərəfindən yaradılmış qurum kimi baxaraq, onu tanımaq istəmədilər. Kapitan Lauten Naxçıvan hökumətinin başçısı Cəfərqulu xana ermənilərin öz yaşayış yerlərinə qaytarılmasını təklif etdi. Cəfərqulu xan demişdi ki, bu məsələ Paris sülh konfransında müzakirə olunanadək təxirə salınmalıdır. Lautenin ingilis hərbi qüvvələrinin Dəvəli, Naxçıvan, Culfa və Şahtaxtıda yerləşdirilməsi, bu bölgələrdə bütün məsələlərin ingilis hərbi rəhbərliyi tərəfindən həll edilməsi barədə şərtlərini Naxçıvan rəhbərləri, yerli muxtariyyəti saxlamaq şərti ilə, qəbul etmişdilər.

İngilis idarəçiliyinin Naxçıvanın erməni idarəçiliyinə verilməsinə gətirib çıxaracağı əhalidə ciddi narahatlıq doğurmuşdu. Naxçıvan Müsəlman Milli Şurasının, Cəfərqulu xanın və b. imzası ilə Naxçıvan-Şərur diyarının ingilis general-qubernatoruna göndərilən 26 fevral 1919-cu il tarixli notada Naxçıvan, Sürməli, İrəvan və Üçmüəzzin müsəlmanlarının bir gün əvvəlki yığıncağında "özlərinin və gələcək nəsillərin mənafeyi naminə Azərbaycan Respublikası ilə birləşmək qərarına" gəldikləri bildirilirdi [200, s. 358-359]. Azərbaycan hökuməti Naxçıvanı nəzarət altına qaytarmaq və bölgənin müdafiəsinin səmərəli şəkildə təşkili üçün 1919-cu il fevralın 28-də Naxçıvan general-qubernatorluğunun yaradılması barədə qərar qəbul etdi. Bəhram xan Naxçıvanski general-qubernator təyin olundu. Bu dövrdə Naxçıvana real şəkildə hərbi qüvvə göndərmək imkanları olmayan Azərbaycan hökuməti bölgənin müdafiəsi istiqamətində diplomatik səylərini artırmışdı. Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinə hökumətin 1919-cu il martın 14-də göndərdiyi məktubda deyilirdi: "Batum və Qars vilayətlərindən yaranan Cənub-Qərbi Qafqazın müstəqilliyinin müdafiəsinə nail olun. Qarabağı, Naxçıvanı, Sürməlini ermənilərin iddialarından müdafiə edin" [212, s. 71].

Lakin bu tədbirlər Naxçıvanın işğalına yönəlmiş ingilis-erməni planlarının qarşısını ala bilmədi. Lauten yerli hökumətə Naxçıvanın erməni işğalına verilməyəcəyini vəd etsə də, hadisələr bu istiqamətdə cərəyan edirdi. Şərurdakı müdafiə qüvvələrinin komandiri Məşədi Ələsgər Həmzəzadə Kalbalı xana göndərdiyi məlumatda Xanlıqlar kəndində baş verən cinayətlərin və Baş Noraşendə yanğının ingilislər tərəfindən törədildiyini bildirirdi.

Ermənilər ingilislərin himayəsi ilə Naxçıvan əhalisinə qarşı yenidən soyqırımına başladılar. Daşnak hərbi dəstələri yolları üzərindəki bir neçə azərbaycanlı kəndini viran qoydular. Ordubad ətrafında özünü "qəza rəisi" elan etmiş Aşot Movsesyansın dəstəsi qanlı qırğınlar törədirdi. Hər gün ən azı 5-10 azərbaycanlı soyqırımı qurbanı olurdu.

Belə bir vəziyyətdə Naxçıvanda Lauteni əvəz edən ingilis zabiti Simpson dərhal bölgənin erməni idarəçiliyinə verilməsi üçün hazırlıq işlərinə başladı. İngiltərə və Antanta əleyhinə danışanların cəzalandırılacağı elan olundu. Vedi və ətraf ərazilərdə azərbaycanlıların tərksilah olunmasına başlanıldı. Vedinin ermənilərdən müdafiəsində böyük xidmətləri olan A.Şadlinski aldadılaraq İrəvana aparıldı və ermənilərə təslim edildi (lakin o, sonradan Vediyə qayıda bilmişdi – ***red.***). Əhalinin ciddi müqavimətinə və etirazlarına baxmayaraq bölgənin bir hissəsi erməni işğalı altına düşdü və Bakıda yaşayan erməni Gevorq Varşamyan Naxçıvanın hərbi valisi təyin edildi [4, s. 158-175].

1919-cu ildə ingilislərin fəaliyyəti nəticəsində daşnaklar Qars vilayətini, İrəvan quberniyasının bir hissəsini müttəfiqlərdən alaraq qondarma Ermənistan dövlətinin ərazisinə qatdılar. Bu dövrdə Azərbaycanda ermənilər tərəfindən törədilən soyqırımı nəticəsində mübahisəli adlandırılan rayonların əhalisi 10-30 faiz azalmış, bir çox kəndlər dağıdılmışdı [78, s. 132].

Bütün səylərinə baxmayaraq ermənilər Naxçıvanı tam nəzarətləri altına ala bilmədilər. Belə ki, Şərurda Məşədi Ələsgər ağa, Naxçıvanın şimalında Bəhram xan Naxçıvanski, Ordubadda isə Səmədbəyov yerli idarəçiliyi öz əllərinə almışdılar. Şərur-Naxçıvan bölgəsində erməni təcavüzünə qarşı 6 min nəfərlik müdafiə dəstələri yaradılmışdı. Azərbaycan hökuməti 200 min hərbi sursatı, 300 min rus rublunu Cənubi Azərbaycan vasitəsi ilə Naxçıvana göndərmişdi [153, v.167-171]. Naxçıvan və Şərur ətrafında daha 45 kənd ermənilərin təcavüzünə məruz qaldı, dəmiryoluna yaxın kəndlər zirehli vaqonlardan atəşə tutuldu, əhalinin böyük bir qismi məhv edildi. Daşnaklar bölgədə sonuncu müsəlmanadək əhalini qıracaqları və ya Araz çayına tökəcəkləri barədə qərar qəbul etmişdilər [210, s. 166]. Erməni idarəçiliyi zamanı yalnız Naxçıvan şəhərində hər gün 10-15 axtarış və həbs hadisəsi baş verirdi. Bu dövrdə ümumilikdə şəhərdə 330 axtarış aparılmış, 500-dən artıq adam həbs olunmuş, 150 nəfərədək şəxsə işgəncə verilmişdi. Gümrü və Naxçıvan ətrafında bir sıra müsəlman kəndlərini işğal edən daşnaklar 4 min nəfərədək dinc əhalini qətlə yetirmişdilər [201, s. 348].

1919-cu il iyulun 25-də ermənilər Naxçıvan şəhərindən qovulub çıxarıldılar. İrəvan-Culfa dəmiryolu boyu gərgin döyüşlər getdi. Şahtaxtı stansiyasındakı erməni qarnizonu və daşnak komandiri Yaponun dəstələri ciddi məğlubiyyətə uğradılar. Naxçıvanın müdafiə qüvvələri 42 pulemyot, 4 top, zirehli qatar və xeyli silah-sursat ələ keçirdilər. 8 daşnak zabiti və 800 erməni əsgəri əsir alındı [92, s. 67]. Yalnız qərargah rəisi Qarakeşişov öz qarnizonu ilə qaça bildi. Xanlıqlar kəndindəki

erməni qüvvələri döyüşsüz təslim oldu. 400 nəfər itki verən ermənilərin daha 5 zabiti, 213 əsgəri əsir düşdü, 600 tüfəng qənimət kimi ələ keçirildi. Vedi uğrunda qanlı döyüşlər ermənilərin 4 min nəfər itki verməsi ilə başa çatmışdı [31, v. 42-43]. Beləliklə, Naxçıvan əhalisinin 1919-cu il iyulun 18-25-də ermənilərə qarşı apardığı inadlı silahlı mübarizə işğalçıların qəti məğlubiyyəti və bölgədən qovulması ilə nəticələndi.

1919-cu il oktyabrın 1-ə olan məlumata görə, təkcə İrəvan quberniyasından qaçqın düşən azərbaycanlıların sayı 39741 nəfər (5848 ailə) idi [37, v. 6]. Sayı 150 min nəfəri ötən azərbaycanlı qaçqınların 30-70 mini Böyük Vedi, Naxçıvan və s. ərazilərdə cəmləşmişdi [140, s. 215]. C.Rey özü oktyabrın 24-də Naxçıvana gələrkən 50 minədək qaçqının yollardakı çadırlarda ağır şəraitdə qaldığının şahidi olmuşdu [4, s. 225].

Hələ noyabrın 23-də Tiflisdə C.Reyin vasitəçiliyi ilə Azərbaycan hökuməti ilə işğalçı daşnak rejimi arasında imzalanan 5 maddədən ibarət saziş tərəflər üçün heç bir hüquqi öhdəlik yaratmayaraq yalnız status-kvonu rəsmiləşdirdi [134, s. 237-238]. Azərbaycan hökuməti heç bir məsuliyyət mexanizmi olmayan bu müvəqqəti sazişə sadiqliyini nümayiş etdirərək Zəngəzurdan öz hərbi qüvvələrini çıxardı. Bundan istifadə edən ermənilər Zəngəzurdan Naxçıvan istiqamətində hücum üçün bölgəyə xeyli hərbi qüvvə və silah-sursat topladılar. Hamazaspın Zəngəzurun Oxçu və Gığıdərəsi kəndlərinə hücumu 1400 azərbaycanlının qətli ilə nəticələndi. Dağıdılan dörd kəndin Oxçu, Pirdavdan, Şabadın və Atqızın 4 min nəfərlik əhalisindən cəmi 261 nəfəri qaçmaqla canlarını qurtararaq Ordubadın kəndlərinə sığınmışdılar. Zəngəzurda və Qars vilayətində 88 müsəlman kəndi ermənilər tərəfindən dağıdılmış, 1820 ev yandırılmış və 131 min 930 nəfər soyqırımın qurbanı olmuşdu [140, s. 230, 241-242].

K.Qarabəkir Paşanın tapşırığı ilə Cavid bəy fevralın 14-də kapitan Mühiddin bəyin və ehtiyatda olan zabit İhsan bəyin başçılığı ilə Zəngibasara hərbi qüvvə və silah-sursat göndərmişdi. Lakin ermənilərin növbəti mütəşəkkil hücum hazırlığı qarşısında bu qüvvə yetərli deyildi. Martın 8-də ermənilərin 2 min nəfərlik hərbi qüvvəsinin Ağanohur və Nüsnüs dağları istiqamətindən Ordubada hücumunun qarşısı Kalbalı xanın Naxçıvandan göndərdiyi müdafiə qüvvələrinin müqaviməti ilə alındı. Düşmən 300 əsgər, 12 qatır və 7 pulemyot itirərək geri çəkildi. Martın 21-də daşnakların 10 min nəfərlik hərbi qüvvə ilə hücumu Ordubadın Düylün, Vənənd, Vələver, Xanağa, Disər, Ağrı, Dizə və b. kəndlərinin qətl və qarətə məruz qalması ilə nəticələndi. Lakin Əylisdəki türk zabiti Ədib bəylə Kalbalı xanın birləşmiş qüvvələri ermənilər geri oturda bildilər [140, s. 186].

1920-ci ilin aprel ayında Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ərəfəsində baş verən proseslərdən və cümhuriyyətin süqutundan istifadə edən ermənilər bölgədə fəallaşaraq Şərur qəzasını və Şahtaxtı stansiyasını işğal etdilər. Qaçqına

çevrilən bütün qəza əhalisi Naxçıvanın digər ərazilərinə və Cənubi Azərbaycana sığındılar.

Daşnakların 1920-ci ilin aprel-iyun aylarını əhatə edən sonuncu hücumları zamanı Zəngibasarda 48 kənd tamamilə yandırılmış, 400-dən çox uşaq, 150 qadın və qoca öldürülmüş, 100 nəfər xəstə odda yanaraq məhv olmuş, 816 qaçqın Araz çayında boğulmuş, 160 min nəfər isə qaçqına çevrilərək Cənubi Azərbaycanın çöllərində açıq havada qalmışdı. Vedibasarda 118 kənd yandırılmış, 900 nəfər artilleriya atəşi nəticəsində həlak olmuş, 300-dən çox uşaq və qoca qətlə yetirilmiş, 6 qadın əsir aparılmışdı. Dərələyəzdə 74, Şərurda və Şahtaxtı ətrafında 76 kənd yandırılmışdı. Şərurda 810 xəstə yatağında qətlə yetirilmiş, 72 nəfər artilleriya atəşindən tələf olmuşdu. 150 qadın və qoca öldürülmüş, 144 qadın əsir götürülmüşdü. Şahtaxtıda isə 35 uşaq, 8-i qadın olmaqla 22 qoca, 9 xəstə qətl edilmiş, 3 qadın daşnaklar tərəfindən əsir aparılmışdı. Cənubi Azərbaycana pənah aparan 45 mindən çox qaçqın aclıqdan və xəstəlikdən dünyasını dəyişmişdi [140, s. 281]. Zəngibasarda təkcə iyulun 2-də 1500 nəfər suda boğularaq öldürülmüşdü. İxtilafların sonunda 180 min müsəlman, yaxud İrəvan quberniyasının müsəlman əhalisinin 2/3 hissəsindən çoxu qətlə yetirilmiş və didərgin düşmüşdü [134, s. 415].

Daşnakların Naxçıvan kəndlərinə 1919-1920-ci illərdəki hücumları zamanı törədilən soyqırımlarında 73727 nəfər azərbaycanlı öldürülmüşdü. Bundan 64408 nəfəri 1920-ci ildə öldürülmüşdü. 1920-ci ilin dekabrına aid bir arxiv sənədində göstərilir ki, Naxçıvanın Şərur və Sədərək ətrafı 56 kəndində ermənilər soyqırımı və talanlarda 428 nəfəri qətlə yetirib, 2286 ev yandırılıb, 7178 nəfər qaçqına çevrilib, 6740 nəfər aclıq soyuq və xəstəlikdən ölüb. Dərələyəzin isə 54 kəndində 57240 azərbaycanlı öldürülüb, 9735 ev yandırılıb [210, s. 212].

Naxçıvanın Qəmərli istiqamətindəki 3 kəndin bütün əhalisi qətlə yetirilərək meyitləri Araz çayına tökülmüşdü. Ermənilər "İran sizi öz himayəsinə götürür" adı altında aldadaraq köçürdükləri 45 min nəfər azərbaycanlı qaçqının 35 min nəfəri yollarda ermənilər tərəfindən kütləvi şəkildə qətlə yetirilmiş, bu soyqırımından yalnız 10 min nəfər qaçıb canını qurtara bilmişdi [214, s. 194-195]. 1920-ci il iyulun 25-də Naxçıvan kəndlərindən Cənubi Azərbaycana keçmək üçün Şahtaxtıya gələn 500 nəfərlik azərbaycanlı qaçqın dəstəsi daşnaklar tərəfindən son nəfərinədək qətlə yetirilmişdi [95, s. 45]. 1918-1920-ci illərdə Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzalarında təkcə kənd əhalisinin sayı 52 min nəfər azalmış, 287 kənd tamamilə və ya qismən dağıdılmışdı [97, s. 103].

Hələ 1914-1916-cı illərdə Azərbaycanın cənubunda 150 min, Şərqi Anadoluda, tarixən azərbaycanlıların yaşadıqları ərazilərdə 200 min, 1918-1920-ci illərdə Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlı ermənilər tərəfindən törədilən soyqırımın qurbanı olmuşdu. 1918-ci ilədək Qərbi Azərbaycanda yaşayan 575 min nəfərlik müsəlman əhalidən Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ərəfəsində cəmi 10 min nəfərdən bir qədər artıq azərbaycanlı sağ qalmışdı

[133, s. 33]. Nəticədə 1918-1920-ci illərdə Naxçıvan bölgəsinin əhalisi 38 faiz azalaraq 1921-ci ildə 72182 nəfərə enmişdi.

Rus ordusunun yüksək rütbəli erməni zabiti Ohannes Apresyan azərbaycanlılara qarşı törətdikləri soyqırımı barədə yazırdı: "...Tatarların (türklərin) qaça biləcəkləri yolları və dağ keçidlərini tutaraq bağladıq. Dərhal məhvetmə işinə başladıq. Birliklərimiz bir-birinin ardınca kəndləri dağıdırdı. Top atəşləri ilə kənd evləri daş və torpaq yığınlarına çevrilir, insanlar kənddə dayana bilməyib çölə qaçmağa başlayanda tüfəng mərmiləri və süngülərlə işlərini bitirirdik. Heç şübhəsiz ki, tatarların bəziləri qaça bildilər. Bunlar ya dağlarda özlərinə sığınacaq tapdılar, yaxud da sərhədi keçərək Türkiyəyə qaçdılar, geri qalanlar isə tamamən öldürüldü. Beləcə rus Ermənistanının Naxçıvandan Axalkələkə qədər olan sərhəd bölgəsi Ağrı dağının ətəyindəki isti ovalıqlardan şimaldakı soyuq dağ yaylalarınadək hər yer viran edilmiş tatar kəndlərinin səssiz xarabalıqları ilə doldu. İndi həmin kəndlərdə buralarda qalmış ölü insan sümüklərini tapmaq üçün gedən qurd və çaqqalların ulamalarından başqa bir səs eşidilmir" [214, s. 196]. O.Kaçaznuni lideri olduğu Daşnaksütyun partiyasının xarici ölkələrdəki orqanlarının 1923-cü ilin aprelində keçirilən konfransında deyirdi: "Bizim dövrümüzdə xalq müharibədə məhv olur, ya da acından ölürdü. Biz Şərur və Vedi kimi taxılla zəngin olan məntəqələri, Ağbaba kimi mal-qarası çox olan məntəqəni viran etdik" [129, s. 68].

Erməni hərbi təcavüzü aradan qaldırıldıqdan sonra Naxçıvanda dağıdılmış kəndlər, viran qoyulmuş evlər və yüz minlərlə qaçqın ordusunun mövcudluğu soyqırımın ağrılı nəticələri kimi qalmaqda idi. 1920-ci ilin yay-payız aylarında Naxçıvan ərazisində 400 min, Cənubi Azərbaycanda isə 70 min qaçqın açıq havada yaşamağa məcbur olmuşdu [110, s. 149]. Qaçqınlar məsələsi ətrafında uzun müddət Naxçıvan SSR ilə Ermənistan SSR, RSFSR və bu sovet respublikaları ilə Təbrizin bələdiyyə rəisi, Maku sərdarı, Culfa gömrüyünün rəisi arasında uzun-uzadı yazışmalar getmişdi. Nəticədə İttifaq Soveti Qərbi Azərbaycandan olan 28 min qaçqının Naxçıvanda saxlanması barədə qərar qəbul etmişdi [238, v. 5]. Zəngəzurdan qaçqınların gəlməsi prosesi hələ 1923-cü ildə də davam etmişdi. Həmin qaçqınlar geri qayıda bilmir, Culfa ətrafında, Arınc, Əbrəqunus, Qazançı və b. kəndlərdə yerləşdirilirdi [153, v. 11]. Qaçqınlar problemi 1920-ci illərin sonunadək Naxçıvan bölgəsi üçün ən ciddi problemlərdən biri oldu.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yaranmış vəziyyətdən istifadə edən ermənilər Naxçıvana qarşı yenidən iddialara və təcavüzə başladılar. 1920-ci il iyulun 19-da Naxçıvanda olan türk generalı V.Ünüvar və Azərbaycan hərbi qüvvələrinin komandiri, general H.Səlimovun iştirakı ilə Naxçıvan Milli şurasında daşnakların aşağıdakı tələbləri müzakirə edildi: 1. Bütün Naxçıvan Araz hökumətinin ərazisi erməni hökumətinə birləşdiriləcək. Əhali erməni hökumətinin rəiyyəti olaraq qalacaqdır, bunu qəbul etməyənlər istədikləri yerə gedə biləcəklər; 2. İki həftə içində müsəlmanlar erməni hökumətinə hər biri 50 min manat qiymə-

tində 300 at, hər biri 30 min manat qiymətində 200 inək, bu ayın içində 300 min put buğda pulsuz, bundan əlavə, hər putu 2 min manat hesabı ilə və ya pul ilə 300 min put buğda, hər putu 3 min manat hesabı ilə iki ay ərzində 100 min put düyü verəcək; 3. Dəmiryollarının təmiri üçün işçi qüvvəsi veriləcək; 4. 1919-cu ildə erməni hökumətindən zəbt edilən silahlardan başqa hər iki evdən bir silah hesabı ilə 1500-dən aşağı olmamaq şərti ilə tüfənglərini təslim edəcəklər; 5. 24 saat ərzində əsgərlərin silah-sursatı təslim ediləcək; 6. Yuxarıdakı şərtlərə əməl edilincəyə qədər hər şəhərdən 5, hər kənddən 3 nəfər girov olaraq verilməlidir; 7. Cavab üçün 60 saatlıq möhlət verilmişdir.

Bir gün sonra Milli şuranın sədri Cəfərqulu xanın imzası ilə ermənilərə göndərilən cavabda bildirilirdi ki, "müsəlman əhali bu ərazinin Ermənistanın bir parçası olduğunu o zaman qəbul edər ki, Dəhnə boğazından Ordubada qədər olan ərazinin müsəlmanlarına istiqlal verilsin". Daşnaklara təklif olunurdu ki, digər məsələlərin həlli tərəflərin bəlli bir gündə müəyyən edilən görüşü zamanı müzakirə olunsun. Lakin daşnaklar iyulun 25-dək Şahtaxtıya qədərki əraziləri işğal etdilər [95, s. 40-41, 45].

XI sovet ordusu 1920-ci il iyulun 28-də Naxçıvana daxil oldu və elə həmin gün bölgədə sovet hakimiyyətinin qurulduğu elan edildi. Yaradılan Naxçıvan İnqilab Komitəsi bir gün sonra daşnak hökuməti ilə sülh danışıqlarına başlamaq üçün İrəvana nümayəndə heyəti göndərdi. Ermənilər yenidən Naxçıvanın qeyd-şərtsiz daşnak rejiminə tabe olması tələbini qoydular. Bundan başqa, naxçıvanlılardan 7 min ədəd tüfəng, hər bir tüfəng üçün 80 ədəd güllə, Naxçıvanda olan bütün top və pulemyotları, habelə 300 min pud buğda, 300 yəhərli at, 200 baş qoşqu heyvanı tələb etdilər [64, inv. 397]. Naxçıvan nümayəndə heyəti təklif edilən könüllü şəkildə işğala razı olma tələbi ilə razılaşmadılar.

1920-ci il avqustun 10-da RSFSR-lə daşnak rejimi arasında imzalanan müvəqqəti sülh sazişinə görə Şahtaxtı və Culfa, habelə Şahtaxtı-Culfa dəmiryolu hərbi məqsədlər üçün istifadə etməmək şərti ilə ermənilərin nəzarətində qalırdı. Bir gün sonra XI sovet ordusunun Naxçıvanda olan 28-ci diviziyası daşnak işğalı altında olan ərazilərlə sərhədləri bağlasa da, 8 minədək türk əsgəri hələ Naxçıvanda qalmaqda idi. Bununla da Rusiya işğalı altına düşən Naxçıvanla bağlı siyasi və diplomatik çəkişmələrin yeni mərhələsi başlanmış oldu [203, s. 51].

1920-ci il sentyabrın əvvəllərində ermənilər Ordubad üzərinə qəfil hücuma başladılar. Yüzlərlə dinc azərbaycanlı qətlə yetirildi, Ordubad şəhəri talan edildi. Sentyabrın 18-də Naxçıvandakı türk qoşunlarının və yerli əhalinin birləşmiş müdafiə qüvvələri daşnakları Ordubaddan qova bildi. Naxçıvan bölgəsi əhalisinin Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanova göndərdiyi məktubda bildirilirdi ki, Naxçıvan, Culfa və Ordubad bir-birindən aralı düşüb, ancaq yerli əhalinin gücü ilə daşnaklardan müdafiə olunurlar. Buna görə də həmin rayonlar sovet ordusu tərəfindən azad olunmalı və bilavasitə Azərbaycana birləşdirilməlidir

[98, s. 10]. Azərbaycan hökumətinin israrlı tələblərindən sonra oktyabr ayının əvvəllərində Ordubad qəzasının, dekabrın əvvəllərində isə Şərur qəzasının ərazisi sovet ordu hissələri tərəfindən erməni hərbi qüvvələrindən təmizləndi.

Naxçıvan əhalisinin öz qətiyyətli iradəsini ortaya qoyması bölgənin sonrakı taleyini Azərbaycanın xeyrinə həll etdi.

10. "Qırmızı Tabor"un fəaliyyəti

XX əsrin əvvəllərindən başlayaraq istər İrəvan quberniyasında, istərsə də Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında erməni daşnakları tərəfindən baş vermiş qanlı soyqırımına dair Azərbaycan Respublikası, eləcə də Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivlərində yüzlərlə sənədə rast gəlinir. Naxçıvan MR Dövlət Arxivində 1918-1921-ci illərdə İrəvan quberniyasında, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrində baş vermiş qırmızı partizan hərəkatına dair materiallar saxlanılır. Onların arasında Abbasqulu bəy Şadlinskinin komandirlik etdiyi "Qırmızı Tabor"un mərd döyüşçülərinin şəxsi işləri, taborun 200-dən çox döyüşçüsünə Naxçıvan MSSR-in "Qırmızı partizan"ı adı verilməsi haqqında Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi yanında Təmizlik Seçki Komissiyasının 1930-1934-cü illərə dair iclas protokolları, "Qırmızı Tabor" döyüşçülərinin fəaliyyəti və erməni daşnaklarına qarşı döyüşlərdə göstərdikləri igidlik və şücaətlər, həmçinin onların 19 nəfərinin "Qırmızı bayraq" ordeni ilə təltif edilmələri ilə bağlı sənədlər də vardır.

Sənədlərdən aydın olur ki, 1918-ci ilin əvvəlindən başlayaraq 1920-ci ilin dekabr ayına kimi Andranik Ozanyanın, Njdenin, Dronun, Yaponun, Doluxanovun və başqalarının başçılıq etdiyi erməni quldur dəstələri tərəfindən təkcə İrəvan quberniyasında 200-dən artıq, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzasında 50-dən artıq müsəlman kəndinə basqınlar edilmiş, dağıdılaraq yandırılmış, əhalinin çox hissəsi öldürülmüş, canlarını qurtaranlar isə öz yurdlarından didərgin düşmüşdür [162, v. 103-105]. Naxçıvana soxulan Andranik Ozanyanın başçılıq etdiyi erməni daşnakları buradan başlayaraq Zəngəzur və Şuşa ərazilərini ələ keçirməyə çalışırdı. Bir çox arxiv sənədləri Andranikin "Naxçıvan yürüşü" zamanı yol boyu yerləşən kəndlərdə törətdikləri qırğınları, zorakılıq və vəhşilikləri təsdiqləyir. Yeni Bəyaziddən olan Vartan adlı bir erməni azərbaycanlılara qarşı etdiyi zülm barədə belə deyirdi: "Mən Basarkeçərdə heç nəyə məhəl qoymadan türk əhalisini məhv etdim. Lakin bəzən gülləyə heyfim gəlirdi. Bu işlər üçün ən doğru üsul döyüşdən sonra salamat qalanları quyuya doldurmaq və üstündən ağır daş tökməkdir. Mən belə də etdim, bütün kişiləri, qadınları və uşaqları quyuya doldurub üstündən ağır daşlar töküb, axırlarına çıxdım [73, s. 34].

Ermənilərin vəhşilikləri barədə o zamankı mətbuat orqanları yazırdı: "Andranikin quldur dəstəsi çoxlu türk kəndlərini dağıtdı. Təkcə Yaycı kəndində (Culfa rayonu) 2500 nəfər öldürüldü və Araz çayında boğduruldu". Daha bir yazıda

oxuyuruq: "20-25 iyun 1918-ci ildə ermənilər Culfada Araz çayı üzərindəki körpünü yandırdılar. Ordubadda 2 min azərbaycanlını öldürdülər" [118, s. 62].

Naxçıvanda məğlub olan Andranik qoşunu ilə birlikdə Qapıcıq aşırımından (Ordubad) Sisyana çəkilir. Andranik ordusu orada da azərbaycanlıları qılıncdan keçirir, əhalini didərgin salırlar. Oradan İrəvana hərəkət edən Andranik 1919-cu ilin yayında yolüstü Qaraxaç kəndində dayanır. Andranik Vedi mühafizəsinin başçısı Abbasqulu bəyə çatdırır ki, vedililər təslim olub silahı təhvil versinlər. Abbasqulu bəy bundan imtina edir. Elçi qayıdıb Abbasqulu bəyin cavabını Andranikə çatdırır. Andranik bu sözləri eşidən kimi əmr edir ki, Qaraxaç kəndinin əhalisinə divan tutulsun. Qaraxaç faciəsini öz gözləri ilə görmüş Həmzə Mirzəyev (qaraxaçlı) bu hadisələri belə təsvir edirdi: "Qadınları, uşaqları məscidə doldurub, od vurub yandırdılar, mən qaçıb su quyusunda gizləndim. Cavanları sıraya düzüb güllələdilər, qocalara fiziki divan tutdular. Orda-burda, tək-tək gizlənənlər və mən Şərura qaçdıq" [73, s. 36].

1918-ci ilin dekabr ayında Dərələyəz daşnak qoşunu Yaponun (Gipponun) komandası altında Şərur qəzasının Yaycı kəndinə basqın etdi. Lakin kəndin cəngavər oğulları erməni daşnaklarının qarşısını alır, məğlub olan ermənilər Xaçik kəndinə çəkilməli olurlar. Bir gün sonra Yaycının intiqamını almaq üçün Azərbaycanın Əmovi kəndinə hücum edirlər. Kənd xəyanətlə alınır, silahlı gənclər dəstə ilə güllələnir, qılıncla boyunları vurulur. Kəndin nüfuzlu adamı olan Mir Sadıq ağanın ailəsinə qanlı divan tutulur. Anaların gözlərinin qarşısında uşaqlar tonqala atılaraq külə döndərilir, canlarını qurtaranlar Şərura qaçırlar. 1918-ci ildə olduğu kimi, 1919-1920-ci illərdə də erməni daşnakları İrəvan quberniyasının Vedibasar, Qəmərli, Böyük Bəyazid, Sürməlik və Şərur-Dərələyəz qəzalarının bir çox müsəlman kəndlərinə hücumlar edərək, müsəlman əhalisinin çoxunu qırmışlar. Lakin vedililər həmişə ermənilərə qarşı mərdliklə vuruşmuşlar.

İrəvandan 10 iyul 1919-cu ildə Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi Məhəmmədəli xan Təkinski tərəfindən Azərbaycan Xarici İşlər nazirinə vurulan teleqramda yazılırdı: "Bu gün mən öyrəndim ki, erməni hərbi qüvvələri Böyük Vedi, Çinyənkənd, Gilivan, Qaşlı və başqa kəndləri atəşə tutmuşlar. Adı çəkilən kəndlərin əhalisi qaça bilmişdir. Böyük Vedi və mühasirədə olan kənd sakinləri qadın və uşaqlarla əhatə olunsalar da mərdliklə müqavimət göstərirlər. Döyüşlər davam edir. Səlahiyyətli nümayəndə M.Təkinski" [164, v. 1-5].

Ermənilərin təcavüzləri ilə bağlı A.Şadlinski Vedi taborunun qəhrəman döyüşçüsü Musa Səttar oğlunu Naxçıvan yerli müdafiə dəstəsinin komandiri Kalbalı xanın yanına göndərir. Musa Səttar oğlu Kalbalı xan Naxçıvanski ilə görüşüb Abbasqulu bəy Şadliniskinin Vedibasar, eləcə də İrəvan quberniyasında daşnak ermənilərin törətdikləri vəhşiliklər, yaxın günlərdə ermənilərin Vediyə üç tərəfdən edəcəkləri hücum haqqında məlumat verir.

Vedi özünümüdafiə dəstəsinin üzvü, Qırmızı taborçu Bəylər Cəlilov

xatirələrində yazır: "Xalqımızın igid oğlu Abbasqulu bəy Şadlinski Vedibasarın mərd oğullarından silahlı dəstə təşkil edərək onlara rəhbərlik edib, iki il daşnak erməni quldurlarının Vediyə olan basqınlarını dəf etdi, işğalçılara qarşı vuruşdu. Bu vaxt onun dəstəsində Musa Səttar oğlu, Həbib və Əkbər Yetim Əli oğlu, Abbas Əjdər oğlu, İslam Şadlinski, Seyfulla Süleymanov, Şəmdin Mahmudbəyov və başqa qəhrəman oğullar var idi.

1920-ci ilin mart ayından başlayaraq erməni daşnakları Vedi, Cüvə və Yaycıdan başlamış Ordubadadək ərazini işğal edib Zəngəzur və Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün intensiv surətdə hərbi hazırlıq işləri aparırdı. Bu vaxt ermənilər sərhəd zonalara 6630 nəfər piyada, 1130 nəfər süvari, 66 pulemyot və 26 top toplamışdılar. Dro, Njde, Yapon (Gippon) və başqa daşnak liderləri Zəngəzurun müdafiəsinə böyük əhəmiyyət verirdilər [71].

1920-ci ilin əvvəllərindən erməni daşnak qoşunları Böyük Vediyə dəfələrlə hücum etsələr də, Vedi taborunun komandiri Abbasqulu bəy başda olmaqla igid vedililər düşməni Vediyə buraxmamışlar. Böyük Vedidə çox ciddi müqavimətə rast gələn daşnak komandanlığı 1920-ci il iyun ayının axırlarında Vediyə qarşı daha güclü qoşun göndərir. Sayca çox olan və güclü silahlanmış erməni qoşunlarına qarşı vuruşmaq qeyri-mümkün olduğundan A.Şadlinskinin başçılığı ilə tabor və Vedi əhalisi İranın Ərəblər kəndinə keçir. Taborçulardan Bəylər Cəlilov öz xatirələrində yazır: "Biz Şahtaxtı körpüsündən keçərək İranın Ərəblər kəndinin ətrafında "Sarı su" çayı boyunca köç düşdük. Abbasqulu bəy müvəqqəti sığınacaq istədi ki, əhali orada yaşasın, silahlı qüvvə isə qayıdıb daşnaklarla vuruşsun". Ərəblərin valisi Bəbir xan və sərkərdə Mir Abdullanın dəstəsi "Sarı su" adlanan sahədə düşərgə salan mühacirlərin (Vedi taborunun döyüşçülərinin) silahlarını əlindən almaq istəyir, lakin bacara bilmirlər. Elə gün olmur ki, silahlı toqquşmalar baş verməsin. Belə toqquşmaların birində Vedidən Bəhram Kəlaş oğlu öldürülür. Aclıq və narahatlıq taborun yerini dəyişmək zərurətini doğururdu. Ərəblərdən hərəkət edən mühacirlər Oruc Məmməd, Məriyəmlər, Şahbulağı, Qaraziyadın kəndlərindən keçib 1920-ci il avqust ayının ortalarında Gorus mahalının Qəmişkan kəndinə çatırlar. Kəndin quldur dəstələri mühacirlərə basqın edir. Taborun keşikçi dəstəsi quldurlara atəş acır və Qəmişkan kəndini almağa məcbur olurlar.

Taborun keşikçi-kəşfiyyatçı dəstəsinə A.Şadlinskinin oğlanları İsfəndiyar, İsgəndər, cəsur döyüşçülərdən Fərəməz Mahmudbəy (Vedili), İbrahim Fərzəliyev (Çəmənkəndli), Bala Vəkilov (Çivəli), Miryusif Seyidov (Danzikli) və başqaları rəhbərlik edirdi. Taborda 6 ədəd pulemyot, çoxlu rus silahı, patron, əl qumbaraları və s. odlu silah var idi [167, v. 11-12].

1920-ci il sentyabrın əvvəllərində mühacir axını Cənubi Azərbaycanın iqtisadi-mədəni mərkəzlərindən olan Xoy şəhərinin Salmas darvazasında dayanır. Ondan bir neçə gün sonra tabor da Xoy şəhərinə yaxınlaşır. Şəhər valisi Nəbo xan və onun yaveri İsmayıl ağa taborun şəhərə daxil olmasına icazə vermir. Bir neçə

gündən sonra valinin nümayəndəsi tabor komandanı Abbasqulu bəyin düşərgəsinə gəlib, silahların Xoyun kazak komandanlığına təhvil verilməsini tələb edir və bildirir ki, bu tələbi qəbul etsə, ona yüksək rütbə veriləcək. Abbasqulu bəy valinin nümayəndəsinə deyir ki, biz tezliklə vətənə qayıdacağıq. Orada silah bizə lazım olacaqdır. Bundan qəzəblənən vali taboru hərbi polis gücünə tərksilah etmək qərarına gəlir. A.Şadlinskinin əmri ilə tabor Qəzənfər dağının ətəyində, Köşk saray adlanan yerdə səngərlər qazıb döyüşə hazır vəziyyətdə dayanır. Tərksilah baş tutmur" [168, v. 241-243].

1920-ci il sentyabrın 25-də Naxçıvanda Abbasqulu bəy Şadlinskinin Naxçıvana çağırılması barədə məsələ müzakirə edilir və onu dəvət etmək üçün Seyfulla Süleymanovu və Məmməd Rəhimovu İrana göndərirlər. "Qırmızı Tabor"un döyüşçüsü, partizan Bilas Şadlinski öz xatirələrində yazır: "Sentyabr ayının axırları idi. Hər yerə xəbər yayıldı ki, Naxçıvandan nümayəndələr gəlib. Naxçıvan İnqilab Komitəsi adından Abbasqulu bəyə məktub göndəriblər. Onu öz dəstəsi ilə Naxçıvana dəvət etmişlər. Gələn nümayəndələrin biri Böyük Vedi kəndindən olan Seyfulla Süleymanov və Naxçıvan partizan hərəkatının fəal üzvü Məmməd Rəhimov idi. Mərənd vilayətində ayrı-ayrı kənd və qəsəbələrdə yerləşdirilmiş qaçqın əhalinin qabaqcılları dərhal Mərənd şəhərinə toplaşdılar. Abbasqulu bəy müraciətlə bildirdi ki, hamınız 2-3 gün müddətinə tam hazır olun, birlikdə Naxçıvana yola düşüb məslək qardaşlarımız ilə birləşək. İzdihama toplaşan mübarizlər bir səslə biz hazırıq, deyə sevinclə izdihamdan ayrılaraq yaşadığımız yerlərə qayıtdıq. Mən də Hecovana, öz yaşadığım kəndə gedib yol tədarükü işinə başladım" [163, v.1-3].

A.Şadlinskinin partizan dəstəsi iki gündən sonra Mərənd şəhərindən Culfaya yola düşür. Naxçıvan qəzasının Araz çayı sahilindəki sərhəd postunda Naxçıvanın fövqəladə komissarı və başqaları A.Şadlinskinin dəstəsini hörmətlə qarşılayırlar. A.Şadlinskinin dəstəsi Naxçıvana gəlir. Naxçıvan İnqilab Komitəsinin qərarı ilə dəstəyə " Qırmızı Tabor" adı verilir və Abbasqulu bəy Şadliniski taborun komandiri təyin edilir [152, v.11-15].

"Qırmızı Tabor"un qarşısında belə bir vəzifə qoyulur ki, Çalxanqala-Qarabağlar dağ ətəkləri ilə hərəkət edib, Bağırsaqdərə-Sədərək arasında mövqe tutsun. Bu əməliyyat planı noyabr ayı ərzində bütünlüklə həyata keçirilir, nəticədə Şahtaxtı, Xok kəndlərində 1200 erməni əsgər-zabiti əsir alınır, çoxlu hərbi qənimət ələ keçirilir. Şərur qəzası bütünlüklə azad edilir və dekabrın 2-də orda Qəza İnqilab Komitəsi təşkil olunur [88, s. 15].

1920-ci ilin payızında "Qırmızı Tabor"un döyüşçüləri Naxçıvan, Şərur, Dərələyəz, Ordubad, Mehri, Cəhri, Qərçivan cəbhələrində gedən döyüşlərdə cəsarətlə vuruşurdu. "Birəli" adlanan yerdə ermənilər möhkəm istehkam yaratmışdılar. Komandanlıq tərəfindən xüsusi tapşırıq alan "Qırmızı Tabor"un döyüşçüləri həmin istehkamı darmadağın edərək 14 nəfər erməni daşnağını tərksilah etmişlər [73, s. 85].

1921-ci ilin yanvar-fevral aylarında "Qırmızı Tabor"a tapşırıq verilir ki,

Yaponun başçılığı altında Dərələyəzdə Şərur-Qəmərli istiqamətlərində başlanan təhlükəli hücumun qarşısı alınsın. Komandanlıqdan belə bir göstəriş alan Abbasqulu bəy "Qırmızı Tabor"u Şərura gedən yolda, Danzik və Arazdəyən tərəflərdə, Zəngərli-Çanaxçı kəndlərində yerləşdirir, düşmənin qabağına canlı sədd çəkir. Bu döyüşün iştirakçısı olan Həsən Məmmədov həmin günləri xatırlayaraq yazırdı: "Xmpapet Yaponun Şəhriyar-Sədərək istiqamətində irəliləyərək Ararat çölünə can atan dəstəsi bizdən elə bir güclü zərbə aldı ki, başı pozuq halda Dərələyəz tərəfə qaçmağa üz qoydu. Abbasqulu bəy dedi ki, gərək düşməni təqib edib başını tamam əzək. Onun cəsarətli planları, şəxsi qəhrəmanlıq nümunəsi bu ağır döyüşdə də dadımıza çatdı. Yaponun dəstəsi məhv edildi".

Dərələyəz və Zəngəzur dağlarına çəkilmiş daşnak dəstələri tez-tez hücumları ilə Şərur əhalisini rahat buraxmırdı. Erməni daşnakları 1921-ci ilin mart ayında Şərura hücuma başladılar. "Qırmızı Tabor"un döyüşçüləri 40 kilometrlik cəbhə xəttində düşməni geri oturtmuş və möhkəm əzmişdilər. Daşnakların qalıqları İstisu tərəfə çəkilmişdilər. "Qırmızı Tabor"un üzvləri bu döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərmişdilər.

1921-ci ilin mart-iyun aylarında Dərələyəz döyüşlərində fövqəladə igidlik göstərən "Qırmızı tabor"un 19 nəfərinə "Qırmızı bayraq" ordeni verilir ki, onların 6 nəfəri – Qasım Hüseynov, Nəcəf Əliyev, Əkbər Sadiqov, Fətulla Hüseynov, İbrahim Fərzəliyev və Cəlal Məmmədov naxçıvanlı idi.

1921-ci ilin may-iyun aylarında Dərələyəz uğrunda qızğın vuruşmalar başlayır. Dərələyəz toqquşmalarında əsas cəbhə "Qırmızı Tabor"un tutduğu Danzik-Cüvə mövqeləri idi. Burada başlıca məsələ daşnakların Şərura hücum edib, Ermənistanla Naxçıvanı ayırmaq planını pozmaq, eyni zamanda əks-hücumla Keşişkənddə mühasirədə qalan qırmızıları xilas etmək idi.

Qırmızı taborçu Əli Abbasov xatirələrində yazır ki, "Biz mühacirlikdən qayıdandan sonra, Abbasqulu Şadlinski başda olmaqla Naxçıvanda təşkil olunan "Qırmızı Tabor"a yazıldıq. Bolşeviklərlə birlikdə vuruşa-vuruşa hərəkət edib, Danzik-Cüvə istiqamətində mövqe tutduq" [89, s. 27].

Ən dəhşətli döyüşlərdən biri də Rind kəndi həndəvərində baş verir. Lakin Abbasqulu bəyin bacarığı və cəsarəti nəticəsində "Qırmızı Tabor" Rind ətrafında əks-hücuma keçib düşməni tutduğu mövqelərdən çıxarır və kəndi azad edir. Başlıca döyüş meydanı Arpa, Cüvə, Yelpin, Rind kəndləri sayılırdı. Bununla bərabər Çenqovur və Xaçik tərəflərdə də daşnaklar fəaliyyət göstərirdilər. Düşmənin gücünü öyrənmək üçün "Qırmızı Tabor"çu, Cağazir kənd sakini Mehralı Hətəm oğlu Xaçik kəndinə göndərilir. Lakin o, daşnakların əlinə keçir. Mehralı ölümü mərdlik və dəyanətlə qarşılayır.

"Qırmızı Tabor"da partizanların fəaliyyətindən xəbərdar olan daşnak qərargahının göstərişinə görə Arpa kəndində olan partizanların evləri yandırılır, ailələri Keşişkəndə, daşnakların qərargahına aparılır .

1921-ci ilin iyun ayında Dərələyəz cəbhəsi həlledici xətt hesab edilirdi. Burada erməni partizan dəstələrinin fəaliyyət dairəsinin genişlənməsini, əhalinin bolşeviklərə arxalanmasını, vətəndaş müharibəsinin böyük miqyas aldığını görən daşnak komandanlığı əmr edir ki, bütün qüvvələr Zəngəzur ilə Dərələyəz ərazisində mövqe tutsunlar. Bu vaxt daşnakların məngənəsində sıxılan bütün əhali onların əleyhinə qalxır.

1921-ci il iyunun 16-da isə Dərələyəzdə Abbasqulu bəyin komandanlığı ilə "Qırmızı Tabor" əks hücuma keçib düşməni tutduğu mövqelərdən çıxarır və kəndi (Arpa) azad edirlər. 1921-ci il iyulun axırlarında Dərələyəz əməliyyatı bütünlüklə başa çatır. Daşnak qoşun qalıqları Zəngəzura çəkilir.

İyul ayının axırlarında daşnaklara qarşı ümumi hücum başlanır. Çox çəkmir ki, düşmən Keşişkənddən çıxarılır və Kindovoz dağında toplanır. Daşnaklar Keşişkənddən gedərkən xəstəxanadakı yaralı bolşeviklərə qanlı divan tuturlar. Daşnakların dözülməz vəhşiliklərinə baxmayaraq onların son günləri çatır. 1921-ci ilin iyulunda bütün Dərələyəz əhalisi daşnaklara qarşı ayağa qalxır və sovet qoşun hissələrinin köməyinə arxalanaraq, Sovet hakimiyyətini bərqərar edir. Dərələyəzdə Sovet hakimiyyəti uğrunda vuruşmalarda erməni partizanları və qırmızı hissələrlə birlikdə minlərlə naxçıvanlı döyüşçü də iştirak etmişdir. 1921-ci il iyul ayının əvvəllərində Dərələyəz bütünlüklə təmizlənəndən sonra Sovet qoşun hissələri düşməni izləyərək Zəngəzura qovur və orada Şuşadan gələn Birinci Qafqaz korpusu ilə birləşirlər. Birləşmiş hissələr beynəlmiləl qardaşlıq bayrağı altında iyulun 2-də Gorusu, iyulun 13-də Zəngəzuru bütünlükdə daşnak quldurlarından təmizləyir. Əksinqilabın son qalığı olan "Qafan hökuməti" məhv edilir. Ermənistanda Sovet hakimiyyəti bərpa olunur. Sovet qoşun hissələri və "Qırmızı Tabor" öz beynəlmiləlçilik və qardaşlıq vəzifələrini şərəflə yerinə yetirir. Zəngəzurda ağır vəziyyət yaranmışdı. O zaman Zəngəzurda daşnak hakimləri Dronun (Drastman Kanyanf) və Njdenin (Karagen Arutunyan) əksinqilabçı qoşunları tüğyan edirdilər. Daşnakların darmadağın edilməsində Azərbaycan bolşevikləri zəngəzurlulara böyük yardım göstərirdilər [89, s. 30]. Qırmızı taborçu Əli Abbasov öz xatirələrində yazır: "Birdən gördük ki, daşnaklar bizi mühasirəyə alıblar. Bu vaxt Rind kəndində güclü daşnak qüvvəsi toplanmışdı. Hiylə ilə bizdən bir dəstə kəndə buraxılır. Əsgərlərə yemək verilir. Heç demə, daşnaklar arxamızı kəsib. Bu zaman bərk vuruşma oldu. Vuruşmada bizdən 18 nəfər vuruldu. Əsgərlər qaçırdı, çünki biz 200 daşnak süvarisinə qarşı dayana bilmirdik. Daşnak süvariləri bizim arxamızı kəsdikdə əsgərlərdən çoxu qaçdı. Taborun komandanı A.Şadlinski əmr etdi ki, qaçanlar yerindəcə güllələnsin. Tabor nəzərdən keçirildikdə 70 nəfər yox idi. Bir də gördük ki, Cabbar Hüseynov (Naxçıvandan) və Abbas Əjdər oğlunun dəstəsi gəlir. Bizə xəbər çatdı ki, daşnaklar kənddən çıxıblar. Cabbar Hüseynov bir evin yanında durub qapını açır. Heç demə, bolşeviklərdən 30 nəfərini tövləyə doldurub güllələmək istəyirmişlər. Cabbar Hüseynov keşişi vurub məhbusları azad etdi" [89, s. 31].

Naxçıvanda olan sovet ordu hissələri A.Şadlinskinin komandanlığı altında "Qırmızı Tabor" və əhalidən ibarət olan dəstələr daşnakların hücumlarını dalbadal dəf edirdi. Belə ki, Qaratəpə, Vəlidağ-Sədərək hələ də daşnakların əlində idi. Buna görə də Dərələyəzdən daşnakların hücumu gözlənilirdi. "Qırmızı Tabor"un 4-cü rota komandiri İbrahim Fərzəliyev öz xatirələrində belə yazırdı: "Qırmızı Tabor"un hissələri Zeyvə qəbiristanlığından hücuma keçib Şəhriyar dəmiryol körpüsünü ələ keçirdikdən sonra irəliləyərək, Sədərək kəndinə çatdıqda daşnak qoşunları Qaratəpədən və Bağırsaq dərəsindən çıxıb Dərələyəzə çatdırılır" [89, s. 32]. Beləliklə, Ordubaddan başlamış Sədərəyədək bütün Naxçıvan ərazisi bolşeviklərin əlinə keçdi. "Qırmızı Tabor"dan Zeynəddində yaşamış Kərbəlayi Ələkbər kişi həmin günləri xatırlayaraq yazır ki, bolşevikləri Kolanıda ilk dəfə qarşılayan qaçaq Mirzə bizim kənddən 11 nəfərlik dəstə düzəldib Sədərək kəndinə "Qırmızı Tabor"a apardı. Tabor komandanı A.Şadliniski bizi məmnuniyyətlə qəbul edib, 4-cü rota komandiri İbrahim Fərzəliyevə tapşırdı. Onun rotasına tapşırıq verildi ki, Çanaqçı və Ardalazdan keçib Danzikdə dayansın. Özü isə bir xeyli dəstə ilə Vediyə tərəf hərəkət etdi. Bərk soyuq idi. Bizim vəzifəmiz Dərələyəzdən gələn daşnak dəstəsinin hücumlarını dayandırmaq idi. Çünki Dərələyəz daşnak dəstəsinə belə tapşırıq verilmişdi ki, Danzikdən Arpaçayı boyunca Şərura irəliləyib Qəmərli-İrəvan tərəfə hərəkət edən sovet qoşunlarının arxasına keçib Naxçıvan ilə İrəvanın arasını kəssin. Doğrudan da, daşnak qərargahının məqsədi bolşeviklərə arxadan zərbə vurmaq idi. Lakin "Qırmızı Tabor"un hissələri daşnakların planını pozdu.

Göründüyü kimi, "Qırmızı Tabor"un mərd və qəhrəman döyüşçüləri Naxçıvanın müdafiəsi uğrunda erməni daşnaqlarına qarşı qətiyyətlə döyüşmüş, igidlik və şücaət göstərmişlər.

11. Mədəniyyət

Maarif. XIX əsrin sonlarına yaxın Naxçıvanın təhsil sistemində xeyli irəliləyişlər hiss olunurdu ki, bu da əsasən, yeni tipli məktəblərin açılması, məktəb şəbəkələrinin genişlənməsində özünü göstərirdi. Xüsusilə, əsrin sonlarında fəaliyyət göstərmiş "Əxtər", "Məktəbi-tərbiyə", "Qız məktəbi", "Məktəbi-xeyriyyə" və "Rüşdiyyə" kimi tədris ocaqlarının Naxçıvanın maarif tarixində böyük rolu olmuşdur. Bu məktəblərin fəaliyyəti və həmin məktəblərdə qazanılmış təcrübənin nəticəsi olaraq XX əsrin əvvəllərində təkcə Naxçıvan şəhərində deyil, diyarın ayrı-ayrı bölgələrində və hətta, ucqar kəndlərində də yeni tipli dünyəvi məktəblər açılması barədə faktlar mövcuddur [145, s. 136].

Azərbaycanda, o cümlədən Naxçıvanda əhalinin böyük bir təbəqəsinin savadsız olması yerli mütərəqqi fikirli ziyalıların bu sahəyə diqqətini artırır, onları xeyli narahat edir və bu istiqamətdə fədakarcasına çalışmağa sövq edirdi. O dövrün statistik məlumatlarında Naxçıvan əhalisinin böyük əksəriyyətinin savadsız

olduğu, yazıb oxumağı belə bacarmadığı qeyd edilmişdir. Bunun da əsaslı səbəbi çarizmin müstəmləkəsi olan Azərbaycanda, o cümlədən Naxçıvanda təhsilin inkişafına, maarif şəbəkələrinin genişlənməsinə vəsaitin ayrılmaması, bu sahənin diqqətdən kənarda qalması idi. 1899-cu ildə Naxçıvan şəhərində xalq maarifinə ümumi büdcənin cəmi 5,4 faizi, 1907-ci ildə isə 3,7 faizi həcmində vəsait sərf edilmişdi [135, s. 53].

XX əsrin əvvəllərində Rusiyada, o cümlədən onun müstəmləkələrindən sayılan Azərbaycanda baş verən gərgin və mürəkkəb ictimai-siyasi proseslər təhsilin inkişafına və tərəqqisinə xeyli mane olsa da, bu istiqamətdə atılan addımlar az da olsa müəyyən müsbət nəticələr verirdi.

Həmin dövrdə Naxçıvanda təhsilin və maarifin inkişafında çox böyük xidmətləri olmuş E.Sultanov, Ə.Xəlilov, C.Məmmədquluzadə, M.Qazıyev, C.Sultanov, M.Süleymanov, M.Şahtaxtinski, S.Xəlilov, M.Kəngərli, Ə.Sultanov, Q. Şərifov, Ə.Qəmküsar, M.Şürbi kimi mütərəqqi fikirli ziyalıların gərgin səyləri Naxçıvanda bu sahədə görülən işlərə müəyyən qədər təkan vermiş oldu [76, s. 22]. XX əsrin əvvəllərində Naxçıvanda təhsilin inkişafında ziyalılar böyük fədakarlıqlar göstərir, qadınlar və qızlar arasında savadsızlığın ləğvi üçün onların təhsilə cəlb olunması sahəsində gərgin əmək sərf edirdilər. Görkəmli Azərbaycan yazıçısı C.Məmmədquluzadənin hələ 1893-cü ildə Nehrəm kəndində 8 nəfər qız uşağını təhsilə cəlb etməsi, görkəmli pedaqoq M.T.Sidqinin Naxçıvan qəzasında açdığı ilk qız məktəbinin 1902-ci ilə qədər fəaliyyət göstərməsi [76, s. 23], Naxçıvanın görkəmli maarifçilərindən olan M.Kəngərlinin öz vəsaiti hesabına 1901-ci il sentyabrın 15-də Qafqazda ilk dəfə gimnaziya statusunda olan "Leyli" adlı qız məktəbini açması, sonralar həmin məktəbin İrəvan şəhərinə köçürülərək 1905-ci ilin ortalarına qədər orada fəaliyyətini davam etdirməsi barədə [101, s. 169] faktlar mövcuddur.

Ümumiyyətlə, yeni tipli məktəblərə müsəlman qızlarının cəlb edilməsi Naxçıvanda xalq təhsili ənənələrinin yeni dövrünü təşkil etməklə maarif tariximizdə də çox mühüm ictimai-siyasi mahiyyət daşıyırdı.

Naxçıvanda təhsilin və maarifçilik ideyalarının inkişafında H.Z.Tağıyevin "Qız məktəbi"nin, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının və quberniya gimnaziyalarının məzunları olan ziyalı qadınların da böyük xidmətləri olmuşdur. Bu müəllimlər sırasında Nazlı xanım Nəcəfova (Tahirova), Leyla xanım Rəhimbəyova, Xədicə xanım Səfərəlibəyova, Laçın xanım Makinskaya və digərləri çox mühüm rol oynamışdılar. Onların xidmətləri sayəsində yetişmiş Günəş Kəngərli, Xurşud Zamanbəyova, Tərlan Səfərəlibəyova, Zərri Vəkilova, Məsmə Bəktaşi, Bülbül Kəngərli, Xədicə Zamanbəyova kimi müəllimlər də Naxçıvanda xalq maarifinin inkişafında böyük xidmətlər göstərmişlər.

Görkəmli xeyriyyəçi və vətənpərvər ziyalı olan H.Z.Tağıyevin Bakıda açdığı qız məktəbinin məzunu, sonralar əsl maarif fədaisi kimi tanınmış Nazlı xanım Tahirova da XX əsrin əvvəllərində (1912-ci ildə) Naxçıvan şəhərində qız

məktəbinin təşkil edilməsinə nail olmuş və həmin məktəbə xeyli sayda qızlar cəlb edilmişdir.

Tanınmış pedaqoq və yazıçı Rəşid bəy Əfəndiyev XX əsrin əvvəllərində Naxçıvan şəhərində xüsusi kurslar açaraq orada dərs demiş, sonralar N.Nəcəfova həmin məktəbə müdir təyin edilmiş və 1920-ci ilədək orada işləmişdir [137, s. 26].

Rəşid bəy Əfəndiyevin açdığı və Naxçıvanın maarif tarixində "Rəşid bəy kursları" kimi xeyli müddət xatırlanan bu kursların Naxçıvanda maarifin inkişafında xüsusi rolu olmuşdur.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda baş verən bir sıra ictimai-siyasi proseslər bir tərəfdən yeni tipli məktəblərin şəbəkəsinin genişləndirilməsinə, digər tərəfdən isə artmaqda olan yeni təhsil müəssisələrinin problemlərinin də meydana çıxmasına səbəb olurdu.

XX əsrin əvvəllərindən etibarən məktəblərin cüzi bir hissəsinin dövlət hesabına, qalanlarının isə vəqf gəlirləri və məscidlərdən əldə olunan gəlirlər hesabına fəaliyyətə başlaması [137, s. 95] ilə əlaqədar Naxçıvanda məktəb şəbəkəsinin genişlənməsi, xalq təhsili sahəsində yeni ənənələrin yaranması prosesi davam edirdi. 1890-cı ildən 1917-ci ilədək Naxçıvanda 1500 şagirdi əhatə edən 15 məktəb fəaliyyət göstərmişdisə [147], Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövründə xalq maarifi sahəsində daha uğurlu addımlar atıldı və Naxçıvanda xalq məktəblərinin şəbəkəsi genişlənərək aşağıdakı səviyyəyə çatdı:

1917-1919-cu illər – 20 məktəb
1920-1921-ci illər – 43 məktəb
1921-1922-ci illər – 58 məktəb
1923-1924-cü illər – 61 məktəb [138, s. 97].

Naxçıvanda XX əsrin ilk onilliklərindən etibarən məktəb şəbəkələrinin genişlənməsi, maarifə, xalq təhsilinə əhalinin meyil və marağının artması həmin məktəblərdə dərs deyəcək müəllim kadrlarına böyük ehtiyac yaradırdı. Məhz buna görə də məktəblərdə yeni düşüncə tərzinə malik olan müəllim və tərbiyəçilərin hazırlanması, bu kadrları hazırlayan ali təhsil ocaqlarının yaradılması zəruri idi.

Elm. XX yüzilliyin əvvəllərində Naxçıvanda elmin inkişafı sahəsində müəyyən hadisələr müşahidə olunur. XX əsrdən fərqli olaraq, bu mərhələdə yazılan əsərlərin kitab halında çap olunması müsbət irəliləyiş sayıla bilər. Məlum olduğu kimi, XX əsrdə nəinki elmi əsərlər, heç bədii əsərlər də nəşr edilə bilməmişdi. Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestini çap etdirmək səyləri baş tutmurdu. Çox ehtimal ki, əsərin çapına Qafqaz Mətbuat İdarəsinin senzurası icazə verməmişdi. Ədibin özü də müasirlərindən birinə yazdığı məktubda "Danabaş kəndinin əhvalatlarına senzuradan rəsmi icazə ala biləcəyinə şübhə ilə yanaşdığını bildirmişdi: "Məhəmmədhəsən əminin eşşəyini istəyirəm yazıb göndərəm, senzor izn versin, İrəvanda çap elətdirim" [178, s. 297].

Lakin XX əsrin əvvəllərində kitab nəşri baxımından vəziyyət bir qədər asan-

laşmışdı. 1905-ci il inqilabından sonra çar II Nikolayın qəbul etdiyi "17 Oktyabr manifesti" rejimin yumşalması ilə nəticələnmiş, kitab, jurnal, qəzet çap etmək sahəsində irəliləyiş əmələ gəlmişdi. Bunun nəticəsi idi ki, Cəlil Məmədquluzadənin 1903-cü ildə yazılmış məşhur "Poçt qutusu" hekayəsi 1905-ci ildə Tiflis səhərində "Qeyrət" mətbəəsində kitab şəklində çapdan çıxmışdı.

Məhəmməd Tağı Sidqinin "Heykəli insanə bir nəzər" kitabı Bakıda 1912-ci ildə, "Puşkin" kitabı isə 1914-cü ildə "Kaspi" mətbəəsində kitab halında nəşr edilmişdir. Kitabları Məhəmməd Tağı Sidqinin oğlu, tanınmış maarifçi və publisist Məhəmmədəli Sidqi (1888-1956) Səfərov çap etdirmişdir. Elmi əsərlərin kitab kimi nəşr edilməsi XX əsrin əvvəlləri üçün əhəmiyyətli hadisə idi. Məhəmməd Tağı Sidqinin elmi əsərlərinin vəfatından sonra olsa da, kitab halında nəşr edilməsi həmin əsərlərin unudulmamasında və elmi dövriyyəyə daxil edilməsində mühüm rol oynamışdır. Azərbaycan-rus ədəbi əlaqələrindən söz açan alimlərin demək olar ki, hamısı Məhəmməd Tağı Sidqinin "Puşkin" kitabından bəhs etmişlər.

Naxçıvanda yaşayıb, fəaliyyət göstərmiş hüquqşünas, Novorossiyski İmperator Universitetinin məzunu Cümşüd Paşa Sultanov (1849-1902) maarifçi ziyalı kimi tanınmışdır. Cümşüd Paşa Sultanovun böyük maarifçi Məhəmməd Tağı Sidqi ilə birlikdə hazırladığı "Rus-Fars və Azərbaycan lüğəti" Naxçıvan elmi mühiti üçün yeni hadisə idi. Mənbələrdə həmin lüğətdə 3 min, bəzən isə 30 min sözün olduğu qeyd edilir. Şübhəsiz lüğətə daxil olmuş rus kəlmələrinin müəyyən edilməsi və onların Azərbaycan dilində dəqiq mənalarının verilməsi işini Cümşüd Paşa Sultanov yerinə yetirmişdir. Məhəmməd Tağı Sidqi lüğətin Fars-Azərbaycan hissəsini tərtib etmişdir. Lüğət təxminən 1901-1902-ci illərdə hazırlanmışdır. Lüğətdən həm məktəblərdə, həm də dövlət idarələrində istifadə etmək mümkün idi. Haqqında "Qafqaz" qəzetində informasiyanın çap olunması da Məhəmməd Tağı Sidqinin Cümşüd Paşa Sultanovla birlikdə hazırladıqları lüğətin dövrünə görə əhəmiyyətli bir iş olduğunu göstərir.

Mirzə Əbülqasım Sultanovun (1866-1916) "Ədəbiyyatşünaslıq dəftəri"nin bu maarifçi ziyalının Qori Müəllimlər Seminariyasında topladığı materiallar əsasında və Baş Noraşen iki sinifli "Zemstvo" məktəbində nəzarətçi vəzifəsində çalışdığı illərdə hazırlandığı ehtimal edilir. Burada ədəbiyyatşünaslıq elmi haqqında məlumat verilmiş, ədəbiyyatın tarixinə, növlərinə və janrlarına dair mülahizələr öz əksini tapmışdır. "Ədəbiyyatşünaslıq dəftəri"ndəki məlumatlar elmi cəhətdən konkret və dəqiqdir. Cavan xalq müəlliminin "Ədəbiyyatşünaslıq dəftəri"ndə poeziya və nəşr haqqındakı mülahizələri professional elmi qənaətlərlə səsləşir: "Poeziya həyatı şair fantaziyası ilə yaradılan bədii obrazlar vasitəsilə əks etdirir. Nəşr əsərlərində həyat insanın müşahidəsinin gözü ilə təsvir edilir. Poeziyada gözəlliyə, nəsrdə isə gerçəkliyə qovuşmaq cəhdi ifadə olunur. Poeziya insanın duyğularına, nəsr isə ağlına təsir göstərir" [101, s. 14].

Qori Müəllimlər Seminariyasının məzunu olan Mirzə Əbülqasım Sultanov "Ədəbiyyatşünaslıq dəftəri"ni hazırlayarkən rus elmi fikrinin nailiyyətlərindən faydalanmışdır. Gözəl hüsnxətlə yazılması "Ədəbiyyatşünaslıq dəftəri"nin məktəbində istifadə məqsədilə hazırlandığını göstərir. Təəssüf ki, Əbülqasım Sultanovun "Ədəbiyyatşünaslıq dəftəri" tamamlanmamışdır. Mirzə Əbülqasım Sultanov məşhur Molla Nəsrəddin lətifələrini də rus dilinə tərcümə etmişdir.

Eynəli bəy Sultanovun "Zaqafqazye" qəzetində və digər mətbuat orqanlarında çap olunmuş məqalələrində Azərbaycan ədəbiyyatına, folklora və teatra dair məsələlərdən bəhs edilir.

Bütövlükdə XX əsrin əvvəllərində Naxçıvanda elmi fikir maarifçilik istiqamətində inkişaf etməkdə davam etmişdir. Naxçıvanda yaşayıb-çalışan tanınmış ziyalıların XX əsrin əvvəllərində Tiflisə, Bakıya və İrəvana başqa işə gedib fəaliyyət göstərmələri ilə, regionda elmi fikrin inkişafında müəyyən durğunluq halları da müşahidə olunur.

Ədəbiyyat. XX əsrin əvvəllərində bütövlükdə Azərbaycan ədəbiyyatında olduğu kimi, Naxçıvanda da ədəbiyyat maarifçilikdən tənqidi realizmə doğru inkişaf etmişdir. Ədəbiyyatda, ictimai fikirdə cəmiyyətin inkişafına mane olan cəhətlər açıq tənqid olunmuş, demokratik baxış genişlənmişdir. Bundan başqa, göstərilən dövrdə yaradıcı qüvvələrin mətbuatla, teatr hərəkatı ilə əlaqələrinin bir qədər də genişlənməsi digər ədəbi-mədəni mərkəzlərlə yanaşı, Naxçıvan ədəbi mühiti üçün də səciyyəvidir. Buna görə də, XX əsrin əvvəllərində Naxçıvandan Cəlil Məmmədquluzadə, başda Məhəmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi, Hüseyn Rəsizadə, Qurbanəli Şərifzadə, Əliqulu Nəcəfov, Molla Mahmud Çakər, Əyyub Kəngərlinski, Əsgər Nağızadə, Ələkbər Abbasov və başqalarının "Şərqi-Rus" qəzetində çap edilmiş məqalələri, şeirləri və təbriknamələrində yeni əsrin irəli sürdüyü mətləblər öz əksini tapmışdı. "Şərqi-Rus"da "Naxçıvani" familyası ilə çap olunmuş aşağıdakı şeir bütövlükdə Azərbaycan ziyalılarının fikrini ifadə edirdi:

Bu "Şərqi-Rus"dan nə özəl macəra gəlir. Millət mərizinə, bəli, bundan şəfa gəlir [173, 21.09.1904, №171]. Məhəmməd Tağı Sidqinin "Şərqi-Rus"a göndərdiyi "Təşəkkür və imtahan" adlı poetik təbriknamədəki "Mahi-məqsud qurub etmiş idi. "Şərqi-Rus" oldu əcəb çöhrənüma" kimi misralarda milli oyanış prosesində bu qəzetin böyük təsirə malik olduğu nümayiş etdirilirdi. Məmməd Səid Ordubadinin "Şərqi-Rus" vasitəsilə oxuculara çatdırdığı "Xabi-qəflət" adlı şeirində müsəlman aləmindəki, cəhalətdən, gerilikdən yaxa qurtarmaq, cəmiyyəti maarif və mətbuat yolu ilə irəli aparmaq ideyaları təbliğ olunurdu.

Cəlil Məmmədquluzadənin Dəlmə bağlarının əhvalatından bəhs edən ilk mətbu əsəri 7 mart 1902-ci ildə "Kaspi" qəzetində rusdilli mətbuatda çap olunmuşdu. Cavan yazıçının bundan sonra 28 mart 1902-ci ildə "Kaspi" qəzetində İrəvan Şəhər Dumasında keçirilən müzakirələrlə bağlı ikinci məqaləsi də işıq

üzü görmüşdü. Buna baxmayaraq, Cəlil Məmmədquluzadəni mətbuat dünyası üçün Məhəmmədağa Şahtaxtlı kəşf etmiş və "Şərqi-Rus" qəzetində əməkdaşlığa gətirmiş, ədibin öz sözləri ilə desək, "qəzet dünyasına" daxil etmişdi. Cəlil Məmmədquluzadənin "Poçt qutusu", "Kişmiş oyunu" hekayələri, Lev Tolstoydan tərcümə etdiyi "Zülmət, ölüm, naxoşluq" məqaləsinin, Xanzadədən çevirdiyi "Arvad" hekayəsinin ana dilindəki mətni "Şərqi-Rus" qəzetində çap olunmuşdur. Cəlil Məmmədquluzadə "Şərqi-Rus" qəzetində çalışarkən Tiflisdən Naxçıvana gəlib-getmiş, səfər təəssüratlarını, oxucuların diqqətinə çatdırmışdır. Bu təəssüratlarda həm də Naxçıvanda XX əsrin əvvəllərindəki yeniləşmə proseslərindən söz açılmışdır: "Naxçıvanda bir səyahət" adlı məqalədə yazılanlar həmin dövrün gedişatını təsəvvür etməyə imkan yaradır. Məqalədə deyilirdi: "Rəbius-sani ayının 17-si günü Naxçıvana varid oldum. Gecəni "İslam" mehmanxanasında qalıb rahat oldum. Həmd olsun Tanrıya, "İslam" qostini iki ildir ki, bina olub, bir az müddətdə Yevropa sayağı qonaqlara hörmət və ehtiram göstərirlər. Sübh çayını içəndən sonra durub səyahətə məşğul oldum... Gəzə-gəzə Naxçıvanın məşhur Skver bağına tərəf yollandım... Bu əsnada bir nəfər qədim dostlarımdan sual elədim ki, indi Naxçıvana çox qəzet gəlirmi? Rəfiqim cavab verdi: "Şərqi-Rus" qəzeti çox gəlir və buranın adamları onu oxumağı çox dost tuturlar" [173, 27.06.1904, № 86].

Böyük maarifçi şair və pedaqoq Məhəmməd Tağı Sidqinin vəfatı ilə əlaqədar Cəlil Məmmədquluzadənin "Şərqi-Rus" qəzetində çap etdirdiyi "Getdi cahandan həzrəti – Sidqi" məqaləsində Naxçıvan ədəbi mühitinin və buradakı maarifçilik hərəkatının rəhbəri, tanınmış şair və maarif xadimi Məhəmməd Tağı Sidqinin xidmətlərinə yüksək qiymət verilmişdir: "Sidqinin vətənimizə varid olmaqlığı şəhərimizin mədəniyyət və maarif tarixi üçün mühüm bir fəqərə oldu" [178, s. 108]. Eyni zamanda, bu məqalədə Naxçıvanda M.T.Sidqinin açdığı "Qafqazın böyük müsəlman şəhərlərinin çoxunda olmayan"... "bir nizamlı məktəbin" ictimai-mədəni tərəqqidəki rolu da əhəmiyyətli dərəcədə əsaslandırılmışdı. Xüsusən, "Şərqi-Rus" qəzetində çap olunmuş "Poçt qutusu" hekayəsi Cəlil Məmmədquluzadənin gənc yazıçı kimi geniş dairədə tanınmasına geniş yol açmışdır.

Bütövlükdə, Cəlil Məmmədquluzadənin "Şərqi-Rus" qəzetindəki fəaliyyəti gələcək "Molla Nəsrəddin" jurnalı üçün "baş məşq rolunu oynamışdır" [104, s. 237]. Cəlil Məmmədquluzadə Azərbaycanın digər yerləri ilə birlikdə Naxçıvanda yaşayıb-yaradan ziyalı qüvvələrini də "Molla Nəsrəddin" jurnalının işinə cəlb etmişdir. "Xatiratım" memuarında böyük ədib Tiflisdə "Qeyrət" mətbəəsinin təşkilində Naxçıvandan olan tacir Məşədi Ələsgər Bağırovun səxavətini "hədsiz təşəkkürlərlə" [178, s. 59] yad etmiş, ictimai rəyi öyrənmək üçün "birinci nömrənin materialının bir neçə yerini oxuduğu" naxçıvanlı qoca teleqrafçının adını çəkmişdir [178, s. 94]. "Molla Nəsrəddin" jurnalında Məmməd Səid

Ordubadi, Əliqulu Qəmküsar, Məhəmmədəli Sidqi Səfərov və başqaları da yaxından iştirak etmiş, Azərbaycanın digər bölgələrindən olan müasirləri ilə birlikdə mollanəsrəddinçi ədəbi cəbhənin formalaşdırılmasına, tənqidi realist ədəbiyyatın inkişaf etdirilməsinə fədakarlıqla xidmət göstərmişlər. Beləliklə, Azərbaycan ədəbiyyatının "Molla Nəsrəddin" dövrü formalaşmış, "Azərbaycançılıq məfkurəsinin ideya əsasını" [68, s. 643] təşkil edən mollanəsrəddinçilik təlimi meydana çıxmış, eyni adlı ədəbi məktəb yaranmışdır.

Böyük ədib Cəlil Məmmədquluzadənin 1903-cü ildə yazdığı "Poçt qutusu" XX əsr Azərbaycan ədəbiyyatında böyük hadisə idi. Görkəmli yazıçı Çingiz Aytmatov "Poçt qutusu" hekayəsini geniş mənada "türk xalqlarının nəsrində mühüm hadisə" kimi qiymətləndirmişdir. "Poçt qutusu" hekayəsində XX əsrin əvvəllərində Azərbaycan kəndində baş verən hadisələrin fonunda ölkədə tərəqqi və oyanışın başlanmasının reallıqları və zərurəti əks etdirilmişdir. Cəlil Məmmədquluzadə divanxananı yaxşı tanımağa və poçtxanadan xəbərsiz qalmağa məcbur edilmiş Novruzəlinin simasında təkcə sədaqəti ilə deyil, milli təəssübkeşliyi ilə də sınaqdan çıxan sadə Azərbaycan kəndlisinin mükəmməl bədii obrazını yaratmışdır. Bu əsərlə ilk dəfə olaraq Azərbaycan ədəbiyyatına poçt qutusu anlayışı və ideyası gətirilmişdir. Bu mənada "Poçt qutusu" "kiçik bir hekayənin hüdudları daxilində az qala roman mövzusu ola biləcək ictimai mətləbləri ifadə etmək imkanlarının barometri, göstəricisidir. Azərbaycan ədəbiyyatında xüsusi yer tutan bu nadir hekayə milli bədii fikrin sonrakı inkişafına ciddi təsir göstərmişdir. Mir Cəlal Paşayevin "Biz hamımız Mirzə Cəlilin "Poçt qutusu"ndan çıxmışıq" [185, s.7] kimi ümumiləşmiş və obrazlı sözləri bu məşhur hekayənin əhəmiyyətini və təsir gücünü qabarıq surətdə nümayiş etdirir.

Cəlil Məmmədquluzadə Naxçıvanda müəllimlik etmiş, Məhəmməd Tağı Sidqinin oğlu Məhəmmədəli Sidqi Səfərovu (1888-1956) Tiflisə dəvət edərək 1910-cu ildən etibarən "Molla Nəsrəddin" jurnalının nəşri yollarında redaktor köməkçisi kimi xidmət göstərməsinə şərait yaratmışdır. "Molla Nəsrəddin" jurnalının abunə, mətbəə, şəkil, əməkdaşlarla əlaqə və sair kimi mühüm məsələlərinin həllində Cəlil Məmmədquluzadəyə yaxından köməklik göstərmiş Məhəmmədəli Sidqi Səfərov həm də "Molla Nəsrəddin" jurnalında "Cəfəng", "Kərtənkələ" və sair imzalarla publisist yazılar da çap etdirmişdir.

"Molla Nəsrəddin" ədəbi cəbhəsinin qabaq sıralarında gedən Əliqulu Qəmküsar (1880-1919) Azərbaycan ədəbiyyatı tarixində "döyüşkən mollanəsrəddinçi" kimi şöhrət qazanmışdır. Əliqulu Qəmküsarın "Molla Nəsrəddin" səhifəsində gedən əsərləri «təkcə problemin əhatəliliyi və aktuallığı ilə deyil, həm də janr baxımından yeni idi» [131, s.44]. Satirik şeirlərində və publisist məqalələrində Əliqulu Qəmküsar ictimai satiranı həyata daha da yaxınlaşdıraraq cəmiyyətdə gedən proseslərlə daha sıx əlaqələndirməyi bacarmışdır. Onun yüksək "vətəndaşlıq cəsarəti nümunəsi olan satirik şeirləri və məqalələri" [103, s. 14]

mollanəsrəddinçi ədəbiyyatın qiymətli səhifələrini təşkil edir. Satirada bədii ümumiləşdirmələr nümayiş etdirmək sahəsində də Əliqulu Qəmküsar böyük sənətkarlıq nümayiş etdirmişdir:

Dünya olubdur yanğın, bir qətrə su tapılmır,
Un yox, qəhətdir buğda, xalis çörək tapılmaz.
Kimdir desin soyulmur, kim desin çapılmır?
Kimdir desin döyülmür, kimdir desin qapılmır?
Məzlum olursa aclar çox xoşdur əğniyayə [102, s. 93].

Əliqulu Qəmküsar 1913-cü ildə Cəlil Məmmədquluzadənin dəvəti ilə Naxçıvandan Tiflisə getmiş, "Molla Nəsrəddin" jurnalının ikinci redaktoru olaraq fəaliyyətini davam etdirmişdir.

Naxçıvanda və Culfada bir çox teatr tamaşalarının təşkilində də Əliqulu Qəmküsarın böyük xidmətləri olmuşdur. O, 1917-ci ildə Naxçıvan səhnəsində tamaşaya qoyulmuş Cəlil Məmmədquluzadənin "Ölülər" pyesindəki Şeyx Nəsrullah obrazının mahir ifaçısı kimi milli teatrın tarixinə dərin iz salmışdır.

XX əsrin əvvəllərində Ordubadda və Culfada yaşayan Məmməd Səid Ordubadi (1872-1950) də "Molla Nəsrəddin" jurnalında satirik şeirlər və məqalələr çap etdirmiş, ictimai mühitin və milli şüurun yeniləşməsinə və inkişafına xidmət etməyə böyük səy göstərmişdir. Məmməd Səid Ordubadinin həyatının Naxçıvan dövründə yazıb, Tiflisdə "Qeyrət" nəşriyyatında kitab halında çap etdirdiyi "Qəflət" (1906), "Vətən və hürriyyət" (1907) kitablarındakı bədii nümunələr "klassik şeir formalarında olsa da, yeni əsrin çağırışlarının ifadəsindən yoğrulmuş şeirlər kimi ədəbi mühitin diqqətini cəlb etmişdir [130, s. 21-22]. Məmməd Səid Ordubadi ədəbiyyatda özünəməxsus ənənəsi olan "xabi-qətlət,, motivini cəhalətdən şikayət səviyyəsindən hürriyyətə çağırış mərhələsinə çatdırmışdır:

Dur, ey qafil yatan könlüm, oyan bu xabi-qəflətdən,
Sənə yoxdur səmər hərgiz bica bu istirahətdən.
Yaşa insanca, insanlartək azad ol əsarətdən
Tələş əyyamı, hürriyyət zamanı, iş məqamıdır,
Mənə söylə görüm kim müstərih olmuş səfalətdən.

"Vətən və hürriyyət" şeirlər kitabında Azərbaycanın istiqlalı uğrunda fəda olmuş şəxsiyyətlərin xidmətləri "hübbülvətənlik" nümunəsi kimi tərənnüm olunmuşdur. "Vətən və hürriyyət" kitabındakı şeirlər XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında başlanan milli istiqalal ideyasının ilk qüvvətli poetik nümunələri kimi mühüm əhəmiyyətə malikdir:

Yatdıq nə qədər naz ilə, şimdisə ayılmaq,
Başdan keçib, heysiyyəti – milliyyə qazanmaq.
Can ilə tələş eyləyibən qana boyanmaq,
Bir əmri-müqəddəsdi, Vətən qeydinə qalmaq.
Qoy qanını töksünlər qil isbati-şəhadət,

İnsanlara fərz olmalıdır qeyrəti – millət!

Məmməd Səid Ordubadi XX əsr Azərbaycan bədii nəsrinin görkəmli yaradıcılarından biri, tarixi roman janrının banisidir. O, hələ Naxçıvanda yaşayıb-yaratdığı illərdə nəsr yaradıcılığı ilə ardıcıl məşğul olmuş, qiymətli əsərlər yazmışdır. Məmməd Səid Ordubadinin 1907-ci ildə yazılmış "Qanlı sənələr" əsəri Azərbaycan ədəbiyyatında ilk və mükəmməl publisist romandır. Əsərdə müəllif millətlərarası münaqişələrin şəxsən müşahidə etdiyi və dövrü mətbuat materialları vasitəsilə dərindən izlədiyi obyektiv mənzərəsini yaratmışdır.

Bakıda 1908-ci ildə "Təzə həyat" qəzetində hissə-hissə çap edilərək oxuculara çatdırılan "İki çoçuğun Avropaya səyahəti" əsərində Məmməd Səid Ordubadi XX əsrin əvvəlləri üçün çox aktual olan Qərb maarifçiliyi ideyasını diqqət mərkəzinə çəkmişdir. Müxtəlif Avropa ölkələrindən Ordubada göndərilmiş 10 məktub əsasında qurulmuş bu əsərdə Qərbdə elmin, maarifin və mədəniyyətin, texniki tərəqqinin inkişafından geniş bəhs edilmiş, yeri gəldikcə Şərq ilə müqayisələr aparılmaqla ədəbi-ictimai fikrin əsas hədəfləri diqqətə çatdırılmışdır. "İki çoçuğun Avropaya səyahəti" əsəri ədəbiyyatda Şərq-Qərb müqayisəsinin Ordubadinaməsidir. Səyahətnamə notları da olan "Bəxtsiz cavan, yaxud Rzaqulu xan firəngməab" romanında da Qərb yönlü maarifçilik və islahatçılıq ideyaları öz əksini tapmışdır.

Məlum olduğu kimi, Məmməd Səid Ordubadinin 1913-ci ildən sonrakı həyatı Həştərxanda və Bakıda keçmişdir. Böyük ədib "Dumanlı Təbriz" ,"Qılınc və qələm" tarixi romanları ilə bu janrın əsasını qoymuş, mükəmməl nümunələrini yaratmışdır. Cəlil Məmmədquluzadə də 1903-cü ildən etibarən Naxçıvandan çıxıb Tiflisdə və Bakıda yaşamış, Azərbaycan ədəbiyyatını "Ölülər" , "Anamın kitabı", "Dəli yığıncağı" kimi məşhur dram əsərləri, dərin məzmuna malik kiçik hekayələri, nadir satirik publisistika nümunələri ilə zənginləşdirmişdir. Bununla belə, həyatının Naxçıvan dövründə müşahidə etdiyi həyat hadisələri və müxtəlif taleli insanlar onun sonrakı dövrlərdə yazdığı əsərlərin meydana çıxmasında özünəməxsus rol oynamışdır. Məmməd Səid Ordubadi üçün də Naxçıvan zəngin həyat məktəbi olmuşdur. "Dumanlı Təbriz" tarixi romanında yazıçının həyatının Naxçıvan dövrünün hadisələri mühüm yer tutur.

Görkəmli romantik sənətkar Hüseyn Cavid (1882-1941) ilk dram əsərləri və bir çox şeirlərini XX əsrin əvvllərində Naxçıvanda qələmə almışdır. Bu dövrdə o, bir çox şeirlərini "H.R.Naxçıvani" imzası ilə çap etdirmişdir. Onun "Füyuzat" jurnalında həmin imza ilə çıxan "Bir ahi-məzlumanə" şeirindəki "Mayevi-iftixarı hər kişinin Vətən uğrunda bəzmi himmətdir" misraları yeni dövr Azərbaycan ədəbiyyatında qüvvətli poetik çağırışlar kimi səslənirdi. Naxçıvanda yaşadığı illərdə yazdığı şeirlərdəki vətənpərvərlik notları romantik ədəbiyyatın milli düşüncə ilə, real həyati proseslərlə əlaqələri baxımından da əhəmiyyətli hadisə idi:

Ey Vətən, ey könül tərəfdarı!
Var ümidim qüsurə baxmayasan.
Bizə təcrid edib də əğyarı,
Buraxıb nari-hicrə yaxmayasan.
Səni bu hala saldı qəflətimiz,
Daha əhv et, yetər nədamətimiz [136, s. 150-151].

Hüseyn Cavidin həyatının Naxçıvan dövrünün məhsulu olan "Ana" və "Maral" dramları təkcə onun yaradıcılığında deyil, bütövlükdə Azərbaycan dramaturgiyasında mühüm yer tutur. Böyük mütəfəkkir sənətkarın müxtəlif illərdə yazdığı "Şeyx Sənan", "İblis", "Xəyyam" mənzum dramları, "Azər" poeması və lirik romantik şeirləri ona böyük şöhrət qazandırmışdır.

XX əsrin əvvəllərində əsasən Naxçıvanda yetişib formalaşmış Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar bu qədim elm, sənət və mədəniyyət mərkəzinin Azərbaycan ədəbiyyatına və dünya mədəniyyətinə bəxş etdiyi böyük ədəbi şəxsiyyətlərdir.

Teatr. XIX yüzilliyin 80-ci illərinin əvvəllərində formalaşan, ilk dəfə yeni üsullu milli məktəblərin açılması, kitabxana, ziyalı cəmiyyətləri və bir sıra mütərəqqi təşkilatların yaradılması sahəsində mübarizə aparan ziyalı dəstəsinin təşəbbüsü ilə yaradılan (116, s. 63-64) və yarandığı vaxtdan müəyyən uğurlara imza atan Naxçıvan teatrı XX yüzilliyin əvvəllərində fəaliyyətini genişləndirir. Bu zaman teatrın inkişafına cəmiyyətin inkişafının tərkib hissəsi kimi baxan qabaqcıl ziyalılar teatrın inkişafı üçün böyük səylər göstərir, əmək sərf edirdilər. M.T.Sidqinin 9 dekabr 1903-cü ildə vəfat etməsindən sonra onun icra etdiyi Naxçıvan teatrının rejissorluq işini həmin vaxt artıq qabiliyyətli bir aktyor kimi tanınan Böyük xan Naxçıvanski yerinə yetirməyə başlayır. Böyük xan Naxçıvanski Naxçıvanda teatrın inkişafı üçün öz bacarıq və səylərini əsirgəmir, onun rejissorluğu dövründə teatr inkişaf edir, bir sıra uğurlu tamaşalar səhnəyə qoyulur.

Bu illərdə Azərbaycan teatrının kollektivi bir sıra rayonlara, o cümlədən 1908-ci ildə Naxçıvana, Culfaya, Ordubada qastrol səfərlərinə gəlmiş, tamaşalar göstərmişlər. Sidqi Ruhulla və Hüseyn Ərəblinski 1908-ci ildə İrəvana qastrol səfərindən sonra Naxçıvana gəlmiş və yerli dram cəmiyyəti üzvlərinin iştirakı ilə Ə.Haqverdiyevin "Bəxtsiz cavan" və N.Nərimanovun "Nadir şah" əsərlərini tamaşaya qoymuşlar [120, s. 63-64].

1905-1920-ci illər ərzində Naxçıvanda teatr inkişaf edərək yeni məqsədlər və fikirlər uğrunda mübarizəyə qalxır. "Müsəlman incəsənəti və dram cəmiyyəti" yeni həvəskarlar hesabına genişlənir. Ümumiyyətlə, XX yüzilliyin əvvəllərində Naxçıvanda teatrın inkişafında bir sıra amillərin, xüsusilə bəzi istedadlı gənclərin, o cümlədən Məmmədəli Sidqi Səfərovun, Rza Təhmasibin, Fərəc Kəngərlinin, Əliqulu Sultanovun, Xəlil Hacılarovun, Əbdüləzim Rüstəmovun və başqa bu kimi ziyalıların teatra gəlməsi, tamaşaya qoyulan əsərlərdə aktyor kimi çıxış

etmələrinin böyük təsiri olmuşdur. Bu dövrdə "Müsibəti Fəxrəddin", "Dağılan tifaq", "Bəxtsiz cavan" kimi pyeslər tez-tez oynanılır, bununla yanaşı "Hacı Qara", "Ac həriflər", "Pəri cadu", "Nadanlıq" kimi dram əsərləri, "50 yaşında cavan", "Ər və arvad", "Evliykən subay", "Məşədi İbad" kimi musiqili komediyalar da tamaşaçılara göstərilirdi (112, s. 117).

Rusiyada 1905-1907-ci illər inqilabından sonra başlayan irtica illərində imperiyanın hər yerində olduğu kimi Azərbaycanda, o cümlədən Naxçıvanda da demokratik fikirli adamlar həbslərə, sürgünlərə məhkum edilirdi. Azadlıq tərəfdarı olan mətbuat qadağan olunurdu. Lakin bütün təqiblərə baxmayaraq mütərəqqi ziyalılar və vətənpərvər qüvvələr mətbuatdan, teatrdan istifadə edərək çarizmin siyasətini qorxmadan, cəsarətlə tənqid və ifşa etməkdən çəkinmirdilər. Naxçıvan teatr səhnəsindən yüksələn bu mübariz çağırışlar Bakıda o zaman yaradılmış inqilabi təşkilatların və bu təşkilatların təşkil etdikləri teatr truppalarının da diqqətini özünə cəlb etmişdi. 1906-cı ildən başlayaraq Bakıdan Naxçıvana aktyorlar qastrola gəlməyə başladılar [108, s. 27].

Naxçıvan teatrının inkişafında 1911-ci ildə Mirzəağa Əliyev və Zülfüqar bəy Hacıbəyovun aktyor dəstəsi ilə Naxçıvanda və Culfada "Bəxtsiz cavan", "Müsibəti-Fəxrəddin", "Nadir şah", "Leyli və Məcnun", "Məşədi İbad" əsərlərini tamaşaya qoyması, 1912-ci ildə isə Tiflis Türk (Azərbaycan) Dram Teatrı artistlərinin Naxçıvana gəlməsi, burada tamaşalar göstərməsi teatr mühitinə, onun inkişafına çox müsbət təsir göstərdi [120, s. 67].

Teatr yarandığı vaxtda olduğu kimi XX yüzilliyin əvvəllərində də Azərbaycan teatrının ənənələrinə sadiq qalaraq getdikcə sayı artan tamaşalarını daha çox xeyriyyə məqsədi ilə göstərirdi. Qeyd etmək lazımdır ki, Azərbaycan teatrı həm mənəvi, həm də maddi cəhətdən xeyriyyəçilik məqsədləri ilə bağlı idi. Bu dövrdə müstəmləkəçilik şəraitində yaşayan xalqın güzəranı ağır, maddi imkanları olduqca məhdud idi. Ona görə də teatr tamaşalarından əldə olunan vəsaitdən daha çox məktəblər, kitabxanalar, klublar açmaq, kasıb şagirdlərə, tələbələrə kömək etmək üçün istifadə olunurdu. Əslində, teatrın özü də cəmiyyətin qabaqcıl qüvvələrinin xeyriyyəçiliyi hesabına yaşayır, maddi çətinliklər, kasıbçılıq içində olsa da, özünün mənəvi qüdrəti ilə xalqın mənəvi zənginləşməsi və mədəni tərəqqisi mənbələrindən biri idi. Məhz buna görə də teatrın ən görkəmli təşkilatçı və himayəçilərinin maarif xadimləri, xalq müəllimləri, ədəbiyyatçılar və jurnalistlər olması təsadüfi deyildi [66, s. 274]. Bu tamaşalar sadə və anlaşıqlı bir dildə həyat hadisələrini, dövrün həqiqətlərini xalq kütləsinə çatdırırdı. Teatrın rəhbərləri və üzvləri olan maarifçi ziyalılar öz işlərinə böyük məsuliyyət və səmimiyyətlə yanaşırdılar.

XX yüzilliyin əvvəllərində Naxçıvan teatrının fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri də musiqili teatr tamaşalarının səhnəyə qoyulması idi. XX əsrin əvvəllərində inşa edilmiş teatrda Ü.Hacıbəylinin "Leyli və Məcnun",

"Şah Abbas və Xurşudbanu" muğam operaları, "Arşın mal alan", "Ər və arvad", habelə Z.Hacıbəyovun "Əlli yaşında cavan", "Evliykən subay" musiqili komediyaları tamaşaya qoyuldu [126, s. 188].

Bəhs edilən dövrdə Naxçıvan teatrının ən böyük uğurlarından biri də əsası Ə.Qəmküsar tərəfindən qoyulan "El güzgüsü" dram cəmiyyəti tərəfindən Cəlil Məmmədquluzadənin o dövrdə müraciət edilməsi böyük cəsarət tələb edən "Ölülər" əsərinin tamaşaya qoyulması idi. Tamaşanın rejissoru Rza Təhmasib İsgəndər, Həsən Səfərli Hacı Həsən, Heydər Muradov Cəlal, Əli Xəlilov Mir Bağır ağa, Həmid Mahmudov Hacı Baxşəli, Rza İsfəndiyarlı Şeyx Əhməd, Mirhəsən Mirişli və Saleh Sultanov Nazlı rollarını uğurla yaratmışlar. Bu dövrdə Rza Təhmasib və Əliqulu Qəmküsar Naxçıvan teatrının görkəmli xadimləri idilər [66, s. 273].

Rza Təhmasib qız və qadınların teatra cəlb olunmasına xüsusi əhəmiyyət verirdi. Məhz bunun nəticəsi olaraq Rəşid bəy Əfəndiyevin təşəbbüsü, Rza Təhmasibin rejissorluğu ilə 12 noyabr 1917-ci ildə Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyası tamaşaya qoyularkən qız və qadın rollarını qadınlar ifa etmişdi [119, s. 255].

Tədqiqatçıların fikrincə görkəmli dramaturq Hüseyn Cavid "El güzgüsü"nün üzvləri ilə sıx əlaqə saxlamış, milli ruhlu pyeslərin tamaşaya hazırlanmasını tövsiyə etmiş, onun məsləhəti ilə Əbdülhaq Hamidin "Hind qızı" əsəri teatrın kollektivi tərəfindən tamaşaya qoyulmuşdu [117, s. 283].

Naxçıvan teatrında əsil səhnə tərtibatı, rəssam işi də məhz bu dövrdən – 1912-ci ildən özünü göstərməyə başlayır. Bu sahədə 1912-1918-ci illərdə Naxçıvan teatrında hazırlanan tamaşaların səhnə tərtibatını verən realist rəssam Bəhruz Kəngərlinin böyük əməyi olmuşdur. Onun "Hacı Qara", "Ölülər", "Pəri cadu" əsərlərinə verdiyi səhnə tərtibatı çox uğurlu olmuşdur. Ancaq cəhalətə, avamlığa, geriliyə, köhnə çürük adət-ənənələrə qarşı çıxan, xalq kütlələrini maarifə, mədəniyyətə səsləyən "Ölülər" əsərinin Naxçıvanda yenidən səhnəyə qoyulması mürtəce qüvvələr tərəfindən qəzəblə qarşılanmış, Ə.Qəmküsar möhkəm döyülmüş və evlərinin qarşısından axan Bazar çayına salınmışdı [120, s. 84]. Hətta mürtəce qüvvələr "El güzgüsü" dram cəmiyyətinin bağlanmasına nail olmuşdur. Ancaq bu vəziyyət çox davam etmir və Naxçıvan ziyalıları 1917-ci ilin payızında "Rüşdiyyə" məktəbinin nəzdində yeni bir dram cəmiyyəti – "İmdad"ı təşkil edirlər.



Bəhruz Kəngərli

XX yüzilliyin əvvəlləri Azərbaycanda, o cümlədən Naxçıvanda ağır dövr

olmasına baxmayaraq 26 mart 1918-ci ildə "Ölülər" pyesi "İmdad" dram cəmiyyəti tərəfindən yenidən tamaşaya qoyulur. Bu tamaşadan sonra teatrın avadanlıqları yandırılmış, üzvləri isə ölümlə hədələnmişdi. Erməni quldur dəstələrinin, xüsusilə Andranik Ozanyanın Naxçıvana hücumları bölgədə vəziyyəti dəhşətli dərəcədə ağırlaşdırdığından bu dövrdə teatrın işi də zəifləyir, ildə yalnız 1-2 tamaşa hazırlanırdı. Həmin vaxtlar "Qonşu qonşu olsa, kor qız ərə gedər" və "Molla Cəbi" əsərləri tamaşaya qoyulmuşdu.

"İmdad" dram cəmiyyəti mürtəce qüvvələrin tələbi ilə bağlanılsa da, şəhər məktəbinin müəllimləri 1919-cu ildə "Ümid" adlı yeni dram cəmiyyəti təşkil edirlər. Ancaq bu cəmiyyətin də ömrü çox uzun olmur və iki tamaşa – Ü.Hacıbəylinin "Arşın mal alan" və M.F.Axundovun "Hacı Qara" əsərlərini səhnəyə qoymaqla öz işini başa çatdırır. Qeyd etmək yerinə düşər ki, Ü.Hacıbəylinin "Arşın mal alan" əsərinin tamaşaya qoyulması Naxçıvanda bir çox qadınların teatrın zalında başlarından çadranı götürüb atmasına və başqa qadınları da bu işə dəvət etməsinə səbəb olmuşdur (107, s. 56).

XX yüzilliyin əvvəllərində bütün çətinliklərə, o cümlədən mürtəce qüvvələrin təzyiqlərinə, ermənilərin Azərbaycana ərazi iddiaları, milli zəmində törətdikləri qırğınlarla əlaqədar vəziyyətin həddindən artıq pisləşməsinə, bu səbəbdən də teatrla məşğul olan adamların ölkədən mühacirət etməsinə baxmayaraq teatr müəyyən inkişaf yolu keçə bildi. Azərbaycan teatrının müqtədir ustadları H.Ərəblinskinin, M.Əliyevin, S.Ruhullanın və başqalarının tez-tez Naxçıvana gələrək, yerli aktyor və rejissorlarla birlikdə tamaşalar göstərməsi, dəyərli məsləhətlər verməsi Naxçıvan teatrının peşəkarlıq səviyyəsinin artmasına və püxtələşməsinə güclü təsir göstərmişdir. Naxçıvan teatrı da öz növbəsində XIX əsrin 80-90-cı illərindən başlayaraq XX yüzilliyin əvvəllərində milli teatrın inkişafında əhəmiyyətli rol oynadı [146, s. 182].

Epiqrafik abidələr. Rusiya tərəfindən ilhaq edildikdən sonra bölgədə kiril əlifbasının əsas yazı vasitəsinə çevrilməsi ilə ərazidə tək-tək hallarda olsa da, bu əlifba ilə həkk edilən kitabələr də meydana çıxırdı. Həmçinin bir sıra sənətkarlıq, xüsusilə daş üzərində işləmə və xəttatlıq sənətinin getdikcə zəifləməsi səbəbindən artıq XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid diqqəti cəlb edəcək epiqrafik abidələrə rast gəlinmir. Bu dövrə aid epiqrafik abidələrin çoxu gəc üzərində rənglə yazılmışdır.

Ordubad şəhər Came məscidinin qadınlara aid qərb salonundan kişi salonuna açılan qapının baş tərəfində, gəc üzərində qara rənglə çəkilmiş zanbaq çiçəyi təsviri içərisində rənglə yazılmış kitabənin mətnindən aydın olur ki, hicri 1319-cu ildə (20.04.1901-10.04.1902-ci il) mərhum Ağa Mirzəbaba Ordubadinin oğlu, tacir və inşaatçıların seçilmişi Hacı Məhəmmədqulu ağa bu mübarək məkanı təmir və bərpa etdirmiş və bütün Cameni ağartdırmışdır [242, s. 33-34].

Kitabədə adı qeyd olunan və məscidi təmir etdirən Hacı Məhəmmədqulu

ağa tacir olmuşdur. Ordubad şəhərində adı indi də hörmətlə yad edilən Hacı Məhəmmədqulu ağa həm də şəhərdə fəaliyyət göstərən 2 kustar zavoddan birinin sahibi idi. Ordubadda ipək sənayesinin inkişafı ilə əlaqədar olaraq o, 1902-ci ildə şəhərdə qanovuz, parça, adyal və s. hazırlayan emalatxana açmışdır. Bu emalatxanada 8 dəzgah işləyirdi və gündə 50 arşına yaxın ipək parça istehsal edilirdi [242, s. 34].

Came məscidinin mehrab olan hissəsinin divarda gəc üzərində qara rənglə yazılmış dini xarakterli kitabənin sonunda məsciddə 1902-ci ildə bərpa işləri aparılarkən bu və ətrafdakı digər dini məzmunlu kitabələri yazan xəttatın adı yazılmışdır: "Katib mərhum müctəhid Ağaəlinin oğlu əl-Hac Məhəmmədtəqidir. 1319 (20.04.1901-10.04.1902-ci il)" [242, s. 34].

Kitabədən aydın olur ki, 1901-1902-ci illərdə təmir olunarkən məscidin daxili divarlarına rənglə yazılan Quran ayələrini, hədisləri, dini xarakterli kəlamları və başqa kitabələri müctəhid Ağa Əlinin oğlu əl-Hac Məhəmmədtəqi yazmışdır. Bir hissəsi məscidin divarlarında indiyədək qalan kitabələrə əsasən, deyə bilərik ki, əl-Hac Məhəmmədtəqi öz sənətinin kamil ustası, gözəl xəttat olmuşdur. Xəttatın atası müctəhid Ağa Əli isə Ordubadın ictimai-siyasi həyatında mühüm yeri olan şəxsiyyət olmuşdur.

Came məscidin daxilindəki qapılardan birinin baş tərəfində qara rənglə gəc üzərində yazılmış kitabənin mətni belədir: "Kərbəlayi Zeynəlabidin Nəqqaş Abdullazadə" [242, s. 35]. Əvvəlki kitabə ilə eyni vaxtda yazılan bu kitabədən aydın olur ki, bərpa işləri zamanı məsciddə nəqqaşlıq işlərini el arasında "Nəqqaş" kimi tanınan Kərbəlayi Zeynalabidin Abdullazadə yerinə yetirmişdir.

Ordubad şəhərindəki Mədrəsə kompleksinin giriş qapısının baş tərəfində, kaşı üzərində yazılmış kitabələrdən təxminən 2 metr yuxarıda, qapının başındakı çatma tağlı hissədə, gəc üzərində rənglə, ərəb dilində yazılmış kitabədən məlum olur ki, Hacı Mirzə Lütfulla hicri 1334-ci ildə (09.11.1915-28.10.1916-cı il) mədrəsə binasını təmir etdirib yeniləşdirmişdir.

Kitabənin məlumatına əsasən deyə bilərik ki, mədrəsə təmir vaxtı – 1916-cı ildə fəaliyyət göstərmişdir. Ordubad şəhərinin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayan, Ordubaddan yetişmiş bir çox görkəmli şəxsiyyətlərin ilk təhsillərini aldıqları bu mədrəsə Naxçıvanda sovet hakimiyyətinin qurulmasınadək öz işini davam etdirmişdir.

Ordubad rayonunun Nüsnüs kəndinin mərkəzində, XVIII əsrdə inşa edilmiş və el arasında "Meydan məscidi" adlanan məscidin cənubdan giriş qapısının baş tərəfində qoyulmuş yaşılımtıl rəngli daş lövhə üzərində fars dilində beş sətirdə oyma üsulu ilə həkk edilmiş kitabənin mətnindən aydın olur ki, məscid Nüsnüs camaatının köməyi ilə 1335-ci ilin şəban ayında (21.06.-21.07.1917-ci il), rus müharibəsi zamanı bərpa olunmuşdur [240, s. 114-115].

"Meydan məscidi"nin cənuba baxan pəncərələrindən birinin bayır tərəfdən

baş tərəfində, bişmiş kərpic üzərində oyma üsulu ilə beş sətirdə yazılmış kitabə vardır. Məzmunu yuxarıdakı kitabə ilə təxminən eyni olan kitabədə yazılır ki, "Məscid şəban ayının 24-ü, 1335-ci ildə (15.06.1917-ci il), Rusiya-Türkiyə müharibəsi zamanı təmir olundu".

Birinci kitabədə qeyd olunan "Rus müharibəsi zamanı", ikinci kitabədə isə "Rusiya-Türkiyə müharibəsi zamanı" sözləri həmin vaxt, yəni 1917-ci ildə davam edən Birinci Dünya müharibəsi və bu müharibə çərçivəsində Rusiya ilə Osmanlı imperiyası arasında baş verən müharibə nəzərdə tutulur.

Memarlıq. XIX yüzillikdə olduğu kimi, XX yüzilliyin əvvəllərində də Naxçıvan bölgəsində müxtəliftipli yaşayış evləri inşa edilirdi. Əhalinin sinfi təbəqələşməsinin güclənməsi evlərin memarlıq həllinin rəngarəngliyi ilə fərqlənirdi və bu fərq özünü yaşayış evlərinin müxtəlifliyində qabarıq şəkildə göstərirdi. Bu dövrdə təkcə bir otaqdan ibarət yaşayış evləri ilə yanaşı, şəhər tipli bir neçə otaqdan ibarət imarətlərə də təsadüf olunurdu [183, s. 237]. Şəhər varlıları əsasən 7-8 otaqdan ibarət 2 mərtəbəli evlər tikdirirdilər. Bu binalar əsasən bişmiş və çiy kərpicdən inşa edilirdi və ya çiy kərpicdən tikilərək bişmiş kərpiclə üzlənirdi. İkimərtəbəli evlərdə mətbəx, anbar, qulluqçuların otaqları evin birinci mərtəbəsində, yaşayış otaqları ikinci mərtəbədə yerləşirdi. İkinci mərtəbənin otaqları bir-birinin içinə açılmaqla sonda geniş, şəbəkəli eyvana çıxırdı [122, s. 244]. Varlıların evlərinin fasadı şimala – bağa və ya həyətə açılırdı, evlərdə bir tağlı pəncərə qoyulurdu. Pəncərə isə müxtəlif rəngli şüşə parçalarından ibarət olurdu. Evlərin torpaq döşəmələri xalça-palazla örtülürdü [132, s. 43].

XX yüzilliyin əvvəllərində inşa edilən, memarlıq abidələrinin mühüm nümunəsi olan yaşayış evlərinin inşası zamanı XIX yüzillik ənənələri davam etdirilir, binalar həyətyanı sahələr ilə təmin olunurdu. Bu özünü Ordubad şəhərindəki yaşayış evlərində aydın şəkildə göstərir. Buradakı həyətlər adətən 400-800 m^2 ölçüsündə olurdu. Həyətlərdə yetişdirilən müxtəlif meyvə ağacları, üzüm tənəkləri, kəhriz suları, həyəti əhatə edən divarların iç üzündəki taxçalar burada rahatlıq və sərinlik yaradırdı. Naxçıvanda, o cümlədən Ordubadda bağçılığın iqtisadiyyatda mühüm yer tutması yaşayış binalarının memarlığının formalaşmasına əhəmiyyətli təsir etmiş, həyətyanı bağ Naxçıvan və Ordubad yaşayış binalarının ayrılmaz bir elementini təşkil etmiş və onun memarlıq – planlaşdırma strukturuna xüsusi yaraşıq vermişdir. İsti iqlim şəraitində yay vaxtı həyətdə və evdə sərinlik yaradılmasına böyük əhəmiyyət verən ordubadlılar həyətlərdə üstü günbəzlə örtülən və "soyuqxana" adlanan xırda yeraltı yerləşgələr düzəldirdilər. "Soyuqxana"ları bəzən çeşmənin yanında düzəldirdilər. Bu "soyuq-xana"lardan yay zamanı ərzaq saxlamaq məqsədi ilə müasir soyuducu kimi istifadə olunurdu [183, s. 239].

Naxçıvanda kənd yaşayış evləri eyvanlı və eyvansız olmaqla iki yerə bölünürdü. Ancaq burada evlərin böyük əksəriyyəti XVIII-XIX yüzilliklərdə olduğu

kimi, XX yüzilliyin əvvəllərində də bir cərgəli eyvansız binalardan ibarət olmuşdu. Bu cür evlər aran yerlərində daha çox yayılmışdı. Bir çox yaşayış binalarında eyvan meydançalarla əvəz olunmuş və fasadının qarşısında üzüm tənəkləri, sarmaşıq və yaxud başqa üsulla üstü örtülmüş talvar və ya kölgəli ağaclarla əhatə olunmuşdur. Kənd yerlərində yaşayış binalarının çoxunun birmərtəbəli olması, haqqında bəhs olunan meydançalardan yay aylarında daha əlverişli istifadə edilməsinə şərait yaradırdı [182, s. 67].

Naxçıvan və Ordubad şəhərlərində indiyədək qalan yaşayış evlərinin bəzək ünsürləri, xüsusilə eyvan bəzəkləri, o cümlədən məhəccər, friz və şəbəkə bəzəkləri XIX yüzillikdə olduğu kimi, XX yüzillikdə də bölgədə ağac üzərində oyma və şəbəkəçilik sənətinin yüksək inkişaf səviyyəsindən xəbər verir. Naxçıvan ustaları inşa edilən yaşayış evlərinin eyvan bəzəkləri ilə yanaşı, həyətə giriş baştağları, qapı, pəncərə başlıqlarının tərtibatına da xüsusi diqqət yetirmişlər [122, s. 246]. Ümumiyyətlə, Naxçıvan yaşayış binalarında təsadüf olunan incə və narın işlənmiş memarlıq və konstruksiya elementləri, taxta oymaçılıq sənətinin burada geniş inkişaf etməsinin nəticəsi kimi izah olunmalıdır.

Ordubad, bütövlükdə Naxçıvan evlərinin bəzədilməsində şəbəkə və baştağın tərtibatı ilə bərabər qapı rəzələri, cəftələri, mıx başları, qapı taqqulbab və dəstəkləri kimi xırda metal məmulatlarından da istifadə olunurdu. Həmçinin, bölgədə darvazaların üzərinə qoç buynuzu, it kəlləsi, nal, üzərlik də keçirilirdi. Bütün bunlar isə evi, ailəni bəd nəzərdən qorumaq inamı ilə bağlı idi [132, s. 19]. Evlərin daxili görünüşündə ən çox buxarı otağının bəzədilməsinə xüsusi fikir verilmişdir. Bəzi evlər yerli və kənardan gəlmə ustalar tərəfindən gözəl divar rəsmləri ilə bəzədilmişdir. Həmin dövrdə işlənən divar bəzəklərini təhlil edərkən aydın olur ki, onlar həm məzmun, həm də bədii forma cəhətdən ənənəvi xarakter daşıyır, XVIII-XIX yüzilliklərin təsviri sənətinin üslub xüsusiyyətlərini özlərində əks etdirirlər. Bu rəsmləri işləyən sənətkarların yaradıcılığında əsas yer tutan ov və döyüş səhnələrindəki çox fiqurlu kompozisiyaların düzülüşü, obrazların və peyzajların təsviri-kolorit həlli və s. təsvir vasitələri diqqəti xüsusilə cəlb edir.

Bu cəhətdən əslən Ordubaddan olan və 1904-cü ildə orada vəfat edən Kərbəlayi Zeynalabidin Nəqqaş Abdullazadənin əməyinin məhsulu olan rəsmləri xüsusi ilə qeyd etmək lazımdır. Evlərin daxili sahəsinin bəzək ünsürü olmaq etibarı ilə şəbəkədən də çox istifadə olunmuşdur. Şəbəkələrə Azərbaycanın demək olar ki, bütün rayonlarında təsadüf olunsa da, onlar daha çox məhz Ordubad şəhər yaşayış evlərində geniş yayılmışdır [183, s. 245-247].

İncəsənət. Çarizmin milli müstəmləkəçilik siyasəti milli ucqarlarda, o cümlədən Azərbaycanda və Naxçıvanda incəsənətin bir sıra sahələrinə, eləcə də təsviri sənətin inkişafına mane olurdu. Ona görə də XIX yüzillikdə olduğu kimi, XX yüzilliyin əvvəllərində də Naxçıvanda təsviri sənətin inkişafı üçün lazımi

şərait yox idi. Ancaq bu çətinliklərə baxmayaraq, Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi Əzim Əzimzadə və Bəhruz Kəngərli mütərəqqi rus və Avropa incəsənətinin təsiri ilə öz yaradıcılıq yollarını müəyyən etmiş və çoxcəhətli bədii yaradıcılıqları ilə onlara qədər Azərbaycan təsviri sənətində hökm sürən təsvir dairəsinin məhdudluğu, şərtilik, sxematiklik və dekorativlik çərçivəsini qıraraq ona yeni ideya, məzmun və forma vermişlər [2, s. 121].

XX əsrin əvvəllərində Azərbaycanda realizm prinsipli bir çox istedadlı rəssamlar yetişmişdir ki, onlardan biri də Naxçıvanda yaşayıb-yaradan, boyakarlıq və qrafika sahəsində uğurla çalışan Bəhruz Kəngərli olmuşdur. Bəhruz Kəngərli 1910-cu ildə Cəlil Məmmədquluzadənin yardımı ilə Cənubi Qafqazda yeganə olan Tiflisdə Qafqaz İncəsənəti Təşviq Cəmiyyətinin nəzdindəki Boyakarlıq və Heykəltəraşlıq məktəbinə daxil olmuşdur. 1915-ci ildə həmin məktəbin məzunu olan peşəkar rəssam Bəhruz Kəngərlinin yaradıcılığı çoxcəhətli olmuşdur. Yağlı və sulu boyalarla şəkillər çəkən Bəhruz Kəngərli yaradıcılığında mənzərə janrı xüsusi yer tutmuşdur. Bununla yanaşı, onun müasirlərinin portretləri, qədim tariximizə aid natürmortları ilə əlaqədar yaradıcılıq məhsulları, Naxçıvan teatrında tamaşaların bədii tərtibatını verən, teatr-dekorasiya sənəti sahəsinin pioneri sayılan rəssamın səhnəqrafiya sahəsində fəaliyyəti diqqəti cəlb edir. Qısa ömür sürməsinə baxmayaraq, rəssamın özündən sonra buraxdığı miras Azərbaycan təsviri sənəti tarixində özünəməxsus yer tutur.

XIX əsrin əvvəllərində Azərbaycanda iki istiqamətdə – peşəkar aşıqlar, sazəndə və xanəndələrin yaradıcılığı əsasında inkişaf edən musiqi sənəti Naxçıvanda da inkişaf dövrünü yaşayır. XIX əsrin sonu – XX əsrin əvvəllərindən Naxçıvanda müasir musiqi formalarına maraq artır. Həmin vaxtdan başlayaraq açıq konsertlər təşkil edilməyə başlanır. Bu dövrdə aşıq musiqisini inkişaf etdirən aşıqlar məhəbbət, gözəllik və s. haqqında şeirlərlə yanaşı, hakim sinfə, istismarçılara qarşı nifrət doğuran əsərlər yaradır, azadlıq uğrunda mübarizə aparan qəhrəmanları tərənnüm edirdilər [66, s. 274]. Bəhs olunan dövrdə kütləvi xalq rəqsləri, o cümlədən bölgədə qədim zamanlardan geniş şöhrət tapan yallılar inkişaf edirdi. Bunlarla yanaşı, bəhs olunan dövrdə Şərq muğam üçlükləri də yayılmağa başlayır. Məhz bu zamanlarda Naxçıvanda muğam sənətini sevənlərin iştirak etdiyi muğam məclisləri təşkil olunmağa başlanır.

Tədqiqatçıların fikrincə, Naxçıvanın musiqi məclislərində, konsert salonlarında Şərq üçlüklərinin inkişafı, əsasən yerli ifaçıların toy məclislərində birlikdə iştirak etmələri ilə əlaqədar olmuşdur. Şərq üçlüklərinin əsas xidməti ondan ibarət idi ki, onlar istər toy məclislərində, istərsə də konsert salonlarında bayağı musiqiləri deyil, xalq mahnı və rəqslərimizin, muğamlarımızın əsl mənada təbliğatçıları kimi çıxış edirdilər.

XX yüzilliyin əvvəllərində Naxçıvanda musiqi həvəskarı kimi tanınan Süleyman Süleymanovun cümə günləri keçirdiyi məclislərdə Naxçıvan xanəndələri

Məşədi Əsəd, Həsənqulu, Məşədi Həsən, Məşədi İsmayıl, İdris Nağıyev, Əliş Xoşkeşinli, Kərbəlayi Baxşəli Əliyev və başqaları iştirak edirdilər. Bu xanəndələr Şərq üçlüyünün müşayiəti ilə muğam dəsgahlarını oxuyurdular. Xanəndələrin eyni məclisdə toplanıb oxumaları, bir növü "sənət yarışı" xüsusiyyəti daşıyır, muğam sənətini inkişaf etdirməyə xidmət edirdi [126, s. 278]. Muğam ifaçılarını Naxçıvanda məşhur olan xanəndələrin rəhbərlik etdikləri üçlüklər müşayiət edirdilər.

Naxçıvanda məşhur olan və sevilən xanəndələrdən biri Kərbəlayi Baxşəli Əliyev idi. Muğam sənətinə dərindən bələd olan Kərbəlayi Baxşəlinin şöhrəti Naxçıvan çərçivəsindən kənara çıxmış, hətta o, Qafqazda məşhur olmuşdu. 1905-ci ildə Tiflisdə onun ifa etdiyi "Şur" və "Segah" muğamları vala köçürülmüşdür [126, s. 279].

XX yüzilliyin əvvəllərində Naxçıvan bölgəsində bir sıra sənətkarlıq sahələri fəaliyyət göstərməkdə idi. Buna misal olaraq xəttatlıq və nəqqaşlıq sənətini göstərmək olar. Həmin vaxt Ordubad şəhərində yaşayan və əl işləri bir sıra binalarda, o cümlədən 1902-ci ildə təmir-bərpa işləri aparılan Came məscidinin divarlarında indiyədək qalan Nəqqaş Kərbəlayi Zeynalabidin və Müctəhid Ağaəlinin oğlu xəttat əl-Hac Məhəmmədtəqi kimi sənətkarlar əhali arasında böyük şöhrət qazanmışdı.

Ancaq bütün bunlar inkişaf etmiş orta əsrlər dövründə yaradılmış incəsənət nümunələri ilə müqayisədə geridə qalırdı. Bu dövrdə Naxçıvan ustaları tərəfindən hazırlanmış misgərlik və dəmirçilik məmulatları, həmçinin zərgərlərin əməyinin məhsulu olan bəzək əşyaları (boyunbağılar, sırğalar, qolbağlar, kəmərlər, üzüklər və s.) diqqəti cəlb edirdi. Toxuculuq məhsulları, o cümlədən tətbiqi sənətin əsas sahələrindən biri olan xalçaçılıq nümunələri, xüsusilə cecimlər, Ordubadda toxunan ipək parçalar, nəfis şəkildə hazırlanan gözəl güllü baş örtükləri – kəlağayılar nəinki Azərbaycanda, həmçinin qonşu ölkələrdə də yüksək qiymətləndirilirdi.

V FƏSİL

NAXÇIVAN XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ

1. Naxçıvanda sovet hakimiyyətinin qurulması

Çarizmin süqutu Rusiya imperiyasında yaşayan xalqlara öz müqəddəratını təyin etmək üçün imkan yaratdı. Uzun illər azadlıq uğrunda mübarizə aparan Azərbaycan xalqı yaranmış şəraitdən istifadə edərək öz müstəqilliyini elan etdi. 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Ancaq cəmi 23 aydan sonra Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətini süquta uğratdı və 28 aprel 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti quruldu.

Bakıdakı çevriliş xəbəri Naxçıvan diyarına çox tez, elə aprelin 28-də çatdı. Əhali və hakimiyyət strukturları bu xəbəri heç də birmənalı qarşılamadı. O dövrdə Naxçıvan diyarında və onun ətrafında yaranmış mürəkkəb siyasi şərait hadisələrin asanlıqla dinc axara düşəcəyinə ümid vermirdi. Hələ XI Qırmızı Ordu hissələri Naxçıvana gəlməzdən əvvəl türk qoşun dəstəsinin burada yerləşməsi, Naxçıvan Milli Komitəsinin 1500 nəfərlik qoşun hissələrinin fəaliyyəti, daşnak Ermənistan ordusunun Naxçıvana mütəmadi hücumları, ABŞ, İngiltərə və Fransa nümayəndəliklərinin müxtəlif formalarda Naxçıvan məsələsinə müdaxilə etmələri siyasi vəziyyəti daha da mürəkkəbləşdirirdi.

Belə bir şəraitdə XI Qırmızı Ordunun Hərbi Şurası və Azərbaycan İnqilab Komitəsi Naxçıvana göndərdiyi teleqramda hakimiyyətin təcili sovetlərə verilməsini tələb edirdi. 1920-ci il iyulun 17-də S.Orconikidze Bakıdan V.İ.Leninə və G.V.Çiçerinə göndərdiyi teleqramında yazırdı ki, ermənilərin hücumu ilə əlaqədar bu rayonda qırğınlar qaçılmaz olduğu üçün Naxçıvan rayonunun bizim ordular tərəfindən tutulması zəruridir [44].

1920-ci il iyulun 19-da XI Qırmızı Ordu hissələrinə Naxçıvanı tutmaq əmri verildi. İyulun 27-də gecə XI Qırmızı Ordunun birinci Qafqaz polkundan olan 30 nəfərdən ibarət süvari dəstəsi, iyulun 28-də 106-cı polkun süvari dəstələri Gorus, Şahbuz və Cəhridən keçərək Naxçıvan şəhərinə daxil oldu [192, s. 32]. Həmin gün bölgənin ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi yaradıldı. Onun tərkibinə M.Bəktaşov, A.Qədimov, F.Mahmudbəyov, Q.Babayev, A.Bağırov, N.Nəcəfov və Q.Əsgərov daxil oldular. Mirzəlibəy Bəktaşovun sədrliyi ilə Naxçıvan İnqilab Komitəsi 1920-ci il iyulun 28-də diyar fəhlə və kəndlilərinə müraciət edərək, Sovet hakimiyyətinin qurulduğunu və Naxçıvanın Azərbaycan SSR-nin ayrılmaz hissəsi olduğunu elan etdi.

29 iyulda Naxçıvan şəhərində Hərbi İnqilab Komitəsi və Hərbi Əmək Müdafiə Şurası yaradıldı. Oktyabrın 19-da Ordubadda, dekabrın 2-də isə Şərurda inqilab komitələri və yerli hakimiyyət orqanları yaradıldı [192, s. 17]. Qırmızı Ordu hissələrinin Naxçıvana daxil olması burada bolşevik təşkilatlarının fəaliyyətinin

canlandırılmasında mühüm rol oynadı. Naxçıvan bolşevik təşkilatı yenidən təşkil olundu. Partiya təşkilatının iclaslarında yerli kommunistlər Ə.Rüstəmov, M.Bəktaşov, N.Nəcəfov, Qırmızı Ordudan Starov, həmçinin türk zabiti Xəlil bəy iştirak edirdilər. Xəlil bəy Naxçıvan Sovet hökuməti ilə Türkiyə arasında əlaqə yaradırdı.

1920-ci ilin avqustunda Bahadır Vəlibəyov Azərbaycan İnqilab Komitəsinin və XI Qırmızı Ordu Hərbi İnqilab Şurasının qərarı ilə Naxçıvan diyarının fövqəladə komissarı təyin olundu. Həmin il sentyabrın əvvəllərində Naxçıvanda fövqəladə istintaq komissiyası təşkil edildi, oktyabrda isə İnqilab Komitəsinin qərarı ilə köhnə məhkəmə sistemi ləğv edilərək, yeni xalq məhkəmələrinin yaradılmasına başlandı.

XI Qırmızı Ordunun Naxçıvanı tutduqdan sonrakı ilk dövrlərdə də erməni quldurlarının bura basqınlarının ardı-arası kəsilmirdi. 1920-ci il iyulunda daşnak silahlı dəstələri Şərura hücuma keçdilər. Əliyalın əhali ermənilərin vəhşiliklərinə tab gətirə bilməyərək yaşayış yerlərini tərk etdi və İrana keçməyə məcbur oldu. Daşnak qoşunlarının ön dəstəsi Yurdçu, Qabıllı kəndlərinə od vurub yandırdı. Kəndin müdafiəçiləri istehkamları vuruşsuz tərk edib geri çəkildilər... Qaçqın kütləsi körpülərdən keçərək Ərəblərə çəkildi [61, s. 73]. Bununla kifayətlənməyən ermənilər gecələr zirehli qatarın projektoru vasitəsi ilə qaçqınların yerlərini müəyyənləşdirir və onları atəşə tuturdular. Məcburən qaçqına, didərginə çevrilmiş əhali ev-eşiyindən və mal-qarasından da imtina etməli olmuşdu. Şərurluların müdafiəsiz olmasından istifadə edən ermənilər əcnəbi qüvvələrin köməyi ilə Püsyan, Qarabağlar, Xok, Şahtaxtı cəbhəsini yararaq Naxçıvan şəhəri istiqamətində hücuma keçdilər. XI Qırmızı Ordu hissələrinin Naxçıvana daxil olub İnqilab Komitəsi yaratdığından xəbər tutan daşnak komandanlığı öz hücum həmlələrini dayandırmağa məcbur oldu [61, s. 76].

1920-ci il iyulun 29-da İnqilab Komitəsi daşnak hökumətinə müraciət edərək sülh danışıqlarına başlamağı təklif etdi və öz nümayəndə heyətini İrəvana göndərdi. İrəvandan qayıdan Naxçıvan İnqilab Komitəsinin nümayəndə heyətinin qarşısında daşnaklar tərəfindən belə şərtlər qoyulmuşdu: "Naxçıvan qəzası Ermənistan hökumətinə tabe olmalı və ona şərtsiz itaət etməlidir. Bundan başqa, naxçıvanlılar Ermənistan hökumətinə 7 min ədəd tüfəng, hər bir tüfəng üçün 80 patron, bütün top və pulemyotlarını, eyni zamanda 300 min pud buğda, 300 yəhərli at, 200 baş qoşqu heyvanı verməlidir" [45]. Bu, Naxçıvanın ərazilərinin işğalı, əhalinin isə tərkisilah və müflis edilməsi demək idi. Təbii ki, Naxçıvandan getmiş nümayəndələr bu şərtlərin heç biri ilə razılaşa bilməzdi. Çünki əhali israrla Azərbaycanın tərkibində qalmağı tələb edirdi.

Naxçıvan İnqilab Komitəsi ermənilərin bu tələblərinə qəti etiraz etmiş və o zaman Şahtaxtı kəndində yerləşən erməni quldurlarının rəisinə avqustun 1-də aşağıdakı məzmunda məktub təqdim etmişdi: "Naxçıvan rayonunun əhalisi monarxist üsul-idarəsinin zəncirini birdəfəlik öz boynundan atmışdır və daşnakların bizi əsarət altına alıb qul etmək üçün hər hansı cəhdinə cavab verməyə hazırdır. Naxçıvan rayonunun əməkçi əhalisi özünü RSFSR-lə ittifaqa girmiş Azərbaycan

Sovet Respublikasının ayrılmaz tərkib hissəsi elan etmişdir. Xalq heç vaxt erməni zəhmətkeşləri ilə düşmənçilik etməmiş və etməyəcəkdir. Ancaq qəddar, zülmkar daşnaklara qarşı mübarizəni davam etdirəcəkdir" [74, v. 29-33].

Naxçıvan Hərbi İnqilab Komitəsi 1 nəfər Qırmızı Ordudan, 1 nəfər türk ordusundan və naxçıvanlı Əli Babayevdən ibarət üç nəfərlik nümayəndə heyəti ilə məktubu Şahtaxtıdakı daşnak qoşunlarının komandirinə təqdim etdi. Daşnaklar nümayəndə heyətinin sülhsevər çağırışlarına, ciddi xəbərdarlıqlarına əhəmiyyət verməyərək onları həbs etdilər və nəzarət altında İrəvan şəhərinə göndərdilər. Naxçıvan Hərbi İnqilab Komitəsinin nümayəndə heyətinə göstərilən bu münasibətə qarşı kəskin etirazından sonra nümayəndələr azad edilərək Şahtaxtıya qaytarıldılar. Bundan sonra da daşnaklar Naxçıvan ərazisini ələ keçirmək məqsədilə yenidən cəhd göstərərək öz ordusunu Naxçıvan üzərinə göndərmişdi. Naxçıvanda qanlı vuruşmalar baş vermiş, dinc əhalidən ölənlər və yaralananlar olmuşdu. Yalnız avqustun 10-da Azərbaycan İnqilab Komitəsinin kəskin xəbərdarlıq və tələbi, RSFSR-in Ermənistanda olan nümayəndəsinin işə qarışması nəticəsində iki maddədən ibarət saziş bağlanmış və bunun əsasında hərbi əməliyyatlar dayandırılmışdı [192, s. 17].

Daşnak hökumətinin, bir qədər sonra isə sovet Ermənistanının tələbinə baxmayaraq, ermənilərin vəhşiliklərindən təngə gələn əhali Ermənistanın tabeliyinə keçməkdən imtina edirdi. Bu məsələ ilə bağlı 1920-ci il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin Azərbaycan SSR Xalq Komissarlar Sovetinin sədri N.Nərimanova ünvanladığı xalqın iradəsini ifadə edən məktubda deyilirdi: "Naxçıvan xalqının (əhalisinin – ***red.***) böyük əksəriyyətinin qərarı ilə Naxçıvan özünü Azərbaycan SSR-in ayrılmaz hissəsi hesab edir… İndi Azərbaycan Sovet Sosialist Respublikası Naxçıvan əhalisi üçün üfüqdən doğan bir şəfəqdir" [169, s. 139].

Bunları nəzərə alan N.Nərimanov 12 avqust 1920-ci ildə İ.V.Lenin və G.V.Çiçerinin adına teleqram göndərib Naxçıvanın daşnak Ermənistanın tərkibinə qatılmasına etirazını bildirir: "Naxçıvan diyarının əhalisi öz vətənlərində sovet quruluşunu tətbiq etmiş kommunistlərin simasında özlərinin xilaskarlarını görürdü və ağlına da gətirməzdi ki, sovet Rusiyası özbaşına, bütün əhalinin iradəsi əksinə olaraq bu diyarı daşnaklara verər, halbuki onların hakimiyyəti altında nəinki sovet quruluşu məhv edilir, həm də əhalinin fiziki mövcudluğuna şəksiz təhlükə vardır. Biz bu hala artıq daşnak Ermənistanın ərazisində yerləşmiş yüzlərlə müsəlman kəndinin timsalında rast gəlmişik" [41, v. 14].

1920-ci il sentyabrın ortalarında daşnaklar yenidən Naxçıvan diyarına hücuma keçdi. Bu hücum nəticəsində Ordubad bölgəsində yüzlərlə adam qətlə yetirildi. Sentyabrın 18-də türk qoşunlarının və yerli hərbi birləşmələrin köməyi ilə ermənilərin özbaşınalıqlarına son qoymaq üçün Ordubada hücüm edildi və şəhər düşməndən azad olundu. Beləliklə, "1920-ci il noyabrın 7-də daşnakların növbəti təcavüzünə cavab olaraq XI Qırmızı Ordunun Qafqaz polkunun hissələri, türk qoşun dəstələri, yerli əhalidən təşkil olunmuş 1500 nəfərlik könüllü əsgərlərlə birlikdə A.Şadlinskinin

"Qırmızı Tabor" dəstələri, həmçinin İrandan Naxçıvana qayıtmış üsyançı Şərur qaçqınları düşmənə qarşı əks-hücuma keçdilər. Əks-hücum bir neçə istiqamətdə-Şərur, Qıvraq, Qarabağlar və indiki Çalxanqala kəndləri istiqamətində başlandı. Hücum o qədər gözlənilməz və sarsıdıcı olmuşdu ki, daşnak ordularının vahimə içərisində öz mövqelərini qoyub qaçmaqdan başqa çıxış yolu qalmamışdı" [192, s. 38].

Ermənilərin müxtəlif bölgələrdə törətdiyi faciələrin nəticələri çox dəhşətli idi. Onlar tərəfindən Zəngibasarda, Vedibasarda Dərələyəzdə, Şərur və Şahtaxtıda onlarla kənd yandırılmış, insanlar əsir götürülmüş, minlərlə qadın, uşaq, kişi və qoca öldürülmüşdür.

Naxçıvanda xilaskar imici formalaşdırmağa çalışan, lakin bütün bu qırğınlara göz yuman XI Qırmızı Ordunun komandanlığı 1920-ci ilin iyul-avqust ayında verdiyi əmrdə bildirirdi: "Qırmızı Orduya erməni ordusuna hücum etmək vəzifəsi tapşırılmayıb. O yalnız general Dro və ya erməni ordusunun digər hissələri tərəfindən düşmənçilik hərəkətləri olduğu halda banditləri və quldurları məhv edəcək" [6, s. 37].

Ermənilərin törətdikləri qırğınlarla bərabər xalq yeni hökumətin siyasətindən də narazı idi. Naxçıvan İnqilab Komitəsi fəaliyyətə başladığı ilk gündən bölgədə sabitlik yaratmaq adı altında mülli düşüncəyə malik olan ziyalıları, sovetləşmə, eləcə də erməni silahlı dəstələrinin dinc türk-müsəlman əhaliyə qarşı törətdiyi kütləvi məhvetmə siyasəti əleyhinə mübarizə aparan fəal adamları "qardaş qırğınlarının təşkilatçıları" adı altında həbs etdi. Bunu 1920-ci il avqustun 22-də Naxçıvan şəhərində İnqilab Komitəsinin iclasının materiallarından da görmək olar. İclasda bolşeviklərdən 17 nəfər üzv və üzvlüyə namizəd iştirak edirdi. İclasa sədrliyi XI Qırmızı Ordunun zabiti Fyodorov edirdi. Onun iyulun 29-dan avqustun 22-dək Naxçıvan İnqilab Komitəsinin fəaliyyəti haqqında məruzəsindən sonra aydın olmuşdur ki, guya həmin dövrdə bu ali hakimiyyət orqanı xanların, bəylərin, varlıların mənafeyini müdafiə etmişdir [160, v. 1-2]. Deyilənlərin əksinə olaraq İnqilab Komitəsinin iclasında Naxçıvan Milli Komitəsinin rəhbərləri Cəfərqulu xanın, Rəhim xanın və onun oğlu İsgəndər xanın məsələsi müzakirə edilmişdi. İclasda əmlakları müsadirə olunmaqla Cəfərqulu xanı və Rəhim xanı həbs etdirib, XI Qırmızı Ordunun hərbi tribunalına vermək barədə qərar çıxarılmışdı. İsgəndər xanın isə Təbriz şəhərində yaşadığı nəzərə alınaraq ona öz əmlakını da götürüb Naxçıvan şəhərini tərk etməsinə icazə verilmişdi [160, v. 4]. Göründüyü kimi, Naxçıvan İnqilab Komitəsinin bu dövr üçün fəaliyyətində artıq repressiyanın ilk nişanələri görünməyə başlayırdı. Elə həmin dövrdə, yəni 1920-ci ilin avqustunda Azərbaycanın nüfuzlu generallarından olan və AXC-nin ordu qurulucuğunda, eləcə də onun struktur bölmələrinin formalaşdırılmasında [186, s. 184-187] yaxından iştirak edən, Baş qərargah və dəftərxana rəisi olmuş [186, s. 198], aprel çevrilişindən sonra isə Naxçıvana qayıdan və orada erməni özbaşınalıqlarına qarşı mübarizəyə qoşulan general-mayor Həbib bəy Səlimov həbs edildi. Onu sovet hökumətinin əleyhinə təbliğat aparmaqda, Qırmızı Orduya qarşı vuruşmaqda, İrana qaçmaqda günahlandıraraq [167, v. 1-2], Naxçıvandan Bakıya göndərdilər və orada güllələdilər

[86, s. 50]. Sonrakı dövrlərdə müxtəlif bəhanələr və əsassız iddialarla Naxçıvanda bolşeviklər tərəfindən çox sayda hərbçi həbs edildi və güllələndi.

Bu illərdə Naxçıvan mahalında həyatın normal məcraya yönəldilməsində, daşnak təcavüzünün ləğv edilməsində türk ordu hissələri mühüm rol oynayırdı.

Qırmızı Ordunun bütün tədbirləri türk ordusunun nümayəndəsi ilə danışıqlar aparıldıqdan və razılıq əldə edildikdən sonra həyata keçirilirdi. Arazdəyən stansiyasından başlamış Culfa stansiyasına qədər dəmir yolu vağzallarında, dayanacaqlarda silahlı türk əsgərləri dayanır, qatarların hərəkətinə nəzarət edirdilər. Poçt-teleqraf, rabitə işlərinə türk zabiti Hikmət əfəndi başçılıq edirdi. Sonralar isə, Ordubad, Culfa, Naxçıvan şəhərləri, Baş Noraşen, həmçinin bir çox iri kəndlər türk əsgərlərinin nəzarəti altına alınmışdı. Türklərin icazəsi olmadan heç kəs Ermənistandan Naxçıvan ərazisinə daxil ola bilməzdi. Oğurluğa, quldurluğa, xəyanətə və digər cinayətlərə qarşı sərt qanunlar qoyulmuşdu [192, s. 18].


Erməni daşnaklarının təcavüzünün qarşısını almaq məqsədi ilə Naxçıvana gələn mayor Veysəl bəy yazırdı ki, şüurlu xalq bolşeviklərin şüarları ilə əməlləri arasındakı fərqi tezliklə dərk etməyə başlamışdı. "Bolşeviklərin faktiki işləri və davranışı onların ilkin təbliğatının yaratdığı mühiti büsbütün korladı, əsl kommunistlər alçaldılmış vəziyyətə düşdülər. Ölkənin zorakılıqla elə keçirilməsində kommunist planlarının ikinci səhifəsi başladı... Dörd ay ərzində bolşeviklərin "incə" ustalıqlarını dərk etdilər... xalq müqavimətə başladı" [6, s. 40].

XI Qırmızı Ordu daşnak Ermənistanı ilə bolşevik Naxçıvanı arasında iğtişaşların davam etdirilməsinə rəvac verirdi. Daha doğrusu, bolşeviklər Naxçıvan bölgəsində ictimai-siyasi vəziyyəti gərginləşdirmək və naxçıvanlıları daha çətin vəziyyətə salmaqla öz tərəfdarlarının sayını artırmaq istəyirdilər. Onlar müəyyən mənada öz niyyətlərinə çatırdılar. Belə ki, əhalinin müəyyən hissəsi bolşeviklərin "biz sizi daşnaklardan xilas edəcəyik" vədlərinə və cəlbedici şüarlara inanır, onların tərəfinə keçirdilər. Bolşeviklərin tərəfinə keçən kəndlilər yalnız onlara qarşı deyil, daşnaklara qarşı da mübarizəni dayandırırdılar. Mövcud vəziyyətdən müəyyən erməni dairələri öz xeyirlərinə səmərəli istifadə edir və bolşeviklərin hələlik onlara qarşı çıxmayacağını bildiklərindən soyqırım siyasəti yeridir, istilaçılıq və qəsbkarlıq niyyətlərini daha da gücləndirirdilər [86, s. 50].

Dövrün ciddi problemlərindən biri Naxçıvan məsələsi, onun gələcək taleyi idi. Yerli əhali hər vasitə ilə Azərbaycanın tərkibində olmaq uğrunda mübarizə aparırdı. Azərbaycan hökuməti də bu məsələdə kəskin mövqe tutmuşdu.

AK(b)P Mərkəzi Komitəsinin 1920-ci il 13 iyul tarixli büro iclasında Naxçıvan məsələsi də müzakirə edilmiş və Türkiyə qoşunlarının bu bölgələrdən çıxarılması qərara alınmışdı. İyulun 15-də isə belə bir qərar qəbul edilmişdi ki, türk qoşunları Nax çıvan və digər ərazilərdən imtina etsin, onların rus qoşunları tərəfindən tutulması təklif olunsun [32, v. 46]. Belə bir qərarın qəbul edilməsi əhalinin haqlı narazılığına səbəb oldu. Çünki naxçıvanlıları müdafiə edə biləcək yeganə qüvvə türklər idi.

AZƏRBAYCAN SSR (1920-1922-ci illər)



Ermənistan Respublikasına və Gürcüstan Respublikasına verilmiş Azərbaycan torpaqları

1920-ci il aprelin 28-də Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinə məxsus olan 11 389 597 kv. km ərazi sahəsinin nəinki mübahisəli sayılan 16 598 kv.km-i, həm də mübahisəsiz olan 97 298 kv. km ərazisinin bir hissəsi qonşu respublikalara, xüsusilə Ermənistan Respublikasına verilmişdir.

1920-ci il mayında quberniya sistemi ləğv olunmuş, qəza bölgüləri isə saxlanılmışdır.

1920-ci il iyulun 28-də XI Qırmızı ordu hissələri Naxçıvana daxil oldu. Naxçıvan Sovet Sosialist Respublikası elan edildi. Respublikanın ali orqanı—İnqilab Komitəsi yaradıldı. Naxçıvan SSR Şərur, Naxçıvan, Ordubad qəzalarını əhatə edirdi.

1920-ci il dekabrın 2-də RSFSR və Sovet Ermənistanı arasında imzalanan hərbi-siyasi sazişin III maddəsində Rusiya Sovet hökuməti İrəvan quberniyasının Zəngəzur qəzasını Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır. Zəngəzur 1921-ci ilin iyununadək erməni-daşnak silahlı qüvvələrinin hakimiyyətində qalırdı. 1921-ci ilin iyununda Əlahiddə Qafqaz ordusu hissələrinin Zəngəzuru daşnak qüvvələrindən təmizlənməsi ilə Zəngəzurun qərb və yuxarı hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi başa çatdırıldı.1921-ci il iyunun 20-də Ermənistan SSR XKS tərəfindən təsdiq olunmuş 8 qəzaya 9-cu Zəngəzur qəzası əlavə olundu.

Beləliklə Azərbaycan SSR-in göstərilən əraziləri onunla razılaşdırılmadan Sovet Rusiyası tərəfindən Ermənistan SSR-ə verildi.

Azərbaycan SSR XTK-nin 25 oktyabr tarixli arayışına görə keçmiş Zəngəzur qəzasından 405 000 desyatin (4 424,6 kv.km), Qazax qəzasından 379 984 desyatin (4 151,3 kv.km) ərazi Ermənistan SSR-ə verilmişdir.

1921-1922-ci illərdə Azərbaycan SSR-in inzibati bölgüsünə 15 qəza, Naxçıvan SSR-ə isə 3 qəza daxil idi.

Türk qoşunlarının Naxçıvandan çıxarılmasında bolşevik xadimlərindən Mikoyan, Naneyeşvili, Eqorov və Orcenikidze daha israrlı idi. 1920-ci illərdə


Naxçıvan SSR-in qonşuları – İran, Türkiyə dövlətləri və Cənubi Qafqaz respublikaları ilə diplomatik, iqtisadi əlaqələri konsulluq və nümayəndəliklər vasitəsilə həyata keçirilirdi. Naxçıvanın Maku, Xoy və Təbriz şəhərlərində konsulluqları, Türkiyənin Qars şəhərindəki RSFSR konsulluğu yanında Naxçıvan müvəkkilliyi yaradılmışdı. Türkiyənin Naxçıvanda hərbi nümayəndəliyi 1924-cu ilin iyulunadək, İranın Naxçıvandakı konsulluğu isə 1938-ci il noyabrın 17-dək fəaliyyət göstərmişdir. Makuda İsmayılbəy Camalbəyov, Təbrizdə Qasım bəy Camalbəyov Naxçıvan SSR-in ilk konsulları olmuşlar.

Qars şəhərində Naxçıvanın müvəkkili Balabəy idi. Naxçıvan SSR-in Bakı, Tiflis və İrəvan şəhərlərində də nümayəndəlikləri yaradılmışdı. Əziz Şərif 1922-ci ilin yanvarında Gürcüstan SSR-də Naxçıvanın nümayəndəsi təyin edilmişdi. Bolşeviklər daşnak hökuməti ilə əlaqələr yaratmaq, onlarla kompromisə girmək üçün Azərbaycan torpaqlarından siyasi vasitə kimi istifadə edirdilər. G.V.Çiçerin 1920-ci il iyunun 2-də S.Orcenikidzeyə yazırdı: "Daşnak hökuməti ilə kompromisə nail olmaq bizə vacibdir. Bu arada Azərbaycan hökuməti nəinki Qarabağ və Zəngəzuru, həm də Şərur-Dərələyəz qəzasını mübahisəli elan edir. Sonuncu heç zaman, heç kim tərəfindən mübahisəli elan edilməmişdir, hətta Müsavat hökuməti həmişə Ermənistanınkı kimi qəbul etmişdir. Onsuz Ermənistanda demək olar ki, heç nə qalmır… Bakıda Sizin (S.Orcenikidze nəzərdə tutulurdu – ***red.***) böyük nüfuzunuzdan istifadə edib Azərbaycan hökumətinin Şərur-Dərələyəz qəzasını deyil, Qarabağ və Zəngəzuru mübahisəli hesab etməyinə nail olmağı xahiş edirik" [46].


Buradakı "sonuncu" ifadəsi diqqəti cəlb edir. Belə çıxır ki, Şərur-Dərələyəz mübahisəsiz Ermənistana aiddir. Deməli, sovet hakimiyyəti o dövrdən tarixi Naxçıvan ərazisi ilə bağlı ədalətsiz mövqe tutmuşdur.

Azərbaycan rəhbərliyinin etirazına baxmayaraq, Moskva ikili siyasət yeridirdi. Belə ki, onlar hələlik Zəngəzurun və Naxçıvanın Ermənistana birləşdirilməsinə tam razılıq vermirdilər. 1920-ci il noyabrın 9-da Bakı şəhərində keçirilən Azərbaycan K(b)P MK və Bakı Komitəsinin birgə plenumunda çıxış edən Stalin bildirirdi ki, Zəngəzur və Naxçıvanı Ermənistanın indiki hökumətinə vermək olmaz. Orada sovet hakimiyyəti yarandıqdan sonra isə vermək olar [25, v. 30]. Eyni fikri bir qədər başqa formada S.Orcenikidze belə ifadə edirdi: "Hansısa Zəngəzur – məhsulsuz dağlar, taxılı yox, suyu yox. Orada heç nə yoxdur. Hansısa Naxçıvan – bataqlıq, malyariya və başqa heç nə. Hansısa Dağlıq Qarabağ. Nə var bu Dağlıq Qarabağda? Heç nə yoxdur" [58, s. 118].

Mərkəzin belə mövqeyi bir daha göstərirdi ki, Qafqazı ələ keçirmək, imperiyanın coğrafi hüdudlarını genişləndirmək və işğal etdikləri ərazilərin maddi sərvətlərini mənimsəmək üçün onlar erməni faktoruna daha sərfəli tərəfdaş kimi baxırdılar. Bu dövrdə sovet rəhbərliyi tərəfindən hazırlanan və N.Nərimanovun dilindən səsləndirilən Naxçıvanın Ermənistana verilməsi barədə Azərbaycan İnqilab Komitəsinin bəyanatı Naxçıvana bir qədər gec gəlib çıxmışdı. Lakin artıq şayiələr



Ermənistan Respublikasına verilmiş Azərbaycan torpaqları



28 iyul 1920-ci ildə XI Qızıl ordu hissələri Naxçıvana daxil oldu. Naxçıvan Sovet Sosialist Respublikası elan edildi. Respublikanın ali orqanı —İnqilab Komitəsi yaradıldı. Naxçıvan SSR Şərur, Naxçıvan, Ordubad qəzalarını əhatə edirdi.

2 dekabr 1920-ci ildə RSFSR və Sovet Ermənistanı arasında imzalanan hərbi-siyasi sazişin III maddəsində Rusiya Sovet hökuməti qədim Azərbaycan torpağı olan Zəngəzuru Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır. Zəngəzur 1921-ci ilin iyununadək ermənidaşnak silahlı qüvvələrinin hakimiyyətində qalırdı. 1921-ci ilin iyununda Əlahiddə Qafqaz ordusu hissələrinin Zəngəzuru daşnak qüvvələrindən təmizləməsi ilə Zəngəzurun qərb və yuxarı hissələrinin Ermənistan SSR-ə birləşdirilməsi başa çatdırıldı. 20 iyun1921-ci ildə Ermənistan SSR XKS tərəfindən təsdiq olunmuş 8 qəzaya 9-cu Zəngəzur qəzası əlavə olundu.

Naxçıvan SSR (1920-1922-ci illər)

yayılmaqda idi. Əhali dekabrın 5-dən etibarən hər gün dəstə-dəstə axışıb İnqilab Komitəsinin qarşısına toplaşaraq tələb edirdi ki, həmin sənəd oxunsun və məzmunu xalqa izah edilsin. Naxçıvan şəhərində yaranmış belə çətin və gərgin bir vaxtda Azərbaycan İnqilab Komitəsi Naxçıvanın yerli şəraitinə və adamlarına yaxşı bələd

olan Azərbaycan SSR Ədliyyə Komissarı və İnqilab Komitəsinin üzvü B.Şahtaxtinskini Naxçıvana göndərdi. Naxçıvana gələn B.Şahtaxtinski əhalinin Azərbaycan İnqilab Komitəsinin bəyanatı haqqında nigarançılıqla dolu suallarına cavab verərək həqiqəti demək məcburiyyəti qarşısında qalır: "Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır.... Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaqlar..." [160, v. 23-24].

Nəhayət, Naxçıvan əhalisinin inadlı mübarizəsi əhali arasında keçirilən rəy sorğusunun nəticələri, həmçinin 1921-ci ildə imzalanan Moskva və Qars müqavilələsinin şərtlərinə əsasən Naxçıvan əhalisi Azərbaycanın tərkibində muxtariyyət statusu əldə etdi.

2. Sovet hakimiyyətinin ilk illərində sosial-siyasi vəziyyət

Sovet hakimiyyətinin qurulması ilə ictimai-siyasi həyatda proletar diktaturası yönümlü tədbirlər həyata keçirilməyə başlandı. Məsələn, bütün silk və dini imtiyazlar ləğv edildi, məscid və kilsə dövlətdən ayrıldı. 1920-ci il mayın 15-də Azərbaycan SSR Xalq Maarif Komissarlığının verdiyi dekretlə vicdan azadlığı elan edildi. Həmin dekretdə Xalq Maarif Komissarlığının öhdəsində olan bütün dövlət məktəblərində, eləcə də pullu məktəblərdə şəriət dərslərinin, habelə məktəb daxilində hər cür dini ayinlərin icrasının qadağan edilməsi nəzərdə tutulurdu. Bütün bunlar məscid və kilsəni felən məktəbdən ayırmaq demək idi [107, s. 247].

Dekretdən istifadə edərkən bolşeviklər təkcə məktəblərdə deyil, bütövlükdə "xalqımızın adət-ənənələrinə, milli spesifik xüsusiyyətlərinə məhəl qoymadan" din xadimlərini cəzalandırmağa çalışırdılar [97, s. 67]. 20-ci illərin ortalarından etibarən bolşevik təbliğatı və təzyiqi nəticəsində din xadimlərinin-ruhanilərin, axundların, mollaların və s. bir çoxu həbs edildi. Bəzən kommunistlər dindarlarla o qədər sərt rəftar edirdi ki, bu nəinki din xadimlərini, hətta siyasi xadimləri də narazı salırdı. Təsadüfi deyildir ki, 1920-ci ilin oktyabrında keçirilən Azərbaycan K(b)P-nin II qurultayında çıxış edən Nəriman Nərimanov öz nitqində bu məsələyə xüsusi diqqət yetirmişdir: "Bizdə elə müsəlman kommunistlər var ki, kəndə girən kimi adamları məsciddən qovur və deyir ki, məscidləri bağlayın. Bu faktdır və belə kommunistlər öz əməlləri ilə fəxr edirlər ki, guya böyük iş görürlər. Onlar elə güman edirlər ki, bizim inqilabımızı genişləndirir və möhkəmləndirirlər. Mən belələrini əksinqilabçı adlandırıram, çünki bunlar bizim işlərimizi korlayırlar. Şərqdə din məsələsi olduqca vacib məsələdir. Bu məsələdə son dərəcə ehtiyatlı olmaq lazımdır, çünki burada bütün həyat bu qanundan asılıdır" [24, v. 195].

N.Nərimanov "Ucqarlarda inqilabın tarixinə dair" (İ.V. Stalinə məktub) əsərində yazır ki, Azərbaycanı sovetləşdirərkən Rusiyada etdiyimiz səhvlərə yol verməməli, yerli şəraitlə hesablaşmalı, müstəqil, nümunəvi Sovet respublikası

yaratmalıyıq... [184, s. 6].

N.Nərimanov İslam dininə qarşı ədalətsiz hücumlara cavab olaraq onunla xristianlıq arasındakı fərqli cəhətləri göstərir və qeyd edir: "Xristianlıq ehkamdırsa, İslam həyatdır" [24, v. 194]. N.Nərimanovun rəsmi narazılığına, xalq kütlələrinin ciddi etirazına baxmayaraq, 1924-cü ildə "Allahsızlar cəmiyyəti" [87, s. 176] yaradıldı. Azərbaycanın əyalətlərində bu cəmiyyətin özəklərini təşkil etdilər. Cəmiyyətin üzvləri yerli şəraiti, insanların psixoloji xüsusiyyətlərini nəzərə almadan pioner və komsomolçulardan istifadə edərək milli-mənəvi dəyərlərə, İslam dininə qarşı mübarizə aparırdılar. Həmin kampaniyanın fəallığı nəticəsində digər yerlərdə olduğu kimi, Naxçıvanda da bir çoxları totalitar rejimin sərt qanunları ilə cəzalandırıldı [165, v. 10].

1929-cu ildə "Allahsızlar cəmiyyəti" öz fəaliyyətini daha da genişləndirərək "Mübariz Allahsızlar İttifaqı"na çevrildi. Bu ittifaqın əsas vəzifəsi dinə və dini dəyərlərə zərbə vurmaqdan ibarət idi. Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Naxçıvan diyarında da dövlətin bu istiqamətdə keçirdiyi tədbirlərə əhali tərəfindən etiraz edilmişdir. Hətta etirazlar o qədər güclü bir şəkil almışdı ki, hökumət və hüquq-mühafizə orqanları dindarlarla, eləcə də əhali ilə bir qədər ehtiyatla davranmağa məcbur olmuşdu. Vəziyyət o yerə gəlib çatmışdı ki, etirazlar açıq şəkil almaqla üsyan xarakteri daşıyırdı. Xalqın irəli gələnləri, tanınmış dindarlar heç nədən çəkinmədən bu siyasətə qarşı çıxırdılar. Bu, öz əksini arxiv sənədlərində də tapmışdır [117, v. 44]. Deməli, prinsip belə idi "ya bizdən olmalısan, ya da aradan çıxmalısan". Bütün təqib və təzyiqlərə baxmayaraq, Naxçıvanda əhali İslam dininə və dini adət-ənənələrimizə axıradək sadiq qalmış, sovet hökumətinin bu istiqamətdə apardığı siyasəti həmişə narazılıqla qarşılamışdır.

Mübarizənin mərkəzində müsbət mənada dəyərləndirilə biləcək məsələlərdən biri də məktəbli qızların erkən yaşlarında nişanlanmasının, ərə verilməsinin qarşısını almaq idi. Lakin əldə olunan dəlillər sübut edir ki, Ordubad və Culfa rayonlarında, eləcə də Azərbaycanın başqa bölgələrində 8-10 yaşlı məktəbli qızların komsomolçular və partiya üzvləri ilə nişanlanması halı geniş yayılmışdı [113]. Deməli, qanunu pozan onlar olmuşdur.

Naxçıvanda fəal komsomolçuların və gənc kommunistlərin mollaları təhqir edərək ələ salmaqla, bəzən döyməklə sıxışdırması diyarın hər yerində mümkün deyildi. Bunun əsas səbəbi aşağıdakılar idi:

Din xadimlərinin böyük nüfuza malik olması; kəndlərin bir çoxunun böyük tayfalardan ibarət olması; əhalinin böyük əksəriyyətinin öz dininə və dini adətlərinə sadiq olmaları; kəndlilərin dinə və dini dəyərlərlə mübarizə aparan qüvvələrə qarşı vahid cəbhədən çıxış etmələri; əhalinin yığcam şəkildə yaşaması və bir-birini yaxından tanıması; dini amillərdən başqa ağsaqqallıq, böyük-kiçik amilinin güclü olması və buna riayət edilməsi [88, s. 179]. Bu və ya digər amillər Azərbaycanın başqa bölgələrindən fərqli olaraq Naxçıvanda komsomolçuların, eləcə də gənc

partiya işçilərinin dinə ciddi zərbə vurmalarına mane olurdu.

Dinə qarşı mübarizədə din xadimləri, sıravi dindarlar deyil, dövrün mərsiyəxan şairləri və aşıqları da bu istiqamətdə təbliğat apardıqlarına görə təqiblərə məruz qaldılar. Uzun illər Azərbaycanda yaşayan mərsiyyə ədəbiyyatı zərərli bir ədəbiyyat kimi ədəbi səhnədən çıxarıldı, onun yaradıcıları isə xalqa pessimist əhvali-ruhiyyə aşılayan şair, millətçi, burjua sənətkarı kimi həbs edilərək güllələndi və ya Sibirə göndərildi" [103, s. 135-136].

Hələ 1923-cü ilin dekabrında AK(b)P MK Rəyasət Heyətinin "Məscidlərin kəndlilərin mədəni ehtiyacı üçün verilməsi haqqında" qərarı kollektivləşmə dövründə özünün yeni mərhələsinə qədəm qoydu. Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında məscidlərin bağlanması ciddi narazılıqla qarşılandı [28, v. 89]. Naxçıvan şəhərində, Şərurda, Ordubadda və Culfada əhalinin müqavimətinə baxmayaraq, onlarla məscidi mədəniyyət evi, anbar etdilər. 1925-ci ildən fəaliyyətə başlayan Naxçıvan radiosu da "Allahsızlar cəmiyyəti"nin əlində vasitəyə çevrildi. Onun efirində bolşevikləri və onların yeritdiyi siyasəti dəstəkləyən qüvvələr təbliğ edilir, mollalar tənqid atəşinə tutulurdu. Təbii ki, bütün bunlar xalq arasında olduğu kimi, bir sıra milli, siyasi qüvvələr tərəfindən narazılıqla qarşılanmaqla ziddiyyəti dərinləşdirir və məsələni siyasi zəmində mübarizəyə çevirirdi. Belə siyasi təşkilatlanmanın mərkəzində gizli mübarizəyə qoşulmuş "İttihad" partiyası dayanırdı.



Həmid bəy Şahtaxtlı

Sovet hökuməti "İttihad", yaxud "İttihadi-İslam" partiyasını iri mülkiyyətçilərin, qolçomaqların və müsəlman ruhanilərinin partiyası elan edərək, ona qarşı açıq mübarizəyə başladı. Nəticədə partiyanın 155 üzvünü həbs edərək onlara müxtəlif cəzalar verdi. Buna baxmayaraq, ittihadçılar öz mübarizələrini dayandırmadılar. Sonrakı illərdə müsavatçılarla birləşərək gizli fəaliyyət göstərirdilər [118, v. 48]. Partiyanın həbs edilən üzvlərindən biri də görkəmli alim və ictimai-siyasi xadim Həmid bəy Şahtaxtlı idi. XDİK əməkdaşları Həmidbəy Şahtaxtılını müxtəlif maddələr üzrə günahkar hesab etdikləri kimi, həm də "İttihad" partiyasının üzvü olmaqda ittiham edirdilər. O, özünü müqəssir bilməsə də, SSRİ XDİK-in xüsusi müşavirəsinin 11 iyun 1940-cı ildə çıxardığı qərara əsasən, o, 8 il müddətinə azadlıqdan məhrum edildi [138]. O, üç il çəkməmiş 1943-cü ildə Arxangelsk vilayətində vəfat etmişdir.

1920-30-cu illərin əvvəllərində Azərbaycanın Fövqəladə Komissiyası və Dövlət Siyasi İdarəsi tərəfindən Bakıda və respublikanın qəzalarında bir sıra iri ittihadçı təşkilatlar aşkar edilmiş və dağıdılmışdır [122, v. 32]. Milli Təhlükəsizlik

Nazirliyinin arxivində bu məsələ ilə əlaqədar geniş materiallar vardır [119, 120, 121, 123].

Dini abidələr və ziyarətgahlar da yasaq edilmiş və həmin müqəddəs məkanlar barəsində böhtan xarakterli sovet uydurmaları geniş yayılmışdı. Sovet totalitar rejimi həmin müqəddəs ziyarətgahlarda görünən hər bir şəxsi cəzalandırırdı. Həmin dövrdə yazılmış bir çox kitablarda və məqalələrdə Naxçıvanda ən böyük ziyəratgah olan "Əshabi-Kəhf"lə bağlı rəvayətlərin qeyri-real olduğu vurğulanır və belə təbliğ olunurdu ki, həmin yer heç də müqəddəs yer deyildir.

Bəzən bolşevik təbliğatı din pərdəsi altında dinlə heç bir əlaqəsi olmayan adət-ənənələri də yasaq edirdi. Belə adət-ənənələrdən biri də "Novruz" bayramı idi. Bununla bağlı o dövrdə qəbul edilmiş bir qərara əsasən Əbrəqunus Rayon Partiya Komitəsində katib işləyən Murtuz Hüseyn oğlu Süleymanovu həm də ona görə partiya sıralarından çıxarıb həbs etmişdilər ki, o, "1936-cı ildə "Novruz" bayramında axır çərşənbə günü mərhum qızının qəbrini təmir etdirmişdir" [60]. Ancaq bütün bunlara baxmayaraq, əhalini öz kökündən, dinindən çəkindirə bilmirdilər. Bütün təqiblərə və qadağalara baxmayaraq, kütlələr öz mənəvi dəyərlərini qoruyub saxlamaq üçün fəal mübarizə aparırdılar" [97, s. 75].

Sovet hakimiyyətinin ilk illərində Naxçıvanın sosial-iqtisadi həyatında ciddi məsələlərdən biri də qaçqınlar məsələsi idi. Bunu nəzərə alaraq Naxçıvan İnqilab Komitəsi Ermənistandan olan qaçqınların yerləşdirilməsi, onların ərzaq və torpaqla təchizatı, digər problemlərilə məşğul olan xüsusi bir komitə yaratdı. 1920-ci ilin oktyabr ayında Azərbaycan SSR XDİK-in təlimatına əsasən, Naxçıvan İnqilab Komitəsi yanında daxili işlər, komunal, ərzaq, səhiyyə, torpaq, maliyyə, maarif, ictimai təminat şöbələri, xalq təsərrüfatı şurası və s. yaradıldı. Bu şöbələrin vəzifəsi burjua dövlət maşınını tamamilə sındırmaqdan, Sovet hakimiyyətinin ölkənin siyasi-iqtisadi və mədəni vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş sərəncamlarını həyata keçirməkdən ibarət idi [109, s. 78]. Evlərini və mülklərini verməkdən imtina edən mülkədarlara və bəylərə divan tutulur, bəzən isə onların evləri bolşevik fəallarının özləri tərəfindən yandırılırdı.

O dövrdə dövlətin qaçqınlarla bağlı siyasəti ilə tanış olarkən burada da bir erməni hiyləsi, onların qaçqın adı ilə Naxçıvanda yerləşdirilməsi məlum olur. Belə ki, müvəqqəti olaraq Gürcüstanda məskunlaşmış 4000 erməni qaçqınının (min nəfəri Tiflisdə, 3000 nəfəri isə Batumda) Şərurda yerləşdirilməsi planlaşdırılmışdı. Ermənistandan qaçqın düşmüş azərbaycanlıların öz yerlərinə qaytarılması barədə isə söhbət belə getmirdi. Bir çox azərbaycanlı qaçqınlar Ermənistana–ata-baba yurdlarına qayıtmaq tələbi ilə çıxış etsələr də, bu tələb yerinə yetirilmirdi. Təəccüblüdür ki, onların öz yerlərinə qayıtmasında Naxçıvanın rəhbərliyi də israrlı deyildi. Bunun nəticəsində də "Ermənistandan olan 28 min nəfər azərbaycanlı Naxçıvanda saxlanıldı" [102, s. 66]. Bütün bunlar Naxçıvanda yeni problemlər yaradırdı. Daha böyük problem isə daşnak hökumətinin üç ildən çox bir müddətdə

davam edən təcavüzkarlığının və qəsbkarlığının qarşısını almaq idi.

Təbriz şəhərində Naxçıvanın ticarət nümayəndəliyi yaradılmışdı. Lakin nümayəndəliyin geniş fəaliyyət göstərə bilməsi üçün pul vəsaitinin olmaması işləri nizamlamaq imkanını məhdudlaşdırırdı. Naxçıvan İnqilab Komitəsi qaçqınları yerləşdirmək, çörəklə, ev əşyaları ilə təmin etmək üçün tez-tez Azərbaycan hökumətinə, XI Qırmızı Ordunun hərbi şurasına, RSFSR hökumətinə, Maku sərdarına, Təbriz və Xoy hakimlərinə müraciətlər edir, iqtisadi və ticarət əlaqələrini möhkəmləndirməyə cəhd göstərirdi.

Cənubi Azərbaycana pənah aparan qaçqınların vəziyyəti xüsusilə ağır idi. Burada 45000-dən çox qaçqın aclıqdan və xəstəlikdən ölmüşdü. Öz vəzifəsini bütün Azərbaycan əhalisinin diqqətini bu məsələlərə yönəltməkdə görən Təbrizdəki nümayəndəlik heyəti 70 min qaçqının İranda, 400 min nəfərin isə Naxçıvan və ətrafında açıq havada qalmasını bildirir, onların öz yaşayış yerlərinə qaytarılmaları üçün tədbirlər görülməsini və bunadək isə aşağıdakı təcili yardımların göstərilməsini xahiş edirdi: 1) İranda Azərbaycanın valyuta mallarına taxıl alınması; 2) qaçqınların geyimlə təchiz olunmaları; 3) aclıq və epidemiyalarla mübarizə məqsədi ilə qidalanma məntəqələrinin və çayxanaların təşkil edilməsi; 4) yetimxanaların açılması" [115, s. 248].

Naxçıvanı düşmüş olduğu ağır iqtisadi vəziyyətdən xilas etmək, onun əhalisinin çörəyə, ərzaq mallarına olan ehtiyaclarını qismən də olsa ödəmək üçün N.Nərimanov yeni mənbələr axtarır və bu barədə Azərbaycan SSR-in Moskvadakı nümayəndəliyi vasitəsilə RSFSR rəhbərliyinə vaxtında məlumatlar çatdırırdı. Hələ 1921-ci il fevralın 7-də o, RSFSR Xarici İşlər komissarı G.Çiçerinə və Milli İşlər komissarı İ.Stalinə yazmışdı: "Qardaş Sovet respublikalarının ehtiyacı üçün ərzaq tədarük etməkdən ötrü təcili olaraq İranın gümüş tümənindən istifadə etmək lazımdır. Ancaq bu yolla Makudan taxıl tədarük etmək olar. Məncə, əhalini aclıqdan xilas etmək üçün ancaq bu yolla getmək lazımdır..." [192, s. 30].

Sovet hökuməti xalqın etimadını qazanmaq, yerlərdə möhkəmlənmək üçün əlindən gələni etməyə çalışırdı. Fevralın 14-də həmin məsələyə RK(b)P MK Siyasi Bürosu səviyyəsində baxılması, G.Çiçerinin təklifi ilə Ermənistan və Naxçıvan üçün Maku xanlığından ərzaq alınması haqqında qərar çıxarılması və məsələni öyrənmək üçün yüksək səviyyəli komissiya yaradılması da məhz bu ali məqsəd naminə edilmişdi. Lakin "məsələnin öyrənilməsi" iki ay yarımdan artıq çəkmiş və yalnız 1921-ci il iyunun 1-də Şahtaxtı stansiyasında Naxçıvan İnqilab Komitəsinin, Qırmızı Ordunun Qafqaz cəbhəsi Hərbi Şurasının Naxçıvanda olan nümayəndəsinin, Sentrosoyuzun, RSFSR-in Ermənistandakı nümayəndələrinin və Maku xanı Murtuzaqulu xan başda olmaqla İran nümayəndələrinin iştirakı ilə müqavilə imzalanmışdı [192, s. 30]. 1921-ci il sentyabrın 15-də isə Ermənistan SSR ilə Naxçıvan SSR arasında ticarət münasibətlərini nizama salmaq və ticarəti inkişaf etdirmək haqqında müqavilə imzalanmışdı [165, s. 24].

1921-ci il fevralın 26-da Moskvada RSFSR-lə İran arasında imzalanmış müqavilə vaxtilə çar Rusiyası ilə bu ölkənin münasibətlərindəki qeyri-bərabərliyə son qoydu. İrana edilən bir sıra iqtisadi güzəştlər əvəzində RSFSR hökuməti həmin müqaviləyə İran ərazisindən Sovet hökuməti əleyhinə təhlükə yaranarsa, ora öz qoşunlarını yeritmək hüququ verən maddəni daxil etdi [193, s. 31]. Əlbəttə, bu müqavilə İranı çar Rusiyasının asılılığından qurtardı və bir növ onun müstəqil dövlət statusunu özünə qaytardı. Bu dövrdə N.Nərimanov İrandan qayıdıb Naxçıvana toplaşan Ermənistandan gələn didərginlərin və Naxçıvan əhalisinin ehtiyacları üçün RSFSR Xarici Ticarət Komissarlığının Naxçıvandakı müvəkkilliyinə 1 mil - yon manat qızıl pul, 70 milyon manat Azərbaycan SSR-in kağız pulu, Daxili İşlər komissarlığının fondundan İranın 30 min gümüş tümən pulunun göndərilməsinə sərəncam vermişdi. Bundan əlavə, Azərbaycan SSR yollar komissarı Ç.İldırıma göstəriş vermişdi ki, İranda taxıla dəyişdirmək üçün Yevlax stansiyası bazasından iki sistern neft göndərsin [16, v. 30]. N.Nərimanov Cənubi Azərbaycan əhalisinin müraciətini də cavabsız qoymamışdı. Qasım bəy Camalbəyov bu barədə öz xatirələrində yazırdı: "Azərbaycan İnqilab Komitəsi N. Nərimanovun sədrliyi ilə qərara almışdır ki, Naxçıvana 30000 manat qızıl pul buraxılsın və həmin vəsait zərər çəkmiş Maku kəndlərinə toxum almaq üçün paylansın" [193, s. 32]. Bu yardım hər iki ölkə arasında qonşuluq münasibətlərinin daha da möhkəmlənməsinə və Naxçıvan-İran əlaqələrinin genişlənməsinə səbəb olmuşdu.

1921-ci il aprelin 19-da Azərbaycan İnqilab Komitəsinin iclasında B.Şah-taxtinskinin "Naxçıvanın siyasi və iqtisadi vəziyyəti haqqında" məruzəsi dinlənilmişdi. İnqilab Komitəsi İrandan satın almaq yolu ilə Naxçıvan əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün pul vəsaiti ayırmışdı [37, v. 30]. Naxçıvan əhalisinə yardım təkcə dövlət xətti ilə olmamış, tanınmış xeyriyyəçilərimiz də bu işə qoşul-muşdular. Sovet hökumətinin qoyduğu məhdudiyyətlərə baxmayaraq, milyonçu H.Z.Tağıyev qaçqınların ehtiyacları üçün 5 min manat gümüş pul göndərmişdi. Lakin görülmüş tədbirlərə baxmayaraq qaçqınlıq və aclıq problemlərini aradan qal-dırmaq imkan xaricində idi. O dövrdə Ermənistan, əsasən də Zəngəzurdan gəlmiş 15 min nəfərə qədər yetim uşaq Şərurda, Naxçıvanda və Ordubadda açılmış yetim-xanalarda yerləşdirilmişdi. Yerləşdirməyə yararlı bina olmadığı üçün 2 min nəfər uşaq yetim evlərindən kənarda qalmışdı. Yetim evlərini ən zəruri avadanlıqla təchiz etmək imkanı və tibbi xidmət yox dərəcəsində idi. Naxçıvan şəhərində 750 uşaq 5-7 darısqal otaqlarda yerləşdirilmişdi. Naxçıvan SSR-in hər üç qəzasında əhalinin böyük əksəriyyəti aclıq çəkirdi, ərzaq çatışmırdı. Şərur qəzasında 30 min nəfər, Naxçıvan və Ordubad qəzalarının hər birində 10 min nəfər əhalinin gündəlik qidalanması üçün heç bir azuqəsi yox idi. 1918-1920-ci illər erməni təcavüzünün ağır nəticələrinə 1921-ci ilin quraqlıq keçməsi də əlavə olunmuşdu. Bu isə Naxçıvan əhalisinin, xüsusilə burada özünə sığınacaq tapmış qaçqınların vəziyyətini əsl fəlakət dərəcəsinə çatdırmışdı. Ordubad qəzasına aid olan bir məlumatda göstərilirdi

ki, əhalinin yarıdan çoxu aclıq çəkir. Qaçqınlar ot ilə qidalanırlar. Aclığın təsiri ilə özünü öldürmək halları getdikcə artır. Naxçıvanda yaranmış fəlakətli vəziyyət hətta beynəlxalq təşkilatların və xarici dövlətlərin də diqqətini cəlb etmişdi. Məsələn, aclığa qarşı mübarizə aparan Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin xətti ilə ABŞ nümayəndəliyi Naxçıvan SSR-nin hər üç qəzasında pulsuz yemək məntəqələri və onlarla kəndlərdə yemək şöbələri açdırmışdı [192, s. 32].

1921-ci ilin sentyabrından Naxçıvana hər ay 10 min pud taxıl göndərmək haqqında Zaqafqaziya Diyar Partiya Komitəsinin qərarı ləng həyata keçirilirdi. Belə ki, bir ay ərzində Naxçıvana gəlib çıxan taxıl 7-8 min puddan artıq olmurdu [161, s. 21]. 1921-ci ilin payızı və 1922-ci ilin qışında Naxçıvan SSR-də aclıq daha dəhşətli şəkil almışdı. Əhalinin hər iki nəfərindən biri aclıq çəkirdi. Həmin dövrdə Azərbaycandan, Rusiyadan gələn ərzaq və pul vəsaitləri əhalini minimum şəkildə belə tələbatını ödəmirdi [161, s. 65-66]. RSFSR Xalq Komissarları Soveti 1921-ci il sentyabrın 20-də əhalini və qaçqınları aclıqdan, yoluxucu xəstəliklərdən xilas etmək və payız əkinini başa çatdırmaq üçün Naxçıvana 100 min pud buğda və bir vaqon səhiyyə avadanlığı, habelə dərman göndərilməsi haqqında qərar qəbul etmişdi. Bunun əvəzində Naxçıvan əhalisi imkan düşdükcə təsərrüfatı qaydaya salmağa, edilən yardımların əvəzini qismən ödəməyə səy göstərirdi. Naxçıvan İnqilab Komitəsi duz mədənlərində işləri yenidən qurmaq, duz istehsalını bir neçə dəfə artırmağa nail olmaq, fəhlələrin sayını 100 nəfərə çatdırmaq barədə Naxçıvan Xalq Təsərrüfatı Şurasına göstəriş vermişdi. Duz tədarükünü artırmaq hesabına fəhlələr üçün ərzaq və maliyyə fondu yaratmaq nəzərdə tutulurdu. Eyni zamanda RSFSR-in Naxçıvandakı Xarici Ticarət komissarlığının Müvəkkilliyinə göstəriş verilmişdi ki, Ermənistan və Gürcüstan İnqilab Komitələri ilə əlaqəyə girib duzun Naxçıvanın ehtiyacı olan mallar ilə dəyişdirilməsini təşkil etsin [161, v. 21].

1921-ci il aprelin 23-də Azərbaycan SSR-də məsul vəzifəyə keçməsi ilə əlaqədar Naxçıvan SSR fövqəladə komissarı vəzifəsindən azad edilən B.Vəlibəyovun yerinə B.Şahtaxtinski təyin olundu. B.Şahtaxtinski sonralar həm də Naxçıvan SSR Xalq Komissarları Sovetinin sədri seçildi. O, bu vəzifədə sentyabr ayının ortalarına qədər işlədi və bütün bacarığını sovet idarə orqanlarını təşkil etmək və möhkəmləndirmək işinə sərf etdi [11, v. 66-67].

Naxçıvan SSR-də qaçqınları yerləşdirmək, onları torpaqla, iş alətləri və toxumla təmin etmək məsələsi Naxçıvan SSR Xalq Torpaq Komissarlığına həvalə edilmişdi. Xalq Torpaq Komissarlığının həmin məsələ ilə əlaqədar tərtib etdiyi tezislərdə göstərilirdi ki, 1917-1920-ci illərdə Zəngəzur, Vedi, Sisyan və Ermənistanın digər bölgələrində azərbaycanlı kəndləri daşnaklar tərəfindən dağıdılmış, əhalisi qılıncdan keçirilmiş, sağ qalanları isə öz doğma yurdlarından didərgin düşmüşdülər [11, v. 66-67].

1922-ci ilin yazına qədər qaçqınlar məsələsi bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da əsasən həll edildi, yəni qaçqınlar Naxçıvan kəndlərində

yerləşdirildi və torpaqla təmin olundular. Ancaq ayrı-ayrı yerlərdə qaçqınlar məsələsi 1923-cü ildə də əsas problem kimi qalırdı. 1920-1921-ci illərdə qaçqınların ardı-arası kəsilmədən Naxçıvana axışıb gəlməsi, onların sərgərdan kimi şəhər və kəndləri dolaşması, aclıq və işsizlik, möhtəkirlik, oğurluq, dövlət mülkiyyətini talamaq və sair cinayətkarlıq hallarının artması üçün əlverişli zəmin yaratmışdı. Bu kimi neqativ hallarla mübarizə aparmaq məqsədilə 1921-ci il sentyabrın 25-də Naxçıvan SSR Xalq Komissarları Sovetinin göstərişi əsasında Naxçıvan fövqəladə komissiyası nəzdində oğrularla, möhtəkirlərlə, qaçaqmalçılarla mübarizə aparan yol şöbəsi təşkil edilmişdi. Əvvəllər Arazdəyəndən Culfaya qədər səlahiyyət dairəsi olan bu təşkilatın fəaliyyətindən əldə edilmiş nəticələrdən sonralar "əksinqilabla mübarizədə" Naxçıvan SSR-in bütün idarə və müəssisələrində istifadə olunmuşdu. Beləliklə, əvvəllər daha çox zəhmətkeş əhaliyə, qaçqınlara kömək məqsədilə yaradılmış bu təşkilatın əli ilə, sonralar bir çox günahsız adamlara "əksinqilabçı" damğası vurulmuşdu.

Göstərilən fakt və rəqəmlərdən aydın olur ki, 1921-1923-cü illərdə Naxçıvan SSR ərazisində qaçqınlarla bağlı xeyli iş görülmüş, onların böyük hissəsi torpaq sahəsi ilə təchiz edilmiş və yerləşdirilmişdi. Bütün bunlar isə əlbəttə, dinc quruculuq işlərinə başlamağa və ilk növbədə dağıdılmış və bərbad hala salınmış kənd təsərrüfatında bərpa tədbirləri aparmağa imkan verirdi.

3. Naxçıvanın muxtariyyət statusu

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Bütün dövrlərdə Naxçıvan nəinki qonşu dövlətlər, həmçinin dünyanın digər dövlətləri üçün də çox böyük coğrafi-siyasi və strateji əhəmiyyət kəsb etmişdir. Xüsusilə, XX əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni daşnakları Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüş, bu ərazini "Böyük Ermənistan"a qatmaq üçün cəhdlər göstərmiş, azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirmişlər. Çətin və mürəkkəb mərhələlərdən keçən Naxçıvan diyarı Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış, ona muxtariyyət statusu verilmişdir. Naxçıvanın muxtariyyət statusu qazanması bu bölgədə 1918-1921-ci illərdə cərəyan edən ictimai-siyasi hadisələrdən doğan obyektiv zərurətin nəticəsi olaraq, əhalinin inadlı mübarizəsi, referendumun nəticəsi və iki mühüm beynəlxalq müqavilənin sayəsində mümkün olmuşdur.

XX əsrin əvvəllərində dünyada baş verən sosial-siyasi proseslər, xüsusən, Birinci dünya müharibəsinin nəticələri, Rusiya imperiyasının dağılması, siyasi səhnəyə yeni müstəqil dövlətlərin gəlməsi Naxçıvan diyarının da taleyində dərin iz buraxmışdı. Rusiyada çarizm devrildikdən sonra imperiyanın əksər əyalətlərində olduğu kimi, "Naxçıvan bölgəsində də ikihakimiyyətlilik meydana gəlmiş, bu diyar bir sıra dövlətlərin maraq dairəsində olmuşdur" [109, s. 12].

1917-1920-ci illər Naxçıvan diyarı üçün çətin inkişaf dövrü olmuş, bu qədim Azərbaycan torpağının real olaraq Ermənistana ilhaq edilmə təhlükəsi yaranmışdı. Birinci dünya müharibəsində qalib gəlmiş dövlətlərin himayə etdiyi Ermənistanın daşnak hökuməti bu bölgəni "Böyük Ermənistan"a qatmaq üçün silahlı təcavüzə əl atmış, bu məqsədlə Andranik, Dro, Njde və başqa erməni qaniçənlərin başçılıq etdikləri quldur daşnak dəstələrindən də fəal istifadə etmişdi. Lakin diyarın yerli azərbaycanlı əhalisi bu amansız təcavüzlərə mərdliklə müqavimət göstərmiş, özünün yeganə xilas yolunu tarixi vətənə – Azərbaycana birləşməkdə görmüşdü. Naxçıvan diyarının əhalisi hələ o vaxt öz qəti fikrini belə ifadə etmişdi: "Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz" [21, v. 12].

Fevral inqilabı keçmiş Rusiya imperiyasının bütün ərazilərində, o cümlədən Naxçıvanda da tamamilə yeni siyasi şərait yaratdı. 1917-ci il martın 9-da diyarda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə (OZAKOM) verildi [97, s. 68]. Xüsusi Zaqafqaziya Komitəsi Cənubi Qafqazda mülki işləri idarə etmək üçün təsis edilmişdi, ancaq qanunvericilik hüququna malik deyildi. Komitənin sədri V.A.Xarlamov, üzvləri isə M.Y.Cəfərov, K.Abaşidze, M.Papacanov və A.Çxenkeli idi. Xüsusi Zaqafqaziya Komitəsinin 1917-ci il 26 aprel və 18 iyun tarixli qərarları ilə Naxçıvana iki müvəkkil (B.Maqsudov, Mxitaryants) təyin edildi [114, s. 37].

1917-ci il noyabrın 11-də Tiflisdə keçirilən müşavirədə gürcü menşevikləri, Azərbaycan müsavatçıları, erməni daşnakları və sağ eserlərin nümayəndələri Rusiya bolşevik hökumətini tanımaqdan imtina etdilər. Belə qərar qəbul edildi ki, Müəssislər Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün Zaqafqaziya hökuməti yaradılsın. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı [97, s. 71]. Gürcü menşeviki E.P.Gegeçkorinin rəhbərlik etdiyi hökumətdə 10 komissarlıq təsis edilmişdi. Zaqafqaziya Komissarlığının əsas fəaliyyət istiqamətlərindən biri Zaqafqaziyanı bolşevik Rusiyasından ayırmaq və Türkiyə ilə münasibətləri nizamlamaqdan ibarət idi.

Zaqafqaziya Komissarlığının yaradılması ilə Naxçıvanın inzibati idarəçiliyində əsaslı dəyişiklik baş vermədi. Burada Zaqafqaziya Komissarlığının müvəkkilliyi fəaliyyət göstərsə də, yerlərdə əsas hakimiyyət yenə də milli komitənin əlində idi.

Ərzincan barışığı imzalandıqdan sonra (1917, 18 dekabr) rus qoşunları Naxçıvanı tərk etdi. Onların malik olduqları silah-sursatı erməni daşnakları ələ keçirdi. Rus komandanlığı müsəlmanlara silah verməkdən imtina edirdi. Beləliklə müsəlmanlarla müqayisədə ermənilər kifayət qədər silah-sursat üstünlüyünə malik oldular. 1918-ci ilin əvvəllərindən başlayaraq daşnakların silahlı dəstələri Naxçıvanın bir çox kəndlərini yerlə yeksan etmiş, çoxlu sayda dinc əhalini qırmışlar. Yanvarın 29-da Çalxanqala kəndinin 1828-ci ildən buraya köçürülmüş ermənilərı burada yaşayan 22 nəfər azərbaycanlını qətlə yetirdilər. Martın əvvəllərində Naxçıvan

şəhərində və ətraf kəndlərdə ermənilərlə azərbaycanlılar arasında qarşıdurma qızışdı. Naxçıvan şəhərindəki döyüşlərdə azərbaycanlılar özlərini müdafiə edirdilər, bölgənin digər yerlərində isə vəziyyət ağır idi. Kəndlərdə yerli azərbaycanlılar silahlı erməni dəstələri qarşısında, demək olar ki, müdafiəsiz qalmışdılar.

Osmanlı komandanlığı ermənilərin törətdikləri vəhşiliklərin davam etdirildiyini daşnaklara xatırladıb türk ordusunun müsəlmanların qırılması təqdirində sadəcə müşahidəçi olmayacağını bildirdi. Türkiyə silahlı qüvvələrinin Qafqaz ordusu Baş komandanı Mehmed Vehib paşa öz ordusuna hücum əmri verdi. Osmanlı ordusunun bütün cəbhə boyu irəliləməsi fevralın 23-də Zaqafqaziya Seyminin açılmasına kimi davam etdi [97, s. 74]. 1918-ci il fevralın 23-də Zaqafqaziya Komissarlığının əvəzinə yeni orqan – Zaqafqaziya Seymi yaradıldı. Həmin ilin aprelin 22-də Zaqafqaziya Seymi müstəqil Zaqafqaziya Federativ Respublikasının yaradılması haqqında qərar qəbul etdi. A.Çxenkelinin başçılığı altında 12 nəfərdən ibarət yeni hökumət yaradıldı [203, s. 107-108].

Cənubi Qafqaz bölgəsində baş vermiş hadisələr son nəticədə Zaqafqaziya Federasiyasının süqutu və üç müstəqil dövlətin – Gürcüstan, Azərbaycan və Ermənistan respublikalarının yaranması ilə nəticələndi. Azərbaycanın müstəqil dövlət elan edilməsi Naxçıvan diyarı əhalisində müəyyən ümidlər yaratdı. Naxçıvan bölgəsinin qarşılaşdığı problemləri həll etmək və çətinlikləri aradan qaldırmaq üçün istər yerli əhali və liderlər, istərsə də Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən müəyyən işlər görülmüş, ermənilərin ərazi iddialarının və etnik təmizləmə siyasətinin reallaşdırılması istiqamətində bir çox cəhdləri dəf olunmuşdu.

Azərbaycan Milli Şurası İrəvanı ermənilərə güzəştə getdi. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Tiflisdən xarici işlər naziri M.H.Hacınskiyə göndərdiyi teleqramda yazırdı: "... biz İrəvanı ermənilərə verməyə razılaşdıq" [22, v. 51-52]. Azərbaycan hökuməti bu güzəştə getməklə Ermənistanın ölkəmizə qarşı torpaq iddialarından əl çəkəcəyini zənn edirdi, ancaq bu xeyirxahlıq erməni tərəfini yeni-yeni ərazi iddiaları irəli sürməkdən çəkindirmədi. Ermənistan hökuməti bütün İrəvan quberniyasını, Qars vilayətini, Tiflis və Yelizavetpol quberniyalarının bir hissəsini və Naxçıvanı da özünün ayrılmaz hissəsi elan etmişdi [20, v. 1-2].

Osmanlı dövləti nümayəndələri ilə Batumda aparılan danışıqlarda türk heyəti Azərbaycan torpaqları hesabına ermənilərin lehinə bir sıra ərazi güzəştlərinə gedərək İrəvan şəhərinin də daxil olduğu Yeni Bəyazid və Ağ kilsə bölgələrindən ibarət bir Ermənistan dövlətinin qurulmasını təsdiqlədi [97, s. 168]. 4 iyun 1918-ci il tarixdə imzalanmış Batum müqaviləsinin şərtlərinə görə Ermənistan Respublikası Cənubi Qafqazda 10 min kv. km ərazisi olan bir dövlət oldu.

Batumdakı Azərbaycan və Ermənistan nümayəndələri arasında da ərazi-sərhəd məsələləri ilə bağlı danışıqlar aparıldı və razılıq əldə edildi ki, Azərbaycan

"Aleksandropol quberniyası" hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır. İrəvanı siyasi mərkəz kimi Ermənistana vermək məcburiyyətində olan Azərbaycan nümayəndələri şəhəri bu şərtlə güzəştə getməyə razı oldular ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə, yəni Qarabağa, eləcə də İrəvan quberniyasının Naxçıvan bölgəsinə olan iddialarından imtina etsinlər [135, v. 47].

1918-ci ilin may-iyun aylarında erməni silahlı quldur dəstələri bölgədə dinc əhaliyə divan tutur, Naxçıvan əhalisinə qarşı vəhşi hərəkətlərini davam etdirir, yaşayış məntəqələrinə basqınlar edirlər. Erməni daşnakları Naxçıvan qəzasının bir sıra kəndlərini və Culfanı işğal edən zaman – 1918-ci il mayın 17-də kapitan Xəlil bəyin başçılığı ilə türk hərbi heyəti Naxçıvana gəldi. O, bölgəyə gəldikdən sonra Naxçıvanı gözlənilən erməni təcavüzündən qorumaq üçün yerli gənclərdən könüllü müdafiə hissələri təşkil etməyə başladı.

Batum müqaviləsini əsas götürən Osmanlı dövləti qəti tədbirlər görməyə məcbur oldu. Türkiyə hərbi komandanlığı Kazım Qarabəkir paşanın komandanlığı altında olan IX Orduya Naxçıvana kömək etməyi tapşırdı. IX Ordunun tərkibində olan XI Qafqaz diviziyası 1918-ci il iyulun əvvəlində erməni dəstələrini məğlub edərək Naxçıvan şəhərinə yaxınlaşdı. İyulun 20-21-də baş vermiş döyüşlərdən sonra şəhər erməni qüvvələrindən təmizləndi, Culfa azad edildi [93, s. 65-66].

Naxçıvan bölgəsi türk qoşunlarının nəzarətinə keçdikdən sonra burada Osmanlı sisteminə uyğun inzibati idarəetmə sistemi yaradılmağa başlandı [65, s. 71-75]. Alay komandiri Sürəyya bəy qəza rəisi təyin edildi. Sürəyya bəyin əmri ilə Naxçıvan Milli Komitəsi ləğv edilərək yerində jandarm, ədliyyə və bələdiyyə idarələri yaradıldı. Jandarm komandanlığına Məhəmməd Əli xan, onun müavini Qəni bəy Vəzirov, Bələdiyyə idarəsinin rəisi Cəfərqulu xan, üzvləri isə Hacı Abdulla Şeyxov və Tağı Nağdəliyev təyin edildilər. Ədliyyə məhkəməsinə isə Şeyx Kərim Axundzadə, Cabbar Kələntərov, Vəliağa Kəndlinski, Abbasqulu bəy Tahirov və İbrahim paşa Kəngərlinski təyin olundular [65, s. 72]. Bir müddət sonra ordunun Təbrizə getməsi ilə əlaqədar Sürəyya bəyin yerinə mayor Əli Şəfiq bəy təyin olunmuş, o isə öz növbəsində bir sıra inzibati dəyişikliklər etmişdi. Türk komandanlığı Naxçıvanda hərbi vəziyyət elan etdi, yerli əhalidən özünümüdafiə dəstələri təşkil edərək onlara hərbi təlim keçməyə başladı.

1918-ci il avqustun 1-də Osmanlı imperatorluğunda kolorduların (xüsusi korpusların – ***red.***) təşkili və cəbhələrdə aparılan yerdəyişmələrlə əlaqədar Naxçıvan bölgəsinin müdafiəsi Kazım Qarabəkir paşanın komandanlığı altında olan I Qafqaz kolordusuna tapşırıldı, 9 və 11-ci diviziyalar onun tərkibinə qatıldı. Avqustun 7-dən Naxçıvanda olan Kazım Qarabəkir paşa bölgənin müdafiəsi üçün bir sıra tədbirlər gördü və bununla da erməni silahlı qüvvələrinin yenidən Naxçıvana hücum etmələrinin qarşısı alındı [114, s. 83].

Birinci dünya müharibəsində məğlub olan Osmanlı dövləti oktyabrın 30-da Mudros sazişini imzalamağa məcbur oldu. Müqaviləyə görə Türkiyə Azərbaycanı,

eləcə də Naxçıvanı ingilislərin himayəsinə verməli idi. Siyasi vəziyyət həddindən artıq çətin və mürəkkəb idi. Türk qoşunu ölkəni tərk etmək ərəfəsində – 1918-ci il noyabrın 3-də (bəzi mülahizələrə görə 18-də – ***red.***) Naxçıvan Müsəlman Milli Şurasının əsas üzvlərindən ibarət Araz-Türk Cümhuriyyəti yaradıldı [65, s. 82-84]. Kazım Qarabəkir paşa bölgənin özünümüdafiə silahlı qüvvələrinin yaradılmasınadək burada türk əsgər və zabit saxlanılmasına icazə verdi. Polkovnik Xəlil bəy Türkiyəni təmsil edirdi. Gələcəkdə erməni hücumlarından qorunmaq üçün türk komandanlığı burada güclü və sabit hakimiyyət yaratmağa, könüllülərdən ibarət hərbi qüvvələr qurmağa başlamışdı. Bu məqsədlə Naxçıvan şəhər əhalisinin ümumi yığıncağında Müsəlman Milli Şurasının yenidən təşkilinə, əhalinin silahlandırılmasına, müdafiə işlərinin sürətləndirilməsinə qərar verilmiş, Naxçıvanı tərk edən Əli Şəfiq bəyin yerinə Mirzə Nəsrullah Əmirov yerli hökumətin başçısı təyin edilmişdir [65, s. 83-84].

1919-cu ilin yanvarında Naxçıvan bölgəsinə çox az miqdarda ingilis hərbi qüvvələri gətirildi. Bir neçə gündən sonra mayor Vilyam Hibbon Naxçıvana gəldi. Onun gəlişinin əsas məqsədi erməni mühacirlərinin məsələsini həll etmək, diyarın iqtisadi və siyasi vəziyyəti ilə tanış olmaq, Araz-Türk Cümhuriyyəti silahlı qüvvələrinin vəziyyətini, bu dövlətin siyasətinə türklərin təsir dərəcəsini öyrənmək olmuşdur [110, s. 45-46].

1919-cu il yanvarın 19-da Fridrix Lautenin başçılığı ilə daha bir ingilis heyəti Naxçıvana gəldi [65, s. 105-106, 112; 114, s. 107]. F.Lauten Milli Şura üzvləri ilə görüşdükdən sonra münaqişənin qəti həllinə və sərhədlərin müəyyənləşdirilməsinədək bu ərazilərin ingilis komissiyası tərəfindən idarə olunacağını, müsəlmanların silahlı qüvvələrinin Arazdəyən stansiyasında və Sədərəkdə, erməni hərbi hissələrinin isə Arazboyu Yaycıda qalacağını bildirdi [36, v. 7-8].

1919-cu il fevralın əvvəllərində Qafqazdakı ingilis hərbi komandanlığının əmri ilə F.Lauten Naxçıvan rayonunun general-qubernatoru təyin edildi. Polkovnik F.Lautenə səlahiyyət verilmişdi ki, "əhalinin əksəriyyətini müsəlmanlar təşkil edən qonşu rayonları da öz general-qubernatorluğuna birləşdirə bilər" [114, s. 108]. İngilislər dəmiryolu, poçt, teleqrafı nəzarətə götürmüş, yerli əhalidən vergi toplanması hüququnu əllərinə keçirmiş, hərbi qüvvələrini Naxçıvan, Culfa, Şahtaxtı və Dəvəlidə yerləşdirmişdilər [205, s. 57]. İngilislər özlərini bitərəf elan etmələrinə baxmayaraq, Naxçıvanın Ermənistana qatılması ideyasını müdafiə edirdilər. Milli Şuranın sədri Cəfərqulu xan və üzvləri 1919-cu il fevralın 26-da general-qubernator F.Lautenə məktub göndərərək bölgənin müsəlmanların iradəsinin əksinə olaraq Ararat Respublikasına verilməsinə etiraz edir və göstərirdilər ki, "müsəlmanlar bizdən heç bir cəhətdən üstün olmayan, əksinə bir çox hallarda bizdən geri qalan ermənilərin qulu ola bilməzlər" [37, v. 2].

İngilis missiyası ermənilərin Naxçıvana qarşı işğalçılıq hərəkətlərinə nəinki mane olmur, əksinə erməniləri silahlandırırdı. Onlar bir tərəfdən Naxçıvanın

Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təkliflərini irəli sürürdülər [206, s. 59].

1919-cu il 3 aprel tarixindən F.Lauteni Con Simpson əvəz etdi. Yeni general-qubernatorun fəaliyyəti sayəsində Naxçıvanın Ermənistana tabe etdirilməsi daha da sürətləndi. Onun bilavasitə göstərişi ilə əhalidəki silahlar yığıldı, Osmanlı təəbələri bölgədən çıxarıldı. Azərbaycan hökuməti tərəfindən Naxçıvana göndərilmiş polkovnik Ququşovun başçılığı ilə zabit heyətindən Naxçıvanı tərk etmək tələb olundu [37, v. 18; 65, s. 118].

Naxçıvanın erməni idarəsinə verilməsinin ilk mərhələsini Britaniyanın Qafqazdakı qoşunlarının komandanı Devi aprelin 17-də Xatisyan ilə Gümrüdə müzakirə etdi. Erməni komandiri Dronun Naxçıvanı silah gücünə tabe etdirmək haqqında planı Devinin Simpsonla görüşündə bəyənildi [93, s. 167-168]. General Tomson da onların bu məqsədlərini qəbul etdi. Tomson erməni rəhbərlərinə təklif edirdi ki, Qarabağın və Zəngəzurun Azərbaycana verilməsini qəbul edərlərsə, Qars və Naxçıvanın onların nəzarəti altına keçməsinə kömək edəcəkdir.

Bölgənin Ermənistanın müvəqqəti idarəçiliyinə verilməsi yolunda atılan ən mühüm addımlardan birini də ingilis generalı Devinin mayın 2-də Naxçıvana səfəri təşkil edir. Devi Müsəlman Milli Şurasının üzvləri və Naxçıvanın nüfuzlu adamları ilə görüşündə Naxçıvan və Şərur qəzalarının Ermənistan Respublikası ərazisində yerləşdiklərinə görə onun hakimiyyətinin tabeçiliyinə keçməli olduqlarını bildirdi [18, v. 4; 37, v. 15]. Naxçıvan müsəlmanları Ermənistana birləşməkdən qəti imtina etdilər və bunu açıq zorakılıq kimi səciyyələndirdilər. Birmənalı şəkildə elan etdilər ki, "onlar erməni hökumətini tanımayacaq, ermənilərə xidmət edənlər edam ediləcək, əhalinin bölgədən çıxmasına icazə verilməyəcək. Yeganə hakimiyyət orqanı kimi yaradılan Milli Komitəni tanıyırlar" [65, s. 121].

İngilislərin bu rayonları ermənilərə vermək fikrindən dönmədiklərini görən naxçıvanlılar bir sıra şərtlər irəli sürdülər. Bu şərtlərin yerinə yetirilməsi zorla ayrılmış vilayətlərin vəziyyətini qismən yüngülləşdirdi. Naxçıvan bölgəsinin Ermənistan Respublikasının müvəqqəti idarəçiliyinə verilməsi barədə ingilis generalı Devi və İrəvan hərbi dəstəsinin rəisi Dro tərəfindən 1919-cu il mayın 3-də birgə əmr imzalandı [35, v. 30-32]. Azərbaycan hökumətinin və yerli müsəlmanların bununla əlaqədar etirazları ingilislər tərəfindən qəbul edilmədi.

1919-cu il mayın 14-də Naxçıvana gələn general Devi və Ermənistanın Baş naziri Q.Xatisyanı Kalbalı xan, Milli Komitənin üzvləri qarşıladılar. Onlar şəhərdə əhali ilə görüşlərində naxçıvanlıların barışmaz mövqeyinin şahidi oldular. Belə ki, Q.Xatisyan müttəfiq dövlətlərin Qafqazdakı nümayəndələrinin – ingilislərin iradəsi ilə Naxçıvanın müvəqqəti olaraq Ermənistanın idarəçiliyinə verilməsi fikrini söyləyərkən tədbirdəki ağsaqqalların kəskin etirazları ilə qarşılaşdı. Naxçıvanlılar öz etirazlarını həmçinin, yazılı surətdə Cənubi Qafqazdakı Britaniya qoşunlarının

komandanlığına, Ermənistan, Azərbaycan və müttəfiq dövlətlərin hökumətlərinə bildirdilər. Daşnaklar yalnız Naxçıvan şəhərini və dəmiryolu ətrafındakı əraziləri nəzarətdə saxlaya bilmişdi. Qəzalarda hakimiyyət yerli liderlərin əlində idi. Şərura zabit Həmzəyev, Naxçıvanın şimal sahəsinə Bəhram xan Naxçıvanski, Ordubada Səmədbəyov nəzarət edirdi [205, s. 62].

1919-cu il iyunun sonu – iyulun əvvəllərində ingilis qoşunları Naxçıvanı tərk etməyə başladı. Ermənilər ingilislər hələ bölgədən çıxmamış Naxçıvan məsələsini öz xeyirlərinə həll etmək məqsədilə bölgəni azərbaycanlılardan təmizləmək, etnik tərkibdə ermənilərin sayını artırmaq, ölkədə hərbi səfərbərlik aparmaq və Naxçıvan bölgəsinə əlavə qoşun hissələri yeritmək cəhdlərinə başladılar. Bunun müqabilində naxçıvanlılar da ingilislərin çıxmasından istifadə edərək erməni "idarəçiliyi"nə son qoymaq üçün bir sıra tədbirlər gördülər.



Bəhram xan və Kamran xan Naxçıvanskilər

Naxçıvan əhalisi erməni işğalçılarına qarşı tədricən əsl müharibəyə çevrilən azadlıq mübarizəsinə başladı. Naxçıvan bölgəsinin bir sıra yerlərində könüllü partizan dəstələri ermənilərə qarşı uğurlu əməliyyatlar aparır, onların qüvvələrini sarsıdırdı. Ermənilərə qarşı vuruşan könüllülərin sayı 10 minə çatırdı [93, s. 205]. İrəvandakı səlahiyyətli nümayəndə M.Təkinski vasitəsi ilə Azərbaycan hökuməti naxçıvanlılara geniş siyasi, diplomatik və maliyyə yardımı göstərirdi [114, s. 168-169].

Ermənilərin bölgədəki ağalığına son qoyulması ilə nəticələnən əsas hərbi hadisələr 1919-cu il iyul ayının son ongünlüyündə baş verdi. Naxçıvan şəhəri ətrafında, Şahtaxtı, Yengicə və Noraşen stansiyalarında hərbi sursat cəhətdən daha üstün olmalarına baxmayaraq, erməni qüvvələri məğlub edildilər, çoxlu silah və sursat, zirehli qatar ələ keçirildi. Şahtaxtıda erməni qarnizonu və Naxçıvandakı qoşunlara köməyə gələn Humba paşanın – "Yapon"un eşalonu darmadağın edildi. Xanlıqlar kəndi döyüşsüz təslim oldu, 5 zabit, 95 əsgər əsir alındı, 600 tüfəng qənimət götürüldü.

General Şelkovnikovun qüvvələri Naxçıvan şəhərində bir müddət müqavimət göstərsə də iyulun 24-də o, şəhəri tərk etməli oldu. Ordubad bölgəsi üç günlük döyüşlərdən sonra ələ keçirildi. Düşmənin Vedidə möhkəmlənmək cəhdi də baş tutmadı, ermənilər burada 4 min canlı qüvvə itirdi.

Bütün bunların nəticəsi olaraq, Naxçıvan bölgəsində ingilislərin "himayəsi" altında silah gücünə yaradılmış erməni "idarəçiliyi" də iflasa uğradı. Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri N.Yusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında demişdi ki, İrəvan quberniyasının bütün türk rayonu, o



Nəsib bəy Yusifbəyli
(IV, V hökumət kabinetlərində Baş nazir)

cümlədən də Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək təbii orqanizm saydığı Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi [114, s. 180]. N.Yusifbəyli 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışında yenidən bu məsələyə qayıdaraq demişdi: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll etdilər; onlar həyatlarını, ailələrinin şərəfini və var dövlətlərini riskə qoyaraq doğma torpağa – vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar... " [18, v. 4-5].

Ermənilərin Naxçıvan bölgəsindən qovulması regionun Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrini möhkəmlətdi. Bundan istifadə edən respublika hökuməti öz nümayəndəsi Səməd bəy Cəmillinskini buranın müvəqqəti general-qubernatoru təyin etdi [114, s. 183].

Erməni işğalına son qoyulduqdan sonra bölgənin idarə edilməsində çox mürəkkəb vəziyyət yaranmışdı. Əslində hakimiyyət üç qüvvənin: Azərbaycan hökumətinin bölgədəki nümayəndəsi – general-qubernator S.Cəmillinskinin, Türkiyənin hərbi nümayəndəsi Xəlil bəyin və Kalbalı xanın əlində idi. Bölgənin ermənilərdən azad edilməsində onlar birgə mübarizə aparsalar da, hakimiyyət bölgüsündə, diyarın idarə edilməsində, xarici oriyentasiya və s. məsələlərdə onlar arasında kəskin fikir ayrılıqları var idi.

General-qubernator S.Cəmillinski Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin xəttini yeridir və diyarın Azərbaycanla əlaqələrini daha da möhkəmləndirməyə çalışırdı. Naxçıvan bölgəsində öz mütləq hakimiyyətini qurmağa və müstəqil fəaliyyət göstərməyə çalışan Kalbalı xan və 1919-cu ilin yayında yenidən Naxçıvana qayıtmış, bölgəni Türkiyənin nüfuz dairəsinə qatmağa çalışan Xəlil bəy arasında münasibətlər kəskinləşmiş, onlar arasında ziddiyyətlər yaranmışdı. Bu ziddiyətləri aradan qaldırmaq məqsədi ilə S.Cəmillinski Xəlil bəyi Naxçıvan qoşunlarının baş komandanı, rütbəsi artırılmış Kalbalı xanı isə onun köməkçisi, eyni zamanda, Naxçıvan qoşun dəstəsinin komandiri təyin etmişdi [75, s. 85]. S.Cəmillinski Naxçıvanda Azərbaycan hökumətinin nüfuzunu yüksəltmək və çoxhakimiyyətliliyə son qoymaq üçün bölgəyə nizami qoşun hissələrinin göndərilməsini, yerli xəzinənin pul vəsaiti ilə təmin edilməsini və s. kimi addımların atılmasını hökumətdən xahiş edirdi.

Ermənilərin təcavüzkar siyasətinin nəticəsi olaraq İrəvan quberniyasından Naxçıvan ərazisinə pənah gətirmiş qaçqınların sayı 70 mindən artıq idi [19, v. 4]. Bölgədəki

qaçqınların yerləşdirilməsi və təmin olunması üçün B.Şahtaxtinskinin başçılığı ilə Qaçqınlar Komitəsi yaradıldı [92, s. 37-39].

1919-cu ilin yayında Naxçıvan bölgəsində ingilislərin mövqelərinin zəiflədiyini görən ABŞ burada daha fəal siyasət yeritməyə başladı. Qafqazda nüfuz dairəsini qazanmaq uğrunda İngiltərə ilə rəqabətə girən Birləşmiş Ştatlar Şimali Azərbaycanın, xüsusilə də Naxçıvan bölgəsinin strateji mövqeyinə mühüm əhəmiyyət verir, ermənilərin bu diyarı ələ keçirmək niyyətlərindən öz məqsədləri üçün istifadə edərək, müxtəlif vasitə və üsullarla bölgədə möhkəmlənməyə çalışırdı [115, s. 228]. ABŞ əsasən, daşnakpərəst mövqedən çıxış etsə də, bölgəyə kifayət qədər hərbi qüvvə gətirə bilməməsi, yerli azərbaycanlı əhalinin çox güclü müqaviməti, AXC hökumətinin prinsipial mövqeyi və s. görə ikili siyasət yeridirdi. Belə ki, 1919-cu il avqustun 22-də Paris konfransının Ermənistana Ali komissar təyin etdiyi polkovnik V.Haskel Ermənistandakı çıxışında daşnakların bu qəzalara qarşı irəli sürdükləri ərazi iddialarını müdafiə etdiyini bildirmişdi. Avqustun 29-da Bakıda Baş nazir N.Yusifbəyli, Xarici İşlər naziri M.Cəfərov və b. ilə görüşündə bölgənin Azərbaycanın idarəçiliyində saxlanacağını elan etmişdi [115, s. 228].

1919-cu ilin sentyabrında V.Haskel Naxçıvan və Şərur-Dərələyəz torpaqlarını əhatə edən "bitərəf zona" yaradılması layihəsini Azərbaycan hökumətinə təqdim etdi. Bu layihəyə görə "bitərəf zona" polkovnik V.Haskelin təyin etdiyi amerikalı qubernatorun idarəsində olmalı idi. "Bitərəf, yaxud neytral zona" yaradılması haqqında Haskelin birinci layihəsi yerli hakimiyyət orqanlarının tamamilə Amerika qubernatoruna tabeliyini nəzərdə tuturdu. Bu layihəyə görə Şərur və Naxçıvan qəzaları amerikalı qubernatorun başçılığı ilə müttəfiqlərin idarəsi altında olan zonanı təşkil etməli idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti V.Haskelin layihəsini qəbul edə bilməzdi. Hələ 1919-cu il 28 fevral tarixli qərarı ilə AXC hökuməti Naxçıvan general-qubernatorluğu yaratmış və Bəhram xan Naxçıvanskini oraya qubernator təyin etmişdi [17, v. 2]. Xarici İşlər naziri M.Cəfərovun V.Haskelə göndərdiyi teleqramda "bitərəf zona" yaradılmasına qəti etiraz olunur, bölgənin yalnız Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Amerika general-qubernatorluğu tərəfindən idarə edilməsinə razılıq verilirdi.

V.Haskelin layihəsi əsasında Naxçıvanda general-qubernatorluğun yaradılması yerli azərbaycanlı əhalinin də kəskin etirazına səbəb oldu. 1919-cu il sentyabrın 9-da yerli əhalinin Haskelə təqdim etdiyi tələbnamədə, eləcə də həmin ilin oktyabrın 1-də Naxçıvanda S.Cəmillinskinin, Xəlil bəyin və Kalbalı xanın V.Haskelin nümayəndəsi A.Robenzonla görüşündə Naxçıvan, Şərur, Dərələyəz, Vedibasar və Milistan əhalisinin əksəriyyətinin Azərbaycan türkləri olduğunu, bu ərazilərin iqtisadi, siyasi, mədəni və strateji cəhətdən Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu və öz qanları ilə azadlıq qazandıqlarını nəzərə çatdırmışdı [38, v. 73].

Müttəfqilərin Ali komissarının Azərbaycan üzrə müvəkkili Ceyms Rey

1919-cu il oktyabrın 16-da Müsəlman Milli Şurasına və Kalbalı xana göndərdiyi məktubunda Naxçıvan və Şərur rayonlarının müttəfiq idarəçiliyində saxlanıldığını, orada Amerika general-qubernatorluğunun yaradıldığını, ABŞ ordusunun mühəndisi, polkovnik Edmond L.Dellinin ona başçı təyin edildiyini və oktyabrın 23-də Naxçıvana gəlib vəzifələrinin icrasına başlayacağını bildirirdi [202, 23 oktyabr 1919].

1919-cu il oktyabrın 24-də Naxçıvana gələn C.Rey S.Cəmillinski, Kalbalı xan və Xəlil bəylə görüşündə V.Haskelin Naxçıvanda general-qubernatorluq yaradılması haqqında bəyanatını elan etdi. Bəyanatda, həmçinin bölgədə yaşayan xalqların sayına görə erməni və azərbaycanlılardan ibarət Mərkəzi Şuranın yaradılması, bölgədən Azərbaycan və Ermənistan qoşunlarının çıxarılması, dəmiryolun və teleqrafın qubernatorun nəzarəti altında qalacağı, idarəetmə xərclərinin yerli büdcə hesabına ödənilməsi məsələləri irəli sürdü [37, v. 76]. Lakin Naxçıvan rəhbərləri C.Reyin təkliflərini qətiyyətlə rədd etdi. Ertəsi gün naxçıvanlılar amerikalı nümayəndələr ilə görüşlərində də əhalinin yalnız Azərbaycan hökumətini tanıdığını bildirdilər. Əhalinin güclü müqaviməti ilə rastlaşan C.Rey Delinin burada general-qubernator kimi deyil, müttəfiqlərin Ali komissarlığının nümayəndəsi kimi qalması ilə razılaşdı.

Məqsədlərinə nail ola bilməyən Amerika nümayəndələri 1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Naxçıvanı birdəfəlik tərk etdi [23, v. 121].

Bu dövrdə Naxçıvan bölgəsində hərbi-siyasi vəziyyət yenidən gərginləşməyə başladı. Erməni daşnakları tərəfindən bütün sərhəd boyu Naxçıvan mahalının Vedibasardan Ordubada qədər bölgəyə hücum üçün hazırlıqlar görülür, nizami silahlı qüvvələr cəmləşdirilirdi. 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün daşnak Ermənistanı yeni cəhd göstərdi. Naxçıvan rəhbərləri arasında birliyin olmaması vəziyyəti çətinləşdirirdi. 1920-ci ilin martında Cavid bəyin xahişi ilə Kazım Qarabəkir paşanın qərarı ilə Naxçıvana Əli Teymur bəyin komandanlığı altında 50 nəfərdən ibarət yeni türk qoşun hissəsi gəldi [109, s. 62]. Kalbalı xanın, Ədib bəyin, Abbasqulu bəy Şadlinskinin başçılığı ilə yerli azərbaycanlılar erməni quldur dəstələrinə layiqli cavab verdilər və İrəvanın 8 km-liyinə qədər çatdılar [93, s. 274].

Türkiyə milli azadlıq hərəkatının liderləri Antantanın işğalçılıq planlarına qarşı mübarizədə yeganə müttəfiq Sovet Rusiyasını görür və onunla yaxınlaşmağa can atırdı. Sovet Rusiyası ilə Türkiyə arasında əlaqənin, ancaq Naxçıvan ərazisi vasitəsi ilə mümkün olacağını başa düşən Mustafa Kamal hökuməti Azərbaycanda bolşevizmin hakimiyyətə gəlməsində maraqlı olmuş, XI Qırmızı Ordu ilə sıx əlaqə yaradılmışdı.

Erməni basqınlarından cana doymuş yerli əhali 1920-ci ilin iyulunda məktubla N.Nərimanova və S.Orconikidzeyə müraciət etdi. Məktubda deyilirdi: "Yerli əhali öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur, Qırmızı Ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik" [47, s. 252].

İyulun 28-də Naxçıvanda sovet hakimiyyətinin qurulması ilə Naxçıvan Sovet Sosialist Respublikası elan edildi və respublikanın ali hakimiyyət orqanı – Naxçıvan İnqilab Komitəsi yaradıldı. Avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin Azərbaycan SSR XKS-in sədri N.Nərimanova göndərdiyi məktubda deyilirdi: "Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz tərkib hissəsi hesab etmişdir" [39, v. 3].

Bu dövrdə Sovet Rusiyası yenə ikili siyasət yeridirdi. Bir tərəfdən erməni daşnak qüvvələri ilə müharibə aparır, digər tərəfdən isə onlarla danışıq aparırdı. Məhz Sovet Rusiyasının təşəbbüsü ilə 1920-ci il avqustun 10-da daşnak Ermənistanı ilə barışıq sazişi imzalandı [12, v. 171-172]. Sazişə görə tərəflər hərbi əməliyyatları dayandırmalı, erməni qoşunları Şahtaxtı-Xok-Çalxanqala-Sultanlı, daha sonra Küküdən şimala və Bazarçaydan qərbə uzanan demarkasıya xəttində dayanmalı, sovet qoşunları isə Qarabağ, Zəngəzur və Naxçıvanı tutmalı idilər. Gümrü-Şahtaxtı-Culfa dəmiryolundan ermənilər qeyri-hərbi məqsədlər üçün istifadə edə bilərdilər. Beləliklə, Azərbaycanın iştirakı olmadan onun torpaqlarının məsələsi müzakirə olunur, Ermənistanla danışıqlarda Sovet Rusiyası onun adından çıxış edirdi.

Erməni tərəfi Dərələyəz, Zəngəzur, Ordubad, Şərur, Şahtaxtı ərazilərinə basqınlar edir, onları tutmağa çalışırdı. Türk və sovet qoşunları ilk dəfə olaraq ermənilərə qarşı birgə döyüşə girdi və daşnakları məğlub etdilər. 1920-ci ilin noyabr-dekabr aylarında bütün Şərur qəzası ermənilərdən təmizləndi [114, s. 300].

1920-ci il dekabrın 2-də Gümrüdə Türkiyə ilə Ermənistanın daşnak hökuməti arasında müqavilə imzalandı. Müqavilənin ikinci və on ikinci maddələri bilavasitə Naxçıvanla bağlı idi. İkinci maddəyə görə Naxçıvanın ərazisi və statusu aşağıdakı şəkildə müəyyənləşdirilirdi: Kükü dağı – Həməsür dağı – Qurdqulaq kəndi – Saat dağı – Arpaçay evləri – Gömürlü dağı – Saray bulağı – Ararat stansiyası – Araz çayı – Aşağı Qarasu çayının töküldüyü yerdən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) ərazisinə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara Ermənistanın müdaxilə etməyəcəyi, bu ərazidə hələlik Türkiyənin himayəsində yerli idarə yaradılması nəzərdə tutulmuşdu. On ikinci maddəyə görə isə Türkiyə Şərur-Şahtaxtı-Naxçıvan-Culfa yolu və İran-Maku-Ermənistan tranzit yolunun təhlükəsizliyinə təminat verirdi [13, v. 86; 73, s. 4-5].

Çox qəribə idi ki, Naxçıvanda olan bolşevik ordusu Ermənistanla müharibə apardığı halda, həm də onlarla siyasi və diplomatik danışıqları davam etdirirdi. Bu danışıqlarda Azərbaycanın mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə olunurdu. Bunu bilən Nəriman Nərimanov Leninə göndərdiyi məktubda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin, eyni zamanda, həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir..." [41, v. 1; 185, s. 103].

İ.Stalinin 1920-ci ilin noyabrın 9-da Bakıdakı çıxışında demişdir: "Əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada sovet hökuməti yaranarsa vermək olar" [25, v. 30].

İ.Stalinin bu fikri özünü çox gözlətmədi. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

Ermənistanın bolşeviklərin nəzarəti altına keçməsi ilə əlaqədar Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi [165, v. 6]. HİK-in sədri N.Nərimanovun imzası ilə yayılan bəyanat Rusiyanın diqtəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin" Azərbaycanın milli mənafelərinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Bəyanatda deyilirdi: "...Bundan sonra heç bir ərazi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir" [165, v. 6].

S.Orconikidze dekabrın 2-də Azərbaycan torpaqlarının Ermənistana verilməsi barədə Rusiya rəhbərliyinə məlumat verir və həmin gün RSFSR ilə Sovet Ermənistanı arasında bu bəyanatı "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt " adlandırır.

Beləliklə, 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi istiqamətində konkret addımlar atılmağa başlandı.

RSFSR ilə Sovet Ermənistanı arasında səkkiz maddədən ibarət Gümrü sazişi imzalanır. Həmin sazişin üçüncü maddəsində göstərilirdi ki, Rusiya Sovet hökuməti Ermənistanın 1920-ci il oktyabrın 23-nə kimi sahib olduğu aşağıdakı ərazilərini – İrəvan quberniyasının, Qars vilayəti hissəsinin, Zəngəzur qəzasının, Qazax qəzası hissəsinin, Tiflis quberniyası hissəsinin "Sovet Erməni Respublikasının" tərkibinə daxil olduğunu mübahisəsiz təsdiq edir [6, s. 63].

Naxçıvan əhalisi Azərbaycan Hərbi İnqilab Komitəsinin 1 dekabr 1920-ci il bəyanatına və sonrakı qərarlara kəskin etirazını bildirir. Vəziyyətin gərginləşdiyini görən Azərbaycan rəhbərliyi Hərbi İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini dekabrın 15-də Naxçıvana göndərdi. B.Şahtaxtinski Naxçıvan şəhərində, Şərur və Ordubadda əhali ilə keçirdiyi görüşlərdə 1920-ci il 1 dekabr tarixli bəyanatı ilə əlaqədar əsl həqiqəti əhaliyə söyləməli oldu: "Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti surətdə razılıq verməzdim. Mən Azərbaycan İnqilab Komitəsinin üzvü kimi B.Vəlibəyovu vəzifəsindən azad edib, özümlə Bakıya aparacağam. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq üçün yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı

yalnız onlar qoruyacaqlar və sizi ağır fəlakətdən xilas edəcəklər" [166, v. 1].

B.Şahtaxtinskinin əhali ilə görüşləri və söhbətləri öz nəticəsini verir. Diyarın əhalisi Azərbaycanın himayəsi altında olmaqla Naxçıvanda müstəqil sovet respublikası yaradılmasını tələb edirlər. Naxçıvan əhalisinin qətiyyətli mövqeyi mərkəzin öz mövqeyini müəyyən qədər də olsa dəyişməsinə səbəb oldu. Naxçıvanın azərbaycanlı əhalisinin qətiyyətli və inadlı mübarizəsi ermənilərin Naxçıvan barəsindəki planlarını pozur. Məkrli niyyətlərini hələlik pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu ərazi ilə əlaqədar iddialarından imtina etmişdir. Əslində Ermənistanın Naxçıvanı Azərbaycanın bir hissəsi kimi deyil, müstəqil respublika kimi tanıması onun düşünülmüş, məkrli planlarının tərkib hissəsi idi. Naxçıvanı müstəqil qurum kimi tanımaqla Ermənistan gələcəkdə onu ilhaq etmək niyyəti güdürdü.

Azərbaycan bolşevik rəhbərliyi Naxçıvan vilayətində təsirli tədbirlər görmək, əhalinin narazılığını sakitləşdirmək üçün B.Şahtaxtinskini 1921-ci il yanvarın 11-də Hərbi İnqilab Komitəsinin mandatı ilə fövqəladə komissar kimi Naxçıvana göndərir [26, v. 15].

Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri edirdi. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: "Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi" [63, s. 75].

Naxçıvan diyarının əhalisi Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində muxtariyyət tələb edirdi. 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90%-dən çoxu Naxçıvan diyarının muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi [154, v. 79]. Bu rəy sorğusunun nəticəsi Naxçıvanın Azərbaycanın tərkibində saxlanılmasında mühüm rol oynadı.

Naxçıvan məsələsində N.Nərimanovun əvvəlki mövqeyindən fərqli olaraq sonradan prinsipial mövqe tutması, onun adından B.Şahtaxtinskinin Moskvada apardığı danışıqlar Moskvanın Naxçıvan məsələsinə münasibətinin dəyişməsinə və nəticə etibarı ilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə təsir etdi. Ümumiyyətlə, Naxçıvan Diyar İnqilab Komitəsinin və Xalq Komissarları Sovetinin sədri, Azərbaycanın Ədliyyə komissarı, Rusiyada Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi, Azərbaycan SSR-in Fəhlə-Kəndli Müfəttişi, Azərbaycan Xalq Komissarları Sovetinin sədr müavini kimi çox məsul vəzifələrin öhdəsindən layiqincə gələn Behbud ağa Şahtaxtinskinin



Nəriman Nərimanov



Behbud ağa Şahtaxtinski

Naxçıvanın muxtariyyət statusu qazanmasında çox böyük xidməti olmuşdur [92]. O, fəaliyyəti dövründə Azərbaycan SSR-in müxtəlif problemləri ilə bağlı RSFSR XKS-in sədri V.Leninə teleqramlar vurmuş, məktublar yazmış, bu məktublara bir sıra arayışlar da əlavə etmişdir. Onun V.Leninə göndərdiyi məktub və arayışlar içərisində 1921-ci il martın 1-də göndərdiyi teleqram və ona daxil etdiyi əlavələrin xüsusi əhəmiyyəti vardır. B.Şahtaxtinskinin V.Leninə ünvanladığı teleqramda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər irəli sürmüşdü [114, s. 314]. Martın 7-də V.Leninin dərkənarı ilə müzakirə üçün Siyasi Büroya göndərilən həmin məktuba martın 16-da Stalinin, Çiçerinin və b. iştirakı ilə baxılmış, B.Şahtaxtinskinin təklifi nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul olunmuşdu.

Naxçıvanın Azərbaycan SSR-in himayəsi altında olan muxtar ərazi statusu 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsində də öz əksini tapdı. Müqavilənin 3-cü maddəsində deyilirdi ki, "Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir" [14, v. 3; 42, v. 93]. "Naxçıvanın ərazisi" adlı I (B) əlavəsində bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: "Ararat stansiyası – Saray Bulaq dağı – Kömürlüdağ – Sayatdağı (7868) – Qurdqulaq kəndi – Həməsür dağı (8060) – 8022 yüksəkliyi – Kükü dağı (8282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi" [201, s. 38]. Bununla da Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə bir aydınlıq gətirildi.

1921-ci il oktyabrın 13-də RSFSR-in nümayəndəsinin iştirakı ilə Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR ilə Türkiyə arasında imzalanan Qars müqaviləsinə əsasən, Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Burada göstərilirdi ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar bir ərazi olduğu məsələsində müttəfiqdirlər [14, v. 9-19]. Müqavilə maddəsindən də göründüyü kimi, burada Moskva müqa - viləsinin üçüncü maddəsinin müəyyən bir hissəsi, yəni, "Azərbaycan bu himayəçilik haqqını üçüncü bir dövlətə heç bir zaman güzəştə gedə bilməməsi" öz əksini tap-

mışdı.

"Naxçıvanın ərazisi" adlı 3 nömrəli əlavədə bölgənin sərhədləri aşağıdakı kimi müəyyənləşdirildi: "Urmiya kəndi, oradan düz xətlə Arazdəyən stansiyasına (bu stansiyanı Ermənistan SSR-də saxlamaqla), sonra düz xətlə qərbi Daş-Burun dağına (3142) və daha sonra suayrıcı xətlə şərqi Daş-Burun dağı (4108) və Cəhənnəmdərəsi çayından keçməklə "Bulaq"dan cənuba, Bağırsaq dağı (6607), (6587 suayrıcı xətti ilə və buradan keçmiş İrəvan, Şərur-Dərələyəz qəzalarının inzibati sərhədi ilə 6625 yüksəkliyindən keçərək Kömürlü dağına (6839), (6930) və daha sonra 3080 – Sayatdağ (7868) yüksəklikləri ilə Qurdqulaq kəndi, Həməsür dağı (8160), 8022 yüksəkliyi, Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi" [42, v. 114-115].

Qars müqaviləsinin mühüm əhəmiyyətindən biri Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflərin müəyyən edilməsidir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri idi [72, s. 17]. Qars müqaviləsi ilə Ermənistan da Naxçıvanın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiq etdi. Müqavilənin ən əhəmiyyətli cəhətlərindən biri də onun müddətsiz imzalanması idi.

Bununla belə, Moskva müqaviləsindən fərqli olaraq Naxçıvanın statusu və tabeçiliyinə aid Azərbaycanın himayəçilik hüququ haqqında müddəa Qars müqaviləsində əks olunmamışdır.


Ümummilli lider Heydər Əliyev beynəlxalq Qars müqaviləsinin tarixdəki yerini və rolunu yüksək qiymətləndirərək demişdir: "Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir..." [52, s. 9].

Naxçıvanın tarixi müqəddəratında, onun Azərbaycanın tərkibində saxlanılmasında bir sıra amillərlə yanaşı, Moskva və Qars beynəlxalq müqavilələrinin də rolu olmuşdur. Hər iki beynəlxalq müqavilə müddətsiz imzalanmış və bu gün də qüvvədədir. Həmin müqavilələr onu imzalayan dövlətlər tərəfindən birtərəfli qaydada ləğv edilə bilməz.

Beləliklə, 1917-1921-ci illərdə aparılan inadlı mübarizə, 1921-ci il rəy sorğusunun nəticəsi, bir sıra görkəmli şəxsiyyətlərin fəaliyyətləri, Türkiyənin ədalətli mövqe tutması və köməyi, beynəlxalq Moskva və Qars müqavilələrinin şərtləri Naxçıvan diyarına Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsi ilə nəticələndi.

4. Naxçıvan MSSR-in yaradılması

1920-ci il iyulun 28-də AK(b)P MK Siyasi Bürosu Naxçıvandakı vəziyyəti müzakirə edərək, Azərbaycan İnqilab Komitəsinə tapşırdı ki, Naxçıvan məsələsini prinsipial şəkildə aydınlaşdırsın, Ermənistan ilə Azərbaycan arasında sərhədləri



Naxçıvan ölkəsinin xəritəsi (1924)

müəyyənləşdirsin və Naxçıvan diyarında sovet hakimiyyətinin qurulmasına kömək göstərsin. XI Qırmızı Ordunun hərbi hissələri 1920-ci il iyulun 28-də axşamüstü Naxçıvan şəhərinə daxil oldu. Naxçıvanda sovet hakimiyyəti quruldu və Naxçıvan İnqilab Komitəsi yaradıldı. Naxçıvan qəzasının ərazisində bütün hakimiyyət Naxçıvan İnqilab Komitəsinə məxsus oldu [109, s. 73].

Naxçıvan diyarında keçirilən rəy sorğusu (1921) Naxçıvan diyarının Azərbaycan SSR tərkibində qalmasına və ona muxtariyyət verilməsinə səbəb oldu.

Azərbaycan SSR Naxçıvan üzərində hüquqlarından irəli gələn vəzifələri həyata keçirirdi. Bununla belə, Naxçıvanın Azərbaycan SSR tərkibində muxtar respublika hüququnun qanuni yolla təsbit edilməsi 1924-cü ilin fevralınadək ləngidildi.

Azərbaycan SSR-in partiya, sovet və təsərrüfat orqanları Naxçıvan Respublikasında dövlət və təsərrüfat quruculuğu məsələləri ilə bilavasitə məşğul olur və əhaliyə yeni həyat quruculuğunda hərtərəfli köməklik göstərirdi. Naxçıvanda vəziyyəti öyrənmək üçün 1921-ci il aprelin 13-də AK(b)P MK-nın Siyasi və Təşkilat Büroları Naxçıvana komissiya göndərməyi qərara aldı [29, v. 10]. Həmin ilin payızında RK(b)P MK-nın Qafqaz bürosunun qərarı ilə diyarın kənd təsərrüfatının bərpası üçün Naxçıvana 20 min manat qızıl pul, 10 vaqon taxıl ayrıldı [106, s. 47]. Eyni zamanda, Azərbaycan SSR XKS-in sədri N.Nərimanovun sərəncamı ilə Naxçıvanda təsərrüfat və mədəni quruculuq üçün 5,5 milyard manat pul ayrıldı [106, s. 47].

1921-ci ilin sonunda Naxçıvan Respublikasında sovetlərə seçkilər keçirildi. 1922-ci il yanvarın 25-də Naxçıvan SSR-in I Sovetlər qurultayı çağrıldı. Qurultay diyarda sovet, təsərrüfat və mədəni quruculuğa dair mühüm qərarlar qəbul etdi. Naxçıvan İnqilab Komitəsi ləğv olundu, Naxçıvan İcraiyyə Komitəsi və Naxçıvan SSR Xalq Komissarları Soveti yaradıldı.

Naxçıvan SSR Sovetlər qurultayı ölkədə ali dövlət hakimiyyəti orqanı idi. Qurultaylar arasında isə bu vəzifəni Naxçıvan MİK yerinə yetirirdi. Naxçıvan SSR MİK-i Xalq Komissarları Sovetini formalaşdırırdı. Xalq Komissarları Soveti həm MİK, həm də Sovetlər qurultayı qarşısında məsul idi [189, s. 480].

1922-ci il mayın 22-də AK(b)P MK-nın Rəyasət Heyəti Naxçıvan diyarı haqqında Əsasnamənin və Naxçıvan SSR Konstitusiyasının Azərbaycan MİK tərəfindən təqdim olunmuş layihələrini müzakirə etdi. Naxçıvan diyarı haqqında Əsasnamədə deyilirdi: "Naxçıvan diyarı Azərbaycan SSR-in qəyyumluğu altında muxtar respublika elan edilərək, Naxçıvan Sovet Sosialist Respublikası adlandırılsın" [30, v. 158].

Əsasnamədə göstərilirdi ki, Naxçıvan diyarının dövlət hakimiyyəti Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq təşkil edilir.

Naxçıvan SSR Konstitusiyasının layihəsində deyilirdi: "Naxçıvan SSR, dinindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq vətəndaşların bərabər hüquqlara malik olmalarını təsdiq edərək, bu zəmində hər hansı imtiyazların və ya

üstünlüklərin müəyyən olunmasının, yaxud bunlara yol verilməsinin, eləcə də milli azlıqlara qarşı hər cür zülmün və ya onların hüquq bərabərliyinin məhdudlaşdırılmasının respublikanın əsas qanununa zidd olduğunu elan edir" [208, s. 98].

Naxçıvan diyarı haqqında Əsasnamə və Naxçıvan SSR Konstitusiyasının layihələri AK(b)P MK-nın Rəyasət Heyətində müzakirə edildi. Layihələrin son variantı, xüsusilə, Naxçıvan diyarının muxtariyyəti haqqında məsələ RK(b)P MK-nın müzakirəsinə verildi. 1922-ci ilin noyabrında V.İ.Leninin sədrliyi ilə RK(b)P MK Siyasi Bürosu Naxçıvan Muxtar Respublikasının yaradılmasının zəruriliyi haqqında qərar qəbul etdi [204, s. 129]. 1922-ci ilin dekabrın 12-də Zaqafqaziya Sovetlərinin birinci qurultayı Azərbaycan SSR tərkibində Naxçıvanla bağlı qərar çıxardı: "Naxçıvan Respublikası Azərbaycanın muxtar vahid hüququnda ayrılmaz tərkib hissəsi hesab edilsin" [6, s. 197].

1922-ci ilin dekabrında Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR ZSFSR-də birləşdi. Dekabrın 30-da hər üç respublika ZSFSR tərkibində SSRİ-yə daxil oldu. Bununla Azərbaycan SSR-in suveren hüquqları məhdudlaşdırıldı. Buna baxmayaraq, Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyətinin təsbit edilməsi ləng də olsa həyata keçirilirdi.

RK(b)P Cənubi Qafqaz Ölkə Komitəsinin Rəyasət Heyəti Cənubi Qafqaz Sovetləri birinci qurultayının 1923-cü il 18 yanvar tarixli qərarı əsasında "Naxçıvanı Muxtar Respublikaya çevirməyi, Naxçıvan Xalq Komissarları Sovetini və Naxçıvan MİK-i Naxçıvan Diyarının İcraiyyə Komitəsinə çevirməyi" təklif etdi [204, s. 129].

AK(b)P Mərkəzi Komitəsi iki gün sonra həmin qərarı müzakirə edərək Naxçıvan MİK və XKS-nin ləğv olunması və Naxçıvan Diyar İcraiyyə Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. Yanvarın 22-də AK(b)P MK-nin Rəyasət Heyəti bu məsələ ilə əlaqədar Diyar partiya konfransı çağırmağı və məsələni Naxçıvan Diyarı sovetlər qurultayında müzakirə edib bəyannamə hazırlamağı tapşırdı. Naxçıvan Diyar Partiya Təşkilatının 1923-cü il fevralın 23-də keçirilən üçüncü qurultayı Azərbaycan SSR-in tərkibinə daxil olmasını bölgənin iqtisadi, siyasi və mədəni inkişafı üçün mühüm zəruriyyət kimi qiymətləndirdi və belə bir qətnamə qəbul etdi: "Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan SSR-in ayrılmaz hissəsi kimi tanınsın..." [158, v. 10].

1923-cü il fevralın 27-də üçüncü Ümumnaxçıvan Sovetlər qurultayı Naxçıvan SSR-in muxtariyyət hüquqları əsasında Azərbaycan SSR tərkibinə daxil edilməsi məsələsini geniş müzakirə etdi və bəyanatla bölgənin ayrılmaz hissəsi kimi Azərbaycana daxil olmasını vacib saydı. Qurultayın qərarında deyilirdi ki, Naxçıvan SSR Azərbaycan SSR-in ayrılmaz hissəsi kimi tanınsın; bütün Naxçıvan diyarı özünün aparatları ilə muxtar diyar hüququnda Azərbaycan SSR-in tərkibinə daxil olsun [158, v. 7]. Qurultayın başqa bir qərarı ilə qəzalar ləğv edildi, Naxçıvan Muxtar Diyarının bütün ərazisi isə 6 sahəyə bölündü: Tumbul, Cəhri, Əbrəqunus, Şahtaxtı, Noraşen və Ordubad.

Azərbaycan MİK-in 1923-cü il iyulun 16-da keçirilən üçüncü sessiyası Naxçıvan diyarının Azərbaycan SSR-in muxtar ərazisi kimi onun tərkibinə daxil olması haqqında Naxçıvan Sovetlər qurultayının vəsatətini təsdiq etdi [189, s. 382].

Naxçıvan SSR-in muxtar diyar kimi təşkil olunması Azərbaycan MİK-in Naxçıvan Muxtar Diyarı haqqında Əsasnamə ilə həyata keçirilirdi. Bununla Naxçıvanın əvvəlki siyasi hüquqları məhdudlaşdırıldı. Respublikadan təcrid olunmuş şəraitdə yaşayan Naxçıvan üçün bunu qənaətbəxş hesab etmək olmazdı. Lakin muxtar diyar dövrü uzun sürmədi. 1923-cü il dekabrın 11-də AK(b)P MK-nın Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan Muxtar Respublikasına çevrilməsi məsələsini müzakirə edərək Azərbaycan MİK-ə təklif etdi ki, Naxçıvan Muxtar Respublikasının yaradılması barədə məsələni Cənubi Qafqaz MİK qarşısında qaldırsın [106, s. 54].

Azərbaycan SSR MİK 1923-cü il dekabrın 31-də Naxçıvan diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrilməsi haqqında qəti qərar qəbul etdi və Cənubi Qafqaz MİK-dən bu qərarın təsdiq olunmasını xahiş etdi. Cənubi Qafqaz MİK-in 1924-cü il yanvarın 8-də keçirilən birinci plenumu Naxçıvan Muxtar Diyarının muxtar respublikaya çevrilməsi haqqında qərar qəbul etdi [106, s. 55]. Buna uyğun olaraq Naxçıvan MİK-in birinci plenumu 1924-cü il yanvarın 18-də muxtar diyarın Naxçıvan MSSR-ə çevrilməsi məsələsini müzakirə etdi. Naxçıvan MSSR MİK, XKS və əkinçilik, daxili işlər, ədliyyə, maarif, səhiyyə nazirlikləri yaradıldı, inzibati cəhətdən o, Şərur, Ordubad və Naxçıvan qəzalarına bölündü [156, v. 5].

AK(b)P MK Rəyasət Heyətinin 1924-cü il 4 fevral tarixli qərarı ilə Naxçıvan Respublikası haqqında Əsasnamə hazırlanmağa başlandı.

Azərbaycan MİK-in 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsbit olundu. Naxçıvan SSR haqqında Əsasnamənin layihəsini hazırlamaq üçün komissiya yaradıldı.

Naxçıvan Respublikası haqqında Əsasnamənin layihəsi 1924-cü il fevralın 24-də AK(b)P MK Rəyasət Heyətində müzakirə olundu [31, v. 104]. Azərbaycan MİK-in 1924-cü ilin aprelində təsdiq etdiyi Naxçıvan MSSR haqqında yeni Əsasnamədə qeyd edilirdi ki, Azərbaycan SSR MİK Naxçıvanın yerli əhalisini Azərbaycan SSR-in əhalisinə qohum tanıyaraq və ərazi vəziyyətini nəzərə alaraq Naxçıvan, Şərur və Ordubad qəzalarından ibarət tərkibdə Azərbaycan SSR daxilində muxtar respublika elan etməyi, ona Naxçıvan MSSR adını verməyi qərara almışdır [31, v. 166]. Bu Əsasnamənin 2-ci maddəsinə görə isə "Naxçıvan MSSR Azərbaycan SSR-in tərkib hissəsidir və onun tərkibinə muxtar respublika kimi daxil olur. Naxçıvan MSSR-in Azərbaycan SSR-lə qarşılıqlı münasibətləri Azərbaycan SSR-in Konstitusiyası ilə müəyyənləşdirilir" [159, v. 8].

Azərbaycan SSR-in IV Sovetlər qurultayı (1925, mart) Azərbaycan SSR Konstitusiyasına əlavə etdi. Əlavədə deyilirdi ki, Naxçıvan Muxtar Sovet Sosialist

Respublikası Azərbaycan SSR-in tərkibinə daxildir [6, s. 199]. Muxtar qurum ki - mi Naxçıvan Muxtar Respublikasının Konstitusiyası hazırlanaraq1925-ci il 27 dekabr tarixində Naxçıvan SSR MİK-in IV çağırış ikinci sessiyasında qəbul olundu və baxılmaq üçün Azərbaycan MİK-ə göndərildi.

1926-cı il aprelin 8-də Azərbaycan MİK-in katibi T.Şahbazinin sədrliyi ilə yaradılmış komissiya Naxçıvan Respublikasının Konstitusiya layihəsinə baxaraq, düzəliş və əlavələrlə birlikdə bəyəndi.

1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər Qurultayı Naxçıvan Respublikasının ilk Konstitusiyasını yekdilliklə qəbul etdi [106, s. 55]. Bundan əvvəl qəbul edilmiş əsasnamədən fərqli olaraq yeni qəbul edilmiş Konstitusiyanın əsas müddəalarından ibarət birinci bölməsində muxtar respublikada hakimiyyət və Azərbaycanın protektoratlığı məsələsi dəqiq əks olunmuşdur. Orada deyilirdi:

1. Naxçıvan Sovet Sosialist Respublikası Naxçıvan ərazisindəki bütün zəhmətkeşlərin sosialist dövlətidir. Naxçıvan Sovet Sosialist Respublikası hüdudlarında bütün hakimiyyət ölkənin Sovetlərində birləşən bütün zəhmətkeş əhalisinə məxsusdur.

2. Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının protektoratında olmaqla onun tərkib hissəsidir. Naxçıvan Sovet Sosialist Respublikası ilə Azərbaycan Sovet Sosialist Respublikası arasındakı münasibətləri axırıncının Konstitusiyası müəyyən edir [155, v. 1-3].

Beləliklə, Azərbaycan SSR-in tərkibində özünün ali qanunvericilik və icra orqanları olan Muxtar Sovet Sosialist Respublikası – Naxçıvan MSSR yaradıldı. Naxçıvan MSSR-in I Konstitusiyası onu hüquqi cəhətdən təsbit etdi. Naxçıvan muxtariyyətinin yaradılması diyarın özünəməxsus coğrafi mövqeyi ilə bağlı idi: o, şimal və şərqdən Ermənistanla, cənub və cənub-qərbdən İran və Türkiyə ilə həmsərhəddir [6, s. 199]. Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi statusu 1921-ci il oktyabrın 13-də Qarsda RSFSR-in iştirakı ilə Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında bağlanmış müqavilə ilə təsbit edildi.

Naxçıvan diyarının çox mürəkkəb və gərgin ziddiyyətlər şəraitində muxtar dövlət statusunun 1921-ci ildə beynəlxalq müqavilələrdə "əks olunması həmin dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir" [173]. Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir [176].

Moskva və Qars müqavilələri ilə Naxçıvanın ərazisi dəqiqləşsə də, ermənilər Qars müqaviləsi ilə Naxçıvanın ərazi bütövlüyünü tanısalar da, öz məkrli niyyətlərindən – Naxçıvan iddialarından, onu ələ keçirmək planlarından əl çəkməmişdi.


Azərbaycan torpaqlarının Ermənistana verilməsində RK(b) P Zaqafqaziya Diyar Komitəsi, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti və hökumətinin xüsusi rolu olmuşdur. Beləki, bu qurumlar tərəfindən 20-ci illərdə Azərbaycan torpaqları hissə-hissə Ermənistan SSR-ə verildi.



Ermənistan Respublikasına verilmiş Azərbaycan torpaqları

16 mart 1921-ci ildə Rusiya ilə Türkiyə arasında Moskva və 13 oktyabr 1921-ci ildə isə Rusiyanın iştirakı ilə Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında Qars müqavilələri bağlanmışdır. Azərbaycan SSR MİK-nin 9 fevral 1924-cü il tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarı, Naxçıvan MSSR-ə çevrildi. 1924-cü ildə yaradılan 3 qəza (Şərur, Naxçıvan, Ordubad) 1925-ci ildə ləğv edildi. Əvvəllər yaradılmış 12 dairənin sayı 8-ə endirildi.

18 fevral 1929-cu ildə Moskva və Qars müqavilələrinin şərtləri kobud şəkildə pozularaq Zaqafqaziya MİK-nin qərarı ilə Naxçıvan MSSR-in 9 kəndindən ibarət 657 kv. km ərazisi (Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, Sultanbəy, İtqıran kəndləri, Ordubad qəzasının Karçevan kəndi, Kilit kənd torpaqlarının bir hissəsi) Ermənistan SSR-ə verildi.



Zəviyyə—Mədrəsə binası

Naxçıvan MSSR (1924-1929-cu illər)

Ermənistanın hakim dairələri Moskvadakı himayədarlarının köməyi ilə Naxçıvanın bəzi torpaqlarını qoparıb, öz ərazilərinə birləşdirməyə nail oldular. 1929-cu il fevral 18-də Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvanın 657 kv.km ərazisi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz

nahiyəsinin Oğbin, Ağxəç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilit kəndi torpaqlarınıın bir hissəsi Ermənistana verildi [190, s. 210].

Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmiş, o, indi də bu sərsəm xülyalarla yaşayır.

5. Naxçıvanda sənayenin vəziyyəti

Tarixən aqrar bölgə hesab edilən Naxçıvanda sənaye 1920-30-cu illərdə yeni inkişaf pilləsinə qədəm qoyur. Naxçıvanda əsas sənaye müəssisələri duz mədənlərindən, Ordubaddakı ipək fabrikindən, Naxçıvan şəhər və Şərur pambıqtəmizləmə zavodlarından ibarət idi. Bunlarla bərabər, Naxçıvan və Ordubad şəhərlərində yerli əhəmiyyətli kustar müəssisələr – kərpic istehsal edən kameralar, əhəng, gəc istehsal edən müəssisələr, Şahtaxtı daş karxanası, ayaqqabı istehsal edən sexlər, dabbaqxanalar və dəmirçixanalar da fəaliyyət göstərirdi.

XX əsrin əvvəllərində Ordubadın ipəkçilik sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Lakin 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsi fabriklərin fəaliyyətlərinin dayanmasına gətirib çıxardı. Bununla belə,1923-1926-cı illərdə 4 ipək fabriki bərpa edilib işə salındı. Lakin ipəkçilik sənayesinin tam fəaliyyəti üçün baramaçılıq təsərrüfatı bərpa edilməli idi. Çünki həmin dövrdə baramaçılığa ciddi ziyan dəymişdi. Məsələn, 1924-1925-ci təsərrüfat ilində cəmi 4500 pud barama istehsal edilmişdi ki, bu da Birinci dünya müharibəsindən əvvəl istehsal edilən baramanın 38 %-nə bərabər idi. 1926-cı ildə Ordubad şəhərində barama toxumu istehsal edən zavod tikilib istifadəyə verildi. Bu təkcə Naxçıvanda deyil, bütövlükdə Azərbaycanda ipəkçilik sənayesinin inkişafında mühüm rol oynadı. Zavod 1926-cı ildə 9350 qutu, 1928-ci ildə 22000 qutu, 1930-cu ildə isə 30000 qutu barama toxumu istehsal edib bütün rayonlara paylamışdı.

Muxtar respublikanın özündə 1925-26-cı illərdə 800 qutu, 1927-ci ildə min qutu, 1928-ci ildə 1600 qutu, 1929-cu ildə 2200, 1930-cu ildə isə 2600 qutu barama paylanmışdı [157, v. 70-75].

Barama toxumu zavodunun fəaliyyətilə muxtar respublikada 12 təlim-təcrübə stansiyası təşkil edilmişdir. Bununla bağlı olaraq, aqrotexniki qaydaların təbliğinə də geniş yer verilmiş, 1 milyondan çox tut tingi əkin üçün kolxozlara paylanmışdı.

Zavodun təşəbbüsü ilə Ordubadda ipəkçilik sovxozu da yaradılmışdı. Lakin bu tədbirlər Naxçıvanda ipəkçilik təsərrüfatının əvvəlki şöhrətini özünə qaytara bilməmişdi. Bunun aşağıdaki səbəbləri vardır:

- Heyvandarlıqla məşğul olan Zəngəzur və Qafan mahalları əhalisinin Ordubad və Naxçıvan qəzalarında yerləşdirilməsi baramaçılığa marağı xeyli azaltmışdı;
- 1932-ci ildə Ordubad rayonunda 7-8 bal gücündə zəlzələ baş verməsi

nəticəsində baramaçılığa maddi ziyan dəymiş, çoxlu barama qurdu torpağın altında qalmış və buna görə də 88 ton əvəzinə 46 ton barama istehsal edilmişdi;

- Həmin ildə güclü daşqın olmuş, rayonun 160 bağını yuyub aparmış, insan tələfatına və böyük maddi ziyana səbəb olmuşdu [60, s. 88].

Xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsi illərində muxtar respublikada kustar sənayenin inkişafına böyük əhəmiyyət verilirdi. Gələn gəlirdən yoxsullara və müxtəlif bölgələrdən ermənilərin zorakılığı ilə öz dədə-baba yurdundan qovulmuş qaçqınlara yardımlar edilirdi.

Respublikada yeni iş yerləri açılırdı. Belə ki, 1926-cı ildə ipək fabriklərinin istehsal etdiyi xam ipək materialları əsasında Ordubadda corab-kəlağayı fabriki açılmış, Vənənd, Əylis, Üstüpü, Çənnəb, Parağa və Bist kəndlərində onun şöbələri yaradılmışdı. Fabrikdə ipək, yarım ipək corablar, baş və cib yaylıqları istehsal olunurdu. Burada 17 dəzgahda çalışan 253 nəfər işçidən 217-si qadınlar idi [157, v. 2-24]. Ordubad şəhərində kustar yolla ayaqqabı istehsal edən artellər də açılmışdı. 1928-ci ildə bu artellərdə, muxtar respublika üzrə 316427 manat dəyərində 18.690 cüt ayaqqabı hazırlamışdı [157, v. 96-97].

Beləliklə, 20-ci illərdə muxtar respublikada sənaye istehsalı sahələrinin genişləndirilməsi üçün yeni addımlar atılmışdır. Məsələn, Ordubad şəhərində yarımkustar formada fəaliyyət göstərən üç ipək fabriki birləşdirilərək müasir avadanlıqla təchiz olunmuş, iri fabrikə çevrilmişdi. Təkcə bu işə 672 min manat vəsait xərclənmişdi. İstehsalı genişləndirmək, barama istehsalını 1100 tona çatdırmaq üçün 1500 hektar sahədə tut bağları salınmışdı.

Sənayenin inkişafında digər mühüm sahə duz istehsalı ilə bağlı idi. Naxçıvanda Sovet hakimiyyəti elan edildikdən sonra xalq təsərrüfatında əsas yeri duz sənayesi tutdu. Muxtar respublikanın duz ehtiyatı Naxçıvanın, habelə Azərbaycanın ermənilərə verilmiş qərb rayonlarının və Cənubi Azərbaycanın sərhəd bölgələrinin ehtiyacını ödəmək üçün tamamilə kifayət edirdi.

Mədənlərdə duz əl ilə çıxarılırdı. İş şəraiti ağır və dözülməz idi. İş günü 10-11 saata çatırdı. Məişət şəraiti daha acınacaqlı idi. İçməli su kənardan gətirilirdi. Əməkhaqqı ən adi gündəlik yaşayış xərclərini belə ödəmirdi. Şikəstlik və qocalığa görə heç bir yardım və təqaüd verilmirdi. Sanitariya qaydalarına əməl olunmurdu.

Birinci Dünya müharibəsi, xarici hərbi müdaxilə, daşnak fitnəkarlıqları və basqınları duz mədənlərinə də böyük ziyan vurmuşdu. Nəticədə, duz istehsalı xeyli azalmışdı. Yeni hakimiyyətin ilk mühüm vəzifəsi dağılmış duz mədənlərini bərpa etməkdən, duz istehsalını, heç olmazsa, Birinci Dünya müharibəsindən əvvəlki səviyyəyə çatdırmaqdan ibarət idi.

1921-1922-ci illərdə Naxçıvan duz mədənlərinin bərpası işinə rus qırmızı ordu hissələri də cəlb edilmişdi. Naxçıvan Xalq Komissarları Sovetinin qərarı ilə duz mədənləri Qafqaz Ordusunun Naxçıvanda yerləşən hissələrinin sərəncamına verilmişdi. 1922-ci ildə Naxçıvan "Solprom" tresti yaradılmış, 1923-cü ildə

Naxçıvan duz mədənləri Azərbaycan Ticarət Komissarlığının, 1924-cü ildə isə Azərbaycan Xalq Təsərrüfatı Şurasının sərəncamına verilmiş, "Naxçıvanduz" tresti təşkil olunmuşdu.

Bu tədbirlərdən sonra duz istehsalında artımlar olsa da, istehsal əvvəlki səviyyədən aşağı idi. 1924-cü ildə duz istehsalı müharibədən əvvəlki dövrün 52 faizini təşkil etməklə 1 milyon 600 min puddan çox olmuşdu [73, s. 34].

1920-30-cu illərdə Naxçıvan MSSR-in əsas sənaye sahələrindən olan duz mədənlərinin (Naxçıvan və Sust) istismarında mühüm irəliləyiş olmuşdur. Nəinki Naxçıvan diyarında, eləcə də bütün Zaqafqaziya ərazisində, həm də İranda istehlakına böyük ehtiyac olan duz istehsalının texniki səviyyəsi get-gedə artırdı. Duzun hava kanat yolu ilə daşınması sayəsində istehsal 1924-cü ildəki 18,5 min tondan 1940-cı ildə 45,5 min tona çatdırılmışdı [207, s. 113].

1925-ci ildə Naxçıvan duz sənayesinin mexanikləşdirilməsi sahəsində böyük işlər görüldü. 200 at qüvvəsində olan elektrik stansiyasının istifadəyə verilməsi ilə yeraltı şaxtalarda əl ilə görülən ən ağır işlər mexanikləşdirilmiş, şaxtalar işıqlandırılmışdı. 1926-cı ildə isə İsveç və Almaniyadan alınmış üç maşın şaxtalarda duzçapma işlərinin mexanikləşdirməsində xüsusi rol oynadı. Nəticədə burada işləyən 45-55 fəhləni 5 fəhlə əvəz etmişdi. 1926-1929-cu illərdə Naxçıvan duz mədənlərindən Bozbaşlı stansiyasına çəkilən kanat yolu ildə 6 milyon pud duz daşımağa imkan vermiş, duzun maya dəyərini 6-7 dəfə azaltmışdı [207, s. 113]. Duz sənayesində ağır işlərin mexanikləşdirilməsi və elektrikləşdirilməsi əmək məhsuldarlığını da artırmış və işçi qüvvəsinə olan ehtiyacı azaltmışdı. Məsələn, 1922-1924-cü illərdə hər iki mədəndə 260-280 fəhlə işlədiyi halda, 1930-1931-ci illərdə fəhlələrin sayı 148 nəfərə qədər azalmış, lakin duz istehsalı 3-4 dəfə artaraq 1931-ci ildə 3.650.000 pud olmuşdu [192, s. 44]. Naxçıvan MSSR MİK-in sədri B.Vəlibəyov VIII Naxçıvan Sovetlər qurultayında (2 fevral 1931-ci il) demişdi: "Duz sənayesinin inkişafı mütəşəkkil şəkil almış və bütün sahələrdə mexanikləşdirmə və elektrikləşdirmə işləri başa çatdırılmışdır. 7-8 milyard pud duz ehtiyatı olduğu hesablanıb qurtarmışdır... Yaxın gələcəkdə mədənlər Zaqafqaziya respublikalarının və yaxın qonşu ölkələrin sifarişlərini ödəyəcəkdir" [207, s. 94-95].

30-cu illərdə muxtar respublikanın iqtisadiyyatında duz sənayesi mühüm yer tuturdu, lakin duza böyük ehtiyacın olmaması üzündən həmin illərdə duz mədəninin istismarı dayandırılmışdı.

Naxçıvan duz mədənində istehsal olunan duzun keyfiyyətinə də xüsusi diqqət verilirdi. Bunun üçün duzun yuyulmasını təşkil etmək tələb olunurdu. Bu məqsədlə Bozbaşı stansiyasında 25 hovuz tikilmiş, sudartan vasitəsilə hovuzlara su vurulmuş, hər il göllərdə 87 ton duzun yuyulması təmin edilmişdi [192, s. 46].

Muxtar respublika sənayesinin əhəmiyyətli sahələrindən biri də sayı 80-85-ə çatan kustar pambıq təmizləmə emalatxanalarının birləşdirilməsi əsasında yaradılmış Naxçıvan və Şərur (Noraşen) pambıqtəmizləmə zavodları idi. Tikintisinə 1924-cü

ildə başlanmış hər iki zavod 1926-cı ildə istismara verilmişdi. İki zavod birlikdə ildə 500 min pud istehsal gücünə malik idi, lakin xammal çatışmazlığı üzündən zavodlar ildə yalnız 6 ay fəaliyyət göstərirdi. Belə ki, muxtar respublikada istehsal olunan xammal həmin müəssisələri il boyu təmin edə bilmirdi. Azərbaycanın digər yerlərindən xammal daşıyıb gətirmək isə yol uzaq olduğu üçün iqtisadi cəhətdən əlverişli deyildi [192, s. 46].

Dağılmış şəhər və kəndləri, müəssisələri, yolları, körpüləri bərpa etdirmək üçün tikinti materialları sənayesinin yaradılmasına böyük ehtiyac duyulurdu. 1925-ci ildə istifadəyə verilmiş Naxçıvan kərpic zavodu ildə 3 milyon ədəd kərpic buraxmaq gücünə malik idi. Zavod hər kamerası 9 mindən 12 min ədədə qədər kərpic tutan 16 kameralı Qofman sobası ilə təchiz edildi [154, v. 9]. Naxçıvan gəc zavodu 1925-ci ildə 1200 pud məhsul istehsalı gücünə malik idi. 1925-ci ildə, həmçinin Şahtaxtı, Ordubad gəc, əhəng və kərpic zavodları tikilib istifadəyə verildi. Tikinti materialları istehsalını genişləndirmək məqsədi ilə Şərur, Naxçıvan və Culfa ərazilərindəki tuf daşları karxanalarından istifadə edilməsi üçün də tədbirlər görüldü. 1930-cu ildə Naxçıvan Xalq Komissarları Sovetinin qərarı ilə inşasına başlanmış, ildə 4,5 milyon kərpic istehsal edən iki nömrəli Naxçıvan kərpic zavodu 1931-ci ildə istismara verildi. Tikintisinə hələ 1910-cu ildə başlanmış əhəng zavodu yenidən quruldu və onun illik istehsal gücü 50 min puta çatdırıldı [192, s. 46].

Naxçıvan MR sənayesinin digər mühüm sahəsi Ordubad meyvə-konserv zavodu idi. Tikintisinə 1927-ci ildə başlanmış zavod 1929-cu il iyulun 15-də istifadəyə verilmişdi. Zavod 1929-cu ildə 233 ton, 1930-cu ildə isə 823 ton məhsul qəbul etmişdi. 1931-ci ildən etibarən zavod əhalidən meyvə tədarük etmək üçün əvvəlcədən müqavilələr bağlamağa başladı. Nəticədə meyvə tədarükü planı 1931-ci ildə 1087 tona çatdırıldı, 1 milyon 829 min ədəd şərti banka istehsal edildi [154, v. 11]. Lakin yolların abad olmaması və nəqliyyat vasitələrinin azlığı, dəmir yolundan uzaqda yerləşməsi, istehsalın yarım kustar formada təşkili, ixtisaslı kadrların olmaması və digər səbəblər zavodun fəaliyyətinin genişləndirməsinə mane olurdu. Zavodun mövsümi fəaliyyət göstərməsi, yəni mayın 15-dən dekabrın 15-nə kimi işləməsi də istehsal və tədarük planlarını artırmağa, daha çox işçi qüvvəsini istehsalata cəlb etməyə imkan vermirdi.

Ordubad meyvə-konserv zavodunun illik istehsal gücünü 3,4 milyon bankadan 10 milyon bankaya çatdırmaq üçün 1935-ci ilə qədər 1 milyon manat vəsait sərf olunmuşdu. Eyni zamanda zavodu sabit qaydada xammal ilə təchiz etmək üçün Ordubadda meyvəçiliyin inkişaf etdirilməsi yönündə yenə tədbirlər həyata keçirilmişdi. Bunlarla bərabər, muxtar respublikada tütün, şirniyyat fabriklərinin, yağ, sabun, pivə, limonad, iki şərab zavodu və ət kombinatının istifadəyə verilməsi sənayenin inkişafına öz təsirini göstərmişdi.

Yeyinti sənayesinin digər mühüm sahəsini şərabçılıq təşkil edirdi. İlk vaxtlar

Naxçıvan kənd təsərrüfatı şirkəti kəndlilərdən tədarük yolu ilə spirt və şərab alırdı. 1928-ci ildə Naxçıvan şəhərində istifadəyə verilmiş kiçik şərab zavodu 1931-ci ildə genişləndirilərək şərab kombinatına çevrildi. Şərab kombinatının fəaliyyəti bütövlükdə üzümçülük təsərrüfatının inkişafına müsbət təsir göstərdi. Belə ki, 1932-ci ildə üzümlüklərin sahəsi 1442 hektara çatdırıldı.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti 1930-cu il iyulun 28-də Naxçıvan MSSR-in 10 illik yubileyi ilə əlaqədar qəbul etdiyi qərarla Naxçıvan şəhərində pambıq-parça istehsalını artırdı. Qərarla bağlı olaraq, Ordubad konserv zavodunda yenidənqurma və genişləndirmə işləri aparıldı, duz üyütmə kombinatı tikildi, həmçinin Ordubadda ipək fabrikləri yeni avadanlıqla təmin edildi. Bütün bunlarla bərabər, muxtar respublikada yerli sənayeni inkişaf etdirmək məqsədi ilə, duz, limonad, ağacyonma, mexanikləşdirilmiş dəyirman müəssisələrinin yaradılması da nəzərdə tutulmuşdu [207, s. 113].

Bu illərdə qadınları istehsalata cəlb etmək məqsədi ilə kustar sənayeni inkişaf etdirməyə böyük əhəmiyyət verilirdi. Hər biri 300 nəfər qadını işlə təmin etmək şərti ilə Ordubad şəhərində corab-kəlağayı, trikotaj, Şərurda isə ağ alt paltarı, döşək ağları istehsal edən fabriklər hələ birinci beşillikdə təhvil verilmiş müəssisələr sırasında idi.

Muxtar respublikada abadlıq işlərinə diqqəti artırmaq, sovetliklər ilə rayon mərkəzləri, rayonlar və iri kəndlərlə Naxçıvan şəhəri arasında şose yolları salmaq, rabitə xətləri çəkmək, Naxçıvan, Ordubad, Culfa şəhərlərində fəhlələr üçün yaşayış binaları tikmək, əhaliyə göstərilən ticarət xidmətini yaxşılaşdırmaq kimi məsələlər də qarşıda durur və həllini gözləyirdi.

30-cu illərdə muxtar respublikada sənayenin inkişaf etdirilməsində dəmiryolu çəkilişi başlıca yer tutmuşdu. Culfa-Ələt dəmiryolunun çəkilişinin başa çatdırılması muxtar respublikanın iqtisadiyyatında çox mühüm əhəmiyyətli bir hadisə olmalı idi. Çünki Tiflis-Yerevan, Naxçıvan-Culfa dəmiryolu, əsasən, ümumittifaq və beynəlxalq əhəmiyyətli olduğuna görə muxtar respublikanın ehtiyaclarını təbii idi ki, tam ödəyə bilmirdi. Bu baxımdan Culfa-Ələt dəmiryolu muxtar respublika ilə Bakını birləşdirən ən qısa yol ola bilərdi. 1941-ci ildə Bakı-Ələt-Culfa dəmiryolu çəkilişinin başa çatdırılması muxtar respublika üçün həqiqətən çox böyük iqtisadi, sosial və mədəni əhəmiyyətə malik oldu. Digər tərəfdən, Naxçıvan MSSR daxilində də dəmiryolu çəkilişini sürətləndirmək tələb olunurdu. Culfadan Ordubada qədər yolun çəkilişinə böyük hazırlıq işləri görülmüşdü.

İkinci dünya müharibəsinə qədərki illərdə muxtar respublika zəhmətkeş - lərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün yeni yaşayış binaları, məktəblər, xəstəxanalar, tibb məntəqələri, aşxanalar, mədəniyyət ocaqları tikintisinə böyük əhəmiyyət verilmişdi. Məhz həmin illərdə Naxçıvan, Ordubad və Culfa şəhərlərini mədəni şəhərlərə çevirmək tələbləri irəli sürülmüşdü. Bu məqsədlə 1935-ci ildə Naxçıvan şəhərinə 12 km uzunluğunda su kəməri çəkilmiş, Naxçıvançay üzərində

körpü tikilmiş, şəhərdə kanalizasiya xətləri inşa edilmiş, mehmanxana, camaşırxana, yanğından mühafizə binaları istifadəyə verilmişdir.

20-30-cu illərdə muxtar respublikanın elektrikləşdirilməsi sahəsində də müəyyən işlər görülmüşdü. Naxçıvan duz mədənlərində, Şərur (Noraşen) pambıqtəmizləmə zavodunda elektrik stansiyaları istifadəyə verilmiş, Naxçıvan, Ordubad, Culfa şəhərlərində məişət əhəmiyyətli stansiyalar qurulmuşdu. 1932-ci ildə muxtar respublikada elektrik stansiyalarının gücü 350 kvt-a çatdırılmış, sonrakı illərdə Naxçıvan çay, Arpaçay və Vənəndçay üzərində elektrik stansiyaları inşa edilmişdi.

Muxtar respublikada şose yollarının çəkilişinə və abadlaşdırılmasına da xüsusi diqqət yetirilirdi. Təkcə 1933-1937-ci illərdə dövlət vəsaiti və əhalinin səfərbərliyi ilə 232 km şose yolları salınmışdı. Ümumilikdə Naxçıvan Muxtar Respublikanın şəhər və kəndlərinə çəkilmiş yolların uzunluğu 430 km-dən çox idi.

Muxtar respublikanın yeraltı sərvətlərini aşkara çıxarmaq sahəsində böyük işlər görülmüşdü. Belə ki, Ordubad dağlarında geoloji-kəşfiyyat işləri genişləndirilmiş, dəmir, molibden, mis, mərmər, kükürd, gümüş, qızıl və s. yataqlar aşkar edilmişdi.

Beləliklə, sovet hakimiyyətinin ilk 20-30-cu illərində Naxçıvanda həm kənd təsərrüfatı sahəsində, həm də sənayedə müəyyən irəliləyişlər əldə edilmiş, sənaye bazasını genişləndirmək, müasir avadanlıqla təchiz etmək sahəsində ciddi addımlar atılmışdı.

6. Naxçıvanda kollektivləşdirmə tədbirləri

Naxçıvanda sovet hakimiyyətinin ilk illərindən başlayaraq kənd təsərrüfatı güclü tənəzzülə uğradı, əkin sahələrinin böyük hissəsi istifadəsiz qaldı, pambıq istehsalı üç dəfə azaldı. 1920-ci il mayın 5-də, habelə avqustun 17-də Azərbaycan İnqilab Komitəsinin dekretlərinə əsasən, əhaliyə, o cümlədən bəylərə, mülkədarlara məxsus olan torpaqlar onların əlindən alınaraq kollektivləşmə istiqamətində ilk addımlar atıldı. İri torpaq sahiblərinin mülkiyyəti hesabına həyata keçirilən kollektivləşmə siyasətindən narazı olanların sayı günü-gündən artırdı. Akademik Ziya Bünyadovun sözləri ilə desək, siftə-siftə torpaq kəndlilərə paylandı, kəndlilər də yavaş-yavaş dirçəlib insan kimi dolanıb yaşadılar. Lakin çox keçmədi, Şura hökuməti ortaya kolxoz məsələsini saldı və tezliklə "elliklə kolxoza könüllü-məcburi girmək" məsələsi çıxdı. "Avam və gələcəyin bəxtəvərliyini başa düşməyən" kəndlilər isə torpağı qaytarmağa və kolxozlara girməyə heç də tələsmirdilər. Kolxozlara yalnız lüt və işləmək istəməyən kəndlilər həvəslə girirdi. İşləmək həvəsində olmayan tənbəl kəndlilərin əksəriyyəti tezliklə firqəyə daxil olub, kəndlərdə məsul vəzifələr tutub bellərinə tapança bağladılar və zəhmətkeş kəndlilərin başına elə oyun açdılar ki, gəl görəsən... Elə həmin vaxt kolxoza girmək istəməyənlərin siyahıları tutulur və Baş Siyasi İdarənin sərəncamına göndərilirdi [53, s. 33].

Zorakılıqla aparılan siyasət sovet Azərbaycanının artıq imperiyanın totalitar

ağuşuna düşdüyündən xəbər verirdi. Çünki Azərbaycan hökuməti formal olaraq müstəqil olsa da, əslində mərkəzin diktə etdiyi siyasəti yerinə yetirmək məcburiyyətində idi. Azərbaycan hökuməti təsərrüfat kollektivlərinin təşkili işini planlı qaydada həyata keçirməyə çalışırdı. Bu məqsədlə 1920-ci ilin avqustunda Azərbaycan SSR Xalq Torpaq Komissarlığının nəzdində kolxozlar və sovxozlar şöbəsi yaradıldı. Kolxozlar sahəsində bilavasitə sovet quruculuğu tədbirlərini həyata keçirmək məqsədilə, bütün qəzalarda torpaq şöbələri nəzdində həmin şöbənin rəyasət heyəti üzvlərindən bir nəfərinin rəhbərliyi altında xüsusi kolxozlar stolu təşkil edildi. Sovxozların işini qaydaya salmaq məqsədilə sovxoz quruculuğu haqqında müvəqqəti əsasnamə verildi, hər bir sovxoz üçün təxmini işçi ştatları müəyyən edildi və maliyyə vəsaiti buraxıldı [91, s. 53].

Partiyanın bu istiqamətdə həyata keçirdiyi tədbirlərə baxmayaraq, 1920-ci illərin əvvəllərində SSRİ məkanında, o cümlədən Azərbaycanda kollektivləşmə siyasəti özünün uğurlu nəticəsini tapmadı. Naxçıvanda isə bu proses bir qədər gec başlandı. Ona görə ki, Naxçıvanın sovetləşdirilməsi prosesi də Azərbaycanın digər bölgələri ilə müqayisədə bir qədər gecikmişdi. 1920-ci illərin birinci yarısında Naxçıvanda kollektivləşmənin inkişafına mane olan səbəblərdən biri kəndlilərin qəbul edilmiş qərar və qətnamələri deyil, iri mülk sahiblərini dəstəkləməsi idi. Təbii ki, bütün bunlar sovet hökumətinin zor gücünə həyata keçirmək istədiyi kollektivləşmə siyasətinin mahiyyətini yaxşı dərk etməyən savadsız kəndlinin özünə də baha başa gəlirdi. Çünki o illərdə sovet hökumətinin mərkəzdə və əyalətlərdə həyata keçirmək istədiyi islahat və ideyaların əsas icraçıları partiya işçiləri ilə yanaşı, həm də hüquq-mühafizə orqanları idi. Həmin illərdə "qolçomaq" və ya "qolçomaq quyruğu" kimi cəzalandırılanlar arasında ictimai şüur etibarı ilə olduqca aşağı olan kəndlilər də az olmamışdır.

Maddi vəziyyəti bir qədər yaxşı olan hər hansı bir kəndli asanlıqla qolçomaq və ya bandit adlandırılırdı. Sovet hüquq-mühafizə orqanlarının (hətta mətbuatının) ciddi araşdırmalar aparmadan kolxozun və ya sovxozun nə demək olduğunun mahiyyətini öyrənməyə çalışan adamları antikolxoz və ya antisovet təbliğatı aparmaqda ittiham edərək həbs etmək və ya sürgünə göndərmək əhalinin ciddi narazılığına səbəb olmaya bilməzdi.

1920-ci illərdə Naxçıvanda elə bir tayfa tapılmazdı ki, onların üzvlərindən kimsə sovet hüquq-mühafizə orqanları tərəfindən cəzalandırılmasın. V.İ.Lenin göstərirdi ki, "qolçomaqlar başqa ölkələrin tarixində mülkədarların, çarların, keşişlərin və kapitalistlərin hakimiyyətlərini dəfələrlə bərpa etmiş olan ən yırtıcı, ən kobud və ən vəhşi istismarçılardır" [108, s. 28, 43]. Proletariatın rəhbərinin bu vəsiyyətinə sədaqətlə xidmət edən hüquq-mühafizə orqanları elə bu prinsiplərdən çıxış edərək əhalinin varlı təbəqəsini bir sinif kimi məhv edirdi. Bir sözlə, bolşeviklər qolçomaqlara xırda burjua əksinqilabının əsas qüvvəsi və ya onun tərəfdarı, təəssübkeşi kimi baxırdı.

Şişirdilmiş və havadan götürülmüş rəqəmlər və faktlar vasitəsilə kollektiv təsərrüfatların üstünlükləri uzun illər boyu təbliğ olundu, hərbi qaydada süni yollarla kollektivləşmənin sürəti artırıldı. Bu dövrdə bütün vergilərin 60 faizi qolçomaqların üzərinə qoyulmuşdu [33, v. 2-3]. Beləliklə, kollektivləşmə prosesi geniş vüsət aldı. Əgər 1928-ci ilin sonunda Naxçıvan Muxtar Respublikasında 580 təsərrüfatı birləşdirən 20 kolxoz var idisə, bir il sonra bu rəqəm müvafiq olaraq 790 və 36 olmuşdu [33, v. 6]. Bundan əlavə kağız üzərində yaradılmış, bir neçə təsərrüfatdan ibarət kiçik kolxozlar da var idı.

1921-ci ilin payızında Naxçıvanda "qolçomaqlarsız və başqa istismarçılarsız zəhmətkeş sovetləri təşkil etmək" şüarı altında sovetlərə seçkilər keçirildi. Qolçomaqları və digər varlıları sovetlərə seçkilərdən kənarlaşdırmağa və ya sıxışdırmağa çalışdıqlarına görə Nehrəm, Əbrəqunus, Keçili, Qarabağlar, Aza və başqa yerlərdə sovet hökumətinə qarşı müqavimətlər də güclənməyə başlayırdı. Bütün bunlar kənd təsərrüfatı sahəsində sovet hökumətinin həyata keçirmək istədiyi kollektivləşmə siyasətinin 1926-27-ci illərə qədər Naxçıvanda çox ləng getməsinə səbəb oldu. Aparılan təhlil göstərir ki, 1927-ci ilə qədərki kollektivləşmə siyasəti sovet hökumətinin ortaya atdığı və uğurla həll edə bilmədiyi bir siyasət idi.

Naxçıvan İnqilab Komitəsi 1921-ci ilin noyabrında Naxçıvanda mülkədar, xan, bəy və xəzinə torpaqlarının müsadirə edilib zəhmətkeş kəndlilərə paylanması haqqında dekret vermişdi. Həmin dekretə əsasən, iri torpaq sahiblərindən Kəngərlinskilərin 59,117 desyatin, Xan Naxçıvanskilərin 38,507 desyatin, Kərbəlayı Əlixanovun 28,618 desyatin, Səfiyevlərin 5,543 desyatin, Sultanovların 2,521 desyatin, Şahin Gərayın (Şahin Girey – ***red.***) 2,500 desyatin, Tərxanovun 1,515 desyatin, Yelizarovların 1,105 desyatin və başqalarının torpaq sahələri müsadirə edilib milliləşdirilmişdi. Naxçıvanda sovet hakimiyyətinin qələbəsinə qədər ümumi torpaq sahəsi 508.208 desyatinə bərabər idi. Bu torpaq sahəsinin 92,1 faizi mülkədar, bəy, xan, xəzinə və məscidlərə məxsus idi, yalnız 7,9 faizi (40, 405 desyatin) kəndli torpaqları sayılırdı. 1630 kəndli ailəsi torpaqdan, 8714 ailə isə canlı və cansız kənd təsərrüfatı avadanlığı və alətlərindən məhrum edilmişdi [158, s. 8]. 1917-ci ilin əvvəllərində hər kəndli ailəsinə orta hesabla Ordubad qəzasında 0,19 desyatin, Şərur-Dərələyəz qəzasında isə 0,11 desyatin suvarılan torpaq sahəsi düşürdü. Kənd təsərrüfatında yaranmış acınacaqlı vəziyyət özünü maldarlıqda daha aydın göstərməkdə idi. Belə ki, 1921-ci ildə 1916-cı ilə nisbətən qaramalın sayı 37,8 mindən 27,2 minə, davarların sayı isə 111,3 mindən 72 minə enmişdi [169, s. 59].

Bütün ölkədə olduğu kimi, Naxçıvanda da yeni iqtisadi siyasətə keçməklə kənd təsərrüfatında müəyyən irəliləyiş və sabitlik yaranmışdı. Təkcə bunu göstərmək kifayətdir ki, 1928-ci ildə mal-qaranın sayı 1921-ci ilə nisbətən 10 min artaraq 37,7 minə, davarların sayı isə 3,5 dəfə artaraq 259,2 minə çatmışdı [169, s. 59-60].

1929-cu ildən etibarən Naxçıvanda kollektivləşmə özünün yeni mərhələsinə

qədəm qoydu. Lakin bu yeni mərhələyə gəlib çıxmaq üçün çox ciddi təqiblər və təzyiqlər olmuşdu. Naxçıvan mərkəzdən uzaq, əyalət olduğuna görə həmişə tənqid atəşinə tutulur və orada heç kimin özünütənqidlə məşğul olmamasını xüsusi vurğulayırdılar. Qeyd olunurdu ki, Naxçıvan şəxsi tənqiddən kənarda qalmış, hətta şəxsi tənqidin adını eşitməmiş bir ölkədir.

Siyasi hazırlıq üzrə inspektor Tokarev Zaqafqaziya Dövlət Siyasi İdarəsinin 41-ci sərhəd dəstəsinin rəisinə ünvanladığı məruzədə göstərirdi ki, Naxçıvanda "heç bir ictimai təşkilat yoxdur, nə partiya, nə də komsomol özəkləri yoxdur. Kənddə ən güclü təsir və rəhbərlik yalnız mülkədarlara məxsusdur. Sovet hakimiyyəti yalnız hüquqi cəhətdən mövcuddur. Kənd sovetləri yalnız gözə pərdə asmaq üçündür. Bu pərdə arxasında isə qolçomaqlıq öz işini və fəaliyyətini davam etdirir. Çoxlu qolçomaq səsvermə hüququndan məhrum edilməyib, əhali arasında heç bir iş aparılmır. Sinfi mübarizə və qolçomaqlığın bir sinif kimi ləğv edilməsi barədə partiya və sovet hakimiyyətinin tədbirləri barəsində nəinki əhali, həmçinin komsomolçular da heç bir təsəvvürə malik deyildilər".

Bunlar ilk baxışdan irad təsiri bağışlasa da, əslində ittiham idi. Belə ki, qolçomaq kimi tanınan Şərur rayonunun Tumaslı kənd sakini Vəli Əliyev Kərbəlayi Bayram və Padar uşaqları ilə birləşərək guya şura təsərrüfatlarından öz şəxsi mənfəətləri üçün istifadə etdiklərindən ciddi cəzalandırılmışdılar. Dövrü mətbuatda çıxan yazılarda Naxçıvanda fəaliyyət göstərən qolçomaqlar və qolçomaq quyruqları tənqid edilir və rəhbərlik qarşısında belə bir tələb qoyulurdu ki, "şəxsi tənqidin girə bilmədiyi Naxçıvan təşkilatlarının başısoyuqluğunu müalicə etməlidirlər". Təbii ki, bu "müalicəni" aparanlar isə həkimlər yox, hüquq-mühafizə orqanları idi.

1920-ci illərin əvvəllərində Azərbaycanda həyata keçirilən kollektivləşmə siyasəti uğurla nəticələnməsə də, bu istiqamətdə aparılan işlər də dayandırılmadı. Naxçıvanda kollektiv təsərrüfatı yaratmağın belə uğursuz nəticələnməsinin əsas səbəblərindən biri bəylərin və böyük mülk sahiblərinin hələ güclü olması və torpağı öz inhisarlarında saxlaya bilməsi ilə bağlı idi. Bəzi mülkədarlar əllərində olan torpağı qoruyub saxlamaq, milli burjuaziyanı inkişaf etdirmək məqsədi ilə sovet-totalitar rejimindən yaxa qurtarmaq və imperiyanın sərt, total mühakimələrinə məruz qalmamaq üçün müxtəlif qiyafələrə girərək özlərini sovet hökumətinin dostu kimi qələmə verməyə çalışırdılar.

Bolşeviklər sosialist inkişaf yolunu milyonlarla kəndli kütlələrinin həyati mənafeyinə uyğun olan yeganə düzgün yol hesab etdiklərindən bu istiqamətdə mübarizələrini dayandırmırdılar. Təbliğat mexanizmi elə qurulmuşdu ki, onlar öz uğursuzluqlarını gizlədərək bu işin müvəffəqiyyətlə aparılmasından danışırdılar. Burada məqsəd onları sosializm süfrəsinin başına gətirmək, marksçı, leninçi etməkdən ibarət idi [101, s. 86-87].

Bolşeviklər hakimiyyətlərinin ilk illərindən yoxsulluğa qarşı deyil, ortabablara və qolçomaqlara qarşı mübarizə aparmağa başladılar. "Yoxsulluq proletariatın yol

yoldaşıdır", – deyən Lenin kasıbları varlıların səviyyəsinə qaldırmadı, əksinə, varlıları yoxsulların səviyyəsinə endirdi.

Sovet hakimiyyətinin ilk illərində kollektivləşməyə əngəl olan qüvvələrlə mübarizə aparmaq bir qədər çətin idi. Əvvəla ona görə ki, dövlət özü iqtisadi cəhətdən çox zəif idi. Ona görə də o, varlılardan və ortabablardan istifadə etməyə məcbur idi və 20-ci illərin əvvələrində həmin mülkədarları, bəyləri qolçomaq və ya qolçomaq quyruğu elan etməyə o qədər də meyilli deyildilər. Lakin bütün bunlara baxmayaraq, bolşeviklər mülkədar torpaq sahibliyinin ləğvi istiqamətində də müəyyən addımlar atmağa başladılar. Bu siyasəti təkidlə həyata keçirməyə çalışan sosializm quruculari kapitalizmlə bağlı olan nə vardısa onu ya məhv etmək, ya da sosialist qiyafəsinə bürüyüb yeni bir şey kimi təqdim etməyə çalışırdı. Ona görə də sovet hökuməti mülkədar torpaq sahibliyini ləğv etməyə çalışırdı ki, bu da uğursuzluqla nəticələndi. İqtisadi cəhətdən heç bir elmi əsası olmayan, tələsik yaradılmış kollektiv təsərrüfatlar az bir zamanda dağıldı. Məsələn, 1922-ci ildə respublikada 2678 təsərrüfatı birləşdirən 132 kommuna, 46 artel var idisə, bu rəqəm 1924-cü ildə 20 kollektiv təsərrüfata enmişdi [191, s. 59].

Naxçıvanda zorakılıqla həyata keçirilən kollektivləşməni şərti olaraq 3 dövrə bölmək olar: 1) 1921-1928-ci illəri əhatə edir. Bu dövrdə Naxçıvanda kollektivləşmə o qədər də aydın olmayan, enişli-yoxuşlu bir yol keçir. Kollektivləşmə və kolxoz-laşma, sovxozlaşma biri-birinə mane olan səhv siyasət kimi axıradək özünü büruzə verir; 2) 1928-1930-cu illəri əhatə edir. Kollektivləşməyə qarşı etirazlar bu dövrdə daha da güclənir, kütləviləşir və Naxçıvanda üsyan ilə başa çatır; 3) 1930-1940-cı ili əhatə edir. Bu dövrdə sovet hökuməti kollektivləşməyə qarşı etirazlara siyasi repressiyalarla cavab verirdi [84, s. 261].

Əvvəlki dövrlərdə olduğu kimi, bu dövrdə də kollektivləşmə siyasəti dövlət səviyyəsində zor tətbiq etməklə qismən həyata keçirilirdi. Ona görə də bu siyasət "zorakılıqla kollektivləşmə" adlanır. 1920-1930-cu illərin totalitar rejimi kollek-tivləşməni, kolxozlaşma və sovxozlaşmanı reallaşdırmaq üçün milyonlarla sovet adamını məhv etmişdi.

Hər üç dövrdə də cəzalandırma tətbiq edilirdi. Birinci dövrdə 1-2 ay müddətinə həbsxanada saxlamaq, səsini almaq, cərimələmək; ikinci dövrdə müxtəlif müddətdə həbslər, kütləvi sürgün; üçüncü dövrdə isə məhv etmə və güllələmə daha çox üstünlük təşkil edirdi. ÜİK (b) P Mərkəzi Komitəsinin 1937-ci ilin mart plenumunda çıxış edən Stalin göstərirdi ki, indi biz 10 il bundan əvvəlki kimi mübarizə apara bilmərik, indi məhv etmə metoduna keçmək lazımdır [94].

Aparılmış təhlillər göstərir ki, kollektivləşmə bu mərhələlərin hamısında heç də eyni dərəcədə inkişaf etməmişdi. Bolşeviklər kollektiv təsərrüfatı genişləndirmək siyasətini o qədər kəskin şəkildə qoymuşdular ki, hətta həbsxanalarda, islah əmək düşərgələrində belə emalatxanaların, artellərin yaradılması göstərişi verilmişdi. Bu göstərişə uyğun olaraq Naxçıvan diyarı üzrə islah evlərində pambıqçılığı

inkişaf etdirmək məqsədilə bir artel, duz çıxarılması üzrə karxanada işləməkdən və duzun yüklənməsindən ötrü ikinci artel yaradıldı [160, s. 262].

Qolçomaqlığın bir sinif kimi ləğvi 20-ci illərin sonu – 30-cu illərin əvvəllərində günün aktual məsələsi idi: "Bütün ölkə miqyasında qolçomaqlara qarşı mübarizə üç istiqamətdə aparılırdı. Birinciyə antisovet, antikommunist, əksinqilabi aktiv" daxil idi. Belələrinin ailə başçısı həbs olunub güllələnir, ailə üzvləri isə Sibirə, yaxud Orta Asiyaya sürgün edilirdi. İkincisi, kolxoz hərəkatına qarşı çıxış edən varlı kəndlilər ailəsi ilə birlikdə yenə də həmin yerlərə göndərilirdi. Kəndlilərin digər şübhəli qismi isə respublikanın daxilində xüsusi yaşayış düşərgələrində saxlanılırdı" [82, s. 114].

ÜK(b)P MK-nın 1929-cu il noyabr plenumunda kolxozlaşdırmanı sürətləndirmək məqsədi ilə 25 min fəhlənin kəndə göndərilməsi qərara alınmışdı. Ona görə də bu fəhlələri "iyirmibeşminçilər" adlandırırdılar.

Aktiv fəhlələrdən seçərək onlara iki həftəlik xüsusi kurslar keçir və kəndlərə göndərirdilər. Bu fəhlələr kəndlilərə kömək adı altında həm də qolçomaqlara nifrət hissi aşılayırdılar. 24 yanvar 1930-cu ildə "iyirmibeşminçilər"ə müraciətlə yazılırdı ki, qolçomaqlarla ölüm-dirim mübarizəsi aparın. Bizim üç dəfə lənətə gəlmiş əsrlik düşmənimiz qolçomaqlar sinfinə ölümcül zərbə endirmək lazım gəldikdə, qoy sizin əliniz titrəməsin. Polad kimi sarsılmaz və möhkəm olun. Qolçomaqlara qarşı mübarizəni yumşaltmağa və malalamağa cəhd edənlərə heç bir üz verməyin, onları bağışlamayın... Kolxozda muzdurlardan və yoxsullardan özək yaradın. Kənddə yoxsulların və muzdurların təşkilini genişləndirin. Qolçomaqlarla mübarizə aparmaqda, ortababları qolçomaqların təsiri altından çıxarmaqda onlara kömək edin [110, s. 70].

1930-cu ilin yanvarında iki həftəlik kurs bitirmiş 293 nəfər fəhlə Azərbaycan kəndlərinə göndərilmişdi [101, s. 201]. Həmin fəhlələrdən 56 nəfər Gəncəyə, qırx iki nəfər Salyana, 4 nəfər Lənkərana, 38 nəfər Qarabağa, 30 nəfər Şirvana, 16 nəfər Qubaya, 12 nəfər Zaqatala-Şəkiyə, 17 nəfər Bakıya, 14 nəfər DQMV-ə, 9 nəfər Köybirliyinə, 17 nəfər isə Naxçıvana göndərilmişdi [43, v. 27]. 1930-cu ilin aprelinədək Azərbaycandan müxtəlif yerlərə göndərilən "iyirmibeşminçilər"in sayı 3394 nəfərə çatdırılmışdı [110, s. 70]. Lakin o illərdə ən böyük təbliğat vasitəsi rayon və kəndlərdə keçirilən partiya, komsomol yığıncaqları, yaradılan təbliğat-təşviqat qrupları idi ki, onlar da bir başa "istismarçı sinif" adlandırılanlara qarşı yönəlmişdi. Qolçomağın və mülkədarın bir sinif kimi ləğvinə yönəldilmiş ən kütləvi təbliğat vasitəsi isə dövri mətbuat və radio idi. Həmin illərdə müxbirlərin kolxoz və ya sovxoz quruculuğu ilə bağlı hər bir məqaləsinə partiya, hökumət, o cümlədən hüquq-mühafizə orqanları dərhal reaksiya verirdilər.

ÜİK(b)P MK-nın 5 yanvar 1930-cu il tarixli "Kollektivləşmənin sürəti və kolxoz quruculuğuna dövlət tərəfindən yardım edilməsi tədbirləri haqqında" qərarında təsbitini tapan qolçomaqların bir sinif kimi ləğvi siyasəti onlara qarşı

yönəldilmiş təqib və təzyiqləri daha amansız etdi. Sovet dövründə qolçomağın bir sinif kimi ləğv edilməsi mətbu mənbələrdə aşağıdakı kimi mənalandırılırdı: "Qolçomaqların bir sinif kimi ləğvi siyasəti onların fiziki surətdə məhv edilməsi demək deyildi. Bu siyasətin mahiyyəti qolçomaqları yaşamaq və inkişaf etmək üçün olan istehsal mənbələrindən, yəni torpaqdan, istehsal alətlərindən, icarədən sərbəst istifadə etməkdən, işçi qüvvəsi tutmaqdan məhrum etməkdən ibarət idi" [110, s. 70].

Bu mülahizələrin özündə də qolçomağın və mülkədarın həm fiziki, həm də mənəvi cəhətdən məhvi aydın görünür. Bu siyasətin də sürətini kollektivləşmə siyasətinin sürətinə çatdırmaq məqsədi ilə SSRİ MİK və XKS-nin 1 aprel 1930-cu il tarixli "Elliklə kollektivləşmə rayonlarında kənd təsərrüfatının yenidən qurulması, möhkəmləndirilməsi və qolçomaqlarla mübarizə tədbirləri haqqında" qərarı da qanunvericilik yolu ilə rəsmi şəkilə salındı [85, s. 207]. 1930-cu il yanvarın 16-da SSRİ MİK və XKS-nin "Heyvanların vəhşicəsinə kəsilməsi haqqında" qəbul etdiyi qərar da qolçomaqların bir sinif kimi ləğvinə yönəlmişdi. Qolçomağın və mülkədarın kütləvi surətdə məhv edilməsi üçün sovet təbliğat maşınından da geniş istifadə olunurdu.

Aqrar siyasətin həyata keçirilməsi ilə əlaqədar kəndlidə sovet hökumətinə inam get-gedə azalırdı. Maneələr o qədər güclənmişdi ki, kəndli istehsal etdiyi məhsulu bazara çıxarmaq yox, dövlətə vermək məcburiyyətində qalırdı. Məsələn, kəndli taxılı bazara çıxarmaq üçün aidiyyəti orqanlardan qolçomaq olmadığı barədə arayış almalı idi. Bazara çox taxıl çıxaran kəndli dərhal qolçomaq elan edilir və məhsulu müsadirə olunurdu. 1930-cu il avqustun 11-də Dövlət Siyasi İdarəsinə belə bir göstəriş verildi ki, taxıl alverinə qarşı mübarizəni daha da gücləndirsin. Dövlət Siyasi İdarəsi bu göstərişi rəhbər tutaraq bütün növ məhsulların bazara çıxarılmasına qarşı mübarizə aparırdı. Naxçıvanda taxıl qıtlığı olduğundan qolçomaqların, ortabab kəndlilərin taxılı müsadirə edilirdi. Naxçıvan diyarında yüzlərlə adam taxılı gizlətməkdə müqəssir bilinərək ittiham edilmişdi.

1930-cu illərin sonlarında kollektivləşmədə tütünçülüyün inkişafına xüsusi fikir verilirdi. Tütünçülük sahəsində yüksək nailiyyətlər əldə etmək üçün yarışlar təşkil edilirdi. Yarışlarda qalib gələnlər mükafatlandırıldığı kimi, məğlub olanlar da cəzalandırılırdı. Noraşen (Şərur – ***red.***) rayonunun Yurdçu kolxozunun tütünçüsü Əli Əliyev 1938-ci ildə 4,5 hektar tütün sahəsinin hər hektarından 21,2 sentner məhsul götürmüşdü. Həmin kolxozun manqa başçısı Hüseyn Nuriyev 5 hektar tütün sahəsinin hər hektarından 17,46 sentner məhsul əldə etmişdi. Qıvraq kolxozundan kənd sovetinin sədri Hüseyn Əhmədov 1937-ci ildə 62,5 hektar torpaq sahəsinin hər hektarından 14,14 setner, 1938-ci ildə 62,5 hektarın hər hektarından 14,58 sentner tütün məhsulu götürmüşdü. Doğrudur, bu tipli yarışların təşkili kənd təsərrüfatının inkişafında müəyyən müsbət dəyişikliklərlə nəticələnirdi. Belə yarışlarda axırıncı yerləri tutan kolxoz və ya sovxozların fəhlələrini, onların rəhbərlərini kolxozların inkişafına mane olmaqda ittiham edərək cəzalandırırdılar.

Bəzən həmin kolxozların rəhbərləri işdən çıxarılmaqla canlarını qurtarmırdı, ailəsi ilə birlikdə sürgün edilirdi.

Məsuliyyətə cəlb edilən kolxozçuların və ya kolxoz rəhbərlərinin işlərinə obyektiv baxılmır, onlar kolxoz malına qəsd etməkdə, qolçomaqlarla əlbir olmaqda günahlandırılırdılar. Bu iki fakt XDİK (Xalq Daxili İşlər Komissarı) əməkdaşlarına və hüquq-mühafizə orqanlarına insanları ittiham etməyə əsas verirdi. Hüquq-mühafizə orqanları yarışda məğlub olmağın bir çox hallarda obyektiv və ya subyektiv səbəblərini öyrənmir və istədikləri cəza növünü tətbiq edirdilər. Belə hallarda daha çox sürgünə üstünlük verilirdi. Bunun da vurduğu fiziki və mənəvi zərbələr daha ağır olurdu. Birincisi, kənd təsərrüfatı rayonlarında əhalinin sayı azalır və məhsuldarlıq aşağı düşürdü. İkincisi, onların qohumları da gec-tez belə bir halla üzləşəcəyi qorxusu içərisində yaşayır və bu cəmiyyətə inamı azalırdı.

Qaçaqların tutulması və istintaqın aparılması Azərbaycan Fövqəladə Komissiyasının məxfi əməliyyat şöbəsi əməkdaşları tərəfindən həyata keçirilirdi. Bu səbəbdən fövqəladə üçlüklər ləğv edilsə də, az müddətdən sonra yenidən yaradıldı və öz fəaliyyətini davam etdirdi. 1930-cu ildə Azərbaycan MİK-in qərarı ilə tərkibində Aqrba, Abdulov və Azərbaycan K(b)P yerli rayon katibi olmaqla fövqəladə tədbirlərin görülməsi üzrə üçlük yaradıldı. Fövqəladə üçlüklər sanksiya olmadan da qərar qəbul edə bilirdilər. Azərbaycan DSİ-nin Axtarış və Məxfi Əməliyyat şöbəsinin rəisi Safranovun Azərbaycan K(b)P-yə ünvanladığı məktubda bu məsələlərə belə aydınlıq gətirilirdi: "Azərbaycan DSİ məxfi şöbəsi bildirir ki, Qazaxıstan həbs düşərgəsinə və Sibirə müxtəlif müddətlərə sürgün edilməyə məhkum olunmuşların işləri üzrə Azərbaycan DSİ kollegiyasının qərarı Zaqafqaziya BSİ tərəfindən dərkənarlanır və sonuncunun qərarı qəbul olunur.

Hər hansı əksinqilabi təşkilata, qruplaşmalara aidiyyatı olan şəxslərin, sənayenin bu və ya digər sahəsində ziyankar kimi çalışanların, keçmiş jandarmeriya xidmətçisi olanların və müxtəlif müddətlərə həbs düşərgəsinə, Sibirə sürgün olunmağa və ən ağır cəzaya – güllələnməyə məhkum edilənlərin Azərbaycan Dövlət Siyasi İdarəsinin kollegiyası tərəfindən nəzərdən keçirilmiş işləri isə Zaqafqaziya BSİ vasitəsilə BBSİ (Birləşmiş Baş Siyasi İdarənin) sanksiyası üçün göndərilir. Həmin işlər üzrə Birləşmiş Baş Siyasi İdarənin kollegiyasının hökmü qəti hesab olunur" [10, s. 16].

Azərbaycan DSİ-nin fövqəladə üçlüklərinin qərarına gəldikdə isə bildiririk ki, bu qərarlar qətidir və heç bir sanksiyaya ehtiyacı yoxdur [9, v. 11].

1930-cu illərin repressiv aksiyalarının əsas hökm oxuyanları da DSİ-nin və XDİK-in üçlükləri idi. Ümumiyyətlə, XDİK üçlükləri fövqəladə səlahiyyətlərə malik idilər. Belə ki, Azərbaycan SSR XDİK xüsusi üçlüyü tərəfindən 1937-ci ildə 9 min 241 nəfər məhkum edilmişdi. Bundan başqa, həmin il sərhəd rayonlarından məcburi köçkünlər üsyankar etirazçılardan və digər şəxslərdən 447 ailə Qazaxıstana sürgün edilmişdi. Üçlüklərin çıxardığı qərara əsasən, 1937-ci ildə Naxçıvan MSSR-

dən 2757 nəfər kəndlərdə təxribatçı fəaliyyətlə məşğul olmaq, xarici cinayətkar ünsürlərə xidmət etmək adı altında Qazaxıstana sürgün olunmuşdu. Bundan başqa, Azərbaycan SSR ərazisindən İran və Türkiyədəki cinayətkar təşkilatlarla əlaqə saxlamaq adı altında 96 ailə – 392 nəfər məhz üçlüklərin çıxardığı qərar əsasında sürgün edilmişdir [15, v. 112]. Bütün bunlar göstərir ki, istər Azərbaycan Fövqəladə Komissiyası (FK), istərsə də sonrakı dövrlərdə üçlüklər fövqəladə səlahiyyətlərə malik olmuş və Azərbaycanda istənilən şəxsin güllələnməsində və ya azadlığa buraxılmasında böyük rol oynamışdır.

SSRİ MİK Rəyasət Heyətinin 3 iyul 1931-ci il tarixli "Sürgün edilmiş qolçomaqların vətəndaşlıq hüquqlarının bərpa edilməsi haqqında" [85, s. 210] qərarına əsasən, səsdən məhrum edilmiş və başqa yerlərə sürgün olunmuş qolçomaqların vətəndaşlıq hüququ yalnız beş ildən sonra, aşağıdakı şərtlər daxilində bərpa edilirdi:

a) Onlar işdə sübut etməli idilər ki, sovet hökumətinin, kolxozlarda birləşmiş kəndlilərin və kənd təsərrüfatının tərəqqisinə doğru yönəldilmiş tədbirlərin əleyhinə mübarizə etmirlər;

b) Onlara tapşırılan işi vicdan və namusla həyata keçirirlər və s. [188, s. 190].

Buna baxmayaraq, sürgünə məruz qalan ailələrin böyük əksəriyyəti vətənə qayıda bilmir, qayıdanlar isə 1934-cü ilin pasport rejiminə uyğun olaraq əvvəllər məskunlaşdıqları ərazilərdə bir neçə il müddətinə yaşaya bilmirdilər. Bu da onların yenidən repressiyalara məruz qalması demək idi. Orta Asiyada və ya Sibirdə qalanların isə böyük əksəriyyəti həm dinini, həm dilini, həm də adət-ənənələrini itirmək məcburiyyətində idi. Maraqlıdır ki, bu cür adamlar bir müddətdən sonra genetik kodunu da dəyişməli olurdu. Belə ki, artıq bu dövrdə özgə millətin və özgə dinin nümayəndələri ilə bağlanmış nigahlar da bir müddətdən sonra mənfi təsirini göstərirdi.

1933-cü il aprelin 25-də Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin sədri A.S.Aqrbanın təklifi ilə Azərbaycan K(b)P MK-nın iclası keçirildi və həmin iclasda təsərrüfat və siyasi tədbirlərin qarşısını almağa çalışan qolçomaqların Azərbaycandan sürgün edilməsi məsələsinə baxıldı. Təklifdə göstərilirdi ki, başçıları həbs edilmiş və sürgündə olan, lakin əmək qabiliyyətli kişilərin olduğu qolçomaq ailələri, başçısı həm DSİ, həm də məhkəmə orqanları tərəfindən həbs edilmiş qolçomaq ailələri, keçmişdə antisovet və antikolxoz fəaliyyətinə görə repressiyaya məruz qalmış qolçomaqların köçürülməsi 1933-cü il mayın 10-dan iyunun 1-dək başa çatdırılmalıdır. Bu müddətdə Azərbaycan üzrə 944 ailə köçürülməli idi [85, s. 210]. Bu prosesi rayonlarda icra etmək üçün rayon partiya komitəsinin katibi, DSİ əməkdaşı və Azərbaycan K(b)P MK-nın xüsusi səlahiyyətli nümayəndəsindən ibarət siyasi üçlüklər yaradıldı. Həmin üçlüklər Azərbaycan DSİ tərəfindən çıxarılması məqsədəuyğun hesab edilən qolçomaqların və onların ailələrinin siyahılarına baxmalı, əməliyyatın ümumi gedişinə siyasi təminat verməli, kütləvi təbliğat - təşviqat işi aparmalı idi.

Köçürülən qolçomaqların əmlaklarının müsadirə edilməsi və siyahıya alınması da siyasi üçlüklərin vəzifəsi idi. Qolçomaqların və onların ailələrinin köçürülməsi əməliyyatının icrasında milis qüvvələrindən və DSİ-nin daxili qoşunlarından istifadə edilirdi. Maraqlıdır ki, əməliyyatın normal gedişini təmin etmək üçün siyasi üçlüklərə birinci növbədə ailə başçıları, ikinci növbədə isə ailə üzvlərinin köçürülməsinə dair tapşırıq verilmişdi. Bu da köçürülənlər arasında əlavə problemlər yaradırdı. Belə ki, bəzən ailə üzvləri sürgün olunduqları yerlərdə ailə başçısını tapa bilmirdi.

1930-cu illərin ikinci yarısında Naxçıvandan çoxlu ailə sürgün edilmişdi. Təkcə 1939-cu ildə Şərurdan 7 kəndin əhalisini Qazaxıstanın qarlı-boranlı kəndlərinə sürgün etdilər [62]. Sürgün həyatı əzablı, mənəvi-psixoloji cəhətdən daha ağrılı idi. Hər hansı bir xalqın kütləvi şəkildə sürgün edilməsi, şübhəsiz ki, onun mənəvi-əxlaqi dəyərlərinin də repressiyalara məruz qalması ilə nəticələnirdi.

Sürgünə məhkum edilənlər ağır şəraitdə, tövlələrdə və qamış evlərdə yaşamaqla yanaşı, ən adi hüquqlara da malik deyildilər. 11 yaşından sürgünlüyün ağrılarını yaşayan tanınmış şair Cavad Cavadlı sürgün olunanların qapalı şəraitdə necə yaşamaları və hüquqları barədə yazır: "Yaxınlıqda kənd, qəsəbə olmasından da xəbərsizdik. Olsa da, kənara çıxmağa icazə vermirdilər. Göstərişə tabe olmayan ilk dəfə 50 manat cərimə olunur, bu ikinci dəfə təkrar edilsə, 25 illik həbs cəzası gözlənilirdi". Qafqazdan sürgün olunanlar arasında çoxluğu azərbaycanlılar təşkil edirdi. Bunun əsas səbəbi "Qafqazdan azərbaycanlıları seyrəltmək, onların çoxunun ölümünə səbəb olacaq şərait yaratmaq idi. Bax, Stalinin, onun qulağının dibində əyləşən Mikoyanın arzusu, siyasəti bundan ibarət idi" [54].

30-cu illərdə oxunan hökmlər arasında sürgün digər ittihamlardan daha çox müşahidə olunurdu. 1931-1932-ci ildə Şərur rayonundan 125 nəfər müxtəlif yerlərə sürgün olunmuş və ya Naxçıvandakı təzyiqlərə tab gətirməyərək İrana və ya Türkiyəyə [162, v. 1-3] keçmək məcburiyyətində qalmışdı. Görünür, sovet hökuməti belə bir addımı düşünülmüş surətdə ataraq azsaylı xalqları imperiyanın içində əritməyə çalışırdı.

Kolxozlaşma dövründə minlərlə adam səs vermək hüququndan məhrum edildi və həmin dövrün sənədlərində deyildiyi kimi, onların səsi alındı. Səsi alınmış şəxslər hüquq-mühafizə orqanları tərəfindən şübhəli adamlar kimi nəzarətə götürülür və istənilən vaxt onların həbsi gözlənilirdi. Bir çoxlarının isə səsləri həbs edildikdən sonra məhkəmənin qərarı ilə alınırdı. 1932-ci ildə bəzi adamlar "antisovet təbliğatı apardıqlarına" görə səsvermə hüququndan məhrum edilməklə hər biri 3 il müddətinə azadlıqdan məhrum edilmişdi [158, v. 27;162, v. 27].

Sovet hökuməti kollektivləşməni tam uğurla başa vurmaq üçün yollar arayır və müxtəlif qərarlar qəbul edərək onları həyata keçirməyə çalışırdı. Bütün bu deyilənlər barədə Zaqafqaziya Ölkə Partiya Komitəsinin 10 aprel 1930-cu il, Azərbaycan K(b)P MK Bürosu "Kollektivləşmə işlərində buraxılmış səhvlər

haqqında" qərarında Azərbaycanda, o cümlədən, Naxçıvan Muxtar Respublikasında kolxoz quruculuğu sahəsində buraxılmış səhvləri aradan qaldırmaq üçün tədbirlər müəyyən etmişdi.

Naxçıvan Vilayət Partiya Komitəsinin Rəyasət Heyəti özünün 1930-cu il 1 və 3 may, 16 iyun tarixli iclaslarında yuxarı partiya təşkilatlarının rəhbər göstərişlərini əsas tutaraq onları həyata keçirmək üçün tədbirlər müəyyən etmişdi. Bundan sonra muxtar respublikanın rayon mərkəzlərindəki təşkilat və müəssisələri kolxozları hamiliyə götürdülər. Sovet hakimiyyəti üçün ənənəvi olan tədbirlər - iməciliklər və məhsul bayramları keçirildi. 31 kənddə savadsızlığı ləğv etmə kursları təşkil edildi. 16 kolxozda körpələr evi açıldı. Eyni zamanda, kolxozları kadrlarla təmin etmək məqsədi ilə 75 nəfər üçün iki həftəlik kurs təşkil edildi. Şərur və Naxçıvanda aqrokimya məsləhətləri verən kurslar açıldı və bunlara 250 nəfər yoxsul fərdi təsərrüfatçı və kolxozçu cəlb edildi.

Bütün bu tədbirlər Naxçıvan rəhbərliyinə 1930-cu il oktyabrın 15-dək olan müddətdə "kollektivləşmə və məhsul günü" kampaniyasını keçirməyə imkan verdi. Əhalini yenidən guya nöqsanlardan təmizlənmiş kolxoz quruculuğuna cəlb etmək əməliyyatlarına başlanıldı. 1930-cu ilin avqustundan kolxozların sayının "durmadan" artması barədə verilən məlumatlar da bunu bir daha təsdiq edirdi. Məsələn, 1930-cu il avqustun 1-də muxtar respublikada 2340 təsərrüfatı birləşdirən 62 kolxoz var idisə, dekabrda onların sayı 77-yə çatmışdı. 1931-ci il aprelin sonunda kolxozların sayı artıq 101-ə, onlarda birləşmiş təsərrüfatların sayı isə 3400-ə çatdırılmışdı. 1931-ci ilin sonuna olan məlumata görə Naxçıvan Muxtar Respublikasında kolxozların sayı 161, onlarda birləşmiş təsərrüfatların sayı isə 6234 olmuşdur. Bunlardan da 1151-i pambıqçılıq, 29-u taxılçılıq, 19-u isə heyvandarlıq kolxozları idi. Göründüyü kimi, kollektivləşmə daha çox pambıqçılıq sahəsini, qismən də taxılçılıq və heyvandarlıq sahələrini əhatə etmişdi.

ÜİK(b)P MK-nın və SSRİ Xalq Komissarları Sovetinin 1939-cu ilin 27 may - ında qəbul etdiyi "Kolxozların ictimai torpaqlarını dağılmaqdan mühafizə etmək tədbirləri haqqında" qərarında göstərilirdi ki, kolxozun tarla torpaqlarından kəsilib verilmiş həyətyanı torpaqların uçotu yoxdur. Kolxozçuya köməkçi təsərrüfat kimi verilən həyətyanı sahələr köməkçi təsərrüfat xarakterini itirir və bəzən kolxozçunun əsas gəlir mənbəyinə çevrilir. Kolxozçuların böyük əksəriyyəti kolxoz tarlalarında işləmək əvəzinə vaxtının çoxunu öz şəxsi təsərrüfatına sərf edirlər. Bununla da onlar ictimai əməyin məhsuldarlığının artmasını ləngidir, kolxozlarda əmək intizamını sarsıdır, namuslu kolxozçular arasında pozğunluq salır, bununla da kolxozun inkişafına mane olur [85, s. 211].

Qərarda o da göstərilirdi ki, sovet təşkilatının rəhbərləri kolxozçuları kolxoz qaydalarına ciddi əməl etmək ruhunda tərbiyə etmək əvəzinə, kolxoz quruluşuna düşmən olan xüsusi mülkiyyətçi, burjua nümayəndələrinin kolxozlara soxulmasına cinayətkarcasına arxayınlıqla yanaşırlar: "ÜİK(b)P MK və SSRİ XKS bu cür

praktikanı bolşevizmə yabançı, kökündən opportunist praktika sayaraq, bütün yerli partiya və sovet təşkilatlarından tələb edirlər ki, ictimai kolxoz torpaqlarının dağıdılması və oğurlanması hallarını dərhal aradan qaldırsınlar, həyətyanı sahələrinin, həmçinin qanuni normalarına çatdırsınlar, ictimai kolxoz torpaqlarının toxunulmazlıqları üzərində ən ciddi nəzarət qoysunlar və kolxozlarda qənimətçi və alverçi elementlərin qəti surətdə qarşısını alsınlar".

Kolxoz quruculuğu və ya kollektivləşmə totalitar rejim dövründə sərt qanunlar, ciddi cəzalar tətbiq etməklə həyata keçirilirdi. Belə qanunların qəbul olunması yeni repressiya dalğalarının güclənməsi ilə nəticələnirdi.

Şahbuz rayonunda da bu tarixi qərara ciddi reaksiya verilmiş, 1939-cu il iyulun 1-dən 14-dək rayonda olan 2630 kolxozçu təsərrüfatının 1730-da ölçü prosesi başlanmış və 112 təsərrüfatın həyətyanı torpaq sahəsi ölçülüb qurtarmışdı. Nəticədə, məlum olmuşdu ki, 112 təsərrüfatın istifadəsində 323,54 hektar torpaq varmış ki, bunun 83,28 hektarı artıq torpaq sahələri idi [66].

1920-1930-cu illərdə həyata keçirilən kollektivləşmə siyasəti yoxsul kəndlilər tərəfindən birmənalı qarşılanmamış, bir çox yerlərdə kolxozlaşmaya qarşı etiraz əlaməti olaraq siyasi aksiyalar keçirilmişdi. Bəzi yerlərdə bu aksiyaları dinc yolla, təbliğat vasitəsi ilə yatırmaq mümkün olmuşdursa, bəzi yerlərdə bu aksiyalar üsyanlara çevrilmişdi.

Sovet dövrünün tədqiqatlarında göstərilirdi ki, Azərbaycanda, o cümlədən Naxçıvan MSSR-də kəndli təsərrüfatlarının kollektivləşdirilməsi yüksələn xətlə aparılırdı. Belə ki, Naxçıvan MSSR-də kəndli təsərrüfatları 1928-ci ildə 9,3, 1930-cu ildə 41,5, 1932-ci ildə 87,2, 1937-ci ildə 98,9 və nəhayət, 1940-cı ildə 100 faiz kollektivləşdirilmişdi [168, s. 59]. Lakin müasir tədqiqatlar isə tamamilə bunun əksini deyir: "Ümumiyyətlə, kollektivləşmə ilə bağlı məsələlərin araşdırılması belə bir qəti fikir söyləməyə imkan verir ki, kollektivləşmə siyasəti bolşevik tarixində atılmış ən səhv addım, kollektivləşmə dövrü isə bolşevizm tarixində ən amansız dövr olmuşdur. Bu siyasətlə əsası qoyulan sosialist kənd təsərrüfatının inkişafı problemləri SSRİ-nin dağılmasına qədər həll olunmamış qaldı" [40, v. 152].

Sinfi mübarizə prinsipini əsas tutan kommunist ideologiyasının ən ağır zərbələri ilk növbədə istismarçı ünsürlər sayılan bəylərə, xanlara, iri mülkədarlara, kəngərlilərə, xan naxçıvanskilərə, əlixanovlara, səfiyevlərə, sultanovlara və başqalarına dəydi, torpaqları əllərindən alınıb milliləşdirildi [34, v. 1-5].

7. Naxçıvanda sovet hakimiyyətinə qarşı baş verən üsyanlar

Kommunist rejiminin yeritdiyi antiazərbaycan, antimilli siyasətə etiraz əlaməti olaraq 1920-ci il mayın 26-dan iyunun 20-dək Şəmkir, Lənkəran, Astara, Quba, Qusar, Naxçıvan, Gəncə, Ağdaş, Göyçay, Nuxa, Ağdam, Şuşa, Tərtər və Zaqatalada silahlı üsyanlar baş verdi [192, s. 163]. 1920-ci illərin əvvəllərində

erməni özbaşınalıqlarına mərkəzin laqeyd münasibətinə, kollektivləşmə əleyhinə və Naxçıvanda sovetləşməyə qarşı müqavimət hərəkatı güclü olmuşdur. Belə etiraz aksiyalarından birincisi Cəhri kəndində həyata keçirildi. Belə ki, XI Qırmızı Ordunun Naxçıvandakı özbaşınalıqlarına, talanlarına, əhali ilə sərt rəftarlarına etiraz əlaməti olaraq 1921-ci ilin yanvarın 28-də Cəhrililər qiyam qaldırdılar [87, s. 135]. Bu qiyamın başında türk zabitləri dururdular. Qiyamçılar dairə inqilab komitəsinin, torpaq komitəsinin və ərzaq komitəsinin üzvlərini həbsə aldılar. Onlar Tırkeş və Qızılboğaz məntəqələrində olan əksinqilabçılarla birləşib Naxçıvan şəhəri üzərinə yeriməyi nəzərdə tuturdular [109, s. 96].

Üsyançılar qısa müddətə də olsa, Cəhridə sovet hakimiyyətini devirə bildilər. Onların planları daha geniş idi və çalışırdılar ki, qiyamın coğrafiyası getdikcə genişlənsin və bu işə bütövlükdə Naxçıvan bölgəsi qoşulsun. Bu məqsədlə onlar Naxçıvanda olan türklərlə də danışıqlar aparmış və razılaşmışdılar ki, etiraz aksiyaları başlandığı təqdirdə türklər də onlara qoşulacaq və qüvvələrini birləşdirərək bolşevik hakimiyyətinə son qoyacaqlar. Qiyamın daha da genişlənəcəyindən qorxuya düşən bolşeviklər, xüsusilə də Qırmızı Ordunun və Fövqəladə Komissiyanın gördüyü tədbirlər nəticəsində onun qarşısı silahla alındı və qiyam yatırıldıqdan sonra onlarla qiyamçı Naxçıvanın hüquq-mühafizə orqanları tərəfindən həbs edildi.

Qiyamın yatırılması müvəqqəti olaraq müqavimət hərəkatını sakitləşdirsə də, onu bütövlükdə dayandıra bilmədi. Naxçıvanın müxtəlif yerlərində qısa müddətli və qeyri-kütləvi də olsa etiraz aksiyaları baş verdi. Lakin Cəhri hadisələrinin davamı 1921-ci ilin fevralın 18-də Qaraçuq və Tırkeş kəndlərində oldu [87, s. 135]. Bu dəfə qiyamçılar yalnız türklərə deyil, eyni zamanda bolşevik təqiblərindən qorunmaq üçün İranda mühacirətdə olan dəstələrə də ümid bəsləyirdilər. Maraqlıdır ki, qiyam zamanı sovet hərbi hissələrində olan qüvvələrin də bir qismi qiyamçıların tərəfinə keçmişdilər. Bütün qüvvələrini səfərbər edən sovet hərbi birləşmələri və xüsusi xidmət orqanlarının silahlı dəstələri Qaraçuq qiyamını yatıra bilsələr də, Tırkeşdə bunu bir müddət edə bilmədilər. Naxçıvan Diyar Partiya Komitəsi, İnqilab Komitəsi, Naxçıvan Fövqəladə Komissiyası və Qırmızı Ordunun komandanlığı mühasirəyə alınmış, qırmızı döyüşçülərə yardım etmək çağrışı ilə ölkənin bütün zəhmətkeşlərinə müraciət etdilər. Kommunist partiyası və sovet hakimiyyətinin çağrışına cavab olaraq Şahbuz, Cəhri, Sələsüz və s. kəndlərin əhalisi antisovet qiyamçı dəstələrinə qarşı mübarizəyə cəlb edildilər. Sovet hakimiyyətinə qarşı mübarizə aparan üsyançılar o dövrün mətbuatında "quldur" adı ilə damğalanırdılar. Təkcə bu ifadə belə haqsızlıq əleyhinə çıxış edən hər kəsin katorqaya göndərilməsi üçün kifayət edirdi.

Naxçıvan Fövqəladə Komissiyası və hüquq-mühafizə orqanları üsyanlar yatırıldıqdan sonra Qaraçuq və Tırkeş kəndlərinin üsyançılarının böyük əksəriyyətini həbs etdi. Onların bir çoxu məsuliyyətə cəlb edildi, bəziləri cərimələndi, qalanları

isə müxtəlif müddətlərdə islah əmək koloniyalarında və ya həbs düşərgələrində saxlanıldıqdan sonra buraxıldı. Azadlığa buraxılanların hamısı bir nəfər kimi nəzarətə götürüldü. Onların bəzilərinə rayonu tərk etmək qadağan edildi. Həmin üsyanlarda iştirak edənlərin bir neçəsi üsyandan bir neçə il sonra həbs edildi [162, v. 23].

Mir Cəfər Bağırov 1925-ci ildə Mərkəzi Komitəyə göndərdiyi məktubda bildirirdi ki, 1925-ci ilə kimi Azərbaycanın müxtəlif yerlərində 52 üsyan hadisəsi baş vermişdir [191, s. 92]. Bu fakt bir daha təsdiqləyir ki, bolşevizmə qarşı mübarizə heç də ötəri, keçici xarakter daşımamış, o, güclü və mütəşəkkil olmuşdur. Azərbaycanda bolşevikləşməyə qarşı mübarizənin yeni və ən güclü dalğası 1930-cu ildə baş verdi. Belə ki, kolxoz quruculuğunda qolçomaqlara, mülkədarlara və ortabab kəndlilərə qarşı zorakılıq, inzibatçılıq, qeyri-insani rəftar və repressiyalar onların narazılığına səbəb olurdu. 1930-cu ilin əvvəllərində Şəki-Zaqatala mahalında, Xızının Ağdərə, Şəmkirin Bitdili, Cəbrayılın Sirik, Naxçıvanın isə Keçili, Milax, Ərəfsə və s. kəndlərində üsyanlar baş vermişdi [87, s. 137]. Bu üsyanlar Azərbaycanda ictimai-siyasi vəziyyəti pozmuş və xeyli gərginləşdirmişdi.

Vəziyyəti gərginləşdirən səbəblər sırasında Moskvanın apardığı ruslaşdırma siyasəti və sovetlərin 1928-1929-cu illərdə keçirdiyi seçkilər idi. Xalqın demək olar ki, 86 faizi seçki hüququndan məhrum edilmişdi. Seçkilərdə yalnız fəhlə və yoxsul kəndlilər iştirak edə bilərdi. Ziyalılar, ortablar, tacirlər, qolçomaqlar, mülkədarlar və s. isə seçkiyə buraxılmırdı. 1929-cu ilin sonlarından bütün ortabab kəndlilərə məxsus torpaq, əmlak, heyvan və digər məhsullar nə varsa, müsadirə edilib kollektivlərə verilməyə başladı. Həmin vaxt, xüsusi ilə 1930-cu ilin fevral, mart və aprel aylarında geniş və qanlı qiyamlar oldu. Bu dövrdə tez-tez baş verən kəndli qiyamlarını partizan hərəkatı davam etdirirdi. Bu hərəkatların bəziləri əhalinin daha çox sayını özündə birləşdirirdi [197, s. 147].

O dövrdə partiya və hökumətin siyasi və iqtisadi cəhətdən əhalinin mənafeyinə zidd olan qərarlarının qəbul olunması mövcud narazılıqları daha da artırırdı. Məsələn, 1930-cu ilin fevralında AK(b)P MK-nin fərdi təsərrüfatlarda olan malqaranın ictimailəşdirilməsi barədə qərarı kəndlilərin ciddi narazılığına səbəb olmuşdu. Bu dövrdə Naxçıvan, Şərur, Ordubad rayonlarının dağ kəndlərində silahlı çıxışlar daha da güclənmişdi.

1930-cu il martın 18-də Naxçıvanın Qızılboğaz ərazisində Qasım və Əlibəylərin idarə etdiyi partizanlarla Qırmızı Ordu arasında iki gün davam edən qanlı döyüş baş verdi. Rus əsgərləri sonradan günahsız insanları qılıncdan keçirmişdilər [197, s. 148]. Bu səbəbdən mart-may aylarında bir sıra yerlərdə əhali tərəfindən kolxozlar ləğv edilirdi. 1930-cu il martın 20-22-də Şahbuz rayonunda cəmlənmiş 500-ə qədər silahlı kəndlinin müqavimət dəstəsinə qarşı hökumət nizami ordu hissələri yeritmişdi [87, s.138]. MTN-in arxivində qorunub saxlanılan 270 saylı istintaq işi də bir çox mətləblərə aydınlıq gətirir. Həmin

istintaq işində göstərilir ki, Naxçıvan MSSR-də sovet hakimiyyətini devirmək məqsədilə Nəhəcir dəstəsi Naxçıvan mahalında üsyana başlayır. Üsyançılar qonşu Əbrəqunus rayonunun Sirab, Ərəzin, eyni zamanda Şahbuz rayonunun Keçili və s. kəndlərinin üsyançılarını birləşdirərək bolşevizmə qarşı mübarizə aparmışdır. İstintaq materiallarından aydın görünür ki, üsyan yatırıldıqdan sonra Dövlət Siyasi İdarəsinin əməkdaşları, xüsusilə də Orbelyan üsyançılara qarşı amansız olmuş, onların böyük əksəriyyəti güllələnmiş, bir çoxu isə müxtəlif müddətlərə azadlıqdan məhrum edilmişdi. Belə ki, həbs olunan 89 nəfərdən 50 nəfəri güllələnmiş, 6 nəfər üç il, 17 nəfər beş il, 4 nəfər altı il, 3 nəfər yeddi il, 3 nəfər səkkiz il, 3 nəfər on il azadlıqdan məhrum edilmişdi [102, s. 102-103]. Böyük "işgəncələrlə 40 ailə, o cümlədən uşaqlar, körpələr, 90 yaşlı qocalar, xəstələr, hamilə gəlin və qadınlar vaqonlara doldurulub həmişəlik yaşamaq üçün sürgünə göndərilirdi" [87, s. 138]. Bu cür aksiyalar respublikanın digər bölgələrində də davam etdirilirdi [111, s. 42].

Azərbaycanda, o cümlədən Naxçıvanda bolşevizmə qarşı kütləvi aksiyaların başlanması üçün bütün şəraiti hakimiyyət nümayəndələrinin özü yaratmışdı. Naxçıvan üsyanının başlanmasının əsas səbəbləri aşağıdakılardan ibarət idi. Yerli milli xüsusiyyətlər nəzərə alınmır, kollektivləşmə ilə din uğrunda mübarizə eyni vaxta təsadüf edirdi. Bu proses paralel aparıldığından bolşeviklər xalqın heysiyyətinə toxunur, onların əsrlər boyu yaratdığı və yaşatdığı dini dəyərlərini tapdalayır və məhv edirdilər. 1920-1930-cu illərdə din xadimləri onlarla həmfikir olan qolçomaqlarla və mülkədarlarla birləşir, ümumi düşmənə qarşı birgə mübarizə aparırdılar. Onları birləşdirən digər mühüm bir cəhət qolçomaqların özlərinin də böyük əksəriyyətinin dini ziyarətgahlarda, müqəddəs yerlərdə olması və dini adət-ənənələrə tamamilə riayət etmələri ilə bağlı idi. Bu mübarizədə kəndlilərin əksəriyyəti hakim zümrə ilə birlikdə iştirak edirdilər.

Qolçomaqların, mülkədarların və ortabab kəndlilərin üzərinə ağır vergilər qoyulmuşdu. 20-30-cu illərdə əməyə görə kolxozçulara verilən haqq daha çox rəmzi xarakter daşıyırdı. Onlar əsasən şəxsi yardımçı təsərrüfatları hesabına yaşayırdılar. Həmin təsərrüfatlara isə ağlasığmaz vergilər qoyulurdu. Hər kəndli həyəti üçün vergi ödəməli, habelə dövlətə, çox vaxt gücü çatsa da, çatmasa da müəyyən edilmiş miqdarda ət, süd, yumurta, yun və başqa məhsullar verməli idi. Bar verib-vermədiyindən asılı olmayaraq, hər meyvə ağacı üçün vergi tətbiq edilirdi. Kolxozçulara etinasız münasibət bir də onda özünü göstərirdi ki, onlara pensiya təminatı düşmürdü. İldən-ilə qolçomaqların, mülkədarların və ortabab kəndlilərin üzərinə qoyulmuş vergilər çoxaldılırdı. Onlar pasportsuz idilər və icazəsiz kəndi tərk edə bilməzdilər [153, s. 71]. Bu proses tarixşünaslıqda "ikinci təhkimçilk dövrü" kimi əks olunmuşdur.

Ölkədə total mühit hökm sürürdü. Bolşevik çevrilişindən dərhal sonra Naxçıvanda elə bir mühit yaradılmışdı ki, orada cəzalandırmaq, əzmək, həbs və

məhv etmək hər bir vəzifə sahibinin səlahiyyətinə çevrilmişdi. Cəza tədbirləri amansız və kütləvi surətdə həyata keçirilirdi. Az qala bütün Naxçıvan əhalisini düşmən rolunda verməyə cəhd edən Orbelyan andronikləri, qriqoryanlar, markaryanlar qarşısında öz faşist daşnak borcunu yerinə yetirərək Anzır və Nəhəcir kəndlərini tamam boşaldır, Boyəhməd, Ərəfsə, Teyvaz, qismən Qazançı və Xanağa kəndlərində yaşayan kişiləri, demək olar ki, tamamilə məhv edirdi. O günlər ərzində nə qədər insanın güllələndiyi barədə dəqiq məlumat yoxdur. Çünki sonradan güllələnənlər barəsində nə kartoçkalar tətbiq edilir, nə də qeydiyyatı aparılırdı. Yalnız belə bir qeydiyyat aparılırdı ki, qaçmağa cəhd göstərərkən gülləylə vurulmuşdur. Milax işində 15 nəfərin güllələndiyi, 8 nəfərin isə 10 illiyə konslagerə sürgün edildiyi barədə məlumat verilir [101, s. 46].

Bu dövrdə Culfa rayonunun Yaycı kəndində 600-dən çox sakin qətlə yetirildi [198, s. 60]. Milax işində rəhbərləri Qriqoryan, Sumbatov, Topuridze, Borşovdan xeyir-dua alan Orbelyan Keçili işini daha təcrübəli şəkildə aparmışdır. Bu prosesdə öz soyadlarını dəyişdirən Baqiryan-Bağırova, Qasumyan-Qasımova, Allahverdiyan-Allahverdiyevə çevrildi. Lakin onlar azərbaycanlılara qarşı olan nifrətlərini dəyişmir və özlərinin "Böyük Ermənistan" fantastik arzularını, xülyalarını unutmurdular.

Milax işi kimi, Keçili işi də qondarma olmaqla Orbelyanın fantaziyasının məhsulu idi. Bu Xalq Komissarlar Sovetinin mülkədar və qolçomaqların işi ilə əlaqədar deyil, 1918-1920-ci illərdə torpaqlarını qoruduqlarına, daşnaklara öz kəndlərini işğal etməyə imkan vermədiklərinə görə azərbaycanlılardan qisas almaq naminə idi.

1930-cu ilin fevralında Naxçıvanın Keçili kəndinin sakinlərinin sovet hökumətinə qarşı qaldırdığı üsyana qonşu Badamlı, Sələsüz, Tırkeş, Cəhri və başqa kəndlərin əhalisi də qoşulmuş, xaricdə olan Kalbalı xanın dəstələri birləşərək, imperiyanın ordusu və milis dəstələri ilə gərgin döyüşlər aparmışlar. Döyüşlərdə üsyançılardan 100 nəfər şəhid olmuş, 120 nəfər isə ələ keçirilərək həbs edilmişdir [98, v. 74].

Keçili kəndində o illərdə 6 tayfa yaşayırdı: Hacılı tayfası 40 ailəni, Əşkaflı tayfası 30 ailəni, Sofulu tayfası 20 ailəni, Almənmədli tayfası 30 ailəni, Zeynallı tayfası 17 ailəni, Qızıllı tayfası isə 12 ailəni birləşdirirdi [198, s. 75-76]. Dindirmə prosesində Orbelyan tərəfindən bir tayfa digər tayfa üzərinə qaldırılırdı. Kəndlilər ağıllarına belə gətirmirdilər ki, Orbelyanın təşkil etdiyi bu üzləşmələr onların uşaqları, nəvələri arasında qəsdən daimi düşmənçiliyə çevrilir.

Antisovet ünsürləri adlandırılanların böyük əksəriyyəti öz imzaları əvəzində protokola barmaqlarını basırdılar. Bu da öz növbəsində Orbelyan və onun kimilərin işlərini bir qədər də yüngülləşdirir və protokollara öz istədiklərini yazmağa şərait yaradırdı. Keçili işində bütün dindirmələr yarım səhifədən və yaxud nadir hallarda bir səhifədən ibarətdirsə, ancaq elə dindirmələr də var ki,

hətta bir cümlədən ibarətdir. Orbelyan qəti bilirdi ki, onun tərəfindən yazılan bu qanunu, bu hökmü heç kəs rədd etməyəcək, odur ki, nə qədər türk məhv edə bilsə, cəlladların başçısı və ideoloqu, Azərbaycanın xüsusi xidmət sahəsinin rəisi Xoren Qriqoryandan bir o qədər təşəkkür alacaqdır [198, s. 89].

1920-1930-cu illərin sovet totalitarizmi milli ruhu məhv etməyi ən böyük təbliğat üsuluna çevirmişdi. Bu totalitarizmidə bağışlamaq, rəhm etmək hissi yox idi. Naxçıvan üsyanı zamanı azərbaycanlılardan qisas almağa başlayan Orbelyan kimi fitnəkar ermənilər "üsyan işi" adlanan bir plan uydurur və 2 öküzü, bir inəyi, 20 qoyunu olan bu kəndlilərin var-yoxunu əlindən aldırırdı. Bolşeviklər sovet hökumətinə qarşı yalnız qolçomaqların deyil, ortababların, muzdurların və kasıbların da üsyana qoşulduğunu sübut etməyə çalışırdılar.

Qolçomaq adlandırılanların evinin yandırılması, müsadirə edilməsi və ya hərraca qoyulması antisovet narazılığı gücləndirirdi. Bolşeviklər qolçomaqların evinin yandırılmasını birbaşa kəndlilərin öz əlləri ilə həyata keçirməyə çalışırdılar. Belə ki, Azərbaycanda ağalıq edən yad millətin nümayəndələri, o cümlədən Lominadze varlıların, mülkədarların məhv edilməsində iki məsələyə diqqət yetirməyi vacib sayırdı. Birincisi, varlıların – mülkədarların, xanların və bəylərin mülklərini yandırmaq. İkincisi, kəndliləri qiyama qaldırmaqla onları məhv etmək. Naxçıvan üsyanı zamanı birinci məsələ tam həyata keçirildi. Lakin bu dəfə də kəndi tonqala bürüyən kəndlilər və yoxsullar deyil, hakim dairələrin, bolşeviklərin özü oldu. İttihamnamələrdə isə müqəssir kimi danışanlar və güllələnənlər arasında heç bir savadı olmayan günahsız kəndlilər də bandit adlandırılaraq məhv edilirdi.

Həmin dövrdə kimlər bandit hesab edilirdi: öz mənliyini, şəxsi həyatını bolşevik bəlasından qoruyub saxlamaq üçün müxtəlif yerlərə qaçan, dağlara çəkilən bəylər, xanlar, varlılar və başqaları; mövcud hakimiyyətə bel bağlamayan və baş vermiş hadisələrin mahiyyətini dərk etməyən qruplar. Bura hətta yoxsullar və muzdurlar da daxil olurdu; sovet hakimiyyətinə nifrət edən silahlı dəstələr. Bu dəstələr bolşeviklərlə son damla qanına qədər vuruşmağa hazır qüvvələr idi ki, nəinki qırmızılara, hətta onlara rəğbət göstərənlərə qarşı belə amansız idilər; hakimiyyət hərc-mərcliyindən istifadə edib varlanmaq məqsədi ilə müxtəlif "dinədona" girənlər, ev, mal-heyvan oğruları və b.; vaxtilə öz mənəviyyatını itirmiş və narazı camaatı bandit adlandıran bir çox kommunistlərin özü də sonradan banditimzə qarşı mübarizənin hədəfinə çevrildi. Belə ki, təmizləmə zamanı partiyadan qovulmuş kommunistlər xüsusi dəstə düzəldib qisas almaq məqsədi ilə sovet hakimiyyətinə qarşı mübarizə aparırdı; sovet hökumətinə sədaqətlə xidmət edən milis dəstələri də bəzən təklikdə, yaxud böyük bir dəstə halında bolşeviklərdən üz döndərir və beləliklə, "bandit"ə çevrilirdilər [91, s. 50].

Göründüyü kimi, 20-30-cu illərdə istənilən adamı "bandit"ə çevirmək üçün tam şərait yaradılmışdı. Hər hansı bir qolçomağın kəndli ilə adi münaqişəsinə də siyasi don geydirilərək kolxozlaşmaya qarşı pozuculuq işi kimi qiymətləndirilirdi.

Qolçomaqları və mülkədarları qadın azadlığına əngəl olmaqda, onları kolxozlara buraxmamaqda, mollalarla əlbir olub dini ideologiyanı yaymaqda, gəncləri dini təsir altında saxlamaqda, bandit dəstələri yaratmaqda və ya onlarla əlaqədə, taxıl gizlətməkdə, vergidən yayınmaqda və s. günahlandıraraq repressiyalara məruz qoyurdular. Naxçıvanın müxtəlif kəndlərində heç bir səbəb olmadan kolxozda çalışanların da səslərini alır və kolxozçuların sırasından xaric edirdilər. Bu işin həyata keçirilməsində kənd şura sədrləri və kolxozun idarə heyəti hüquq-mühafizə orqanlarının səlahiyyətlərini icra edirdilər [163, v. 68]. Bu cür hərəkətlər gələcək üsyanlar və ya hüquq-mühafizə orqanları üçün növbəti qurbanlar hazırlamaq idi.

Üsyançılar haqqında açılmış cinayət işində göstərilirdi: "1930-cu il fevral ayında antisovet ünsürlər aradan qaldırıldıqdan sonra Naxçıvan MSSR qolçomaqları quduzcasına müqavimətə hazırlaşır, Sovet hakimiyyəti əleyhinə üsyan qaldırılması üçün silahlı qolçomaq dəstələrinin təşkilinə keçirdilər. Bunlardan ən fəalı Keçili və Nəhəcir dəstələri idi. Bu dəstələrin tərkibi qolçomaqların əlaltıları, şüursuz ortabab və yoxsulların hesabına artırdı. 1930-cu ilin mart ayında Nəhəcir dəstəsi Naxçıvan mahalında özü üçün əlverişli şəraitdə, yəni ordu hissələrinin olmamasından istifadə edərək, üsyana qonşu Əbrəqunus rayonunun Sirab, Ərəzin kəndlərini də cəlb edir və böyük Keçili-Şahbuz üsyançı dəstəsi ilə birləşib Naxçıvana yürüş təşkil edirlər ki, şəhəri zəbt edib Naxçıvan vilayətində sovet hakimiyyətini devirsinlər" [124, v. 56].

Naxçıvan üsyanında kolxoza daxil olmaq istəməyən ortabablar, qolçomaqlar, seçki hüququndan məhrum edilənlər, yoxsul kəndlilər, hətta azlıq təşkil etsə də, kommunistlər də var idi.

30-cu illərin dövri mətbuatında, eləcə də üsyanla bağlı arxiv materiallarında bu aksiyaçıların məqsədi ya işıqlandırılmamış, ya da birtərəfli, təhriflərlə verilmiş, istintaq işlərində isə hüquqi baxımdan kifayət qədər qanun pozuntuları olmuşdur. 28 mart 1930-cu ildə Dövlət Siyasi İdarəsinin (DSİ) kollegiyasının üzvü Suxanov Naxçıvandan göndərilmiş 1837 saylı istintaq işi ilə tanış olduqdan sonra Borşova ünvanladığı raportda yazırdı: "Sizin nəzər diqqətinizə çatdırıram ki, baxılmaq üçün mənim sərəncamımda cəmi 23 adamın 1837 nömrəli işi var. Bu iş Azərbaycan SSR CM-in 79-cu və 18/79 maddələri ilə müəyyənləşdirilmişdir. Göstərilən iş Azərbaycan Dövlət Siyasi İdarəsinin Naxçıvan diyarı tərəfindən göndərilmişdir. İşi gözdən keçirərkən müəyyən etdim ki, Orbelyan tərəfindən aparılan bu işin dindirilmə protokolları, o cümlədən 2 və 3 nömrəli formalar və başqa sənədlər imzalanmayıb.

Göstərilən qanun pozuntularına görə mən bu işi Azərbaycan Dövlət Siyasi İdarəsinin kollegiyasında dinləmək üçün müvafiq qərar mətni çıxara bilmirəm" [123, v. 87]. Borşovun göstərişi ilə həmin raport Azərbaycan DSİ-nin sədr müavini Neverevə göndərilir və bir gündən sonra Suxanov növbəti qərarı

hazırlayır: "Azərbaycan SSR DSİ-nin Naxçıvan diyar şöbəsindən daxil olmuş 16.03.30-cu il tarixli 252 K saylı vətəndaşlar... barəsində 4 nömrəli istintaq materialları tamamilə ətraflı işlənmiş və heç bir təkmil istintaq işi aparmağa ehtiyac yoxdur. Tələb olunan bütün qayda-qanunlara əməl edilmişdir" [123, v. 42].

Bu qanun pozuntusuna prokurorluq da özünəməxsus cavab verir və göstərir ki, Azərbaycan Dövlət Siyasi İdarəsinin Naxçıvan Diyar Şöbəsi rəisinin nəzərinə çatdırılsın ki, göstərilən vəziyyətin düzəldilməsi üçün gələcəkdə müvafiq tədbirlər görsün və bir də belə hallara yol verilməsin [198, s. 43].

Göründüyü kimi, sənədləşmə işləri təhriflərə məruz qalmış, yuxarıların diqtəsinə əməl olunmuşdur. Bununla da üsyançıların əsas məqsədləri sənədlərdə təhrif edilmişdir. Buna baxmayaraq, üsyançıların məqsəd və məramlarının izləri istintaq materiallarında (nə qədər təhrif edilsə də) öz əksini tapmışdır. Həmin sənədlərdən aydın olur ki, üsyançıların əsas məqsədi kollektivləşməyə qarşı çıxmaq və silahlı üsyan yolu ilə Sovet hökumətini devirmək olmuşdur.

Bolşevik hökumətinin hüquq-mühafizə orqanları üsyançıların bu ali məqsədini gizlətmək üçün onların hamısına bir nəfər kimi "bandit" adı verərək, onları quldurluqda, oğurluqda, birini talançılıqda, kolxoz quruculuğuna mane olmaqda, banditlərlə əlaqədə və s. suçlandıraraq ittiham etmişdir.

Naxçıvan üsyanının məğlub olmasının bir sıra səbəbələri var idi. Üsyana hazırlıq işi plansız və qeyri-mütəşəkkil idi. Onlar vahid proqramla çıxış etmədiklərindən, hansı məqsədlər uğrunda mübarizə apardıqları da dumanlı idi. Belə ki, üsyan iştirakçıları sovet hökumətini devirməyi qarşılarına məqsəd qoysalar da, əvəzində nə yaradacaqlarını aydın bilmirdilər. Əhalinin siyasi hazırlığı olmadığından onların bir çoxu böyük ideallar uğrunda deyil, kiçik hislər naminə mübarizəyə qoşulmuşdular.

Üsyana başçılıq edən Keçili kənd sakini Kərbəlayi İsmayıl Zeynalabdın oğlu və Milax kəndinin sakini Kərbəlayi Yəhya Məmmədnağı oğlu lider kimi əhali arasında böyük nüfuza malik olsalar da, yüksək təşkilatçılıq qabiliyyətinə malik deyildilər. Çünki onlar Milax, Keçili və ona yaxın olan kəndlərin əhalisinin hamısını üsyana cəlb edə bilməmişdilər. Bundan başqa bu hərəkatın adı bu gün "Naxçıvan üsyanı" adlandırılsa da, o, bütün Naxçıvanı əhatə edə bilmədi, Şahbuzun bir neçə kəndi ilə məhdudlaşdı.

1930-cu ildə Azərbaycanın digər bölgələrində Şəki-Zaqatala mahalında, Xızının Ağdərə, Şəmkirin Bitdili, Cəbrayılın Sirik kəndlərində etiraz aksiyasına qoşulanlarla Naxçıvan üsyançıları arasında əlaqə yaradılmadı. Başqa bir mühüm cəhət ondan ibarət idi ki, Şahbuz üsyançılarının özləri arasında da monolit birlik yaradılmadı və onlar kifayət qədər silahlandırılmadı. Üsyançılar xaricdə mühacir həyatı yaşayan və kifayət qədər siyasi gücə malik olan adamlarla əlaqəyə girə və onlardan dəstək ala bilmədi.

1920-30-cu illərdə haqsızlıq içində çırpınan xalq kütləsi öz yaşayış səviyyəsini

yaxşılaşdırmaq üçün bir neçə vəzifəni yerinə yetirməli oldu: burjuaziyanı məhv etmək, fəhlə-kəndli hökuməti qurmaq, xüsusi mülkiyyəti ictimai mülkiyyətlə əvəz etmək, onu idarə edəcək zümrəni-partiya bürokratiyasını yaratmaq. Deməli, kapitalizmdən sosializmə keçid minlərlə, yüz minlərlə insanın qanı bahasına başa gətirilmiş, cəmiyyət təbii inkişaf yolundan çıxarılmış, varislik ənənəsi pozulmuş, etnik və bəşəri dəyərlər uydurma sinfi dəyərlərlə əvəz edilmişdi. Torpaq kəndlilərə şüarını əsas tutan və hakimiyyəti zəbt edən bolşeviklər çox çəkmədən kəndlilərə divan tutmağa başladılar. Təkcə Naxçıvan vilayətində 1930-cu ilin 22 sentyabrından – 12 oktyabrına qədər 20 gün ərzində 50-dən artıq kəndli güllələndi, 100-dən artıq adam həbs olundu və onların əmlakı müsadirə edildi [114, s. 21-32].

Bütövlükdə Azərbaycanda olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da əhalinin istiqlal uğrunda mübarizəsi zorla kolxozlaşdırma illərində daha böyük vüsət almışdı. Hadisələrin sonrakı inkişafı bir daha sübut etdi ki, nə Naxçıvan, nə də Azərbaycanın digər bölgələri öz istiqlalını işğalçı və total bir cəmiyyət olan Sovet hökumətində görməmişdi.


8. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (1926)

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin (MİK) 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarı Naxçıvan Sovet Sosialist Respublikası (Naxçıvan SSR) adlandırıldı. 1924-cü ilin aprelində Azərbaycan SSR MİK Naxçıvan SSR haqqında Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasına müvafiq olan [67, s. 17] konstitusiya əhəmiyyətli Əsasnamə təsdiq etdi. 5 bölmə, 13 fəsil və 69 maddədən ibarət olan bu Əsasnamə ilə Azərbaycanın tərkibində Naxçıvan SSR-in konstitusion hüquqi statusu müəyyən edilmiş oldu [68, s. 116]. Əsasnaməyə görə, Naxçıvan SSR Azərbaycan SSR-in tərkibində 3 inzibati qəzadan (Naxçıvan, Şərur, Ordubad) ibarət respublika idi. Naxçıvan SSR-in birinci Konstitusiyası həmin Əsasnaməyə uyğun olaraq işlənib hazırlanmış və 1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər Qurultayında təsdiq edilmişdi [153, s. 156].

Naxçıvan SSR-in 1926-cı il Konstitusiyası [174] 4 bölmə və 63 maddədən ibarət olub preambula hissəsi yox idi. Konstitusiya aşağıdakı dörd bölmədən ibarət struktura malik idi:

1. Ümumi müddəalar (1-2-ci maddələr);
2. Mərkəzi hakimiyyətin təşkili (3-54-cü maddələr);
3. Büdcə hüququ (54-60-cı maddələr);
4. Naxçıvan Sovet Sosialist Respublikasının Gerbi və Bayrağı haqqında (61-63-cü maddələr).

Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarına aid, həmçinin



Naxçıvan Sovet Sosialist Respublikasının bayrağı (1926)



Naxçıvan Sovet Sosialist Respublikasının gerbi (1926)

Naxçıvan SSR-də fəaliyyət göstərən məhkəmələrə dair hüquqi normalar öz əksini tapmamışdı. Konstitusiyanın azərbaycanca mətni arxivdə olmasa da, "Naxçıvan Sovet Sosialist Respublikası" adı o dövrün Azərbaycan dilində olan mətnlərində "Naxçıvan İştirakçı Şura Cümhuriyyəti" və "Naxçıvan Sosialist Şura Cümhuriyyəti" şəklində işlədilmişdir [154].

Konstitusiyanın I bölməsində Naxçıvan SSR-in sosialist dövləti olduğu, Naxçıvan ərazisində hakimiyyətin Sovetlərə məxsus olduğu bəyan edilir, Naxçıvan SSR-in Azərbaycanın tərkib hissəsi olduğu vurğulanırdı: "1. Naxçıvan Sovet Sosialist Respublikası Naxçıvan ərazisinin bütün zəhmətkeşlərinin sosialist dövlətidir. Naxçıvan Sovet Sosialist Respublikası ərazisində bütün hakimiyyət Fəhlə, Kəndli və Qırmızı Ordu Deputatları Sovetlərinə məxsusdur. 2. Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının himayəsi altındadır, onun əsas tərkib hissəsidir və Naxçıvan Sovet Sosialist Respublikasının Azərbaycan Sovet Sosialist Respublikası ilə qarşılıqlı münasibətləri sonuncunun Konstitusiyası ilə müəyyən edilir. Naxçıvan Sovet Sosialist Respublikasında dövlət hakimiyyəti orqanları Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası əsasında yaradılır" [156, v. 1].

Konstitusiyanın ilk maddəsinin Naxçıvan SSR-i "zəhmətkeşlərin sosialist dövləti" adlandırması, Naxçıvan əhalisinin suverenliyin (məhdud suverenliyin) daşıyıcısı kimi konstitusiyada əks olunması demək idi. Hakimiyyətin Sovetlərə (əhali tərəfindən müxtəlif səviyyələr üzrə seçilən seçkili orqanlara) məxsus olmasının bəyan edilməsi də, sovet dövlətçiliyi ənənələri nəzərə alınmaqla, Naxçıvan SSR-də parlamentli idarəçiliyin müəyyən elementlərinin mövcud olmasını göstərirdi.

Konstitusiyanın daha əhatəli işlənmiş, əslində əsas bölməsi "Mərkəzi hakimiyyətin təşkili" adlanan və 52 maddəni əhatə edən II bölməsi idi. Burada Naxçıvan SSR-də yalnız mərkəzi hakimiyyət orqanlarının deyil, yerli hakimiyyət təsisatlarının da təşkil edilmə, yaradılma prinsipləri, eləcə də seçki hüququ və seçkilərin keçirilməsinə dair hüquqi normalar işlənib hazırlanmışdı. Konstitusiyanın bu bölməsi öz növbəsində aşağıdakı tərkib hissələrdən və bəndlərdən ibarət idi:

Naxçıvan Sovetlər Qurultayı haqqında (3-9-cu maddələr);

Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi (Nax. MİK) haqqında (10-13-cü maddələr):

Ümumnaxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərində olan məsələlər haqqında (13-15-ci maddələr);

Xalq Komissarları Soveti haqqında (16-25-ci maddələr);

Yerlərdə Sovet hakimiyyətinin təşkili (26-45-ci maddələr):

A. Sovetlər qurultayı haqqında (26-30-cu maddələr);

B. İcraiyyə komitələri haqqında (31-35-ci maddələr);

C. Kənd sovetləri haqqında (36-42-ci maddələr);

Ç. Yerli hakimiyyət orqanlarının səlahiyyətlərində olan məsələlər haqqında (43-45-ci maddələr);

Sovetlərə seçkilər haqqında (46-53-cü maddələr):

- Aktiv və passiv seçki hüququ haqqında (46-47-ci maddələr);
- Seçkilərin keçirilməsi haqqında (48-50-ci maddələr);

D. Seçkilərin yoxlanılması, ləğvi və deputatların geri çağırılması haqqında (51-53-cü maddələr).

Konstitusiyanın 3-cü maddəsi Naxçıvan Sovetlər Qurultayını Naxçıvan SSR-in ali hakimiyyət orqanı elan edirdi. Naxçıvan Sovetlər Qurultayı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən ildə bir dəfə hər 300 nəfər seçiciyə 1 deputat olmaq hesabı ilə bütün şəhər sovetlərinin nümayəndələrindən və hər 1000 nəfər sakinə 1 deputat olmaq hesabı ilə Dairə Sovetlərinin Qurultaylarının nümayəndələrindən ibarət tərkibdə çağırılırdı. Fövqəladə Naxçıvan Sovetlər Qurultayı Naxçıvan MİK-in təşəbbüsü ilə və ya respublika əhalisinin üçdə birindən az olmayan hissəsini əhatə edən yerli Sovetlərin tələbi əsasında çağrıla bilərdi (maddə 4-6). Naxçıvan Sovetlər Qurultayı 50 nəfər üzvdən və 20 nəfər namizəddən ibarət olan, onun qarşısında tam cavabdehlik daşıyan və qurultaylararası dövrdə Naxçıvan SSR-də ali hakimiyyət orqanı olan Naxçıvan MİK-i seçirdi (maddə 7-9).

Konstitusiya Naxçıvan MİK-ə ali qanunverici, sərəncam və nəzarət orqanı kimi geniş səlahiyyətlər tanıyırdı: "Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi respublikada fəhlə-kəndli hökumətinin və bütün sovet hakimiyyəti orqanlarının fəaliyyətinə ümumi istiqamət verir, qanunvericilik və idarəçilik üzrə işləri birləşdirir və uzlaşdırır, Sovet Konstitusiyasının, Naxçıvan Sovetlər Qurultayı və mərkəzi sovet hakimiyyəti orqanlarının qərarlarının həyata keçirilməsinə nəzarət edir". Naxçıvan Sovetlər Qurultayını çağırmaq səlahiyyətinə malik olan Naxçıvan MİK respublikanın ümumi idarəçiliyi üçün Xalq Komissarları Sovetini və idarəçiliyin ayrı-ayrı sahələrinə rəhbərlik üçün Xalq Komissarlıqlarını təşkil edirdi (maddə 10-13).

Konstitusiyanın 14-15-ci maddələrində Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan MİK-in səlahiyyətinə verilən məsələlər müəyyənləşdirilmişdi: Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq Naxçıvan SSR Konstitusiyasına dəyi-

şikliklər və əlavələr edilməsi; Naxçıvan SSR-in daxili siyasətinə ümumi rəhbərlik; Naxçıvan SSR ərazisinin ümumi inzibati bölgüsü; Naxçıvan SSR büdcəsinin müzakirəsi və qəbul edilməsi; Xalq Komissarları Sovetinin ayrı-ayrı üzvlərinin və bütün tərkibinin təyin edilməsi və vəzifəsindən azad edilməsi. Bunlardan əlavə, Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan MİK-in səlahiyyətlərinə onların icazəsinin lazım olduğu bütün digər məsələlər daxil edilirdi.

Konstitusiyanın II Bölməsinin 16-25-ci maddələrində respublikanın ali icraedici hakimiyyət orqanı kimi Xalq Komissarları Sovetinin (XKS) və ayrı-ayrı sahələr üzrə Xalq Komissarlıqlarının yaradılmasından, onlara verilən səlahiyyətlərdən, eləcə də Naxçıvan MİK-lə XKS arasındakı səlahiyyət bölgüsündən və subordinasiya münasibətlərindən ibarət hüquqi normalar öz əksini tapmışdı. 21-ci maddədə aşağıdakı 9 sahə üzrə Xalq Komissarlıqlarının yaradıldığı bildirilirdi: a) Daxili işlər; b) Ədliyyə; c) Əmək; ç) Sosial təminat; d) Təhsil; e) Əkinçilik; ə) Səhiyyə; f) Fəhlə-Kəndli Müfəttişliyi; g) Xalq Təsərrüfatı Şurası.

Naxçıvan MİK tərəfindən hər bir Xalq Komissarlığında kollegiya yaradılır və Xalq Komissarının müavini təyin olunurdu. Xalq Komissarlıqlarının rəhbərlərindən ibarət tərkibdə təsis edilən XKS Naxçıvan Sovetlər Qurultayı və Naxçıvan MİK, Xalq Komissarlıqları və onların Kollegiyaları isə XKS və Naxçıvan MİK qarşısında bütünlüklə cavabdehlik daşıyırdılar. XKS özünün bütün qərar və qətnamələri haqqında Naxçıvan MİK-i məlumatlandırmaqla, Azərbaycan SSR-in və Naxçıvan SSR-in ali orqanları tərəfindən ona həvalə edilmiş hüquqlar çərçivəsində məsələlərin həyata keçirilməsi üçün respublikanın bütün ərazisində icrası məcburi olan sərəncam və təlimatlar verirdi. Kollegiyaya və onun ayrı-ayrı üzvlərinə Xalq Komissarının istənilən qərarından Naxçıvan MİK-ə şikayət etmək hüququ verilirdi. Naxçıvan MİK XKS-in istənilən qərar və qətnaməsini ləğv etmək və ya qüvvədən salmaq hüququna malik idi.

Konstitusiya yerlərdə sovet hakimiyyətinin təşkilinin konstitusion-hüquqi əsaslarını da müəyyən edirdi. İldə bir dəfə müvafiq inzibati ərazi vahidinin (qəza və dairələrin) ərazisindəki mövcud bütün sovetlərin nümayəndələrindən ibarət tərkibdə çağırılan Sovetlər qurultayları qəzaların və dairələrin (rayonların) ali hakimiyyət orqanı elan edilirdi. Növbədənkənar Sovetlər qurultayları yuxarı qurultaylar və ya onların icraiyyə komitələrinin təklifi ilə, eləcə də qəzanın (dairənin) ərazisində olan müvafiq sovet hakimiyyətinin icraiyyə orqanlarının (icraiyyə komitələrinin) təşəbbüsü və həmin rayonun əhalisinin üçdə birindən az olmayan sovetlərinin tələbi ilə çağırıla bilərdi. Sovetlər qurultaylarının seçdikləri icraiyyə orqanlarının (icraiyyə komitələrinin) hər bir inzibati ərazi vahidi üzrə üzvlərinin sayı Naxçıvan MİK və ya onun Rəyasət Heyətinin qərarı ilə müəyyən olunurdu [156, v. 4-5].

Sovetlərin qurultayları arasındakı dövrdə müvafiq ərazidə Sovet hakimiyyətinin ali orqanı olan icraiyyə komitələri onları seçən qurultaylar qarşısında cavabdehlik

daşımaqla Naxçıvan MİK-ə və Naxçıvan SSR XKS-ə tabe idilər. Cari işlərə və mərkəzi hakimiyyətin qərar və direktivlərinin həyata keçirilməsinə rəhbərlik üçün qəzaların icraiyyə komitələri üzvlərinin sayı Naxçıvan MİK tərəfindən müəyyənləşdirən özlərinin rəyasət heyətlərini, rayonların icraiyyə komitələri isə özlərinin sədrlərini seçirdilər. İcraiyyə komitələrinin iclasları arasındakı dövrdə onların rəyasət heyətləri icraiyyə komitələrinin səlahiyyətlərini həyata keçirir və onların qarşısında cavabdehlik daşıyırdılar. Qəza icraiyyə komitələri müvafiq inzibati ərazi vahidinin idarə edilməsi üçün Naxçıvan MİK və ya onun Rəyasət Heyəti tərəfindən müəyyənləşdirilən əsaslarda özlərinin şöbələrini yaradırdılar. Belə şöbələrin ləğvi və ya birləşdirilməsi, həmçinin yeni şöbələrin yaradılması Naxçıvan MİK və ya onun Rəyasət Heyətinin təsdiqi ilə Naxçıvan SSR XKS-in qərarı ilə həyata keçirilirdi. Bu şöbələr icraiyyə komitələrinin və onların rəyasət heyətlərinin tabeliyində olmaqla həmin qurumların, eləcə də Naxçıvan SSR-in müvafiq xalq komissarlıqlarının sərəncam və tapşırıqlarını yerinə yetirməyə borclu idilər.

Konstitusiyaya görə, sovet hakimiyyətinin daha aşağı orqanları 250 nəfərdən çox əhalisi olan kənd yaşayış məntəqələrində təşkil edilən və həmin ərazinin ali hakimiyyət orqanı olan kənd sovetləri idi. Bir il müddətinə seçilən kənd sovetləri Konstitusiyanın 36-cı maddəsində "Fəhlə, Kəndli və Qırmızı Ordu Deputatları Sovetləri" adlandırılırdı. Bir-birinə yaxın yerləşmiş bir neçə yaşayış məntəqəsindən ibarət olan kəndlərdə bir kənd soveti yaradılırdı. Kənd sovetinin icraiyyə orqanı öz fəaliyyətində onu seçən sovetin və dairə icraiyyə komitəsinin qarşısında cavabdehlik daşıyan Sovetin sədrindən ibarət idi. Kəndlərin deputatlar soveti onun sədrinin təşəbbüsü və Sovetin üzvlərinin üçdə birindən az olmayan hissəsinin tələbi ilə çağırıla bilərdi.

Əhalisinin sayı 250 nəfərdən az olan kəndlərdə ayrıca kənd sovetləri yaradılmırdı. Belə kəndlərin əhalisi öz idarəetmə hüquqlarını: a) müstəqil sovetini seçmək hüququna malik olan qonşu kəndin sovetinin seçkilərində iştirak etməklə; b) bütün bu yaşayış məntəqələri üçün ümumi olan kənd sovetinin seçilməsi üçün qonşu kəndlərlə birləşməklə; c) seçicilərin ümumi yığıncaqlarında idarəetmə ilə bağlı məsələləri həll etməklə həyata keçirə bilərdilər. Qəza sovetləri qurultaylarının və qəza icraiyyə komitələrinin hakimiyyəti müvafiq qəzanın ərazisində olan şəhərlərə də şamil edildiyindən şəhərlərdə sovetlər yaradılmırdı [156, v. 6-7].

Konstitusiyada yerli hakimiyyət orqanları kimi təsbit olunmuş qəza, rayon və kəndlərdə sovet hakimiyyətinin orqanları – icraiyyə komitələri və onların rəyasət heyətlərinin, eləcə də deputat sovetlərinin səlahiyyətlərinə verilən məsələlər aşağıdakılar idi: a) öz ərazilərinin mədəni və təsərrüfat cəhətdən yüksəldilməsi üçün tədbirlərin görülməsi; b) yerli büdcələrin tərtib və təsdiq olunması; c) müvafiq yuxarı sovet hakimiyyəti orqanları qərarlarının həyata keçirilməsi; ç) həmin ərazi üçün yerli əhəmiyyət daşıyan məsələlərin həll edilməsi; d) həmin ərazi hüdudlarında sovet fəaliyyətinin birləşdirilməsi; e) həmin ərazi hüdudlarında inqilabi

qanunçuluğun, dövlət intizamının və ictimai təhlükəsizliyin təmin edilməsi; ə) öz təşəbbüsü ilə və ya yuxarı icraiyyə komitələrinin təklifi ilə ümumdövlət əhəmiyyətli məsələlərin müzakirə edilməsi (maddə 43).

Sovetlərin qurultayları və onların icraiyyə komitələri aşağı yerli sovetlərin və onların icraiyyə orqanlarının fəaliyyətinə nəzarət edirdilər. Yerli qurultayların qərarlarını ləğv etmək yalnız yuxarı qurultaylar və onların icraiyyə komitələri, Naxçıvan MİK və ya onun Rəyasət Heyətinin səlahiyyətində idi. Yerli icraiyyə komitələrinin və onların rəyasət heyətlərinin qərarlarını isə onları seçmiş qurultaylar, icraiyyə komitələri və onların rəyasət heyətləri, Naxçıvan MİK və onun Rəyasət Heyəti, Naxçıvan SSR XKS ləğv edə bilərdi. Konstitusiyanın 45-ci maddəsi qəza icraiyyə komitələrinə və onların rəyasət heyətlərinə məsuliyyəti öz üzərlərinə götürmək şərti ilə Naxçıvan MİK tərəfindən müəyyən edilən qaydada, yalnız müstəsna hallarda Naxçıvan SSR xalq komissarlıqlarının verdiyi sərəncamların həyata keçirilməsini dayandırmaq hüququ verirdi.

Konstitusiyanın II Bölməsinin son yarımbölməsi (46-53-cü maddələr) "Sovetlərə seçkilər haqqında" adlanırdı [156, v. 8-9]. Konstitusiya aktiv və passiv seçki hüququnu sovet istehsal münasibətləri əsasında fəaliyyət göstərənlərə və sovet ordusu və donanmasının hərbi qulluqçularına tanıyırdı: "Cinsindən, dinindən, milliyyətindən, daimi yaşayışından və s. asılı olmayaraq seçki gününədək 18 yaşı tamam olmuş Naxçıvan Sovet Sosialist Respublikasının aşağıdakı vətəndaşları sovetlərə seçmək və seçilmək hüququndan istifadə edirlər: a) həyat üçün istehsal və ictimai faydalı əməyi həyati vasitələr edənlərin, həmçinin ev təsərrüfatı ilə məşğul olan və istehsal əməyi üçün ilkin imkanlar yaradanların hamısı; b) Fəhlə-kəndli Qırmızı Ordusunun və donanmasının əsgərləri və donanmaçıları; c) bu maddənin "a" və "b" bəndlərində nəzərdə tutulmuş kateqoriyalara daxil olan, müəyyən dərəcədə əmək qabiliyyətini itirmiş vətəndaşlar". 46-cı maddəyə əlavə edilmiş xüsusi qeyddə bildirilirdi ki, "Azərbaycan Sovet Sosialist Respublikasının vətəndaşları sırasına daxil olmayan şəxslərdən Azərbaycan SSR Konstitusiyasının 11-ci maddəsində nəzərdə tutulanlara aid olan şəxslər aktiv və passiv seçki hüquq-larından istifadə edirlər".

Burada 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayı tərəfin -dən qəbul edilmiş Azərbaycan SSR-in ilk Konstitusiyasının 11-ci maddəsinə istinad edilirdi. Həmin maddədə deyilirdi: "Bütün millətlərin zəhmətkeşlərinin həmrəyliyinə əsaslanan Azərbaycan SSR əmək məşğuliyyəti üçün Azərbaycan Respublikasının ərazisində yaşayan və fəhlə yaxud başqalarının əməyindən istifadə etməyən kəndli sinfinə mənsub olan Azərbaycanın əcnəbi vətəndaşlarına siyasi hüquqlar verir, yerli Sovetlərin belə əcnəbilərə heç bir formal çətinlik olmadan Azərbaycan vətəndaşlığına məxsus hüquqların verilməsi üzrə hüququnu tanıyır" [210, s. 7].

Eyni zamanda, sovet sosial-iqtisadi münasibətlərinə uyğun fəaliyyət göstər-məyənlər, din xadimləri, çarizm dövrünün polis, jandarm və cəza orqanlarında

rəhbər vəzifə tutmuş şəxslərə, ruhi və əqli cəhətdən xəstələrə, cinayətkarlara seçib-seçilmək qadağan edilirdi: "İstəsələr də belə, aşağıdakı kateqoriyalardan olan şəxslər seçə və seçilə bilməzlər: a) gəlir əldə etmək məqsədi ilə muzdlu əməkdən istifadə edənlər; b) zəhmətlə qazanılmayan gəlirlə, məsələn: müəssisələrin kapitalından, gəlirlərindən əldə edilən faizlər, əmlakdan daxil olmalar və s. hesabına yaşayan şəxslər; c) fərdi ticarətçilər, ticarət və kommersiya vasitəçiləri; ç) bütün dinlərə və təriqətlərə aid dini ibadətləri özlərinə peşə seçmiş bütün rahiblər və ruhani xadimlər; d) keçmiş polis, xüsusi jandarm korpusu və mühafizə bölmələrinin xidmətçiləri və agentləri, çar sarayının üzvləri, habelə polis, jandarmeriya və cəza orqanlarına rəhbərlik etmiş şəxslər; e) müəyyən olunmuş qaydada ruhi və əqli xəstəliyi tanınmış şəxslər; ə) tamahkarlığa və ləkəgətirici cinayətlərə görə qanunla və ya məhkəmə qərarı ilə məhkum olunmuş şəxslər.

Konstitusiyaya görə sovetlərə seçkilərin keçirildiyi günü yerli sovetlər və onların icraiyyə komitələri müəyyənləşdirirdilər. Seçkilərin keçirilməsi qaydası və həmkarlar ittifaqlarının, digər fəhlə təşkilatlarının seçkilərdə iştirakını isə Naxçıvan MİK və ya onun Rəyasət Heyəti müəyyən edirdi. Seçki komissiyaları üzvlərinin imzaları ilə seçkilərin gedişi və nəticələri haqqında protokol tərtib olunurdu. Seçki komissiyaları sovetlərə seçkilərin düzgünlüyünü yoxlamalı idi. Sovetlər qurultaylarına seçilən nümayəndələrin səlahiyyətlərinin düzgünlüyünün yoxlanılması isə qurultaylarda seçilən mandat komissiyaları tərəfindən həyata keçirilirdi. Seçkilərin bütövlükdə düzgün keçirilmədiyi müəyyənləşdirilərdisə, yuxarı sovet hakimiyyəti orqanı seçkilərin nəticələrini ləğv edirdi. Sovetlərə seçkilər üzrə ali kassasiya orqanı kimi Naxçıvan MİK və ya onun Rəyasət Heyəti tanınırdı. Seçicilərə Sovetə deputat seçdikləri şəxsi istənilən vaxt geri çağırmaq və yeni seçkilər keçirmək hüququ verilirdi (maddə 53).

Konstitusiyanın III Bölməsi (maddə 54-60) büdcə hüququna dair normaları özündə əks etdirirdi. Naxçıvan SSR-in büdcəsi Azərbaycan SSR-in ümumdövlət büdcəsinin tərkib hissəsi hesab edilir, büdcənin xərcləri üzərində sərt nəzarət qoyulurdu: "Dövlət Xəzinədarlığının vəsaitlərindən heç bir xərc dövlət gəlirləri və xərcləri siyahısında həmin xərc üzrə onlara imzalanmış kredit müəyyənləşdirilmədən və ya qanunverici orqanların xüsusi qərarı olmadan reallaşdırıla bilməz. Naxçıvan Sovet Sosialist Respublikasının siyahı üzrə bütün xərcləri smeta bölmələri çərçivəsində birbaşa təyinatı üzrə sərf edilir" (maddə 55-56). Naxçıvan SSR büdcəsinin icrası üzrə hesabatı Azərbaycan MİK-i təsdiq edirdi. Yerli büdcələrin təşkilində müəyyən muxtar hüquqlar tanınırdı: "Bütün yerli gəlirlər və bütün yerli xərclər ümumittifaq, ümumfederativ və respublika qanunvericiliyinə uyğun qaydada yerli büdcələrdə birləşir. Yerli büdcələr Azərbaycan Sovet Sosialist Respublikasının müvafiq mərkəzi orqanlarının ümumi nəzarəti altında müvafiq Sovetlər Qurultayları və ya lazım olan hallarda icraiyyə komitələri tərəfindən baxılır və təsdiq olunur" (maddə 58-59). Konstitusiya yerli xərclərin tam ödənilməsi üçün SSRİ, ZSFSR və

Azərbaycan SSR qanunvericiliklərinə uyğun qaydada yerli büdcələrə vergi və ya qeyri-vergi gəlir mənbələrinin müəyyənləşdirilməsini hüquqi norma kimi təsbit edirdi [156, v. 10].

Konstitusiyanın IV Bölməsi Naxçıvan SSR-in gerbini, bayrağını və paytaxtını müəyyən edən son üç maddədən ibarət idi. Naxçıvan SSR-in gerbi qırmızı fonda günəş şüalarında qızıl oraq və çəkicin, aşağıda çarpaz şəkildə yerləşdirilmiş beşguşəli ulduzla ayparanın, sünbül çələngi ilə əhatə olunan təsvirin əksindən və "Naxçıvan Sovet Sosialist Respublikası" və "Bütün ölkələrin proletarları, birləşin!" sözlərindən ibarət idi.

Naxçıvan SSR-in bayrağı al qırmızı rəngli, uzunluğunun eninə 2:1 nisbətində olan, sol yuxarı küncündə, ağacın yanında, bayrağın eninin 1/6 radiusunda olan oraq və çəkicin üzərində diametri bayrağın eninin 1/10-nə bərabər olan, ucları sağa yönələn qızıl aypara və qızılla haşiyələnən beşguşəli ulduz, oraq və çəkicin sağ tərəfində yeni və köhnə türk əlifbası ilə "Naxçıvan Sovet Sosialist Respublikası" yazılan qumaşdan hazırlanırdı.

Sonuncu maddədə isə Naxçıvan SSR hökumətinin "Araz üzərindəki Naxçıvan şəhərində" yerləşdiyi bildirilirdi [156, v. 11].

Cənubi Qafqaz (Zaqafqaziya) Sovet Federativ Sosialist Respublikasının və SSRİ-nin yaranması, Azərbaycanın bu dövlət qurumlarının tərkibinə daxil olması, habelə onun ərazisində Naxçıvan SSR və DQMV-nin təşkil edilməsi, bir sıra dövlət orqanlarının, xüsusi hüquq mühafizə fəaliyyətini həyata keçirən orqanların struktur və fəaliyyətinin yeniləşdirilməsi, respublikanın həm inzibati-ərazi bölgüsündə, həm də dövlət aparatının strukturu və fəaliyyətində dəyişikliklərlə nəticələnmişdi. Bu məqsədlə 1925-ci il martın 14-də Azərbaycan Konstitusiyasına çoxsaylı dəyişiklik və əlavələr edilməsi, aprelin 14-də isə ZSFSR-in yeni Konstitusiyasının qəbul edilməsi barədə müvafiq orqanlar tərəfindən qərarlar verilmişdi. Respublikanın ictimai-siyasi, sosial-iqtisadi və hüquqi həyatında baş verən yeniliklər 1927-ci il martın 26-da V Ümumazərbaycan Sovetlər qurultayı tərəfindən ikinci Azərbaycan Konstitusiyasının qəbul edilməsi ilə nəticələndi. Azərbaycanın 1927-ci il Konstitusiyası 5 bölmə, 9 fəsil və 101 maddədən ibarət idi [210, s. 18].

1921-ci il Konstitusiyasından fərqli olaraq Azərbaycan SSR-in 1927-ci il Konstitusiyasında [210, s. 21-34] Naxçıvan SSR-lə bağlı müəyyən müddəalar öz əksini tapmışdı. 2-ci maddəyə əlavə edilmiş qeyddə bildirilirdi ki, "Azərbaycan Sovet Sosialist Respublikasının tərkibinə Dağlıq Qarabağ Muxtar Vilayəti və Naxçıvan Sosialist Sovet Respublikası daxildir". Azərbaycan Sovetlər Qurultayının və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin (MİK) səlahiyyətinə daxil olan məsələlərin müəyyənləşdirildiyi II fəslə daxil olan 18-ci maddənin "b" bəndinə əsasən Naxçıvan SSR Konstitusiyasının yekun təsdiqi Azərbaycan Sovetlər Qurultayının səlahiyyətinə verilirdi. 19-cu maddənin "b" bəndinə görə Naxçıvan SSR-in sərhədlərinin müəyyən edilməsi, Naxçıvan SSR Konstitusiyasının təsdiqi,

respublika ilə Azərbaycanın digər əraziləri arasında baş verə biləcək mübahisələrin həlli, həmin maddənin "m" bəndinə görə Azərbaycan SSR Konstitusiyasını və ya Azərbaycanın ali hakimiyyət orqanlarının qərarlarını pozan Naxçıvan Sovetlər Qurultayının qərarlarının ləğvi Azərbaycan Sovetlər Qurultayının və Azərbaycan MİK-in səlahiyyətində olan məsələlər idi [210, s. 24].

Azərbaycan SSR-in 1927-ci il Konstitusiyasının V fəsli (52-57-ci maddələr) "Naxçıvan Sosialist Sovet Respublikası və Dağlıq Qarabağ Muxtar Vilayəti" adlanırdı. Bilavasitə Naxçıvan SSR ilə bağlı olan 52, 53 və 54-cü maddələrdə deyilirdi: "Naxçıvan SSR Azərbaycan SSR-in tərkib hissəsi olub onun protektoratlığı altındadır. Naxçıvan SSR-lə Azərbaycan SSR arasında qarşılıqlı münasibətlər bu Konstitusiya ilə müəyyən olunur. Naxçıvan SSR-in Əsas Qanunu (Konstitusiyası) Naxçıvan SSR-in Sovetlər Qurultayı tərəfindən qəbul olunur, Azərbaycan MİK-in təsdiqinə və Azərbaycan SSR Sovetlər Qurultayının yekun təsdiqinə təqdim edilir. Naxçıvan SSR-də dövlət hakimiyyətinin ali orqanı Naxçıvan SSR-in Sovetlər Qurultayı, qurultaylararası dövrdə isə Qurultay tərəfindən seçilən, hüquqları Naxçıvan SSR Konstitusiyası ilə müəyyən olunan Naxçıvan Mərkəzi İcraiyyə Komitəsidir" [210, s. 28-29].

Azərbaycan SSR-in Əsas Qanununun "Büdcə hüququ haqqında" adlanan VIII fəslinə daxil olan 88-ci maddədə Naxçıvan SSR-nin gəlirləri və xərclərinin Azərbaycan SSR-in ümumdövlət büdcəsinə daxil olduğu təsbit edilmişdi. Naxçıvan SSR-in dövlət gəlirləri və xərcləri yerli XKS və MİK tərəfindən qəbul edildikdən və Azərbaycan SSR XKS tərəfindən baxıldıqdan sonra Azərbaycan MİK tərəfindən Azərbaycan SSR büdcəsinin tərkib hissəsi kimi təsdiq edilirdi (maddə 92).

Beləliklə, Azərbaycan SSR-in 1927-ci il Konstitusiyasında Naxçıvan SSR-lə bağlı konkret maddələr və müddəalar əks olunmuş, 52-ci maddədə Naxçıvanın Azərbaycanın tərkibində və onun protektoratlığında (qəyyumluğunda) muxtariyyət hüquqlu respublika statusu Əsas Qanun səviyyəsində hüquqi norma kimi ilk dəfə təsbit edilmişdi.

9. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (1937)

1936-cı il dekabrın 5-də Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) Fövqəladə VIII Sovetlər Qurultayı SSRİ Konstitusiyasını (Əsas Qanununu) təsdiq etdi [211]. Azərbaycan SSR-in 1921-ci il və 1927-ci il və Naxçıvan SSR-in 1926-cı il konstitusiyalarında sovet siyasi-hüquqi sisteminin konstitusion əsasları təsbit edilsə də, məhz 1936-cı il SSRİ Konstitusiyanın qəbulundan sonra həm Azərbaycan SSR, həm də Naxçıvan MSSR konstitusiyaları birbaşa SSRİ Konstitusiyası əsasında hazırlandı və qəbul edildi.

1937-ci il martın 14-də IX Ümumazərbaycan Fövqəladə Sovetlər Qurultayı

14 fəsil, 154 maddədən ibarət üçüncü Azərbaycan SSR Konstitusiyasını təsdiq etdi [209, s. 38-57]. Konstitusiyanın 14-cü maddəsində "Naxçıvan Avtonom Sovet Sosialist Respublikası"nın (Konstitusiyanın mətnində "Avtonom" sözü işlədilmişdir) Azərbaycan SSR-in tərkibinə daxil olduğu göstərilirdi. Naxçıvan MSSR Konstitusiyasını, onun sərhədlərini və rayon bölgülərini təsdiq etmək, Naxçıvan MSSR büdcəsinin həyata keçirilməsinə rəhbərlik etmək Azərbaycan SSR-in ali hakimiyyət və dövlət idarə orqanlarının səlahiyyətləri sırasına daxil edilirdi (maddə 19). Konstitusiyanın 20-21-ci maddələrində deyilirdi: "Naxçıvan MSSR-in, Naxçıvan MSSR xüsusiyyətlərini nəzərə alan və Azərbaycan SSR ilə SSRİ-nin Konstitusiyalarına tamamilə müvafiq qurulmuş olan öz Konstitusiyası vardır. Azərbaycan SSR-in qanunları Naxçıvan MSSR-in ərazisində məcburidir. Naxçıvan MSSR qanunu Azərbaycan SSR qanunu ilə düz gəlmədikdə, Azərbaycan SSR-in qanununa əməl edilir" [209, s. 41-42]. 33-cü maddə Azərbaycan SSR-də dövlət hakimiyyətinin ali orqanı olan Azərbaycan SSR Baş Sovetinin Rəyasət Heyətinin (Konstitusiyanın mətnində "Prezidium" – ***red.***) qanuna müvafiq olmadıqda Naxçıvan MSSR XKS-in qərar və sərəncamlarını ləğv etmək hüququnu tanıyırdı. Azərbaycan SSR-də dövlət hakimiyyətinin ali icraiyyə və sərəncam orqanı olan Azərbaycan SSR XKS Naxçıvan MSSR XKS-in fəaliyyətini istiqamətləndirmək və yoxlamaq (maddə 46, "d" bəndi), onun qərar və sərəncamlarını dayandırmaq (maddə 47) səlahiyyətinə malik idi.

Konstitusiyanın 109-cu maddəsinə görə, Naxçıvan MSSR-in büdcəsinə yerli təsərrüfat gəlirləri, onun ərazisindəki dövlət gəlirlərindən ayırmalar və habelə SSRİ və Azərbaycan SSR qanunları ilə qərarlaşdırılan ölçülərdə yerli vergi və yığımlardan ibarət vəsait daxil edilirdi. Naxçıvan MSSR Baş ("Ali" – ***red.***) Soveti tərəfindən 5 il müddətinə seçilən Naxçıvan MSSR-in Baş Məhkəməsi Azərbaycan SSR-də ədalət mühakiməsini həyata keçirən orqanların sırasına daxil edilirdi (maddə 110). Onun fəaliyyətinə nəzarət isə Azərbaycan SSR Baş Məhkəməsinə həvalə edilirdi. Naxçıvan MSSR-də məhkəmə iclasları Azərbaycan dilində aparılırdı (maddə 117). Naxçıvan MSSR prokuroru SSRİ Prokuroru tərəfindən 5 il müddətinə təyin edilirdi. 124-cü maddədə göstərilirdi ki, "Prokurorluq orqanları öz funksiyalarını heç bir yerli orqanlardan asılı olmayaraq həyata keçirirlər və yalnız SSRİ Prokuroruna tabedirlər". Naxçıvan MSSR Baş Sovetinə deputatlar seçicilər tərəfindən gizli səs verməklə ümumi, bərabər və müstəqim seçki hüququ əsası ilə seçilirdi (maddə 141). Naxçıvan MSSR kənd Əməkçi Deputatları Sovetlərinə seçki normaları, həmin maddədə (maddə 148) göstərilmiş seçki normaları daxilində, müvafiq olaraq Naxçıvan MSSR Baş Soveti tərəfindən müəyyən edilirdi.

1937-ci il Azərbaycan SSR Konstitusiyasının V fəsli (57-66-cı maddələr) "Naxçıvan MSSR-in dövlət hakimiyyətinin ali orqanları" (Konstitusiyada "MSSR" –"ASSR" kimi işlədilmişdir) adlanırdı [209, s. 47]. Naxçıvan MSSR Konstitusiyası ilə müəyyən olunan nümayəndəlik normaları əsasında respublika vətəndaşları

tərəfindən 4 il müddətinə seçilən Naxçıvan MSSR Baş Soveti muxtar respublikada dövlət hakimiyyətinin ali və yeganə qanunverici orqanı idi. Naxçıvan MSSR Baş Soveti: "a) Naxçıvan MSSR-in Konstitusiyasını qəbul edir və onu təsdiq üçün Azərbaycan SSR Baş Sovetinə təqdim edir; b) Naxçıvan MSSR-in rayon bölgüsünü, rayon və şəhərlərin sərhədlərini müəyyənləşdirir və təsdiq üçün Azərbaycan SSR Baş Sovetinə təqdim edir; c) Naxçıvan MSSR-in xalq-təsərrüfat planını və büdcəsini təsdiq edir; ç) Naxçıvan MSSR-in fəxri adlarını verir"di (maddə 60). Naxçıvan MSSR Baş Soveti sədrdən, onun müavinlərindən, katibdən və üzvlərdən ibarət tərkibdə səlahiyyətləri Naxçıvan MSSR Konstitusiyası ilə müəyyən olunan və Naxçıvan MSSR Baş Soveti qarşısında cavabdehlik daşıyan Naxçıvan MSSR Baş Sovetinin Rəyasət Heyətini seçirdi. Naxçıvan MSSR Baş Soveti Naxçıvan MSSR Hökumətini – Naxçıvan MSSR XKS-ni seçirdi.

Konstitusiyanın VI fəsli (67-74-cü maddələr) "Naxçıvan MSSR-in dövlət idarəsi orqanları" adlanırdı [209, s. 48]. Naxçıvan MSSR XKS-i muxtar respublikanın ali icraedici və sərəncam orqanı elan edilirdi. Naxçıvan MSSR XKS muxtar respublikanın Baş Soveti qarşısında, onun sessiyaları arasındakı dövrdə isə Baş Sovetin Rəyasət Heyəti qarşısında cavabdehlik daşıyır və hesabat verirdi. Naxçıvan MSSR XKS Naxçıvan MSSR Baş Soveti tərəfindən aşağıdakı tərkibdə təşkil edilirdi: XKS-in sədri, onun müavinləri, Dövlət Plan Komissiyası sədri; Xalq Yeyinti Sənaye Komissarı; Xalq Torpaq Komissarı; Xalq Maliyyə Komissarı; Xalq Daxili Ticarət Komissarı; Xalq Daxili İşlər Komissarı; Xalq Ədliyyə Komissarı; Xalq Səhiyyə Komissarı; Xalq Maarif Komissarı; Xalq Yerli Sənaye Komissarı; Xalq Kommunal Təsərrüfat Komissarı; Xalq İctimai Təminat Komissarı; Yollar İdarəsi Rəisi; Tədarük Komitəsi Müvəkkili; İncəsənət işləri İdarəsi Rəisi (maddə 71). Azərbaycan Konstitusiyası Naxçıvan MSSR Xalq Komissarlıqlarının həm Naxçıvan MSSR XKS-ə, həm də Azərbaycan SSR-in müvafiq Xalq Komissarlıqlarına tabeçiliyini müəyyən edirdi.

1937-ci il sentyabrın 18-də IV Fövqəladə Ümumnaxçıvan Sovetlər Qurultayı Azərbaycan SSR-in 1937-ci il Konstitusiyası əsasında Naxçıvan MSSR-in 11 fəsil, 114 maddədən ibarət yeni Konstitusiyasını qəbul etdi. Bu Konstitusiya Azərbaycan SSR Ali Soveti tərəfindən bir qədər gec, 1941-ci il aprelin 7-də təsdiq edildi. Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyası əvvəlki Konstitusiya ilə müqayisədə daha əhatəli və təkmil şəkildə hazırlanmışdı. Konstitusiyanın preambula hissəsi yox idi və aşağıdakı struktura malik idi:

I fəsil. İctimai quruluş (maddə 1-12);

II fəsil. Dövlət quruluşu (maddə 13-18);

III fəsil. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası dövlət hakimiyyətinin ali orqanları (maddə 19-37);

IV fəsil. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının dövlət idarə orqanları (maddə 38-48);

V fəsil. Dövlət hakimiyyətinin yerli orqanları (maddə 49-68);
VI fəsil. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının büdcəsi (maddə 69-72);
VII fəsil. Məhkəmə və Prokuratura (maddə 73-84);
VIII fəsil. Vətəndaşların əsas hüquq və vəzifələri (maddə 85-100);
IX fəsil. Seçki sistemi (maddə 100-110);
X fəsil. Gerb, bayraq, paytaxt (maddə 111-113);
XI fəsil. Konstitusiyanı dəyişdirmək qaydası (maddə 114).

1926-cı il Konstitusiyasından fərqli olaraq 1937-ci ilin Əsas Qanununda ictimai quruluşla dövlət quruluşu fərqləndirilərək ayrı-ayrı fəsillər kimi işlənmiş, məhkəmə və prokuratura sisteminə, vətəndaşların əsas hüquq və vəzifələrinə dair ayrıca fəsillər işlənib hazırlanmış, eləcə də Konstitusiyanı dəyişdirmək qaydası müəyyənləşdirilmişdi.

Konstitusiyanın "İctimai quruluş" adlanan ilk fəsli sovet dövlətinin sinfi-ictimai xarakterinə uyğun olaraq muxtar respublikada fəhlə-kəndli sinfinin sosialist dövlətinin yaradılmasının, onun xüsusi mülkiyyətin ləğvinə və qadağan edilməsinə əsaslanan dövlətin, kooperativlərin və kolxozların simasında ictimai istehsal münasibətlərinin hakim olduğu planlı sosialist təsərrüfat sisteminin əsaslarını müəyyənləşdirirdi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası "fəhlələrin və kəndlilərin sosialist dövləti" elan edilir (maddə 1), bəyan edilirdi ki, "Naxçıvan MSSR-də bütün hakimiyyət zəhmətkeş deputatları Sovetlərinin simasında şəhər və kənd zəhmətkeşlərinindir" (maddə 3).

Konstitusiyada muxtar respublikada sosialist mülkiyyətinin "dövlət mülkiyyəti (ümumxalq malı) formasında və ya kooperativ-kolxoz mülkiyyəti (ayrı-ayrı kolxozların mülkiyyəti, kooperativ birləşmələrinin mülkiyyəti) formasında" olduğu bildirilirdi (maddə 5). Bununla belə, təkbaşına "kəndlilərin və kustarların şəxsi əməyə əsaslanan və özgə əməyinin istismarına yol verməyən xırda xüsusi təsərrüfatı olmasına qanun tərəfindən yol verilir"di (maddə 9). 6-cı maddədə deyilirdi: "Torpaq, yerin altı, sular, meşələr, zavodlar, fabriklər, şaxtalar, mədənlər, dəmir yol və hava nəqliyyatı, banklar, rabitə vasitələri, dövlət tərəfindən təşkil edilmiş iri kənd təsərrüfatı müəssisələri (sovxozlar, maşın-traktor stansiyaları və s.), habelə şəhərlərdə və sənaye məntəqələrində kommunal müəssisələr və əsas mənzil fondu dövlət mülkiyyətidir, yəni ümumxalq malıdır". Konstitusiya Naxçıvan MSSR-də əməyi "kim işləməzsə, o yeməz" prinsipi üzrə, əmək bacarığı olan hər bir vətəndaşın vəzifəsi və şərəf işi" elan edir, sosializmin "hər kəsdən bacarığına görə, hər kəsə əməyinə görə" prinsipinin həyata keçirildiyi hüquqi norma kimi təsbit edirdi (maddə 12).

Konstitusiyanın "Dövlət quruluşu" adlanan II fəslinin ilk, 13-cü maddəsində deyilirdi: "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası muxtar respublika hüququ ilə Azərbaycan SSR-in tərkibinə daxildir. SSRİ Konstitusiyasının 14-cü mad -

dəsi və Azərbaycan SSR Konstitusiyasının 19-cu maddəsi dairəsindən kənarda, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası dövlət hakimiyyətini muxtar əsasları üzrə həyata keçirir" [149, s. 5]. 1936-cı il SSRİ Konstitusiyasının 14-cü maddəsi SSRİ-nin, 1937-ci il Azərbaycan SSR Konstitusiyasının 19-cu maddəsi Azərbaycan SSR-in ali hakimiyyət və dövlət idarəetmə orqanlarının səlahiyyətində olan məsələlərin dairəsini müəyyənləşdirirdi [211; 209, s. 41-42].

Naxçıvan MSSR-in inzibati ərazisinə Əbrəqunus, Culfa, Ordubad, Naxçıvan, Noraşen (Şərur – ***red.***), Şahbuz rayonları və "Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanlarına tabe olan – Naxçıvan-Araz şəhəri" daxil idi (maddə 14). Konstitusiyanın 113-cü maddəsi müəyyən edirdi ki, "Naxçıvan ASSR-in paytaxtı Naxçıvan-Araz şəhəridir" [149, s. 26]. Muxtar respublikanın ərazisi Naxçıvan MSSR-in razılığı olmadan dəyişdirilə bilməzdi. SSRİ və Azərbaycan SSR qanunlarının muxtar respublika ərazisində məcburi xarakter daşıdığı və Naxçıvan MSSR qanunlarına münasibətdə üstün qüvvəyə malik olduğu, eləcə də muxtar respublika vətəndaşının Azərbaycan SSR və SSRİ vətəndaşı olduğu təsbit edilirdi (maddə 15-17).

Konstitusiyanın 18-ci maddəsi Naxçıvan MSSR ali hakimiyyət və dövlət idarəetmə orqanlarının səlahiyyətinə aşağıdakı məsələləri daxil edirdi: Naxçıvan MSSR-in Konstitusiyasını müəyyən etmək, bunu Azərbaycan SSR Baş Sovetinin təsdiqinə vermək və onun icrasına nəzarət etmək; Naxçıvan MSSR-in rayon bölgüsünü və rayonlarının sərhədlərini müəyyən etmək, kənd, qəsəbə və şəhər Sovetlərini təşkil etmək, onların sərhədlərini müəyyən etmək və Azərbaycan SSR Baş Sovetinin təsdiqinə vermək; Naxçıvan MSSR-in qanunvericiliyi; dövlət nizam-qaydasını və vətəndaşların hüququnu qorumaq; Naxçıvan MSSR-in xalq təsərrüfat planını təsdiq etmək; Naxçıvan MSSR-in büdcəsini təsdiq etmək; SSRİ və Azərbaycan SSR qanunvericiliyinə müvafiq olaraq dövlət vergilərini və yerli vergiləri, yığmaları və vergi olmayan gəlirləri müəyyən etmək; sığorta və əmanət işlərinə rəhbərlik etmək; SSRİ və Azərbaycan SSR orqanlarına tabe olan müəssisələrin vəziyyətinə və idarə edilmələrinə nəzarət etmək; şəhərlərin və başqa yaşayış yerlərinin mənzil və kommunal təsərrüfatına, mənzil inşaatına və avadanlığına rəhbərlik etmək; yol quruluşu, yerli nəqliyyata və yerli rabitəyə rəhbərlik etmək; səhiyyə işlərinə rəhbərlik etmək; ictimai təminat işlərinə rəhbərlik etmək; ibtidai və orta təhsil işlərinə rəhbərlik etmək; ali təhsil işinə nəzarət etmək; mədəni-maarif və elm təşkilatları və müəssisələrinə rəhbərlik etmək; Naxçıvan MSSR məhkəmə orqanlarını təşkil etmək və s. [149, s. 6-7].

Konstitusiyanın III fəsli Naxçıvan MSSR-də dövlət hakimiyyətinin ali orqanı elan edilən Naxçıvan MSSR Baş Sovetinin təşkil olunmasının, strukturunun və fəaliyyətinin konstitusion-hüquqi prinsiplərini müəyyənləşdirirdi. Muxtar respublikanın yeganə qanunverici orqanı olan Naxçıvan MSSR Baş Soveti Naxçıvan MSSR vətəndaşları tərəfindən seçki dairələri üzrə hər 2 min əhaliyə bir deputat norması ilə 4 il müddətinə seçilirdi. Naxçıvan MSSR Baş Soveti özünün sədrini,

onun iki müavinini və özünün sədrdən, onun iki müavinindən, katibdən və 5 nəfər üzvdən ibarət tərkibdə Rəyasət Heyətini (mətndə "Prezidium") seçirdi. Naxçıvan MSSR Baş Sovetinin sessiyaları onun Rəyasət Heyəti tərəfindən ildə iki dəfə çağırılır, burada qanunlar sadə səs çoxluğu ilə qəbul olunurdu. Növbədənkənar sessiyalar Rəyasət Heyəti və ya Baş Sovet deputatlarının üçdə bir hissəsinin tələbinə əsasən çağırıla bilərdi. Naxçıvan MSSR Baş Soveti qarşısında öz fəaliyyəti barədə hesabat verməyə borclu olan onun Rəyasət Heyəti: a) Baş Sovetin sessiyalarını çağırır; b) Naxçıvan MSSR qanunlarını şərh edir, fərmanlar verir; v) ümumxalq rəyini soruşur (referendum keçirir); q) Naxçıvan MSSR Xalq Komissarları Sovetinin qərar və sərəncamlarını, habelə Naxçıvan MSSR rayon və şəhər zəhmətkeş deputatları Sovetlərinin qərar və sərəncamları qanuna müvafiq olmadıqda, onları ləğv edir; ğ) Baş Sovetin sessiyaları arasındakı dövrdə Naxçıvan MSSR XKS sədrinin təqdimatı ilə ayrı-ayrı Xalq Komissarlarını vəzifədən azad və təyin edərək təsdiq üçün sonradan Naxçıvan MSSR Baş Sovetinə təqdim edir; d) Naxçıvan MSSR-in fəxri adlarını verirdi (maddə 30).

Naxçıvan MSSR Baş Soveti deputatlarının vəkalətini yoxlamaq üçün mandat komissiyasını seçir, lazım gəldikdə, hər bir məsələ haqqında istintaq və təftiş komissiyalarını təyin edirdi. Bütün idarələr və vəzifəli şəxslər bu komissiyaların tələblərini yerinə yetirməyə və onlara lazımi material və sənədləri verməyə borclu idilər. Naxçıvan MSSR Baş Sovetinin deputatı Baş Sovetin razılığı olmadan, Baş Sovetin sessiyaları arasındakı dövrdə isə, onun Rəyasət Heyətinin razılığı olmadan məhkəmə məsuliyyətinə cəlb və ya həbs edilə bilməzdi.

Naxçıvan MSSR Baş Sovetinin vəkaləti qurtaran gündən etibarən ən geci iki ay müddətində onun Rəyasət Heyəti Naxçıvan MSSR Baş Sovetini təyin edirdi. Yeni seçilmiş Baş Sovet köhnə çağırışın Rəyasət Heyəti tərəfindən seçkilərdən sonra bir aydan gec olmayaraq çağırılırdı.

Naxçıvan MSSR Baş Soveti muxtar respublikada dövlət hakimiyyətinin ali icraiyyə və sərəncam orqanı olan Naxçıvan MSSR hökumətini – Naxçıvan MSSR Xalq Komissarları Sovetini (XKS) təşkil edirdi. Naxçıvan MSSR XKS Naxçıvan MSSR Baş Soveti qarşısında, onun sessiyaları arasındakı dövrdə isə Baş Sovetin Rəyasət Heyəti qarşısında məsul olub hesabat verirdi. Naxçıvan MSSR XKS SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR qanunlarına, SSRİ və Azərbaycan SSR XKS-in qərar və sərəncamlarına əsasən və onların icrası üçün qərar və sərəncamlar verir və onların icrasını yoxlayırdı. Naxçıvan MSSR XKS-in qərar və sərəncamlarının icrası muxtar respublika ərazisində məcburi idi. Naxçıvan MSSR XKS: a) Xalq Komissarlıqlarının və özünə tabe olan başqa təsərrüfat və mədəniyyət müəssisələrinin işlərini birləşdirir və yönəldir; Ümumittifaq və müttəfiq respublika Xalq Komissarları Müvəkillərinin işlərini birləşdirir və yoxlayır; b) xalq təsərrüfat planının həyata keçirilməsi üçün tədbirlər görür; v) Naxçıvan MSSR-in və yerli büdcələrin həyata keçirilməsi üçün tədbirlər görür; q) ictimai nizam-intizamı

təmin etmək, dövlətin maraqlarını müdafiə etmək və vətəndaşların hüququnu qorumaq üçün tədbirlər görür; ğ) rayon və şəhər zəhmətkeş deputatları Sovetlərinin icraiyyə komitələrinin işlərinə rəhbərlik edir və bu işləri yoxlayırdı.

Naxçıvan MSSR XKS rayon və şəhər Zəhmətkeş Deputatları Sovetlərinin icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək, habelə rayon və şəhər Zəhmətkeş Deputatları Sovetlərinin icraiyyə komitələrinin qərar və sərəncamlarını dayandırmaq, Naxçıvan MSSR Xalq Komissarlarının əmr və təlimatlarını ləğv etmək hüququna malik idi. Naxçıvan MSSR Baş Soveti Naxçıvan ASSR XKS-i aşağıdakı tərkibdə təşkil edirdi:

Naxçıvan MSSR Xalq Komissarları Soveti sədri;
Naxçıvan MSSR Xalq Komissarları Soveti sədrinin iki müavini;
Naxçıvan MSSR Dövlət Plan Komissiyası sədri;
Naxçıvan MSSR-in:
Xalq Yeyinti Sənaye Komissarı;
Xalq Torpaq Komissarı;
Xalq Maliyyə Komissarı;
Xalq Ticarət Komissarı;
Xalq Daxili İşlər Komissarı;
Xalq Ədliyyə Komissarı;
Xalq Səhiyyə Komissarı;
Xalq Maarif Komissarı;
Xalq Yerli Sənaye Komissarı;
Xalq Kommunal Təsərrüfat Komissarı;
Xalq İctimai Təminat Komissarı;
Yol İdarəsi Rəisi;
İncəsənət İşləri İdarəsi Rəisi;
SSRİ Xalq Tədarük Komissarlığı Müvəkkili (maddə 44).

Azərbaycan SSR və Naxçıvan MSSR-in Konstitusiyalarına görə, Naxçıvan MSSR Xalq Komissarları muxtar respublikanın səlahiyyətlərinə daxil olan dövlət idarəçiliyi ilə bağlı sahələrə rəhbərlik edir, SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR-in qanunlarına, SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR XKS-in qərar və sərəncamlarına, Azərbaycan SSR Xalq Komissarlarının əmrləri və təlimatlarına əsasən və bunların icrası üçün, müvafiq Xalq Komissarlıqlarının səlahiyyətləri daxilində əmr və instruksiyalar verir və onların icrasını yoxlayırdılar. Xalq Komis - sarlıqları həm Naxçıvan MSSR XKS-nə, həm də Azərbaycan SSR-in müvafiq Xalq Komissarlıqlarına rabe olaraq, dövlət idarəsinin onlara tapşırılmış sahələrinə rəhbərlik edirdilər (maddə 46-48).

Konstitusiyanın V fəslində göstərilirdi ki, rayonlarda, şəhərlərdə, qəsəbələrdə, kəndlərdə dövlət hakimiyyətinin orqanları müvafiq olaraq rayon, şəhər, qəsəbə, kənd zəhmətkeşləri tərəfindən 2 il müddətinə seçilən Zəhmətkeş Deputat-

ları Sovetləridir (ZDS). ZDS-lər öz ərazilərində mədəni-siyasi və təsərrüfat quruluşuna rəhbərlik edir, yerli büdcəni müəyyənləşdirir, özlərinə tabe olan idarə orqanlarının fəaliyyətinə rəhbərlik edir, dövlət nizam-intizamının qorunması qayğısına qalır, ölkənin müdafiə bacarığını qüvvətləndirməyə kömək edir, qanunlara riayət edilməsini və vətəndaşların hüququnun qorunmasını təmin edirdilər. ZDS-lər, SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR qanunlarının onlara verdiyi səlahiyyətlər çərçivəsində qərarlar qəbul edir və sərəncamlar verirdilər. Rayon, şəhər və kənd ZDS-lərinin icraiyyə və sərəncam orqanları – həmin Sovetlər tərəfindən seçilən: sədr, onun müavinləri, katib və üzvlərdən ibarət icraiyyə komitələri idi. Xırda kəndlərdə ZDS-lərin icraiyyə və sərəncam orqanı – həmin Sovetin sədrindən, onun müavinindən və katibdən ibarət idi (maddə 49-54).

ZDS-lərin icraiyyə komitələri müvafiq ZDS-in və yuxarı dövlət orqanlarının qərarlarına əsasən öz ərazisində mədəni-siyasi və təsərrüfat quruluşuna rəhbərlik edirdi. Rayon ZDS-lərinin sessiyaları onların icraiyyə komitələri tərəfindən ildə 6 dəfədən az olmayaraq, şəhər və kənd ZDS-lərinin sessiyaları isə ayda bir dəfədən az olmayaraq çağırılırdı. Rayon və şəhər ZDS-ləri öz sessiyaları zamanı iclasları aparmaq üçün iclasın sədrini və katibini seçirdilər. Kənd Sovetini onun sədri çağırır və iclaslarını da sədr özü aparırdı. ZDS-lərin icraiyyə orqanları, həm onları seçmiş olan ZDS-ə, həm də onun icraiyyə orqanına bilavasitə hesabat verirdilər. Yuxarı ZDS-lərin icraiyyə komitələri aşağı icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək və aşağı ZDS-lərin qərar və sərəncamlarını dayandırmaq hüququna malik idilər.

Rayon ZDS-ləri öz icraiyyə komitələrinin aşağıdakı şöbələrini təşkil edirdilər: torpaq; xalq maarifi; maliyyə; ticarət; səhiyyə; ictimai təminat; ümumi; yol; plan komissiyasını və icraiyyə komitəsi sədri yanında kadrlar sektoru və rayonun təsərrüfatının xüsusiyyətlərinə müvafiq olaraq, Naxçıvan MSSR Baş Soveti Rəyasət Heyətinin təsdiqi ilə rayon ZDS-ləri: kommunal və yerli sənaye şöbələri təşkil edirdilər. Rayonun şəraitinə uyğun olaraq, SSRİ və Azərbaycan SSR qanunlarına əsasən, Naxçıvan MSSR Baş Soveti Rəyasət Heyətinin təsdiqi ilə Xalq Daxili İşlər Komissarlığı rayon ZDS-ləri yanında öz idarələrini təşkil edirdi. Rayon ZDS-lərinin şöbələri öz fəaliyyətində həm rayon ZDS-ə və onun icraiyyə komitəsinə, həm də Naxçıvan MSSR-in müvafiq Xalq Komissarlığına tabe idilər (maddə 63-65).

Şəhər ZDS-ləri öz icraiyyə komitələrinin aşağıdakı şöbələrini təşkil edirdilər: maliyyə; kommunal təsərrüfat; ticarət; səhiyyə; xalq maarifi; ictimai təminat; ümumi; plan komissiyası və icraiyyə komitəsi sədri yanında kadrlar sektoru və şəhərin sənayesinin, onun şəhər və şəhəryanı təsərrüfatının xüsusiyyətlərinə müvafiq olaraq yerli sənaye və torpaq şöbələri. Şəhər ZDS-lərinin şöbələri öz fəaliyyətində həm şəhər ZDS-ə onun icraiyyə komitəsinə, həm də rayon ZDS-in müvafiq şöbəsinə tabe idilər.

Naxçıvan-Araz şəhər Zəhmətkeş Deputatları Sovetinin şöbələri öz fəaliyyətində həm Naxçıvan-Araz Zəhmətkeş Deputatları Sovetinə və onun icraiyyə komitəsinə, həm də bilavasitə Naxçıvan MSSR-in müvafiq Xalq Komissarlığına tabe edilirdi [149, s. 16-17].

Naxçıvan MSSR-in büdcəsi (VI fəsil) muxtar respublika XKS tərəfindən tərtib edilir, Naxçıvan MSSR-in Baş Soveti tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir və "hamının bilməsi üçün elan edilir"di. Büdcənin icrası haqqında hesabat da Baş Sovetdə təsdiq olunurdu. "Naxçıvan MSSR-in büdcəsinə rayon, şəhər və kənd Sovetlərinin yerli büdcələrinə yerli təsərrüfatdan olan gəlirlər, onların ərazisindəki dövlət gəlirlərindən ayırmalar, habelə SSRİ və Azərbaycan SSR qanunvericiliyi ilə müəyyən edilən miqdarda yerli vergi və yığmalar"dan ibarət vəsait daxil idi (maddə 72).

1937-ci il Konstitusiyası Naxçıvan MSSR-də məhkəmə hakimiyyətini (maddə 73-80) və prokurorluq sistemini (maddə 81-84) özünün VII fəslində əksini tapmış hüquqi normalarla müəyyənləşdirirdi. Əsas Qanuna görə, Naxçıvan MSSR-də ədalət mühakiməsi xalq məhkəmələri, Naxçıvan MSSR Ali Məhkəməsi tərəfindən, habelə SSRİ Baş Sovetinin qərarı ilə yaradılan SSRİ-nin xüsusi məhkəmələri tərəfindən həyata keçirilir, bütün məhkəmələrdə işlərə, qanunda xüsusi surətdə göstərilən hallardan başqa, xalq iclasçılarının iştirakı ilə baxılırdı. Naxçıvan MSSR Baş Soveti tərəfindən 5 il müddətinə seçilən Naxçıvan MSSR-in Ali Məhkəməsi muxtar respublikanın ali məhkəmə orqanı idi və Naxçıvan MSSR-in bütün məhkəmə orqanlarının mühakimə fəaliyyətinə nəzarət edirdi. Xalq məhkəmələri rayon vətəndaşları tərəfindən gizli səs vermə yolu ilə ümumi, müstəqim və bərabər seçki hüququna əsasən 3 il müddətinə seçilirdi. Muxtar respublikanın bütün məhkəmələrində müttəhimə müdafiə hüququ təmin edilir və qanunda nəzərdə tutulan müstəsna hallardan başqa, işlərə açıq baxılırdı. Konstitusiya hakimləri müstəqil və ancaq qanuna tabe olduqlarını bəyan edirdi.

Naxçıvan MSSR ərazisində bütün Xalq Komissarlıqları və onlara tabe olan idarələr, habelə ayrı-ayrı vəzifəli şəxslər, həmçinin vətəndaşlar tərəfindən qanunların dürüst yerinə yetirilməsinə ali nəzarət SSRİ Prokuroru tərəfindən həm bilavasitə, həm də Azərbaycan SSR və Naxçıvan MSSR Prokuroru vasitəsilə həyata keçirilirdi. Naxçıvan MSSR Prokuroru SSRİ Prokuroru tərəfindən 5 il müddətinə təyin edilirdi. Muxtar respublikanın rayon və şəhər prokurorları SSRİ Prokuroru tərəfindən təsdiq olunmaqla Azərbaycan SSR Prokuroru tərəfindən 5 il müddətinə təyin edilirdilər. Konstitusiyaya görə muxtar respublikanın prokuratura orqanları "ancaq SSRİ və Azərbaycan SSR Prokuroruna tabe olaraq, öz funksiyalarını heç bir yerli orqandan asılı olmadan həyata keçirir"di.

1937-ci il Konstitusiyasının əvvəlki Əsas Qanundan başlıca fərqlərindən biri burada "Vətəndaşların əsas hüquq və vəzifələri" adlı ayrıca fəslin (VIII fəsil) olması idi. Naxçıvan MSSR vətəndaşlarına əmək hüququna, yəni əməklərinin

miqdar və keyfiyyətinə müvafiq olaraq haqqı ödənilməklə, zəmanətli iş almaq hüququ verilirdi. Əmək hüququ xalq təsərrüfatının sosialistcəsinə təşkili ilə, sovet cəmiyyətinin məhsuldar qüvvələrinin durmadan artması ilə, təsərrüfat böhranları imkanının aradan qaldırılması ilə və işsizliyin ləğv edilməsi ilə təmin edilirdi. 86-cı maddə vətəndaşların istirahət hüququnu tanıyırdı. Bu hüququn təmin olunmasından ötrü fəhlələrin böyük çoxluğu üçün iş gününün 7 saata qədər azaldılması, fəhlə və qulluqçuların əməkhaqqı ödənilməklə hər il məzuniyyətə buraxılması, zəhmət-keşlərə xidmət üçün geniş sanatoriyalar, istirahət evləri, klublar şəbəkəsi təqdim olunması vasitəsi ilə həyata keçirilirdi. Müəyyən edilirdi ki, vətəndaşlar qocaldıqda, habelə xəstələndikdə və əmək bacarığını itirdikdə maddi təminat hüququna malikdirlər. Bu hüququn konstitusion təminatı özünü fəhlə və qulluqçuların dövlət hesabına ictimai sığortasının həyata keçirilməsində, zəhmətkeşlərə pulsuz tibbi yardımda, onların istifadəsinə geniş kurortlar şəbəkəsinin verilməsində göstərirdi.

Naxçıvan MSSR vətəndaşları öz təhsil hüquqlarını ümumi icbari ibtidai təhsil və ali təhsil də daxil olmaqla bütün təhsilin pulsuz olmasından, ali məktəbdə oxuyanların böyük əksəriyyəti üçün dövlət tərəfindən tətbiq olunan təqaüd siste-mindən, məktəblərdə təhsilin ana dilində olmasından, zavodlarda, sovxozlarda, maşın-traktor stansiyalarında və kolxozlarda, zəhmətkeşlərin istehsal, texniki və aqronom təhsilinin pulsuz olaraq təşkilindən istifadə etməklə həyata keçirirdilər.

Naxçıvan MSSR-də bütün təsərrüfat, dövlət, mədəni və ictimai-siyasi sahələrdə qadınların kişilərlə bərabər hüquqları tanınırdı. Qadınların bu hüququnun həyata keçirilməsi imkanı əmək, əməkhaqqı, istirahət, ictimai sığorta və təhsil üçün qadına kişi ilə bərabər hüquq verilməsi, ananın və uşağın mənafeyinin dövlət tərəfindən qorunması, qadına hamilələlik zamanı əməkhaqqı saxlanılmaqla məzuniyyət verilməsi, doğum evlərinin, uşaq bağçalarının geniş şəbəkəsinin mövcudluğu ilə təmin edilirdi.

Konstitusiya bütün təsərrüfat, dövlət, mədəni və ictimai-siyasi yaşayış sahələrində, millətindən və irqindən asılı olmayaraq Naxçıvan MSSR-in vətən-daşlarının hüquq bərabərliyini "sarsılmaz bir qanun" elan edirdi (maddə 90). İrqinə, milli mənsubiyyətinə görə vətəndaşların hüququnun açıq-aşkar və ya dolayı yolla hər hansı bir şəkildə məhdudlaşdırılması, eləcə də əksinə, açıq-aşkar və ya dolayı yolla onlara üstünlük verilməsi, habelə irq və ya milli müstəsnalığın, nifrət və etinasızlığın hər hansı bir şəkildə təbliğ edilməsi qanunla cəzalandırılırdı.

Vətəndaşlara vicdan azadlığı təmin etmək məqsədi ilə Naxçıvan MSSR-də dinin dövlətdən və məktəbin dindən ayrıldığı bəyan edilir, bütün vətəndaşların dini ayinləri icra etməklə yanaşı, din əleyhinə təbliğat aparmaqda azad olduqları bildirilirdi.

Konstitusiya vətəndaşlara söz, mətbuat azadlığını, yığıncaqlar və mitinqlərin təşkilini, küçə yürüşləri və nümayişlərin keçirilməsinə "zəhmətkeşlərin maraq-larına müvafiq olaraq və sosializm quruluşunu möhkəmləndirmək məqsədi ilə"

qanunla təminat verildiyini elan edirdi [149, s. 22]. Başqa sözlə, 92-ci maddədə vətəndaşlara tanınan bu hüquqların həyata keçirilməsi bu hüquqların yalnız mövcud quruluşun möhkəmləndirilməsinə xidmət naminə istifadə edilməsi zamanı mümkün idi. Bu hüquq vətəndaşlara və onların təşkilatlarına mətbəələr, kağız ehtiyatı, ictimai binalar, küçələr, rabitə vasitələri və həmin hüquqları həyata keçirmək üçün lazım olan başqa maddi şərait verilməklə təmin edilirdi.

Konstitusiyanın 93-cü maddəsi bütün ölkədə olduğu kimi, Naxçıvan MSSR-də də kommunist partiyasının hökmran mövqeyinin ali hüquqi səviyyədə bəyan edilməsi ilə əlamətdar idi: "Zəhmətkeşlərin maraqlarına müvafiq olaraq və xalq kütlələrinin təşkilatca öz fəaliyyətini və siyasi aktivliyini inkişaf etdirmək məqsədilə Naxçıvan MSSR vətəndaşlarına ictimai təşkilatlarda: həmkarlar ittifaqlarında, kooperativ birləşmələrində, gənclər təşkilatlarında, idman və müdafiə təşkilatlarında, mədəni, texniki və elmi cəmiyyətlərdə birləşmək hüququ təmin edilir, fəhlə sinfinin və zəhmətkeşlərin başqa təbəqələrinin sıralarından olan ən aktiv və şüurlu vətəndaşlar isə sosialist quruluşunu möhkəmləndirmək və inkişaf etdirmək uğrunda zəhmətkeşlərin mübarizəsində onların qabaqcıl dəstəsi və zəhmətkeşlərin bütün həm ictimai, həm də dövlət təşkilatlarının rəhbər yadrosu olan Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasında birləşirlər" [149, s. 22].

Vətəndaşların şəxsiyyətinin toxunulmazlığı özünü məhkəmənin qərarı və ya prokurorun sanksiyası olmadan heç kəsin həbsinə yol verilməməsində göstərirdi.

Vətəndaşların mənzil toxunulmazlığı və yazışma sirri qanunla qorunurdu.

Konstitusiya Naxçıvan MSSR-ə zəhmətkeşlərin mənafeyini müdafiə etdiyinə, elmi fəaliyyətinə və ya milli azadlıq uğrunda mübarizəsinə görə təqib edilən xarici vətəndaşlara sığınacaq verilməsi hüququnu tanıyırdı.

Əsas Qanunda göstərilən hüquq və azadlıqlarla bərabər, vətəndaşların vəzifə borclarına dair hüquqi müddəalar da əks olunmuşdu. Naxçıvan MSSR-in hər bir vətəndaşı SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR Konstitusiyalarına riayət etməyə, qanunları yerinə yetirməyə, əmək intizamına əməl etməyə, ictimai vəzifəyə vicdanla yanaşmağa, sosialist birgəyaşayış qaydalarına hörmət etməyə borclu idi. Eyni zamanda muxtar respublikanın "hər bir vətəndaşı sovet quru - luşunun müqəddəs və toxunulmaz əsası olan, vətənin sərvət və qüdrət mənbəyi olan, bütün zəhmətkeşlərin varlı və mədəni həyat mənbəyi olan ictimai, sosialist mülkiyyətini" qorumalı və möhkəmləndirməli idi. İctimai, sosialist mülkiyyətinə qəsd edən şəxslər xalqın düşməni elan edilirdi.

Ümumi əsgərlik vəzifəsi bir qanun, "Fəhlə-Kəndli Qrmızı Ordusunda əsgərlik xidməti" vətəndaşların şərəfli vəzifəsi hesab olunurdu. Vətəni müdafiə etmək hər bir vətəndaşın müqəddəs borcu sayılırdı. Vətənə xəyanət: andı pozmaq, düşmən tərəfinə keçmək, dövlətin hərbi qüdrətinə zərər vurmaq, casusluq ən ağır cinayət kimi "qanunun bütün şiddəti ilə" cəzalandırılırdı.

Konstitusiyanın X fəsli Naxçıvan MSSR-in seçki sistemini müəyyənləşdirən


hüquqi normalardan ibarət idi. Muxtar respublikada seçkili orqanlar olan bütün Zəhmətkeş Deputatları Sovetlərinə (ZDS): Naxçıvan MSSR Baş Sovetinə, rayon, şəhər və kənd ZDS-lərinə deputatlar seçicilər tərəfindən gizli səsvermə ilə ümumi, bərabər və müstəqim seçki hüququ əsasında seçilirdi. 102-ci maddədə deyilirdi: "Deputat seçkiləri ümumidir: ağıldan məhrum olan, məhkəmə tərəfindən məhkum olunub seçki hüququndan məhrum edilmiş şəxslərdən başqa, Naxçıvan MSSR-in 18 yaşı tamam olmuş vətəndaşlarının hamısı irq və milliyyət mənsubiyyətindən, dinindən, təhsil dərəcəsindən, oturaqlığından, ictimai nəslindən, əmlak vəziyyətindən və keçmiş fəaliyyətindən asılı olmayaraq deputat seçkilərində iştirak etmək və seçilmək hüququna malikdirlər" [149, s. 24].

Qadınlar kişilərlə bərabər seçmək və seçilmək hüququna malik idilər. Sovet ordusu (Qırmızı Ordu) sıralarında olan vətəndaşların bütün vətəndaşlarla bərabər seçmək və seçilmək hüququ var idi. Bu, Konstitusiyanın hərbi qulluqçulara həm passiv, həm də aktiv seçki hüququnu tanıması demək idi. Kənd və şəhər ZDS-lərindən başlayaraq Naxçıvan MSSR Baş Sovetinə qədər bütün ZDS-lərə seçkilər vətəndaşlar tərəfindən bilavasitə müstəqim seçki yolu ilə icra edilirdi. Deputat seçkilərində səsvermə gizli keçirilirdi.

108-ci maddədə zəhmətkeş deputatları Sovetlərinə seçkilərdə deputatlıq normaları müəyyənləşdirilirdi. Rayon Sovetinə hər 1000 nəfər əhaliyə bir deputat olmaqla, 25 min nəfərədək əhalisi olan rayonlarda 25 deputat, 60 min nəfərdən çox əhalisi olan rayonlarda 60 deputat seçilirdi. Şəhər Sovetinə, şəhərin böyüklüyündən asılı olaraq, ən azı 350 və ən çoxu 500 nəfər əhalidən bir deputat olmaqla, 12 min nəfərədək əhalisi olan şəhərlərdə 35 deputat seçilirdi. Kənd və qəsəbə Sovetlərinə 100 nəfər əhaliyə bir deputat olmaqla, 1000 nəfərədək əhalisi olan kənd və qəsəbələrdə 9 deputat, 2500 nəfərdən yuxarı əhali olduqda, ən çoxu 25 deputat seçilirdi. Hər bir rayon, şəhər, kənd və qəsəbə ZDS-i üçün seçki normaları həmin maddədə göstərilən seçki normaları daxilində, "Naxçıvan ASSR zəhmətkeş deputatları Sovetlərinə seçkilərə dair Əsasnamə" ilə müəyyən edilirdi [149, s. 25].

İctimai təşkilatlara və zəhmətkeş cəmiyyətlərinə: kommunist partiya təşkilatlarına, həmkarlar ittifaqlarına, kooperativlərə, gənclər təşkilatlarına, mədəni cəmiyyətlərə seçki dairələri üzrə deputatlığa namizəd göstərmək hüququ tanınırdı. Hər bir deputat öz işi və deputatı olduğu ZDS-in işi haqqında seçicilər qarşısında hesabat verməyə borclu idi və seçicilərin çoxluğunun qərarı ilə qanunda müəyyən edilmiş qayda üzrə deputatlıqdan istənilən zaman geri çağırıla bilərdi (maddə 110).

Konstitusiyanın X fəsli Naxçıvan MSSR-in dövlət atributlarını (gerbini, bayrağını) və paytaxtını müəyyən edirdi. Muxtar respublikanın dövlət gerbi "Azərbaycan SSR-in dövlət gerbindən ibarətdir ki, bu da üzərində Azərbaycan və rus dillərində: "Azərbaycan Sovet Sosialist Respublikası" və "Bütün ölkələrin proletarları, birləşin!" sözləri yazılmış və doğmaqda olan günəş fonu üzərində təsvir edilib, pambıq və sünbül əklili ilə haşiyələnmiş oraq və çəkicdən və qabaq planda



Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının bayrağı (1937)



Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının gerbi (1937)

neft buruğundan ibarət olaraq, gerbin yuxarısında beş guşəli ulduz vardır, gerbin aşağısında lent üzərində kiçik hərflərlə Azərbaycan və rus dillərində "Naxçıvan ASSR" sözləri yazılmışdır". Muxtar respublikanın dövlət bayrağı da öz növbəsində "Azərbaycan SSR-in dövlət bayrağından ibarətdir ki, bu da sol bucağında, bayraq ağacı yanında, yuxarıda, qızılla oraq və çəkic çəkilmiş və Azərbaycan dilində "AzSSR" sözləri yazılmış və "AzSSR" yazısı altında kiçik hərflərlə Azərbaycan dilində "Naxçıvan ASSR" sözləri əlavə edilmiş qırmızı qumaşdan ibarət" idi. Naxçıvan MSSR-in paytaxtı Naxçıvan-Araz şəhəri idi.

Əsas Qanunun sonuncu, 114-cü maddəsi ona dəyişikliklərin edilməsi qaydasını müəyyənləşdirirdi. Konstitusiya Naxçıvan MSSR Baş Sovetinin səslərinin üçdə iki hissəsindən az olmayan çoxluğunun qəbul etdiyi qərarı və Azərbaycan SSR Baş Sovetinin təsdiqi ilə dəyişdirilə bilərdi.

10. Naxçıvanda repressiyalar

Naxçıvan mahalında 1920-ci illərin əvvəllərindən sovet quruluşuna qarşı çıxanlar, üsyançılar, sovetləşməyə açıq etiraz edənlər, qaçaqlar məhv edilməyə başlandı. Yalnız 20-ci illərdə erməni müstəntiqlərinin imzası ilə Şahbuz rayonunun Keçili, Culfa rayonunun Milax kəndində "quldur", "qaçaq" adı ilə 38 nəfər güllələndi, 75 nəfər isə müxtəlif cəzalara məhkum edildi [62]. 1920-ci illərin sonlarında təsərrüfat səhəsində tətbiq edilən beşillik plan 30-cu illərdə repressiyalara da şamil edildi. Hər iki sahədə plan yerinə yetirilmədikdə repressiyalar tətbiq edilirdi. Naxçıvanda yüzlərlə adam dövlət planını yerinə yetirmədiyinə görə sürgün edilmişdi [163, v. 7].

Naxçıvanda sovetləşmənin ilk illərində keçirilən açıq məhkəmələr 30-cu illərdə demək olar ki, olmurdu. Hətta bir çox hallarda heç müttəhimin, müdafiəçinin və şahidlərin özləri də məhkəmədə iştirak etmirdi. Məhkəmələr tam qapalı şəraitdə keçirilir, müddəti 15-20 dəqiqə çəkirdi. 1936-cı ildən başlayaraq siyahılar tərtib edilir və siyasi büro üzvlərinin imzasından sonra hökm icra olunurdu.

1920-ci ilin əvvəllərində İranda yaşayan azərbaycanlıların Naxçıvana köçmə-

sinə razılıq verilirdisə, 30-cu illərdə onlar ya İrana sürgün edilir, ya da repressiyanın digər formalarına məruz qalırdılar. Bu müqayisələrdən aydın olur ki, 30-cu illərin kütləvi repressiyalarının əsası 20-ci illərdə qoyulmuş və belə bir şüar üzərində qurulmuşdu: "Kim bizdən deyilsə, bizim düşmənimizdir". 30-cu illərdə isə bu şüarın xarakteri və mahiyyəti də dəyişdi: "Bizdən olanlar da bizim düşmənimizdir" şəklində öz formulasını tapdı. Deməli, sovetləşmənin ilk 10 ilində Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları və onu bərpa etməyə cəhd edənlər, milli düşüncəyə malik olanlar təqib və təzyiqlərə məruz qalırdılarsa, 30-cu illərdə bunlarla yanaşı, sovet hökumətini yaradanlar və quranlar da repressiyalara hədəf seçilirdi. Bu qurbanların başında isə ziyalılar – alimlər, teatr xadimləri, şairlər, yazıçılar, tənqidçilər, partiya nümayəndələri, hərbçilər, bir sözlə düşünməyi bacaran hər kəs dayanırdı. 20-ci illərdə savadsızlığın ləğvi üçün mühüm islahatlar həyata keçirilirdisə, 30-cu illərdə ziyalılar məhv edilirdi. Məqsəd yeni sovet nəsli yetişdirmək və milli ruha malik olanları, sovet adamına çevrilməyənləri yox etməkdən ibarət idi.

1923-cü ildə "Müsavat" partiyasının gizli fəaliyyətinin üstü təsadüfən açıldıqdan sonra repressiyaların coğrafiyası və sosial-sinfi dairəsi də genişlənməyə başladı. Artıq əvvəlki ittihamlara biri də əlavə olundu: gizli təşkilatın üzvü olmaq və antisovet təbliğatı aparmaq. Bu maddələrlə ittiham olunanların çoxu bir-iki aydan sonra yenidən azadlığa buraxılırdı. Şübhəsiz ki, bunlar nəzarətdən kənarda qalmırdılar və sonradan yenidən və daha total repressiyalara məruz qalırdılar.

1923-cü ildə Naxçıvanın muxtariyyət statusu məhdudlaşdırıldı və o, muxtar diyara çevrildi. Müəyyən qüvvələr Naxçıvanın hüquqlarını məhdudlaşdırmaq istəyirdilər. 1925-ci ilin martında guya Naxçıvanın hakimiyyət strukturlarındakı "xanbəy elementləri"nin fəaliyyətini araşdırmaq üçün Naxçıvana xüsusi komissiya göndərilmiş, bir gecədə 50 rəhbər işçi həbs olunmuş, onlardan 48-i repressiyaya məruz qalmışdı. Bunlar o adamlar idilər ki, Naxçıvanın ermənilərdən müdafiəsində xüsusi fəallıq göstərmişdilər.

Bu dövrdə həyata keçirilən repressiyalar kommunistlərdən də yan keçmirdi. Azərbaycan K(b)P-də "təmizləmədən" keçən 37.979 kommunistdən 4.106 nəfəri və ya 10,8%-i partiyadan xaric edildi [27, v. 82-83]. Kommunistlərin repressiyalara məruz qalmasının əsas səbəbi 20-ci illərin əvvəllərində Azərbaycanda gedən hakimiyyət çəkişmələri, ermənilərin qisasçılıq ehtirası, müsəlmanlara inamsızlıq və s. idi. Həmin illərdə Naxçıvan partiya komitəsində çalışan onlarla adam həbs edilmişdi. Təmizləmə adı ilə Naxçıvanda həyata keçirilən tədbirlərdə müxtəlif vaxtlarda 300-dən çox yüksək vəzifədə çalışan partiya üzvü (rayon partiya komitəsinin katiblərindən kolxoz sədrinə qədər) repressiyalara məruz qalmışdı.

1932-ci ildən 1937-ci ilə kimi Naxçıvan Vilayət Partiya Komitəsində üç katib dəyişdirildi. Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Mehdi Mehdiyev həbs edildikdən sonra onunla birlikdə çalışan və sovet hökumətinin

möhkəmlənməsində yaxından iştirak edən partkabinetin müdiri Abasqulu Hacıyev, vilayət partiya komitəsinin katibi Hüseyn Mahmudov və başqalarını həbs etdilər. Bunlara yaxın olanlarıın ən yüngül cəzası isə partiyadan xaric edilmək oldu.

Əbrəqunus rayonunun (indiki Culfa – ***red.***) partiya komitəsində katib işləyən Murtuz Hüseyn oğlu Süleymanov da həmin dövrün kommunist qurbanlarından idi. Onu təmizləmə zamanı humanistlik etməkdə, ləkəli adamları partiya sıralarında saxlamaqda ittiham edərək 8 il müddətinə azadlıqdan məhrum etdilər [59].

Naxçıvanda 5 iyun 1933-cü ildə tərtib olunmuş sənəddə göstərilir ki, 1931-1932-ci ildə təkcə Şərur rayonunun Xanlıqlar kəndindən 8 , Dərvişlər kəndindən 2, Şahtaxtı kəndindən 19, Püsyan sovetliyindən 12, Aralıq sovetliyindən 5, Yengicə sovetliyindən 31, Dəmirçi sovetliyindən 19, Daşarxdan 1, Sədərək sovetliyindən 7 nəfər kolxozçu qolçomaq, kolxoz quruluşuna qarşı çıxaraq antisovet təbliğat aparan şəxslər kimi repressiyalara məruz qalmışdır [160, v. 1-3].

Naxçıvanda həbs olunanların çoxu trotskiçilikdə, zinovyevçilikdə ittiham olunurdu. Müttəhimlər arasında elələri var idi ki, onlar Trotski və ya Zinovyev sözünü belə düzgün tələffüz edə bilmir və ya bu adları təzə eşidirdi. Belə çıxırdı ki, Trotski və Zinovyev bütün SSRİ-də terror hazırlamış və ölkədə çevriliş aksiyası həyata keçirməyi planlaşdırmışdılar.

Bir çox istintaq materiallarında göstərilirdi ki, müttəhimlər partiya rəhbərlərinə qarşı terror aksiyası hazırlamış və ya bu terror aksiyasından xəbərdar olsa da, hüquq-mühafizə orqanlarını məlumatlandırmamışdır. Qambay Vəzirova qarşı sürülən ittihamlar içərisində onu Ruhulla Axundovla birləşərək dövlət çevrilişi etməkdə, partiya və dövlət rəhbərlərinə qarşı sui-qəsdlər hazırlamaqda, eyni zamanda Trotskiçi-Zinovyevçi təşkilatlarla əlaqə saxlamaqda ittiham edirdilər [137, v. 98].

Bu dövrdə əyalət prokurorluğunun bir çox səlahiyyətləri də əllərindən alınıb XDİK "üçlüklər"inə verildi. Arxiv materiallarından aydın olur ki, əyalətlərdəki üçlüklər gün ərzində 100-dən çox işə baxırdılar.

Naxçıvanlılar siyasi zorakılıqlarla ən ağır işgəncələrə məruz qaldı və 35 minə yaxın milli düşüncə sahibi repressiyaların qurbanına çevrildi. Lakin həyata keçirilən total tədbirlərə, repressiv aksiyalara baxmayaraq, Azərbaycan xalqı, o cümlədən naxçıvanlılar, öz istiqlaliyyəti uğrunda mübarizələrini axıradək davam etdirdilər, böyük itkilər versələr də, öz idealından dönmədilər.

Bu siyasi repressiyalar zamanı üç kütləvi kateqoriyadan istifadə olunurdu. Birinci kütləvi kateqoriyaya – dövlət təhlükəsizlik orqanları tərəfindən siyasi ittihamlara görə həbs edilmiş və məhəkəmə orqanları tərəfindən ölüm hökmünə məhkum olunmuş şəxslər daxil idi. Belə müttəhimlərə son söz olaraq 15-20 dəqiqə vaxt verilirdi. Müttəhimə cinayətini təsdiq və ya inkar etməsindən asılı olmayaraq, əvvəlcədən hazırlanmış hökm oxunur və az müddətdən sonra icra olunurdu.

Siyasi motivlər əsasında repressiyaya məruz qalmış digər kütləvi kateqoriya

– "qolçomaqlığın bir sinif kimi ləğvi" kampaniyası dövründə yaşayış yerlərindən inzibati qaydada köçürülmüş, sürgün edilmiş şəxslər daxil idi.

Siyasi repressiya qurbanlarının üçüncü kütləvi kateqoriyasına daimi yaşayış yerlərindən Sibirə, Orta Asiyaya və Qazaxıstana bütövlüklə köçürülmüş xalqlar, etnik qruplar daxil idi. Əlbəttə, Azərbaycan xalqı bütöv bir xalq olaraq buna məruz qalmasa da Azərbaycanda yaşayan almanlar bütövlükdə sürgünə məruz qalmışlar. Bundan başqa, Qafqazda yaşayan çeçenlər və Mesxeti türkləri də belə repressiyaların qurbanı olmuşdur.

Milyonlarla insan müxtəlif "cinayət" və dissiplinar səhvlərə görə cəzalanmışlar ki, bunlar da üç kateqoriyanın heç birinə şamil edilmirdi. Pasport rejiminin pozulması, tüfeylilik, iş yerinin özbaşına dəyişdirilməsi və ya kolxozu tərk etməyə görə, işə gecikmək, işə gəlməmək, alverçilik və s. bu kimi hallara görə məsuliyyətə cəlb edirdilər. Onların böyük əksəriyyəti cəzaları kiçik olduğuna görə repressiya qurbanları sayılmırdı. Amma həmin cinayətlərdə ittiham edilənlər arasında güllələnən və ya bir neçə il müddətinə azadlıqdan və səsvermə hüququndan məhrum edilən adamlar da az olmamışdır. Bu kateqoriyalarla məhkum olunanlar arasında naxçıvanlı ziyalılar və digər zümrənin nümayəndələri də az deyildi. Onların siyahıları mərkəzləşmiş qaydada tərtib edilir və müttəhimin sənədləri ilə birlikdə Bakıya göndərilirdi. Bəzi müttəhimlərin özü də sonradan Bakıya aparılırdı. Ölüm hökmü oxunanların demək olar ki, hamısı Bakıya etab olunur və Nargin adasında güllələnirdi. Bu siyahıları isə Naxçıvan XDİK-in əməkdaşları tərtib edirdi. Bu əməkdaşlar arasında çoxluğu erməni və digər millətin nümayəndələri təşkil edirdi: "Erməni çekistləri Naxçıvanda xüsusi canfəşanlıqla çalışırdılar. Orbelyan, Akopov, Nersesov, Mosesov, Parseqov muxtar respublikanın bütün bölgələrində baş cəllad kimi tanınırdılar" [61, s. 41].

Ermənilər Azərbaycan SSR XDİK-in məsul və sözü keçən işçiləri olan sumbatovlardan, qriqoryanlardan, markaryanlardan, ohanesyanlardan, qalstyanlardan, avanesyanlardan, borşovlardan, gerasimovlardan və digərlərindən dəstək və təlimatlar alaraq öz tarixi düşmənçiliklərini Naxçıvanda da davam etdirir, müxtəlif uydurma və bəhanələrlə xalqımızın sayılıb seçilən oğullarını – alim, yazıçı, aktyor, müəllim, hərbçi, din xadimi, partiya işçisi, bir sözlə, əxlaq və əqidə sahiblərinin hamısını məqsədli surətdə məhv etməyə çalışırdılar. Bu soyqırım prosesində Naxçıvanda yaşayan ermənilər də az rol oynamırdılar. Belə ki, onların vasitəsi ilə əldə edilmiş danoslardan istifadə edərək minlərlə həmyerlimizi XDİK-in zindanlarına gətirir, onların yalan ifadələri ilə də istintaqı başa çatdırır və hökm çıxarırdılar.

Hər il təqib və təzyiqlərə məruz qalanların sayı bir neçə dəfə artsa da, Mir Cəfər Bağırov 1934-cü ilin yanvarında keçirilən Azərbaycan K(b)P-nin XII qurultayında buna narazılığını bildirərək demişdi: "Biz düşmənləri hələ əzməmişik". M.C.Bağırov hüquq-mühafizə orqanları qarşısında tələb qoyurdu ki, hər yerdə (xüsusilə də ziyalılar arasında) antisovet elementlər, trotskiçilər, terrorçular, sui-

qəsdçilər, millətçilər, pantürkistlər, panislamistlər axtarmaq lazımdır. Bunun nəticəsində 30-cu illərin ortalarından başlayaraq, "xalq düşməni", "vətən xaini" axtarışı daha da gücləndi. 1937-1938-ci illərdə 29 mindən çox ziyalı qətlə yetirildi. Bu ziyalılar arasında görkəmli şair-dramaturq Hüseyn Cavid də var idi. O, 3 iyun 1937-ci ildə Az. SSR XDİK DTİ tərəfindən imzalanmış 509 saylı orderə əsasən həbs olunmuş [130, v. 12] və müddəti 4 iyun 1937-ci ildən hesablanmaqla səkkiz il müddətinə azadlıqdan məhrum edilmişdi.

1937-ci ilin ziyalı qurbanlarından biri də tanınmış şair Əliqulu Qəmküsarın qardaşı, tərcüməçi və müəllim Rzaqulu Ələkbər oğlu Nəcəfov və onun əmisi oğlu Nəcəfqulu Məşədi Məmmədhüseyn oğlu Nəcəfov idi. Azərbaycan SSR XDİK-in 21 oktyabr 1937-ci il tarixli qərarı ilə Nəcəfov Rzaqulu əmlakı müsadirə olunmaqla güllələnməyə məhkum edilmişdi. 29 noyabr 1937-ci ildə Rzaqulu Nəcəfov və Nəcəfqulu Nəcəfov güllələnmişdi [134, v. 107].

Repressiyaların ağrılarını yaşayanlar arasında Azərbaycanın görkəmli səhnə ustası Kazım Ziya Kazımzadə 1937-ci ildə [121], yazıcı Ənvər Qasımov (Ənvər Yusifoğlu) isə 1938-ci ildə [127] XDİK əməkdaşları tərəfindən həbs edilmiş, lakin uzun-uzadı dindirmələrdən, üzləşdirmələrdən, psixoloji sarsıntılardan, fiziki işgəncələrdən sonra əməllərində cinayət tərkibi olmadığına görə azadlığa buraxılmışdılar.

Azərbaycanın tanınmış ziyalılarından olan şair Əli Səbri Qasımov da 1937-ci ildə antisovet, millətçi, panislamist təşkilatda iştirak etməkdə müqəssir bilinərək həbs edilmiş və 11 fevral 1940-cı ildə azadlığa buraxılmışdır. O, 1944-cü ildə yenidən həbs edilmiş və əməllərində cinayət tərkibi olmadığına görə 1945-ci ildə azadlığa buraxılmışdır [125, v. 93].



Diviziya komandiri Qambay Vəzirov

1930-cu illərdə repressiyaya məruz qalanlar arasında müxtəlif peşə sahibləri, hətta hərbçilər, o cümlədən generallar da var idi. Belə ki, Azərbaycanın hərbi quruculuğunda yaxından iştirak etmiş general Qambay Vəzirov və general Cəmşid Naxçıvanski 1937-ci ildə ailə üzvləri ilə birlikdə məhrumiyyətlərə düçar olmuşdu. XDİK-in dövlət təhlükəsizlik kapitanı Avanesyan general Qambay Vəzirovu Azərbaycan diviziyasındakı əksinqilabi millətçi, hərbi sui-qəsdçi təşkilatın üzvü olmaqda ittiham edərək XDİK-in sədri Sumbatovun razılığı ilə 27 iyul 1937-ci ildə həbs etdi. Həmin gün aparılan ilkin dindirmə zamanı Qambay Vəzirov özünün heç bir əksinqilabi millətçi, sui-qəsdçi, antisovet təşkilatda təmsil olunmadığını bildirdi [137, v. 47].

Avanesyanın tərtib etdiyi saxta ittihamnaməyə əsasən müqəssir bilinən [99, s. 105-106] Qambay Vəzirov 1937-ci il oktyabrın 13-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qapalı məhkəmə iclasının hökmü ilə güllələndi [157]. Azərbaycan diviziyasının 40 nəfər yüksək rütbəli zabiti və respublika hərbi komissarlığının 20 nəfər zabiti də bu işlə əlaqədar həbs edilib güllələndilər [51, s. 40].



Cəmşid Naxçıvanski Lefortovo həbsxanasında. 1938

Məhkəmə başa çatmamış, 1937-ci il oktyabrın 5-də Qambay Vəzirovun həyat yoldaşı İzzət Vəzirova həbs edildi. O, XDİK-in 8-ci şöbəsinin baş inspektoru Moşeçkov tərəfindən cəmi bir dəfə dindirildi. Dekabrın 9-da onun barəsində belə bir hökm çıxarıldı: vətən xaininin ailə üzvü Vəzirova İzzət İsmayıl qızı 8 il müddətinə azadlıqdan məhrum edilsin [129, v. 21]. İzzət xanım həbsxanada olarkən onun 9-cu sinifdə oxuyan oğlu Yavuz Vəzirov 1937-ci il noyabrın 11-də həbs edildi və azyaşlı olmasına baxmayaraq ona 3 il həbs cəzası kəsildi [126, v. 16]. Lakin İzzət Vəzirovanın və Yavuz Vəziorovun xalası Rzayeva Zeynəb İsmayıl qızının Stalinə və Sumbatova yazdıqları aramsız məktublarından sonra bu şagirdi azad etdilər.

Vəzirovlar nəslinin repressiyalara məruz qalan nümayəndələrindən torpaq komissarı Heydər Vəzirovu da sovet hökuməti üçün təhlükəli şəxs hesab edərək 13 oktyabr 1937-ci ildə güllələdilər [128, v. 142].

Heydər Vəzirovdan sona həyat yoldaşı Leyla xanım, oğlu Heydər, Sədrəddin Vəzirov "xalq düşmənləri"nin qohumları kimi həbs edildilər [201, s. 95]. Ali təhsilli aqronom olan Leyla xanım Vəzirova Azərbaycan SSR XDİK-in əməkdaşı Koqan tərəfindən imzalanmış 2832 nömrəli orderə əsasən 20 fevral 1938-ci ildə həbs edildi və evində axtarış aparıldı [129].



Xalq Torpaq Komissarı Heydər Vəzirov

Belə mərhumiyyətlərə düçar olan ailələr arasında general Cəmşid Naxçıvanski də var idi. Onun ailə üzvlərinin bir qismi İranda və Türkiyədə mühacir həyatı yaşamağa məcbur olmuş, bir qisminə İrana getməyə razılıq verilmiş, özü isə sovet hökuməti tərəfindən 3 dəfə cinayət məsuliyyətinə cəlb edilmişdi. Birinci dəfə polkovnik C.Naxçıvanskini 1920-ci il martın 31-də çar Rusiyasının və Azərbaycan Xalq Cümhuriyyətinin zabiti olmaqda təqsirli bildilər və istintaq zamanı əməllərində cinayət tərkibi olmadığına görə azadlığa buraxdılar. İkinci dəfə onu general kimi 1931-ci il mayın 22-də əksinqilabi millətçi

təşkilatın üzvü olmaqda günahlandıraraq məsuliyyətə cəlb etdilər. 1931-ci il sentyabrın 30-da ona güllələnmə hökmü oxundu [131, v. 109]. Lakin 5 aydan sonra, yəni 1932-ci il fevralın 2-də Azərbaycan DSİ-nin kollegiya iclasında Cəmşid Naxçıvanskinin cinayət işinə yenidən baxıldı və onun güllələnmə hökmü ləğv edildi [131, v. 187].

Azadlığa buraxıldıqdan sonra C.Naxçıvanski yenə də hərbi işlə məşğul olmağa başladı. Ancaq o, 1938-ci il mayın 20-də yenidən həbs edildi [148, v. 15]. Həmin ilin avqust ayının 12-də dindirildi və aşağıdakılarla ittiham edildi: Azərbaycan antisovet milli mərkəzinin fəal iştirakçısı olmaqda; Azərbaycan SSR-in devrilməsi planını hazırlamaqda; fars ordusuna xidmət edən qardaşı Kalbalı xanla əlaqə saxlamaqda; çevriliş etmək məqsədi ilə üsyan hazırlamaqda; "Azərbaycan Milli Mərkəzi"ndə antisovet millətçi təbliğat aparmaqda, 1921-ci ildən 1926-cı ilə kimi İranın xeyrinə casusluqla məşğul olmaqda. Bəzi mənbələrdə C.Naxçvanskinin "xan nəslindən olması" da güllələnmənin səbəbi kimi göstərilir [51, s. 33]. Bu uydurulmuş ittihamları rəhbər tutan SSRİ Ali Məhkəməsinin Kollegiyası 1938-ci il avqustun 26-da onun barəsində güllələnmə hökmü çıxardı və hökm həmin gün icra olundu [148, v. 189].

Azərbaycanın müxtəlif bölgələrində olduğu kimi Naxçıvanda da totalitar rejimin qurbanlarına çevrilənlər arasında xalqın ictimai-siyasi fikir tarixində mühüm rol oynayan və hər yerdə tanınan nəsillər də az deyildi. Belə nəsillər arasında ən çox repressiyaya məruz qalanlar şahtaxtinskilər, kəngərlilər və başqaları idi. Bütöv bir nəslin repressiyalara məruz qalması hər şeydən əvvəl, yalnız həmin nəslin deyil, həm də Azərbaycan xalqının ziyalılarına vurulan zərbə idi. Həmin nəslin ən böyük günahı bəy, mülkədar, zadəgan təbəqəsindən olması idi. Bəyliyin, mülkədarlığın, zadəganlığın məhvi 20-30-cu illərdə günün ən aktual məsələsi idi. Belə bəy nəslinin nümayəndələrindən olan Nəcəf Əbülfət oğlu Şahtaxtinski 20-30-cu illərdə bir neçə dəfə həbs olundu. N.Şahtaxtinski bəy oğlu olduğuna və müsavat ordusunda xidmət etdiyinə görə ilk dəfə 1924-cü ildə Azərbaycan Fövqəladə Komissiyası tərəfindən məsuliyyətə cəlb olundu. Dindirmə zamanı əməllərində heç bir cinayət tərkibi olmadığına görə azadlığa buraxıldı. Lakin bir neçə ildən sonra – 1931-ci ildə Azərbaycan Dövlət Siyasi İdarəsi (DSİ) onu əksinqilabi iş aparmaqda və Azərbaycan Milli Mərkəzi hərbi təşkilatının üzvü olmaqda ittiham edərək 3 il müddətinə azadlıqdan məhrum etdi. Nəcəf Şahtaxtinski üçüncü dəfə 15 noyabr 1937-ci ildə həbs edildi. Arxiv materiallarından aydın görünür ki, onun həbsinə səbəb sürgündən qayıtdıqdan sonra sovet rejimi əleyhinə yenə də antisovet çıxışlar etməsi, sovet ordusunun müdafiə qüdrətinin zəif olması, eləcə də Azərbaycanda aparılan kütləvi repressiyalara öz etirazını bildirməsi olmuşdur.

Totalitar rejim yalnız bir şeyi diktə edirdi: mövcud quruluşu müdafiə etmək, cəmiyyətdəki neqativ hallara göz yummaq və onu tərifləmək. N.Şahtaxtinskinin dedikləri həqiqətlər antisovet təbliğatı kimi yozulurdu. Ona görə də Azərbaycan

Xalq Daxili İşlər Komissarlığının xüsusi üçlüyünün 12 dekabr 1937-ci ildə çıxardığı qərara əsasən, N.Şahtaxtinskinin əmlakı müsadirə edilmiş, özü isə dekabrın 19-dan 20-nə keçən gecə güllələnmişdi [135].

Bu nəslin nümayəndələrindən olan, 1876-cı ildə Şahtaxtı kəndində doğulan Məhəmmədhüseyn Əliqulu oğlu Şahtaxtinski də bəy nəslindən olduğuna görə 1932-ci ildə həbs olunmuş və 10 il müddətinə azadlıqdan məhrum edilmişdi. Cəzasını Gəncə şəhərindəki 3 saylı həbsxanada çəkən M.Şahtaxtinski öz haqlı etirazlarını həbsxanada da bildirməkdən çəkinməmişdir. O, həbsxanada kapitalist quruluşunu tərifləmiş, antisovet təbliğatı apardığına, sovet qoşunları, eləcə də sovet rəhbərləri haqqında həqiqətləri söylədiyinə görə həbsxana rəisinin müavini Bədəlyanın təqdimatı ilə həbsxanada əlavə 8 il iş almışdı.

1930-cu illərdə müttəhimlərlə yanaşı onların yaxın qohumları da mənəvi təzyiqlərə məruz qalırdılar. Onlar işdən qovulur, ictimai yerlərdə təhqir olunur, camaatla əlaqələri kəsilir, hətta elə bir şərait yaradılırdı ki, ən yaxın qohumları ilə belə ünsiyyət yaratmağa ehtiyat edirdilər. Belə psixoloji təsirlərə məruz qalanlar arasında məktəb yaşlı şagirdlər də az olmurdu. Həmin şagirdlər "vətən xainləri"nin və ya "xalq düşmənləri"nin yaxın qohumları olduqlarından məktəblərə buraxılmır, ən yaxşı halda isə həmin məktəbli şagirdlər qarşısında çıxış edərək həbsdə olan qohumuna nifrət etdiyini və ondan imtina etdiyini bildirirdi.

Həbsxanaya düşənlərə müxtəlif işgəncələr verilirdi. Bu işgəncələr iki metoddan istifadə etməklə yerinə yetirilirdi: a) Psixoloji metod, b) Fiziki metod. "Vətən xaini", "xalq düşməni", millətçi, pantürkist, panislamist, zinovyevçi və s. adlarla ittiham edilən məhbuslara qarşı ciddi psixoloji təzyiqlərdən istifadə edilirdi: bu zaman yuxusuz saxlamaq, xüsusi qurğulardan istifadə etməklə kameraya soyuq hava üfürmək, döşəməyə soyuq su buraxmaq, ironiyalı danışıqlardan istifadə edərək ələ salmaq, doğma adamlarının həbsi ilə hədələmək, gözlərinə güclü işıq salmaq təzyiqlərindən, fiziki işgəncələrdən – rezin dubinka, təyyarə trosu, dəmir çubuqla döyməkdən, bədənində siqaret söndürməkdən, 48 saata qədər dizləri üstə və ya stoyka, eləcə də ac və ya susuz saxlamaqdan və s. metodlardan istifadə olunurdu. Bu metodlar həm istintaq, həm də islah əmək düşərgələrində tətbiq olunurdu. Həbsxana rəislərinə və ya nəzarətçilərə yaxın olan bir neçə qolu zorlu adamlar saxlanılırdı ki, onlar da bu işi icra edirdilər. Bir çox hallarda məhbuslar ölənə qədər döyülür və ya elə şəraitdə saxlanılırdılar ki, sağalmaz xəstəliklərə düçar olurdular. Həbsxanada ölənlər barədə müxtəlif xəstəliklərin diaqnozu qoyulur və iş dayandırılır, çox vaxt isə mərhumun ailə üzvlərinə məlumat verilmirdi. Təsadüfi hallarda ağır xəstələri həbsdən azad edirdilər.

Azərbaycan Xalq Daxili İşlər Komissarlığının sədri Sumbatovun təsdiq etdiyi arayışa əsasən, 1882-ci ildə Şahtaxtı kəndində anadan olan Əhmədbəy Əli oğlu Şahtaxtinski 1937-ci ilin sentyabrında həbs edildi. Əhmədbəy Şahtaxtinski "Müsavat" partiyasının tədbirlərində yaxından iştirak etməkdə, Fransada müha-

cirətdə olan qardaşı ilə əlaqə yaratmaqda, antisovet təbliğatı aparmaqda günahlandırıldı. Cəmi bir ay çəkən istintaq 20 oktyabr 1937-ci ildə başa çatdı və o Azərbaycan SSR XDİK üçlüyünün qərarı ilə səsi 5 il müddətinə alınmaqla 10 il azadlıqdan məhrum edildi [141, v. 107].

Güllələnmiş və xüsusi düşərgələrə sürgün edilmiş "xalq düşmənləri"nin təkcə özlərinin deyil, ailə üzvlərinin də taleyi çox acınacaqlı olub. Onlar da repressiyalardan yaxa qurtara bilməyiblər. Belə ki, "xalq düşmənləri"nin ailələri də həbs edilərək müxtəlif cəzalara məruz qalıb [194, s. 12-13]. "Soyqırım analardan başlanır" kitabında 3022 nəfər qadının XDİK orqanları tərəfindən repressiyalara məruz qaldığı göstərilir [195, s. 31].

Həbs olunan Şahtaxtinskilərin içərisində Azərbaycanın görkəmli ziyalılarından olan Adilə və Ziba Şahtaxtinskayalar da var idi. Adilə Şahtaxtinskaya, istərsə də Ziba Şahtaxtinskaya həyat yoldaşlarına görə ittiham edilmişlər. Adilə Şahtaxtinskayanın həyat yoldaşı Qulam Sultanov Mircəfər Bağırova qarşı hazırlanmış sui-qəsddə ittiham edilərək, 1937-ci ildə vətən xaini kimi güllələnmişdi. Adilə xanım da "vətən xaini"nin arvadı olmaqda suçlandırılaraq 4 sentyabr 1937-ci ildə həbs olunmuşdur [139, v. 8]. Azərbaycan Tibb İnstitutunun Ginekologiya kafedrasının müdiri işləyən belə bir tanınmış professorun həbs edilməsi onun həyata, cəmiyyətə, bütövlükdə isə "kommunizm cənnətinə" inamını xeyli azaltdı.

Ziba Mustafa qızı Şahtaxtinskaya da həyat yoldaşı Atulla Şahtaxtinskinin həbsindən bir qədər sonra 10 noyabr 1937-ci ildə vətən xaininin arvadı kimi həbs edildi və SSRİ XDİK-i yanında xüsusi müşavirənin qərarı ilə 9 aprel 1938-ci ildə 2 il müddətinə azadlıqdan məhrum edildi [133, v. 43]. Atulla Baxşəli oğlu Şahtaxtinski 13 fevral 1937-ci ildə torpaq komissarlığında plan şöbəsinin rəis müavini işlədiyi vaxt həbs olunmuşdu [140, v. 17]. A.Şahtaxtinski əksinqilabi trotskiçi, millətçi, terrorçu təşkilatın üzvü olmaqda, Azərbaycanı SSRİ-dən silahlı yolla ayırmaqda, dövlət rəhbərlərinə qarşı terror aktları hazırlamaqda ittiham edilərək 9 yanvar 1938-ci ildə 10 il müddətinə azadlıqdan məhrum edilmişdir.

Bu dövrdə bəyliyə münasibət o qədər pis idi ki, hətta hər hansı bir istintaqı aparmaq üçün yerlərə göndərilmiş məktublarda müttəhimin ictimai mənşəyi, xüsusilə, nəzərə alınır və onun yoxlamasını məhz bu istiqamətdə aparmağı tapşırırdılar. MTN-nin arxivində olan bir fakt bunu təsdiq edir: "Bakı şəhəri 17 oktyabr 1940-ci il. İttiham olunan Kəngərlinski Məzəddin Eyyub oğlu haqda 4882/42420 №-li arxiv işi. Az.SSR XDİK-ın Ordubad rayon şöbəsinə istintaqa göndərilsin. Bütün şahidlərdən bir də M.Kəngərlinskinin əksinqilabi fəaliyyəti haqqında soruşulsun, onun ittiham olunanlarla əlaqələri dəqiqləşdirilsin; RİK-dən onun sosial-mənşəyi ilə bağlı arayış toplamaq. Qərarı 5 günə icra etmək. Az.SSR XDİK-ın müstəntiqi Həsənov" [145, v. 23].

1920-1930-cu illərdə kəngərlilər nəslinin tanınmış nümayəndələri də repressiyaların məngənəsindən yaxa qurtara bilməmişdi. 20-ci illərdə və 30-u illərin

əvvəllərində kəngərlilər nəslinin nümayəndələri, əsasən zorakı sosializm quruculuğuna, dini dəyərlərimizin təqibinə, haqsız ittihamlara, bolşeviklərin və ermənilərin bu diyardakı özbaşınalığına, kollektivləşməyə qarşı çıxmaqda və Naxçıvan üsyanının təşkilatçıları olmaqda günahlandırılırdılarsa, 30-cu illərdə onlar daha çox İrana və Türkiyəyə casusluqda, SSRİ əleyhinə gizli təşkilatlar yaratmaqda, sovet hökuməti əleyhinə təbliğat aparmaqda, pantürkizm və panislamizmdə ittiham edilirdilər. 1937-ci ildə həbs edilən Kəngərlinski Əlimərdan bəy Qara oğlu casusluqda və sovet hakimiyyəti əleyhinə təbliğat aparmaqda günahlandırılırdı [147, v. 19].

Ə.Kəngərlinski Azərbaycan SSR XDİK-in Naxçıvan diyarı üzrə tərtib olunmuş siyahısına əsasən həbs edilmişdi. Ancaq Azərbaycan SSR Ali Məhkəməsinin Məhkəmə Kollegiyası onun barəsindəki 26 avqust 1937-ci il tarixli qətnaməni ləğv etmişdi [144, v. 91].

Azərbaycan SSR XDİK üçlüyünün 26 avqust 1936-cı il tarixli qərarı ilə 1876-cı ildə Naxçıvan şəhərində anadan olmuş, keçmiş bəy olan Kəngərlinski Yaqub Paşa İsmayıl oğlu ən ağır cəzaya – güllənməyə məhkum edilmiş və bir neçə gündən sonra hökm icra olunmuşdu.

İrana casusluqda ittiham olunan növbəti kəngərli qurbanlarından biri də Kəngərlinski Əkbər Aslan oğlu idi. O, İranın xeyrinə antisovet təbliğat aparmaqda ittiham edilərək 11 fevral 1938-ci ildə həbs olunmuş və 14 avqust 1938-ci ildə Zaqafqaziya dəmiryol məhkəməsi tərəfindən 5 il müddətinə azadlıqdan məhrum edilmişdir [146, v. 78]. Ə.Kəngərlinski də özünü müqəssir bilmədiyinə görə şahid ifadələri əsasında ittiham edilmişdir. Şahidin sözlərinə görə "Kəngərlinski Əkbər mütamadi olaraq sovet hökumətindən narazılıq edir, İranda vəziyyəti tərifləyir, sovet hökumətinin qarşıdakı müharibədə məğlub olacağı barədə fitnəkar şayiələr yayırdı. Deyirdi ki, gizli surətdə İrana, dayısının yanına gedəcək, ...tezliklə Culfadan Arazdəyənə kimi bircə türk də qalmayacaq, bu ərazi İrana məxsus olacaq" [146, v. 15]. Lakin müttəhimin narazılığının nədə ifadə olunması, bu faktı kimlərin təsdiq etməsi, Ə.Kəngərlinskinin antisovet təbliğat aparması barədə şahid heç nə deyə bilməmişdir.

Başqa bir şahid də Ə.Kəngərlinski haqqında anoloji ifadə verib: "Mənim Kəngərlinski ilə tanışlığım müddətində, təqribən 1931-1932-ci illərdə Culfa stansiyasında o, tez-tez sovet hökumətindən narazılıq edirdi. Dəmiryolçularla söhbətində deyirdi ki, tezliklə müharibə olacaq, Sovet hökuməti məhv olacaq. Bu söh - bətləri mən dəmiryolçulardan eşitmişəm, amma kimdən eşitdiyim yadımda deyil" [164, v. 19].

Bir neçə şahidi, o cümlədən A.K.Mirzəyanı, S.S.Qriqoryanı, Q.İ.Areşkini və A.D.Minasyanı dindirərkən müttəhim Kəngərlinskinin antisovet təbliğat aparmağı barədə faktlar müəyyən olunmamışdır. Göründüyü kimi, şahidlərin də, ittiham edən müstəntiqlərin də böyük əksəriyyəti ermənilər idi.

Kəngərlilər nəslinin bir çox üzvləri də ailəsi ilə birlikdə Sibirə və Qazaxıstana

sürgün edilmişdir. 1937-ci ilin avqustun 10-da Naxçıvan Muxtar Respublikasında 9950 nəfər həbs edilir. 500 ailə sürgünə məhkum olunur (əksəriyyəti sadə adamlardır), Hüseyn Qədir oğlu Kəngərli, Aydın Əmircan oğlu Kəngərli, Zəhra Məhəmməd qızı Səfibəyova (Naxçıvan), Əhmədbəy Hacıməmməd oğlu Qazıbəyov, İsmayıl İsmayıl oğlu Rəhimov, Nəsrulla Cəlilov (Şərur), Həbib Kəlba Məmməd oğlu Muxtarov, Məşədi Rzaqulu Sadıx oğlu Tağıyev (Ordubad) və onlarla digər ailələr sürgün edildilər [61, s. 41].

İrana və Türkiyəyə casusluqda ittiham yalnız ayrı-ayrı şəxslərə qarşı deyil, eyni zamanda, islami dəyərlərin və türkçülüyün əsaslarını sarsıtmağa yönəldilmiş siyasi aksiya idi. İnsanları islami dəyərlərdən və türkçülükdən uzaq salmaq isə onun köklə, yaddaşla əlaqəsini qırmağa yönəldilmişdi və məqsəd yeni sovet adamı, sosialist təlimini qeydsiz-şərtsiz qəbul və təbliğ edən manqurt hazırlamağa xidmət edirdi. Azərbaycanda pantürkizm fərdi ittihamlardan ümummilli və ümumtürk ittihamlarına doğru ağrılı bir yol keçmişdi. Sovetlər birliyində yaşayan digər xalqlardan fərqli olaraq Azərbaycan xalqı 30-cu illərin repressiyalarında öz millətinin və öz dilinin adını itirmişdi. Türk dili və türk milləti anlayışlarının repressiyası milləti kökündən ayrı saldı. Eyni zamanda bu anlayışlar sonralar Sovet cəmiyyəti daxilindəki "bəraət" prosesindən kənarda qaldı [82, s. 47].

Azərbaycan SSR XDİK üçlüyünün 21 oktyabr 1938-ci il qərarına əsasən Naxçıvan şəhərinin sakini Kəngərlinski Fərəc Ağanəsir oğlu həbs edildi. F.Kəngərlinskinin həbsi üçün yeganə sənəd bir nəfərin dindirilmə protokolundan çıxarış olmuşdur. Həmin şəxs "Məzlumları müdafiə" təşkilatının yaradıcılarından olduğu üçün həbs edilmiş və dindirmə zamanı həmin təşkilatın üzvlərindən biri kimi Fərəc Kəngərlinskinin də adını çəkmişdi.

Bu təşkilatın fəaliyyətinə gəldikdə isə məlum olmuşdur ki, "Məzlumları müdafiə" gizli təşkilat olsa da, o, sovet hökuməti əleyhinə heç bir təbliğat aparmamışdır. Onun qarşısında duran əsas vəzifə məzlumlara maddi yardım göstərməkdən ibarət olmuşdur. Lakin XDİK əməkdaşları bu təşkilata siyasi don geydirərək onun sovet hökuməti əleyhinə işlədiyini sübut etməyə çalışırlar. Şahid ifadələrindən də aydın görünür ki, onların heç biri dövlətin əleyhinə antisovet təbliğatı aparmamışlar [143, v. 83-89].

Bundan başqa, 1883-cü il təvəllüdlü, Naxçıvan MSSR Əbrəqunus rayonunun Saltax kənd sakini Kəngərlinski – Məmmədov Mirağa Məmməd oğlu sovet hakimiyyətinə düşmən mövqedə dayandığına, yəni sovet hakimiyyətinin devrilməsinə cəhd edərək əhali arasında əksinqilabi, təxribatçı şaiyələr yaydığına görə Azərbaycan SSR cinayət məcəlləsinin 72-ci maddəsi ilə məsuliyyətə cəlb edilmişdi.

Dövlət çevrilişində ittiham edilənlər arasında Naxçıvan şəhər sakini Kəngərlinski Soltan Əsəd oğlu və Bənənyarski Qəmbər Əli oğlu da var idi. Bu istintaq işindən aydın görünür ki, onların evində axtarış aparılmış, lakin istintaq üçün əhəmiyyət kəsb edən heç nə tapılmamış və istintaq müddətində Kəngərlinski, eləcə də

Bənənyarski özlərini günahkar saymamışdır. Lakin buna baxmayaraq məhkəmə kollegiyası onların hər birini 3 il müddətinə azadlıqdan məhrum etmişdi [142, v. 158].

Bunlarla yanaşı Kəngərlilər nəslindən olan, Hacıqabul dəmiryolunun fəhləsi Kəngərlinski Bəhmən Tərxan oğlu [136, v. 3-125], heç bir təhsili olmayan Kəngərlinski Səid Nuri oğlu [132, v. 3-127] və onlarla başqaları 30-cu illərin siyasi repressiyalarının məngənəsindən yaxa qurtara bilməmişdir.

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, sovet hökumətinin hüquqmühafizə orqanları tərəfindən tətbiq edilən siyasi repressiyalar planlı, düşünülmüş və vahid ssenari əsasında həyata keçirilmişdir.

11. Mədəni quruculuq

Naxçıvanda xalq təhsili və maarif işi. 1920-ci il iyulun 28-də Naxçıvanda Sovet hakimiyyəti elan edildikdən sonra təhsil, elm və mədəniyyət sahələrinə də diqqət artırıldı. Bunun nəticəsində məktəblərin sayı da xeyli artdı. Yeni açılmış məktəblərin idarə olunmasında nəzarətin artması diqqəti cəlb edirdi. Maarif sisteminin idarə olunması üçün Azərbaycan Xalq Komissarları Şurasının göstərişi ilə 1920-ci il oktyabr ayının 10-da bir sıra digər şöbələrlə (ümumi məlumat-təlimat, milis, ictimai təminat və əmək şöbələri) yanaşı, Naxçıvan İnqilab Komitəsinin qərarı ilə Xalq maarifi şöbəsi yaradıldı. Tanınmış maarifçi Əbdüləzim Rüstəmov bu şöbəyə müdir təyin edildi [113, s. 6].

Naxçıvanda yeni yaradılmış maarif şöbəsi Naxçıvan İnqilab Komitəsinin 25 avqust 1920-ci il tarixli dekretinə əsasən "Naxçıvanda pulsuz ibtidai icbari təhsil"in yerinə yetirilməsinə ciddi diqqət verməklə xalq maarifinin inkişafına kömək edirdi. Nəticədə 1921-1922-ci dərs ilindən başlayaraq yeni məktəblər açılır, məktəb yaşlı uşaqlar ibtidai təhsilə cəlb edilirdi. Bununla bərabər, 1922-ci ildən etibarən məktəbəqədər tədris müəssisələri də yaradılmaqla, kiçikyaşlı uşaqların tərbiyəsi və onların gələcək ibtidai məktəblərə hazırlanması diqqət mərkəzində saxlanılırdı.

1922-ci ilin yanvar ayında Naxçıvan Xalq Komissarları Sovetinin yaranması [113, s. 7] ilə onun tərkibində Xalq Maarif Komissarlığı da fəaliyyətə başladı. Naxçıvan Xalq Maarifi Şöbəsinə rəhbərlik edən Əbdüləzim Rüstəmov Naxçıvanın ilk Maarif Komissarı təyin olundu [113, s. 7]. 1922-ci il iyun ayının 17-də RSFSR Maarif Komissarlığının Əsasnaməsinə uyğun olaraq Naxçıvan Maarif Komissarlığının Əsasnaməsi Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən təsdiq olundu. Naxçıvanda xalq təhsilinə qayğının dövlət səviyyəsində olması, yeni maarif ocaqlarının yaradılmasının dövlət orqanları tərəfindən rəsmiləşdirilməsi məktəblərin şəbəkəsinin daha da genişlənməsinə kömək edirdi. Xalq maarifinə diqqətin belə artması ilə əlaqədar 1921-1922-ci tədris ilində Naxçıvanda 144 sinfi olan 58 məktəb təşkil olundu ki, bu məktəblərdə də 4351 şagird təhsilə cəlb edildi [64, s. 10].

Sonrakı illərdə məktəblərin şəbəkəsinin genişlənməsi və şagirdlərin təhsilə cəlb edilməsi daha sürətlə davam etdi. 1920-ci illərdə Naxçıvanda xalq maarifinin inkişafı aşağıdakı rəqəmlərlə [113, s. 8-11] xarakterizə olunurdu:

Tədris illəri	Məktəblərin sayı	Siniflərin sayı	Müəllimlərin sayı	Şagirdlərin sayı
1921	58	144	86	4351
1922	75	210	154	6573
1924	78	309	250	9298
1925	98	476	277	10441
1928	164	981	544	23180
1929	189	202	733	23617

İyirminci illərdən məktəblərin şəbəkələrinin genişlənməsi həmin məktəblərdə çalışacaq müəllimlərin hazırlanması vəzifəsini də mühüm problem kimi qarşıya qoyur və bu istiqamətdə ardıcıl iş aparılırdı. Bir sıra rəsmi dövlət tədbirlərində, yığıncaq və müşavirələrdə müəllim kadrlarına ehtiyac olduğu qeyd edilir, bu mühüm problemin həll olunması yolları barəsində təkliflər irəli sürülürdü. Həmin təkliflər sırasında yaxın vaxtlarda Naxçıvanda Müəllimlər Seminariyasının yaradılması haqqında məsələ müzakirə edilirdi. 1922-ci il avqustun 28-də Naxçıvan şəhərindəki teatr binasında keçirilən Naxçıvan Müəllimlərinin I qurultayında da Naxçıvanda müəllim çatışmamazlığı haqqında ciddi söhbət getdi və 1 noyabr 1922-ci ildən etibarən Naxçıvanda Müəllimlər Seminariyası açmaq haqqında qərar qəbul olundu [112, s. 24].

Bir neçə aylıq hazırlıq işlərindən sonra seminariyanın açılması üçün maddi-texniki baza yaradıldı və seminariya fəaliyyətə başladı. Naxçıvanın gələcək kadr hazırlığında çox mühüm rol oynayan Naxçıvan Müəllimlər Seminariyasına Xəlilağa Hacılarov ilk direktor, Əbdüləzim Rüstəmov onun köməkçisi və coğrafiya müəllimi, H.Səfərli riyaziyyat müəllimi, H.Qazıyev təbiət müəllimi, İ.Axundov bədən tərbiyəsi müəllimi təyin olundular [113, s. 9; 112, s. 135]. Naxçıvan Müəllimlər Seminariyası bir il fəaliyyət göstərəndən sonra 1923-1924-cü tədris ilində pedaqoji texnikuma çevrildi.

"Naxçıvan Zikur Texnikumunun ilk buraxılışı" adlı məcmuədəki qeydlərdən [113, s. 9] aydın olur ki, texnikumda pedaqoji şura, metodiki şura, emalatxana, yeməkxana, tələbə komitəsi, musiqi dəstəsi və s. təşkil olunmuşdu ki, bütün bunlar da yeni tipli məktəblər üçün kadr hazırlığı ilə yanaşı, həmin kadrlarda yeni dünyagörüşünün formalaşması, onların hərtərəfli inkişaf etmiş mütəxəssislər kimi yetişmələrinə kömək edirdi. Texnikumda fəaliyyət göstərən metodiki şurada ana dili, ictimaiyyət, hikmət, təbiət dərslərinin vəziyyəti müzakirə olunur, qabaqcıl təcrübənin öyrənilməsinə və yayılmasına geniş yer verilirdi. Əsasən yerli pedaqoji

kadrlar hazırlamaqla məşğul olan və bir neçə il fəaliyyət göstərən [64, s. 11] pedaqoji texnikumun ilk buraxılışı olan 1927-ci ildə 18 nəfər, ardıcıl olaraq sonrakı üç buraxılış ilində 149 nəfər gənc texnikumu bitirdi ki, bu da "ölkə məktəblərinin ehtiyacını ödəmək üçün" xeyli qüvvə idi [64, s. 11].

1927-ci ildə Naxçıvan Pedaqoji Texnikumunun ilk buraxılışı olan 18 nəfərin sırasında sonralar görkəmli pedaqoqlar kimi tanınan Əkbər Abbasov, Abdulla Kərimov, Eynalı Əlizadə, Əli Axundov, Əkbər Fərəcov, Əqil Mirişli, Əli Fərəcov, Kazım Talıbov, Nemət Novruzov, Səməd Seyidli, Əbdüləli Tahirzadə və başqaları da var idi [113, s. 10].

Sonrakı illərdə də pedaqoji texnikumu xeyli gənc bitirdi ki, onlar da Azərbaycanda ictimai-siyasi fikrin və xalq maarifinin inkişafında mühüm rol oynadılar. Arxiv sənədlərində dünya şöhrətli siyasi xadim, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də 1938-1939-cu tədris ilində həmin texnikumda oxuduğu və 25 iyun 1939-cu il tarixdə ona 2017 №-li qeydiyyatla diplom verildiyi qeyd edilmişdir [112, s. 25].

1927-ci ildən başlayaraq Naxçıvan Pedaqoji Texnikumunu bitirən müəllim kadrların pedaqoji fəaliyyətə başlaması maarif işində yeni bir canlanma yaratdı. 1930-cu il iyulun 27-də keçirilən Naxçıvan MSSR MİK-nin üçüncü sessiyasında xalq maarifinin vəziyyəti müzakirə olunaraq yeni məktəblərin açılması, "savadsızlığın ləğvi" kurslarının, kəndlərdə "qiraət komaları"nın açılması haqda tövsiyələr verildi [150, s. 144]. Bunun nəticəsi olaraq 30-cu illərin əvvəllərində Naxçıvandakı Lenin adına duz mədənində, Dadaş Bünyadzadə adına Şərur şura təsərrüfatında, Ə.Qarayev adına Ordubad ipək fabrikində, Əyricə və Salvartı yaylaqlarında xüsusi kurslar, Şahbuz rayonunda 5, Əbrəqunusda 6, Naxçıvanda 6, Şərurda 7, Ordubadda 4 qiraət komaları açıldı [64, s. 16]. Həmin qiraət komalarının açılmasında və fəaliyyət göstərməsində əsas məqsəd savadsızlığın aradan qaldırılması olsa da, bu mərhələdə həm də xalq arasında maarifçilik ənənələri tətbiq edilir və xalqın ideologiyasında yeni ictimai-siyasi düşüncə tərzi formalaşdırılırdı.

Artıq 1930-cu illərin sonlarına doğru Azərbaycanda, eyni zamanda Naxçıvanda maarif sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri də dövlət quruculuğu sahəsində çalışacaq kadrlar hazırlamaqdan və onların elmi-dünyagörüşünü yeni ideologiya əsasında formalaşdırmaqdan ibarət idi. Bu, ilk növbədə partiya təbliğatının gücləndirilməsində, xüsusilə orta ixtisas məktəblərində və ali məktəblərdə ictimai fənlərin tədrisinin genişləndirilməsi sahəsində özünü göstərirdi.

1938-ci ildə "Partiya təbliğatının təşkili haqqında" ÜİK (b)P MK-nin dərc olunan qərarı ictimai fənlərin tədrisinin sırf partiya siyasətinə uyğunlaşdırılmasının əsasını qoydu. İlin sonlarında ÜİK (b)P MK-nın göstərişi ilə ali məktəblərdə ictimai fənlərin tədrisinin yenidən qurulması, ictimai elmlər kafedralarının təşkilat strukturlarının yeniləşdirilməsi istiqamətində iş aparılırdı. Həmin ilin noyabrında Azərbaycan K(b)P MK-də partiya tarixi, fəlsəfə, siyasi iqtisad müəllimlərinin, ali

məktəb, ali texniki məktəb işçilərinin müşavirələrinin keçirilməsi və s. kimi tədbirlər bilavasitə dövlət quruculuğu işlərinə, ictimai fikrin inkişafı problemlərinə kömək məqsədi ilə həyata keçirilirdi.

Xalq maarifi sahəsində belə canlanma və daha yüksək ixtisaslı müəllim kadrlarına olan tələbat Naxçıvanda daha yüksək kateqoriyalı pedaqoji kadrlar hazırlayan təhsil müəssisəsi yaradılması zərurətini doğurdu.

1930-cu illərin sonunda Naxçıvanın maarif tarixində ən mühüm hadisə Naxçıvan MSSR Xalq Komissarları Şurasının 14 avqust 1939-cu il tarixli qərarı ilə yaradılan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutunun fəaliyyətə başlaması oldu [112, s. 26]. 1939-cu il sentyabrın 15-də cəmi iki fakültə ilə (dil-ədəbiyyat, fizika-riyaziyyat) fəaliyyətə başlayıb 15 ilə yaxın fəaliyyət göstərən həmin təhsil müəssisəsinin məzunlarının bir çoxu nəinki Naxçıvanda, eyni zamanda Azərbaycanda elmin, maarif və mədəniyyətin, ictimai-siyasi fikrin görkəmli simaları kimi tanındılar və şöhrət qazandılar. Naxçıvanın təhsil tarixində XX əsrin 30-cu illərinin sonunda fəaliyyətə başlamış C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutunu müxtəlif illərdə 1159 nəfər məzun bitirmişdir [112, s. 102] ki, onlar da bir neçə onilliklər boyu ayrı-ayrı elm sahələrində və xalq məktəblərində çalışaraq Naxçıvan əhalisinin maariflənməsində xüsusi rol oynamışlar.

Nəticə olaraq qeyd olunmalıdır ki, XX əsrin 20-30-cu illəri Naxçıvanda təhsil tarixinin xüsusi mərhələsi olmuş və həmin dövrdə məktəb şəbəkələrinin genişləndirilməsi, pedaqoji kadrların hazırlanması, gənclərlə yanaşı, orta yaşlı insanlar arasında savadsızlığın aradan qaldırılması, seminariya, texnikum və ali məktəblərin fəaliyyətə başlaması və digər bir çox xarakterik xüsusiyyətləri ilə yadda qalmış, muxtar respublikada təhsilin inkişafına və yeni mərhələyə daxil olmasına xüsusi təkan vermişdir.

Mədəni-maarif müəssisələrinin inkişafı. XX əsrin 20-ci illərinin əvvəllərindən başlayaraq Naxçıvanda mədəni-maarif müəssisələrinin yaradılması istiqamətində müəyyən işlər görülməkdə idi. Bu dövrdə Xalq Maarif Komissarlığının bir vəzifəsi də mədəni-maarif müəssisələrini təşkil etmək və onların fəaliyyətinə nəzarət etmək idi. 1922-ci il avqust ayının 28-də Naxçıvan Müəllimlərinin I Qurultayının Naxçıvan şəhərindəki teatr binasında keçirilməsi də [112, s. 24] mədəni-maarif sahələrinə Naxçıvan Maarif Komissarlığının nəzarət etməsinin sübutudur.

1920-ci illərdə Naxçıvanda yaradılan mühüm mədəni-maarif müəssisələrindən biri indiki M.S.Ordubadi adına Respublika kitabxanası idi. 1922-ci ildə Naxçıvan şəhər kitabxanası kimi fəaliyyətə başlayan həmin müəssisə qısa vaxt ərzində öz fəaliyyətini xeyli genişləndirmiş və 1930-cu ildə ona Naxçıvan Muxtar Respublika Kitabxanası statusu verilmişdir. Həmin kitabxana 1953-cü ildən böyük Azərbaycan yazıçısı M.S.Ordubadinin adını daşıyır.

Naxçıvanın elmi-mədəni mühitində çox mühüm bir hadisə sayılan "Şərq

qapısı" qəzetinin nəşrə başlaması da 20-ci illərin diqqət çəkən əlamətdar səhifələrindən idi. 1921-ci il noyabr ayının 1-də "Cavanlar həyatı" adı ilə nəşrə başlayan [2, s. 201], az sonra "Füqəra səsi", 1922-ci ilin aprelindən isə "Şərq qapısı" adı ilə nəşr olunan bu qəzet Naxçıvanda ilk mətbu orqan kimi qədim diyarda ədəbi-elmi mühitin işıqlandırılmasında xüsusi rol oynamışdır.

Danılmaz faktdır ki, 1926-cı ildə Naxçıvan Xalq Maarif Komissarlığı yanında "Qızıl qələm" adı ilə yaradılan, sonralar "Gənc qələmlər" ədəbiyyat dərnəyinə, 1928-ci ildə Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin Naxçıvan filialına çevrilən, sonralar Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan şöbəsi adlanan və 1997-ci ildə Azərbaycan yazıçılarının X qurultayında Naxçıvan Yazıçılar Birliyi statusu alan [152, s. 169] qurumun da ilk yaradıcıları və təşkilatçıları 20-30-cu illərdə "Şərq qapısı" qəzetində redaktor işləmiş, yaxud qəzetin ən fəal əməkdaşlarından, müxbirlərindən olmuş Əvəz Sadıq, Abbas Gülməmmədov, Əyyub Abbasov, Məşdi Babayev, Lətif Hüseynzadə, Seyid Səbri, Nemət Hüseynov, Əli Zəbun, Məmmədəli Tarverdiyev, Məmməd Əkbər, M.H.Təhmasib, M.Nəsirli və digərləri olmuşlar.

XX əsrin 20-30-cu illərində yaranan mədəni-maarif müəssisələri sırasında Naxçıvan MR Dövlət Tarix Muzeyinin də xüsusi yeri var. Naxçıvan MSSR XKS-nin 30 oktyabr 1924-cü il tarixli qərarı ilə Naxçıvan Tarix-Etnoqrafiya Muzeyi adı ilə yaradılan həmin muzeyi daha da zənginləşdirmək məqsədi ilə Naxçıvan MSSR XKS-nin 6 yanvar 1926-cı il tarixli qərarı ilə Naxçıvan şəhər sakini, vətənpərvər ziyalı Balabəy Əlibəyovun şəxsi mənzilində yaratdığı muzey xüsusi komissiya ilə dövlət mülkiyyətinə götürülərək muzeyə təhvil verilmiş, həmin şəxs isə muzeyə müdir təyin olunmuşdur. Sonralar muzeyin daha da genişlənməsində və zənginləşməsində Naxçıvanda fəaliyyət göstərən "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin, bilavasitə həmin cəmiyyətin məsul katibi Mirbağır Mirheydərzadənin xüsusi xidmətləri olmuş, 1930-cu ilin 27 avqust tarixində o, muzeyə direktor təyin olunaraq 25 il fasiləsiz olaraq bu vəzifəni icra etmişdir. Hazırda həmin muzey Naxçıvan MR Dövlət Tarix Muzeyi kimi fəaliyyət göstərir.

1831-ci ildən indiyə qədərki dövrü əks etdirən, Naxçıvan tarixinə, Naxçıvan elmi-mədəni mühitinə aid, digər bütün sahələrə aid qiymətli sənədlərin mühafizə olunub saxlanıldığı Naxçıvan MR Mərkəzi Dövlət Arxivi də XX əsrin 20-ci illərində yaradılıb fəaliyyətini davam etdirən müəssisələrdəndir. Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin sədri N.Nərimanovun imzaladığı 13 dekabr 1920-ci il tarixli dekretə əsasən Naxçıvan MİK-in 13 dekabr 1925-ci il tarixli sərəncamı ilə [152, s. 151] yaradılan həmin müəssisə Azərbaycan MİK-in 18 yanvar 1930-cu il tarixli qərarı ilə Naxçıvan MSSR Mərkəzi Arxiv İdarəsi adlandı. Hazırda həmin müəssisə Naxçıvan MR Mərkəzi Dövlət Arxivi adlanır.

Mədəni-maarif müəssisələrinin formalaşması və inkişafı baxımından KİV-in (Kütləvi İnformasiya Vasitələri) rolunu nəzərə alsaq, 20-30-cu illərdə Naxçıvanda fəaliyyətə başlayan KİV növü "Şərq qapısı" qəzetindən (1921) sonra Naxçıvan

radiosu hesab olunur. Naxçıvanda 1929-cu ildə yaradılan Naxçıvan Radio Məlumat İdarəsinin fəaliyyəti sayəsində Naxçıvanda az sayda radio quraşdırılmış, Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin 1 aprel 1932-ci il tarixli qərarı ilə Naxçıvan MSSR Nazirlər Soveti yanında Radio Verilişləri Komitəsi yaradılmışdır. Komitənin ilk sədri Tarverdi Allahverdiyev, sonralar isə Qadir Səmədov olmuşdur. Nəcəf Tağızadə, Əsgər Səfərov, Məşkur Əkbər, Xalidə İbrahimova, Gültəkin Kəngərli, Zərifə Fətullayeva, Ağa Ağayev, Nurəddin Manafov və digərləri 30-cu illərdə Naxçıvan radiosunun ilk əməkdaşları olmuşlar.


Naxçıvan Musiqi Məktəbi də Naxçıvanın mühüm mədəni-maarif müəssisələrindəndir. Böyük bəstəkar Ü.Hacıbəyovun təşəbbüsü ilə Naxçıvan MİK-in 23 avqust 1937-ci il tarixli qərarı ilə yaradılan bu müəssisə Naxçıvanda professional musiqi təhsilinin təşəkkülündə və inkişafında mühüm rol oynamışdır. İlk tədris ilində 80 nəfər gəncin qəbul olunduğu həmin məktəbin ilk direktoru Naxçıvanın tanınmış ziyalılarından olan Hüseyn Baqi olmuşdur [57, s. 40]. N.Məmmədov, R.Mirişli, R.Məmmədov, Ə.Ələkbərova, Ə.Məmmədov və bir çox tanınmış musiqiçilər həmin məktəbin məzunları olmuşlar.

Azərbaycanın qədim elm və mədəniyyət mərkəzlərindən olan Naxçıvan diyarı bütün dövrlərdə olduğu kimi XX əsrin 20-30-cu illərində də müəyyən inkişaf yolu keçmiş və həmin inkişafda yuxarıda adları qeyd olunan bir sıra mədəni-maarif müəssisələrinin də xüsusi rolu olmuşdur.

Elm. Bolşeviklərin Azərbaycanı işğal etməsi ilə əlaqədar olaraq 1920-ci ildən etibarən Azərbaycanda, o cümlədən Naxçıvanda elmi proseslərin xarakteri dəyişmişdir. Yeni cəmiyyətin irəli çıxardığı siyasi mövqe əslində ilk növbədə mövcud elmi fikrin ənənəvi inkişafını dayandırmış, sosializm ideologiyası üzərində köklənməsi tələbini meydana qoymuşdur. Lakin az sonra Azərbaycan cəmiyyətində yeni əlifba uğrunda mübarizənin genişlənməsi və diyarşünaslıq fəaliyyətinin meydana çıxması ilə elm tədricən özünü bərpa etmiş, bu istiqamətlərdə müəyyən canlanma müşahidə olunmuşdur. Azərbaycanda 1921-ci ildən dövlət səviyyəsində arxiv idarələrinin qurulması, 1923-cü ildə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması, 1924-cü ildən Yeni Əlifba Komissiyasının fəaliyyətə başlaması ilə ölkəmizdə elmin inkişafı üçün müəyyən zəmin hazırlanmışdır.

Xüsusən, Azərbaycanı "Tədqiq və Tətəbbö Cəmiyyəti"nin 1923-1929-cu illərdəki fəaliyyəti "Azərbaycan tarixinin və mədəniyyətinin zənginliklərinin üzə çıxarılmasında... mühüm rol oynamışdır" [89, s. 52]. Bu baxımdan 21 may 1925-ci ildən fəaliyyətə başlayan "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin xətti ilə aparılmış işlər xüsusi əhəmiyyətə malikdir. Naxçıvan Ölkəsi "Tədqiq və Tətəbbö Cəmiyyəti"nin sədri Vahab Həsənzadənin, elmi katibi Mirbağır Mirheydərzadənin, fəal üzvlərindən Lətif Hüseynzadənin, Həsən Səfərlinin, Xəlil Hacılarovun, Əsəd Cəfərzadənin və başqalarının həyata keçirdikləri elmi-təşkilati tədbirlər sayəsində regionun öyrənilməsi sahəsində mühüm addımlar atılmışdır. "Naxçıvan Tədqiq və

Tətəbbö Cəmiyyəti"nin 3 bölməsi – İqtisadi, ictimai və təbii bölmə; Arxeoloji bölmə; Etnoqrafiya, türkoloji, tarix və ədəbiyyat bölməsi üzrə muxtar respublikada ilkin sistemli elmi tədqiqatlar aparılmışdır. İlk növbədə Cəmiyyətin təşəbbüsü ilə muxtar respublikanın rayonlarında fəaliyyət göstərən maarifçi ziyalılar diyarşünaslıq işinə cəlb edilmişdir. Xalq müəllimləri regionun öyrənilməsində xüsusi fəallıq göstərmiş, tarixi-etnoqrafik məlumatların, folklor nümunələrinin toplanılmasında cəmiyyətin işinə yaxından kömək etmişlər [90, s. 4-5]. "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin təşkilatçılarının və fəal üzvlərinin fəaliyyətləri daha elmi xarakter daşımışdır. Onların hazırladıqları hesabatlarda, məruzələrdə və məqalələrdə Naxçıvan diyarının tarixinə, etnoqrafiyasına, coğrafiyasına, iqtisadiyyatına və folkloruna dair mühüm elmi mülahizələr və qiymətli məlumatlar əks etdirilmişdir. Bu cəhətdən mədrəsə təhsili almış "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi Mirbağır Mirheydərzadənin (1877-1956) diyarın öyrənilməsindəki fədakar və səmərəli fəaliyyəti təcrübəli və məhsuldar bir elm adamının xidmətləri ilə müqayisə oluna bilər. Mənbələrdən aydın olur ki, "O, 1925-1928-ci illərdə "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi kimi şərəfli bir vəzifəni yerinə yetirmiş, 1928-ci ildən başlayaraq bir müddət Naxçıvan partiya-sovet məktəblərində ölkəşünaslıq dərsləri üzrə müəllimlik etmiş, 1930-1945-ci illərdə isə Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru işləmişdir" [90, s. 75]. Tanınmış ziyalı M.Mirheydərzadənin Naxçıvanın, Şərurun, Ordubadın və Culfanın tarixi,



Məminə xatın türbəsinin XIX əsr görünüşü.

etnoqrafiyası, coğrafiyası və arxeologiyasına dair tədqiqatları hesabat, yaxud da "səyahət" adlandırılsa da, real elmi axtarışları və zəngin məlumatları əks etdirən qiymətli diyarşünaslıq tədqiqatları kimi mühüm əhəmiyyətə malikdir. Onun bir çox məqalələri "Azərbaycanı öyrənmə yolu" jurnalında və "Şərq qapısı" qəzetində çap olunmuşdur. Mirbağır Mirheydərzadənin Naxçıvandakı Mömінə xatın məqbərəsi haqqındakı araşdırmaları böyük memar Əcəmi Naxçıvaninin bu dahiyanə əsəri haqqında aydın elmi təsəvvür yaratmağa xidmət edir.

"Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin 13 may 1928-ci il tarixli iclasında "Şərur dairəsinə səyahət haqqında" etdiyi məruzə Mirbağır Mirheydərzadənin tarixə və coğrafiyaya dair geniş dünyagörüşə və zəngin məlumatlara malik olduğunu göstərir. Məruzədə Şərur bölgəsinin tarixi coğrafiyasına dair yerli əhalidən toplanmış məlumatlar vardır. Məsələn: "Şərur dairəsində ən böyük və məşhur çay Arpa çayıdır. Bu çay qədim zamanlarda 3 qola ayrılmışdır: 1.Quşçubasar. 2. Löhməbasar. 3.Əladdinbasar.

...Qıvraq kəndi. Asari-ətiqədən kəndin Sarı torpaq kövşəni, Araz çayı yaxınlığında "Qarapirim" adında bir yer vardır. Burada köhnə qəbiristanlıq yeri olub. Qəbiristanlıqda qoç daşlar vardır. Üzərində ilan şəkli qazılmış yenə bir daş vardır.

...Kəndin xalqı ("camaatı" mənasında – ***red.***) ümumiyyətlə, Kəngərli tayfasındandır. Əhalisi türk olub, əkinçiliklə iştiğal edirlər" [90, s. 76-77].

"Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"ndə Etnoqrafiya, türkoloji, tarix və ədəbiyyat bölməsinə rəhbərlik edən Şeyx Məhəmməd Rəsizadə Şərur bölgəsindən 76 bayatı nümunəsi toplayıb təqdim etmişdir. Eyni zamanda, o, Baş Noraşen kəndindəki Nadirxanlı və Səfibəyli tayfaları haqqında da məlumatlar əldə etmiş, Şahtaxtı kəndindəki "Gavur qalası"nın, buradan tapılmış arxeoloji-etnoqrafik materialların tarixini və mahiyyətini izah etməyə çalışmışdır. Şeyx Məhəmməd Rəsizadənin Şahtaxtı kəndindəki "Şah arxı" barəsində məlumatları da diqqəti cəlb edir: "Həmin arx Şərurun Arpa çayından ayrılıb Şangireydən (kanal adıdır – ***red.***) Şahtaxtıda Böyük düzün şimal tərəflərini suvarırmış [6, s. 365].

"Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti" diyarın elmi cəhətdən öyrənilməsi işinə Rusiya alimlərini də cəlb etmişdir. Bu təşəbbüs Naxçıvanın tarixinin arxeoloji materiallar əsasında tədqiq edilməsində mühüm əhəmiyyətə malik olmuşdur.

Bununla Naxçıvanı arxeoloji cəhətdən elmi şəkildə öyrənməyin möhkəm əsasları yaradılmışdır. Böyük ənənələri olan Rusiya arxeoloqları ilə birlikdə çalışan azərbaycanlı tədqiqatçıların formalaşmasında da həmin dəvət olunmuş ekspedisiyalardakı birgə iş mühüm əhəmiyyət kəsb etmişdir. Doğrudur, Naxçıvan diyarının arxeoloji cəhətdən öyrənilməsi işinə XIX əsrdə də rast gəlinir. Məsələn, Naxçıvanda sərhəd qoşunlarında süvari dəstənin komandiri kimi xidmət etmiş rotmistr N.V.Fyodorov hələ 1895-ci ildə Nehrəm kəndi yaxınlığındakı Qızılburun nekropolunda arxeoloji qazıntı işləri aparmış və ilk dəfə olaraq buradakı məbədi aşkar

etmişdi. Lakin bütövlükdə Qızılburun abidəsi 1909-cu ildə tanınmış rus tarixçisi Aleksandr Andreyeviç Spitsının bu abidə haqqında "Bir neçə Zaqafqaziya qəbirləri" adlı məqaləsi ictimaiyyətə çatdırıldıqdan sonra elm aləminə bəlli olmuşdu.

"Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin dəvəti əsasında 1926-cı ilin iyun ayında professor V.M.Sısoyevin rəhbərliyi ilə Naxçıvanda fəaliyyət göstərmiş ekspedisiya qrupu Xaraba Gilan ərazisində qazıntı işləri aparmış, abidənin "mövqeyi-coğrafiyasını" öyrənmiş, adının etimologiyasına dair mülahizələri dəqiqləşdirmişdir. Əldə edilmiş materiallardan Xaraba Gilanın "hansı əsrə, hansı qövmün müddətinə mənsub olmağı haqqında" qənaətlər formalaşdırılmışdır. V.M.Sısoyev 1927-ci ildə də Azərbaycan Arxeologiya Komitəsinin xətti ilə Naxçıvan Muxtar Respublikası üzrə elmi ekspedisiyaya rəhbərlik etmişdir. Bu dəfə diyarın demək olar ki, əsas bölgələrində geniş tədqiqatlar aparılmışdır. Nəticədə 1928-ci ildə V.M.Sısoyevin hesabatı "Naxçıvan SSR-in qədim tarixi" adı ilə Bakıda "Azkomissarlığın Xəbərləri" jurnalında çap olunmuş, ayrıca buraxılış şəklində yayılmışdır. Bu, XX əsrdə Naxçıvana həsr edilmiş ilk kitabça kimi də mühüm əhəmiyyətə malikdir. Hesabatda Xaraba Gilandan başqa, muxtar respublikanın ayrı-ayrı yerləri ilə yanaşı, Naxçıvan şəhərinin tarixinə dair də qiymətli məlumatlar vardır. Professor V.M.Sısoyevin Naxçıvan şəhərinin tarixinin Nuh peyğəmbərin adı ilə bağlı olduğunu iddia edən aşağıdakı mülahizələri kitabçada öz əksini tapmışdır: "Naxçıvan və Naxçıvan SSR-in tarixi çox mürəkkəbdir. Tarixçilər belə hesab edirlər ki, Naxçıvanın əsası eradan əvvəl 1539-cu ildə qoyulmuşdur. Lakin xalq rəvayətlərində Naxçıvanın əsasının qoyulması şəhərdə qəbri bizə göstərilən bəşəriyyətin ulu babası və əcdadı Nuhun fəaliyyəti ilə əlaqələndirilir. Naxçıvan şübhəsiz ki, çox qədim şəhərdir və əsası bizim eradan əvvəl, bəlkə də xeyli əvvəl qoyulmuşdur" [206, s. 87-115].

Eyni zamanda, "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin təşəbbüsü ilə 1926-cı ilin sentyabr ayında Leninqraddan dəvət olunmuş "rus arxeologiyasında yeni istiqamətin ideoloqu" Aleksandr Aleksandroviç Millerin iştirakı ilə Qırılburunda arxeoloji tədqiqatlar aparılmış, ekspedisiyanın işinin nəticələri xüsusi iclasda geniş müzakirə olunmuşdur. A.A.Millerin bu münasibətlə Leninqradda (indiki Sankt-Peterburq – ***red.***) çap etdirdiyi "1926-cı ilin yayında Naxçıvan Respublikasında arxeoloji tədqiqatlar" adlı məqaləsi Naxçıvan diyarının tarixinin qədimliyi və zənginliyi haqqında əhəmiyyətli elmi mənbədir.

Göründüyü kimi, "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti" diyarın Akademiyası funksiyasını yerinə yetirmişdir. Haqlı olaraq bu qurum elmi ədəbiyyatda "Naxçıvanı öyrənən elmi cəmiyyət" kimi təqdim olunmuşdur [90].

Beləliklə, XX əsrin 20-30-cu illərində bütövlükdə Azərbaycan üzrə olduğu kimi, Naxçıvanda da elmi fikir əsasən tarix-diyarşünaslıq istiqamətində inkişaf etmişdir. Bu proses 1937-ci ilin repressiya dalğası ilə dayanmalı olmuşdur.

Mətbuat. Naxçıvan ziyalıları XIX əsrin ikinci yarısından etibarən Azərbaycan,

Rusiya və Şərq mətbuatında iştirak etmişlər. Naxçıvan ziyalılarının mətbuatla əlaqələrinin yaranması və genişlənməsi regionda milli maarifçilik hərəkatının inkişafına müsbət təsir göstərmişdir. Yerli ziyalıların təşəbbüsü ilə dünyanın müxtəlif yerlərindən alınan "Tərcüman" (Baxçasaray), "Həblülmətin" (Kəlküttə), "Sürəyya", "Pərvəriş" (Qahirə), "Əxtər" (Tehran), "Новое обозрение" (Peterburq), "Кавказ" (Tiflis) və sair mətbuat orqanları Naxçıvan maarifçiləri arasında geniş şəkildə oxunub müzakirə olunmuşdur. Qeyd edildiyi kimi, "Naxçıvanda müxtəlif qəzetlərin xüsusi təmsilçilərinin müəyyənləşdirilməsi mətbuat orqanları ilə əməkdaşlığın və əlaqələrin yaranmasına səbəb olmuşdur. Qurbanəli Şərifzadənin "Həblülmətin", Əliməmməd Xəlilovun "Кавказ", Eynəli Sultanovun "Новое обозрение", Məhəmməd Tağı Sidqinin, Paşa ağa Sultanovun "Tərcüman" qəzetlərinin bölgə üzrə daimi müvəkkili vəzifəsini daşımaları abunəçilərin sayca artması ilə bərabər, həm də adıçəkilən qəzetlərdə Naxçıvana dair xəbərlərin, məlumatların dərc olunmasına şərait yaratmışdır" [80, s. 220-231]. Axtarışlar göstərir ki, "Əkinçi" qəzeti də Naxçıvanda alınıb oxunmuşdur. Mətbuatla əlaqələrin genişlənməsində Məhəmməd ağa Şahtaxtlının nəşr etdirdiyi "Şərqi-Rus" qəzeti mühüm rol oynamışdır. Cəlil Məmmədquluzadənin Baş redaktoru olduğu "Molla Nəsrəddin" jurnalında da Naxçıvanın əhli-qələmləri fəal iştirak etmişlər. Bütün bunlarla bərabər, Naxçıvanda ilk mətbuat orqanı yalnız XX əsrin ikinci onilliyində yaradılmışdır. Belə ki, 1 noyabr 1921-ci ildə Naxçıvan Sosialist Şura Cümhuriyyətinin Cavanlar İttifaqının Ölkə Komitəsinin orqanı olan "Cavanlar həyatı" qəzetinin nəşrə başlaması ilə burada qəzetçilik işinin təməli qoyulmuşdur. "Cavanlar həyatı" qəzetində Naxçıvan diyarında baş verən ictimai proseslərə dair məlumatlar öz əksini tapmış, hətta "Cocuq həftəsi" kimi mədəni hadisələr haqqında xəbərlərə də yer ayrılmışdır. "Cavanlar həyatı" qəzetinin redaktorunun Həmid Mahmudov adında bir şəxs olduğu müəyyənləşdirilmişdir. Vərəqə kimi çap olunan "Cavanlar həyatı" qəzeti cəmi iki aya yaxın müddət ərzində fəaliyyət göstərmişdir. Bundan sonra 1921-ci ilin dekabr ayından etibarən Naxçıvanda "Füqəra səsi" adlı yeni bir qəzet çap olunmuşdur. Mətbuat tarixçiləri "Füqəra səsi" qəzetini "Cavanlar həyatı"nın davamı olan mətbuat orqanı hesab edirlər. Hər ikisi həftədə bir dəfə çap olunan bu qəzetlərin fərqi yalnız hansı rəsmi təşkilat tərəfindən təsis edilməsi ilə əlaqədar idi. Belə ki, "Cavanlar həyatı" adından da göründüyü kimi, Naxçıvan Gənclər təşkilatının orqanı olaraq çap edilmişdir. "Füqəra səsi" qəzeti isə Naxçıvan Ölkə Komitəsinin, Naxçıvan İctimai Şura Cümhuriyyətinin, Mərkəzi İcraiyyə Komitəsinin rəsmi mətbuat orqanı idi. Cəmi bir neçə sayı çap olunan qəzetin indiyədək heç bir nüsxəsi əldə edilməmişdir. "Füqəra səsi" haqqındakı məlumatlar "Şərq qapısı" qəzetinin ilk illərində, yubiley nömrələrində verilmiş materiallar və qocaman jurnalistlərin xatirələri əsasında formalaşdırılmışdır.

Naxçıvanda mükəmməl, əsaslı və davamlı şəkildə nəşr edilən mətbuat orqanı "Şərq qapısı" qəzetidir. "Cavanlar həyatı" və "Füqəra səsi" qəzetləri

Naxçıvanda qəzetçilik işinin ilk məşqlərini, təməlini təşkil edir. "Şərq qapısı" isə uzun illər fəaliyyət göstərib, öz məktəbini yaratmış mətbuat orqanıdır. Bu qəzet 1922-ci ilin aprel ayından etibarən kiçik fasilələrlə bu günədək fəaliyyətini davam etdirməkdədir. "Şərq qapısı" qəzeti Naxçıvan Xalq Komissarlar Şurasının sədri Həmid Sultanovun köməyi ilə nəşrə başlamışdır. Bu qəzetə keçən əsrin 20-30-cu illərində Həmid Mahmudov, Əhməd Haşımov, Həsən Əlizadə, Əvəz Sadıq, Abbas Gülməmmədov və başqaları redaktorluq etmişlər. Otuzuncu illərin axırlarında ölkədə ictimai-siyasi hadisələrin gərginliyi ilə əlaqədar olaraq "Şərq qapısı" qəzetinin redaktorları tez-tez dəyişməli olmuşdur. Tədqiqatçılar da belə hesab edir ki, "Şərq qapısı" ilə bağlı öyrəniləsi, qaranlıq qalan məqamlardan biri də 1937-1938-ci illərlə bağlıdır. Bu dövrdə ölkədə baş qaldıran repressiyalar dalğası bu qəzetin redaksiyasından da yan ötməyib. Məsələn, 1937-ci ilin 19 fevral tarixindən ilin sonunadək qəzetə 5 nəfər redaktorluq edib: Hüseyn Mahmudov, Şirəli Şirəliyev, Ə.Hacızadə, Xəlil Əminov, Musa İsmayılov. Bundan başqa, Azərbaycanın xalq yazıçısı Əli Vəliyev 1933-1935-ci illərdə "Şərq qapısı"nın redaktoru vəzifəsində çalışmış və qəzetin ictimai təsir imkanlarını, vətəndaşlıq missiyasını artıran ciddi və kəsərli yazılar çap etmişdir. Görkəmli ədib və ictimai xadim Mirzə İbrahimov da 1933-1934-cü illərdə Naxçıvanda çıxan "Sürət" adlı qəzetin redaktoru kimi fəaliyyət göstərmişdir. Xalq yazıçısı Mirzə İbrahimovun və onunla birlikdə Naxçıvanda işləmiş müasirlərinin xatirələrindən aydın olur ki, "Sürət" qəzeti Naxçıvan MSSR Maşın-Traktor Stansiyası siyasi şöbəsinin orqanı olmuş, ictimai proseslərin işıqlandırılmasına daha çox diqqət yetirmişdir. Bu dövr Mirzə İbrahimovun həyat təcrübəsi baxımından əhəmiyyətli olmuşdur. Vaxtilə Mirzə İbrahimov dərin səmimiyyətlə etiraf etmişdi ki, "siyasi şöbədəki iş məni xalqın həyatı və mübarizəsi ilə canlı surətdə bağladı. Mənə elə şey verdi ki, onu heç bir kitabdan öyrənmək olmazdı. Mən canlı insanları, onların gərgin əmək, həyəcan və iztirablarla dolu gündəlik həyatını gördüm, o dövrdə kənddəki qızğın sinfi mübarizənin natural səhnələrini müşahidə etdim".

Mirzə İbrahimovun "Həyat" pyesi onun Naxçıvanda çalışdığı dövrün zəngin hadisələri əsasında yazılmışdır. Əli Vəliyevin "Budağın xatirələri" romanında da Naxçıvan hadisələrindən istifadə olunmuşdur. Romandakı "Araz sahilində" fəslindən Əli Vəliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrünə aid qiymətli məlumatları da öyrənmək olur.

XX əsrin otuzuncu illərində qısa müddət Naxçıvanda "Ədəbiyyat qəzeti" adlı mətbuat orqanı fəaliyyət göstərmişdir. "Ədəbiyyat qəzeti"nə Mirzə İbrahimovun redaktorluq etməsi qeyd olunur. Bununla belə, "Ədəbiyyat qəzeti"nin "Şərq qapısı"nın əlavəsi kimi çap edildiyi də ehtimal olunur. "Ədəbiyyat qəzeti" Naxçıvanda ədəbi mühitin inkişafına kömək etmişdir.

Naxçıvanda mətbuatın yaranması və formalaşması Azərbaycan mətbuatının inkişafı tarixinin üzvi hissəsidir. Muxtar respublika mətbuatı Azərbaycanın bu

regionunda gedən ictimai-siyasi prosesləri, baş verən ədəbi-mədəni hadisələri əks etdirmişdir. Mətbuatın ətrafında yaradıcı qüvvələrin yeni nəsli yetişib formalaşmışdır.

Ədəbiyyat. Keçən əsrin iyirmi-otuzuncu illərində Naxçıvanda ədəbiyyat əsasən iki istiqamətdə inkişaf etmişdir:

- XX əsrin əvvəllərindən yaradıcılığa başlayan ədəbi qüvvələr fəaliyyətlərini davam etdirmişlər.
- Yeni yaradıcı nəsil meydana çıxmışdır.

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərindən etibarən Naxçıvanda ədəbi fəaliyyətlərini davam etdirən yaradıcı qüvvələrin bir çoxu artıq Tiflisdə, yaxud da Bakıda yaşayıb-yaratmaqda idilər. Bununla belə, həmin nəslin nümayəndələrindən Naxçıvanda bədii yaradıcılıqlarını davam etdirənlər var idi. Onlardan Şeyx Məhəmməd Rəsizadə, Əli Məhbus, Hüseyn Baqi və başqalarını göstərmək mümkündür. Naxçıvanda müəllimliklə, maarifçilik fəaliyyəti ilə məşğul olan Məhəmməd Rəsizadənin yaradıcılığında həm klassik qəzəl-qəsidə ədəbiyyatı nümunələrinə rast gəlinir, həm də yeni maarifçi ideyalar şeirə çevrilirdi. Hüseyn Cavidin böyük qardaşı olan Məhəmməd Rəsizadənin (1878-1939) yaradıcılığında romantik meyillər az nəzərə çarpır. Yeni quruluşu qəbul etməməyin çarəsizliyini dərindən başa düşən Məhəmməd Rəsizadə hətta kolxoz quruluşu haqqında şeir də yazmış, "səf-səf düzülən pambıq kollarını əkib becərən insanların qollarını", "əl-qol, ya polad", "sərv, ya sümşad" – deyə vəsf etmişdir, "böhranı söndürməyə qan dəryası" lazım gələcəyini hiss edən Şeyx Məhəmməd Rəsizadə şeirdə yeni quruluşu təbliğ etməyə bilməmişdi:

Ey sosializm ölkəsində ziya saçan qüvvəmiz!
Ey cəhalət cəbhəsinə hücum yapan qüvvəmiz!
…layiqdir ki, fəxr edəsən əməyinlə cahana
Sən eylə bir mühəndissən, yaparsan böyük bina [7, s. 355].

Bu illərdə Naxçıvanda yaşayıb-yaratmış Əli Məhbusun (1844-1933) şeirləri realist üslubda yazılmışdır. Onun şeirlərində zamana və insanlara ünvanlanmış tənqidi fikirlər üstünlük təşkil edir. Əli Məhbusun həyatı maddi sıxıntılar içində keçmişdir. O, uşaq yaşlarında atasını itirmiş, əsasən bağçılıqla məşğul olmuş, usta yanında şagirdlik etmiş, bənnalıq öyrənmiş, ağır güzəran keçirmişdir.

Əli Məhbus XX əsrin əvvəllərində bədii yaradıcılığa başlamışdır. O, daha çox Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, bacısı oğlu Cəlil Məmməd - quluzadənin başçılıq etdiyi "Molla Nəsrəddin" məktəbindən təsirlənmiş və tənqidi-satirik şeirləri ilə diqqəti cəlb etmişdir. Əli Məhbusun XX əsrin başlanğıc illərində yazdığı millətlərarası münasibətlərə həsr olunmuş "Nədir" rədifli satira və "Qobustan" şeiri, "Səbr et" satirası ciddi ictimai məzmunu ilə yanaşı, özünəməxsus sənətkarlıq xüsusiyyətləri ilə də seçilir. Onun satirik şeirlərində Mirzə Ələkbər Sabirin satiralarının müəyyən təsiri hiss olunur. Bu cəhətdən bəzi tədqiqatçıların Əli Məhbusun satiraları haqqında dediyi "Sabiri təqlid etməsə

də, onun şeirlərinin ideya-estetik qayəsi mövqeyindən çıxış edirdi" [104, s. 27] – qənaəti gerçəkliyi ifadə edir. Hətta görkəmli ədəbiyyatşünas Əziz Şərif yaradıcılığının xarakterinə görə Əli Məhbusu "mollanəsrəddinçilərdən biri" [69, s. 29] adlandırmışdır.

Ümumiyyətlə, Əli Məhbusun iyirmidən çox şeiri, yarımçıq qalmış xatirələri, Cəlil Məmmədquluzadə və onun ailə üzvləri ilə məktubları vardır [104, s. 8-9]. Bu sadə zəhmət adamının şeirlərində güclü vətənpərvərlik ideyaları tərənnüm olunmuşdur. Xüsusən, XX əsrin əvvəllərindəki mürəkkəb hərbi-siyasi çəkişmələr nəticəsində "xak ilə yeksan" olmuş vətənin istiqbalı onun milli düşüncəsinin başlıca ruhunu müəyyən etmişdir:

Hər baxanda mən sənə, bağrım olur qan, ey Vətən,
Olmusan, ayə, neçün sən belə viran, ey Vətən?!
Olmayıb bir ya səlamət, hər yerin viranədir,
Od vurublar sərbəsər, eyləyiblər suzan, ey Vətən!
Yoxdu bir abad yerin, səndə görülən şad olanı,
Qəsri-alilər olub xak ilə yeksan, ey Vətən! [104, s. 83].

Dövrün bütün çətinliklərini aydın görən Əli Məhbus nicat yolunu cəhalətlə mübarizədə, maarifçilik ideyalarının həyata keçirilməsində görmüşdür. Əli Məhbusun "Mövhumatla mübarizə", "Ələ düşməz", "Maarif", "Yeni türk əlifbası" və sair şeirlərində cəhalətdən şikayət və maarifə dəvət notları diqqət mərkəzinə çəkilmişdir. Onun fikrincə, "mənbəyi-ürfan", "bağı-gülüstan", "dərdlərə dərman" olan elm və maarif, habelə savadlanma üçün zəruriliyi vacib sayılan yeni latın əlifbası ictimai-mədəni tərəqqinin əsasında dayanır:

Gülzari-maarifdə gedib elmilə təhsil,
Hərçəndi əziyyətdi, atam, qədrini sən bil,
Qəflət eləmə, düşməz ələ bir belə mənzil,
Axırda bilərsən neçə imkandı maarif,
Alimlər üçün bağı-gülüstandı maarif [104, s. 109].

Əli Məhbusun maarifçi fikirləri böyük maarifpərvər ədib Məhəmməd Tağı Sidqinin ideyalarının davamı, mollanəsrəddinçilərin mübarizəsinin əsas hədəflərinin ifadəsi kimi səslənir.

Hüseyn Nadim Naxçıvaninin (1882-1927) şeirlərində klassik ədəbi ənənə çərçivəsində yeniləşmə, maarifçiliyə dəvət, milli ideyalar əks etdirilmişdir. O, hətta şeirlərindən birində özünü "millət cününu" adlandırmışdır. Onun şeirlərinin əksəriyyətini təşkil edən qəzəllərində Məhəmməd Füzulinin təsiri hiss olunur. Lakin Hüseyn Nadim Naxçıvani qəzəl janrında yazdığı şeirlərində "yandır xalqımla məni nari-cəhənnəmdə, razıyam. Ancaq vətən deyilən o mələksimadan ayırma" [104, s. 52] kimi ictimai mətləbləri də ifadə etməyi bacarmışdır.

XX əsrin əvvəllərində Naxçıvanda yeni ədəbi nəsil də yetişib formalaşmışdır. Naxçıvan Muxtar Respublikasında 1928-ci ildə "Qızıl qələmlər" cəmiyyətinin ya-

radılması cavan ədəbiyyat həvəskarlarının inkişafına təkan vermişdir. Əyyub Abbasov Naxçıvanda "Qızıl qələmlər" Ədəbiyyat Cəmiyyətinə rəhbərlik etmişdir. Gənc yazıçılardan Müzəffər Nəsirli, Əbülfəz Abbasquliyev, Əsgər Kəngərli, Səkinə Rzalı, Əbil Yusifzadə, Nemət Hüseynov və Hüseyn Əzimin "Qızıl qələmlər"də təmsil olmaları yeni nəsil ədəbiyyat həvəskarlarının bu cəmiyyətin ətrafında cəmləşməsinə müsbət təsir göstərmişdir. "Qızıl qələmlər" cəmiyyəti əslində yeni proletar ədəbiyyatını formalaşdırmaq, istiqamətləndirmək üçün fəaliyyətini genişləndirmişdir.

Bu, Azərbaycan Xalq Cümhuriyyəti dövründə qısa müddət ərzində fəaliyyət göstərmiş "Yaşıl qələmlər" ədəbi cəmiyyətinin əksinə olan, bolşevik ideyalarına yol açan ədəbiyyat təşkilatı kimi düşünülmüşdü. "Qızıl qələmlər" cəmiyyəti öz işini əsasən həmin istiqamətdə qurmuşdu. Bununla belə, Qızıl qələmçilərin sıralarında böyük ədəbiyyata can atan yeni ədəbi nəsil də meydana gəlmişdi. Müzəffər Nəsirli, Əyyub Abbasov, Cəfər Bağır, Əlirza Rəsizadə, Məmmədəli Tarverdiyev, Əvəz Sadıq, Abbas Gülməmmədov, Əbdül Kazım, Bayram Mərdanlı və başqaları bu illərdə yaradıcılığa başlamışlar. "Qızıl qələmlər"in fonunda ədəbiyyat meydanına gələn, sovet ideologiyası ilə yanaşı, həm də insani münasibətləri əks etdirən yaradıcı gənc nəsil ədəbi mühitdə özünü nəzərə çarpdırmışdır. Əyyub Abbasovun "Zəngəzur" romanında sinfi mübarizə fonunda olsa da mürəkkəb tarixi gedişatın real hadisələri və həyati obrazları canlandırılmışdır. Onun "Mübarizə" poeması da həmin dövr üçün səciyyəvi olan "ələmdən nəşəyə" motivi üstündə köklənmişdir. Müzəffər Nəsirlinin şeirlərində də yeni cəmiyyətin idealları əsasında müasir həyata çağırış notları ifadə olunmuşdur. Onun "Azadlıq günəşi" pyesi sovet hakimiyyətinin qələbəsinə və sosialist ideologiyasının həyata keçirilməsi istiqamətində aparılan işlərə həsr edilmişdir. Cavan qələm sahibinin "Ağ qızıl", "İntiqam" pyesləri də bolşevik ruhunda yazılmışdır. Sovet dövlətinin sərt tədbirlərinin, qanlı qanunlarının cəmiyyətdə əsas rol oynadığı bir zamanda gənc yazıçılardan bundan artıq xüsusi əks mövqe gözləmək çətin olardı. Yeni ədəbiyyat proletar ruhu əsasında formalaşmaqda idi. Bununla belə, cavan ədəbi nəsil klassik ədəbiyyatın qəlibləşmiş formalarından çıxmış, yeni janr axtarışlarına meyil göstərmişdir.

Həqiqətən də Süleyman Rüstəmin iştirakı ilə Naxçıvanda yaradılan "Qızıl qələmlər" ədəbi birliyi qısa müddətdə Azərbaycan Yazıçılar Cəmiyyətinin qabaqcıl dəstələrindən biri səviyyəsinə yüksəlmişdir [81, s. 53]. Nəticədə "qızıl qələmçi" olsalar da gənc nəsil məzmunca sosialist, formaca yeniləşən ədəbiyyatın yaradılması istiqamətində ilk addımlarını atmışdır.

Beləliklə, Naxçıvan Muxtar Respublikasında ədəbiyyat sahəsində təşkilatlanmanın əsası qoyulmuşdur. Bundan sonra Naxçıvanda Proletar Yazıçıları Cəmiyyəti fəaliyyətini davam etdirmişdir. Müzəffər Nəsirli Naxçıvan Proletar Yazıçılar Cəmiyyətinin katibi kimi gənc ədəbi qüvvələrin yaradıcılıq fəaliyyətini

istiqamətləndirmişdir. Lakin Sovet İKP MK-nin 1932-ci ildə qəbul etdiyi "Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında"kı qərarından sonra ölkə üzrə ədəbiyyat cəmiyyətləri yenidən təşkilatlanmışdır. Bununla əlaqədar olaraq Naxçıvan Şura Yazıçılar İttifaqı təşkil olunmuşdur. Mirzə İbrahimov Naxçıvan Şura Yazıçılar İttifaqının sədri, Əbdül Kazım isə katibi seçilmişdir. Hələ "Qızıl qələmlər" dövründən tanınan cavan ədəbi qüvvələrdən Qurban Qurbanov, Hüseyn Baqi, Qurban Həsənov və "Şərq qapısı" qəzetinin redaktoru Əli Vəliyev Naxçıvan Şura Yazıçılar İttifaqının üzvləri kimi fəaliyyət göstərmişlər. Mirzə İbrahimov, Əli Vəliyev və Hüseyn Baqinin Naxçıvandan Azərbaycan Sovet Yazıçılarının birinci qurultayına nümayəndə seçilməsi qərara alınmışdır. Eyni zamanda, Naxçıvan Şura Yazıçılar İttifaqının Ordubad şöbəsi yaradılmış və həmin şöbəyə Hüseyn Baqi rəhbərlik etmişdir.

Bu illərdə Naxçıvanda ədəbiyyatın inkişafi üzrə bir sıra əhəmiyyətli hadisələr baş vermişdir. Naxçıvan Muxtar Respublikasında yaşayıb-yaradan yaradıcı qüvvələrin ilk kitabları meydana çıxmışdır. Mirzə İbrahimovun "Nəhənglər ölkəsi", "Həyat naminə" kitabları, Əyyub Abbasovun "Mübarizə" adlı şeirlər toplusu da bu mərhələnin ədəbi uğurlarındandır. Mirzə İbrahimovun məşhur "Həyat" pyesi Naxçıvan təəssüratları əsasında yazılmış və uzun müddət Azərbaycan səhnəsində, o cümlədən Naxçıvanda böyük uğurla tamaşaya qoyulmuşdur. Ümumiyyətlə, Naxçıvanda yerli müəlliflərin dramaturgiyaya marağı artmışdır. Naxçıvan Dövlət Dram Teatrının, "Telman" adına işçi klubunda Dram dərnəyinin fəaliyyət göstərməsi muxtar respublikada yaşayan yaradıcı qüvvələrin dramaturgiyaya həvəslənməsində böyük rol oynamışdır. Müzəffər Nəsirlinin "Azadlıq günəşi", "Ağ qızıl", "İntiqam", "Qanlı qanunlar" pyesləri, Nağı Nağıyevin "Səadət", Qurban Qurbanovun "Qurtuluş" dramları Naxçıvan teatrında uğurla tamaşaya qoyulmuşdur.

Bundan başqa, bədii nəsr sahəsində də inkişaf müşahidə olunmuşdur. Lətif Hüseynzadə "Gülər", "Canilərə ölüm", Əvəz Sadıq "Sabahı yaradanlar", Qasım Tağıyev "Kolxoz həyatı", Məmməd İsmayılov "Bizim gənclər", Hüseyn Hüseynov "Yüksəliş" hekayələrini, Məmmədəli Tarverdiyev ilk hekayələrini yazıb Azərbaycan mətbuatında və "Şərq qapısı" qəzetində çap etdirmişlər.

Ən böyük canlanma şeir sahəsində baş vermişdir. XX əsrin əvvəllərində Müzəffər Nəsirli, Hüseyn Əzim, Əbdül Kazım, Məhəmməd Rəsizadə, Hüseyn Nadim Naxçıvani və başqaları klassik və müasir üslubda yadda qalan şeirlər yazmışlar. Bütövlükdə mövcud ideoloji çətinliklərə baxmayaraq, 20-30-cu illərdə Naxçıvan Muxtar Respublikasının ədəbi mühitində mühüm bir canlanma əmələ gəlmişdir. Bu proses XX əsrin otuzuncu illərindən sonra dayanmışdır.

Teatr. Naxçıvan teatrı XX yüzilliyin 20-30-cu illərində böyük inkişaf yolu keçmişdir. Sovet hakimiyyətinin yenicə yarandığı bu illərdə teatr savadsızlığa, dini xurafata, çadraya, geriliyə qarşı mübarizə aparır. 1921-ci ildə teatrın qadınlar truppası tərəfindən Ü.Hacıbəyovun "Arşın mal alan" komediyası tamaşaya qoyulur

və qadınlara göstərilir. Tamaşada hətta həmin vaxt Naxçıvanın Fövqəladə Komissarı işləyən B.Vəlibəyovun arvadı Xavər xanım Asya, Əliqulu Qəmküsarın qızı Qəmər Nəcəfova Telli rollarında çıxış edirdi. Bunun ardınca N.Qoqolun "Evlənmə", Ü.Hacıbəyovun "Məşədi İbad", M.F.Axundovun "Hacı Qara", həmçinin "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib" və s. əsərləri tamaşaya qoyan Naxçıvan teatrı 21 yanvar 1922-ci ildə Naxçıvan Türk Dram Teatrı, 1923-cü ildə isə Dövlət Dram Teatrı adlandırılır. Həmçinin, Naxçıvanda teatr işlərini qaydaya salmaq və idarə etmək məqsədi ilə Naxçıvan teatrı 1922-ci ildə dövlət təsisatına keçir. Xalq Maarif Komissarlığı tərəfindən 8 fevral 1922-ci ildə Sənayeyi-nəfisə (Dövləti teatrolar direktoriyası) şöbəsi yaradılır. Naxçıvan Xalq Maarif Komissarlığına bu teatrı müntəzəm şəklə salmaq və maddi cəhətdən təmin edərək daimi truppa saxlamaq və dekorasiya gətirmək üçün lazımi vəsait buraxılır. Sovet hakimiyyəti illərində, xüsusilə dövlət teatrı statusu aldıqdan sonra Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinə "din əleyhinə təbliğat tamaşası" damğası vuraraq onun Azərbaycanın bütün teatrlarının repertuarına daxil edilməsi tövsiyə olunur, bəzi hallarda isə tələb edilirdi. Ona görə də 1923-cü ildən başlayaraq bu tamaşa Naxçıvan teatrında müxtəlif quruluşlarda tamaşaya qoyulmuşdur. Həmin vaxtlar teatr kollektivinin tamaşaya hazırladığı əsas əsərləri dörd qismə ayırmaq olar: 1). Klassik komediya, faciə və dram əsərləri; 2). Musiqili əsərlər; 3). Müasir əsərlər; 4). Tərcümə əsərləri.

Görkəmli aktyor Abbas Mirzə Şərifzadə 1923-cü ilin 26 iyununda Mərziyə xanım Davudova, Panfiliya Tanailidi və İsmət xanımla Naxçıvana qastrola gəlir. Bir aydan artıq davam edən qastrol günlərində A.Şərifzadə yerli aktyorların iştirakı ilə H.Cavidin "İblis", "Şeyx Sənan", C.Cabbarlının "Aydın", Ü.Hacıbəyovun "Arşın mal alan" əsərlərini tamaşaya qoyur. Burada ilk dəfə tamaşaya qoyulan "Şeyx Sənan" əsərində Şeyx Sənanı Abbas Mirzə, Xumarı Mərziyə xanım, Dərvişi Həsən Səfərli, Platonu Mir Həsən Mirişli, Kor Ərəbi Səməd Mövləvi, Ninanı Panfiliya Tanailidi və s. oynamışlar. H.Cavidin "İblis" əsərinin 18 iyul 1923-cü ildə A.Şərifzadənin rejissorluğu ilə tamaşaya qoyulmasıyla qastrollar başa çatır. Naxçıvan teatrının inkişafında xidmətlərinə görə A.Şərifzadə qızıl qol saatı ilə mükafatlandırılır [105, s. 99-102].

1924-cü ildə görkəmli teatr xadimi Kazım Ziyanın Naxçıvana gəlməsi də teatrın inkişafına müsbət təsir göstərir. Xalq Maarif Komissarlığının 20 may 1924-cü il tarixli əmri ilə teatra baş rejissor təyin edilən Kazım Ziya Naxçıvanda qısa müddət, cəmi 1 mövsüm işləməsinə baxmayaraq, teatrın repertuarının zənginləş-dirilməsi, teatra yeni qüvvələrin cəlb olunması sahəsində mühüm tədbirlər həyata keçirir. Həmçinin onun rəhbərliyi ilə Mcdlişvilinin "Qaçaq Kərəm" pyesi tamaşaya qoyulur [105, s. 105].

Dövlət təsisatına keçdikdən sonrakı 5 il ərzində teatr daha çox yaradıcılıq istiqamətində axtarışlar aparmış, kollektivin truppası müəyyən qədər formalaşmış, repertuar siyasətində nisbi aydınlıq yaranmış, sənət ocağının üslub prinsipinin

əsas estetik göstəriciləri müəyyənləşmişdi. 1925-ci ildən başlayaraq teatr yeni mövzu və forma axtarışlarının, özünün peşəkarlıq səciyyələrinin yüksəliş mərhələsinə qədəm qoydu. 1928-ci ildən başlayaraq yaradıcı heyət repertuarda tamaşanın say çoxluğunu keyfiyyət üstünlüyü ilə əvəzləmək sayəsində nailiyyətlər qazana bildi. Sevindirici hal o idi ki, axtarışlar səylə aparılırdı və buna görə də kollektivin zəif tamaşalarla müqayisədə uğurlu işləri daha çox idi.

Tiflis Türk Akademik Dram Teatrı 1924-cü ildə Naxçıvana qastrola gəlir. Teatrın aktyorlarından Səməd Mövləvinin, Nadirə xanımın, Hüseynovun iştirakı ilə Naxçıvan teatrında bir sıra tamaşalar hazırlanır. 1924-cü ildən sonra teatrda "Leyli və Məcnun", "Azadlıq günəşi", "Aydın", "Anamın kitabı", "Pəri cadu", "Oqtay Eloğlu", "Arşın mal alan" və s. tamaşalar oynanılır. 1920-ci illərin sonlarında (1926-1927-ci il mövsümündə) Tbilisi Dram Teatrından Səməd Mövləvinin Naxçıvan teatrına baş rejissor dəvət olunmasından sonra burada Azərbaycan müəllifləri ilə yanaşı, Avropa dramaturgiyasının bir sıra gözəl əsərləri, o cümlədən V.Şeksprin "Otello", "Hamlet", F.Şillerin "Qaçaqlar" və s. əsərlər də tamaşaya qoyulur.

1920-ci illərin sonlarında teatrın iş şəraitinin, maddi-texniki bazasının yaxşılaşdırılması sahəsində bir sıra işlər görülür, teatr təmir olunur, səhnə genişləndirilir, qrim otaqları yaradılır, qarderob, parik, rekvizit və butaforiya şeyləri qaydaya salınır. 1930-cu ildə Azərbaycan Dövlət Bədaye Teatrının Naxçıvana qastrola gəlməsi, 1931-ci ildə Sidqi Ruhullanın Naxçıvan teatrına direktor və baş rejissor təyin edilməsi teatrın inkişafında mühüm mərhələ təşkil edir. Bundan sonra teatrda bir sıra uğurlu tamaşalar hazırlanır. Bu tamaşalardan "Yaşar", "Sevil", "Almaz", "Həyat" və başqaları böyük əks-səda doğurur.

Görkəmli teatr xadimi Sidqi Ruhullanın teatrda işlədiyi müddətdə teatr böyük inkişaf yolu keçir, teatra gənc aktyorların (Əşrəf Rüstəmov, Əziz Hüseynov, Kazım Şeyxov, Rüxsarə Ağayeva, Həsən Ağayev, Naibə Rzayeva və s.) cəlb olunması güclənir, kollektiv muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir. Ən başlıcası isə aktyorların peşəkarlığı yüksəlir, ustalıqları artır. Nəticədə teatrın kollektivi dramatik əsərlərə cəsarətlə müraciət edir.

1936-cı ilin yayında Naxçıvana qastrola gələn A.Şərifzadə teatrda Hamlet, Şeyx Sənan, Oqtay, Aydın rollarında uğurla çıxış etdi. 1937-1938-ci il mövsümündə teatrda V.Şeksprin "Otello", C.Cabbarlının "Yaşar", "Od gəlini", C.Məmmədquluzadənin "Ölülər", M.F.Axundovun "Hacı Qara", M.İbrahimovun "Həyat" əsərləri tamaşaya qoyulur. Anadan olmasının 125 illiyi münasibəti ilə Naxçıvan Dövlət Dram Teatrına Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 26 dekabr 1938-ci il tarixli qərarı ilə M.F.Axundovun adı verildi. Teatrın kollektivi yaz əkin kompaniyası ilə əlaqədar bir sıra yerlərdə (Nehrəm, Cəhri, Qıvraq, Şərur, Cəlilkənd və s.) qastrolda olur, M.İbrahimovun "Həyat", Ü.Hacıbəyovun "Arşın mal alan" tamaşaları göstərilir [105, s. 139-141].

Naxçıvan Dövlət Dram Teatrının kollektivi 1939-40-cı illər mövsümündə S.Vurğunun "Vaqif", Ü.Hacıbəyovun "Ər və arvad", "Arşın mal alan", V.Şeksprin "Otello", S.Rüstəmin "Qaçaq Nəbi", Ə.Abbasovun "Azad" və s. əsərlərini səhnələşdirdi. 1939-cu il mövsümünün 21 oktyabrda Səməd Vurğunun "Vaqif" dramı ilə açılması Naxçıvan teatr mühitində mühüm hadisəyə çevrilir. Quruluşçu rejissoru Bakıdan dəvət olunan Həsən Əliyev, rəssamı Şəmil Qazıyev olan tamaşada İbrahim Həmzəyev, Səməd Mövləvi, Firuzə Əlixanova, Rüxsarə Ağayeva, Rza İsfəndiyarlı, İsa Musayev, Əyyub Haqverdiyev və s. görkəmli aktyorlar oynayırlar. Tamaşa çox uğurlu alınır. Ümumiyyətlə, bu dövrü Naxçıvan teatrının varlığı ərzində ən inkişaf etmiş dövr kimi xarakterizə etmək olar. Bu mövsümdə göstərilən 186 tamaşaya 23500-dən artıq tamaşaçı baxmışdır.

Yekun olaraq demək olar ki, XX yüzilliyin 20-30-cu illərində Naxçıvan teatrı böyük inkişaf yolu keçmişdir. Teatrın repertuarında Azərbaycan, rus və Qərbi Avropa klassiklərinin əsərləri mühüm yer tutmuşdur. Bu illərdə teatrda bir çox görkəmli aktyorlar (Səməd Mövləvi, İsa Musayev, Mirhəsən Mirişli, Xədicə Qazıyeva, İbrahim Həmzəyev, Firuzə Əlixanova və s.) yetişmiş, onlar teatrın inkişafında mühüm rol oynamışlar.

Təsviri sənət. Azərbaycanda, onun ardınca Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra incəsənətin digər sahələrində olduğu kimi, rəssamlıqda da müəyyən inkişaf başladı. Peşəkar rəssam Bəhruz Kəngərlinin həyatının son illəri sovet hakimiyyətinin ilk illərinə düşür. Sovet hakimiyyətinin qurulması ərəfəsində ermənilərin Naxçıvanda və ətraf yerlərdə törətdiyi qırğınlar, ətraf ərazilərdən Naxçıvana pənah gətirən qaçqınlar mövzusu ("Canfəda kəndindən qaçqın oğlan", "Avşar kəndindən qaçqın qız Gülsüm", "Qaçqın İmran çanta ilə" və s.), doğma diyarın mənzərələri ("Əshabi-Kəhf", "Ağrı", "Qızlar bulağı", "İlanlı", "Nəhəcir dağları" və s.), tarixi abidələri ("Nuhun qəbri", "İmamzadə", "Mömінə xatın türbəsi", "Şəhər məscidi", "Köhnə qala" və s.) Bəhruz Kəngərlinin bu dövr yaradıcılığında mühüm yer tutur.

Azərbaycan dəzgah rəssamlığının inkişafında mühüm xidmətləri olan Bəhruz Kəngərlinin "İlanlı dağ", "Aylı gecə", "Yamxana kəndinə yol", "Şəlalə", "Çinarlar" lövhələri zərif lirika ilə aşılanmışdır. Onun ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı nəticəsində doğma yurdundan didərgin düşmüş soydaşlarımızın portretləri silsiləsindən 1921-ci ildə çəkdiyi "Qaçqın qadın" portreti təkcə rəssamın yaradıcılığında deyil, həm də Azərbaycan boyakarlığında əhəmiyyətli yer tutur [172, s. 178-179].

Görkəmli rəssamın bəhs olunan dövrdəki əməyinin məhsulu olan portretlər də onun yaradıcılığında xüsusi mərhələ təşkil edir. Əsasən uşaq və qaçqınların portretlərindən ibarət olan bu rəsm əsərləri onun bədii irsində xüsusi yer tutur. Bu əsərləri təhlil edən tədqiqatçılar belə bir fikrə gəlmişlər ki, Bəhruz Kəngərlinin mənzərə və portret janrına gətirdiyi bəzi üslub və xüsusiyyətlər Azərbaycan incə-

sənəti, xüsusən də Naxçıvan rəssamlıq məktəbi üçün yeni bir yolun başlanğıcı idi [4, s. 261]. 1921-ci ildə Azərbaycanda açılan ilk böyük sərgidə Bəhruz Kəngərlinin 500-dən çox əsəri nümayiş etdirilmişdir [172, s. 84].

Ağır xəstəlikdən sonra 7 fevral 1922-ci ildə vəfat edən Bəhruz Kəngərli ömrünün sonlarına yaxın, 20-ci illərin əvvəllərində də 1912-ci ildən başladığı teatr rəssamlığı işini davam etdirmiş, 1920-1921-ci illərdə bir sıra tamaşalara bədii tərtibat vermişdir. Onun N.Vəzirovun "Müsibəti-Fəxrəddin" (1920), Ə.Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", "Ağa Məhəmməd Şah Qacar" (1920), Z.Hacıbəyovun "Evliykən subay" (1921), Ü.Hacıbəyovun "Məşədi İbad", "Əsli və Kərəm" (1921), "Arşın mal alan" (1922), N.Qoqolun "Evlənmə" (1921) və s. əsərlərinə verdiyi tərtibat çox uğurlu olmuşdur. Əsərləri R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Moskvada Dövlət Tarix Muzeyində və şəxsi kolleksiyalarda saxlanılır [3, s. 230-231].

Naxçıvanlı rəssamlardan 1929-cu ildə Bakı Rəssamlıq məktəbinin məzunu olmuş Şamil Qazıyevin yaradıcılığı bəhs olunan dövrdən başlayır. 1929-cu ildən etibarən Naxçıvan Pedaqoji Texnikumunda müəllim, "Kommunist" (Bakı) qəzetində rəssam, "Şərq qapısı" qəzetinin baş rəssamı, eyni zamanda C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamı işləyən Şamil Qazıyev bir sıra qrafik, etüd, natürmort, portret və s. əsərlər yaratmışdır. Onun 1931-ci ildə ərsəyə gətirdiyi "Çoban" portreti elə həmin il Tiflisdə keçirilən səyyar sərgidə nümayiş etdirilmişdir. Hazırda həmin əsər Moskvada Tretyakov qalereyasında saxlanılır [151, s. 333].

XX yüzilliyin 20-30-cu illərində Naxçıvanda boyakarlıq və qrafikanın müxtəlif janrlarında çalışan rəssamlardan biri də xalq rəssamı Hüseyn Əliyev (1917-1991) olmuşdur. Naxçıvanda dünyaya göz açan 1932-ci ildə Leninqrad Ümumrusiya Rəssamlıq Akademiyasının qrafika fakültəsini bitirən Hüseyn Əliyev sonrakı həyatını Bakıda davam etdirmiş, Rəssamlıq məktəbində müəllim işləmiş, "Molla Nəsrəddin" jurnalına karikaturalar çəkmiş, 50 ildən çox "Kommunist" qəzetində rəssam işləmişdir. Yüzlərlə portretin, mənzərənin müəllifi olan Hüseyn Əliyev "İlanlı dağ", "Urud qalası", "Əlincə qalası", "Göygöl", "Azıx mağarası", "Naxçıvan dağları", "Zəngəzur dağlarında" və s. bu kimi möhtəşəm əsərlərin müəllifidir [4, s. 261].

Naxçıvanlı rəssamlardan 1913-cü ildə Moskvada Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq məktəbinə daxil olmuş, ancaq müəyyən səbəblərdən təhsilini yarımçıq dayandırmış İbrahim Səfinin (1898-1983) yaradıcılığı diqqəti cəlb edir. Bədii yaradıcılığa erkən başlamış, 12 yaşında ikən "Araz balıqçıları" adlı ilk rəsmini çəkmişdir. 1923-cü ildə İstanbul Gözəl Sənətlər Akademiyasını bitirən İbrahim Səfi boyakarlığın müxtəlif janrlarında dəyərli əsərlər yaratmışdır. Onun fırçasının məhsulu olan "Mənzərə", "Qış mənzərəsi", "Qadın portreti", "Gəzərgi musiqiçi Hafizin portreti", "Portret" və s. əsərləri diqqəti xüsusilə cəlb edir. O, 1920-ci ildə

Türkiyədə keçirilən Avropa rəssamları müsabiqəsinin mükafatını almışdır. Rəssamın yaradıcılığının məhsulu olan bir çox əsərlər Azərbaycan Dövlət İncəsənət Muzeyində, Nizami adına Azərbaycan Ədəbiyyat Muzeyində, Türkiyənin muzeylərində və bir sıra şəxsi kolleksiyalarda saxlanılır [4, s. 262; 151, s. 259].

Musiqi. Keçən yüzilliyin 30-cu illərinin əvvəllərindən başlayaraq Naxçıvanda musiqi təhsili sistemi inkişaf etməyə başladı. Məhz bu dövrdə bölgənin mərkəzi Naxçıvan şəhərində, həmçinin bəzi şəhərlərdə kiçik həcmli xalq çalğı alətləri ansamblları və simfonik musiqi alətlərindən təşkil olunmuş orkestrlər yaradılırdı. Bununla yanaşı, qeyd etmək lazımdır ki, həmin vaxt nəfəsli musiqi alətləri üzrə yaradıcılıq daha da inkişaf edirdi. Məmməd Kəngərli 1930-cu ildə Naxçıvan şəhərindəki 1 №-li orta məktəbdə nəfəsli alətlər orkestri təşkil etmişdi. Bunun davamı olaraq 1937-1940-cı illərdə Naxçıvan Pedaqoji Texnikumunda da belə bir orkestr təşkil edilir. Bəhs olunan dövrdə nəfəsli orkestrlərin yaradılması prosesi genişlənir. Tahir Məmmədov 1939-cu ildə 3 №-li məktəbdə, Məmməd Məmmədov isə 1940-cı ildə Tibb məktəbində nəfəsli alətlərdən ibarət orkestrlər yaradırlar.

